

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir... Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyev öz ölkəsində və regionda böyük bir lider olduğunu sübut etmişdir. Bu hamı tərəfindən qəbul edilmiş bir həqiqətdir.

...Müstəqilliyin ilk günündən etibarən hər zaman, hər məsələdə Azərbaycanın yanında olan Türkiyə, bundan sonra da Azərbaycanın yanında olmaqda davam edəcəkdir. Ölkənin və mənim qəlbim hər zaman Azərbaycanla birlikdə döyünəcəkdir.

Süleyman Dəmirəl
Türkiyə Respublikasının Prezidenti
(1993-2000)

HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ

Altı cilddə

TÜRKİYƏ

İkinci kitab

Azərbaycan Respublikası Prezidentinin
...rəsinin
KİTABXANASI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2004-cü il tarixli 898 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

ÇAŞIOĞLU
2005

66.3(4Rus)
Ə-64

AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ VƏ NURLU XATİRƏSİNƏ İTHAF OLUNUR

Müəllif-tərtibçilər: ***Qaley Allahverdiyev***
XİN-in müşaviri,
filologiya elmləri doktoru

Vəhdət Sultan-zadə
XİN-in müşaviri

Məsləhətçi-rəyçi: ***Novruz Məmmədov***
Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri, Fövqəladə və Səlahiyyətli Səfir

Redaktoru: ***Mübariz Qurbanlı***
Milli Məclisin deputatı, tarix elmləri namizədi, dosent

"Tekfen Holding"*in qurucu rəhbərləri* ***Nihat Gökyiqitə, Necati Akçağlılara, Feyyaz Berkerə,*** *prezidenti* ***Erhan Önerə*** *və Azərbaycandakı təmsilçisi* ***Bataçar Baysala*** *"Heydər Əliyev və Şərq" kitabının I-V cildlərinin çapa hazırlanmasında göstərdikləri əvəzsiz köməklik üçün dərin minnətdarlığımızı bildiririk.*

Müəlliflər

H 0803010100-982
082-05

© "Çaşıoğlu" nəşriyyatı, 2003
© "Çaşıoğlu" nəşriyyatı, 2005

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ, TÜRK XALQI VƏ ONUN LİDERLƏRİ HAQQINDA

Biz bir millət, iki dövlətik.

Əminəm ki, Atatürk Türkiyəsi əbədiyyətə qədər uğurla yaşayacaqdır.

Mustafa Kamal Atatürk bütün türk dünyasının ulu öndəridir. O, adına layiq komutan və dövlət adamı olmuşdur.

Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir.

Türkiyə böyük, əzəmətli bir dövlətdir, dünya miqyasında özünəməxsus yer tutub. Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratmaqla, qurmaqla nə qədər böyük uzaqgörənlik, nə qədər böyük alilik göstəribdir.

Biz Azərbaycanda türkdilli dövlətlərin tarixinə, Türkiyənin tarixinə, Azərbaycan-Türkiyə əlaqələrinin tarixinə böyük əhəmiyyət veririk. Xüsusən Böyük Atatürkün irsinin öyrənilməsinə, araşdırılmasına, elmi cəhətdən tədqiq edilməsinə çox böyük önəm veririk. Təbiidir ki, bu barədə Türkiyədə çox işlər görülübdür.

Amma hesab edirəm ki, Böyük Atatürkün yaratdığı və bugünkü nəsilə, gələcək nəsilə qoyduğu irs elə böyük xəzinədir ki, bu araşdırmalar hələ yüz il bundan sonra da getsə, onun hamısını elm, kitab vasitəsilə, başqa yollarla meydana çıxarmaq mümkün olmayacaqdır. Ona görə də mən fərman vermişəm və Azərbaycanda Atatürk irsinin və Türk xalqlarının tarixinin araşdırılması üçün yeni bir mərkəz yaratmışam. Bu mərkəzin Fəxri Prezidenti Azərbaycan Prezidentidir.

Türkiyə Cümhuriyyətinin Atatürkçü yolu Azərbaycan üçün örnəkdir. Biz bu örnəyə sadiq qalacağıq, öz iradəmizi göstərərək ölkəmizi cümhuriyyət yolunda işıqlı sabahlara aparacağıq.

Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. Ona görə də Türkiyə-demokratik, Atatürk Türkiyə Cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik.

Nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir.

Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır. Türkiyənin dərdi-qəmi Azərbaycanın dərdi-qəmidir, Azərbaycanun dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daimi olacaq, sarsılmaz olacaqdır.

Bu Cümhuriyyəti yaradan, onun banisi, qurucusu, böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir.

Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsilə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.

Bu gün bizi sevindirən odur ki, Türkiyə dövlətinin, bu ölkəni Mustafa Kamal Atatürkün yolu ilə apara bilən liderləri vardır. Bu liderlər içərisində Türkiyənin siyasi səhnəsində 40 ildən çox fəaliyyət göstərən və böyük uğurlar qazanan Türkiyə Prezidenti, Cümhurbaşqanı, Azərbaycan xalqının böyük dostu,

mənim əziz dostum, qardaşım Süleyman Dəmirəldir.

Mən əminəm ki, Türkiyənin çox parlaq gələcəyi vardır və bu gələcək də uğurlu olmalıdır. Yəni Mustafa Kamal Atatürkün yolu ilə getməsi Türk xalqını daha da yüksəklərə qaldıracaqdır.

Mustafa Kamal Atatürk bəşər tarixinin XX əsrinin ən böyük şəxsiyyətlərindəndir. İstiqlal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, Türk xalqına böyük yol açmış, Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yaşayır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir.

Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bundan fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq olacağam.

Mustafa Kamal Atatürkün ən böyük xidməti Türkiyə Cümhuriyyətini yaratmasıdır.

Türkiyədə yaranmış Cümhuriyyət bütün İslam aləmində, dünyada, bütün tarixlər ərzində yaranan ilk demokratik, hüquqi, dünyəvi, yəni Layiq Cümhuriyyətdir. Bu Cümhuriyyət bütün başqa xalqlar üçün öz dövlət quruluşu sistemi, siyasəti ilə örnək olmuşdur, təkcə müsəlman dünyasına yox, başqa ölkələrə - Avropaya da öz təsirini göstərmişdir.

Mustafa Kamal Atatürk təkcə Türkiyə üçün yox, bütün dünya türkləri üçün, Türk dünyası üçün də çox düşünmüşdür. Onun bu barədə çox məşhur kəlamları, sözləri var. O, 30-cu illərdə söyləyirdi ki, Azərbaycanda və Orta Asiyada yaşayan türklər indi çətin problemlər içərisindədirlər. Amma zaman gələcəkdir ki, onlar bu əsarətdən çıxacaqlar.

Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır. Bizim üçün Türkiyədən yaxın bir ölkə yoxdur. Türkiyənin Azərbaycana hər vaxt dost, qardaşlıq münasibətini biz hiss etmişik və hər gün də hiss edirik.

Mən Türkiyəyə 1992-ci ildən gəlirəm və hər dəfə Türkiyəyə gəldiyim zaman mənim müqəddəs vəzifəm böyük öndər Atatürkün qəbrini, onun məqbərəsini ziyarət etməkdir, onun böyük şəxsiyyəti qarşısında baş əyməkdir, onun gördüyü işlərin və yaratdığı Cümhuriyyətin əbədiyyətə qədər olacağına inamımı bildirməkdir.

Biz bilirdik ki, Türkiyənin hər bir diyarından, hər bir vilayətindən torpaq gətirirlər və böyük Mustafa Kamal Atatürkə hörmət və ehtiram rəmzi olaraq o torpağı qəbrin yanına qoyurlar. Bu, həqiqətən çox böyük bir hadisədir. Bu, xalqın Mustafa Kamal Atatürkə, onun qoyduğu yola, onun irsinə, onun mirasına daim sədaqətli olduğunu bir daha göstərir. İlk dəfə olaraq Türkiyənin xaricindən, xarici ölkədən - yalnız Azərbaycandan torpaq gətirildi və o torpağı mən şəxsən Mustafa Kamal Atatürkün qəbrinin yanına, böyük Türkiyənin bütün diyarlarından gətirilmiş torpaqlarla bir sırada qoydum. Bu, bizim üçün tarixi hadisədir. Çünki ilk dəfədir ki, Türkiyənin xaricindən buraya torpaq gətirilir. Eyni zamanda bu onu göstərir ki, Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, bütün diyarları kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir. Mən bu gün çox məmnunam ki, bu işləri görə bilmişəm.

Azərbaycan Türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin birbirinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir Türk Respublikası yaxşı istifadə etməlidir.

Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır.

Bizim Türkiyə kimi, Türk xalqı kimi yaxın dostumuz və qardaşımız var.

Türkiyə dövləti bizim xilaskarımız olub. Və qədirbilən Azərbaycan xalqı bunu heç bir zaman unutmayacaq.

Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var.

Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir.

Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, Türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum.

Xalqlarımız bir kökdəndir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik.

Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür.

Mən çox bəxtiyaram ki, bu müqaviləni (Bakı-Tbilisi-Ceyhan boru xətti) Türk millətinin, Türk dünyasının ən böyük siyasi xadimlərindən, şəxsiyyətlərindən biri olan hörmətli Süleyman Dəmirəl imzalamışdır. Qars, Moskva müqavilələri tarixə daxil olduğu kimi, bu da tarixə daxil olacaq. Bütün bizim gələcək nəsillər, bütün Türk dünyası, indi yüksəlməkdə olan Türk dünyası, birləşmək arzusunda olan Türk dünyası bu sənədi də öz tarixində həmişə araşdıracaq və sənədi imzalayanlara, xüsusilə, hörmətli Süleyman Dəmirələ və bütün türk qardaşlarına daim təşəkkürlərini bildirəcək.

Hörmətli Əhməd Necdət Sezər çox yaxşı bir insandır. Mən və xalqımız çox yüksək qiymətləndiririk ki, o, Cümhurbaşqanı seçiləndən sonra xarici ölkəyə ilk səfərini Azərbaycana etdi.

Siz bilməlisiniz ki, şəxsən Hörmətli Süleyman Dəmirəl Türkiyə-Azərbaycan dostluğu və qardaşlığının inkişafında ən böyük xidmət göstərmiş bir insandır. Onun Azərbaycana göstərdiyi daimi qayğı, diqqət, mehribanlıq, dostluq bizi - yeni addım atan gənc bir dövləti daha da gücləndirir, bizə daha da ruh verir, irəli getməyə imkan verir.

Mən Türkdilli Dövlətlər Birliyinə daxil olan Azərbaycan Respublikası adından onu demək istəyirəm ki, bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Biz burada çox şeylərə nail olmuşuq. Birliyin əsas məqsədi odur ki, iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dinimizin, dilimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Bu, təbiidir.

Türkiyə hökumətinin Naxçıvana, eləcə də Azərbaycana göstərdiyi diqqət yaranan əməkdaşlığın ən vacib cəhətidir.

Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər.

Türkiyə Cümhuriyyətinin sürətlə inkişaf etməsində Turqut Özalın böyük xidmətləri hamımıza məlumdur. Bu, bir çox dövlətlər, xalqlar üçün, o cümlədən Azərbaycan üçün böyük örnəkdir.

Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlətdir. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, biz bir kökdən gələn xalqlarıq. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır. Ancaq biz daim bu əlaqələri daha da inkişaf etdirməyə çalışırıq.

Türkiyənin bu ölkəyə (Ermənistana) münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik?". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır".

Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədən Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Türkiyə heç vaxt Azərbaycanı tək qoymayacaq, darda qoymayacaqdır və bir gün gələcək, biz yaxşı günləri Türkiyə ilə, Türk xalqı ilə bir yerdə bayram edəcəyik.

Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz və hiss edirsiniz ki, Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir. Türkiyənin daha da inkişaf etməsini istəyir. Bö-

yük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir.

İlk Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi dövrdə Türkiyə daim Azərbaycana dayaq, kömək olmuş, yardım etmişdir. Bunu bizim xalqımız heç vaxt unutmayıb və unuda da bilməz. O ağır, çətin illərdə erməni silahlı qüvvələri Azərbaycanda - Bakıda, Azərbaycanın başqa bölgələrində, o cümlədən Qarabağ bölgəsində qırğınlar edirdilər. O vaxt Türk qardaşlarımız yenə də bizim köməyimizə gəldilər. Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən Türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündəngünə möhkəmlədək və yüksəklərə qaldıraq.

İki Prezident tərəfindən imzalanmış "Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında" müqavilə gələcək işlərimiz üçün gözəl proqramdır. İmzalanmış başqa sənədlər də Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Biz bu imkanlardan istifadə etməyə çalışacağıq.

Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir Azərbaycanlının qulağında səslənməlidir.

İndiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə-Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır.

Türkiyə-Azərbaycan əlaqələrinin gözəl gələcəyi var və Türkiyədə Azərbaycan səfirliyi əsrlər boyu yaşayacaqdır.

Azərbaycanın zəngin neft yataqlarının böyük gələcəyindən Türkiyə də bəhrələnəcək, bizim üçün dost, qardaş ölkə kimi biz Türkiyə ilə həmişə əməkdaşlıq edəcəyik.

Bu dostluq əbədidir, sarsılmazdır. Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Çünki Türkiyə də demokratik Cümhuriyyətdir, burada demokratik prinsiplər geniş tətbiq olunubdur. Türkiyənin böyük demokratiya təcrübəsi var. Türkiyənin cümhuriyyət, demokratik dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir.

Sarsılmaz Türkiyə-Azərbaycan dostluğunu qurmaq hər iki xalqın övladları üçün başlıca vəzifədir.

Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır.

Azərbaycan ilə Türkiyə arasında yaranmış dostluq, qardaşlıq əlaqələri günü-gündən inkişaf edir və əminəm ki, bizim gələcək dostluq, qardaşlıq yolumuz da işıqlıdır, aydındır, parlaqdır.

Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəfmüqabilidir.

Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı ancaq iqtisadi sahələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, bəli, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir. Türkiyə qüdrətli bir dövlətdir. Dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik bir dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir. Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək, böyük nailiyyətlər əldə edəcək. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi

demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edəcəkdir, inkişaf etmiş dövlətlər səviyyəsinə qalxacaqdır. Bu da Türkiyə Azərbaycan dostluğunu bir-birinə daha da bağlayacaqdır. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, dönməzdir, sarsılmazdır.

Azərbaycanın mövqelərinin beynəlxalq təşkilatlarda qorunmasında biz daim Türkiyə Cümhuriyyətinə arxalanırıq, güvənirik.

Biz inanmışıq ki, bazar iqtisadiyyatını, yeni iqtisadi sistemi, yəni inkişaf etmiş dövlətlərin iqtisadiyyatında olan təcrübəni tətbiq etmək lazımdır, Türkiyənin təcrübəsini tətbiq etmək lazımdır. Bunların hamısı üçün vaxt lazımdır. Biz bu vaxtdan səmərəli istifadə edirik və edəcəyik.

Biz Türkiyədə görülən işlərə daim heyranlıqla, sevgi ilə, məhəbbətlə baxırıq. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyənin hər bir vətəndaşı bizim üçün əziz insandır. Biz bundan sonra Türkiyəyə daha da yüksəliş arzu edirik, Türkiyə xalqına daha da rifah arzu edirik. Türkiyənin parlaq gələcəyinə inanırıq. Mən Azərbaycanın Türkiyə ilə dostluğunun, qardaşlığının parlaq gələcəyinə əminəm.

Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, Türk xalqı uzatdı, Türkiyənin böyük şəxsiyyəti, Türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün - Araz çayı üzərində körpünün tikilməsinə başladıq.

Sizi əmin edirəm ki, mən Sizin bu etimadınızı doğruldacağam və Türkiyə-Azərbaycan dostluğunu günü-gündən möhkəmləndirmək, inkişaf etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə-Azərbaycan dostluğu bizim üçün müqəddəsdir, əbədidir, sarsılmazdır. Biz bu yoldan dönməyəcəyik. Biz bu yolla irəliyə getmişik və irəliyə gedəcəyik.

Hesab edirəm ki, Bakı-Ceyhan bir bu gün, ya da sabah üçün deyildir. Bizim bu işimiz yüz ildən çox yaşayacaqdır.

Dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır, bir dilimiz vardır. Ancaq Azərbayan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur.

Biz Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün, Dağlıq Qarabağ məsələsini həll etmək üçün həmişə Türkiyə ilə bərabərik, Türkiyə həmişə bizə dəstək verir, Kömək edir və Türkiyə bizimlə birlikdə bu məsələnin həll olunmasına çalışır.

Türk xalqı çox böyük sınaqlardan çıxmış bir xalqdır. Türk xalqı böyük bəlalardan çıxmış bir xalqdır. Türk xalqı qəhrəman xalqdır. Türk xalqı qurucu xalqdır, yaradıcı xalqdır.

Sülh yolu indi bizim tutduğumuz əsas yoldur. Mən məmnunam ki, elə Siz də - Türkiyə də bizim bu sülhsevər siyasətimizi dəstəkləyirsiniz və bizə hər zaman olduğu kimi, indi də dayaq dursunuz.

Türkiyəyə nə qədər çox gəlsək də, nə qədər çox görüşsək də biz Türkiyədən doymuruq.

Azərbaycan üçün Türkiyə qüdrətli, böyük, inkişaf etmiş, demokratiya içərisində yaşayan bir dövlətdir. Türkiyə gənc, müstəqil Azərbaycan üçün həmişə örnək olubdur, bu gün də örnəkdir.

Biz Türkiyə ilə əlaqələrimizi strateji əməkdaşlıq prinsipi əsasında qurmuşuq.

Dünyəvilik Türkiyəni Avropa ilə, Azərbaycan ilə birləşdirən əsas amillərdən biridir.

Biz bütün əlaqələrimizdə Türkiyə ilə birlikdəyik. Türkiyə bizim üçün həm dostdur, həm qardaşdır, həm dayaq nöqtəsidir, həm də arxadır.

Dünyada bizim bir nömrəli müttəfiqimiz, bir nömrəli dostumuz Türkiyədir. Bizim Türkiyənin köməyinə ehtiyacımız var.

Türkiyə nə qədər güclü olsa, Türkiyənin iqtisadiyyatı nə qədər yüksək olsa, bu, Azərbaycan üçün də önəmlidir.

Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik. Türkiyə bizim üçün qardaşdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİMİZİ MÖHKƏMLƏNDİRİR VƏ GENİŞLƏNDİRİR

Biz bir millət, iki dövlətik

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

1994

ÇIXIŞLAR, MÜSAHİBƏLƏR VƏ GÖRÜŞLƏR

1993-1998-ci illər

Azərbaycan Respublikası Milli Məclisinin iclasında Heydər Əliyevin çıxışından:

15 iyun 1993-cü il

...Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaradılmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əminamanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Ona görə də bu məsələ əsas məsələlərdən biridir. Bundan sonra da bu məsələlər Milli Məclisin diqqət mərkəzində olmalıdır. Sizi bu barədə tam əmin edirəm.

Dünən elan olunan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin.

...Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cumhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir...

(Müstəqilliyimiz əbədidir. Bakı, 1997. 1-ci cild, səh.9-11.)

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin bəyanatından:

2 iyul 1993-cü il

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verilmişdir.

Azərbaycan Respublikasının adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm, və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan Respublikası insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir.

...İyunun 12-dən etibarən Ermənistan hərbi qüvvələri Ağdam və Ağdərə istiqamətlərində hücum edərək Ağdərə rayon mərkəzini və bir neçə kəndimizi ələ keçiriblər... ABŞ, Rusiya və Türkiyənin münaqişəyə dinc vasitələrlə son qoyulmasına dair təşəbbüsünün, BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin elan olunduğu və ümumiyyətlə, bu qanlı savaşın qarşısının alınmasına müəyyən ümidlər yarandığı bir vaxtda Ermənistanın bu təcavüzkar hərəkətləri vəziyyətin xeyli kəskinləşməsinə səbəb olmuşdur. Güman edirəm ki, beynəlxalq ictimaiyyət və bütün dövlətlər bu təcavüzü qətiyyətlə pisləməlidir. Azərbaycan dövləti adından bir daha bəyan etmək istəyirəm ki, ABŞ, Rusiya və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərəfdarıyıq...

İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının II görüşünün iştirakçılarına müraciət

Zati-aliləri, hörmətli dostlar!

İcazə verin, mötəbər məclisinizi salamlayım, sizin hamınıza uğurlu və səmərəli iş arzulayım. Əminəm ki, keçirilən bu məclisin həsr olunduğu iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir.

İqtisadi Əməkdaşlaq Təşkilatı ölkələrinin-Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir.

Hörmətlə,

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri

5 iyul 1993-cü il

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin bəyanatından:

...1993-cü il 2 iyul tarixli bəyanatımla mən ABŞ, Rusiya və Türkiyə dövlətlərinin, BMT, ATƏM və dünya ictimaiyyətinin diqqətini Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə intensiv hücumları ilə yaranmış vəziyyətə cəlb edərək onları təcavüzün dayandırılması üçün lazımi tədbirlir görməyə çağırmışdım... Təcavüz iyulun 3-4-də daha da genişləndi.

Ona görə də bizə məlum deyil ABŞ, Rusiya və Türkiyə dövlətlərinin bu istiqamətdə fəaliyyətləri nədən ibarət olub?

...Belə bir vəziyyətlə barışmaq isə qətiyyən mümkün deyildir. Bunun qarşısını almaq üçün ABŞ, Rusiya və Türkiyə üzərlərinə götürdükləri missiyanı yerinə yetirməlidirlər və verdiklərə vədlərə sadiq olmalıdırlar... Şəxsən mən bilavasitə Ermənistan Respublikasının rəhbərləri ilə, Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla, ABŞ və Türkiyənin Azərbaycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həll edilməsinə dəvət etmişəm...

Bakı şəhəri, 5 iyul 1993-cü il

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin "Sobesednik"in müxbiri ilə müsahibəsindən:

...**Sual:** Rüşvətxorlardan yaxanız qurtardı, ancaq yanacaqsız və çörəksiz qaldınız...

Cavab: Lakin əvəzində Türkiyə və İran rəhbərləri ilə olan köhnə şəxsi əlaqələr kara gəldi. Axı biz onlarla qonşuyuq.

Türkiyədən elektrik xətti çəkdik. Ərzaq üçün 10 milyon dollar kredit, cürbəcür humanitar yardım da aldıq...

Sual: Deyəsən, Azərbaycanın əvvəl-ki rəhbərliyi Türkiyədən başqa heç kimi sevmirdi. Hər halda Türkiyədə istehsal edilən məhsulların, açıq deyim ki, heç də yüksək keyfiyyətli olmayan məhsulların axını məhz bunu təsdiq edir. Bəs lap deyək ki, keçmiş SSRİ-nin "qardaş" respublikalarının dostluğu necə oldu?

Cavab: Mən bu barədə demişəm, özü də tamamilə rəsmi şəkildə. Azərbaycan keçmiş SSRİ-nin istisnasız olaraq bütün respublikaları ilə yaxşı münasibətlər saxlamalıdır...

(Söhbəti Mixail Serdyukov aparmışdır)

"Azərbaycan" qəzeti, 10 avqust, 1993-cü il

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Yazıçı Aleksandr Proxanovla müsahibəsindən:

...**Sual:** Bilirəm ki, Naxçıvanda, balaca bir respublikada Siz qaydaqanun yaratmağa, layiqli həyat səviyyəsini qoruyub saxlamağa nail oldunuz. Sizin üçün, əgər belə demək caizsə, "Naxçıvana sürgünlük" nə demək idi?

Cavab: ...İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran Prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən onunla Tehrana gedib yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də yanacaq və ərzaq... Türkiyə Prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. Mən Türkiyəyə yol çəkdirdim. Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim. Lakin başlıca nailiyyətim budur ki, mən Ermənistanla silahlı münaqişəyə yol vermədim. Vəziyyət çox gərgin idi, ciddi hadisələr baş verirdi, lakin mən çıxış yolu tapdım, nəticədə torpağımız al-qana boyanmadı. Mən çox sadə yaşayır, aza qane olurdum, məişət şəraitimiz ağır idi...

"Azərbaycan" qəzeti, 12 avqust, 1993-cü il

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin "Nezavisimaya qazeta"nın müxbirinə verdiyi müsahibədən:

...**Sual:** Rusiyada, elə burada, Bakıda da eşitdim ki, son vaxtlar Azərbaycan İrana və Türkiyəyə güclü meyl göstərir, din birliyi amili az qala milli birlik amili kimi qəbul edilmişdir...

Cavab: Hər dövlətin öz xarici siyasəti var. Milli xüsusiyyətlər, din - bunlar da əhəmiyyətli amillərdir. Şəxsən mən milli hisslərlə dini hissləri qarışdırmazdım. Bu kateqoriyalar heç də hər cəhətdən oxşar deyildir, hərçənd əksər hallarda onları bəziləri az qala eyniləşdirməyə çalışırlar.

Bir vaxtlar bütün Qərb, elə Şərq də sovet xalqlarının hamısına ən böyük şər kimi baxırdılar, səbəb də onların Allaha "inanmaması" idi. Bəs indi, adamlar, xalqlar Allaha, dinə üz tutduqları vaxtda necədir, onlar yenə də günahkardırlar?... Sonra, təməlçilik niyyətləri və sair təhlükəli meyillər barəsində söhbətlərin əksəriyyəti mənə uydurma kimi görünür... O ki qaldı milli xüsusiyyətlərə, burada hətta səthi etnoqrafik bilik, zənnimcə, hər şeyi ətraflı şəkildə izah edir. Türk və Azərbaycan dilləri qohum dillərdir, elə bunun özü də yaxınlığın labüdlüyünü qabaqcadan müəyyənləşdirir. İranda on milyonlarla azərbaycanlı yaşayır. Məgər bu amillər iki böyük ölkə ilə yaxınlığın olmasını zərurətə çevirmirmi?

Daha bir məsələ barəsində... Yetmiş ildən artıq bir müddətdə biz öz cənub qonşularımızdan, demək olar, tamamilə ayrı düşmüşdük, indi, birləşmə, inteqrasiya əhval-ruhiyyəsi bütün dünyaya hakim kəsildiyi bir vaxtda niyə görə də bizim qonşularla normal münasibətlərimiz olmasın? (Axı bu münasibətlər başqa dövlətlərə heç bir ziyan gətirə bilməz). Mən bizim münasibətlərimizi nəzərdə tuturam. Azərbaycanı Türkiyə və İranla qədim tarix birləşdirir. Lakin təxminən 200 il Azərbaycan Rusiyanın tərkibində olmuşdur. Bu isə dərin iz buraxmışdır. Azərbaycanın həm Rusiya, həm Türkiyə, həm də digər dövlətlərlə yaxşı dostluq münasibətləri olmalıdır. Misal üçün, Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda çoxlu azərbaycanlı yaşayır. Rusiyada onlar təqribən 2 milyon nəfərdir. Onların sayı Şimali Qafqazda xüsusilə daha çoxdur. Bütün bunlar ona dəlalətdir ki, son dərəcədə ağıllı xarici siyasət yeritmək lazımdır...

(Söhbəti Vitali Tretyakov aparmışdır.)

"Nezavisimaya qazeta", 24 avqust 1993-cü il

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin mətbuat konfransında bəyanatından:

10 sentyabr 1993-cü il

...**Sual:** Cənab Əliyev, Rusiya qoşunları Azərbaycana qayıdarsa, Qarabağ probleminin həllində onların rolu necə ola bilər? Siz Türkiyənin belə bir bəyanatını necə qiymətləndirirsiniz ki, bu ölkə təkcə Naxçıvanın deyil, həm də bütövlükdə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı olmağa hazırdır?

Cavab:... O ki qaldı Türkiyənin Baş naziri Tansu Çillərin belə bir bəyanatına ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı ola bilər, deyə bilərəm ki, biz Azərbaycana hər hansı köməyi, kimin tərəfindən təklif edilməsindən asılı olmayaraq, razılıq hissi ilə qarşılayırıq. Ona görə ki, Azərbaycan təcavüzə məruz qalan ölkədir. Onun ərazisinin xeyli hissəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Biz bu münaqişənin aradan qaldırılması naminə bütün ölkələrlə, o cümlədən də Türkiyə ilə əməkdaşlıq etməyə hazırıq.

...Qarabağ münaqişəsinin həlli ilə əlaqədar... ABŞ dövlət departamenti, Türkiyə rəhbərliyi, Rusiya Xarici İşlər Nazirliyi bəyanatlar vermişlər... Mən dəfələrlə demişəm ki, Ermənistan silahlı birləşmələrinin bu cür son dərəcə təhlükəli, avantürist, təcavüzkar hərəkətləri münaqişəni beynəlmiləlləşdirməyə doğru aparır. Buna nə İran, nə də Türkiyə biganə qala bilməz...

Sual: Yoldaş Əliyev, indi belə bir fikir var ki, regionun gələcək taleyi slavyan və türk amilindən asılıdır. Sizin fikrinizcə, həmrəylik hansı ideologiyada mümkündür və tarixi keçmişə əsaslanaraq Sizə elə gəlmirmi ki, indiki reallıq slavyan-türk alyansının yaranmasına imkan verəcək? Çox sağ olun.

Cavab: Ola bilsin ki, bu sual sizin öz fikrinizdir, lakin əgər bizim regionun haqqında danışırsınızsa, şübhəsiz ki, Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşı olması Azərbaycan ilə Ermənistan arasındakı hərbi münaqişənin həllinə çox kömək edəcəkdir. Ancaq bu regiondakı bütün məsələləri bu iki ölkənin alyansı ilə bağlamaq o qədər də doğru olmazdı. Ola bilər ki, bu Sizin şəxsi fikrinizdir, mən buna etiraz etmirəm. Amma yenə də deyirəm, Türkiyə ilə Rusiya arasındakı münasibətlərin yaxşılaşması ümumən Qafqazda mövcud olan problemlərin, xüsusilə hərbi münaqişələrin aradan qaldırılmasına kömək edəcəkdir.

Sual: Cənab Heydər Əliyev, Sizin Moskvaya səfəriniz təsadüfənmi, yoxsa nədənsə Türkiyə Baş nazirinin oraya səfəri ilə üst-üstə düşmüşdür. Bu səfərləri Rusiya - Azərbaycan münasibətlərinin inzama salınmasında Azərbaycan və Türkiyənin birgə səyləri kimi qiymətləndirmək olarmı? Çox sağ olun.

Cavab: Bu səfərlər təsadüfən eyni vaxta düşmüşdür. Bunlar əvvəlcədən, yəni danışıqlar əsasında planlaşdırılmış səfərlər deyil. Ancaq, şübhəsiz ki, bu imkandan istifadə edərək Türkiyənin Baş naziri Tansu Çillərlə orada, Moskvada görüşdüm və biz lazımi çərçivədə fikir mübadiləsi apardıq. Mənə belə gəlir ki, bu, Həm Rusiya - Türkiyə münasibətləri üçün, həm də Azərbaycan - Rusiya və Azərbaycan - Türkiyə münasibətləri üçün faydalıdır.

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışından:

..Həm elm sahəsində, həm təhsil sahəsində, ədəbiyyat, mədəniyyət sahəsində və bizim mənəvi mənbəyimiz olan din sahəsində, islam dini sahəsində tarixi ənənələrimizdən istifadə edərək gənclərimiz üçün bütün dünyaya geniş yol açmaq lazımdır. "Dünya" deyəndə isə bütün dövlətlər nəzərdə tutulur. Orada Rusiya da var, Ukrayna da var, Almaniya, Fransa, Amerika da var. Şərq ölkələri - İran, Türkiyə, ərəb ölkələri də var. Hindistan, Çin də var... İndi biz eyni istiqamətdə həm Fransada, həm İngiltərədə, həm Amerikada olan elm, təhsil ocaqları ilə əlaqəyə girməliyik. Türkiyə ilə əlaqələrimiz çox genişlənibdir. Bundan istifadə etməliyik...

Türkiyə Cumhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələri var, bu əlaqələr bundan sonra daha sürətlə inkişaf etdiriləcək.

22 sentyabr 1993-cü il

3 OKTYABR 1993-cü İL TARİXDƏ AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN PREZİDENT SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ SƏMİMİ TƏBRİKLƏR

Azərbaycan Respublikasının
Prezidenti sayın
Heydər Əliyevə!

Dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibəti ilə zati-alilərinizi ürəkdən təbrik edirəm.

Azərbaycan çox çətinliklə əldə etdiyi suverenliyini və müstəqilliyini, demokratikləşmə sahəsində nail olduğu inkişafı rəhbərliyinizlə qoruyacağınıza və möhkəmləndirəcəyinizə əminəm.

Azərbaycan xalqının birlik və bərabərlik ruhu içində olması bu gün həmişəkindən daha böyük əhəmiyyət daşımaqdadır. Türk millətinin arzu və diləyi də budur.

Ölkələrimiz arasındakı sağlam dostluq və qardaşlıq əlaqələrinin təzə vəzifəniz dövründə daha da möhkəmlənəcəyinə inanıram.

Azərbaycanın erməni təcavüzünə və işğalına ən qısa müddətdə son verərək daimi və sağlam bir sülhə çatması ən böyük arzumuzdur. Türkiyə bu məqsədin həyata keçirilməsi üçün beynəlxalq miqyasda səy göstərilməsi işində qardaş Azərbaycan xalqının daim yanında olacaqdır.

Dost və qardaş Türk Milləti adından və öz adımdan yeni vəzifənizi bir daha təbrik edir, Sizə cansağlığı və uğurlar diləyirəm.

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyətinin
Prezidenti

Azərbaycan Respublikasının
Prezidenti cənab Heydər Əliyevə!

Azərbaycan Prezidentliyinə seçilməyinizlə əlaqədar olaraq səmimi təbriklərimi bildirirəm. Dost və qardaş Azərbaycanın rəhbərliyiniz altında birlik və bərabərlik içində daha da inkişaf edəcəyinə inamımı bildirirəm. Müvəffəqiyyətlərinizin davam etməsini arzulayıram.

Hüsaməddin Cindoruq
Türkiyə Böyük Millət Məclisinin sədri

Azərbaycan Respublikasının
Prezidenti Cənab Heydər Əliyevə!

Sayın Prezident!

Azərbaycan dövlətinin Prezidenti seçilməyinizlə əlaqıdar Sizi şəxsən öz adımdan və hökumətin adından

ürəkdən təbrik edirəm. Dost və qardaş Azərbaycanın demokratiya, sülh, birlik və bərabərlik içində inkişafını, siyasi fəaliyyətlərlə bərabər, iqtisadi sahədə də inkişafını Türk xalqı ürəkdən arzulayır. Müstəqil və suveren Azərbaycandan umduğumuz bu müvəffəqiyyətin zati-alilərinizin müdrik rəhbərliyi altında həyata keçə biləcəyinə inanıram. Bu sahədəki fəaliyyətlərinizdə daim yanınızda olacağıq.

Azərbaycanın beynəlxalq aləmdəki yerini möhkəmləndirə bilməsi üçün öncə sülhə qovuşmasının gərəkli olduğunu inam ilə bölgədə sülhün təmin olunması məqsədilə beynəlxalq səylərdə Türkiyənin fəal iştirakını davam etdirəcəyini bir daha təsdiq edirəm.

Ölkələrimiz arasında bütün sahələrdə mövcud olan münasibətlərin bu yeni vəzifəniz dövründə daha da inkişaf etdiriləcəyinə və nümunəvi qardaşlıq əlaqəsi nümayiş etdirəcəyinizə inanıram.

Hökumətim adından və öz adımdan Prezidentlik vəzifənizi bir daha təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayıram.

Tansu Çillər
Türkiyə Cümhuriyyətinin
Baş naziri

Azərbaycan Respublikasının
Prezidenti sayın
Heydər Əliyevə!

Sayın Prezident!

Müstəqil və suveren Azərbaycan Respublikasına bu dəfə prezident olaraq xidmətinizlə əlaqədar duyduğum sevinci bildirir, bu vəzifəni müvəffəqiyyətlə həyata keçirəcəyinizi inam ilə zati-alilərinizi ürəkdən təbrik edirəm.

Köklü tarixi, mədəni əlaqələrlə və hər sahədə etdiyimiz yaxın əməkdaşlığımızla möhkəmlənən əlaqələrimiz suveren, müstəqil və demokratiya ideyasına bağlı Azərbaycana bizi daha da yaxınlaşdırmaqdadır.

Türkiyə bu yaxınlıqdan aldığı qüvvətlə beynəlxalq ictimaiyyətin Azərbaycanı tam dəstəkləməsini, seçki yolu ilə qazandığınız yeni vəzifəniz dövründə də yardım və dəstəyini qərarlı şəkildə davam etdirəcəkdir.

Dost və qardaş Azərbaycanın Ermənistanın işğalından qurtararaq, sabit, haqlı bir sülhə nail olması ən böyük arzumuzdur. Bu məqsədlə davam etdirilən beynəlxalq səylərdə Türkiyə fəal iştirak edəcəkdir.

Zati-alilərinizi bir daha təbrik edir, ürəkdən müvəffəqiyyət arzulayır və hörmətimi bildirirəm.

Hikmet Çətin
Türkiyə Cümhuriyyəti Xarici
İşlər naziri

"Türkiyə Cumhuriyyəti -70" elmi-praktik konfransının iştirakçılarına!

Hörmətli konfrans iştirakçıları!

Qardaş Türkiyə Cümhuriyyətinin yaranmasının 70 illiyi oktyabr ayının 29-da tamam olur.

Soykökümüzün, adət və ənənələrimizin, bir çox müqəddəs mənəvi sərvətlərimizin ayrılmaz tellərlə birbirinə bağlı olduğu Türk xalqının bu böyük bayramı eyni zamanda Azərbaycan üçün də əziz gündür.

Türkiyə Cümhuriyyətinin banisi, XX əsrin bəşəriyyətə verdiyi böyük dühalardan Mustafa Kamal Atatürkün azadlıq və demokratiya ideallarına sonsuz məhəbbəti, sərkərdəlik və dövlətçilik məharəti sayəsində Türk xalqı tarixin çətin sınaqlarından çıxıb qurtuluş tapdı. Dünya Türkiyə Cümhuriyyəti adlı azad və məğrur bir məmləkəti tanımalı oldu.

Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir. Atatürkün məşhur "Yurdda sülh, cahanda sülh" ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Hazırkı elmi-praktik konfransın işinin bu baxımdan səmərəli olacağına, qardaş ölkə ilə hərtərəfli əməkdaşlığımızın yeni mərhələyə ucalmasına xidmət edəcəyinə inanırıq.

Mən bu xeyirxah tədbirin iştirakçılarını Azərbaycan dövləti adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, hamınıza can sağlığı, səadət, elmi-yaradıcılıq fəaliyyətinizdə uğurlar diləyirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı, 26 oktyabr 1993.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl cənablarına!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət, bütün Türkiyə xalqının tərəqqisi naminə yorulmadan göstərdiyiniz fəaliyyətdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var. Sizin müdrikliyiniz sayəsində Azərbaycan və Türkiyə bir-birinə daha yaxın olacaq, daha da doğmalaşacaqlar.

Fürsətdən istifadə edib bütün dost Türkiyə xalqınasəmim-qəlbdən dinclik, firavanlıq, tərəqqi arzuladığımı bildirmək istəyirəm.

Sizi qucaqlayır və öpürəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

28 oktyabr 1993-cü il

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərə!

Hörmətli xanım Tansu Çillər!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə və bütün Türkiyə xalqına dinclik, səadət və müvəffəqiyyətlər arzulayıram.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq sülh işinə, xalqlarımızın tərəqqisinə və əminamanlığına xidmət edəcəkdir.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

28 oktyabr 1993-cü il

Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin Sədri Hüsaməddin Cindoruq cənablarına!

Hörmətli cənab Hüsaməddin Cindoruq!

Milli bayram - Respublika elan edilməsi gününün 70 illiyi münasibətilə Sizi və bütün Türkiyə xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edir, Sizə möhkəm cansağlığı, səadət və fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq əlaqələri xalqlarımızın tərəqqisi işinə xidmət edəcək, onların hər ikisi üçün faydalı olacaqdır.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

28 oktyabr 1993-cü il

1994

Türkiyənin Ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrlə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

7 fevral 1994

Əziz tələbələr!

Öncə sizin hamınızı həyatınızda yeni böyük hadisə - Türkiyə universitetlərinə qəbul olunmağınız münasibətilə təbrik edirəm, sizə gələjək həyatınızda, ali təhsil almaqda uğurlar arzulayıram.

Hər bir gənc üçün ali məktəbdə təhsil almaq böyük xoşbəxtlikdir. Şüb-

həsiz ki, bu, hər kəsə müyəssər olmur. Ancaq siz öz biliyinizlə, öz zəkanızla buna nail olmusunuz. Türkiyə universitetlərinə qəbul edilmisiniz və orada təhsil almağa yola düşürsünüz. Mən sizə uğurlu yol arzulayıram. İstərdim ki, siz Türkiyə universitetlərinin bütün intellektual imkanlarından səmərəli istifadə edərək mükəmməl təhsil alasınız, yaxşı mütəxəssis olasınız, vətənimizə, xalqımıza, millətimizə gələcəkdə sədaqətlə xidmət edəsiniz.

Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var. İndi Azərbaycan Respublikası müstəqil bir dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır. Odur ki, bu baxımdan biz təhsil sahəsinə xüsusi əhəmiyyət veririk. Elm, mədəniyyət, təhsil sahəsində Türkiyə ilə Azərbaycan arasında müştərək işlər görülməsi həm Azərbaycan üçün, həm də Türkiyə üçün çox faydalıdır. Bu barədə bizim müvafiq sazişlərimiz var. Gələcəkdə onların daha yüksək səviyyəyə qaldırılması üçün lazımi addımlar atırıq və bundan sonra da atacağıq.

Türkiyə universitetləri öz yüksək səviyyəsinə görə dünyada məşhurdur. Buna görə də həmin universitetlərdə təhsil almaq, şübhəsiz, yüksək səviyyəli mütəxəssis olmağa imkan verir. Mən çox arzulayırdım ki, siz bu imkandan olduqca səmərəli istifadə edəsiniz və Türkiyədə universitetlərin bütün imkanlarından geniş faydalanasınız. Əminəm ki, məhz belə də olacaqdır. Böyük müsabiqədən keçərək Türkiyə universitetlərinin tələbəsi adını almaq sizin üçün asan olmamışdır. Ancaq siz bu sınaqlardan məharətlə çıxdınız və indiki mərhələyə gəlib çatdınız. Ümidvaram ki, qarşıdakı mərhələləri də müvəffəqiyyətlə keçəcəksiniz.

Siz eyni zamanda Azərbaycanın təmsilçiləri olacaqsınız. Azərbaycandan Türkiyəyə gedən hər bir vətəndaş gərək müstəqil respublikamızın vətəndaşı adını uca tutsun. Azərbaycan vətəndaşı olmaq böyük şərəfdir. İstərdik ki, hər biriniz bu şərəfə layiq olasınız.

Türkiyə qardaş ölkədir. Odur ki, Türkiyədə siz özünüzü öz məmləkətinizdəki kimi hiss edəcəksiniz. Lakin bununla yanaşı, siz gərək Azərbaycanın təmsilçiləri kimi, Türkiyədə Azərbaycanın həm tarixini, həm milli ənənələrini, həm də bugünkü gerçəkliyini geniş və tam obyektiv şəkildə təbliğ edəsiniz və bunları türk ictimaiyyətinə, sizi əhatə edəcək adamlara, tələbə yoldaşlarınıza, universitetlərdə təmasda olacağınız şəxslərə çatdırasınız. Bizim dostluq, qardaşlıq əlaqələrimiz nə qədər möhkəm olsa da, bu əlaqələri genişləndirmək, dərinləşdirmək və yüksəltmək üçün görüləsi işlər də hələ çoxdur. Bu işlərin bir qismi də sizin üzərinizə düşür. Guman edirəm ki, təhsil almaqla yanaşı, bu vəzifəni də layiqincə yerinə yetirəcəksiniz.

Şübhə etmirəm ki, siz ali təhsil aldıqdan sonra ölkəmizə qayıdacaq, respublikamızın müxtəlif sahələrində

çalışacaq və xalqımıza sədaqətlə xidmət edəcəksiniz. Bilməlisiniz ki, siz Azərbaycan gənclərinin bir hissəsi olaraq, eyni zamanda imtiyazlı imkanlar əldə edirsiniz. Azərbaycan gəncləri indi, ölkənin həyatının bu çətin və mürəkkəb dövründə, nə gizlədəsən, ağır həyat keçirirlər. Onların böyük bir hissəsi torpaqlarımızı erməni işğalçılarından qorumaq üçün, işğal olunmuş ərazilərimizi azad etmək üçün cəbhələrdə vuruşur, şəhid olur, müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, müstəqilliyini möhkəmləndirmək üçün canlarından keçirlər. Onlar sizin qardaşlarınızdır. Unutmayın ki, qanı tökülən, döyüşlərdə qəhrəmanlıq göstərən o gənclər müstəqil Azərbaycanın tərəqqisi və inkişafı uğrunda vuruşur və şəhid olurlar. Siz bunu da unutmamalısınız. Bilməlisiniz ki, sizə belə bir şərait yaradıldığı halda bu şəraitdən maksimum faydalı, maksimum səmərəli istifadə etməli və məmləkətimiz üçün, ölkəmiz üçün gələcəkdə faydalı olmalısınız.

Guman edirəm ki, Türkiyə universitetlərində təhsiliniz dövründə sizin fəaliyyətiniz həm də Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə kömək göstərəcəkdir. Türkiyədə Azərbaycanı doğru-düzgün təmsil etmək lazımdır, Azərbaycanın bugünkü həyatı haqqında həqiqətləri Türkiyəyə çatdırmaq, bu barədə dost ölkədə obyektiv məlumat vermək lazımdır. İndi bunlara ehtiyac var. Çünki təəssüflər olsun ki, bəzi qüvvələr Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinə, xalqlarımız arasındakı mehriban və səmimi əlaqələrə öz şəxsi məqsədləri üçün müəyyən qədər zərər vurmağa çalışır və cürbəcür şayiələrlə, müxtəlif böhtanlarla bu əlaqələri ləkələməyə can atırlar. Hər bir Azərbaycan vətəndaşı, o cümlədən də siz bilməlisiniz ki, Azərbaycan Respublikası bundan sonra müstəqil dövlət kimi inkişaf edəcək, onun müstəqilliyini Azərbaycan dövləti qoruyub saxlayacaqdır. Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi hər bir vətəndaş üçün, o cümlədən bizim üçün və şəxsən mənim üçün ən müqəddəs vəzifədir.

Mənə belə gəlir ki, Azərbaycanın həyatı ilə bağlı gerçəkliyi Türkiyədə hər bir vətəndaşa çatdırmaq da Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələrinə kömək edəcəkdir. İstər hazırda orada oxuyan tələbələrin, istərsə də indi oxumağa gedənlərin hamısı bilməlidir ki, Azərbaycan müstəqil, demokratiya yolu ilə irəliləyir, Respublikamızda demokratik hüquqi dövlət, demokratik hüquqi cəmiyyət yaradılır, Azərbaycanın iqtisadiyyatı bundan sonra sərbəst iqtisadiyyat prinsipləri əsasında qurulacaq və xalqımız müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Buna həm siz, həm indi Türkiyədə təhsil alan vətəndaşlarımız, həm də türk xalqı əmin olmalıdırlar.

Mən bu sözləri sizə xüsusi olaraq çatdırmaq istəyirəm, çünki indi bizim Türkiyədə təhsil alan, yaxud

müəyyən sahələrdə işləyən bəzi adamlarımız Azərbaycanla Türkiyə arasında münasibətlərin pozulmasına, təəssüflər olsun ki, düşmənlərimizdən də çox çalışırlar. Siz isə, bunun əksinə olaraq, öz fəaliyyətinizi Azərbaycan-Türkiyə münasibətlərinin, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə yönəltməlisiniz və əminəm ki, belə də olacaqdır.

Şübhə etmirəm ki, siz göstərilən bu etimada layiq olacaqsınız. Sizin orada təhsil almağınız üçün hər nə lazımdırsa, hamısını edəcəyik. Bu sarıdan narahat olmayın. Təhsil nazirimiz, digər əlaqədar şəxslərimiz, Prezident Aparatının müvafiq şöbəsi bu işlə məşğul olub, təkliflərini mənə çatdıracaqlar.

Sizə bir daha can sağlığı arzulayıram. Siz hələ gəncsiniz, qarşıda sizi uzun bir yol gözləyir. Arzum budur ki, bu yolu uğurla keçəsiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz Türkiyədə Azərbaycanı layiqincə təmsil edəcək, ali təhsil alacaq və qayıtdıqdan sonra vətənimizə, xalqımıza sədaqətlə, yorulmadan xidmət edəcəksiniz.

Sağ olun, yaxşı yol. Sizə uğurlar olsun.

İstanbul beynəlxalq "Sülh və Səbir" konfransının iştirakçılarına məktub

Möhtərəm konfrans iştirakçıları!

Ayrı-ayrı bölgələrdə millətlərarası münaqişələrin gücləndiyi, xalqların qarşı-qarşıya qoyulduğu narahat zəmanəmizdə bütün sülhsevər qüvvələrin, xüsusilə də din xadimlərinin bir araya gəlməsi, dünyada barışıq və əmin-amanlıq üçün səy göstərməsi təqdirəlayiq hadisədir. Adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir. Silahların danışdığı, Uca Tanrının günahsız bəndələrinin acı məhrumiyyətlərə düçar olduğu bir vaxtda insanlara dözümlülük, mərhəmət və qarşılıqlı hörmət duyğuları təlqin edən Müqəddəs Allah kəlamlarına dünyamızın böyük ehtiyacı var. Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, toplantınız xalqlar arasında sülhün, dinc və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasında öz təsirli sözünü deyəcəkdir.

Konfrans iştirakçılarını səmimi-qəlbdən salamlayır və qarşıya qoyduğumuz xeyirxah məqsədlərin gerçəkləşməsi naminə hamınıza uğurlar diləyirəm.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 fevral 1994

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ I RƏSMİ SƏFƏRİ

Binə hava limanında jurnalistlərə müsahibə

8 fevral 1994

Sual: Cənab Prezident, Sizə uğurlu yol arzulayırıq. Siz hakimiyyətdə olduğunuz müddətdə üçüncü dəfədir ki, xarici ölkələrə rəsmi səfərə gedirsiniz. Azərbaycan xalqı sizin hər bir səfərinizə böyük ümidlər bəsləyir. Qarşıdakı səfər barəsində nə deyə bilərsiniz?

Cavab: Mən Türkiyəyə bu qardaş dövlətin Prezidenti hörmətli Süleyman Dəmirəlin, Türkiyə hökumətinin dəvəti ilə gedirəm. Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var. Son illər Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir. Lakin görüləsi işlər də çoxdur. Guman edirəm ki, Türkiyədə olduğumuz zaman Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün yeni işlər görüləcəkdir. Bu isə həm Azərbaycan Respublikası üçün, həm də Türkiyə Cümhuriyyəti üçün faydalı olacaqdır. Mən Türkiyəyə çox böyük məmnunluq hissi ilə yola düşürəm. Ümidvaram ki, danışıqlarımız uğurlu olacaqdır.

Sual: Möhtərəm Prezident, Siz Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına həmişə tərəfdar olmusunuz. Üstəlik, istər Rusiyanın, istərsə də Türkiyənin vasitəçiliyinin heç vaxt əleyhinə çıxmamısınız, əksinə, buna tərəfdar olmusunuz. Qarşıdakı səfəriniz zamanı Türkiyənin vasitəçiliyi məsələsi qaldırılacaqmı? Bu məsələ yüksək səviyyədə həll ediləcəkmi?

Cavab: Şübhəsiz ki, mən bu məsələnin sülh yolu ilə, barışıq yolu ilə həll edilməsinin tərəfdarıyam. Mən bu mövqeyi indi də müdafiə edirəm. Vaxtilə ABŞ, Rusiya ilə bir-

likdə Türkiyədə bu məsələyə dair dəyərli bir təşəbbüs irəli sürmüşdür. Amma, təəssüflər olsun ki, indiyədək bu təşəbbüs həyata keçirilməmişdir. Odur ki, qarşıdakı görüşlər, danışıqlar zamanı həmin təşəbbüsün həyata keçirilməsi üçün imkan düşərsə bu, Azərbaycan üçün çox faydalı olacaqdır.

Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimində Prezident Heydər Əliyevin nitqi

8 fevral 1994

Hörmətli Prezident, əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Türkiyədəki hörmətli dostlarımız və qardaşlarımız!

Mən bu gün bir daha Türkiyə torpağına qədəm basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm. Dostum və qardaşım - Türkiyənin Prezidenti Süleyman Dəmirələ məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinə görə təşəkkürümü bildirirəm.

Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır.

İndi Azərbaycan Respublikası müstəqil dövlətdir və müstəqil dövlət olaraq öz ölkəsinin, xalqının, öz sərvətlərinin sahibidir. Azərbaycan Respublikası müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında son illər çox faydalı əməkdaşlıq mövcuddur, əlaqələr gündən-günə inkişaf edir. **Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir. Fürsətdən istifadə edib, bütün bunlara görə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, öz adımdan Türkiyə xalqına, Türkiyədəki qardaşlarımıza, dostlarımıza, Türkiyə Cümhuriyyətinə və Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirələ minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.**

Azərbaycan müstəqil dövlət kimi indi ilk addımlarını atır. Respublikamızın qarşısında böyük problemlər var. Azərbaycan öz müstəqilliyini çətin yollarla qurub-yaradır. Azərbaycanda demokratik dövlət, hüquqi demokratik cəmiyyət qurmaq prosesi çox əzmlə inkişaf edir. Bu çətin və ağır dövrdə Türkiyənin köməyinə həmişə ehtiyacımız olub. Bu köməyi həmişə almışıq. **Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr tam dostluq və qardaşlıq əlaqələridir və bundan sonra da qırılmazdır, sarsılmazdır.**

Azərbaycan xalqının, gənc Azərbaycan Respublikasının qarşısında duran ən böyük problem Azərbaycanı erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, altı ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Bu dövrdə Azərbaycan torpaqlarının bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bunun bəzi subyektiv və obyektiv cəhətləri vardır. Ancaq Azərbaycan xalqı yaxşı bilir ki, bütün bu illərdə Azərbaycanı müdafiə etmək üçün Türkiyənin səsi çox gur gəlir. Türkiyənin köməyi Azərbaycana mənəvi dayaq olub. Biz bu mənəvi yardımdan, köməkdən bu gün də istifadə edirik.

Azərbaycan Respublikası sülhsevər siyasət aparır, o cümlədən qonşuları barəsində sülhsevər siyasət yeridir. Ermənistanda olan bu müharibəyə də son qoymaq, xalqımızı bu müharibədən xilas etmək istəyirik. Ona görə də bütün addımlarımız müharibəyə birinci növbədə sülh yolu ilə, barışıq yolu ilə, danışıqlar yolu ilə son qoymağa, Azərbaycan torpaqlarını xilas etməyə xidmət edir. Bu yolda biz çox addımlar atmışıq, bu gün də atırıq. Beynəlxalq təşkilatların köməyinə ümid bəsləmişik, bu gün də ümid bəsləyirik. O cümlədən ATƏT-in Minsk qrupunun köməyinə, yardımına ümid bəsləmişik, bu gün də ümid bəsləyirik. Böyük dövlətlərin təşəbbüsünə həmişə inanmışıq, bu gün də inanırıq. Məlumdur ki, bir neçə vaxt bundan əvvəl ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasında olan müharibəni bitirmək üçün, süni surətdə yaradılmış "Qarabağ problemi"ni həll etmək üçün təşəbbüs irəli sürmüşdülər. Biz bu təşəbbüsləri də alqışlamışıq, bəyənmişik və onların həyata keçirilməsinə çalışmışıq. Biz bu gün də beynəlxalq təşkilatların köməyi ilə, böyük dövlətlərin, o cümlədən bizim dostumuz və qardaşımız Türkiyə Cümhuriyyətinin köməyi ilə bu məsələlərin sülhlə həll olunması yolundayıq.

Ancaq indi Azərbaycan Respublikasının ordusu formalaşmaqdadır. Xalqımızda vətənpərvərlik ruhu yüksəlib, formalaşıb. İndi ordumuz, Azərbaycan vətəndaşları öz torpaqlarının müdafiəsi üçün qanlı döyüşlər aparırlar. Bizim başqa bir dövlətdən torpaq iddiamız yoxdur. O cümlədən Ermənistana da indi bir torpaq iddiamız yoxdur. Baxmayaraq ki, tarixən bizim torpaqlarımızın bir qismi Ermənistanın əlinə keçib. Biz indi anjaq Azərbaycan Respublikasının BMT tərəfindən qəbul olunmuş, təsdiq olunmuş hüdudları çərçivəsində onun ərazisinin bütövlüyünü təmin etmək istəyirik.

İndi müharibə Azərbaycan torpağında gedir. Erməni silahlı qüvvələri, işğalçılar Azərbaycan torpağındadırlar. Biz onların Azərbaycan ərazisindən çıxarılması, torpaqlarımızın işğalçılardan azad olunması

üçün ədalətli müharibə aparırıq, döyüşlər aparırıq. Bildiyiniz kimi, artıq bu döyüşlərdə Azərbaycan xalqı, ordumuz cəsarət və qəhrəmanlıq göstərir, sizi əmin edirəm ki, bundan sonra da göstərəcəkdir. Bu məsələnin həll olunmasında biz sülh yolunu əsas tutaraq, torpaqlarımızın müdafiəsi uğrunda ədalətli müharibə aparırıq.

Dost və qardaş Türkiyə Cümhuriyyəti ilə, qardaşlarımızla görüşüb danışıqlar, məsləhətləşmələr aparmağa daim ehtiyacımız olub. Guman edirəm ki, bu səfər, ziyarət vaxtı danışıqlarımızda da Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elmi-texniki, təhsil, humanitar və başqa sahələrdə əlaqələr yaratmaq barədə danışıqlar gedəcəkdir. Biz istərdik ki, bu əlaqələr daha da genişlənsin, inkişaf etsin və dərinləşsin. Şübhəsiz ki, Azərbaycan torpaqlarına erməni təcavüzü haqqında məsələni də burada müzakirə etmək fikrindəyik. Bu barədə Türkiyə Cümhuriyyəti rəhbərlərinin məsləhətlərinə, onların sözlərinə ehtiyacımız vardır.

Əziz dostum və qardaşım Süleyman bəy, məni bura dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Türk dostlarımızın hamısına Azərbaycan xalqından səmimi salamlar, xalqımızın məhəbbətini, hörmətini çatdırıram.

Sağ olun, bütün işlərinizdə sizə uğurlar diləyirəm.

Ankaradakı "Anıtkabır" məqbərəsində Türkiyə Cümhuriyyətinin banisi, görkəmli siyasi və ictimai xadim Mustafa Kamal Atatürkün məzarını ziyarət etdikdən sonra Prezidenti Heydər Əliyevin Xatirə kitabına yazdığı ürək sözləri:

"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının həddsiz məhəbbət və ehtiramını ifadə edirəm.

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

8 fevral 1994"

Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə ziyafətdə Heydər Əliyevin nitqi

8 fevral 1994

Çox hörmətli Prezident Süleyman Dəmirəl!

Çox hörmətli Nəzmiyyə xanım!

Hörmətli qonaqlar, dostlar!

Mənim əziz dostum, qardaşım Süleyman bəy, Sizə və bu salonda toplaşan bütün qonaqlara müraciət edirəm. Məni Türkiyəyə rəsmi dəvət etdiyinizə görə və buraya gəlməyim münasibətilə mənə göstərdiyiniz hörmət və ehtirama görə Sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun! Bu, uzun illər aramızda olan dostluq və qardaşlıq əlaqələrinin yeni bir nümayişidir.

Hörmətli Süleyman Dəmirəl Türk dünyasının böyük bir şəxsiyyətidir, bütün dünya siyasətçiləri içərisində tanınmış və çox hörmət qazanmış şəxsiyyətdir. Mən çox xoşbəxtəm ki, iyirmi beş il öncə hörmətli Süleyman Dəmirəllə ilk dəfə tanış olmuşam. Bizim aramızda dostluq və qardaşlıq əlaqələri yaranmışdır. Ötən müddətdə bu əlaqələr qırılmamış, pozulmamışdır. Nəhayət, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bu dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsi üçün çox böyük imkanlar yaranmışdır.

Mənim əziz qardaşım Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı qarşısında çox böyük xidmətlər göstərmiş, böyük nüfuz qazanmışdır. O, eyni zamanda Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının hörmət və ehtiramını qazanmışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycan Respublikasının istiqlalının əldə olunduğu vaxt böyük fəaliyyət göstərmiş və demək olar ki, ilk dəfə Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün onun böyük xidmətləri olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim tarixi var. **Biz, Süleyman bəyin dediyi kimi, iki ölkəyik, ancaq bir xalqıq. Əsrlər boyu nə qədər çətinliklər, nə qədər müharibələr, mücadilələr olmuşsa da, tarixi köklərimizin birliyi heç vaxt qırılmamışdır. Bu tellər daim bir-biri ilə bağlı olmuşdur. Ancaq elə illər olmuşdur ki, insanlar bir-birini görməyə, əlaqə saxlamağa həsrət qalmışlar. Lakin yenə də ümidlərini itirməmişlər.**

1992-ci ildə hörmətli Süleyman bəylə biz Türkiyə ilə Azərbaycan arasında tikilmiş körpünün açılışında iştirak etdik. Xalqlar bu körpünü Ümid körpüsü, Həsrət körpüsü adlandırdılar. Bu, təsadüfi deyil, çünki uzun illər, 70 il ərzində azərbaycanlılar Türkiyədə olan qardaşları ilə əlaqədən məhrum olmuşdular və Türkiyəyə həmişə böyük həsrətlə, böyük ümidlə baxırdılar. Azərbaycan müstəqillik qazandıqdan sonra bu imkanlar yarandı. Ürəkdən-ürəyə olan körpülər daha da möhkəmləndi və ölkələrimiz arasında körpü salındı. Bu körpü həqiqətən ümid körpüsü, həsrət körpüsü kimi tarixə daxil oldu.

Xalqlarımızın qardaşlıq, dostluq əlaqələri, milli ənənələrin eyni kökdən olmaları bu gün bizim üçün həm örnəkdir, həm də indimiz və gələcəyimiz üçün çox böyük təməldir, əsasdır. İstiqlaliyyət qazanmış Azərbaycan öz müstəqilliyini möhkəmləndirmək, daimi etmək, əbədi etmək üçün çalışır və çarpışır. Bu işdə biz bütün dünya birliyinin yardımına, dünyanın ədalətli insanlarının yardımına möhtacıq. Eyni zamanda bu işdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı ilə əlaqələrin Azərbaycan xalqı üçün çox böyük əhəmiyyəti var və biz buna böyük ümid bəsləyirik.Bizim indiki görüşlərimiz son illərdə Azərbaycan ilə Türkiyə arasında yaranmış əlaqələrin davamıdır. Böyük iftixar hissi ilə, böyük məmnuniyyətlə demək olar ki, 70 il bir-birindən ayrı düşmüş xalqlarımız qısa müddətdə bir-birinə qovuşdu., bir birini qucaqladı və sanki bu 70 ildə ayrılıq heç olmamışdır. Ürəklərdən ürəklərə olan hisslər dövlətlər arasında əlaqələrə çevrildi və ötən illərdə bu sahədə çox işlər görüldü. İndi bizim qarşımızda bu işləri daha sürətlə davam etdirmək, əlaqələrimizi daha da genişləndirmək, dərinləşdirmək vəzifəsi durur. Bu məqsədlə də mən hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul etdim və böyük bir heyətlə Sizin yanınıza, Türkiyəyə gəldik, Ankara torpağına endik. Böyük iftixar hissi ilə, qəlbimdəki böyük çırpıntılarla demək istəyirəm ki, mən də, mənimlə gəlmiş azərbaycanlılar da burada özümüzü öz məmləkətimizdə, öz evimizdə hiss edirik. Biz belə hesab etmirik ki, yabançı ölkəyə, xarici ölkəyə gəlmişik. Biz qardaşımızın evinə gəlmişik və bu ölkədə özümüzü tam sərbəst və son dərəcə bəxtiyar hiss edirik.

İndiyədək yaranmış əlaqələri yüksək qiymətləndirərək, eyni zamanda gələcək işlərimiz haqqında da çox düşünürük. Bu gün hörmətli Prezident Süleyman Dəmirəllə, hörmətli Baş nazir Tansu Çillərlə və başqa rəsmi şəxslərlə danışıqlarımızda məhz bu məsələləri müzakirə etdik və guman edirəm ki, sabah respublikalarımızın, dövlətlərimizin, xalqlarımızın arasında əlaqələrin gələcək inkişafı üçün yeni müqavilələr, sənədlər, anlaşmalar imzalanacaq və beləliklə də əlaqələrimizin yeni mərhələsi, yeni səhifəsi açılacaqdır.

İndiyədək Türkiyənin Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına etdiyi yardımlara görə mən bütün Azərbaycan xalqı adından Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə və Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirələ minnətdarlığımı, təşəkkürümü bildirirəm. Eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonrakı köməklər, yardımlar daha yüksək səviyyədə, daha çox olacaqdır. Xalqlarımızın belə bir məsəli var: Uman yerdən küsərlər. Yəni bir yerdən umursansa, oradan kömək gözləyirsən. Ummadığın yerdən isə kömək gözləməyin də əhəmiyyəti yoxdur. Biz bu hisslərlə, bu fikirlərlə sizin yanınıza gəlmişik və guman edirik ki, bizi düzgün başa düşəcəksiniz.

Türkiyə Cümhuriyyətinin böyük tarixi var. Böyük öndər, dahi Mustafa Kamal Atatürk 70 il bundan öncə indiki böyük, demokratik Türkiyənin əsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişlər.

Yeni Azərbaycan, yəni müstəqil Azərbaycan gənc bir dövlətdir. Şübhəsiz ki, onun öz qardaşına, dostuna - böyük nailiyyətlər əldə etmiş qardaşına və dostuna böyük ehtiyacı var. Şübhə etmirəm ki, qardaş, dost bu köməyi göstərməkdən geri çəkilməyəcək. Mən bu arzularla sabah danışıqlarımızın davamını gözləyirəm, yeni müqavilələrin imzalanmasını gözləyirəm.

Eyni zamanda bilməlisiniz ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək, müstəqil dövlət kimi yaşayacaq və inkişaf edəcəkdir. Bu o deməkdir ki, keçmişdə qırılmış əlaqələrimiz indən belə heç vaxt qırılmayacaq, sarsılmayacaqdır. Azərbaycanın qarşısında duran əsas problem, hörmətli Prezident Süleyman bəyin dediyi kimi, erməni işğalçılarının qarşısını almaq, onların qəsb etdikləri torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, bütün Azərbaycan vətəndaşlarının hər birinin öz evində, obasında, kəndində yaşamasına şərait yaratmaqdır. Azərbaycanda bir milyondan artıq qaçqın var. Onlar ağır şəraitdə yaşayırlar, ancaq dözürlər. Çünki bilirlər ki, onlar indi öz torpaqlarının, öz dövlətinin sahibidirlər. Bizim isə borcumuz bunların hamısını yerinə yetirməkdir.

Əmin ola bilərsiniz ki, biz erməni işğalçılarını öz torpaqlaımızdan qovmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. Şübhəsiz ki, biz bundan sonra da sülh, barışıq yolu ilə, danışıqlar yolu ilə məsələni həll edib erməni işğalçılarının Azərbaycan torpaqlarından çıxmasına çalışacağıq. Eyni zamanda öz gücümüzü toplayaraq, ordumuzu möhkəmləndirərək torpaqlarımızı özümüz qoruyacağıq. Azərbaycan xalqı buna qadirdir. Çünki Azərbaycan xalqının qəhrəman keçmişi var, azadlıq, müstəqillik uğrunda çoxəsrlik mübarizə tarixi var. Xalqımız ona görə əmindir ki, Türkiyə kimi yaxın dostumuz, qardaşımız, dayağımız var. **Sizi əmin edirəm ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa daim sadiq qalacaqdır.**

Əziz dostum, qardaşım Süleyman bəy! Bu hörmət və ehtirama görə Sizə bir daha təşəkkür edir və buraya toplaşan qonaqların hamısını dəvət edirəm ki, Böyük Türkiyə Cümhuriyyətinin şərəfinə, böyük Türk xalqının şərəfinə, Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının

şərəfinə, əziz dostum və qardaşım, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəlin və onun xanımı Nəzmiyyə xanımın şərəfinə, bütün qonaqların şərəfinə, bütün türk qardaşlarımızın şərəfinə badə qaldıraq.

Sağ olun, xoşbəxt olun! Sizə bundan sonra daha da xoşbəxt günlər, xoşbəxt həyat arzulayıram. Sizin şərəfinizə!

Türkiyə Böyük Millət Məclisində Prezident Heydər Əliyevin çıxışı

9 fevral 1994

Bu gün məni Türkiyənin Böyük Millət Məclisinə dəvət etdiyinizə görə, Məclisə müraciət etməyimə imkan yaratdığınıza görə hamınıza minnətdarlığımı və təşəkkürümü bildirirəm. Türkiyə xalqı tərəfindən seçilmiş millət vəkilləri, xalq elçiləri kimi sizə və sizin simanızda bütün Türkiyə xalqına Azərbaycan xalqından səmimi gələn salamları, məhəbbəti, sevgini və hörməti bildirmək istəyirəm.

Böyük Millət Məclisinin zəngin bir tarixi var. Bu möhtəşəm salonda, sizin qarşınızda belə bir yüksək kürsüdən çıxış etmək mənim üçün tarixi bir hadisədir. Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, Türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum. Hər dəfə də düşünürdüm ki, bu mötəbər və nüfuzlu Böyük Millət Məclisi - Türk xalqının həyatında dəyərli və diqqətəlayiq işlər görən bu məclis nə qədər də qüdrətli və nə qədər də məqsədyönlü siyasət aparan bir məclisdir. İndi mənə bu məclisə gəlmək, sizinlə görüşmək, sizin qarşınızda müraciətlə çıxış etmək xoşbəxtliyi nəsib olmuşdur. Buna görə çox böyük qürur hissi keçirirəm. Bu, mənim üçün böyük şərəfdir, böyük hörmətdir. Bu hörmətə, ehtirama görə bir daha sizə dərin minnətdarlığımı bildirirəm.

Türkiyə Cümhuriyyətinin 70 illik tarixi var. 70 il bundan öncə onun başçısı, dahi və böyük öndər Mustafa Kamal Atatürk bu Böyük Millət Məclisinin əsasını qoymuş, Türkiyə Cümhuriyyətini yaratmışdır. Onun qoyduğu təməl, bünövrə o qədər möhkəm, o qədər davamlı olmuşdur ki, 70 il ərzində Türk xalqı, Türkiyə cəmiyyəti, Türkiyə dövləti bütün sınaqlardan çıxmışdır, indi də uğurla irəliləyir. Hazırda Türkiyə böyük bir dövlətdir. Türkiyənin nümunəvi böyük bir dövlət olmasını görə biz də iftixar hissi keçiririk.

Burada sizin qarşınızda çıxış edərək böyük insan, bütün türk dünyasının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkü bir daha ehtiramla yad edirəm, onun gördüyü işlərə, onun başladığı yola öz hörmət və

ehtiramımı bildirirəm, onun xatirəsi qarşısında baş əyirəm.

Bizim üçün çox önəmli cəhət budur ki, Türkiyədə Cümhuriyyətin yaranması, Türkiyənin bütün yabançı ölkələrin işğalından xilas edilməsi, istiqlal mücadiləsinin müvəffəqiyyətlə başa çatdırılması və Türkiyədə demokratik, dünyəvi bir dövlətin əsasının qoyulması 70 il bundan öncə olmuşdur. Türkiyə islam dövləti olsa da, heç vaxt dünya demokratiyasından, Şərq aləmindən, islam aləmindən ayrı düşməmişdir. Bunun da əsasını, təməlini bizim öndərimiz unudulmaz Mustafa Kamal Atatürk qoymuşdur.

Biz Türkiyənin keçdiyi 70 illik yola böyük ehtiram və hörmətlə nəzər salırıq. Biz bunun da şahidiyik ki, Mustafa Kamal Atatürkün və onun silahdaşlarının qoyduqları yol 70 ildir davam etdirilir. Onlardan sonra gələn nəsillər Türkiyənin daha da inkişaf etməsi üçün, dünya miqyasında daha önəmli yer tutması üçün böyük işlər görmüşlər. **Türkiyənin xüsusən son illərdə qazandığı nailiyyətlər bütün dünyanı heyran etmişdir. Bu baxımdan son illərdə, yəni bizim yaşadığımız dövrdə Türkiyənin böyük şəxsiyyəti, mərhum Türqut Özalın xidmətlərini qeyd etmək istərdim.** Bu gün Türkiyənin Prezidenti olan, ölkədə uzun illərdən bəri coşğun siyasi fəaliyyət göstərən hörmətli Süleyman Dəmirəlin də xüsusi xidmətlərini qeyd etmək istəyirəm.

Mən Türkiyəyə dəvət edildiyimə görə və dünəndən bəri burada çox səmərəli danışıqlar apardığımıza görə Türkiyə hökumətinə, Prezident - hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ, Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli Hüsaməddin Cindoruqa, Türkiyənin Baş naziri hörmətli Tansu Çillərə minnətdarlığımı bildirir və sizin qarşınızda demək istəyirəm ki, Türkiyənin bütün dövlət orqanları bu günlərdə Azərbaycana böyük hörmət və qayğı göstərirlər, Azərbaycanla Türkiyə arasında əlaqələrin sonra da inkişaf etməsi üçün var qüvvə ilə səy göstərirlər.

Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız birbirinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər, Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bü-

tün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir.

İndi Azərbaycan Respublikası müstəqil bir dövlətdir. XX əsrdə bütün dünya tarixində çox böyük dəyişikliklər baş vermişdir. O cümlədən də Azərbaycan xalqının həyatında. XX əsrin əvvəllərində Azərbaycanda bir neçə siyasi qüvvə, xüsusən Azərbaycanın milli azadlığı naminə çarpışan qüvvələr olmuş, onlar Azərbaycanın müstəqilliyi, istiqlalı, milli azadlığı uğrunda mübarizə aparmışlar. O vaxtlar Azərbaycan ilə Türkiyə arasında əlaqələr sıx olmuşdur. Bütün bunların nəticəsində 1918-ci ildə Azərbaycanda ilk demokratik dövlət yaradılmışdır.

Azərbaycan 200 il ərzində Rusiya imperatorluğunun tərkibində olmuşdur. Şübhəsiz ki, bu dövrdə Azərbaycanın həyatında keşməkəşli mərhələlər, hər cür çətinliklər olmuşdur. Qeyd etdiyim kimi, nəhayət, 1918-ci ildə Azərbaycanda ilk demokratik cümhuriyyət yaradılmışdır. Əlbəttə, bu, tarixi proseslərin nəticəsi idi. Rusiya imperatorluğu dağılmış, Rusiya ərazisindəki xalqlar öz həyatını istədikləri kimi qurmağa çalışmışlar. Eləcə də Azərbaycan xalqı müstəqil dövlət qurmaq arzusunu həyata keçirməyə çalışmış və buna 1918-ci ildə nail olmuşdur. Bu müstəqil Azərbaycan Cümhuriyyəti iki il yaşamışdır. Həmin dövr çox ağır, ziddiyyətli və çətin dövr olmuşdur. Əvəzində Azərbaycan xalqı ilk dəfə müstəqilliyin dadını görmüş, onda müstəqilliyə nail olmaq inamı yaranmışdı. Azərbaycan xalqı demokratik prinsiplər əsasında dövlət qurmağa başlamışdı.

Həmin dövrdə, yəni xalqımız ilk demokratik dövlət qurduğu dövrdə Türkiyə Azərbaycanla bir olmuş, bərabər olmuş, Azərbaycana çox böyük kömək və yardım etmişdir. Bunu Azərbaycan xalqı heç vaxt unutmayıb və unutmayacaqdır. O vaxtlar xalqımız neçə-neçə düşmənin təcavüzünə məruz qalmışdı. Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə Türk xalqının ona göstərdiyi köməyi və yardımı heç vaxt unutmayacaqdır.

Bu dövlət süquta uğradı. O vaxtlar keçmiş Rusiya imperatorluğunun ərazisində Sovetlər İttifaqı yaradılmış, 70 il ərzində Azərbaycan bu ittifaqın tərkibində olmuşdur. Bu dövr haqqında da doğru-düzgün məlumat vermək və onu obyektiv qiymətləndirmək lazımdır. Şübhəsiz ki, Azərbaycan xalqının öz müstəqilliyini itirməsi ona böyük zərbə olmuşdur. Lakin tək Azərbaycan xalqı deyil, keçmiş Rusiya imperatorluğunun tərkibində olmuş bütün xalqlar Sovet İttifaqının tərkibinə daxil edilmiş, Sovetlər Birliyi tərəfindən elə keçirilmişdi. Beləliklə, bütün

keçmiş Rusiya imperatorluğunun ərazisində yeni ictimai-siyasi, iqtisadi quruluş yaranmışdı. Bu quruluşun, şübhəsiz, ziddiyyətli cəhətləri var idi. Biz bundan imtina etmişik. Onu da demək lazımdır ki, 70 il ərzində Azərbaycan xalqı öz milli mənliyini, dilini, hətta din yasaq olunsa da, dinini də itirməmişdir. Bu quruluşun imkanlarından istifadə edən Azərbaycan xalqı elmini, təhsilini, mədəniyyətini yüksək zirvələrə qaldırmışdır.

Bu da tam həqiqətdir ki, XX əsrdə Azərbaycan dünya mədəniyyətinə, dünya elminə böyük töhfələr vermişdir. Bizim böyük alimlər, yazıçılar, şairlər, memarlar, rəssamlar, bəstəkarlar, musiqiçilər həm Azərbaycan xalqının elmini, mədəniyyətini, təhsilini zənginləşdirmiş, həm də bütün dünya mədəniyyətinə, elminə böyük töhfələr vermişlər. Bununla yanaşı, həmin dövrdə Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri də bundan ibarətdir ki, onun bilik səviyyəsi yüksəlmiş, Azərbaycanda savadsızlıq ləğv edilmişdir. Respublika ərazisindəki bütün təhsil ocaqları xalqı savadlandırmaq, onun bilik səviyyəsini yüksəltmək üçün hər cür imkanlara malik olmuşdur. Bütün bunlar onu göstərir ki, hətta bizə uyğun olmayan və indi rədd etdiyimiz sosialist, kommunist quruluşu şəraitində də Azərbaycan xalqı öz tarixinə, öz milli ruhuna, öz milli ənənələrinə sadiq qalmış və bu duyğuları, bu hissləri qəlbində qoyub saxlamışdır. Xalqımız həmin dövrdə qazandığı nailiyyətlərdən indi, müstəqilliyə nail olduğu dövrdə geniş istifadə etmək imkanına malikdir.

Biz keçmiş quruluşdan imtina edirik. Bir müstəqil dövlət kimi Azərbaycan bəşəri dəyərlər əsasında demokratik hüquqi dövlət quruculuğu, demokratik cəmiyyət quruculuğu yolu ilə gedir. Azərbaycanın iqtisadiyyatı azad iqtisadiyyat yolu ilə gedəcəkdir. Azərbaycan böyük iqtisadi-sosial islahatlar keçirmək əzmindədir. Azərbaycan dünyada sınanmış, artıq öz müsbət nəticələrini vermiş olan iqtisadi-sosial və ictimai-siyasi sistem yolu ilə gedəcəkdir.

Bu baxımdan Azərbaycandanda demokratiyanın inkişafına, bütün sahələrdə bərqərar olmasına imkan yaradılmış və yaradılacaqdır. Respublikanın daxili həyatında çoxpartiyalı sistem artıq bərqərar edilmişdir. Hazırda Azərbaycanda 40-dək siyasi partiya və ictimai təşkilat fəaliyyət göstərir. Azərbaycanda vicdan azadlığı, din azadlığı, dil azadlığı tamamilə bərqərar edilmiş, qəzetlərin, curnalların sərbəstliyi tamamilə təmin olunmuşdur. Bütün bunlar gənc, müstəqil Azərbaycan Respublikasının demokratiya, siyasi plüralizm və bazar iqtisadiyyatı sahəsində atdığı ilk addımlardır. Şübhəsiz ki, bunlar hələlik kiçik addımlardır. Onlar, əlbəttə, daha iri, daha güclü olmalıdır. Lakin siz razı olarsınız ki, bu-

nun üçün həm şərait, həm də vaxt lazımdır.

Mən Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən belə cəhətləri özüm üçün qeyd etdim ki, 1923-cü ildə Türkiyədə demokratik cumhuriyyət yaradılmışdır. Ancaq bundan sonrakı dövrdə bir neçə il vaxt lazım oldu ki, Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyənin demokratik fikirli adamlarının fəaliyyəti ilə yeni-yeni islahatlar keçirərək Türkiyədə həqiqi demokratik cəmiyyət qurulsun. Yəni 1923-cü ildə Türkiyədə ilk demokratik cümhuriyyət qurulubsa, bu cümhuriyyətin bütün atributları, başqa sözlə desək, demokratik dövlətə xas olan bütün cəhətlər mərhələ-mərhələ yaradılıbdır. Bu bizim üçün təcrübə, örnəkdir. Ümumiyyətlə, Türkiyə Cümhuriyyətinin 70 illik tarixi indi müstəqil Azərbaycan Respublikası üçün örnəkdir, təcrübə məktəbidir. Biz sizin təcrübənizdən istifadə edir və bundan sonra da istifadə edəcəyik. Sizə sadəcə olaraq xatırlatmaq istəyirəm ki, Türkiyə də lazımi səviyyəyə verilən, bir günün içində, yaxud bir ilin ərzində sıçrayışla çatmamışdır. Odur ki, biz nəzərdə tutduğumuz islahatları tədricən həyata keçiririk. Şübhəsiz ki, indi başqa zamandır, vaxt o vaxt deyildir. İndi biz islahatları gecikdirə bilmərik, onları sürətlə həyata keçirməliyik. Lakin bunu elə etməliyik ki, bir iqtisadi-sosial sistemdən digər iqtisadi-sosial sistemə keçid Azərbaycan xalqının həyatı, yaşayışı üçün çox da ağır olmasın.

Siz bilirsiniz ki, keçmiş Sovetlər Birliyinin indi öz müstəqilliyini əldə etmiş digər respublikaları kimi, Azərbaycan da dərin iqtisadi-sosial böhran içərisindədir. Bu böhran davam edir. Amma Azərbaycandakı böhran daha da dərinləşir. Məhz ona görə ki, Azərbaycan müharibə şəraitindədir. Ermənistanın təcavüzünə məruz qalıb. Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarının bir qismini işğal edib. Azərbaycan özünün iqtisadi və maliyyə imkanlarının əksər hissəsini torpaqlarımızın müdafiəsinə yönəldir. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı öz ev-eşiyindən, el-obasından qaçqın, didərgin düşmüşdür. Onların yaşamağa ev-eşiyi yoxdur. Bu adamların hamısını təmin etmək lazımdır. Bütün bunlar Azərbaycan iqtisadiyyatına çox mənfi təsir göstərir, sosial-iqtisadi böhranı daha da dərinləşdirir. Belə bir dövrdə iqtisadi islahatlar aparılması, bazar iqtisadiyyatına keçilməsi, şübhəsiz qarşıya böyük çətinliklər çıxarır.

Bunları sizə bildirməkdə məqsədim budur ki, Türkiyədə, xüsusən Böyük Millət Məclisində Azərbaycanın bugünkü real vəziyyəti haqqında, gerçəkliyi haqqında doğru-düzgün təsəvvür olsun, məlumat olsun. Bu, bizə onun üçün lazımdır ki, biz Türkiyəni özümüzə ən yaxın, dost, qardaş ölkə bilirik. Bizim vəziyyətimizə Türkiyədə nə qədər doğru bələd olsalar, Türkiyə ilə əlaqələrimiz də bir

o qədər sürətlə inkişaf edər və biz Türkiyənin təcrübəsindən daha səmərəli istifadə edərik, Türkiyənin də Azərbaycana köməyi daha böyük olar.

Qeyd etdim ki, 1918-ci ildə ilk Azərbaycan Demokratik Cümhuriyyəti yaradılanda Türkiyə Azərbaycanı birinci tanıyan dövlətlərdən olmuşdur. 1992-ci ilin noyabr ayında da Türkiyə Cümhuriyyəti Azərbaycanı dünyada birinci olaraq tanıdı. Bu, Türkiyənin cəsarətli addımı və Azərbaycana qardaşlıq münasibətinin nəticəsi idi. Azərbaycanın öz müstəqilliyinə nail olması və bütün dünya dövlətlərinin Azərbaycanı tanıması üçün Türkiyənin çox böyük köməyi olmuşdur. Buna görə və ondan sonra Azərbaycanın müstəqilliyi üçün göstərdiyiniz yardıma görə mən sizə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

O vaxtdan iki il keçir. İki il o qədər də böyük müddət deyildir. Bu iki ildə Azərbaycanın başına çox bəlalar gəlib. Tək bu iki ildə yox, ondan əvvəlki illərdə də 1987-ci ilin təxminən sonundan Azərbaycanı parçalamaq, dağıtmaq niyyətində olan düşmən qüvvələr Qarabağ problemini ortaya atdılar. O vaxtdan bəri Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu dövrdə biz Türkiyədən daim yardım almışıq, mənəvi sahədə, dövlət quruculuğu sahəsində, beynəlxalq meydanda və başqa sahələrdə kömək görmüşük. Bu gün etiraf etməliyəm ki, təəssüflər olsun, biz Türkiyənin Azərbaycana göstərdiyi qayğı və münasibətin müqabilində lazımi tədbirlər görə bilməmişik. Əgər fəaliyyətimiz bizə göstərilən qayğı və kömək səviyyəsində olsaydı, bu gün Azərbaycanın vəziyyəti bundan yaxşı olardı.

Lakin bu da həqiqətdir ki, altı ildir Azərbaycan müharibə şəraitindədir. Elə bu müharibə şəraitində də Azərbaycanın daxilində çox böyük dəyişikliklər olmuşdur. Həmin dövrdə Azərbaycanda müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda mübarizə getmişdir. Bu mübarizə Azərbaycanın dövlətçiliyini, Azərbaycanın hələ qurulmamış, təşəkkül tapıb formalaşmamış ordusunu və müdafiə imkanlarını zəiflətmişdir. Erməni silahlı qüvvələri, erməni təcavüzkarlar da bütün bunlardan istifadə edərək Azərbaycana hücumlarını davam etdirmişlər. Nəticədə Azərbaycan torpaqlarının 20% hazırda erməni işğalı altındadır.

Əgər ilk vaxtlar söhbət Dağlıq Qarabağdan gedirdisə, indi Dağlıq Qarabağ tamamilə erməni silahlı qüvvələrinin, Ermənistnın nəzarəti altındadır. Bildiyiniz kimi, bundan sonra Dağlıq Qarabağ ətrafındakı rayonlar Ermənistan tərəfindən işğal olunmuşdur. Qeyd etdiyim kimi, bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin düşərək qaçqın vəziyyətində yaşayır. Bütün bunlar Azərbaycanın müstəqilliyinə, müstəqil dövlət kimi inkişaf etməsinə çox böyük maneçilik törədir. Lakin biz nik-

bilik. **Biz hesab edirik ki, müstəqilliyimiz əbədidir, bu müstəqilliyi heç vaxt, heç vəchlə əldən verməyəcəyik. Azərbaycan xalqı daim müstəqillik yolu ilə gedəcək, demokratiya yolu ilə irəliləyəcək, azadlıq yolu ilə addımlayacaqdır!**

Odur ki, Türkiyə indiyədək bizə göstərdiyi qardaşlıq, dostluq köməyi, qayğısı ilə bundan sonra da bizimlə olacaq və olmalıdır. Bu gün bizim sizinlə bir yerdə olmağımız buna əyani sübutdur. Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyirəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Mustafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin onuncu ildönümü ilə çıxışında demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinata keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır".

60 il bundan öncə Mustafa Kamal Atatürk bu günləri görmüş və bu vəsiyyəti etmişdir. İndi həmin dövran gəlib çatıb və Türkiyəyə dost, qardaş olan ölkələr, millətlər öz müstəqilliyini əldə edib. O cümlədən, Türkiyəyə ən yaxın dost və qardaş olan Azərbaycan da müstəqil bir dövlətdir. Türkiyənin dostluq və qardaşlıq münasibətlərinə Azərbaycanın bundan sonra daha çox ehtiyacı var. Dünən apardığımız və bu gün aparacığımız danışıqlar onu göstərir ki, biz Türkiyənin Azərbaycana münasibətlərinin bundan sonra da yüksəlməsinə və genişlənməsinə tam ümid bəsləyə bilərik.

Mən sizə məlumat verdim ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir. Biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Çalışırıq ki, beynəlxalq təşkilatların, ATƏT-in minsk qrupunun, böyük dövlətlərin imkanlarından, o cümlədən vaxtilə birgə təşəbbüs irəli sürən ABŞ, Türkiyə və Rusiyanın imkanlarından istifadə edək və məsələni sülh və danışıqlar yolu ilə həll edək. Lakin, təəssüflər olsun,

bunlar indiyədək bir nəticə verməmişdir. Buna baxmayaraq, biz ümidimizi kəsməmişik. Bilirik ki, bu sahədə hələ istifadə edilməmiş imkanlar var və biz gələcəkdə bu imkanlardan da istifadə edəcəyik. Yəni bizim yolumuz sülh yolu, barışıq yoludur. Biz qan tökülməsinin əsla tərəfdarı deyilik, qırğının tərəfdarı deyilik. Bununla bərabər, bütün Azərbaycan torpaqlarının Azərbaycan xalqının öz əlində olmasına nail olmağa çalışmışıq və bundan sonra da çalışacağıq.

Buna görə də biz son vaxtlar Azərbaycan Respublikasının dövlət strukturuna çox fikir veririk, ordunun yaradılmasına fikir veririk. Sizə bildirmək istəyirəm ki, son dövrdə Azərbaycan xalqında milli ruh, vətənpərvərlik ruhu, Vətəni, torpağı qorumaq ruhu, Vətənin sahibi olmaq ruhu, döyüş ruhu oyanmışdır. Azərbaycanlılar dərk etmişlər ki, torpaqlarını özləri müdafiə etməlidirlər, öz torpaqlarının sahibi özləri olmalıdırlar. Son aylarda aparılan döyüş əməliyyatları göstərir ki, Azərbaycan xalqı və onun yaranmaqda olan ordusu buna qadirdir. Axırıncı döyüşdə erməni silahlı qüvvələri çox böyük zərbələr almış, böyük itkilər vermişdir. İşğal olunmuş ərazilərin bir hissəsi geri qaytarılmışdır. Ordumuz torpaqlarımızı müdafiə etməyə, işğal olunmuş ərazilərimizin hamısını geri qaytarmağa qadirdir. Sülh yolu, eyni zamanda işğal olunmuş torpaqların öz gücümüzlə geri qaytarılması yolu bizim yolumuzdur və biz bundan sonra da həmin yolla gedəcəyik.

Azərbaycan Respublikasının xarici siyasəti sizə məlumdur. Biz bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq istəyirik. İstər Qərb, istərsə də Şərq dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə belə əlaqələr yaratmaq üçün lazımi tədbirlər görürük və görəcəyik. Bu sahədə də Türkiyənin təcrübəsi, Türkiyə dövlətinin xarici siyasəti bizdən ötrü təcrübə məktəbidir və bundan səmərəli istifadə etməyə çalışırıq.

Ancaq bir həqiqəti bilməlisiniz. Keçən ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Bəzən xarici ölkələrin, o cümlədən Türkiyənin də mətbuatında belə yazılar gedir ki, guya Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə daxil olması onun istiqlaliyyətini əlindən alır. Bu, yanlış fikirdir. Keçmiş Sovetlər İttifaqına daxil olan 15 respublikadan 12-si, o cümlədən Azərbaycan indi Müstəqil Dövlətlər Birliyinin üzvüdür. Biz bu birliyə daxil olmaqla nə uduzduq? Heç nə uduzmadıq, amma qazandığımız o oldu ki, biz Müstəqil Dövlətlər Birliyinə daxil olanda möhkəm, sıx əlaqələrimiz olan həmin respublikalarla əlaqələri saxlayaraq, həm iqtisadiyyatımızın inkişafı üçün müəyyən şərait yaradırıq, həm də Azərbaycanın müstəqilliyini təmin etmək, Ermənistanın respublikamıza qarşı təcavüzkarlığını həmin dövlətlərə sübut etmək üçün imkanımız olur.

Ötən il dekabrın 24-də Aşqabadda MDB üzvü olan ölkələrin dövlət və hökumət başçılarının toplantısı olmuşdur. Orada mən Azərbaycan dövləti adından geniş bir bəyanat verərək, Ermənistanın ölkəmizə təcavüzü, bunun nəticəsində Azərbaycan torpaqlarının işğal olunması, ərazimizdəki sərvətlərin dağıdılması və talan edilməsi məsələlərindən danışdım və bu barədə konkret faktlar göstərdim. Əgər biz həmin birliyin üzvü olmasaydıq, belə bir imkanımız da olmayacaqdı. Mənim bəyanatımdan sonra Ermənistan Prezidenti bəyanat verməyə məcbur oldu. O, mənim dediklərimin həqiqət olmadığını sübut etməyə çalışdı. Ancaq orada bizim mövqeyimiz çox açıq və konkret oldu, biz Ermənistanı günahlandırdıq. Birliyin üzvü olan başqa dövlətləri də günahlandırdıq ki, nə üçün həmin birliyin çərçivəsində bir dövlət başqasına təcavüz edir. Sizə bu qəbildən başqa misallar da çəkə bilərəm. Yəni demək istəyirəm ki, Müstəqil Dövlətlər Birliyinə daxil olmaq Azərbaycanın müstəqilliyinə heç bir zərər gətirməmişdi və əmin ola bilərsiniz ki, heç vaxt da gətirməyəcəkdir. Əksinə, biz bundan Azərbaycanın müstəqilliyini daha da inkişaf etdirmək üçün səmərəli istifadə etməyə çalışacağıq və guman edirəm ki, buna nail olacağıq.

Azərbaycanın müstəqilliyi məsələsi çox mühüm məsələdir. Bilirsiniz ki, sizinlə və bizimlə qonşu olan Gürcüstanda, Ermənistanda xarici ölkələrin qoşunları, hərbi bazaları var. Azərbaycanda isə bunların heç biri yoxdur. Azərbaycan ancaq öz əsgərləri, öz ordusu ilə yaşayır və belə də yaşayacaqdır. Azərbaycanın müstəqilliyi əbədidir və mən prezident kimi sizin qarşınızda deyirəm: Türkiyədəki qardaşlarımızda, dostlarımızda heç bir şübhə olmasın, biz Azərbaycanın müstəqilliyini heç vaxt, heç vəchlə əldən verməyəcəyik.

Ola bilər, sizin vaxtınızı çox aldım. Ancaq belə fürsət əlimə ilk dəfə düşmüşdür. Şübhəsiz ki, mən də bundan mümkün qədər istifadə etməyə çalışıram. Lakin sui-istifadə etmək də istəmirəm. Sizə bildirmək istəyirəm ki, xalqlarımızın keçmiş tarixi, bu günə qədər yaşadığımız dövr bundan sonra daha yaxın, daha çox dost və qardaş olmağımız üçün böyük təməldir. Əmin ola bilərsiniz ki, biz bu təməl əsasında bundan sonra da irəli gedəcəyik, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir. Bizim mövqeyimiz belədir. Biz bu yolla gedəcəyik və əmin olun ki, bu günkü Azərbaycan dövləti bu yola sadiqdir və sadiq qalacaqdır.

Mən fürsətdən istifadə edərək və indi Türkiyənin qarşısında duran böyük vəzifələri də duyaraq Türkiyə hökumətinə, Böyük Millət Məclisinə və Türkiyə xalqına gələcəkdə uğurlar

diləyirəm. Sizin böyük nailiyyətləriniz var, eyni zamanda böyük problemləriniz də var. Biz də bunları diqqətlə izləyirik, qardaş kimi münasibət bəsləyirik. İstəyirik ki, siz bu problemləri həll edəsiniz, Türkiyə bundan sonra da bütün sahələrdə daha da sürətlə inkişaf edə bilsin. **Çünki Türkiyənin inkişafı, güclənməsi Azərbaycan üçün dayaqdır** və ona görə də qardaş kimi Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına, sizlərə bütün gələcək fəaliyyətinizdə uğurlar diləyirəm.

Mənə göstərdiyiniz diqqətə, hörmətə görə minnətdaram, hamınıza ürəkdən sağ ol deyirəm. Yaşasın Böyük Türkiyə Cümhuriyyəti! Mustafa Kamal Atatürkün vəsiyyətlərini yerinə yetirərək irəliləyən Türkiyə xalqının gələcəyinə qardaş kimi inanırıq və ümidvarıq ki, gələcək həyatınızda yeni-yeni uğurlar olacaqdır.

Yaşasın Türkiyə-Azərbaycan dostluğu!

Yaşasın Türk xalqının Azərbaycan xalqı ilə qardaşlığı və sarsılmaz dostluğu!

Türkiyə-Azərbaycan arasında sənədlərin imzalanması mərasimində Prezident Heydər Əliyevin nitqi

9 fevral 1994

Türkiyəyə səfərimiz zamanı biz burada çox böyük qonaqpərvərlik, insanpərvərlik gördük. Bütün bunlara görə mən və mənimlə gələn bütün nümayəndə heyətinin üzvləri Türkiyə prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, bütün Türkiyə xalqına təşəkkürümüzü və ehtiramımızı bildiririk. Biz burada özümüzü həqiqətən öz evimizdə, Süleyman bəyin sözlərilə desək, öz mənzilimizdə hiss edirik. Biz buraya böyük ümidlərlə gəlmişik və ümidlərimiz çin olub. Gözlədiyimizdən də artıq qonaqpərvərlik, dostluq və qardaşlıq münasibəti hiss etmişik, bu hisslərin təsiri altında yaşayırıq və uzun müddət bu hisslərin təsiri altında olacağıq. Çünki ən maraqlı cəhət bundan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur. Ancaq indiki görüşlərimizin və danışıqlarımızın nəticələri bu işlərin daha da irəliləməsi, iqtisadiyyat, ticarət, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişlənməsi, daha da dərinləşməsi və xalqlarımızın, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün çox səmərəlidir. Bir sözlə, burada əldə olunan nəticələrdən qəlbən məmnunuq.

Burada olarkən görüşdüyümüz hər bir adam bizə çox böyük hörmət və qayğı göstərir. Xüsusən dostum və qardaşım Süleyman Dəmirəlin böyük qayğısı, xüsusi diqqəti məni heyran etmişdi. Mən bilirəm ki, biz dünən də, bu gün də harada olduqsa,

harada görüşdükdə, bunlar hamısı Türkiyə Prezidenti Süleyman bəyin nəzarəti altındadır, onun qayğısı ilə bağlıdır. Bunlar bizim burada olduğumuz günlərdə gördüyümüz işlərin hamısının müvəffəqiyyətlə başa çatmasına şərait yaratmışdır.

Hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır. Sizi əmin etmək istəyirik ki, biz bu yolla gedəcəyik və bu yoldan dönməyəcəyik.

Bir daha qeyd edirəm ki, Azərbaycan demokratik prinsiplər əsasında dövlət quruculuğu ilə məşğuldur. Azərbaycanda demokratiya, siyasi plürializm üçün bütün imkanlar yaranır və yaranacaqdır. **Biz Türkiyənin təcrübəsindən, inkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən istifadə edərək bu tədbirlərimizi daha da genişləndirəcək və dərinləşdirəcəyik.** Əmin ola bilərsiniz ki, Azərbaycan bu yolun yolçusudur və bu yoldan dönməyəcəkdir. **Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç bir qüvvə onu bu yoldan döndərə bilməz. Müstəqillik Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün əbədidir.**

Sizi əmin edirik ki, biz dostluğa və qardaşlığa həmişə sadiq olacağıq və gələcəkdə də bu dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycanın qarşısında duran əsas problem öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrini çıxarmaqdır. Bu sahədə bizim siyasətimiz dəyişməzdir. Biz bu məsələlərin sülh, barışıq yolu ilə həll edilməsinə çalışacağıq. Rica edirəm ki, Türkiyə bundan sonra da beynəlxalq təşkilatlarda, ATƏT-də və onun Minsk qrupunda və özünün başqa imkanlarından istifadə edərək Azərbaycanın bu probleminin sülh, barışıq yolu ilə həll olunmasına kömək etsin. Əminəm ki, Türkiyə bu köməyi bizdən əsirgəməyəcək. Eyni zamanda biz bütün gücümüzü toplayaraq, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq, və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

Əmin ola bilərsiniz ki, bu görüşlərimiz təkcə bizə deyil, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına yeni ruh və ilham verir. Bu ilhamla, bu əhval-ruhiyyə ilə də biz sənədlərin imzalanması mərasiminə gəlmişik. Bu əhval-ruhiyyə ilə də Vətənimizə qayıdacağıq.

Hörmətli Süleyman bəy, Sizə və bütün arkadaşlarınıza bir daha təşəkkür edirəm. Sağ olun!

Ankara Höcəttəpə Universitetinin "Fəxri Doktoru" diplomunun təqdim edilməsi mərasimində Prezident Heydər Əliyevin çıxışı

9 fevral 1994

Hörmətli rektor!

Əziz rektor yardımçıları!

Dəyərli professor və müəllimlər, tələbələr!

Əziz dostlar və qardaşlar!

Bu gün Türkiyənin çox hörmətli, böyük universitetində - Höcəttəpə Universitetində olduğuma görə özümü xoşbəxt hesab edirəm. Buraya dəvət olunduğuma görə universitetin rektorluğuna və bütün professor-müəllim heyətinə öz təşəkkür və minnətdarlığımı bildirirəm.

Burada siz son vaxtlar mənim Azərbaycan Prezidenti kimi gördüyüm işlərdən danışdınız, keçdiyim həyat yolu barədə qısa da olsa məlumat verdiniz. Siz məni öz universitetinizin fəxri doktoru adına layiq gördünüz. Mən bütün bunlara görə sizə təşəkkür edir və həddsiz minnətdarlığımı bildirirəm. Sağ olun!

Bildiyiniz kimi, müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var. Azərbaycanda böyük universitetlər fəaliyyət göstərir, professorlar, elm adamları, mədəniyyət xadimləri, görkəmli sənətkarlar var. Onların böyük bir dəstəsi mənimlə birlikdə Türkiyəyə gəlib, burada bu salondadırlar. Onların adları bütün dünyada məşhurdur, onlar Azərbaycan elmini, mədəniyyətini bütün dünyada tanıdıblar. Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyini əldə edib. İndi Azərbaycan müstəqil bir dövlətdir, dünya dövlətləri birliyinin üzvüdür və onların tərəfindən tanınıbdır. Bunların hamısı Azərbaycan ziyalılarının, siyasətçilərinin, görkəmli şəxsiyyətlərinin xidmətlərinin nəticəsidir. Ona görə də sizin mənə verdiyiniz doktorluq adını bütün Azərbaycan elminin, siyasətinin, dövlətçiliyinin qazandığı nailiyyətlərə verdiyiniz yüksək qiymət hesab edirəm.

Höcəttəpə Universiteti kimi təhsil ocağının doktoru adını almaq böyük iftixar hissi oyadır. Bir daha deyirəm, mən bunu bütün Azərbaycana şamil edir, bütün Azərbaycana verilən qiymət kimi qarşılayıram. Burada mənim də xidmətim, payım var. Odur ki, şəxsən öz adımdan sizə minnətdarlığımı bildirirəm və sizi əmin etmək istəyirəm ki, bugünkü görüşümüzə və sizin mənə verdiyiniz yüksək ad Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsi və inkişaf etməsi üçün yeni bir addımdır. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan dövləti, **Azərbaycan xalqı, bütün azərbaycanlılar Türkiyə ilə dostluğa, qardaşlığa, əbədi birliyə daim sadiq qalacaqlar.**

Azərbaycan öz müstəqilliyinə nail olub, öz dövlətini qurubdur, öz ordusunu yaradır, öz ərazi bütövlüyünü qorumağa çalışır və qarşıda duran sosial-iqtisadi məsələlərin həlli ilə məşğuldur. Bunların hamısı birlikdə Azərbaycanda vəziyyəti həddindən artıq çətinləşdirir. Lakin siz bilin ki, Azərbaycan xalqı müstəqillik yolundan dönməyəcək və öz müstəqilliyini heç vaxt əlindən verməyəcəkdir.

Azərbaycan xalqı artıq öz

taleyinin, öz sərvətlərinin, öz torpaqlarının və öz ölkəsinin sahibidir. Bu məsuliyyəti aydın duyan Azərbaycan xalqı bundan sonra öz həyatını, öz dövlətini demokratik prinsiplər əsasında quracaqdır. Azərbaycanda demokratik quruculuq prosesi gedir və inkişaf edir, hüquqi demokratik cəmiyyət qurulur, hər bir vətəndaşın hüquqları qorunur və qorunacaqdır. Azərbaycanda bütün vətəndaşlar bərabər hüquqa malikdirlər. Respublikamızda çoxpartiyalı sistem artıq bərqərar olmuşdur. Sözlərim eləcə də fikir müxtəlifliyinə, siyasi plüralizm prinsiplərinə aiddir. Yəni Azərbaycan dövləti, Azərbaycan hökuməti tam demokratiya yolu ilə, hüquqi dövlət quruculuğu yolu ilə gedəcək və bələliklə də, Azərbaycan dünya demokratik dövlətlər birliyinin üzvi kimi bu yoldan dönməyəcəkdir.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasında əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri də sürətlə davam etdirəcəyik.

İndi Azərbaycan Respublikasının ən çətin, ağır problemi onun Ermənistan tərəfindən məruz qaldığı təcavüzdən qurtarması və müharibəyə son qoyulmasıdır. Bildiyiniz kimi, Ermənistan tərəfindən altı ildir Azərbaycan torpaqlarına təcavüz edilir, torpaqlarımızın bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunun nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının bir milyondan çoxu öz ölkəsində qaçqın vəziyyətinə düşüb, köçkün vəziyyətində yaşayır, öz el-obasından, ev-eşiyindən didərgin salınıbdır. Onlar ağır şəraitdə yaşayırlar. Bütün bunlar ölkəmizin daxili vəziyyətini olduqca gərginləşdirmiş və Azərbaycan xalqının, Azərbaycan dövlətinin üzərinə böyük və məsuliyyətli vəzifələr qoymuşdur.

Biz öz torpaqlarımızı qorumağa, Vətənimizi müdafiə etməyə çalışırıq. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini qoruyub saxlamağa çalışırıq. Buna görə də apardığımız müharibə ədalətli müharibədir. Biz hücum etmirik, torpaqlarımızı müdafiə edirik. Biz hücum etmirik, bizə hücum edən erməni silahlı qüvvələrini torpaqlarımızdan qovub çıxarmağa çalışırıq. Biz işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Bu, ədalətli işdir və biz onu davam etdirəcəyik.Bu sahədə Türkiyə dövlətinin, Türk xalqının bizə mənəvi dayaq olması bizə daha böyük qüvvət verir. Odur ki, bu müddətdə Türkiyə tərəfindən, Türk xalqı tərəfindən, hər bir Türkiyə vətəndaşı tərəfindən Azərbaycana göstərilmiş kömək və yardıma görə minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Son illər Azərbaycan Respublikası erməni təcavüzünə məruz qalmaqla yanaşı, ölkəmizin daxilində də ictimai-siyasi vəziyyət çox gərgin olmuşdur. Bildiyiniz kimi, ayrı-ayrı qruplar hakimiyyət uğrunda mübarizə apararaq, Azərbaycanın daxili vəziyyətini mürəkkəbləşdirmiş və ağırlaşdırmışlar. Bunlar isə erməni silahlı qüvvələrinə Azərbaycan torpaqlarını işğal etmək üçün çox əlverişli imkanlar yaratmış və 1993-cü ildə ölkəmizdə olduqca ağır bir vəziyyətə gətirib çıxarmışdır. Hətta vəziyyət vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Mən sizə böyük iftixar hissi ilə deyə bilərəm ki, biz bu çətinliklərin də öhdəsindən gəldik. İndi Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət, demək olar, sabitdir, gərginlik aradan götürülüb. Ayrı-ayrı siyasi qüvvələrin, ayrı-ayrı siyasi partiyaların fəaliyyətinə tam şərait yaradılıbdır. Lakin onların hamısının fəaliyyəti Azərbaycanın bütövlüyünə, birliyinə və müdafiə olunmasına yönəldilməlidir. Elə Azərbaycan dövləti, mən də bir prezident kimi çalışıram ki, bu qüvvələrin hamısını birləşdirib, bir yerə cəmləşdirib, Azərbaycanda milli həmrəyliyi, vətəndaş həmrəyliyini gücləndirib respublikamızı bu ağır vəziyyətdən çıxaraq.

Azərbaycan iqtisadi-sosial böhran içərisindədir. Bu böhrandan da çıxmaq üçün biz bütün qüvvələrimizi birləşdirməliyik. Mən sizi əmin etmək istəyirəm ki, Azərbaycan hökuməti, Azərbaycan dövləti və şəxsən mən bir prezident kimi bu sahədə daim fəaliyyət göstəririk və bundan sonra da fəaliyyətdə olacağıq. Ölkəmizdəki bütün siyasi qüvvələri, siyasi partiyaları birləşdirərək Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa, onun ərazi bütövlüyünü təmin etməyə çalışacağıq. Əmin olun ki, biz buna nail olacağıq, çünki bizim işimiz haqq işidir, bizim işimiz ədalət işidir və bizim Türkiyə kimi, Türk xalqı kimi yaxın dostumuz və qardaşımız vardır.

Bu gün mənim üçün unudulmaz bir gündür. Mən Türkiyənin böyük bir təhsil ocağında - Höcəttəpə Universitetindəyəm. Burada fəaliyyət göstərən professor-müəllim heyətilə, türk ziyalıları ilə görüşürəm. Mən bununla fəxr edirəm. Əmin ola bilərsiniz ki, mən bu görüşləri öz həyatımda əlamətdar bir hadisə kimi

qəbul edərək, eyni zamanda Azərbaycan ilə Türkiyə arasında elmi, mədəni əlaqələrin bundan sonra daha da möhkəmlənməsinə və inkişaf etməsinə çalışacağam, Azərbaycan və Türkiyə universitetləri arasındakı əlaqələrin inkişaf etməsinə səy göstərəcəyəm. Azərbaycan gənclərinin burada, sizin universitetdə və başqa universitetlərdə təhsil almalarını bundan sonra da davam etdirəcəyik. Professor və müəllimlərimiz arasında əlaqələr xalqlarımız arasında əlaqələrin inkişafına daha da kömək edəcək və bizi daha da yaxınlaşdırıb qovuşduracaq, daha möhkəm birləşdirəcəkdir.

Mən sizə bir daha öz minnətdarlığımı və təşəkkürümü bildirir və sizi əmin etmək istəyirəm ki, Höcətəpə Universitetinin fəxri doktoru adını ləyaqətlə daşıyacağam.

Bilkənd Universiteti İdarə Heyətinin sədri İhsan Doğramaçı ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

9 fevral 1994

Mən İhsan Doğramaçı haqqında çox məlumat almışam. Onu dünyanın hər yerində, eləcə də Azərbaycanda böyük, nadir bir şəxs kimi tanıyırlar. Onun böyük bir şəxsiyyət olması bundan ibarətdir ki, nəinki Türkiyədə, ümumiyyətlə, bütün türk diyarında, türk dünyasında elm və təhsil sahəsində illərdən bəri coşğun fəaliyyət göstərir, xalq, millət qarşısında, türk xalqlarının birləşməsi sahəsində böyük xidmətləri var. O, xalqın elm və təhsilinin yüksəlməsinə çalışır və bütün həyatını buna həsr etmişdi. Allah ona böyük bir vergi vermişdi. O, Allahdan, Tanrıdan aldığı bu vergini bütün həyatı boyu xalqa xidmətə sərf edib. Bu gün burada, onun evində çox yüksək mədəni səviyyədə keçən indiki mərasim də bunu bir daha sübut edir. Bura mədəniyyət ocağıdır, elm, təhsil ocağıdır. Ona görə də biz burada xalqlarımız, ölkələrimiz haqqında danışarkən onların qədim tarixində elmin, mədəniyyətin, incəsənətin, təhsilin nə qədər böyük rol oynadığını qeyd etməliyik.

Əgər xalqlarımız əsrlər boyu yaşayıblarsa, mübarizə apararaq öz mənliyini qoruya biliblərsə, öz milli xüsusiyyətlərini itirməyiblərsə, böyük mərhələlərdən keçərək indi müstəqil xalq kimi, dövlət kimi yaşayırlarsa, bütün bunlara görə xalqlarımız öz içərisindən çıxan mütəfəkkirlərə, yazıçı və şairlərə, bəstəkarlara, rəssamlara, memarlara, alimlərə minnətdardırlar. Böyük iftixar hissi ilə demək olar ki, xalqlarımız bu sahədə çox zəngindirlər. Bu zənginlik xalqlarımızda milli ruhu, milliliyi, milli ənənələri yaşadıb, nəsildən-nəsilə keçirib, bu günə gətirib çıxarmışdır.

Azərbaycan xalqı bütün türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə

malikdir. Bu gün burada məmnunluqla qeyd edirəm ki, Azərbaycanın incəsənət ustaları, alimləri, bəstəkarları, mədəniyyət xadimləri Türkiyənin bir çox elm və mədəniyyət ocaqlarında, o cümlədən də İhsan bəyin himayədarlığı ilə fəaliyyət göstərirlər. Onlar bu gün burada da Azərbaycan musiqisinin kiçik bir parçası ilə bizi sevindirdilər.

Tarix böyükdür. Biz öz tariximizlə fəxr edirik. O, bizim birgə tariximizdir, xalqlarımızın vahid tarixidir. Nizami də, Füzuli də, Mirzə Fətəli Axundov da, Vaqif də, Yunus İmrə də, bu gün burada şeri səslənən Səməd Vurğun da, Türkiyə torpağında, İstambulda təhsil almış, böyük əsərlər qoyub getmiş Hüseyn Cavid də, sözlərinə mahnı, şərqi bəstələnmiş şerin müəllifi Əhməd Cavad da və bizim aramızda olan böyük mədəniyyət xadimləri də - Arif Malikov da, Bəxtiyar Vahabzadə də, habelə digər mədəniyyət xadimləri də bizim zəngin mədəni sərvətimizdir. Xalqlarımız bu sərvətlə fəxr edir və fəxr etməyə də haqları var.

Bu uzun illər ərzində, 70 il birbirimizdən ayrı düşmüşdük. Əvvəllər də birliyimizə maneçilik törədən amillər olmuşdur. Lakin elm, mədəniyyət, ədəbiyyat adamlarımız bizim həmişə birgə olmağımızı təmin etmişlər. Biz bir-birimizdən məsafəcə uzaq olsaq da, ərzicə ayrı düşsək də, bir-birimizi görə bilməsək də, ulu babalarımızın bizə verdikləri nəsihətlərlə yaşamış olan xalqlarımızın mütəfəkkirləri, milliyyətimizi, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymayıblar və heç vaxt da unutmamışıq.

İndi isə biz bir-birimizə qovuşmuşuq, bir-birimizi qucaqlamışıq, bir yerdəyik. Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir, heç ayırmaq da lazım deyildir. Biz bir-birimizə qaynayıb-qarışmışıq və bu proses davam edəcəkdir. Şübhəsiz ki, hamımız bu prosesin davam etməsi üçün səylərimizi əsirgəməyəcəyik. Türkiyə böyük dövlətdir, onun tarixi çox zəngindir. **Dahi Mustafa Kamal Atatürk Türkiyənin böyük bir dövlət olması üçün çox işlər görmüşdür. Böyük məmnuniyyətlə demək olar ki, ondan sonra gələn nəsillər onun yolu ilə getmiş, Türkiyəni qabaqcıl dövlətlər sırasına çıxarmışlar. Türkiyə öz iqtisadiyyatına, mədəniyyətinə görə, habelə dünyada mövqeyinə görə böyük, inkişaf etmiş dövlətlər sırasındadır.**

Azərbaycanın böyük tarixi var. Bu tarix çox ağır mərhələlərdən keçmişdir. Lakin bunlar Azərbaycanın nə mədəniyyətini, nə elmini, nə də ənənələrini heç vaxt sarsıda bilməmişdir. Bir təsəvvür edin, 70 il ərzində Azərbaycan Sovetlər Birliyini tərkibində olmuş, kommunist ideologiyası ilə yaşamış, sosializm qurmağa çalışmışdır. Buna baxmayaraq, bütün bu illər ərzində

Azərbaycan xalqının dili nəinki yaşamış, hətta inkişaf edib zənginləşmişdir. Mədəniyyətimiz yüksək zirvələrə qalxmışdır. Əsrin əvvəlindən bu günədək olan müddəti götürsək görərik ki, həmin dövrdə Üzeyir Hacıbəyov, Müslüm Maqamayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Tofiq Quliyev, Rauf Hacıyev kimi görkəmli bəstəkarlar yetişmişdir. Şərqdə ilk opera Üzeyir Hacıbəyovun dühası ilə yaranmışdır. Bir sözlə, Azərbaycanda professional musiqi mədəniyyəti təşəkkül tapmışdı. Demək istəyirəm ki, bu ictimai-siyasi quruluş, iqtisadi sistem xalqın mədəniyyətinə nəinki zərər vura bilməmiş, əksinə, bu sistemdə mədəniyyətimiz çox inkişaf etmiş və irəliləmişdir. Azərbaycan elmi çox irəliyə getmiş və özünün nə qədər qüdrətli və güclü olduğunu bütün dünyaya göstərmişdi.

Azərbaycanda ilk universitet 1919-cu ildə yaradılmışdır. Bu gün tarixə nəzər salaraq qeyd etməliyik ki, ilk universitetimizin yaradılmasında da Türkiyənin yardımı olmuşdur. Türkiyədən gəlmiş ilk 50 müəllim və alim universitetin yaranması və inkişaf etməsi naminə çox işlər görmüşdür. İndi Azərbaycanda 18-dən çox universitet var. Halbuki Azərbaycan kiçik bir ölkədir. Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə savadsız adam yoxdur. Ölkəmizdə hansı bir kəndə, hətta hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyəsinin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir.

Bunların hamısı yenə də bizim köklərimizlə bağlıdır, hamısı milli mədəniyyətimizin, milli təfəkkürümüzün, dilimizin nə qədər sarsılmaz olduğuna və nə qədər əyilməz olduğuna dəlalət edir. Heç bir rejim, heç bir vaxt bizi bunlardan məhrum edə bilməz. Əksinə, vəziyyət nə qədər ağır olubsa, elm, mədəniyyət, musiqi də bir o qədər çox inkişaf etmişdir. Bizim Azərbaycan dili, ana dilimiz cari əsrdə çox zənginləşmiş, çox inkişaf etmişdir. Türk ləhcəsi ilə Azərbaycan ləhcəsi arasında bəzi fərqlər var. Bu fərqləri siz bilirsiniz. Bir tərəfdən siz öz dilinizi modernləşdirmisiniz, digər tərəfdən isə bizim dilimiz müəyyən dərəcədə təkmilləşmişdir. Fərqlər də buradan irəli gəlir. Ola bilsin ki, 60-70 il öncə bu fərqlər az idi. Lakin elə indi də türk xalqlarından heç birinin dili Azərbaycan və Türk dilləri qədər bir-birinə yaxın deyildir. Bütün bunlar onu göstərir ki, dostum İhsan bəyin qeyd etdiyi kimi, ölkələrimiz ayrı olsalar da, xalqlarımız birdir və bir olacaqlar. Buna heç bir şübhə ola bilməz.

İndi bunun üçün daha böyük imkanlar açılmışdır. Mən sizə açıq demək istəyirəm, əgər Ermənistanın Azərbaycana təcavüzü olmasaydı, əgər Azərbaycan müharibə şəraitində olmasaydı, bu qısa müddətdə, yəni Azərbaycan öz istiqlalını əldə etdiyi

vaxtdan bəri ölkəmizdə daha çox işlər görmək olardı. Bir iqtisadi-sosial, siyasi sistemdən başqa bir sistemə keçmək asan bir məsələ deyildir. 1923-cü ildə Türkiyə Cümhuriyyəti qurulduqdan sonra keçirilən islahatların hər birinə 3-4, hətta 5 il vaxt lazım olmuşdu. Lakin biz illərlə gözləyə bilmərik. Biz qarşımıza qoyduğumuz məqsədləri qısa müddətdə həyata keçirməliyik. Nəzərdə tutulan bütün islahatların və niyyətlərin həyata keçirilməsi üçün tam təminat, əsas var. Buna isə Azərbaycan Respublikasının malik olduğu böyük intellektual potensial, böyük iqtisadi imkanlar əsas verir.

Mən bir daha bizim dostluğumuza və qardaşlığımıza, yəni Türkiyə ilə Azərbaycan arasında olan dostluğa və qardaşlığa güvənirəm. Dünəndən bəri keçirdiyimiz görüşlər, apardığımız danışıqlar, bizi burada səmimi və qardaşcasına qarşılamağınız bir daha göstərir ki, bu dostluğumuz və qardaşlığımız qırılmazdır, sarsılmazdır və gündən-günə daha da möhkəmlənəcək, qüvvətlənəcəkdir. Türkiyə bir dövlət kimi, inkişaf etmiş ölkə kimi Azərbaycanla həmişə təmasda olacaq və Azərbaycanın bütün ehtiyaclarını nəzərə alaraq öz imkanlarını bölüşəcəkdir. Beləliklə də, biz birlikdə bu ağır vəziyyətdən çıxacağıq.

Mən Bilkənd Universitetinə, bütün Türkiyə universitetlərinə gələcək fəaliyyətlərində uğurlar diləyirəm. Türkiyənin elm, təhsil adamlarına öz hörmətimi, sevgimi və məhəbbətimi bildirirəm. Gələcəkdə tarixi abidəyə çevriləcək bu gözəl guşədə olduğuma görə özümü çox xoşbəxt hiss edirəm. İhsan bəy, Sizə və Sizin burada olan qonaqlarınızın hamısına öz təşəkkürümü bildirirəm. Çox sağ olun!

Ankarada dünya ölkələrinin Türkiyədəki səfirləri və diplomatik heyətlərinin üzvləri ilə görüşdə Heydər Əliyevin çıxışı

9 fevral 1994

Azərbaycan haqqında yəqin ki, məlumatınız var. Ancaq bəzi fikirləri mənim dilimdən eşitmək sizin üçün əhəmiyyətli olardı.

İndi Azərbaycanın daxili həyatında ictimai-siyasi sabitlik var. Bir neçə ay öncə Azərbaycanın daxilində olan qarışıqlıq aradan götürülmüşdür. Xarici siyasətə gəldikdə isə, Azərbaycan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, bərabər hüquqlu əlaqələr saxlamaq prinsipini rəhbər tutur və biz öz xarici siyasətimizi bu istiqamətdə aparırıq. Azərbaycan bütün beynəlxalq təşkilatlarda imkan daxilində fəaliyyət göstərməyə çalışır və beynəlxalq aləmdə müstəqil bir dövlət kimi fəaliyyət göstərir. Respublikamız bütün dövlətlərlə müstəqil ikitərəfli əlaqələr yaradır, eyni zamanda qonşu ölkələrlə münasibətlərə daha çox fikir verir. **Azərbaycanın Türkiyə ilə əlaqələri xüsusi**

əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, Azərbaycanı Türkiyə ilə çoxəsrlik tarix bağlayır. Azərbaycan Respublikasının müstəqilliyini dünyada ilk dəfə Türkiyə Cümhuriyyəti tanımışdır. Azərbaycan xalqını və Türkiyə xalqını birləşdirən milli köklər, adət və ənənələr, dil və mədəniyyətin yaxınlığı iki dövlət arasındakı münasibətləri daha da əhəmiyyətli edir.

Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur. Keçmiş SSRİ-nin indi həmin birliyin üzvü olan 12 respublikasından biri kimi, Azərbaycan bu dövlətlərlə tarixən yaranmış iqtisadi, mədəni, elmi-texniki əlaqələri daha da möhkəmləndirmək yolu ilə gedir.

Ermənistan ilə Azərbaycan arasındakı münaqişə son altı ildə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlıdır. "Qarabağ problemi" kimi meydana çıxmış məsələ indi artıq Ermənistanla Azərbaycan arasında qanlı müharibəyə çevrilmişdi. Bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən imkanlardan istifadə edərək Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Keçmiş Dağlıq Qarabağ Vilayəti indi tamamilə Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Bundan əlavə keçmiş Dağlıq Qarabağ Vilayətinin ətrafında olan bir neçə rayon da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Azərbaycan-İran sərhəddinin bir hissəsinə də Ermənistan silahlı qüvvələri nəzarət edir. Bütün bunların nəticəsində bir milyondan artıq azərbaycanlı evsiyindən, obasından qaçqın düşmüşdür və çox ağır şəraitdə yaşayır.

Azərbaycan bu müharibəyə son qoymaq istəyir, bütün imkanlardan istifadə edərək bu problemi sülh yolu ilə həll etməyə çalışır. Bunun üçün Azərbaycan ilk növbədə Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanlarına çox ümid bəsləyir, ATƏT-in, onun Minsk qrupunun imkanlarından, böyük dövlətlərin, o cümlədən Amerika Birləşmiş Ştatlarının, Türkiyənin, Rusiyanın vasitəçilik imkanlarından istifadə etməyə çalışır və bu istiqamətdə bir çox diplomatik addımlar atmışdır. Təəssüf ki, bütün bu tədbirlərimiz indiyədək nəticə verməmişdir. Müharibə gedir, döyüşlər davam edir, yenə də qan tökülür.

Onu da bilmək lazımdır ki, müharibə Azərbaycan torpağında gedir. Ermənistanla Azərbaycan arasında gedən bu müharibədə Ermənistan öz torpağının bir qarışını da itirməmişdi.

Biz bu müharibəyə son qoymağa çalışırıq. Bir daha qeyd edirəm ki, biz bu istiqamətdə üstünlüyü yenə də yalnız və yalnız sülh məramına, sülh yoluna, sülh danışıqlarına veririk. Guman edirəm ki, dünya dövlətlər birliyi bu məsələnin sülh yolu ilə həll olunması üçün gərək daha çox səy göstərsin və Azərbaycanla Ermənistan arasında müharibəyə son qoyulsun, Azərbaycanın müstəqilliyi, ərazi

bütövlüyü tamamilə təmin olunsun.

Təəssüf ki, Ermənistan tərəfi məsələni güc yolu ilə, zor yolu ilə həll etmək istəyir, işğal olunmuş torpaqları əlində saxlamağa və Azərbaycanın yeni ərazilərini qəsb etməyə çalışır. Beləliklə də çalışır ki, öz iddialarını Azərbaycana qəbul etdirsin. Biz isə şübhəsiz ki, buna heç vəchlə razı ola bilmərik.

Biz sülh danışıqlarına üstünlük verməklə yanaşı, eyni zamanda Azərbaycan torpaqlarını müdafiəsi üçün lazımi tədbirlər görürük. Son aylarda bu sahədə görülmüş tədbirlər nəticəsində Azərbaycan torpaqlarının etibarlı müdafiə edilməsinə imkan yaranmışdı və guman edirəm ki, bu imkanlar daha da genişlənəcəkdir. Lakin siz diplomatlar xarici siyasət adamları olduğunuza görə bir daha bildirirəm ki, Azərbaycan müharibə istəmir, ona son qoymağa çalışır. Bunun da şərti ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq üçün danışıqlar aparılmalıdır.

Çıxışımın əvvəlində qeyd etdim ki, indi Azərbaycanın daxilində sabitlik yaranmışdır. Eyni zamanda sizə bildrmək istəyirəm ki, Azərbaycan bütün dövlət quruculuğunu, cəmiyyətdə dəyişiklikləri yalnız və yalnız demokratik prinsiplər əsasında həyata keçirmək əzmindədir. Biz Azərbaycanın hüquqi demokratik dövlət kimi formalaşdırıb inkişaf etdirmək yolu ilə gedirik. Azərbaycan dünya demokratiyasının bütün imkanlarından istifadə edərək bundan sonra da demokratiya yolu ilə gedəcəkdir. Azərbaycanda hüquqi, dünyəvi, sivilizasiyalı cəmiyyət qurmaq fikrindəyik. Respublikada çoxpartiyalı sistem bərqərar olmuş, bütün partiyalara tamamilə sərbəst fəaliyyət göstərmək imkanı verilmişdi. Milli mənsubiyyətindən, dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşlar eyni hüquqlara malikdirlər. Azərbaycanda insan hüquqlarının qorunması üçün təminat yaranmışdar və bu sahədə bütün tədbirlər görüləcəkdir. Bir sözlə, Azərbaycan Respublikası demokratiya yolu ilə gedir.

İqtisadiyyat sahəsində bizim yolumuz sərbəst iqtisadiyyat yoludur, iqtisadi islahatlar keçirməklə Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatına yaxınlaşdırmaq yoludur.

Guman edirəm ki, mənim bu qısa məlumatım sizdə Azərbaycan haqqında müəyyən təsəvvür yaradır. Ona görə də vaxtınızı çox almaq istəmirəm.

İstanbulda "Sülh və Səbir" Beynəlxalq dini konfrans nümayəndələri qarşısında Heydər Əliyevin çıxışı

10 fevral 1994

Bu gün sizinlə görüşməyimdən çox məmnunam. Hamınıza səmimi salamlarımı yetirir, hörmət və ehtiramımı bildirirəm.

Bildiyiniz kimi Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvətilə mən burada rəsmi səfərdəyəm. İki gün ərzində Ankarada bizim çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız oldu. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığı təmin etmək üçün müqavilələr, o cümlədən dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Dünən axşam İstanbula gəldim və burada sizinlə görüşmək imkanı olduğunu mənə bildirdilər. Belə bir görüşün mümkünlüyündən çox məmnun oldum və bir daha bildirirəm ki, sizinlə görüşə böyük məmnuniyətlə gəlmişəm.

Hələ Bakıda ikən sizin konfrans haqqında mənə məlumatlar gəldi. Bu konfransın işinə çox böyük əhəmiyyət verərək və indiki dövrdə onun bütün insanlar üçün faydalı olduğunu nəzərə alaraq sizin konfransa xüsusi məktub göndərdim. Məmnunam ki, məktubum sizə çatmış və onunla tanış olmusunuz. Fikrimcə, konfransın başlıca əhəmiyyəti ondan ibarətdir ki, siz vicdana çağırış, sülh və barışıq məsələlərini diqqət mərkəzinə çəkmisiniz. İndi bu, dünya üçün, bütün xalqlar üçün çox vacib, mühüm məsələdir. Təəssüf ki, son illərdə, XX əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuş, insanlar arasında, dövlətlər arasında ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və onların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyamızda gedən ictimai-siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin.

Yer üzərində yaşayan insanlara Allahın ən böyük tövsiyəsi ondan ibarətdir ki, onlar bir-birilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri həm Allahın göstərdiyi yolla getmək deməkdir, həm də yer üzərində insanların sülh şəraitində yaşamalarına böyük köməkdir. Müharibənin, ayrı-ayrı dövlətlərin birbiri ilə vuruşmasının, müxtəlif siyasi-ictimai qrupların bir-biri ilə savaşmasının əsas səbəbləri, şübhəsiz ki, siyasi xarakter, etnik xarakter daşıyır, birinin digərinin torpağını zorla əlindən almaq məqsədini daşıyır. Bunlar, şübhəsiz ki, dini xarakter daşıya bilməz.

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Sizin bu konfransınız, müxtəlif dinləri təmsil edən xadimlərin toplaşaraq bir məsələni, bütün dünya xalqlarını narahat edən məsələni - vicdana çağırış, sülh, səbr məsələlərini müzakirə etməsi buna canlı sübutdur. Mən sizin bu təşəbbüsünüzü və belə fədakar fəaliyyətinizi alqışlayır, ürəkdən bəyənirəm. Sizə göndərdiyim məktubda da bununla bağlı öz fikirlərimi bildirmişəm və çox məmnunam ki, indi üzbəüz, şəxsən görüşüb bu sözləri sizə çatdırmaq mənə nəsib olmuşdur. Sizin bir yerə toplaşmağınız, həmrəyliyiniz, bir-birinizlə mehriban əlaqələriniz onu göstərir ki, insanlar dini, irqi mənsubiyyətindən asılı olmayaraq birlikdə yaşaya bilərlər, birbiri ilə mehriban, dost ola bilərlər və öz həyatlarını qura bilərlər.

Bizim Azərbaycan Respublikası üçün sizin fəaliyyətiniz xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi Azərbaycanda İslam dini ilə yanaşı, xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindənvə siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik.

Böyük təəssüf hissi ilə qeyd edə bilərəm ki, bizim regionda, yəni Zaqafqaziyada - Azərbaycanda, Ermənistanda və Gürcüstanda etnik səbəblərə görə, etnik zəmin əsasında çox böyük gərginlik, toqquşmalar var, hətta müharibə gedir, qan tökülür. Bütün bunlar bizi həddindən artıq narahat edir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və Prezident kimi şəxsən mən çalışırıq və bundan sonra da çalışacağıq ki, regionumuzda etnik prinsiplər əsasında olan münaqişələrə son qoyulsun.

Bizi - Azərbaycan Respublikasını çox ağır vəziyyətə salan, şübhəsiz ki, erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı təcavüzüdür. Siz bilməlisiniz ki, Azərbaycan ilə Ermənistan arasında altı il bundan öncə, "Qarabağ problemi" əsasında meydana gəlmiş münaqişə indi artıq böyük müharibəyə çevrilmişdir. Guman edirəm, bizim xalqlarımız - həm Azərbaycan xalqı, həm də erməni xalqı belə bir münaqişəni istəmir. Təəssüf ki, ayrı-ayrı ekstremist, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa çalı-

şan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin münaqişə böyük bir müharibə şəklini almışdır.

Müharibənin də nəticəsi bu gün ondan ibarətdir ki, erməni silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edərək ərazimizin 20 faizini işğal etmişdi. Azərbaycanın işğal olunmuş ərazisindən bir milyondan artıq vətəndaşımız ev-eşiklərini, el-obalarını itirərək qaçqın düşmüşdür və onlar indi çox ağır şəraitdə yaşayırlar. Biz müharibə istəmirik, ona son qoymağa çalışırıq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik. Çünki erməni xalqı ilə Azərbaycan xalqı əsrlər boyu qonşu olmuşdur və gələcəkdə də yan-yana yaşayacaqlar. Başqa yol yoxdur. Ona görə də bu müharibənin gələcəyi yoxdur, onun nəticəsi ancaq sülh olmalıdır. Sülh isə bir şərtlə ola bilər: iki dövlətin, iki respublikanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilsin, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, erməni işğalçıları Azərbaycan ərazisindən çıxsınlar və azərbaycanlılar öz torpaqlarında yaşaya bilsinlər. Ermənistanın ərazi bütövlüyünə də heç kim qəsd etmək istəmir, onun da sərhədlərinin toxunulmazlığı təmin olunsun. Bu, sadə formula, sadə prinsipdir. Ancaq bunu həyata keçirmək üçün böyük maneələr var və bunlardn biri də odur ki, bayaq dediyim kimi, altı ilə yaxındır müharibə gedir.

Biz Ermənistana torpaq iddiası etmirik. Ancaq öz torpaqlarımızı da, şübhəsiz ki, Ermənistana verə bilmərik.

Bizim sülh təşəbbüslərimiz təəssüf ki, bir nəticə verməmişdir. Beynəlxalq təşkilatların - Birlənmiş Millətlər Təşkilatının, ATƏT-in bu məsələ üzrə yaradılmış xüsusi Minsk qrupunun fəaliyyəti də bir nəticə verməmişdir. Hətta din xadimləri də - Şeyxulislam Hacı Allahşükür Paşazadə və erməni kilsəsinin rəhbəri də bir neçə dəfə görüşmüşlər. Təəssüf ki, bu görüşlərin də nəticəsi olmamışdır. Ancaq biz yenə də sülhsevər siyasətimizi davam etdiririk, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan gücsüz də deyildir. Əgər bizim sülhsevər təşəbbüslərimiz nəticə verməsə, biz məcburuq öz torpaqlarımızı güclə azad edək, erməni işğalçılarını torpaqlarımızdan çıxaraq. Şübhəsiz ki, biz sülh yoluna üstünlük veririk və bu yolla gedəcəyik. Ancaq kimsə müharibəni davam etdirmək istəyirsə, biz bunu da edəcəyik. Başqa yolumuz yoxdur. Sizin diqqətinizə bir məsələni də çatdırmaq istəyirəm. Bu münaqişə yalnız ərazi xarakteri daşıyır, yəni erməni silahlı qüvvələri Azərbaycan ərazisinin bir hissəsini tutmuşdur, biz onları oradan çıxarmaq istəyirik. Ermənistanın güclü təbliğatı nəticəsində dünyanın bəzi dairələrində belə bir fikir yaranmışdır ki, guya Azərbaycan dövləti, Azərbaycan hökuməti Dağlıq Qarabağda yaşayan erməniləri qırmaq, o ərazidən qovmaq istəyir. Bunların hamısı yalandır. Belə iddiaların heç bir əsası yoxdur. Mən bir həqiqəti sizin qarşınızda məsuliyyətlə bəyan edirəm: Azərbaycan hökumətinin, Azərbaycan xalqının respublikada yaşayan ermənilərə qarşı heç bir zorakılıq niyyəti, yaxud onları zorla buradan çıxarmaq məqsədi yoxdur. Onlar öz yerlərində rahat yaşaya bilərlər və Azərbaycan dövləti, şəxsən bir Prezident kimi mən onların tamamilə təhlükəsiz, sərbəst yaşamasına, öz milli ənənələrindən, mədəniyyətlərindən, dinindən, dilindən azad surətdə istifadə etməklə həyatlarını qurmasına təminat veririk.

Əvvəllər də belə olmuşdu. Dağlıq Qarabağda münaqişə başlayanadək əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Ancaq bu münaqişə nəticəsində, sonra isə başlanmış bu böyük müharibə nəticəsində orada yaşayan 50 min nəfər azərbaycanlı öz ölkəsində, öz dövlətində qaçqın düşmüşdür və Dağlıq Qarabağı qaytarmaq imkanları yoxdur. ona Görə də əgər biz insan hüquqlarının qorunmasından danışırıqsa, şübhəsiz ki, ermənilərin də, azərbaycanlıların da hüquqları qorunmalıdır. Çünki o ərazidə həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Orada ermənilərin və azərbaycanlıların yan-ana, dostcasına, mehriban yaşamaları üçün şərait yaratmağa imkanımız var. Belə şərait illər boyu olmuşdur və bundan sonra da olacaqdır.

Son vaxtlar Ermnistan-Azərbaycan münaqişəsi, müharibəsi ilə əlaqədar ayrı-ayrı mətbuat orqanlarında təhlükəli şayiələr də yayılmışdı. Bu da ondan ibarətdir ki, bəzi adamlar qəsdən belə fikir yaymağa çalışırlar ki, guya bu müharibə xristian-müsəlman müharibəsinə çevrilə bilər. Bunlar əsassızdır, əvvəlcədən düşünülmüş, fitnəkar xarakter daşıyan təbliğatdır. Mən belə fikirlərə etirazımızı bildirir və onları rədd edirəm. Sizi əmin etmək istəyirəm ki, bizim fəaliyyətimiz ancaq Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən tanınmış və qəbul olunmuş ərazi bütövlüyünü təmin etməyə, sərhədlərimizin toxunulmazlığını təmin etməyə yönəldilmişdir.

Azərbaycanda tarixən çox millətlər yaşamışdır. Burada azərbaycanlılarla yanaşı, ruslar, ermənilər, yahudilər, gürcülər, ukraynalılar və başqaları da yaşamış və gələcəkdə də yaşayacaqlar. Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını ölkəmiz üçün böyük üstünlük hesab edirik.

Bu fikirlərimi sizə çatdırarkən istədim ki, Azərbaycanın bugünkü vəziyyəti haqqında daha geniş məlumatınız olsun. Eyni zamanda sizin müştərək fəaliyyətinizə müəyyən qədər kömək etmək istəyirəm. Bir daha qeyd edirəm ki, siz çox xeyirxah, dəyərli iş görürsünüz. Bu fəaliyyətinzdə sizə böyük uğurlar arzulayıram. Sizin hamınızı Azərbaycana dəvət

edirəm. Çox şad olaram ki, hamınızla Azərbaycanda görüşüm. Əgər birlikdə gələ bilməsəniz, hər birinizi ayrılıqda qəbul etməyə hazıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə əməkdaşlığımız davam edəcəkdir. İnsanlar üçün, bəşəriyyət üçün, dünya üçün bu xeyirxah fəaliyyətinizdə sizə müvəffəqiyyətlər diləyirəm.

Türkiyə Cümhuriyyətinin sizdən ötrü belə bir şərait yaratmasından görünür ki, bizim üçün dost və qardaş olan ölkə, doğrudan da, bütün millətlərin sülh yolu ilə birlikdə getməsinə çalışır. Guman edirəm ki, Türkiyə Cümhuriyyətinin Dini İşlər naziri də bu təşəbbüsünə görə böyük hörmətə layiqdir.

Mən sizinlə görüşməyimdən məmnun olduğumu bir daha bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Türkiyənin iş adamlarının böyük bir qrupu ilə görüşdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

10 fevral 1994

Hörmətli dostlar, hörmətli arkadaşlar!

Biz buraya, bu salona Türkiyənin mötəbər iş adamları ilə görüşə gəlmişik. Türkiyənin məşhur iş adamlarının Azərbaycana maraq göstərməsini onların burada olmasından görürük. Bildiyiniz kimi, üçüncü gündür ki, mən və Azərbaycan Respublikasının rəsmi nümayəndə heyəti Türkiyədəyik. Biz buraya Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə gəlmişik və bu üç gün müddətində Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün danışıqlar aparmışıq. Nəhayət, dünən bir çox müqavilələr, protokollar imzalamışıq. Bunların hamısı Azərbaycan və Türkiyə arasında əməkdaşlığın keyfiyyətcə yeni bir mərhələyə qalxdığına sübutdur, münasibətlərimizdə yeni bir səhifə açır.

Fürsətdən istifadə edərək, bu günlərdə Azərbaycanın nümayəndə heyətinə, şəxsən mənə göstərilən qayğı və hörmət üçün Türkiyədəki qardaşlarımıza, o cümlədən dövlət rəhbərlərinə, sadə adamlara öz minnətdarlığımı bildirirəm. Bu gün buraya, bu görüşə toplaşdığımıza görə sizə təşəkkürümü bildirirəm.

Apardığımız danışıqlar və bu danışıqlar nəticəsində əldə edilən müqavilələr ən əvvəl Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə yönəldilmişdir. Bu sənədlərdə iqtisadi əlaqələr geniş səpkidə nəzərdə tutulur. O mənada ki, bütün sahələrdə əməkdaşlıq olmalıdır. Biz istəyirik ki, əməkdaşlığımız bütün sahələri əhatə etsin və Azərbaycan ilə Türkiyənin iqtisadiyyatı bir-birinə daha da yaxınlaşsın, daha da culğalaşsın. Çünki bu, həm iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün çox əhəmiyyətlidir, həm də tarixi dostluğumuzu, qardaşlığımızı

davam etdirmək üçün vacibdir. Bu əlaqələr istər ticarətdən, istərsə də Türkiyənin ayrı-ayrı şirkətlərinin Azərbaycan şirkətləri, müəssisələri, sənayesi, kənd təsərrüfatı ilə görəcəyi işlərdən ibarətdir.

Mən istərdim ki, bu gün biz bu barədə geniş söhbət aparaq, sizi də dinləyək, təkliflərinizi bilək. Lakin ümumilikdə götürdükdə mən öz fikrimi söyləmək üçün bir neçə kəlmə demək istəyirəm. Guman edirəm ki, söhbətimiz baş tutacaqdır.

Qeyd etmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin, ümumiyyətlə, aramızdakı əlaqələrin 3-4 illik tarixi var. Yəni Azərbaycan öz müstəqilliyini hələ əldə etməzdən əvvəl Türkiyənin firmaları, iş adamları, şirkətləri Azərbaycana maraq göstərmişlər. Bunun nəticəsində müəyyən əlaqələr yaradılmışdır. Amma bu əlaqələr heç də istənilən səviyyədə inkişaf etməmişdir. Açığını desək, onlar əsasən ticarət sahəsində olmuşdur. O da doğrudur ki, bu əlaqələr iqtisadi əlaqələrin böyük bir hissəsini təşkil etmişdir. Amma bizim iqtisadiyyatlarımızı birbirinə sıx bağlayan müştərək müəssisələr, iş yerləri yaradılması məsələsi bu müddətdə təəssüf ki, çox zəif, aşağı səviyyədə olmuşdur. Halbuki əlaqələr çoxsahəli olmalıdır.

Biz ticarət əlaqələrinin davam etdirilməsinə yol açmışıq və bundan sonra da açacağıq. Çünki Azərbaycan öz iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında qurmaq və inkişaf etdirmək məramındadır. Bununla yanaşı olaraq, biz çox istərdik ki, Türkiyənin iş adamları, xüsusən sənaye, kənd təsərrüfatı sahəsində, sosial sahədə mükəmməl texnologiyalara malik böyük şirkətləri, firmaları Azərbaycanın şirkətləri, iş adamları ilə, o cümlədən bizim böyük müəssisələrimizlə əməkdaşlıq etsinlər. Belə ki, bizim bu müəssisələrin böyük imkanları var, ona görə də mən sizi bu imkanlardan səmərli istifadə etməyə çağırıram.

Türkiyə Prezidenti ilə, başqa yüksək vəzifəli şəxslərlə dünən imzaladığımız müqavilələrin, protokolların əksər hissəsi iqtisadi əlaqələrə aiddir. Biz belə hesab edirik ki, iqtisadi əlaqələrin ən əvvəl Türkiyənin böyük təcrübəsi, böyük iqtisadi potensialı, texniki potensialı olan şirkətləri ilə qurmaq lazımdır. Biz bu şirkətləri Azərbaycana dəvət edirik və ölkəmizdə onların fəaliyyət göstərməsi üçün hər cür şərait, hər cür imkan yaratmağa hazırıq.

Bəzən də ayrı-ayrı şirkətlər Azərbaycanda bir iş görmək istəmədiklərini onunla izah edirlər ki, ölkəmizdə müharibə gedir və guya bu müharibənin nə ilə qurtaracağı məlum deyildir, daxildə sabitlik təmin olunmayıbdır, Azərbaycanda əsla istiqlal yoxdur. Odur ki, bəzi şirkətlər Azərbaycanda kapital qoymaqdan, əsaslı, iri müştərək müəssisələr yaratmaqdan ehtiyat edir, bundan çəkinirlər.

Mən sizə bildirmək istəyirəm

ki, bundan ehtiyat etməyin, belə fikirlərə düşməyin heç bir əsası yoxdur. Azərbaycanın böyük iqtisadi potensialı var, bununla yanaşı çox böyük elmi potensialımız mövcuddur. Biz yaxşı mühəndislərə, təcrübəli sənayeçilərə malikik. Odur ki, çəkinmədən işə girişmək olar. O ki qaldı Azərbaycanın müharibə şəraitində olmasına, bilin ki, müharibə daim davam edə bilməz, Azərbaycan Respublikası öz ərazi bütövlüyünü, müstəqilliyini təmin edəcəkdir. Azərbaycan xalqı öz sərvətlərinin sahibidir və sahibi olacaqdır. Bir sözlə, ehtiyat edib çəkinmək lazım deyildir.

Azərbaycanda ictimai-siyasi sabitliyə gəlincə, əmin ola bilərsiniz ki, bunlar xırda məsələlərdir. Ümumiyyətlə, bütövlükdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitdir və bundan sonra da sabitləşəcəkdir. Sizi tamamilə əmin edə bilərəm ki, bu sabitlik getdikcə, gündən-günə daha da möhkəmlənəcəkdir. Sözün qısası, Türkiyənin iş adamları gecikməməli, fürsəti əldən verməməli, Azərbaycan kimi zəngin bir ölkədə öz işlərinin bünövrəsini qoymalıdırlar. Mən sizi bu işə dəvət edirəm. Ən əvvəl ona görə ki, bir daha təkrar edirəm, məqsədimiz Azərbaycan iqtisadiyyatının Türkiyə ilə daha sıx əlaqədə olmasından ibarətdir. Bunun həm iqtisadi, həm də mənəvi, siyasi əhəmiyyəti var. İkincisi də ona görə dəvət edirəm ki, siz iş adamlarısınız, qol qoyduğunuz hər bir işin bəhrəsini görmək istəyirsiniz. Əmin ola bilərsiniz ki, Azərbaycanda belə iş görmək və onda yaxşı nəticə hasil etmək imkanı var. Mən sizin hamınıza bu yolda uğurlar arzulayır və guman edirəm ki, gələcəkdə əməkdaşlığımız səmərəli olacaqdır.

Buraya toplaşdığımıza görə sizə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, müəyyən müddətdən sonra işgüzar danışıqlarımıza yenidən qayıdacaq və bu zaman ayrı-ayrı konkret məsələləri müzakirə edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun!

Türkiyədə rəsmi səfərdə olarkən orada yaşayan azərbaycanlılarla görüşdə Prezident Heydər Əliyevin çıxışı

10 fevral 1994

Hörmətli həmvətənlərimiz, qardaşlarımız, dostlarımız!

Mən sizinlə görüşdüyümə görə özümü xoşbəxt hesab edirəm. Türkiyədə biz özümüzü öz evimizdə, öz vətənimizdə olduğu kimi hiss edirik. Burada yaşayan Azərbaycanlılarla köklü qardaşlarımız var, həmvətənlərimizlə görüş bizim üçün böyük şərəfdir.

Tarixə nəzər salsaq, bir daha görərik ki, Türkiyə ilə Azərbaycan bir xalq, bir millət kimi qəbul olunub. Türkiyə ilə Azərbaycan arasında əlaqələr əsrlərdən-əsrlərə keçərək

bu iki ölkənin qabaqcıl, bilikli adamları, siyasətçiləri, sərkərdələri vasitəsilə formalaşıb, inkişaf edib, bu günümüzə gəlib çatmışdır.

Doğrudur, arada fasilə də olmuşdur. Ötən 70 ildə Azərbaycan Sovetlər Birliyinin tərkibində olduğu zaman Türkiyə ilə Azərbaycan arasında münasibətlər qırılmış və minlərlə, on minlərlə ailələr, insanlar öz qohum əqrabalarını, qardaşlarını, bacılarını görmək həsrətində olmuşlar. Bir çoxları isə bu ümidləri yerinə yetmədən həyatdan köçmüşdür. Ancaq son illərdə böyük fürsət əldə olunmuş, Azərbaycan müstəqil dövlət kimi dünyada tanınmış və Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür. İndi bu iki qardaş ölkə arasındakı əlaqələr çox genişdir. Türkiyədə yaşayan hər bir azərbaycanlı öz vətənini ziyarət etmək imkanına malikdir. Eyni zamanda hər bir azərbaycanlı da böyük həvəslə, məhəbbətlə gəlib, Türkiyəni ziyarət edə bilir, öz qardaşlarına hörmətini, ehtiramını bildirir.

Bunlar son illərdə bizim həyatımızın ən önəmli, gözəl bir mərhələsidir. Xalqlarımızın birləşməsi, qovuşması, birgə yaşaması üçün şərait yaranmışdır. Bundan sonra heç bir qüvvə bu birliyi poza bilməyəcəkdir.

Türkiyə Cümhuriyyəti, onun rəhbərləri Azərbaycan müstəqillik yolunda ilk addımlarını atarkən, Respublikamız müstəqillik qazanarkən onu dünya dövlətləri içərisində birinci tanıdı. Türkiyənin bu addımı Azərbaycanın bütün dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasına çox böyük kömək oldu və geniş yol açdı.

İndi Azərbaycan müstəqil dövlətdir, Birləşmiş Millətlər Təşkilatının üzvüdür, dünya dövlətləri tərəfindən tanınıb, müstəqil dövlət kimi fəaliyyət göstərir.

Azərbaycanın müstəqilliyi barədə Türkiyədə müxtəlif fikirlər var. Bir çoxları fikirləşir ki, bu müstəqillik daimidir, yoxsa yox. Bunun şübhəsiz ki, müəyyən qədər əsası var. Tarixə nəzər salanda belə qorxu hissi təbiidir. Ancaq mən sizi əmin etmək istəyirəm ki, Sovetlər Birliyinin dağılması təbii bir haldır, Sovetlər Birliyi artıq bir də yarana bilməz. Bunu mən həyat təcrübəsi, siyasi təcrübəsi olan bir adam kimi deyirəm. Eləcə də Azərbaycanın müstəqilliyinin əldən getməsi heç vaxt ola bilməz.

Birincisi ona görə ki, Azərbaycan xalqı bu müstəqillik arzusu ilə uzun illər yaşayıb, on illərlə, yüz illərlə müstəqillik həsrətində olub. Bir dəfə 1918-ci ildə müstəqillik əldə edilib, lakin bəzi səbəblərə görə sonradan itirilib. Sonrakı 70 il ərzində başqa bir ideoloci sistem çərçivəsində yaşayan Azərbaycan xalqının içində onun qabaqcıl adamları, ziyalıları, uzaq görən siyasətçiləri həmişə bu müstəqilliyin arzusunda olmuşlar. Xalqın içində isə bu müstəqillik arzusu daim yaşayıb. Ona görə də xal-

qın bu iradəsini sındırmaq artıq mümkün deyil. Dünya dəyişib, dünyada gedən dəyişikliklər nəticəsində Azərbaycan xalqının milli oyanış, milli yüksəliş dövrü gəlib çatıb. Ona görə də Azərbaycan xalqının bu iradəsini sındırmaq mümkün deyildir və əmin olun ki, bu belə də olacaq.

İkincisi də ona görə ki, mən Azərbaycan xalqının etimadı ilə Prezident kimi fəaliyyətə başlayarkən əlimi Azərbaycanın Konstitusiyasına, Anayasasına və "Qurani-Kərim"ə basıb demişəm ki, mən Prezident kimi Azərbaycanın daimi müstəqilliyinin təminatçısı olaraq bu vəzifəni öz üzərimə götürürəm. Azərbaycanın Prezidenti, ziyalıları, siyasətçiləri hamısı birləşib bu müstəqilliyi saxlayacaqlar. Buna tam əmin ola bilərsiniz. Mən Prezident kimi söz verirəm ki, həyatımın son dəqiqəsinə qədər, nəfəsimin son anına qədər Azərbaycanın müstəqilliyini qoruyub saxlayacağam.

Ancaq bir həqiqəti də bilmək lazımdır ki, Azərbaycan 200 il Rusiya imperatorluğunun tərkibində, 70 il Sovet imperiyasının tərkibində olub. İndi keçmiş Sovetlər İttifaqında, Qafqazda gedən proseslər Azərbaycanın müstəqil yaşaması üçün çox böyük çətinliklər yaradır. Siz təsəvvür edin, Qafqaz dağlarından Cənub tərəfə üç Cümhuriyyət var - Ermənistan, Gürcüstan və Azərbaycan. Altı ildir ki, Ermənistan Azərbaycanla müharibə aparır.

Azərbaycanın müstəqilliyini saxlamaq asan bir iş deyil. Bunun üçün xalqımız, millətimiz - siyasi dünyagörüşündən asılı olmayaraq bütün Azərbaycan xalqı bu gün bir məqəsədə - Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa xidmət etməlidir.

Çətinlik yaradan digər səbəb isə odur ki, Azərbaycan altı ildir Ermənistanla müharibə şəraitindədir. Altı ildir ki, Ermənistan Azərbaycan ərazilərinə, torpaqlarına təcavüz edir. Təəssüf ki, bu müddət ərzində Azərbaycanda gedən bəzi proseslər nəticəsində, xalqın yox, xalqın etimad etdiyi dairələrin, şəxslərin bacarıqsızlığı nəticəsində erməni silahlı qüvvələri öz iddialarını həyata keçirmək üçün müəyyən sahələrdə müvəffəqiyyət qazanıblar, Azərbaycan torpaqlarının bir qismini işğal ediblər. Dağlıq Qarabağ artıq tamamilə erməni silahlı qüvvələrinin işğalı altındadır. Dağlıq Qarabağdan kənarda da Azərbaycan torpaqlarının bir qismi erməni işğalçılarının əlindədir. Ona görə də indi, müharibə getdiyi bir dövrdə Azərbaycanın müstəqilliyini əldə saxlamaq asan bir iş deyildir.

Bir həqiqəti də bilmək lazımdır ki, ötən altı ildə Azərbaycana xaricdən təcavüz - bu təcavüz isə tək Ermənistanın təcavüzü deyil, - Azərbaycanı parçalamaq, dağıtmaq, onun güclü bir dövlət olmasına imkan verməmək məqsədi daşıyan qüvvələrin hamısının birlikdə təcavüzüdür. Belə təcavüzə məruz qaldığı bir dövrdə Azərbaycan, qüvvələrin toplayıb özünü müdafiə etmək əvəzinə respublikanın daxilində parçalanma getmişdi. Bundan istifadə edən ayrı-ayrı qruplar, siyasi qüvvələr hakimiyyət davası etmişlər. Ölkənin içərisində gedən hakimiyyət davası dövründə Ermənistan bu imkanlardan istifadə edərək Azərbaycan torpaqlarını zaman-zaman, bir-birinin ardınca işğal etməyə nail olmuşdur.

İndi işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək asan məsələ deyil. Biz Ermənistan silahlı qüvvələri ilə üz-üzə durub vuruşuruq. Siz bunu da bilirsiniz ki, dünyada Ermənistanı dəstəkləyən qüvvələr nə qədər çoxdur. Ermənistanı o tərəfdən də, bu tərəfdən də, şərqdən də, qərbdən də, şimaldan da, cənubdan da dəstəkləyirlər. Belə bir dövrdə müharibəni aparmaq, torpaqlarımızı azad etmək üçün, şübhəsiz ki, bizim hamımızın birgə gücü lazımdır.

Bu baxımdan biz Türkiyənin köməyinə, dəstəyinə həmişə arxalanmışıq və bundan sonra da arxalanacağıq. Şübhə etməyin ki, Azərbaycan xalqı bu ağır sınaqdan da çıxacaq, öz torpaqlarını azad edəcək, öz müstəqilliyini qoruyub saxlayacaq, xalqımız özünün bütün ərazisində öz taleyinin sahibi olacaqdır.

1993-cü il Azərbaycan üçün daha da ağır il oldu. Bilirsiniz ki, müharibə getdiyi bir dövrdə Azərbaycanın içində vətəndaş müharibəsi təhlükəsi meydana çıxdı. Gəncədə, Bakının ətrafında qardaş qanı töküldü. Ayrı-ayrı qüvvələr hakimiyyət uğrunda bir-biri ilə mübarizəyə başladılar. Bundan istifadə edən düşmənlərimiz, Ermənistan ərazisindən istiqamətlənən düşmənlərimiz Azərbaycanı parçalamaq həddinə gətirib çıxarmışdılar. Bunları siz yaxşı bilirsiniz.

Bunların qarşısını almaq o qədər də asan məsələ deyildir. Biz bu işlərlə məşğul olduq və siz şahidsiniz ki, son aylarda Azərbaycan ordusu öz gücünü toplayıb, xalqımızda milli vətənpərvərlik hissi güclənib, döyüş ruhu yüksəlib. Xalq artıq dərk edib ki, öz torpağını o özü qorumalıdır. Kənardan gəlib heç kəs onun torpağını qorumayacaqdır. Bu heç mümkün olası iş də deyil. Əgər sən bir yerdə yaşayırsansa, sənin bir evin, koman varsa, onun sahibisənsə, onu qorumalısan. Əgər qoruya bilirsənsə, demək, sən namuslu, şərəfli adamsan, həm də doğrudan da vətənpərvər insansan. Əgər qoruya bilmirsənsə, sənin heç yaşamaq haqqın da yoxdur.

Azərbaycanda xalqın əksəriyyətinin içində artıq belə bir əhvalruhiyyə yaranıb. Mən sizə deyim ki, bir sıra rayonlarımız, orada döyüşlər getmədən, qurbanlar verilmədən, düşmənə layiqli müqavimət göstərilmədən işğal olundu. Adicə bir hayküy nəticəsində, xırda bir atışma nəticəsində, daxildə olan bəzi təxribatçı qüvvələrin düşmənçilik hərəktləri nəticəsində böyük-böyük bölgələrdən əhali kütləvi surətdə çıxıb qaçdı. Ermənilər isə davasız-şavasız, müqavi-

mətsiz gəlib bu torpaqlarda oturdular. Onlar buraya asanlıqla gəldilər. Amma onları bu torpaqlardan çıxarmaq, geriyə oturtmaq, həmin torpaqları azad etmək çox çətindir. Təsəvvür edin, işğal olunmuş həmin bölgələrdən, torpaqlardan bir milyondan artıq qaçqın var. Bir milyon Azərbaycan vətəndaşı öz evini, obasını, elini itirib, ulu babasından varını-dövlətini itirib, qaçqın vəziyyətində, çadır altında, ağır şəraitdə yaşayır, işləməyə yeri yoxdur, yeməyə çörəyi yoxdur. Bunların hamısını təmin etmək lazımdır. Bəlkə də məhz bütün bunlar Azərbaycan xalqında milli oyanış, milli dirçəliş, milli vətənpərvərlik ruhu, özünü müdafiə etmək cəsarəti yaradıbdır.

Bu ruh artıq özünü göstərir. Son vaxtlar Azərbaycan ordusu formalaşır, qəhrəmancasına döyüşərək torpaqlarımızı qoruyur, onun bir hissəsini artıq geriyə qaytarır. Ötən tarixə bir daha nəzər salmaqla belə bir fikrə gəlirik ki, indiki dövrdə Azərbaycan xalqının birləşməsi, həmrəy olması hava, su kimi lazımdır. Bunu xüsusi qeyd edirəm, ona görə ki, xalqımızda məhz son illər bu xüsusiyyətlər çatmayıb. Ona görə də Azərbaycan belə ağır vəziyyətə düşmüşdür.

Bu baxımdan Türkiyədə yaşayan azərbaycanlıların respublikamıza göstərdikləri kömək, qayğı, mənəvi dayaq çox önəmli və əhəmiyyətlidir. Türkiyə Cümhuriyyətinin və onun rəhbərlərinin son illərdə Azərbaycana göstərdikləri kömək çox böyükdür və biz bunu yüksək qiymətləndiririk. Ancaq onu da deyə bilərəm ki, Azərbaycanda Türkiyənin bu qardaşlıq yardımına bərabər səviyyədə işlər görülməyibdir. Bəlkə də görülsəydi, Azərbaycanda belə ağır vəziyyət yaranmazdı.

Harda olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda respublikadan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir.

Yeri gəlmişkən, onu da deyim ki, Azərbaycan keçmiş iqtisadi-siyasi sistemə dönə bilməz. Buna da siz tam əmin olun. Azərbaycan dünyanın artıq təcrübədən keçmiş siyasi-iqtisadi sistemləri yolu ilə gedəcəkdir. Azərbaycanda hüquqi demokratik dövlət, cəmiyyət qurulur, fikir, söz, din, dil azadlığı tamamilə bərqərar olur. Azərbaycanın bütün vətəndaşları dilindən, dinindən, irqindən asılı olmayaraq eyni hüquqlara malikdirlər. İndi respublikamızda 40-a yaxın partiya fəaliyyətdədir. Bunların hamısı üçün lazımi şərait yaradılır və yenə

də yaradılacaqdır. Azərbaycanda demokratiya günü-gündən inkişaf edəcəkdir. Siz bilməlisiniz ki, 70 il ərzində bir rejim altında yaşayan bir ölkədə bu dəyişiklikləri etmək o qədər də asan deyil. Bunu təkcə inqilab yolu ilə etmək mümkün deyil. Bütün bunlar tədrici yolla getməlidir. İnsanlar yeni sistemə, yeni quruluşa, yeni psixologiyaya uyğunlaşmalıdırlar. Ancaq demokratiya mədəniyyət deməkdir, demokratiya sivilizasiya deməkdir. Demokratiya o deməkdir ki, hər kəs öz sözünü dostluq, qardaşlıq münasibəti ilə desin. Bütün bunları düşmənçiliklə, təxribat törətməklə etmək düzgün deyildir. Çox təəssüf ki, Azərbaycanın bu keçid dövründə biz belə hallara hələ də rast gəlirik.

Siz əmin ola bilərsiniz ki, Azərbaycanda demokratik prinsiplərə əməl olunacaq, ölkəmiz sərbəst bazar iqtisadiyyatı yolu ilə gedəcək, ümumdünya bəşəri dəyərlərdən istifadə edərək öz dövlətini quracaqdır. Azərbaycan sivilizasiyalı, demokratik dövlət kimi dünya birliyinin layiqli üzvü olacaqdır.

Türkiyə bizim üçün qardaş ölkədir. Ona görə də bütün bu məsələlərin həllində Türkiyənin yardımına güvənirik, onun mənəvi dayağına güvənirik. Eyni zamanda Türkiyədə yaşayan azərbaycanlıların köməyinə güvənirik. İstəyirik ki, azərbaycanlılar nə Azərbaycanda, nə Türkiyədə, nə də Avropada yaşadıqları yerlərdə parçalanmasınlar, bir-birindən ayrılmasınlar, xırda hisslərə qapılmasınlar, bir-birinə qarşı qruplar düzəltməsinlər. Hamı bir fikirdə olsun ki, biz Azərbaycanı sivilizasiya, dünya mədəniyyəti yolu ilə, dünya demokratiyası yolu ilə aparmalıyıq.

Bildiyiniz kimi Türkiyədə Azərbaycan "Kültür Dərnəyi" var. Mən onun rəhbərləri ilə bir neçə dəfə görüşmüşəm. Lap bu yaxınlarda onlar Bakıya gəldilər və biz oturub söhbət etdik. Mən buraya gələrkən xahiş etdim ki, səfər proqramına salsınlar və mən bu Kültür Dərnəyini də ziyarət edim. Yəni bir dərnək varsa və orda azərbaycanlılar toplanırsa, mən oranı ziyarət etməyi özümə borc bildim. Sonra bəzi səbəblərə görə bu dərnəyi ziyarət etmək bizə nəsib olmadı. Ancaq bu heç də böyük itki deyildir.

Mən belə hesab etmirəm ki, "Kültür Dərnəyi" Türkiyədə yaşayan bütün azərbaycanlıları təmsil edir. Burada çıxış edənlərin biri dedi ki, Türkiyədə bir milyon köklü azərbaycanlı yaşayır. Bunların hamısını Azərbaycan "Kültür Dərnəyi" idarə etmir və edə də bilməz.

1992-ci ildə hörmətli dostum və qardaşım Süleyman Dəmirəl məni İzmirə dəvət etmişdi. Hava limanına gələndə məni qarşılayıb dedilər ki, burada Azərbaycan dərnəyi var və biz sizinlə görüşmək istəyirik. Mən də razılaşdım. Onların heç birini tanımırdım. Məni gəlib apardılar, gedib orada görüşəndə azərbaycanlıların daha bir qrupu gəldi və dedilər

ki, siz buraya düz gəlməmisiniz, azərbaycanlılar başqa yerdədir. Mən dedim ki, əcəba, mən bilmirəm axı, haradadırlar, məni buraya gətiriblər. Mən o vaxt mərhum Türqut Özalla görüşə getmək ərəfəsində olsam da, onlar deyən yerə də getdim və gördüm ki, buraya da xeyli azərbaycanlı yığışıb. Amma bəs nə üçün ayrılıblar? Bir dərnək orada, bir dərnək buradadır. Axı, bunlar hamısı bir yerdə olmalıdır. Bir-biri ilə rəqabət aparmamalıdır. Mən bunun canlı şahidi oldum.

Biz dünya azərbaycanlılarının həmrəylik, birlik gününü elan etmişik. Biz istərdik ki, dünya azərbaycanlıları həmrəy olsunlar, daha da bir olsunlar. Azərbaycanlıların ən çox yaşadığı ölkələrdən biri də Türkiyədir. Biz istəyirik ki, burada da, Azərbaycanda da, bütün dünyada da azərbaycanlılar bir olsunlar. Bizim arzumuz, istəyimiz budur. Mən bu duyğularla, bu hisslərlə yaşayıram. Öz Prezidentlik vəzifəmi bundan sonra həyata keçirəcəyim dövrdə də bu hissləri əsas tutacağam. Əmin olun ki, Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, inkişaf etdirəcəyik.

Mən bir Prezident kimi, respublikamızda yaşayan bütün azərbaycanlıları birləşdirib, Ermənistan silahlı qüvvələrinə qarşı mübarizəmizi sona çatdırmaq, Azərbaycanın müstəqilliyini qorumaq, ərazilərimizin bütövlüyünü təmin etmək əzmindəyəm. Buna görə də sizdən və bütün dünya azərbaycanlılarından mənəvi yardım gözləyirəm.

İstanbulda Mətbuat Mərkəzində jurnalistlər və KİV nümayəndələri üçün mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatı

11 fevral 1994

Türkiyəyə səfərimiz sona çatır. Bir-iki saatdan sonra biz Türkiyədən ayrılacağıq. Gördüyümüz işlər haqqında, mənim Türkiyəyə səfərimin məqsədi haqqında sizə məlumat vermək üçün görüşünüzə gəlmişəm.

Bilirsiniz ki, Azərbaycan Prezidenti kimi fevralın 8-də mən Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Səfərin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da genişləndirmək və inkişaf etdirməkdir. Bildiyiniz kimi, son illərdə bu əlaqələr sürətlə inkişaf etmişdir. Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlətdir. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, hətta biz bir kökdən gələn xalqlarıq. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır. Ancaq biz daim bu əlaqələri daha da inkişaf etdirməyə çalışırıq. Bu məqsədlə də Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul edərək Türkiyəyə gəldim. Mənimlə birlikdə Azərbaycandan böyük bir heyət də gəlmişdir.

Burada dörd gün ərzində görülən işlər mətbuatdan sizə məlumdur. Doğrudur, bəzi qəzetlərə baxanda görürük ki, onlar bu barədə çox az və qısa məlumat verirlər. Ola bilər, bu, Türkiyə mətbuatının xüsusiyyətidir. Ancaq mən guman edirəm ki, Türkiyə ictimaiyyəti, Türkiyə xalqı bu dörd gün ərzində Azərbaycan prezidentinin səfərindən lazımınca xəbərdardır, bizim görüşlərimiz, danışıqlarımız ictimaiyyətə məlumdur.

Burada mən Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəllə çox ətraflı, geniş söhbətlər apardım. Türkiyənin Baş naziri hörmətli Tansu Çillərlə ətraflı danışıqlarımız oldu. Türkiyə parlamentinin başçısı hörmətli Hüsaməddin Cindoruqla görüşümüz və çox mənalı söhbətlərimiz oldu. Mənim üçün çox mühüm hadisələrdən biri də Türkiyə Böyük Millət Məclisində millət vəkillərinə xitabən Azərbaycan haqqında, Azərbaycan ilə Türkiyənin əlaqələri haqqında və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında danışmağıma verilən imkan idi. Mən bu hadisəni yüksək qiymətləndirirəm və Türkiyə Böyük Millət Məclisində millət vəkilləri qarşısında çıxış etməyimdən çox məmnunam.

Bütün bu danışıqların, görüşlərin çox əhəmiyyətli nəticəsi olmalıdır. Bu nəticə ondan ibarətdir ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq müqaviləsi imzalanmışdır. Həmin müqavilədə çox əhəmiyyətli müddəalar var və bu sənəd gələcək əlaqələrimizin inkişafı üçün çox dəyərli və gərəkli əsasdır. Bununla yanaşı, biz Tüyrkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə, nazirlərlə 16-dək müqavilə və protokol imzaladıq. Həmin sənədlərdə də ayrı-ayrı sahələrdə əlaqələrimizin genişləndirilməsi və inkişaf etdirilməsi proqramı öz əksini tapmışdır. Bizim əsas məqsədimiz əlaqələrimizi daha da çoxtərəfli etmək, daha da genişləndirmək, dərinləşdirməkdir.

Danışıqlarımızda bir problem də olmuşdur. Həmin problem ondan ibarətdir ki, indi Azərbaycan ağır müharibə şəraitində olduğuna görə, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirdiyinə görə, işğal olunmuş həmin ərazilərdən 1 milyondan artıq vətəndaşımız qaçqın düşdüyünə görə Azərbaycana Türkiyə Cümhuriyyəti tərəfindən daha kəsərli, tutarlı yardım göstərilməsini Türkiyə Cümhuriyyətinin rəhbərlərindən rica etmişdik. Türkiyə hökuməti bundan əvvəl Azərbaycana 250 milyon dollar kredit vermişdir. Həmin kreditin az bir hissəsindən istifadə olunmuşdur, qalanından da indi istifadə edilməkdədir. Bəzi səbəblərə görə həmin kreditdən istifadə olunmasında çətinlik-

lər yaranmışdır. Bunları aradan qaldırmaq üçün də müvafiq danışıqlar apardıq. Eyni zamanda bizim yeni kreditə ehtiyacımız var. Bir də Azərbaycan əhalisini çörəklə təmin etmək üçün ehtiyatlarımız tükəndiyinə görə və müharibə şəraitində başqa imkanlarımız olmadığına və yaxud bu imkanlar məhdud olduğuna görə Türkiyədən Azərbaycana pulsuz-parasız taxıl verilməsini Türkiyə rəhbərlərindən xahiş etdim.

Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizə yüz min ton taxıl verilməsi barədə xahişimizə müsbət yanaşılmış, Türkiyənin rəhbərləri həmin xahişin yerinə yetirilməsi üçün müəyyən tədbirlər görüldüyü haqqında bizə məlumat vermişlər. Ümidvaram ki, Azərbaycanın bu dar, çox ağır günündə Türkiyə Cümhuriyyəti Azərbaycan xalqına qardaş köməyini əsirgəməyəcəkdir.

Bizim danışıqlarımızıda Azərbaycan ilə Türkiyənin xarici siyasət sahəsində də fəaliyyətinin əlaqələndirilməsi məsələsinə toxunulmuşdur. Hər iki tərəf belə fikirə gəlmişdir ki, Türkiyə xarici siyasət sahəsində də Azərbaycana kömək edəcək və biz beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrimizdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən bundan sonra da istifadə edə biləcəyik.

Azərbaycan müstəqillik yoluna çıxmış gənc dövlətdir, biz xarici siyasətdə ilk addımlarımızı atırıq. Ona görə də bütün sahələrdə məsləhətlərə ehtiyacımız var və danışıqlarda bu barədə də razılığa gəlmişik.

İndi Azərbaycanın ən ağır problemi ölkəni erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, Ermənistan altıncı ildir ki, Azərbaycana qarşı hərbi təcavüz edir. Bunun nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi işğal olunmuş, onun ərazi bütövlüyü pozulmuş, bir milyonadək vətəndaşımız öz yaşayış yerlərindən didərgin düşmüşdür. Onlar Azərbaycanın başqa bölgələrində çox çətin şəraitdə yaşayırlar. Ona görə də Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq, resupblikamızın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin etmək məsələsi danışıqlarımızda mühüm yer tutmuşdur. Türkiyə Cümhuriyyətinin rəhbərləri Azərbaycan Respublikasının bu sahədə həm diplomatiya yolu ilə gördüyü işlərə, həm də xalqı səfərbər edib torpaqlarımızı qorumaq üçün gördüyü tədbirlərə müsbət qiymət vermişlər. Bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışıq və deyə bilərəm ki, mövqelərimiz eynidir.

Ermənistanın Azərbaycana təcavüzü misli görünməmiş təcavüzdür. Bəlkə də dünya miqyasında buna bənzər təcavüz olmamışdır. Azərbaycanın əvvəlki dövlət orqanları ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq üçün lazımi tədbirlər görə bilmədiyindən Ermənistan silahlı qüvvələri öz niyyətlərini həyata keçirmiş və qeyd etdiyim kimi, Azərbaycan torpaqlarının bir hissəsini işğal etmişdir. Biz bu məsələ ilə çox ciddi məşğul oluruq. Çünki bu, Azərbaycan üçün ən başlıca problemdir. Şübhəsiz ki, biz bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etmək istəyirik. Bu baxımdan biz daim BMT-nin və başqa beynəlxalq təşkilatların, o cümlədən ATƏT-ın, onun Minsk qrupunun, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışırıq.

Bildiyiniz kimi, bir müddət öncə ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasıdakı müharibəyə son qoymaq üçün təşəbbüs göstərmişdilər. Azərbaycan tərəfi bu təşəbbüsü bəyənmiş və qəbul etmişdir. Təəssüf ki, bu təşəbbüs də həyata keçirilmədi. BMT-nın Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Bu sənədlərin hamısında erməni ilahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarndan çıxarılması tələb olunur. Ancaq təəssüf ki, Ermənistan Təhlükəsizlik Şurasının bu qətnamələrinə məhəl qoymamışdır və özünün işğalçılıq siyasətini davam etdirir. ATƏT-ın Minsk qrupunun rəhbərləri 1993-cü ilin iyulunda Bakıda olmuş və biz çox danışıqlar aparmışdıq. O vaxt erməni silahlı qüvvələrinin işğal olunmuş Kəlbəcər və Laçın rayonlarından çıxması haqqında protokollar hazırlanmışdı. Biz həmin protokolların həyata keçirilməsinə razılıq verdik. Təəssüf ki, erməni tərəfi bununla razılaşmadı. Hətta ATƏT-in, onun Minsk qrupunun fəaliyyətinə hörmətsizlik edərək, Minsk qrupunu sədri cənab Mario Raffaelli Azərbaycanın Yuxarı Qarabağ və Ağdam bölgələrinə səfər edib gedəndən bir neçə gün sonra erməni silahlı qüvvələri respublikamızın Ağdam şəhərini işğal etdilər.

Beləliklə, yəqin ki, sizdən ötrü aydındır: Ermənistan tərəfi məsələni zor ilə, güc ilə həll etmək istəyir. Azərbaycan Respublikasını diz çökdürmək, öz iddialrını həyata keçirmək istəyir. Biz isə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Diplomatiya yoluna daha çox üstünlük veririk. Bunları görən kimi erməni silahlı qüvvələri onları dəstəkləyən xarici qüvvələrin və ayrı-ayrı qrupların yardımı ilə Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə çalışırlar.

Belə bir vəziyyətdə Azərbaycan xalqı öz gücünü, qüdrətini toplamalı idi. Yəni bir halda ki, bizim sülhsevər siyasətimiz nəticə vermir, deməli döyüş yolu ilə torpaqların azad edilməsinə nail olmalı idik. Bunu əvvəl də etmək lazım idi. Təəssüflər olsun, tam qətiyyətlə demək olar ki, əvvəlki illərdə Azərbaycanda sağlam, bir mərkəzdən idarə olunan və güclü ordu olmamışdır. Azərbaycanla Ermənistan arasında gedən müharibədə Azərbaycan tərəfi parakəndəliyə yol vermiş, ayrı-ayrı siyasi qüvvələr, siyasi qruplar dövlət vəzifələridə olarkən yalnız öz siyasətini yeritmiş, bu

isə Azərbaycanı zəiflətmiş, yaxud da ona qüvvələrini toplamağa imkan verməmişdir. Erməni silahlı qüvvələri isə bu fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə başlamışdır. Təsəvvür edin ki, Azərbaycanın bəzi torpaqları işğal olunarkən heç döyüş də getməmişdir. Erməni silahlı qüvvələrinin bir neçə tankının bölgəyə girməsi və daxildə ayrı-ayrı təxribatçı qrupların hay-küy salması nəticəsində adamlar həmin bölgələrdən qaçmışlar.

Məsələn, indi Kəlbəcər bölgəsində ay yarımdır ki, qanlı döyüşlər gedir. Azərbaycan ordusu işğal olunmuş Kəlbəcər torpaqlarının bir hissəsini geri almışdır. Ancaq bu, asan başa gəlmir, erməni silahlı qüvvələri güclü müqavimət göstərirlər. Azərbaycan ordusunun üstünlüyü nəticəsində erməni qüvvələri böyük itiki verərək geri çəkilirlər. Halbuki bir il bundan öncə erməni silahlı qüvvələri heç bir döyüş əməliyyatı aparmadan, asanlıqla Kəlbəcər bölgəsini işğal etmiş və oranın altmış min nəfər əhalisi hay-küyə uyaraq öz yerlərindən qaçıb getmişdi.

Yəni demək istəyirəm ki, Azərbaycan son illərdə ordu yaratmaq üçün lazımi tədbirlər görmədiyinə, öz torpaqlarını etibarlı müdafiə etmək üçün ordusu olmadığına görə erməni silahlı qüvvələri üstünlük əldə etmişlər. Ona görə də biz son aylarda Azərbaycan ordusunun yaradılmasına çox fikir veririk. Şübhəsiz ki, belə böyük iş qısa müddətdə həyata keçirilə bilməz. Ancaq biz müharibə şəraitini nəzərə alaraq gecə-gündüz bu məsələ ilə məşğul oluruq və bu iş ilk nəticələrini verir. Həmin nəticələr isə ondan ibarətdir ki, əvvəlki illərlə müqayisədə indi Azərbaycan xalqında milli şüur, torpaqları müdafiə etmək əhval-ruhiyyəsi, vətənpərvərlik əhval-ruhiyyəsi, döyüş ruhu, qəhrəmanlıq ruhu yüksəlmişdir. İndi Azərbaycan əsgərləri, zabitləri qorxmadan, çəkinmədən döyüşə girir, erməni silahlı qüvvələrinə ağır zərbələr endirərək çox yerlərdə onları geri oturdur və işğal olunmuş kəndləri, qəsəbələri geri almağa çalışırlar.

Tam həqiqəti sizə çatdırmaq üçün bir daha deyirəm ki, bu, çox ağır və çətin məsələdir. Çünki Azərbaycan ordu quruculuğuna biganə münasibət bəslədiyi vaxtlarda Ermənistan tərəfi ordu yaratmağa çox ciddi fikir verirdi. Onlar çox təcrübəli zabitlər, tankçılar, topçular hazırlamışlar. Ona görə də bizim qısa müddətdə hazırladığımız zabitlər və əsgərlər məhz qəhrəmanlığına, cəsarətinə görə, bəzən təcrübələri az olmasına baxmayaraq, mərdliyi, mətanəti sayəsində çox yerdə erməni silahlı qüvvələrinə qalib gəlirlər. Bu iş davam edir, ancaq açıq demək istəyirəm ki, o qədər də asan iş deyildir. Çünki bildiyiniz kimi, xaricdən Ermənistana kömək edən qüvvələr çoxdur, ayrı-ayrı dövlətlər, maliyyə cəhətdən böyük imkanları olan qruplar, müxtəlif beynəlxalq siyasi qruplar Ermənistana siyasi, maddi və

başqa yardım göstərirlər. Bütün bunlar torpaqlarımızı azad etmək uğrunda apardığımız ədalətli müharibəni, şübhəsiz ki, çətinləşdirir.

Ancaq ən önəmli cəhət, ən mühüm cəhət ondan ibarətdir ki, əsgərlərimizin, zabitlərimizin hazırlığı o qədər çox olmasa da, qeyd etdiyim kimi, artıq onlarda güclü vətənpərvərlik hissi yaranmışdır. Məsələn, beş-altı ay bundan əvvəl Azərbaycanda ordudan fərarilik edənlərin sayı çox idi. Bu, böyük bir problemə çevrilmişdir. Təklif edirdilər ki, fərariləri ciddi cəzalandırmaq, hətta güllələmək lazımdır. Əslində bu haqlı təkliflər idi. Çünki hər bir adam öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Hər bir vətəndaşın ən ümdə borcu orduda xidmət etməkdən, torpağını qorumaqdan ibarətdir. Əlbəttə, mən hərbi xidmətə yararlı olanları nəzərdə tuturam.

Son aylarda gördüyümüz tədbirlər nəticəsində fərarilərin bir qrupunu həbs edərək cəzalandırdıq. Sonra mən Prezident kimi, onları bağışladım. Qalan fərarilərə müraciət etdim, bildirdim ki, fərarilikle özünüzü xalqın gözündən salacaqsınız. Möhlət verdim ki, kim yanvarın onunadək könüllü şəkildə gəlib hərbi komissarlıqlara, hərbi prokurorluğa müraciət edərsə və orduya qayıdarsa, onların günahları bağışlanılır. Təsəvvür edin ki, indi onların əksəriyyəti ordu sıralarına qayıtmışdır, bəziləri cəsarətlə vuruşaraq hətta şəhid olmuşdur. Bu da onu göstərir ki, indi gənclərimiz arasında milli vətənpərvərlik ruhu yüksəlmişdir. Belə vəziyyət bizə imkan verir ki, bütün vasitələrdən - həm sülh danışıqlarından, diplomatik vasitələrdən, həm də ordumuzun, xalqımızın gücündən istifadə edərək Azərbaycan torpaqlarını işğalçılardan təmizləyək, Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin edək.

Mən burada Türkiyə dövlətinin rəhbərləri ilə, rəsmi şəxslərlə danışıqlarda bu sahədə bizim mövqeyimizin, siyasətimizin dəyişməz olduğunu bildirdim. Sizə də bu barədə məlumat verdim.

Son illərdə Azərbaycanın daxilində, ictimai-siyasi həyatında da çox böyük çətinliklər olmuşdur. Həmin çətinliklər indi də davam edir. Bu, nə ilə bağlıdır? Azərbaycanda bir tərəfdən müharibə getdiyi, onun torpaqlarının bir hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edildiyi halda, bu vəziyyətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, qüvvələr ölkə daxilində hakimiyyət uğrunda mübarizə aparırdılar, torpaqlarımızın qorunmasını isə yaddan çıxarmışdılar. Son beş-altı ildə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuşdur. Sonuncu belə dəyişiklik isə, bildiyiniz kimi, 1993-cü ilin yayında baş vermişdir. Şübhəsiz ki, bütün bu hakimiyyət dəyişiklikləri müstəqil Azərbaycan Respublikasının daxilində ictimai-siyasi proseslərin sivilizasiyalı səviyyədən aşağı ol-

masından irəli gəlmişdir. Yəni, ayrı-ayrı adamlar öz şəxsi mənafelərini, şəxsi məqsədlərini xalqın, ölkənin, dövlətin mənafelərindən üstün tuturlar. Nəticədə isə xalq böyük zərər çəkir.

Ona görə də son vaxtlar biz bu problemlərlə də məşğul oluruq. Bilirsiniz ki, 1993-cü ilin iyununda Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox kəskinləşmişdi, artıq vətəndaş müharibəsi başlanmışdı. Gəncədə, Bakının ətrafında qardaş qanı tökülmüşdü. Bu fürsətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, xaricdən olan düşmənlərimiz, deyə bilərəm ki, erməni millətçiləri tərəfindən dəstəklənən qüvvələr Azərbaycanı bir neçə bölgəyə parçalamaq niyyətlərini həyata keçirməyə çalışırdılar. Elə vəziyyət yaranmışdır ki, Azərbaycan doğrudan da parçalana bilərdi. Biz bunun qarşısını almağa nail olduq.

İndi Azərbaycanda dövlət rəhbərliyində müəyyən qədər formalaşma gedir. Biz çalışırıq ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət daha da sabitləşsin. Onu da deyim ki, biz bu işlərin hamısını demokratiya, fikir azadlığı yolu ilə aparırıq və aparacağıq. Azərbaycan müstəqil dövlətdir və bu günlərdə mən dəfələrlə demişəm ki, Azərbaycan xalqı öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Müstəqil respublika kimi Azərbaycan demokratiya yolu ilə gedir. Dünya demokratiyasının təcrübəsindən bəhrələnən Azərbaycan bu təcrübəni öz milli, tarixi ənənələrinə uyğun olaraq həyatına tətbiq etməklə demokratiya yolu ilə irəliləyəcəkdir.

Daxili siyasətimizin əsas prinsipləri Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, cəmiyyət yaratmaqdır. Biz elan etmişik ki, Azərbaycanda milliyyətindən, dinindən, dilindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş eyni hüquqa malikdir. Azərbaycan dövləti vətəndaşların bu hüququnun qorunmasına təminat verir. Biz Azərbaycanda çoxpartiyalı sistem olmasına şərait yaratmışıq. İndi ölkəmizdə qırxa qədər partiya var, mətbuat azadlığı geniş yayılmışdır. Kiçik bir dövlət olan, 7 milyon əhali yaşayan Azərbaycanda 600-dək qəzet, jurnal çıxır və hər kəs öz fikrini sərbəst ifadə edə bilir.

Ancaq təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəldilir. Ola bilsin, bu təbiidir. Dediyim kimi, Azərbaycan gənc müstəqil dövlətdir. Demokratik prinsiplər, siyasi plüralizm, fikir ayrılığı onun üçün yeni amillərdir. Bilirsiniz ki, Azərbaycan 70 il kommunist ideologiyası ilə yaşamışdır. Ona görə də insanların birdən-birə demokratik prinsiplərlə yaşamağa keçməsi çətindir. Bəzən də son illər ayrı-ayrı qruplar, təəssüf ki, bu demokratik prinsipləri ləkələmiş, təhrif etmişlər. Adamlar demokratiya bayrağı altında hay-küylə cürbəcür mitinqlər təşkil edərək öz şəxsi məqsədlərini həyata keçirməklə məşğul olmuşlar.

Bunlar hamısı Azərbaycanın daxili həyatının təbii prosesləridir. Mənə belə gəlir ki, biz, dövlətimizin rəhbərləri qətiyyətli yol tutmuşuq və Azərbaycan Respublikası demokratiya yolu ilə, insan hüquqlarının qorunması, siyasi pluralizm yolu ilə gedəcəkdir. Həmin çətinliklər yavaş-yavaş aradan götürüləcəkdir.

İqtisadiyyat sahəsinə gəldikdə isə, Azərbaycan yeni iqtisadi sistemə keçir. Əslində bu, təzə kəşf olunmuş sistem deyil, dünya təcrübəsində öz müsbət nəticələrini vermiş sərbəst iqtisadiyyat sistemi, təşəbbüskarlıq, sahibkarlıq prinsipləri əsasında qurulan iqtisadi sistemdir. Biz bunlar üçün imkan yaratmışıq və gələcəkdə də yaradacağıq. Həm ictimai-siyasi, həm də iqtisadi sahədə islahatlar aparırıq. Azərbaycanın tam demokratiya yolu ilə getməsinə çalışacağıq. Buna heç kimin şübhəsi olmasın. Azərbaycanın indiki vəziyyəti haqqında ayrı-ayrı qrupların dedikləri, yaxud qəzetlərdə yazdıqları böhtançı fikirlər - Türkiyədə də belə şeylər yazılır - heç kəsi çaşdırmasın.

Türkiyədə də, başqa ölkələrdə də hamı əmin ola bilər ki, Azərbaycan müstəqil dövlətdir və günbəgün bu müstəqilliyi möhkəmləndirəcəkdir, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlarını erməni silahlı qüvvələrindən təmizləyəcəkdir. Kimi hansı məsələlər maraqlandırırsa, Azərbaycana gəlib öz gözü ilə görsün. Hansı məsələlər aydın deyildirsə, bizimlə görüşsün. İstəməzdim ki, Azərbaycanın belə ağır vəziyyətində ayrı-ayrı qüvvələr, şəxslər respublikamıza kömək etmək əvəzinə öz hərəkətləri ilə ona zərər vursun. Güman edirəm ki, onların hərəktləri zərər vura bilməz, siyasətimizə heç bir ləkə gətirə bilməz.

Mən həm buradakı görüşlərimizin əsas məzmunu haqqında, həm də Azərbaycandakı mövcud vəziyyət barədə, elə bilirəm, yetərincə məlumat verdim. Çıxışımın sonunda demək istəyirəm ki, biz dörd gün ərzində Türkiyədə dostluq və mehribanlıq şəraitində olmuşuq, bizə çox böyük qonaqpərvərlik göstərmişlər. Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də, sadə vətəndaşlar da azərbaycanlılara, Azərbaycana dostluq, qardaşlıq münasibəti göstərirlər. Səfər proqramımızın səmərəli şəkildə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Ona görə də mən Türkiyənin rəhbərlərinə - hörmətli Prezident Süleyman Dəmirələ, hörmətli Baş nazir Tansu Çillərə, parlamentin başçısı, hörmətli Hüsaməddin Uindoruqa, bizi müşayiət edən nazirlərə və başqa şəxslərə minnətdarlığımı bildirirəm.

Əmin ola bilərsiniz ki, hər biriniz Türkiyədən Azərbaycana gəldiyiniz vaxt həmin dostluq və mehribanlıq şəraitində olacaqsınız. Mən sizi Azərbaycana dəvət edirəm. Gəlin, Azərbaycanı öz gözünüzlə görün.

Diqqətinizə görə sağ olun. Sizin suallarınıza cavab verməyə hazıram.

Sual: Hörmətli Heydər Əliyev, ermənilərin Qarabağla əlaqədar belə bir son təklifi var ki, erməni qüvvələri Azərbaycan torpaqlarının bir hissəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağda sülh qüvvələri yerləşdirilsin. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Sizə bildirdim və bir də deyirəm ki, biz Ermənistanla Azərbaycan arasındakı müharibəyə son qoymaq istəyirik, bu məsələni sülh danışıqları yolu ilə həll etməyə çalışırıq. Lakin bu son vaxtlar erməni silahlı qüvvələri Azərbaycan ordusundan ağır zərbələr aldığına görə ermənilər təklif etmişdilər ki, üç həftəlik atəşkəs haqqında saziş bağlansın və bu müddətdə Rusiyanın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında danışıqlar aparılsın. Biz bu təklifi rədd etmədik, lakin öz şərtlərimizi irəli sürdük. Bu da ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarını sözsüz tərk etsin. Belə olarsa, biz hər cür sülh danışıqlarına gedə bilərik. Ancaq bizə deyirlər ki, gəlin üç həftəlik atəşkəs elan edək və bu müddətdə danışıqlar aparaq. Lakin bilmirəm ki, nədən danışacağıq? Çünki keçmişdəki danışıqlar zamanı Ermənistan həmişə Azərbaycanın zərərinə olan təkliflər irəli sürmüşdür. Bu təkliflər bizə əl vermədiyinə görə razılaşmamışıq.

Sual: Ermnistan Prezidenti Londona səfəri zamanı təklif etmişdir ki, Qarabağ BMT-nin mandatlığına verilsin. Buna necə baxırsınız? İkincisi, Azərbaycandakı PKK-nın fəaliyyəti barədə nə deyə bilərsiniz?

Cavab: Ermənistan Prezidentinin Londondakı bəyanatı mənə məlum deyil. Əgər sizin söylədiyiniz onun dediklərinə müvafiqdirsə, biz bunu qəbul edə bilmərik.

Azərbaycanda PKK-nın fəaliyyəti barədə sualınıza gəldikdə isə, təəssüflər olsun, Azərbaycanın bu ağır vəziyyətində burada, qardaş Türkiyə Cümhuriyyətində də elə qüvvələr var ki, Azərbaycanın daxilində təxribat aparmaq istəyirlər. Həmin qüvvələr bu cür böhtançı şayiələr yayırlar. Mən sizə qətiyyətlə deyirəm ki, Azərbaycanda PKK-nın heç bir fəaliyyəti yoxdur və ola da bilməz.

Sual: Hörmətli Heydər Əliyev, Sizə iki sualım var. Birincisi, Siz Ankarada hörmətli Həsən Həsənovun bir fikrini təsdiq etdiniz ki, Azərbaycanla neft sahəsində müqavilə bağlamaq istəyən ölkə Qarabağ məsələsində onu dəstəkləməlidir. Məsələn, Amerika desə ki, Qarabağı biz azad edəcəyik, nefti bizə verin, nə edərsiniz? Bunu bir qədər açıqlaya bilərsinizmi? İkincisi, Rusiya bölgəyə - Qafqaza başqa ölkələrin girməsinə razı olarmı?

Cavab: Yəqin ki, cənab Həsənov belə deməmişdir. Bu barədə bizim fikrimiz eynidir. Yəni neft Azərbaycan xalqının əvəzsiz sərvətidir və biz ondan birinci növbədə xalqımızın ehtiyaclarını ödəmək üçün istifadə etməliyik. Əgər neftin çıxarılmasında xarici ölkələrin şirkətləri ilə əməkdaşlıq edəcəyiksə, bu əməkdaşlıq bizə eyni zamanda gərək siyasi dəstək olsun. Fikrimiz belədir. Biz neftimizdən xarici şirkətlərlə müştərək istifadə edə bilərik. Lakin ilk növbədə Azərbaycan xalqının mənafeyini qorumalıyıq. Amerika da heç vaxt deməz ki, mən Qarabağı xilas edəcəyəm, yaxud torpaqlarınızı azad edəcəyəm, nefti bizə verin. Bu ola bilməz. Yəqin ki, fikirlərimizi düzgün ifadə etməmisiniz. Biz neft məsələsində çox danışıqlar aparmışıq. Son vaxtlar Azərbaycan Dövlət Neft Şirkəti bu barədə konkret təkliflər vermişdir. Mən fərman imzalamışam. Qərb neft şirkətləri - "Amoko", "Pennzoyl", "Britiş Petroleum-Statoyl", Türkiyənin neft şirkətləri və başqaları Azərbaycana dəvət olunmuşlar və onlarla danışıqlar aparılaraq müqavilələr bağlanmalıdır. Ancaq bilin ki, bu müqavilələr hər iki tərəf üçün faydalı olmalıdır. Eyni zamanda, bu sərvətin sahibi olan Azərbaycan tərəfinin mənafeyi ilk növbədə ödənilməlidir.

İkinci sualınıza cavab verirəm. Qafqaz elə bir yerdir ki, böyük dövlətlər, o cümlədən Rusiya əsrlər boyu buraya maraq göstərmiş, Qafqazda öz mövqelərini möhkəmləndirməyə çalışmışdır. Əlbəttə, indi Rusiya çalışacaq ki, Qafqazda mövqeyini saxlasın. Bilirsiniz ki, Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazaları var. Rusiyanın Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışması təbii haldır. Bunu başqa cür başa düşmək lazım deyil. Başqa dövlətlər də çalışacaqlar, Türkiyə də çalışmalıdır ki, Qafqazda mövqe tutsun.

Sual: Burada, Türkiyə mətbuatında müəyyən yalnış xəbərlər verilməsindən narahat olaraq Sizdən bəzi şeyləri soruşmaq istəyirəm. Xahiş edirəm, öz həyat yolunuzu bir qədər açıqlayasınız.

Cavab: Mən istərdim ki, hamı həqiqəti bilsin. Həqiqət isə, əgər sizi maraqlandırırsa, ondan ibarətdir ki, mətbuat sahəsində Türkiyədə yalnış fikirlər çoxdur. Mən buna təbii baxıram. Çünki bir halda ki, demokratiyadır, fikir ayrılığıdır, siyasi plüralizmdir, kim nə istəyirsə onu da yazır. Türkiyədə də, Fransada da, Amerikada da, indi Azərbaycanda da belədir. Ancaq eyni zamanda, doğru yazmaq lazımdır. Yalnış, böhtançı yazılar gərək deyil.

Əgər həyatım sizi maraqlandırırsa, mənim həyatım həmişə xalqla bağlı olmuşdur. Gənc yaşlarımdan xalqıma xidmət etmişəm. Sosialist sistemi daxilində xalqım üçün çox dəyərli işlər görmüşəm. Siz bunu başqa cür qəbul etməyin, çünki Azər-

baycana, Bakıya gələn hər bir adam sağa da, sola da baxsa Heydər Əliyevin vaxtındakı işlərin nəticələrini öz gözü ilə görəcəkdir. Ancaq sonra mən Moskvaya getmişəm. Mən orada beş il çalışdım. Orada da xalqıma, millətimə kömək etmək istədim.

Yalnız sonra, Azərbaycanda vəziyyət pisləşdiyinə görə və xüsusən 1990-cı ildə "20 Yanvar" hadisəsi baş verdikdən sonra, yəni Sovet hökumətinin, Sovet İttifaqı Kommunist Partiyasının başçıları Azərbaycan xalqına qarşı hərbi təcavüz etdiyinə görə, qoşun yeridərək azərbaycanlıları qırdığına görə mən daha Moskvada dözə bilmədim, səsimi qaldırdım. Gəlib mitinqdə sözümü dedim, mətbuat konfransında fikrimi bildirdim, Kommunist Partiyasının, Sovet İttifaqının, Azərbaycan KP-nın, Azərbaycan hökumətinin rəhbərlərini günahlandırdım. Təbii ki, məndən ötrü bu, asan olmadı. Məni təqib etməyə başladılar. Əslində əvvəllər də təqib edirdilər, məni həbs etmək istəyirdilər. Moskvada ev dustağı idim. Azərbaycana qayıtmaq istəyirdim, qoymadılar. 14 il Azərbaycana rəhbərlik etdiyim dövrdə yetişdirdiyim adamlar, Azərbaycana başçılıq edən adamlar gəlib Bakıda yaşamağıma imkan vermədilər. Naxçıvana getməyə məcbur oldum, çünki orada doğulmuşam. Üç il orada mühacirətdə qaldım. Bilirsiniz ki, Naxçıvan Azərbaycanın əsas hissəsindən Ermənistan ərazisi ilə ayrılmışdır. Biz orada blokada şəraitində yaşayırdıq. Orada da torpağıma, xalqıma xidmət etdim, Naxçıvanı ağır vəziyyətdən çıxarmağa çalışdım. Bu işdə də Türkiyənin və xüsusən hörmətli dostum və qardaşım Süleyman Dəmirəlin köməyindən çox istifadə etdim. Sonra isə xalq lazım bilərək məni Bakıya dəvət etdi.

Mən həyatımdan çox razıyam. Həyatımın bütün mərhələlərini özüm üçün çox önəmli sayıram. Bilirsiniz ki, mən nəinki Azərbaycanda, həm də Sovetlər Birliyində Kommunist Partiyasının başında duran adamlardan biri olmuşam. Ancaq 1991-ci ildə, hələ KP, Sovetlər Birliyi güclü olan vaxtda mən Moskvada bəyanat verərək KP-dan çıxdım. Bakıda parlamentdə dedim ki, Sovetlər Birliyi dağılır, onu dağıtmaq lazımdır. Azərbaycan müstəqil olmalıdır. O zaman səsimi boğmağa çalışdılar. Mənim bu çıxışlarım kitabça halında burada yayılmışdır, özünüz tanış ola bilərsiniz. Bir sözlə, mən mövqeyimdən dönmədim. Çünki mənim həyatım xalqa xidmət etməkdən ibarət olmuşdur. Son nəfəsimədək də xalqıma xidmət edəcəyəm. Bəzi adamların burada yalnış məlumatlar yayması isə fil ilə qarışqanın məsələsinə bənzəyir. Əgər qarışqa fili sanca bilərsə, o adamlar da məni sanca bilərlər.

Sual: İrandakı azərbaycanlıları da birləşdirmək niyyətiniz varmı?

Cavab: Bilirsinizmi, biz Azərbaycanın müstəqilliyi uğrunda çalışırıq. Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur. Onu azad etmək lazımdır. Bu bizim ən başlıca

problemimizdir. Bu problemi başa düşmədiyiniz halda mənə nə üçün başqa suallar verirsiniz?

Sual: Hörmətli Prezident, dörd gündür ki, biz Türkiyədəyik. Azərbaycan Xalq Cəbhəsinin üzvləri İbrahim İbrahimov, Vurğun Əyyubov, Tofiq Qasımov burada Prezidentin əleyhinə iş aparırlar. Türkiyə televiziyası da bunu yayır. Sadə türklər deyirlər ki, Prezidentin əleyhinə təbliğat aparmaq onun xalqına qarşı təbliğat aparmaq deməkdir. Siz necə düşünürsünüz, Xalq Cəbhəsinin bu işlərinə nə vaxt son qoyulacaq?

Cavab: Bilirsiniz, mən bunların heç birinə əhəmiyyət vermirəm və heç də düşünmürəm ki, bunlar Türkiyədə Azərbaycan prezidentinin əleyhinə aparılan təbliğatdır. Ayrı-ayrı adamlar, gücləri çatırsa, qoy təbliğat aparsınlar. Gücləri çatmayacaq.

Sual: Türkiyənin Azərbaycan ordusuna yardım göstərməsi nəzərdə tutulurmu?

Cavab: Biz xaricdən, o cümlədən Türkiyədən heç bir hərbi yardım istəmirik. Biz taxıl verilməsini, kreditlər ayrılmasını istəyirik. Mən dünən iş adamları ilə görüşərək onları dəvət etdim ki, Azərbaycana gəlsinlər, investisiya qoysunlar. Biz belə yardım istəyirik. O ki qaldı müharibə məsələsinə, bunu biz özümüz həll edirik. Ancaq eyni zamanda Türkiyənin hərbi məktəblərində Azərbaycan gənclərinin təhsil alması bizim üçün, ordumuzun qurulması üçün çox lazımdır. Çünki Türkiyə hərbi məktəblərinin çox böyük imkanları var və biz bundan istifadə edərək hərbi kadrlar hazırlayacağıq.

Sual: Sizdən əvvəlki Prezident Elçibəy Türkiyənin ən böyük dostu kimi qəbul edilirdi. Siz iqtidara gələndə hamı qorxurdu ki, görəsən, əlaqələr pozulacaqmı, Elçibəy Türkiyəyə çox arxalanırdı. Sizinlə Elçibəy arasındakı fərq nədir?

Cavab: Mən Əbülfəz Elçibəy haqqında bir şey demək istəmirəm. Çünki o, bir ilə yaxın Azərbaycanın Prezidenti olmuşdur. Amma hər kəsin öz siyasəti var. Yəqin bilirsiniz ki, mən siyasət sahəsində təcrübəli adamam. Bu təcrübəmdən istifadə edərək Azərbaycanın xarici siyasətini dövlətimizin mənafeyi üçün lazımi yollarla aparmağa çalışıram. Ə.Elçibəyin Türkiyənin yaxın dostu olması fikrinə gəldikdə isə, deyə bilərəm ki, Heydər Əliyev də Türkiyənin dostudur. Amma dostluq hayküylə, populist sözlərlə deyil, qəlbdən gəlməlidir. Azərbaycanın Prezidenti kimi, mən Türk xalqına, Türk Cümhuriyyətinə, onun tarixi keçmişinə, bugünkü siyasətinə hörmətimi, məhəbbətimi bu dörd gün ərzində bütün çıxışlarımda, o cümlədən Böyük Millət Məclisində, hörmətli Prezident Süleyman Dəmirəlin təşkil etdiyi böyük ziyafətdə demişəm.

Sual: "Britiş Petroleum-Statoyl" alyansı ilə danışıqlar, nəhayət, bir bağlaşma ilə nəticələnəcəkmi?

Cavab: Mən sizə bildirdim ki, bütün şirkətləri - "Amoko", "Britiş Petroleum-Statoyl", "Pennzoyl" şirkətlərini, Türkiyə neft şirkətini müqavilələr bağlamaq üçün danışıqlar aparmağa dəvət etmişik və yəqin ki, yaxın vaxtlarda müqavilələr bağlanacaqdır.

Sual: Ərəb dünyasına münasibətinizi və keçmiş Prezident Ə.Elçibəyin siyasəti barədə fikrinizi açıqlamağı xahiş edirik.

Cavab: Azərbaycan Ərəb dünyasına çox müsbət münasibət bəsləyir. Bir dinə mənsub olmağımız, ənənələrimizin, mədəniyyətlərimizin oxşarlığı tarixən bizi yaxınlaşdırmışdır. Ona görə də ərəb dünyasına münasibətim müsbətdir və guman edirəm ki, bu, xarici siyasətimizdə önəmli yer tutacaqdır.

Elçibəyin siyasətinə gəldikdə isə, mən, ümumiyyətlə, bu barədə danışmaq istəmirəm.

Sual: Cənab Prezident, birinci sualım belədir: Bildiyiniz kimi bu yaxınlarda Ermənsitan Prezidenti Levon Ter-Petrosyan İngiltərəyə getmiş və orada Dağlıq Qarabağ haqqında danışıqlar aparmışdı. Sizcə Dağlıq Qarabağ məsələsində İngiltərənin vasitəçiliyi necə ola bilər?

İkinci sualım: - Siz Naxçıvanda olarkən Ermənistan Prezidenti ilə yaxşı münasibətləriniz olub, həmin münasibətlər indi də qalırmı?

Cavab: Birinci sualınıza cavab verirəm. Ermənistan Prezidenti Levon Ter-Petrosyanın Londonda nə kimi danışıqlar apardığını bilmirəm. Ancaq onu deyə bilərəm ki, bu yaxınlarda mən Londona gedəcəyəm. Oraya rəsmi dəvət olunmuşam. Yəqin ki, orada İngiltərə hökuməti ilə Azərbaycan-İngiltərə münasibətləri haqqında, o cümlədən Dağlıq Qarabağ barədə danışıqlar aparacağıq. Əgər İngiltərə bu məsələdə bizə hər hansı bir kömək etmək istəsə, biz bunu məmnuniyyətlə qəbul edəcəyik.

İkinci sualınız barədə. Doğrudan da, Naxçıvanda olarkən Ermənistan Prezidenti Levon Ter-Petrosyanla əlaqələrimiz var idi və bunun sayəsində mən Naxçıvanla Ermənistan arasında münaqişəyə yol verilməməsinə nail oldum. Eyni zamanda Ter-Petrosyan da orada müharibə olmaması üçün öz səylərini göstərdi. İndi Azərbaycanın Prezidenti kimi, mən yenə də Ter-Petrosyanla əlaqə saxlayıram. Moskvada, Aşqabatda onunla görüşdüm, telefonla danışırıq. Çalışıram ki, bu məsələ sülh yolu ilə həll edilsin. Ancaq necə olacağını gələcək göstərər.

Sual: Türkiyədə bəzi qəzetlərdə Azərbaycan haqqında yanlış məlumatlar verilir. Bu, müəyyən dərəcədə Azərbaycandan informasiya axınının azlığı ilə bağlı deyilmi? Son vaxtlar belə fikir yayılır ki, Azrbaycanda demokratiya pozulur, demokratiya tərəfdarları həbs edilir.

İkinci sualım isə belədir ki, Gürcüstanda Rusiyanın qoşun yerləşdirməsi müstəqil Azərbaycan dövləti üçün daha bir təhlükə törətmirmi?

Bu məsələyə Azərbaycan rəhbərliyinin münasibəti necədir?

Cavab: Doğrudan da Türkiyədə Azərbaycan haqqında məlumat azdır. Mən belə hiss etdim ki, Türkiyənin bəzi qəzetləri çalışırlar ki, mənfi məsələlərlə məşğul olsunlar. Ona görə də ictimaiyyətə doğru-dürüst məlumat çatdırılmır. Siz haqlısınız. Azərbaycanda informasiya məsələsi lazımi səviyyədə qurulmamışdır. Bununla əlaqədar tədbirlər görürük. Məsələn, son vaxtlar mən Qabil Hüseynlini yeni dövlət müşaviri təyin etmişəm. O, bu işlərlə məşğul olacaqdır. Lakin siz də burada çalışın ki, Azərbaycan haqqında doğru məlumat yayılsın. Hamınıza müraciət edirəm. Mən demirəm ki, qəzetlər Azərbaycan haqqında təriflər yazsın. İstərdik ki, vəziyyət haqqında düzgün məlumat verilsin.

İkincisi, siz deyirsiniz ki, Rusiya Azərbaycanın müstəqilliyinə təhlükə törədə bilər. Azərbaycan belə vəziyyətdədir ki, daim təhlükə altındadır. Çünki bir tərəfdən Azərbaycan müharibə aparır, digər tərfdən bizim ətrafımızda - Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi bazaları var. Buna görə də, əlbəttə ki, Azərbaycanın vəziyyəti çətindir. Lakin mən demişəm və yenə deyirəm: Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək və müstəqillik bizim üçün əbədidir.

Sual: Sizcə, buradakı danışıqlarınızın başlıca nəticəsi nədir? Türk Cümhuriyyətlərinin Zirvə toplantısının keçirilməsi nə ilə bağlıdır?

Cavab: Ən böyük nəticə odur ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin yeni səhifəsi açıldı, yeni mərhələsi başlandı. Bir daha təsdiq olundu ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri davam edəcək və heç bir qüvvə buna təsir göstərməyəcəkdir. O ki qaldı zirvə toplantısına, bəzi səbəblərə görə onun vaxtı dəyişdirilmişdir.

Təşəkkür edirəm, sağ olun.

Brüsseldə Beynəlxalq Mətbuat Mərkəzindəki konfransında Prezident Heydər Əliyevin çıxışından:

4 may 1994-ci il

...Sual: Sizin Ankaraya qarşıdakı səfəriniz Azərbaycanla Türkiyə arasında əməkdaşlığın hansısa yeni istiqamətləri ilə bağlıdırmı? Bununla əlaqədar ikinci bir sual: Siz Türkiyədə kiminlə görüşmək fikrindəsiniz?

Cavab: Mən səhər tezdən Brüsseldən yola düşürəm. Təyyarəmiz texniki mülahizələrə görə Ankarada yerə enməlidir. Mən bu imkandan istifadə etmək və Türkiyə rəhbərlərinin arzusu olarsa onlarla görüşmək və fikir mübadiləsi etmək niyyətindəyəm. Bu görüş əvvəlcədən planlaşdırılmadığına görə, indidən bir şey demək çətindir. Məlum olduğu kimi, Türkiyə ilə Azərbaycanı çox yaxın, dostcasına münasibətlər birləşdirir

və ölkələrimizin rəhbərlərinin hər bir görüşü, şübhəsiz, bu münasibətlərin möhkəmlənməsinə xidmət edir. Sabah nə olacağını sabah bilərik. İndi bu barədə heç nə deməyəcəyəm.

Təşəkkür edirəm. Diqqətinizə görə sağ olun.

Qısamüddətli işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına Prezident Heydər Əliyevin cavabı:

9 iyun 1994-cü il

...Sual: Hörmətli Prezident, Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfəriniz barədə nə deyə bilərsiniz?

Cavab: Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın, dost ölkədir. Azərbaycanın Türkiyə ilə dostluq və əməkdaşlıq haqqında müqaviləsi vardır və biz bu ölkə ilə müntəzəm əlaqə saxlayırıq. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbərləri ilə görüşdüm, söhbətlər etdik, məsləhətləşmələr apardıq.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət edib. O, İstanbulda olduğu üçün rica edib ki, İstanbula gəlim, orada görüşərək əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm.

Sual: Hörmətli Prezident, hazırda İstanbulda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında dəniz neft yataqlarının birgə işlənməsinə dair müqavilə bağlanması barədə danışıqlar gedir. Orada Şimali Atlantika Əməkdaşlıq Şurasının iclası da keçiriləcəkdir. Səfərinizin bu iki mühüm hadisə ilə əlaqəsi varmı?

Cavab: Xeyr, mənim səfərim həmin hadisələrlə əlaqədar deyil. Bu, sadəcə olaraq təsadüfdür. Əgər Türkiyə Prezidenti Süleyman Dəmirəl bu gün Ankarada olsaydı, mən Ankaraya gedəcəkdim. Ancaq o, indi İstanbuldadır, ona görə də məni İstanbula dəvət etdi.

Qərb ölkələrinin neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında danışıqlar üç gündür ki, yenidən başlanıb. Bu danışıqlar lazımi səviyyədə davam edir. Hazırda bu işlərə mənim müdaxilə etməyimə ehtiyac yoxdur. Çünki respublika Dövlət Neft Şirkətinin nümayəndə heyəti İstanbula yola düşərkən mən onları qəbul etdim, ətraflı söhbət apardıq. Bu barədə Azərbaycanın prinsipial mövqeyi müəyyənləşib və nümayəndələrimiz də danışıqları bunun əsasında aparırlar.

Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olan ölkələrin Xarici İşlər nazirlərinin iclasına isə Həsən Həsənov dəvət olunub. O, orada çıxış edəcək və bütün fikirlərimizi ŞAƏŞ-in iclasının iştirakçılarına çatdırılacaqdır.

Sual: Rusiya Müdafiə nazirinin Bakıya səfərinin məqsədi barədə nə deyə bilərsiniz?

Cavab: Pavel Qraçovun Bakıya səfəri Qəbələdəki böyük əhəmiyyət kəsb edən hava hücumundan müdafiə qurğusu ilə əlaqədardır. Bu barədə bizim müəyyən danışıqlarımız olub. Mən Rusiyanın Prezidenti Boris Yeltsinlə telefonla danışıq aparmışam. Həmin obyekt vaxtı ilə Sovet İttifaqının strateci raketlərdən mühafizə olunması üçünqurulmuşdur. Bunun indi Rusiya üçün böyük əhəmiyyəti var. Həmin qurğu hazırda istismar olunur, ancaq onun Azərbaycandakı statusu müəyyən deyil. Bir halda ki, həmin qurğu Azərbaycanın ərazisində yerləşir, deməli, Azərbaycana məxsusdur. Sovet İttifaqı iki il yarımdır dağılıb. Təəssüf ki, bu müddətdə məsələ həll olunmayıb. Yəni iki il yarımdır ki, qurğudan Rusiya yenə də istifadə edir, ancaq Azərbaycanın hüquqları müəyyən deyil. Ona görə də mən Rusiyanın Prezidenti Boris Yeltsinin, Müdafiə naziri Pavel Qraçovun qarşısında bu məsələni qaldırmışam. Pavel Qraçov da həmin məsələni müzakirə etmək üçün Bakıya gəlir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ I İŞGÜZAR SƏFƏRİ

İstanbulun Atatürk hava limanında rəsmi qarşılanma mərasimindən sonra jurnalistlər qarşısında Prezident Heydər Əliyevin bəyanatı

9 iyun 1994-ci il

Əziz Süleyman bəy! Sizinlə bir daha görüşmək, bir çox məsələlər haqqında fikir mübadiləsi aparmaq, məsləhətləşmək bizim üçün çox vacibdir və bu imkana görə Sizə təşəkkür edirəm. Türkiyənin böyük və gözəl şəhəri İstanbula gəlməyimdən çox məmnunam. İstanbullulara, Türkiyədəki bütün qardaşlarımıza öz salamımı yetirir, hörmətimi bildirirəm.

Türkiyə və Azərbaycan dost, qardaş, qonşu dövlətdir. Ölkələrimiz arasında əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir. Bu ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbəri ilə görüşdük, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Əmin olduğumu bildirmək istəyirəm ki, indiki qısamüddətli işgüzar səfər zamanı keçiriləcək görüşlər, danışıqlar iki ölkə arasında əlaqələrin inkişafına daha da kömək edəcəkdir.

Altı ildən bəri davam edən müharibə Azərbaycan üçün ən böyük problem olaraq qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizindən çoxu işğal olunmuşdur, 1 milyon 200 mindən artıq insan qaçqın, köçkün vəziyyətində yaşayır. Bütün bunlara baxmayaraq, biz müharibəyə son qoymaq istəyirik, onun gələcəyinin olmadığını yaxşı bilirik.

Problemin sülh yolu ilə həll ediləmsi istiqamətində Azərbaycanın təşəbbüslərindən danışarkən ölkəmizin mövqeyini bir daha vurğulayaraq bildirirəm ki, respublikamızın işğal

edilmiş torpaqları azad olunmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz bu sahədə beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, Minsk qrupunun, dünyanın nüfuzlu dövlətlərinin, habelə Türkiyə kimi böyük və bizə dost ölkənin imkanlarından hərtərəfli istifadə etməyə çalışırıq. 1994-cü il martın 4-də Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması da müharibəyə son qoyulması istiqamətində yaradılmış imkanlardan biridir.

Ermənistanla Azərbaycan arasında müharibə, Ermənistanın Azərbaycana təcavüz etməsi Qafqaz bölgəsində vəziyyəti daha çox gərginləşdirir və bu ağır vəziyyət qonşu dövlətlərə də təsir edir. Şübhəsiz ki, bizim yaxın qonşumuz Türkiyə buna biganə qala bilməz. Çünki bir tərəfdən onun qardaşları təhlükə içərisindədir, ikinci tərəfdən isə həm Azərbaycan, həm də Ermənistan Türkiyə ilə sərhəd qonşularıdır. Ona görə də bu məsələnin beynəlxalq təşkilatlarda ədalətli həllinə Türkiyənin sözü, mövqeyi çox kömək edəcək və biz buna həmişə böyük ümid bəsləyirik.

Mən əminəm ki, bugünkü danışıqlarda da həmin məsələlər və iki qardaş ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar digər məsələlər hərtərəfli müzakirə olunacaqdır. Mən dəvəti məhz bunun üçün dəvət edib İstanbula gəlmişəm. İnanıram ki, görüşlərimiz xalqlarımız üçün çox faydalı olacaqdır.

Türkiyədən vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında jurnalistlər üçün brifinqdə Prezident Heydər Əliyevin bəyanatı

10 iyun 1994-cü il

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən dünən buraya qısamüddətli işgüzar səfərə gəldim. İndi də geriyə dönürəm. Bu müddətdə burada Azərbaycan üçün çox əhəmiyyətli görüşlər oldu. Hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirəlin dəvəti ilə mənim buraya gəlməyimin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etməsi barədə bəzi danışıqlar aparmaq, məsləhətləşmələr etmək idi.

Dünən Türkiyə Prezidenti Süleyman Dəmirəllə çox ətraflı söhbətimiz oldu, ölkələrimiz üçün maraqlı olan məsələlərin hamısını müzakirə etdik. Bu gün Türkiyənin Baş naziri hörmətli Tansu Çillərlə, Baş nazirin birinci müavini hörmətli Murad Qarayalçınla görüşlərim oldu. Bu görüşlərdə də Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi və bəzi məsələlərin həllinin sürətləndirilməsi üçün danışıqlar, söhbətlər aparmaq, çox məsələlərdə razılığa gəldik. Mənim səfərimin əsas məqsədi bundan

ibarət idi və bu baxımdan mən səfərimdən çox razıyam.

Hörmətli Süleyman Dəmirəllə, hörmətli Tansu Çillərlə, Murad Qarayalçınla, Hikmət Çətinlə danışıqlarda Azərbaycanın indiki vəziyyəti, Ermənistanın Azərbaycana təcavüzü və bu məsələlərin həll olunması yolları müzakirə edildi. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycan tərəfi, şəxsən mən bir Prezident kimi məsələnin sülh yolu ilə həll olunmasının - müharibəyə son qoyulmasının, döyüşlərin dayandırılmasının tərəfdarıyam. Bu barədə biz bir neçə dəfə təkliflərimizi vermişik. Amma təəssüf ki, indiyədək buna nail ola bilməmişik.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycanın çox qəti şərtləri var. Bu şərtlər ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı təmin olunmalı, Azərbaycanın ərazilərini işğal etmiş Ermənistan silahlı qüvvələri bu torpaqlardan çıxmalı və Azərbaycan vətəndaşları həmin işğal olunmuş torpaqlara, öz yerlərinə qayıtmalıdırlar. Biz bu şərtlər əsasında məsələnin sülh yolu ilə həll olunmasına tərəfdarıq və bu barədə ATƏM-in və onun Minsk qrupunun imkanlarından geniş istifadə etməyə çalışırıq. Biz dünyanın böyük dövlətlərinin (bunların böyük əksəriyyəti ATƏM təşkilatının, Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının üzvüdür) imkanlarından istifadə etməyə çalışırıq. Bu barədə bizim bir çox tədbirlərimiz olub. Rusiya dövləti də bu məsələlərdə çox fəal iştirak edir, bu məsələnin həll olunmasında vasitəçilik etməyə çalışır. Son vaxtlar ATƏM təşkilatının Minsk qrupu və onun başçısı Yan Eliasson bu məsələdə Rusiya dövlətinin xüsusi bir yer tutmasına da razılıq vermişdir. Minsk qrupu Müstəqil Dövlətlər Birliyinin də bu işə qoşulmasını lüzumlu bilmişdir.

Biz öz işlərimizi bu prinsiplər əsasında aparırıq. Dünyanın bir çox ölkələrinin Xarici İşlər nazirlərinin İstanbulda olması ilə əlaqədar dünən və bu gün mən bir neçə Qərb ölkəsinin Xarici İşlər nazirləri ilə də görüşdüm. ABŞ-ın Dövlət katibi cənab Uorren Kristoferlə, Böyük Britaniyanın Xarici İşlər naziri Duqlas Herdlə, İsveçin Xarici İşlər naziri xanım Marqaret af Uqlasla (bilirsiniz ki, İsveç hazırda Minsk qrupuna rəhbərlik edən bir ölkədir, həmin qrupa İsveçin nümayəndəsi başçılıq edir. Xanım af Uqlas da son vaxtlaradək ATƏM təşkilatının sədri olmuşdur. O bu problemlərlə məşğul olub, bu problemləri yaxşı bilir. Marqaret af Uqlas Bakıya da gəlmişdi, bizim onunla görüşümüz olub), Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın Xarici İşlər naziri Karolos Papuliasla görüşdüm.

Bu görüşlərdə Azərbaycanın hazırkı ağır vəziyyətdən çıxması, yəni müharibəyə son qoyulması, məsələnin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi, müzakirələr apardıq. Mən belə hesab edirəm ki, görüşlərimiz çox faydalı, əhəmiyyətli oldu. Bu görüşlərdə Azərbaycan bir daha öz mövqeyini elan etdi, böyük dövlətlərin, Avropa dövlətlərinin bu prosesdə iştirak etməsi üçün öz arzularını bildirir. Həmin dövlətlərin Xarici İşlər nazirləri də bu məsələnin yalnız ATƏM təşkilatı çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə tərəfdar olduqlarını bildirdilər və bu istiqamətdə gələcəkdə də fəaliyyət göstərəcəkləri haqqında mənə məlumatlar verdilər.

Ona görə də belə hesab edirəm ki, mənim Türkiyəyə səfərim Türkiyə ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğu halda, bu müddətdə Azərbaycanla əlaqədar bir çox mühüm məsələləri burada müzakirə etmək üçün mənə bir fürsət yarandı.

Mənim sizə deyəcəyim bu qədər. İstanbula qısamüddətli ziyarətimdən çox məmnunam. Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli dostum, qardaşım Süleyman Dəmirələ bu dəvət üçün təşəkkürümü bildirirəm. Türkiyənin Baş naziri hörmətli Tansu Çillərə, Baş nazirin müavini hörmətli Murad Qarayalçına, Xarici İşlər naziri hörmətli Hikmət Çətinə və burada olan başqa dostlarımıza, qardaşlarımıza bizə göstərilən qonaqpərvərliyə, hörmətə, dostluq, qardaşlıq əlaqələrinə görə minnətdarlığımı bildirirəm. Türkiyənin xalqına öz hörmətimi və məhəbbətimi bir daha bildirirəm, bundan sonra da xoşbəxt, bəxtiyar yaşamağı arzu edirəm.Sağ olun.

"Rosiyskaya qazeta"nın müxbirinə Prezident Heydər Əliyevin verdiyi müsahibədən:

...Sual: Prezident olduğunuz qısa müddət ərzində Siz qeyri-adi diplomatik fəallıq göstərmisiniz. Beynəlxalq aləmdə Azərbaycanın yönümünü necə səciyyələndirmək olar?

Cavab: Belə bir faktı uğur hesab edirəm ki, Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin tənqidini müsbət tərəfə döndərmək mənə müyəssər oldu. Mən B. Yeltsin və V.Çernomırdinlə, digər rəsmi şəxslərlə görüşmüşəm, biz bir sıra mühüm sənədlər imzalamışıq, MDB-yə daxil olmuşuq. Yəni mənim ilk addımlarım Rusiya ilə xeyirxah münasibətlərin bərpasına yönəlmişdir. Bu xətt davam etdiriləcəkdir. **Rusiya Azərbaycan üçün həm yaxın qonşu, həm də istər Azərbaycanda, istərsə də Rusiyada yaşayan respublika vətəndaşlarının bir çoxunun taleyinin bağlı olduğu böyük ölkədir.**

Təbii ki, biz bütün qonşu ölkələrlə, məsələn, Türkiyə ilə dostluq münasibətlərinin yaradılmasına tərafdarıq. Bu münasibətlər əvvəl də yaxşı idi, mənim Türkiyəyə səfərim və imzaladığım müqavilələr münasibətlərimizi daha da möhkəmlətdi...

(Söhbəti Pavel Alekseyev aparmışdır.)

15 iyun 1994-cü il. Bakı-Moskva
"Azərbaycan", 18 iyun 1994-cü il.

Tehranda mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatından:

2 iyul 1994-ci il

...Sual: Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür?

Cavab: Bir daha təkrar edirəm ki, biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik. Deməli, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir. Moskva, yəni Rusiya ilə əlaqələr barədə geniş məlumat verdim, ona görə də təkrar etməyə ehtiyac duymuram.

Səfər proqramımda mətbuat konfransına çox az vaxt ayrılmışdır. Xahiş edirəm Bakıya gəlin, suallarınıza cavab vermək üçün orada vaxtım çox olacaq. Sağ olun.

"Utro Rossiya" qəzetində Prezident Heydər Əliyevin verdiyi müsahibədən:

...Sual: Hazırda keçmiş SSRİ-nin müsəlman respublikalarının əksəriyyətində iqtisadiyyatın türk inkişaf modeli böyük maraq oyadır. Bu barədə Sizin fikriniz necədir?

Cavab: Bizim Türk xalqı ilə də, Türkiyə Respublikasının rəhbərliyi ilə də ənənəvi dost münasibətlərimiz var. Əlbəttə, çiçəklənməkdə olan dünyəvi dövlətin nümunəsi çox cəlbedicidir, lakin mənə elə gəlir ki, biz inkişafın türk modelini bütünlüklə təkrar edə bilmərik və etməməliyik də. Azərbaycan milli-tarixi təcrübəsi olan özgə ölkədir. Nə qədər çətin və birmənalı olsa da, Rusiyanın iqtisadi islahatlar təcrübəsinin daha çox gərəkli olacağı istisna deyil.

(Söhbəti qəzetin Baş redaktoru Yuri Belyavski aparmışdır)

"Azərbaycan" 6 iyul 1994-ci il.

Bakıda Türkiyə tərəfindən tikilən diplomatik kompleksin bünövrəsinin qoyulması mərasimində Prezident Heydər Əliyevin çıxışı

29 iyul 1994-cü il

Hörmətli cənablar və xanımlar!

Azərbaycan paytaxtı Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu gözəlliyi təmin edən amillərdən biri əsrlərdən bəri Bakıda böyük memarlıq abidələrinin yaranmasıdır. Biz XII-XIII əsrlərdən indiyədək yaşayan bu abidələrlə fəxr edirik. Son dövrlərdə, yəni XX əsrdə də Bakı şəhərində bir sıra mühüm memarlıq abidələri tikilmişdir.

Hər bir abidənin özünəməxsus funksiyası və vəzifəsi vardır. Bu binalar təkcə abidə naminə yox, müəyyən məqsədlərə xidmət etmək üçün tikilib. Hər bir binanın memarlıq baxımından gözəlliyi, milli memarlıq məktəbinə mənsubluğu respublikamızın paytaxtı Bakı şəhərini xüsusi görkəmə malik olan şəhərə çevirmişdir. Biz Bakı şəhəri ilə, ulu babalarımızdan indiyədək qalan hər bir abidə ilə fəxr edirik.

Məlumdur ki, XX əsrdə Bakıda çox güclü tikinti işləri aparılmışdır. Xatirinizdədir ki, 70-ci illərdə də Bakıda böyük binalar və öz memarlıq xüsusiyyətləri ilə şəhərimizi daha da bəzəyən, ona xüsusi yaraşıq verən abidələr yaranmışdır. Təəssüf ki, son illər belə tikintilər, abidələr yaradılması işi ləngimiş, hətta demək olar ki, dayandırılmışdır.

Bu gün belə bir tədbir üçün buraya toplaşmağımız son illərdə demək olar ki, ilk hadisədir. Biz buraya yeni bir tikintinin əsasını qoymağa toplaşmışıq. Əlamətdar cəhət ondan ibarətdir ki, bu obyektin bünövrəsi indi müstəqil Azərbaycan Respublikası dövlətinin paytaxtında qoyulur.

Bakı həmişə Azərbaycanın paytaxtı olub. Ancaq indi Bakı müstəqil Azərbaycan dövlətinin paytaxtıdır. Bu ağır keçid dövründə bir çox iqtisadi, sosial problemlərlə rastlaşaraq onların həll olunmasına çalışan müstəqil Azərbaycan dövlətinin şübhəsiz ki, indi böyük tikintilər aparmaq imkanı yoxdur. Arzu edərdim ki, xalqımız Bakıda, eləcə də respublikamızın digər yerlərində indiyədək tikilmiş abidələri, binaları qoruyub saxlasın. Şübhə etmirəm ki, biz müstəqilliyimizi ildən-ilə daha da möhkəmləndirəcək, bundan sonra Bakıda da, Azərbaycanın digər şəhərlərində və yaşayış məntəqələrində də yeni-yeni memarlıq abidələri yaratmaq imkanlarımız olacaqdır.

Bu gün burada bünövrəsi qoyulan bina diplomatik mərkəzidir. Qeyd etdiyim kimi, bu, son illərdə inşasına başlanan ilk böyük binadır. Bu binanın bir əhəmiyyəti də budur ki, obyektin tikintisi müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafının böyük rəmzidir.

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmizin Türkiyə ilə əlaqələri daim müsbət istiqamətdə inkişaf edib. Biz bunu həmişə qiymətləndirmişik. Türkiyə bizim üçün dost və qardaş ölkədir. Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bu gün də, gələcəkdə də xüsusi yer tutur. İndiyədək bu əlaqələri nümayiş etdirən bir çox işlər görülsə də, təəssüf ki, bu cür tikinti işləri aparmayıb. Bu gün inşasına başlanan bina Türkiyənin respublikamıza, xüsusən Azərbaycanın paytaxtı Bakı şəhərinə göstərdiyi qayğılardan biridir. Bu bina Türkiyə Xarici İşlər Nazirliyinin Azərbaycana ayırdığı xüsusi kredit əsasında tikilir. Mən Türkiyənin xarici işlər naziri Hikmət

Çətinlə görüşlərimdə, danışıqlarımda bu məsələnin həll olunması barədə dəfələrlə öz münasibətimi bildirmişdim. Bunu bildirməyi özümə borc bilirəm deyəm ki, Türkiyənin xarici işlər naziri hörmətli Hikmət Çətin bu işin həyata keçirilməsi üçün böyük fəaliyyət göstərib. Əminəm ki, onun bu fəaliyyəti Azərbaycanın həyatında öz əksini daim tapacaqdır.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlu indicə bildirdi ki, hörmətli Hikmət Çətin dünən öz vəzifəsindən istefa vermişdir. Ancaq o, bizim respublikamızın böyük dostudur. Mən dünən onunla telefonla danışarkən bunu bir daha bildirdim. Bu binanın yaranmasını mən ümumən Türkiyə Respublikasının Azərbaycana dostluq münasibəti kimi qiymətləndirirəm. Bunu Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəlin xüsusi qayğısı hesab edirəm. Bu, Türkiyənin baş naziri hörmətli Tansu Çillərin Azərbaycana qayğısıdır. Qeyd etdiyim kimi, xarici işlər naziri hörmətli Hikmət Çətin bu sahədə xüsusi xidmətlər göstərib. Bütün bunlara görə Türkiyə Respublikasının rəhbərlərinə və bu işdə iştirak edən şəxslərin hamısına Azərbaycan Respublikası adından öz hörmətimi, minnətdarlığımı bildirirəm.

Bu tikinti Türkiyənin inşaat şirkəti aparacaqdır. Binanın layihəsini də həmin şirkət hazırlayıb. Mən bu layihə ilə əvvəlcədən də tanış idim, indi də ona baxarkən orada bizim arzularımızın əks olunduğunu gördüm. Tikintisinə başlanan diplomatik mərkəz binasının həm xarici görünüşü, həm də daxili quruluşu, yəni eksteryeri, interyeri Azərbaycan memarlıq sənətinin ənənələrinə uyğundur. Ancaq bu gün mən həm inşaatçılardan, həm də memarlardan bir daha xahiş etmək istəyirəm ki, tikinti zamanı bu xətti nəinki qorusunlar, hətta daha da zənginləşdirsinlər, inkişaf etdirsinlər. Bir halda ki, mən bu işlə məşğul oluram, indicə şirkətin prezidentinə də dedim ki, buna özüm nəzarət edəcəyəm. Tikintinin vaxtında başa çatdırılması, eyni zamanda binanın keyfiyyətli, dünya standartlarına uyğun olması, bütün binalarla yanaşı, Azərbaycan memarlıq sənətinin burada tam öz əksini tapması əsas şərtlərdən biridir. Güman edirəm ki, bu şərtlər yerinə yetiriləcəkdir.

Bildiyimiz kimi, mən Azərbaycanda, onun paytaxtı Bakıda bir çox binaların, tarixi-memarlıq abidələrinin tikintisinin təşəbbüskarı olmuşam. Bu işdə yaxından iştirak etdiyimə görə, həmin binalar bu gün də, gələcək üçün də yararlı və gərəkli olduğuna görə özümü xoşbəxt hesab edirəm.

Müstəqil dövlətin başçısı kimi mən Azərbaycanda, Bakıda yeni böyük bir binanın, memarlıq abidəsinin özülünün qoyulmasının iştirakçısıyam. Bundan çox məmnunam və güman edirəm ki, əgər bu ilk addımdırsa, şübhəsiz ki, uğurlu olacaq, davamlı olacaqdır. Biz müstəqil Azərbaycanın iqtisadi, sosial problemlərini həll edərək, respublikamızı indiki böhran vəziyyətindən, müharibə vəziyyətindən çıxararaq, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, qorunmasını təmin edərək bütün şəhərlərimizdə, yaşayış məntəqələrimizdə yeni-yeni binaların, memarlıq abidələrinin yaranmasına səy göstərəcəyik. Əminəm ki, bunu təmin edəcək, buna nail olacağıq.

Bugünkü hadisə həmin istiqamətdə gələcəkdə görəcəyimiz işlərin ilk addımıdır. Ona görə də bunu yüksək qiymətləndirirəm və bu gün inşaat meydançasına gələrək bu binanın tikintisinin başlanmasına xeyir-dua vermək istəyirəm. Əminəm ki, bizim bu görüşümüz, bu işə təntənə ilə başlamağımız həmin işlərin müvəffəqiyyətlə, sürətlə getməsinə təmin edəcəkdir.

Keçmiş vaxtlarda belə böyük binaların bünövrəsinə xatirə müraciəti qoyulmasına o qədər də fikir verməmişdik. Belə hesab edirdik ki, əgər bir bina tikiriksə, bunun xalq üçün xeyirli olması hamıya aydındır, ancaq əvvəllər tikilən bəzi binaların bünövrəsinə belə yaddaş qoymuşuq. Bunu ona görə etməmişdik ki, o binalar nə vaxtsa dağılacaq və o daşlar yerin təkindən üzə çıxacaq. Yox. Ona görə ki, bütün bunlar tarixə həkk olsun.

Müstəqil Azərbaycan dövlətinin bugünkü ağır dövründə belə bir binanın tikintisini vacib hesab edərək mən bu binanın da bünövrəsinə xatirə yaddaşı kimi məktub imzalayıb qoymaq istəyirəm. Azərbaycanın müstəqilliyini müqəddəs hesab etdiyimizə, Azərbaycanın milli, mənəvi, dini ənənələrinə sadiq olduğumuza görə, şübhəsiz ki, bu xatirə yaddaşı bu binanın tikintisinin xeyirli, uğurlu olmasına təminat verəcəkdir.

Bu gün mən bu binanın tikilməsi üçün hazırlıq işləri görənlərin hamısına təşəkkürümü bildirirəm. Türkiyə şirkətini, Türkiyədən gəlmiş qardaşlarımızı, buraya toplaşanların hamısını bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu addımımız müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafı üçün yararlı, gərəkli olacaq. Gələcək böyük işlərimiz üçün bir cığır açacaqdır.

Sizin hamınızı bir daha təbrik edirəm. İnşaatçılara müvəffəqiyyətlər arzulayıram. Tam əmin olduğumu bildirirəm ki, bu şirkətin verdiyi söz əməli surətdə həyata keçəcəkdir.

Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə Xarici Neft Şirkətlərinin Konsorsiumu arasında müqavilə imzalanması mərasimində Prezident Heydər Əliyevin nitqi

20 sentyabr 1994-cü il

"Gülüstan" sarayı

Xanımlar və cənablar, hörmət-

li qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında üç il davam edən danışıqlar sona çatmış və müştərək işlər aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakıda, bu gözəl "Gülüstan" sarayında müqavilənin imzalanması mərasiminə toplaşmış. Müqavilənin imzalanması ilə əlaqədar olaraq Bakıya xarici ölkələrdən dövlət nümayəndələri, qonaqlar gəlmişdir. Bakıya, bu mərasimdə iştirak etməyə gələn qonaqlarımızın hamısını ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə apardığı danışıqlar bu ölkələrin dövlət və hökumətlərinin himayəsi altında olmuş və onlar tərəfindən dəstəklənmişdir. Müqavilənin imzalanması mərasiminə xarici ölkələrin nümayəndə heyətləri gəlmişlər. Bu mərasimdə iştirak edən Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin, Norveçin nümayəndə heyətlərini ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkəti xarici ölkələrin neft şirkətləri ilə və onların sonradan birləşdikləri konsorsium ilə üç il müddətində danışıqlar aparmış, müqavilənin layihəsini birlikdə hazırlamışlar. Bu böyük neft şirkətlərinin nümayəndə heyətləri bizim bugünkü mərasimdə iştirak edirlər. Mən onları ürəkdən salamlayıram. "AMOKO" şirkətinin Prezidenti cənab Uilyam Laurini salamlayıram. "Bi-Pi" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin Prezidenti cənab Con Braunu salamlayıram. "Statoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Yohan Nik Voldu salamlayıram. "LUKoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin Prezidenti cənab Vahid Ələkbərovu salamlayıram. "Mak Dermott" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Uilyam Vitnisi salamlayıram. "Pennzoyl" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin Prezidenti cənab Tomas Hamiltonu salamlayıram. "Remko" şirkətinin nümayəndə heyəti, onun başçısı, şirkətin Prezidenti Stiven Remponu salamlayıram. "Yunokal" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin Prezidenti cənab Con Ameli salamlayıram. "Delta intənəşni" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin Prezidenti cənab Fateh əl-Albanı salamlayıram.

Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük

milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı "Odlar diyarı" adlandırırlar. Azərbaycanda neft çıxarılması, ondan istifadə edilməsi, neftin emal olunması böyük tarixə malikdir. 1847-ci ildə Azərbaycanda - Bakıda, Bibiheybətdə ilk dəfə olaraq neft fontan vurmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması prosesi də o vaxtdan başlamışdır. 1872-ci ildə Nobel qardaşları Bakıda ilk neft şirkəti yaratmışlar və bununla da Azərbaycan neftindən istifadə etmək üçün, xarici ölkələrin firmaları, xarici kapital ölkəmizə gəlməyə başlamışdır.

Beləliklə, XIX əsrin ikinci yarısında bir sıra dünya ölkələri, inkişaf etmiş dövlətlərin firmaları Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərmişlər. Həmin əsrin sonundan etibarən Bakı neftinin çıxarılması üçün bir çox xarici ölkələrin şirkətləri fəaliyyətə başlamışlar. 1872-ci ildə Azərbaycanda 26 min ton neft çıxarılmışdır. Cari əsrin əvvəlində, 1900-cu ildə Azərbaycanda artıq 10 milyon ton neft hasil olunmuşdur ki, bu da Rusiyada çıxarılan neftin 95 faizini, dünyada çıxarılan neftin isə 50 faizini təşkil etmişdir. XX əsrin birinci 20 ilində də Azərbaycanda xarici ölkələrin neft şirkətləri və yerli sahibkarlar Bakı neftinin çıxarılması, emalı üçün çox böyük fəaliyyət göstərmişlər və Azərbaycanda neft sənayesi inkişaf etmişdir.

Həmin il Azərbaycanda Sovet Sosialist hakimiyyəti qurulmuşdur. Bundan sonra 70 il ərzində Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir. Həmin dövrü Azərbaycanın neft sənayesinin həyatında ikinci dövr adlandırmaq olar. Bu dövrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmişdir. Sovet İttifaqının sənayesinin və iqtisadi qüdrətinin, sənaye potensialının inkişafı üçün Azərbaycanın neft sənayesi çox lazımlı olduğuna görə buraya böyük səylər yönəldilmişdir. Odur ki, Azərbaycanda neft sənayesinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı" və "Dördüncü Bakı" adlandırmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiri-

rik.

30 il müddətində müştərək fəaliyyət göstəriləcək, ölkələrimiz inkişaf edəcəksə, şübhəsiz, bunun siyasi nəticələri də olacaqdır. Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir.

Nəcməddin Cövhəri (Türkiyənin Dövlət naziri) Mən onu əlavə edə bilərəm ki, Anadoludan keçəcək boru kəməri yalnız Azərbaycan nefti üçün deyildir. Bu kəmər Qazaxıstan neftinin də Aralıq dənizi sahilinə, Qərbə nəql edilməsi üçün nəzərdə tutulmuşdur. Çünki 1936-cı il Montrö müqaviləsinə görə boğazlardan (Türkiyənin Bosfor və Dardanel boğazları nəzərdə tutulur - AzərTAC) keçmək hüququna malik gəmilər boğazların mənsub olduğu ölkənin təhlükəsizlik və gömrük qaydalarına riayət etməlidir. Montrö müqaviləsinin imzaladığı dövrdə dünyanın ən böyük tankerlərinin subasımı 20-30 min ton idi. Bu gün 200-300 min tonluq tankerlərin İstanbuldan keçməsi mümkün deyildir. Çünki boğazların sahilində 12 milyon əhalisi olan bir şəhər yerləşir. Buna görə də Anadoludan keçəcək neft kəmərlərinə ehtiyac var. İstər Azərbaycandan olsun, istərsə də Qazaxıstandan - fərqi yoxdur. Hörmətli cümhur başkanının bəyanatına əlavə olaraq demək istədiklərim bunlardır.

Prezident Heydər Əliyevin 1994-cü il sentyabrın 22-də Azərbaycan televiziyası və radiosu ilə çıxışından:

...Demək, bu konsorsium həm yedi neft şirkətini, həm də ABŞ, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç, və Səudiyyə Ərəbistanı kimi ölkələri təmsil edir. Biz həm neft şirkətləri ilə müqavilə bağlamışıq, həm də bu şirkətlər bizim həmin dövlətlərlə iqtisadi və digər əlaqələrimizin gələcək inkişafı üçün əsas yaratmışlar.

"Azərbaycan 1994", Bakı-2002, səh. 85.

Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə Heydər Əliyevin çıxışı

26 sentyabr 1994-cü il

Hörmətli dostlar, bacılar, qardaşlar!

Xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının dövlət başçısı, Prezidenti ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarına, ən nüfuzlu beynəlxalq təşkilat olan Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin sessiyasında iştirak etməyə gəlmişəm. Müstəqil Azərbaycan Respublikası üçün bu, böyük hadisədir. Bu, Azərbaycanın müstəqil

bir dövlət kimi yaşadığını, inkişaf etdiyini bütün dünyaya nümayiş etdirəcəkdir.

Çox məmnunam ki, bu gün burada, Nyu-York şəhərində sizinlə - qardaşlarımız, bacılarımızla görüşmək mənə nəsib olmuşdur. Hamınızı Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından ürəkdən salamlayıram, hamınıza Odlar yurdu Azərbaycan torpağına salamlar çatdırıram.

Üç ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Bu, Azərbaycanın həyatında tarixi hadisədir. Sizə məlumdur ki, Azərbaycan xalqı uzun illər, əsrlər boyu milli azadlıq uğrunda mübarizə etmiş, öz müstəqil dövlətini qurmağa çalışmışdır. Son əsrdə ilk dəfə 1918-ci ildə bu, xalqımıza nəsib olmuş, Azərbaycanda ilk Demokratik Cümhuriyyət yaranmışdır. Azərbaycanın ilk Demokratik Cümhuriyyəti Şərqdə sivilizasiyalı bir dövlət kimi dünyada tanınmışdır. Ancaq Azərbaycan demokratik dövləti çox yaşaya bilməmiş, süquta yetmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulmuş və 70 il davam etmişdir. Nəhayət, üç il bundan öncə, keçmiş Sovetlər İttifaqının dağılması ilə əlaqədar olaraq Azərbaycan xalqı müstəqillik yoluna çıxmış, istiqlaliyyətini əldə etmiş, müstəqil Azərbaycan Respublikası yaranmışdır.

Azərbaycan Respublikası ağır şəraitdə yaranıb və 3 ildir ki, ağır şəraitdə yaşayır. Bildiyiniz kimi, altı ildən çoxdur ki, Azərbaycan Respublikası, Azərbaycan xalqı Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış və bu, xalqımızın həyatını ağırlaşdırmış, gərginləşdirmişdir. Azərbaycan Respublikası məhz belə bir dövrdə yaranıb, məhz belə bir zamanda - ağır müharibə şəraitində üç ildir ki, öz müstəqilliyini möhkəmləndirməyə, inkişaf etdirməyə çalışır.

Mən sizə bildirə bilərəm ki, Azərbaycan Respublikası bir müstəqil dövlət kimi demokratik prinsiplər əsasında yaşamağa can atır. Biz respublikada demokratik, hüquqi, sivilizasiyalı dövlət yolu ilə gedirik, cəmiyyətimizi dünyada sınaqdan çıxmış demokratik prinsiplər əsasında təşkil etməyə çalışırıq və bu sahədə bir çox mühüm addımlar atmışıq. Azərbaycanda demokratiyanı bərqərar etmək, cəmiyyətimizdə demokratik prinsiplər inkişaf etdirmək üçün bir çox qanunlar qəbul olunub və onların əsasında indi ölkəmizdə çoxpartiyalı cəmiyyət mövcuddur. Azərbaycanda söz, mətbuat, vicdan azadlığı, insan hüquqlarının qorunması, cəmiyyətimizin əsas atributlarını təşkil edir. Dini mənsubiyyətindən, dilindən, irqindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdirlər. Azərbaycan xalqı öz həyatını tarixi, milli, mənəvi dəyərləri əsasında qurur və bundan sonra da bu yolla gedəcəkdir.

Azərbaycanın iqtisadiyyatı dərin böhran içərisindədir. Bu da iqtisadiyyatımızın, sosial həyatımızın

bir ictimai-iqtisadi sistemdən digər sistemə keçməsi ilə əlaqədardır. Bildiyiniz kimi, Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində olmuşdur. Azərbaycan dövləti, cəmiyyəti, həm də iqtisadiyyatı sosialist quruluşunun tələblərinə uyğun olaraq qurulmuşdu. İndi hər şey dəyişir, o cümlədən iqtisadiyyatda da böyük dəyişikliklər baş verir. Şübhəsiz ki, bu dəyişikliklər çox çətin yollarla gedir. Azərbaycan sərbəst iqtisadiyyat yolu, bazar münasibətləri yolu ilə getməyi qərara almışdır və biz bu yolla irəliləyirik. Biz, bunun üçün iqtisadi islahatlar keçirməyə, iqtisadiyyatda özəlləşdirməyə, təşəbbüskarlığa, sahibkarlığa geniş yer verməyə çalışırıq və yolumuz belədir: iqtisadiyyat bazar iqtisadiyyatı, sahibkarlıq əsasında qurulacaqdır. Özəl bölmə inkişaf edəcək və iqtisadiyyatın əsasını təşkil edəcəkdir. Bunlar hamısı böyük və mürəkkəb proseslərdir. Biz bu proseslərə başlamışıq, bu yolla gedəcəyik. Beləliklə də. Azərbaycan iqtisadiyyatı dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin, dövlətlərinin iqtisadiyyatına bağlanacaqdır.

Ümumiyyətlə, biz öz daxili siyasətimizdə çalışırıq ki, Azərbaycanın həm dövlət quruculuğu, həm cəmiyyətin təşkil edilməsi və həm də iqtisadiyyatın inkişafı dünya dövlətlərinin təcrübəsi əsasında olsun və beləliklə də Azərbaycan Respublikası dünya miqyasında öz layiqli yerini tuta bilsin.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Biz bütün dünya ölkələri ilə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmağa çalışırıq. Bu sahədə ilk addımlar atılıb, müəyyən nəticələr əldə edilib. Bilirsiniz ki, Azərbaycan 1992-ci ildə BMT-yə qəbul olunub, onun üzvüdür. Respublikamız bir çox beynəlxalq təşkilatların da üzvüdür və bu təşkilatlarda fəaliyyət göstərir, öz mövqelərini müdafiə edir. Bununla bərabər - xarici ölkələrlə Azərbaycan arasında iqtisadi, ticarət, elmi, texniki, mədəni, insani əlaqələrin yaranmasına və inkişaf etməsinə çalışırıq. Bu sahədə bir çox işlər görülüb. Ancaq qarşıda görüləsi işlərimiz hələ çoxdur, vəzifələrimiz böyükdür.

Bildiyiniz kimi, Azərbaycanın qonşu dövlətlərlə əlaqələrini möhkəmləndirməyə çalışırıq. Şimalda olan qonşumuz Rusiyadır. Azərbaycan 200 ilə yaxın müddətdə Rusiyanın tərkibində olub. Ona görə də indi, müstəqil olduğumuz dövrdə bu ölkə ilə iqtisadi, insani, elmi-texniki əlaqələrin qırılmasına yol vermək olmaz. Təəssüf ki, həmin əlaqələrin bir hissəsi artıq pozulub. Ancaq Azərbaycanın mənafelərini təmin etmək üçün bu əlaqələri bərpa edib inkişaf etdirmək lazımdır.

Qonşu Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri var. Bu, bizim tarixi keçmişimizlə bağlıdır, ənənəvi xarakter daşıyır, milli, dini mənsubiyyətlərimiz əsasında qurulur və bu əlaqələrin indən

sonra da inkişaf etdirilməsi xarici siyasətimizdə görkəmli yer tutur.

İran Azərbaycanın böyük qonşusudur. İran ilə Azərbaycan arasında da əsrlər boyu çox sıx əlaqələr, dini, milli, mənəvi əlaqələr olub. Ənənələrimiz bir-birinə çox bənzərdir, yaxındır. Bunları və insani əlaqələrin çox geniş olduğunu nəzərə alaraq İran ilə Azərbaycan arasında əlaqələri inkişaf etdiririk və bu, bizim üçün çox önəmlidir.

Qonşumuz Gürcüstan Respublikası da bizim ki, yenicə müstəqillik qazanmış bir dövlətdir. Bizim əlaqələrimiz normaldır və bu əlaqələri inkişaf etdirəcəyik.

Ermənistan ilə isə müharibə şəraitindəyik. Sizə bir daha çatdırmaq istəyirəm ki, bu müharibəyə biz başlamamışıq. Azərbaycan xalqı, Azərbaycan Respublikası bu müharibəyə cəlb olunmuşdur. Bunlar hamısı yalnız və yalnız Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində baş vermişdir.

Azərbaycan dünyanın böyük dövlətləri ilə əlaqələr qurmağa və inkişaf etdirməyə çalışır, keçmiş Sovetlər İttifaqına mənsub olan, indi müstəqillik qazanmış dövlətlərlə MDB daxilində birgə fəaliyyət göstərir. Azərbaycanın bu birlikdə olması iqtisadi, ticarət əlaqələri üçün çox önəmlidir. Ona görə də biz bu birliyə daxil olmuşuq və orada öz yerimizi tutmuşuq. MDB-yə daxil olan keçmiş Sovet respublikaları il əlaqələri inkişaf etdiririk.

Qərb ölkələri ilə, iqtisadi cəhətdən inkişaf etmiş və demokratik nailiyyətlər qazanmış böyük dövlətlərlə əlaqələr qurub inkişaf etdirmək bizim üçün çox vacibdir. Bu baxımdan Amerika ilə Azərbaycan arasında əlaqələrə çox yüksək qiymət veririk. Bu əlaqələrin inkişaf etdirilməsi üçün son vaxtlar xeyli iş görülmüşdür. Bilirsiniz ki, mənim Amerika Birləşmiş Ştatlarının dövlət xadimləri, xarici siyasətlə məşğul olan nümayəndələri ilə görüşlərim olub. Sentyabrın əvvəlində Qahirədə ABŞ-ın vitse-prezidenti cənab Albert Qor ilə görüşdüm. Ondan bir az öncə ABŞ Dövlət Departamentinin başçısı cənab Kristoferlə İstanbulda görüşmüşdüm. Bu ayın əvvəlində ABŞ Prezidenti cənab Bill Klintonun şəxsi nümayəndəsi, onun kabinetinin üzvü, Milli Təhlükəsizlik Şurasının üzvü, ABŞ-ın BMT-də təmsilçisi xanım Olbrayt Bakıya gəlmişdi və onunla görüşlərimiz oldu. Nəhayət, sabah ABŞ Prezidenti cənab Bill Klintonla da görüşüm olacaqdır. Bunlar hamısı Azərbaycanın ABŞ-la əlaqələrinin yaranmasına və inkişaf etməsinə həsr olunubdur. Güman edirəm ki, biz öz xarici siyasətimizi bu istiqamətdə aparacağıq.

Bilirsiniz ki, cənab Fransua Mitteranın dəvəti ilə mənim Fransaya səfərim olub. Bu səfər zamanı Azərbaycan ilə Fransa arasında əməkdaşlıq, iqtisadi əlaqələri, dövlətlərarası əlaqələri inkişaf etdirmək haqqında bir çox sazişlər imzalan-

mışdır.

Sonra İngiltərənin Baş naziri Con Meycorun dəvəti ilə İngiltərədə rəsmi səfərdə olmuşam. Londonda bu ölkə ilə Azərbaycan arasında bir çox mühüm müqavilələr imzalanmışdır.

Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə mən Türkiyəyə rəsmi səfərə getmişdim. Türkiyə ilə Azərbaycan arasında əlaqələr əvvəllər də çox yaxşı idi. Ancaq bizim Ankaradakı görüşlərimiz bu əlaqələrin inkişaf etməsi üçün yeni bir mərhələ olmuşdur. Biz orada bir çox müqavilələr imzaladıq.

İran İslam Respublikasının Prezidenti cənab Haşimi-Rəfsəncaninin dəvəti ilə mən İrana rəsmi səfərə getmişdim. Orada da Azərbaycan ilə İran arasında əlaqələrin inkişaf etdirilməsi üçün bir çox müqavilələr imzalanmışdır.

Dünyanın böyük dövlətlərindən olan ÇXR-in başçısının - respublikanın sədrinin dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə getmişdim. Azərbaycan ilə Çin arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün orada müəyyən mü-qavilələr imzalanmışdır. Bir çox başqa dövlətlərlə də əlaqələrimizin qurulması, inkişaf etdirilməsi üçün son vaxtlar mühüm tədbirlər görmüşük.

Azərbaycanın xarici siyasətində ən mühüm addımlardan biri də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına respublikamızın qoşulmasıdır. Bunun üçün mən mayın 5-d Brüsselə səfər etdim. NATO-nun Baş Qərargahında gö rüşlər keçirdim, bu proqrama imza atdım. Beləliklə, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu.

Dediyim kimi, Azərbaycan beynəlxalq təşkilatlarda da fəaliyyət göstərir və biz çalışırıq ki, fəaliyyətimiz uğurlu olsun, dövlətimizin mövqelərinin möhkəmləndirilməsinə yönəldilsin.

Azərbaycanın ən böyük problemi müharibə vəziyyətindən çıxmaqdır. Altı il davam edən müharibə nəticəsində, Ermənistan silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunubdur və indi də Ermənistanın işğalı altındadır. Keçmiş Dağlıq Qarabağın ərazisi və Azərbaycanın daha yeddi rayonu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları işğal olunmuşdur. Ağdam rayonunun çox hissəsi işğal olunub, bir hissəsi isə Azərbaycanın hakimiyyəti altındadır. Füzuli rayonunun da bir qismi işğal olunandan sonra geri qaytarılıb. Ancaq o birisi rayonlar tamamilə işğal altındadır. Bu məsələ respublikamız üçün ən ağır, ən çətin məsələdir.

Mən indi Azərbaycanın məğlubiyyətinin səbəblərini araşdırmıram, sizin vaxtınızı almaq istəmirəm. Ancaq bunun müəyyən obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər ondan ibarətdir ki, Ermənistan bu təcavüzü edərək dünyanın bir çox

ölkələri tərəfindən dəstək, kömək alır, beynəlxalq təşkilatlarda da müdafiə olunur. Subyektiv səbəblər isə ondan ibarətdir ki, Azərbaycanda bu təcavüzün qarşısının alınması üçün ötən altı il müddətində lazımi tədbirlər görülə bilməyib. Azərbaycan xalqı o qədər də zəif deyil. Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir. Ancaq keçmiş Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycana lazımi qayğı və yardım göstərilmədiyinə görə, respublikanın daxilində Azərbaycanın zərərinə olan bir çox proseslər baş verdiyinə görə Azərbaycan Respublikasının imkanları ona öz torpaqlarını müdafiə edib ərazisinin bütövlüyünü saxlamağa imkan verməyib.

İşğal olunmuş ərazilərimizdən bir milyondan artıq adam qaçqın düşmüşdür. Onlar çətin, ağır şəraitdə, çadırlar altında yaşayırlar. Bunlar hamısı Azərbaycanın sosial-iqtisadi vəziyyətini çox ağırlaşdırır. Buna baxmayaraq, xalqımız tam əmindir ki, bütün bu çətinliklərdən çıxacaq və Azərbaycan Respublikası müstəqil dövlət kimi öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Bildiyiniz kimi, keçən ilin noyabrında bu müharibədə müəyyən dönüş yaratmağa nail ola bildik. Bizim qonşularımız artıq əvvəlki kimi yox, böyük sücaətlə vuruşmağa başladılar. İşğal olunmuş torpaqların bir hissəsi geriyə qaytarılıb. Ancaq yenə də deyirəm. Ermənistana dünyanın hər yerindən o qədər kömək olunur ki, Azərbaycan öz torpaqlarını geri qaytarmaq ərəfəsində olarkən bunu görən və Ermənistanı dəstəkləyən qüvvələr təcavüzkara köməyi artırdılar və bizim o hücumumuz axıra çata bilmədi. Ona görə də biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək.

Bu məqsədlə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Deyə bilərəm ki, bir il müddətində bu sahədə çox işlər görülüb. Siz bilirsiniz ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi olub. Bu qətnamələrdə tələb edilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri heç bir şərtsiz torpaqlarımızdan çıxsın. Ancaq Ermənistan tərəfi bunu icra etməyib və BMT Təhlükəsizlik Şurası da öz qətnamələrini yerinə yetirmək üçün əlavə tədbir görə bilməyib.

Bilirsiniz ki, ATƏM təşkilatı bu sahədə bizim problemlərlə məşğul olur. Bu təşkilatın tərkibində Minsk qrupu yaradılıbdır. Biz Minsk qrupunun başçısı cənab Yan Eliassonla dəfələrlə görüşmüşük, bu məsələlər Minsk qrupunda dəfələrlə müzakirə olunub. Biz çalışırıq ki, onların vasitəsilə məsələ həll edilsin.

Biz məsələnin sülh yolu ilə həll olunması üçün hər bir dövlətin imkanlarından istifadə etməyə çalışırıq. Rusiya bu barədə çox təşəbbüs göstərib, vasitəçilik etmək istəyir.

Biz bu vasitəçilikdən də imtina etmirik, əksinə, ondan istifadə etmək istəyirik. Ancaq bir şərtlə: Azərbaycanın müstəqilliyinin, suverenliyinin qorunması şərti ilə.

Dörd aydan artıqdır ki, Ermənistanla Azərbaycan arasında silahlı toqquşma, müharibə dayandırılıb, atəşkəs recimi davam edir. Atəşkəs recimi bir tərəfdən Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqlar, digər tərəfdən Minsk qrupunun vasitəçiliyi, Rusiyanın vasitəçiliyi nəticəsində əldə olunmuşdur. Biz atəşkəsə müvəqqəti sülh deyirik. Ona daimi sülhə çevirmək, tam sülh yaratmaq istəyirik. Çünki altı il ərzində gedən müharibə göstərir ki, bu müharibənin perspektivi yoxdur - Ermənistan üçün də, Azərbaycan üçün də yoxdur.

Biz Ermənistan torpaqlarını zəbt etmək fikrində deyilik, ancaq öz torpaqlarımızın da işğal altında saxlanılmasına yol verə bilmərik. Ona görə də beynəlxalq təşkilatların imkanlarından, böyük dövlətlərin imkanlarından istifadə edərək, işğal olunmuş torpaqlarımızı sülh yolu ilə geri qaytarmağa çalışırıq. Bu barədə çoxlu danışıqlar aparılıb, bir neçə layihə var. Ancaq bu layihələrdə bizim tələblərimiz tam əks olunmadığına görə onlar indiyədək həyata keçirilməyib.

Qısaca desək, Ermənistan tərəfi işğal olumuş torpaqların bir hissəsini azad etməyə hazırdır. Ancaq burada bəzi məsələlər çox böyük mübahisə doğurur: onlar Laçın rayonunu azad etmək istəmirlər. Bizim üçün çox əziz olan qədim şəhərimiz, Azərbaycanın tarixi abidələr şəhəri Şuşanı da azad etmək istəmirlər. Ona görə də son vaxtlar Moskvada Rusiyanın Xarici İşlər naziri Kozırevin vasitəçiliyi ilə Ermənistan rəhbərləri ilə görüşdük.

Bu məsələlər barədə ABŞ-ın yüksək vəzifəli şəxsləri ilə görüşlərimdə də Azərbaycan Respublikasının mövqeyini qəti bildirmişəm və bu sahədə indi danışıqlar gedir. Biz çalışacağıq ki, Azərbaycanın mövqeləri müdafiə olunsun. Yenə də deyirəm, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq.

Ancaq bir şərtlə. Şərt ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalı, Azərbaycan vətəndaşları öz evlərinə, obalarına, yaşadıqları yerlərə qayıtmalı, respublikamızın ərazi bütövlüyü, sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir. Yəni müstəqil Azərbaycan Respublikasının dövlət suverenliyi təmin olunmalıdır. Biz bu şərtlər əsasında müharibəyə sülh yolu ilə son qoymağa çalışırıq. Altı illik müharibəyə baxmayaraq, Ermənistanla sülh yaradaraq qonşu dövlət kimi yaşamağa hazırıq. Ancaq bir də deyirəm, gərək bu şərtlərimiz qəbul olunsun. Biz həmin şərtlərdən geri çəkilməmişik və çəkilməyəcəyik. Mən BMT Baş Məclisinin sessiyasındakı çıxışımda eyni zamanda burada dövlət başçıları ilə və

başqa dövlət adamları ilə görüşlərimdə də bu şərtləri deyəcəyəm. Bu məsələ cənab Bill Klintonla görüşümdə də söhbətin əsas mövzularından biri olacaqdır.

Azərbaycan indi belə şəraitdə, belə vəziyyətdə yaşayır. Respublikamızın daxilində ictimai-siyasi vəziyyət sabitdir. Düzdür, bəzi qüvvələr bu sabitliyi pozmaq istəyirlər. Bilirsiniz ki, son üç-dörd ildə Azərbaycanda bir çox proseslər, hakimiyyət uğrunda mübarizə getmişdir, ayrı-ayrı qüvvələr hakimiyyətə gəlmək üçün Azərbaycana çox zərbələr vurmuşlar. Onların bəziləri indi də öz şəxsi mənafeləri naminə, niyyətlərini həyata keçirmək üçün daxili sabitliyi pozmağa çalışırlar. Ancaq Azərbaycan xalqı son illərdə çox böyük sınaqlardan çıxmışdır və sabitliyin pozulmasına imkan verməyəcək. Arxayın olun ki, biz Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi qoruyub saxlaya biləcəyik.

Bildiyiniz kimi, Azərbaycan böyük iqtisadi potensiala malikdir, onun zəngin təbii sərvətləri var. Əsrin əvvəlindən indiyədək sənaye və kənd təsərrüfatı sahəsində güclü potensial yaradılmışdır. Bundan istifadə etmək üçün çalışırıq ki, xarici ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirək. Ona görə də Azərbaycanın qapıları xarici ölkələrin şirkətləri üçün açıqdır. Biz Azərbaycanı dünyaya açıq dövlət kimi təqdim etmişik. Bu gün sizin qarşınızda bir daha təsdiq edirəm ki, Azərbaycan bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat qurmaq əsasında irəliləyən açıq ölkədir. Xarici ölkələrin şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsi, investisiyalar qoyması prosesi başlanmışdır və davam edəcəkdir.

Bu istiqamətdə gördüyümüz işlərdən biri də Xəzər dənizinin Azərbaycan sektorunda olan zəngin neft yataqlarının birgə işlənməsi barədə sentyabrın 20-də Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında müqavilə imzalanmışdır. Bu, 30 il müddətinə bağlanmış böyük müqavilədir. Müqavilədə Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermott" şirkətləri, İngiltərənin "Britiş Petroleum", Rusiyanın "LUKoyl", Norveçiv "Statoyl" şirkətləri, Türkiyənin neft şirkəti iştirak edirlər. Son vaxtlar bu müqaviləyə Səudiyyə Ərəbistanının şirkəti də daxil olmuşdur. Həmin şirkətlər böyük bir konsorsium yaratmışlar.

Müqavilənin hazırlanması ilə bağlı üç ildən artıq müddətdə danışıqlar getmişdir. Həmin danışıqların müxtəlif mərhələləri olmuşdur. Ancaq son dövrdə - bu ilin əvvəlindən başlayaraq danışıqlar çox intensiv aparılmış və bunun nəticəsində, nəhayət, mən müqaviləni imzalamaq barədə qərar qəbul etdim. Bununla əlaqədar verdiyim fərman əsasında sentyabrın 20-də Bakıda çox təntənəli bir mərasim keçirildi. Həmin şirkətlərin Prezidentləri və nümayəndə heyətləri, o cümlədən şirkətlərin

mənsub olduqları dövlətlərin nümayəndə heyətləri Bakıya gəlmişdi. Amerika Birləşmiş Ştatlarından Energetika nazirinin müavini cənab Uaytın başçılığı ilə böyük bir nümayəndə heyəti, İngiltərənin Energetika naziri cənab Eqqar başda olmaqla nümayəndə heyəti, Türkiyənin Dövlət naziri Nəcməddin Cövhərinin rəhbərliyi ilə nümayəndə heyəti, Norveç Energetika Nazirinin müavini başda olmaqla nümayəndə heyəti gəlmişdi. Mərasimdə Rusiyadan və Səudiyyə Ərəbistanından nümayəndə heyətləri də iştirak edirdi.

Bu müqavilənin imzalanması tarixi hadisədir, həmin sənəd "Əsrin müqaviləsi"dir və xarakterinə görə çox nadir müqavilədir. Belə müqavilələr adətən bir şirkət ilə başqa şirkət arasında, yaxud bir ölkə ilə digər ölkə arasında bağlanır. Bakıda isə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin yeddi iri şirkəti arasında müqavilə imzalanmışdır. Başqa sözlə, Azərbaycanın iqtisadiyyatı həmin şirkətlərin təmsil etdikləri ölkələrlə bağlanır.

Ona görə də biz bu müqaviləni çox yüksək qiymətləndiririk və hesab edirik ki, onun həyata keçirilməsi həm xarici ölkələrin şirkətləri, həm də Azərbaycan Respublikası üçün faydalı olacaqdır. Lakin müqavilənin ən əsas cəhəti ondan ibarətdir ki, Azərbaycan öz müstəqilliyini bir daha bütün dünyaya sübut edir.

Azərbaycanda neft qədim vaxtlardan çıxarılır. Onun sənaye üsulu ilə çıxarılmasına 1847-ci ildən başlanmışdır. Ancaq o vaxtdan indiyədək Azərbaycan öz neftinin sahibi olmamışdır. Azərbaycan xalqının bu zəngin təbii sərvətdən özü üçün istifadə etməyə imkanı yox idi. İlk dəfədir ki, xalqımız, müstəqil Azərbaycan Respublikası öz təbii sərvətindən istifadə etmək üçün sərbəst surətdə qərar qəbul edərək belə bir müqavilə imzalamışdır. Ona görə də bu müqavilə Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir və göstərir ki, respublikamız müstəqil dövlət kimi yaşayır və öz taleyinə aid məsələlərin həllində heç kəs mane ola bilməz.

Bu müqavilə eyni zamanda Azərbaycanın dünya iqtisadiyyatına bağlandığını göstərir. 30 il müddətinə imzalanmış müqavilənin həyata keçirilməsi üçün 7,4 milyard dollar kapital qoyulacaqdır. Müqavilənin icrası ilə bağlı başqa böyük işlər də görüləcəkdir. Çıxarılan neftin xaricə göndərilməsi üçün boru kəməri çəkiləcək. Azərbaycanın infrastrukturunu inkişaf etdirməkdən ötrü mühüm tədbirlər həyata keçiriləcəkdir. Bir daha qeyd edirəm ki, bu müqavilə Azərbaycanın bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə irəliləməsində mühüm hadisədir. Həmin müqaviləni alqışlayanlar da, istəməyənlər də var. Bu, təbii haldır. Güman etmək olmaz ki, belə bir böyük hadisəni hamı alqışlasın.

Hesab edirəm ki, bu müqavilə il bağlı əməkdaşlığımız, birgə işimiz Azərbaycan Respublikasının adlarını

çəkdiyim ölkələrlə əlaqələrinin inkişaf etməsinə imkan yaradacaqdır. Lakin iqtisadi potensialımızın digər sahələri də var və bunlar başqa yollarla inkişaf etdirilcəkdir. Bundan ötrü iqtisadi cəhətdən inkişaf etmiş, texnika, texnologiya sahəsində yüksək nailiyyətlər qazanmış ölkələrin şirkətlərinin Azərbaycana gəlməsinə, kapital qoymasına böyük ehtiyac var. Ona görə də fürsətdən istifadə edərək sizə yenə bildirmək istəyirəm ki, Azərbaycan açıq ölkədir, iş adamları buraya gələrək səmərəli iş görə bilərlər. Biz Azərbaycanın mənafeyini qorumaq əsasında hər bir şirkətlə iş görməyə hazırıq.

Əziz dostlar! Bugünkü görüşümüz mənim üçün çox əhəmiyyətlidir. Mən burada dostlarımızı, həmvətənlərimizi, müstəqil Azərbaycana hüsnrəğbət bəsləyən, hörmət edən adamları görürəm. Görüşə gəldiyinizə görə hamınıza ürəkdən minnətdarlıq edirəm və hamınızı Azərbaycana dəvət edirəm. Qonaq gəlin, Azərbaycanın bugünkü vəziyyəti ilə tanış olun. Güman edirəm ki, həyatımız nə qədər çətin olsa da, Azərbaycanda yenə də görməli məsələlər var. Bunları görsəniz yaxşı olar. Hansı ölkədə yaşamağınızdan asılı olmayaraq, hamınıza qayğı göstərməyə hazırıq. Əmin ola bilərsiniz ki, Azərbaycanın müstəqilliyi möhkəmləndikcə, biz müharibədən çıxandan sonra suveren dövlət kimi Azərbaycan Respublikası xaricdəki dostlarına, həmvətənlərinə daim qayğı göstərmyə, bu əlaqələri daha da möhkəmləndirməyə və inkişaf etdirməyə çalışacaqdır.

Görüşümüzdə dost, qardaş Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, mənim dostum, hörmətli Mümtaz Soysal iştirak edir. Bizimlə birlikdə bu görüşə gəldiyinizə görə sizə təşəkkürümü bildirirəm. Sizə deyə bilərəm ki, mən buraya İstanbul yolu ilə gəlmişəm. İstanbulda hörmətli Mümtaz Soysal ilə və Türkiyə Cümhuriyyətinin bir neçə digər dövlət nümayəndəsi ilə görüşüb söhbət etdik. Oradan da təyyarə ilə, birlikdə buraya gəldik.

Sağ olun, sizə demək istədiyim bunlardır.

BMT Baş Məclisinin 49-cu sessiyasında Millətlər Birliyinin xüsusi salonundakı mətbuat konfransında Prezident Heydər Əliyevin verdiyi bəyanatdan:

29 sentyabr 1994-cü il

...Sual: Cənab Prezident, Siz dediniz ki, Azərbaycan neft kəmərinin marşrutu barədə qərarı o vaxt qəbul edər ki, bu, Azərbaycanın milli mənafelərinə uyğun və eyni zamanda iqtisadi cəhətdən Azərbaycan üçün sərfəli olsun. Sizcə, neft kəməri Türkiyədən keçərsə, bu, Azərbaycan üçün iqtisadi cəhətdən faydalı ola bilərmi?

Cavab: Mən dedim ki, neft kə-

məri həm Azərbaycanın milli mənafeyinə uyğun olsun, həm konsorsiumda iştirak edən şirkətlərin iqtisadi mənafelərinə cavab versin, həm də iqtisadi cəhətdən səmərəli olsun. Əgər neft kəmərinin Türkiyə ərazisindən keçməsi bu tələblərə uyğun olsa, onda mən bunu alqışlıyaram...

Prezident Heydər Əliyevin ABŞ-a səfərdən vətənə qayıdarkən İstanbulda Türkiyə Cümhiriyyətinin Prezidenti Süleyman Dəmirəllə görüşdən sonra jurnalistlərə verdiyi bəyanatdan:

1 oktyabr 1994-cü il

Əziz qardaşım, dostum, Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti Süleyman Dəmirəl! Mən Amerikadan Azərbaycana dönərkən sizinlə görüşmək üçün bir-iki saatlıq burada dayandım. Bildiyiniz kimi, mən Azərbaycandan Amerikaya gedəndə də, Vətənə qayıdanda da "Türk Hava Yolları" şirkətinin təyyarəsindən istifadə etmişəm. Bu təyyarə çox rahatdır.

Bu fürsətdən istifadə edərək sizinlə görüşməyimdən çox məmnunam. Mənimlə görüşərək bir çox məsələ barəsində fikir mübadiləsi etmək üçün vaxt ayırdığınıza görə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, sizinlə danışıqlarımız çox əhəmiyyətli və səmərəlidir. Siz danışıqlarımızın məzmununu mətbuat nümayəndələrinə çatdırdınız. Amerika Birləşmiş Ştatlarına səfərim zamanı gördüyüm işlərə verdiyiniz qiymət üçün təşəkkür edirəm, çox məmnunam. Doğrudan da, Amerika Birləşmiş Ştatlarında Azərbaycanın indiki vəziyyətini anlatmaq və Ermənistanın Azərbaycana təcavüzünün qarşısını almaqdan ötrü tədbirlər həyata keçirilməsi üçün bəzi işlər görə bildim. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonla, digər ölkələrin dövlət başçıları, dövlət adamları ilə danışıqlar apardım və hesab edirəm ki, bu, çox faydalı oldu. Bütün bu görüşlərimiz, danışıqlarımız barədə əziz dostum, qardaşım Süleyman bəylə bizim ətraflı söhbətimiz oldu. Məmnunam ki, Süleyman bəy bu barədə fikirlərini sizə çatdırdı.

Azərbaycanda baş verən son hadisələr şübhəsiz ki, xalqımızı narahat etmişdir. Ancaq bilməlisiniz ki, bunlar bizim iradəmizi qıra bilməz. Biz Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq və bundan sonra da qoruyacağıq. Azərbaycanda baş verən son hadisələr böyük, ağır cinayətlərdir. Bu, ayrıca bir şəxsin öldürülməsi, yaxud cinayətkarların təcridxanadan qaçması demək deyildir. Bu cinayətlər Azərbaycan Respublikasının müstəqilliyinə qarşı təcavüzdür, ölkənin daxilində sabitliyi pozmağa yönəldilmiş əməllərdir. Bütün bunlar həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda ölkəmizə düşmən olan qüvvələrin birgə fəaliyyətinin nəticəsidir. Bir daha qeyd edirəm ki, onların məqsədi Azərbaycanın müstəqilliyinə son qoymaqdır. Çünki Azərbaycanın müstəqilliyi çox ölkələri narahat edir. Biz öz müstəqilliyimizi nə qədər çox müdafiə edirikсə, buna qarşı təxribatlar bir o qədər güclənir.

Lakin bunlar bizi qorxutmur, sarsıtmır. Azərbaycan xalqı bizim tutduğumuz yolu daim müdafiə edir, dəstəkləyir və əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir. Azərbaycan tutduğu müstəqillik yolu ilə gedir və gedəcəkdir, istiqlaliyyətini heç vaxt əldən verməyəcəkdir. Bunu mən dəfələrlə Azərbaycanda demişəm, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi sessiyasının yüksək tribunasından da dedim və Süleyman bəy, sizin hüzurunuzda da deyirəm. Qoy Türkiyədəki qardaşlarımız hamısı da bilsin ki, Azərbaycan öz müstəqilliyi uğrunda indiyədək nə qədər mübarizə aparmışdırsa, bundan sonra daha çox mübarizə aparcaqdır. Çünki müstəqilliyi qazanmaq nə qədər çətin idisə, onu qoruyub saxlamaq daha çətindir. Biz bunu başa düşürük və işimizidə bu baxımdan qururuq.

Azərbaycanda baş verən son hadisələrlə əlaqədar müxtəlif şayiələr yayılır. Bunlar heç kimi narahat etməsin. Biz Azərbaycanın daxilində sabitliyi qorumağa qadirik, mətinliyimiz, dəyanətimiz var. Buna əmin ola bilərsiniz.

Mənim Amerikaya səfərimdən öncə, sentyabrın 20-də Bakıda böyük bir tarixi hadisə baş verdi: Azərbaycandakı neft yataqlarının işlənməsi barədə xarici ölkələrin iri neft şirkətləri ilə 30 il müddətinə müqavilə imzalandı. Bu, tarixi müqavilədir və onun haqlı olaraq "Əsrin müqaviləsi" adlandırırdılar. Müqavilənin altı ölkənin şirkətləri imzalamışdır. Bu sənəd tərəflər üçün qarşılıqlı surətdə faydalı olmaqla yanaşı, Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasına da kömək edən amildir. Hesab edirəm ki, müqaviləni həyata keçirərkən Azərbaycan müstəqilliyini daha da təmin edəcək.

Müqavilənin imzalanması barədə üç ildən çox idi ki, danışıqlar gedirdi. Ona maneçilik törədən adamlar, qüvvələr, hətta ölkələr də var idi. Lakin onların cəhdləri baş tutmadı. Bu müqavilənin imzalanması bir daha göstərdi ki, Azərbaycan xalqı öz taleyinin sahibidir, ölkənin işlərini özü həll edir və kənar qüvvələrin təzyiqinə baxmayaraq, müstəqil şəkildə belə böyük bir müqavilənin imzalayır.

Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu, bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərini Türkiyə ərazisindən keçməsi-

ni istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik. Süleyman bəy ilə də bunu müzakirə etmişik. Biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli sayırıq. Çünki bu həm kəmərin təhlükəsizliyini təmin edəcək, həm də ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcəkdir.

Türkiyənin Azərbaycanı daim müdafiə etməsi, ona diqqət yetirməsi təbiidir. Çünki Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir. Dostluğumuz və qardaşlığımız daimi, əbədidir və biz bunun belə olması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Süleyman bəy, mənə göstərdiyiniz ehtirama görə sizə təşəkkür edir, Azərbaycanın bu ağır günündə, cinayətlər baş verən bir vaxtda ölkəmizə yaxından diqqət yetirməyinizdən məmnun qaldığımı bildirirəm.

Respublika Milli televiziyası və radiosu ilə Prezident Heydər Əliyevin çıxışından:

3 oktyabr 1994-cü il.

...Bildiyiniz kimi, mən İstanbula qədər bizim xüsusi təyyarə ilə, oradan Amerikaya isə "Türk Hava Yolları" şirkətinin adi sərnişin təyyarəsi ilə getdim. Biz həmin təyyarə ilə də İstanbula qayıtdıq. Qayıdanbaş, əvvəlcədən razılaşdığımız kimi, İstanbulda Türkiyə Prezidenti cənab Süleyman Dəmirəl ilə görüşdüm. Ətraflı söhbət zamanı mən ABŞ-dakı danışıqlarım barədə ona məlumat verdim. Müəyyən məsələlər barədə fikir mübadiləsi etdik. Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərinə toxunduq. Şübhəsiz ki, danışıqlarımızın əsas mövzusu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun qarşısının alınması ilə bağlı idi. Süleyman Dəmirəl bizim sülh təkliflərimizi bəyəndiyini bir daha bildirdi. Sonra biz mətbuat nümayəndələri qarşısında çıxış etdik. Türkiyə Prezidenti danışıqlarımız barədə öz fikrini söylədi. Güman edirəm ki, Azərbaycan televiziyası bu çıxışları verəcək, cənab Süleyman Dəmirəlin fikirləri sizə məlum olacaqdır. Ona görə də bu barədə geniş danışmağı lazım görmürəm...

("Müstəqilliyimiz əbədidir", 2-ci kitab, səh. 333-334.)

Prezident Heydər Əliyevin Ümumrespublika həmrəylik mitinqində çıxışından:

5 oktyabr 1994-cü il

...Dünyanın böyük dövlətlərinin başçıları və dövlət orqanları bu barədə bəyanatlar vermişlər. Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəl dərhal mənə telefonla zəng

edib, bizimlə həmrəy olduğunu bildirib.

Görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadənin İstanbulda düzəldilmiş sərgisinin iştirakçılarına müraciət

Əziz və hörmətli Sərgi iştirakçıları!

Azərbaycanın XX əsr görkəmli və dünya şöhrətli rəssamı Səttar Bəhlulzadənin sərgisinin Şərqin ən möhtəşəm və gözəl şəhərlərindən biri sayılan, İstanbulun əzəmətli Rəşid-Rey salonunda açılışı münasibətilə bütün iştirakçıları səmimi qəlbdən təbrik edir, Sizlərə xalqımın adından salam və sevgilərimizi ifadə edirəm. Sərginin açılışının türkdilli dövlət rəhbərlərinin Zirvə görüşü ərəfəsinə təsadüf etməsi fərəhli və əlamətdar bir haldır. Səttar Bəhlulzadənin rəngarəng və dərin məzmunlu yaradıcılığı təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində tanınmış və dünya mədəniyyəti xəzanəsini zənginləşdirmişdir. Heç də təsadüfi deyildir ki, cari ilin 3-8 avqustunda rəssamın əsərlərinin sərgisi BMT-nin Baş Qərargahında uğurla nümayiş etdirilmişdir. BMT Baş Katibi cənab Butros Butros-Qali sərgiyə yüksək qiymət vermiş, incəsənətin xalqlar arasında qarşılıqlı anlaşmanın inkişafında əvəzsiz rolunu vurğulamışdır.

İnanıram ki, Azərbaycan xalqının ülvi hisslərini, yüksək mənəvi dəyərlərini boyalar vasitəsilə bəşəriyyətə töhfə edən Səttar Bəhlulzadənin bu sərgisi xalqlar arasında ali və səmimi münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək sərginin yüksək səviyyədə təşkili üçün İstanbul Bələdiyyə İdarəsinə və bütün Türkiyə xalqına bir daha dərin minnətdarlığımı bildirir, sərgi iştirakçılarına xoş təəssüratlar diləyirəm.

Xoş arzularla,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 oktyabr 1994

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ II İŞGÜZAR SƏFƏRİ

Türk dövlətləri başçılarının II Zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə hava limanında Prezident Heydər Əliyevin jurnalistlərlə müsahibəsindən:

18 oktyabr 1994-cü il

...Zirvə toplantısı türkdilli, türk mənşəli respublikaların ümumi toplantısıdır. Onun əsası iki il bundan əvvəl Ankarada qoyulmuşdur. Mən belə hesab edirəm ki, bu, əhəmiyyətli bir addım və təşəbbüsdür, davam və inkişaf etməlidir. Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl zirvə toplantısının növbəti yığıncağını bu gün İstanbulda keçirmək təşəbbüsünü qaldırmışdır. Türkdilli respublikaların Prezidentləri, o cümlədən də mən bu toplantının keçirilməsinə və orada iştirak etməyə razılıq vermişik. Şübhəsiz ki, zirvə toplantısı bizim xalqımız, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türkmənəşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə çox böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin Prezidentlərinin ünsiyyəti - bunlar hamısı respublikalarımızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır. Ona görə də mən çox böyük məmnuniyyət hissi ilə dəvəti qəbul etmişəm və bu duyğularla, bu fikirlərlə oraya yola düşürəm.

Türk dövlətləri başçılarının II Zirvə toplantısının açılışında Prezident Heydər Əliyevin nitqi

18 oktyabr 1994-ci il.

Hörmətli Prezident Süleyman Dəmirəl, hörmətli məclis iştirakçıları, hörmətli dövlət başçıları, hörmətli nazirlər, qonaqlar!

Mən bu gün İstanbulda bu toplantının keçirilməsi münasibətilə buraya toplanmış altı müstəqil dövlətin başçılarını və ümumiyyətlə, bizim ölkələrin vətəndaşlarını Azərbaycan Respublikası adından təbrik edirəm. Sonra bu təşəbbüsə görə, bu toplantının yaranmasına görə Türkiyənin Prezidenti, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirələ öz minnətdarlığımı bildirmək istəyirəm. Mən çox məmnunam ki, bu gün İstanbulda bir kökdən olan, bir mənşədən olan, eyni dilə mənsub olan altı ölkənin başçıları, dövlət başçıları səviyyəsində bu toplantı keçirilir və bu, iki il öncə Ankarada keçirilmiş Zirvə toplantısının yaxşı ənənəsinin davamıdır. Mən bunu Azərbaycan Respublikası adından bəyənirəm və bu ənənənin davam etməsinin vacibliyini bildirmək istəyirəm.

Mən burada, İstanbulda bu toplantıya gəlmiş əziz dostumuz, qardaşımız, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayevi, Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovu salamlayıram. Burada toplaşan bütün şəxsləri salamlayıram və hesab edirəm ki, bu görüş də Ankaradakı görüş kimi, gələcəkdə bizim əlaqələrimizin inkişaf etməsi üçün yaxşı bir əsas yaradacaq.

Ankara görüşündən iki il keçir. İki il müddətində bir çox işlər görülüb. Ancaq bu gün etiraf etmək lazımdır ki, Ankara görüşündə əldə olunmuş qərarların hamısı tam yerinə yetirilmir. Ona görə də bu gün hörmətli Prezident Süleyman Dəmirəlin dediyi fikirlərlə, müddəalarla və onun təklifləri ilə tam razıyam. Eyni zamanda hesab edirəm ki, biz hamımız hərə öz tərəfindən bu fikirləri, müddəaları yerinə yetirməyə çalışsaq, bundan sonra daha çox nailiyyətlər əldə edə bilərik.

Şübhəsiz ki, bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin.

Üç ildir ki, Orta Asiya, yaxud da Mərkəzi Asiya dövlətləri və Azər-

baycan dövləti artıq müstəqil dövlətlərdir və dünya dövlətləri birliyinə müstəqil dövlət hüququ ilə daxil olublar. Ötən iki il müddətində bizim dövlətlərimiz, mən xüsusən Azərbaycan haqqında demək istəyirəm, Türkiyə Cümhuriyyəti ilə əlaqələri çox sürətlə inkişaf etdiriblər. Bu dövrdə bu iki ölkə - Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr, mən deyə bilərəm ki, çox böyük sürətlə inkişaf etdirilir. Azərbaycanın üç il müstəqil dövlət kimi yaşadığı bir dövrdə biz Türkiyənin daim hörmətini, ehtiramını hiss etmişik.

Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədir. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, Sovetlər Birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq. Doğrudur, o vaxt biz Sovetlər İttifaqının tərkibində idik, Türkiyə Cümhuriyyəti ilə əlaqələr saxlamağa bizim istənilən səviyyədə imkanlarımız olmayıbdır. Ancaq Azərbaycan ilə Xəzər dənizinin o tərəfində olan Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan arasında əlaqə həmişə sıx olub, çox etibarlı olub və mən bu gün artıq müstəqil dövlət olan dost, qardaş ölkələrin başçıları ilə görüşərkən, burada, İstanbulda bu tarixi bir daha yada salmaq istəyirəm və bir daha bildirmək istəyirəm ki, biz bu dostluq, qardaşlıq ənənələrinə həmişə sadiq olmuşuq, bundan sonra da sadiq olacağıq.

Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat əldə edəndən sonra ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılması səbəbləri ancaq Azərbaycandadır. Ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə və xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf edirəm. Eyni zamanda bildirmək istəyirəm ki,

AZƏRBAYCAN - TÜRK
AEROVAĞZAL KOMPLEKSİNİN TİKİNTİSİ
AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞININ ƏSL NÜMUNƏSİDİ

VASAMAL RAYONU

TEKFEN
Karadeniz Filarmoni Orkestrası
TEKFEN
TEKFEN



Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır. Bu toplantı bizim əlaqələrin inkişaf etməsinə, daha da geniş olmasına çox böyük şərait yaradacaqdır.

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik.

Hörmətli Prezident Süleyman Dəmirəlin dediyi kimi, bizim həm iqtisadiyyat sahəsində, həm ticarət sahəsində, həm elm sahəsində, həm ekologiya sahəsində, həm mədəniyyət sahəsində, həm də təhsil sahəsində əməkdaşlıq etmək üçün böyük imkanlarımız var. İndi bizim Cümhuriyyət də, yeni müstəqillik əldə etmiş digər Cümhuriyyətlər də, respublikalar da keçid dövrü yaşayırlar. Məsələn, Azərbaycanı götürsək, biz iqtisadi cəhətdən böyük sosial-iqtisadi böhran içərisindəyik. Ona görə də bu keçid dövründə bir-birimizə köməyimiz və iqtisadi əlaqələrimizin inkişaf etməsi hər bir ölkənin bu böhran vəziyyətindən çıxmasına kömək edəcəkdir.

Azərbaycan üç ildir ki, müstəqillik yolu ilə gedir, hüquqi, sivilizasiyalı, demokratik dövlət qurmaq yolu ilə gedir. Azərbaycanda siyasi plüralizm, şəxsiyyət azadlığı, insan hüquqlarının qorunması, söz azadlığı, mətbuat azadlığı bərqərar olubdur, çoxpartiyalı sistem artıq fəaliyyət göstərir. İqtisadiyyat sahəsində biz iqtisadi islahatlar yolu ilə gedirik və bazar iqtisadiyyatı yolu ilə getmək əzmindəyik. Beləliklə də dünya birliyinə, dünya iqtisadiyyatına qoşulmağa çalışırıq. Ona görə də biz iqtisadi əlaqələrimizi, ticarət əlaqələrimizi bütün dünya dövlətləri ilə ikitərəfli, sərfəli əsaslarl qurmağa çalışırıq. Ancaq bu əlaqələri - həm ikitərəfli, həm də çoxtərəfli əlaqələri burada təmsil olunan dövlətlərlə səmərəli, faydalı qurmaq Azərbaycan üçün daha da əhəmiyyətlidir, daha da mənfəətlidir. Ona görə də mən bildirmək istəyirəm ki, biz o əlaqələri bundan sonra da qurmağa, yaratmağa çalışacağıq.

Qeyd etdiyim kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra üç il müddətində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında çox geniş proseslər gedibdir və biz bunlardan ümumiyyətlə məmnunuq. Ancaq hesab edirik ki, bizim bütün imkanlarımızdan hələ indiyə qədər istifadə olunmayıb. Azərbaycanın professorları, alimləri Türkiyənin Universitetlərində uzunmüddətli əməkdaşlıq ediblər. Eləcə də Azərbaycanda Türkiyədən gələn tələbələr oxuyublar. Elm sahəsində, təhsil sahəsində, mədəniyyət sahəsində əlaqələrimiz böyükdür. Bu əlaqələr müəyyən inkişaf mərhələsi keçibdir, bunun əsasında biz bundan sonra daha çox işlər görə bilərik. İqtisadiyyat sahəsində, şübhəsiz ki, bizim imkanlarımız böyükdür. Məsələn, Qara dəniz hövzəsində-

ki ölkələrin əməkdaşlıq etməsi təcrübəsi artıq dünyaya məlumdur və bu sahədə müəyyən nailiyyətlər əldə olunubdur. Ancaq eyni zamanda mən hesab edirəm ki, Xəzər dənizi hövzəsində də əməkdaşlığı təşkil etmək mümkündür.

Sizə məlumdur ki, Azərbaycan bazar iqtisadiyyatını keçərək, xarici ölkələrin investisiyalarını Azərbaycana cəlb etməyə çalışaraq həm öz sənaye potensialından, həm intellektual potensialından, həm də təbii sərvətlərindən başqa ölkələrlə müştərək istifadə etməyə çalışır və bu sahədə müəyyən addımlar atır.

Bildiyiniz kimi, sentyabr ayının 20-də Bakıda Azərbaycan ilə xarici şirkətlərin arasında Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağından müştrək istifadə olunması üçün 30 illik müqavilə bağlanmışdır. Bu müqaviləni 11 şirkət imzaladı: Azərbaycan Dövlət Neft Şirkəti və xarici ölkələrin on şirkəti. Bunlar 7 dövlətə mənsub olan şirkətlərdir. Bu, Azərbaycan, Türkiyə, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, İsveç və Səudiyyə Ərəbistanının şirkətləridir. Biz hesab edirik ki, bu müqavilə Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir. Azərbaycanın dünya iqtisadiyyatına bağlanmaq üçün açıq bir ölkə olduğunu göstərir. Eyni zamanda o, həm xarici şirkətlər üçün, həm onların mənsub olduqları dövlətlər üçün, həm də Azərbaycan üçün müştərək fəaliyyət göstərməyə, böyük nailiyyətlər əldə etməyə imkan yaradır. Mən hesab edirəm ki, bu təcrübədən daha da geniş istifadə oluna bilər. Ona görə də Xəzər dənizi sahəsində əməkdaşlıq problemi, mənə belə gəlir ki, mühüm bir problemdir və bu, müzakirə olunarsa, bu barədə müəyyən fikir əldə edilə bilərsə, biz buna tərəfdar ola bilərik. Ancaq Xəzərin təbii sərvətləri böyükdür - onun həm neft sərvəti, həm də başqa təbii sərvətləri. Şübhəsiz ki, bizim işlərimiz dünyanın müasir, qabaqcıl texnologiyasının tətbiq olunması vasitəsilə həyata keçirilməlidir və ona görə də biz Xəzər dənizinin ekologiyasının təmin olunmasını, başqa təbii sərvətlərinin toxunulmazlığının təmin edilməsini əsas götürməliyik və Azərbaycan neft müqaviləsini imzalayarkən bütün bu məsələlərin həll olunması üçün Xəzər dənizi ətrafında olan bütün ölkələrlə sıx əməkdaşlıq etmək məramındadır və biz bu əməkdaşlığı təqdir edirik.

Ancaq hesab edirəm ki, təkcə Xəzər dənizinə bilavasitə çıxan ölkələr yox, başqa ölklər də indi bu işə qoşula bilər və ümumiyyətlə, həm Azərbaycanın, həm də digər ölkələrin təbii sərvətlərindən, o cümldən enerji daşıyıcılarından istifadə edilməsi və onların ixrac olunması, dünya bazarına birgə çıxarılması şübhəsiz ki, bizim ölkələrimiz üçün çox əhəmiyyətli ola bilər. Hər halda, bizim qonşu dövlətlərin bu barədə Azərbaycanın ərazisindən istifadə etmək fikirləri olsa, bu enerji daşıyıcılarını

Azərbaycan ərazisindən başqa ölkələrə keçirmək fikirləri olsa, Azərbaycan buna şərait yaradacaqdır və bu barədə əməkdaşlıq etməyə hazırdır. Eyni zamanda mən ümumiyyətlə, bizim regionda olan bu təbii sərvətlərdən istifadə olunmasında Türkiyənin ərazisindən istifadə edilməsinə çox üstünlük verirəm və hesab edirəm ki, biz bu barədə də birgə əməkdaşlıq edə bilərik.

Bizim tarixi, milli, mədəni ənənələrimiz əsasında son vaxtlar görülən işlər təqdirəlayiqdir. Məsələn, "Türksoy" proqramının yaranmasını və onun artıq fəaliyyət göstərməsini biz böyük məmnuniyyətlə qəbul edirik. Yaxud da ki, bizim xalqlarımızın, türkdilli xalqların ümumi qüdrətinin yaranması sahəsində başlanan işlər də bizim tərəfimizdən bəyənilib və biz orada öz səylərimizi göstərəcəyik. Bir sözlə, mən bu barədə çox danışıb vaxt almaq istəmirəm. Hesab edirəm ki, hörmətli Prezident Süleyman Dəmirəl çox əhəmiyyətli fikirlər söylədi. Bu fikirlərlə razı olduğumu və hamımızın birlikdə həm iqtisadiyyat, həm ticarət, həm elm, həm də mədəniyyət sahəsində əməkdaşlıq etməyimizə Azərbaycanın hazır olduğunu bildirmək istəyirəm.

Bilirsiniz ki, Azərbaycan müstəqilliyini əldə edib və mən sizə çatdırmaq istəyirəm ki, Azərbaycanın müstəqilliyi üç il bundaq qabaq bu gün - oktyabrın 18-də elan edilib. Bu gün Azərbaycanın bayram günüdür və səciyyəvidir ki, biz burada, İstanbulda, Türkiyədə məhz bu gün toplaşmışıq. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan öz müstəqilliyini elan edərkən dünya dövlətlərindən birinci olaraq Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanımış, Azərbaycanı dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanınmasına yol açmışdır. Ona görə də bu gün Azərbaycanın müstəqilliyinin üçüncü il dönümü münasibətilə mən burada, İstanbulda Türkiyə Cümhuriyyətinə və Türkiyənin Prezidenti Süleyman Dəmirələ, Türkiyə xalqına Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu tarixi hadisəni heç vaxt yadından çıxarmayacaqdır.

Azərbaycan bu üç illik müstəqillik dövrü Azərbaycanın siyasi həyatında çox çətin dövr olmuşdur. Bunu bizim qardaş ölkələrin başçıları da, bütün dünya ictimaiyyəti də bilir. Bütün dünya bilir ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmağa çalışan qüvvələr olubdur, böyük dəyişikliklər olubdur. Bu, hamıya məlumdur. Mən bu barədə geniş danışıb vaxtınızı almaq istəmirəm. Ancaq qeyd etmək istəyirəm ki, 1993-cü ilin iyun ayında Azərbaycanın daxilində böyük çəkişmələr baş verdi və bəzi cinayətkar qüvvələr, siyasi qüvvələr Azərbaycanı parçalamağa, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmağa və Azərbaycanın dövlətçiliyinə qəsd etməyə çalışdılar. Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Böyük

məmnuniyyətlə qeyd edə bilərəm ki, biz vətəndaş müharibəsinin qarşısını aldıq və keçən ilin iyun ayından indiyə qədər Azərbaycanın daxili vəziyyətini sabitləşdirməyə çalışmışıq. O zaman da, Azərbaycanın bu ağır vəziyyətində də biz rəhbərləri burada olan dost ölkələrimizin, qardaş ölkələrimizin müsbət münasibətini daim hiss etmişik. Buna görə mən təşəkkür edirəm.

Təəssüf ki, bu hadisələr yenidən təkrar olunmağa başladı. Bu il oktyabr ayının əvvəlində yenə də bəzi qüvvələr ölkəmizin daxilində ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək və Azərbaycanda dövlət çevrilişi etmək üçün cəhd göstərməyə çalışdılar. Ancaq siz yəqin müşahidə etdiniz və mən bunu bildirmək istəyirəm ki, Azərbaycan xalqı artıq öz müstəqilliyini əldən vermək istəmir. Buna görə də mənim televiziya ilə çağırışımdan bir neçə dəqiqə sonra Bakının vətəndaşları, yüz minlərlə vətəndaş Azərbaycan Prezidenti sarayının önünə toplaşdılar, Azərbaycan dövlətçiliyini, Azərbaycan Prezidentini qorumaq əzmində olduqlarını bildirdilər. Biz dövlət çevrilişi edən silahlı qüvvələrin qarşısını xalqın gücü ilə, xalqın iradəsi ilə aldıq, qan tökülmədən bu hadisənin qabağını ala bildik. Bu o demək deyil ki, indi bizim respublikamızda tam əmin-amanlıq yaranıb, ictimai-siyasi vəziyyət tam normalaşıbdır. Ancaq bir həqiqət dünyaya məlum oldu ki, Azərbaycan xalqı öz müstəqilliyini əldən vermək istəmir, öz dövlətçiliyini qoruyur və bundan sonra da qoruyacaqdır. Xalqımız üçün həmin o ağır və gərgin günlərdə dünya ictimaiyyəti Azərbaycanın dövlətçiliyinin qorunmasına tərəfdar çıxdı və Azərbaycan dövləti ilə həmrəyliyini bildirdi. Buna görə də mən bu gün bu fürsətdən istifadə edib həmin günlərdə bizimlə həmrəy olanların hamısına öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Ancaq Azərbaycanda daxili vəziyyətin belə gərgin olması eyni zamanda onun altı ildən artıq müddətdə Ermənistan tərəfindən təcavüzə məruz qalması ilə əlaqədardır. Bu müddətdə Azərbaycan torpaqlarının 20 faizi işğal edilibdir, 20 mindən artıq adam Vətəni müdafiə edərkən həlak olubdur, 100 minə qədər adam yaralanıbdır, 5 min Azərbaycan vətəndaşı Ermənistanda əsir saxlanılır. İşğal olunmuş torpaqlarımızda şəhərlər, kəndlər, qəsəbələr, binalar hamısı dağıdılıbdır və həmin torpaqlardan 1 milyondan artıq vətəndaşımız qaçqın düşərək Azərbaycanın başqa regionlarında yerləşdirilibdir.

Bunlar, təbii ki, Azərbaycanın daxili vəziyyətini, o cümlədən iqtisadi, sosial vəziyyətini gərginləşdirir. Biz bu vəziyyətdən çıxmağa çalışırıq. Birinci növbədə bir milyondan artıq qaçqını saxlamağa, ağır vəziyyətdə olan bu adamları təmin etməyə çalışırıq. Bu sahədə bizə beynəlxalq təşkilatlar da kömək edir. Mən böyük məmnuniyyət hissi ilə deyə bilərəm

ki, Türkiyə, İran, Səudiyyə Ərəbistanı Azərbaycanda qaçqınlar üçün çadır şəhərcikləri yaradıblar, onların bir qismini öz öhdəliklərinə götürüblər və bizə kömək edirlər. Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlara Yardım Komissarlağı, YUNİSEF və başqa təşkilatlar da Azərbaycana kömək göstərirlər. Bir neçə ölkə bu beynəlxalq humanitar yardımı təşkil edib Azərbaycana göndərməyə çalışır və elə indi də fəaliyyətdədirlər. Ona görə də mən bütün beynəlxalq təşkilatlara təşəkkürümü və minnətdarlığımı bildirirəm və bu gün dost, qardaş ölkələrə müraciət edərək demək istəyirəm ki, hazırda bizim qaçqınları təmin etmək üçün köməyə ehtiyacımız var - həm iqtisadi köməyə, həm də mənəvi köməyə. Hər bir kömək üçün minnətdar olacağıq. Guman edirəm ki, mənim bu fikirlərim də nəzərdən qaçmayacaqdır.

Ancaq Azərbaycanın əsas problemi müharibə vəziyyətindən çıxmaqdır. Bildiyiniz kimi, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik. Rusiya bu sahədə vasitəçi rolunu oynayır. Başqa böyük dövlətlər də vasitəçilik edirlər. ATƏT təşkilatı, onun tərkibində olan Minsk qrupu çox böyük fəaliyyət göstərir və onların vasitəçiliyi nəticəsində beş ay bundan öncə Ermənistanla Azərbaycan arasında müharibədə atəşin kəsilməsinə nail olmuşuq. Artıq beş aydır ki, atəş kəsilib. Biz bu atəşkəs rejiminə sadiqiq, atəşkəs rejimini saxlayırıq. Sentyabrın 29-da mən Birləşmiş Millətlər Təşkilatının tribunasından Azərbaycan Respublikası adından atəşkəs rejiminin saxlanılmasına riayət olunacağını bəyan etmişəm və bu gün də bəyan edirəm. Biz çalışırıq ki, bu atəşkəs vaxtında beynəlxalq təşkilatların iştirakı ilə böyük sülh yaranmasına nail olaq. Biz ümumiyyətlə, dünyada gedən bütün silahlı münaqişələrin həll edilməsinin tərəfdarıyıq. Ancaq sizə məlumdur ki, bu münaqişələrdən ən dəhşətlisi və ən uzun sürən münaqişə Ermənistanla Azərbaycan arasında altı illik tarixi olan münaqişədir.

Mən qeyd etdim ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bizim şərtlərimiz ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş torpaqlardan şərtsiz çıxmalıdırlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə dörd qətnamə qəbul etmişdir. Ancaq bu qətnamələr Ermənistan tərəfindən indiyə qədər yerinə yetirilməyibdir. Biz bunların yerinə yetirilməsini tələb edirik. ATƏT təşkilatı Minsk qrupunun fəaliyyətini, Rusiyanın vasitəçiliyini qiymətləndiririk və onların vasitəsilə Ermənistanla Azərbaycan arasında sülh bağlanmasına çalışırıq. Ancaq yenə də deyirəm, bizim şərtlərimiz işğal edilmiş torpaqlarımızdan erməni silahlı qüvvələrinin şərtsiz olaraq çıxması ilə bağlıdır. O cümlədən Laçın rayonundan və Şuşa rayonundan erməni si-

lahlı qüvvələri çıxmalıdır. Belə bir şəraitdə Azərbaycan Respublikası Dağlıq Qarabağın statusunu müzakirə etməyə hazırdır və ona müəyyən statusun verilməsinə tərəfdardır.

Güman edirəm ki, burada təmsil olunan dövlətlər də bizim bu ağır məsələmizin həllinə səy göstərəcəklər. Bu məsələnin həll edilməsi beynəlxalq prinsiplərin bərqərar olunmasını tələb edir. Beynəlxalq hüquq normaları, beynəlxalq hüquq prinsipləri hər bir yerdə dövlətlərin ərazi bütövlüyünün təmin olunmasını, hər bir dövlətin sərhədlərinin toxunulmazlığını tələb edir və bir dövlətin başqa bir dövlətin ərazisini zorla ələ keçirməsinə yol verilməməsini tələb edir. Ona görə də biz həmin beynəlxalq hüquq normalarına sadiq olaraq, bu məsələnin sülh yolu ilə həll edilməsinə çalışırıq. Ümidvarıq ki, bizə dost, qardaş olan dövlətlər də bu barədə bizə bundan sonra kömək edəcəklər.

Mən hesab edirəm ki, bizim dostluğumuzun, bütün sahələrdə əməkdaşlığımızın böyük gələcəyi var. Mən bu ənənənin davam etdirilməsinin tərəfdarıyam. Gələcək görüşün təxirə salınmadan keçirilməsinin tərəfdarıyam. Təəssüf ki, Ankara görüşündən sonra bu görüşə qədər iki il vaxt keçdi. Hörmətli Prezident Süleyman Dəmirəl 1995-ci ildə belə bir görüşün Türkiyədə keçirilməsini və Türkiyənin ev sahibi olmasını bəyan edib. Mən də bunun Azərbaycanda keçirilməsini və Azərbaycanın ev sahibi olmasını təklif edirəm. Ancaq burada ümumi razılıqla bu görüşün bir ildən sonra hansı dövlətdə keçirilməsi lazım bilinərsə, mən o qərarı qəbul etməyə hazıram. Yəni əsas məqsədimiz bu ənənənin davam etməsidir, bu görüşlərin daimi olmasıdır. Gələn il bu görüş hansı ölkədə keçiriləcəksə, o ölkəyə mən də getməyə hazıram.

Diqqətinizə görə sağ olun.

Türk dövlətləri başçılarının II Zirvə toplantısında qəbul edilmiş "İstanbul bəyannaməsi"nin imzalanması mərasimində Heydər Əliyevin çıxışı

19 oktyabr 1994-ci il

Hörmətli sədr, hörmətli Prezident Süleyman Dəmirəl!

Hörmətli dövlət başçıları!

Hörmətli nazirlər, qonaqlar, mətbuat nümayəndələri!

Mən bu gün II Zirvə toplantısının müvəffəqiyyətlə başa çatması münasibətilə məmnun olduğumu bildirmək istəyirəm. Bu toplantı Türkiyənin Prezidenti, hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəlin təşəbbüsü ilə baş vermişdir. Biz, dövlət başçıları, o cümlədən mən - Azərbaycanın dövlət başçısı bu toplantının zəruri olduğunu bildirmişəm və buraya çox böyük həvəslə gəlmişəm. Biz bu toplantının artıq müvəffəqiyyətlə başa çatmasının şahidiyik.

Şübhəsiz ki, biz bu barədə geniş

söhbətlər apardıq. Xalqımızın, ölkələrimizin bir kökdən, bir mənşədən olması, qohum xalqlar olması, onların əsrlər boyu tarixi, milli, mədəni, dini ənənələrinin bərabər, birgə olması indi müstəqillik əldə etmiş Cümhuriyyətlərin daha yaxın əməkdaşlıq etməsinə şərait yaradır və bizim üçün geniş imkanlar açır. Biz bu imkanlardan istifadə etməliyik. Azərbaycan Respublikası adından tam qətiyyətlə deyə bilərəm ki, biz bu ənənənin davam etməsinin tərəfdarıyıq və bu imkanlardan istifadə etməyə bundan sonra da çalışacağıq.

Burada dünən aparılan faydalı, çox səmərəli, çox əhəmiyyətli danışıqlar mənə belə gəlir ki, xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır. Mən bu gün bir həqiqəti qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz bir dilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə, xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz bu tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.

Bizim həm iqtisadi, həm ticarət, həm də elmi, mədəni, təhsil sahəsində əlaqələrimiz bundan sonra genişlənəcəkdir. Bu gün burada imzalanmış bəyannamə, hesab edirəm ki, bunun üçün yeni sas yaradır. Mən əmin olduğumu bildirmək istəyirəm ki, bu bəyannamə həyata keçiriləcəkdir. Biz, Azərbaycan tərəfi bu bəyannamənin, anlaşmanın, sazişin ardıcıl olaraq həyata keçirilməsinə çalışacağıq və əlimizdən gələni əsirgəməyəcəyik.

Bizim üçün çox əhəmiyyətli cəhət ondan ibarətdir ki, burada türk mənşəli, türk dilli altı Cümhuriyyətin başçıları və təmsil olunan heyətlərin üzvlərinin hamısı eyni fikirə gəldilər. Əsas məsələlər üzrə eyni fikrə gəlmək və belə bir bəyannaməni imzalamaq, hesab edirəm ki, tarixi bir hadisədir. Biz bunu yüksək qiymətləndiririk.

Mən öz tərəfimdən bunu yüksək qiymətləndirirəm.

Şübhəsiz ki, bu mərasimin, bütün bu toplantının təşkili, onun müvəffəqiyyətlə bşa çatdırılması, həyata keçirilməsi və belə bir anlaşmanın, bəyannamənin imzalanması Türkiyə Cümhuriyyətinin və xüsusən Prezident, əziz dostumuz, qardaşımız, dünyanın böyük siyasi, ictimai, dövlət xadimi, türk dünyasında məşhur bir şəxs, Türkiyənin həyatında on illərlə siyasi fəaliyyətdə olan Süleyman Dəmirəlin böyük əməyi nəticəsində mümkün olmuşdur. Ona görə də mən bu gün, görüşümüz sona ça-

tan vaxtda Azərbaycan Respublikası adından Türkiyə Cümhuriyyətinə, Türk xalqına və Türkiyə Cümhuriyyətinin Prezidenti əziz Süleyman Dəmirələ türk Cümhuriyyətlərinin atdığı yeni addım münasibətilə və bu görüşün, bu toplantının müvəffəqiyyətlə keçməsi münasibətilə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Biz dünən buraya gələndən qardaş Türkiyə Cümhuriyyətində, Türkiyə torpağında böyük qonaqpərvərlik, dostluq və mehribanlıqla əhatə edilmişik. Burada aparılan işlər çox ahəngdar, çox səlis, çox gözəl təşkil olunmuşdur. Bu, bir daha onu göstərir ki, Türkiyə Cümhuriyyəti 70 il ərzində demokratik yolla gedərək, respublikanın tarixində böyük təcrübə toplamışdı. Türkiyə Cümhuriyyətinin həyatında yaranmış bu sağlam mühit Türkiyənin, Türk xalqının, türkdilli xalqların dünyada necə böyük zirvələrə qalxmasını göstərir. Ona görə də mən bir daha Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə Azərbaycana daim yardım, dəstək göstərməsinə görə, Azərbaycanın ağır vəziyyətdə olduğu dövrdə respublikamıza həmişə əl uzatdığına, dayaq olduğuna görə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Dünən, bu gün bizə göstərilən qonaqpərvərliyə görə, burada görülən işlərə görə hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Əziz dostum və qardaşım Süleyman Dəmirəl, Sizə bu fəaliyyətinizdə uğurlar diləyirəm, uzun ömür, cansağlığı və xalqınıza Türkiyə Cümhuriyyətinin inkişafı naminə böyük müvəffəqiyyətlər arzulayıram.

Burada toplaşan türkdilli dövlətlərin başçıları hərəsi öz problemləri haqqında danışdı, o cümlədən mən də danışdım. Bizim ayrı-ayrı görüşlərimiz, söhbətlərimiz də oldu. Mən Qazaxıstan xalqına, Qazaxıstan Respublikasına, Özbəkistan xalqına, Özbəkistan Respublikasına, Qırğızıstan xalqına, Qırğızıstan Respublikasına, Türkmənistan xalqına, Türkmənistan Respublikasına, onların başçılarına - hörmətli Prezident Nursultan Nazarbayevə, hörmətli Prezident İslam Kərimova, hörmətli Prezident Əsgər Akayevə, hörmətli Prezident Saparmurad Niyazova öz hörmət və ehtiramımı bildirirəm və bu qardaş xalqlara gələcək problemlərin həll olunmasında müvəffəqiyyətlər arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm. Bu böyük görüşün müvəffəqiyyətlə keçməsi münasibətilə bir daha hamınızı təbrik edirəm. Hamıya cansağlığı, səadət arzulayıram.

İstanbulda Türk dövlətləri başçılarının II Zirvə toplantısının işi başa çatdıqdan sonra mətbuat konfransında jurnalistlərlərin suallarına cavab

19 oktyabr 1994-cü il

Sual: Keçmiş SSRİ dağıldıqdan sonra yaranmış müstəqil dövlətlərin qarşısında hazırda hansı problemlər durur?

Cavab: N.Nazarbayev: Bəzən deyirlər ki, bütün dövlətlərdə bizi - Prezidentləri, hökumətləri tənqid edirlər. Məsələn, mən belə hesab edirəm ki, bu həmrəylik şəraitində, idarəetmənin pozulduğu, iqtisadiyyatın dağıldığı şəraitdə son 4-5 ildə yalnız biz nisbi sakitliyi qoruyub saxlamış və hər halda adamların yaşayışını təmin etmişik. Bu dövlətlərin əksəriyyətin də və Allaha şükür ki, Mərkəzi Asiyada biz adamlar arasında, millətlər arasında mehriban münasibətləri qoruyub saxlayırıq. Bu, həmin ölkələrin indiki rəhbərlərinin gördükləri böyük işdir.

Bir vaxtlar vahid Sovet İttifaqında xalqlar, adamlar qarışıq halda yaşayırdılar. İndi bu adamlar on beş dövlətdə yaşayırlar, onları on altı sərhəd ayırır. Onlar tarixi vətənlərinin harada olduğunu axtarır, harada məskən salmaq, uşaqlarının harada yaşayacaqları barədə düşünürlər. Bu, məsələnin birinci, ən başlıca - humanitar, insani tərəfidir. Məsələnin digər tərəfi - bir-biri ilə bağlı olan iqtisadiyyatın dağılması da əsas cəhətdir. İnteqrasiya 60-70% olarkən iqtisadiyyatlar arasında üfqi əlaqələrin yeni səviyyədə - bazar iqtisadiyyatı səviyyəsində saxlanılması bizi böyük işsizlikdən, adamları həddsiz məşəqqətlərdən xilas edə bilərdi. Biz XXI əsrin astanasındayıq, əgər biz sivilizasiyalı adamlarıqsa, bu dövlətlər arasında həqiqətən bərabərhüquqlu, işgüzar, etibarlı iqtisadi münasibətlər yaratmalıyıq. Bu etimad vasitəsilə, gömrük maneələrini və sərhədləri ləğv etmək vasitəsilə adamlara sərbəst yer dəyişmək imkanı, istədikləri yerdə məskunlaşmağa vaxt verməliyik. Başqa sözlə, Qərbi Avropanın on iki dövləti arasında adamlar necə gedib-gəlirlərsə, elə bir şərait yaratmalıyıq. Bu, gələcəkdə millətlərarası münasibətlərin, dövlətləraarsı münaqişələrin qarşısının alınmasına xidmət edərdi. Belə etimadın olması bütün qonşularda bir-birinə etimad doğurar, son nəticədə keçmiş Sovet İttifaqı kimi çoxmillətli dövlətdə olmuş əmin-amanlıq, firavanlıq yaradardı. Bizə isə müstəqilliyin, suverenliyin bərqərar olmasının daha əlverişli şəraitdə davam etməsi üçün vaxt qazanmağa imkan verərdi.

Əgər keçmiş Sovet İttifaqındakı vəziyyət davam edərsə, separat millətçilik bundan sonra da genişlənərsə, yeni müharibə və qırğın ocaqları yaranarsa, zənnimcə, dünyada - istər Asiyada, istərsə də Avropada bunun heç kimə xeyri olmayacaq. Əminəm ki, mütərəqqi qüvvələrin heç biri belə vəziyyət yaranmasını istəmir.

Lakin keçmiş SSRİ-nin müxtəlif regionlarının sərhədləri təkcə keçmiş Sovet İttifaqının sərhədləri deyildir. Buraya başqa dövlətlər də qoşula bilərdi. Məsələn, bəzi Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr, Çin və başqaları buna böyük maraq göstərirlər. Əgər bu, bərabərhüquqlu,

müstəqil, suveren, bazar iqtisadiyyatı quran dövlətlərin ittifaqı olsaydı, bizim bugünkü toplantının iştirakçıları ona qoşula bilərdilər.

Sual: Son hadisələr zamanı Orta Asiya dövlətləri Azərbaycanı dəstəkləyirdilərmi?

Cavab: H.Əliyev: Orta Asiya, Mərkəzi Asiya dövlətlər ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri var. Mən dünənki iclasda qeyd etdim ki, iki il bundan öncə keçirilən Ankara görüşündən sonra bu əlaqələr müəyyən qədər zəifləmişdir. Bu da Azərbaycan tərəfinin ucbatından olmuşdur. Yəni Azərbaycanın o vaxtkı rəhbərliyi qardaş Orta Asiya, Qazaxıstan Respublikaları ilə dostluq əlaqələrini davam etdirməmişdi. Mən bunu dünənki qapalı iclasda dedim, amma bu gün tam aydın olmaq üçün bildirmək istəyirəm ki, Qazaxıstan, Orta Asiya, Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında daim dostluq, qardaşlıq əlaqələri olmuşdur. Bu əlaqələr əsrlər boyu davam etmiş, o cümlədən bizim xalqlarımız, Cümhuriyyətlərimiz 70 il ərzində Sovet İttifaqının tərkibində olanda da əlaqələrimiz çox sıx və yaxın idi, biz həmişə bir-birimizə yardım etmişik, bir-birimizin təcrübəsini öyrənmişik. Ancaq müstəqillik qazanıldıqdan sonra bu əlaqələr daha da güclənməli idi. Mən etiraf edirəm ki, Azərbaycan tərəfinin buraxdığı bəzi səhvlər nəticəsində bu əlaqələr istənilən səviyyədə olmamışdır. Bəlkə də keçmiş Sovet İttifaqının tərkibində olanda bu əlaqələr daha güclü idi.

Hesab edirəm ki, əlaqələrin inkişaf etməsi, genişlənməsi üçün bizim tərəfimizdən, həmçinin Orta Asiya respublikaları və Qazaxıstan tərəfindən böyük addımlar atılır. Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin qarşısını almaq üçün mən Azərbaycan Prezidenti kimi fəaliyyət göstərərkən dünya ictimaiyyətinin əksəriyyəti, ən böyük dövlətlər Azərbaycanın xalq tərəfindən seçilmiş Prezidentini, Azərbaycanın dövlətçiliyini dəstəklədilər. Orta Asiya, Mərkəzi Asiya ölkələri də məni dəstəklədilər və ona görə də bu gün onlara təşəkkürümü bildirirəm.

Sual: Cənab Prezident, sentyabrın 20-də Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə imzalamışdı. Qazaxıstanın neft yataqlarının işlənməsi ilə bağlı sizin müqavilənіz var. Bu müqavilələrin həyata keçirilməsini, Azərbaycanın imzaladığı "Əsrin müqaviləsi"nə mane olan qüvvələrin hərəkətini hüquqi baxımdan necə qiymətləndirirsiniz?

Cavab: N.Nazarbayev: Yadımdadır, Xəzər şelfindəki neft yataqlarının işlənməsinə dair Azərbaycanın xarici şirkətlərlə imzaladığı müqavilə barədə bəzi bəyanatlar olmuşdur. Xəzəryanı dövlətlərin hamısı, o cümlədən Rusiya da, Qazaxıstan da, Türkmənistan da, Azərbaycan da və İran da dənizdə mineral ehtiyatlar hasilatı ilə məşğul olur. Xəzər hamımız üçün çox mühüm su hövzəsidir. Məlum olduğu kimi, dənizin sualtı

sərvətlərindən əlavə, çox böyük bioloji ehtiyatları da var və indiki halda bunları hər kəs istədiyi kimi talayır. Xəzər dünyada nərə balığı yetişdirilən ən böyük su hövzəsi idi. Bunun hesabına da küllü miqdarda kürü istehsal olunurdu. Buna görə də, həqiqətən, Xəzər dənizi barədə ümumi sazişə gəlmək lazımdır.

Qazaxıstana gəldikdə isə, o, özünün dövlət sərhədləri hüququnda iş görür və bununla bağlı heç bir məsələ ortaya çıxmamışdır. İndi yeddi şirkətdən ibarət böyük konsorsium işləyir. Ona görə də indi bütün dövlətlər Xəzər dənizinin statusunu müəyyənləşdirmək barədə ekspertlər səviyyəsində danışıqlar aparırlar. Belə hesab edirəm ki, bu iş əvvəl-axır başa çatdırılmalıdır. Bu məsələni çəkişmə mövzusuna çevirmək lazım deyildir. Xüsusən ona görə ki, bu dövlətlərin hamısı Müstəqil Dövlətlər Birliyinə daxildir. Bunun özü birlik üçün daha bir sınaqdır. Ümidvaram ki, biz bu məsələ barəsində birlik çərçivəsində ortaq fikrə gələcəyik. Bir cəhəti nəzərə almalıyıq ki, Xəzər dənizində marağı olan dövlətlərin heç birinin mənafeinə zərər toxunmamalıdır. Mənim mövqeyim belədir.

Sual: Cənab Prezident Kərimov dedi ki, bəzi qüvvələr bizim sazişimizi üçüncü dövlətlərə, üçüncü qüvvələrə qarşı qoymağa çalışaraq ona hansısa başqa bir məna verməyə cəhd göstərirlər. Lakin nə bir dövlətin, nə də bir üçüncü qüvvənin adı çəkildi. Halbuki hamıya məlumdur ki, söhbət Rusiyadan gedir. Ələlxüsus da bu gün Türkiyənin bütün qəzetləri belə başlıqlarla çıxmışdır: "Türk - Rusiya dueli". Siz bu barədə nə deyə bilərdiniz? Sualım Özbəkistan Prezidenti cənab Kərimovadır. Digər Prezidentlər də öz fikirlərini söyləmək istəsəydilər, buna şad olardım.

Cavab: İ.Kərimov: Biz İstanbulda toplaşmazdan əvvəl mən mətbuatdakı, o cümlədən Türkiyə mətbuatındakı bəzi yazılarla tanış olmuşam. Mən həmin yazıların tərcüməsi ilə tanış etmişlər. Bunları oxuduqdan sonra əmin oldum ki, Türkiyənin özündə də bizim bu görüşümüzdən müxtəlif dövlətlər arasında, o cümlədən MDB-yə daxil olan dövlətlər arasında nifaq salmaq üçün istifadə etmək istəyən müəyyən qüvvələr var. Mən məhz bu məlumatlara əsaslanaraq xəbərdar etmək istəyirəm ki, belə uydurmalar hər şeydən əvvəl məhdud siyasi məqsədlər daşıyır. Bu uydurmaların ünvanlandığı dövlətlərə xəbərdarlıq etmək istəyirəm ki, belə uydurmaları, belə fitnələri ciddi qarşılamasınlar.

Sual: Mənim sualım Qazaxıstan Prezidenti cənab Nazarbayevə və Türkmənistan Prezidenti cənab Niyazovadır. Yenidən Xəzər məsələsinə qayıtmaq istəyirəm. Bakıda imzalanmış neft müqaviləsinə Xəzəryanı dövlətlərin başçıları kimi, hər iki Prezidentin konkret münasibətini bilmək maraqlı olardı. Çünki Rusiyanın bəzi dairələri belə hesab edir ki,

bu müqavilə Xəzəryanı dövlətlərin mənafeyinə toxunur. Bu, həqiqətən də beladirmi?

İkincisi, Rusiya belə bir fikir irəli sürür ki, Xəzər sektorlara bölünməməlidir. İstərdim ki, hər iki dövlət başçısı bu barədə öz mövqelərini bildirsin. Nəhayət, Azərbaycanın müstəqilliyinə düşmən olan bəzi xarici dövlətlər Azərbaycanda dövlət çevrilişi baş tutmadıqdan sonra ona qarşı ciddi iqtisadi sanksiyalar tətbiq etmək niyyətindədirlər.Əgər belə olarsa, türk dövlətləri Azərbaycana iqtisadi kömək göstəriləcəyinə zəmanət verə bilərlərmi?

Cavab: N.Nazarbayev: Mən bu məsələ barədə öz mövqeyimi bildirdim. Deyiləsi başqa sözüm yoxdur. Hamımız danışıqlar apararaq mehriban qonşular kimi bütün bu məsələləri həll etməliyik. Yalnız onu əlavə edə bilərəm ki, nəqliyyat kommunikasialarımız ümumi olduğuna görə Rusiyanın iştirakı və Rusiya ilə birgə iş görmək Qazaxıstan üçün çox mühüm cəhətdir. Biz Rusiya şirkətlərini çox böyük Qaraçaqnaq qazkondensant yatağının işlənməsində hüquq bərabərliyi əsasında iştirak etməyə cəlb edirik. Biz Rusiya şirkətlərini bütün bu məsələlərdə öz vəsaitləri ilə iştirak etməyə dəvət edirik. Ona görə də mən belə hesab edirəm ki, bütün bu məsələləri danışıqlar yolu ilə həll etmək lazımdır. Suverenliyə gəldikdə isə, ümumiyyətlə, hər bir müstəqil dövlət öz mallarını beynəlxalq bazara müxtəlif yollarla çıxarmaq imkanına malik olmalıdır. Bu, birtərəfli xarakter daşımamalıdır. Bu gün hər bir dövlətə onun ərazisində neft, qaz kəmərləri çəkilməsi faydalıdır. Həmin dövlətlər bundan çoxlu vəsait götürürlər. Ona görə də Mərkəzi Asiyanın zəngin regionlarından neft-qaz kəmərləri çəkilməsinə dünyada çox böyük maraq var. Bu işi görmək üçün investisiyalar da, istək də kifayət qədərdir. Biz burada həmin məsələləri də həll edirik.

Cavab: S.Dəmirəl: Hazırda Azərbaycana qarşı yönəldilmiş iqtisadi qadağa barədə təklif yoxdur. Belə bir təklifin nəyə görə olacağını da bilmirəm. Çünki əgər bu, Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə əlaqədar olacaqsa, bunun əsası yoxdur. Torpaqları işğal edilən Azərbaycandır. Onun ərazisinin 20 faizi işğal edilmişdir. Bir milyon iki yüz min qaçqını olan Azərbaycandır. **Deməli, Azərbaycanın həm torpaqları işğal edilir, həm əhalisi qaçqın düşür, ölkəyə bu qədər haqqsız zərər dəyir və üstəlik, ona qarşı iqtisadi qadağanlar tətbiq olunsun? - Bunu təsəvvür etmək mümkün deyildir. İşdir, belə bir şey olarsa, Türkiyə bu haqqsızlığa qarşı lazımi mübarizə aparar. Mən bunu hamıya bildirirəm ki, Azərbaycan bizim üçün, Türk xalqı üçün çox önəmlidir. Azərbaycana qarşı yönəldiləcək hər cür haqqsızlığa qarşı Türkiyədə hamı bir nəfər kimi ayağa qalxar. Nəhayət, Türkiyə Azərbaycana maddi və mənəvi baxımdan hər zaman yardım göstərməkdə davam edəcəkdir.**

Cavab: S.Niyazov: Biz Azərbaycanın Qərb neft şirkətləri ilə imzaladığı müqaviləni diqqətlə nəzərdən keçirmişik. Müqavilədən məqsəd odur ki, ölkənin ağır vəziyyətində, heç olmasa, minimum iqtisadi məsələlər həll edilsin, çətinlikləri aradan qaldırmaq mümkün olsun. Ona görə də müqavilənin necə imzalanması, kimlə razılaşdırılması barədə biz o zaman Heydər Əliyeviçlə telefonla fikir mübadiləsi etmişik. Heydər Əliyeviç bu fikirlə tamamilə razıdır ki, o, bu müqaviləni çətinliklər olduğuna, bunları tezliklə aradan qaldırmaq zərurətinə görə imzalamışdı. Eyni zamanda o, Xəzər dənizinin statusunun tezliklə müəyyənləşdirilməsi ilə də razıdır və bununla əlaqədar istənilən vaxt danışıqlara başlamağa hazırdır. Heydər Əliyeviç oktyabrın 27-də Türkmənistan Respublikasının üçüncü ildönümü bayramında iştirak etmək üçün Aşqabada gələcək. İran Prezidenti hörmətli Haşimi-Rəfsəncani, Rusiyanın nümayəndə heyəti də gələcəkdir. Biz bu məsələlər barədə Nursultan Nazarbayevlə də danışmış, məsləhətləşmişik. O da öz rəyini bildirmişdir. Oktyabrın 25-də Qazaxıstan Respublika gününü qeyd etdiyinə görə o, Aşqabata gələ bilməyəcək, lakin neft və qaz nazirini göndərəcək. Biz bu məsələləri sürətlə işləyib hazırlayacağıq ki, Xəzər dənizi dünyada yeni mübahisə münaqişə zonasına çevrilməsin.

Azərbaycan uzun illərdir ki, Xəzər şelfindən neft çıxarır və onun bu gün hasilatı artırmaq arzusunu başa düşürəm. Bu, təbii arzudur. Həmin məsələdə Rusiya da qəti mövqe tutmur. Mən Viktor Stepanoviç Çernomırdin ilə fikir mübadiləsi etmişəm, razılaşmışıq ki, ilk növbədə Xəzərin statusu müəyyənləşdirilməlidir, sonra isə Xəzərin ekologiyasına zərər vurmadan məsələlər həll olunmalıdır. Biz bu barədə Heydər Əliyeviçlə əvvəllər də, bu gün də danışmışıq. Zənnimcə, yaxın vaxtlarda məsələni həll edəcəyik.

Bundan əlavə, biz Xəzər dənizindən təbiəti mühafizə tədbirləri, beynəlxalq hüquq çərçivəsində istifadə olunması üçün konsorsium yaradılmasına dair Rusiya ilə, İranla danışıqlar aparırıq. Mən bu barədə Nursultan Nazarbayevə də məlumat vermişəm. Bu sahədə iş görüldüyünü bu gün səhər Heydər Əliyeviçə də demişəm. Əgər biz indi Xəzər dənizinin statusunu müəyyənləşdirə bilmiriksə, onda iri layihələri hər bir ölkənin mənafeyi nəzərə alınmaqla razılaşdırıla biləcək konsorsium yaratmaq lazımdır.

Prinsip etibarilə biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim bir-birindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin. Heydər Əliyeviç də, Nursultan Nazarbayev də məsələnin bu yerə gə-

lib çıxmasının əleyhinədirlər. Mən Boris Nikolayeviçlə də danışmışam. O da bu məsələnin həllini sürətləndirməyə tamamilə tərəfdardır. Biz bu fikirdəyik ki, həmin məsələ yaxın vaxtlarda həll olunmalıdır. Lakin Azərbaycanın Qərb şirkətləri ilə müqavilə imzalaması çəkişmə mövzusu olmamalıdır. Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, onlar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı bölməyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq. Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa, - onunla, İranla sərfəli olarsa - onunla saziş bağlayacağıq. Zənnimcə, yalnız ümumi statusu müəyyənləşdirmək və etimad yaratmaq lazımdır.

Sual: Dünən Azərbaycanın istiqlaliyyətinin ildönümü idi. Oktyabrın 27-si Türkmənistanın istiqlliyyət günüdür. Orta Asiyanın digər dövlətlərinin istiqlaliyyət günləri barədə məlumat ala bilərəmmi?

Cavab: S.Dəmirəl: İstiqlaliyyət günü çox önəmlidir. İstiqlaliyyət gününü qeyd edən qardaş xalqlara ən səmimi təbriklərimizi yetiririk. Oktyabrın 18-də Azərbaycan, 27-də Türkmənistan, 29-da Türkiyə, daha sonra Qazaxıstan bu ildönümlərini keçirirlər. Qırğızıstan və Özbəkistan öz istiqlaliyyət günlərini daha öncə qeyd etmişlər. Bizim üçün - Türkiyə üçün və şəxsən mənim üçün son dərəcə sevindirici haldır ki, vaxtilə dünya dövltləri içərisində tək bir bayraqla təmsil olunmuş böyük türk xalqları indi altı bayraqla təmsil edilir. Bu, qürur hissi doğurur. Bu dövlətlərə əbədi istiqlaliyyət, qardaş xalqlara isə uğurlar və tərəqqi diləyirik.

Sual: Rusiya Xarici İşlər Nazirliyinin bugünkü bəyanatında Zirvə toplantısının onları narahat etdiyi bildirilir. Türk dövlətlərinin başçıları bu bəyanatla bağlı nə fikirdədirlər?

Cavab: S.Dəmirəl: Zirvə toplantısı Türkiyədə keçirildiyinə görə suala mən cavab verirəm. Nəzakət qaydalarından kənara çıxmaq istəmirəm. Türkiyə müstəqil ölkədir və Orta Asiya dövlətlərinin, Azərbaycanın buraya gəlmiş hörmətli Prezidentləri də müstəqil dövlətləri təmsil edirlər. Əgər Rusiya Xarici İşlər Nazirliyinin bəyanatı İstanbulda keçirilən və birlik, bərabərlik, sülh, istiqlal və ölkələrimizin xalqlarının, bölgə xalqlarının birliyinə yardımçı olmaq məqsədi daşıyan bir toplantı özlərinə qarşı düşmənçilik kimi başa düşülürsə, bu səhvdir. Bu toplantı hamının gözü qarşısında keçir. Burada 24 maddədən ibarət bəyannamə qəbul edilmişdir. Müstəqil dövlətlərin sülh, istiqlal, ölkələrinin tərəqqisi üçün keçirdikləri tədbiri başqa bir ölkənin ona

qarşı təziq kimi başa düşməsini heç cür anlamaq mümkün deyildir. Toplantının qəbul etdiyi bəyannamə çox diqqətlə işlənib hazırlanmışdır. Orada pantürkizmdən əsər-əlamət yoxdur. Burada əyləşən hörmətli dövlət başçılarının hamısı bir daha söylədilər ki, biz müştərək mədəniyyətə, müştərək taleyə, keçmişə, müştərək dinə malik olan xalqlarıq. Müştərək dildən, dindən, mədəniyyətdən vazmı keçək? Bunu tarix belə yetirmişdir. Ona görə də lüzumsuz işlərə yer yoxdur. Biz ayrı-ayrılıqda, yaxud birlikdə kimisə təkləmək fikrində deyilik. Zirvə toplantımızı keçirdik və hər birimizin tam razılığı ilə sənəd imzaladıq. Axırda da mətbuat konfransı təşkil etdik ki, heç kim bizim sülh və rifah tərəfdarı olmağımıza şübhə etməsin.

Türk xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına Prezident Heydər Əliyevin təbriki

Hörmətli qurultay iştirakçıları!

Türk xalqlının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının keçirilməsi münasibətilə Sizi ürəkdən salamlayır və uğurlar arzulayıram.

Türk xalqları tarixin ağır sınaqlarından çıxmış, elmi, mədəni, iqtisadi və siyasi əlaqələrin inkişaf etdirərək qədim dünyanın və orta tarixinin mühüm hərəkətverici qüvvələrindən olmuşdur. Həmin dövrlərdə tarixə türk xalqlarının adından yazılmış bir çox qəhrəmanlıq salnamələri və bəşəri nümunələr ümumdünya sivilizasiyasının şanlı səhifələrinə və bütün dünyanın iftixar mənbəyinə çevrilmişdir.

Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox Türk Cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər yaradır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir.

Ümidvaram ki, türk xalqlarının növbəti qurultayı bu üzvi arzuya yeni təkan verəcəkdir.

Bu günlərdə öz müstəqilliyinin üçüncü ildönümünü qeyd etmiş müstəqil Azərbaycan Cümhuriyyəti türk xalqlarının qardaşlıq ailəsinin möhkəmləndirilməsi üçün əlindən gələni edəcəkdir. Tarixi inkişafın yeni yoluna qədəm qoymuş Türk xalqlarının sarsılmaz dostluğunun bundan sonra daha da möhkəmlənəcəyinə heç bir şübhəm yoxdur. Ulu Tanrıdan bütün Türk xalqlarına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

20 oktyabr 1994-cü il

Türkmənistan - İran -Türkiyə - Avropa qaz kəmərinin rəmzi açılışı mərasimində Prezident Heydər Əliyevin çıxışı

27 oktyabr 1994-ci il

Hörmətli xanımlar, cənablar!

Hörmətli dostlar, qardaşlar!

Bu gün biz böyük bir hadisənin şahidiyik. Dünən və bu gün biz qardaş Türkmənistan Respublikasının müstəqilliyinin üçüncü ildönümü mərasimində iştirak etdik. Azərbaycan ilə Türkmənistan arasında dostluq, qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. Biz qonşu, dost, bir kökdən olan xalqlar, ölkələr kimi daim dostluq və qardaşlıq etmişik. İndi də Türkmənistanın müstəqilliyinin üçüncü ildönümündə iştirak etmək Azərbaycan nümayəndə heyəti üçün, mənim üçün böyük bir xoşbəxtlikdir. Mən bu münasibətlə Türkmənistan xalqını, türkmənistanlı qardaşlarımızı, bacılarımızı və Türkmənistan Prezidenti hörmətli Saparmurad Türkmənbaşını ürəkdən təbrik edirəm. Onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıram.

Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli prezident Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq - tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli Prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbdən çox sevindirdi. Mən bu nailiyyətlərin hamısında dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini qeyd edirəm. Əziz qardaşım, səni bu münasibətlə təbrik edirəm.

Mən çox məmnunam ki, bu bayram bizi bir yerə toplayıbdır. Pakistanın Baş naziri hörmətli Bnəzir Bhutto, Türkiyənin Prezidenti, mənim əziz dostum və qardaşım, hörmətli Süleyman Dəmirəl, İran İslam Respublikasının Prezidenti, mənim dostum və qardaşım ağayi Haşimi-Rəfsəncani və mən Saparmurad Türkmənbaşının təşəbbüsü ilə burada, türkmən torpağında toplaşmışıq. Bu, çox böyük bir hadisədir. Bu hadisə münasibətilə də mən məmnun olduğumu bildirmək istəyirəm.

Bugünkü hadisə Türkmənistanın müstəqilliyini bir daha bütün dünyaya nümayiş etdirir. Bilirik ki, keçmişdə Türkmənistanın çoxlu qaz ehtiyatları var idi, ancaq bu ehtiyatları Türkmənistan xalqının icazəsi olmadan hara istəyirdilər, ora da göndərilirdi. İndi isə türkmən xalqı, Türkmənistan dövləti öz taleyinin sahibidir, öz sərvətlərinin sahibidir və öz sərvətlərindən özü istədiyi kimi istifadə edir. Bu baxımdan Türkmənistan, İran və Türkiyə arasında əldə olunmuş müqavilə çox böyük bir hadisədir, Türkmənistanın müstəqilliyini dünyaya bir daha göstərir və bu gün biz bu tarixi hadisənin şahidi olduq. Mən burada bir şahid kimi iştirak edirəm və şahid kimi də söz verirəm ki, bu müqavilənin həyata keçirilməsi üçün çalışacağam.

Müsəlman dövlətlərinin - Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplaşması çox böyük hadisədir. Əziz dostum Süleyman Dəmirəl bu barədə çox gözəl fikirlər söylədi. Mən bu fikirlərlə tamamilə razıyam. Hesab edirəm ki, bu, bizim dostluğumuzun rəmzidir, dostluğumuzu və qardaşlığımızı dünyaya bir daha nümayiş etdirir və Azərbaycan Respublikası bu dostluğa həmişə sadiq olacaqdır.

Azərbaycan Respublikasının qarşısında çox ağır problemlər var. Bilirsiniz, altı ildir ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Azərbaycanda bir milyon iki yüz mindən artıq qaçqın var. Burada təmsil olunan dövlətlər, yəni Türkiyə, İran, Pakistan, Türkmənistan bu dövrdə həmişə Azərbaycanı dəstəkləyiblər, ölkəmizə kömək ediblər və Azərbaycanı beynəlxalq təşkilatlarda müdafiə ediblər. Əziz dostlar, qardaşlar, fürsətdən istifadə edib mən sizə və sizin ölkələrinizə öz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Əziz dost və qardaşlar, bu mübarək, gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bütün dost xalqlara xoşbəxtlik, səadət arzulayıram. Türkmənistanın müstəqilliyinin davam etməsini arzu edirəm, türkmən xalqına öz hörmət, ehtiramımı bildirirəm və sizi bu bayram münasibətilə, bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun, xoşbəxt olun, sizə yaxşı günlər arzulayıram.

Aşqabatdan Bakıya yola düşərkən təyyarədə İran İslam Respublikası və Türkiyə Prezidenti ilə görüşləri barədə Heydər Əliyevin jurnalistlərə verdiyi müsahibədən:

27 oktyabr 1994-cü il

...Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəllə biz son vaxtlar İstanbulda görüşmüşdük. Orada bizim danışıqlarımız olmuşdur. Amma burada yenə də söhbət apardıq, bəzi məsələləri müzakirə etdik. Süleyman Dəmirəl Azərbaycanın hazırkı daxili vəziyyəti ilə maraqlandı. Haşimi-Rəfsəncani də çox narahatlığını bildirdi. Mənə dedi ki, oktyabrın 4-də gecə onlar da çox narahatlıq çəkiblər. O, indiki vəziyyətlə də maraqlandı. Mən bildirdim ki, indi sakitlikdir. Bu məsələyə Süleyman Dəmirəl də çox maraq göstərdi. Mən

ona da bildirdim ki, indi sakitlikdir. Biz cinayətkar qrupların hərəkətinin qarşısını almışıq. Ancaq onların bəziləri indi qaçıblar, gizləniblər, ya respublikanın ərazisindədirlər, ya da ərazimizdən kənardadırlar. Ola bilər ki, müəyyən bir fəaliyyət göstərmək istəyirlər. Doğrudur, bunu çox da dramatikləşdirmək lazım deyildir ki, guya onlar birləşib Azərbaycanda nəsə edə bilərlər, çevriliş edə bilərlər. Yox, bunu edə bilməzlər.

Oktyabrın 4-də xalqın həmrəyliyi göstərdi ki, heç bir qüvvə Azərbaycanda indiki dövlət quruluşunu dağıda bilməz, poza bilməz. Mən buna əminəm. Ancaq cürbəcür məlumatlar xaricə, o cümlədən İrana da gedir, Türkiyəyə də gedir. Ona görə də həm Haşimi-Rəfsəncani, həm də Süleyman Dəmirəl bu məsələlərlə maraqlanırdılar, mən də onlara bu barədə məlumatlar verdim. Süleyman Dəmirəl respublikamıza əsl dost, qardaş münasibəti göstərərək yenə də bildirdi ki, sayıq olmaq lazımdır, daxili sabitliyi qorumaq lazımdır. Mən ona dedim ki, sabitliyi saxlayırıq və bundan sonra da saxlayacağıq. Kim də bu sabitliyi pozmaq istəsə, biz onun qarşısını alacağıq.

Süleyman Dəmirəllə iqtisadi əlaqələr barədə də danışıqlarımız, söhbətlərimiz oldu. Həmişəki kimi, indi də söhbətlərimiz dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Bu yaxın vaxtlarda, Füzulinin 500 illiyi ilə əlaqədar bizim ora səfərimiz olacaqdır. Danışıqlarımız yenə davam edəcəkdir.

Türkiyə Cümhiriyyətinin Prezidenti əlahəzrət Süleyman Dəmirəl cənablarına!

Əziz və hörmətli Süleyman bəy!

Türkiyə Cümhuriyyətinin Milli bayramı - Respublikanın elan olunması günü münasibətilə Sizi və bütün dost Türkiyə xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Zati-aliləri, azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var. Əminəm ki, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq əlaqələri xalqlarımızın tərəqqisi işinə xidmət edəcək, onların hər ikisi üçün faydalı olacaqdır.

Bu əzəmətli bayram günündə bütün dost Türkiyə xalqına bir daha səmimi-qəlbdən dinclik, firavanlıq, tərəqqi arzulayıram.

Sizi qucaqlayır və öpürəm. Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti.
28 oktyabr 1994

Türkiyə Cümhuriyyətinin istiqlaliyyət qazanmasının 71-ci ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyinin təşkil etdiyi mərasimdə Prezident Heydər Əliyevin çıxışı

29 oktyabr 1994-cü il

Gülüstan sarayı

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Türkiyə Cümhuriyyətinin 71-ci ildönümünü bayram edirik. Bu, Türkiyə xalqının bayramıdır, eyni zamanda Azərbaycan xalqının bayramıdır. Biz əsrlərdən-əsrlərə davam edən dostluğu, qardaşlığı bu günlərədək gətirib çıxarmışıq. Xalqlarımızın aqibəti, tarixi kökləri, adət-ənənələri bir olub, dili birdir. Bunlar hamısı bizim xalqları həmişə bir-birinə dost, qardaş edib, bir-birinə yaxın edibdir.

Son üç il ərzində dostluğumuzun, qardaşlığımızın yeni mərhələsi başlanmışdır. Üç il bundan əvvəl Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə etmişdir. Bu gün böyük məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, dünya dövlətlərindən Azərbaycanın müstəqilliyini birinci olaraq Türkiyə Cumhuriyyəti tanıyıbdır.

Türkiyə Cumhuriyyəti Azərbaycanın müstəqilliyini tanıyaraq, eyni zamanda dünyada öz nüfuzundan, təsirindən istifadə edərək respublikamızın mövqeyinin müdafiə olunmasında mühüm rol oynamışdır. İki qardaş ölkənin dostluq, qardaşlıq əlaqələri bizi daha da yaxınlaşdırmış, daha da birləşdirmişdir. Respublikamızın bu ağır şəraitində, Azərbaycanın müharibə içərisində olduğu, iqtisadi-siyasi böhran keçirdiyi bir dövrdə şübhəsiz ki, Dünya Birliyinin köməyinə, həmrəyliyinə ehtiyacımız var. **Bizim səsimizə səs verənlər arasında Türkiyə Cumhuriyyətinin səsi həmişə daha yüksəklərə qalxır, daha güclü olur və bunlar hamısı bizim dostluğumuzun, qardaşlığımızın rəmzidir, əlamətidir.**

Bunların hamısına görə də bugünkü bayramı biz öz bayramımız hesab edirik. Bu həm Türkiyə Cumhuriyyətinin bayramıdır, həm də Azərbaycan Respublikasının bayramıdır. Biz bu bayramı qeyd edərkən Türkiyə Respublikasının banisi, böyük insan Mustafa Kamal Atatürkün xidmətlərini yad edirik, onunla bərabər Türkiyə Cumhuriyyətini yaradanları yad edirik və 71 il müddətində Atatürkün qoyduğu yol ilə gedənləri yad edirik.

Böyük məmnuniyyət hissi ilə qeyd etmək olar ki, bu gün Türkiyə Dünya Birliyində görkəmli yer tutur. Böyük bir dövlət, demokratik prinsiplər əsasında yaşayan bir dövlət, Dünya Birliyində böyük nüfuza malik olan bir dövlətdir və bunlar hamısı 71 il ərzində Türkiyə Respublikasının əldə etdiyi nailiyyətlərdir. Türkiyə Cumhuriyyəti 71 il içərisində həm siyasi cəhətdən, həm ictimai cəhətdən, həm də iqtisadi cəhətdən böyük nailiyyətlər əldə etmişdir. Türklərin, Türk xalqlarının nəyə qadir olduğunu dünyaya bir daha sübut edib, nümayiş etdirib. Bunlar hamısı bizi qəlbən sevindirir. Çünki biz indi üç ildir ki, müstəqillik yoluna qədəm qoymuşuq. **Müstəqillik yolu ilə gedərkən Türkiyənin təcrübəsindən, 71 il ərzində respublika qurmaq, demokratik cəmiyyət yaratmaq, hüquqi dövlət qurmaq yolunda Türki-**

yənin əldə etdiyi nailiyyətlərdən və təcrübədən istifadə edirik və bundan sonra da istifadə edəcəyik.

Bizim dostluq və qardaşlıq əlaqələrimiz möhkəmdir, qırılmazdır, əbədidir. Bu bayram günü bir daha bəyan etmək istəyirəm ki, Azərbaycan xalqı bu dostluğa daim sadiq olacaq, dostluğumuzun əbədi olmasına bundan sonra da çalışacaq və öz xidmətlərini göstərəcəkdir.

Bu bayram günü mən buradan, Azərbaycanın paytaxtı Bakıdan Türkiyənin hər bir guşəsinə Azərbaycan xalqının salamlarını, təbriklərini bir daha çatdırmaq istəyirəm. Türk xalqını, Türkiyə Respublikasının rəhbərlərini ürəkdən təbrik edirəm. Bura toplaşan türk qardaşlarımızı ürəkdən təbrik edirəm və burada iştirak edənlərin hamısını təbrik edirəm. Çünki, bir də qeyd edirəm, bu, bizim ümumi bayramımızdır. Ona görə də bu bayramı yüksək əhval-ruhiyyə ilə qarşılamışıq və öz bayramımız kimi qeyd edirik.

Bu gözəl bayram münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Türkiyə xalqına uğurlar diləyirəm. Hər bir türk vətəndaşına səadət, xoşbəxtlik arzulayıram və ümidvaram ki, Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında olan dostluq, qardaşlıq əlaqələri bundan sonra da genişlənəcək, möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bayramınız mübarək olsun! Sağ olun.

Türkiyə Cümhuriyyətinin Prezidenti əlahəzrət Süleyman Dəmirəl cənablarına ad günü münasibətilə Prezident Heydər Əliyevin təbriki

Hörmətli cənab Prezident!

Əziz qardaşım Süleyman bəy!

Sizi anadan olmağınızın 70 ili münasibətilə öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin, Türkiyə xalqı və ümumiyyətlə, türk dünyasının bu günü və gələcəyi naminə həsr etdiyiniz bu şərəfli ömür yolunuz bütün bəşər övladlarına bir örnəkdir. Dahi Mustafa Kamal Atatürkün ideyalarına sadiq olaraq, onun işinin davamçısı kimi siz Türkiyə xalqı qarşısında, Türkiyə Cümhuriyyətinin inkişaf etməsində böyük xidmətlər göstərmisiniz. Görkəmli ictimai-siyasi xadim kimi on illər boyu yorulmaz fəaliyyətinizlə xalqın hörmət və ehtiramını qazanmısınız. Sizin beynəlxalq aləmdə səmələri fəaliyyətiniz Türkiyə Respublikasının Dünya Birliyində layiqli yer tutmasına xidmət edir.

Azərbaycan xalqı yaşadığı bu ağır günlərdə hər zaman sizin qayğınızı, mənəvi dəstəyinizi yaxından hiss edir. Bu dostluq, qardaşlıq münasibətlərini yüksək qiymətləndirir, sizə təşəkkürünü bildirir.

Əminəm ki, uzun illər ərzində əldə etdiyiniz siyasi təcrübələrlə

zəngin fəaliyyətiniz bundan sonra da xalqımızın rifahının daha da yüksəlməsinə, bütün dünyada sülh, əmin-amanlıq və xoşbəxt gələcəyin əldə edilməsii işinə xidmət edəcəkdir.

Əziz qardaşım, doğum gününüzü bir daha ürəkdən təbrik edir, Ulu Tanrıdan sizə xoşbəxtlik və səadət arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ III İŞGÜZAR SƏFƏRİ

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən yubiley tədbirlərində iştirak etmək üçün yola düşərkən Binə hava limanında Prezident Heydər Əliyevin jurnalistlərə verdiyi qısa müsahibədən...

1 noyabr 1994-ci il

...Mənim bu səfərim Füzulinin 500 illiyi ilə əlaqədardır. Lakin Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq əlaqələri elə sıxdır ki, səfərimiz Füzulinin yubiley şənlikləri ilə məhdudlaşmayacaq. Orada dövlət, hökumət başçıları ilə, ictimaiyyət ilə görüşlərim olacaqdır. Ona görə də bu imkan eyni zamanda Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında əlaqələrin daha da inkişaf etməsi üçün yeni bir addım olacaqdır. Mən bunu çox əhəmiyyətli, səmərəli sayıram və belə düşünürəm ki, bu səfərdən həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası tərəfindən istifadə ediləcəkdir.

Ankarada "Hilton" mehmanxanasındakı iqamətgahında Türkiyə və Azərbaycandakı xarici ölkə səfirlərinin qəbulu zamanı Prezident Heydər Əliyevin çıxışı

1 noyabr 1994 ci il

Azərbaycan Respublikası cəmi üç ildir ki, müstəqil bir dövlət kimi fəaliyyət göstərir, ona görə də xarici ölkələrin respublikamız üzrə səfirlərinin bir çoxu hələlik Azərbaycanın ərazisində yerləşmir. Siz öz ölkələrinizin Ankarada səfirisiniz, eyni zamanda Azərbaycan Respublikasında səfir vəzifəsini icra edirsiniz. Sizin çoxunuz artıq Azərbaycanda olub, mənimlə görüşüb və bizim bilavasitə əlaqələrimiz yaranıb. Doğrudur, bəzilərniz hələ vaxt tapıb Azərbaycana gələ bilməmisiniz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz - öz ölkələrinizin Ankarada səfirləri Azərbaycana təşrif gətirəcəksiniz və biz sizinlə Azərbaycanda görüşə biləcəyik.

Türkiyə Cumhuriyyəti Azərbaycan üçün dost və qardaş ölkədir. Biz Türkiyə ilə çox yaxın əlaqədəyik. Bunu bütün dünya ictimaiyyəti də bilir. Bu, sizin ölkələrinizə də məlumdur. Ölkələrinizin məhz Ankarada səfiri vəzifəsini aparanların çoxu eyni zamanda Azərbaycan Respublikasına səfir təyin olunmuşdur. Biz bunu çox məmnuniyyətlə qəbul edirik, çünki bu, bizim üçün hər cəhətdən əlverişlidir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri o qədər sıxdır ki, siz elə Ankarada oturanda hesab edin ki, Bakıdasınız.

Ancaq bununla bərabər, mən istərdim ki, siz Bakıya tez-tez gələsiniz. Azərbaycanın vəziyyəti ilə daha yaxından tanış olasınız və Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasında əlaqələrin inkişaf etməsinə daha ciddi səy göstərəsiniz. Guman edirəm ki, siz mənim bu arzu və istəklərimi yerinə yetirəcəksiniz.

Guman edirəm ki, Respublikamızdakı vəziyyət mətbuat, informasiya orqanları vasitəsilə sizə məlumdur. Respublikamızın vəziyyətini ən çox xarakterizə edən cəhət ondan ibarətdir ki, Azərbaycan hələ indiyədək qonşu Ermənistan Respublikası ilə müharibə vəziyyətindədir. Doğrudur, son dövrdə aparılan böyük işlər nəticəsində, Ermənistanla Azərbaycan arasında bilavasitə əlaqələr nəticəsində biz cəbhədə atəşin kəsilməsinə nail olmuşuq. Beş aydan artıqdır ki, atəşkəs rejimi davam edir. Ancaq biz bunu böyük sülh yaradılması üçün sadəcə bir mərhələ, vasitə hesab edirik, danışıqlar aparıb beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında Böyük Sülh Müqaviləsi əldə etmək istəyirik.

Belə bir müqavilənin bizim tərəfdən əsas şərtləri ondan ibarətdir ki, işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələri qeyd-şərtsiz çıxmalıdır, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalı, təmin edilməlidir, Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır və Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində öz yaşayış yerlərindən didərgin düşmüş, hazırda qaçqın vəziyyətində olan bir milyondan çox Azərbaycan vətəndaşı öz yerlərinə, yəni indi işğal altında olan şəhərlərə, qəsəbələrə, kəndlərə qayıtmalıdır. Biz Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması məsələsini qaldıranda Azərbaycanın rayonlarının, o cümlədən Şuşa və Laçın rayonlarının da işğalçılardan mütləq azad olunmasını nəzərdə tuturuq.

Azərbaycanın ərazisi, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağda məsələlərin həll olunmasını isə biz ikinci mərhələdə nəzərdə tuturuq.

Bu məsələlərə Dağlıq Qarabağın statusunun müəyyən edilməsi və erməni millətindən olan əhalinin təhlükəsizliyinin təmin olunması daxildir. Əgər bizim şərtlərimiz qəbul olunarsa, şübhəsiz ki, bu məsələləri həll etmək üçün müəyyən qüvvələr Ermənistanla Azərbaycan arasındakı ərazivə daxil olmalıdır. Burada da biz beynəlxalq qüvvələrə üstünlük veririk.

Bütün bu məsələlər barədə biz Ermənistanın rəhbərliyi, şəxsən bu ölkənin Prezdenti Levon Ter-Petrosyan ilə, beynəlxalq təşkilatlarla danışıqlar aparmışıq. Bu günlərdə Bakıda səfərdə olan BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşlərimizdə, danışıqlarımızda da bu problemləri müzakirə etmişik. Bir sözlə, biz altı il davam edən bu müharibəni sülh yolu ilə həll etmək istəyirik.

Respublikanın daxilində bir çox çətinliklər, gərginliklər vardır. Bildiyiniz kimi, Azərbaycanda son illər yaranmış iqtisadi, sosial böhran indi də davam edir və dərinləşmişdir. Bunun səbəbləri aydındır. Həmin səbəblərdən biri də ondan ibarətdir ki, Azərbaycan, demək olar, blokada şəraitindədir. Azərbaycanı şimal ölkələri ilə, yəni Rusiya və başqa ölkələrlə bağlayan dəmir yolu Çeçenistanda baş verən hadisələr nəticəsində üç aydan çoxdur ki, qapanıbdır. Biz əsas dəmir yol magistralından məhrum olmuşuq. Başqa ölkələrlə əlaqələrimiz də məhdudlaşıb. Çünki dəniz nəqliyyatı vasitələrində də çətinliklərimiz çoxdur. Türkiyə ilə əlaqələrimiz dəniz vasitəsilədir və Gürcüstan ərazisindən keçir. Burada da çətinliklərimiz vardır. Bunların hamısı isə Azərbaycanın iqtisadiyyatında gərginliyi daha da artırır.

Respublikamızda hüquqi dövlət qurulmuş, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, siyasi plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olunması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir və biz bu prinsipləri ardıcıl surətdə həyata keçiririk. İqtisadiyyat sahəsində seçdiyimiz strateji yol indi də dəyişməzdir, yəni biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə aparmaq əzmindəyik. İqtisadi islahatlar aparmağa başlamışıq və bunları surətlə həyata keçirəcəyik. Azərbaycanda sahibkarlığa, iqtisadiyyatda təşəbbüskarlığa geniş imkanlar yaranır və beləliklə də biz ölkəmizi sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə dünya iqtisadiyyatına daha sıx bağlamağa çalışırıq.

Azərbaycanın daxilindəki ictimai-siyasi vəziyyət, gərginlik də sizə məlumdur. Ölkəmizin daxilində və xaricində olan bəzi qüvvələr - cinayətkar, mafioz, respublikamızın müstəqilliyinə qəsd edən qüvvələr oktyabrın əvvəllərində ictimai-siyasi sabitliyi pozmağa çalışdılar və Azərbaycanda dövlət çevrilişinə cəhd etdilər. Dövlət çevrilişinə bu cəhd bir neçə qüvvə tərəfindən hazırlanmışdı. Lakin bunun iştirakçılarından biri

keçmiş Baş nazir Surət Hüseynov oldu. Onun ətrafına toplaşan bir qrup hərbi rütbəli adam - polisdə, Müdafiə Nazirliyində olan adamlar Gəncə şəhərində dövlət orqanlarını gecə ələ keçirdilər. Bakıda və Azərbaycanın digər bölgələrində də belə hərəkət etmək istəyirdilər.

1993-cü ilin iyun ayında olduğu kimi, Azərbaycan yenə də vətəndaş müharibəsi həddinə gəlib çatmışdır. Bu cinayətkar qüvvələrin, dövlət çevrilişinə cəhd edən qüvvələrin qarşısını almaq üçün şübhəsiz ki, güc işlədilməli, qan tökülməli idi. Ancaq mənim bütün Azərbaycan xalqına, vətəndaşlarına gecə yarısı müraciətim, onların dövlətçiliyimizi, Azərbaycanın müstəqilliyini qorumaq əzmində olması, milli həmrəylik, vətəndaş həmrəyliyi göstərməsi, Azərbaycanın qanuni seçilmiş Prezidentini müdaviə etmək əzmi - bunlar hamısı birlikdə dövlət çevrilişinin də, vətəndaş müharibəsinin də qarşısını aldı.

O günlər cinayət etmiş adamların bir çoxu yaxalanmışdır. Amma onların bəziləri, xüsusən təşkilatçıları, o cümlədən keçmiş Baş nazir Surət Hüseynov qaçıb gizlənmişdir. Doğrudur, Surət Hüseynovun həmin günlərdə həbs olunması mümkün idi. Ancaq mən Prezident kimi rəhm göstərdim və gücdən istifadə olunmasını istəmədim. O gəlib mənimlə bir neçə dəfə danışıqlar apardı, sonra isə öz cinayətkar qüvvələri ilə birlikdə qaçıb aradan çıxdı və gizləndi.

Azərbaycan xalqı respublikamızın müstəqilliyinə qəsd edən bu adamları lənətləyir və onlara nifrət edir. Biz həmin günlərdə Azərbaycan xalqının, vətəndaşlarının tam əksəriyyətinin milli həmrəyliyinin şahidi olduq. Bütün bunlar, şübhəsiz ki, bizim ümumi vəziyyətimizi gərginləşdirmişdir. Amma sizə bildirmək istəyirəm ki, mən çox nikbinəm, hesab edirəm ki, bütün bu çətinliklərin qarşısı alınacaq, respublikamız bu çətin mərhələdən keçəcək, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir.

Biz ağır günlərdə dünya ictimaiyyətinin dəstəyini hiss etdik. Bir çox ölkələrdən Azərbaycanın dövlətçiliyini qorumaq, dəstəkləmək haqqında bəyanatlar aldıq. Buna görə də mən bütün bu dövlətlərə, bizimlə həmrəy olan dövlətlərin hamısına minnətdarlığımı bildirirəm.

Siz ölkəmizdə baş verən hadisələrlə maraqlanırsınız. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin təmsil etdiyiniz ölkələrlə Azərbaycan Respublikası arasında əlaqələr bundan sonra daha da inkişaf edəcəkdir.

Sual: Hörmətli Prezident, MDB ölkələri dövlət başçılarının bu yaxınlarda Moskvada keçirilmiş görüşü barədə bizə məlumat verə bilərsinizmi?

Cavab: MDB ölkələri dövlət başçılarının bu görüşü növbəti bir görüş idi. Orada bir çox məsələlər müzakirə olundu. Əsas məsələlərdən

biri MDB-yə daxil olan ölkələrin inteqrasiyasının inkişafı haqqında memorandum idi. Şübhə yoxdur ki, MDB-nin üzvü olan ölkələr inteqrasiyanı inkişaf etdirməlidirlər. Ancaq bu əlaqələr, inteqrasiya hər bir dövlətin müstəqilliyinin qorunması və saxlanılması əsasında olmalıdır. İkinci məsələ isə MDB ölkələrinin vahid iqtisadi komitəsinin yaradılması idi. Belə bir orqanın yaradılması zərurəti meydana çıxır, ancaq bu komitə də gərək hər bir ölkənin müstəqilliyinə zərər gətirməsin. Təqdim olunmuş layihələrdə bəzi müddəalar bizdə müəyyən qədər narazılıq doğurdu. Çünki nəzərdə tutulurdu ki, yaradılacaq iqtisadi komitə dövlətlərüstü bir təşkilat olsun. Ona görə də biz bu layihələrin qəbul edilməsində öz xüsusi fikrimizi bildirdik və onların bəzi müddəalarına razı olmadıq. Başqa məsələlər də müzakirə edildi. Biz MDB-ni sadəcə olaraq dövlətlər birliyi kimi qəbul edirik və onun yeni bir fövqəl-dövlətə çevrilməsi təhlükəsinə qarşı çıxırıq.

Sual: Hörmətli Prezident, Siz dediniz ki, atəşkəsdən sonra ikinci mərhələdə Ermənistanla Azərbaycan arasında beynəlxalq qüvvələr yerləşdirilməsi mümkündür. Bu barədə Minsk qrupunun rolu haqqında nə deyərdiniz?

Cavab: Biz Minsk qrupunun roluna böyük əhəmiyyət veririk və onunla mütəmadi əlaqədəyik. Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinə çalışmışıq və indi də çalışırıq. Bu məsələ Butros Butros-Qali ilə son günlərdə Bakıda apardığımız danışıqların da mərkəzində dururdu. Guman edirəm ki, Minsk qrupu daha yaxşı fəaliyyət göstərsə, təkcə Minsk qrupu yox, əllidən artıq ölkəni birləşdirən ATƏT təşkilatı bu məsələlərlə daha ciddi məşğul olsa, bizim regionda etibarlı və uzunmüddətli sülhün yaradılmasına nail olmaq mümkündür.

Sual: Bu yaxınlarda Azərbaycan xarici neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Həmin müqavilənin təsdiq olunması barədə nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz ki, bu müqavilənin bağlanması tarixi bir hadisədir və bizim tərəfimizdən atılmış çox cəsarətli bir addımdır. Müqavilənin bağlanması ərəfəsində də, müqavilə imzalandıqdan sonra da onun əleyhinə çıxanlar da oldu. Ancaq bu müqavimətlərə baxmayaraq, biz müqaviləni imzaladıq. Azərbaycanın parlamenti hazırda bu müqaviləni müzakirə edir. Guman edirəm ki, yaxın vaxtlarda müqavilə təsdiq olunacaq.

Sizin hamınızı Azərbaycana dəvət edirəm.

Bilkənd Universitet şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılışında Prezident Heydər Əliyevin çıxışı

1 noyabr 1994-cü il

Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Hörmətli xanımlar və cənablar!

Bu gün xalqımız üçün böyük bayram günüdür. Türk dünyasının, Azərbaycan xalqının, Türkiyə xalqının, bütün türk xalqlarının böyük şairi, alimi, mütəfəkkiri, filosofu Məhəmməd Füzulinin anadan olmasının 500 illiyini Türkiyədə, Ankarada, bu gözəl Bilkənd Universitetinin sarayında təntənə ilə qeyd edirik. Bu salonda toplaşan soydaşlarımıza, qardaşlarımıza, bütün Türkiyə xalqına bu bayram münasibətilə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından salamımı yetirir, hörmət və ehtiramımı bildirirəm. Sizin hamınızı, bütün Türkiyə xalqını, Türk dünyasını bu böyük bayram münasibətilə təbrik edirəm.

Xalqımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, özlərinin milliliyini, mənəviyyatını, dilini, dinini yaşatmış, saxlamış və bugünkü xoşbəxt günlərə gətirib çıxarmışlar. Bizim xalqlarımız dünya mədəniyyətinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya sivilizasiyasını elm, mədəniyyət sahəsində dəyərli əsərlərlə zənginləşdirmişlər.

Bu sırada, xalqlarımızın böyük şəxsiyyətləri sırasında Məhəmməd Füzulinin xüsusi yeri var. 500 ildir ki, xalqlarımız Məhəmməd Füzulinin əsərlərindən ilham alaraq, bunların təsiri altında yaşayıb yaradırlar, öz mənəviyyatlarını, öz mədəniyyətlərini yaşadırlar. Məhəmməd Füzuli öz əsərləri, böyük mədəni-mənəvi irsi ilə xalqlarımızın daim bir-biri ilə yanaşı olmasının, birlikdə olmasının əsasını qoymuşdur. Onun əsərləri xalqlarımızın çətinliklərdən keçərək bu günə gəlib çıxmalarına daim kömək etmiş, həmişə bizdən ötrü məktəb olmuşdur, bu əsərlərdən dərs almışıq. Füzuli irsinin qiyməti əvəzsizdir. Azərbaycan xalqı Məhəmməd Füzulinin yaratdığı əsərlərin təsiri altında əsrlər boyu və xüsusən XX əsrdə öz mədəniyyətinin inkişafında böyük nailiyyətlər əldə etmişdir. Bəli, Füzulinin 500 il öncə yazdığı "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Ü.Hacıbəyov Şərq aləmində, türk dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycanın yazıçıları, alimləri, bəstəkarları, rəssamları böyük-böyük əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhvələr vermişlər. Bunlar hamısı Məhəmməd Füzulinin bizə bəxş etdiyi böyük irsdir, Azərbaycan

xalqının, türk dünyasının, türk xalqının bu günü və gələcəyi üçün böyük örnəkdir.

Bildiyiniz kimi, Azərbaycan xalqı tarixində cürbəcür mərhələlərdən keçmişdir. XX əsrin əvvəlindən indiyədək xalqımızın həyatında böyük ictimai-siyasi dəyişikliklər olmuşdur. Ancaq siyasi rejimlərə baxmayaraq, ictimai-siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycan xalqı heç vaxt öz mədəniyyətini, öz dilini, dinini, mənəviyyatını unutmamışdır, xalqımız Füzuli irsini heç vaxt unutmamış, əksinə, bu irsdən bəhrənələrək bütün çətinliklərdən keçmiş, indi milli azadlığa nail olmuş, özünün müstəqil dövlətini yaratmışdır.

Türkiyə xalqının böyük tarixi var. Türkiyə Cümhuriyyətinin yaranmasından 71 il keçmişdir. Ötən əsrlərdə də, Cümhuriyyət dövründə də Türkiyə, Türkiyə xalqı daim türk dünyası üçün örnək olmuşdur. Dahi insan, böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti 71 il ərzində Türkün, Türk dünyasının, Türk xalqının nəyə qadir olduğunu bütün dünyaya əyani şəkildə nümayiş etdirmişdir.

Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir. Bütün bunlar artıq üç il ərzində mövcud olan müstəqil Azərbaycan Respublikasının yaranmasında və bu illər ərzində möhkəmlənib inkişaf etməsində böyük rol oynamışdır.

Azərbaycan xalqı ilə Türkiyə xalqı arasında, müstəqil Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qırılmaz tellərlə bağlı olan dostluq və qardaşlıq əlaqələri var. Bu əlaqələri ulu babalarımız yaratmışlar. Bu əlaqələri Məhəmməd Füzuli yaratmış, o bizə nəsihət etmiş, o bizə bəxş etmişdir. Bu gün Türkiyənin, Azərbaycanın dəyərli insanları, vətənpərvər, sülhsevər insanları, vətənlərinə qeyrətlə, namusla xidmət etməyə çalışan adamları bu dostluq və qardaşlıq əlaqələrini genişləndirir və bundan sonra da inkişaf etdirəcəklər.

Azərbaycan Respublikası, Azərbaycan xalqı Türkiyə xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə dostluq və qardaşlıq əlaqələrini, Türkiyə Cümhuriyyətinin Azərbaycana göstərdiyi yardımı və köməyi yüksək qiymətləndirir və həyatının bu ağır dövründə, torpaqlarına erməni təcavüzü davam etdiyi bir zamanda Türkiyəni, Türk xalqını, Türkiyə Cümhuriyyətini özünə böyük dayaq sayır. Bu gün mən burada Azərbaycanın müstəqillik yolu ilə inkişafında bizə dayaq olan, kömək olan qardaş-bacılarımıza, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə dövlətinə bütün Azərbaycan xalqı adından, respublikamızın vətəndaşları adından hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm. Əminik ki, xalqımızın əsrlər boyu davam etmiş və indi yüksək zirvəyə qalxmış dostluğu və qardaşlığı sarsılmaz olacaq, bundan sonra da davam edəcəkdir. Sizi əmin edə bilərəm ki, Azərbaycan xalqı milli azadlığı ilə fəxr edir, bu azadlığı heç vaxt əldən verməyəcək, öz müstəqilliyini qoruyub saxlayacaq və bu yolda Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti ilə daim birlikdə olacaqdır.

Bu yubiley mərasimində iştirak etmək üçün Azərbaycandan gəlmək istəyənlərin sayı həddindən artıq çox idi. Alimlər, yazıçılar, dövlət adamları bu mərasimdə iştirak etmək istəyirdilər. Şübhəsiz ki, onların hamısının gəlməsi üçün imkan yox idi. Ancaq hesab edirəm ki, indi bu salona toplaşanlar arasında Azərbaycandan gələnlərlə Türkiyədən olanların sayı yəqin bərabərdir, yaxud buna yaxındır. Bu onu göstərir ki, Azərbaycan xalqı həmişə Türkiyəyə maraq göstərir, Türkiyə həmişə azərbaycanlıları cəlb edir. Bugünkü bayram günündə Füzulinin yubileyinin burada qeyd olunması və Azərbaycadan böyük bir nümayəndə heyətinin buraya gəlməsi də bizim dostluq və qardaşlığımızın rəmzidir. Bütün bunlar bizi sevindirir, Türkiyə xalqına sevgi və məhəbbət hissimizi daha da artırır.

Mən İhsan Doğramaçıoğlunun rəhbərliyi altında bu mərasimin təşkilində mühüm xidmətləri olan bütün qardaş və bacılarımıza böyük hörmət və ehtiramımı bildirirəm.

Azərbaycanda Füzulinin 500 illiyini keçirmək üçün böyük komissiya yaradılmışdır. Belə bir komissiyanın Türkiyədə də yaradılması xəbəri bizi sevindirdi. Bu komissiyanın həm başçılarına, həm də üzvlərinə Azərbaycan xalqı adından hörmət və ehtiramımı, təşəkkürümü çatdırıram.

Bu gün daha bir baxımdan əlamətdar gündür. Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz və qardaşımız, Azərbaycan xalqının sevimli dostu, hörmətli Süleyman Dəmirəlin doğum günüdür. Biz buna "anadan olan gündür" deyirik. Bu, təsadüfi deyil, 500 il bundan öncə Füzuli doğulub, 70 il bundan öncə də müasir dövrdə Türk dünyasının böyük şəxsiyyəti, böyük insan, böyük ictimai-siyasi dövlət xadimi, hörmətli Süleyman Dəmirəl doğulmuşdur. Bu onu göstərir ki, Füzuli dünyası, Füzuli nəsli davam edir, dünya birliyinə, dünya mədəniyyətinə böyük insanlar bəxş edir. Belə böyük insanlar sırasında Türkiyənin həyatında 40 ildən artıq siyasi fəaliyyət göstərən, dövlətə sədaqətlə xidmət edən Süleyman Dəmirəl kimi insan da vardır.

Əziz dostum, qardaşım Süleyman bəy! Doğum günü münasibətilə Sizi bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik arzulayır, Türkiyə xalqının gələcəyi naminə, bütün türk dünyasının gələcəyi naminə iş-

lərinizdə uğurlar diləyirəm.

Azərbaycan Elmlər Akademiyası əziz dostumuz, qardaşımız İhsan Doğramaçıoğlunun Respublika Elmlər Akademiyasının fəxri akademiki seçmişdir. Biz İhsan Doğramaçıoğlunu Azərbaycanda gözləyirdik. O, vaxtı olmadığından gələ bilmədi. Ona görə də xahiş edirəm, imkan verəsiniz, Azərbaycan Elmlər Akademiyasının Prezidenti, akademik Eldar Salayev İhsan Doğramaçı oğluna akademiyamızın fəxri akademiki diplomunu təqdim etsin.

Eşq olsun türk dünyasına, eşq olsun Türkiyə xalqına!

Yaşasın ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız!

Yaşasın sarsılmaz Türkiyə-Azərbaycan dostluğu! Sağ olun.

Türkiyənin Xarici İqtisadi Əməkdaşlıq Komitəsinin üzvləri-işgüzar dairələrin nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

1 noyabr 1994

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar və qardaşlar!

Məni və mənimlə birlikdə Türkiyəyə gəlmiş nümayəndələri bu gün buraya dəvət etdiyinizə, bizə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Bu, sizinlə, yəni Türkiyənin iş adamları ilə mənim ikinci görüşümdür. Birinci görüşümüz bu ilin fevralında, mənim Türkiyəyə rəsmi səfərim zamanı olmuşdur. O zaman biz İstanbulda görüşmüş, geniş söhbət etmişdik.

Bildiyiniz kimi, indi mən buraya Azərbaycan xalqının, bütün türk xalqlarının böyük şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə gəlmişəm. Yubiley Azərbaycanda geniş qeyd olunur və Türkiyədə də qeyd edilir. Bu, bizim bir kökdən olduğumuzu, eyni tarixə, eyni ədəbi irsə malik olduğumuzu bir daha sübut edir. Mən bu yubiley münasibətilə Türkiyəyə gəlmişəm və sizin bu fürsətdən istifadə edərək təşəbbüs göstərib mənimlə belə görüş təşkil etməyiniz məni çox sevindirmişdir. Ona görə də sizə təşəkkür edirəm.

Hörmətli başqanımız Əli Hücət burada çox gözəl nitq söyləyərək, Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin vəziyyətini təhlil etdi, olduqca maraqlı fikirlər irəli sürdü. Doğrusu, Xarici İşlər naziri Həsən Həsənov bu görüşün keçiriləcəyini bildirərkən belə hesab edirdim ki, bizim bu sahədə işlərimiz çox normal vəziyyətdə, normal durumdadır və sadəcə olaraq görüşüb bəzi söhbətlər aparacaq, bir-birimizə suallar verəcəyik. Ancaq hörmətli Əli Hücətin, - iqtisadi əlaqələrimizlə bağlı işə qəlbdən, candan yanaşın bir insanın öz çıxışında bizə verdiyi məlumatlar, bilgilər, doğrusunu deyim, məni bir tərəfdən narahat etdi, ikinci tərəfdən, mənim üçün çox əhəmiyyətli oldu. Çünki Azərbaycan öz müstəqilliyini əldə etməkdən əvvəl də - artıq 90-cı illərdən başlayaraq xarici ölkələrlə, ilk növbədə Türkiyə ilə iqtisadi əlaqələr yaratmağa, bunları inkişaf etdirməyə çalışırdı.

Ancaq üç il öncə Azərbaycan müstəqil dövlət olduqdan sonra, şübhəsiz ki, bütün ölkələrlə iqtisadi əlaqələri inkişaf etdirməyə ehtiyac duymuşdur. Lakin bu ölkələrdən həm milli köklərimizə, adət-ənənələrimizə, dilimizə, dinimizə görə, tarixi keçmişimizin eyniliyinə görə, həm də coğrafi baxımdan yaxınlığımıza, həmsərhəd olduğumuza görə Azərbaycan üçün ən doğması Türkiyədir. Azərbaycan öz əlaqələrini ilk növbədə Türkiyə ilə yaratmalı, inkişaf etdirməli idi və mən hesab edirəm ki, bu proses getmişdir. Lakin təəssüflər olsun, bu proses istənilən səviyyəyə qalxmamışdır və indi mənə aydın oldu ki, bunun təqsirinin çoxu sizdə deyil, Azərbaycandadır.

Doğrusu, buraya gələrkən düşünürdüm - sizə narazılığımı bildirəcəyəm ki, Türkiyənin iş adamları Azərbaycana maraq göstərmir, ölkəmizə gəlmir, sərmayə qoymurlar. Çünki mən bilirəm ki, Türkiyənin iş adamları bir çox ölkələrdə, yəni keçmiş Sovetlər İttifaqına daxil olan ölkələrdə, məsələn, Rusiyada, Orta Asiya respublikalarında böyük işlər görürlər.

Bir neçə gün öncə biz Türkiyənin cümhur başqanı, hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl ilə Aşqabadda idik, Türkmənistanın istiqlaliyyətinin üçüncü ildönümü münasibəti ilə keçirilən mərasimdə iştirak edirdik. Mən orada hiss etdim ki, Türkiyənin iş adamları Türkmənistanda çox işlər görürlər. Türkmənistan və Azərbaycan dost, qardaş ölkələr olduğuna görə, mən buna çox sevindim. Eyni zamanda düşündüm ki, bəs nə üçün Azərbaycanda onların bu işləri görünmür? Ya bu işlər yoxdur, ya da bunları elə xəlvət görürlər ki, Azərbaycan Prezidenti kimi mənim bundan xəbərim yoxdur.

Ancaq indi bildim ki, Azərbaycanda bu işlər çox zəif gedir. Əgər səbəblər doğrudan da Azərbaycanın qanunlarının buna imkan verməməsindən, ayrı-ayrı şərtlərin olmamasından ibarətdirsə, şübhəsiz ki, bunları tezliklə aradan qaldıra bilərik və mütləq aradan qaldırmalıyıq. Çünki siz bunu qəti bilməlisiniz, yəqin ki, məlumatınız var, - Azərbaycanın vəziyyəti keçmiş Sovetlər İttifaqına daxil olan digər türk cümhuriyyətlərinin durumundan çox fərqlidir. Bu fərq də ondan ibarətdir ki, Azərbaycan altı ildir müharibə şəraitindədir. Ermənistan silahlı qüvvələri Azərbaycana təcavüz etmişdir, torpaqlarımızın 20 faizi işğal olunmuşdur. Həmin ərazilərdən bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın düşmüşdür. Onların xeyli hissəsi çadırlarda yaşayır. Ümumiyyətlə, qaçqınlar çox ağır vəziyyətdədirlər. Bütün bunlar Azərbaycanın iqtisadiyyatının geriləməsinə səbəb olmuşdur.

Lakin Azərbaycanın uzun illər ərzində yaranmış böyük iqtisadi potensialı var. Əvvəla, Azərbaycanın təbii sərvətləri zəngindir, ikincisi sənaye potensialımız güclüdür. Azərbaycana gəlib-gedənlər bilirlər ki, bizdə neftayırma, neft kimyası, maşınqayırma, metallurgiya, elektrotexnika, elektronika, yüngül sənaye sahələrinin iri istehsal müəssisələri, digər fabrik və zavodlar var. İndi bunların çoxu tam gücü ilə işləmir. Azərbaycanın başqa imkanları da var. Ona görə də Azərbaycana kapital qoymaq, iş görmək üçün imkanlar çox genişdir. Ancaq hələlik buna nail ola bilməmişik. Bəzi ölkələrin iş adamları, guya Azərbaycan müharibə şəraitində olduğuna görə, bəziləri isə Azərbaycanın daxilində sabitlik olmadığına görə gəlmək istəmirlər.

Lakin bu, belə deyil, Azərbaycan müharibə vəziyyətindən çıxacaq. Beş aydan artıqdır ki, atəşkəs yaranmışdır. Biz çox çalışırıq ki, bu atəşkəs dövründə böyük sülh yaradaq, müharibəyə tamamilə son qoyaq. Ancaq bu da bir şərtlə bağlıdır ki, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmalı, onun ərazi bütövlüyü təmin edilməlidir. Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması müvəqqəti haldır.

Daxili sabitliyə gəldikdə isə, doğrudur, bəzi hadisələr var. Ancaq son hadisləri, yəni oktyabrın əvvəlində Azərbaycanda dövlət çevrilişi cəhdlərinin qarşısını Azərbaycan xalqının necə aldığını siz gördünüz. Dövlət çevrilişi etmək istəyən cinayətkar qüvvələr - həm Azərbaycanın daxilində, həm də onun xaricində olan bu qüvvələr bir gecənin içində məhv oldular. Bəziləri yaxalandı, bəziləri də qaçıb gizləndi.

Azərbaycan iqtisadiyyatında çətinliklər yaranmasının bir səbəbi də odur ki, uzun müddət, yəni bir ildən artıq Baş nazir vəzifəsində Surət Hüseynov kimi çox səriştəsiz adam olmuşdur. O, həm də cinayətkar ünsürlərlə əlaqədə idi. Ona görə də bəzi məsələlərdə bizdən ötrü maneə, əngəl idi. Son vaxt belə oldu ki, o, dövlət çevrilişi etmək istədi, lakin xalq onun cavabını verdi. Onu həmin gecə həbs etmək olardı, lakin mən ona rəhm etdim, insanpərvərlik göstərib həbs olunmasına imkan vermədim. Ancaq o, bunu da başa düşmədi, bir neçə gündən sonra bəzi cinayətkarları da başına toplayaraq qaçdı. İndi gizlənir. Azərbaycanın daxilində, yaxud xaricində olmasını arayıb tapacağıq.

Yəni demək istəyirəm ki, oktyabrın əvvəlində olan hadisələr Azərbaycanın daxilindəki sabitliyi pozmağın mümkünsüzlüyünü sübut etdi. Azərbaycan dövləti güclü, möhkəmdir. Xalq onu dəstəkləyir. Həmin gecə bütün dünya bunu gördü.

Ona görə də Azərbaycanda iş görmək imkanları var. Ancaq siz də, biz də əl-ələ verib bu imkanlardan istifadə etməliyik. İndi Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə bağlayır. Əgər dünyanın 9-10 böyük neft şirkəti Azərbaycanda iş görmək üçün müqavilə bağladısa, üç milyard dollardan çox kapital qoymaq qərarına gəldisə, demək, onlar Azərbaycanın bu gününə də, gələcəyinə də inanırlar. Elə buna görədir ki, daxildə və xaricdə olan düşmənlərimiz aranı qarışdırmaq istəyirlər. Lakin biz bunun qarşısını aldıq.

Yəni demək istəyirəm ki, neft müqaviləsini imzalamağımız bütün iş adamları üçün, o cümlədən Türkiyənin iş adamları üçün həm böyük örnəkdir, həm də sübut edir ki, Azərbaycanda iş görmək, buraya çoxlu kapital qoymaq olar. Ancaq bundan ötrü Azərbaycan tərəfindən maneələr, əngəllər varsa, - mənim dostum Əli Hücət bunların bir neçəsi barədə burada məlumat verdi, mən onun nitqinin mətnini götürüb Azərbaycana qayıdandan sonra orada müzakirə edəcəyəm, - bu işlərin hamısını qaydaya salacağıq. Yəni, əgər xarici ölkələrin kapitallarının qorunması üçün qanun yoxdursa, qəbul edəcəyik, yaxud vergi məsələsindəki əngəlləri aradan qaldıracağıq.

Bir sözlə, Azərbaycanın Prezidenti kimi mənim fikrim budur ki, Azərbaycanın qapıları bütün xarici ölkələrin iş adamları üçün, ilk növbədə Türkiyənin iş adamlarından ötrü açıq olmalıdır. Kim harada, nə iş görə bilirsə, gəlsin görsün. Hesab edirəm ki, bundan həm iş adamları, həm də Azərbaycan mənfəət götürəcək. Kimin nə qədər mənfəət götürməsi, şübhəsiz ki, aydınlaşdırılacaq. Çünki mən hesab etmirəm ki, iş damları gəlib Azərbaycana zərər vura bilər, yaxud da respublikamızda onlara zərər vurula bilər. Ola bilməz. Əgər haradasa belə şey olarsa, biz bunun qarşısını ala bilərik. Ona görə də sizə müraciətim, sizdən ricam budur ki, qorxmayın, çəkinməyin, gəlin Azərbaycanda birlikdə iş görək.

Azərbaycan sərbəst iqtisadiyyat yolu ilə gedir. Mənim dostum burada dedi ki, biz bilmirik, - siz kapitalist sistemindəsiniz, yoxsa sosialist sistemində. Doğrudan da, indi biz keçid mərhələsindəyik. Siz kapitalist sistemi deyirsiniz, mən sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı deyirəm, - indi biz həmin bu sistemə keçirik. Bu o qədər də asan iş deyil, bilirsiniz. Türkiyənin özündə 71 ildir ki, Cümhuriyyət quruluşunda yaşayırsınız, lakin bu günlərdə özəlləşdirmə haqqında yeni bir qanun qəbul edirsiniz. Mən bunu eşidəndə fikirləşdim ki, əcəba, Türkiyədə hələ özəlləşdirilməmiş bir şey qalmışdırmı? Üstəlik, həmin qanunla bağlı məclisdə, mətbuatda çəkişmələr gedir ki, bu, olacaq, yaxud olmayacaq, bu işi kim görsə, Türkiyənin qəhrəmanı olacaq, görməsə, nə bilim nə olacaq.

Amma Azərbaycanın bütün iqtisadiyyatı hələlik sosialist iqtisadiyyatıdır. Bundan bazar iqtisadiyyatına keçmək üçün, şübhəsiz ki, vaxt lazımdır. Lakin ola bilər bu vaxtı uzadasan, bir də var ki, həmin mərhələni qısa müddətdə - bir ilə, iki-üç

ilə keçəsən. Bundan ötrü isə siz bizə yardım etməlisiniz. Sizin yardımınız olmasa, sizin təcrübənizdən istifadə etməsək, çətin olacaq. Bilirsiniz, bizim adamlar sosializm quruluşunda doğulub, həmin quruluşda da yaşamışlar. Mən 1923-cü ildə doğulanda sosializm quruluşu var idi. Mən o quruluşda yaşamışam. Bilirəm ki, sosializm quruluşu Azərbaycana nə verdi, orada nə yaratdıq, sosializm quruluşunun yaratdığı potensialdan indən belə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yoluna keçərək nə əldə edə bilərik. Mən bunu bilirəm. Ancaq hamı bunu bilmir. Bəziləri mühafizəkardır, deyirlər ki, yox, elə bu yaxşıdır, onu əldən verməyəcəyik. Bəziləri yeni iqtisadiyyata keçməyin yolunu bilməyirlər, yalnış yolla gedirlər.

Ona görə də sizin Azərbaycanda çalışmağınız həm iş olacaq, bir nəticə verəcək, həm də Azərbaycanın bu keçid mərhələsini daha sürətlə adlamasına kömək edəcəkdir. Mən sizi buna dəvət edirəm. Vaxtınızı çox almaq istəmirəm, prinsip sizə məlum olsun, əvvəla, Azərbaycan müstəqil dövlətdir, nə olursa-olsun, bu müstəqilliyi heç vaxt əldən verməyəcəkdir. Qırılsaq da, ölsək də müstəqilliyimizi əldə saxlayacağıq. Əgər bizi də qırsalar, balalarımız müstəqilliyimizi davam etdirəcəklər. İkincisi, Azərbaycan keçmiş sosializm quruluşuna bir daha qayıtmayacaq. Bunu da bilməlisiniz. Sosializm sisteminin ən böyük adamlarından biri mənəm, özü də təkcə Azərbaycanda yox, bütün keçmiş Sovetlər Birliyində. Mən vaxtilə Sovetlər dövləti kimi bir fövqəldövlətin başında duran adamlardan biriyəm. Əgər mən bu sözləri deyirəmsə, buna inanın. Kim bunu anlamırsa, Prezident kimi, böyük siyasi təcrübəsi olan adam kimi mən Azərbaycanda onları anladacağam ki, Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır. Azərbaycanın yolu sərbəst iqtisadiyyat yoludur. Bu yolda bizim çətinliklərimiz olacaq. Heç bir ölkə, heç bir dövlət sərbəst iqtisadiyyata asanlıqla keçməmişdir. Ola bilər, bizim payımıza, şəxsən mənim payıma belə çətin dövr düşmüşdür. Mən bu dövrü yaşayacağam, amma məndən sonra gələn adamlar daha asan, daha sərbəst zəmanədə yaşayacaqlar. Ancaq hər kəs öz payına düşən vəzifəni yerinə yetirməlidir. Mən də öz vəzifəmi yerinə yetirəcəyəm, buna arxayın ola bilərsiniz.

Demək, bu şərtlər olduğu halda Azərbaycanın daxilində sabitliyi təmin edəcəyəm, buna arxayın ola bilərsiniz. Müharibədən də, inşaallah çıxacağıq. Ona görə də gecikməyin, gəlin Azərbaycanda iş quraq. Sizə bir də söz verirəm: mən dostumun bugünkü nitqinin mətnini özümlə götürürəm və Azərbaycana qayıdan kimi toplantılar keçirərək, sizdən ötrü əngəl törədən bütün məsələlərin aradan qaldırılmasını təmin edəcəyəm. Ancaq bir şərtlə ki, bu, bizim qanunlara uyğun olsun, eyni zamanda iqtisadiyyatımıza zərər vurmasın. Bunu da bilməlisiniz. Əməkdaşlıq həm iş

adamları üçün, həm də Azərbaycan üçün qarşılıqlı surətdə faydalı olmalıdır. Bunu yaxşı təşkil etmək üçün qayda-qanunlar necə olmalıdırsa, elə də edəcəyik. Mən bunu sizə söz verir və sizi Azərbaycana dəvət edirəm. Xahiş edirəm cəsarətli olun, Azərbaycana gəlin, birlikdə onun iqtisadiyyatını qaldıraq, inkişaf etdirək. Sağ olun.

Türkiyədə yaşayan azərbaycanlılarla görüşdə Prezident Heydər Əliyevin nitqi

1 noyabr 1994-cü il

Hörmətli cənablar, xanımlar!

Hörmətli dostlar, qardaşlar, həmvətənlər!

Bildiyiniz kimi, bu gün mən və mənimlə bərabər Azərbaycandan bir qrup ziyalı, dövlət adamları böyük şairimiz, böyük insan Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən yubiley mərasimlərində iştirak etmək üçün buraya, Ankaraya gəlmişik. Bu böyük bir hadisədir. Yəni Azərbaycanın və bütün türk dünyasının böyük şairi, yazıçısı, mütəfəkkir insanı Məhəmməd Füzulinin yubileyinin həm Azərbaycanda, həm Türkiyədə, həm də başqa türk dövlətlərində keçirilməsi onu göstərir ki, biz keçmişimizə, ədəbi irsimizə böyük hörmət və ehtiramla yanaşırıq, eyni zamanda milli köklərimiz, birgə tariximiz əsrlər boyu bizi bir-birimizə yaxın edib, bir-birimizə bağlayıb, indi daha da sıx bağlayır.

Bu bayram münasibətilə, - bu, bizim üçün bayramdır, - mən sizi və bütün Türkiyə xalqını ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Məhəmməd Füzulinin yaratdığı əsərlər bundan sonra gələn nəsilləri də xalqa, millətə, torpağa, Vətənə sədaqət ruhunda tərbiyə edəcək, hazırlayacaqdır. Şübhəsiz ki, bu münasibətlə mənim burada dövlət başçıları ilə görüşlərim olacaqdır. Bunlar hamısı Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin günü-gündən inkişaf etməsinə yönəldilməlidir.

Bildiyiniz kimi, Azərbaycan oktyabrın 18-də öz müstəqilliyinin üçüncü ildönümünü qeyd etdi. Üç ildir ki, Azərbaycan müstəqil bir dövlətdir. Bu illər ərzində Azərbaycan böyük, çətin bir yol keçmişdir və həmin yol ilə getməkdədir. Müstəqilliyini əldə edən gündən indiyədək Azərbaycanın ən yaxın dostu, bizə ən yaxın ölkə, ən yaxın qardaş Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti olub. Dünya dövlətləri içərisində Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə Türkiyə Cümhuriyyəti olub. Azərbaycanın müstəqilliyinə kömək edən də Türkiyə Cümhuriyyətidir. Biz bu dostluq, qardaşlıq əlaqələrinin bəhrələrini bu gün də görürük və gələcəyə də böyük ümidlə baxırıq. Ona görə də biz həmişə buraya gələndə elə bilirik ki, öz doğma torpağımıza, öz məmlə-

kətimizə gəlirik. Eyni zamanda mən belə hesab edirəm ki, Türkiyədən Azərbaycana gələn hər bir adam da orada özünü öz məmləkətində, öz doğma torpağında olduğu kimi hiss edir.

Bütün Türkiyə bizim qardaşımız, dostumuzdur. Amma eyni zamanda burada Azərbaycandan çıxmış, yəni kökləri, əcdadları, dədə-babaları Azərbaycan torpağından olan insanlar da yaşayırlar. Onlar Azərbaycana daha çox maraq göstərirlər. Çünki dədələrini, babalarını, ulu babalarını görməyiblərəsə də, nəsildən-nəsillərə keçən söhbətlər, sözlər onların qəlbində, ürəyində Azərbaycan torpağına bağlılığı həmişə saxlayıbdır.

Doğrudur, biz Sovet hakimiyyəti şəraitində yaşadığımız 70 ildə, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin olmadığı bir dövrdə çoxları belə hesab edirdi ki, bəlkə də insanlar bir-birini unudublar. Ancaq sərhədlər açılandan, əlaqələr düzələndən sonra məlum oldu ki, 70 il yox, heç 700 il də insanların bir-birinə bağlılığını qıra bilməz, insanlar bir-birini unuda bilməz. Ona görə də biz Türkiyəyə gələndə kökü Azərbaycandan olan buradakı soydaşlarımızla, dostlarımızla, qardaşlarımızla görüşməyi şübhəsiz ki, çox böyük bir hadisə hesab edirik.

Mənə dedilər ki, Ankarada yaşayan azərbaycanlıların, bizim dostlarımız, qardaşlarımızın bir qrupu buraya toplaşıb, mənimlə görüşmək istəyir. Mən bu təklifi çox məmnuniyyətlə qəbul etdim. Hamınızı ürəkdən salamlayıram, ulu babalarınızın torpağı olan Azərbaycandan sizə salamlar gətirmişəm, hamınıza ürəkdən, qəlbdən cansağlığı, xoşbəxtlik arzulayıram.

Yaxşı bilirik ki, Türkiyədə hər bir vətəndaş, xüsusən Azərbaycanla bağlı olan hər bir insan Azərbaycanın vəziyyətini həmişə izləyir, ölkəmizin müstəqilliyinin qorunması üçün narahatsızlığını bildirir, həmişə müəyyən düşüncələrlə yaşayır ki, görəsən Azərbaycanın müstəqilliyi davam edəcəkmi, bu müstəqillik gələcəkdə də olacaqmı, yeni bir şey olmayacaq ki? Mən bu hissləri başa düşürəm, bilirəm ki, bu suallar burada olan dostlarımızı, həmvətənlərimizi həmişə narahat edir. Bu da təbiidir. Çünki əvvələn, Azərbaycan öz müstəqilliyii hələ 1918-ci ildə əldə etdi və qısa müddətdən sonra itirdi. İkincisi də indi yenidən öz müstəqilliyini əldə edən Azərbaycanın başına ötən üç ildə o qədər bəlalar gəldi ki! Ermənistanın Azərbaycana qarşı təcavüzü altı ildir ki, davam edir. Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal olunmuş bu torpaqlardan bir milyondan artıq qaçqın vardır. Bunlarla yanaşı, Azərbaycanın daxilində çoxlu gərgin, mürəkkəb ictimai-siyasi proseslər gedib, dəyişikliklər olub. Üç ildə üç dəfə hakimiyyət dəyişib. Ona görə də sizin narahatlığınız, əlbəttə ki, təbiidir.

Ancaq mən sizi əmin edə bilərəm ki, rahat olun, birincisi, Azərbaycanın müstəqilliyi əbədidir, heç kəsin buna şübhəsi olmasın. Yəni tarixin inkişafı artıq elə bir yoldadır ki, bu müstəqilliyi pozmaq, dağıtmaq mümkün deyil. O demək deyil ki, biz hamar yolla gedirik. O demək deyil ki, biz böyük bir qatara minib rahat oturmuşuq və bu da bizi müstəqillik yolu ilə xoşbəxt gələcəyə aparır. Yox, bu müstəqilliyin əldə olunması nə qədər çətin idisə, onun saxlanılması, daimi, yəni əbədi olması bundan da çətindir. Ona görə də bu, sizə bir o qədər asan gəlməsin. Ancaq mən sizə deyə bilərəm ki, Azərbaycanda yaşayan Azərbaycan vətəndaşlarının, azərbaycanlıların tam əksəriyyəti, - deyə bilmərəm ki, hamısı, çünki ürəyində başqa fikirlərlə yaşayan adamlar da var, - tam əksəriyyəti bu müstəqilliyi əldən vermək istəmir. Bu, xalqın fikridir, xalqın rəyidir. O ki qaldı bizim iradəmizə, bir Prezident kimi şəxsən mənim iradəmə, arxayın ola bilərsiniz, - Azərbaycanın müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq və heç kəs bizim bu müstəqilliyimizi əlimizdən ala bilməyəcəkdir. Buna əmin ola bilərsiniz.

200 il ərzində böyük bir dövlətin tərkibində olan bir xalqın içində bəzi adamlar var ki, o tərəfə meyl edir, yəni ürəyində o keçmiş hissləri yaşadır. İkinci tərəfdən, 200 il Azərbaycanı öz pəncəsi altında saxlayan imperiya Azərbaycanın müstəqilliyinə heç cür razı ola bilmir: necə ola bilər ki, Azərbaycan onun tərkibindən çıxsın, müstəqil olsun? Ola bilər bir il, iki il, üç il dözsün...

Yəni bizim qarşımızda belə ağır, çətin yol var. Mən sizi rahatsız etmək istəmirəm, sadəcə, real vəziyyəti sizə deyirəm. Ancaq nə qədər çətin, ağır olsa da biz bu müstəqillik yolu ilə gedəcəyik. Mən sizə xalqın iradəsini, öz iradəmi deyirəm. Nə qədər çətin olsa da, biz bu yolla gedəcəyik. Buna arxayın olun. Müstəqilliyimizi əlimizdən verməyəcəyik. Mən bilirəm ki, bu yolda Türkiyə həmişə bizim dayağımız olub, olacaq. Türkiyədə yaşayan həmvətənlərimiz, soydaşlarımız daim bizimlə olacaq, bizə yardımçı olacaq, bizə mənəvi dayaq göstərəcəklər və hamımız birlikdə bu yolu başa çatdıracağıq. Mən sizin qarşınızda bir neçə saat məlumat verə bilərəm. Ancaq o qədər vaxt yoxdur. Ona görə də qısa olaraq bir neçə kəlmə demək istəyirəm. Bizim ən böyük dərdimiz Ermənistanın Azərbaycana təcavüzüdür. Altı il davam edən müharibədə, deyə bilmərəm ki, Azərbaycan xalqı, necə deyərlər, fərsiz, yaxud da aciz olub, ona görə də torpaqları işğal edilib. Yox, Azərbaycan xalqı əsrlər boyu öz qəhrəmanlığını, cəsurluğunu göstərib, öz mənliyini sübut edib, dünyaya nümayiş etdirib. Ancaq bu altı il müddətində çoxlu mürəkkəb proseslər gedib, çətinliklər yaranıb. Bir tərəfdən Azərbaycana rəhbərlik edən adamların bəzilərinin fərsizliyi, fəaliyyətsizliyi, satqınlığı,

ikinci tərəfdən Ermənistana müxtəlif yerlərdən göstərilən kömək, yardım və s. - bunlar hamısı bizi gətirib bu bəlaya çıxarıbdır.

Keçmiş haqqında çox danışmaq istəmirəm. Bunu tarix təhlil edəcək, göstərəcək, bugünkü gün də göstərəcək. Bizdən sonra gələn nəsillər də bunu təhlil edəcək. Hər halda Azərbaycan gərək bu vəziyyətə düşməyəydi, öz torpaqlarını əldən verməyəydi, gərək Ermənistanın təcavüzünün qarşısını alaydı. Azərbaycan xalqı bunlara qadir idi. Ancaq bunlar əldən verilib. İndi Azərbaycanın torpaqlarının 20 faizi işğal altındadır, bir milyondan artıq qaçqın var. Qaçqınların çoxu çadırlarda yaşayır. Qarşıdan qış gəlir, vəziyyət ağırdır. Onlar belə çətin vəziyyətdə yaşayırlar.

Azərbaycanın iqtisadi vəziyyəti ağırdır. Bilirsiniz ki, bu 70 ildə biz bir-birimizdən ayrı olmuşuq. Bu 70 ilin mənfi cəhətləri də var. Amma nailiyyətləri də var. Azərbaycan xalqı bu 70 il ərzində təhsilli olub, elmli olub, bilikli olub. Bax, görürsünüz, onların bir çoxu burada oturub, bizim şairlərdir, alimlərdir. Bunlar hamısı 70 il ərzində yetişən adamlardır. Dahi Füzulini yaşadan bu adamlardır. Azərbaycanda Füzuli haqqında nə qədər əsərlər yazılıb. Mən cəsarətlə deyə bilərəm ki, heç bir ölkədə Füzulinin yaradıcılığı, onun dünya mədəniyyətinə verdiyi töhvələr Azərbaycandakı kimi təhlil olunmayıb. Bunlar hamısı Azərbaycanda həyata keçib.

Ötən 70 ildə Azərbaycanın elmi potensialı yaranıb, respublikamızın böyük iqtisadi potensialı da yaranıb. Azərbaycan qurulub, yaşayır, yəni Azərbaycan xalqı bu rejimi qəlbən qəbul etməsə də, bu rejimin içərisində öz işini görüb, irəliyə gedib, inkişaf edib. Ancaq Azərbaycanın bu böyük iqtisadi potensialından istifadə etmək imkanları indi çox məhdudlaşıbdır. Biz bir sistemdən o biri sistemə keçmişik. Bir çox iqtisadi islahatlar həyata keçirməliyik. Son altı ildə Azərbaycan iqtisadiyyatında quruculuq prosesləri yoxdur, dağıdıcı proseslər gedir. Bizim yüksək texnologiyaya malik fabrik və zavodlarımız var, lakin onlar indi dayanmışdır. Biz onları işlədə bilmirik. Xammal yoxdur, yaxud da Rusiya ilə, başqa ölkələrlə əlaqələr qırıldığına görə ayrı-ayrı mallar alınmır. Digər tərəfdən, yollarımız da bağlıdır.

Bizim əsas dəmir yolumuz Şimali Qafqazdan keçir. Çeçenistanda baş verən hadisələrlə əlaqədar üç aydır ki, dəmir yolu bağlıdır. Azərbaycan blokada şəraitindədir. Dəmir yolu bağlanıb. Başqa dəmir yolumuz da yoxdur. Xəzər dənizində nəqliyyat əlaqələrimiz, əlbəttə ki, dəmir yolu qədər deyil, məhduddur. Təsəvvür edin, əgər biz indi Rusiyadan çətinliklə buğda gətirmək istəyiriksə, gərək onu Rusiyadan Qazaxıstana keçirək, oradan Özbəkistana, Türkmənistana aparılsın, bundan sonra Krasnovodsk limanına və buradan da gəmi ilə gətirilib Bakıya çatdırılsın. Bu

buğdanın nəqliyyat xərcləri onun öz qiyməti qədərdir. Bax, Azərbaycan belə bir ağır vəziyyətdə yaşayır.

Azərbaycan xalqı bu ağır şəraitdə də öz müstəqilliyini, öz torpaqlarını qorumaq əzmindədir. Müharibə şəraitində iqtisadi böhrandan çıxmaq üçün biz bir çox tədbirlər görürük. Danışıqlar nəticəsində beş aydan artıqdır ki, atəşin kəsilməsinə nail olmuşuq. Altı il davam edən müharibədə bu, ilk hadisədir. Yəni ilk elə bir dövrdür ki, beş aydan çox atəş, müharibə yoxdur. Amma bundan əvvəl biz hər gün şəhidlər verirdik. Bizim vətəndaşlar hər gün həlak, şəhid olurdular. İndi müharibə dayanıb, qan tökülmür. Ancaq bu o demək deyil ki, biz buna dözə bilərik. Bizim torpaqlarımız işğal altındadır. Bir milyondan artıq qaçqın var. Biz bu işğalın davam etməsinə imkan verə bilmərik. İmkan verə bilmərik ki, ermənilər bu torpaqların elə həmişə onların əlində olacağını düşünsünlər. Yox! Biz siyasi tədbirlər görürük ki, sülh yaradaq. İşğalçı qüvvələri sülh yolu ilə oradan çıxardaq. Qaçqınlar öz yerlərinə qayıtsınlar. Bu barədə bir çox tədbirlərimiz var. Biz beynəlxalq təşkilatlar - BMT, ATƏT, onun Minsk qrupu ilə sıx əlaqədəyik. Bu yaxınlarda BMT-nin Baş katibi Butros-Qali üç gün Bakıda səfərdə oldu. Onunla danışıqlar apardıq. Bu işləri görürük.

Mən bir neçə saat bundan əvvəl burada iş adamları ilə görüşdüm. Azərbaycan Türkiyə üçün ən yaxın bir ölkə olduğu halda, Türkiyənin iş adamları indi Azərbaycanda az iş görürlər. Amma keçmiş Sovet İttifaqının digər respublikalarında daha çox iş görürlər. Ola bilər ki, bunun günahları bəzən Azərbaycandadır. Bu gün mənə məlumat verdilər ki, bu məsələləri həll olunmasında əngəllər vardır. Biz buna baxacağıq. Ancaq Azərbaycan ilə Türkiyənin iqtisadi əlaqələri inkişaf etməlidir. Biz bunun üçün lazımi tədbirlər görürük. Azərbaycan iqtisadiyyatının inkişafı üçün bu, bizim əsas yollarımızdan biridir.

Mən dedim ki, ötən üç ildə müstəqil Azərbaycan Respublikasında müəyyən dəyişikliklər olub, üç dəfə hakimiyyət dəyişib. Bu isə insanlarda ümidsizlik yaradır. Adamların bəzilərində biganəlik əmələ gəlib. Ancaq siz əmin ola bilərsiniz ki, biz bunlara da son qoymuşuq.

Keçən ilin iyun ayında Azərbaycanda hərbi çevrilişə cəhd olundu, vətəndaş müharibəsi baş verdi. Bununla əlaqədar mən Bakıya dəvət olundum. O vaxtdan Azərbaycanın rəhbərliyini öz üzərimə götürdüm. Bu il oktyabrın əvvəlində respublikada yenə də belə bir çevriliş cəhdi baş verdi. Bunu siz bilirsiniz, qəzetlər yazıb və oxumusunuz. Burada geniş məlumat verməyə ehtiyac yoxdur. Ancaq bu, xalqımızın içindəki cinayətkar, mafioz qrupların öz şəxsi mənafelərini, şəxsi məqsədlərini ümummilli, ümumxalq, ümumvətən, ümumölkə mənafelərindən üstün tut-

duqlarını göstərdi. Bu adamlar siz deyən qədər də bacarıqlı şəxslər deyil. Son illərdə Azərbaycanın daxilində vəziyyət elə olub ki, ziyalı, bilikli adamlar kənarda qalıblar (bax, burada oturan ziyalılar kənara çəkiliblər, bəziləri öz başlarını saxlamaqla məşğul olublar), Azərbaycan üçün yararlı olmayan adamlar meydana çıxıb, silah, pul toplayıb, hakimiyyət iddiasında olublar.

Bax, belə bir hadisə bu ilin oktyabr ayında yenə də başlandı və bunlar əvvəlcədən qurulmuş, planlaşdırılmış hadisələr idi. Bilirsiniz ki, uzun illər gedən danışıqlar nəticəsində sentyabrın 20-də Azərbaycan Respublikası xarici ölkələrin neft şirkətləri konsorsiumu ilə müqavilə bağladı. Bu konsorsiuma Türkiyənin şirkəti də daxildir. 30 il müddətinə bağlanan bu müqavilə tarixi bir hadisədir, yəni "Əsrin müqaviləsi" kimi qiymətləndirilir. Bir halda ki, bu müqavilə 30 ilə bağlanıbdır, demək, gələcək nəsillər üçün də çox faydalı bir müqavilədir. Bu müqavilə imzalandıqdan sonra nə oldu? İki gün sonra ölkəmizin bir həbsxanasından Azərbaycana qarşı cinayət etmiş dörd nəfər canini çıxardılar. Tarixdə bu, birinci dəfə olubdur. Demək, bunu professional qüvvələr təşkil etmişlər. O caniləri çıxardılar, qaçırdılar. Bunlar Azərbaycanın bütövlüyünün əleyhinə çıxan, Azərbaycanı parçalamağa çalışan adamlardır. Onlar vaxtilə Azərbaycanda hakimiyyət iddiasında idilər. Düzgün başa düşün, bu adamları əvvəl də həbs etmək, xalqdan təcrid etmək lazım idi. Amma bunu etməmişdilər. Mən bunu etdim, bu adamların həbs edilməsinə nail oldum. Onların üzərində məhkəmə quruldu. Məhkəmə onları artıq Vətən xaini kimi ifşa edirdi, ancaq bu mərhələdə bəzi adamların satqınlığına görə onlar həbsxanadan qaçırıldı.

Bundan sonra mən Nyu-Yorka getdim. O hadisəni bunun qarşısını almaq üçün etmişdilər. Amma buna baxmayaraq mən Nyu-Yorka getdim, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində çıxış etdim. Amerikanın Prezidenti Bill Klintonla görüşdüm. Bir çox səmərəli görüşlərimiz, danışıqlarımız oldu. Mən Amerikada olarkən bizim iki nəfər çox dəyərli dövlət xadimini - Ali Sovet sədrinin müavini Afiyəddin Cəlilovu və Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimovu qətlə yetirdilər, xaincəsinə öldürdülər, terrora əl atdılar.

Bunu Azərbaycanda qarışıqlıq yaratmaq üçün etdilər. Mən bunu eşidəndə hiddətləndim, tezliklə ölkəyə qayıtmaq istədim. Ancaq bəziləri şayiə yaymışdılar ki, Heydər Əliyev artıq Amerikadan geri qayıtmayacaq, Heydər Əliyev orada qaldı, biz də burada dövləti devirəcəyik. Lakin mən qayıtdım. Demək, bu da baş vermədi. Bundan sonra onlar dövlət çevrilişinə başladılar. Bunun da qarşısı alındı. Şübhəsiz ki, böyük qanlar tökülə bilərdi. Çünki böyük silahlı qüvvələr hazırlanmışdı, vətəndaş

müharibəsi olacaqdı.

Ancaq mənim xalqa müraciətimdən sonra gecə yarısı xalq ayağa qalxdı - gənci də, qocası da, cavanı da, kişisi də, qadını da, cocuğu da - hamısı Prezident sarayının önündəki meydana toplaşdı, Azərbaycanın müstəqilliyini, dövlətçiliyini, qanuni seçilmiş dövlət rəhbərliyini qorudu. Cinayətkarların bir qismi yaxalandı, həbs olundu. Mən rəhmdarlıq, insanpərvərlik etdim. Bu işin təşkilatçılarından biri olan Surət Hüseynovu o gün də həbs etmək olardı. Mən bunu etmədim. Çünki mən, ümumiyyətlə, rəhmdar adamam. Ancaq o bunu anlamadı, 3-4 gündən sonra başına bir dəstə topladı, qaçdı. İndi biri deyir respublikanın xaricindədir, o birisi deyir daxilindədir. Ancaq o, xalqın məhkəməsindən qaça bilməyəcək. Şübhəsiz ki, o da, onun ətrafında olan adamlar da, Moskvada oturmuş Mütəllibov da, Rəhim Qazıyev də, Surət Hüseynov da, Azərbaycanı parçalamaq, cənub zonasını ayırmaq istəyən Əlikram Hümbətov da, - onların heç birisi qaça bilməyəcək, xalq ədalət məhkəməsi onların hamısının cavabını verəcəkdir.

Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, o gərgin günlərdə, xüsusən o gecə Türkiyə Cümhuriyyəti bizimlə oldu. Türkiyənin Prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl bir neçə dəfə mənə telefonla zəng etdi, məsələ ilə maraqlandı, vəziyyəti öyrəndi, bəyanat verdi. Ondan sonra başqa dövlətlər, dünyanın böyük dövlətləri bəyanat verdilər ki, Azərbaycanda sabitliyin qorunmasının, qanuni seçilmiş dövlət rəhbərliyinin tərəfdarıdırlar, qanuni seçilmiş Prezidenti dəstəkləyirlər. Demək dünya ictimaiyyəti də bizim tərəfimizdə oldu.

O günlər Türkiyə, şübhəsiz ki, böyük gərginliklə Bakıdakı hadisələri izləyirdi. Amma gördünüz ki, biz bunları asanlıqla, bir-iki günə yerinə qoyduq. Xalq ayağa qalxdı. Xalqımız cinayətkarları indiyədək lənətləyir. Biz minlərlə, on minlərlə məktublar, teleqramlar alırıq, cinayətkarları məhkum etmək, vətən xaini kimi cəzalandırmaq barədə xalq öz sözünü deyir, yazır və onların hərəkətini pisləyir. Bir tərəfdən də bu hadisə bəlkə də olmamalıydı, amma bu hadisənin olması belə adamları üzə, aşkara çıxardı. Bir çox adamların da canı qurtardı.

Məsələn, o cinayət edənlərin yuvası Gəncə şəhəridir. Gəncə şəhərindən indi mənə məlumatlar gəlir, insanlar deyirlər ki, biz artıq rahat nəfəs ala bilirik. Bu qeyri-qanuni silah saxlayan, oğru, quldur, cinayətkar adamlar insanları terror edir, gəlib camaatın uşaqlarını oğurlayır, hətta evdən adamları oğurlayır, cürbəcür başqa cinayətlər edirdilər. Camaat müəyyən qədər rahatlandı. Deyə bilmərəm ki, tamam rahatlanıb, çünki içərimizdə belə cinayətkarlar hələ var. Siz heç güman etməyin ki, biz bununla qurtarmışıq. Yox, indi bu cinayətkarların bəzisi yaxalanıb,

bəzisi qaçıb, bəzisi gizlənib. Ancaq bu gün bir şey məlumdur ki, Azərbaycan xalqı öz müstəqilliyinin keşiyindədir. Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır.

Azərbaycanda xalqın çörəklə təminatında çətinliklər vardır. Çünki həmin Surət Hüseynovu və onun yanında olan adamların bir neçəsini mən işdən çıxardım, bir neçəsi həbs olundu - onlar Azərbaycanı taxılla təmin etmək məsələləri ilə vaxtında məşğul olmadıqlarına görə, indi bizim yollarımız bağlandığına görə, bir tərəfdən də vəsaitimizin çatışmamasına görə bu sahədə böyük gərginlik əmələ gəlmişdir. Biz Türkiyəyə müraciət etmişik. Kredit hesabına və başqa vasitələrlə buradan təcili buğda, un alıb aparmalıyıq ki, əhalini təmin edək. Ölkənin rəhbərləri ilə mənim bu barədə bu gün də, sabah da danışıqlarım olacaq. Ümidvaram ki, bu sahədə bizə kömək olunacaqdır.

Ancaq bilirsiniz, xalqımız nə deyir. Məsələn, BMT-nin Baş katibi Butros Butros-Qali Bakıda olarkən, gedib qaçqınlarla görüşəndə ona dedilər ki, biz aclığa da dözərik, bax bütün bu ağır günlərə də dözərik, təki müharibə qurtarsın, torpaqlarımız azad olunsun və biz öz doğma yerlərimizə qayıdaq. Bu, xalqımızın ən böyük arzusudur və bu da Azərbaycan Prezidenti kimi mənim qarşımda ən böyük vəzifədir. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni həyata keçirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yolda çalışmışam və həyatımın son dəqiqəsinə qədər çalışacağam.

Mən bu görüşdən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Kim Azərbaycana nə vaxt gəlmək istəyirsə, gözümüz üstə yeri var. Gəlsinlər. Azərbaycan sizin öz doğma torpağınızdır, doğma vətəninizdir. Sağ olun.

Ankarada Türkiyə, Azərbaycan və xarici ölkə jurnalistləri üçün mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatı

1 noyabr 1994-cü il

Hörmətli mətbuat nümayəndələri, mən sizi salamlayıram və Azərbaycana böyük maraq göstərdiyinizə görə məmnun olduğumu bildirirəm. Azərbaycan Respublikasında gedən proseslər, oradakı vəziyyət Türkiyə mətbuatında geniş işıqlandırılır. Türkiyə Cümhuriyyətinin kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasına göstərdiyi marağa görə mən Türkiyənin bütün mətbuat orqanlarına, radio və televiziyasına təşəkkürümü bildirirəm. Bəzən obyektiv, doğru-düzgün yazmasalar da, hər halda, Azərbaycanı yada saldıqlarına, Azərbaycan haqqında yazdıqlarına görə sağ olsunlar. Odur ki, sizə ətraflı məlumat verməyə ehtiyac

duymuram və vaxt az olduğuna görə, - mənə dedilər ki, yarım saat vaxt var, - sizin mənə sual verməyinizə imkan yaradacağam.

Sual: Xəzər dənizi və bunula əlaqədar Rusiyanın mövqeyi barədə müxtəlif söz-söhbət yayılmışdır. Siz bu barədə və Azərbaycanda daxili vəziyyət barədə nə deyə bilərsiniz?

Cavab: Çox təşəkkür edirəm, çox yaxşı suallardır. Çalışın, yaxşı sual verin. Xəzər dənizi haqqında. Bildiyiniz kimi, Xəzərdə neft yataqları var və bu dənizin Azərbaycana aid sektorundakı neft yataqları respublikamızın neft sənayesi tərəfindən 45 ildir istismar edilir. Xəzərin Azərbaycana aid sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi üçün bir çox xarici şirkətlərlə, xüsusən Qərb ölkələrinin şirkətləri ilə, o cümlədən Türkiyənin neft şirkəti ilə son üç il ərzində danışıqlar aparılmışdır. Neft yataqlarının 30 il müddətinə müştərək istismarı haqqında konsorsiuma daxil olan xarici ölkə şirkətləri ilə Azərbaycan arasında sentyabrın 20-də müqavilə imzalanmışdı. Bu yataqlar Azərbaycana mənsub olduğuna görə biz üç il ərzində danışıqlar apararkən və son mərhələdə, yəni müqavilə imzalanmağa hazırlanarkən Azərbaycana başqa dövlətlər tərəfindən heç bir müraciət edilməmişdir.

Lakin sentyabrın 20-də neft müqaviləsi imzalandıqdan sonra Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibliyi bu müqaviləni tanımadığı barədə bəyanat vermişdir. Biz bu bəyanatı əsassız hesab etmişik və ona heç fikir verməmişik. Sonra mən bu barədə Rusiyanın Baş naziri Viktor Çernomırdinlə həm telefonla danışmışam, həm də oktyabrın 21-də Moskvada olarkən onunla görüşüb danışıqlar aparmışam. Mən bu barədə Rusiyanın Xarici İşlər naziri Andrey Kozırevlə də telefonla danışmışam. Bir daha bildirmişəm ki, o neft yataqları Azərbaycana mənsubdur, Azərbaycan da onlardan istifadə etməkdə tamamilə sərbəstdir. Oktyabrın 21-də mən Rusiyanın Baş naziri Viktor Çernomırdinlə görüşərkən o, mənə bildirdi ki, bu məsələdə Rusiya tərəfindən heç bir problem yoxdur.

Eyni zamanda Xəzəryanı dövlətlər, yəni Rusiya, Qazaxıstan, Türkmənistan və İran təklif irəli sürmüşlər ki, Xəzər dənizində ekologiya, balıqçılıq və gəmiçilik məsələləri haqqında bir razılığa gəlmək, müqavilə bağlamaq lazımdır. Biz buna etiraz etmirik. Amma burda heç bir ölkənin üstünlüyünü də qəbul etmirik.

Xəzər dənizinin statusu haqqında mətbuatda çox yazılar verilir. Biz Xəzərin statusunun müzakirə olunmasına etiraz etmirik. Ancaq bunun imzaladığımız neft müqaviləsi ilə heç bir əlaqəsi ola bilməz. Xəzər dənizinin statusunun müzakirəsi çox vaxt aparacaqdır. Biz bu müzakirələrdə iştirak edib öz mövqeyimizi bildirməyə hazırıq.

İkinci sualınıza cavab verirəm.

Azərbaycanda iqtisadi vəziyyət çox ağırdır. Son aylar Azərbaycan Nazirlər Kabinetinin buraxdığı səhvlər nəticəsində respublika əhalisinin çörəklə təminatında çox böyük çətinliklər meydana çıxıb. Şimali Qafqazda, Çeçenistanda üç aydan artıqdır ki, vəziyyət gərgin olduğuna görə Azərbaycandan şimala gedən dəmir yolu tamamilə qapanıb. Ona görə də Azərbaycan əhalisini çörəklə təmin etmək, buğda, un almaq üçün yeganə yerimiz Türkiyədir. Burada biz Türkiyənin köməyinə çox möhtacıq. Mən bu barədə Türkiyə rəhbərlərinə müraciət etmişəm. Həmin məsələni bu gün və sabah görüşlərimizdə qaldıracağam. Çünki bu, bizim üçün çox mühüm məsələdir. Ümidvaram ki, Türkiyə hökuməti və dövləti Azərbaycanı belə ağır vəziyyətdə qoymaz və bizə kömək edəcəklər.

Sual: Azərbaycanın xaricdə təbliğ edilməsini, Azərbaycan dövlətçiliyinin indiyədək dünya miqyasında apardığı təbliğatı necə qiymətləndirirsiniz və erməni təcavüzkarlığına son qoyulmasında hansı yolları daha əlverişli bilirsiniz?

Cavab: Sualınızı bir az dəqiqləşdirin. Çünki təbliğat məsələsi ilə Ermənistanın təcavüzü məsələsi ayrı-ayrı məsələlərdir. Bu sualın hansı hissəsi sizə lazımdırsa, mən ona cavab verim.

Sual: Azərbaycanın xaricdə təbliği məsələsinə necə baxırsınız?

Cavab: Necə baxacağam ki? Mən istəyirəm ki, Azərbaycan xaricdə daha yaxşı təbliğ olunsun. Özü də bütün ölkələrdə - həm Avropada, həm də Asiyada, o cümlədən Türkiyədə də. Bir sözlə, bütün dünyada. Axı Ermənistanın təbliğat imkanları Azərbaycanın imkanlarından çox üstündür. Bildiyiniz kimi, Ermənistanın Avropa, Amerika ölkələrində çox güclü lobbiləri var. Onlar Ermənistanı təbliğ edir. Ermənistanla Azərbaycan arasında gedən müharibə haqqında yalnış məlumatlar verirlər. Mən çox istərdim ki, bu barədə Azərbaycanın təbliği daha da güclənsin.

Sual: Cənab Prezident, Türkiyədən nə kimi xahişlər edəcəyinizi söyləməzsinizmi?

Cavab: Birinci növbədə bəlkə də xahiş etdim ki, Türkiyə Azərbaycana təcili olaraq buğda, un göndərsin. Bildiyiniz kimi, 1992-ci ildə Türkiyə Azərbaycana 250 milyon dollar məbləğində kredit ayırıb. Bu kreditin az bir qismindən istifadə edilib. Əksər hissəsi indiyədək istifadə edilməmiş qalır. Azərbaycan iqtisadiyyatının ağır vəziyyətə düşdüyünü nəzərə alaraq Türkiyə rəhbərlərindən bu kreditdən istifadə olunmasını xahiş edəcəyəm.

Sual: Cənab Prezident, dediniz ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Ermənistan bu silahlı qüvvələri haradan alır? Hansı ölkələrin Ermənistana silahlı qüvvələr və silah göndərdikləri barədə məlumatınız varmı?

Cavab: Bilməlisiniz ki, əgər Ermənistana başqa ölkələrdən həm

silah, həm də digər ləvazimat sarıdan kömək olmasaydı, Ermənistan öz gücü ilə Azərbaycan ərazisinin böyük bir hissəsini, 20 faizini işğal edə bilməzdi. Ermənistana kömək edən ölkələr çoxdur. Siz bunu bilirsiniz. Haradan silah gəldiyini, hardan əsgəri yardım gəldiyini, haradan başqa vəsait gəldiyini dəqiq deyə bilmərəm. Amma siz onu bilirsiniz.

Sual: Ermənistana kredit verilir, silah göndərilir. Bununla əlaqədar BMT-nın mövqeyi barədə nə deyə bilərsiniz?

Cavab: BMT-nın Baş katibi cənab Butros-Qali ilə Bakıda görüşlərimiz, danışıqlarımız çox səmərəli oldu. Mən Butros-Qali ilə çox açıq danışdım, ona bildirdim ki, BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnaməsi indiyədək yerinə yetirilməyib. Eyni zamanda cənab Butros-Qali ilə danışıqlarımızda mən ona bildirdim ki, BMT, ATƏT, ümumiyyətlə, beynəlxalq təşkilatlar Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq üçün və etibarlı, uzunmüddətli sülh yaratmaq üçün bundan sonra daha güclü fəaliyyət göstərməlidirlər. Butros-Qali mənim bu təkliflərimi qəbul etdi, fikirlərimlə razılaşdı və bildirdi ki, bu sahədə lazımi tədbirlər görəcəkdir.

Sual: Bu günlərdə Afinadan belə bir xəbər alınmışdır ki, Azərbaycan nefti borularla Qara dənizə, orada isə Bolqarıstan və Yunanıstan vasitəsilə Aralıq dənizinə nəql ediləcəkdir. Beləliklə, Azərbaycan nefti Qərbə Türkiyə və İstanbuldan yan keçərək nəql olunacaqdır. Siz öbuna necə baxırsınız?

Cavab: Biz xarici ölkələrin neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladıqdan sonra qarşımızda duran əsas məsələ boru xəttinin marşrutunun müəyyən edilməsidir. Lakin bu məsələni konsorsium Azərbaycanla birlikdə həll etməlidir. Biz isə hələlik bir qərara gəlməmişik. Məsələ heç müzakirə də olunmayıb. Ona görə də qəzetlərdə bu barədə yazılanlara fikir verməyin.

Sual: Biz Azərbaycanda olarkən bir çox adamlarla görüşdük və hər bir adamın sizi sevdiyini, sizə hətta dua etdiyini gördüm. Siz oktyabrın 4-də saat 24-də xalqa müraciət edərkən minlərlə insan sizin yanınıza gəldi. Xalq tərəfindən bu qədər sevilməyinizə baxmayaraq, bəzi neqativ şəxslər tərəfindən sevilməməyinizi nə ilə izah edərdiniz?

Cavab: Neqativ adamlar, neqativ fikirli qüvvələr bunu anlamırlar. Əgər onlar bunu anlaya bilsəydilər, bu cür neqativ hərəkətlər etməzdilər. Oktyabrın əvvəlindən başlanmış proseslər və oktyabrın 4-də baş vermiş hadisə bir daha göstərdi ki, belə neqativ qüvvələr Azərbaycanda, doğrudur, müəyyən cinayət törədə bilərlər, amma Azərbaycan dövlətinə heç bir ziyan vura bilməzlər.

Sual: Sentyabrın 20-də Bakıda neft müqaviləsi imzalandı. Bundan

sonra nə kimi işlər görüləcək?

Cavab: Biz o müqaviləni imzaladıq və indi Azərbaycan parlamentində onun müzakirəsi gedir. Müqavilə parlamentdə təsdiqləndikdən sonra onun icrasına başlanacaqdır. Məndə olan məlumata görə, konsorsiumun üzvləri yaxın günlərdə Azərbaycana gələcək və konkret işlərə başlayacaqlar.

Sual: Bəs müzakirələr nə vaxt başlanacaq?

Cavab: Bu yaxın günlərdə olacaq.

Mən sizin hamınıza öz ehtiramımı bildirirəm və hamınızı Azərbaycana dəvət edirəm. Gəlin və Azərbaycan haqqında həqiqətləri yazın. Sağ olun.

Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimində Prezident Heydər Əliyevin çıxışı

2 noyabr 1994-cü il

Türkiyə Böyük Millət Məclisinin başqanı hörmətli Hüsaməddin Cindoruq!

Hörmətli millət vəkilləri!

Hörmətli nazirlər, cənablar və xanımlar!

İki gündür ki, biz sizin ölkənizdə, bizim öz ölkəmizdə müsafirik, qonağıq. Bizim bir kökdən, bir tarixdən olduğumuzu bir daha dünyaya nümayiş etdirən Məhəmməd Füzulinin andan olmasının 500 illiyini iki gündür ki, birlikdə, bərabər qeyd edirik.

Məhəmməd Füzuli haqqında dünən də, bu gün də çox sözlər deyildi. 500 ildir ki, Məhəmməd Füzuli yaşayır. 500 ildir ki, Məhəmməd Füzulinin törəmələri - onun ideyaları ilə yaşayan, onun əsərlərindən ilham alan Türklər, Türk xalqları öz həyatını sürür və bugünkü xoşbəxt bir səviyyəyə gəlib çatmışlar. Füzuli haqqında Türkiyədə, Azərbaycanda böyük elmi əsərlər yazılıbdır. Şairlərimiz, yazıçılarımız ona öz əsərlərini həsr ediblər. Bəstəkarlarımız, rəssamlarımız onun əsərləri əsasında böyük əsərlər yaradıblar. Azərbaycanda elə bir yazıçı, şair tapmaq olmaz ki, o, Füzuli haqqında bir əsər yazmamış olsun. Ancaq bunların hamısından ən önəmlisi odur ki, Füzuli əsərinə, Füzuli yaradıcılığına, Füzuli irsinə əsrin əvvəlində - hələ ovaxt, xalqımızın, demək olar, çox qaranlıqda yaşadığı bir dövrdə, bilik, savad çox az adama qismət olduğu dövrdə dahi bəstəkar Ü.Hacıbəyov Füzulinin "Leyli və Məcnun" əsəri əsasında Şərq aləmində, Türk dünyasında ilk dəfə böyük klassik, professional opera - "Leyli və Məcnun" operası yaradıbdır.

1909-cu ildə Bakıda Opera Teatrı yaranıbdır və ilk operanı yaradan Ü.Hacıbəyov öz əsəri ilə Azərbaycan professional musiqisinin əsasını qoymuşdur. Bir əsrdir ki, biz bu əsasda Azərbaycan musiqisinin inkişaf etməsinin şahidiyik.

Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, sevilmiş, son əsrdə xüsusilə yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə, öz keçmişinə, öz tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir.

Azərbaycan xalqının həyatı böyük, çətin mərhələlərdən keçibdir. Ancaq bütün çətinlikləri keçməkdə Azərbaycan xalqına onun böyük insanlarının, böyük şəxsiyyətlərinin yaratdıqları sənət əsərləri kömək edibdir. Füzuli bunların arasında görkəmli yer tutur.

Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olub. Amma indi Türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, Türk dünyasına mənsub ölkələrin demək olar ki, tam əksəriyyəti (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənsinə uyğun olmayan rejimlər içərisində yaşayan vaxtda Füzuli bizi yaşadıb, bu günlərə gətiribdir. Bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə - Kərbəlada, Bağdadda, həm Ankarada, Türkiyədə Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyətinin yanında digər Türk Cümhuriyyətləri də vardır. Əziz dostum və qardaşım Süleyman Dəmirəlin dəfələrlə dediyi sözü demək istəyirəm ki, ay-ulduzlu Türkiyə bayrağının yanında indi artıq beş müstəqil Türk Cümhüriyyətinin bayrağı durubdur. Bu bayraqlardan biri də Azərbaycanın bayrağıdır. Azərbaycanın müstəqillik bayrağı Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında qalxıbdır.

Azərbaycanda ilk dəfə müstəqil demokratik dövlət yarananda - 1918-ci ildə də bu, Türkiyə ilə bağlı, Türkiyənin təsiri altında, Türkiyənin köməyi ilə olubdur. Ondan sonrakı dövrdə biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzuli Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılığa qoymayıbdır. Yəni bizi daim birləşdirib və bizi ayıran qüvvələrin qarşısını almağa kömək edib.

Ona görə də bu iki gündə burada bizim bu böyük mərasimi bərabər keçirməyimiz sadəcə bir təntənəli mərasim deyil. Bunun böyük tarixi, mənəvi, milli və deyə bilərəm ki, siyasi əhəmiyyəti vardır. Biz böyük

məmnuniyyət hissi ilə bu gün Füzuli günlərini Türkiyədə başa çatdırırıq. Lakin o, başa çatmır, bizimlə gələn adamların bir çoxu burada elmi konfranslar, simpoziumlar keçirəcək, orada iştirak edəcəklər, Füzuli günləri hələ davam edəcəkdir.

Güman edirəm, biz buraya böyük bir heyətdə gəldiyimiz kimi, Türkiyədən də, şübhəsiz ki, bundan da böyük bir heyət Azərbaycana gələcəkdir. Çünki əgər yeddi milyonluq Azərbaycandan buraya belə bir heyət gəlibsə, özünüz hesablayın, 60 milyonluq Türkiyədən Azərbaycana, Füzuli yubileyinə nə qədər qardaşlarımız gələcəkdir.

İndi bizim vəziyyətimiz ağırdır, çətindir. Həyatımızın çox çətin dövrünü yaşayırıq. Ancaq qəlbimiz genişdir. Türkiyənin hörmətli, dəyərli insanları, siz qəlbimizdə həmişə yaşayırsınız. Sizi qəlbimizdə, könlümüzdə həm Füzuli bayramında, həm də bütün bayramlarda qəbul etməyə, qarşılamağa həmişə hazırıq. İnanıram ki, siz bu dəvətimizi qəbul edəcəksiniz. Füzuli günləri Azərbaycanda davam edəcək, başa çatacaq və gələcəyimiz üçün böyük yolların açılmasına böyük kömək edəcəkdir.

Bu iki gün müddətində Füzulinin yaradıcılığına verilən qiymət, eyni zamanda müstəqil Azərbaycan dövlətindən buraya gəlmiş heyətə göstərilən hörmət və ehtiram bizi həm sevindirir, həm də bizdə böyük təşəkkür hissi oyadır. Biz bunu bir tərəfdən təbii hesab edirik. Çünki biz dost və qardaşıq. Bir millətik və bir-birimizlə çox bağlıyıq. Eyni zamanda bunu Türkiyə xalqının, Türkiyə Cümhuriyyətinin, Türkiyə dövlətinin Azərbaycana böyük qayğısı, diqqəti kimi qiymətləndiririk. Ümumiyyətlə, Füzuli yubileyi təkcə Füzulinin şəxsiyyətinə, onun yaradıcılığına verilən qiymət deyil. Füzuli yubileyi xalqlarımızın birləşdirilməsinə, yaxınlaşmasına, gələcəkdə bir yolla əzmlə getməsinə şərait yaradan böyük bir hadisədir. Ona görə də mən bütün türk qardaşlarımızı, Türkiyə vətəndaşlarını bu bayram münasibətilə bir daha təbrik edirəm. Bizə göstərilən qonaqpərvərliyə, hörmət və ehtirama görə təşəkkür edirəm. Türkiyədə Füzuli yaradıcılığına verilən belə yüksək qiymətə görə öz sevgimi, məhəbbətimi bildirirəm.

Bu mərasimin təşkili, şübhəsiz ki, Türkiyə dövlətinin sayğısı, diqqəti və qayğısı nəticəsində olmuşdur. Türkiyənin Cümhurbaşqanı, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu mərasimdə bilavasitə iştirak etməsi, Füzuli haqqında geniş nitq söyləməsi, mən hesab edirəm ki, həm Türkiyə üçün, həm Azərbaycan üçün, həm də bütün Türk dünyası üçün böyük bir hadisədir.

Bu gün Türkiyənin Böyük Millət Məclisində belə bir böyük mərasimin toplaşması və Füzuliyə həsr olunmuş belə bir gecənin keçirilməsi Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin, onun başqanı, hörmətli dostumuz, qardaşımız Hüsaməddin

Cindorukun bu hadisəyə və Türkiyə-Azərbaycan dostluğuna göstərdiyi qayğının, hörmətin rəmzidir, təzahürüdür.

Bilirsiniz, bu gün mən qardaşım Hüsaməddin Cindoruka dedim, bu il fevral ayında mən Azərbaycanın Prezidenti kimi Türkiyədə rəsmi səfərdə olarkən Türkiyə Cümhuriyyətini Böyük Millət Məclisində mənə millət vəkillərinə xitab etmək imkanı yarandı. Mən Türkiyənin Böyük Millət Məclisi qarşısında, millət vəkilləri qarşısında böyük həyacan hissi ilə çıxış etdim. Oraya gələrkən hansı hisslər keçirdiyimi mən bu gün qardaşım Hüsaməddin Cindoruka dedim. Cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə bir böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm - türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllim də var idi, bir müddət - iki-üç il mənə türk dili öyrədirdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən - indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın. Məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi. Son vaxtlarda "Çalıquşu" yenə yada düşdü, onun əsasında böyük bir film yarandı. O film təkcə türk ölkələrində yox, məsələn, mən bilirəm, Rusiyada da çox böyük hörmət, çox böyük şöhrət qazandı. Ancaq mən "Çalıquşu"nu 13-14 yaşında oxumuşdum. O məni heyran etmişdi.

Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyüyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin rəsmləri indi də gözümün qabağındadır. Yəni mən gənc vaxtlarımda, - bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur, içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyatlardır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım. Qəzetlərdə və başqa yerlərdə Türkiyənin Böyük Millət Məclisi haqqında oxuyanda həmişə onu əzəmətli bir Millət Məclisi sanırdım, düşünürdüm, fikirləşirdim ki, Türkiyənin bu Böyük Millət Məclisi nə böyük işlər görür. Həyat elə gətirdi ki, mən gəlib Türkiyənin Böyük Millət Məclisində millət vəkilləri qarşısında söz demək imkanı aldım. Türkiyəyə və millət vəkillərinə xitab etdim. Bu, mənim üçün böyük şərəfdir. Mən bunu heç vaxt unutmayacağam. O gün orada ürəyimdə olan sözləri böyük həyacanla öz dostlarıma, qardaşlarıma çatdırdım.

Biz bu gün yenə də Türkiyənin Böyük Millət Məclisindəyik. Hüsaməddin bəy mənə dedi, Türkiyənin 80-dən çox millət vəkili bu salonda bizimlə birlikdədir, biz onlarla birlikdəyik. Həm Füzuli yubileyini qeyd

edirik, həm də Türkiyə-Azərbaycan dostluğunun daha da möhkəmlənməsi üçün hər tərəfdən səylər göstəririk. Bunlar bizim yaşadığımız günlərin reallığı, gerçəkliyidir. Allaha şükürlər olsun ki, biz gəlib bu günlərə çatdıq, bu günləri gördük. Mən sizə deyə bilərəm ki, Azərbaycanda nə qədər adamlar bu günlərin həsrəti ilə yaşadı, lakin gəlib bu günləri görə bilmədi. Azərbaycanda bələləri çox olub - çox dəyərli adamlar, xalqlarımızın dostluğunu görmək istəyən adamlar.

Biz Türkiyə ilə Azərbaycan arasında "Həsrət körpüsü"nü, "Ümid körpüsü"nü yaradanda da mən bu hissiyatlarla yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib, doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirlər ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq.

Demək istəyirəm ki, yəni Azərbaycanda belə həsrətlərlə yaşamış adamlar çox olub. Onların bir çoxu bu günləri görmədən həyatını dəyişib. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, onun şahidiyik və bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk. Bu gün Türkiyənin Böyük Millət Məclisinin salonunda millət vəkilləri ilə birlikdə Türkiyə-Azərbaycan dostluğunu bayram edirik. Füzuli sənətinin bayramını keçiririk.

Bu bayramlar münasibətilə, Füzuli bayramı münasibətilə mən sizi təbrik edirəm və sizi əmin etmək istəyirəm ki, mənim Türkiyəli qardaşlarım, dostlarım, Azərbaycan xalqı bu dostluğu daim möhkəmləndirməyə çalışacaq, bu dostluq sarsılmaz olacaq, əbədi olacaq və gələcək nəsillərimiz bu dostluğun, bu qardaşlığın daha gözəl bəhrələrini görəcəklər. Sizi bir daha təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin doğum günü münasibətilə "Çankaya" köşkündə keçirilən görüşdə Prezident Heydər Əliyevin təbrik nitqi

2 noyabr 1994-cü il

Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının əziz dostu, qardaşı, mənim şəxsi əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Bu gün Azərbaycan Respublikasının böyük nümayəndə heyəti buraya, iqamətgahınıza Sizin doğum

gününüzü təbrik etmək üçün gəlmişdir. Azərbaycan Respublikasının nümayəndə heyətində ölkəmizin çox görkəmli, dəyərli adamları, dövlət adamları, nazirlər, alimlər, şairlər, rəssamlar, bəstəkarlar, yəni Azərbaycan xalqının hər təbəqəsini təmsil edən çox hörmətli adamlar var. Bizim hamımız buraya böyük sevgi, məhəbbət, hörmət hissi ilə gəlmişik.

Bu gün Sizin doğum gününüzdür. Azərbaycan xalqı Sizi Türk dünyasının böyük bir oğlu kimi tanıyır. Siz Türk dünyasının həyatında 40 ildən artıqdır ki, əvəzsiz xidmətlər göstərmisiniz. Türkiyə Cümhuriyyətinin böyük öndəri Mustafa Kamal Atatürkün qoyduğu yol ilə inkişaf etdirilməsində sizin uzun illər, on illər ərzində böyük rolunuz olmuşdur. Ona görə də Türkiyə xalqı Sizi dəyərli bir insan, böyük türk oğlu kimi tanıyır. Siz böyük hörmət, ehtiram və məhəbbət qazanmısınız. Təkcə Türkiyədə yox, bütün Türk dünyasında siz böyük dövlət xadimi, ictimai-siyasi xadim və Türk dünyasının inkişafı üçün yorulmaz bir insan kimi tanınırsınız.

Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya Birliyində layiqli yer tutmasında Sizin böyük xidmətləriniz var və buna görə də Siz təkcə Türkiyədə yox, yalnız Türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz.

Azərbaycan xalqının Sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "Soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda - 25 il bundan öncə Siz Türkiyənin Baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi Sizə əmr etmiş, Bakıya gəlməyi Sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.

Xatirinizdədir ki, 1968-ci ildə Azərbaycan xalqı o vaxt sosialist rejimi şəraitində, Sovet İttifaqının tərkibində ikən Sizi nə qədər böyük hörmət və ehtiramla qarşıladı və Sizə öz məhəbbətini bildirdi, beləliklə, bütün Türkiyədə olan qardaş və bacılarına, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz hörmət və ehtiramını bildirdi. Mən çox xoşbəxtəm ki, o günlərdə sizinlə şəxsən tanış oldum. Bizim bu tanışlığımız, dostluğumuz 25 ildir ki, davam edir.

Son dövrdə Azərbaycan Respublikasında xalqımız milli azadlıq uğrunda mübarizə aparanda ən böyük dəstəyi Türkiyədən aldı. Ən böyük köməyi Türkiyənin siyasi, icti-

mai, partiya, dövlət xadimləri arasında, əziz Süleyman Dəmirəl, Sizdən alıbdır. Azərbaycan xalqı milli azadlıq mübarizəsinə qalxarkən Siz xalqımızla bir yerdə olmusunuz, ona dayaq durmusunuz, kömək etmisiniz, onu dəstəkləmisiniz. Bizim müstəqilliyimiz əldə olunan kimi Türkiyə Cümhuriyyəti dünya dövlətləri içərisində birinci olaraq dərhal Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. Biz yaxşı bilirik ki, bu böyük beynəlxalq hadisədə, Azərbaycanın Dünya Birliyi tərəfindən tanınmasında, Türkiyənin Azərbaycanı müstəqil dövlət kimi tanımasında sizin xüsusi xidmətləriniz vardır.

Azərbaycan xalqı bu üç illik müstəqillik dövründə Türkiyə ilə sarsılmaz tellərlə sıx əlaqədədir. Türkiyə Cümhuriyyətindən ən böyük dəstək alır. Bu dövrdə Sizin daim qayğınız, diqqətiniz, Azərbaycanın müstəqilliyi üçün fəaliyyətiniz göz qabağındadır. Bunu Azərbaycanda çox gözəl bilirlər və qiymətləndirirlər. Azərbaycanda biz hamımız sizi böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi tanıyırıq. Bizə çox xoşdur və bunu böyük məmnuniyyətlə qəbul edirik ki, 1923-cü ildə yaranmış, Müstafa Kamal Atatürk tərəfindən əsası qoyulmuş Türkiyə Cümhuriyyəti indi etibarlı əllərdədir. Siz Türkiyənin Cümhurbaşqanısınız, Prezidentisiniz, Mustafa Kamal Atatürkün tutduğu vəzifəni tuturusunuz və bu vəzifəni layiqincə həyata keçirirsiniz. Bunlar hamısı bizi sevindirir və bu sevgi, məhəbbət, hörmət hissi də Azərbaycan nümayəndələrinin böyük bir dəstəsinin buraya gəlib sizi şəxsən mütləq təbrik etməsinə əsas yaratmışdır.

Əziz qardaşım, əziz dostum, mən Sizi doğum gününüz, yubileyiniz munasibətilə Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, şəxsən öz adımdan səmimiqəlbdən təbrik edirəm, Sizə cansağlığı, uzun ömür, səadət və xoşbəxtlik arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, hələ bundan sonra da bir çox illər Siz Türkiyə Cümhuriyyətinə etibarlı rəhbərlik edəcəksiniz, onun gələcək yollarının sükançısı olacaqsınız, təkcə Türkiyənin yox, Türk dünyasının, Türk dövlətlərinin bir-birinə daha yaxın olması üçün böyük xidmətlər göstərəcəksiniz. Şübhə etmirik ki, Azərbaycan Respublikasına, xalqına indiyədək göstərdiyiniz qayğı və diqqət bundan sonra da davam edəcəkdir. Siz həmişə Azərbaycan ilə bir yerdə olmusunuz, bundan sonra da bir yerdə olacağınıza biz tam əminik. Sizi bir daha ürəkdən təbrik edirəm, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Mən bu gün bu xoşbəxt dəqiqələrdə Sizin həyat yoldaşınız Nəzmiyyə xanımı da, bütün ailənizi də təbrik edirəm, Sizin ailənizə də, bütün qohum-əqrabanıza da xoşbəxtlik, səadət arzulayıram.

Azərbaycan xalqının ürəyində olan hissiyatlar çoxdur. Bunu sözlə

də, şerlə də, musiqi ilə də, rəsm əsərləri ilə də demək olar. Ancaq biz fikirləşdik ki, ürək sözlərimizi Sizə dəqiq çatdırmaq üçün böyük rəssamımız Kamil Əliyev Sizin portretinizi xalıda yaratsın. Azərbaycan incəsənətinin əsrlərdən-əsrlərə keçən ənənələrindən biri də xalı üzərində rəsmlər, mənzərələr əks etdirmək, tarixin böyük şəxsiyyətlərinin portretlərini yaratmaqdan ibarətdir. Azərbaycan incəsənəti, rəssamlıq məktəbi bununla fəxr edə bilər. Belə bir nümunə, yəni Sizin portretiniz Azərbaycan ornamentləri ilə bəzədilmiş xalı üzərində toxunub hazırlanıb. Mən doğum gününüz münasibətilə bu xalını Sizə hədiyyə edirəm. İcazənizlə, bu hədiyyəni Sizə təqdim edim. Əziz dostum, doğum gününüzü təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik arzulayıram.

Türkiyə Böyük Millət Məclisinin Sədri Hüsammədin Cindoruqla görüşdə Prezident Heydər Əliyevin çıxışı

2 noyabr 1994-cü il

Burada biz doğma torpağımız, doğma ölkəmiz olan Türkiyədəyik. Bunu dəfələrlə mən də demişəm, əziz dostum, qardaşım Süleyman Dəmirəl də deyib: Biz iki ölkəyik, bir xalqıq. Ona görə də buraya gələndə özümüzü öz məmləkətimizdə hiss edirik. Siz də Azərbaycana gələndə özünüzü elə hiss edirsiniz.

Biz dünən dahi Füzulinin 500 illiyini bərabər, çox yaxşı keçirdik. Mən bundan çox məmnunam. Bunu birinci növbədə Füzuli şəxsiyyətinə verilən qiymət hesab edirəm. İkincisi də biz bütün dünyaya bir daha nümayiş etdirdik ki, bir ölkədən olan xalqlarıq, bizim ədəbiyyatımız da, mədəniyyətimiz də, adət-ənənələrimiz də - hamısı eynidir və Füzulinin 500 il bundan qabaq yaratdığı əsərlər indi də yaşayır. Dünən biz bunun şahidi olduq. Böyük bəstəkarımız Ü.Hacıbəyovun əsrin əvvəlində yazdığı "Leyli və Məcnun" operasından parçalar dinlədik və yaxşı bir konsertə baxdıq. Bunlar hamısı Ankarada, Bilkənddə oldu. Bilkənddə yeni bir şəhər yaranıb, yeni bir salon yaranıb və dünən onun açılışı olub. Bunların hamısını bizim əziz dostumuz İhsan Doğramaçı yaratmışdır. Ona görə də mən onun Şərəf kitabına öz ürək sözlərimi yazdım. Bu gün öz hörmət və ehtiramımı İhsan Doğramçıya bir daha bildirirəm, dahi Füzulinin 500 illik yubiley mərasiminin təşkilindəki xidmətlərinə görə ona öz təşəkkürümü bildirirəm.

Bu gün biz əziz dostum və qardaşım Süleyman bəyi doğum günü münasibətilə təbrik etdik. O, bizim bütün heyətimizi qəbul etdi, biz qəlbimizdən gələn qardaş sözlərimizi ona söylədik. Öz hədiyyəmizi verdik. Hədiyyə bir xalıdır ki, onun üzərində Türk dünyasının dəyərli oğlunun portreti əks olunmuşdur.

İndi də sizin hüzurunuza gəlmişik. Bu ilin əvvəlində Böyük Millət Məclisində olmağımdan çox məmnunam. Türkiyə Böyük Millət Məclisi mənim hafizəmdə, beynimdə uşaq vaxtlarından həmişə əzəmətli bir qurum kimi qalmışdır. Ola bilər, o zaman guman edə bilməzdim ki, bir vaxtlar mən Böyük Millət Məclisində bütün millət vəkilləri, bütün Türkiyə qarşısında söz söyləyəcəyəm, xalqa xitab edəcəyəm. Bu imkanı siz mənə yaratdınız. Buna görə də çox məmnunam. Bu gün də qonaqpərvərliyinizə görə sizə minnətdaram.

Biz sizin vaxtınızı alırıq. Amma guman edirəm ki, bu heç də hədər deyildir. Yəni bunlar hamısı həm Türkiyə, həm Azərbaycan üçün, həm də xalqlarımızın bu günü, gələcəyi üçün lazım olan işlərdir. Bu işləri də biz bərabər görürük. Bütün bunlara görə də mən sizə təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından Türkiyə xalqına hörmət və ehtiramımı, sevgimi bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyəti bundan sonra da bütün Türk xalqlarına, Azərbaycan xalqına örnək olacaqdır.

Prezident Sarayında Respublikanın Kənd Təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə Heydər Əliyevin çıxışından:

5 noyabr 1994-cü il

...Özünüz bilirsiniz ki, son vaxtlar çox gərgin vəziyyət yaranmışdır... Mən oktyabrın 18-19-da İstanbulda - Türk Cumhuriyyətləri dövlət başçılarının görüşündə olarkən Türkiyəyə müraciət etdim...

Füzulinin 500 illiyi ilə əlaqədar Türkiyəyə getdim. Ancaq səfərim təkcə bu yubiley ilə əlaqədar deyildi, həm də iqtisadi əlaqələrimizin, başqa məsələlərimizin həll olunması ilə bağlı idi. Yubiley tədbirlərində iştirak etmək sadəcə olaraq bir vasitə idi. Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Baş nazir Tansu Çillər ilə, nazirlərlə danışıqlarımızda əsas məsələ bu idi ki, bizə buğda, un satsınlar... Türkiyə də 100 min ton taxıl verəcək.

"Müstəqilliyimiz əbədidir", 2-ci kitab, səh. 496.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka Zirvə toplantısına gedərkən Heydər Əliyevin İstanbulun Atatürk hava limanında jurnalistlərə müsahibəsindən:

12 dekabr 1994-cü il

Mən Mərakeşin Kasablanka şəhərinə gedirəm. Bildiyiniz kimi, orada İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı keçiriləcəkdir. İKT 25 ildir ki, fəaliyyət göstərir. Təşkilatın yubileyinə təsadüf edən bu toplantı çox faydalı olacaq, orada İslam aləmindən 52 dövlətin başçıları iştirak edəcəklər, onlardan biri də Azərbaycandır. Azərbaycan bu təşkilata müstəqillik qazanandan sonra daxil olmuşdur. İlk dəfədir ki, Azərbaycanın dövlət başçısı İKT-nin Zirvə toplantısında iştirak edir. Ona görə də mən bu toplantını Azərbaycan üçün çox əhəmiyyətli hesab edirəm.

ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt Zirvə toplantısında Avropada və dünyada təhlükəsizliyi təmin etmək üçün Avropanın gələcək teleyində mühüm rol oynayacaq məsələlər müzakirə olundu. Mən Budapeşt Zirvə toplantısında çox məmnunam. Orada Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması üçün bir qətnamə qəbul edildi. Bildiyimiz kimi, bu gün düz yeddi aydır ki, Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma əldə olunub. Həmin müddətdə atəşkəs davam edir. Doğrudur, atəşkəs bizim üçün faydalıdır. Ancaq bu, problemin həll olunması demək deyildir. Biz atəşkəsdən Böyük Sülh Sazişinin əldə olunması üçün istifadə etmək istəyirik. Sülh sazişinin əldə edilməsi üçün isə bizim bir sıra şərtlərimiz vardır: Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərindən çıxarılmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı tə`min olunmalı, bir milyondan çox azərbaycanlı qaçqın öz yerlərinə qaytarılmalıdır.

Budapeşt Zirvə toplantısı bizim üçün ona görə faydalıdır ki, orada ilk dəfə ATƏM çərçivəsində çoxmillətli sülhü mühafizə qüvvələrinin yaradılması barədə mühüm qətnamə qəbul edildi. Doğrudur, bu, heç də asanlıqla başa gəlmədi. Çünki Ermənistan Respublikası belə bir qətnamənin qəbul olunimasını istəmirdi. Bilirsiniz ki, Ermənistan münaqişə zonasına yalnız rus əsgərlərinin gəlməsini istəyir. Lakin biz çox çalışdıq, burada sizin qarşınızda bir daha deyə bilərəm ki, bu qətnamənin qəbul olunmasında Türkiyə Cümhuriyyəti rəhbərlərinin də çox böyük xidmətləri oldu: Biz çox ciddi əməkdaşlıq etdik, bərabər çalışdıq.

...Mən Budapeştdə Türkiyənin Baş naziri xanım Tansu Çillərlə və Türkiyənin digər yüksək vəzifəli şəxsləri ilə görüşdüm. Sonra xanım Tansu Çillərlə bərabər ABŞ Preziden-

ti Bill Klintonla görüşdük. Beləliklə, Budapeştdə bizim üçün çox mühüm olan bir qətnamə qəbul edildi. Hazırda bizim əsas işimiz bu qətnamənin həyata keçirilməsinia nail olmaqdır. İndi bizim bölgəyə artıq heç kəs tək bir ölkənin əsgərlərini gətirə bilməz. Qəbul olunmuş qətnaməyə əsasən bu bölgəyə çoxmillətli sülhməramlı qüvvələr gələcək. Siz yəqin ki, bütün bunları bilirsinizi. Türk mətubatı sözsüz ki, bu barədə geniş materiallar dərc edib, televiziya verilişlər verib. Belə hesab edirəm ki, bütün bunları mənim dilimdən eşitməyiniz də lazımdır.

...Bayaq dediyim kimi, mən indi Kasablankaya, İKT-nin Zirvə toplantısına gedirəm. Biz bütün dünyada sülhün, təhlükəsizliyin tə`min olunmasında İKT üzvü olan dövlətlərin rolunun artırılmasına tərəfdarıq. Bildiyimə görə, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl də bu Zirvə toplantısında iştirak edəcək. Biz orada da bir sıra işlər görəcəyik.

Sual: Çeçenistandakı vəziyyət Azərbaycan üçün təhlükə yaratmır ki?

Cavab: Mən sizə dedim ki, Budapeştdə Azərbaycana çoxmillətli sülhməramlı qüvvələrin gəlməsi barədə qətnamə qəbul olunmuşdur. İndi bir ölkənin silahlı qüvvələri Azərbaycana gələ bilməz. Ona görə də mən Azərbaycana hansısa tək bir ölkənin silahlı qüvvələrinin gəlməsindən heç də narahat deyiləm. İkincisi də ki, Azərbaycan müstəqil bir dövlətdir. Çeçenistan isə müstəqil dövlət deyil, Rusiyanın tərkibində olan bir respublikadır. Burada çox böyük fərq var. Digər tərəfdən, Çeçenistan hələlik dünyanın heç bir dövləti tərəfindən müstəqil dövlət kimi tanınmayıb. Rusiyada belə muxtar respublikalar çoxdur: Tatarıstan, Başqarıstan, Şimali Osetiya və digərləri. Bunlar hamısı Rusiyanın tərkibindədir.

13 dekabr 1994-cü il

İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka Zirvə toplantısında Prezident Heydər Əliyevin çıxışından:

13 dekabr 1994-cü il

...Bu mötəbər kürsüdən mən öz qardaşlarıma - Türkiyənin, İranın, Pakistanın, Səudiyyə Ərəbistanın və bir çox başqa ölkələrin, islam xeyriyyəçiliyi təşkilatının rəhbərlərinə təşəkkür edirəm. Onlar xalqımızın müsibətinə öz münasibətlərini dərhal bildirərək qaçqınları ən zəruri əşyalarla tə`min etmişlər və bu gün də bizə yardım göstərməkdədirlər.

Mən bizi dar ayaqda tək qoymayanların hamısına minnətdaram. Amma indi ölkəmizin sakinlərinin hər yeddi nəfərindən biri qaçqındır. Humanitar vəziyyət son dərəcə ağırdır, bizim yardıma çox böyük ehtiyacımız var və mən kömək üçün sizə müraciət edirəm.

Kasablankadan vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında Prezident Heydər Əliyevin mətbuat üçün bəyanatı

16 dekabr 1994-cü il

Mən Mərakeşin Kasablanka şəhərində İslam Konsransı Təşkilatının Zirvə toplantısından qayıdaraq Bakıya gedirəm. Təyyarəmiz birbaşa Bakıya gedə bilmədiyinə görə yolüstü İstanbula enmək məcburiyyətindəyik. Bildiyiniz kimi, mən oraya gedəndə də buradan, İstanbuldan keçmişdim.

Siz İslam Konfransı Təşkilatının Kasablankadakı işi ilə artıq tanışsınız. Sizə mə`lumdur ki, Kasablanka görüşü İTK-nin üzvü olan 52 ölkənin Yeddinci Zirvə toplantısıdır. Həm də İKT-nin yaranmasının 25-ci ildönümü ilə əlamətdar olan Kasablanka görüşü çox önəmli bir toplantı oldu. O, Azərbaycan üçün də çox faydalı oldu, böyük qərarlar qəbul etdi. Yüksək səviyyədə Kasablanka görüşü bu təşkilatın gələcəyi və daha da güclənməsi üçün, onun fəaliyyətinin, işinin daha da genişlənməsi üçün çox önəmli bir toplantıdır.

Orada bir çox məsələlər müzakirə edildi. Xüsusən də islam ölkələrinin birliyi, bərabərliyi, həmrə`yliyi əsas məsələlərdən biri idi. Bu barədə çox qərar qəbul olundu. Eyni zamanda islam ölkələrində və dünyada gedən münasibətlər, yə`ni dövlətlərarası və etnik millətlərarası münaqişələr haqqında çox danışıqlar aparıldı. Bu məsələlər barəsində bəyanatlar verildi, qərarlar qəbul edildi.

Bu toplantının Azərbaycan üçün önəmli cəhəti ondan ibarətdir ki, Azərbaycanın indiki durumu haqqında orada iki qərar çıxarıldı. Qərarın biri Ermənistanın Azərbaycana təcavüzü, Ermənistanın bu təcavüzünün 52 dövlət tərəfindən pislənməsi haqqındadır. Bu qərarda tələb olunur ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etmiş qoşunları ölkəmizdən, o cümlədən də Laçın və Şuşa rayonlarından qeyd-şərtsiz çıxmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. İkinci qərar da Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Altı ildən bəri müharibə şəraitində olan Azərbaycanın iqtisadi-siyasi böhran keçirdiyini, itqtisadiyyatının çox çətin bir dövr yaşadığını, ermənilərin işğal etdikləri bölgələrdən olan bir milyon nəfərdən artıq qaçqının çadır şəhərciklərində qaldığını nəzərə alaraq, bu Yeddinci Zirvə toplantısı qərar çıxardı ki, İKT Azərbaycana yardım göstərməlidir. Həm də bu yardımı təşkilata daxil olan hər bir ölkə etməlidir. Belə ki, Azərbaycan ağır vəziyyətdədir. Bu da Azərbaycan üçün çox önəmli bir qərardır, çünki indi bizim yardıma böyük ehtiyacımız var.

Bütün bu qərarların xülasəsi İslam Konfransı Təşkilatının Yekun sənədində yazılmışdır. Sənədin bəndlərindən birində Ermənistanın Azərbaycana təcavüzü barədə İTK-nin mövqeyi öz əksini tapmışdır. Deyə bilərəm ki, bu məsələlərdə İKT-nin bütün üzvləri həmrə`y oldular və buna görə də həmin qərarlar qəbul edildi.

Orada eyni zamanda Bosniya və Hersoqovina, Fələstin, Kəşmir, Əfqanıstan, ümumiyyətlə qırğınlar gedən, insanlar həlak olan, qan tökülən, xüsusən müsəlmanlar qırılan yerlərlə bağlı prob-lemlər haqqında ətraflı söhbətlər, geniş müzakirələr aparıldı və bu barədə də qərarlar çıxarıldı.

Türkiyə təmsilçiləri Azərbaycan haqqında çıxarılan bu qərarların hazırlanmasına və qəbul edilməsində çox önəmli işlər gördülər, bu məsələlərdə təşəbbüskar və yardımçı oldular. Mən bunu xüsusilə və məmnuniyyətlə qeyd edirəm. Kasablankada Türkiyənin hörmətli Prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəllə bizim ayrıca görüşümüz oldu. Bu görüşdə də biz Azərbaycanın durumu haqqında, dünya problemləri, islam dünaysının problemləri haqqında fikir mübadiləsi apardıq və həmfikir olduğumuzu bildirdik. Söhbətimiz çox yaxşı keçdi.

Mən İKT-nin bu Zirvə toplantısından evə çox məmnunluqla dönürəm. Çünki Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, ölkəmizin problemləri orada indiyədək geniş işıqlandırılmayıb, yə`ni tam aydın olmayıb. Ona görə də Azərbaycanın indi bu Zirvə toplantısında iştirak etməsi və öz sözünü deməsi, eyni zamanda Azərbaycan haqqında xüsusi qətnamə və qərarların qəbul olunması ölkəmiz üçün önəmlidir və Azərbaycanın indiki durumu, vəziyyəti barədə beynəlxalq ictimaiyyətə həm mə`lumat verir, həm də onun diqqətini ölkəmizə, Ermənistanın Azərbaycana təcavüzünə cəlb edir. Odur ki, mən çox məmnunam.

Mənim deyəcəyim bu qədər. Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

1995

Azərbaycan və Türkiyə arasında neft sahəsində əməkdaşlığa dair Sazişin imzalanması mərasimində Prezident Heydər Əliyevin çıxışı

"Gülüstan" Sarayı.
12 aprel 1995-ci il

Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri, bacımız xanım Tansu Çillər!

Türkiyə Cümhuriyyətinin nazirləri, hörmətli qonaqlar, xanımlar və cənablar!

Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillər bu gün Azərbaycana qısamüddətli işgüzar səfərə gəlibdir. Bu səfərin məqsədi həm qısa görüşlər keçirib danışıqlar aparmaq, həm də, xüsusən, Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə petrolları anonim ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün bir sazişin imzalanması ilə əlaqədardır. Mən sizin adınızdan və öz adımdan Türkiyə Cümhuriyyətinin Azərbaycana ilk dəfə gəlmiş Baş naziri, qardaş ölkənin tanınmış dövlət xadimi, respublikamızın hörmətli və əziz dostu, bacımız xanım Tansu Çillər səmimi qəlbdən salamlayıram və Azərbaycana gəlişi münasibətilə ona təşəkkürümü bildirirəm.

Məlumunuzdur ki, 1994-cü il sentyabrın 20-də burada, "Gülüstan" sarayında "Əsrin müqaviləsi" adlanan bir müqavilə imzalanmışdır. Həmin müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dünyanın böyük şirkətləri ilə müştərək istifadə olunması ilə əlaqədardır. Bu müqavilədə Türkiyənin şirkəti də iştirak edir. O vaxt həmin sənəd imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. Yəni Türkiyə bu müqavilədə əvvəldən var. Sonradan isə Azərbaycan Respublikasının öhdəsində qalmış 20 faiz haqqında fikirləşdik. Türkiyənin bu barada bizə müraciəti olmuşdur. Türkiyə prezidenti, əziz dostumuz və

qardaşımız hörmətli Süleyman Dəmirəl mənə məktub göndərmiş və xüsusi müraciət etmişdi. Baş nazir, hörmətli xanım Tansu Çillərin də mənə bu barədə müraciəti olmuşdur. Bunları və Turkiyə ilə Azərbaycan arasında dostluq, onların daha da inkişaf etdirilməsini istəyərək, respublikamız həmin müqavilədə öz payından 5 faizini əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir. Artıq bu barədə danışıqlar aparılıb, müəyyən sənədlər hazırlanıb və bu gün bura həmin sənədlərin imzalanması üçün toplaşmışıq. İndi mən istərdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və "Türkiyə petrolları" şirkətinin prezidenti Sidqi Səncər bu sənədləri imzalasınlar.

Hörmətli Baş nazir xanım Tansu Çillər!

Hörmətli nazirlər, qonaqlar, xanımlar və cənablar!

Bu gün burada - Bakının "Gülüstan" sarayında yeni, həm də tam cəsarətlə deyə bilərəm ki, tarixi bir hadisə baş verir. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənməsi haqqında imzalanmış müqavilə daha da genişlənir, onun dairəsi böyüyür. Dost və qardaş Türkiyənin neft şirkətləri, bütün Türkiyə Cümhuriyyəti bizim bu böyük işimizə, 30 il müddətinə bağlanmış müqaviləmizə qoşulur. Bu məsələ indi imzalanmış sazişlərlə həll olundu. Mən sizin hamınızı, xüsusən də Türkiyədən gəlmiş qonaqlarımızı, baş nazir xanım Tansu Çilləri bu hadisə münasibətilə təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsi üçün böyük bir addım olacaqdır.

Dostluq və qardaşlıq əlaqələrimizin çoxəsrlik tarixi vardır. Bizim köklərimiz, adət-ənənələrimiz, tarixi keçmişimiz birdir. Bunların hamısı keçmiş zamanlarda da bizi bərabər yaşamağa, torpaqlarımızı qorumağa gətirib çıxarmışdır. Son illərdə bu, öz yeni bəhrələrini verir. Doğrudan da, əsrlər boyu bir yerdə, bir kökdən olmuş xalqımız, xanım Tansu Çillərin ifadə ilə desək, bir ananın uşaqları 70 ildən sonra bir də qovuşub, əl-ələ verib birlikdə irəliyə gedirlər. Ayrılıq bizi nə qədər incitmiş, əziyyətlər vermiş, çətinliklər yaratmaq olsa da bizi tamamilə bir-birimizdən ayıra bilməmişdir. Bütün tarixi əlaqələrimiz qısa müddət ərzində bərpa olunmuş, dostluğumuz, qardaşlığımız göz qabağında, bütün dünyada nümayiş etdirilmiş və etdirilir.

Bu gün bir daha deyə bilərəm ki, Azərbaycan üçün Türkiyə ən yaxın dost, qardaş ölkədir. Eyni kökdən olmağımız, eyni dinə və mədəniyyətə mənsubluğumuz bizim bu günümüz və gələcəyimiz üçün böyük əsas və təməldir. Ötən il və bu il biz bütün Şərqin, bütün türk xalqlarının böyük şairi Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Təsadüfi deyildir ki, bu yubiley həm Azərbaycanda, həm Türkiyədə, həm də digər türkdilli ölkələrdə təntənəli şəkildə keçirilir. Bu faktın özü onu göstərir ki, 500 il əvvəl də bir yerdə olmuşuq. Füzuli kimi böyük şairimiz var. O, böyük mədəni irs qoyub gedib. Həmin mədəni irsdən bugünkü nəsillər həm Türkiyədə, həm də Azərbaycanda istifadə edərək mədəniyyətimizi, elmimizi, bütün həyatımızı inkişafı etdirməyə çalışırlar.

Azərbaycan müstəqil dövlət kimi gənc bir ölkədir. Üç ildən bir az artıqdır ki, biz müstəqil dövlət kimi yaşayırıq. Ancaq bu gün böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, respublikamız müstəqillik uğrunda çalışarkən Türkiyə həmişə onu dəstəkləmiş, bizə dayaq olmuş və Azərbaycan öz müstəqilliyini elan edən kimi dünya ölkələri içərisində Türkiyə birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış, bununla da respublikamızın dünya dövlətləri tərəfindən tanınmasına yol açmışdır.

Hörmətli xanım Tansu Çillər tamamilə doğru buyurdu ki, Azərbaycanın hələ bir çox ölkələrdə səfirlikləri, nümayəndəlikləri olmadığına görə biz Türkiyə nümayəndələrinin və səfirlərinin xidmətlərindən istifadə edirik. Mən minnətdarlıq hissi ilə deyə bilərəm ki, hər yerdə və həmişə Türkiyə Cümhuriyyətinin nümayəndələri, elçiləri, səfirləri Azərbaycan respublikamıza aid bütün məsələlərin həll olunmasında Türkiyə çox prinsipial mövqe tutur, bizi dəstəkləyir və bizə kömək edir.

Azərbaycan yeddi ildən artıq bir müddətdir ki, Ermənistanın təcavüzünə məruz qalmışdır. Ermənistan torpaqlarımızı işğal etmək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək üçün respublikamıza hərbi təcavüz etmişdir. Ermənistan silahlı qüvvələri bəzi səbəblərdən Azərbaycan torpağının bir qismini işğal edə bilibdir. Hazırda respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan bir milyondan çox vətəndaşımız qaçqın düşübdür. Həmin illərdə Azərbaycanın öz haqq səsini dünyaya yayamaq, Ermənistanın hərbi təcavüzünü dünyanın bütün ölkələrinə, xalqlarına, beynəlxalq təşkilatlara çatdırmaq üçün çox böyük köməyə, yardıma ehtiyacı olmuşdur. Bu məsələlərdə də və ümumiyyətlə, Azərbaycana Ermənistanın təcavüzü barədə Türkiyə həmişə çox prinsipial, çox ardıcıl mövqe tutub, respublikamızı həmişə dəstəkləyib, Ermənistanın təcavüzünü daim pisləyib, Ermənistana bir təcavüzkar ölkə kimi öz münasibətini bildirib.

Bunların hamısı təbiidir, ona görə ki, biz, bir daha deyirəm, yaxın dost, qardaş ölkələrik, keçmiş və bugünkü əlaqələrimiz bizi bu cür münasibətlərlə yaşamağa də`vət edir. Türkiyədə də yaxşı bilirlər ki, Azərbaycanda bu ölkəyə və xalqına böyük və ehtiram var. Bizim bu münasibətlərimiz gündən-günə artır, iqtisadi, təhsil, elmi, mədəni və digər sahələr-

də olan əlaqələrimiz daim inkişaf edir. Bu həm Azərbaycan xalqının, həm də Türkiyə xalqının bu günü və gələcəyi üçün çox gərəklidir.

Bu gün biz bu sazişi imzaladıq. Güman edirəm ki, burada Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir. Güman edirəm ki, bu da indi imzaladığımız sazişin əsasını təşkil edir.

Bu saziş əsasında 30 il müddətində Xəzər dənizində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından neft çıxarılacaq, ixrac və istifadə olunacaq və Azərbaycanın iqtisadiyyatı üçün çox fayda gətirəcəkdir. Şübhəsiz ki, bu neftin ixrac olunması məsələsi də var. Bu barədə də müəyyən danışıqlar aparırıq. Bizim fikrimiz belədir ki, neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üstün və bizim üçün hər şeydən əlverişli ola bilərdi. Biz bu sahədə də öz fikrimizi demişik və bundan sonra da deyəcəyik.

Beləliklə, ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin gələcək inkişafı üçün bir addım atılıbdır. Bu münasibətlə sizin hamınızı bir daha təbrik edirəm.

Hörmətli Tansu xanım, sizi təbrik edirəm və Azərbaycan xalqına göstərdiyiniz hörmət və ehtirama, köməyə və səmimi münasibətinizə görə sizə öz təşəkkürümü bildirirəm. Əmin ola bilərsiniz ki, Türkiyənin Baş naziri, böyük bir alim, ictimai-siyasi xadim kimi sizi Azərbaycanda çox sevirlər və sizin respublikamıza gəlişinizdən çox məmnundurlar. Güman edirəm ki, siz Azərbaycanda daim böyük hörmət və ehtirama layiq olacaqsınız.

Bu səfəriniz çox qısamüddətlidir. Mən sizi Azərbaycana rəsmi dəvət etmişəm və səbirsizliklə sizin respublikamıza böyük rəsmi səfərinizi gözləyəcəyik. Bir daha sizi təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Türkiyə xalqına öz hörmət və ehtiramımı bildirirəm. Buradan, Xəzər dənizinin sahilindən, "Gülüstan" sarayından Ankaraya, İstanbula və bütün Türkiyəyə Azərbaycan xalqının salamlarını çatdırıram.

Türkiyənin iş adamları ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

"Gülüstan" Sarayı
12 aprel 1995-ci il

Hörmətli Baş nazir xanım Tansu Çillər! Türkiyənin iş adamlarını özünüzlə birlikdə Bakıya gətirməyinizə görə sizə təşəkkür edirəm. Çünki bizim böyük ehtiyacımız var. Demək olar ki, 1990-cı ildən, bəlkə də ondan da bir az öncə Azərbaycanla

Türkiyə arasında işgüzar əlaqələr qurulmasına, ayrı-ayrı iş adamlarının burada fəaliyyət göstərməsinə baxmayaraq, mən etiraf etmək istəyirəm ki, bu sahədə iş çox zəif gedir. Bu həqiqətdir.

Türkdilli dövlətlərdən Türkiyə və Azərbaycan bir-birinə daha yaxındır. Ancaq Türkiyənin iş adamlarının Azərbaycan iqtisadiyyatına qoyduğu sərmayə - mən bunu açıq demək istəyirəm - digər türkdilli dövlətlərin iqtisadiyyatına qoyulan sərmayədən çox azdır. Azərbaycana çoxlu iş adamları gəlib-gedir. Amma çox güclü iş görülmür. Buna da açıq demək lazımdır. Ola bilsin ki, bunun günahı bizdədir. Mənə bəzi iş adamları deyirlər ki, guya burada gömrük qanunları və bəzi başqa qanunlar Azərbaycanda iş görməyə şərait yaratmır. Mən bir dəfə Ankarada, İstanbulda olanda iş adamları bu barədə mənə deyiblər.

Ola bilsin ki, bizim belə qüsurlarımız var. Biz çalışırıq ki, bu qüsurları aradan götürək. Bilin ki, biz gənc dövlətik. Keçmişdə bizim nə müstəqil gömrüyümüz, nə də bazar şəraitinə uyğun başqa bir iqtisadiyyatımız olubdur. Biz keçmiş sosialist iqtisadiyyatı şəraitində yaşamış adamlarıq. Bu qanunları dəyişdirmək və digər işləri görmək üçün siz gərək kömək edəsiniz. Yəni siz deməlisiniz ki, bu qanun düzgün deyil, onu dəyişdirmək lazımdır və yaxud da nəyi isə əlavə etmək lazımdır ki, Azərbaycana investisiya gəlsin. Məsələn, mən Aşqabatda olarkən mənim dostum, Türkmənistan Prezidenti Saparmurad Niyazov dedi ki, Türkiyənin iş adamları onun ölkəsinə külli miqdarda sərmayə qoyublar. Mən, əlbəttə sevindim, çünki Türkmənistan bizə qardaş olan ölkədir. Amma içimdə dedim ki, bəs niyə Azərbaycana bu qədər sərmayə qoymurlar?

Ola bilsin ki, Azərbaycan müharibə şəraitində olduğuna görə bə`zi adamlar respublikamızda iş görməyə ehtiyat edirlər. Belə hesab ediblər ki, indi müharibədir, kim bilir, sabah nə olacaq, əgər bura sərmayə qoysan nə olar? Bəzən də iş adamları Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabit olmadığına görə - mənə belə gəlir ki, təkcə Türkiyənin yox, digər ölkələrin də iş adamları - bura gəlib sərmayə qoymaqdan çəkinirlər. Ancaq hörmətli bacımız Tansu Çillərin yanında sizə demək istəyirəm ki, arxayın olun. Birincisi, biz çalışacağıq ki, Türkiyənin köməyi ilə, dünyanın mütərəqqi ölkələrinin, beynəlxalq təşkilatlarının köməyi ilə, əlbəttə, ilk növbədə də öz işimiz və fəaliyyətimizlə müharibə vəziyyətindən çıxaq. Biz atəşkəsi davam etdirəcəyik və sülh yaranmasına çalışacağıq. Siz bu məsələdən narahat olmayın. O ki qaldı respublikamızın daxilində ictimai-siyasi vəziyyətin sabitliyinə, doğrudan, bu məsələdə də müəyyən əsas var. Çünki il ərzində burada üç dəfə dövlət çevrilişi cəhdi olubdur. Ona görə də bu barədə Azərbaycan dünyada rekord vura bilər. Ancaq si-

zə demək istəyirəm ki, artıq bunlara da son qoyulub, arxayın olun.

Bir dəfə 1993-cü ildə çevriliş etdilər, Xalq Cəbhəsini hakimiyyətdən yıxdılar. O vaxt məni də`vət etdilər və mən gəlib vətəndaş müharibəsinin, qardaş qanı axıdılmasının qarşısını aldım. Sonra ötən ilin oktyabrında mənim əleyhimə dövlət çevrilişinə cəhd etdilər. Xalqa müraciətimlə bir gecədə Bakının bir milyondan çox sakini mənim ətrafıma toplaşdı. Bunun qarşısında heç bir top, heç bir tank dura bilmədi. Bir dəfə də dövlət çevrilişinə cəhd etdilər. Siz bilirsiniz ki, mən çox çalışdım, - bu barədə mətbuatda da yazılıbdır, - mən televiziya və radio vasitəsilə müraciət etdim, xahiş etdim, adamları qəbul etdim, fərman verdim, o cinayətkarları əhv etdim. Ancaq onlar buna baxmadılar, onların başları çox qızmışdı və bizim əsgərlərin üzərinə hücum etdilər. Əsgərlər də atəş açıb bu məsələni qurtardılar. Dövlət çevrilişinə cəhd etmək istəyənləri vurub dağıtdılar. Onlara da, dünyaya da göstərdik ki, müstəqil Azərbaycan dövlətinin özünü qorumaq üçün, xalqını qorumaq üçün gücü var və buna qadirdir. Siz buna arxayın ola bilərsiniz. Azərbaycanda bir daha dövlət çevrilişi olmayacaqdır. Siz buna əmin ola bilərsiniz.

Azərbaycan demokratiya yolu ilə, sərbəst bazar iqtisadiyyatı yolu ilə gedir. Biz indi özəlləşdirmə proqramı hazırlamışıq. Özəlləşdirməni həyata keçirəcəyik, torpaq islahatı aparırıq, kolxoz və sovxozları ləğv edirik, özəl bölməyə geniş imkanlar veririk. Yəni Azərbaycan keçmiş sosialist iqtisadiyyatından, sosialist quruluşundan, kommunist ideologiyasından tamamilə əl çəkibdir. Buna arxayın olun. Nə qədər ki, Azərbaycanda Heydər Əliyev var, Azərbaycanın müstəqilliyi də var. Amma arxayın olun, Heydər Əliyev da çox olacaqdır.

Ona görə də hörmətli Baş nazir, bacımız Tansu Çillərin sözlərini, sizə göstərişlərini çox məmnuniyyətlə qarşılayıram. Həqiqətən, bizdə böyük sənaye potensialı var. Respublikamızın böyük müəssisələri var. Bizim başqa imkanlarımız da var. Məsələn, neft sahəsində bu, bizim birinci müqaviləmizdir. Bizim bir neçə yatağımız da var. Onların işlənməsinə başlayacağıq. Həmin yataqlardan neftin çıxarılması, qaz yataqlarının işlənməsi, bunların əsasında kimya sənayesində istehsalın genişləndirilməsi, başqa məhsullar istehsalının artırılması nəzərdə tutulur. Yəni Azərbaycanın təbii sərvətləri də, sənaye potensialı da böyükdür. Respublikamız geniş işçi qüvvəsi imkanlarına malikdir.

Eyni zamanda bizim mühəndislərimiz, texniklərimiz də çoxdur. Sadəcə olaraq gəlib bizimlə birgə işləmək lazımdır. Hörmətli Baş nazirin dediyi kimi, bir ay ərzində - mən göstəriş verirəm bizim Baş nazirin vəzifəsini icra edən Fuad Quliyevə və başqa rəhbər şəxslərə - birgə işləmək

üçün danışıqlar aparaq və kim bizimlə birgə işləmək istəyirsə, buyursun gəlsin. Əgər bu birgə iş şərtlərini yüngülləşdirmək lazımdırsa, biz bunu da edə bilərik. Yəni biz çalışacağıq ki, Azərbaycana sərmayə gəlsin. Onun Azərbaycana gəlməsinə nə mane olursa, onu aradan qaldırmağa hazırıq. Mən sizi Azərbaycana də`vət edirəm.

Görkəmli türk alimi İhsan Doğramaçının 80 illik yubileyinə həsr olunmuş təntənəli gecədə Prezident Heydər Əliyevin çıxışı

Azərbaycan Dövlət Opera və Balet Teatrı. 25 aprel 1995-ci il

Əziz dostumuz, qardaşımız İhsan Doğramaçı!

80 illik yubileyiniz münasibətilə sizi Azərbaycan xalqı, dövləti, bütün vətəndaşlarımız adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm, sizə cansağlığı, uzun ömür, gələcək fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

Sizin 80 illik yubileyiniz Türkiyədə təntənə ilə başlayıb, Ankarada böyük mərasimlər keçirilib. Ancaq dəfələrlə dediyimiz kimi - və bizim də fikrimiz eynidir - sizin vətəniniz eyni zamanda Azərbaycandır. Ona görə də bu yubiley təntənələri bir aydır ki, davam edir və yeni mərhələ Azərbaycandır, Bakıdır.

Yubileyiniz Ankarada təntənə ilə qeyd olunanda mən sizə müraciət etdim. Sizi Azərbaycana, Bakıya təşrif gətirməyə dəvət etdim ki, 80 illik yubileyinizi ölkəmizdə də qeyd edək. Bu gün sizə təşəkkür edirəm ki, mənim də`vətimi qəbul etmisiniz, Azərbaycana, öz vətəninizə, öz torpağınıza gəlmisiniz. Azərbaycan xalqı, sizin həmvətənləriniz, soydaşlarınız sizi görür, sizinlə görüşür, sizə öz ürək sözlərini deyir və Azərbaycanın qədim, çox əzəmətli, eyni zamanda çox hörmətli mədəniyyət ocağı olan Opera və Balet Teatrında sizin yubileyinizi qeyd edir.

Siz böyük həyat yolu keçmisiniz, həyatınız yaradıcılıq, quruculuq yoludur.

Sizin həyatınız nədir bir şəxsiyyətin həyat yoludur. Fitri istedadınızla, eyni zamanda böyük fədakarlığınızla, zəkanızla, ağlınızla siz bu həyat yolunu şərəflə, müvəffəqiyyətlə keçmisiniz, böyük işlər qoymusunuz, böyük əsərlər yaratmısınız. Siz xalqınıza, vətəninizə, torpağınıza böyük xidmətlər göstərmisiniz. Məhz buna görədir ki, həm öz vətəninizdə, həm də vətəninizin hüdudlarından kənarda - bütün dünyada, dünyanın ən böyük ölkələrində hörmət, ehtiram qazanmısınız. İndi siz 80 illik həyat yolunu yekunlaşdırarkən nə qədər böyük işlər gördüyünüz həm özünüz tərəfindən, həm də tanıyanlar tərəfindən böyük məmnuniyyətlə qəbul olunur.

Sizin həyat və yaradıcılığınız haqqında burada danışdılar. Bunu genişləndirmək də, ona əlavələr də

etmək olar. Ancaq güman edirəm ki, indi buna ehtiyac yoxdur. Çünki, yenə də deyirəm, sizin gördüyünüz işlər, xidmətləriniz əsrlər boyu unudulmayacaqdır. Sizin həyatda qoyduğunuz işlər daim yaşayacaqdır. Elmdə, mədəniyyətdə, səhiyyədə, ictimai-siyasi fəaliyyətdə siz ən yüksək zirvələrə qalxmısınız. Bütün bunlar sizin üçün böyük şəxsi nailiyyətdir. Bütün bunlar Türk xalqı, Türkiyə üçün, Azərbaycan xalqı, respublikamız, dövlətimiz üçün və bütün türkdilli xalqlar üçün böyük iftixar mənbəyidir. Biz sizin bu həyat yolunuzla, yaradıcılığınızla, gördüyünüz işlərlə fəxr edirik. Fəxr edirk ki, bizim belə böyük həmvətənimiz var. Fəxr edirik ki, belə bir insan türk millətinə mənsubdur. Fəxr edirik ki,belə bir insan Azərbaycana mənsubdur. Fəxr edirik ki, belə bir insan bizim doğma Azərbaycan torpağına mənsubdur.

Bütün həyat yolunuza görə, böyük fəaliyyətinizə görə mən sizə Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti adından təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da dünya xalqları üçün, dünyada sülh və əminamanlıq, tərəqqi üçün, eyni zamanda Türkiyə Cümhuriyyəti üçün, Azərbaycan Respublikası üçün, türkdilli bütün xalqlar üçün böyük işlər görəcəksiniz. Mən buna tam əminəm.

Bu gün sizin yubileyinizi qeyd edərkən mən bir xüsusiyyətə toxunmaq istəyirəm. Sizi hər yerdə - Türkiyədə də, Avropada da, Amerikada da sevirlər. Sizi fədakar əməyinizə görə, ağlınıza, zəkanıza görə sevirlər. Sizi dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinizə görə, onu zənginləşdirdiyinizə görə sevirlər. Sizi həm də böyük insan olduğunuza görə, geniş qəlbinizə görə sevirlər. Azərbaycanda isə sizi hədsiz dərəcədə sevirlər. Yəqin ki, bu günlər özünüz bunun şahidi oldunuz.

Azərbaycan xalqı sizi bax, belə sevgi ilə, belə məhəbbətlə, hörmətlə qarşılayır, sizi qucaqlayıb öpür, sizi gözünün üstündə qəbul edir. Bu hörmətlə, sevgi ilə. Bu məhəbbətlə mən sizi bir daha təbrik edirəm. Sizə uzun illər ömür arzulayıram və əminəm ki, siz bundan sonra da, böyük işlər görəcəksiniz.

Mənim əziz dostum, qardaşım, yüz yaşa çatasan, yüz ildən də o tərəfə keçəsən. Əminəm ki, bu olacaqdır. Bir də təbrik edirəm, cansağlığı, xoşbəxtlik arzulayıram...

Azərbaycanda incəsənət xadimləri, mədəniyyət işçiləri çox fəaldırlar. Siz onların bir hissəsini Bilkəndə öz yanınıza aparmısınız, onlar orada çalışırlar, sizinlə bərabər işləyirlər. Bu, yaxşı bir haldır. Bizim bir rəssamımız sizin rəsminizi çəkib. Güman edirəm ki, bu dəyərli bir rəsdir. Yubiley münasibətilə mən onu sizə təqdim edirəm.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərin Azərbaycana rəsmi səfəri ilə əlaqədar Binə hava limanında Prezident Heydər Əliyevin bəyanatı

10 iyul 1995-ci il

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri, hörmətli və əziz bacımız, dostumuz Tansu Çillər Azərbaycana, Bakıya gəlibdir. Bu, xanım Tansu Çillərin Baş nazir kimi Azərbaycana rəsmi səfəridir. Çox məmnunam ki, Türkiyənin Baş naziri mənim dəvətimi qəbul edib və Azərbaycana rəsmi səfərə gəlibdir.

Hörmətli Baş nazir, bizim əziz bacımız, xanım Tansu Çillər, Azərbaycana xoş gəlmisiniz!

Öz evinizə, öz məmləkətinizə, öz torpağınıza xoş gəlmisiniz!

Azərbaycan xalqı və respublika ictimaiyyəti sizin bu səfərinizi çox böyük həsrətlə gözləyirdi və şükürlər olsun ki, artıq siz Azərbaycan torpağına ayaq basmısınız. Sizi burada çox maraqlı görüşlər gözləyir. İctimaiyyətimiz sizi böyük həvəslə, maraqla gözləyir. Ümidvaram ki, sizin burada olduğunuz günlər Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün yeni bir mərhələ olacaqdır.

Mən sizi Azərbaycan torpağında bir daha səmimi-qəlbdən salamlayıram. Sizə deyirəm ki, xoş gəlmisiniz, əziz dostumuz, əziz qonağımız! Sizinlə birlikdə Türkiyə Cümhuriyyətindən gələn qonaqların hamısını salamlayıram və hamıya xoş gəlmisiniz deyirəm.

Siz bizim əziz qonağımızsınız və biz sizi böyük, yüksək, əziz qonaq kimi də qəbul edirik. Sağ olun.

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərin şərəfinə rəsmi ziyafətdə Prezident Heydər Əliyevin nitqi

"Gülüstan" Sarayı
10 iyul 1995-ci il

Hörmətli Baş nazir, əziz bacımız xanım Tansu Çillər!

Türkiyə Cümhuriyyətindən

gəlmiş hörmətlm qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri, əziz bacımız Tansu Çillər Azərbaycana rəsmi səfərə gəlib. Gələn dəqiqədən biz işə başlamışıq və buraya, "Gülüstan" sarayına hörmətli Tansu Çillərin və onu müşayiət edən türkdilli qonaqlarımızın şərəfinə ziyafət məclisinə toplaşmışıq. Bu, Azərbaycanın həyatında əlamətdar hadisədir.

Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı ilə Azərbaycan Respublikası, Azərbaycan xalqını bağlayan qırılmaz tellər var. Bizim bu dostluq, qardaşlıq əlaqələrimizin qədim tarixi var. Ulu babalarımız, keçmiş nəsillər əsrlərdən əsrlərə bu dostluğu yaradıblar, qoruyublar saxlayıblar və bugünkü günə gətirib çıxarıblar. Bir kökdən olan xalqımızın öz tarixi dostluğuna, ənənələrinə həmişə sadiq olmuş və bu ənənələr xalqımızın dilini, dinini, mənəviyyatını yaşatmışdır. Məhz bunlara görə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan dostluq əlaqələri xüsusi xarakter daşıyır. Məhz buna görə də Azərbaycanın hər bir guşəsində Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına xüsusi hörmət və məhəbbət hissləri yaşayır. Biz bu gün Türkiyədən gələn əziz bacımız, qonaqlarımızı bu hisslərlə qarşılamışıq, bu hisslərlə də bu saraya toplaşmışıq.

Türkiyənin böyük tarixi var. Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin 75 illik yubileyini keçirdi. Son 75 ildə Türkiyə xalqı hürriyyət, azadlıq içində demokratiya şəraitində yaşayır, dünyəvi, sivilizasiyalı dövlət kimi dünya birliyinə daxil olmuşdur. Dünya birliyində Türkiyə Cümhuriyyətinin layiqli yeri var. Demokratiya tarixi, 75 illik azadlıq, hürriyyət tarixi, 75 illik insan haqlarına 75 illik hörmət və ehtiram dövrü, 75 illik inkişaf dövrü Türkiyə Cümhuriyyətini dünya birliyində layiqli dövlətlər arasına çıxarmışdır. Dost ölkə, dost xalq kimi biz Türkiyə Cümhuriyyətinin bu nailiyyətlərinə sevinirik və ornu ürəkdən alqışlayırıq.

Türkiyə xalqı keçdiyi bütün mərhələlərdə qəhrəmanlıq, rəşadət nümunələri göstəribdir, özünün mənliyini, dilini, tarixi ən`ənələrini qoruyubdur. Böyük məmnuniyyət hissi ilə qeyd etmək olar ki, Türkiyə Cümhuriyyəti, onun dövləti, hökuməti bu gün də həmin ən`ənələrin keşiyində durub, bunları inkişaf etdirir. Türkiyə bütün sahələrdə inkişaf etmiş dövlətlər sırasındadır. Bu bizi sevindirir və bizdən ötrü böyük örnəkdir.

Son illər Türkiyənin həyatında mürəkkəb proseslər gedir, mürəkkəb hadisələr baş veribdir. Türkiyə cəmiyyəti, Türkiyə dövləti, hökuməti, Türk xalqı bunların öhdəsindən gəlmişdir. Ona görə ki, türk xalqı azadlıq, hürriyyət içində, demokratiya şəraitində yaşayır. Məhz demokratik prinsiplər əsasında yaşayan dünyəvi, sivilizasiyalı dövlət bütün bu çətinliklərin öhdəsindən gələ bilir.

Bunların hamısında Türkiyənin dövlət başçılarının, Türkiyə hökumətinin, xüsusən Baş nazir, hörmətli xanım Tansu Çillərin böyük rolu var. Biz bu gün Türkiyənin baş nazirini dost, qardaş ölkənin hökumət başçısı kimi qarşılayırıq. Eyni zamanda, onu Turkiyənin həyatında böyük bir yol keçmiş, böyük rol iqtisadçı kmi qarşılayırıq. Məhz bunlara görə də Tansu Çillər Türkiyə hökumətinə çox ləyaqətlə başçılıq edir və qarşıda duran bütün problemlərin müvəffəqiyyətlə həllinə nail olur.

Türkiyə və Azərbaycan arasındakı əlaqələr son dövrdə daha yüksək səviyyəyə qalxmışdır. Bu gün dərin minnətdarlıq hissi ilə qeyd edə bilərik ki, tarixin bütün mərhələlərində Türkiyə Azərbaycana böyük diqqət göstərib, kömək ediblər. 1918-ci ildə Azərbaycanda ilk demokratik hökumət yarananda onu birinci tanıyan Türkiyə olmuşdur. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndə də dünya dövlətləri içərisində ilk dəfə olaraq Türkiyə Azərbaycanın müstəqilliyini tanımış, ona böyük dəstək vermiş, kömək etmiş, Azərbaycanın dünya miqyasında tanınması üçün öz xidmətlərini göstərmişdir.

1988-ci ildən başlayaraq Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. O zaman Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində idi. Şübhəsiz ki, Türkiyə böyük bir dövlətin işinə müdaxilə edə bilməzdi. Buna baxmayaraq, Türkyənin ictimaiyyəti, vətəndaşları, siyasi xadimləri Azərbaycanın bu vəziyyətinə biganə qalmamışlar, onun müdafiəsi üçün öz səslərini dünya miqyasında ucaltmışlar, Azərbaycana mənəvi yardım göstərmişlər.

Azərbaycan müstəqillik əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşdur və bunlar dostluq, qardaşlıq prinsiplərinə, bizim tarixi köklərimizə əsaslanır. Müstəqilik yolu ilə getdiyi bir dövrdə bu əlaqələr Azərbaycan xalqına çox kömək edir və bizim üçün çox əhəmiyyətlidir.

Azərbaycanın problemləri çoxdur, ölkəmiz ağır iqtisadi, sosial böhran içindədir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizi işğal olunubdur. Oradan qovulmuş vətəndaşlar qaçqın vəziyyətində, ağır şəraitdə yaşayırlar. Azərbaycan bu vəziyyətdən sülh yolu ilə çıxmaq istəyir. Atəşkəs haqqında saziş əldə olunmuşdur. On üç aydan çoxdur ki, biz bu sazişə riayət edirik. Yaranmış vəziyyətdən sülh yolu ilə, beynəlxalq təşkilatların vasitəçiliyi ilə çıxmaq istəyirik. Bütün bu dövrdə Türkiyə Cümhuriyyəti, onun dövləti, hökuməti bizim yanımızda olub, bizə əlindən gələn yardımı edib, mə`nəvi dayaq olubdur. Qaçqınlarımıza edilən yardımlar da əvəzsizdir. Ancaq ən ümdəsi, ən yüksək qiymətə layiq

olan Türkiyənin beynəlxalq aləmdə Azərbaycanı bir müstəqil dövlət kimi müdafiə etməsi, Ermənistan - Azərbaycan münaqişəsi haqqında beynəlxalq təşkilatların ədalətli qərarlar çıxarması sahəsində fəaliyyət göstərmişdir. Azərbaycan ictimaiyyəti bütün bunları yüksək qiymətləndirir.

Təkcə bunlar yox, ümumiyyətlə Türkiyə və Azərbaycan arasında olan tarixi əlaqələr, bügünkü əlaqələr, bizim qardaşlıq münasibətlərimiz Azərbaycanda Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, bu ölkənin hər bir vətəndaşına böyük hörmət və ehtiram hissi oyadıblar. Bu hissləri biz bu gün Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillərə bildiririk. Hörmətli bacımız, əziz bacımız! Sizin bütün fəaliyyətinizi yüksək qiymətləndiririk və sizin rəsmi səfərinizi böyük hadisə hesab edirik, Azərbaycana olan diqqətinizə və qardaşlıq münasibətinizə görə sizə təşəkkür edirik.

Prezident Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərlə birgə mətbuat konfransı

Prezident Sarayı
11 iyul 1995-ci il

Hörmətli xanımlar və cənablar!

Türkiyənin Baş naziri, hörmətli Tansu Çillər Azərbaycana rəsmi səfərə gəlib. İki gündür ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında çox səmərəli, məzmunlu, əhəmiyyətli danışıqlar gedir. Biz Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillərin Azərbaycana gəlməsini əlamətdar hadisə hesab edirik və dünən, bu gün apardığımız danışıqlar, görüşlər Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün böyük bir mərhələdir.

Biz Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişlənməsi, inkişaf etməsi ilə bağlı bir çox məsələlər dairəsində fikir mübadiləsi apardıq. Eyni zamanda Türkiyənin, Azərbaycanın dünya miqyasında siyasəti, o cümlədən xüsusən Azərbaycan üçün ən ağır problem olan Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan ilə Ermənistan arasında olan münaqişə haqqında da çox geniş fikir mübadiləsi apardıq və eyni fikirdə olduğumuzu bildirdik. Fikir ondan ibarətdir ki, Ermənistan Azərbaycana hərbi təcavüz edibdir. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, işğal edilmiş ərazimizdən bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşüb və onlar ağır vəziyyətdə yaşayırlar.

13 aydır ki, atəşkəs rejimi əldə olunub və davam edir. Bu müddətdə biz çalışmışıq və indən sonra da çalışırıq ki, bu problem sülh yolu ilə həll olunsun. Münaqişənin sülh yolu ilə həlli üçün də yeni, əlavə tədbirlər görülməlidir. Beynəlxalq təşkilatlar,

dünyanın nüfuzlu ölkələri - dünya siyasətində mühüm rol oynayan ölkələr, o cümlədən Türkiyə Cümhuriyyəti yeni-yeni tədbirlər görməlidir ki, bu məsələlər sülh yolu ilə həll olunsun. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır. Lakin bu danışıqlar hələlik istənilən nəticəni vermir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxması şərti ilə biz Böyük Sülh Müqaviləsi bağlamaq istəyirik. Biz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarının hamısından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxması, ölkəmizin ərazi bütövlüyünün tə`min olunması şərtini irəli sürürük. Biz bu məsələlər barəsində hörmətli Baş nazir xanım Tansu Çillərlə geniş fikir mübadiləsi apardıq. Mən bu fikir mübadiləsindən çox razıyam. Türkiyə Cümhuriyyəti bu məsələlər barəsində Azərbaycanın haqq və ədalət naminə apardığı işi indiyədək müdafiə etmişdir, hesab edirəm ki, ölkəmizin mövqeyini bundan sonra da dəstəkləyəcəkdir. Mən danışıqlardan bu nəticəni çıxardım.

Bu gün hörmətli Baş nazir Tansu Çillərlə biz Ermənistan işğalçıları tərəfindən Zəngilan rayonundan qovulmuş qaçqınlarla görüşdük. Görüş çox həyəcanlı, çox tə`sirli idi. Qaçqın vəziyyətində, ağır şəraitdə yaşayan insanlar Türkiyənin Baş naziri xanım Tansu Çilləri böyük hörmət, sevgi ilə qarşıladılar, qucaqladılar, öpdülər. Bunlar hamısı onu göstərir ki, Azərbaycan xalqının ürəyi genişdir, bu ağır vəziyyətdə də hörmətli qonağını gözünün üstündə qarşılayır.

Xanım Tansu Çillər qaçqınların ağır vəziyyətini, eyni zamanda onların Türkiyə Cümhuriyyətinə, xalqına aə Türkiyənin Baş nazirinə olan hörmət və ehtiramını da gördü. Bunlar hamısı bizi bir daha eyni fikrə gətirir ki, biz mütləq və mütləq, tezliklə Ermənistan işğalçılarının Azərbaycan torpaqlarından çıxarılmasına nail olmalıyıq, qaçqınları öz yerlərinə qaytarmalıyıq.

Azərbaycanın iqtisadi vəziyyəti çox ağırdır. Bu ağır vəziyyətdən çıxmaq üçün biz şübhəsiz ki, bütün ölkələrlə, xüsusən Türkiyə ilə iqtisadi əlaqələrimizi genişləndirmək və inkişaf etdirmək məqsədi daşıyırıq. İndiyədək bu sahədə bir çox işlər görülübdür, ancaq bir çox işlər də görüləcəkdir. Bizim bu barədə də fikir mübadiləmiz olub və bir çox məsələlərin həll edilməsi üçün razılığa gəlmişik.

Bilirsiniz ki, 1992-ci ildə Türkiyə Cümhuriyyəti Azərbaycanın iqtisadiyyatını canlandırmaq üçün 250 milyon dollar məbləğində kredit ayırıb. Həmin məbləğin cəmi 60 milyon dollarlıq bir hissəsindən istifadə olunub. Kreditin şərtlərinə görə vaxtı çatsa da, biz indiyədək onu geri qaytara bilməmişik. Onun bir hissəsini 1994-cü ildə, bir hissəsini isə 1995-ci

ildə geri qaytarmaq lazım idi. Lakin bizim buna imkanımız yoxdur. Ona görə də biz Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillərə müraciət etdik. O, qərar qəbul etdi və kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılığa gəldik. Şübhəsiz ki, biz bunu Türkiyə Cümhuriyyəti, Baş nazir xanım Tansu Çillər tətəfindən Azərbaycana olan diqqət və mərhəmət kimi qəbul etdik. Çalışmalıyıq ki, bu kreditin geri qaytarılması üçün lazımi tədbirlər görək. Türkiyənin Baş naziri və onunla gələn şəxslər dünən də və bu gün də bu barədə danışıqlar aparıblar, müəyyən anlaşmalar əldə ediblər. Güman edirəm ki, biz onları həyata keçirdiyimiz halda 1992-ci ildə ayrılmış kreditin bir hissəsindən bu ildə, gələn il də istifadə edə bilərik. Bu barədə də müəyyən razılıq əldə olunub və protokollar imzalanacaqdır.

Azərbaycanan sənaye potensialı çox böyükdür. Respublikamızda çox iri sənaye müəssisələri - fabriklər, zavodlar var. İndi onlar çox çətin bir şəraitdədir. Yəni onların çoxu əvvəllər keçmiş Sovetlər İttifaqının ayrı-ayrı respublikaları ilə iqtisadi inteqrasiya şəraitində işləyib. Bizim əlaqələr qırıldığına görə, ümumiyyətlə respublikamızın şimal tərəfdən sərhədləri bağlandığına görə bu sənaye müəssisələrinin işləməsi çox çətinləşibdir. Biz bu məsələni də müzakirə etdik və belə razılıq əldə olundu ki, Baş nazir xanım Tançu Çillər Azərbaycandakı bu müəssisələrin bəzilərinin müştərək işləməsi üçün buraya müəyyən nümayəndə heyəti göndərəcəkdir. Onlar burada bəzi müəssisələrin vəziyyətini öyrənib proqramlar hazırlayacaqlar və həmin müəssisələrin müştərək işləməsi üçün lazımi tədbirlər görüləcəkdir. Biz buna böyük ümid bəsləyirik və güman edirəm ki, bu sahədə də lazımi nəticələr əldə edə bilərik.

Vaxtınızı çox almaq istəmirəm. Güman edirəm ki, hörmətli qonağımız görüşlərimiz və xüsusən öz təəssüratları barəsində məndən də çox şey deyə bilər. Ona görə də mən bununla kifayətlənirəm. Xahiş edək hörmətli xanım Tansu Çillərə söz verilsin.

Mən çıxışımda bəzi məsələlərə toxunmadım. İstəyirdim bunları hörmətli qonağımız söyləsin. Ancaq bir mühüm məsələni qeyd etmək istəyirəm. Danışıqlarımız zamanı Türkiyənin Naxçıvana xüsusi yardımı haqqında çox əhəmiyyətli nəticələr əldə olundu. Bilirsiniz ki, Naxçıvan blokada şəraitindədir. Türkiyə bu bölgəyə daim kömək etmişdir. 1992-ci ildə "Ümid körpüsü", "Həsrət körpüsü" adlandırılan körpü tikilib qurtardı. O vaxtdan Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa əlaqə saxlayır. Amma Naxçıvan blokada vəziyyətində olduğuna və biz oranın bəzi problemlərini həll edə bilmədiyimizə görə bu məsələni hörmətli Baş nazirlə ayrıca müzakirə etdik. Türkiyənin Naxçıvana hər türlü kömək etməsi barədə razılıq əldə olundu.

Sual: Hazırda Türkiyədə xarici iş adamlarının fəaliyyəti sərt qanunlarla tənzimlənir. Belə bir halda Türkiyə dövləti Azərbaycanın iş adamları üçün güzəştli bir vəziyyət yaratmaq istəmirmi?

Tansu Çillər: Azərbaycanın iş adamları qardaş iş adamları kimi Türkiyəyə daim dəvət edilir. Əgər onların türkiyədə bir iş görmələrində çətinlik varsa, bunu bilməyimiz gərəkdir. Onların kredit almalarında, öz vətəndaşlarımızdan heç ayırd etmədən yatırım qoymalarında maneə yoxdur. Biz qardaş Azərbaycandan Türkiyəyə gələnlərin hamısını məmnuniyyətlə qarşılayırıq və dövlət də onları dəstəkləyir.

Sual: Möhtərəm Prezident, Azərbaycanda özəl bölmənin inkişafı üçün əlinizdən gələni etdiyinizin, çox işlər gördüyünüzün şahidiyik. Özəl bölmənin gələcək inkişafı üçün və yaranmaqda olan milli burcuaziyanın fəaliyyətini tənzimləmək üçün hansı qanunlar qəbul olunacaq və daha səmərəli işləmək üçün onlara hansı güzəştlər ediləcəkdir?

Heydər Əliyev: Bu barədə bizim bir çox qanunlarımız var. Ancaq sizə məlumdur ki, biz özəlləşdirmə proqramı hazırlamışıq. Bu iş neçə ay vaxt tələb etdi. Proqramın bir az gecikməsinin səbəbləri də məlumdur. Çünki bir tərəfdən Azərbaycan müharibə şəraitində idi, digər tərəfdən də 1992-1993-cü illərdən indiyədək Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin nə qədər gərgin olduğu bəllidir. Bunların hamısı iqtisadi sahədə bəzi islahatlarımızın keçirilməsini gecikdirmişdir. Yaxın vaxtlarda özəlləşdirmə proqramının həyata keçirilməsinə başlaqacaqdır. Həmin proqram üç il üçün nəzərdə tutulmuşdur. Şübhəsiz ki, özəlləşdirmə proqramı həyata keçirilərkən iş adamlarının fəaliyyətinin səmərəli olması üçün əlavə qanunlar da qəbul olunacaqdır. İndi vaxtınızı alıb hansı qanunların qəbul ediləcəyini demək istəmirəm. Bilirsiniz ki, bunlar çoxdur və qəbul olunacaqdır. Ancaq onu da bilməlisiniz ki, indiyədək mövcud olan qanunlarımız da Azərbaycanda özəl bölmənin fəaliyyət göstərməsi üçün çox yaxşı şərait yaratmışdır.

Sual: Mənim sualım cənab Prezidentədir. Son vaxtlarda Türkiyənin Ermənistan barəsində siyasətində bir dəyişiklik görürsünüzmü?

Cavab: Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı məsələdə Türkiyənin mövqeyində heç bir dəyişiklik yoxdur. Bu məsələ bu gün bir daha geniş müzakirə olundu, bizim fikirlərimiz eynidir. Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillər Ermənistanın Azərbaycana təcavüz etdiyini çıxışlarında bir daha bəyan etdi və bu təcavüzün qarşısının alınması üçün lazımi tədbirlərin görülməsində Azərbaycanı dəstəkləyir, yəni Türkiyənin siyasətində heç bir dəyişiklik yoxdur.

Sual: Hörmətli Baş nazir, sizə iki sualım var. Birincisi, aprel ayında

Bakıya gələrkən demişdiniz ki, buraya böyük bir proqramla dönəcəksiniz. Bu proqramın böyüklüyünü rəqəmlərin dilli ilə izah edə bilərsinizmi? İkincisi, bugünkü görüşdə neft kəmərinin Türkiyədən keçməsi məsələsi danışıqların mövzusu olmuşdurmu?

Tansu Çillər: Aprel ayında Azərbaycana yenidən, özü də iş adamlarımızla birlikdə gələcəyimə söz vermişdim. Bu səfərim zamanı nəzərdə tutduğumuz məsələlərin, demək olar, hamısını müzakirə edə bildik. Azərbaycanın ödənilməmiş kreditləri var. Bunu həll etmək lazımdır. Bizim tələblərimiz vardı, bu gündən etibarən bunları əf etdik və sənəd imzalayacağıq. Yeni kredit açılması üçün tələb var idi. Bunu da bu gün sənəd şəklində imzalayacaq vəziyyətə çatdırırıq. Banklarımızın burada iş anmaları məsələsi də nəzərdə tutulmuşdur. Bu da həll olundu. "Ziraət bankası" fəaliyyətə başlayır, yaxın vaxtlarda isə "Vakfbank" işə başlayacaqdır. Universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi məsələsi var idi. Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi artıq fəaliyyət göstərir.

Neft kəmərinin çəkilməsi ilə bağlı Azərbaycanla əvvəllər də danışıqlarımız olmuşdur. Biz bu kəmərin Türkiyə ərazisindən keçməsini istəyirik. Mən Özbəkistanda səfərdə olarkən Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikrini razılaşdırdıq. Bu məqsədlə Amerikanın bizə verəcəyi kreditdən istifadə edilə biləcəyini düşünürük. Neft kəmərinin Türkiyədən keçirilməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlükdə dəstəkləmişdir. Bunun həyata keçirilməsi üçün digər ölkələrlə də bu cür danışıqlar aparmaq lazımdır. Özbəkistana və Azərbaycanasəfərlərim zamanı hər iki dövlətin dəstəyini almışıq. Yaxın vaxtlarda başqa ölkələrə də səfər etməyi düşünürəm.

Daha sonra bu səfərlərin zirvəsini bəlkə də Türkiyədə təşkil etmək mümkün olacaqdır.

Sual: Hörmətli Prezident Heydər Əliyev, Türkiyə vətəndaşlarının Azərbaycana vizasız gəliş-gedişinə icazə veriləcəkmi? Azərbaycanda fəaliyyət göstərən Türkiyə iş adamlarına bu məsələdə şərait yaradılması barədə düşünürsünüzmü?

Heydər Əliyev: Bizim ən böyük arzumuz ondan ibarətdir ki, Azərbaycana daha çox iş adamı gəlsin, buraya sərmayə qoysunlar. Bu arzunu həyata keçirmək üçün lazımi tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Ola bilər, bəzi bürokratlar ayrı-ayrı yerlərdə bu işin həyata keçirilməsinə mane olurlar. Bu, təbiidir, mən belə halları istisna etmirəm. Ancaq bizim siyasətimiz bundan ibarətdir ki, Azərbaycan dünya birliyinə açıqdır. Türkiyə isə bu sırada bizim üçün ən önəmli ölkədir. Mən bunu bir daha bəyan edirəm və bu sahədə gələcəkdə də lazımi tədbirləri görəcəyik. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün hörmətli Baş nazirlə razılığa gəldik ki, müştərək iş birliyi komissiyası yaradaq. Azərbaycan tərəfi böyük bir komissiya yaradır. Türkiyə də belə bir komissiya yaradacaqdır. Bu komissiyalar iqtisadi əməkdaşlığa dair məsələlərin dəqiqləşdirilməsi ilə məşğul olacaqlar.

Sual: Birinci sualım xanım Tansu Çillərədir. Siz beynəlxalq konsorsiumun üzvləri ilə qarşıdakı görüş zamanı hansı məsələləri müzakirə edəcəksiniz? İkinci sualım həm cənab Prezidentə, həm də xanım Baş nazirədir. Azərbaycan neftinin Türkiyə ərazisi vasitəsilə ixrac olunmasının perspektivi barədə nə deyərdiniz?

Tansu Çillər: Bu suala bir az öncə cavab vermişdim. Neft kəmərinin Türkiyə ərazisindən keçməsi barədə Azərbaycanla baxış birliyimiz vardır.

Heydər Əliyev: Mən xanım Tansu Çillərin dedikləri ilə razıyam.

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərlə Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə Prezident Heydər Əliyevin nitqi

"Respublika" Sarayı
11 iyul 1995-ci il

Hörmətli Baş nazir, əziz bacımız xanım Tansu Çillər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycan ictimaiyyətinin nümayəndələri buraya, Respublika sarayına əziz qonağımız, bacımız, hörmətli xanım Tansu Çillər ilə görüşmək üçün toplaşmışlar. Sizin hamınızın adından, Azərbaycan xalqı adından, respublikamızın bütün vətəndaşları adından Türkiyə Cümhuriyyətinin Baş naziri, xalqımızın dostu, əziz bacısı hörmətli Tansu Çilləri səmimi-qəlbdən salamlayıram, ona Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Baş nazir xanım Tansu Çillərlə birlikdə ölkəmizə qardaş Türkiyədən hörmətli qonaqlar gəlib. Onların hamısını salamlayıram. Xanım Tansu Çillərin və digər qonaqlarımızın şəxsində Türkiyənin bütün ictimaiyyətini salamlayıram. Türkiyə Cümhuriyyətinə və xalqına Azərbaycan xalqının qardaşlıq hörmətini və ehtiramını bildirirəm.

Mən bu salondan Azərbaycan xalqının böyük dostu, əziz qardaşımız Süleyman Dəmirələ səmimi salamlarımızı və ən xoş arzularımızı göndərirəm.

Türkiyənin Baş naziri, hörmətli xanım Tansu Çillər mənim dəvətimi qəbul edib iki gündür ki, Azərbaycana rəsmi səfərə gəlibdir. İki gündür ki, biz bir yerdəyik və bu qısa müddətdə Türkiyə və Azərbaycan arasında əlaqələrin daha da möhkəmlənməsi, inkişaf etməsi üçün çox səmərəli danışıqlar aparılmış, fikir

mübadiləsi edilmiş və çox dəyərli sazişlər əldə olunmuşdur.

Hörmətli xanım Tansu Çillərin respublikamıza gəlməsi, Azərbaycan ictimaiyyəti ilə görüşməsi və səfər zamanı bəzi gərəkli işlər görməsi ölkəmizin həyatında əlamətdar hadisədir. Biz bunu yüksək qiymətləndiririk. Eyni zamanda bu, Türkiyənin nəzər-diqqətini, hörmətinin və məhəbbətinin parlaq təzahürüdür. Bütün bunlara görə mən sizin adınızdan və öz adımdan hörmətli qonağımız xanım Tansu Çillərə təşəkkürümü bildirirəm, ona cansağlığı, səadət və böyük işlərində uğurlar arzulayıram.

Türkiyə və Azərbaycan xalqları arasındakı dostluq əlaqələri çox böyük tarixə malikdir. Bir kökdən olan xalqlarımız əsrlər boyu bərabər yaşamışlar, böyük sınaqlardan birlikdə keçmişlər, əl-ələ verərək qarşılarına çıxan çətinliklərin öhdəsindən gəlmişlər. Onlar bu gün də bir yerdədirlər.

Bizim xalqları birləşdirən eyni kökdən olmadığımız, eyni dinə mənsubluğumuz, dilimizin və adət-ənənələrimizin, mədəniyyətimizin bir-birinə bənzərliyi, birliyi və tarixən keçdiyimiz yolların oxşarlığıdır. Bunların hamısı böyük diqqətə layiq tarixi keçmişimizdir. Biz bunları bu gün bir daha yad edir, böyük hörmət və ehtiramla keçmişimizə minnətdarlığımızı bildiririk. Çünki Türkiyə ilə Azərğaycanın bugünkü dostluğu keçmiş əlaqələrimizin gözəl təməli üzərində qurulmuşdur. Türkiyə tarix boyu bizə kömək etmiş, arxa olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, həyatımızın çətin dövründə Türkiyənin bizə göstərdiyi dəstəyə, mənəvi dayağa görə minnətdar olacaqdır.

Biz Türkiyə Cümhuriyyətinin keçdiyi böyük tarixi və şərəfli yolu bilirik və yüksək qiymətləndiririk. 1918-22-ci illərdə türk xalqı ağır savaş içərisində olmuşdur. Yadelli qüvvələr o zaman Türkiyəni tamamilə dağıtmaq, Türk xalqını məhv etmək qərarına gəlmişdilər. Ancaq Türk xalqının qüdrəti, onun qəhrəmanlığı, qabaqcıl adamlarının səriştəsi xalqı birləşdirdi və Türk xalqına qəsd edən qüvvələr məhv oldu, qurtuluş savaşı müvəffəqiyyətlə başa çatdı və 1922-23-cü illər Türkiyə Cümhuriyyətinin yaranması üçün böyük dönüş dövrü oldu. O zaman böyük Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyə Cümhuriyyəti yarandı. Türk xalqı həmin vaxtdan bəri böyük Atatürkün qoyduğu yolu cəsarətlə gedir və bu gün Türkiyə Cümhuriyyəti dünyanın 60 milyonluq əzəmətli bir dövlət kimi beynəlxalq birlikdə özünə layiq yer tutmuşdur.

Biz bu gün dost və qardaş kimi böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, Türkiyə Cümhuriyyətinin yaranması, Türk xalqına və onun siyasi xadimlərinin böyük Atatürkün vəsiyyətlərinə, qoyduğu yola sadiq olması indi Türkiyənin zirvələrə qalxmasının əsas səbəbidir.

Son illərdə Türkiyə Cümhuriyyətinin həyatında böyük dəyişiklər əmələ gəlmişdir. Cümhuriyyətin yarandığı dövrdən indiyə qədər Türk xalqı dünyəvi dövlət, cəmiyyət qurmaq, sivilizasiyalı ölkələr səviyyəsinə qalxmaq uğrunda çalışmış və bu yolda böyük nailiyyətlər əldə etmişdir. Türk xalqı azadlıq, hürriyyət və demokratiya içərisində yaşamış və yaşayır. Məhz bu prinsiplərə görə Türk xalqı, Türkiyə Cümhuriyyəti böyük naliyyətlər əldə etmiş və dünyanın hörmətli ölkələrindən, dövlətlərindən biri olmuşdur. Bunların əsasında son illərdə Türkiyənin həyatında böyük dəyişikliklə əmələ gəlmişdir. Ölkənin iqtisadiyyatı böyük sıçrayış yolu keçərək, inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının səviyyəsinə gəlib çatmış və Türk xalqının rifahi yüksəlmişdir. Bu, şübhəsiz ki, Türk xalqının zəkası, ağlı və əməksevrəliyi nəticəsində olmuş, eyni zamanda Türkiyədə demokratik prinsiplərin daim həyata keçirilməsi və ölkənin görkəmli siyasi xadimlərinin, dövlət adamlarının uğurlu fəaliyyəti nəticəsində əldə edilmişdir.

Biz bu gün Türkiyənin həyatına baxarkən çox maraqlı bir mənzərə ilə rastlaşırıq. Bu mənzərəni Türk xalqının özü yaratmışdır. Bu gün bu barədə danışarkən Türkiyənin mərhum Prezidenti Turqut Özalı yada salırıq. onun atdığı addımlar sayəsində Türkiyə Cümhuriyyətində iqtisadiyyat böyük sıçrayış yolu keçmişdir. Türkiyə Cümhuriyyətinin görkəmli siyasi xadimi, əziz dostumuz hörmətli Süleyman Dəmirəlin böyük fəaliyyəti nəticəsində ölkədə mühüm dəyişikliklər olmuşdur. Bu gün Türkiyə hökumətinə başçılıq edən əziz qonağımız, bacımız hörmətli Tansu Çillərin dövlət və siyasi fəaliyyəti nəticəsində, hökumətin rəhbəri kimi apardığı böyük siyasətin və iqtisadi islahatların sahəsində Türkiyə Cümhuriyyəti mühüm nailiyyətlər əldə etmişdir. Bu gün burada biz və bütün azərbaycanlılar Türk xalqının, Türkiyə Cümhuriyyətinin əldə etdiyi naliyyətləri öz uğurlarımız kimi qəbul edir, sevinirik və bu nailiyyətlər münasibətilə öz qardaşlarımızı, Türkiyənin dövlət və hökumət başçılarını ürəkdən təbrik edirik.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr XX əsrin əvvəllərindən başlayaraq daha da inkişaf etmişdir. 1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranan zaman onun əsas dayaqlarından biri olan ilk demokratik cümhuriyyətimizi tanıyan və ona yardım edən ölkə olmuşdur. Sonrakı dövrlərdə ölkələrimiz arasındakı bu əlaqələrin bəzi səbəblərdən - Azərbaycanın Sovetlər Birliyinin tərkibində olması səbəbindən çətinləşməsinə baxmayaraq, xalqımızın bir-birinə ola hüsn-rəğbəti, münasibəti heç vaxt kəsilməyibdir. Bu illərdə biz Türkiyəyə böyük həsrətlə baxmışıq. Daim Türkiyə ilə maraqlanmışıq, qardaş ölkədə baş verən hadisələri qəlbimizdə hiss etmişik. Onun nailiyyətlərinə sevinmişik, həyatında baş verən faciələrə ağrımı-

şıq, incimişik. Mən bunu deyərkən böyük Mustafa Kamal Atatürkün sözləri yadıma düşür. O deyirdi: "Azərbaycan gülərsə biz də gülərik, Azərbaycan üzülərsə biz də üzülərik". Bu sözlər Türkiyə Cümhuriyyətinin Azərbaycana olan münasibətinin ən parlaq ifadəsidir.

Bu gün burada mən Azərbaycan xalqının iradəsini ifadə edərək deyirəm ki, Türkiyə gülərsə Azərbaycan da güləcək, Türkiyə inciyərsə, sıxılarsa, ağlayarsa Azərbaycan da inciyəcək, sıxılacaq, ağlayacaqdır. Bu sözlər son illərin sınağından keçib gəlmişdir. Azərbaycan Respublikasının başına böyük bəlalar gələn zaman, 1988-ci ildən Ermənistanın torpaqlarımıza təcavüzü başlayan gündən Türkiyə ictimaiyyətində, qardaş ölkənin hər yerində Azərbaycana olan münasibətlər coşmuş, artmış, türkiyənin ürəyi Azərbaycanla bir döyünmüş, dost ölkədə respublikamızın həyatı ilə daim maraqlanmışlar. O illərdə Türkiyədə keçirilən mitinqlər, toplantılar yaxşı yadımızdadır. Türkiyəli gənclərin küçələrə, meydanlara çıxması, həyəcanlarının coşması, xalqımızla həmrəy olması, Azərbaycan xalqına qarşı edilən hərbi təcavüzə etiraz etmələri - bunların hamısı xalqımızın yaddaşına həkk olubdur. Biz bunları heç vaxt unutmayacağıq.

1990-cı ilin 20 Yanvar faciəsi - Azərbaycan xalqı öz suverenliyi uğrunda mübarizə apararkən, milli azadlığı uğrunda ayağa qalxarkən, müstəqillik qazanmaq üçün çalışdığı zamana Azərbaycana Sovet imperiyasının ordusu tərəfindən hərbi təcavüz oldu. Xalqımıza çox böyük zərbələr vuruldu. Azərbaycan kimi Türkiyə də bu faciəli hadisəyə görə ağladı, sızladı. Eyni zamanda, Azərbaycana edilmiş bu hərbi təcavüzə qarşı Türkiyənin hər bir guşəsində etiraz çıxışları oldu, qəzetlər bu barədə yazdı, televiziya və radioda bu haqda verilişlər getdi. Yəni Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinə Türkiyə dəstək verdi.

Ona görə də biz hər bir türk vətəndaşının Azərbaycana olan münasibətini yüksək qiymətləndiririk. Hər bir vətəndaşın münasibətindən Türkiyədəki siyasi partiyaların, dövlət və hökumət başçılarının münasibətləri yaranır. Biz bunları yüksək qiymətləndiririk. Ən başlıcası ilə 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi dünya dövlətləri içərisində birinci olaraq Türkiyə respublikamızın müstəqilliyini tanıdı və həmin dövrdən hər bir addımı atarkən ölkəmizə kömək etdi, yardımçı oldu. Bütün ölkələrin yanında, beynəlxalq aləmdə Azərbaycana əl tutan, kömək duran Türkiyə Cümhuriyyəti, onun səlahiyyətli nümayəndələri oldu. Bunu biz heç vaxt unutmayacağıq.

Yeddi ildən bəri davam edən müharibə zamanı Türkiyə bizimlə bir mövqedə durmuşdur. Ermənistanın bu təcavüzkarlığını pisləmişdir. Türkiyənin bu ölkəyə münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik?". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır".

Biz bunları yüksək qiymətləndiririk. Bu fikirlər bizim dünən və bu gün apardığımız danışıqların əsas mərkəzində dururdu. Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri, onların gələcək inkişaf yorlları və istiqamətləri, respublikamızın ağır vəziyyətdən çıxması üçün görüləcək tədbirlər, münaqişənin sülh yolu ilə həll olunması barədə əziz qonağımız xanım Tansu Çillər öz mövqeyini bir daha qəti bildirdi - bu gün bunu mətbuat konfranslarında da ifadə etdi - və əminəm ki, onun mövqeyi Türkiyə xalqının, Türkiyə hökumətinin mövqeyi kimi daim belə olacaqdır.

Respublikamızın ən böyük problemi Ermənistanın ölkəmizə hərbi təcavüzdür. Biz təcavüzdən xilas olmaq istəyirik. Azərbaycan üç il yarımdır ki, müstəqil dövlət kimi yaşayır və azadlığı yüksək nailiyyət və mənəvi sərvət kimi qiymətləndirir. Xalqımız, bütün ictimaiyyətimiz və mən bir Prezident kimi Azərbaycanın müstəqilliyinin əbədi olması uğrunda çalışırıq və çalaşacağıq. Biz öz müstəqilliyimizi və azadlığımızı heç vaxt əldən verməyəcəyik.

Bunun üçün Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycan xalqının həyatında böyük itkilər olubdur. İşğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız didərgin düşüb, qaçqın vəziyyətindədir. İşğal altında qalan 700-dən artıq şəhər, qəsəbə, kənd, sənaye, kənd təsərrüfatı müəssisələri, xəstəxanalar, məktəblər, kitabxanalar, mədəniyyət obyektləri, insanların qurub-yaratdığı evlər, tarixi abidələr Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıbdır. Azərbaycan xalqına böyük zərbələr vurulubdur. Biz bu çətinliklərə dözürük.

Qaçqın düşmüş vətəndaşlarımız ağır vəziyyətdə yaşayırlar. Bu gün biz hörmətli qonağımız xanım Tansu Çillərlə birlikdə onlarla görüşərkən həmin adamların hörmətli qonağa sevgisinin, məhəbbətinin şahidi olduq. Eyni zamanda onların nə qədər ağır vəziyyətdə yaşadığını gördük.

Biz bu günlərdən çıxmaq istəyirik. Ona görə də biz keçən ilin ma-

yında atəşkəs barədə saziş əldə etmişik. On üç aydan artıqdır ki, atəşkəs dövründə yaşayırıq. Biz bu müddətdən böyük sülhün əldə olunması üçün istifadə edirik. Etibarlı sülh əldə edilməsinə çalışırıq. Biz müharibəyə son qoyulmasına çalışırıq. Müharibə istəmirik, biz sülh istəyirik və bu münaqişəni sülh yolu ilə sona çatdırmaq istəyirik. Ona görə bir çox addımlar atmışıq və bundan sonra da atacağıq.

Bu məsələlər beynəlxalq təşkilatlar çərçivəsində, Minsk qrupu çərçivəsində həll olunur. Bu məsələlərin həlli üçün Türkiyə Cümhuriyyəti daim bizə dayaq olur, kömək edir. Ancaq bu gün mən bir daha demək istəyirəm ki, biz müharibə istəmirik. Bunu Azərbaycan xalqı bilir. Qoy dünya da bilsin. Biz heç bir ölkənin torpağına göz dikməmişik. Ancaq öz torpağımızın bir qarışını da başqasına verməyəcəyik. Torpaqlarımızın işğal olunmasına dözə bilmirik. Bu məsələnin sülh yolu ilə həll olunmasını Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini, respublikamızın sərhədlərinin toxunulmazlığının qorunmasını istəyirik. Biz çalışırıq ki, qaçqın düşmüş vətəndaşlarımız öz yurduna, elinə, obasına qayıtsınlar.

Azərbaycan sülhsevər dövlətdir. Biz sülh yolu ilə gedirik. Xalqımız sülhsevər xalqdır. Ancaq bütün dünya da bilsin ki, biz torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik və ərazilərimizin azad olunması üçün son damla qanımıza qədər çalışacaq və vuruşacağıq.

Əminəm ki, bizim bu ədalətli və haqq işimizdə Türk xalqı, Türkiyə Cümhuriyyəti və ictimaiyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə olacaq, bizə dayaq duracaq və bu ağır şəraitdən çıxmağımız üçün əlindən gələni əsirgəməyəcəkdir.

Müstəqil dövlət olaraq biz Azərbaycan torpağında demokratik quruculuq yolu ilə gedirik. Respublikamızda sivilizasiyalı cəmiyyət qururuq. Azərbaycanın müstəqilliyini bu yolla inkişaf etdiririk.

Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər əmələ gəlibdir. Bu, respublikamızın bazar iqtisadiyyatı yoluna keçməsi ilə əlaqədardır. Bir çox addımlar atmışıq. Ən böyük addım özəlləşdirmə barədə proqramın tamamlanmasıdır. Əminəm ki, bu proqramı yaxın vaxtlarda əməli olaraq həyata keçirməyə başlayacağıq. İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar bölmədə də islahatlar aparırıq. Bunların hamısı Azərbaycanın iqtisadiyyatını böyük yola çıxaracaq, dünya iqtisadiyyatına bağlayacaqdır. Biz bütün sahələrdə - həm dövlət quruculuğunda, həm də iqtisadi həyatda demokratik dəyişikliklər edirik. Bu yol sınaqdan çıxmış yoldur. Bu yolu Türkiyə Cümhuriyyəti, demokratiya və iqtisadiyyat sahəsində inkişaf etmiş ölkələr keçmişlər. Biz də həmin yolu gedirik. Bu yolda biz inkişaf etmiş ölkələrin, Türkiyənin təcrübəsindən istifadə edirik. Türkiyənin təcrübəsi bizim

üçün çox əhəmiyyətli mənbədir.

Respublikamızın hər yerində demokratik prinsipləri bərqərar edirik və bundan sonra da edəcəyik. Bu il noyabrın 12-nə Azərbaycanda Parlament seçkiləri təyin olunub. Həmin seçkilərin tam demokratik şəraitdə hazırlanır və keçiriləcəkdir. Azərbaycanda çoxlu partiya fəaliyyət göstərir. Mətbuat azadlığı vardır. İnsan azadlığı tamamilə bərqərar olmuşdur. Bütün azadlıqlar təmin olunmuşdur. Siyasi plyuralizm ictimai həyatımızın əsasını təşkil edir. Bu prinsiplər əsasında Parlament seçkilərinə gedirik və müstəqil Azərbaycanın yeni, demokratik Parlamentini yaradacağıq. Həmin gün həm də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın yeni, demokratik konstitusiyası qəbul olunacaqdır.

Şübhəsiz ki, bu addımlar Azərbaycan Respublikasını daha da irəliyə aparacaq və dünya miqyasında dövlətimizi demokratik, azad bir ölkə kimi daha yüksək səviyyəyə qaldıracaqdır. Əminəm ki, qarşımızda duran bu vəzifələri layiqincə yerinə yetirəcəyik və 1995-ci il bizim üçün böyük dəyişikliklər ili olacaqdır. Bu tədbirləri həyata keçirmək üçün dost ölkələrin, o cümlədən də Türkiyənin köməyinə ehtiyacımız vardır. Ümidvaram ki, biz həmişə bu köməkdən faydalanacağıq.

Bu gün mən bir daha qeyd etmək istəyirəm ki, hörmətli xanım Tansu Çillərin Azərbaycana etdiyi rəsmi səfər zamanı biz mühüm məsələləri müzakirə etmişik və əhəmiyyətli razılığa gəlmişik. Bunların əsasında güman edirəm ki, ölkələrimiz arasında olan əlaqələr daha da inkişaf edəcəkdir. Biz Türkiyə Cümhuriyyəti üçün iqtisadi, eləcə də digər sahələrdə həm dost, həm də etibarlı tərəfdaş olmaq istəyirik. Güman edirəm ki, biz buna da nail olacağıq. Bunların hamısını bu gün burada bütün Azərbaycan ictimaiyyətinə çatdırarkən bir daha Türkiyə Cümhuriyyətinə və xalqına, onun çox görkəmli nümayəndəsi, əziz bacımız xanım Tansu Çillərə də bildirəm. Bu gün şəhərimizin küçələrində sakinlər əziz qonağımızı böyük məhəbbətlə və sevgi ilə qarşılayırdılar. Mümkün qədər onu yaxından görməyə və salamlamağa çalışırdılar. Ona öz xoş münasibətini bildirmək istəyirdilər. Həmin bu baxışlar, görüşlər, insanların marağı Azərbaycanın Türkiyəyə, Türk xalqına hörməti, məhəbbəti, sevgisi və istəyidir. Bu hörmətlə, bu məhəbbətlə və bğu istəklə biz Türkiyədən gələn əziz qonaqlarımızı qəbul edir və eyni istəklə də əziz bacımız Tansu Çillərlə görüşürük. Bununla da bütün Türk xalqına qarşısında duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayırıq.

Hörmətli bacımız, Azərbaycana etdiyiniz bu səfərə görə mən sizə bir daha təşəkkürümü bildirirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət və böyük işinizdə uğurlar arzulayıram. Sağ olun!

Türkdilli dövlət başçılarının III Zirvə toplantısında Prezident Heydər Əliyevin çıxışı

Bişkek. 28 avqust 1995-ci il

Hörmətli dövlət başçıları!

Bizə göstərilən qonaqpərvərliyə və Zirvə görüşümüzü yüksək səviyyədə təşkil etdiklərinə görə hər şeydən əvvəl Qırğızıstan Respublikasının Prezidenti cənab Əsgər Akayevə və Qırğızıstan hökumətinə dərin təşəkkürümü bildirirəm.

Azərbaycan xalqı adından bu mötəbər məclisin iştirakçıları olan əziz və möhtərəm qardaşlarım - Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəli, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının Prezidenti İslam Kərimovu ürəkdən salamlayıram, sizə və xalqınıza hörmət və ehtiramımı bildirirəm, səadət və firavanlıq arzulayıram.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əsası 1992-ci il oktyabrında Ankarada qoyulmuş bu üçüncü Zirvə görüşümüz artıq gözəl bir ənənəyə çevrilmişdir.

Çox sevindirici haldır ki, Avroasiya məkanının xeyli hissəsini, böyük iqtisadi potensialı, insan potenstalını birləşdirən ölkələrimiz müstəqil dövlətlər, dünya birliyinin bərabərhüquqlu üzvləri kimi artıq regional əməkdaşlığa başlayıblar.

Çoxəsrlik tarixi boyu dünya sivilizasiyanı xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlara malikdirlər.

Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqlarımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir.

Bu yaxınlarda qardaş Türkiyə Respublikasında Şərq ədəbiyyatının və fəlsəfəsinin korifeylərindən biri, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubiley toplantısında və Almatıda Qazax xalqının ləyaqətli oğlu, görkəmli mütəfəkkir, filosof, şair Abayın 15 illiyinə həsr olunmuş bayram şənliklərində məmnuniyyətlə iştirak etdim. Bir daha qəti əmin oldum ki, İbn Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdumqulunun, Mahmud Kaşqarinin və Şərqin bir çox digər parlaq dahilərinin yaradıcılığı, "Dədə Qorqud", "Koroğlu", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim qohum xalqlarımıza mənsub deyil, onlar həm də bütün bəşəriyyətin sərvətidir.

Mən çox şadam ki, bizim Zirvə görüşümüz "Manas" eposunun min illik yubileyi ilə üst-üstə düşür və biz də, bu Zirvə görüşünün iştirakçıları olan dövlət başçıları, bütün Qırğız xalqı ilə birlikdə Türk aləmi üçün müqəddəs olan bir əsərin min illik ildönümünü azad Qırğızıstanan paytaxtı gözəl Bişkek şəhərində təntənəli surətdə qeyd edirik.

"Manas" köləliyə qarşı çıxır, xalqın azadlığını, müstəqilliyini hər şeydən uca tutur, müqəddəs hesab etdiyi ata yurdunu yadelli işğalçıların tapdağından qorumaq üçün xalqı mübarizəyə çağırır, türk xalqlarının qardaşlığını məhəbbətlə tərənnüm edir.

Biz vacib problemlərimizin həll olunması üçün bir-birimizə kömək göstərməli, yardım əlimizi uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Bütün bunlara görə mən bu görüşümüzə çox böyük əhəmiyyət verirəm. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi - bütün bunlar bizim strateci əməkdaşlarımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir.

Yaşadığımız son illərdə Yer kürəsində böyük tarixi, geosiyasi dəyişikliklər baş vermişdir. Yarapnmış yeni şəraitdə bizim qarşılıqlı əlaqələrimiz müstəqil, suveren əsaslar üzərində qurmaq üçün geniş üfüqlər açılır.

Ölkəmizin keçirdiyi islahatları, dünya iqtisadi birliyi ilə bərabərhüquqlu inteqrasiyaya doğru atdığımız addımları nəzərə alaraq əməkdaşlığımızın bu sahəsini xüsusilə vacib sayıram. Ölkələrimizin zəngin təbii sərvətlərindən, çox böyük sənaye, kənd təsərrüfatı və intellektual potensialından səmərəli istifadə edərək, onları müasir texnologiyalarla zənginləşdirərək, yeni nəqliyyat-kommunikasiya sistemlərini yaradaraq biz XXI əsrin tələblərinə cavab verə biləcəyik və xalqımıza layiqli həyatı yaratmağa nail olacağıq.

Xəzəryanı dövlətlərin hər birinin enerci ehtiyatı ilə zəngin olan öz sektoru və buradan irəli gələn bütün hüquqları və imkanları vardır. Biz bu imkanlardan istifadə edib, birgə çoxtərəfli layihələrin həyata keçirilməsində fəal əməkdaşlıq etməklə Xəzər hövzəsi zonasını iqtisadi tərəqqi və çiçəklənmə zonasına çevirə bilər, dünya iqtisadi sistemində layiqli yerimizi tuta bilərik. Eyni zamanda, Xəzər dənizinin zəngin təbii ehtiyatları əməkdaşlıq üçün geniş imkanlar açmaqla bərabər, bu sərvətlərdən qənaətlə və səmərəli istifadə etmək vəzifəsini də qarşımıza qoyur.

İri investisiya layihələri bizim enerci resursları ilə zəngin ölkələrimizi dünya istehsalçıları ilə bağlamaq üçün müasir nəqliyyat və kommunikasiya sistemləri yaratmağa imkan verir.

Qarşılıqlı faydalı və bir-birini tamamlayan iqtisadi əməkdaşlıq üçün ümumi məkan yaratmaq və Mərkəzi Asiyadan çəkiləcək neft və qaz kəmər-

lərini Türkiyəyə, oradan isə dünya bazarına çıxarmaq xalqlarımız üçün olduqca faydalı olardı. Bu kəmərlərin çəkilməsi, onların fasiləsiz və təhlükəsiz işləməsinin təmin edilməsi xalqlarımız arasında əməkdaşlığı daha da möhkəmlədər və müstəqil dövlətlərimizin çiçəklənməsinə xidmət edərdi.

Bu mötəbər məclisdə təmsil olunan bir sıra qardaş dövlətlər kimi Azərbaycan da mürəkkəb keçid dövrünü yaşayır. Sovetlər İttifaqı dağıldıqdan sonra öz müstəqilliyini elan edən Azərbaycan demokratik hüquqi dövlət quruculuğu, radikal bazar islahatlarının həyata keçirilməsi yolunu tutmuşdur. Bu cür tarixi dövrə xas olan obyektiv çətinliklərə baxmayaraq biz artıq bu yolda bir sıra müvəffəqiyyətlər əldə etmişik.

Əsrlər boyu öz azadlığına nail olmaq üçün mübarizə aparmış xalqımızın iradəsinə söykənərək müstəqil Azərbaycan Respublikası suveren, hüquqi dövlət quruculuğunda inamla irəliləyir.

Bu gün biz öz taleyimizin və sərvətlərimizin sahibiyik. Qısa dövr ərzində Azərbaycanda siyasi plüralizm, insan, söz, mətbuat, vicdan azadlığı bərqərar olunmuşdur. Milliyyətindən, dilindən, dinindən, siyasi baxışlarından asılı olmayaraq insan hüquqları Azərbaycanda etibarlı surətdə qorunur.

40-dan çox siyasi partiya, 400-ə yaxın müstəqil qəzet, 30-dan çox informasiya agentlikləri və teleşirkətlər tam sərbəstlik şəraitində fəaliyyət göstərir.

Biz dövləti zor işlətməklə devirməyə yönəldilmiş bir sıra antikonstruktiv cəhdlərin qarşısını aldıq. Respublikanın daxilində ictimai-siyasi stabilliyi bərqərar etdik. Köklü demokratik islahatları həyata keçirmək üçün gördüyümüz tədbirlər bütün Azərbaycan xalqı tərəfindən inam və qətiyyətlə dəstəklənir. Buna görə də istiqlaliyyət yolundan bizi sapındırmaq mümkün deyil.

Biz bu ilin noyabr ayının 12-də çoxpartiyalı sistem əsasında ilk azad demokratik Parlament seçkiləri keçirmək barədə qərar qəbul etmişik, Respublikada seçkilərə geniş hazırlıq işləri gedir. Əminəm ki, bu Parlament seçkiləri Azərbaycanda demokratik ənənələrin bərqərar edilməsi yolunda mühüm addım olacaqdır. Elə həmin gün də biz müstəqil Azərbaycanın ilk demokratik konstitusiyasını ümumxalıq referendumu ilə qəbul edəcəyik. Bu hadisələr Azərbaycan tarixində yeni parlaq səhifə olacaq və gələcək nəsillərin xoşbəxt həyatını təmin edəcəkdir.

Biz azad bazar münasibətlərini yaradaraq bərabərhüquqlu tərəfdaş kimi dünya iqtisadiyyatına inteqrasiya olunmaq üçün ciddi iqtisadi islahatlar aparırıq. Kənd təsərrüfatı sahəsində islahatlar artıq müvəffəqiyyətlə həyata keçirilir. Özəlləşdirmə proqramı qəbul olunub və yaxın zamanlarda dövlət mülkiyyətinin genişmiqyaslı özəlləşdirilməsi həyata keçiriləcəkdir.

Dünyanın iri neft şirkətlərinin təmsil olunduğu konsorsium ilə bağlanmış məşhur "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycana məxsus olan sektorunda enerci ehtiyatlarının istismarı üzrə uzunmüddətli beynəlxalq əməkdaşlıq sürətlə inkişaf edir. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu müqavilədə qardaş Türkiyə Cümhuriyyətini təmsil edən neft şirkəti də fəal iştirak edir.

Bununla bərabər, Azərbaycan Respublikası öz dövlət quruculuğu yolunda ciddi maneələrlə də üzləşir. Yeddi ildən bəri Ermənistan Respublikası Azərbaycana qarşı hərbi təcavüz edib, qanlı müharibə törədiblər. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizdən çoxu işğal olunub, bir milyondan çox vətəndaşımız işğal olunmuş torpaqlardan qaçqın düşüb və indi ağır şəraitdə çadırlarda yaşayır.

Xalqımızın güzəranına mənfi təsir göstərən amillərdən biri də odur ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə sənaye və kənd təsərrüfatı müəssisələrimiz, sosial obyektlərimiz və mədəniyyət abidələrimiz, taxıl zəmilərimiz, pambıq plantasiyalarımız, üzüm bağlarımız işğalçılar tərəfindən yandırılmış, viran edilmişdir.

Böyük itkilərə və qurbanlara baxmayaraq biz bu münaqişənin sivilizasiyalı siyasi yollarla, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, onun Minsk qrupu çərçivəsində həll olunmasına, regionda ədalətli beynəlmiləl qanunlara söykənən sülhün və əmin-amanlığın bərqərar edilməsinə çalışırıq. Lakin məsələnin siyasi yolla həll olunması üçün ermənilər öz qoşunlarını Şuşa və Laçın da daxil olmaqla Azərbaycanın işğal edilmiş bütün torpaqlarında çıxarmalıdırlar.

Azərbaycan müharibə etmək istəmir. Biz torpaqlarımızın müdafiəsinə qalxmışıq, Ermənistanın hərbi təcavüzünə qarşı, respublikamızın ərazi bütövlüyü, suverenliyi uğurnda mübarizə aparırıq. Biz dünyanın bütün dövlətləri tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına hörmət qoyulmasını, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını tələb edirik. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, İslam Konfransı Təşkilatının erməni təcavüzünü pisləyən və erməni işğalçı qoşunlarının işğal olunmuş bütün torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin həyata keçirilməsini tələb edirik.

Sevindirici haldır ki, keçən ilin may ayında əldə edilmiş atəşkəs barədə sazişə artıq on beş aydır ki, riayət olunur. Biz dəfələrlə bəyan etmişik və bir daha bildiririk ki, ədalətli və möhkəm sülhə nail olunana qədər atəşkəs recminə sadiq qalacağıq. Eyni zamanda hesab edirik ki, yaranmış vəziyyət - "Nə müharibə, nə sülh" şəraiti əbədi olaraq davam edə bilməz. Müharibəyə son qoyulmalı və

işğal edilmiş Azərbaycan torpaqları tezliklə azad olunmalıdır.

Fürsətlən istifadə edərək mən sizə, bu Zirvə görüşündə iştirak edən dövlət başçılarına müraciət edirəm ki, öz imkanlarınızdan istifadə edərək bu münaqişəni tezliklə həll etməyə səy göstərəsiniz. Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə və bir milyondan çox qaçqını öz doğma yurd-yuvalarına qaytarmağa əlinizdən gələn köməyi bizdən əsirgəməyəsiniz.

Bütün ölkələrin ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumaq, dünyanın bir çox regionlarında axır zamanlarda geniş surətdə yayılmış separatizmə və terrorizmə qarşı ciddi mübarizə aparmaq, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə riayət etmək, onları fəal surətdə həyata keçirmək hər birimizin və hamımızın müqəddəs borcudur.

Əziz və möhtərəm qardaşlar!

Türksoy proqramı çərçivəsində etdiyimiz əməkdaşlıq xalqlarımızın həyatında, mədəniyyətində böyük əhəmiyyət kəsb edir. "Manas"ın min illiyinə və Abay Kunanbayevin 150 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimləri də bu əməkdaşlığın bir qoludur.

Bildiyimiz kimi, YUNESKO-nun qərarı ilə bu il Şərqin böyük mütəfəkkiri, Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi də bütün dünyada geniş surətdə qeyd olunur. Artıq Ankarada, Moskvada bu bayramlar keçirilib, ilin axırında isə Parisdə, YUNESKO-nun baş qərargahında keçiriləcəkdir.

Fürsətdən istifadə edərək sizi Füzuli təntənələrinin Zirvə bayramına - Azərbaycanın paytaxtı Bakıya dəvət edirəm.

Xalqlarımız min illər boyu sıx əməkdaşlıq etmiş, qarşılıqlı fəaliyyət göstərmiş, bir-birini zənginləşdirmişlər. Yeni dövrdə, yeni şəraitdə bu əməkdaşlığın dirçəldilməsi hamımız üçün böyük əhəmiyyət kəsb edir. Bu köklər, bu əsaslar xalqımızın ən müqəddəs arzularının çiçəklənməsinə geniş imkanlar açır, onların sülhə, tərəqqiyə doğru inamla getməsinə gözəl şərait yaradır.

Mən inanıram ki, bir çox ağır sınaqlardan keçmiş, bu yolda həm itkilərin acısını dadmış, həm də dirçəliş sevincini duymuş xalqlarımız çoxəsrlik ümidlərini həyata keçirəcək, XXI əsrə öz şanlı əcdadlarının layiqli övladları kimi qədəm qoyacaqlar. Bu bizim ümidimiz, bu bizim vəzifəmiz, bu bizim borcumuzdur.

Diqqətinizə görə təşəkkür edirəm.

Türkdilli dövlət başçılarının Zirvə toplantısındakı mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatı

Bişkek. 28 avqust 1995-ci il

Mən Mərkəzi Asiyada gedən inteqrasiya proseslərini müsbət qiymətləndirirəm. Belə hesab edirəm ki, təkcə bu ölkələr deyil, ümumiyyətlə bütün ölkələr bundan sonra daha dərin inteqrasiya yolu ilə getməlidirlər. Çünki bu yol həmişə iqtisadiyyatın inkişafına, dövlətlər arasında daha sıx münasibətlər yaranmasına kömək edəcəkdir. Mənə verilən sualdan istifadə edərək demək istəyirəm ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələrin lazımi səviyyədə olmamasından təəssüflənirəm.

Bizim respublikamız keçmişdə Sovet İttifaqına daxil olarkən həm iqtisadi baxımdan, həm də mədəni dəyərlərlə mübadilə baxımından, görüşlər keçirilməsi, bir-birinə nümayəndə heyətləri göndərilməsi baxımından daha sıx bağlı idilər. İndi bu əlaqələr zəifləmişdir. Amma biz istəyirik ki, Azərbaycan istəyir ki, bu əlaqələr geniş olsun. Tarixi keçmişimizi, ümumi köklərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir ki, Mərkəzi Asiyanın bütün ölkələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun.

Türk xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına!

Möhtərəm qurultay iştirakçıları!

Sizi türk xalqlarının III Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının açılışı münasibətilə ürəkdən salamlayır və sizə işinizdə müvəffəqiyyətlər arzulayıram.

Tarixin ağır sınaqlarına zaman-zaman sinə gərmiş Türk xalqları qarşılıqlı elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini qoruyub saxlamış, bəşər tarixində daim önəmli mövqe tutmuşlar.

Müasir Türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları Türk dünyasının xoşbəxt sabahından soraq verir. Əminəm ki, Türk xalqlarının III qurultayı da bu müqəddəs arzu və istəklərin həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Müstəqil inkişaf yoluna qədəm qoyan Azərbaycan Cümhuriyyəti də suverenliyini əldə etdiyi ilk gündən Türk dünyasının möhkəmlənməsinə sədaqətlə xidmət etmiş və bundan sonra da edəcəkdir.

Bütün Türk xalqlarına sıx dostluq və qardaşlıq telləri ilə bağlı olan Azərbaycan xalqı adından sizin mötəbər məclisinizə öz işində uğurlar diləyirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
30 sentyabr 1995-ci il

BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak etmək üçün ABŞ-a yola düşərkən İstanbulun Atatürk hava limanında mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatı

20 oktyabr 1995-ci il

Hörmətli mətbuat nümayəndələri!

Bilirsiniz ki, mən Nyu-Yorka Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etməyə gedirəm. Ancaq yolumuz İstanbuldan keçir. Şəxsən mən həmişə Qərb ölkələrinə gedərkən Türkiyəni ziyarət etmək istəyirəm. Ona görə də yolumu buradan salmışam. Bir saatdan sonra buradan təyyarə ilə yola düşəcəyik. Doğrusu, mənim burada qısamüddətli olmağıma sizin bu qədər böyük maraq göstərdiyinizi təsəvvür etmirdim. Düşünmürdüm ki, siz mənimlə görüşmək üçün gələcəksiniz. Mənim görüşmə gəldiyinizə və səfərimə maraq göstərdiyinizə görə sizə təşəkkür edirəm. Bir halda ki, gəlmisiniz, mən sizi bir daha salamlayıram, hörmət və ehtiramımı bildirirəm. İstanbula, Türkiyə torpağına qardaşlıq salamımı, hörmət və ehtiramımı yetirirəm. Əgər mənə sözünüz, sualınız və ya sorğunuz varsa cavab verməyə hazıram.

Sual: Azərbaycanan Milli Məclisinə ilk demokratik seçkilərin keçirilməsi barədə nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz ki, bu, Azərbaycanın indiki həyatında, ümumiyyətlə, tarixində çox önəmli və əhəmiyyətli hadisədir. Çünki respublikamız dörd il bundan öncə öz istiqlaliyyətini əldə edib və müstəqil dövlət olubdur. Lakin indiyədək onun müstəqil dövlət kimi yeni seçilmiş parlamenti olmayıbdır. Ona görə də biz noyabrın 12-nə Azərbaycanın Milli Məclisinə seçkiləri təyin etmişik. Şübhəsiz ki, bu bizim üçün o qədər də asan iş deyildir. Çünki bilirsiniz ki, Azərbaycan öz həyatının keçid dövrünü yaşayır. Respublikamız Ermənistanın təcavüzü nəticəsində müharibə şəraitindədir. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş ərazilərimizdən bir milyondan artıq vətəndaşımız öz yerindən-yurdundan, el-obasından didərgin düşübdür. Qaçqınlar Azərbaycanın digər bölgələrində, məntəqələrində çox ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. İqtisadi-sosial problemlər çox ağırdır, biz demək olar ki, böhran içərisindəyik. Belə bir şəraitdə parlament seçkiləri keçirmək, yəni xalqa inamın olmasını tələb edir. Biz belə bir cəsarətli addım atmışıq və bu seçkiləri təyin etmişik.

Biz Parlament seçkilərini keçirmək üçün bir neçə ay ərzində seçkilər haqqında Qanun hazırladıq. Çünki müstəqil Azərbaycan dövlətində ilk dəfədir ki, parlament seçkiləri

keçirilir. Biz istəyirik ki, biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı bir dövlət qurmaq prosesindəyik. Bu proses içərisində olduğumuz zaman şübhəsiz ki, bizim hər addımımız, hər işimiz demokratiyaya söykənməli, demokratiyaya əsaslanmalıdır. Bu səbəbdən də biz çalışırıq ki, bu seçkiləri sadəcə elan edərək keçmişdə olduğu kimi keçirməyək, yeni bir Qanun əsasına keçirək. Yeni Qanun da şübhəsiz ki, konstitusiya əsasında olmalıdır. Bizim yeni, müstəqil dövlətimizin isə indiyə qədər konstitusiyası yox idi. Dörd ildir ki, müstəqil dövlət olmağımıza baxmayaraq biz indiyə qədər keçmiş Sovetlər İttifaqı zamanı - 1978-ci ildə qəbul olunmuş konstitusiya ilə işləyirik. Onu da qeyd etmək istəyirəm ki, 1978-ci il konstitusiyası da mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə qəbul olunub və mən hətta həmin konstitusiyanı hazırlayan komissiyanın sədri olmuşam. O konstitusiyanı da yazanlardan, onan müəlliflərindən biri, ola bilsin ki, əsası mənəm.

Ancaq o, Sovet respublikasının konstitusiyası idi. Bizə şübhəsiz ki, yeni konstitusiya lazımdır. Biz yeni konstitusiyanı hazırlayırıq. Ancaq istəyirik ki, bu konstitusiyanı parlamentdə yox, ümumxalq səsverməsində, referendumda qəbul edək. Çünki, bizim seçkilərimiz xalqın səsinə söykənməlidir.

Bizdə respublika Prezidentini də xalq seçir. İndi Milli Məclsi, yəni Parlamentin üzvlərini da xalq seçəcəkdir. Ona görə də bizim konstitusiyamız da Parlamentdə yox, xalqın bəyəndiyi və referendum vasitəsilə qəbul etdiyi konstitusiya olmalıdır. Belə bir konstitusiyanın layihəsini hazırlamışıq. Ancaq biz əvvəlcə istərdik ki, seçkilər haqqında Qanun hazırlayaq. Həmin qanununu hazırladıq, elan etdik və o, qəbul edildi. Mən sizə deyə bilərəm ki, Azərbaycanda Parlament seçkiləri haqqında qəbul etdiyimiz Qanun ictimaiyyət tərəfindən demokratik Qanun kimi qəbul olunubdur. Bu barədə başqa bir söz deyən, yəni ona müxalif çıxan yoxdur.

Biz indi bu qanunun həyata keçirilməsinə başlamışıq. Çalışırıq ki, qanunun özü demokratik olduğu kimi, onun əsasında keçirilən seçkilər də tam demokratik olsun. Yəni insanların, dövlətin hüquqları qorunsun. Biz çalışırıq ki, xalqımızın içərisində ən dəyərli adamlar, xalqın istədiyi və seçdiyi adamlar Parlamentdə olsun. İndi bu iş gedir. Seçkilərin birinci mərhələsi başa çatıbdır. Yəni seçilmək istəyən insanlar, vətəndaşlar öz namizədliklərini irəli sürüblər.

Bizim parlamentdə 125 millət vəkili olacaqdır. Bu 125 deputat yenidən 25-i partiyanın siyahıları üzrə, proporsional seçki sistemi əsasında seçiləcəkdir. Yəni bu partiyalar seçkilərdə iştirak edir və deputatlar da onların verdiyi siyahılar əsasında seçilir. Ancaq 100 mandat üzrə namizədlər, yəni 100 deputat macoritar sistem əsasında seçiləcəkdir. Yəni

ayrı-ayrı birmandatlı dairələrdən hər bir kəs parlamentə seçilə bilər.

Seçilmək istəyən partiyalar və vətəndaşlar artıq öz nmizədliklərini bəyan ediblər. Birmandatlı dairələrdən 1070 şəxs vətəndaş parlamentə seçilmək üçün müraciət edib, yəni ərizə verib. Azərbaycanda Ədliyyə Nazirliyinin qeydə aldığı 31 siyasi partiya var. Bu partiyalardan 18-i seçkilərə hazırlıq başlayan vaxt seçkilərdə iştirak edəcəyini bəyan etmişdi. Ancaq son olaraq bu 18 partiyadan - hər bir partiya Mərkəzi Seçki Komissiyasından imza vərəqələri almalıdır. 50 min vətəndaşın imzasını toplamalıdır və Mərkəzi Seçki Komissiyası bu imzaların doğruluğunu təsdiqləyəndən sonra həmin partiyalara seçkidə iştirak etmək hüquqi verir - 12-si gəlib seçkidə iştirak etmək üçün müraciət etmişdir. Yəni əvvəlcə 18 partiya seçkidə iştirak edəcəyi barədə bəyanat vermiş, lakin 12 partiya Mərkəzi Seçki Komissiyasından lazımi vərəqələri götürmüşdür.

İndi bu 12 partiya Mərkəzi Seçki Komissiyasına imza vərəqələrini təqdim edibdir. Vətəndaşlardan isə, dediyim kimi, 1070 nəfər öz sənədlərini veribdir. Son günlər Mərkəzi Seçki Komissiyası çox gərgin işləyir. Verilmiş sənədlərdən hansı doğru-düzgün tərtib olunubsa onlar seçkilərə buraxılır. Beləliklə, bix çoxpartiyalı sistem üzrə seçkilərə gedirik. Çoxpartiyalı sistem təkcə partiyaların verdiyi siyahıdan ibarət deyil. Birmandatlı 100 dairədə hər deputat yerinə istənilən partiyanın nümayəndəsi öz namizədliyini verir. Mənə dedilər ki, Mərkəzi seçki komissiyasından alınan məlumata görə bütün partiyalara mənsub olan adamlar öz namizədliklərini irəli sürüblər. İndi seçki bu mərhələdədir. Bu işlər bitəndən sonra, təxminən sabah təbliğat işi başlayacaqdır. Yəni seçilmək istəyən adamlar özlərini təbliğ edəcəklər.

Mərkəzi Seçki Komissiyasında kimin xahişi ödənilməyibsə onlar şikayət edə bilərlər. Həmin şikayətə Mərkəzi Seçki Komissiyası baxıb, bu ayın 25-nə qədər onların yenidən qeydiyyata alınmiasına imkan vardır. Əgər Mərkəzi Seçki Komissiyası onlar barəsində müsbət qərar qəbul etməsə onlar məhkəməyə müraciət edə bilərlər. Məhkəmə qərar verə bilər və onlar yenidən seçkiyə girə bilərlər.

Azərbaycanda ilk dəfədir ki, belə sərbəst, azad, tam hürriyyət içində seçkilər keçirilir. Bizim məqsədimiz, Azərbaycanın Prezidenti kimi mənim ən əsas məqsədim ondan ibarətdir ki, demokratik bir parlament seçilsin və həmin Parlamentdə Azərbaycanın hər bir siyasi qüvvəsi təmsil olunsun. Bununla da biz demokratik addım ataq.

Mən eyni zamanda sizə bildirdim ki, biz konstitusiya layihəsi hazırlayırıq. Bizdə Konstitusiya Komissiyası yaranıbdır. Bu komissiya çox hörmətli adamlardan - hüquqşünaslardan, alimlərdən, dövlət adamlarından ibarətdir. Mən bir Prezident kimi bu komissiyaya başçılıq edirəm. Bu komissiya 3-4 aydır ki, konstitusiya layihəsi üzərində işləyibdir. Nəhayət, biz bu işi bitirmişik və konstitusiya layihəsini mətbuata vermişik. Bu layihə qəzetlərdə dərc olunubdur, yayılıbdır. Oktyabr ayının sonuna qədər vətəndaşlar, siyasi partiyalar, elmi təşkilatlar, ictimai təşkilatlar, birlklər, hər bir kəs konstitusiya layihəsi haqqında öz fikirlərini deyə bilər - yəni hansı maddə ilərazıdır və ya razı deyil, nəyi əlavə etmək istəyir, nəyi çıxarmaq istəyir. Təkliflərin hamısı toplandıqdan sonra Konstitusiya Komissiyası bu ayın sonunda bir daha toplaşacaq və bunları təhlil edəcəkdir. Yararlı təklifləri, əlavələri, dəyişiklikləri edəcək və konstitusiya layihəsinin son variantını bir daha mətbuata verəcəkdir.

Bu, noyabrın 12-də olacaqdır. Yəni noyabrın 12-də seçki günü eyni zamanda konstitusiyanın qəbul edilməsi, ümumxalq səsverməsi, referendumu günüdür. Ondan 1- gün öncə son layihə yenə də mətbuata veriləcəkdir. İnsanlar bu 10 gün içərisində həmin layihəni yenə də oxuyacaq və noyabrın 12-də ona kim istəsə səs verəcək, kim istəsə səs verməyəcəkdir. Bu layihəyə xalqımız səs versə, konstitusiyasız qəbul olunacaqdır. Ona görə də noyabrın 12-si bizim üçün çox önəmli gündür. Həm yeni Parlament seçiləcəkdir, həm də yeni konstitusiya qəbul olunacaqdır. Müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik bir dövlət yaratması üçün bunlar çox önəmli işlərdir. Biz bu işləri görürük.

Sual: ABŞ Prezidenti Bill Klinton ilə qarşıdakı görüşün əsas mövzusu barədə nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə aramızda çox yaxşı əlaqələr yaranıbdır. Biz bir-birimizə məktublar yazıb göndəririk, onun təmsilçiləri mənim yanıma gəlir, mənim təmsilçilərimi o qəbul edir. Keçən il mən Nyu-Yorkda olarkən Bill Klintonla görüşdüm. Bizim çox maraqlı və çox əhəmiyyətli danışıqlarımız oldu. Biz indi Bill Klinton ilə yenə də görüşəcəyik. Bundan bir neçə gün öncə cənab Bill Klinton mənə bir məktub göndərmişdir. Bu məktubda Amerika-Azərbaycan əlaqələri haqqında geniş söhbət gedir, eyni zamanla Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının müştərək istifadə olunması barədə və həmin neftin ixracı, yəni onun Qərbə aparılması haqqında bəhs olunur. Məktubda Azərbaycanda demokratiyanın inkişafı barədə də söhbət gedir. Mən həmin məktuba cavab verdim. Sonra cənab Bill Klintonun təmsilçisi cənab Bcezinski də Bakıya gəlmişdi. Mənim onunla da görüşlərim və danışıqlarım oldu. Cənab Bill Klintonun məktubunda əsas məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsi barədə, yəni Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Dağlıq Qarabağ prob-

lemi haqqında təkliflər, fikirlərdir.

Güman edirəm ki, bizim görüşümüzdə də bu məsələlər danışıqlarımızın əsas mövzusu olacaqdır.

Sual: Azərbaycan neftinin Qərbə ixracında ABŞ-ın hər hansı bir mövqeyi varmı?

Cavab: Mən bu gün sizə bildirmək istəyirəm ki, Azərbaycan neftinin ixracı haqqında oktyabrın 9-da çox əhəmiyyətli qərar qəbul etmişik. Siz bunu bilirsiniz. Bakıda xarici neft şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti birgə konsorsium yaradıblar. Bilirsiniz ki, bir il bundan əvvəl, sentyabrın 20-də Azərbaycanda bu konsorsiumla böyük bir neft müqaviləsi imzaladıq. Bir ildir ki, konsorsium işləyir və bu konsorsiumun, bu müqavilənin fəaliyyəti nəticəsində artıq 1996-cı ilin sonunda ilkin neft çıxarılacaqdır. Neçə vaxtdır biz bu neftin ixracı yollarını araşdırırıq. Bunun bir çox variantları var idi. Ayrı-ayrı ölkələr öz maraqlarını göstərirdilər. Ancaq biz çox düşündük. Türkiyənin Prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl və Türkiyənin Baş naziri hörmətli xanım Tansu Çillər də bu barədə mənimlə danışıqlar aparmışlar. Mən bunları da nəzərə aldım. Cənab Bill Klinton da bu barədə öz fikirlərini demişdir. Mən onları da nəzərə aldım. Rusiyanın başçıları, xüsusən Baş nazir cənab Çernomırdın də mənə bu barədə məktublar yazmışdır. Bunların hamısına baxıldı. Biz çox əhəmiyyətli bir qərar qəbul etdik. İki boru xətti barədə qərar qəbul olundu - biri Gürcüstandan Qara dənizə, o birisi Rusiyadan Qara dənizə. Bu qərarı Türkiyə də çox bəyinbdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik.

Bu qərarın qəbul edilməsi asan iş deyildi. Onun qəbul edilməsi yolları çox çətin idi. Ancaq biz bu yolları keçdik və belə bir qərarı qəbul etdik.

Sual: Bu sahədəki çətinliklər nədən ibarət idi?

Cavab: Bunları biz özümüz bilirik. Bunları siz də bilirsiniz. Bu barədə siz bizdən çox yazırsınız, qəzetlərinizdə bəzən olan şeyləri, bəzən də olmayan şeyləri yazırsınız.

Sual: İlkin neftin ixrac marşrutunun Türkiyə ərazisindən keçəcəyi yer barədə nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz ki, boru xətti Ceyhana getməlidir. Bu, böyük boru xətti olacaqdır. İstanbul boğazından nəyi keçirəcəksiniz, nəyi keçirməyəcəksiniz - bu, sizin öz işinizdir. Ancaq bizim məqsədimiz boru xəttini Türkiyədən Ceyhana keçirməkdir. Sizin də istəyiniz budur. Mən sizin arzunuza görə bunu dedim.

Sual: Çeçenistan hadisələri barədə fikriniz necədir?

Cavab: Bilirsiniz ki, Çeçenistanda çox ağır savaş gedir. Bu işə bütün dünya ictimaiyyəti, dünya dövlətləri qoşulubdur. Bu işlə ATƏT çox ciddi məşğuldur. Onlar bu problemləri həll edirlər. Bizim ora qatılmağımıza ehtiyac yoxdur. Bizim özümüzün elə problemlərimiz var ki... Əsas problemimiz Dağlıq Qarabağ problemi, Ermənistanın Azrəbaycana qarşı təcavüzü və torpaqlarımızın işğal altında olmasıdır. Sizin bir milyondan artıq qardaşlarınız və bacılarınız qaçqın düşübdür. Azərbaycan torpaqlarının 20 faizi işğal olunubdur. Ermənistan təcavüzkardır. Bu, bizim üçün əsas məsələdir. Bilirəm ki, Türkiyə də bu məsələdə Azərbaycan kimi üzülür, bu işlə məşğul olur və biz sizinlə birlikdə, Türkiyə ilə birlikdə, digər dövlətlərlə birlikdə ATƏT-in Minsk qrupu çərçivəsində bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bilirsiniz ki, yeddi ildən artıqdır Ermənistanla Azərbaycan arasında müharibə gedir. Ancaq keçən il mayın 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs barədə saziş imzalanıb. İndi on yeddi aydır atəş yoxdur. Yəni qan tökülmür, vuruş yoxdur, savaş yoxdur. Bu, yeddi illik müharibədə, Ermənistan-Azərbaycan münaqişəsində ilk belə hadisədəir.

Ancaq biz bu atəşkəsi məsələnin sülh yolu ilə həlli üçün əldə etmişik. Biz barış istəyirik. Müharibə aparmaq istəmirik. Lakin biz eyni zamanda, işğal olunmuş torpaqlarımızın tamamilə azad edilməsini istəyirik. Azərbaycanın ərazi bütövlüyünün, dövlət sərhədlərinin toxunulmazlığının təmin olunmasını, işğal edilmiş torpaqlarımızın qeyd-şərtsiz azad olunması və Azərbaycan vətəndaşlarının öz doğma yurdlarına qayıtması şərti ilə biz danışıqlar aparırıq və buna nail olmaq istəyirik.

Sağ olun, təşəkkür edirəm.

ABŞ-da yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə "Türk evi"ndə Prezident Heydər Əliyevin çıxışı

Nyu-York. 20 oktyabr 1995-ci il

Hörmətli həmvətənlər, hörmətli dostlar!

Nyu-Yorka gəldiyim gün bildirdilər ki, Amerikada və Türkiyədə yaşayan bacı və qardaşlarımız, habelə Azərbaycanla bağlı olan adamlar mənimlə görüşmək istəyirlər. Mən sizin görüşünüzə gəlmişəm. Sizə Azərbaycandan səmimi salamlar gətirmişəm, xalqımızın hörmət və ehtiramını çatdırıram. Sizi ürəkdən salamlayıram və hamınıza hər kəsin yaşadığı və çalışdığı yerdə uğurlar, səadət və xoşbəxtlik diləyirəm.

Biz Azərbaycanda respublikamızın dövlət müstəqilliyinin dördüncü ildönümünü qeyd etdik. Dörd ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqil bir dövlət kimi dünya birliyinə daxil olubdur, BMT-nin üzvüdür. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü kimi bütün beynəlxalq toplantılarda iştirak edir, respublikamızın nümayəndələri orada ölkəmizi təmsil edirlər.

Burada, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illiyi münasibətilə mərasim, bayram keçiriləcəkdir. Mən də Azərbaycanın Prezidenti kimi, respublikamızın nümayəndə heyəti ilə birlikdə bu mərasimdə iştirak etmək üçün gəlmişəm. Bu, biz azərbaycanlılar üçün böyük bir tarixi hadisədir. İlk dəfədir ki, Azərbaycan xalqı öz tarixində bir müstəqil dövlət kimi, öz nümayəndəsini, öz təmsilçisini ən yüksək beynəlxalq təşkilatın - Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyinə göndərmişdir. Ona görə də mən buraya gəlmişəm və sizinlə böyük iftixar hissi ilə görüşürəm.

Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi dünyanın hər bir ölkəsi ilə sərbəst əlaqələr qurur. Biz Azərbaycanda müstəqil dövlət kimi yaşayaraq, eyni zamanda dünyada yaşayan bütün azərbaycanlılar, bütün türklər haqqında düşünürük. Hamımız bir millətik. Hamımız bir kökə məxsus xalqıq. Azərbaycanda yaşayanların, Azərbaycandan gəlib burada, Amerika, İranda, Türkiyədə, İngiltərədə və digər ölkələrdə yaşayanların hamısı birdir.

Bilirsiniz ki, indi biz Azərbaycanda ağır bir dövr, keçid dövrünü yaşayırıq. Öz problemlərimiz çoxdur. Buna baxmayaraq respublikamızdan kənarda yaşayan soydaşlarımız haqqında daim düşünürük, onların həyatı ilə həmişə maraqlanmağa çalışırıq və soydaşlarımıza qayğımızı, hörmətimizi göstərmək istəyirik. Ona görə də sizinlə bu görüşüm mənim üçün çox əzizdir. Mən çox məmnunam ki, sizin hər biriniz bu gün, bu axşam evinizdən ayrılıb buraya gəlmisiniz. Burada həm bir-birinizlə - yəqin ki, mən savab iş görmüşəm ki, siz burada bir-birinizlə görüşürsünüz, - həm də mənimlə, Azərbaycandan gəlmiş nümayəndələrlə görüşürsünüz. Mən bundan çox məmnunam.

Azərbaycanda gedən proseslər sizə məlumdur. Qeyd etdim ki, Azərbaycan dörd ildir müstəqil dövlət kimi yaşayır. Müstəqillik yolu asan deyil, çətindir.

Heç bir xalq milli azadlığını əldə edən kimi, heç bir ölkə öz dövlət müstəqilliyini qazanan kimi dərhal normal şəraitdə yaşamağa imkanı olmayıbdır. Bu, təbii bir haldır. Çünki uzun illər başqa bir dövlətin tərkibində yaşayan xalq, başqa bir dövlətin içərisində olan ölkə əgər həmin dövlətdən ayrılırsa, müstəqil olursa, onun qarşısına çoxlu böyük problemlər çıxır. Dünyaya öz müstəqilliyini bildirmək, tanıtmaq və bütün ölkələr tərəfindən tanınmaq özü böyük bir problemdir. Bilirsiniz ki, Azərbaycan uzun illər Rusiyanın tərkibində sonra isə 70 il Sovet İttifaqının daxilində olubdur. Azərbaycanın bütün iqtisadiyyatı, elmi, mədəniyyəti, insanların şəxsi əlaqələri son 70 ildə Sovetlər İttifaqının tərkibində olan başqa respublikalarla çox sıx bağlı idi. Bizim fabriklərimiz, zavodlarımız, iqtisadiyyatımız Rusiya ilə, Ukrayna ilə və başqa respublikalarla

bağlı olubdur. Ona görə də müstəqillik əldə edəndən sonra, İttifaq dağılandan sonra, müstəqil dövlət kimi yaşayan zaman iqtisadiyyatın keçid dövründə çoxlu problemlər yaranır. Bu problemlərin həlli ilə məşğuluq.

Bir daha qeyd edirəm ki, hər bir ölkənin, hər bir xalqın keçid dövründə həyatı asan olmur, yollar hamar deyil, çətin olubdur. Ancaq respublikamızın həyatını çətinləşdirən ən böyük səbəb həm də Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bilirsiniz ki, Azərbaycan yeddi ildir ki, Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Bu hərbi təcavüz 1988-ci ildə başlayıb. Bəzi səbəblərdən - bunu indi burada araşdırmağa ehtiyac yoxdur, onlar sizə məlumdur - Azərbaycan öz torpaqlarını müdafiə edə bilməyibdir. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının bir qismini işğal edibdir. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlarda bir milyondan artıq vətəndaşımız öz doğma yurdundan qaçqın vəziyyətində, ağır şəraitdə yaşayır. Onların çoxu gecə də, gündüz də, qışda da, yayda da çadırlarda yaşayır, çətin həyat tərzi keçirir. Bunların hamısı respublikamızda keçid dövrünü çox çətinləşdirib və mürəkkəbləşdiribdir.

Ancaq bəzi müsbət hallar da vardır. Bu da ondan ibarətdir ki, biz 1994-cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə etdik. 17 aydır ki, atəşkəs recimi davam edir. Yəni müharibə getmir, atəş yoxdur, qan tökülmür. Ancaq Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələri ilə üz-üzə dayanıbdır və Ermənistan qoşunları işğal olunmuş ərazilərimizdən çıxmayıbdır.

Atəşkəsin əldə olunması böyük müsbət haldır. Mən bunu bir də qeyd edirəm. Ona görə ki, insanlarda müəyyən qəbər sakitlik əmələ gəlibdir. Ondan əvvəlki illərdə savaş davam edirdi, döyüşlər, müharibə gedirdi. Şübhəsiz ki, hər gün şəhidlər olurdu, qan tökülürdü. İndi bunlar yoxdur. Lakin hələ müharibəyə son qoyulmamışdır, Ermənistanın işğalından xilas olmamışıq. İşğal edilmiş torpaqlarımız azad olunmayıb. Ona görə də bizim həyatımızda bunlar müəyyən çətinlik yaradıbdır. Biz çalışırq ki, bu şəraitdən tamamilə sülh yaranması üçün istifadə edək. Yəni müharibəyə sülh yolu ilə son qoyaq, işğal olunmuş torpaqlarımızı azad edək və Azərbaycanın ərazi bütövlüyünə nail olaq. Bunun üçün biz danışıqlar aparırıq. ATƏT-in - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının çərçivəsində Minsk qrupu yaranıbdır. 1992-ci ildə yaranmış bu qrup Ermənistan - Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək üçün təşkil olunub. Biz Minsk qrupu çərçivəsində daim danışıqlar aparırıq.

Keçən ilin dekabrında Budapeştdə ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının görüşündən sonra Minsk qrupunda müəyyən dəyişiklik

əmələ gəlib. İndi Minsk qrupunun iki sədri vardır. Sədrlərdən biri Rusiyadan, digəri isə Finlandiyadandır. Onların rəhbərliyi altında danışıqlar gedir, Ermənistan və Azərbaycan nümayəndələri vaxtaşırı görüşür, danışıqlar aparırlar. Son görüşlər və danışıqlar Finlandiyanın Alan adalarında olmuşdur. Minsk qrupunun başçıları Azərbaycana tez-tez gəlirlər, onlar Ermənistanda da olurlar. Yəqin ki, burada da bu məsələlərin həlli üçün biz müəyyən danışıqlar aparacağıq.

Güman edirəm ki, bizim sülhsevər siyasətimiz, atəşkəsin bundan sonra da davam etməsi və intensiv olaraq danışıqlar aparılması, beynəlxalq təşkilatların, xüsusən ATƏT-in bu işdə fəal iştirakı, böyük dövlətlərin bu işə yaxın münasibəti nəticəsində - ABŞ-ın rəhrəbliyi, Prezidenti cənab Bill Klinton da bu məsələnin həllinə çox böyük maraq göstərir - biz bu məsələnin sülh yolu ilə həll etməsinə nail olacağıq.

Doğrudur, bu, asan deyildir. Çünki Ermənistan işğal etdiyi torpaqlardan asanlıqla çıxmaq istəmir, çoxlu şərtlər qoyur. Ancaq bizim də şərtlərimiz var. Şərtimiz ondan ibarətdir ki, işğal edilmiş torpaqların hamısı, o cümlədən bizim üçün müqəddəs olan Şuşa rayonu, Laçın rayonu da azad edilməlidir. Belə bir şəraitdə biz Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün Dağlıq Qarabağın statusu haqqında müzakirəyə başlayıb qərar qəbul edə bilərik. Bu şərtlərlə biz Böyük Sülh Sazişi bağlayıb bölgəmizdə Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülh yarada bilərik. Biz bu yolda çalışırıq. Əgər buna nail ola bilməsək, şübhəsiz ki, torpaqlarımızı işğal altında qoya bilmərik. Azərbaycan xalqının iradəsi möhkəmdir, xalqımız çox sürətlidir və nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Xalqımız bunu etmək əzmindədir. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təmin olunacaqdır.

Dünyada haqq-ədalət varsa, insan hüquqları, hər bir dövlətin, hər bir xalqın hüquqları qorunması, bu, belə olmalıdır. Çünki heç bir vəchlə heç bir dövlət gərək imkan verməsin ki, bir dövlət başqa bir dövlətin ərazisini zorla ələ keçirsin. İndiki zamanda, XX əsrin sonra çatdığı bir dövrdə, dünyada yeni dövlətlərarası əlaqələr qurulduğu bir vaxtda, beynəlxalq təşkilatların hər bir məsələni ədalətli həll etmək haqqında müddəalar irəli sürdüyü halda, böyük dövlətlər bu müddəalara sadiq olduqlarını bildirdikləri halda, heç cür yol verə bilmərik, heç kəs də yol verməməlidir, heç bir beynəlxalq təşkilat buna razı olmamalıdır ki, bir ölkənin ərazisi başqa bir dövlət tərəfindən zorla ələ keçirilsin. Biz buna yol verməyəcəyik. Biz belə vəziyyətə qətiyyən razı ola bilmərik. Mən bir daha deyirəm, müstəqil Azərbaycan Respublikasının beynəlxalq normalar tərəfindən tanınmış ərazi bütövlüyü və

sərhədlərinin toxunulmazlığı təmin olunacaqdır.

Biz müstəqil Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün çalışırıq ki, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələr yaradaq. Son iki ildə dünyanın böyük dövlətləri ilə, qonşu ölkələrlə və digər dövlətlərlə əlaqələrimizin inkişafı üçün bir çox addımlar atılıbdır. Mən bir çox bölgələrə səfərlər etmişəm. Azərbaycana müxtəlif ölkələrin dövlət və hökumət başçılarının səfərləri olubdur. Biz çox gərəkli sazişlər, müqavilələr imzalamışıq. Bunların həyata keçirilməsini istəyirik. Məqsədimiz Azərbaycanı açıq, sərbəst bir ölkəyə çevirməkdən ibarətdir. Azərbaycanın qapılarını dünyaya açmışıq. Respublikamızın dünya investisiyaları üçün açıqdır. Azərbaycanda yeni həyat yaranır. Azərbaycanda sivilizasiyalı, hüquqi demokratik dövlət qururuq. Biz Azərbaycanı demokratiya yolu ilə aparmaq istəyirik, dünya demokratiyasına qovuşdurmaq istəyirik. Respublikamız iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatına, sahibkarlıq prinsiplərinə qovuşdurmaq məqsədi ilə hər bir ölkə ilə, hər bir şirkətlə, hər bir iqtisadi qurumla əlaqə qurmağa hazırlıq və bu əlaqələri də qururuq. Bilirsiniz ki, bir il öncə - keçən ilin sentyabrında mən buraya, Nyu-Yorka gəlmişdim. Ondan əvvəl, yəni sentyabrın 20-də Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması üçün biz dünyanın böyük neft şirkətilə müqavilə imzaladıq. Bu, çox əhəmiyyətli müqavilədir, tarixi xarakter daşıyır. Ona görə də həmin müqaviləni "Əsrin müqaviləsi" adlandırırlar. ABŞ Prezidenti cənab Bill Klinton da həmin müqavilə imzalandıqdan sonra mənə göndərdiyi məktubda bu müqaviləni "Əsrin müqaviləsi" adlandırmışdır. Bu, doğrudan da böyük bir işdir. Bir il müddətində həmin müqavilənin həyata keçirilməsi təmin olunur. Bu müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin yaratdığı konsorsium arasında imzalanmışdır. Həmin konsorsiuma Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə 11 şirkət daxildir. Onlardan beşi ABŞ şirkətidir. Bilirsiniz ki, bunlar "AMOKO", "Eksson", "Penzoyl", "MakDermott", "YUNokal" şirkətləridir. Amenrikanın bu beş böyük neft şirkəti bizim həyata keçirəcəyimiz layihənin sərmayəsinin demək olar ki, 47 faizini təmin edir. Deməli, layihənin 47 faizi Amerika şirkətlərinə məxsusdur. Ona görə də indi Amerikanın neft şirkətləri ilə Azərbaycan arasında sıx iqtisadi əlaqələr qurulubdur. Bu müqavilə 30 il müddətində bağlanıbdır. Həmin müddətdə Azərbaycanın üç neft yatağından çox böyük miqdarda neft çıxarılacaq və bu şirkətlər arasında paylanacaqdır. Şübhəsiz ki, Qərb şirkətləri bunu Qərbə ixrac edəcəklər. Bunun üçün bir ilə ərzində ilkin neftin nəql olunması, yəni xaricə çıxarılması üçün neft kəmərinin marşrutunu müzakirə etdik.

Müqavilənin həyata keçirilməsi nəticəsində 1996-cı ilin sonunda ilkin neft alınacaqdır. Həmin neftin xaricə çıxarılması məsələsi çox mühüm problemdir. Biz bunu xeyli müzakirə etdik və oktyabrın 9-da Bakıda bütün şirkətlərin hamısı birlikdə yekdil qərar qəbul etdi. Qərara alındı ki, bu neftin ixracı üçün ilkin neft kəmərindən istifadə olunsun. Boru kəmərlərinin biri Rusiyadan, başqa bir kəmər isə Gürcüstandan keçməklə Qara dənizə - biri Novorossiysk, digəri isə Supsa limanlarına çıxacaqdır.

Beləliklə, hesab edirəm ki, biz çox düzgün qərar qəbul etdik. Əminəm ki, bu qərar Azərbaycanda çıxarılan ilkin neftin ixracını təmin edəcəkdir.

Ancaq gələcəkdə bir neçə il sonra çıxarılıcaq neftin ixracı üçün də boru xəttinin çəkilməsi barədə düşünürük. Bildiyiniz kimi, bu barədə əsas fikirlərimizdən biri odur ki, həmin boru kəməri Türkiyə ərazisindən keçməklə Ceyhana çəkilsin. Amma bu barədə başqa təkliflər də var. Biz bunun da üzərində işləyirik.

Bir sözlə, bu məlumatları sizə verməkdə məqsədim odur biləsiniz ki, biz müqaviləni imzalamışıq. Ancaq bu müqavilə kağız üzərində qalmayıb, həyata keçirilir.

Oktyabrın 9-da konsorsiumun iclasında gələn il üçün büdcə müəyyənləşdirilibdir. Gələn ildən bu şirkətlər müqavilənin həyata keçirilməsi üçün 750 milyon dollar sərmayə qoyurlar. Get-gedə bu sərmayə artacaq və şübhəsiz ki, neft çıxarılacaq və ondan həm konsorsiumun üzvü olan şirkətlər, həm də Azərbaycan Respublikası mənfəət götürəcəkdir. Güman edirəm ki, bu müqavilənin həyata keçirilməsi Azərbaycanın iqtisadiyyatına xeyli kömək edəcəkdir.

Ancaq bizim iqtisadiyyatımız təkcə neftdən ibarət deyil, iqtisadi potensialımız böyükdür, təbii sərvətlərimiz zəngindir, ona görə də biz dünya şirkətlərini, beynəlxalq maliyyə mərkəzlərini Azərbaycana dəvət edirik. Biz onların respublikamıza gəlməsinə maraq göstəririk və hər biri ilə Azərbaycanda əməkdaşlıq etməyə hazırıq.

Bir də qeyd edirəm ki, biz ölkəmizin iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatı əsasında qururuq, ona görə də hər bir şirkətin Azərbaycana gəlməyə imkanı var.

Siz Amerikada yaşayırsınız, yaxşı bilirsiniz ki, hər bir şirkət sərmayə qoymaq üçün o ölkədə ictimai-siyasi vəziyyətin sabit olmasını istəyir. Azərbaycanda müharibə getdiyinə görə və son illər daxili vəziyyət sabit olmadığına görə bir çox şirkətlər ölkəmizə gəlmək istəsələr də, ancaq ehtiyat etmişlər. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət tamamilə sabitdir.

Doğrudur, bu, asan olmayıb. Bilirsiniz ki, iki il yarım əvvəl mən Azərbaycanın rəhbərliyinə gəlmişəm. 1993-cü ilin iyun ayında Azərbaycan təhlükəli bir vəziyyətdə idi. Azərbaycanda vətəndaş müharibəsi başlayırdı, insanlar bir-birini qırırdı, qan tökülürdü. O ağır dövrdə - bir silahlı dəstənin o biri silahlı dəstənin üstünə getdiyi, dövləti devirdikləri vaxtda məni Azərbaycana dəvət etdilər. Bilirsiniz ki, mən uzun müddət Azərbaycandan təcrid olunmuşdum. Bakıda yaşamırdım. Dəvət etdilər, mən də Azərbaycan xalqı ilə bağlı olduğuma görə - bu, mənim doğma xalqımdır, Vətənimdir, torpağımdır - xalqı bu ağır vəziyyətdən çıxarmaq üçün dəvəti qəbul etdim, Bakıya gəldim. Sonra məni Prezident seçdilər və iki il yarımdır ki, işləyirəm.

Bu iki il yarım Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün çox ağır bir dövr olub: birincisi, o vətəndaş müharibəsini sovuşdurmaq lazım idi. Bu, asan məsələ deyildi. Biz buna nail olduq. Ancaq bundan sonra ayrı-ayrı silahlı dəstələr, qruplar vəzifə, mənsəb əldə keçirmək üçün, öz şəxsi məqsədlərinə nail olmaq üçün yenə də dövlət çevrilişləri etməyə çalışdılar. Keçən ilin sentyabr ayında mən burada - Nyu-Yorkda idim. Gəlib BMT-nin toplantısında ilk dəfə nitq söyləmişdim. Amma mən Bakıya qayıdarkən Azərbaycanda iki böyük dövlət xalqımız - Parlament başçısının müavini Afiyəddin Cəlilov və Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimova qarşı terror etdilər, onları öldürdülər. Mən Bakıya qayıdan kimi dövlət çevrilişinə cəhd başlandı. Bilirsiniz ki, mən xalqa müraciət etdim. Çevrilişin qarşısını aldıq.

O vaxtdan bir il keçib. Bu bir il müddətində yenə də iki dəfə dövlət devirmək, Azərbaycan Prezidentini öldürmək istəyiblər. Ancaq bunların hamısının qarşısını almışıq, alırıq. Bilirəm ki, ürəyiniz ölkəmizlə bir vurur. Ona görə də mən sizə deyə bilərəm, - bir azərbaycanlı kimi arxayın olun, Doğrudur, Azərbaycanda belə cinayətkar qruplar hələ var, fəaliyyət göstərirlər. Ancaq xalq onların qarşısını ala bilir. Ən vacibi odur ki, dövlət öz dövlətçiliyini qoruya bilir və biz dövləti devirmək istəyən belə terrorçu qüvvələrin qarşısını alırıq.

Biz bu çevrilişin qarşısını aldıq. Bir çox adamlar həbs olundular, indi məhkəmə qarşısında duracaqlar. Onlardan bəziləri qaçaraq Moskvada və digər yerlərdə gizlənirlər. Azərbaycana qarşı yenə də təxribat işləri görürlər. Ancaq bunların hamısının qarşısı alınıb və alınacaqdır.

Mən buraya yola düşməmişdən iki gün əvvəl böyük bir terror aktının üstü açıldı. Bir il əvvəl edilmiş terrorun cinayətkarları tapıldı və onlar həbs olunublar. Bu məsələ artıq açılıb. Bu terroru edənlər bu ilin martında dövlət çevrilişi etmək istəyənlər idi. Onlar tək özləri deyildilər, onları xaricdən, ayrı-ayrı ölkələrdən də idarə edirdilər. Daxili İşlər nazirinin keçmiş müavini Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov ayrı-ayrı siyasi qüvvələrlə birləşərək hökumətin üzərinə hücum et-

dilər. Azərbaycanın Prezidentini öldürməyə və dövləti ələ almağa çalışdılar. Biz bunun qarşısını aldıq. Ancaq keçən il sentyabrın 30-da olan terrorun üstü indiyədək açılmamışdı. İndi açılıb, terror edən həmin adamlar həbs olunublar, ələ keçiblər, məhkəmə qarşısında duracaqlar.

Demək istəyirəm ki, bizim xarici düşmənimiz - Ermənistan silahlı qüvvələri yeddi il Azərbaycanı dağıdır, bir də ki, təəssüflər olsun, xalqımızın içərisində ayrı-ayrı qruplar birbiri ilə vuruşurlar. Bu yeddi il içərisindəki daxili çəkişmələr, vuruşmalar Azərbaycanın Ermənistan qarşısında məğlub olmasının, yəni torpaqlarımızın bir hissəsinin işğal edilməsinin əsas səbəblərindən biri olubdur.

Biz bunların qarşısını almışıq. İndi Azərbaycanda sakitlikdir. İnsanlar sərbəst yaşayırlar. Doğrudur, ətin yaşayırlar. İqtisadi vəziyyət ağırdır. Əhalinin bir qismi kasıblıq içərisindədir. Ancaq insanlar mənəvi cəhətdən rahat yaşayırlar, sabit şərait yaranıb. Ona görə də Azərbaycana gəlin. Azərbaycana rahat gəlməyə, qohum-əqrabalarınızla görüşməyə əvvəlki illərdən indi daha yaxşı şərait yaranıbdır.

Mən burada olduğum müddətdə bir çox dövlət başçıları ilə görüşəcəyəm. O cümlədən ABŞ-ın Prezidenti Bill Klintonla mənim görüşüm olacaq. Başqa dövlət başçıları ilə də görüşlərim olacaqdır. Bu görüşlərimizdə şübhəsiz ki, həm ikitərəfli, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi məsələləri, həm də Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması məsələləri müzakirə ediləcəkdir. Bir daha deyirəm ki, bu münaqişəyə son qoyulması yalnız bizim şərtlərimiz əsasında - Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması, qaçqın düşmüş vətəndaşlarımızın öz yerlərinə, yurdlarına qayıtması nəticəsində mümkün ola bilər. Bu məsələlər cənab Bill Klintonla da, başda dövlət başçıları ilə də müzakirə ediləcəkdir. Ola bilsin ki, Ermənistan Prezidenti Ter-Petrosyan ilə də mənim görüşüm olsun. Hər halda Nyu-Yorkda bir neçə gün çox gərgin çalışacağıq, işləyəcəyik. Güman edirəm ki, işlərimiz səmərəli olacaqdır.

Mən sizinlə görüşməyimdən bir daha məmnun olduğumu bildirirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Biz burada Türk evindəyik. Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədən Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Nyu-Yorkdakı Türk evinə mən ikinci dəfədir ki, gəlirəm, doğma evimiz kimi gəlirəm. Ev sahiblərinin burada Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün göstərdikləri səylərə, gördükləri işlərə öz hörmət və ehtiramımı bildirmək istəyirəm. Biz dostluq, qardaşıq. Mən buraya

gələrkən bu gün bir saat, saat yarım İstanbulda oldum. Orada bir neçə rəhbər şəxslərlə görüşdüm. İki gün bundan əvvəl hörmətli dostumuz Süleyman Dəmirəllə telefonla danışdım. Türkiyənin Prezidenti Süleyman Dəmirəl də sabah buraya gələcəkdir. Onunla da görüşlərimiz olacaq. Yəni bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri tarixi köklər üzərində qurulub. Ancaq yeni dövrdə bu əlaqələr inkişaf edir, böyüyür və hər birimiz bu əlaqələrin inkişaf etməsinə çalışmalıyıq. Azərbaycanın Prezidenti kimi bundan sonra da çalışacağam.

Türkiyə Cümhuriyyətinin 72-ci ildönümü münasibətilə Bakıdakı Türkiyə səfirliyinin təşkil etdiyi rəsmi qəbulda Prezident Heydər Əliyevin nitqi

"Gülüstan" Sarayı.
28 oktyabr 1995-ci il

Hörmətli cənab səfir, hörmətli xanımlar və cənablar!

Bu gün təkcə Türkiyə xalqı üçün deyil, həm də Azərbaycan xalqı üçün böyük tarixi gündür. Türkiyə Cümhuriyyətinin yaranmasının 72-ci ildönümünü qeyd edirik. Bu münasibətlə mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını, bu ölkədə olan bacı və qardaşlarımızı, buraya toplaşan qonaqları, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyəti 72 il ərzində keçdiyi yol ilə indən sonra da uğurla gedəcək və yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

Son 72 il Türkiyə xalqı üçün çox mühüm və yeni bir tarixi mərhələdir. Böyük Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində, onun qəhrəmanlığı nəticəsində yaranmış Türkiyə Cümhuriyyəti 72 ildir ki, demokratik, mütərəqqi bir ölkə kimi dünya birliyində layiqli yerini tutubdur, öz həyatı və dövlət quruluşu ilə, daxili və xarici siyasəti ilə bir çox dövlətlər üçün örnək olmuşdur.

Türkiyə Cümhuriyyətində əldə olunmuş bütün naliyyətlər - iqtisadiyyatın inkişafı, insanların rifahının yaxşılaşması, demokratiyanın inkişafı, insan və söz azadlığı, insan hüquqlarının qorunması böyük Türk xalqının çoxəsrlik tarixində ən yüksək zirvədir, ən böyük nailiyyətdir. Bütün bu nailiyyətlərlə biz, qardaş xalq və qardaş ölkə kimi fəxr edirik və bu nailiyyətlərə görə sizinlə birlikdə məmnun olduğumuzu bildirirk.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri böyük tarixə malikdir. Biz tarix boyu, əsrlər boyu birlikdə olmuşuq, bərabər yaşamışıq, yanaşı getmişik və öz əcdadlarımızın yaratdığı milli adət-ənənələrə, mənəviyyata sadiq olmuşuq. Tarixi köklərimiz bizi birləşdirir və əsrlər boyu öz milli mənliyimiz, milli azadlığımız, istiqlal uğrunda apardığımız mübarizə bizi daha da birləşdiribdir.

Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Bu dövr Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrini həddindən artıq inkişaf etdirib, onu bütün sahələrə yayıb, genişləndiribdir. Biz uzun müddət bir-birimizdən ayrı düşmüşdük. Yəni əlaqələrimiz məhdud olmuşdu və həsrət içərisində yaşamışdıq. Bu dörd ilin içərisində isə biz bir-birimizə qovuşmuş və dostluq, qardaşlıq əlaqələrini tarixi köklər üzərində sürətlə inkişaf etdiririk. Bu, bizim ümumi nailiyyətlərimizdir. Biz bunu yüksək qiymətləndiririk. Azərbaycanın müstəqillik dövründə ona qardaşlıq münasibəti göstərən, respublikamızı dəstəkləyən ən yaxın dost ölkə Türkiyədir. Bunu bizim bütün vətəndaşlarımız yaxşı bilir və yüksək qiymətləndirirlər. Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin yaranması və inkişaf etməsində də biz Türkiyə ilə daim sıx əməkdaşlıq edirik və bu əlaqələrimizin çox müsbət bəhrələrini görürük.

Azərbaycana hərbi təcavüz edən Ermənistan işğalçılarının respublikamızda yaratdığı ağır vəziyyəti Türkiyədə də dərindən, qəlbdən hiss edirlər və bizim bu vəziyyətdən çıxmağımız üçün özümüzün çalışdığımız kimi, Türkiyədəki bacı və qardaşlarımız da çalışırlar.

Ermənistanın Azərbaycana qarşı etdiyi hərbi təcavüzü, ədalətsizliyi Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti və xalqı daim pisləyib və həmişə Azərbaycanı dəstəkləyib, Azərbaycanın haqq işini müdafiə edib və bütün beynəlxalq təşkilatlarda, dünya miqyasında, ikitərəfli münasibətlərdə Türkiyə Azərbaycana dayaq olmuşdur. Bütün bunlar bizim dostluq və qardaşlıq əlaqələrimizin sarsılmaz olduğunu nümayiş etdirir. Mən şübhə etmirəm ki, bundan sonra heç bir vasitə bizi bir-birimizdən ayıra bilməyəcəkdir.

72 il ərzində Türkiyə Cümhuriyyətində əldə etmiş naliyyətlər, iqtisadiyyatın inkişafında, insanların rifahının yaxşılaşdırılmasında, dövlət quruculuğunun, demokratiyanın inkişafında, demokratik prinsiplərin bərqərar olunmasında qazanılmış uğurlar və Türkiyənin bugünkü mənzərəsi bizim üçün örnəkdir və böyük təcrübə məktəbidir. Biz çalışırıq ki, bu təcrübədən səmərəli istifadə edək və Azərbaycanda müstəqil demokratik, hüquqi dövlət quraq. Bu sahədə Türkiyənin təcrübəsi gərəklidir və bu təcrübə bizə çox kömək edir.

Biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk demokratik Parlamentinə seçkilər keçirəcəyik. Bu, Azərbaycanın həyatında böyük tarixi hadisədir. Ümidvaram ki, seçkilər xalqın iradəsini ifadə edəcək və tam demokratik şəkildə keçəcək, bütün insanların, partiyaların hüquqlarının qorunması təmin olunacaq və hər bir kəs bu seçkilərdə ya seçmək, ya da seçilmək hüququndan şübhəsiz ki, istifadə edəcəkdir. Türkiyə Cümhuriyyətində də dövlət quruculuğunda proseslər gedir, yeni hökumət yaranır, vaxtından əvvəl parlament seçkiləri təyin edilibdir. Türkiyədə dekabr ayında parlament seçkiləri keçiriləcəkdir. Biz əminik ki, həm hökumətin qurulması - bu günlərdə yeni hökumət qurulur, - həm də seçkilərin keçirilməsi müvəffəqiyyətlə başa çatacaqdır.

Ölkələrimiz arasındakı əlaqələr bütün sahələrdə təzahür edir: ayrı-ayrı insanların, təşkilatların, şirkətlərin, iqtisadiyyatla məşğul olan nazirliklərin əlaqələri və dövlətlərarası əlaqələr - bütün sahələrdə və bütün mərhələlərdə bu əlaqələr yaranıb və çox uğurla irəliyə gedir. Türkiyənin dövlət və hökumət başçıları ilə biz mütəmadi olaraq əlaqə saxlayırıq, çoxlu məsələlər barəsində məsləhətləşirik. Mən bu əlaqələrdən məmnun olduğumu bir daha bildirmək istəyirəm.

Bir neçə gün bundan əvvəl Amerika Birləşmiş Ştatlarında olarkən mən ABŞ Prezidenti cənab Bill Klintonla görüşdüm və ətraflı danışıqlar apardım. Dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçıları ilə görüşlərim oldu və bu görüşlərin arasında Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli, əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə görüşüm və söhbətlərim xüsusi yer tutur. Belə görüşlər artıq ənənəvi xarakter almışdır və bu görüşlərdən biz - hər iki tərəf əlaqərimizin inkişaf etdirilməsi üçün və Azərbaycanda demokratik proseslərin həyata keçirilməsi üçün, respublikamızın qarşısında duran ağır problemlərin həll olunması üçün daim məsləhətlər alırıq, bəhrələnirik. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin nə qədər geniş, nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir.

Türkiyə Cümhuriyyətinin 72-ci ildönümü münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Türkiyə xalqına səadət və xoşbəxtlik, Türkiyə dövlətinə və hökumətinə qarşısında duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram.

28 saylı Səbail seçki dairəsinin 17 saylı seçki məntəqəsində səs verdikdən sonra jurnalistlərlə görüşdə Prezident Heydər Əliyevin verdiyi bəyanatdan:

12 noyabr 1995-ci il

...Sual: Yeni seçkilərdən sonra Azərbaycanla Türkiyə arasında münasibətlərdə bir dəyişiklik olacaqmı?

Cavab: Biz Türkiyə ilə qardaşlıq, dostluq əlaqələrini bundan sonra da davam etdirəcəyik. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə iki gün bundan əvvəl telefonla danışmışam. Mən onu Azərbaycana dəvət etmişəm. Bu seçkilərdən, konstitusiya qəbul edildikdən sonra Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri gözlənilir. Biz aramızda olan dostluq və qardaşlıq əlaqələrini bu və başqa addımlarla daha da möükəmləndirəcəyik.

Prezident Heydər Əliyevin Böyük Britaniyanın "Ekonomist" jurnalının müxbirinə verdiyi müsahibədən:

London. 1 dekabr 1995-ci il

...Sual: İlkin neftin ixracı ilə əlaqədar Türkiyənin irəli sürdüyü bir iddia var. Türkiyə bəyan edir ki, əgər Qara dənizdən çoxlu neft ixrac olunarsa, o zaman ekoloci problemlərlə əlaqədar Bosfor boğazında təhlükə yarana bilər. Bu fikirlərə Siz necə baxırsınız?

Cavab: Əgər Türkiyə bunu deyirsə, demək Türkiyə doğru deyir. Bu boğazın hakimi onlardır. Mən onların fikri ilə razıyam.

Prezident Heydər Əliyevin "Mond Diplomatik" qəzetinin müxbirinə verdiyi müsahibədən:

Paris. 3 dekabr 1995-ci il

...Sual: Azərbaycanın Rusiya ilə münasibətləri barədə nə deyə bilərsiniz? Bəziləri deyirlər ki, Rusiya Ermənistana kömək edir, amma Azərbaycana kömək etmir. Rusiya Azərbaycanın əleyhinə olaraq Ermənistana kömək edir ki, Azərbaycan Rusiya ordularının, qüvvələrinin Azərbaycanda yerləşdirilməsinə razı olsun. Bu doğrudurmu?

Heydər Əliyev: Bunları kim deyir?

Müxbir: Şərhçilər.

Heydər Əliyev: Bunun bir hissəsi doğrudur. Rusiya Ermənistana kömək edir. Siz bilirsiniz ki, Rusiyanın Ermənistanda çox böyük hərbi hissələri, bazaları var. Orada otuz min nəfərdən artıq ordusu var. Ermənistanın Türkiyə ilə, İran ilə sərhədlərini də Rusiyanın qoşunları qoruyur. Siz Ermənistanda olanda soruşmamısınız ki, bu, onların müstəqilliyinə nə qədər uyğundur?

Müxbir: Soruşmuşam. Deyiblər ki, bu ona görədir ki, bizi Türkiyədən qorusunlar. Siz bilirsiniz ki, bizim Türkiyə ilə problemimiz var.

Heydər Əliyev: Bu doğru deyil, Türkiyənin Ermənistanda nə işi var! Türkiyə demokratik bir ölkədir, heç kəslə müharibə etmək istəmir...

"Müstəqilliyimiz əbədidir", 5-ci kitab, səh.89-95.

Naxçıvanda baş vermiş təyyarə qəzasında həlak olan həmvətənlərimizin xatirəsini yad etmək üçün keçirilmiş matəm mərasimində Prezident Heydər Əliyevin çıxışından:

Təzəpir məscidi
7 dekabr 1995-ci il

...Bir də ki, şübhəsiz, qonşularımız İran və Türkiyənin ərazisindən yollar var, bunlardan da istifadə olunur...

...Yaxın dostumuz, Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəl mənim dəvətimlə bu gün Azərbaycana rəsmi səfərə gəlir. Azərbaycan artıq müstəqil dövlətdir və böyük-böyük dövlətlərin başçıları, nümayəndə heyətləri onu ziyarət edirlər...

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCANA I RƏSMİ SƏFƏRİ

Azərbaycana rəsmi səfərə gələn Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Bina hava limanında qarşılanması mərasimində Prezident Heydər Əliyevin bəyanatı

7 dekabr 1995-ci il

Hörmətli Prezident, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Hörmətli qonaqlar!

Qədim Azərbaycan torpağına - öz məmləkətinizə xoş gəlmisiniz. Mən sizi Azərbaycan xalqı adından, bütün Azərbaycan vətəndaşlarının adından ürəkdən salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, sizin bu səfəriniz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə çox böyük xidmət edəcəkdir. Mən əminəm ki, siz burada Azərbaycan xalqının Türkiyəyə, Türk xalqına olan sevgisini, məhəbbətini bir daha hiss edəcəksiniz və sizinlə burada apardığımız danışıqlar, görüşlərimiz, sizin Azərbaycan xalqı ilə görüşləriniz gələcək əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Siz bizə xoş gəlmisiniz, biz sizi qucaqlayırıq və sizi əziz dost, qardaş kimi qəbul edirik. Sizə burada xoş günlər arzulayıram.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin şərəfinə rəsmi ziyafətdə Prezident Heydər Əliyevin nitqi

"Gülüstan" Sarayı.
7 dekabr 1995-ci il

Hörmətli Prezident, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan dost Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşımız Süleyman Dəmirəlin ölkəmizə rəsmi səfəri münasibətilə

əlamətdar tarixi bir gün yaşayır.

Müstəqil Azərbaycan Respublikasının yarandığı gündən indiyə qədər keçən dörd il müddətində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında olan dostluq, qardaşlıq əlaqələri gündən-günə inkişaf edir, güclənir və möhkəmlənir. Bu əlaqələr xalqlarımız, ölkələrimiz arasında olan tarixi köklər üzərində qurulmuşdur və keçmiş tariximizin davamıdır. Əsrlər boyu bizim xalqlarımız bir kökdən olaraq, bir kökə mənsub olaraq, bir dilə, bir dinə mənsub olaraq, bərabər yaşamışlar, sıx əlaqədə olmuşlar, bir-birinə kömək etmişlər, bir-birinə dayaq olmuşlar və öz tarixlərini yaratmışlar.

Xalqlarımızın adət-ənənələrinin, bir-birinə bənzərliyi, eyniliyi, mədəniyyətimizin, elmimizin bir-birinə sıx bağlı olması bizi daim bərabər etmişdir. Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, Türk xalqının köməyini hiss etmiş, Türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir. Lakin yeni mərhələdə ölkələrimiz arasında olan əlaqələr tamamilə başqa xarakter daşıyır.

Dörd il bundan öncə Azərbaycan ilk dəfə müstəqilliyini əldə edərkən Türkiyə Cümhuriyyəti dünya ölkələri içərisində birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış və Azərbaycanın müstəqilliyini başqa ölkələrin tanıması üçün, beynəlxalq təşkilatların qəbul etməsi üçün lazımi səylər göstərmiş və bizə kömək etmişdir. **Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayan zaman, hələ Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu dövrdə Türkiyə Azərbaycan xalqı ilə həmrəyliyini bildirmiş, öz etiraz səsini dünyaya qaldırmış, Azərbaycanı dəstəkləmiş və Azərbaycanın haqq-ədalət işinə həmişə tərəfdar çıxmışdı.** Ölkəmiz müstəqil dövlət olandan sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sıx əlaqələr yaranmışdır. Bu əlaqələr getdikcə inkişaf edir, yeni nailiyyətlər gətirir, hər iki ölkə üçün faydalıdır və ümumiyyətlə, gələcəkdə daha faydalı olacaqdır.

Qeyd etdiyim kimi, Azərbaycan Respublikası yeddi ildir ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan ərazisinin iyirmi faizdən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan çox vətəndaşımız didərgin düşmüş, qaçqın vəziyyətində yaşayır. Onlar ağır həyat tərzi keçirirlər. Bu dövrdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı Azərbaycana həmişə dayaq olmuş, dəstək vermiş və beynəlxalq təşkilatda bizi müdafiə etmişdir. Biz bütün bu dostluq və qardaşlıq münasibətlərinə görə Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına və Türkiyə dövlətinə daim öz minnətdarlığımızı bildirmişik və bu gün də bildiririk.

Bütün bu əlaqələrin yaranmasında və inkişaf etməsində Türkiyə Prezidenti, hörmətli cənab Süleyman Dəmirəlin xüsusi fəaliyyəti və xüsusi rolu var. Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən Süleyman Dəmirəl Azərbaycana nəinki maraq göstərmiş, diqqət yetirmiş, həm də 1967-ci ildə Türkiyənin Baş naziri kimi Sovetlər İttifaqına ilk dəfə səfər edərkən Azərbaycana gəlmiş, ölkəmizlə tanış olmuş, xalqımıza öz ehtiramını bildirmişdir. Hörmətli Süleyman Dəmirəl ondan sonra da həmişə Azərbaycana diqqətli münasibət bəsləmiş, qayğı göstərmişdir. Qeyd etdiyim kimi, son illər, Azərbaycanın bu ağır dövründə o həmişə Azərbaycanla maraqlanmış və Azərbaycan onun üçün doğma olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi tanınmasında da Baş nazir Süleyman Dəmirəlin xüsusi rolu, xüsusi fəaliyyəti olmuşdur. Bu müddətdə Azərbaycanda gedən proseslərin sağlam istiqamətdə həyata keçirilməsi üçün o, bir dost, bir qardaş kimi Azərbaycana həmişə öz münasibətini bildirmişdir.

Bu gün hörmətli dostumuz Süleyman Dəmirəl Prezident kimi Azərbaycana bizim dəvətimizlə ilk dəfə rəsmi səfərə gəlmişdir. Əvvəlki səfərlərdən bu səfərin fərqi ondan ibarətdir ki, Azərbaycan artıq dörd ildir müstəqil bir dövlət kimi yaşayır. Ermənistanla gedən müharibədə atəşkəs yaranmış və on doqquz aydır ki, biz atəşkəs recimindəyik, insanlarımız müəyyən qədər rahat yaşayırlar. Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul edilmişdir. Bu konstitusiya ümumxalq səsverməsi, referendum yolu ilə qəbul olunmuşdur. Azərbaycanı demokratik, hüquqi dövlət quruculuğu yolu ilə paran konstitusiya Azərbaycanda demokratiyanı inkişaf etdirən konstitusiya, Azərbaycanı xoşbəxt gələcəyə doğru aparan bir konstitusiya qəbul edilmişdir. Müstəqil Azərbaycanda ilk dəfə parlament seçkiləri keçirilmişdir. Həm də bu seçkilər demokratik prinsiplər əsasında keçirilmiş və demokratik Parlament yaradılmışdır. O, artıq öz fəaliyyətinə başlamışdır.

Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitləşmişdir və ölkəmiz qarşısında duran iqtisadi məsələlərlə ciddi məşğul olmağa başlamışdır. Azərbaycan öz qarşısında duran digər məsələlərlə də məşğuldur. Məhz belə bir zamanda müstəqil Azərbaycan öz tarixində ilk demokratik konstitusiyanı qəbul etdikdən sonra, yeni parlament seçkiləri keçirildikdən sonra və parlament yaradıldıqdan sonra ölkəmizə ilk səfər edən dövlət başçısı əziz dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Bu, bizi çox sevindirir. Bizim sevincimizi Bakı sakinləri nümayiş etdirdilər. Küçələrdə onlar əziz qonağımızı qarşılayarkən öz qəlblərindəki xoş duyğuları bildirməyə çalışdılar. Bizim hər birimiz sevincimizi ifadə etmək istəyirik və mən bütün Azərbaycan xalqının bu sevincini ifadə edərək, ürəkdən deyirəm: əziz dostumuz, qardaşımız, siz Azərbaycana, öz vətəninizə, öz məmləkətinizə xoş gəlmisiniz, səfa gətirmisiniz! Azərbaycanda xalq sözü var: qədəmləriniz xeyirli olsun, səfəriniz uğurlu olsun! Əminik ki, sizin bu səfərinizdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr daha sürətlə inkişaf edəcəkdir. Bu, bizim qəlbimizdə olan istəklərdir, arzumuzdur. Biz bu yolda çalışmışıq və bundan sonra da çalışacağıq.

Hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl ilə birlikdə onun xanımı hörmətli Nəzmiyyə xanım da ölkəmizə gəlmişdir. Xatirimdədir, Nəzmiyyə xanım da ilk dəfə 27 il bundan öncə Bakıya, Azərbaycana gəlmişdi. Məhz o vaxt mən həm dostum Süleyman Dəmirəl ilə, həm də hörmətli bacım Nəzmiyyə xanımla tanış oldum. Zaman keçib, dünyada çox dəyişikliklər baş verib, ancaq Süleyman Dəmirəlin və Nəzmiyyə xanımın Azərbaycana olan münasibəti nəinki dəyişməyib, hətta gündən-günə artıb, güclənib və Azərbaycanın da Türkiyə xalqına, Türk xalqına Türkiyə Cümhuriyyətinə olan məhəbbəti, sevgisi daha da artıb, daha da güclənibdir. Nəzmiyyə xanım 27 il öncə gördüyü Bakını bu günlər bir də görür və güman edirəm ki, baş vermiş dəyişiklikləri də müşahidə edəcəkdir. Şübhəsiz ki, o, müsbət hallara sevinəcək və həyatımızda yaranmış çətinliklərə, bəzi dərdlərə bizimlə birlikdə kədərlənəcək, sıxılacaqdır. Bu da təbiidir, çünki, bir daha deyirəm, biz dostluq, qardaşıq və dost, qardaş da həmişə bir yerdə olmalıdır - həm şad gündə, həm də kədərli gündə.

Bu gün bizim üçün çox şad gündür, çünki ölkəmizə, şəhərimizə belə mötəbər qonaqlar gəliblər. Süleyman Dəmirəl ilə birlikdə buraya böyük nümayəndə heyəti, onu müşayiət edən iş adamları, mətbuat nümayəndələri gəlmişlər. Mən onları da salamlayıram, onlara da "xoş gəlmisiniz" deyirəm və ümidvaram ki, onların hər biri Azərbaycana öz münasibətini əziz dostumuz və qardaşımız, Türkiyənin Prezidenti, dünyanın ən böyük ictimai-siyasi xadimlərindən biri, dünya siyasətində böyük rol oynayan Süleyman Dəmirəl kimi bildirəcəkdir.

Əziz dostum, qardaşım Süleyman bəy, bu gün bu "Gülüstan" sarayındakı ziyafət sizin şərəfinizədir. Nəzmiyyə xanımın şərəfinədir və sizinlə birlikdə buraya təşrif gətirmiş qonaqların şərəfinədir.

Rica edirəm, badələrimizi qaldıraq Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə xalqının şərəfinə, Türk xalqının şərəfinə, Türk xalqının gələcəyinin şərəfinə, bizim gələcəyimizin şərəfinə! Sağ olun, əziz Süleyman bəy, Nəzmiyyə xanım, sizin şərəfinizə.

Sağ olun.

Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə BDU-nun tələbə şəhərciyində müvəqqəti məskunlaşmış qaçqınların görüşündə Prezident Heydər Əliyevin çıxışı

8 dekabr 1995-ci il

Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz və qardaşımız hörmətli Süleyman Dəmirəl Azərbaycanda olduğu günlərdə qaçqın düşmüş vətəndaşlarımızın bir qrupu ilə görüşmək istədi. Onun arzusunu yerinə yetirərək sizin yanınıza gəlmişik. Biz bilirik ki, siz ağır şəraitdə yaşayırsınız. Ən üzücü hal odur ki, torpaqlarımız yağılar, qəsbkarlar tərəfindən işğal olunubdur. Siz babalarınızdan, ulu babalarınızdan qalmış torpaqlardan, qurub-yaratdığınız elinizdən-obanızdan didərgin düşmüsünüz. Azərbaycanın dərdləri çoxdur. Ancaq ən böyük dərdi ərazisinin bir qisminin Ermənistan tərəfindən işğal olunması və vətəndaşlarımızın bu torpaqlardan didərgin düşməsidir. Şübhəsiz ki, bu müharibədə şəhidlər vermişik. İgid oğlanlarımız həlak olublar. Onların ruhu şad olsun.

Qaçqın vətəndaşlarımızın necə ağır vəziyyətdə yaşamasını təkcə Azərbaycanda deyil, Türkiyədə də bilirlər. Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycanın böyük dostu hörmətli Süleyman Dəmirəl də bilir. Biz nəinki bilirik, həm də çılışırıq ki, bu vəziyyətdən sizi də çıxaraq, bütün Azərbaycan xalqı da çıxsın. Bu vəziyyət ayrı-ayır şəxslərin həyatında baş vermiş çətinlik deyil, bütün Azərbaycan xalqının həyatında baş vermiş faciədir. Ona görə də biz bütün tədbirləri görürük ki, bu bəladan xilas olaq, Azərbaycanın işğal edilmiş torpaqları azad olunsun və siz öz yurdunuza qayıdasınız.

On doqquz aydır atəşi dayandırmışıq, sülh danışıqları aparırıq. Çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bizim dostumuz Türkiyə, onun Prezidenti hörmətli Süleyman Dəmirəl də, başqa dostlarımız da çalışırlar. Beynəlxalq təşkilatlarda da bizə başa düşürlər. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycana qarşı haqsızlıq olub, ədalətsizlik olubdur, bu ədalətsizliyə dözmək olmaz. XX əsrin sonunda insanların azadlığının tələb olunduğu bir vaxtda onların azadlığını əlindən almaq, onlara bu qədər qəsd etmək olmaz. Bunu nə Allah qəbul edə bilər, nə də dünyada yaranmış sülh və əmin-amanlıq qanunları, normaları qəbul edər. Biz ümid edirik ki, bu məsələni sülh yolu ilə həll edib, işğal olunmuş torpaqları azad edib sizi öz yerlərinizə qaytaracağıq.

Biz torpaqlarımızı heç vaxt əldən verməyəcəyik. Bunu bilin və arxayın olun. Azərbaycan torpaqlarının bir qarışının da başqa dövlətin əldə saxlamasına heç vaxt imkan verməyəcəyik. Biz sülhsevər xalqıq. Bütün bu zərbələrə, bizə vurulmuş ziyanlara baxmayaraq, məsələni sülh

yolu ilə həll etmək istəyirik. Ancaq əgər bu yol mümkün olmasa, xalqımızın iradəsi də, gücü də var ki, nəyin bahasına olursa-olsun öz torpaqlarımızı azad edək. Yəni torpaqlarımız mütləq azad olunacaq, siz hökmən yurdlarınıza qayıdacaqsınız. Biz buna nail olacağıq, buna əmin ola bilərsiniz. Mən də, dostumuz Süleyman bəy də bu ümidlərlə yaşayırıq, siz də bu ümidlərlə yaşayın.

Xalqımız dözümlü xalqdır. Belə dəhşətlərə başqa xalq bəlkə də dözə bilməzdi. Biz ona görə dözürük ki, sülh istəyirik, sülh istəyirik və sülh istəyirik. Ancaq bizim dözümümüzün də həddi-hüdudu var və bu həddə çatandan sonra biz nəyin bahasına olursa-olsun öz torpaqlarımızı geri qaytaracağıq. Buna arxayın ola bilərsiniz. Mən sizi əmin edirəm.

Ölkəmizin bu ağır dövründə daim Azərbaycana dayaq olduqlarına görə, kömək etdiklərinə görə, bu dərdi Azərbaycanla bir yerdə çəkdiklərinə görə Türkiyə Respublikasına, onun xalqına, dövlətinə, Türkiyənin Prezidenti Süleyman Dəmirələ qaçqınlar adından, bütün Azərbaycan xalqı adından minnətdarlıq edir və əmin olduğumu bildirirəm ki, Türkiyə heç vaxt Azərbaycanı tək qoymayacaq, darda qoymayacaqdır və bir gün gələcək, biz yaxşı günləri Türkiyə ilə, Türk xalqı ilə bir yerdə bayram edəcəyik.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasının Milli Məclisinin üzvləri ilə görüşündə Prezident Heydər Əliyevin nitqi

8 dekabr 1995-ci il

Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl və hörmətli qonaqlar, hörmətli Milli Məclis!

Müstəqil Azərbaycan Respublikası demokratik prinsiplər əsasında seçilmiş ilk Milli Məclisi bir neçə gün bundan öncə öz işinə başlamışdır. Bu, müstəqil Azərbaycan Respublikasının həyatında yeni tarixi bir mərhələdir. Çox əlamətdar haldır ki, müstəqil Azərbaycan Respublikasının ilk Parlamenti, ilk Milli Məclisi isə başlayan kimi Milli Məclisin üzvləri qarşısında, Milli Məclisin iclasında Azərbaycanın dostu və qardaşı olan Türkiyə Cümhuriyyətinin Prezidenti, bizim əzizimiz Süleyman Dəmirəl nitq söylədi Bu, bizim Parlamentin fəaliyyətinin başlanğıcıdır. Parlament öz işinə başlayarkən xarici dövlət nümayəndələrindən ilk dəfə Türkiyə Cümhuriyyəti Prezidentinin Milli Məclisin qarşısında nitq söyləməsi həm təbidir, həm də çox sevindirici haldır.

Hörmətli Prezident Süleyman Dəmirəl öz dərin məzmunlu, çox böyük mənalı, Azərbaycan Respublikasının bu günü və gələcəyi üçün çox

gərəkli, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq əlaqələri üçün çox əhəmiyyətli olan nitqində gözəl fikirlər irəli sürdü. Hörmətli Süleyman Dəmirəlin bu nitqi bizim Milli Məclisin işə başladığı zaman respublikamız üçün, Milli Məclisimiz üçün güman edirəm ki, böyük bir köməkdir, böyük bir qayğıdır. Beləliklə, mən Milli Məclisin adından, öz adımdan hörmətli Prezident Süleyman Dəmirələ Milli Məclisin qarşısında çıxış etdiyinə görə və çox məzmunlu nitq söylədiyinə görə, çox mühüm fikirlər irəli sürdüyünə görə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında seçilmiş Parlamentinin isə bir neçə gün yaşı var. Biz təzə başlayırıq. Bun görə də bizim üçün Türkiyə Cümhuriyyəti kimi böyük bir ölkənin, dövlət quruculuğu sahəsində, demokratiya sahəsində, iqtisadiyyat sahəsində, cəmiyyətin bütün sahələrində böyük nailiyyətlər əldə etmiş xalqın liderinin, ölkənin Prezidentinin bizim qarşımızda irəli sürdüyü fikirlər Azərbaycan Respublikasının gələcəyi üçün, Milli Məclisin gələcək fəaliyyəti üçün çox gərəklidir, çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz bu gün Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən böyük Mustafa Kamal Atatürkün başçılığı ilə yaranmış cümhuriyyətin keçdiyi yola öz hörmətimizi bildirirk, şanlı və şərəfli yola öz hörmətimizi bildiririk. Türkiyə Cümhuriyyətinin əlli il müddətində demokratiyanın inkişafında, iqtisadiyyatın demokratiya prinsipləri əsasında inkişafında, insan hüquqlarının qorunması sahəsində göstərdiyi səylərə, əldə etdiyi nailiyyətlərə öz hörmət və ehtiramımızı bildirirk və bütün bunlara görə, Məclisimizin işə başladığı zaman hörmətli Prezident söylədiyi nitq, bir daha qeyd edirəm, bizim üçün çox əhəmiyyətlidir.

Azərbaycanın müstəqillik tarixində ən böyük hadisə noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul etdiyi ilk demokratik konstitusiyasıdır, noyabrın 12-də demokratik prinsiplər əsasında seçdiyi ilk Parlamentdir. Biz bu yolla az müddətdir ki, gedirik. Biz demokratiya yolu ilə gedirik. Həyatımızı demokratik prinsiplər əsasında qururuq, ilk addımlar atırıq. Bu qısa müddətdə, yəni dörd il ərzində bu səviyyəyə çatmaq, konstitusiyanı qəbul etmək, demokratik prinsiplər əsasında Parlament seçmək, şübhəsiz, bizim üçün çox böyük nailiyyətdir. Nəzərə alsaq ki, Azərbaycan bu addımları Ermənistan tərəfindən edilən təcavüz şəraitində torpaqlarımızın 20 faizinin işğal altında olduğu şəraitdə, bir milyondan artıq vətəndaşımızın yer-yurdundan didərgin düşüb ağır bir şəraitdə yaşadığ ı dövrdə atmışdırsa bu, böyük bir nailiyyətdir. Bizim üçün çox əhəmiyyətlidir ki, bizim bu nailiyyətlərimiz dünya ictimaiyyəti tərəfindən beynəlxalq aləmdə qiymətləndirilir.

Əvvəla, bir daha qeyd etmək istəyirəm ki, noyabrın 12-də konstitusiyanın qəbul olunması ilə əlaqədar referendumda və parlament seçkilərində beynəlxalq təşkilatların, xarici ölkələrin 200-dən artıq müşahidəçisi olmuşdur. Onların tam əksəriyyətinin fikri bundan ibarətdir ki, Azərbaycanda konstitusiyaya dair ümumxalq səsverməsi də, parlament seçkiləri də demokratiya şəraitində keçirilmiş və bu, demokratiya yolunda ilk addımdır. Bizim üçün çox əhəmiyyətlidir ki, demokratiya sahəsində böyük nailiyyətlər əldə etmiş **Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin seçkilər zamanı müşahidəçiləri Azərbaycanda referendumun və seçkilərin demokratik şəraitdə keçirildiyini təsdiq etmişlər.** Bizim üçün ən çox əhəmiyyətli budur ki, Türkiyə Cümhuriyyətində əlli il müddətində demokratiya yolunda böyük fəaliyyət göstərmiş, böyük xidmətlər göstərmiş və demokratiyanın bütün çətinliklərindən keçmiş, demokratiyanın həm acı nəticələrini görmüş, həm də onun müsbət cəhətlərindən bəhrələnmiş, dünyanın böyük siyasi və dövlət xadimlərindən biri, hörmətli Süleyman Dəmirəl bu gün öz nitqində Azərbaycan Konstitusiyasının qəbul olunmasını və müstəqil Azərbaycanın ilk parlamentinin seçilməsini böyük tarixi bir hadisə kimi və bunların hamısını demokratik addımlar kimi qiymətləndirirdi. Bu, bizim üçün yüksək qiymətdir. Ona görə, hörmətli Süleyman Dəmirəl, biz sizə təşəkkür edirik, çünki bu bizi daha da ruhlandırır. Bizə daha da qüvvət verir, bu bizi daha da gücləndirir. Əmin ola bilərsiniz ki, demokratiya yolunda, azadlıq yolunda, müstəqillik yolunda atdığımız bu ilk addım davamlı olacaq. Azərbaycan Respublikası, Azərbaycan xalqı tutduğu müstəqillik, demokratiya yolu ilə inamla irəliyə gedəcəkdir.

Mən bu gün bir də bəyan edirəm ki, bizim ilk konstitusiyasız, yeni seçilmiş parlamentimiz Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanması üçün böyük bir zəmanətdir. Mən bir daha bəyan edirəm ki, biz dövlət müstəqilliyimizi göz bəbəyimiz kimi qoruyacağıq, onu möhkəmləndirəcəyik onu əbədi edəcəyik.

Azərbaycan demokratiya yolunda ilk addımlarını atır. Qəbul olunmuş konstitusiyada Azərbaycanın demokratiya yolu ilə inkişaf etməsi üçün bütün müddəalar var. Konstitusiyanın üçdə bir hissəsi insan azadlığına, vətəndaş azadlığına, insan hüquqlarının qorunmasına həsr olunmuşdur. Konstitusiyaya görə Azərbaycanda dövlətin idarə edilməsi prinsipləri tam demokratik prinsiplər əsasında qurulub. Hakimiyyət boşluğu, hakimiyyətin səlahiyyətlərinin boşluğu tam demokratik prinsiplər əsasındadır. İcra hakimiyyəti, qanunvericilik hakimiyyəti, məhkəmə hakimiyyəti - bunlar bizim

həyatımızda yeni amillərdir. Konstitusiyamız Konstitusiya Məhkəməsi təsis etməyi qərara alıbdır. Bu da demokratiya sahəsində böyük bir addımdır. Bir sözlə, bizim konstitusiyamızda demokratiyanı inkişaf etdirmək üçün və Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq üçün, dünyəvi dövlət qurmaq üçün bütün əsaslar yaranıbdır. Biz bunları ona görə yaratmışıq ki, onları icra edək, həyata keçirək. Xalqımız əmin ola bilər, dünya ictimaiyyəti əmin ola bilər ki, biz bunları həyata keçirməyə qadirik və Azərbaycan daim demokratiya yolu ilə gedəcəkdir.

İqtisadiyyatımızda böhran vəziyyəti mövcuddur. Keçid dövrünün çətinlikləri hamıya məlumdur. Bu vəziyyətdən çıxmaq üçün biz iqtisadiyyatı bazar iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparmaq istiqaməti götürmüşük. Bu, bizim konstitusiyamızda da, qanunlarımızda da, özəlləşdirmə proqramlarında da, ayrı-ayrı sektorlarda islahatların aparılmasında da, şəxsi mülkiyyətin yaranmasında və onun qorunmasında da, xarici investisiyaların Azərbaycana gətirilməsi üçün demokratik şəraitin yaranmasında da öz əksini tapıbdır. Bunlar yaranmış əsaslardır. Vəzifəmiz bunların hamısını həyata keçirməkdir. Biz bunların hamısını mütləq həyata keçirəcəyik. Bütün bu işləri görərkən, indiyə qədər olduğu kimi, bundan sonra da biz Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, Türk xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik.

İndiyə qədər əldə edilən nailiyyətlər bizi sevindirir. Ancaq bunlar bizi qane edə bilməz. İmkanlarımız böyükdür. Türkiyə Cümhuriyyəti bizimlə əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirmək üçün yaxşı təkliflər irəli sürür. **Hörmətli Prezident Süleyman Dəmirəlin bugünkü nitqində verdiyi tövsiyələr, irəli sürdüyü təkliflər bizim əməkdaşlığımızın genişlənməsi və inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bunların hamısına görə öz minnətdarlığımızı bildirirk. Bunların hamısından istifadə edərək xalqımızı ağır vəziyyətdən çıxaracağıq, xalqımızı xoşbəxt gələcəyə aparacağıq və müstəqil Azərbaycan daha da inkişaf etdirəcəyik.**

Bizim həyatımızı mürəkkəbləşdirən, ağırlaşdıran ən böyük problem Ermənistan Respublikasının Azərbaycana etdiyi təcavüz və təcavüz nəticəsində Azərbaycana vurduğu zərbələrdir. Bunlar məlumdur. Hörmətli Prezident Süleyman Dəmirəlin bu barədə burada söylədiyi fikirlər bizim üçün çox əhəmiyyətli, maraqlı və gərəklidir. Biz müharibə etmək istəmirik. Bizə qarşı təcavüz ediblər. Biz heç kəsə təcavüz etməmişik. Bizim torpaqlarımız işğal olunubdur. Biz heç kəsin torpağını işğal etməmişik. Bir milyondan artıq vətəndaşımız yer-yurdundan didərgin düşübdür, ağır vəziyyətdə yaşayır. Bunlar hamısı haqsızlıqdır. Beynəlxalq təşkilatlar bu haqsızlığa dözməməlidirlər. Bütün bu zərbələrə baxmayaraq, bütün bu itkilərə baxmayaraq, biz yenə də sülh tərəfdarıyıq, yenə də sülh istəyirik, məsələni yenə də sülh yolu ilə həll etmək istəyirik. Bu, Azərbaycan xalqının nə qədər sülhsevər olduğunu dünyaya bir daha nümayiş etdirir. Güman edirəm ki, beynəlxalq aləm, dünya ictimaiyyəti Azərbaycan xalqının bu yüksək mənəvi keyfiyyətini və xüsusiyyətini qiymətləndirməlidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Danışıqlar aparırıq. On doqquz ay bundan öncə atəşkəs haqqında saziş əldə olunub. Yeddi il gedən bu qanlı müharibə dayanıb, qan tökülmür, atəş yoxdur, insanlar qırılmır. Respublikamızda müəyyən rahatlıq əldə olunubdur. Biz bu sazişə ona görə getmişik ki, möhlət, fürsət əldə edərək sülh danışıqlarını daha da gücləndirək. Məsələləri sülh yolu ilə həll edək. Buna görə də biz sülh danışıqları aparırıq və bundan sonra da aparacağıq. Ona görə aparırıq ki, müharibəyə tamamilə son qoyaq. Ona görə aparırıq ki, Azərbaycanı bu bəlalardan xilas edək.

Bizim başqa məqsədimiz yoxdur. Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdən ibarədir. Azərbaycanın beynəlxalq hüquq normaları ilə tanınmış sərhədlərinin toxunulmazlığını təmin etməkdən ibarətdir. Bizim istədiyimiz, mübarizəmiz didərgin düşmüş bir milyondan artıq vətəndaşımızı öz yer-yurduna qaytarmaqdan ibarətdir. Yəni bizim tələbəimiz, istəyimiz ədalətli tələblərdir. Bizim haqqımız var və bu haqdan istifadə edərək tələblərimizi irəli sürürük. Biz bu danışıqları bundan sonra da aparacağıq. Ancaq eyni zamanda "nə müharibə, nə də sülh" vəziyyəti daha da uzana bilməz. Biz bunu bu gün bəyan edirik və bildiririk ki, biz bu danışıqlarda konstruktiv mövqe tutaraq, bəzi məsələlərdə güzəştə gedərək Böyük Sülh əldə etmək istəyirik. Biz Ermənistan ilə Azərbaycan arasında sülh əldə etmək istəyirik. Biz Qafqazda sülh yaranmasına çalışırq. Biz bütün bu regionu sülh recionuna çevirmək istəyirik. Bizim başqa məqsədimiz yoxdur.

Bu mübarizəmizdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı həmişə bizimlə olub, həmişə bizə dayaq olub, həmişə bizi müdafiə edib və bu gün Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəlin verdiyi bəyanatlar bir də onu göstərir ki, Türkiyə həmişə bizim yanımızda olacaq. Türkiyə bizim bu məsələlərin həll edilməsində bundan sonra daha da fəal iştirak edəcək və biz beynəlxalq təşkilatlarla, sülhsevər qüvvələrlə birlikdə sülhə nail olacağıq.

Hörmətli Prezident, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl. Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz və hiss edirsiniz ki, Azərbaycanan da qəlbi daim

Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir. Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməklərə görə mən Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından sizə, hörmətli Prezident, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Türkiyə Cümhuriyyəti indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, Türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənsəbdən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrlə öz münasibətimizi bildirirk. Bu hisslərlə də öz məhəbbət və sevgimizi Türkiyəyə, türk xalqına bildiririk.

Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz seçkiləri keçirdik. Türkiyə Cümhuriyyəti yeni seçkilər ərəfəsindədir. Yeni parlament seçkiləri keçirəcəkdir. Bizdə çoxpartiyalı sistem təzə yaranıbdır və biz sevinir, iftixar hissi ilə deyirik ki, bizim birinci seçkilərimiz çoxpartiyalı sistem əsasında keçirilib. Türkiyə əlli ildir ki, çoxpartiyalı prinsipləri əsasında yaşayır, demokratiya əsasında yaşayır. Türkiyədə güclü, təcrübəli siyasi partiyalar mövcuddur. Demokratik təsisatlar bərqərar olubdur, xalq artıq bu demokratiyanı qavrayır, onu mənimsəyib, ona öyrənibdir, vətəndaş istədiyi partiyaya azad surətdə səs verir, istədiyi partiyanın arxasınca gedir, istədiyi partiyanı dəstəkləyir. Bütün bunlar çox sevindirici haldır. Yenə deyirəm ki, bizim üçün təcrübə mənbəyidir, bizim üçün örnəkdir. Eyni zamanda biz bilirik ki, bu günlər Türkiyənin həyatında mürəkkəb proseslər gedir, partiyalar Böyük Millət Məclisinə seçkilərdə böyük rəqabət aparırlar, hərəsi özünəməxsus yer tutmaq istəyir, bundan sonra hökuməti təşkil etmək istəyir. Bunlar Türkiyən ictimaiyyəti üçün tamamilə adi bir haldır.

Şükürlər olsun ki, Türkiyə televiziyasının verilişlərinə Azərbaycanda baxılır. Bu gün biz müqavilə imzalayacağıq ki, TRT proqramı Azərbaycanın bütün bölgələrində göstərilsin. Buna görə də biz Türkiyədə gedən prosesləri görürük, müşahidə edirik və ürəkdən istəyirik ki, Türkiyə Cümhuriyyətində qarşıdakı seçkilər Türkiyə xalqına demokratiya sahəsində yeni nailiyyətlər gətirsin. Türkiyə xalqının bu günü və gələcəyi üçün yeni şəraitlər yaratsın və Türkiyə xalqı öz istədiyi kim öz millət vəkillərini seçərək, Böyük Millət Məclisini yenidən formalaşdıra bilsin. Şübhəsiz ki, bunların hamısı olacaqdır. Türkiyə Böyük Millət Məclisinin 70 illik tarixi var. Biz həmişə Türkiyə Böyük Millət Məclisinə əzəmətli məclis, şöhrətli məclis kimi baxmışıq. Uzun illər ərzində ona uzaqdan baxaraq həsrət etmişik ki, onu görək, onunla tanış olaq. Şükürlər olsun ki, biz artıq Böyük Millət Məclisini də görmüşük. Onun işində də iştirak etmişik. Böyük Millət Məclisinin nümayəndələri bu gün bizim aramızdadırlar. Böyük Millət Məclisinə dəfələrlə millət vəkili seçilmiş, altı dəfə dövlət qurmuş, yeddinci dəfə hökumət qurmuş millət vəkili hörmətli Süleyman Dəmirəl bizim bu salondadır. Bizimlə birlikdədir. Bütün bu nailiyyətlər bizi sevindirir və eyni zamanda qəlbimiz, nəbzimiz, ürəyimiz Türkiyə ilə bərabər vurduğuna görə orada gedən prosesləri də biz Rükiyənin hər bir vətəndaşı kimi böyük maraqla və böyük hisslərlə işləyirik.

Şübhəsiz ki, deyə bilmərik ki, hansı partiyaya meyl göstərir, hansına göstərmirik, çünki onlar bizim partiyalarımız deyil, bu, xalqın öz işidir. Xalq hansı partiyanı daha çox dəstəkləyəcək, hansı partiyaya daha çox səs verəcək - bu, Türkiyə xalqının işidir. Ancaq bizim arzumuz budur ki, seçkilər Türkiyə Cümhuriyyəti üçün, Türkiyə xalqı üçün yeni xoşbəxtlik gətirsin. Bu arzularla, bu istəklərlə mən öz salamımı və Azərbaycan xalqının salam və istəklərini Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə çatdırıram.

Hörmətli Prezident, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl, güman edirəm ki, Azərbaycanın Milli Məclisi, onun üzvləri, bütün Azərbaycan vətəndaşları sizin bugünkü çox dərin məzmunlu nitqinizi məmnuniyyətlə qəbul edirlər, o nitqdə irəli sürülən fikirlərdən, təkliflərdən, şübhəsiz, istifadə edəcəyik, onlardan bəhrələnəcəyik və müstəqil Azərbaycan Respublikası demokratiya yolunda, dövlət quruculuğu yolunda, konstitusiyada nəzərdə tutulmuş prinsiplər əsasında irəli gedəcəkdir.

Mən sizi burada, Məclis qarşısında bu böyük nitqiniz münasibətilə bir daha təbrik edirəm, sizə Məclis adından təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm, sizə Türkiyə Cümhuriyyətinin Prezidenti kimi böyük mə-

suliyyətli vəzifənin uğurla həyata keçirilməsində müvəffəqiyyətlərlə arzu edirəm, cansağlığı və xoşbəxtlik arzu edirəm.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Elmlər Akademiyasının "Fəxri Akademik"i adına layiq görülməsi münasibətilə təntənəli yığıncaqda Prezident Heydər Əliyevin çıxışı

Respublika EA Rəyasət Heyətinin iclas salonu
8 dekabr 1995-ci il

Türkiyə Respublikasının hörmətli Prezidenti, əziz dostumuz və qardaşımız Sülemyan Dəmirəl!

Hörmətli Nəzmiyyə xanım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanın böyük, ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasında Azərbaycanın elm adamları, ziyalıları bizim əziz qonağımız, dostumuz, qardaşımız, Türkiyənin Prezidenti Sülemyan Dəmirəlin görüşünə gəlmişlər. Bu gün Azərbaycanın Elmlər Akademiyası dünyanın böyük ictimai-siyasi, dövlət xadimlərindən biri olan, Türkiyə Cümhuriyyətinin tarixində böyük xidmətləri olan, böyük iz qoymuş, bu gün də Türkiyə Cümhuriyyətinin başında duran hörmətli Süleyman Dəmirələ Azərbaycan Elmlər Akademiyasının "Fəxri Akademik"i adı vermişdir.

Bu, əlamətdar bir hadisədir. Əziz qardaşım, dostum, bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasının fəxri üzvü kimi siz bütün başqa sahələrdə olduğu kimi Azərbaycanın elminə də öz qayğınızı, diqqətinizi göstərəcəksiniz və Azərbaycan elmi ilə Türkiyə elmi arasında əlaqələrin gələcək inkişafına səylərinizi qoyacaqsınız. Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan elminin tarixi böyükdür. Əsrlərdən-əsrlərə Azərbaycanın elm adamları ixtiralar edib, dünya elminə böyük töhfələr veriblər və Azərbaycanın bilik, elm səviyyəsini qaldırıblar. XX əsrin əvvəllərində Azərbaycanda elmin inkişafı yeni vüsət alıbdır. Azərbaycanda elmi müəssisələr yaranıb, 1919-cu ildə ilk universitet yaranıbdır. Bu universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir müəssisə, böyük elm ocağı olubdur. Ondan sonrakı illərdə də Azərbaycan elmi çox inkişaf edibdir. Məhz bunların nəticəsində İkinci dünya müharibəsindən sonra, 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranıbdır.

Elmlər Akademiyası 50 ildir ki, fəaliyyət göstərir. Keçdiyi bu 50 illik yolda Elmlər Akademiyası Azərbaycan elmini inkişaf etdirib, xalqımızın elm, bilik səviyyəsini daha yüksəklərə qaldırıbdır. Azərbaycan elmini dünyada tanıdıbdır və dünya elminə, bəşər elminə öz böyük töhfələrini veribdir. Elmlər Akademiyasının yaranması Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatında əvəzsiz, tarixi bir hadisə olubdur. Elmlər Akademiyasının 50 il müddətində keçdiyi yol, bir də qeyd edirəm, Azərbaycan xalqının həyatında çox görkəmli yer tutubdur.

Bu illər ərzində Azərbaycan Elmlər Akademiyasının üzvləri - həqiqi üzvləri, müxbir üzvləri olub. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, idarəsi altında toplaşmış elmi müəssisələr böyük ixtiralar ediblər, böyük tədqiqatlar aparıblar, böyük işlər görüblər, sanballı elmi kitablar, əsərlər yaradıblar, tam qətiyyətlə demək olar ki, dünya elminə böyük töhfələr veriblər. Bizi sevindirən hal ondan ibarətdir ki, Azərbaycan Elmlər Akademiyasının fəaliyyəti çoxsahəli olubdur. Dünya elminin demək olar, bütün sahələri Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində öz əksini tapıb və akademiyanın tədqiqat institutlarında, ayrı-ayrı laboratoriyalarında, ayrı-ayrı bölmələrində dünya elminin demək olar ki, bütün sahələri təmsil olunub və bu sahələrdə çox böyük işlər görülübdür.

Elmlər Akademiyasının ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan xalqının tarixini araşdırmaqda böyük işlər görülüb və sanballı əsərlər yaradıbdır. Türk dünyasının tarixini araşdırmaq, təhlil, tədqiq etmək sahəsində Azərbaycan alimləri, Elmlər Akademiyası əvəzsiz xidmətlər göstərmiş və çox böyük əsərlər yaradıblar.

Keçmiş Sovetlər İttifaqında türkologiya, türk dilləri ilə, türk dünyası ilə məşğul olan elmi idarələr çox az idi. Ancaq mən tam qətiyyətlə deyə bilərəm ki, onların əsas mərkəzi Azərbaycan olmuşdur. Azərbaycan Elmlər Akademiyası olmuşdur. Azərbaycan keçmiş Sovetlər İttifaqında türk dünyasının tədqiqində, təhlilində, onun tarixinin araşdırılmasında, türkdilli xalqların dillərinin inkişaf etməsində çox böyük xidmətlər göstərmişdir. Bu da onu göstərir ki, bizim alimlərimiz bütün sahələrdə çalışaraq, xalqımız üçün ən önəmli, ən əsas, ən əhəmiyyətli olan sahəyə - tariximizə, tarixi köklərimizə, dilimizin, tariximizin inkişafına, xalqımızın əsrlər boyu qəhrəmanlıq səhifələrinə çox diqqət yetirmiş, onları araşdıraraq elmi surətdə sübut etmişlər və elmi əsərlərdə dünyaya yaymışlar, xalqımıza, türk dünyasına çatdırmışlar. Beləliklə də, Türk xalqlarının, o cümlədən Azərbaycan xalqının nə qədər böyük, əzəmətli, möhtəşəm və şərəfli yol keçdiyini elmi əsərlərlə dünyaya bəyan etmişlər. Bu, Azərbaycan alimlərinin və xüsusən Elmlər Akademiyasının böyük xidmətlərindən biridir.

Azərbaycan Elmlər Akademiyası və alimlərimiz elmi tədqiqatlar apararkən daim Türkiyə ilə, Türkiyə Cümhuriyyətinin həyatı ilə maraqlanmışlar. O dövrlərdə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu zaman, Türkiyə ilə Azərbaycan arasında böyük sədlər mövcud olduğu zaman alimlərimiz bu sədləri özlərinin fədakarlığı, cəsurluğu, vətənpərvərliyi ilə yararaq, ayrı-ayrı cığırlar açaraq Türkiyəyə, Türkiyə Cümhuriyyətinə həmişə meyl göstərmişlər, əlaqə saxlamışlar, araşdırmalar və o dövrdə də böyük işlər görmüşlər.

Müstəqil Azərbaycan müstəqil həyatını yaşayan dövrdən respublikamızın elmi müəssisələri, Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin elm ocaqları, elm mərkəzləri alimləri arasında çox sıx əlaqələr yaranmışdır. Alimlərimizin, elmi müəssisələrimizin, Akademiyanın rəhbərliyinin Türkiyəyə gediş-gəliş və eyni zamanda Türkiyə Cümhuriyyətindən elm adamlarının Azərbaycana gəlişi indi adi hal olmuşdur. Bu, bizi çox sevindirir. Çünki əgər keçmiş zamanlarda alimlərimiz və bütün xalqımız buna daim can atırmışsa, çalışmışsa və qarşıda olan sədləri aşıb keçərək öz əlaqələrini yaratmışsa, indi ölkəmiz müstəqil dövlətdir, sərhədlərimiz açıqdır və bizim üçün ən yaxın dost olan Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz artıq çoxsahəlidir və genişdir. Ümidvaram ki, bu əlaqələr günü-gündən daha da genişlənəcək, möhkəmlənəcək və sarsılmaz, qırılmaz olacaqdır.

Bu baxımdan Elmlər Akademiyası tərəfindən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ fəxri akademik adı verilməsi tamamilə əsaslıdır, məqsədəuyğundur. Bu gün mən səmimi qəlbdən deyirəm ki, dostumuz, qardaşımız Süleyman Dəmirəl bu ada layiqdir və bu ada öz fəaliyyəti ilə layiq olubdur.

Hörmətli dostumuz Süleyman Dəmirəlin həyat yolu, onun yaradıcılığı, fəaliyyəti Azərbaycan xalqına yaxşı məlumdur. O, həm mühəndisdir, həm alimdir, həm də ixtiraçıdır. Ancaq onun elm sahəsində ən böyük xidmətləri siyasət sahəsindəki xidmətləridir. Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi, deyə bilərəm ki, ən çətin bir sahədir. Siyasət sahəsində həm fəaliyyət göstərmək, həm də bu sahədə elmi naliyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir. Bunların hamısı da bizim dostumuz, qardaşımız Süleyman Dəmirələ məxsusdur. 35 ildən artıqdır ki, dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində, onun siyasi həyatında siyasi fəaliyyət göstərir, dövlətçilik fəaliyyətindədir. Bu dövrdə Türkiyə Cümhuriyyətinin, dövlətinin inkişaf

etməsi, demokratiyanın inkişaf etməsi, xalqın səviyyəsinin qalxması və Türkiyə Cümhuriyyətinin dünyada bu qədər görkəmli yer tutması şübhəsiz ki, hörmətli dostumuz Süleyman Dəmirəlin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlıdır və ona borcludur.

Ona görə də hörmətli Süleyman Dəmirəl siyasət sahəsində dünya miqyasında böyük alimlər, böyük ictimai-siyasi xadim, dövlət xadimidir. O, hörmət edib bu gün Azərbaycan Elmlər Akademiyasına gəlib və Azərbaycan alimləri, elm xadimləri, Elmlər Akademiyası ona böyük hörmət, ehtiram göstərərək akademiyanın fəxri akademiki seçibdir. Mən hesab edirəm ki, bu, tariximizdə parlaq səhifələrdən biridir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu hadisə xalqımız arasında, dövlətlərimiz, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir və Azərbaycan elmi ilə Türkiyə Cümhuriyyətinin elmini daha da sıx bağlayacaqdır.

Əziz dostum, qardaşım Süleyman Dəmirəl! Mən bir daha Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, səadət arzu edirəm, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni böyük nailiyyətlər arzulayıram. Təbrik edirəm Sizi.

Türkiyənin və Azərbaycanın iş adamları ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

8 dekabr 1995-ci il
Prezident Sarayı

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl ikinci gündür ki, Azərbaycandadır və proqrama görə Türkiyənin və Azərbaycanın iş adamları ilə görüş nəzərdə tutulmuşdur. Hörmətli qonağımız - Türkiyə Cümhuriyyətinin Prezidenti ilə buraya qardaş ölkənin böyük bir qrup iş adamları gəlmişdər. Güman edirəm ki, onlar dünən də, bu gün də burada lazımi işlər görüblər və yəqin ki, Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin bundan sonra irəliyə necə aparılacağı barədə öz sözlərini, fikrlərini deyəcəklər, təkliflərini irəli sürəcəklər.

Biz hörmətli Süleyman Dəmirəllə dünən danışıq apararkən belə bir fikrə gəldik və xüsusən mən qeyd etdim ki, Türkiyə ilə Azərbaycan arasında indiyə qədərki iqtisadi əlaqələri şübhəsiz ki, qiymətləndirməliyik. Çünki keçmişdə heç bir şey olmayıbdır. Ancaq eyni zamanda bunları kafi hesab etmək olmaz, çünki tələbatımız - həm Azərbaycanın, həm də Türkiyə Cümhuriyyətində olan iş adamlarının, Türkiyə iqtisadiyyatının ehtiyacı indiyə qədər çatdığımız səviyyələrdən çox-çox artıqdır. Ona

görə də biz daha geniş iş görməliyik.

Mən qeyd etmişəm və bu gün bir daha deyirəm: noyabrın 12-də qəbul etdiyimiz konstitusiya, indiyə qədər və bundan sonra qəbul edəcəyimiz qanunlar ölkəmizə xarici sərmayənin gəlməsinə, Azərbaycanda iş görülməsinə yaxşı imkanlar açacaqdır. Bilirsiniz ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz özəlləşdirmə proqramını qəbul etmişik və ona həyata keçirməyə başlamışıq. Aqrar sektorda, yəni kənd təsərrüfatında ciddi iqtisadi islahatlar aparırıq. Ona görə də respublikamıza xarici sərmayənin gəlməsi, müştərək işlərin görülməsi bizim üçün çox əhəmiyyətlidir. Şübhəsiz, bu baxımdan Türkiyə ilə olan əlaqələrimizi inkişaf etdirmək, qardaş ölkənin iş adamlarının Azərbaycana gəlməsi bizim üçün çox əhəmiyyətlidir.

Doğrudur, şirkətlər də var ki, gəlib Azərbaycanda iş görmək üçün şərait bəzən o qədər də uyğun deyil, yaxud bəzi bürokratik əngəllər çıxır. Hökumətin, dövlətin ayrı-ayrı orqanlarında bəzi şəxslər bu məsələləri anlamadıqlarına, yaxud işlərimizə qəsdən mane olmaq istədiklərinə görə belə əngəlləri süni surətdə yaradırlar. Ola bilər, bunlar var. Mən buna etiraz etmirəm, hesab edirəm ki, yəqin respublikamızda belə qüsurlar mövcuddur. Ancaq mən demişdim və bir də demək istəyirəm: Azərbaycanla Türkiyənin əlaqələri elədir ki, gərək Türkiyənin iş adamları bizim aramızda bəziləri tərəfindən yaradılan buzu yara-yara ölkəmizə gəlsinlər.

Məsələn, bilirəm ki, Türkiyənin iş adamları Rusiyada, başqa ölkələrdə həddindən artıq böyük miqyaslı işlər görürlər. Mən bir-iki ay bundan əvvəl Rumıniyada idim. Bu ölkənin Prezidenti ilə söhbət aparırdım. Hörmətli prezident Süleyman Dəmirəl də orada idi. Biz Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etmək üçün orada idik. Mənə dedilər ki, burada Türkiyənin çoxlu iş adamları var. Bunlar hamısı çox gözəldir. Bunlar Türkiyə iqtisadiyyatının nə qədər inkişaf etdiyini və dünyanın nə qədər böyük ölkələrinə çıxdığını göstərir. Biz buna sevinirik. Ancaq bütün bunları həyata keçirməklə yanaşı, Azərbaycanı da unutmaq lazım deyildir. Nəinki unutmaq, Azərbaycanda şərtlər başqa yerlərdən çətin, ağır olsa da, bu şərtləri birlikdə aradan qaldırıb, ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirməliyik. Bizim fikrimiz, istəyimiz, arzumuz budur. Yəni xarici iqtisadi əlaqələrdə istiqamətimizin əsas yolu budur. Ona görə də mən Azərbaycana gəlmiş iş adamlarını salamlayıram və buraya gəldiklərinə görə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüşdən sonra bizim iqtisadi əlaqələrimizdə yeni dəyişikliklər əmələ gələcək, yəni bir inkişaf mövcud olacaq. Mən bu arzuları bildirməklə, öz çıxışımı bitirirəm.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin birgə bəyanatı

Azərbaycan Respublikasının Prezidentit Heydər Əliyevin dəvəti ilə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşmüş və digər rəsmi şəxsləri qəbul etmişdir. Türkiyə n Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra demokratik prinsiplər əsasında seçilmiş Milli Məclisində çıxış etmişdir.

Ənənəvi dostluq, qardaşlıq, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən görüşlərdə Azərbaycan və Türkiyə arasında ikitərəfli əlaqələrin inkişafı hərtərəfli müzakirə edilmiş, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər, xüsusi olaraq qeyd etmişlər ki, beynəlxalq münasibətlərin dərin transformasiyaya məruz qaldığı bir dövrdə dünyada müsbət dəyişikliklərin, möhkəm sabitliyin mühüm təminatı kimi geniş və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti obyektiv olaraq artır. Onlar dünya işlərində BMT-nin rolunu gücləndirməsini, regional münaqişələrin aradan qaldırılmasında, qlobal problemlərin həlli yollarının axtarılmasında onun fəal iştirakının vacibliyini qeyd etmişlər. Tərəflərin fikrinə görə BMT öz inkişafının yeni mərhələsində, nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq sisteminin möhkəmlənməsində aparıcı rol oynamalıdır və xüsusən Təhlükəsizlik Şurasının strukturu günümüzün tələblərinə cavab verməlidir.

Tərəflər, ATƏT yekun aktının və Paris Xartiyasının müddəalarına tərəfdar olduqlarını ifadə etmişlər. Onlar öz aralarında və Helsinki prosesinin iştirakçı olan digər dövlətlərlə bu prosesin inkişafı üçün əməkdaşlıq etmək əzmində olduqlarını bildirmişlər. ATƏT-in müasir Avropada rolu bütün sahələrdə təhlükəsizlik və əməkdaşlığı möhkəmləndirməkdən ibarət olmalıdır ki, bu isə ATƏT mexanizminin daha da təkmilləşdirmək yolu ilə mümkündür.

Tərəflər, beynəlxalq və regional problemlərin həllinin suverenliyinə, müstəqilliyinə ehtiram, dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət və daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmasını gərəkliyini təsdiq etmişlər. Tərəflər, iki ölkə arasında dostluğu və hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək və dərinləşdirmək əzmində olduqları-

nı təcrid etmişlər.

Tərəflər, Ermənistan Respublikasının Azərbaycana hərbi təcavüzünün qətiyyətlə pisləyərək, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsiplərini əsas tutaraq, Qarabağın Azərbaycan Respublikasının ayrılmaz hissəs olmasını təsdiq etməklə, erməni qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeydşərtsiz çıxarılmasını, Qarabağ münaqişəsinə dair BMT-nin və ATƏT-in müvafiq qətnamələrinin icrasını, habelə qaçqınların öz doğma torpaqlarına qaytarılmasını nəzərdə tutan bir ümumi nəticəyə gəlmək tələbini bir daha təsdiq etmişlər.

Türkiyə tərəfi, silah gücü ilə işğal edilmiş torpaqların azad edilməsi istiqamətində faydalı addımlar atılmasının sülhə, sabitliyə və bölgədə əməkdaşlığa mühüm təsir göstərəcəyini bildirmiş və bu baxımdan Ermənistan Respublikasının regionda sülhün və təhlükəsizliyin bərqərar edilməsində xüsusi məsuliyyətini qeyd etmişdir.

Tərəflər, ayrıca olaraq, ATƏT-in Ermənistan - Azərbaycan münaqişəsnin həllinə dair sülh prosesi çərçivəsində Minsk qrupunun bütün üzvlərinin bu sülh prosesinin bütün mərhələlərində birgə iştirak etməsinin vacibliyini qeyd etmişlər.

Azərbaycan tərəfi, ATƏT-in Minsk sülh prosesində qəbul ediləcək qərarlarının həyata keçirilməsində Türkiyənin fəal rol oynamaq istəyini məmnuniyyətlə qəbul etmişdir.

Türkiyə tərəfi, Minsk qrupunun digər üzvləri ilə sıx təmaslarını daha da artıracağını bildirmişdir.

Tərəflər, Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və köçkünlərin öz torpaqlarına qaytarılmasının təmin edilməsi, bölgədə ədalətli və möhkəm sülhün yaradılması üçün lazımi regional və beynəlxalq səylərin artırılmasının vacibliyini qeyd etmişlər. Türkiyənin beynəlxalq səviyyələrdə Azərbaycana haqlı mübarizəsində lazımi dəstək verməkdə davam edəcəyi bir daha vurğulanmışdır.

Tərəflər, ayrıca olaraq, Azərbaycanla Ermənistan arasında olan hərbi münaqişədə 19 aydan bəri atəşkəs reciminin davam etməsini məmnuniyyətlə qarşılamışlar və bölgədəki problemlərinin sülh yolu ilə sürətli həlli üçün beynəlxalq təşkilatlar tərəfindən göstərilən səylərin dəstəklənməsinin bölgədə əməkdaşlığın genişlənməsinə və sabitliyə xidmət edəcəyinə əmin olduqlarını bildirmişlər.

Türkiyə tərəfi, Azərbaycanda qısa bir zamanda iqtisadi, sosial və siyasi sahələrdəki irəliləyişlər, xüsusilə Azərbaycanda sərbəst bir şəraitdə, çoxpartiyalılıq əsasında keçirilmiş parlament seçkilərini və yeni konstitusiyanın qəbul edilməsini məmnuniyyətlə qeyd etdikdən sonra, Türkiyə nin bu sahələrdə Azərbaycana indiyə qədər olduğu kimi, bundan sonra da hər cür yardımı və dəstəyi

davam edəcəyini bildirmişdir.

Eyni zamanda Azərbaycan tərəfi, bu seçkilərin sərbəst bir şəraitdə keçirilməsini müşahidə etmək məqsədi ilə Türkiyədən göndərilmş müşahidəçilər qrupunun fəal və obyektiv iştirakı üçün dərin minnətdarlığını bildirmişdir.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorunda, Azərbaycan ilə beynəlxalq neft konsorsiumu tərəfindən imzalanan neft müqaviləsnin həyata keçirilməsinin bölgəyə iqtisadi və siyasi sabitliyin bərpası üçün müstəsna əhəmiyyətini xüsusi qeyd etmişlər və Azərbaycanın beynəlxalq iqtisadi sistem ilə bütünləşməsinə onun zəmin yaradacağı barədə fikir birliyini bir daha təsdiqləmişlər.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyə Ceyhan terminalına yönəldilməsi barədə istəklərini təsdiq etmişlər.

Tərəflər, iki ölkə arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin dönmədən inkişafını təmin edən müqavilə və sazişlərin həyata keçirilməsi mexanizmlərinini inkişaf etdirmək və təkmilləşdirmək barədə tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər.

Bu məqsədlə tərəflər, xüsusən qtisadi əlaqələrin daha yüksək səviyyədə qaldırılması üçün imkanlar olduğunu qeyd edərək müvafiq nazirlərin rəhbərliyi ilə Türkiyə - Azərbaycan birgə iqtisadi komissiyasının ən qısa bir vaxtda Bakıda toplanması və Türkiyə - Azərbaycan və Azərbaycan - Türkiyə işgüzar adamlar şuralarının daha da təsirli fəaliyyəti üçün lazımi şəraitin yaradılması haqqında razılaşmışlar.

Tərəflər, iki ölkə arasında ticarətin inkişafını təmin etmək və investisiyaları təşviq etmək məqsədi ilə lazımi tədbirlərin görülməsi və iki ölkənin firma və təşkilatları tərəfindən imzalanan müqavilə və protokolların işgüzar hala gətirilməsi haqqında eyni fikirlərə sahib olduqlarını məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı nəqliyyat və rabitə sahəsində mövcud çətinliklərin tez bir zamanda aradan qaldırılması üçün birgə tədbirlər görülməsini lüzumunu qeyd edərək, Türkiyə və Azərbaycan arasında 1 noyabr 1992-ci il tarixində Ankarada imzalanmış Beynəlxalq quru yol nəqliyyatı haqqındakı müqavilənin təsdiq sənədlərinin iki ölkə tərəfindən təkmilləşdirilməsini və bu səfər əsasında həyata keçirilməsini məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, iki ölkə arasındakı hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafı məqsədi ilə, Türkiyə və Azərbaycanınmülki avrasiya təşkilatlarının bu mövzuda imkanlarını qiymətləndirmək üçün qısa müddət ərzində bir görüş keçirmək arzusun-

da olduqlarını qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı dəmir yolu nəqliyyat sahəsində imkanları qeyd edərək, 1991-ci ilin mart ayında imzalanmış protokola əsasən Naxçıvan Muxtar Respublikasının Sədərək məntəqəsində Araz çayı üzərindən dəmir yolu körpüsünün tikilməsinin, qısa bir vaxtda Türkiyə ərazisindən dəmiryolu xəttinin çəkilməsnin və gələcəkdə Türkiyə Respublikasının dəmir yollarını istər Azərbaycan ərazisi ilə, istərsə də Orta Asiya respublikaları ilə birləşdirmək imkanlarının əhəmiyyətini vurğulamışlar. Bununla əlaqədar, Bakı sərnişin vaqonları deposunun modernizə edilməsi layihəsinin həyata keçirilməsinin vacibliyni də qeyd etmişlər.

Azərbaycan tərəfi Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olmasını nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası üçün Türkiyədən alınan elektrik enercisinin gücünün və keyfiyyətinin artırılmasını istəmişdir.

Bununla əlaqədar, tərəflər, 14 yul 1995-ci il tarixində Antaliyada imzalanmış protokolu qeyd etmişlər və bu protokola göstərildiyi kimi Azərbaycan - Gürcüstan - Türkiyə enerci sistemlərinin bir-birinə bağlanması layihələrini hazırlamaq üçün tezliklə işçi qrupu yaradılmasının vacibliyini vurğulamışlar.

Tərəflər, ənənəvi dostluq və qardaşlıq münasibətlərini genişləndirmək əzmində olduqlarını bir daha təsdiq edərək, Türkiyə Radio-Televiziya Təşkilatının TRT-1 televiziya proqramının Azərbaycan Respublikasının bütün ərazisində yayılmasını təmin etmək məqsədi lə iki ölkə arasında bu səfər zamanı imzalanan sazişin hər iki ölkə və bu ölkələrin xalqları arasındakı anlaşma və əlaqələrn möhkəmlənməsi yolunda daha faydalı olacağını qeyd etmişlər.

Tərəflər, iki ölkə arasında 28 fevral 1992-ci il tarixli viza haqqındakı sazişi əsas tutaraq 28 noyabr 1995-ci il tarixndə məktublar mübadiləsi nəticəsində viza məsələlərinin asanlaşdırılmasını məmnuniyyətlə qeyd etmiş və bu razılaşmanın iki ölkə vətəndaşlarının gediş-gəlişinin asanlaşdırılacağına ümid etdiklərini bildirmişlər.

Azərbaycan tərəfi, Azərbaycan Respublikasının Ankaradakı səfirliyinə diplomatik şəhərcikdə müvafiq yer ayrılmasını razılıqla qeyd edərək, bunun müqabilində Türkiyə Cümhuriyyətinin Bakıdakı səfirliyi üçün şəhərin münasib yerində yetərli sahə ayrılmasını qəbul etmişdir.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı yaxşı münasibətlərin regionun digər ölkələri üçün nümunə olması arzularını təsdiq edərək, bu ölkələr hər sahədə əməkdaşlığı genişləndirməyə dəvət etmişlər.

Türkiyənin Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfərə əvvəlki dəvətini bir daha təsdiq etmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl Azərbaycana ziyarət zamanı ona və Türkiyə heyətinə göstərilən mehribanlıq və qonaqpərvərliyə görə Azərbaycan tərəfinəvə bütün Azərbaycan xalqına dərin təşəkkürünü bildirmişdir.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyətinin
Prezidenti

8 dekabr 1995-ci il

Azərbaycan və Türkiyə Prezidentlərinin mətbuat konfransında birgə bəyanatı

8 dekabr 1995-ci il

Hörmətli mətbuat nümayəndələri, curnalistlər!

Hörmətli xanımlar və cənablar!

İki gündür ki, Türkiyə Cümhuriyyətinin Hörmətli Prezidenti əziz dosğumuz və qardaşımız Süleyman Dəmirəl mənim dəvətimlə ölkəmzdə rəsmi səfərdədir. Hörmətli qonağımız Süleyman Dəmirəli hava limanında qarşılayandan indiyə qədər demək olar ki, gərgin iş gedibdir və bu qısa müddətdə biz çox nəticələr əldə edə bilmişik. Birincisi, əsas odur ki, müstəqil respublikamıza dostumuz, qardaşımız Hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin Prezidenti kimi ilk dəfə gəlibdir. İkincisi, Azərbaycan Respublikasının həyatında tarixi hadisələr baş veribdir: respublikamızın, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunubdur, ölkəmizin Parlamentinə ilk demokratik seçkilər keçirilib və Parlament öz fəaliyyətinə başlayıbdır. Bu hadisələrdən sonra müstəqil Azərbaycan Respublikasının ilk rəsmi ziyarət edən dövlət başçısı bizim hörmətli dostumuz, qonağımız Prezident Süleyman Dəmirəldir.

Hörmətli Süleyman Dəmirəl ölkəmizə gəldiyi ilk dəqiqələrdən indiyədək respublikamızın bugünkü həyatı ilə tanış olur, çoxlu görüşlər keçiribdir, müstəqil Azərbaycanın ilk parlamentində, yəni müstəqil dövlətimizin ilk demokratik seçkilərindən sonra yaranmış parlamentində çox parlaq, məzmunlu çıxış edibdir. Başqa görüşlər də olubdur. Dünən bizim aramızda təkbətək çox ətraflı danışıqlar, söhbətlər olub. Bundan sonra nümayəndə heyətlərimizin iştirakı ilə danışıqlar, görüşlər keçirilib. Bütün bu danışıqların, görüşlərin hamısı dostluq, mehribanlıq, səmimilik şəraitində olub və bunların hamısı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin sarsılmaz olduğunu bütün dünyaya nümayiş etdirir. Eyni zamanda əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük imkanların mövcud olduğunu göstərir.

Hörmətli Prezident Süleyman Dəmirəllə apardığımız danışıqlarda, söhbətlərdə məhz bu məsələlər diqqət mərkəzində olubdur. Hesab edirəm ki, bütün görüşlər, danışıqlar və hörmətli Prezident Süleyman Dəmirəlin Azərbaycanın bir neçə sahələri ilə şəxsən tanış olması ölkəmizin bugünkü vəzyyəti haqqında Türkiyə ictimaiyyəti, dövləti üçün, xüsusən Prezident Süleyman Dəmirəl üçün yeni bir mənzərə açır. Yəni ölkəmiz inkişafdadır, Azərbaycan müstəqilliyinin dördüncü ilini aşaraq irəliyə gedir.

Biz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq aləmdə gedən proseslər haqqında danışıqlar aparmışıq. Bütün bu danışıqlarımızın mərkəzində Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması və bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxunun işğal olunması, işğal olunmuş torpaqlarda bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsi məsələlərinin müzakirəsi durmuşdur. Biz eyni fikirdəyik ki, bu problem - Azərbaycan üçün ən ağır, çətin problem, eyni zamanda qardaş Türkiyə Cümhuriyyətini də həddindən artıq narahat edən problem sülh yolu ilə həll olunmalıdır və biz sülh yoluna üstünlük veririk. Ona görə də on doqquz ay bundan öncə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş əldə edilibdir. Biz atəşkəsə riayət edirik və bundan sonra da rayət edəcəyik. Ancaq bunlar yalnız danışıqları sürətləndirmək və sülh əldə etmək məqsədi daşıyır.

Böyük Sülh Sazişinin əldən olunması üçün şərtimiz də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalı, didərgin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, Dağlıq Qarabağ problemini həll etmək üçün bununla yanaşı Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz hissəsi olaraq Dağlıq Qarabağa müəyyən status verilməsi məsələsinə də biz müsbət münasibət göstəririk. Bunlar da sülhün əldə olunması üçün aparılan danışıqların əsas şərtləridir. Biz bu barədə fikir mübadiləsə apardıq. Bir daha eyni fikrə gəlmişik ki, məsələlər bu yolla, yaxın zamanda həll edilməlidir. Bu danışıqlar sürətlə getməlidir ki, tezliklə nəticə versin. Çünki Azərbaycan "Nə sülh, nə müharibə" vəziyyətində üzun müddət qala bilməz.

İqtisadi əlaqələrimizin inkişaf etdirilməsi barədə bu gün artıq söhbət aparıldı və hər iki tərəfin buna münasibəti bildirildi. Fikrimiz eynidir ki, iqtisadi əlaqələr genişləndirilməlidir. Bütün sahələrdə - təhsil, mədəniyyət, insani əlaqələr və bütün başqa sahələrdə münasibətlərimiz yaxşıdır, ancaq bundan da yaxşı olmalıdır. Biz xeyli nailiyyətlər əldə etmişik, ancaq irəliyə getməliyik, yəni nailiyyətlə qazanmalıyıq. Bütün bunlar danışıqlarımızın əsas mövzusu olmuşdur.

Sual: Mənim sualım Prezident Hedər Əliyevədir. Demokratiya yolunda ciddi addımlar atdınız, konstitusiyanı dəyişdirdiniz. Demokratiyanın inkişafı üçün bundan sonra hansı addımları atacaqsınız?

Heydər Əliyev: Müstəqil Azərbaycanın ilk konstitusiyasını qəbul olunması konstitusiyanın dəyişdirilməsi demək deyil. Biz müstəqil Azərbaycanda ilk dəfə konstitusiya qəbul etmişik. Bu konstitusiyanın qəbul edilməsi Azərbaycanda bütün sahələrdə demokratiyanı bərqərar və inkişaf etdirmək üçün böyük bir əsas yaratmışdır. Eyni zamanda parlament seçkilərinin demokratik prinsiplər əsasında keçirilməsi və yeni parlamentin - müstəiqil dövlətimizin parlamentinin yaranması Azərbaycanda demokratiyanın inkişaf etməsi üçün böyük bir addımdır. Biz bunları ilk addım hesab edirik. Hesab edirik ki, qarşımızda hələ böyük yol var. Demokratika elə bir şey deyildir ki, onu bir gündə, bir ildə və yaxud bir neçə ildə tətbiq edib hər yerdə bərqərar edəsən. Biz cəmi dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Dörd il müddətində Azərbaycanın həyatında gedən proseslər məlumdur. Ona görə də bu konstitusiyanın qəbul edilməsi, həm də demokratik parlamentin seçilməsi demokratiya yolunda ilk addımdır və görəcəyimiz işlər hələ çoxdur.

Konstitusiyanın üçdə bir hissəsi insan azadlığına, insan, vətəndaş hüquqlarına həsr olunubdur. Vətəndaşlara, insanlara azadlıq şəraiti yaratmaq konstitusiyanın tələblərini həyata keçirməkdən ibarətdir. Siyasi plüralizm var və onun üçün imkanlar yaradılmışdır. Soz, mətbuat azadlığı Azərbaycanda artıq hökm sürür, hesab edirik ki, bundan sonra da geniş yayılmalıdır. Bizdə artıq bir çox partiyalar mövcuddur. Səkkiz partiya seçkilərdə iştirak etdi. Bir neçə partiya parlamentdə yer qazandı. Bu prosesi biz davam etdirəcəyik. Yəni partiyaların inkişaf etdirilməsi, güclənməsi üçün şərait yaradılacaqdır. Bu da demokratiyanın inkişafı yolunda atacağımız addımdır.

Təkcə ictimai sahədə deyil, həm də iqtisadiyyatın demokratikləşdirilməsi bizim əsas vəzifələrimizdir. Bazar iqtsadiyyatının tətbiq olunması, özəlləşdirilmənin, iqtisadi islahatların keçirilməsi, xarici ticarətin sərbəstləşdirilməsi, bank işində, valyuta sahəsində islahatların keçirilməsi - bunlar hamısı iqtisadiyyatda demokratiyanın tətbiq olunmasıdır. Bir sözlə, qarşımızda hələ görüləsi işlər çoxdur. Ancaq inana bilərsiniz ki, biz bu işləri ardıcıl olaraq görəcəyik və tutduğumuz yolla irəliyə gedəcəyik.

Sual: İki dövlət arasında siyasi və iqtisadi əməkdaşlığı daha da möhkəmləndirmək üçün bu səfər zamanı hansı konkret tədbirlərin görülməsi razılaşdırılmışdır? İkinci sual Türkiyə Prezidenti cənab Süleyman Dəmirələdir. İndiyədək Türkiyə Rusyaya iki milyard dollaradək,

Türkmənistana təqribən 1,5 milyard dollar həcmində sərmayə qoymuşdur. Türkiyənin ən nüfuzlu şirkətləri Azərbaycandan daha çox keçmiş SSRİ-nin digər türk respublikalarına sərmayə qoymağı üstün tuturlar. Onlar Rusiyanın Azərbaycandan daha yaxın hesab edirlər, yoxsa Azərbaycandakı siyasi riskdən yan keçmək istəyirlər?

Heydər Əliyev: Hörmətli Prezident Süleyman Dəmrəlin Azərbaycana rəsmi səfəri zamanı biz, - mən burada məlumat verdim, - çox böyük nailiyyətlər əldə etmişik. Yəni ölkələrimiz arasında olan dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsi üçün əsas yaratmışıq. Biz burada birgə bəyanat imzaladıq, o, mətbuatda dərc olunacaqdır. Bütün bu prinsiplər bəyanatda öz əksini tapıbdır. Ölkələrimiz arasında indiyə qədər bütün sahələrdə olan əlaqələr bundan sonra daha sürətlə inkişaf edəcəkdir, o cümlədən siyasi əlaqələr, dövlətlərarası əlaqələr də inkişaf edəcəkdir. Güman edirəm ki, bu, çox böyük bir mərhələdir və mən bunu yüksək qiymətləndirirəm.

Süleyman Dəmirəl: Dəfələrlə demişəm və yenə deyirəm, bunu təkrar etməkdən zövq alır, qürur duyuram: Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər, qardaşlıq, dostluq əlaqələri heç bir ölkə ilə müqayisə edilməyəcək qədər gözəldir. Ticarət, sərmayə məsələlərinin öz şərtləri var. Buraya Türkiyənin ən tanınmış dövlət qurumlarının başçıları da gəlmişlər. Biz Azərbaycanın yüksəlişini, zənginlyini çox istəyirik. Başqa ölkələrlə yaratdığımız münasibətlər bu istəyimizi azalda bilməz, əksinə, artırır.

Sual: Cənab Dəmirəl, Türkiyə Avropa Gömrük Birliyinə daxil ola biləcəkmi? İkinci sual cənab Prezidentimizədir. Siz Frans Press agentliyinə müsahibə verərkən belə bir fikir söyləmisiniz ki, biz Dağlıq Qarabağa yüksək status verməyə razıyıq. Bu yüksək status hansı səbəblərdən bağlıdır?

Süleyman Dəmirəl: Türkiyə Avropa Gömrük Birliyinə daxil olacaqdır. Avropa parlamentindəki siyasi partiyaların böyük bir qrupu Türkiyənin Gömrük Birliyinə daxil olmasına tərəfdardır. Hələlik bir çətinlk görünmür. Beş gündən sonra, dekabrın 13-də bu məsələ müsbət həll olunacaqdır. Türkiyənin Avropa Gömrük Birliyinə daxil olması onun müqavilə hüququdur. Çünki Türkiyənin 1963-cü ildə imzaladığı sazişə əsasən 1973-cü ilədək davam edən protokol bundan 22 il sonra Gömrük Birliyinə daxil olmağı lazım bilir. O vaxtdan bəri Türkiyə iqtisadiyyatının Avropa iqtisadiyyatı ilə rəqabət edib-edə bilməyəcəyi və iqtisadiyyatımızın Gömrük Birliyinə girməyə hazır olub-olmaması uzun müddət araşdırılmış və məlum olmuşdur ki, Türkiyə iqtisadiyyatının rəqabət gücü var və Türkiyə Avropa Gömrük Birliyinə daxil ola bilər. 1996-cı ilin əvvəlindən etibarən Türkiyə Gömrük Birliyinin üzvü olacaqdır.

Heydər Əliyev: Dağlıq Qarabağa yüksək status verilməsi haqqında Frans Press agentliyinə verdiyim bəyanat ilk bəyanat deyildir. Mən bunu əvvəllər də bir neçə dəfə demişəm və bu gün də deyirəm ki, biz Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi kimi Dağlıq Qarabağa yüksək status verməyə hazırıq. Yüksək statusun nədən ibarət olması barədə, mənə belə gəlr ki, bu dediyim bəsdir. Yüksək status sözü artıq hər şeyi deyir.

Sual: İlk sualım hörmətli Heydər Əliyevədir. Dağlıq Qarabağ ermənilərinə verəcəyiniz status nədən ibarət olacaq? İkinci sualım hörmətli Dəmirələdir. Azərbaycanda siyasi hadisələrin təkrarlandığını söyləyirlər. Belə şəxslərin buraxılması haqqında hörmətli Əliyevlə müzakirə olacaqmı?

Süleyman Dəmirəl: Təbii ki, Azərbaycandakı həbslər məsələsi onun daxili işidir. Biz iki qardaş ölkə olsaq da, iki ayrı dövlətik. Dövlətlərə aid məsələlərdə nəzakətin gözləndiyini bilməlisiniz. Bir adamı həbs etmək mənim üçün mümkün olmadığı kimi, bir adamı azad etmək mənim üçün mümkün olmadığı kimi, bir adamı azad etməyim də mümkün deyildir. Eyni şəkildə bu işlər hörmətli Heydər Əliyevin də əlində deyildir.

Heydər Əliyev: Mən bu suala cavab verdim. Yüksək status verməyə hazırıq, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi olaraq müxtariyyət statusu alacaq və bu da yüksək səviyyədə olacaqdır. Ancaq bunun təfsilatını indi demək mümkün deyildir. Əvvəl gərək biz bu barədə razılığa gələk, bundan sonra onun təfsilatı barədə danışıq aparaq, razılığa gələk.

Sual: Hörmətli Süleyman bəy, qaçqınlarla görüş zamanı dediniz ki, məsələ bu qışadək həll edilməli idi, lakin edilmədi, inşallah, gələn qışadək qaçqınlar öz yerlərinə qayıdacaqlar. Belə bəyanat verməyə hansı əsaslarınız var və nəyə inanırsınız?

Süleyman Dəmirəl: Mən hər şeydən əvvəl haqqa inanıram. Bir milyon insanın belə vəziyyətə düşməsi zülmdür və insanlığın qəlbini, ürəyini qanatmalıdır. Bir neçə il davam edən bu münaqişənin artıq qurtarması zamanı gəlmişdir. Bu, bitməlidir. Gələcək qışa qədər qalmamalıdır. Biz bunu dünyadan tələb edirik, hər kəs buna yardımçı olsun.

Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə Prezident Heydər Əliyevin nitqi

"Respublika" Sarayı.
8 dekabr 1995-ci il

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəl!

Möhtərəm qonqlar, xanımlar və cənbalar!

Azərbaycan ictimaiyyətinin nümayəndələri bu gün buraya, Respublika sarayına əziz dostumuz, qardaşımız, əziz qonağımız - Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşməyə gəliblər. Sizi ürəkdən salamlayıram, bütün işlərinizdə sizə uğurlar diləyirəm!

Əziz dostumuz, qardaşımız Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəli iki gündür ki, Azərbaycanda rəsmi səfərdədir. Bu müddətdə çox iş görülübdür: çoxlu görüşlər keçirilib, danışıqlar aparılıb, sənədlər imzalanıb. Yaxşı nəticələr əldə olunubdur. **Demək olar ki, bu günlər Türkiyə - Azərbaycan dostluğu və qardaşlığı yeni bir yüksək zirvəyə qalxıbdır. Bunun da böyük əsası, kökləri vardır. Bizim xalqlarımız eyni köklərə, eyni mənşəyə mənsub olan xalqlardır. Tarixi keçmişimiz bizi bir-birimizə sıx bağlayıb. Azadlıq, yaşamaq uğrunda əsrlər boyu apardığımız birgə mübarizəmiz bizi bir-birimizə bağlayıbdır. Biz eyni dillə, eyni dinə mənsubuq.** Adətlərimiz, ənənələrimiz eynidir, yaxud bir-birinə bənzərdir. Ulu babalarımız daim dost, qardaş, bir-biri ilə sıx əlaqədə olub və bu dostluğu, qardaşlığı bizə vəsiyyət ediblər. Bu vəsiyyətə sadiq qalaraq biz bu gün Türkiyə ilə Azərbaycan arasında, xalqlarımız arasında olan dostluq və qardaşlıq əlaqələrini daha yüksək zirvələrə qaldırırıq. Bu, bizim ümumi nailiyyətimizdir, xoşbəxtliyimizdir.

Anadolu Türkiyəsinin böyük, möhtəşəm, çoxəsrlik tarixi var. XX əsrdə Türkiyədə gedən proseslər və onun müsbət nəticələri Türkiyə Cümhuriyyətinin yaranmasına gətirib çıxarıbdır. Böyük Mustafa Kamal Atatürkün öz xalqının, ölkəsinin qarşısında cidmətləri nəticəsində, onun silahdaşlarının xidmətləri nəticəsində 70 il bundan öncə Anadolu Türkiyəsində Türkiyə Cümhuriyyəti yaranıbdır.

Türkiyə Cümhuriyyəti möhtəşəm tarixi bir yol keçibdir və bugunkü Türkiyə ni yüksəklərə qaldırıbdır. Böyük Mustafa Kamal Atatürkün yolu ilə gedən, onun vəsiyyətlərinə sadiq olan silahdaşları və yetirmələri ondan sonra gələn nəsillər Türkiyəni günbəgün, aybaay, ilbəil möhkəmnləndiriblər, yüksəklərə qaldırıblar. Türkiyə bu gün dünya birliyində özünəməxsus yüksək yerini tutubdur və Türk dünyasının, Türk xalqının nəyə qadir olduğunu dünya birliyinə açıq-aşkar nümayiş etdirir. Bu nailiyyətlər bizi sevindirir və bizdə böyük iftixar hissi yaradır.

Türkiyə böyük bir dövlətdir, böyük iqtisadi potensiala malkdir. Öz torpaqlarını qoruyub saxlamağa qadirdir. Türkiyə dünya demokratiyasından bəhrələnərək 50 ildən artıq bir dövrdə demokratiya yolu ilə azadlıq yolu, sərbəstlik yolu ilə gedir, dünya demokratiyasında özünəməxsus görkəmli yer tutubdur.

Türkiyənin iqtisadiyyatında

son illərdə, onilliklərdə baş vermiş böyük dəyişikliklər, sıçrayış, böyük inkişaf türk xalqının nəyə qadir olduğunu göstərir, eyni zamanda Türkiyəni idarə edən qüvvələrin nə qədər mütərəqqi, uzaqgörən olduğunu nümayiş etdirir. Biz daim Türkiyəyə böyük məhəbbət hissi ilə, sevgi hissi ilə baxmışıq. Türkiyənin əldə etdiyi nailiyyətlərə həmişə sevinmişik. Birbirimizdən aralı düşdüyümüz vaxtlarda uzaqdan-uğzağa hissiyyatımızı, sevgimizi, məhəbbətimizi bildirmişik, sevmişik. İndi isə artıq bu hissiyyatlarımızı bildirmək üçün gözəl imkanlar yaranıb.

Türkiyə tarixində böyük şəxsiyyətlər Türkiyənin inkişafını təmin ediblər. Türkiyə Cümhuriyyətinin tarixində, onun bugünkü nailiyyətlərinin əldə edilməsində, Türkiyədə demokratiyanın bərqərar olunmasında, Türk xalqının bu gün rifah içində yaşamasında bizim dostumuz, qardaşımız, hörmətli Prezident Süleyman Dəmirəlin xüsusi rolu, fəaliyyəti var. Süleyman Dəmirəl bütün dünyada məşhur bir şəxsiyyətdir. O, öz əmək, yaradıcılıq fəalyyəti ilə siyasi fəaliyyəti ilə Türkiyənin tarixində, bütün dünya siyasətinin tarixində görkəmli bir yer tutubdur.

35 ildən artıqdır ki, hörmətli dostumuz Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin siyasi proseslərinin fəal iştirakçısıdır və aparıcı şəxsiyyətlərindən biridir. Türkiyənin bugünkü durama gəlib çatmasında, bugünkü nailiyyətlərinin əldə olunmasında son on illiklərdə mərhum Turqut Özalın və bizim əziz dostumuz v əqardaşımız, Türkiyə Prezidenti Süleyman Dəmirəlin xüsusi rolu var. Hörmətli dostumuz Süleyman Dəmirəli Azərbaycanda yaxşı tanıyırlar. Dünyada da yaxşı tanıyırlar. Ancaq mən Azərbaycan haqqında demək istəyirəm.

Hörmətli Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş naziri seçilməndən sonra ilk xarici səfərlərindən birini Sovet İttifaqına etmişdir. Sovet İttifaqını ziyarət ziyarət edərkən Azərbaycana gəlmişdir. Bu, 1967-ci ildə olmuşdur. Yəni ilk dəfə Baş nazir olarkən o, Azərbaycana maraq göstərmiş, Azərbaycana gəlmək istəmiş və gəlmişdir. Xatirimdədir, o günlər Azərbaycan vətəndaşları, xalqımız hörmətli Süleyman Dəmirəli öz doğma qardaşı kimi qarşılayırdı. Olduqca mehriban, hərarətli bir münasibət var idi. O vaxt bizim ilk tanışlığımız oldu. Mən hiss edirdim ki, hörmətli Süleyman Dəmirəl də Azərbaycana gəlməyindən nə qədər məmnundur və Azərbaycanı görmək onun üçün nə qədər əhəmiyyətlidir.

Sonrakı dövrdə Azərbaycan ilə hörmətli Süleyman Dəmirəl arasında olan münasibətlərdə böyük fasilə dövrü olubdur. Məlumdur ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində müttəfiq respublika idi. Azərbaycanın xarici ölkələrlə bilavasitə əlaqə saxlamağa imkanı yox idi. Türkiyənin Baş naziri nə qədərə istəsəydi də,

Azərbaycanla əlaqə qurmağa ona da imkan verməzdilər. Nəhayət, bu imkan əldə edildi. **1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinə nail oldu. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk xarici dövlət oldu. Bu da məhz hörmətli dostumuz Süleyman Dəmirəlin fəalyyəti, onun Azərbaycana münasibəti nəticəsində olmuşdur.** Bundan sonra əlaqələr çox yaxın olmuş, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr inkişaf etməyə başlamışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycana daim diqqət yetirmiş, qayğı göstərmişdir.

1992-ci ildə hörmətli Süleyman Dəmirəl Azərbaycana ikinci dəfə gəlmişdir, bu vaxt Azərbaycan müstəqil dövlət idi. Doğrudur, o vaxt Azərbaycan müstəqilliyinin ilk aylarının yaşayırdı. Azərbaycanda qarmaqarışıq bir vəziyyət var idi, daxili siyasi proseslər çox gərgin idi. Məhz belə bir vaxt, belə bir zamanda hörmətli Süleyman Dəmirəl ölkəmizə gəlməklə bir daha Azərbaycana öz hörmət və ehtiramını bildirmiş və bu da öz faydasını göstərmiş, öz nəticəsini vermişdir.

Nəhayət, dünən biz Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəli əziz bir qonaq kimi qəbul etmişik, bağrımıza basmışıq, qucaqlamışıq. İki gündür ki, bərabərik, bir yerdəyik. Güman edirəm ki, bu qısa bir zamanda hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən nümayəndə heyəti, onunla bərabər Azərbaycana gəlmiş türkiyəli qardaşlarımız respublikamızın bu günü ilə tanış ola biliblər. Çox şey görüblər. Yəqin ki, gördükləri haqqında özləri deməlidirlər və nəticə çıxarmalıdırlar. Ancaq bir şeyi mən də qeyd etmək istəyirəm. Harda olmuşduqsa, hansı küçədən, meydandan keçmişiksə, havanın yağışlı olmasına baxmayaraq, insanlar, vətəndaşlar, bakılılar, Bakının sakinləri küçələrə, meydanlara çıxıblar - məhz hörmətli qonağımızı, dostumuzu Süleyman Dəmirəli görmək, onu salamlamaq, ona öz hörmət və ehtiramını yetirmək, ona əl etmək üçün, ona öz təbəssümlərini, sevinclərini bildirmək üçün. Mən bunların şahidiyəm. Bunlar təbiidir. Çünki bunlar hamısı xalqlarımız arasında olan, əsrlərdən-əsrlərə keçmiş dostluq, qardaşlıq əlaqələrinin ifadəsidir. Bunlar hamısı Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyəyə, Türk dünyasına və Türk dünyasının böyük şəxsiyyəti, böyük lideri Süleyman Dəmirələ olan hörmət və ehtiramının ifadəsidir.

Respublikamız müstəqillik qazanandan sonra hörmətli Süleyman Dəmirəlin Azərbaycana göstərdiyi qayğı və diqqət haqqında, onun etdiyi yardımlar haqqında çox danışmaq olar. Bir sözlə, onu demək istəyirəm ki, o, həmişə Azərbaycan üçün doğma qardaş olubdur və öz qardaşlıq münasibətini daim ifadə edibdir, bildiribdir, göstəribdir, əməli surətdə

sübut edibdir.

Hörmətli Süleyman Dəmirəlin Azərbaycana ayrılmaz hissəsi olan, ağır bir şəraitdə yaşayan Naxçıvan Muxtar Respublikasına göstərdiyi qayğı və diqqət haqqında xüsusi olaraq danışmaq istəyirəm. Bunun çox böyük əhəmiyyəti var. Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə başlanandan Naxçıvan Muxtar Respublikası blokada şəraitnə düşmüşdür. Orada insanlar çox çətin bir vəziyyətdə yaşayırlar. Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə nəqliyyat əlaqələrinin, bütün kommunikasiya xətlərinin kəsilməsi Naxçıvan Muxtar Respublikasını, onun vətəndaşlarını çox ağır bir vəziyyətə salıbdır. Belə bir vaxtda, zamanda Türkiyə Cümhuriyyəti Azərbaycana, onun ayrılmaz hissəsi olan Naxçıvana öz kömək əlini uzatdı. Məhz Türkiyə Cümhuriyyətinin səyi ilə Türkiyəni Azərbaycana bağlayan, Türkiyə ilə Naxçıvan arasında qısa bir müddətdə əzəmətli bir körpü tikildi. Bu körpü tikilərkən bütün Azərbaycan ona baxırdı. Xüsusən Naxçıvan Muxtar Respublikasının əhalisi ona həsrətlə, ümidlə baxırdı. Arazın o tayında da bizim qardaşlarımız, soydaşlarımız həsrətlə, ümidlə baxırdılar. Ona görə də körpünün adı "Həsrət körpüsü", "Ümid körpüsü" oldu.

O körpü tikildi və hörmətli Süleyman Dəmirəllə danışıqlarımız nəticəsində məhz Azərbaycanın İstiqlal günü - 1992-ci ilin 28 May günündə hörmətli Süleyman Dəmirəl, onunla bərabər çoxsaylı nümayəndə heyəti, Türkiyənin nazirləri, millət vəkilləri, mətbuat nümayəndələri təyyarə ilə Naxçıvanın hava limanına endilər. Bu, Naxçıvan Muxtar Respublikasının tarixində ilk hadisə, haldır ki, ora başqa bir dövlətin başçısı bu qədər böyük tərkibli nümayəndə heyəti ilə gəlsin. Xatırlayıram, Naxçıvan Muxtar Respublikasının bütün əhalisi ayağa qalxmışdı. Hava meydanından körpüyə qədər, Arazın qırağına qədər - Türkiyəni Azərbaycana bağlayan körpüyə qədər 75 kilometrlik yolun o tərəfində də, bu tərəfində də insanlar çəpər qurmuşdular - insan çəpəri. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi o gün oraya toplaşmışdı.

Bu körpünün böyük təntənə ilə açdıq. O körpü uzun illər - on illərlə Türkiyənin də, Azərbaycanın da arzusu olmuşdur. Nəhayət, bu arzu həyata keçirildi. İndi bu körpü vasitəsilə Azərbaycanla Türkiyə arasında, ərazilərimiz arasında əlaqələr yaranıbdır. İnsanlar bundan istifadə edir və çox böyük fayda görürülər.

Naxçıvanın ağır şəraitindən çıxarmaq üçün qısa bir müddətdə Naxçıvan Muxtar Respublikasına Türkiyədən elektrik xətti çəkildi. Elektrik enercisi yox idi. Xatirimdədir, qış günlərində türkiyəli qardaşlarımız həmin elektrik xəttini çəkərkən şaxta o qədər şiddətli idi ki, onların əlləri məftillərə yapışırdı. Ancaq onlar işləyirdilər, çalışırdılar ki, üzərlərinə qoyulmuş bu vəzifəni layiqincə yerinə

yetirsinlər. Bir bu deyil, 1992-ci ildə Naxçıvan Ermənistan tərəfindən hücuma məruz qaldı. O vaxt biz səsimizi bütün dünyaya qaldırdıq. Hörmətli Süleyman Dəmirəl oradan uca səsi ilə "Naxçıvandan əlinizi çəkin" dedi. Beynəlxalq aləm bu məsələyə qarışdı. Bundan sonra bizim sıx əlaqələrimiz oldu və Naxçıvana Türkiyədən hər cür yardımlar gəldi.

Mən bunu xüsusi deyirəm, ona görə ki, bilirsiniz, **Naxçıvan xüsusi statusa məxsusdur. Vaxtilə məhz Türkiyənin iştirakı ilə məşhur "Qars müqaviləsi" əsasında, məşhur "Moskva müqaviləsi" əsasında Naxçıvan Muxtar Respublikasına xüsusi status verilmişdir və bu statusa görə Naxçıvanın statusunda bir dəyişiklik Türkiyənin icazəsi olmadan ola bilməz. O vaxt məhz Naxçıvan təhlükə altında olduğu zaman, Ermənistan Azərbaycana təcavüzünü şiddətli həyata keçirdiyi zaman, Naxçıvan da təhlükə altında olduğu zaman biz hörmətli Süleyman Dəmirəllə birlikdə Ankarada "Qars müqaviləsi"nin nə qədər böyük əhəmiyyətli olduğunu bütün dünyaya bəyan etdik. Hamıya xəbərdarlıq olundu ki, Naxçıvanı qo ruyanlar var, Naxçıvandan əllərini çəkməlidirlər.**

Bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin , xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu mən bu gün burada qeyd etməyi özümə borc bilirəm. Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrdə biz həmişə Türkiyənin dayağını, dəstəyini hiss etmişik. 1918-ci ildə Azərbaycanda ilk demokratik, müstəqil dövlət elan olunandan sonra demokratik dövlət yaranandan sonra həmin ilk Azərbaycan Demokratik Respublikasına ən çox köməyi, dəstəyi Türkiyə vermişdir. Türkiyə o vaxt müstəqil Azərbaycan Respublikasını tanıdı, öz kömək əlini uzatdı.

1918-ci il iyun ayında Batumda hələ o vaxtkı Osmanlı imperatorluğu ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında böyük bir müqavilə imzalandı. Ondan sonra da, **ilk Azərbaycan Demokratik Respublikası fəalyyət göstərdiyi dövrdə Türkiyə daim Azərbaycana dayaq, kömək olmuş, yardım etmişdir. Bunu bizim xalqımız şeç vaxt unutmayıb və unuda da bilməz. O ağır çətin, illərdə erməni silahlı qüvvələri Azərbaycanda - Bakıda, Azərbaycanın başqa bölgələrində, o cümlədən Qarabağ bölgəsində qırğınlar edirdilər. O vaxt türk qardaşlarımız yenə də bizim köməyimzə gəldilər. Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik.** İndi də bu dörd illik müstəqillik dövründə, bizim bu dostluq, qardaşlıq əlaqələrmiz daha da inkişaf edib, yüksəklərə qalxıb. Artıq biz sərbəst münasibət yaratmaq imkanı əldə etmişik.

70 il ərzində bizim Türkiyə ilə əlaqələrimiz bağlı, qapalı olubdur. Biz böyük həsrətlə Türkiyəyə baxmışıq, Türkiyədə gedən prosesləri izləmişik. Çoxlarının qohum-əqrabası orada olubdur. Orada yaşayanların qohum-əqrabası Azərbaycanda olubdur. Bir-birindən ayrı düşüblər. Bəziləri bəlkə də də öz arzularını yerinə yetirmədən dünyasını dəyişib. Ancaq nəhayət, bütün bunlar aradan götürüldü. Sərhədlərimiz açılan kimi, Azərbaycan müstəqillik qazanan kimi xalqlarımız dərhal bir-birinə bağlandı. 70 illik bu ayrılıq sanki heç olmamışdır. Bəzən düşünürsən ki, biz elə daim bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Yəni daxili, mənəvi əlaqələrimiz, hissiyyatlarımız bir-biri ilə o qədər bağlıdır ki, **70 illik ayrılıq bizi heç də ayrıa bilməyib və güman edirəm, bundan sonra heç vaxt ayıra bilməz.** Çünki artıq Azərbaycan müstəqil dövlətdr. Müstəqil dövlət kimi Azərbaycanın yeni konstitusiyası qəbul olunub. Azərbaycanda ilk demokratik parlament seçkiləri keçirilib, yeni parlament yaranıbdır. Yəni bu dörd il müddətində Azərbaycanda gedən ağır proseslər nəticəsində artıq dövlət-hakimiyyət orqanları formalaşıbdır, bərqərar olubdur, Azərbaycanı idarə etməyə və Azərbaycanın bütün ölkələrlə münasibətlərini yaratmağa qadirdir. Bu münasibətləri yaradarkən biz birnci növbədə Türkiyə ilə olan münasibətlərimizi daha da inkişaf etdirməyə çalışırıq və bundan sonra da inkişaf etdirəcəyik.

Bu gün hörmətli Prezident Süleyman Dəmirəl ilə mən Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsinə həsr olunmuş birgə bəyanat imzaladıq. Bizim ölkələrimiz arasında indiyədək bir sıra sazişlər, müqavilələr, sənədlər imzalanıbdır. Biz onları həyata keçirməliyik. Ancaq bu gün birgə bəyanatı imzalayarkən bir daha təsdiq etdik ki, həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası indiyə qədər imzaladıqları sazişlərə, müqavilələrə sadiqdirlər və bundan sonra da əlaqələrini inkişaf etdirməyə əzmlə çalışacaqlar.

Hörmətli Süleyman Dəmirəl! Siz Azərbaycanın bugünkü gününü gördünüz. Respublikamızın bugünkü günü Azərbaycanda demokratik hüquqi dövlət qurmaq yolu ilə getməsidir. Biz Azərbaycanı demokratiya yolu ilə aparmağa çalışırıq və bu sahədə ilk addımlarımızı atmışıq. İqtisadiyyat sahəsində bizim strateci xəttimiz Azərbaycanın iqtisadiyya-

tında ciddi dəyişikliklər etmək, Azərbaycanı dünya iqtisadiyyatına bağlamaq, bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdir.

Azərbaycanın böyük iqtisadi potensialı, böyük təbii sərvətləri var. Bunların hamısından səmərəli istifadə etmək üçün şübhəsiz ki, biz sınaqlardan çıxmış bazar iqtisadiyyatı yolu ilə getməliyik. Bunun üçün lazımi qanunlar, qərarlar qəbul etmişik və əməli fəaliyyətə başlamışıq. Biz Azərbaycanı bütün dünyaya açmışıq. Qapılarımız dünya birliyində öz yerini tutub, eyni zamanda dünya birliyinin fəal üzvü olmuq istəyir, dünya birliyində, dünya iqtisadi sistemində özünəməxsus yer tutmaq istəyir. Ona görə də biz qapılarımızı açmışıq ki, bizimlə əməkdaşlıq etmək istəyənlər ölkəmizə gəlsinlər. Zəngin təbii sərvətlərimizə, iqtisadi və intellektual potensialımıza görə Azərbaycana maraq artıbdır.

Məlumdur ki, bir il bundan öncə Azərbaycan Respublikasının Xəzər dənizi sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün böyük bir neft müqaviləsi bağlanıbdır. Bu, "Əsrin müqaviləsi" adlanıbdır. Bir ay bundan əvvəl - noyabrın 10-da yenə də Xəzər dənizinin Azərbaycan sektorunda böyük bir neft yatağının xarici neft şirkətləri ilə müştərək işlənməsi üçün yeni bir müqavilə imzalanıbdır. Qarşıda yeni layihələrimiz var, onları da həyata keçirəcəyik. "Əsrin müqaviləsi" proqramı üzrə ilkin neftin ixracı üçün biz çox əhəmiyyətli bir qərar qəbul etmişik. İki marşrut - həm şimala, həm qərbə doğru marşrut üzrə neft kəmərinin tikilməsi haqqında qərar qəbul etdik: Şimala Rusiyanın ərazisindən Novorossiysk limanına, qərbə Gürcüstanın ərazisindən Qara dənizdəki Supsa limanına. Bunlar da çox əhəmiyyətli addımlardır. Güman edirəm ki, bunlar öz nəticələrini verəcəkdir.

Türkiyə Cümhuriyyəti, onun şirkəti bizim böyük neft müqaviləsinin üzvüdür. Orada Türkiyənin böyük payı var. Biz Türkiyə ilə bu sahədə əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Güman edirəm ki, bu əməkdaşlıq iqtisadiyyatımızda qarşılıqlı surətdə faydalı olacaqdır.

İqtisadiyyatımızın digər sahələrinə də maraq göstərənlər və onlarla tanış olmaq istəyənlər var. Biz hamını dəvət edirik. Bu gün Türkiyənin iş adamlarının böyük bir qrupu ilə aparılan söhbətlər, onların verdiyi məlumatlar onu göstərir ki, artıq Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr inkişaf edir, irəliyə gedir və bu əlaqələrin çox gözəl gələcəyi var. Bunların hamısı bizi sevindirən hallardır.

Bizi kədərləndirən, incidən, ağrıdan isə yeddi ildən artıq bir dövrdə Azərbaycana Ermənstan tərəfindən olan hərbi təcavüzdür, təcavüz nəticəsində Azərbaycan torpaqlarının işğal olunmasıdır. Torpaqlarımızın 20 faizindən çoxu işğal olunubdur. Bu torpaqlardan bir milyon-

dan artıq vətəndaşımız qaçqın düşübdür, ağır, çıxılmaz vəziyyətdə yaşayırlar. Hörmətli qonağımız Süleyman Dəmirəllə birlikdə bu gün Bakıda qaçqınların yaşadığı bir məntəqəyə getdik. Qaçqınlarla görüşdük. Ağır, çətin vəziyyətdə yaşayırlar. Mən hətta avtomobildə gedərkən hörmətli Süleyman bəyə deyirəm ki, bilirsiniz, xalqımız indi ağır vəziyyətdədir. Biz bunları dərk edirik. İqtisadi vəziyyət çətindir. Respublikamızda sosial-iqtisadi böhran hökmsürür. Amma belə bir şəraitdə insanlarda nikbin bir əhval-ruhiyyə var. Bizim qonağımız - hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən şəxslər bu gün də, dünən də bu əhval-ruhiyyənini küçələrdə, meydanlarda, qaçqınlarla görüşlərdə gördülər.

Qaçqın olasan, evini, eşiyini, obanı, varını-yoxunu itirəsən, qohum-əqrabanın bir hissəsini itirəsən, şəhidlər verəsən və bu cür nikbin vəziyyətdə yaşayasan - bu, məhz Azərbaycan xalqına xas olan bir xüsusiyyətdir. Məhz bizim xalqımıza xas olan bir xüsusiyyətdir. Amma eyni zamanda bunlar bizi məcbur edir ki, qarşımızda böyük vəzifə qoyur ki, biz bu vəziyyətdən çıxmalıyıq. Yəni işğal olunmuş torpaqlar azad olunmalıdır. Yernidən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz yerinə qayıtmalıdırlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Bu, bizim qarşımızda duran ən böyük, ən məsuliyyətli, eyni zamanda ən çətin vəzifədir. Bu, bizim üzərimizə düşən böyük bir məsuliyyətdir və biz bu məsuliyyətimizi hiss edirik.

Dəfələrlə demişəm, bu gün də qeyd edirəm ki, biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Ona görə də 19 ay bundan əvvəl atəşkəs haqqında saziz imzalamışıq. Biz o sazişə riayət edirik, bundan sonra da riayət edəcəyik.

Ancaq biz bu müddətdən istifadə edib məsələni həll etməliyik. Məsələ həll olunmalıdır. Məsələ sülh yolu ilə həll olunmalıdır. Biz buna nail olmalıyıq. Beynəlxalq təşkilatlar buna kömək etməlidir. Böyük dövlətlər buna kömək etməlidir. Türkiyə Cümhuriyyəti buna kömək etməlidir, dünya ictimaiyyəti buna kömək etməlidir. Çünki bizə, Azərbaycan xalqına qarşı ədalətsizlik, haqsızlıq olubdur. Azərbaycan xalqına qarşı edilən təcavüz ola bilər ki, tarixdə misli görünməmiş təcavüzdür, vəhşilik misli görünməmiş bir vəhşilikdir və buna dözmək olmaz. Biz buna dözürük. Amma dünya ictimaiyyəti dözməməlidir. Haqq, ədalət dözməməlidir. Ona görə də belə vəziyyət aradan götürülməlidir.

Biz dözümlüyük. Biz sülhsevərik. Biz müharibə istəmirik. Biz sülhsevər millətik, xalqıq. Ancaq bizim dözümümüzün də həddi-hüdudu var. Biz dözürük, dözəcəyik o vaxta qədər ki, məsələ sülh yolu ilə həll olunsun. Məsələ sülh yolu ilə həll

olunmalıdır. Əgər həll olunmasa bu məsələni biz özümüzü bildiyimiz kimi həll edəcəyik.

Bu ağır, çətin məsələni, vəzifənin həll olunmasında biz Türkiyə Cümhuriyyətinin, onun rəhbərlərinin və şəxsən hörmətli dostumuz Süleyman Dəmirəlin yardımını, dəstəyini daim hiss edirik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu iki gün müddətində Azərbaycanla tanış olandan, qaçqınların o vəziyyətini görəndən, Azərbaycanın sülhsevər olduğuna bir daha inanandan sonra həm Prezident Süleyman Dəmirəl, həm də Türkiyəənin digər rəhbər şəxsləri və Türkiyə Cümhuriyyəti Azərbaycanın bu vəziyyətdən çıxması üçün daha təsirli addımlar atacaqdır. Biz bunu gözləyirik, buna ümid bəsləyirik.

Bu gün buraya toplaşanların hamısı böyük məhəbbət hissi ilə toplaşıblar. Çünki bu gün biz Türk dünyasının bir hissəsi kimi burada birbirimizlə görüşürük. Türk dünyası inkişafdadır. Türk dünyasının böyük tarixi var. Bu tarix çox möhtəşəm, şanlı, çox ləyaqətli tarixdir və son illər dünyada gedən proseslərdə Türk dünyası yenidən qalxmağa başlayıbdır. Türk xalqlarının əksəriyyəti müstəqillik əldə edib. Onlar öz müstəqil dövlətlərini qurublar. Özləri öz talelərinin sahibi olublar. Türkiyə Cümhuriyyəti müstəqilliyini əldə etmiş bütün bu türkköklü, türkdilli dövlətlər, xalqlar üçün örnəkdir, təcrübə mənbəyidir. Biz bu örnəkdən, təcrübə mənbəyindən səmərəli istifadə etməyə çalışırıq. Eyni zamanda **özümüzü Türk dünyasının bir hissəsi kimi hiss edərək, Türk dünyasının bundan sonra böyük gələcəyinə də ümidlər bəsləyirik.** Ümid edirik ki, müstəqilliyini əldə etmiş hər bir xalq, millət daha çox inkişaf edəcək, bir-birinə qovuşacaq və bunlar hamısı tarixi keçmişimizi bir daha vərəqləyərək bizi daha da irəliyə aparacaqdır.

Bütün bunların önündə Türkiyə Cümhuriyyəti gedir. Çünki Türkiyə Cümhuriyyəti inkişaf yolunda artıq böyük bir məsafəni qət edibdir. 70 ildən çoxdur ki, cümhuriyyət yaşayır və əzəmətli bir dövlətə çevrilibdir. 50 ildən artıqdır ki, Türkiyədə demokratiya hökm sürür və dünya demokratiyasının bu gün də bir hissəsini təşkil edir. Ona görə bütün xalqlarımızın, müstəqillik əldə etmiş xalqların önündə Türkiyə Cümhuriyyəti gedir. Bu, təbiidir, biz bunu alqışlayırıq və istəyirik ki, gələcəkdə də belə olsun.

Hörmətli dostumuz, əziz qardaşımız Süleyman Dəmirəl, Azərbaycan xalqı adından bütün bunları sizə çatdıraraq bir daha sizə və sizin şəxsinizdə Türkiyə Cümhuriyyətinə, qardaş türk xalqına öz hörmət və ehtiramımızı bildiririk. Mən bütün Azərbaycan xalqı adından Türkiyə Cümhuriyyətinə, qardaş Türk xalqına xoşbəxtlik, səadət arzu edirəm və Türkiyə Cümhuriyyətinin qarşısında duran bütün vəzifələrin uğurla həyata keçməsini arzu edirəm.

Əziz dostum, qardaşım, sizə cansağlığı, uzun ömür və bu yüksək vəzifənizdə yeni nailiyyətlər arzu edirəm. Sağ olun.

Bakıda ilk Beynəlxalq Telefon Stansiyasının və yenidən qurulmuş Şəhərlərarası Rabitə Stansiyasının açılış mərasimində Prezident Heydər Əliyevin çıxışı

9 dekabr 1995-ci il

Hörmətli Prezident, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycanda yeni bir əlamətdar hadisənin şahidi və iştirakçısıyıq. Azərbaycan Respublikasının müstəqilliyini daha da möhkəmləndirmək, dünyaya çatdırmaq üçün rabitənin inkişafı yolunda yeni bir addım atılır. Rabitə vasitəsilə biz dünyaya öz ölkəmizdə, respublikamızda olan məlumatları çatdırırıq və rabitə vasitəsilə bütün dünya ölkələrindən, kürreyi-ərzin hər yerindən məlumatlar alırıq. Müasir dövrdə bunsuz yaşamaq mümkün deyildir. Ona görə də rabitə sahəsində görülən işlər həm iqtisadi xarakter daşıyır, həm də insanların işləməsi, çalışması üçün çox böyük şərtdir, eyni zamanda ictimai-siyasi xarakter daşıyır. Biz bunlara çox diqqət, fikir veririk.

Son vaxtlar bu sahədə bir sıra addımlar atılmışdır və bunlar hamısı Azərbaycan rabitə potensialını inkişaf etdirir, Azərbaycanı bütün dünya ilə daha sıx bağlamağa, daha sürətlə əlaqələr yaranmasına kömək edir. Bu işlərin görülməsində Azərbaycan Respublikası Türkiyə ilə, onun şirkətləri - "Teletaş", "Netaş" və s. şirkətlərlə artıq bir neçə ildir ki, əməkdaşlıq edir. Doğrudur, bu sahədə dünyanın başqa ölkələrinin - Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının, Almaniyanın və s. şirkətləri ilə də əlaqələrimiz var. Ancaq rabitə sahəsində buraya cığırları, yolları məhz Türkiyə şirkətləri açıblar. Bu da təbiidir, çünki müstəqilliyimizi əldə edəndən sonra dünya ilə əlaqələrimizdə Türkiyə həmişə bizim yanımızda olub, bizimlə bərabər olubdur. Təbiidir ki, Azərbaycana bütün ölkələrdən tez Türkiyənin iş adamları, şirkətləri gəlib. Biz bunu məmnuniyyətlə qeyd edirik və bu günlərdə hörmətli Prezident, dostumuz Süleyman Dəmirəlin Azərbaycanda olduğu zaman bu məsələlər barəsində çox işlər görüldü, biz yeni mərhələyə çatdıq və gələcəkdə görüləsi işlərin proqramını müəyyənləşdirdik. Əminəm ki, bu proqram sürətlə həyata keçiriləcək və əlaqələrimiz genişlənəcəkdir.

Bu gün biz buraya həmin bu əməkdaşlığın, müştərək işin nəticəsi olan yeni rabitə qovşağının, rabitə stansiyasının açılması münasibətilə toplaşmışıq. Çox iş görülübdür və bunun nəticəsində biz artıq bu yeni

telefon stansiyasını açmağa gəlmişik. Çox əlamətdar, sevindirici haldır ki, bunu bizim rabitəçilər, şübhəsiz ki, Türkiyə ilə Azərbaycanın bərabər çalışan mütəxəssisləri məhz Türkiyənin Prezidenti, hörmətli qonağımız Süleyman Dəmirəlin buraya gəlişi münasibətilə öz işlərini sürətləndirib bu vaxta çatdırıblar. Bu, çox rəmzi xarakter daşıyır. Yəni bizim şirkətlərimiz, ayrı-ayrı təşkilatlarımız əlaqə yaradıb iş görürlər və işlərini dövlət başçılarına nümayiş etdirmək istəyirlər. Biz, dövlət başçıları da bu işləri qiymətləndirərək, bu işlərə daha da sürət vermək üçün sizin dəvətinizi qəbul edib buraya gəlmişik və sizinlə birlikdə yeni böyük nailiyyəti məmnuniyyətlə qeyd edirik.

Mən Türkiyə şirkətlərinin Azərbaycanda indiyə qədər gördükləri işdən məmnun olduğumu bildirmək istəyirəm, bu işlərə görə onlara təşəkkür edirəm. Azərbaycanın bütün müəssisələrinin, iqtisadiyyatla məşğul olan nazirliklərin, o cümlədən Rabitə nazirliyinin qarşısında duran vəzifəni bir də qeyd edirəm ki, biz təşəbbüskar olmalıyıq, çalışmalıyıq, bu əlaqələrin yaradılmasına bundan sonra daha da səy göstərməliyik. Müştərək işlərin görülməsi üçün daha yaxşı şərait yaratmalıyıq ki, əlaqələrimiz genişlənsin. Dünən imzaladığımız birgə bəyanatda Türkiyə ilə Azərbaycan arasında olan əlaqələrin bütün sahələrdə bundan sonra da inkişaf etməsi üçün öhdəliklər qəbul etmişik. Bunları yerinə yetirmək üçün təşkilatlarımız, şirkətlərimiz, müəssisələrimiz bundan sonra daha fəal işləməlidirlər.

Bugünkü hadisə münasibətilə sizi təbrik edirəm. Hörmətli dostumuz, qardaşımız, Türkiyənin Prezidenti Süleyman Dəmirəlin bu mərasimdə iştirak etməsini çox yüksək qiymətləndirirəm, hamınıza bundan sonra da müştərək işləri davam etdirməyinizi arzu edirəm. Sizi bu hadisə münasibətilə ürəkdən təbrik. Sağ olun.

1996

Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin Sədri, Zati-aliləri Mustafa Kalemli cənablarına!

Zati-aliləri!

Sizi Türkiyə Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə səmimi-qəlbən təbrik edirəm.

Mən iki qardaş ölkə arasında mövcud olan siyasi, iqtisadi və humanitar əlaqələrin daha geniş inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qardaşlıq və əməkdaşlıq əlaqələri daha da genişlənib xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib Sizə bir daha öz dərin hörmət və ehtiramımı bildirirəm.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
30 yanvar 1996-cı il

Türk dövlət və icmalarının IV Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına!

Möhtərəm qurultay iştirakçıları!

Sizi Türk dövlət və icmalarının IV Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram.

Bir kök üzərində şaxələnən Türk xalqları dünyanın müxtəlif yerlərində məskunlaşaraq böyük və şərəfli bir tarix yaşamış, neçə-neçə qüdrətli dövlət yaratmışlar. Bu gün müasir Türk xalqları öz qədim tarixlərinə sadiq qalaraq elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini daha da genişləndirir, qarşılıqlı münasibətlərin yeni bir inkişaf dövrünə qədəm qoyurlar.

Əminəm ki, məhz həmin məqsədlərə xidmət edən bu ali məclisinizin türk dövlət və icmaları arasında dostluq, qardaşlıq və əməkdaşlıq sahəsində yeni bir mərhələ olacaq, xalqlarımızın yaxınlaşması, Türk dünyasının çiçəklənməsi yolunda mühüm rol oynayacaqdır.

Bir çox iqtisadi və siyasi problemlərin mövcud olduğu bir zamanda bütün türk dövlət və icmalarının nümayəndələrinin bir yerdə toplanması, geniş fikir mübadiləsi aparması, yeni mədəni və iqtisadi münasibətlərin yaranması üçün şərait yaratdığına görə Türkiyə dövlətinə və onun Prezidenti möhtərəm Süleyman Dəmirəl cənablarına öz təşəkkürümü bildirirəm.

Əziz qurultay iştirakçıları!

Türk dünyasının ayrılmaz bir hissəsi olan Azərbaycan dövləti adından sizi təbrik edir, qurultayın işində sizə uğurlar diləyirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
24 mart 1996-cı il

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ MƏSUD YILMAZIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazın Binə hava limanında qarşılanma mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı

14 aprel 1996-cı il

Hörmətli Baş nazir! Hörmətli qonaqlar!

Bu gün Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli dostumuz Məsud Yılmaz mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Bu səfər Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin yeni parlaq təzahürüdür. Bu, təbii bir haldır. Bizim ölkələrimiz arasında çox dərin, sıx dostluq, qardaşlıq əlaqələri var. Ona görə də bizim bir-birimizlə görüşməyimiz, bir-birimizin ölkələrinə səfərlərimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox lazımdır.

Hörmətli Baş nazir! Mən sizə təşəkkür edirəm ki, siz mənim dəvətimi qəbul edib, Azərbaycana rəsmi səfərə gəlmisiniz. Əminəm ki, burada olduğunuz zaman Azərbaycan xalqının Azərbaycan vətəndaşlarının sizə olan hörmət və ehtiramını hiss edəcəksiniz. Özünüzü öz evinizdə hiss edəcək, Azərbaycanın qonaqpərvərliyini duyacaqsınız. Sizin buraya gəlməyiniz, danışıqlarımız, söhbətlərimiz, Azərbaycanla tanışlığınız əlaqələrimizin inkişafını daha da yüksəklərə qaldıracaqdır.

Bildiyimə görə siz birinci dəfədir ki, Azərbaycana səfər edirsiniz. Bakı - Azərbaycanın paytaxtı sizi bir əziz qonaq kimi qəbul edir və əminəm ki, siz də Bakıda olmağınızdan məmnun qalacaqsınız.

Bir daha xoş gəlmisiniz, səfa gətirmisiniz, Azərbaycanın bütün evləri, bütün ailələri sizi səmimiyyətlə qarşılayır və sizin üzünüzə açıqdır.

Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Türkiyənin Baş naziri Məsud Yılmazla birgə mətbuat konfransında bəyanat

Prezident Sarayı.
14 aprel 1996-cı il

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, bu gün Türkiyənin Baş naziri, hörmətli dostumuz Məsud Yılmaz Azərbaycana ilk rəsmi səfərə gəlibdir. Biz Azərbaycan - Türkiyə münasibətləri ilə əlaqədar danışıqlar aparmışıq. Bildirmək istəyirəm ki, danışıqlarımız dostluq, qarşılıqlı anlaşma, mehribanlıq şəraitində keçibdir. Bu danışıqlar Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin təzahürüdü, bu dostluğu dünyaya bir daha nümayiş etdirir.

Biz bir çox məsələləri müzakirə etmişik. Birinci növbədə Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr aparırıq. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək komissiya yaradılıbdır. Bu komissiyanın sədrləri Azərbaycan tərəfindən Baş nazirin müavini Abid Şərifovdur, Türkiyə tərəfindən isə Enerji naziri cənab Nüsni bəydir. Onlar artıq işə başlayıblar və bir çox müzakirələr də aparılır.

Biz ümumiyyətlə, Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin bütün sahələrinə nəzər saldıq və eyni fikirdə olduq ki, bu əlaqələr inkişaf etdirilməli, genişləndirilməlidir. Mən güman edirəm ki, hörmətli Baş nazirin Azərbaycana bu səfərindən sonra hər iki ölkə tərəfindən bu barədə lazımi addımlar atılacaqdır.

Türkiyə və Azərbaycan üçün çox mühüm məsələ olan Ermənistan - Azərbaycan hərbi münaqişəsi bizim danışıqlarımızı, müzakirələrimizin mərkəzində oldu. Bildirmək istəyirəm ki, bu barədə biz eyni fikirdəyik. Türkiyə Azərbaycan Respublikasının haqq və ədalətli işini müdafiə edir. Baş nazir Məsud Yılmaz tərəfindən bu fikirlərin bir daha bəyan edilməsi bizim üçün çox əhəmiyyətli oldu.

Həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi eyni fikirdədir ki, sülh danışıqları Minsk qrupu çərçivəsində və ayrı-ayrı böyük dövlətlərin - ABŞ-ın, Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə davam etdirilməlidir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycan Respublikasının irəli sürdüyü təkliflər məlumdur. Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır, torpaqlarımız azad edilməlidir və bu torpaqlardan didərgin düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə, yurdlarına qayıtmalıdır. Respublikamazın ərazi

bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Belə bir şəraitdə Azərbaycan tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilə bilər. Azərbaycan tərəfi bunun bəyan etmişdir. Bu məsələlər barədə bizim fikirlərimiz Türkiyə ilə eynidir.

Bütün bunlarla yanaşı, hörmətli Baş nazir və onun başçılıq etdiyi nümayəndə heyəti ilə biz beynəlxalq məsələləri də gözdən keçirdik. Bölgəmizdə, ümumiyyətlə, dünyada olan vəziyyəti də müzakirə etdik. Bu məsələlər barədə də bizim fikirlərimiz eynidir, yaxud bir-birinə bənzərdir.

Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin ən mühüm cəhəti ondan ibarətdir ki, bir çox beynəlxalq məsələlərə də biz eyni münasibət göstəririk. Biz beynəlxalq aləmdə də əməkdaşlıq edirik və beynəlxalq məsələlərin həll olunmasıda bir-birimizə yardım edir, dəstək veririk.

Güman edirəm ki, Baş nazir Məsud Yılmazın respublikamıza səfəri Azərbaycan - Türkiyə münasibətlərində yeni bir mərhələ olacaqdır. Əmin olduğumu bildirmək istəyirəm ki, hər iki tərəf bu münasibətlərin daha da inkişaf etməsi üçün səylər göstərəcəkdir. Mən hörmətli Baş nazir cənab Məsud Yılmaza Azərbaycana rəsmi səfər etdiyinə görə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

Sual: Azərbaycan və Türkiyə qardaş olmaları barədə dəfələrlə bəyanat vermişlər. Türkiyə ötən il Ermənistanla hava sərhədələrini açdı və ümid edirdi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllində əməli addımlar atacaqdır. Ermənistan heç bir addım atmadı. Məndə olan məlumata görə, Azərbaycanla Ermənistan arasında protokol imzalandıqdan sonra Türkiyə Ermənistanla sərhədləri açmağa hazırdır. Belə bir şəraitdə Türkiyə Ermənistanla sərhədləri açarsa, bu, qardaşlıq haqqında bəyanatlara zidd deyilmi?

İkinci sualım Azərbaycan Prezidentinədir. Əgər sərhədlər indiki şəraitdə açılarsa, bu bizim Türkiyə ilə münasibətlərimizə necə təsir edə bilər?

Məsud Yılmaz: Türkiyə Ermənistan üçün hava dəhlizi açandan sonra Ermənistanın sülh istiqamətində Türkiyənin gözlədiyi addımları atmadığı barədəki fikirlər doğrudur. Biz də bunu müəyyən etmişik. Ermənistanla bizim aramızda olan sərhəd keçid məntəqəsinin - Əlican qapısının açılması ilə əlaqədar bəyanatımızın şərtləri məlumdur. Ermənistan Azərbaycanla apardığı ikitərəfli danışıqlarda razılığa gəlmədikgə və Azərbaycanın ərazi bütövlüyünü tanıması və hazırda işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkməyi öhdəsinə götürməsi prinsiplər bəyannaməsi imzalamadıqca Türkiyənin bu sərhəd qapısını açmasından bəhs edilə bilməz. Türkiyə bu addımı atarkən qardaş Azərbaycanın mənafeyini öz mənafeyi hesab edir, bunu Azərbaycan

torpaqlarının Ermənistan işğalından azad edilməsinə bir töhfə kimi qiymətləndirir. Türkiyədən bunun əksi olan başqa bir hərəkət gözləmək olmaz və bu günə kimi Azərbaycanla birlikdə göstərdiyimiz nümunəvi həmrəylik bizə başqa cür hərəkət etməyə izn verməz.

Heydər Əliyev: Hesab edirəm ki, hörmətli Baş nazirin bu cavabından sonra həmin suala mənim cavab verməyimə ehtiyac yoxdur. Bir halda ki, belə olacaq, demək, bizim münasibətlərimiz də elə indiki kimi olacaqdır.

Sual: Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ və Rusiya diplomatiyasının fəallaşdığı bir vaxtda bu danışıqlarda Türkiyənin mövqeyi və rolu haqqında məlumat verməyinizi xahiş edirəm.

Məsud Yılmaz: Dağlıq Qarabağ probleminin həlli üçün ABŞ ilə Rusiya Federasiyası arasında aparılan məsləhətləşmələrdən, bu istiqamətlərdəki sülh səylərindən biz məmnunuq. Azərbaycan və Ermənistan arasında ikitərəfli müzakirələrə əlavə olaraq, Rusiya ilə Amerikanın məsələyə bu şəkildə münasibəti bizim üçün problemin həllini asanlaşdıran bir amildir. Biz bu prosesdə necə iştirak edəcəyimiz barədə düşünürük. Bizim bu ixtilafdakı yerimiz Azərbaycanın yanındadır. Biz hər baxımdan Azərbaycanın yanında olmağa məcburuq. Əvvəla, Azərbaycan zərərçəkən, torpaqları işğal edilən, təcavüzə məruz qalan ölkə olduğu üçün biz onun yanındayıq. Azərbaycanla aramızda olan qardaşlıq əlaqələri tələb etdiyi üçün də biz Azərbaycanın yanındayıq. Lakin bu mövqeyimizə baxmayaraq, bu münaqişənin həllinə, bu işğalın qurtarmasına necə kömək edə bilərik - biz bu barədə düşünürük. Bu sahədə Ermənistana təsir edə biləcək bütün vasitələrdən istifadə etməyə hazırıq.

Sual: Hörmətli Baş nazir, Bakıya səfərinizdən əvvəl Ermənistan Prezdenti Levon Ter-Petrosyanın nümayəndəsi Libaridyanla görüşünüz barədə xəbərlər yayılmışdır. Bu görüşdə nə barədə söhbət apardınız, Ermənistan nə istəyir?

Məsud Yılmaz: Ermənistan prezidenti Levon Ter-Petrosyanın nümayəndəsi Liberidyanla görüşümdən əvvəl mən Azərbaycan Prezidenti hörmətli Heydər Əliyevin xüsusi nümayəndəsi Vəfa Quluzadə ilə görüşmüşdüm. Hər iki görüşdə toxunduğumuz məsələ iki ölkə arasındakı müzakirələrin gedişi ilə əlaqədardır. Bizim müəyyən etdiyimizə görə iki ölkə arasında razılıq əldə edilməsinin əsas səbəbi ermənilərin Dağlıq Qarabağa əslində muxtariyyəti alan, müstəqilliyi nəzərdə tutan status verilməsində israr etməsidir Biz Azərbaycanın bu barədəki şərtlərinin daha doğru olduğuna inanırıq. Bizim fikrimizcə, Ermənistanın bu məsələdə irəli sürdüyü şərtlər qəbul edilə bilməz. Bu fikrimizi Ter-Petrosyanın nümayəndəsinə açıq şəkildə bildirdik.

Sual: Hörmətli Baş nazir, Bakı - Supsa neft kəməri ilə əlaqədar olraq təkliflərinizin qəbul edilməsində Türkiyə israr edəcəkmi? Türkiyə bu təkliflərində hansı güzəştlərə gedə bilər?

Məsud Yılmaz: Bakı - Supsa boru xətti ilə əlaqədar Türkiyənin fikirləri aydındır, ictimaiyyətə məlumdur. Türkiyənin israr etdiyi əsas məsələ Xəzər neftinin Türkiyənin Aralıq dənizi sahilinə axıdılmasıdır. Bu boru xəttinin Ceyhana doğru uzadılmasıdır. Bu həm iqtisadi baxımdan, həm də Qara dəniz boğazlarının təhlükəsizliyi baxımında əhəmiyyətlidir. Türkiyə bu məsələdə israr edəcəkdir. Bunu Azərbaycanın rəhbərliyi də yaxşı bilir və bu fikrimizə tərəfdar çıxanların getdikcə daha çox olduğunu görməkdən məmnunluq duyuruq.

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazla Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə Prezident Heydər Əliyevin nitqi

"Respublika" Sarayı
14 aprel 1996-cı il

Türkiyə Cümhuriyyətinin Baş naziri, əziz dostumuz, qardaşımız Məsud Yılmaz!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Respublikası ictimaiyyətinin nümayəndələri bu axşam buraya - Respublika Sarayına əlamətdar hadisə münasibətilə toplaşıblar. Bu gün Türkiyə - Azərbaycan dostluğunun yeni bir səhifəsi yazılır. Türkiyə Cümhuriyyətinin Baş naziri, əziz dostumuz, qardaşımız cənab Məsud Yılmaz mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Bu gün biz Türkiyə - Azərbaycan əlaqələri ilə bağlı olan bir çox məsələləri müzakrə etmişik və indi də Azərbaycan ictimaiyyətinin nümayəndələri Türkiyənin Baş naziri ilə görüşə gəlmişlər.

Əziz dostumuz, qardaşımız! Mən bu salona toplaşanlar adından, bütün Azərbaycan xalqı, vətəndaşları adından sizi, Türkiyə Cümhuryyətindən gəlmiş, qonaqların hamısını səmimi qəlbdən salamlayıram, sizə xoş gəlmisiniz! - deyirəm.

Türkiyə - Azərbaycan dostluğu böyük tarixə malikdir. Biz Türkiyədə olarkən özümüzü öz məmləkətimizdə hiss edirik və əminəm ki, Türkiyədən gələn hər bir bacımız, qardaşımız da Azərbaycanda özünü öz məmləkətində hiss edir. Əziz dostumuz cənab Məsud Yılmaz, siz də bu gün burada - Azərbaycanda, onun paytaxtı Bakıda özünüzü öz evinizdə, öz məmləkətinizdə hiss edirsiniz və buna da tam haqqınız var.

Bizim dostluğumuzun böyük tarixi var və dostluq, qardaşlıq əlaqələrinin sarsılmazlığını, bir-birimizə olan duyğularımızın, hisslərimizin bəyan edilməsinə görüşlərimizdə həmişə ehtiyac hiss olunur. Bu gün də burada, Türkiyənin Baş naziri, hörmətli dostumuz cənab Məsud Yılmazla görüşərkən Azərbaycan xalqının Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına, Türkiyə torpağına hədsiz hörmətini, məhəbbətini bildirirəm və buradan Ankaraya, İstanbula, Türkiyə Cümhuriyətinin hər bir bölgəsinə Azərbaycan xalqının möhtəşəm salamını, hörmət və ehtiramını yetirmək istəyirəm.

Xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələri tarixin böyük sınaqlarından keçibdir. Bu əlaqələr xalqlarımızı daim bərabər yaşamağa dəvət edibdir. Xalqlarımız bu dostluq və qarbaşlıqdan daim bəhrələnibdir. Biz bir kökdən olan, bir dinə mənsub xalqlarıq, bizim bir dilimiz var, adət-ənənələrimiz də eynidir, əcdadlarımızın, ulu babalarımızın keçdikləri yol da eynidir. Əcdadlarımız yan-yana yaşayıblar, öz həyatlarını qurublar, torpaqlarını yadellilərdən qoruyublar, daim bir olublar, öz azadlıqları uğrunda daim birlikdə mübarizə aparıblar. Bunlar bizim tarixi keçmişimizdir. Bu tarixin çox parlaq, sevindirici səhifələri var, biz onlarla fəxr edirik. Keçmişdə bizim böyük şəxsiyyətlərimiz dostluq ediblər Böyük şairlərimiz, yazıçılarımız, alimlərimiz, xalqlarımızın mədəniyyətini, mənəviyyatını inkişaf etdirmək sahəsində əməkdaşlıq ediblər, bir-birinin yaradılıcılığından bəhrələniblər. Biz daim bir-birimizə dayaq olmuşuq, yardım əli uzatmışıq. Keçmişdə də belə olubdur, indi də belədir.

XX əsrin əvvəllərində Azərbaycanın həyatında faciəli hadisə baş veridiyi zaman Türkiyədə olan qardaşlarımız bizim dadımıza yetişmişlər, harayımıza gəlmişlər, kömək əlini uzatmışlar. Sonrakı illərdə də dostluğumuz, əməkdaşlığımız daim olubdur. Doğrudur, bəzi dövrlərdə bunlar çox böyük məhdudiyyətlərlə rastlaşıbdır. Ancaq qəlbimizdə bir-birimizə olan hisslər, məhəbbət, sevgi heç vaxt sönməyibdir, daim yaşayıb, parlayıb və bizi xoşbəxt günlərə gətiribdir.

Son illərdə Azərbaycan xalqı öz milli azadlığı, milli müstəqilliyi uğrunda mübarizə apararkən Türkiyədə bacı və qardaşlarımız bizim səsimizə səs vermişlər, bizə dəstək göstərmişlər, haqq işimizi müdafiə etmişlər. O illərdən başlayaraq dostluq, qardaşlıq əlaqələrimiz yeni vüsət alıb, daha da inkişaf edib və bugünkü sarsılmaz dostluq əlaqələrinə gətirib çıxarıbdır.

Türkiyə Cümhuriyəti böyük dövlətlir, Dünya Birliyində onun özünə layiq görkəmli yeri var. Türkiyə xalqı çoxəsrlik tarixində böyük nailiyyətlər əldə etmişdir. Ancaq onun ən böyük naliyyəti Türkiyə Cümhuriyətinin yaranması və bu cümhuriyyətin yetmiş ildən artıq bir müddətdə yaşaması və inkişaf etməsidir. Türkiyə Cümhuriyətinin bu dövrdə keçdiyi yol çox əzəmətli, çox şərəfli yoldur və Türkiyə xalqı-

nı bugünkü xoşbəxt həyata gətirib çıxarıbdır. Biz bu tarixi keçmişi izləmişik, onu bu gün də çox böyük iftixar hissi ilə yad edirik. Bu tarixi yad edərək, Türkiyə xalqına, Türkiyə Cümhuriyətinə hörmət və ehtiramımızı bildirərək bu cümhuriyyətin yaradıcısı böyük **Mustafa Kamal Atatürkü dərin hörmət və ehtiramla xatırlayırıq. Onun həm Türkiyə Cümhuriyəti üçün, həm də bütün Türk dünyası, Türk xalqları üçün etdiyi xidmətləri böyük minnətdarlıqla yad edirik.**

Yetmiş illik respublika dövründə Türkiyə xalqı öz azadlığını, ölkədə demokratiyanın, iqtisadiyyatın sürətlə inkişafını və xalqın rifahının sürətlə yüksəlməsini dünyaya nümayiş etdiribdir. Bunlar bizi daim sevindirib və sevindirir. Türkiyə xalqının cümhuriyyət dövründə keçdiyi yol bizim üçün böyük təcrübə yolu, böyük örnəkdir. Bu gün bu yolu xatırlayarkən Türkiyə xalqına böyük xidmət etmiş Mustafa Kamal Atatrkün davamçılarına da hörmət və ehtiramımızı bildirirk, bütün Türkiyə xalqına hörmət və ehtiramımızı bildirik.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyinə çalışarkən, qeyd etdiyim kimi, Türkiyə daim Azərbaycana dəstək vermiş, ona dayaq olmuşdur. Bu gün onu da demək lazımdır ki, Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi dünyada ilk dəfə onun müstəqilliyini tanıyan dövlət Türkiyə olmuşdur. Bu, hələ Sovet İttifaqının mövcud olduğu bir vaxtda baş vermişdir və onu göstərir ki, Azərbaycan milli azadlığını, istiqlaliyyətini Türkiyə xalqı, Türkiyə hökuməti nə qədər istəmişdir. Türkiyə Cümhuriyətinin, Türkiyə hökumətinin Azərbaycanın müstəqilliyini tanımasında bugünkü əziz qonağımız Baş nazir, hörmətli Məsud Yılmazın xüsusi xidmətləri var. 1991-ci il noyabrın 9-da - hörmətli Məsud Yılmaz Türkiyənin Baş naziri olarkən Türkiyə hökuməti Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında Bakanlar Qurumunda qərar qəbul etmiş və onu dostumuz Məsud Yılmaz imzalamışdır.

O zamandan Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etmiş, Türkiyənin böyük şəxsiyyətləri Azərbaycanı ziyarət etmiş, yollar açmışdır. İnsanlar Azərbaycandan böyük axınla Türkiyəyə getmişlər, onun şəhərləri, vilayətləri ilə, onların nailiyyətləri ilə tanış olmuşlar. Əgər aramızdakı əlaqələr 70 il ərzində tamamilə bağlı olmuşdursa, birbirimizə ancaq uzaqdan-uzağa həsrətlə baxıb, həsrətlə yaşamışdıqsa, Azərbaycan müstəqilliyini əldə edəndən sonra yollar, sərhədlər açılmış, xalqlarımız nəhayət, bir-birinə qovuşmuş, bir-birinin yanına gedib-gəlməyə imkan tapmışlar. İndi Azərbaycandan Türkiyəyə getmək, Türkiyədən Azərbaycana gəlmək adi bir hadisədir. Bu, çox böyük xoşbəxtlikdir.

Bu illərdə Türkiyənin böyük rəhbərləri Azərbaycanı ziyarət etmiş-

dir. Türkiyənin mərhum Prezidenti Turqut Özal Azərbaycanı ziyarət edərək ölkəmizə öz dəstəyini vermişdir. Türkiyənin Prezidenti, əziz dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl dəfələrlə Azərbaycanı ziyarət etmişdir. Türkiyənin keçmiş Baş naziri, hörmətli bacımız Tansu Çillər ölkəmizi ziyarət etmişdir. Nəhayət, bu gün Türkiyənin yeni Baş naziri, hörmətli dostumuz Məsud Yılmaz Azərbaycanın qonağıdır. Bunlar hamısı qısa bir zamanda Türkiyə ilə Azərbaycan arasında nə qədər sıx əlaqələr yaranmasının əyani nümayişidir. Bu, çox gözəl bir haldır. Bütün bu əlaqələrə görə, Türkiyə Cümhuriyyətinin son illərdə Azərbaycana göstərdiyi qardaş münasibətinə, problemlərimizin həlli ilə bizimlə bərbər məşğul olmaqlarına görə və bütün qardaşlıq münasibətlərinə görə Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə hökumətinə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

Biz bu gün iqtisadi əlaqələrimizi inkişaf etdirilməsi məsələlərini çox geniş müzakirə etmişik. Güman edirəm ki, bu əlaqələr bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Beynəlxalq vəziyyəti birgə müzakirə edib fikir mübadiləsi aparmışıq. Azərbaycanın başına gəlmiş böyük bəlanı - Ermənistan tərəfindən ölkəmizə edilmiş təcavüzü və bunun nəticəsində baş vermiş hadisələri müzakirə etmişik və bu vəziyyətdən çıxış yollarını araşdırmışıq. Mən bu gün deyə bilərəm ki, bütün bu məsələlərin müzakirəsində keçmişdə də, indi də Türkiyə ilə Azərbaycan arasında fikirlər eynidir. Xüsusən onu qeyd etmək istəyirəm ki, Ermənistanın ölkəmizə təcavüzü ilə əlaqədar Türkiyə daim Azərbaycanla bir olmuşdur və bu gün də bir yerdədir.

Xalqımız heç vaxt unutmayacaq ki, Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı hərbi təcavüzə başladığı dövrdən, - Azərbaycanın o zaman Sovetlər İttifaqının tərkibində olmasına baxmayaraq, - Türkiyə ictimaiyyəti, xalqı, mətbuatı ölkəmizə böyük maraq göstərmiş, buradakı hadisələri çox böyük diqqətlə izləmiş və xalqımızla həmrəy olduğunu bildirmişdir. Biz yaxşı xatırlayırıq ki, o vaxtlar Türkiyənin bir çox şəhərlərində böyük xalq mitinqlər keçirmiş. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycanla həmrəy olduğu bütün dünyaya bəyan edilmişdir.

Təəssüflər olsun ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan böyük zərbələrə məruz qalmışdır. Azərbaycan Respublikasının ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan zorla çıxarılaraq didərgin düşmüşdür və onların əksəriyyəti ağır vəziyyətdə çadırlarda yaşayır. Azərbaycan böyük itkilər, çoxlu şəhidlər vermişdir, ölkəmizə çox böyük maddi zərər vurulmuşdur. Bunların hamısı son illərdəki tariximizin reallığıdır. Biz bu re-

allığı dünyaya bəyan etmişik, həmin reallığı Türkiyə də bilir.

Bütün bu çətinliklərə, zərbələrə baxmayaraq, biz dünyaya bəyan etmişik ki, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu aradan qaldırılmasının tərəfdarıyıq. Ona görə də münqişənin dayandırılması üçün atəşkəs haqqında haqqında saziş imzalanmışdır. İki ildir ki, biz bu sazişə, atəşkəs reciminə riayət edirik. Bu, Azərbaycan xalqının sülhsevərliyini dünyaya bir daha nümayiş etdirir. Beləliklə, biz məsələnin sülh yolu ilə həllinə çalışırıq. Bu gün fürsətdən istifadə edərək dünyaya bir daha bəyan edirəm ki, Azərbaycan atəşkəs reciminə sadiqdir və bundan sonra da sadiq olacaqdır, məsələlərin sülh yolu ilə həll olunmasına çalışır və gələcəkdə də çalışacaqdır. Azərbaycan Qafqazda sülhün, əmin-amanlığın tərəfdarıdır və bundan sonra da bu yolda səylərini davam etdirəcəkdir.

Bu məsələlərin həll olunmasında biz beynəlxalq təşkilatların imkanlarından istiafdə etməyə çalışırıq. Məlumdur ki, bu məsələlərlə, ATƏT-in Minsk qrupu məşğul olur, Amerika Birləşmiş Ştatları səy göstərir. Bizə dost, qardaş ölkə olan Türkiyə Cümhuriyyəti, onun rəhbərləri bu məsələnin həllində xüsusi səy göstərirlər və deyə bilərəm ki, bizimlə bərabər daim bu işlə məşğul olurlar. Bu gün həmin məsələləri müzakirə etmişik. Bir daha eyni fikrə gəlmişik ki, səylərimizi dvam etdirməli, məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Bu yolla gedərək **biz indiyədək Türkiyənin dəstəyinə arxalanmışıq, bu gün də arxalanırıq və gələcəkdə də arxalana bilərik.**

Eyni zamanda hamı, bütün dünya bilməlidir ki, bu məsələnin sülh yolu ilə həlli üçün Azərbaycan haqq və ədalət çərçivəsində olan şərtləri qəbul edilməlidir. Yəni Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeydşərtsiz çıxmalıdır, o cümlədən Laçın və Şuşa ryonları da işğalçılardan azad edilməlidir. Yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları azad olunan ryonlara qayıtmalıdırlar. Azərbaycan Respublikasının ərazi bütövlüyü tanınmalı, bərpa edilməli, sərhədlərimizin toxunulmazlığı, ölkəmizin suverenliyi təmin olunmalıdır. Bu halda Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycan Respublikası tərkibində yüksək muxtariyyət verilə bilər. Biz bu şərtlər əsasında sülh danışıqlar aparırıq və həmin şərtlər daxilində də sülhə nail olmaq istəyirik. Türkiyə Cümhuriyyəti, onun rəhbərləri və bu gün müzakirə nəticəsində bir daha məlum oldu ki, onun Baş naziri hörmətli qonağımız cənab Məsud Yılmaz da məsələnin məhz bu şərtlər əsasında həllinin tərəfdardır.

Ancaq yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız daha belə vəziyyətdə yaşaya bilməzlər. İki-üç il qaçqın vəziyyətində çadırlarda yaşamaq qeyri-mümkündür. Bu, çox ağır haldır. Xalqımız dözümlü xalqdır, bu əzab-əziyyətə ona görə dözür ki, haqq-ədalətə inanır. Azərbaycan xalqının tələbləri ədalətli tələblərdir, onun apardığı mücadilə, mübarizə haqq-ədalət mübarizəsidir. Bu mübarizə yolunda xalqımız bütün əziyyətlərə, çətinliklərə dözür. Amma dözülməzliyin də həddi var. Biz məsələlərin sülh yolu ilə həll olunmasına yenə çalışacağıq. Ancaq işğal edilmiş torpaqlarımız azad olunmasa, bütün imkanlardan, vasitələrdən istifadə edib, nəyin bahasına olursa-olsun, torpaqlarımız azad edəcəyik, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin edəcəyik. Əminəm ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin rəhbərləri indiyə qədər olduğu kimi, bundan sonra da bu yolda axıradək bizimlə olacaqdır.

Hörəmtli dostumuz! Mən bu gün sizə geniş məlumat venrmişəm, bir də bildirmək istəyirəm ki, Azərbaycan xalqı öz milli azadlığını göz bəbəyi kimi qoruyub saxlayacaqdır. Azərbaycan xalqı dövlət müstəqilliyini özü üçün tarixi nailiyyət hesab edir və onu günbəgün, ilbəil gücləndirəcək, möhkəmləndirəcək, əbədi edəcəkdir.

Azərbaycanda demokratik hüquqi, sivilizasiyalı dövlət qurulur. Azərbaycan demokratiya yolunda əldə etdiyi nailiyyət bizim üçün böyük örnəkdir. Biz indiyə qədər bu nailiyyətlərdən istifadə etmişik və bundan sonra da istifadə edəcəyik. Demokratiya yolundan bizi heç kəs döndərə bilməyəcək. Gələcəkdə Azərbaycan inkişaf etmiş demokratik bir dövlət olacaqdır. Azərbaycan heç vaxt keçmişə dönməyib və dönməyəcəkdir. Azərbaycan irəli, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlayır və bağlayacaqdır. Ölkəmiz dünya iqtisadiyyatı, dünya sərmayəçiləri üçün açıqdır. Bu sahədə bir neçə addım atmışıq və bundan sonra da atacağıq və heç bir qüvvə bizi bu yoldan döndərə bilməyəcəkdir.

Azərbaycan ilə Türkiyənin iqtisadi əməkdaşlığın çox gözəl gələcəyi var. Bu əməkdaşlıq sahəsində çox dəyərli addımlar atmışıq. Xüsusən Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün biz Türkiyə ilə əməkdaşlıq edirik. Məlumdur ki, 1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsinin iştirakçılrıdan biri də Türkiyə Cümhuriyyətinin "Türk petrolları" şirkətidir. Onu da qeyd etmək lazımdır ki, həmin müqavilə imzalandıqdan sonra biz Türkiyə neft şirkətinin konsorsiumda olan payını 5 faiz artırmışıq və Türkiyə konsorsiumda artıq özünəməxsus yer tutubdur.

İlkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi üçün də biz Türkiyə ilə daim əməkdaşlıq etmişik. Nəticədə Azərbaycanın ilkin neftinin ixracı üçün iki boru kəmərinin - Rusiya ərazis vasitəsilə Qara dəniz sahindəki Novorossiysk limanına və Gürcüstan ərazisindən keçməklə

Türkiyənin Supsa limanına kəmərlərin çəkilməsi haqqında qərarlar qəbul etmişik. Bu qərarları hazırlayarkən, qəbul edərkən Türkiyə Cümhuriyyətinin mənafelərini də nəzərə almış, onunla əməkdaşlıq etmişik və həmin qərarlar birgə əməkdaşlığımızın nəticəsidir.

Bizim bundan sonra da əməkdaşlıq etməyimiz üçün yaxşı imkanlar var, özü də təkcə neft sənayesi yox, başqa sahələrdə də imkanlar var. Türkiyənin iş adamları Azərbaycana gəlirlər. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşibdir. Biz buna tam zəmanət vermişik və Azərbaycanın Prezidenti kimi mən bu gün bir daha zəmanət verirəm. Türkiyənin iş adamlarını ölkəmizdə müştərək iş görməyə dəvət edirəm.

Ümidvaram ki, iqtisadi əməkdaşlığımız, elm, mədəniyyət sahəsindəki, bütün başqa sahələrdəki əməkdaşlığımız və xüsusən beynəlxalq aləmdə Türkiyə - Azərbaycan əməkdaşlığı, Qafqazda sülhün, əmin-amanlığın bərqərar olması üçün etdiyimiz əməkdaşlıq və nəhayət, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, ölkəmizi xarici təcavüzündən qurtarmaq üçün əməkdaşlıq - bunların hamısı birlikdə Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının gələcəkdə də inkişafını təmin edəcəkdir. Qeyd etdiyim kimi, bizim dostluğumuz, qardaşlığımız böyük sınaqlardan keçib və bu gün də belə sınaqlardan keçir. Çünki bu dostluq və qardaşlığımıza kəm baxanlar, buna qısqananlar mane olmaq istəyənlər də var. Həm daxildə, həm də xaricdə dostluğumuzu, qardaşlığımızı ləkələmək istəyənlər də var. Amma qoy hamı bilsin ki, heç bir qüvvə, heç kəs buna mane ola bilməyəcəkdir. Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir.

Türkiyə Cümhuriyyətinin yeni Baş naziri, hörmətli dostumuz, qardaşımız cənab Məsud Yılmaz Azərbaycanda çox tanınan, məşhur şəxsiyyətdir. Onun Türkiyənin həyatındakı böyük siyasi fəaliyyətini Azərbaycanda hamı çox yaxşı bilir, bunu yüksək qiymətləndirir. Cənab Məsud Yılmazın böyük siyasətçi, böyük bir siyasi partiyanın başçısı kimi xidmətləri dünyada da məşhurdur. Bu xidmətlər Türkiyə xalqın böyük nailiyyətlər gətiribdir. Cənab Məsud Yılmazın Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti qarşısındkı xidmətləri Türkiyədə də, Azərbaycanda da yüksək qiymətləndirir.

Cənab Məsud Yılmaz Azərbaycana ilk dəfədir gəlibdir. Güman edirəm ki, bu ilk gəliş bir çox gəlişlərin, səfərlərin başlancığı olacaqdır. Əminəm ki, dostluğumuz, qardaşlığımız inkişaf etdirmək, möhkəmləndirmək üçün cənab Məsud Yılmaz bundan sonra Azərbaycana yeni-yeni səfərlər edəcəkdir. Mən bu gün bəyan edirəm ki, dostumuz, qardaşımız Məsud Yılmazı hər vaxt Azərbaycanda görməkdən çox bəxtiyar olacağıq.

Bizim dostumuz Baş nazir vəzifəsini öhdəsinə götürməklə həm də üzərinə böyük məsuliyyət götürmüşdür və eyni zamanda böyük xidmətlər göstərir. Əminəm və güman edirəm ki, bütün Azərbaycan xalqı mənimlə həmfikirdir ki, Türkiyə cəmiyyətinin böyük siyasətçisi bu mühüm və şərəfli vəzifəni layiqincə yerinə yetirəcək, Türkiyə xalqı, Türk dünyası qarşısında yeni-yeni xidmətlər göstərəcək və bunlar da Türkiyə - Azərbaycan dostluğunun daha yüksək səviyyələrə qaldıracaqdır.

Hörmətli dostumuz, əziz qardaşımız! Bu yüksək məsuliyyətli vəzifələri yerinə yetirməkdə sizə cansağlığı arzulayıram, şəxsi həyatımızda xoşbəxtlik diləyir, sizə və Türkiyə Cümhuriyyətinə böyük uğurlar arzu edirəm.

Keçən ilin dekabrında Türkiyə Cümhuriyyətinin Prezidenti, xalqımızın böyük dostu, əziz qardaşımız Süleyman Dəmirəl Azərbaycana rəsmi səfərə gəlmişdi. Biz bu gün də həmin səfərin təəssüratı altındayıq, həmin günlərdə Azərbaycan xalqının hörmətli dostumuz Süleyman Dəmirəldən eşitdiyi dəyərli sözlərin təsiri altındayıq. Möhtərəm Prezident Süleyman Dəmirəlin Azərbaycan xalqına göstərdiyi qayğı və hörməti bu gün də minnətdarlıq hissi ilə yad edirik. Buradan, bu salondan Süleyman Dəmirəl cənablarına hörmət və ehtiramımızı bildirir, ona atəşin Azərbaycan salamı göndəririk. Güman edirəm ki, Türkiyə Cümhuriyyətinin başında Süleyman Dəmirəl kimi təcrübəli, dünya miqyaslı böyük şəxsiyyət, Türkiyə hökumətinin başında böyük siyasətçi və təcrübəli Məsud Yılmaz olmaqla onlar ölkəni yeni-yeni nailiyyətlərə doğru aparacaqdır.

Hörmətli dostumuz, qardaşımız! Mən sizə bir daha hörmət və ehtiramımı bildirir, sizə cansağlığı, xoşbəxtlik arzulayır, bütün işlərinizdə uğurlar diləyirəm.

Sarsılmaz, əbədi Türkiyə Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun!

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazın səfəri münasibətilə onun şərəfinə düzəldilən rəsmi ziyafətdə Prezident Heydər Əliyevin nitqi

14 aprel 1996-cı il

Cənab Baş nazir, əziz dostumuz, qardaşımız Məsud Yılmaz!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu bün Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının yeni bir parlaq səhifəsi yazılır, xalqlarımızın əsrlər boyu yazdıqları tarixə yeni bir fəsil əlavə olunur. Bu isə bizim xalqların tarix boyu qurduqları, yaratdıqları dostluq və qardaşlıq əlaqələrinin məntiqi davamıdır, yeni bir pilləsidir. Son illər xlqlarımız bir-birinə öz məhəbbətini, sevgisini, dostluğumuzu, qardaşlığımızı bildirmək üçün imkanlar alıblar. Ona görə də bu

dostluq əlaqələri gündən-günə yüksəklərə qalxacaqdır. Mən bunun bir pillə kimi dedim. Bu pillələr bizim vaxtımızda da, bizdən sonra gələn nəsillər tərəfindən də artırılacaq, səmanın ən yüksək qatlarına çatacaqdır. Bu, təbiidir. Çünki bizim köklərimiz, bizim doğmalığımız, bizi birbirimizə bağlayan tellər biz yaranan gündən o qədər möhkəm qurulub, möhkəm sarınıbdır ki, bu dostluğu bundan sonra heç vaxt pozmaq mümkün olmayacaqdır.

Azərbaycan 70 il kommunizmsosializm hzakimiyyəti altında olduğu zaman Türkiyə kimi dost, qardaş ölkə ilə əlaqə saxlamağa imkan tapa bilmirdi. 70 il keçdi, ancaq bu 70 il də bizim əsrlər boyu bir-birimizə olan hisslərimizi, duyğularımızı sarsıda bilmədi, sındıra bilmədi, poza bilmədi. Kiçik bir fürsət əldə edən kimi biz bir-birimizə qovuşduq, birbirimizə yaxınlaşdıq.

Türkiyə böyük dövlətlər, müstəqil dövlətlər və öz dövlətçiliyini gündən-günə inkişf etdirir. Azərbaycan müstəqil bir dövlət kimi gənc dövlətdir, ancaq bu müstəqillik yolunda dönməzdir, yenilməzdir. **Bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Biz Türkiyəni özümüzə dayaq hesab edirik.** Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş naliyyətlər özümüz üçün örnək hesab edirik. Bu təcrübədən, əldə olunan bu nailiyyətlərdən Azərbaycanın xüsusiyyətlərinə uyğun istifadə etməyə çalışırıq. Bu təcrübə də demokratiya təcrübəsidir, insan azadlığı təcrübəsidir, sərbəst iqtisadiyyat təcrübəsidir, söz azadlığı təcürbəsidir. Bunların hamısı Azərbaycanda bərqərar olmaqdadır.

Dünya demokratiyasının əldə etdiyi nailiyyətlərdən istifadə edərək bu prinsiplər daha da möhkəmləndiririk, daha da inkişaf etdiririk. **Bizim üçün tarixi, milli ənənələrimizə görə çox yaxın olan Türkiyənin təcrübəsindən səmərəli istifadə etməyə çalışırıq. Biz istəyirik ki, Türkiyə gündən-günə möhkəmlənsin, artsın, inkişaf etsin. Türkiyə dünya miqyasında öz nüfuzunu nə qədər qaldıracaqsa, Azərbaycan üçün, bütün Türk dünyasına mənsub olan ölkələr üçün o qədər gərəkli olacaqdır. Ona görə də Türkiyənin nailiyyətlərini biz özümüzün doğma nailiyyətimiz hesab edirik və hər bir nailiyyətə, irəliləyişə hər bir türk vətəndaşı kimi sevinirik.** Mən bizim qonaqları əmin edə bilərəm ki, bu dostluğa, əməkdaşlığa, qardaşlığa sadiq olacağıq. Ümidvar olduğumu bildirirəm ki, Türkiyə Cümhuriyyəti, Türkiyə ilə özünə dost, qardaş olan Azərbaycan xalqının, Azərbaycan Respublikasının qayğıları ilə daim yaşayacaq, bu qayğıları daim öz qayğıları hesab edəcək, Azərbaycanın gələcəyə olan ümidini öz ümidi hesab edəcəkdir.

Bu gün apardığımız danışıqlar, görüşlər və imzaladığımız bəyanat Bakının küçələrində, hava limanında şəhərin mərkəzinə qədər sadə insan-

ların Türkiyənin Baş nazirinə göstərdikləri hüsn-rəğbət, məhəbbət hissləri, onların çox səmimi salamları - bunlar hamısı bir daha onu nümayiş etdirir ki, bizim dostluğumuz səmimidir, əbədidir, sarsılmazdır.

Mən rica edirəm, qədəhlərimizi Türkiyə Cümhuriyyətinin, qardaş Türkiyə xalqının, əbədi və sarsılmaz Türkiyə - Azərbaycan dostluğunun, Türkiyə xalqının xoşbəxt gələcəyinin, Azərbaycan xalqının xoşbəxt gələcəyinin, Türkiyənin Baş naziri, əziz dostumuz, qardaşımız Məsud Yılmazın, onun xanımının, Türkiyədən gəlmiş bütün qonaqların, Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu Süleyman Dəmirəlin şərəfinə qaldıraq! Sizin şərəfinizə!

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmaza BDU-nun "Fəxri Doktor"u diplomunun təqdim edilməsi mərasimində Prezident Heydər Əliyevin çıxışı

15 aprel 1996-cı il

Hörmətli Baş nazir, əziz dostumuz, qardaşımız və cənablar!

Böyük tarixə malik olan Bakı Dövlət Universitetinin həyatında bu gün yeni bir əlamətdar hadisə baş verir. Dünyanın böyük siyasətçilərindən biri, Türkiyə Cümhuriyyətinin böyük partiyalarından birinin başçısı, Türkiyənin Baş naziri Məsul Yılmaz Bakı Dövlət Universitetinin "Fəxri Doktor"u adına layiq görülübdür. Hörmətli Baş nazir, mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram, dövlət işinizdə, siyasi və elmi fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

Bakı Dövlət Universitetini təbrik edirəm ki, o öz böyük tarixi səhifələrini yazır və universitetin fəxri doktorları artır, dünyanın tanınmış siyasi xadimləri, elm xadimləri, dövlət xadimləri BDU-nun fəxri doktorları dəstəsinə daxil olurlar. Bu, BDU üçün də böyük fəxrdir, böyük şərəfdir. Mən sizi təbrik edirəm.

BDU-nun 75 illik tarixində çox böyük hadisələr baş vermişdi. Ancaq ən böyük hadisə, ən böyük nəticə ondan ibarətdir ki, 1919-cu ildə ilk Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə yaranan bu universitet son illərdə müxtəlif mərhələlərdən keçərək yaşamış və bu günlərə böyük elm, yüksək təhsil potensalı ilə gəlib çıxmışdır. Azərbaycan xalqının həyatında, onun ali təhsilinin inkişafında, elminin inkişafında BDU böyük xidmətlər göstərmişdir.

BDU Azərbaycanda ali təhsil sisteminin yaranmasında, demək olar ki, liderlik etmiş və bu təhsil ocaqlarına, necə deyərlər, analıq, atalıq etmişdir. Məhz BDU-nun fəaliyyəti nəticəsində son illərdə Azərbaycanda yeni-yeni universitetlər, ali təhsil ocaqları yaranmışdır ki, onların da hamısı Azərbaycan xalqını, Azərbay-

can millətinin mədəniyyətini, elmini, təhsilini inkişaf etdirmiş və xalqımızın bu gün dünya xalqları arasında ən yüksək yer tutumasına xidmət etmişdir.

BDU öz elmi nailiyyətləri ilə fəxr edə bilər. Onun məzunları, bu universitetdə təhsil almış və buradan böyük həyata - elmi həyata, siyasi həyata, mədəni həyata qovuşmuş insanlar indi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarlarda böyük işlər görür, Azərbaycan xalqına çox böyük fayda gətirirlər. Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək BDU-nun professor-müəllim heyətini, onun bütün nəsillərini böyük məmnuniyyət hissi ilə, böyük minnətdarlıq hissi ilə xatırlayıram və bu gün ağır, çətin dövrdə BDU-da fəaliyyət göstərən, fədakarlıq edən professor-müəllim heyətində öz hörmət və ehtiramımı bildirirəm.

Respublikamız öz həyatının çox ağır bir dövrünü yaşayır. Bu, bizim üçün həm ağır, həm də çox əhəmiyyətli bir dövrdür. Azərbaycan öz dövlət müstəqilliyini qurub yaradır, özü üçün yeni həyat qurur. Bu, keçid dövrüdür. Bu dövrün təbii çətinlikləri var, iqtisadi çətinlikləri var. Başqa çətinliklər də var. Bu zaman elm adamları, təhsil adamları şübhəsiz ki, bir çox çətinliklərlə qarşılaşırlar. Mən bu gün qeyd etmək istəyirəm ki, bizim professorlarımız, alimlərimiz, müəllimlərimiz bütün bu çətinliklərə sinə gərir və bütün bu ağırlıqları öz üzərinə götürərək, onlara dözərək öz müəllim adını, alim adını şərəflə daşıyırlar və ümidvaram ki, bundan sonra da daşayacaqlar.

Bilirsiniz ki, tarix həmişə cürbəcür mərhələlərdən ibarət olubdur. Bizim bu dövrümüzdə daim belə ağır və çətin olmayacaqdır. Azərbaycanın müstəqil dövlət kimi çox gözəl gələcəyi var. O gözəl, o xoşbəxt, o firavan gələcəyə biz hamımız birlikdə getməyik. Bu gələcəyə nail olmaq üçün birlikdə çalışmalıyıq. Mən əminəm ki, biz bütün qüvvələrimizi birləşdirərək, bütün bu çətinliklərə sinə gərərək bu ağır mərhələdən keçəcəyik, müstəqil Azərbaycan ayaqları üstündə möhkəm duracaq, yaşayacaq və onun elmi, ali təhsili, mədəniyyət bundan da yüksək zirvələrə qalxacaqdır.

Biz öz elmimizlə, ali təhsilimizlə fəxr edə bilərik, 75 il ərzində BDU, Azərbaycanın elmi, mədəniyyət böyük, şərəfli, əzab-əziyyəti yol keçibdir, ancaq çox yüksək səviyyələrə qalxıbdır. Biz keçmişdə qapalı idiksə, indi dünyaya açılmışıq. Dünya da bizim üzümüzə açıqdır. Ona görə də öz elmi, mədəni səviyyəmizi dünyanın hər bir ölkəsinin elmi, mədəni, təhsil səviyyəsi ilə müqayisə etmək imkanı qazanmışıq. Obyektiv müqayisə etsək, biz artıq bunu görürük. Dərk edirik ki, Azərbaycan elmi, ali təhsil, mədəniyyət ümumdünya səviyyəsindən heç də geri qalmayıbdır. Bir çox sahələrdə Azərbaycan ümumdünya elm, təhsil, mədəniyyət nailiyyətlərinin ən ön cərgələrində

gedibdir. Bu da Azərbaycan xalqının həm fitri istedadı, həm də əldə etdiyi elmi, mədəni, ali təhsil potensialının parlaq nümayişdir. Biz bununla fəxr edə bilərik.

Azərbaycanın alimləri, müəllimləri, yüksək səviyyəli mütəxəssisləri artıq dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Ayrı-ayrı adamlar bunu bəzən mənfi hal hesab edirlər. Bəzən deyirlər ki, respublikamızda vəziyyət ağırdır, ona görə də insanlar burada yaşaya bilmir və xaricə gedirlər. Doğrudur respublikamızda iqtisadi vəziyyət ağırdır. Doğrudur, insanların bir çoxunun yaşayışı çox çətindir. Ancaq eyni zamanda əgər Azərbaycan alimi, professoru, müəllimi gedib Türkiyə, Amerika, Almaniya unversitetlərində dərs deyə bilirsə, biz bunu böyük iftixar hissi ilə qəbul etməliyik. Mən hesab edirəm ki, biz buna görə heç də darıxmamalıyıq, əksinə, sevinməliyik.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri haqqında dünən də, bu gün də biz çox geniş danışdıq. Ancaq nə qədər danışsaq da, nə qədər gözəl sözlər desək də, Türkiyə ilə Azərbaycan arasında həm tarixi keçmişimizi, həm də bugünkü əlaqələrimizi tam təsvir edə bilməyəcəyik. Hörmətli qonağımız cənab Məsud Yılmaz öz nitqində Azərbaycan alimlərinin, musiqiçilərinin, bəstəkarlarının Türkiyədə tanınması haqqında, fəaliyyət haqqında çox gözəl xatirələr söylədi, çox gözəl faktlar gətirdi. Bu, həqiqətdir. **Həqiqət ondan ibarətdir ki, əsrlər boyu xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuş, bir-birinə kömək etmiş, arxa durmuşlar.** Məhz buna görə də heç təsadüfi deyil ki, Azərbaycanın bir çox görkəmli şəxsiyyətləri tarixin ayrı-ayrı mərhələlərində Türkiyədə fəaliyyət göstərmiş, orada öz istedadlarını tamamilə büruzə verə bilmişlər, həm Türkiyə xalqı qarşısında, həm də Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Onların hamısı bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixidir, rəmzidir. Biz onlarla fəxr edə bilərik. Çünki **Türkiyə - Azərbaycan dostluğu həm Türkiyə üçün, həm də Azərbaycan üçün ən əziz, ən önəmli amildir. Biz bu dostluğu qoruyub saxlamalıyıq və bu gün də, dünən də keçirilən görüşlər, aparılan danışıqlar bir daha sübut etdi ki, bu dostluq, bu qardaşlıq sarsılmazdır, əbədidir.**

Bu gün Türkiyənin Baş naziri, hörmətli Məsud Yılmazın və onu müşayiət edən hörmətli qonaqlarımızın Bakı Dövlət Universitetinə gəlməsinin özü əlamətdar bir hadisədir. Burada, bu salonda Azərbaycan ziyalılarının - alimlərinin, müəllimlərinin çox gözəl nümayəndələri oturublar. Onlar buraya böyük hörmət, ehtiram hissi ilə toplaşıblar. Onlar buraya toplaşıblar ki, Azərbaycan xalqının, Azərbaycan ziyalılarının Türkiyəyə olan hörmət və ehtiramını bir daha ifadə etsinlər. Onlar buraya toplaşıb-

lar ki, Türkiyə - Azərbaycan dostluğunun möhkəmlənməsinə çalışsınlar. Mən sizin hamınıza öz hörmət və ehtiramımı bildirirəm, bu fürsətdən istifadə edib, sizinlə bir daha görüşdüyümə görə məmnun olduğumu bildirirəm. Bakı Dövlət Universitetinə gələcək fəaliyyətində yeni uğurlar arzulayıram.

Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyənin Baş naziri hörmətli Məsud Yılmaz BDU-nun "Fəxri Doktor"u diplomunu, bu yüksək adı alandan sonra onun həm Azərbaycana, həm Azərbaycan elminə, həm də BDU-ya bəsləydiyi hisslər artacaq və bütün bunlar Türkiyə - Azərbaycan dostluğunun daha da yüksəklərə qalxmasına xidmət edəcəkdir.

Mən hörmətli qonağımız, Baş nazir Məsud Yılmazı bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Hörmətli dostumuz, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar diləyirəm.

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazla Sabunçu rayonundakı 6 saylı texniki-peşə məktəbinin yataqxanasında yaşayan Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə görüşündə Prezident Heydər Əliyevin çıxışı

15 aprel 1996-cı il

Əziz bacılar, qardaşlar, əziz balalar, əziz övladlar!

Mən bu fürsətdən istifadə edib sizin hamınızı səmimi qəlbdən salamlayır, sizə öz hörmətimi, ehtiramımı, məhəbbətimi, sevgimi çatdırıram və bu gün sizinlə bir daha görüşdüyümdən çox məmnun olduğumu bildirirəm.

Türkiyə Cümhuriyyətinin Baş naziri, bizim əziz dostumuz hörmətli Məsud Yılmaz ikinci gündür ki, Azərbaycanda rəsmi səfərdədir. O, sizinlə görüşməyə gəlibdir. Mən də sizinlə görüşlməyə gəlmişəm. Sizinlə görüşmək bizim üçün həmişə ən yüksək vəzifədir, ən böyük borcdur. Çünki siz Ermənistan silahlı qüvvələrinin işğalçılığı nəticəsində yerinizdən-yurdunuzdan didərgin düşmüsünüz, neçə ildir ki, ağır vəziyyətdə yaşayırsınız. Azərbaycan xalqının sizin kimi bir milyon vətəndaşı erməni silahlı nüvvələrinin işğalçılığı nəticəsində yerindən-yurdundan didərgin düşübdür. Siz bilirsiniz ki, çoxları ağır vəziyyətdə çadırlarda yaşayır. Siz özünüz də burada - keçmiş məktəb binasında çox ağır şəraitdə yaşayırsınız. Hörmətli qonağımız cənab Məsud Yılmazla mən burada sizin yaşadığınız otaqlara baxdıq. Gördük ki, vəziyyətiniz çox ağırdır, çətindir. Amma eyni zamanda Azərbaycan xalqına xas olan xüsusiyyətləri sizin hər birinizdə var. Sizin bu xoş görüşünüz, təbəssümünüz, belə ağır vəziyyətdə olmağınıza baxmayaraq, qonağı şadlıqla, sevgi və məhəbbətlə qarşılamağınız və ruhdan düşməməyiniz, böyük ümidlərlə yaşamağınız

AZERBAIJAN

Azərbaycan xalqına, bütün Türk xalqlarına məxsus olan bir xüsusiyyətdir. Bu xüsusiyyət əsrlər boyu bizi yaşadıb, dözümlü edib, ağır dövrlərdən, ağır sınaqlardan, ağır çətinliklərdən çıxarıbdır. Mən tam əminəm ki, bu xüsusiyyət bizi - Azərbaycan xalqını bu ağır vəziyyətdən dəçıxaracaqdır.

Siz bilirsiniz ki, biz, yəni Azərbaycanın dövləti, hökuməti, şəxsən mən erməni işğalçılarının ərazilərimizdən çıxması üçün əlimizdən gələn bütün tədbirləri görürük. İki ilə yaxındır ki, biz atəşi dayandırmışıq, cürbəcür vasitələrdən istifadə edib danışıqlar aparırıq, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Bu sahədə çox işlər görülübdür. Doğrudur, hələ bir nəticə əldə olunmasa da, güman edirəm, görülən işlər son nəticəsini verməlidir. Bütün bu işlərimizdə Türkiyə Cümhuriyyəti, onun rəhbərləri bizə daim yardım edirlər, türk xalqı həmişə bizimlədir. **Ermənistanın Azərbaycana silahlı təcavüzü başlanandan indiyə qədər biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarını öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və köməkdir.** Bütün tədbirlərdə, beynəlxalq təşkilatlarda apardığımız danışıqlarda Türkiyə Cümhuriyyətinin nümayəndələri, Türkiyə hökuməti həmişə bizimlə olub, bizimlə birlikdə bütün tədbirlərin aparılmasına çalışırlar.

Dünən və bu gün hörmətli qonağımız - Baş nazir, cənab Məsud Yılmazla bizim danışıqlarımızda da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazisindən çıxarılması, torpaqlarımızın azad olunması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi və bizim bölgədə tam sülhün yaranması məsələsi əsas mövzumuz olubdur. Hörmətli qonağımız Türkiyə Cümhuriyyətinin bu məsələlərdə mövqeyini bir daha bildiribdir. O, indi sizin qarşınızda öz çıxışında da bildirdi ki, Türkiyə daim Ermənistanın təcavüzkar olduğunu bəyan edib, onun təcavüzkar hərəkətlərini pisləyib, bu gün də pisləyir və bu da bizim üçün böyük bir mənəvi dayaqdır. Ancaq tək bu yox. Biz Türkiyə ilə bərabər öz məsələlərimizi həll etməyə çalışırıq.

Sizin qarşınızda, yerindən-yurdundan didərgin düşmüş, bir neçə il ağır vəziyyətdə yaşayan Azərbaycan vətəndaşlarının qarşısında bir daha deyirəm ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələri Azərbaycanın bu vəziyyətdən çıxması üçün çox böyük bir əhəmiyyətli amildir və Türkiyə bütün bu işlərimizdə bizim üçün dayaqdır.

Azərbaycan xalqına bu ağır dövrdə etdiyi yardımlara, köməyə görə, verdiyi dəstəklərə görə Türkiyə Cümhuriyyətinə öz təşəkkürümü bildirirəm və sizin adınızdan Türkiyə Cümhuriyyətinə, onun Baş naziri

hörmətli Məsud Yılmaza, bizim əziz dostumuz, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyədə olan bütün bacı-qardaşlarımıza bir daha müraciət edirəm ki, bundan sonra da Azərbaycan xalqının bu ağır vəziyyəti ilə daim maraqlansınlar, bizimlə bir yerdə olsunlar və sizin bu ağır vəziyyətdən çıxmağınız üçün əllərindən gələni əsirgəməsinlər. Güman edirəm, bu, belə də olacaqdır.

Bir daha sizi salamlayıram, bir daha sizdən dözümlülük istəyirəm. Dözün ki, biz bu ağır vəziyyətdən çıxaq. Eyni zamanda mən sizin əhvalruhiyyənizi bilirəm. Sizin də fikirləriniz, mənim də fikirlərim belədir ki, biz məsələləri sülh yolu ilə həll etməyə çalışırıq, işğal edilmiş torpaqlarımızın sülh yolu ilə azad olunmasına çalışırıq. Ancaq bunlar nəticə verməsə siz hazır olmalısınız, biz də hazır olmalıyıq ki, işğal olunmuş torpaqları nəyin bahasına olursa-olsun - canımızın, qanımızın bahasına azad etməliyik, öz ərazimizin, torpaqlarımızın sahibi olmalıyıq.

Sizə cansağlığı, dözümlülük arzu edirəm. Ümidvaram ki, siz də inanırsınız ki, Azərbaycanın xoşbəxt gələcəyi var, bu günlər geridə qalacaq. Ağır günün, çətin günün ömrü çox gödək olur. Biz tezliklə tamamilə yeni bir həyata qovuşcağıq. Torpaqlarımız azad olacaq, siz öz yerinizə, yurdunuza qayıdacaqsınız. Sağ olun.

Bakıda "Ramstore" supermarketinin açılış mərasimində Prezident Heydər Əliyevin çıxışı

15 aprel 1996-cı il

Hörmətli Baş nazir cənab Məsud Yılmaz!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün, Türkiyənin Baş naziri Azərbaycanda rəsmi səfərdə olduğu zaman biz ölkələrimiz arasında əməkdaşlıqda yeni bir addımı müşahidə edirik. Bu, çox gözəl bir təşəbbüsdür. Yəni bu gün burada bu böyük mağazanın - supermarketin açılması Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyini göstərir. Bu mağaza Türkiyənin ən böyük şirkəti olan "Qoç qrupu" tərəfindən yaradılıb. "Qoç qrupu" Türkiyənin iqtisadiyyatında çox görkəmli yer tutur, ölkənin bütün iqtisadiyyatına, o cümlədən ticarətinə böyük təsir göstərir və dünyada çox məşhur bir şirkətdir. Biz "Qoç qrupu"nun Azərbaycana gəlməsini gözləyirdik. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olduğum zaman mərhum Vəqfi Qoç ilə görüşdüm, onunla çox mehriban söhbət etdik. Mən "Qoç qrupu"nun Azərbaycana gəlməsini ondan xahiş etdim. Danışıqlarımız, söhbətlərimiz mənə ümid verdi ki, bu qrup Azərbaycana gələcək və ölkəmizlə iş birliyinə başlayacaq. Bizim danışıqlarımız artıq öz nəticəsini verir. "Qoç qrupu" Azərbaycana gəlib, belə böyük gözəl bir mağaza - supermarket yaradıb.

Azərbaycanda keçmişdə də çox böyük mağazalar tikilib. Onlar indi də fəaliyyət göstərirlər. Ancaq bu mağaza - supermarket müasir tələblərə, dünya standartlarına uyğun olan bir ticarət mərkəzidir. Sadəcə ticarət etmək yox, Azərbaycanda iqtisadiyyata, ticarətə, ticarətin dünya səviyyəsinə qalxmasına onun təsirinin də böyük əhəmiyyəti olduğunu mən bu gün qeyd etmək istəyirəm. Bir daha deyirəm, bu, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrdə yeni addımdır, nümunədir. Mən bunu bəyənirəm. Bu supermarketin Azərbaycanda yaranması, ona burada, Bakının gözəl guşələrinin birində yer verilməsi üçün mən lazımi səylər göstərdim, təlimatlar verdim. Çox məmnunam ki, biz Türkiyənin Baş naziri, hörmətli qonağımız Məsud Yılmazla birlikdə bu mağazanın işə başlamasının şahidiyik.

Mən sizi, "Qoç qrupu"nu, onun Azərbaycanda olan ortağını bu hadisə münasibətilə təbrik edirəm və bu mağazaya gələcək işlərində uğurlar diləyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu mağaza yaxşı işləyəcək, Azərbaycan vətəndaşlarına yaxşı xidmət edəcək, respublikamızda ticarətin inkişafına kömək edəcəkdir. Mən "Qoç qrupu"nun buradakı bəyanatlarını da çox məmnuniyyətlə qəbul edirəm ki, "Qoç qrupu" Azərbaycanda öz işinə davam edəcək və respublikamızın iş adamları ilə birlikdə bundan sonra da yeni-yeni belə müştərək işlər görəcəkdir.

Mən sizi əmin edirəm ki, sərmayə qoymaq, müştərək iş görmək üçün Azərbaycanda hər cür şərait yaratmışıq və bundan sonra da yaradacağıq. İş prosesində, ola bilər, hansısa problemlər meydana çıxsın, əngəllər olsun. Bu, təbiidir, çünki belə hadisələrə ictimaiyyətimiz indi-indi alışır, onları qəbul edir. Ancaq mən bildirmək istəyirəm ki, bu maneələr, əngəllər vaxtında aradan qaldırılacaq və gələcəkdə də belə işlərin görülməsi üçün geniş yollar açılmasının tərəfdarıyam, buna gələcəkdə də dəstək verəcəyəm.

Mən sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Bakı şəhərinin vətəndaşları bu mağazadan hər gün faydalanacaqlar və sizin işinizdən razı qalacaqlar. Bütün işlərinizdə - "Qoç qrupu"nun həm Türkiyə, həm də dünyanın bütün ölkələrindəki işlərində uğurlar diləyirəm. Türkiyə - Azərbaycan iqtisadi, ticarət əlaqələrinin daha möhkəmlənməsini arzulayıram.

Dövlət Baytarlıq Xidmətləri rəhbərlərinin beynəlxalq müşavirəsinin iştirakçılarına!

Beynəlxalq Epizootik Büronun rəhbərliyi ilə Müstəqil Dövlətlər Birliyi, Baltikyanı, Şərqi Avropa ölkələrinin, Türkiyə və İran dövlətlərinin

baytarlıq xidmətləri rəhbərlərinin və bu sahədə çalışan işgüzar dairələrin nümayəndələrinin Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən beynəlxalq müşavirəsinin iştirakçılarını salamlayır və onlra işlərində uğur diləyirəm.

Sivilizasiyanın yüksək mərhələyə çatdığı indiki dövrdə rolu xeyli artmış baytarlıq xidməti xəstəliklərə və epizootiyalara qarşı mübarizə aparmaqla yanaşı, insan üçün zəruri olan qida məhsullarının sağlam və keyfiyyətli olmasını daim nəzarətdə saxlamaqla, bütünlüklə bəşəriyyətin sağlamlığını qoruyur.

Ümidvaram ki, dünyanın baytarlıq xidməti işçiləri bu çətin və məsuliyyətli vəzifənin öhdəsindən bundan sonra da ləyaqətlə gələcəklər.

Beynəlxalq Epizootik Büronun fəaliyyətini və baytarlıq təbabəti sahəsində əməkdaşlığı yüksək qiymətləndirərək, bu işdə ölkələrimiz qarşısında duran qlobal məsələlərin həllində sizə böyük müvəffəqiyyətlər arzulayıram.

Heydər Əliyevi
Azərbaycan Respublikasının
Prezidenti

18 aprel 1996-cı il

Azərbaycan - Özbəkistan sənədlərinin imzalanmasından sonra keçirilən birgə mətbuat konfransındakı bəyanatdan:

Prezident Sarayı
27 may 1996-cı il

...Sual: Azərbaycan xarici neft şirkətləri ilə müqaviləyə daxil edilən yataqlardan çıxaracağı öz neftini Özbəkistana göndərəcəkmi? Qarabağ probleminin tənzimlənməsində ATƏT-in nə kimi rolu var? Sual İslam Kərimovadır: Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni Özbəkistan necə həyata keçirmək niyyətindədir, bu sənəd iki dövlət arasında əməkdaşlığın inkişafına nə kimi təkan verəcəkdir? Azərbaycanın problemlərinin həllində ona köməkdən danışarkən siz nəyi nəzərdə tuturdunuz?

Heydər Əliyev: Birinci suala cavab verim. 1994-cü ilin sentyabrında ölkəmiz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi haqqında böyük müqavilə imzlandı. Müqavilə dünyanın on biri iri şirkətinin - ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanı şirkətlərinin daxil olduğu konsorsiumla imzalanmışdır. Biz bu müqavilənin həyata keçirilməsi sayəsində çoxlu neft çıxarılacağını gözləyirik. Ona təxminən 8 milyard dollar əsaslı vəsait qoyulacaqdır. Neft çıxarmağa

başladıqda Özbəkistanı unutmayacağıq, əlbəttə, onun neftə ehtiyacı olarsa, neftimizi ondan əsirgəməyəcəyik...

"Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" mövzusuna həsr olunmuş konfransın açılışında Prezident Heydər Əliyevin nitqi

Azərbaycan Dövlət Opera və
Balet Teatrı
30 may 1996-cı il

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Azərbaycan - Türkiyə iqtisadi əməkdaşlığının perspektivlərinə həsr olunmuş konfransın açılması münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm və hamınızı ürəkdən salamlayıram.

Bu konfrans Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin yeni mərhələsini müəyyən edir. Bu konfransın hazırlanmasına çox böyük vaxt, əmək sərf olunub. İlk dəfədir ki, respublikamızda Azərbaycan ilə

Türkiyə arasında iqtisadi əməkdaşlığa həsr olunmuş belə bir geniş, mötəbər konfrans öz işinə başlayır. Bu münasibətlə Türkiyədən Azərbaycana konfransın işini təşkil edənlər və konfransda bilavasitə iştirak etmək üçün qonaqlar gəlmişlər. Mən Türkiyə Cümhuriyyətindən bu konfransda iştirak edən qardaşlarımızı, bacılarımızı səmimi qəlbdən salamlayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu konfrans həqiqətən

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin problemlərini dərindən araşdıracaq, səmərəli iş görəcək və ölkələrimizin, xalqlarımızın arasında olan əlaqələri daha da sıx edəcək, yüksəklərə qaldıracaqdır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqlarımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-biri ilə oxşar olması - hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır. Məhz buna görədir ki, biz tez-tez belə bir gözəl ifadəni işlədirik: "Biz bir xalq, iki dövlətik".

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr yeni vüsət almışdır. Məlumdur ki, bundan əvvəlki illərdə, uzun bir zaman əlaqələrimizdə çox böyük məhdudiyyətlər, mərhumiyyətlər olmuşdur, bizi bir-birimizdən ayırmağa çalışmışlar, bizim aramızda böyük sədlər, hüdudlar qoyulmuşdur. Ancaq bunların heç biri xalqlarımızın bir-birinə bağlılığını sarsılda, sındıra bilməmişdir, bizi bir-birimizdən qəlbdən, ruhən ayıra bilməmişdir.

Məhz buna görə də 1991-ci ilin sonunda Azərbycan milli azadlığına nail olandan, dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr sürətlə inkişaf etməyə başladı. Qısa bir müddətdə biz yüksək zirvələrə gəlib çatmışıq. Bu münasibətlər bütün sahələri əhatə edir. Türkiyə Cümhuriyyəti, xalqı Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi ölkəmizə ən böyük dayaq, kömək olmuş və respublikamız müstəqillik yolunda ilk addımlarını atan zaman həmişə onun yanında olmuşdur. Xalqımız, dövlətimiz bunu çox yüksək qiymətləndirir və heç zaman, heç vaxt unutmayacaqdır.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini elan edən kimi ölkəmizi müstəqil dövlət olaraq dünya miqyasında ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Mən bir daha qeyd edirəm, bundan sonrakı dövrdə bizim əlaqələrimiz çox sürətlə inkişaf etmişdir. Bunlar hamısı bizim uzun illər, onilliklər boyu bir-birimizdən ayrı düşdüyümüz vaxtları tezliklə aradan götürmüşdür. İndi biz bir-birimizə çox yaxınıq, bir yerdəyik, bərabərik.

Müstəqil Azərbaycan Respublikasının qarşısında çox böyük problemlər durur. Bu problemlər Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və əbədi etməkdən ibarətdir. Bu problemlər Azərbaycanı uzun sürən Ermənistan təcavüzündən xilas etməkdən, respublikamızın ərazi bütövlüyünün təmin etməkdən ibarətdir. Azərbaycan vətəndaşlarının hamısına rahat həyat şəraiti yaratmaqdan ibarətdir. Azərbaycanda sülh, əmin-amanlıq yaratmaqdan ibarətdir. Bu problemlər Azərbaycanın dövlət quruculuğunda, ictimai-siyasi həyatında, iqtisadiyyatında ciddi dəyişikliklər etməkdən ibarətdir. Bu problemlər Azərbaycanı demokratik hüquqi dövlət quruculuğu yolu ilə aparmaqdan, respublikamızda demokratik hüquqi cəmiyyət formalaşdırmaqdan ibarətdir.

Bu problemlərin həll edilməsində biz daim Türkiyə Cümhuriyyətinin dəstəyini, yardımını, onun bizə göstərdiyi dostluq, qardaşlıq qayğısını hiss edirik. Qısa bir zamanda, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən indiyədək, deyə bilərəm ki, Türkiyədən vətənpərvər, türk qanı olan insanlar respublikamıza daim qayğı, hörmət, sayğı göstəriblər. Biz bunu yüksək qiymətləndiririk. Bununla bərabər - yəni türk xalqının bizə ümumi dəstək verməsi ilə bərabər - biz Türkiyənin dövlət xadimləri tərəfindən də bu illərdə çox böyük qayğı, qardaşlıq münasibəti hiss etmişik.

Bu münasibətlə mən, bu dövrdə Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlığın yaranmasında, inkişaf etdirilməsində böyük xidmətləri olan Türkiyənin keçmiş Prezidenti, mərhum Turqut Özalın xidmətlərini xatırlamaq istəyirəm. Türkiyənin indiki Prezidenti, Azərbaycanın böyük dostu, hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd edirəm. Türkiyənin Baş naziri, hörmətli Məsud Yılmazın xidmətlərini və yaxın zamanlara qədər Türkiyənin Baş naziri vəzifəsini aparmış hörmətli Tansu Çillərin xidmətlərini qeyd edirəm. Türkiyənin Böyük Millət Məclisinin xidmətlərini xüsusi qeyd edirəm. Türkiyənin bütün dövlət xadimlərinin, siyasi məsələlərlə məşğul olan, siyasi partiyalara rəhbərlik edən şəxslərin xidmətlərini qeyd edirəm. Beləliklə, biz bu gün yenidən bir araya gəldiyimiz zaman mən Türkiyə xalqına, cümhuriyyətinə və onun rəhbərlərinə Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Türkiyə tərəfindən bu konfransın hazırlanmasında xidmət göstərən şəxslər burada iştirak edirlər. Mən onlara təşəkküredirəm. Eyni zamanda bu konfransa salamlar göndərmiş və bu konfransın təşkil olunmasına dəstək vermiş, bu konfransda bu gün bizimlə birlikdə olan hörmətli dostum, qardaşım, əzizdostumuz Süleyman Dəmirəlin xüsusi xidmətlərini qeyd edirəm. Bu salonda hörmətli Süleyman Dəmirələ Azərbaycan xalqı adından hörmət və ehtiramımı bildirirəm.

Biz Azərbaycanda konfransın işinə çox böyük ümidlər bəsləyirik. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr, qeyd etdiyim kimi, dostluq, qardaşlıq xarakteri daşıyır. Bunlar hamını Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında imzalanmış müqavilələrdə və bir çox sazişlərdə öz əksini tapmışdır.

Siyasi məsələlər sahəsində, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi yolunda Türkiyə ilə respublikamız arasında əməkdaşlıq çox müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycanın beynəlxalq aləmdə tanınmaq və öz müstəqilliyini möhkəmləndirmək sahəsində, xüsusən respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi ilə əlaqədar olan problem - Ermənistanın ölkəmizə etdiyi təcavüzə son qoyulması və bu barədə görülən işlər sahəsində də biz Türkiyə Cümhuriyyəti dövlətinin, hökumətinin başçıları ilə daim əməkdaşlıq edirik və sıx əlaqələr saxlayırıq.

Bu problem tək Azərbaycana aid deyil. Bu bölgədə, yəni Türkiyənin və Azərbaycanın birgə olduğu bir bölgələ, Qafqaz bölgəsində Ermənistanın təcvüzkar siyasəti, hərəkəti, respublikamızın torpaqlarını işğal etməsi, ölkəmizin bir milyondan çox vətəndaşının didərgin düşməsinə səbəb olması təkcə Azərbaycana vurulan zərbə deyil. Bu, bizim bütün xalqlarımıza vuralan zərbədir. Bu, Türkiyə - Azərbaycan dostluğuna, eyni zamanda Türkiyəyə vurulan zərbədir. Mən bunu dəfələrlə demişəm, bu gün bu fürsətdən istifadə edərək bir daha üzümü Türkiyənin ictimaiyyətinə tutaraq bildirmək istəyirəm ki, Ermənistanın təcavüzkarlığı bu bölgədə təkcə Azərbaycan

üçün təhlükə deyil, bütün başqa xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün təhlükədir, Türkiyənn sülh və əmin-amanlıq şəraitində yaşaması üçün təhlükədir. Ona görə də Ermənistanın Azərbaycana etdiyi bu təcavüz Türkiyə üçün də, Azərbaycan üçün də, bu bölgədə yaşayan başqa dövlətlər üçün də təhlükədir.

Biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bildiyiniz kimi, atəşkəs haqqında saziş iki ildən artıqdır imzalanıb. Biz bu atəşkəs sazişinə sadiqik və bundan sonra da riayət edəcəyik. Bu sahədə biz Türkiyə ilə çox sıx əməkdaşlıq edirik, məsələlərin həll olunmasında Türkiyə ilə birlikdə hərəkət edirik. Buna görə də mən Türkiyə ilə Azərbaycan arasında siyasi məsələlər haqqında, yaxud beynəlxalq problemlərin həll olunması barəsində xüsusən Ermənistanın Azərbaycana etdiyi təcavüzə son qoyulması sahəsində olan əməkdaşlığı son dərəcə müvəffəqiyyətli, uğurlu hesab edirəm.

Ancaq xalqlarımız arasında olan əlaqələri inkişaf etdirmək üçün iqtisadiyyat çox mühüm əhəmiyyət kəsb edir. Bütün əlaqələri - insani əlaqələri, xalqlarımızın arasında olan münasibətləri, elmi, mədəni, texniki əlaqələri, bütün başqa əlaqələri inkişaf etdirməklə ən əhəmiyyətli yer iqtisadiyyata məxsusdur, iqtisadiyyatdan asılıdır. Ona görə də iqtisadi əlaqələrin inkişaf etdirilməsi, yüksəklərə qaldırılması Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin demək olar ki, əsasını təşkil edir, onun özəyidir.

Bu sahədə az iş görülməyib. Yəqin ki, konfransda siz bunu təhlil edəcəksiniz və görülən işlər haqqında məlumat verəcəksiniz. Ancaq mən hesab edirəm ki, başqa sahələrdə əldə etdiyimiz nailiyyətlərlə iqtisadiyyat sahəsində qazandığımız nailiyyətləri müqayisə etsək, şübhəsiz ki, iqtisadiyyatdakı nailiyyətlər geridədir. Təəssüf ki, bu, belədir. Bunun obyektiv səbəbləri də var. Ancaq bu obyektiv səbəbləri də aradan qaldırmaq mümkün idi. Bu gün mən bu sözü deyərkən günahı əsasən Azərbaycanın üzərinə götürürəm. Ancaq güman edirəm ki, bu iqtisadi əlaqələrlə Türkiyə tərəfindən məşğul olan adamlar da gərək bu məsələlərə daha da ciddi yanaşsınlr, bu məsələlərə daha dərindən münasibət göstərsinlər, iqtisadi əlaqələrin inkişaf etməsi üçün bütün əngəllərin aradan qaldırılmasına çalışsınlar, nail olsunlar.

Bilirsiniz, xalqlarımız, ölkələrimiz bir-birinə o qədər yaxındırlar ki, Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələr, hesab edirəm, Türkiyənin bütün başqa ölkələrlə iqtisadi əlaqələrindən üstün olmalıdır. Şübhəsiz ki, bu , mənim ümumi fikrimdir. Əgər bunu konkret bir çərçivəyə salsaq, bəlkə də bu fikir hamı tərəfindən qəbul oluna bilməz. Çünki mən bilirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyənin iş adamları ölkədən kənarda bir çox gərəkli işlər görürlər. Bunlar hamısı Türkiyənin iqtisadiyyatı üçün gərəklidir, çox əhəmiyyytlidir və inkaredilməzdir. Bunlar təbiidir. Ancaq bütün bu böyük işlərin içərisində Türkiyə Azərbaycan ilə iqtisadi əlaqələrinə xüsusi yer verməlidir.

Mən hesab edirəm ki, Türkiyənin həm dövlət dairələri, həm də iş adamları Azərbaycanda iş görməyi yalnız iqtisadi mənfəətlə bağlanmamalıdırlar. Şübhəsiz ki, iqtisadi mənfəət olmasa, iqtisadi əlaqələr də olmayacaqdır. Bu, aydındır. Ancaq Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrin xüsusi xarakterini nəzərə alaraq Azərbaycana gələn hər bir iş adamı, respublikamıza sərmayə qoymaq istəyən iş adamı və dövlət dairələrindən ölkələrimiz arasındakı iqtisadi əlaqələri qorumağa məsul şəxslər gərək bilsinlər ki, bu, Türkiyə ilə başqa ölkələr arasında olan iqtisadi əlaqələr deyil, bunun iqtisadi cəhətlərdən çox böyük mənəvi cəhəti var. Bu mənəvi cəhəti heç vaxt unutmaq lazım deyil. Mən demirəm ki, bu mənəvi cəhət həmişə nəzərə alınmalıdır. Ancaq Azərbaycanın iqtisadiyyatı ayaq üstündə durana qədər, respublikamız bu iqtisadi problemlərin həll edilməsi dövründən keçib gedənə qədər gərək bu, Türkiyədə nəzərə alınsın.

Mən açıq danışıram, çünki biz qardaşıq. Qardaş ilə qardaş arasında söhbət tamamilə açıq olmalıdır. Ona görə də mən ərk edirəm və bu sözləri də ərklə deyirəm. Bunun bir də ona görə deyirəm ki, mən bu işləri izləyirəm, görürəm ki, Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr əksərən ticarət əlaqələrindən ibarətdir. Şübhəsiz ki, ticarət də olmalıdır və biz ticarət əlaqələrini bundan sonra da inkişaf etdirməliyik. Bu, necə deyərlər, iqtisadi əlaqələrin başlanğıcıdır. Ticarət əlaqələri olmasa, başqa əlaqələr də olmayacaqdır. Ancaq Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır.

Siz bilirsiniz, mən bunu hamıya deyirəm, bu gün isə Türkiyədən gələn qonaqlarımıza müraciət edərək deyirəm ki, indi Azərbaycan öz iqtisadiyyatında, ictimai-siyasi həyatında keçid mərhələsini yaşayır. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanın cəmiyyəti demokratik cəmiyyət, hüquqi dövlət, azad, sərbəst cəmiyyət kimi formalaşır. Azərbaycan keçmiş iqtisadi sistemdən imtina edərək öz iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurmağa çalışır, bu barədə tədbirlər görür. Bunun üiün biz iqtisadi islahatlar həyata keçiririk, keçmiş iqtisadiyyat formasından tamamilə imtina edirik. Bunlar hamısı indi Azərbaycanın iqtisadiyyatının ke-

çid dövrünü təşkil edir.

Bu keçid dövrü hər bir ölkədə çətin olur. Türkiyənin bugünkü iqtisadiyyatı elə anadangəlmə belə olmayıb ki! Türkiyə iqtisadiyyatının 20, 30, 40 il bundan əvvəlki vəziyyətini biz bilirik, bunların hamısını təhlil etməyə imkanımız var. Türkiyə də böyük keçid dövrü keçirib. Ancaq iş burasındadır ki, Türkiyədə heç vaxt nə sosialist iqtisadiyyatı, nə də kommunist ideologiyası quruluşu olubdur. Türkiyənin özünəməxsus cürbəcür sistemləri olubdur. Amma bu sistemlərin hamısında şəxsi mülkiyyət həmişə olubdur. Şəxsi mülkiyyət, sahibkarlıq Türkiyədə heç vaxt yasaq edilməyib. Bunlar hamısı Türkiyədə olub, Türkiyənin həyatında gedən proseslərin də keçmişdə nə qədər çətin, ağır olduğunu biz bilirik. Türkiyənin iqtisadiyyatını bu yüksək səviyyələrə gətirmiş insanlara biz daim hörmət və ehtiramımızı bildiririk. Ancaq istəyirik ki, Türkiyədəki dostluğumuz, qardaşlığımız respublikamızın bu keçid dövrünün nə qədər mürəkkəb, çətin olduğunu daha dərindən duysunlar və bununla əlaqədar olaraq da Azərbaycan - Türkiyə iqtisadi əlaqələrini yaratsınlar.

Mən bir daha qeyd etmək istəyirəm ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində ərazimizin 20 faizi işğal altındadır. İşğal olunmuş bu ərazilərdən çıxarılan bir milyondan çox vətəndaşımız qaçqın və köçkün vəziyyətindədir və əksəriyyəti çadırlarda yaşayır. İqtisadiyyatımız nə qədər gözəl olsa da bu, onu çox ağırlaşdıran bir amildir. Bir bu deyil. Bilirsiniz ki, son zamanlara qədər Azərbaycanın daxilində ictimai-simyasi vəziyyət sabit olmayıbdır. Bunu Türkiyədə olan dostlarımız, qardaşlarımız bütün başqa ölkələrdən yaxşı bilirlər, çünki Azərbaycannın daxilində gedən bu ictimai-siyasi proseslər Türkiyə mətbuatında dərhal əks etdirilib, ictimaiyyətə çatdırılıbdır. Bəzən də bunlar tərsinə, qərəzli əks etdirilibdir, bunu da demək istəyirəm. Bu fikirlər Türkiyə ictimaiyyətinə bəzən düzgün olmayaraq çatdırılıbdır. Amma bunlar hamısı Türkiyə mətbuatı vasitəsilə Türkiyə xalqına məlum olubdur. Bu da ondan ibarətdir ki, Azərbaycanda əvvəllər ictimai-siyasi sabitlik olmayıbdır, dövlət sabit olmayıbdır. Əgər beş il müddətində Azərbaycanda üç dəfə dövlət hakimiyyəti dəyişdiribsə, sabitlik necə ola bilərdi?

Bu, sizin Türkiyədəki dövlət hakimiyyətinin dəyişdirilməsi demək deyil, çünki sizdə demokratiya var və bu demokratiya o qədər yüksək səviyyəyə qalxıbdır ki, dövlət də işləyir, insanlar da yaşayır, maliyyə də, məhkəmə də, polis də, ordu da öz yerindədir, ancaq partiyalar bir-biri ilə dilə gəlmirlər, ona görə də indi sizdə də hökumətin qurulmasında çətinliklər var. Ancaq bunlar tamamilə başqa şeydir. İndi Türkiyədə silah alıb, gəlib ayrı-ayrı adamları yox etmək, dövləti dağıtmaq halları yoxdur. Allaha şükürlər olsun ki, yoxdur. Ancaq Azərbaycanda bu, dünənədək, yaxın vaxtlaradək olub. Siz, Türkiyədən olan dostlarımız, qardaşlarımız bunların hamısını yaxşı bilirsiniz. Şübhəsiz ki, bununla da Azərbaycanda iqtisadi proseslərin, islahatların həyata keçirilməsini ləngidibdir.

Şübhəsiz ki, bunların da nəticəsində Türkiyəin iş adamları bəzən gedib Mərkəzi Asiyaya sərmayə qoyurlar, amma gəlib Azərbaycana sərmayə qoymurlar. Bilirsiniz, mən heç kəsə qısqanclıq etmək istəmirəm. Türkiyənin iş adamları sərbəstdirlər və hara istəyirlər, ora da gedə bilərlər. Məsələn, Türkiyənin iş adamları Rusiyada çox böyük işlər görürlər. Hətta Moskvadakı böyük tikinti işlərini Türkiyənin inşaat şirkətləri aparırlar. Mən buna böyük iftixar hissi ilə yanaşıram. Rusiyanın paytaxtı Moskva dünyanın ən böyük şəhərlərindən biridir, mən onu yaxşı tanıyıram. İndi bu şəhərdəki gözəl-gözəl binaların tikilməsində, bərpa edilməsində, onların modernləşdirilməsi işində Türkiyə şirkətləri çox yaxından iştirak edirlər. Bunların hamısı yaxşıdır və bizi də sevindirir. Türkiyənin iş adamlarının gedib keçmiş Sovetlər İttifqına mənsub olmuş, indi müstəqil dövlət olan ölkələrdə iş görməsi gözəl işdir. Ancaq Türkiyənin iş adamları Azərbaycana da sürətlə gəlməlidirlər, sərmayə qoymalıdırlar.

Mən yenə də o fikrə qayıdıram ki, bir tərəfdən Azərbaycanın Ermənistan təcavüzü altında olması, torpaqlarımızın işğal edilməsi, ikinci tərəfdən respublikamızın daxilində ictimai-siyasi vəziyyətin sabit olmaması, silahlı dəstələrin, cürbəcür terrorist qrupların olması hər bir iş adamını qorxudur, çəkindirir. Mən bunu başa düşürəm və heç kəsi də qınamıram. Ancaq onu demək istəyirəm ki, biz bu dövrü də keçdik. İki ildir ki, müharibədə atəşkəsidir. Təxminən iki ildir ki, həmin o silahlı dəstələrə, hakimiyyəti zorla devirmək istəyən, silah gəzdirən adamlara - hamısına son qoyuldu. Təəssüf ki, o dəstələrin bəziləri nədənsə, indiyədək Türkiyədə hörmətlə, ehtiramla xatırlanır və onlar haqqında bəzən qəzetlərdə də yazırlar. Hesab edirəm ki, bunlar da bizim dostluğumuza zərər gətirən hallardır.

İndi Azərbaycanda ictmai-siyasi vəziyyəti tamamilə sabitdir, normaldır. Dövlət öz qüdrətini bütün dünyaya nümayiş etdiribdir. Dövlət Azərbaycanın bütün ərazisində hakimdir. Ölkədə dövlət quruculuğu prosesi gedir. Belə bir halda Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıq daha da geniş olmalıdır. Yəni Türkiyənin iş adamlarının Azərbaycana sərmayə qoyması bizim üçün çox lazımdır. Bu, həm Türkiyə üçün, həm də Azərbaycan üçün iqtisadi cəhətdən çox əhəmiyyətlidir.

Türkiyənin "Qoç qrupu" şirkəti respublikamızda böyük bir supermarket tikib, gözəl ticarət mərkəzi yapadıbdır. Hörmətli Baş nazir Mə-

sud Yılmaz Azərbaycanda səfərdə olarkən mən özüm də onunla birlikdə həmin ticarət mərkəzinin açılışında iştirak etdim. Amma yenə də, bu ticarətdir. Bəs istehsal yaratmaq, müştərək iş görmək üçün nə işlər görülüb? Bilirsiniz mən bunların hamısını ona görə deyirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyədə iqtisadiyyat, istehsal çox yüksəklərə qalxıb. Bu ölkənin böyük imkanları vardır. Şübhəsiz ki, Türkiyə bu imkanlardan dünyanın hər yerində geniş istifadə etmək istəyir, ancaq bu, Azərbaycanda da həyata keçirilməlidir. Bu işlərə keçmiş vaxtlarda olduğu kimi, ehtiyatla, müəyyən qədər qorxu hissi ilə yanaşmaq halları geridə qalmalıdır.

Biz elan etmişik ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz həyata keçiririk. Elan etmişik ki, hər bir şirkət gəlib Azərbaycanda mülk ala bilər, mülk sahibi ola bilər, özəlləşdirmədə iştirak edə bilər. Yaxud mən Azərbaycandakı böyük sənaye müəssislərini xarici şirkətlərin idarəsinə verilməsi barədə fərman imzalamışam. Artıq bu sahədə bir neçə təklif var və yenə də təkliflər gəlir. Biz bunları alqışlayırıq. Ancaq bu işlərdə Türkiyə birinci sırada olmalıdır.

Dünya iqtisadiyyatı ilə bizim sıx bağlanmağımızın nümayiş etdirən ən böyük amil ondan ibarətdir ki, 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi barədə böyük bir müqavilə imzaladıq. Ona "Əsrin müqaviləsi" deyirlər. Bu müqavilədə Türkiyənin neft şirkəti də iştirak edir. Mən bu gün açıq demək istəyirəm ki, Türkiyənin neft şirkəti Azərbaycan öz müstəqilliyini əldə edən zaman, xüsusən burada Xalq Cəbhəsi hakimiyyətdə olduğu vaxt bu müqavilənin hazırlanmasının ən fəal iştirakçılarından biri olmuşdur. Ancaq bu müqavilədə Türkiyənin yeri nə idi? 1,75 faiz. Ancaq sonradan Türkiyə dövləti başçılarının xahişinə görə Azərbaycanın öz hissəsindən, müqavilə imzalanandan sonra respublikamıza qalmış hissədən beş faiz də Türkiyə dövlətinə, şirkətinə orada yer ayırdıq. Artıq burada Türkiyənin yeri 6,75 faiz idi. Bax, biz bu addımı atdıq ki, ölkəmizə Türkiyənin sərmayəsi gəlsin.

Bilirsiniz, neçə vaxtdır ki, neft kəməri haqqında danışıqlar gedir. Hətta mən 1993-cü ildə buraya işləməyə gələndə, 1994-cü ildə hələ müqavilə imzalanmamış, mənə bir məktub gətirdilər. Bu, bir müqavilə, yaxud kağız idi, orada 15-ə yaxın imza var idi ki, boru xətti Türkiyədən keçəkdir. Bağışlayın mən öz keçmişimiz haqqında da deyirəm - amma eyni zamanda bu əlaqələrin keçmişi barədə də deyirəm, bu kağız heç bir hüquqi əsası olmayan bir şey idi. Hamı da imza almışdı və orda-burda, mətbuatda da bağırırdılar ki, boru xətti Türkiyədən keçəcək. Amma əgər neft çıxarmaq, istehsal etmək haqqında

müqavilə yox idisə, boru xəttinin haradan keçməsini necə müəyyən etmək olardı? Yəni bu nə iqtisadi, nə hüquqi əsası olmayan bir kağız idi. Bu kağızı hazırlayan insanlar da özləri-özlərini və ictimaiyyəti aldadırdılar. Bunlar hamısı boş şeylər idi.

Ancaq biz bunların hamısını qaydaya saldıq. İlkin neftin ixracı üçün neft kəmərinin haradan keçməsi barədə xeyli mübahisə getdi. Biz öz iradəmizi bildirdik və ilkin neft kəmərlərinin qərb istiqamətində Gürcüstan ərazisindən Türkiyəyə keçməsi haqqında qərar qəbul etdik. Siz bilin ki, bu qərarın qəbul olunması o qədər də asan məsələ deyildi. Bilirsiniz ki, Azərbaycan çox istiqamətlərdə təzyiq altında idi. Ancaq biz bunu etdik. Bundan sonra da addımlar atacağıq.

Bunların hamısını deyərək bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələr daha dərin, geniş olmalıdır. Mən indiyədək olan nailiyyətləri yüksək qiymətləndirirəm, ancaq onları yetərli hesab etmirəm. Çünki iqtisadi əlaqələrimiz Azərbaycanın Türkiyə ilə dövlətlərarası ictimai-siyasi sahələrdəki əlaqələri səviyyəsində deyil. Bilirsiniz, dövlətlərimiz arasındakı siyasi əlaqələrlə iqtisadi əlaqələrimiz arasında məsafə çox böyükdür. Bu məsafəni ləğv etmək lazımdır. İqtisadi əlaqləri həmin o əlaqələr səviyyəsində qaldırmaq lazımdır. Şübhəsiz ki, bunun üçün biz özümüz çox iş görməliyik. Əgər bu məsələni irəli sürürüksə - Azərbaycanın prezidenti kimi mən bu məsələni bu gün bu konfransda irəli sürüməsə, müəssisə, şirkət rəhbərlərini, iş adamlarını da buna dəvət edirəm və hətta onların qarşısında bunu vəzifə kimi qoyuram, bunu onlardan tələb edirəm. Amma eyni zamanda mən Türkiyənin həm dövlət, hökumət dairələrinə, həm də xüsusən bu ölkənin işgüzar dairələrinə müraciət edirəm ki, Azərbaycan ilə iqtisadi əlaqələr genişləndirilsin, respublikamıza sərmayə qoyuluşu prosesi inkişaf etdirilsin. Ölkəmizdə müştərək iş görmək və beləliklə həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, həm də respublikamızın iqtisadiyyatı ilə Türkiyənin iqtisadiyyatını sıx bağlamaq lazımdır.

Dörd il yarımdır ki, respublikamız müstəqil dövlətdir. Ancaq iqtisadiyyatımız çox çətin vəziyyətdədir. Bunun səbəbləri nədən ibarətdir. Ondan ibarətdir ki, on illərlə, 1920-ci ildən, daha doğrusu, 20-ci ilə qədər də Azərbaycanın iqtisadiyyatı Rusiyanın, Sovetlər İttifaqının başqa respublikalarının iqtisadiyyatı ilə çox sıx bağlı olub. Vaxtilə bunları düşünülmüş şəkildə bir-birinə elə calaşdırıblar ki, ayrımaq mümkün olmasın. Məsələn, 1991-ci ildə Sovetlər İttifaqının qalıb-qalmaması haqqında referendum keçirilərkən çoxları deyirdilər ki, yox, Sovetlər İttifaqını dağıtmaq olmaz. Çünki dağılsa bu respublikaların heç biri müstəqil yaşaya bilməz: onların istehsal müəssi-

sələri və sair bir-biri ilə elə bağlıdır ki, bu, burada məhsulu istehsal edib, ora aparır, o isə istehsal edib bura gətirir. Əgər onlar bu malları bir-birinə verməsə, fabrik-zavodlar necə işləyəcək?

Yenə də deyirəm, bunu belə qurmuşdular, - respublikalar bir-biri ilə bağlı olsunlar ki, heç vaxt ayrıla bilməsinlər. Xatirimdədir, 1970-ci illərdə mən burada respublikaya rəhbərlik etdiyim zaman Azərbaycanda iqtisadiyyatı inkişaf etdirərkən Moskvadan, mərkəzdən bir məhsulu tam şəkildə istehsal etməyə bizə imkan vermirdilər. Yəni həm xammal, həm ilkin istehsal bizimdir, həm də son məhsulun istehsalı respublikamızda mümkün idi. Lakin buna imkan vermirdilər. Deyirdilər ki, xammal sizdədir, bax, bunu bu dərəcəyədək istehsal edin, sonra onu Voronecə, yaxud Sverdlovska, Moskvaya göndərin, onlar orada ondan son məhsul alsınlar. Bunun iki səbəbi var idi. Birinci səbəbi ondan ibarət idi ki, bağlamaq istəyirdilər ki, ayrılmaq mümkün olmasın. İkinci səbəbi isə - şübhəsiz ki, siz iqtisadçısınız, bunu yaxşı bilirsiniz - xammalın ilkin istehsalından alınan məhsulun qiyməti birdir, amma son məhsulun qiyməti tamamilə yüksəkdir. Son məhsulun xeyri Rusiyaya gedirdi.

Məsələn, Sumqayıtda böyük kimya kompleksi inkişaf etdirilirdi. Bu inkişaf 1962-ci illərdən başlamışdı. Mən özüm 1969-cu ildə respublikaya rəhbərlik edəndən bu işlə bilavasitə məşğul olmuşam. 1970-ci illərdə Sumqayıtda kimya zavodlarının inkişaf etdirilməsi üçün çox böyük məsələlər qaldırmışıq və çox böyük işlər gördük. Mən o vaxt çalışırdım, vuruşurdum ki, əgər polietilen istehsal etdirirsə, onun son məhsulunu da biz özümüz hazırlmalayıq. Amma bizi məcbur edirdilər ki, politileni xammal kimi başqa yerlərə verin.

Respublikada pambıq, mahlıc istehsal edilirdi. Həmin mahlıcı az miqdarda biz özümüz son məhsullar gətirib çıxara bilərdik. Onun demək olar ki, 90 faizi respublikadan kənara gedirdi, orada son məhsul istehsal olunurdu, toxuculuq məmulatlı kimi satılırdı. Şübhəsiz ki, toxuculuq məmulatının qiyməti mahlıcın qiymətindən qat-qat artıq idi.

Bunları ona görə deyirəm ki, əgər o vaxt belə siyasət aparıb bizi bir-birimizə bağlamışdılarsa, bu bağlılıqdan indi də əziyyət çəkirik və bu, istehsalın aşağı düşməsinin hazırkı səbəblərindən biridir. İndi Türkiyə və Azərbaycan iqtisadiyyatlarının bir-biri ilə bağlanması ölkələrimizin əlaqələrini sıxlaşdıracaqdır. Mən bunu əlaqələrimizin siyasi, mənəvi cəhətinə gətirib çıxarıram. Bunlar haqqında da düşünməliyik.

İqtisadçı iqtisadçıdır, iş adamı iş adamıdır. Amma iş adamı vətənsiz ola bilməz. Heç bir iqtisadçı öz millətinə biganə ola bilməz. Heç bir iqtisadçı düşünməməlidir ki "pul mənim üçün hər şeydən üstündür" Bəs Vətən, torpaq, millət, mənəviyyat. Bunları hamısı haqqında düşünmək lazımdır.

Azərbaycanda indi böyük iqtisadi islahatlar prosesi gedir. Respublikamızda iş görmək üçün geniş imkanlar yaranır. Bunun üçün biz bir sıra qanunlar qəbul etmişik və edəcəyik, İqtisadiyyatın, idxalın, ixracın sərbəstləşdirilməsi üçün lazımi qanunlar qəbul olunur və bunda sonra da qəbul ediləcəkdir. İqtisadiyyatda Azərbaycanın gələcək yolu müstəqil bazar iqtisadiyyatıdır, azad sahibkarlıqdır, sahibkarlığa geniş imkanlar verilmişdir. Bax, bu yol bizim üçün əbədidir. Xahiş edirəm Türkiyədən olan həmkarlarımız, bizimlə müştərək iş görən adamlar narahat olmasınlar ki, başqa bir yol da ola bilər. Olmayacaqdır!

Xarici investisiya üçün Azərbaycan açıqdır. Kim bu gün tez gəlib Azərbaycana sərmayə qoysa, o beş-on ildən sonra udmuş olacaqdır. Mən bunu sizə açıq deyirəm. Azərbaycan daim belə vəziyyətdə qalmayacaqdır. Bir az uzaqgörən olmaq lazımdır. Gərək iqtisadçılar da, iş adamları da uzaqgörən olsunlar. Azərbaycanın qapıları açıqdır və müştərək iş görülməsi üçün biz çox imkanlar verəcəyik.

Hesab edirəm ki, bu konfransın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, iş adamlarımız, istehsalla, iqtisadiyyatla məşğul olan adamlarımız Türkiyənin təcrübəsi ilə daha yaxından tanış olacaqlar. Şübhəsiz ki, Türkiyənin iqtisadiyyatında böyük nailiyyətlər var. Bu ölkə çox uğurlu iqtisadi inkişaf yolu keçib, yüksək iqtisadiyyata, zəngin iqtisadiyyata malikdir. Avropada əldə edilən nailiyyətlərin Türkiyədə tətbiq olunması çox məharətlə həyata keçirilir. Ona görə də Türkiyənin bütün bu təcrübəsindən istifadə etmək Azərbaycanın iqtisadçıları, iş adamları üçün, iqtisadi islahatları həyata keçirmək üçün çox gərəkli, əhəmiyyətlidir. Hesab edirəm ki, Türkiyədən gələn qonaqlarımız bu sahədə öz biliklərini, təcrübələrini ictimaiyyətimizə, konfrans iştirakçılarına çatdıracaqlar və bu barədə bizə öz köməklərini əsirgəməyəcəklər.

Mən hesab edirəm ki, bu konfrans ilk belə konfransdır, hər halda xatirimdə belədir. Bu konfrans Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişafına çox böyük təkan verəcəkdir. Bunlar hamısı da Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Mən sizi, konfrans iştirakçılarını bir daha salamlayıram. Konfransın işinə uğurlar arzulayıram. Türkiyəli qonaqlarımıza bir daha "xoş gəlmisiniz" deyirəm. Ümidvaram ki, burada onların işləri səmərəli olacaqdır. Ümidvaram ki, bu konfrans yeni iqtisadi əlaqələr qurulmasına kömək edəcək və iqtisadi əlaqələr qurulmasına kömək edəcək və iqtisadi əlaqələr də əməli işə çevriləcəkdir. Sağ olun.

"Şahdəniz" yatağının birgə işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində Prezident Heydər Əliyevin çıxışı

"Gülüstan" Sarayı
4 iyun 1996-cı il

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün, 1996-cı il iyunun 4-ü Azərbaycan Respublikasının həyatında neft və qaz istehsalına, neft və qaz sənayesinə həsr olunmuşdur. Azərbaycanda, Bakıda biz bu gün səhər böyük beynəlxalq neft-qaz sərgisi açdıq. Ardıcıl olaraq, dalbadal üç ildir ki, Azərbaycanda belə böyük neft-qaz sərgisi təşkil olunur, açılır və bu sərginin iştirakçılarının sayı ilbəil artır, sərginin miqyası genişlənir.

Deyilənlərə görə, təxminən 1990-cı ildə Dövlət Neft Şirkəti tərəfindən Azərbaycanın qaz ilə təchizatını təmin etmək üçün "Şahdəniz" yatağında bir quyunun qazılmasına başlanmış, verilən məlumata görə, təxminən 2 min metr dərinliyə qədər qazılmış, ancaq vəsaitin, imkanların olmamasından bu iş davam etdirilməmiş və başlı-başına buraxılmışdır. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti "Şahdəniz" yatağının işlənməsi ilə əlaqədar Böyük Britaniya Krallığının "Britiş Petroleum" və Norveç "Statoyl" şirkətləri ilə müqavilə imzalamışdır. Bu müqavilədə həmin yatağın birgə işlənməsi üçün danışıqlar aparılması və yatağın işlənməyə hazırlanması barədə "Britiş Petroleum" və "Statoyl" şirkətlərinə xüsusi səlahiyyətlər verilmişdir. Bu iki şirkət alyans yaradaraq işə başlamış, sonra həmin alyansa Türkiyənin "Türk petrolları" şirkəti də qoşulmuş, onlar bu işləri öz imkanları çərçivəsində aparmışlar.

Bu müqavilə layihəsini hazırlayarkən, "Şahdəniz" yatağından əməli surətdə istifadə edilməsi üçün tədbirlər görərkən ARDNŞ "Britiş Petroleum", "Statoyl", "Türk petrolları" şirkətləri ilə bərabər, dünyanın başqa neft şirkətlərinin də bu neft yatağının işlənməsinə cəlb edilməsi haqqında təkliflər irəli sürmüş və bu təklifin həyata keçirilməsinə nail olmuşdur. Beləliklə, bu neft-qaz yatağının işlənməsinə Rusiya Federasiyasının "Lukoyl", Fransanın "Elf akiten" şirkətləri və İran İslam Respublikasının neft şirkəti də qoşulmuşdur. Hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Türkiyənin "Türk petrolları", Rusiyanın "Lukoyl", Fransanın "Elv akiten" şirkətləri və İranın neft şirkəti arasında müştərək iş görmək barədə müqavilədir.

Mən qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyətinin "Türk petrolları" şirkəti neft-qaz sənayesi sahəsində bizimlə sıx əməkdaşlıq edir. Onlar "Şahdəniz" yatağı barədə müqavilənin işlənib hazırlanmasında "Britiş Petroleum" və "Statoyl" şirkətləri ilə birgə bir neçə ildir ki, məşğuldurlar. Məhz bunların nəticəsində "Türk petrolları" şirkəti indi imzalanan müqavilənin fəal iştirakçısıdır. Türkiyədən bizə daim yüksək səviyyəli nümayəndələr gəlir. Hörmətli səfir bu gün bildirdi ki, Türkiyənin daxili vəziyyəti ilə əlaqədar Enerji naziri bu gün buraya gələ bilməyibdir. Ancaq biz onu da burada hesab edirik. Biz Türkiyəni həmişə öz yanımızda hiss edirik. Bu gün mən Türkiyə Cümhuriyyətinin və onun "Türk petrolları" şirkətinin müqavilədə iştirak etməsini xüsusi qeyd edirəm. Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş nümayəndə heyətini, "Türk petrolları" şirkətinin prezidenti cənab Sidqi Səncəri və Türkiyədən gəlmiş qonaqlarımızın hamısını salamlayıram.

Türkiyənin İqdır vilayətinin nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

Prezident Sarayı
21 iyun 1996-cı il

İqdır Azərbaycan üçün çox mühüm bir vilayətdir. Şəxsən mən İqdır haqqında hələ qırx-əlli il bundan əvvəl kitablar oxumuş və oranı görmək arzusunda olmuşam. Orada olduğum günlərdən də çox məmnunam. Türkiyənin bir hissəsi kimi İqdırla Azərbaycan həmişə bağlıdır və şəxsən mən də bağlıyam. Bu baxımdan buraya gəlməyinizi bəyənir və sizinlə görüşməyi lazımlı hesab edirəm.

...Bir də qeyd edirəm, İqdır Azərbaycan üçün Türkiyənin ən önəmli, ən əziz bir yeridir. Türkiyə Cümhuriyyətinin hər yeri bizim üçün əzizdir. **Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün Türkiyə Cümhuriyyəti ən yaxın dost, qardaş ölkədir. Bu dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi, dərin kökləri var. Biz bu barədə dəfələrlə danışmışıq. İndi, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra onun ən sıx, ən yaxın əlaqəsi Türkiyə ilədir. Yenə deyirəm, Türkiyənin hər bir nöqtəsi, hər bir qəzası, şəhəri Azərbaycan üçün əzizdir.**

Biz Azərbaycanda uzun illər - 70 il Türkiyənin həsrəti ilə yaşamışıq ki, oranı görək, ziyarət edək. Bu baxımdan İqdırın xüsusi əhəmiyyətini ona görə vurğulayıram ki, İqdır Türkiyəni Azərbaycana bağlayan, Azərbaycanla sərhəddə olan ferdir. Türkiyə - Azərbaycan sərhədi Azərbaycanın Naxçıvan hissəsi, Türkiyənin də İqdır hissəsidir. Ona görə də burada həmin əlaqələr keçmişdə də daha yaxın olubdur.

Bilirsiniz ki, keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxıd sizin İqdırın qarşısındakı Vedibasar, Zən-

gibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınız əksəriyyəti ordandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün hardandır, hər on nəfərdən dördü-beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır.

(Müzəffər Gəncə bildirdi ki, mən gəncəliyəm, babam oradandır). Necə olub ki, sən Gəncədən İqdıra gedib çıxmısan? Çünki o məntəqə, o bölgə azərbaycanlılar üçün, - Türkiyədə azərilər deyirsiniz, - azərilər üçün həmişə bir məskən olubdur. Bunların tarixi kökləri var. İqdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərə əsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm.

Hələ 1940-cı illərdə, İkinci dünya müharibəsi zamanı, Sovetlər İttifaqı alman faşizmi ilə müharibə edəndə, - tarix tarixdir, - Türkiyə Almaniyanın tərəfində idi, amma müharibə etmirdi. Hitler faşizminin qoşunları 1942-ci ildə Qafqaz dağlarına gəlib çatmışdı, Bakını işğal etmək istəyirdilər. Əgər onlar Bakını işğal edə bilsəydilər, bəlkə də alman faşizmi Sovetlər İttifaqına qalib gələrdi. Çünki o vaxtlar Bakı nefti bütün Sovetlər İttifaqının ordusunu saxlayırdı. Biz burada yaşayırdıq və biz də təhlükədəydik ki, Türkiyə Almaniya ilə müttəfiqdir. Məlumatlar gəlirdi ki, ola bilər Türkiyə Qafqazı işğal etmək üçün bu tərəfdən hücum etsin. Amma Türkiyədə ağıllı adamlar çox oldu: Almaniya ilə müttəfiq oldular, ancaq onunla birlikdə ikinci dünya savaşına qoşulmadılar və Qafqaza girmədilər. Girsəydilər, çox böyük bəla olardı.

Bunu ona görə xatırlayıram ki, mən o vaxtlardan bütün İqdırın xəritəsini bilirəm. O vaxt bu bölgələr bizi çox maraqlandırır. Eyni zamanda onlara bizdə həmişə bir sevgi, məhəbbət vardı.

70-ci illərdə mən Azərbaycana rəhbərlik edərkən Türkiyə ilə əlaqələr qurmağa çalışırdım. Ancaq Sovetlər Birliyi bizi sıxırdı, müstəqil hərəkət etməyə imkanımız yox idi. Amma 1992-ci ildə açdığımız "Həsrət körpüsü"nün, "Ümid körpüsü"nün əsasını mən o vaxt qoydum. Sonra Moskvada Sovetlər İttifaqının başçılarından biri olarkən həmin qərarın həyata keçirilməsinə şərait yaratdım, onu təmin etdim.

Amma Sovetlər İttifaqının rəhbərləri də, ermənilər də, başqaları da bunu istəmirdilər. Deyirdilər, Sovetlər İttifaqı böyük bir ölkədir, bir tərəfdən Gürcüstandan, o biri tərəfdən Ermənistandan Türkiyəyə yollar var. Belə bir körpü nəyə lazımdır, ona nə üçün xərc qoyulsun? Belə iqtisadi məsələlər ortaya atdılar. Amma mən buna nail oldum və Allah elə buyurdu ki, Moskva ilə vidalaşdım, gəldim Bakıya, sonra da gəldim Naxçıvana və həmin körpünün tikilməsi ilə şəxsən özüm məşğul oldum.

Siz o vaxtlar İqdırda oturmuşdunuz, bilmirdiniz ki, həmin işləri biz necə görürdük. Ancaq mən həftədə üç dəfə Arazın kənarına gəlirdim. Adamları çayın o tərəfinə, bu tərəfinə göndərirdik ki, körpünü tikək. Tikinti ləngiyirdi. Biz orada müvəqqəti körpü düzəltdik, xatirinizdədirmi, dəmir körpü idi. Körpü Arazın o tayında tikilirdi, bu işi Türkiyə öz üzərinə götürmüşdü. Bizim maddi imkanımız yox idi. Çayın bu sahili ilə əlaqə lazım idi ki, inşaatçılar gedib-gələ bilsinlər. Biz bunu yaratdıq. Mən həmin müvəqqəti körpünü açdım. Ola bilər, siz o vaxt İqdırda deyildiniz. Orda idiniz, hə? O vaxt hələ Sovet hökuməti, rus əsgərləri vardı. Mən elan etdim ki, sabah saat 10-da körpünün açılışı olacaq. Naxçıvandan oraya iyirmi minədək adam gəldi, mitinq keçirdik. Amma sizin tərəfdən adamlar gəlməmişdi, qorxmuşdular. Orada sizin sərhədçilər toplaşmışdılar, sərhədi qorumağa çalışırdılar. Bizim tərəfdən sərhədi qoruyanlar rus əsgərləri idilər. Orada bir polkovnik vardı, mənə tabe deyildi, amma şəxsiyyətimə hörmət edirdi. Mənə bildirdi ki, bunu etmək olmaz. Dedim ki, sən çəkil. Əsgərləri gətirdi ki, bizim adamların qarşısını kəssinlər. Dedim, yox, əsgərləri götür, yoxsa bu insanlar onları əzəcəklər. Ara qızışdı, bu proses bir-iki saat çəkdi.

Mən elan etdim ki, biz özümüz sərhədi açırıq, Dəmirdən, taxtadan düzəldilmiş körpü çox kiçik idi. Onu açan kimi insanlar körpüyə doluşdular. Sizin tərəfdən sərhədçilər gəlib körpünün ortasında dayandılar ki, buraxmırıq, qayıtsınlar. İnsanlar da həsrətlə o tərəfə keçmək istəyirdilər. Çünki Naxçıvanda Türkiyəyə, Türkiyə torpağına insanlarda o qədər məhəbbət, sevgi var ki, keçib oranı görmək istəyirdilər. Əslində orada, Arazın kənarında nə var ki, - heç nə yoxdur. Oradan aralığa getmək üçün təxminən 40 kilometr, buradan da İqdıra getmək üçün 30 kilometr yol keçmək lazımdır. Amma insanlar bunu təsəvvür etmirdilər, elə bilirdilər ki, Arazın o tərəfinə keçdilər - elə Türkiyədir, Türkiyənin hər yerini görəcəklər.

Xatirimdədir, "Zaman" qəzetinin başqanı İham bəy İşbilən mənim yanımda idi. Gördüm, körpüyə o qədər adam yığılıb ki, körpü uçacaq, insanlar da hamısı Araza töküləcəklər. Sizin adamlar buraxmırdılar. Mən onlara bir az qışqırdım, geriyə çəkildilər və körpü açıldı. Təxminən on min adam Türkiyə torpağına keçdi. Keçənlərdə orada dayanmır, qaçırdılar ki, mümkün qədər çox getsinlər. Bax burada, mənim yanımda olan bəylər indi generaldır, mənim mühafizəçilərimin başçısıdır. O, sonra mənə danışdı ki, getdim oradan torbaya yığıb torpaq gətirdim, Türkiyə torpağı. Bunu təsəvvür edirsinizmi?

Sonra mənə Moskvadan ittihamlar gəldi ki, - o vaxt hələ Mosk-

va hakim idi, - Heydər Əliyev orada qanunsuz iş görüb, filan ediblər. Bunu qəzetlərə verdilər, televiziyada göstərdilər. Rus polkovniki də gəlib mənə dedi ki, sizin insanların bir çoxu Türkiyəyə gedib, amma qayıtmayıblar. Hətta mənə dedilər ki, iki gənc orada su kanalına düşüb boğulmuşdur.

Belə bir faciədə olmuşdur.

Ondan sonra biz həmin körpünü işlətdik və nəhayət, böyük körpünü tikdik. Xatirimdədir, 1992-ci il mayın 28-də hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl bütün Türkiyəni yığıb gətirdi. Naxçıvanın tarixində belə bir şey olmamışdı. Bütün nazirlər, 80 nəfər millət vəkili, nə qədər başqa insanlar gəlmişdi. O vaxt Süleyman Dəmirəlin bütün yardımçıları orada idi. Ərdal İnönü də, Tansu Çillər, Hikmət Çətin, İsmət Sezgin də - hamısı orada idi, Naxçıvana gəldilər. Naxçıvandan o körpüyə qədər 75 kilometrdir. Türkiyədən gələn qonaqları qarşılamaq üçün bütün bu yolda insanlardan canlı divar çəkilmişdi. Bəlkə də 35-40 yerdə bizi saxlayaraq qurban kəsdilər. Amma o zaman Naxçıvanın vəziyyəti, yaşayışı çox ağır idi. Biz blokada şəraitində yaşayırdıq. Körpünü bax, belə açdıq.

Gəldilər İqdırı gördülər. Hamı gəlib İqdırı ziyarət etdiyini deyir, özünü xoşbəxt adam hesab edirdi. Ona görə də Türkiyənin bir məntəqəsi kimi İqdır və iqdırlılar Azərbaycan üçün çox əzizdir.

İqdırlılar otuz il idi ki, istəyirdilər İqdır vilayət olsun, siz buna il deyirsiniz. Otuz il idi siz mübarizə aparırdınız, amma alınmırdı. Bunu da etdik. Yəni Baş nazir, hörmətli Süleyman Dəmirəl mərhum Turqut Özalla birlikdə belə bir qərar qəbul etdilər. İqdır da vilayət oldu. Bu, çox böyük işdir. Sizin üçün də böyük işdir. Amma bizim üçün, Azərbaycan üçün də böyük işdir. Siz Qarsa bağlı idiniz. Qars ilə İqdır arasında nə qədər məsafə var. İqdır vilayət olandan sonra daxili imkanları artır. Mən o vaxtlar həm hörmətli Süleyman Dəmirələ, həm də mərhum Turqut Özala deyirdi ki, İqdırın bu problemini həll edin, iqdırlılar bunu arzulayırlar, azərbaycanlılar - naxçıvanlılar da bunu istəyirlər. Bu, bizim üçün, Naxçıvan üçün də lazım idi. Səbəblərini bilirsiniz.

Ona görə də İqdır bizim üçün əzizdir. Mən də İqdırı əziz bir yer sayıram. Mən keçmişdə, Sovetlər İttifaqı zamanı Türkiyədə olmuşdum. Təyyarə ilə gedib-gəlmişdim. Amma Naxçıvanda olarkən Türkiyəyə ilk səfərim İqdırdan başlamışdı. Xatirimdədir, iqdırlılar məni necə qarşılayırdılar. Məni bir kilometr əlləri üstündə apardılar. Bələdiyyə idarəsinin qarşısında çıxış da etmişdim.

Bunlar hamısı təbiidir, çünki biz bir millətik, bir xalqıq. Biri Arazın otayında, biri bu tayındadır. Hamımız birik, köklərimiz də birdir. Ona görə mənim İqdıra da, iqdırlılara da xüsusi münasibətim var.

İqdır Naxçıvan üçün, Azərbaycan üçün dayaqdır. Bilirsiniz ki, Ermənistan səkkiz ildir ki, Azərbaycana qarşı təcavüz edibdir, topaqlarımızı işğal edibdir. Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşübdür. Bu da ədalətsizlikdir, çünki Naxçıvanla Azərbaycanın qalan hissəsi arasında olan Mehri rayonu ki var, o da Azərbaycanındır. Amma Azərbaycana düşmənçilik edən adamlar 20-ci illərdə o yerləri Ermənistana verərək Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırıblar. Ermənistana da bu lazım idi ki, İranla sərhədi olsun. Bunu o vaxt Moskvada oturanlar, Ermənistana kömək göstərənlər ediblər, ədalətsizlik ediblər. Ancaq bu, olub.

Naxçıvan Azərbaycanı Türkiyəyə bağlayan ərazidir. Bu tərəfdən Naxçıvan, o tərəfdən də İqdır - hər ikisinin böyük əhəmiyyəti var. Naxçıvanın qorunması, Ermənistanın təcavüzündən müdafiə edilməsi üçün İqdırın çox böyük əhəmiyyəti var. İqdırla Naxçıvan arasında bilavasitə əlaqələr çox sıx olmalıdır. Mən Naxçıvanda olanda da bunu etməyə çalışmışam, indi də Naxçıvanın rəhbərlərinə daim tövsiyyə edirəm ki, bunu etmək lazımdır.

İqdırlılar, Türkiyədə olan qardaşlarımız və xüsusən azərilər Azərbaycanda gedən proseslərdə, milli müstəqillik, dövlət müstəqilliyi əldə etmək üçün mübarizəmizdə bizə mənəvi dayaq olublar, mətbuatda çox işlər görüblər, mitinqlər keçiriblər. Bunlar hamısı qiymətlidir. Bu belə də olmalıdır. Türkiyə gərək indi də Azərbaycanın dərdi ilə yaşasın. Çünki Türkiyə böyük gücü olan dövlətdir. Azərbaycan isə gənc müstəqil bir dövlətdir, müstəqilliyini yenicə əldə edib, ancaq torpağının 20 faizi işğal olunub, bir milyon əhalisi qaçqın vəziyyətindədir. Bunları unutmaq lazım deyil.

Bir vaxtlar Sovetlər İttifaqı ilə Türkiyə arasında münasibətlər çox soyuq idi, gedib-gəlmək imkanımız yox idi, xüsusən mən burada, Azərbaycanda işləyən zaman, Azərbaycandan tutaq ki, Amerikaya yaxud Almaniyaya, Avropanın hər hansı ölkəsinə bir nümayəndə heyəti gedirdisə, bunun problemi yox idi. Amma Türkiyəyə getməyə Moskvada maneçilik edirdilər. Çünki heç vaxt istəmirdilər ki, Azərbaycan Türkiyə ilə yaxınlaşsın. Ermənilər də həmişə Moskvaya məlumat verir, çalışırdılar ki, Türkiyə ilə Azərbaycanın yaxınlaşmasına imkan olmasın.

İndi bunlar aradan götürülüb, biz müstəqil dövlətik. Sərhədlərimiz, yolumuz açıqdır, gedib-gəlirik. Ancaq bu o demək deyil ki, bütün problemlər həll olunub. Yox, olunmayıb. Azərbaycan üçün həll olunmayıb. Türkiyə üçün də həll edilməyibdir. Bunu bilməlisiniz. İndi Ermənistan hərbi ittifaqlar, birliklər yaradır. Siz eşitdiniz ki, bu yaxınlarda Ermənistanın Yunanıstanla strateci saziş bağışlayıbdır. Eyni saziş bir il bundan öncə Rusiya ilə də bağlanıbdır. Kimə qarşı, kimin əleyhinə? Yunanıstan

sizinlə keçmişdə də savaşda olubdur, Ermənistan da savaşda olubdur. İndi Ermənistan həm Yunanıstanla, həm də Suriya ilə, həm də Rusiya ilə strateci saziş bağlayır. Bunları görməmək olmaz.

Siz Ermənistanla da sərhəddəsiniz. Mən eşidirəm ki, İqdırda bəziləri çox tələş edirlər ki, oradan Ermənistana qapı açmaq lazımdır. Neyləyirsiniz o qapını? Hörmətli Məsud Yılmaz buraya gələrək dedi ki, bəzi iqdırlılar bu qapını açmaq istəyirdilər. Mən buna etiraz etdim. Süleyman bəyə də dedim. O qapı nəyə lazımdır? Onsuzda PKK-nı dəstəkləyənlərin hamısı sərhədin o tayında oturub. Bilirsinizmi o sərhədlə Ermənistandan sizə nə qədər casus göndərirlər, PKK-nı dəstəkləyirlər? Bunları bilirsiniz. İndi qapı da açırsınız ki, oların işlərini daha asanlaşdırasınız? Siz qapını açanda tacir-tüccar gedib birşey satacaq, bir şey alacaqdır. Amma dövlətinizə, millətinizə nə qədər zərbə vurulacaqdır. Bunları düşünmək lazımdır. Böyük siyasəti kiçik hissələrə, xırda mənfəətlərə bağlamaq olmaz. Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin. Mən bunları sizə dost, qardaş olaraq, bir də bu işləri yaxşı bildiyimə görə deyirəm.

Bir məsələni də deyim. O vaxtlar ki, Sovet İttifaqında kommunist rejimi var idi. Azərbaycan Sovetlər Birliyinin tərkibində idi, Türkiyə ilə əlaqə yox idi, orada Azərbaycan kültür dərnəyi vardı. Bu, o vaxtlar - 20-30-cu illərdə Azərbaycandan mühacirət etmi və qəlbləri Azərbaycanladöyünən azərilər tərəfindən yaradılmış kültür dərnəyidir və onun da böyük xidmətləri olmuşdur. O, mərhum Məmməd Əmin Rəsulzadənin vaxtında yaradılmış və ondan sonra da davam etdirilmişdi. Bu dərnəyə girən adamların bir qismi də İqdırdan olmuşdur, bu da sizə məlumdur. Onların xidmətləri məlumdur və tarixdə qiymətini alıbdır.

Amma indi Azərbaycan müstəqil dövlətdir. Türkiyə ilə də bütün əlaqələri var. İndi Türkiyədə Azərbaycana aid olan hər bir dərnək, yaxud təşkilat ölkələrimiz arasındakı əlaqələri daha da yaxınlaşdırmağa çalışmalıdır. Amma o dərnək kommunist recimi vaxtında Azərbaycanda olan hakimiyyətin əleyhinə getdiyi kimi, indi də müstəqil Azərbaycan dövlətinin əleyhinə gedir. Orada bir neçə adam oturub, bəziləri də İqdırdan olanlardır, bilirsiniz, mən heç onların adlarını çəkmək istəmirəm, çünki layiq görmürəm. Amma o dərnəyin tarixi xidmətlərinə hörmət etdiyimə görə, 1994-cü ilin fevralında hörmətli dostum, Prezident Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə rəmsi səfərə gələrkən dedim proqrama salsınlar ki, mən o dərnəyin üzvləri ilə görüşüm. Dərnəyin başçıları - bir neçə adam mənimlə görüşməkdən imtina etdilər. Dedim ki, heç mən də görüşmək istəmirəm. Orada yaşayan

azərbaycanlılar, yəni sağlam fikirli adamlar gəldilər. "Şeraton" otelində böyük bir salonda onlarla görüşdüm.

Dərnəyin nümayəndələri orada mənim əleyhimə məqalələr yazdılar, indi də yazırlar. Bunlar sizin adamlar iqdırlılardır. Nə istəyirlər, kimdir onlar, nə haqları var? Onlar Türkiyədə yaşayan azərilərin heç də hamısını təmsil etmirlər.

Yenə də deyirəm, o vaxt ki, burada kommunist recimi vardı, Türkiyə ilə Azərbaycan arasında əlaqələr yox idi, onda o dərnəyin fəaliyyətinin əhəmiyyəti var idi. Amma dərnək köhnə əhval-ruhiyyə ilə yaşayırsa, yaşaya bilməz. Əgər Azərbaycana xidmət etmək istəyirsə, o dərnək bilməlidir ki, indi Azərbaycan müstəqil dövlət olub, onun hökuməti var, bu dövlətlə, hökumətlə iş görmək lazımdır. Əgər orada oturub Azərbaycanın qanuni hökumətinin əleyhinə iş görürlərsə, demək, Azərbaycana düşmənçilik edirlər. Orada bülleten buraxırlar, - bizim səfir mənə göstərmişdi, - yazırlar ki, Azərbaycanda belə oldu, elə oldu. Bu nədir, bizə düşməndirlər, Azərbaycana düşmənçilik edirlər?

Mən burada Türkiyənin bütün mənafelərini təmin etmişəm. Türkiyə dövləti ilə, bütün Türkiyə ilə sıx qardaşlıq əlaqələrimiz var. Bu dərnək isə orada özlərinə bir "dövlət" yaradıb bizim buradakı müxalifətlə Azərbaycanın əleyhinə gedir. Belə şeylər yaramaz. Biz demokratiya tərəfdarıyıq və onu tətbiq etdik; konstitusiya qəbul etdik, çoxpartiyalılıq əsasında parlament seçkiləri keçirtdik. Hər şey var, sabitlikdir.

Düz üç il bundan öncə, iyun ayında mən Naxçıvandan buraya gəlmişəm. Mən gəlmək istəmirdim. Həmin o dərnəyin dəstəklədiyi adamlar, Xalq Cəbhəsi burada hakimiyyətdə bil il qala bilmədi. Vətəndaş müharibəsi başlandı, Bakıda qan töküldü. Hakimiyyətə gəldilər, mən də Naxçıvanda onlara səs verdim, yardım etdim. Amma hakimiyyəti əldə saxlaya bilmədilər. Vətəndaş müharibəsi qalxdı, Azərbaycanı parçalamağa başladılar. Bir tərəfdən həmin Xalq Cəbhəsinin liderlərindən olan Rəhim Qazıyev, digər tərəfdən Talış Cümhuriyyəti yaratmaq istəyən Əlikram Hümbətov, - o da Xalq Cəbhəsinin liderlərindən idi, - o biri tərəfdən İskəndər Həmidov, İsa Qəmbərov, Pənah Hüseynov, Əbülfəz Elçibəy Azərbaycanı parçaladılar.

Məcburiyyət qarşısında qaldılar, xalq məni dəvət etdi. Mənim dalımca Naxçıvana beş-altı gün təyyarələr gəldi. Dedim ki, gəlməyəcəyəm. Naxçıvanı qoruyacağam. Başqa şey istəmirəm. Ancaq özləri dəvət etdilər. Əbülfəz Elçibəy neçə dəfə mənə telefonla müraciət etdi ki, rica edirəm, gəlin. Buraya gəldim, ancaq işləmək üçün yox, sadəcə olara öz məsləhətlərimi vermək üçün. Amma mənə dedilər ki, gəl, parlamentin sədri ol. Dedim, olaram. Mənimlə bir həftə danışıqlar apardılar. Bir həftə razılıq vermədim. Sonra gördüm ki,

Azərbaycan dağılır, parlamentin sədri olmağa razılıq verdim. Ondan iki gün sonra Əbülfəz buradan qaçdı, üç ildir dağlarda yaşayır. Bilirsiniz, vəzifə tutmusansa, xalq səni seçibsə, sona qədər dayanmalısan - ya borcunu yerinə yetirməlisən, ya da həlak olmalısan. Qaçıb canını qurtarmaq qəhrəmanlıq deyil, buna fərarilik deyirlər - ordudan, səngərdən, döyüş meydanından qaçmaq deməkdir. Bu, qəhrəmanlıq deyil.

Mən üç il meydanda tək qaldım, bu üç ildə Azərbaycanda sabitlik yaratdım. İndi o kültür dərnəyi nə istəyir, - Azərbaycanda yenə qovğamı istəyir, qan tökülməsini, silahlı dəstələrimi istəyir? Burada məni üç dəfə devirmək istədilər, bacarmadılar. Bir dəfə Surət Hüseynov devirmək istədi, xalqı çağırdım. Siz televiziyada gördünüz, mənim bir çağırışımla nə qədər xalq yığışdı. Amma Əbülfəz Elçibəy xalqa müraciət etdi, xalq onu müdafiə etmədi, məni Naxçıvandan dəvət etdilər.

Mən bilirəm, siz kültür dərnəyi ilə əlaqədəsiniz, ona görə də sizə deyirəm - gedin onları başa salın. Buraxılmasını xahiş etdiyiniz şəxs də həmin dərnəyin adamıdır, onun göstərişi ilə burada Azərbaycanın əleyhinə materiallar toplamaq üçün gəlibdir. Bu adama görə yox, sizə, iqdırlılara hörmət edərək onu əfv edirəm. Amma bilirsinizmi onu necə tutublar? Pənah Hüseynovla birlikdə maşında tutublar. Üç il idi Pənah Hüseynov qaçıb gizlənirdi, bizim polis onu tut bilmirdi. Bu isə gedib onu haradan tapıbdır? Pənah Hüseynovla nə işi var - qəzetçidir, gəlsin öyrənsin ki, nə var nə yox, sonra gedib yazsın. Nə yazır yazsın. Pənah Hüseynovla - üç il axtarışda olan, gizlənən, cinayət etmiş adamla nə işi var? O biri - Arif Hacıyev Müsavat Partiyasındandır, bizə müxalifətdə olan adamdır, onunla nə işi var? Qəzetçi sərbəst adamdır, öz işi ilə məşğul olsun. O, həmin dərnəyin adamıdır. Gəlib Pənah Hüseynovla görüşməsi onu göstərir ki, dərnək Azərbaycanın əleyhinə iş aparır. Ancaq burada neçə-neçə silahlı dəstələr Azərbaycanın bugünkü hakimiyyətinə bir şey edə bilməyiblərsə, dərnəkdəki ağlını itirmiş bəzi adamlar heç nə edə bilməzlər.

Mən o adamı, birincisi, sizə görə, ikincisi İqdıra olan məhəbbətimə görə, üçüncüsü, qəzetçi olduğuna görə, - qəzetçilərə mənim hörmətim var, - günahı da varsa, bağışlayıram. İndi əmr verəcəyəm, bu gün azad etsinlər, götürüb aparın. Ancaq mənim bu sözlərimi, birincisi, özünüz yadda saxlayın, ikincisi, o dərnəyi yığın, başa salın - onların nə bu günü, nə də gələcəyi var. Müstəqil Azərbaycanın və onun prezidenti Heydər Əliyevin Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün böyük gələcəyi var. Bunu unutmasınlar. Əgər onlar Azərbaycanı sevirlərsə, xalq tərəfindən seçilmiş hakimiyyətlə əməkdaşlıq etsinlər. Yoxsa, nə ilə razıdırlar, nə ilə yox - kimdir onlar? Kültür

dərnəyi olub Azərbaycana nə xidmət ediblər? Heç bir şey. Burada, Azərbaycanda canlarından keçib, ölkəni bu günə çatdıran adamlar var. Bakını görürsünüz, onu yaradanlar var. İqdır gözəl yerdir. Ancaq mən gedib oranı görəndə dedim ki, əcəba, nə üçün İqdır belə kasıbdır? Acığınız gəlməsin, mən həqiqəti deyirəm. Naxçıvana da baxın, İqdıra da baxın. Naxçıvan Sovet hakimiyyəti şəraitində olub, İqdır yox. Biz Naxçıvanda nə qədər qurub-yaratdıq, zavodlar, fabriklər saraylar tikdik, iş yerləri açdıq. İqdırda nə var? İndi vilayət olub, güman edirəm, orada da dəyişikliklər olacaqdır.

Bu sözləri sizə ona görə deyirəm ki, Türkiyə ilə Azərbaycanın dostluğunun möhkəmlənməsini, orada yaşayan azərilərin daha yaxşı mövqe tutmalarını, ökələrimiz arasında körpünü daha da qüvvətləndirmələrini və Azərbaycanın bu günü, gələcəyi üçün hər bir adamın çalışmasını istəyirəm.

Gəlib burada Azərbaycanın daxilini qarışdırmaq lazım deyildir.

İqdırda bələdiyyə başqanı var idi - Əli bəy, yaxşı bir insan, mənim yaxın dostumdur. O vaxtlar mən İqdıra gedib-gələndə bələdiyyə başqanı idi. Seçki sizin daxili işinizdir, bir müddət biri olur, sonra başqası. Heç kəs daimi deyildir. Ancaq mənim ona hörmətim var, siz də ona hörmət edin və əməkdaşlıq edin. Mən dostluqda etibarlı adamam.

Almaniyadakı Azərbaycan Cəmiyyətlərinin sədrləri və Azərbaycan Cəmiyyətləri Federasiyasının nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

Bonn. 1 iyul 1996-cı il

Mən bu gün sizinlə görüşümdən çox məmnunam. Bilirsiniz ki, mən Almaniyaya iki saat bundan əvvəl gəlmişəm Bu, mənim Almaniyada ilk görüşümdür. Burada soydaşlarımızla, həmvətənlərimizlə, Almaniyada, Mərkəzi Avropada yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşürəm. Məmnunam ki, siz ayrı-ayrı cəmiyyətləri bir-birinə yaxınlaşdırmış, bilşədirmisiniz və bu gün burada bəyan etdiyiniz federasiya artıq təşkil olunub. Hesab edirəm ki, bu çox əlamətdar bir hadisədir, sizin çox mühüm nailiyyətlərinizdir. Mən bu münasibətlə sizi təbrik edirəm.

Bilirsiniz ki, biz Azərbaycan Respublikasının müstəqilliyinin beşinci ilini yaşayırıq. İlin sonunda dövlətimizin müstəqilliyinin beş ili tamam olacaqdır. Ancaq bu beş il ağır, çətin olmuşdur. Bu gün bizim bir daha görüşümüz olacaq, mən bu barədə orada geniş danışacağam. Ona görə də indi bu mövzuya geniş yer vermək istəmirəm. Sadəcə demək istəyirəm ki, çox çətin, ağır illər idi. Ancaq nailiyyətlərimiz mövcuddur. Bu da ondan ibarətdir ki, biz Azərbaycanın dövlət müstəqilliyini qoru-

yub saxlamışıq. Azərbaycan ölkəsi, respublikası müstəqil dövlət kimi günü-gündən möhkəmlənir. Bu da bizi əmin edir ki, Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir və biz bundan sonra da müstəqillik yolu ilə gedəcəyik.

Problemlərimiz çoxdur, mən bu barədə sizə məlumat verəcəyəm. Ancaq nailiyyətimiz budur və bu da ən böyük nailiyyətdir. Xalqımızın çoxəsrlik tarixində XX əsrin sonunda Azərbaycanda müstəqil dövlət qurulub ki, bu da böyük nailiyyətdir. Eyni zamanda biz Azərbaycanda vətəndaşlarımızı müstəqillik yolu ilə apararkən respublikamızın hüdudlarından kənarda yaşayan soydaşlarımız haqqında da düşünürük. Bu, bizim borcumuz, vəzifəmizdir. Çünki Azərbaycan indi təkcə respublikamızda yaşayan azərbaycanlılardan ibarət deyil. Azərbaycanlılar dünyanın bir çox ölkələrində, o cümlədən Avropada, Almaniyada da yaşayırlar. Dünyanın hər bir ölkəsində, hər bir şəhərində, guşəsində, kəndində yaşayan soydaşımız müstəqil dövlətimiz üçün, Azərbaycanın Prezidenti kimi mənim üçün əziz vətəndaşımız, soydaşımız, həmvətənimizdir.

Mən bunu sizə həm Azərbaycanın dövlət siyasəti kimi bildirirəm, ikinci də bunu deyərkən ona əsaslanıram ki, harada yaşamasından asılı olmayaraq hər bir soydaşımız özünü azərbaycanlı hesab edərək, ölkəmizi heç vaxt unutmamalıdır, öz Vətənini, torpağını, millətini, dilini unutmamalıdır. Ona görə də Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımıza bizim tərəfimizdən bu prinsiplər əsasında doğma münasibət var.

Bilirsiniz ki, indiki Azərbaycan keçmiş Sovetlər İttifaqının tərkibində bir müttəfiq respublika idi. O vaxt da Azərbaycan yaşayırdı. 1918-ci ildə ilk demokratik Azərbaycan Cümhuriyyəti yarandı. Bu cümhuriyyət 23 aydan sonra süquta yetdi. Ondan sonra Azərbaycanda Sovet hakimiyyəti mövcud oldu. Azərbaycanda Sovet Sosialist Respublikası yarandı. Bu respublikada da iki il yaşayandan sonra çar Rusiyasının əvvəlki ərazisində yaranmış respublikaları birləşdirən Sovetlər İttifaqının tərkibinə daxil oldu. Biz bütün bu mərhələləri yaşadıq. Nəhayət, 1991-ci ildə gəlib çatdıq. Azərbaycan XX əsrin sonunda Sovetlər İttifaqının dağlıması ilə əlaqədar və dünyada gedən ictimai-siyasi hadisələrdən bəhrələnərək öz dövlət müstəqilliyini bəyan etdi və müstəqil dövlət qurmağa başladı.

Amma bu illərdə, Sovet dövlətinin tərkibində, sosialist quruluşunun içində yaşayan respublikamızda biz azərbaycanlılığımızı heç vaxt unutmadıq. Bizim dilimiz də, dinimiz də yaşayıb, elmimiz, təhsilimiz də inkişaf edib. Əgər bunlar olmasaydı, respublikamız 1991-ci ildə özünü müstəqil dövlət kimi bütün dünyaya bəyan edə bilməzdi.

Bu illərdə çox böyük nailiyyətlər əldə olunub. Sovetlər İttifaqı dağılan kimi, məhz bunun nəticəsində biz öz müstəqilliyimizi bəyan etdik və respublikamız beşinci ildir ki, müstəqil dövlət kimi yaşayır.

Ancaq əvvəlki illərdə Azərbaycanın hüquqlarından kənarda yaşayan soydaşlarımızla əlaqə saxlamağımız çox çətin idi, çox hallarda bu mümkün deyildi. Yalnız görkəmli bir şairimiz, yazıçımız, bəstəkarımız xarici ölkəyə səfər edərkən arayıb axtarırdı ki, görsün orada azərbaycanlılardan kim var, onunla görüşsün, danışsın. Bütün bunları da qorxa-qorxa edirdi.

Bu barədə çox danışmaq olar. Yadımdadır, bəllkə də 60-cı illər idi. Biz Türkiyə ilə çox maraqlanırdıq ki, oradakı soydaşlarımız necə yaşayırlar. Bilirdik ki, Türkiyədə vaxtilə Azərbaycandan mühacirət etmiş soydaşlarımız da yaşayırlar. Mərhum bəstəkarımız, görkəmli diricor, professor Niyazi çox böyük bir sənətkar idi. Bilirsiniz ki, o, dünya miqyasında məşhur bir insan idi. Yəni öz istedadına, yaratdığı əsərlərinə görə məşhur idi. Ona görə də onu Türkiyəyə dəvət etmişdilər ki, gedib oradakı Opera Teatrında tamaşalar hazırlasın. O, Türkiyəyə tez-tez gedib-gəlirdi və hər dəfə də mənimlə görüşürdü. Çünki o, mənimlə dost idi. Oturub saatlarla bu barədə söhbət edirdik. Soruşurdum ki, kimi gördün, onlar necə yaşayırlar? O, bütün bunlar haqqında mənə ətraflı danışırdı.

Mən bunları xatırlayaraq onu demək istəyirəm ki, o dövrdə də ürəyimiz Azərbaycandan xaricdə yaşayan soydaşlarımızla bir olub. Ancaq əlaqə saxlamaq imkanımız olmayıb. İndi isə Allaha şükürlər olsun ki, belə imkan yaranıb, var. Respublikamız müstəqil dövlətdir. Hər bir vətəndaşımız hansı ölkəyə getmək istəyirsə, oraya gedə bilər. Respublikamızın sərhədləri açıqdır. Hansı ölkədən kim istəyirsə, Azərbaycana qonaq gələ bilər. O cümlədən, respublikamızdan kənarda yaşayan soydaşlarımız gəlib, Azərbaycanı ziyarət edə bilərlər. İndi biz də hansı ölkəyə istəyiriksə, o ölkəyə gedirik, başqa işlərlə yanaşı , soydaşlarımız ilə görüşməyi özümüz üçün birinci dərəcəli vəzifə hesab edirik. Ona görə də mən bu gün buraya gəlmişəm. Sabah səhərdən mənim rəsmi səfərim başlanacaqdır. Almaniyanın dövlət, hökumət başçıları ilə g.rüşlərim, danışıqlarım olacaqdır. Ancaq mən bugünkü günü - respublikamızın buradakı səfirinə də bu barədə göstəriş vermişdim - yalnız və yalnız Avropada, Almaniyada yaşayan azərbaycanlılarla, onların nümayəndələri ilə görüşə həsr edirəm.

Mən bu görüşdən məmnun olduğumu bildirmək istəyirəm. Səfirin verdiyi məlumatdan da göründü ki, bir-iki saatdan sonra bizim yeni bir görüşümüz olacaq, orada siz də, başqa soydaşlarımız da olacaqdır. Orada mən sizi maraqlandıran məsələlər barədə geniş məlumat verəcəyəm. Mən istəyirəm ki, respublikamızın bugün-

kü vəziyyəti haqqında geniş məlumatlar alasınız və bütün bünları Azərbaycan Prezidentinin dilindən eşidəsiniz. Eyni zamanda, mən bunu ona görə etmək istəyirəm ki, siz Azərbaycanın bugünkü vəziyyətini daha yaxından öyrənərək, burada öz işlərinizi daha da yaxşı qura biləsiniz.

Bilirsimniz, xalqımıza birlik lazımdır. Vətəndə də, respublikamızdan kənarda da birlik lazımdır. Mən dedim ki, xalqım dünyanın bir çox ölkələrinə səpələniblər.

Burada çıxış edən dostlarımız dünya ölkələrində 50 milyon azərbaycanlının yaşamasından söhbət açdılar. Bəli, belədir, bu mənə də məlumdur. Həmin rəqəm bəlkə bundan da çoxdur. Amma hər halda, əgər dünyada 40 milyon azərbaycanlı yaşayırsa, onlar azərbaycanlı adı daşıyırlarsa, onlarda azərbaycanlı qəlbi, qanı varsa, bu, hamımızın fəxridir. Mən demirəm ki, bu 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu heç də lazım deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız bundan da yaxşı həm yaşaya, həm işləyə, həm də Vətənimiz, xalqımız üçün çox işlər görə bilərlər.

Ona görə də birlik adi heç bir şey deyil. Bəzən bu "birlik" sözünü o qədər işlədirlər ki, o, hörmətdən düşür. Çünki elə hər bir adam deyir ki, birlik olsun. Bilirsiniz, bir var ki, bu sualı ayrı-ayrı məqsədlər üçün desinlər, bir də var ki, bu, həyatımızın tələbindən doğan sözlər olsun. Mən Azərbaycanın prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza başçılıq edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.

Əlbəttə, bu, asan məsələ deyil. İnsanlar bir-birindən çox fərqlidir. Dünyada eyni xasiyyətə malik iki insan tapmaq çətindir. Hətta qardaş-qardaşla eyni xasiyyətdə deyil. Bəzən görürsən, əkiz qardaş, bacı da bir-biri ilə eyni xasiyyətdə deyil. Bu təbiidir. Biz təbiətə qarşı heç bir zor işlədə bilmərik. Təbiətin yaratdığı təbii qanunlar heç kəsin istəyindən, yaxud səyindən asılı olmayaraq işləyir. Amma bu təbii qanunlar içərisində də bir olmaq, daha da sıx olmaq, bir-birinə dayaq olmaq, əl uzatmaq üçün imkanlar çoxdur. Biz çalışmalıyıq ki, bu imkanlardan istifadə edək. Mən bu sözləri məhz sizin hüzurunuzda ona görə deyirəm ki, məlumat verdiniz ki, buradakı cəmiyyətlər birləşib bir federasiya yaratmışlar. Bu, çox gərəkli bir işdir.

Mən arzu edirəm ki, bu federasiyanız səmərəli işləsin, günügündən möhkəmlənsin və öz təsirini başqa ölkələrə də yaysın, göstərsin.

Biz də çalışacağıq ki, yaranmış belə federasiyalarla bilavasitə əlaqə saxlayaq və sizə əlimizdən gələn köməyi edək, Azərbaycan həqiqətini dünyaya sizinlə birlikdə bəyan edək.

Azərbaycanın müstəqilliyini yaratmaq, inkişaf etdirmək üçün həm respublikamızın daxilində, həm də ölkəmizdən xaricdə çox iş görmək lazımdır. Respublikanın daxilində görüləsi işlər bizim əlimizdədir. Düzdür, çətinliklər, problemlər də var. Amma xarici ölkələrdə görüləsi işlərin çoxu bizim əlimizdə deyil. Biz dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa çalışırıq və bu əlaqələr yaranmışdır. Artıq iki il yarımdır ki, mən Azərbaycanın Prezidentiyəm. Bu iki il yarım içərisində biz dünyanın nə qədər ölkələri ilə əlaqələr qurmuşuq. Dünyanın beynəlxalq təşkilatlarının nəinki adi üzvüyük, həm də bu təşkilatlarda fəaliyyət göstəririk, ölkəmiz orada təmsil olunur. Biz bu təşkilatların imkanlarından istifadə edirik.

Mən Almaniyaya rəsmi səfərə gəlmişəm. Ancaq mənim Fransaya da, İngiltərəyə də, Rumıniyaya da rəsmi səfərlərim olub. Mən Amerikada iki dəfə Birləşmiş Millətlər Təşkilatının toplantılarında iştirak etmişəm, hər dəfə də ABŞ Prezidenti cənab Bill Klintonla görüşmüşəm. Bu yaxınlarda Lüksemburqda oldum, Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzaladıq. Bu, böyük bir hadisədir. Yaxud Azərbaycan bir neçə gün bundan əvvəl Avropa Şurasına üzvlüyə namizəd, qonaq statusu ilə qəbul olundu. Bu, həddindən artıq böyük bir hadisədir. Bu o deməkdir ki, birincisi, Azərbaycan Avropa ölkəsi kimi qəbul edilir; ikincisi, Azərbaycanın bugünkü dövlət quruluşu və onun cəmiyyətinin vəziyyəti Avropa standartlarına uyğun və yaxud yaxın olduğuna görə ölkəmiz Avropa Şurasının üzvlüyünə namizəd kimi qəbul edilir. Bilirsiniz ki, Avropa Şurası Parlament Məclisinin Strasburq şəhərində keçirilən büro iclasında bu məsələni müzakirə etdilər və Azərbaycanı bu şuraya namizəd şəklində qəbul etdilər. Güman edirəm və tam əminəm ki, Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü olacaqdır.

Başqa faktlar da gətirə bilərəm. Məsələn, Çin kimi böyük bir ölkə ilə sıx əlaqələrimiz var. Mən orada rəsmi səfərdə olmuşam. Qonşularımız Türkiyə, İran ilə şübhəsiz ki, bizim dostluq əlaqələrimiz günügündən inkişaf edir. Mən Avropanın Rumıniya, Bolqarıstan kimi ölkələrində rəsmi səfərdə olmuşam. Bir çox ölkələrdə rəsmi səfərdə olmuşam. Bəzi ölkələr məni rəsmi səfərə dəvət ebiblər, hələ getməyə imkanım yoxdur. Norveç Avropanın böyük ölkələrindən biridir. Məni oraya da dəvət etmişdilər, orada rəsmi səfərdə olmuşam. Bu yaxınlarda mən Fransanın Prezidenti cənab Jak Şirakla telefonla danışdım, o məni öz ölkəsinə rəsmi səfərə dəvət etdi. Bu telefon danışığımızdan əvvəl o, Fransaya rəsmi səfər barədə mənə dəvət gön-

dərmişdi. Telefon danışığımız zamanı o, məni bir daha rəsmi səfərə dəvət etdi.

Ərəb ölkələri ilə bizim əlaqələrimiz çox sıxdır. Məsələn, mən Misirdə olmuşam və Prezident Hüsni Mübarək ilə bizim çox yaxın dostluq əlaqələrimiz var. İki il bundan əvvəl biz Mərakeşdə İslam Konfransı Təşkilatının toplantısında iştirak etdik. Mən orada nitq söylədim və ərəb, islam ölkələrinin başçıları ilə görüşlər keçirdim, danışıqlar apardım.

Bilirsiniz ki, qısa vaxtda görülən bütün bu işlər onu nümayiş etdirir ki, biz xarici ölkələrdə Azərbaycanın müstəqilliyini tanıtmaq, möhkəmləndirmək işini aparırıq və bundan sonra da aparacağıq. Amma yenə də deyirəm, xarici ölkələrdə görülən işlərin hamısı bizim ixtiyarımızda deyil.

Bilirsiniz, Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var. Bəli, dünyada elə qüvvələr var ki, Azərbaycanın müstəqil dövlət olmasını istəmirlər. Dünya da görür ki, səkkiz ildir Ermənistan Azərbaycana təcavüz edir. Azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal altında olan torpaqlarımızdan bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla çıxarılıbdır, əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır. Bu, dünyada nadir haldır.

Dünya statistikasının məlumatına görə yer üzündə iyirmi milyon qaçqın var. Bunun bir milyonu Azərbaycandadır. Yeddi milyon əhalisi olan ölkənin vətəndaşlarının bir milyonu qaçqın vəziyyətindədir. Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir, Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etmək ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır - bu, asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var. Bunların bir çoxu bizimlə də yaxşı əlaqədədir. Amma bunların Ermənistanla əlaqələri bizdən də yaxşıdır. Onların içərisində Ermənistanın dayağı o qədər böyükdür ki, dövlətlərarası əlaqələri bizimlə yaxşı olmasına baxmayaraq, onlar Ermənistana kömək edirlər. Buna görə də Ermənistanın təcavüzkarlığının qarşısını almaq çətindir. Burada Ermənistan lobbisinin Azərbaycana qarşı fəaliyyəti çox mühüm rol oynayır. Bu lobbi hər yerdə - Amerikada da, Fransada da, Almaniyada da, başqa ölkələrdə də var - hamısında var.

Aydındır ki, erməni lobbisi çox güclüdür. Amerikada onların gücü çox böyükdür, başqa ölkələrdə də çox böyükdür. Amma bu o demək deyil ki, hər şey lobbinin əlindədir, yox. Biz öz siyasətimizi aparırıq, siyasətimizi apararaq Azərbaycanın hüquqlarını dünyanın hər yerində tanıdacağıq və onların qəbul edilməsinə nail olacağıq. **Bax bunun üçün, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək üçün ölkəmizdən kənarda yaşayan soydaşlarımızın fəaliyyətindən də çox şey asılıdır.**

Mən ümidvaram ki, sizin yaratdığınız federasiya bu məqsədlərə xidmət edəcəkdir. respublikamızla birlikdə siz Azərbaycanın xaricdə olan problemlərinin həll edilməsində yaxından iştirak edəcəksiniz. Biz sizinlə əlaqə saxlayırıq və bu əlaqələri daha da sıxlaşdırmaq istəyirik. Biz sizinlə bir olmaq istəyirik. Bizi, respublikamızın vətəndaşlarını, bir Prezident kimi şəxsən məni ölkəmizdən kənarda yaşayan hər bir azərbaycanlı, onun həyatı, vəziyyəti maraqlandırır. Mən hər bir azərbaycanlı haqqında düşünürəm. Mən istəyirəm ki, Almaniyada yaşayan hər bir azərbaycanlı da həm yaxşı yaşasın, həm də hörmətli adam olsun, dövlətlə yer tutsun. Mən bunu istəyirəm. Çünki bu nə qədər çox olsa, azərbaycanlının dünya millətləri içərisində elm, bilik, zəka səviyyəsinin bir o qədər yüksək olduğunu göstərəcəkdir.

Şəxsən mən azərbaycanlının ayrı-ayrı ölkələrdə yaşamasını təbii və lüzumlu hesab edirəm. Hamımız bir yerə yığışsaq nə olacaq? Lazımdır ki, Amerikada da, Fransada da, İngiltərədə də, Belçikada da, Hollandiyada da - hər yerdə azərbaycanlılar olsun. Amma azərbaycanlı sadə bir vətəndaş kimi yox, elə olsun ki, onun şəxsində Azərbaycan səslənsin, ölkəmizin bayrağı qalxsın, xalqımızın milli mədəniyyəti, dili, ədəbiyyatı, incəsənəti səslənsin.

Ona görə də şəxsən mən belə hesab edirəm ki, Almaniya da nə qədər çox azərbaycanlı yaşayırsa, bu çox yaxşıdır. Bundan sonra bundan da çox yaşayacaqsa, bu çox gözəl olacaq. Ümumiyyətlə, azərbaycanlılar say artımına görə Avropa millətlərindən üstündürlər. Mən bilmirəm, Almaniyada vəziyyət necədir. Azərbaycanda əhalinin artımı başqa ölkələrə nisbətən yüksəkdir. Son vaxtlar vəziyyətin ağır olmasına görə bu artım bir qədər azalıbdır. Amma nə qədər çox artsa, bir o qədər yaxşı olar.

Almaniyada nə qədər azərbaycanlı yaşayır? Yüz əlli min. Nə qədər türk yaşayır? İki milyon. Bilirsiniz, bir millətik, hamımız bir kökdənik. Ona görə də gərək azərbaycanlılar da türkiyəlilər də bir-birinə dayaq olsun, əl-ələ versinlər. Dünyada bizim üçün, yəni azərbaycanlılar üçün ən birinci dayaq türklərdir. Yenə də deyirəm, biz hamımız bir kökdənik.

Federasiyanızın buradakı nümayəndələrindən bir dedi ki, İqdırdandır. Bu yaxınlarda İqdırın bələdiyyə başqanı və digər nümayəndələri respublikamıza gəlmişdilər. Mən onlarla görüşüb söhbət etdim. İqdır Türkiyənin çox gözəl bir guşəsidir. İqdırdan olan adamları mən Almaniyada da, İngiltərədə də, Amerikada da, Belçikada da, Fransada da, hər yerdə görmüşəm. Amma İqdır kiçik bir yerdir, o qədər də böyük deyil. İqdır iki il bundan əvvəl vilayət olub. İqdırlılar otuz il idi ki, vilayət hüqu-

qu almağa çalışırdılar. Vaxtilə mən Naxçıvanda yaşayarkən bu barədə öz fikrimi Türkiyənin Prezdenti mərhum Turqut Özala da, əziz dostum, indiki Prezident Süleyman Dəmirələdə də deyirdim ki, İqdırın vilayət olması məsələsini həll etmək olar və onlar da həll etdilər. İqdırın vilayət olması ilə əlaqədar keçirilən mərasimdə o vaxt mən də iştirak etdim. Nəinki iştirak, orada nitq söylədim. Oraya hörmətli Süleyman Dəmirəl, bir çox nazirlər də gəlmişdilər.

Yenə də deyirəm, türklər də, azərbaycanlılar da birdirlər. İqdırda da, İstanbulda da, digər yerdərdə də yaşayan türklər bizim üçün əzizdirlər.

Siz bir məsələni də bilməlisiniz ki, Azərbaycanda son illər bəzi adamlar deyirlər ki, biz türkük, dilimiz də türk dilidir. Biz bir kökdənik, amma bu bir kökdən neçə budaq gedib. Anadoluda yaşayanlar da, Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Dağıstanda da, Qırğızıstanda da yaşayanlar türklərdir. Çində yaşayan uyğurlar da türklərdir. Amma onlar bir kökün hərəsi bir şaxəsidir. O şaxəni itirmək lazım deyil. Necə deyərlər, onların hamısını bir rəngdə rəngləmək lazım deyil. Yenə də deyirəm ki, kök birdir. Respublikamızda demişik, biz azərbaycanlıyıq.

Biz yeni konstitusiya qəbul etdik. Orada yazıldı ki, biz azərbaycanlıyıq, dövlət dilimiz Azərbaycan dilidir. Azərbaycan dili türk dilləri qrupuna məxsus olan bir dildir. Türk dilləri qrupunun bir qolu Anadolu türklərinin, bir qolu azərbaycanlıların dilidir, biri özbəklərin, biri qırğızların, biri qazaxların və başqalarının dilidir. Ona görə də bu ümumi kökləri həmişə qorumaq lazımdır. Çünki kökümüz, dilimiz, dinimiz milli adət-ənənələrimiz bizi bir-birimizə bağlayır və bağlamalıdır. Bunun əsasında da biz bir olmalıyıq. Amma eyni zamanda, bir dili başqasının içərisində əritmək lazım deyil.

Dünyada bir kökdən olan nə qədər millətlər var. Bu, öz rəngarəngliyini nə qədər göstərsə, o qədər də güclü olacaq. Amma bir dil başqa dilin içərisində əritsən, necə deyərlər, horra çıxacaq. Horradan da bir şey çıxmaz.

Dediniz ki, burada iki miylon türk var. Bir-birinizə dayaq olun, mən bu gün Almaniyada yaşayan iki milyon türkün hamısı ilə görüşmək istərdim. Mən onların hamısını özüm üçün doğma hesab edirəm. Onlar sizin üçün də doğma olmalıdır. Almaniyada 150 min azərbaycanlının yaşaması da yaxşı haldır. Çalışın azərbaycanlığınızı bundan sonra daha da möhkəmləndirin.

Bilirsiniz, Anadoluda, Özbəkistanda, Azərbaycanda yaşayanların hərəsinin özünəməxsus xüsusiyyətləri var. Məsələn, mən fəxr edirəm ki, Azərbaycan dili Sovet hakimiyyəti dövründə çox inkişaf etdi, daha da zənginləşdi. Adətən Sovet hakimiyyəti dövrünü çox tənqid edirlər. Amma olan həqiqətləri də unutmaq, qaralamaq olmaz. Bizim dilimiz məhz o illərdə inkişaf etdi. Dilimizin qrammatikası, qanunları haqqında o dövrdə nə qədər əsərlər yazıldı. Azərbaycan dili haqqında harada belə əsərlər yazılıb? Bəli, belə əsərlər Sovet hakimiyyəti dövründə yazıldı. Yenə də deyirəm, tarixi qaralamaq olmaz.

90-cı illərdə Azərbaycanda iqtisadi əhval-ruhiyyəsi çox güclü olan zaman bəziləri belə hesab edirdi ki, bundan qabaq nə olubsa, onun üzərindən xətt çəkmək lazımdır. Xalqımız yaşayıb, yaradıb, qurub. Xalqımız öz incəsənətini, mədəniyyətini, ədəbiyyatını inkişaf etdirib və bütün bunların üzərində indi müstəqil Azərbaycan Respublikası var. Müstəqil Azərbaycan deyəndə tək ərazi nəzərdə tutulmur. Dövlət quruluşu təkcə dövlətdən ibarət deyil, onun mədəniyyəti, elmi, ali təhsili, böyük iqtisadi potensialı var. Hər şeyi var. Mən onu da deyim ki, Azərbaycan dünyanın çox-çox ölkələrindən heç də geridə deyil.

Doğrudur, indi respublikamız böhran dovrünü yaşayır. Bu keçib gedəcəkdir. Əgər biz Ermənistanın təcavzünüdən qurtara bilsək, bir neçə ildən sonra Azərbaycanın iqtisadi vəziyyəti çox yaxşı olacaqdır. Mən hesab edirəm ki, biz buna da nail olacağıq, torpaqlarımız da azad edəcəyik, Azərbaycanın ərazi bütövlüyünü də təmin edəcəyik. Azərbaycan müstəqil dövlət kimi bütün ərazisinin sahibi olacaqdır.

Sizinlə görüşümdən mən bir daha məmnun olduğumu bildirirəm. Görüşlərim bu gün davam edəcək. Yaratdığınız federasiyanın bundan sonra da yaşaması, möhkəmlənməsi naminə sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

Almaniya Federativ Respublikasına rəsmi səfərə həsr olunmuş mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatından:

Bonn. 3 iyul 1996-cı il

...Aprel ayında Bakıda Türkiyədən gəlmiş bir jurnalist həbs olunmuşdu. O, jurnalistliyinə görə yox, gecə vaxtı cinayətkarlarla birlikdə tutulduğuna görə həbs edilmişdi. Ancaq baxmayaraq ki, o, həqiqətən cinayət etmişdi, Türkiyənin İqdır vilayətinin nümayəndələrinin mənə müraciətindən sonra onu da əfv etdim, həbsxanadan azad olundu, öz vətəninə - Türkiyəyə qayıtdı...

"Müstəqilliyimiz əbədidir", 7-ci kitab, səh.59.

Türkiyə Cümhuriyyətinin Baş naziri Zati-aliləri Nəcməddin Ərbakan cənablarına!

Hörmətli cənab Baş nazir!

Sizi Türkiyə Cümhuriyyətinin Baş naziri seçilməyiniz və qur-

duğunuz hökumətin Türkiyə Böyük Millət Məclisindən etimad səsi alması münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə və qardaş türk xalqına səadət və firavanlıq arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı qardaşlıq və əməkdaşlıq əlaqələri daim genişlənəcək və xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

9 iyul 1996-cı il

Azərbaycan və Qazaxıstan nümayəndə heyətinin görüşündə Prezident Heydər Əliyevin çıxışından:

Prezident Sarayı
16 sentyabr 1996-cı il

...Azərbaycan özünün bütün qonşuları ilə sülh şəraitində yaşamaq istəyir. Biz Gürcüstanla, İranla, Türkiyə, Rusiya ilə yaxşı, mehriban münasibətlər yaratmışıq. Əgər Ermənistanla münaqişə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında aradan qaldırılarsa, o zaman onunla da sülh və uğurlu iqtisadi əməkdaşlıq ola bilər. Qafqazda belə əməkdaşlıq bütün Zaqafqaziyanın Mərkəzi Asiya ilə, o cümlədən Qazaxıstanla iqtisadi əməkdaşlığının bundan sonra da inkişaf etməsi üçün çox müsbət nəticə verə bilər.

Türkdilli dövlət başçılarının IV forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubileyi mərasimində iştirak etmək üçün Daşkəndə yola düşərkən Binə hava limanında Prezident Heydər Əliyevin jurnalistlərə verdiyi bəyanatdan:

21 oktyabr 1996-cı il

...Sizə də yəqin məlumdur, 1992-ci ildən türkdilli dövlətlər başçılarının görüşləri başlanıbdır və ardıcıl surətdə keçirilir. Bu görüşlərdə türkdilli dövlətlərin həm tarixi keçmişi, ənənələri ilə bağlı, həm mədəni, elmi, təhsil, tarixi məsələlər, eyni zamanda dövlətlərin müasir dövrdə əməkdaşlığı, hamımız bir regionda yerləşdiyimizə görə regional məsələlər və şübhəsiz ki, beynəlxalq aləmdə gedən proseslər müzakirə olunur, fikir mübadiləsi aparılır.

Bu, növbəti görüşdür, Daşkənddə keçirilir və türkdilli dövlətlərin başçıları oraya bu münasibətlə dəvət olunmuşlar. Eyni zamanda Özbəkistan Əmir Teymurun 660 illik yubileyini keçirir və yubiley mərasimində də iştirak edəcəyik.

Hesab edirəm ki, belə görüşlər əhəmiyyətlidir. Keçmişdə olan görüşlər öz səmərəsini göstəribdir. Güman

edirəm ki, bu görüş də əhəmiyyətli olacaqdır.

Türkdilli dövlət başçılarının IV forumunda Prezident Heydər Əliyevin nitqi

Daşkənd. 21 oktyabr 1996-cı il

Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

Qonaqpərvərlik və görüşümüzün əla təşkili üçün Özbəkistan Respublikasının Prezidenti İslam Kərimova ürəkdən təşəkkür edirəm. Daşkənd forumunun ali iştirakçılarını, hörmətli qardaşlarımı - Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəli, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayevi, Türkmənistan Prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovu salamlayıram, sizə və xalqlarınıza səadət və firavanlıq arzulayıram.

Dərin razılıq hissi ilə qeyd edirəm ki, əsası 1992-ci ildə Ankarada qoyulmuş məclisimizin nəcib ənənələri davam edir, qardaşlığımız və əməkdaşlığımız möhkəmlənir və müvəffəqiyyətlə inkişaf edir. Türkdilli dövlətlərin başçılarının Zirvə görüşlərini keçirməyin zəruri və faydalı olduğunu həyatın özü təsdiq etmişdir və mən forumumuzun təşəbbüsçüsü olmuş və onun ideyasının həyata keçməsi üçün böyük səylər göstərmiş qardaş Türkiyəyə, onun Prezidenti, bizim dostumuz Süleyman Dəmirələ xüsusi minnətlarlığımı bildirirəm.

Ötən illərə qiymət verərkən cəsarətlə demək olar ki, keçid dövrünün məlum çətinliklərinə baxmayaraq, ölkələrimiz və xalqlarımız çox ağır sınaqlardan müvəffəqiyyətlə çıxmış və tarixi əhəmiyyətə malik nəticələrə nail olmuşlar. Ölkələrimizin dövlət müstəqilliyinin möhkəmlənməsi, demokratik hüquqi dövlət yaradılması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi keçdiyimiz yolun real yekunlarıdır.

Məqsəd və vəzifələrimizin, həll etdiyimiz problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir. Bizim xalqımızın ümumi tarixi, mədəni kökləri və ənənələri, eyni dilə və dinə mənsub olmağımız bizi daha da birləşdirir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Ankarada keçirilmiş birinci görüşümüzdən sonrakı dövr ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyədə çoxlu səfərlər, beynəlxalq məclislərdə görüşür və danışıqlar olmuşdur. Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban, etibarlı münasibətlər yaranmışdır.

Bu görüşlər və danışıqlar zamanı mühüm dövlətlərarası sazişlər

imzalanmışdır. Onların həyata keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın inkişafına, mənəvi və mədəni əlaqələrimizin genişlənməsinə, dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə kömək edir. Bizim şəxsi dostluğumuz, tez-tez görüşməyimiz qarşılıqlı anlaşmaya, ən çətin məsələlərin əlbir səylərlə həll olunmasına kömək edir. Ona görə də biz məmnuniyyətlə deyə bilərik ki, forumumuz tamamilə formalaşmış və bərqərar olmuş, beynəlxalq status almışdır, onun yaxşı perspektivi vardır.

Ölkələrimizin mühüm coğrafi-siyasi məkanda yerləşməsi, çox zəngin təbii sərvətləri, xalqlarımızın yüksək intellekti və əməksevərliyi, müstəqillik və suverenlik, həyata keçirdiyimiz demokratik bazar islahatları regionumuzu dünyanın ən inkişaf etmiş və çiçəklənən regionlarından birinə çevirməyə imkan verir!

Əziz dostlar!

Bu gün cəsarətlə demək olar ki, əməkdaşlığımız öz bəhrələrini verməyə başlayır. Biz kommunikasiya sistemlərinin tikintisinə dair layihələri əməli surətdə həyata keçirməyə başlamışıq. Bu sistemlər ölkələrimizi bir-birinə sıx bağlayacaq, qarşımızda Avropaya, Asiyaya, Yaxın və Orta Şərqə, bütün dünyaya yollar açacaqdır. Avropa İttifaqının iştirakı ilə həyata keçirilən, vaxtilə Avropanı Asiya ilə bağlamış məşhur İpək yolunun mücəssəməsi olan TRASEKA layihəsi məhz belə layihədir. Mərkəzi Asiyanı ən qısa və etibarlı yol ilə Avropa ilə birləşdirəcək Transqafqaz dəhlizindən istifadə etmək barədə Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında bağlanmış dördtərəfli Sərəxs sazişləri də bu məqsədə xidmət edir. Mən Qazaxıstanın bu sazişə qoşulmasını alqışlayıram.

Biz ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, İranın, Fransanın, İtaliyanın, Norveçin, Yaponiyanın, Səudiyyə Ərəbistanının və başqa ölkələrin ən böyük neft şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz hasilatına dair iri layihələr həyata keçiririk.

Məlum olduğu kimi, Qazaxıstan və Türkmənistan da Xəzər dənizinin Qazaxıstan və Türkmənistan sektorlarında bu cür layihələr həyata keçirirlər. Bununla əlaqədar olaraq Qazaxıstandan, Türkmənistandan, Özbəkistandan və Azərbaycandan dünya bazarlarına neft və qaz ixracı üçün boru kəmərləri çəkilişi məsələsi qarşıya çıxır. Belə hesab edirəm ki, ölkələrimiz çox vacib olan bu məsələnin müvəffəqiyyətli həlli üçün daha sıx əməkdaşlıq edə bilərdilər. Zənnimcə, boru kəmərlərinin Mərkəzi Asiya - Xəzər - Azərbaycan - Gürcüstan - Türkiyə - Qara dəniz - Aralıq dənizi marşrutu ilə çəkilmiş ən məqbul, təhlükəsiz variantlardan biri ola bilərdi.

Bizim əlbir səylərimiz sayəsində milli mədəniyyətlərimizin və mənəvi irsimizin inkişafı sahəsində yaranmış gözəl əməkdaşlıq razılıq hissi doğurur. Dahi mütəfəkkirlərimizin, ədəbiyyat və incəsənət klassiklərimizin yaradıcılığı, "Dədə Qorqud", "Manas", "Alpamiş" kimi minillik tarixə malik eposlarımız bizim ümumi mədəni sərvətimizdir, xalqlarımızın yüksək mənəviyyatının və əxlaqının təməlidir, bizi xeyirxahlıq və humanizm ruhunda yetişdirmiş ümumi qaynaqlardır. Mən Almatıda böyük qazax mütəfəkkiri və şairi Abayın 150 illiyinə, Bişkəkdə qırğızların dastanı "Manas" eposunun min illiyinə həsr olunmuş mərasimlərdə böyük hörmət hissi ilə iştirak etmişəm. Düşünürəm ki, bizim mədəniyyət və elm orqanlarımız gələcəkdə də öz əlaqələrini möhkəmlədəcəklər, mənəvi mədəniyyətimizi birlikdə öyrənib təbliğ edəcəklər.

Sevindirici haldır ki, bizim Daşkənd görüşmüz özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyi ilə bir vaxta düşür. Onun xatirəsinə həsr olunmuş yubiley mərasimlərində müstəqil türkdilli dövlətlərin prezidentlərinin iştirakı əlamətdar tarixi hadisədir, ümumi səcdəgahlarımıza dərin hörmətin ifadəsidir, getdikcə möhkəmlənən birliyimizin sübutudur.

Məlum odlduğu kimi, YUNESKO-nun qərarı ilə Şərqin görkəmli maarifçisi, Azərbaycan şairi Füzulinin 500 illik yubileyi bütün düynada geniş qeyd edilir. Ankarada, Tehranda, Bağdadda və Kərbəlada, Moskvada, Parisdə YUNESKO-nun iqamətgahında təntənəli yubiley tədbirləri keçirilmişdir. Bu il noyabrın 6-dan 9-dək Bakı şəhərində bütün türkdilli xalqların böyük oğlu Füzulinin xatirəsinə həsr edilən yekun təntənələri keçiriləcəkdir. Hörmətli dostlar, fürsətdən istifadə edib mən sizin hamınızı Azərbaycanda yubiley təntənələrində iştirak etməyə dəvət edirəm.

Zati-aliləri!

XX əsrin sonu dünyanın coğrafi-siyasi mənzərəsini dəyişdirmiş hadisələrlə əlamətdardır. Totalitar rejimlərin süqutu, yeni ölkələrin dövlət müstəqiliyi əldə etməsi, dünyada demokratik dəyərlərin bərqərar olması - bütün bunlar dərin məmnunluq doğrur.

Lakin bununla yanaşı, dünyada təhlükə heç də azalmamışdır. Separatçılıq, davakar millətçilik və beynəlxalq terrorizm təzahürləri, mövcud dövlət sərhədlərinin dəyişdirilməsi niyyəti ilə zor işlətmək cəhdləri beynəlxalq sabitlik üçün bilavasitə və real təhlükədir və bu təhlükə bizim regionda da mövcuddur. Ona görə də beynəlxalq hüquq normalarını, ərazi bütövlüyü prinsiplərini, ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədlərinin və suverenliyinin pozulmazlığını əlbir səylərlə qətiyyətlə müdafiə etməli, bu normalara və prinsiplərə ciddi əməl olunmasına çalışmalıyıq.

Müstəqil Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü səkkiz ildir davam edir. Bu təcavüz nəticəsində ərazimi-

zin 20 faizi işğal edilmişdir. Bir milyondan çox vətəndaşımız qaçqına çevrilmişdir və çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

1994-cü ilin mayında atəşkəs əldə edilmiş, qanlı qırğın dayandırılmışdır. Ancaq istər ATƏT-in Minsk qrupu çərçivəsində, istərsə də birbaşa danışıqlarda göstərdiyimiz bütün səylərə baxmayaraq, sülh sazişi hələ də imzalanmamışdır. Azərbaycanın vəhşicəsinə viran qoyulmuş və talan edilmiş şəhər və kəndləri təcavüzkarın ixtiyarında qalmaqdadır.

Sülhə nail olmq üçün biz öz tərəfimizdən nə lazımsa, edirik. Mən dəfələrlə bəyan etmişəm ki, biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın ermənilərı üçün ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Bununla yanaşı, Dağlıq Qarabağa müstəqillik verilməsi və ya onun Ermənistanın birləşdirilməsi haqqında ermənilərin tələbləri ilə biz heç vaxt razılışa bilmərik. Biz Azərbaycanın milli mənafeyinə zərər vurulmasına heç vaxt imkan verməyəcəyik. Çünki belə cəhdlər bütün mövcud beynəlxalq normalara və prinsiplərə də ziddir. Bugünkü dünyada ərazi işğallarının qanuniləşdirilməsi yolverilməzdir. Harada baş verməsindən asılı olmayaraq, heç bir ölkə bununla razılaşmamalıdır.

Biz bundan sonra da Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına, işğal olunmuş bütün Azərbaycan ərazilərindən erməni silahlı birləşmələrinin çıxarılmasına, azərbaycanlı qaçqınların doğma yerlərinə qaytarılmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çalışacağıq. Öz ədalətli məqsədlərimizə çatmaqda biz dünya ictimaiyyətinin dəstəyinə və köməyinə, hörmətli dostlar, sizin dəstəyinizə və köməyinizə ümid edirik.

İcazə verin, bir daha əmin olduğumu bildirim ki, bizim Daşkənd görüşümüz türkdilli dövlətlərin əməkdaşlığını daha da inkişaf etdirmək, regionumuzda sabitliyi və sülhü təmin etmək işində mühüm dönüş mərhələsi olacaqdır. Mən forumumuzun daimi fəaliyyət göstərən katibliyinin yaradılması haqqında Prezident İslam Kərimovun təklifini tamamilə dəstəkləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin ölkəmizdə yeni Fövqəladə və Səlahiyyətli səfiri Osman Faruq Loğoğlunun etimadnaməsinin təqdimatında Prezident Heydər Əliyevin çıxışı

Prezident Sarayı
24 oktyabr 1996-cı il

Hörmətli cənab Osman Faruq Loğoğlu! Sizi Türkiyə Cümhuriyyətinin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə təbrik edirəm.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan dövlətlərarası əlaqələr xüsusi xarakter daşıyır. Bu əlaqələrin xüsusiyyəti ondan ibarətdir ki, xalqlarımızın birgə tarixi keçmişi var, xalqlarımız bir kökə, eyni ənənələrə malikdir. Dilimiz, milli-mənəvi ənənələrimiz əsrlərdən-əsrlərə xalqlarımızı birləşdirmişdir və bunların üzərində Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr indi çox uğurla qurulmaqdadır.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman onun istiqlaliyyətini dünyada tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Bu, təbiidir, çünki Türkiyə ilə Azərbaycan arasında bir-birinə qovuşmaq, yaxınlaşmaq, daha sıx əlaqələr qurmaq arzusu daim yaşamışdır və Azərbaycan öz müstəqilliyini elan edən kimi, Türkiyə, Türk xalqı buna səs vermiş, Azərbaycanın müstəqilliyini birinci olaraq tanımışdır.

Keçən beş il ərzində Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etmişdir. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir, həyatımızın bütün sahələrini - həm iqtisadi, həm də elmi, mədəni, mənəvi sahələri əhatə edir. Əlaqələrimizin bütün istiqamətdə inkişaf etməsi bizi çox sevindirir və bizim üçün çox böyük əhəmiyyətə malikdir. Biz ölkəmizdə dövlət quruculuğunda olan dəyişikliklərdə Türkiyə Cümhuriyyətinin keçdiyi böyük yoldan və təcrübədən daim istifadə edir, onlardan çox bəhrələnirik.

Bir neçə gün sonra biz Türkiyə Cümhuriyyətinin yaranmasının 73-cü ilini birlikdə qeyd edəcək, bayram edəcəyik. 73 il ərzində cümhuriyyət Türkiyə torpağına, Türkiyə xalqına böyük nailiyyətlər gətiribdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması söz, mətbuat azadlığı, bəşəri dəyərlərdən istifadə olunması Türkiyə Cümhuriyyətinin demokratik, mütərəqqi, dünyəvi dövlətlərdən biri kimi tanınıb və Türkiyənin dünya birliyində özünə layiq yer tutmasına imkan yaradıbdır. **Türkiyə xalqı, Türkiyə Respublikası böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yolla gedərək bütün sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Bizim xalqımız buna sevinir, bunları özünün nailiyyətləri hesab edir və qeyd etdiyim kimi, həm də bu müvəffəqiyyətlərdən, təcrübədən istifadə etməyə çalışır və bundan sonra da çalışacaqdır.**

Bü müddətdə dövlətlərimiz arasında yaranmış əlaqələr həm Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, həm də ölkəmizin dünya birliyində, beynəlxalq təşkilatlarda özünə layiqli yer tutmasına kömək edibdir. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bütün beynəlxalq təşkilatlarda bütün beynəlxalq məsələlərin Türkiyəyə və Azərbaycana, bizim regiona aid olan məsələlərin həllində Türkiyə Respublikası ilə Azərbaycanın səsi, sözü, fikri eyni olubdur. Şübhəsiz ki, bu

da beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda mövqeymizin həm möhkəmlənməsinə, həm də bizim üçün maraqlı olan qərarların qəbuluna çox kömək edibdir.

Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən problem Ermənistanın hərbi təcavüzüdür. Bu təcavüz səkkiz il öncə başlanıb. Ermənistan işğalçı qüvvələrinin Azərbaycana soxulması və bir neçə böyük dövlətin dəstəyi nəticəsində və bəzi başqa tarixi səbəblərə görə Azərbaycanın ərazisinin 20 faizi işğal olunub, işğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız didərgin düşüb, yerlərindən-yurdlarından məhrum olub və qaçqın vəziyyətində yaşayır. Biz bu problemin həll olunmasına çalışırıq. Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyin tam təmin etmək, sərhədlərinin toxunulmazlığını bərpa etməkdir. Bu məsələnin həllində **Türkiyə həmişə Azərbaycanla bərabər olub, onu dəstəkləyib, Azərbaycanın mövqeyini öz mövqeyi kimi bilibdir.** Bu, bizim üçün çox böyük köməkdir və buna görə Azərbaycan xalqı, dövləti Türkiyə xalqına və dövlətinə daim minnətdardır.

Biz bütün sahələrdə əməkdaşlıq edirik. Türkdilli dövlətlərin başçılarının görüşlərinin - əsası ilk dəfə 1992-ci ildə Ankarada qoyulmuş, görüşlərin böyük nəticəsini biz hiss edirik. Oktyabrın 21-də Özbəkistanda - Daşkənddə türkdilli dövlətlərin başçılarının IV Zirvə görüşü olmuşdur. Bu görüş çox əhəmiyyəti və nəticəli olmuş, sübut etmişdir ki, belə bir forumun yaşaması çox zəruridir, bu günümüz və gələcəyimiz üçün böyük əhəmiyyəti var. Dövlətlərimizə, regionumuza aid olan məsələlərin belə görüşlərdə müzakirə edilməsi, fikir mübadiləsi aparılması, birgə mövqelərin müəyyənləşdirilməsi və bir çox qərarların qəbul edilməsi bizim dövlətlər üçün çox əhəmiyyətlidir. Azərbaycan Respublikası türkdilli dövlətlərin forumunda iştirakını çox əhəmiyyətli hesab edir və bu forumun inkişafı üçün səylərini bundan sonra da əsirgəməyəcəkdir.

Oktyabrın 21-22-də Türkiyənin Prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəl ilə, Türkiyə nümayəndə heyəti ilə biz bərabər olmuşuq. Daşkənddə, Səmərqəddə birlikdə çox danışıqlar aparmış, görüşlər keçirmiş, həm türkdilli dövlətlərin başçılarının Zirvə görüşündə gündəlikdə duran məsələləri müzakirə etmişik, həm də özbək xalqının, bütün türkdilli xalqların böyük oğlu Əmir Teymurun anadan olmasının 660-cı ildönümünü birlikdə bayram etmişik, qeyd etmişik. Daşkənddə və Səmərqənddə keçirilən bu tədbirlər xalqlarımızın öz tarixi köklərinə, keçmişinə, ənənələrinə olan hörmət və ehtiramını bir daha nümayiş etdirib tarixi köklərimizin nə qədər dərin, bu günümüzü, gələcəyimiz üçün nə qədər əhəmiyyətli olduğunu sübut edibdir.

Mən bu görüşlərdən çox böyük

məmnunluq hissi keçirmişəm, xüsusən əziz dostum, qardaşım, Türkiyənin Prezidenti Süleyman Dəmirəl ilə xüsusi söhbətlərimdə və görüşlərimdə Türkiyə üçün, Azərbaycan üçün mühüm olan məsələlərin müzakirə edilməsindən çox razıyam. Eyni zamanda biz hörmətli Prezident Süleyman Dəmirəl ilə Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və Lissabonda ATƏT-in qarşıdakı Zirvə görüşündə bu məsələnin həllinə dair lazımi tədbirlər hazırlanması məsələni də müzakirə etmiş və fikir mübadiləsi aparmışıq. Bunlar və indiyədək gördüyümüz işlər ölkələrimizin bir-birinə nə qədər yaxın, dost və qardaş olduğunu bütün dünyaya nümayiş etdirir.

Əmin olduğumu bildirmək istəyirəm ki, siz Türkiyə Cümhuriyyətinin Azərbaycanda səfiri kimi bizim bu əlaqələrimizin bundan sonra da inkişafına xidmət göstərəcək və öz fəaliyyətinizi buna həsr edəcəksiniz. Siz Azərbaycanda özünüzü öz evinizdəki kimi hiss edə bilərsiniz, burada bütün qapılar sizin üçün açıqdır. Uğurlu fəaliyyətiniz üçün bütün imkanlar mövcuddur və heç bir məsələ barəsində çətinliyə, nə də başqa bir maneəyə rast gəlməyəcəksiniz. Yenə deyirəm, özünüzü burada evizindəki kimi hiss edə bilərsiniz və əməkdaşlığımızı bundan sonra da bu şəkildə aparcağıq. Sizi təbrik edir, böyük, şərəfli işinizdə uğurlar arzulayıram.

Prezident Heydər Əliyevin Türk dünyası yazıçılarının III qurultayında nitqi

Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu
6 noyabr 1996-cı il

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Sizi, Türk dünyası yazıçılarının III qurultayını Azərbaycan xalqı, vətəndaşları adından, Azərbaycan dövləti adından səmimi qəlbdən salamlayır, bu şərəfli işində uğurlar arzulayıram.

Türk dünyasının, türkdilli xalqların, ölkələrin yazıçılarının III qurultayını Azərbaycanda keçirilməsi ölkəmiz üçün əlamətdar hadisə hesab edirəm və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi qiymətləndirirəm.

Türk dünyası yazıçılarının qurultayı üçüncü dəfədir ki, toplaşır. Bu qurultay ilk dəfə 1992-ci ildə Türkiyədə, Ankarada öz əsasını qoymuş və Allaha şükürlər olsun ki, artıq ənənəyə çevrilmişdir. Heç şübhə etmirəm ki, bu, daim davam edəcəkdir. 1922-ci ildə Türkiyədə, Ankarada Türkiyə Cümhuriyyətinin, onun mərhum Prezidenti Turqut Özalın təşəbbüsü ilə başlanan bu qurultay türkdilli xalqların, Türk dünyasının qədim, böyük tarixini yenidən canlandırmaq üçün çox gözəl və dəyərli

təşəbbüs olmuşdur. Sonra, bu qurultay ikinci dəfə Türkiyədə, Ankarada keçirilərkən bizim əziz dostumuz, qardaşımış, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəlin təşəbbüsü və iştirakı ilə bu qurultaya güc verilmiş və bu ənənənin köklənməsini göstərmişdir.

Bu dəyərli təşəbbüs bu gün davam edir. Əmin olduğumu bildirmək istəyirəm ki, Türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdiricəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar.

Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çatdırmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır. Xalqlarımız tarix boyu insan həyatının bütün sahələrində, bəşəriyyətin bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri və böyük bədii əsrləri, musiqisi ilə parlaq səhifələr yazmışlar. Bunların arasında şairlərimizin, yazıçılarımızın xidməti və tariximizin yaranmasında, saxlanmasında onların əsərlərinin qiyməti çox böyükdür.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Biz adətən böyük tariximiz haqqında, xalqlarımızın böyük mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək eyni zamanda öz tariximizi, mədəniyyətimizi təbliğ edirik. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunis İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tari-

xini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Bunlar bizim keçmiş, uzaq tariximizdir. Amma eyni zamanda xalqlarımızın mədəniyyəti, ədəbiyyatı, şeri bir çox məhrumiyyətlərə, çətinliklərə məruz qalmışdır. Bu çətinliklər tarixin, ola bilər ki, bəzən çox böyük mərhələlərində mədəniyyətimizə zərbələr vurmuş, ancaq mədəniyyətimizi, ədəbiyyatımızı, şerimizi öldürə, məhv edə, yox edə bilməmişdir. Türkdilli xalqların bütün bu çətinliklərdən, sınaqlardan keçib gəlmiş mədəniyyəti, ədəbiyyatı, şeri indi dünyada, bəşəriyyətdə özünəməxsus görkəmli yerini tutubdur.

XX əsr dünya tarixində çox mürəkkəb, ziddiyyətli, gərgin proseslər dövri olmuşdur. Bizim əksəriyyətimiz, demək olar, hamımız bu əsrdə doğulmuşuq və artıq bu əsri başa çatdırırıq. Xalqlarımızın - türkdilli xalqların, ölkələrin mədəniyyəti, ədəbiyyatı XX əsrdə ziddiyyətli, eyni zamanda çox şərəfli və müvəffəqiyyətli yol keçmişdir. Bir tərəfdən bizim mənəviyyatımızı, mədəniyyətimizi, ədəbiyyatımızı bir-birindən ayırmaq, parçalamaq, milliliyin qarşısını almaq cəhdləri çox güclü olmuş, ikinci tərəfdən də yaranmış ictimai-siyasi vəziyyət və xalqlarımızın cürbəcür imkanlardan istifadə edib dünya mədəniyyəti ilə daha sıx əlaqələr qurması nəticəsində ədəbiyyatımız, mədəniyyətimiz çox inkişaf etmişdir.

Bu baxımdan Şərq mədəniyyətinin, Şərq ədəbiyyatının nə qədər zəngin olduğunu bu gün bir daha qeyd edərək eyni zamanda XIX- XX əsrlərdə xalqlarımızın mədəniyyətinin, ədəbiyyatının Avropa mədəniyyəti, Rusiya mədəniyyəti ilə yapanmış əlaqələrdən istifadə edib çox böyük nailiyyətlər qazanmasını xüsusi qeyd etmək lazımdır. Bu, yeni bir şey deyil, təbiidir. Keçmişdə də böyük, dahi şairlərimiz, yazıçılarımız, tarixçilərimiz qədim yunan, Roma ədəbiyyatından, qədim Avropa ədəbiyyatından istifadə etmişlər. Eyni zamanda Qərb də həmişə Şərqin və xüsusən türkdilli xalqları, müsəlman Şərqinin yaratdığı böyük, tarixi əsərlərdən istifadə etmişdir. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərb, həm də Şərqdə çox böyük müsbət nəticələr gətirmişdir. Bu proses XIX-XX əsrlərdə bizim xalqlarımız üçün çox müvəffəqiyyətli olmuşdur və onların ədəbiyyatının, mədəniyyətinin inkişafına çox güclü, müsbət təsir göstərmişdir.

Beləliklə, milli mədəniyyətimizin, ədəbiyyatımızın inkişafının qarşısını almaq cəhdləri nə qədər çox olmuşdursa da, milli ədəbiyyatımızda, mənəviyyatımızda, mədəniyyətimiz-

də olan bir o qədər, bəlkə ondan da çox olan güclər özünə cürbəcür yollar açmış və ümumbəşəri dəyərlərdən istifadə edrək daha da yüksək səviyyələrə çatmışdır. Bunu bizim Türkdilli xalqların, Türk dünyasına mənsub olan ölkələrin XX əsr ədəbiyyatında, mədəniyyətində yaranmış əsərlərdə çox açıq-aydın görmək olar. Bizim hamımız bu əsərlərlə fəxr edirik.

Bu proseslər xüsusən Sovetlər İttifaqına mənsub olmuş türkdilli respublikaların həyatında baş vermişdir: Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Qırğızıstanda da, Tatarıstanda da, Başqırdıstanda da, Azərbaycanda da və başqalarında da. Bu illərdə bizim çox itkilərimiz olmuşdur. Böyük, dahi şəxsiyyətlərimiz repressiya qurbanları olmuş, onların əsrləri uzun illər qadağan edilmişdir. Ancaq bununla yanaşı - mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə vurulan bu zərbələrlə yanaşı, bu illərdə milli mədəniyyətimiz inkişaf etmiş, çox yüksək zirvələr fəth etmişdir. Bunların hamısının əldə olunmasında, bu nailiyyətlərimizdə yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın xüsusi xidmətləri var.

XX əsrdə mədəniyyətimizi inkişaf etdirmək üçün cürbəcür qurultaylarda iştirak etmişik, cürbəcür formalarda əlaqələr yaratmışıq. Bunların əksəriyyəti səmərəli olubdur, bunların müsbət nəticələrini inkar etmək düzgün olmazdı. Çəkdiyimiz zərərləri, bizə vurulan zərbələri əldə etdiyimiz nailiyyətlərlə müqayisə edəndə hər iki sahəyə ədalətli qiymət verməliyik.

Ancaq indi, XX əsrin sonunda bizim xalqlarımız, ölkələrimiz üçün yeni, gözəl fürsət, yeni bir şərait yaranmışdır. O da ondan ibarətdir ki, dünyada gedən ictimai-siyasi proseslər, baş vermiş dəyişikliklər, Sovetlər İttifaqının dağılması türkdilli, Türk dünyasına mənsub olan xalqların tam azad olmasına, müstəqillik əldə etməsinə və müstəqil dövlət qurmasına imkanlar yaratmış və bu, qısa bir müddətdə öz gözəl nəticələrini vermişdir.

Keçmiş Sovet İttifaqına mənsub olan respublikalar, o cümlədən türkdilli ölkələr beş ildir ki, öz dövlət müstəqilliyini əldə ediblər. Tarix nöqteyi-nəzərindən beş il çox az bir zamandır. Ancaq bu beş il içərisində xalqlarımızın həyatında çox böyük müsbət dəyişikliklər baş vermişdir. Doğrudur, xalqlarımız keçid dövrünü yaşayır, keçid dövrünün özünün sosial-iqtisadi çətinlikləri var. Yenidən dövlətlər qurulur, demokratik proseslər bərqərar olur. Bununla yanaşı, bəzi münaqişələr və başqa hadisələr də bizim ölkələrin həyatının sürətlə inkişaf etməsinə maneçilik törədir. Ancaq bunların hamısına baxmayaraq xalqlarımızın əldə etdiyi nailiyyət ən yüksək qiymətə malikdir. Milli azadlıq, dövlət müstəqilliyi bizim xalqlarımız üçün hər bir şeydən üstündür və bunun naminə bütün

əzab-əziyyətlərə dözmüşük, bu gün də dözürük, gələcəkdə də dözəcəyik. Ona görə ki, biz əbədi olaraq azad, sərbəst, müstəqil yaşamaq istəyirik.

Milli azadlığın, sərbəstliyin, müstəqilliyin xalqlarımıza bəxş etdiyi töhfələr göz qabağındadır. Ancaq bir bunun böyük gələcəyini də görürük. Bunlardan da biri ondan ibarətdir ki, biz sərbəst, müstəqil olaraq, heç bir kəsdən, heç bir dövlətdən asılı olmayaraq, öz istədiyimiz kimi əlaqələrimizi qururuq və əməkdaşlıq edirik, milli ənənələrimizi, milli dəyərlərimizi, mədəniyyətimizi birlikdə inkişaf etdirmyə çalışırıq. Türk dünyası yazıçılarının III qurultayı da və ümumiyyətlə belə bir qurultayın yaranması, ənənəyə çevrilməsi də əldə etdiyimiz azadlığın, müstəqilliyin bəhrələridir.

Türkdilli ölkələr bu illərdə keçmiş, hamımıza mənsub olan mədəniyyətimizi, ədəbiyyatımızı yenidən təhlil etmək üçün, bu mənəvi dəyərlərimizin qiymətini birlikdə anlamaq üçün çox iş görübdür. Türkdilli ölkələrin dövlət başçılarının görüşü bu baxımdan çox mühüm amildir. Bu görüşün də əsası, 1992-ci ildə Türkiyə Cümhuriyyətində Türkiyə dövlət başçılarının təşəbbüsü ilə qoyulubdur. Bu il oktyabrın 21-də biz Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının dördüncü görüşünü keçirdik. Onu bildirmək istəyirəm ki, görüşdən-görüşə bu qurumun, yəni türkdilli dövlətlərin başçılarının, bu təşkilatın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu biz dərk edirik.

Keçən görüşlərdə Daşkənd görüşünü müqayisə edərkən tam aydın görünür ki, bizim dövlətlərimiz, ölkələrimiz, dövlət orqanlarımız belə görüşlərin hər bir ölkə, xalq üçün son dərəcə əhəmiyyətli və səmərəli olduğunu dərk ediblər və mən tam əminəm ki, gələcək görüşlər daha da səmərəli olacaq və bu təşkilat daim yaşayacaqdır.

Bizim bu təşkilatın, görüşlərin əsas məna-məqsədi aydındır. Biz birinci növbədə ölkələrimiz arasında olan iqtisadi əməkdaşlığı genişləndirməyə çalışırıq. Bir dilə, bir kökə mənsub olmağımız, ölkələrimizin bir ərazidə, bir-birinə qonşu olan ərazidə yerləşməsi və coğrafi cəhətdən bir-birimizə çox yaxın olmağımız, şübhəsiz ki, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün əsas yaradır. Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır. Bu baxımdan ölkələrimizin bir-biri ilə iqtisadi əməkdaşlıq etməsi üçün daha çox imkanlar var.

Amma eyni zamanda xalqlarımızın böyük tarixini yenidən təhlil etmək, yenidən qiymətləndirmək, ona düzgün, ədalətli qiymət vermək və hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyat, mədəniyyət abidələrin bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran prinsiplərdir, vəzifələrdir. Bu sahədə yenə də mədəniyyətin, ədəbiyyatın, yazıçıların

rolu böyükdür.

Təsəvvür edin, biz, türkdilli dövlətlər birlikdə "Manas"ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illiyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün Türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün Türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd edəcəyik.

Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və qeyd etdim, - mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da, dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim vəzifəmizdir, borcumuzdur. Bir də qeyd etmək istəyirəm ki, bu sahədə yazıçıların böyük xidməti, böyük rolu var və onların üzərinə bundan sonra da böyük vəzifələr düşür.

Bizim xalqlarımız uzun illər cürbəcür dövlətlərin tərkibində olduqlarına gör bir çox hallarda dillərindən və milli dəyərlərindən lazımi qədər istifadə etməkdən məhrum olublar, yaxud da ki, onların bu imkanları məhdudlaşdırılıbdır. Ancaq bizim dilimizi, mədəniyyətimizi, milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olublar. Ona görə də bu gün Türk dünyası yazıçılarının III qurultayında mən bütün xalqlarımızın bütün dövrlərdə yaşayıb-yaratmış yazıçılarına və bu gün həyatımızda yaşayıb-yaradan yazıçılara təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Siz, şübhəsiz ki, burada öz yazıçılıq işlərinizin gələcəkdə qurulması ilə əlaqədar lazımi tədbirlər görəcək, lazımi qərarlar qəbul edəcəksiniz. Ancaq mənim tövsiyəm ondan ibarət olardı ki, bizim xalqlarımızın bir-biri ilə daha da yaxınlaşması üçün, bir-birini bilavasitə daha da anlaşması üçün, dillərimizin inkişaf etməsi üçün və bir kökdən olan dillərimizin bir-birinə daha da yaxınlaşması üçün yazıçılar öz xidmətlərini göstərsinlər. Bizim dillərimiz bir kökə mənsubdur və bir-birimizi anlayırıq. Ancaq yaxşı olardı ki, dediyim bu sözləri mənim özbək, qırğız, qazax qardaşlarım da azərbaycanlı kimi anlasınlar və eyni zamanda bu qurultayda Başqırdıstandan, Qırğızıstandan olan yazıçılar çıxışlarını bizim azərbaycanlılar da tamam anlaya bilsinlər.

Şübhəsiz ki, bizim xalqlarımızın dilləri bir kökdən olaraq, hərəsi öz tarixi yolu ilə gedərək böyük inkişaf dövri keçmişdir. Ancaq mən Azərbaycan dili haqqında danışarkən deyə bilərəm ki, bizim Azərbaycan dilimiz XX əsrdə çox inkişaf etmiş,

çox zənginləşmişdir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarını xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublika daproseslər cürbəcür gedibdir.

Bizim respublikamızda - Azərbaycanda təxminən 30-cu, 40-cı, 50-ci illərdə, hətta 60-cı illərə qədər Azərbaycan dili hakim bir dil deyildi. Ona görə də Azərbaycan dilinin inkişaf etməsi, zənginləşməsi üçün dövlət tərəfindən lazımi işlər görülmürdü. Ancaq bunların hamısına baxmayaraq, bizim yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız, dilçi alimlərimiz öz işlərini görüblər və məlumdur ki, 70-ci illərdə onlar Azərbaycan Respublikasının dövlət dəstəyini də alıblar və bütün bunların nəticəsində biz indi, dövlət müstəqilliyimizi əldə edən zaman, müstəqil dövlət kimi Dünya Birliyinə daxil olduğumuz zaman zəngin Azərbaycan dövlət dili ilə fəxr edə bilərik.

Son illər bizim ölkələrimizdə gedən cürbəcür proseslər mədəni, elmi, ədəbi əlaqələrimizi müəyyən qədər zəiflədibdir. Ona görə də indi xalqlarımızın böyük simalarının yubileylərinin keçirilməsi ilə əlaqədar Türk dünyası yazıçılarının bu qurultayının keçirilməsi, TÜRKSOY təşkilatının fəaliyyəti ilə əlaqədar biz keçən illərdə müəyyən sahələrdə yaranmış boşluğu aradan götürməliyik. Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında olan əlaqələr bundan sonra bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət nöqteyi-nəzərindən, dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlətlərin başçılarının görüşləri buna çox böyük imkan verir. Dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir, dövlətlərimiz, ölkələrimiz arasında imzalanmış sazişlər və sürətlə inkişaf edən iqtisadi əlaqələr bunların hamısına imkan yaradır. Alimlərimiz, mədəniyyət xadimlərimiz, yazıçılarımız bütün bu imkanlardan səmərəli istifadə etməli və bizim mədəni, ədəbi əlaqələrimizi daha da gücləndirməlidirlər. Əmin ola bilərsiz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir.

Biz bu günlər böyük şair Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edəcəyik və bu münasibətlə də burada keçirilən görüşlər hesab edirəm ki, mədəni və ədəbi əlaqələrimizin inkişaf etməsi üçün yeni bir imkandır. Bu gün, Türk dünyası yazıçılarının III qurultayı işə başladığı zaman bu qurultayın yaranması və inkişaf etməsi üçün Türkiyə Cümhuriyyətinin və onun dövlət orqanlarının xidmətlərini bir daha xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, dövlət müstəqilliyi əldə edəndən sonra türkdilli dövlətlərin bir-biri ilə əlaqələrinin sürətlə inkişaf etdiril-

məsi, mədəni əlaqələrin yaranması üçün və bunlarla əlaqədar cürbəcür tədbirlərin keçirilməsi üçün Türkiyə Cümhuriyyətinin və xüsusən onun Prezidenti, bizim böyük dostumuz hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Bu gün burada, Türk dünyası yazıçılarının III qurultayında çıxış edən dəyərli qonaqlarımız çox qiymətli sözlər dedilər. Mən hesab edirəm ki, bunlar hamısı Azərbaycanın ictimai-siyasi həyatı, Azərbaycanın ictimaiyyəti üçün çox əhəmiyyətlidir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu günlər keçirilən cürbəcür görüşlər bizim əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Yazıçılıq sənətinə, ədəbiyyata, mədəniyyətə bir daha öz hörmət və ehtiramımı bildirir, Türk dünyası yazıçılarının III qurultayının işində sizə uğurlar arzulayıram. Sağ olun.

TÜRKSOY beynəlxalq təşkilatının Bakıda keçirilən VIII toplantısında Prezident Heydər Əliyevin nitqi

Rəşid Behbudov Adına Dövlət Mahnı Teatrı
6 noyabr 1996-cı il

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, dostlar!

Bu gün Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisələr baş verir. Günün birinci yarısında Bakıda Türk dünyası yazıçılarının III qurultayı açılıbdır, ikinci yarısında isə TÜRKSOY Beynəlxalq Təşkilatının növbəti toplantısı işə başlayır. Sonra Azərbaycana təşrif gətirmiş qonaqlarımızla görüşlər və nəhayət, noyabrın 8-də böyük şair Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçiriləcəkdir. Beləliklə, qədim Azərbaycan torpağı, müstəqil respublikamız öz dostları, qonaqları ilə görüşür, qucağını öz dostlarına, qonaqlarına açır və səmimi qəlbdən ölkəmizi sayıb, hörmət edib, Məhəmməd Füzulinin yubileyinə rəğbət göstərib Azərbaycana gələnlərin hamısını ürəkdən salamlayır.

Hörmətli dostlar, TÜRKSOY Beynəlxalq Təşkilatının VIII toplantısının işə başlaması münasibətilə mən sizi ürəkdən təbrik edirəm, bu işinizdə sizə uğurlar arzulayıram.

Böyük məmnuniyyətlə qeyd edirəm ki, TÜRKSOY ötən dövrdə böyük yol keçibdir, yaxşı nailiyyətlər əldə edibdir, özünün çox zəruri və böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdiribdir. Böyük məmnuniyyət hissi doğurur ki, TÜRKSOY artıq beynəlxalq təşkilatdır. Birləşmiş Millətlər Təşkilatının bir hissəsi olan YUNESKO ilə bilavasitə əlaqə qurubdur. Böyük məmnuniyyət hissi doğurur ki, bu gün TÜRKSOY təşkilatının növbəti toplantısı artıq Gürcüstan Respublikasının nümayəndələri, Mədəniyyət naziri və Rusiya Federasiyasının nümayəndələri, Mədəniyyət nazirinin müavini də gəlibdir, onlar da bu toplantıda iştirak edirlər. Bunlar hamısı mədəniyyətin nə qədər böyük imkanlara malik olduğunu sübut edir. Bunlar hamısı mədəniyyətin müasir dövrdə insanların qarşısına çıxmış ağır, çətin, siyasi-iqtisadi, sosial problemlərin həllində nə qədər əhəmiyyət kəsb etdiyini və böyük xidmətlər göstərə biləcəyini sübut edir.

Ona görə də biz - Azərbaycan Respublikası, dövlətimiz TÜRKSOY Beynəlxalq Tşkilatının yaranmasından indiyə qədər onun zəruri olduğunu qeyd etmişik, bu barədə öz fikrimizi bildirmişik. Bu gün TÜRKSOY təşkilatının VIII toplantısında iştirak edərək xalqımız və dövlətimiz adından bəyan edirəm ki, bu təşkilatın gələcəkdə də uğurlu fəaliyyət göstərməsi üçün biz əlimizdən gələni əsirgəməyəcəyik.

Bu gün mən TÜRKSOY təşkilatının üzvü olan ölkələrin Mədəniyyət nazirlərini dinləyərək çox böyük hissiyyatlar keçirirəm. Bu, yeni bir aləmdir, dövrdür. Biz XX əsri sona çatdırırıq. Bir çox mərhələlərdən keçmişik. Həyatımızın çox xoşbəxt günlərini də yaşamışıq, eyni zamanda qanlı-qadalı, faciəli günlərini də görmüşük. Ona görə də hər bir yeni hadisə, şübhəsiz ki, bizi maraqlandırır və öz mənasına görə qiymətlidir.

TÜRKSOY-un yaranması və indi artıq geniş fəaliyyət göstərməsi bizim xalqlarımızı, ölkələrimizi həqiqətən ən çox sevindirən hadisələrdən biridir.

Vaxtilə biz Mərkəzi Asiyada olan türkdilli, türk kökünə mənsub xalqlarla, respublikalarla, ölkələrlə sıx əlaqədə olmuşuq.

Vaxtilə biz Tatarıstan və Başqırdıstan ilə sıx əlaqədə olmuşuq, görüşlərimiz keçirilib, mədəniyyət xadimlərimiz yaxından əməkdaşlıq ediblər, bir-birimizin ölkələrində mədəniyyət günləri keçirmişik. Ancaq mədəniyyətlərimizin bugünkü qədər yaxın, bu qədər sıx olduğunu görməmişik. Şəxsən mən dəfələrlə Mərkəzi Asiya ölkələrində olmuşam və o ölkələrin dövlət başçıları, respublikaların rəhbərləri, mədəniyyət nümayəndələri də Azərbaycanda olublar. Ancaq öz kökümüzə mənsub olan dildə bizim bir-birimizə müraciət etməyimiz, belə görüşlərdə öz dilimizdən istifadə etməyimiz və öz mədəniyyətimizin mənasını öz dilimizlə ifadə etməyimiz indiyədək olmamışdır. Mən bunları görərkən çox sevinirəm və hesab edirəm ki, bu, bizim böyük gələcəyimizin başlanğıcıdır.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın dövlətlərarası əlaqələrinin beşillik tarixi var. Ancaq Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri əsrlərdən-əsrlərə keçibdir. Təəssüflər olsun ki, XX əsrdə bizim bu əlaqələrimiz çox məhdudlaşdırılmış hətta kəsilmişdi. Türkiyədə baş verən hadisələr barədə məlumatı biz ancaq dünya mətbuatından alırdıq. Türkiyədəki qardaşla-

rımız, bacılarımız Azərbaycana həsrətlə baxır, burada olan hadisələrdən, gedən proseslərdən çox cüzi məlumatlar alırdılar. Ancaq indi biz müstəqillik əldə edəndən, sərbəst, azad olandan sonra bizim qısa bir müddətdə geniş əlaqələrimiz yaranıbdır. Türkiyə ilə Azərbaycan arasında indi olan əlaqələr bəlkə də tarix boyu bu qədər geniş, dərin olmayıbdır.

Bizim dilimiz, mədəniyyətimiz eynidir, bir-birimizlə də qonşuyuq. Ancaq bir-birimizdən nə qədər uzaqda olmuşuq, nə qədər aralı düşmüşük, bir-birimizin həsrətini çəkmişik. Bu gün artıq bir yerdəyik. Bu gün artıq hamımıza aydın olan, hamımızın anladığı dildə danışırıq və öz ürək sözlərimizi bir-birimizə çatdırırıq.

Tatarıstanın və Başqırdıstanın TÜRKSOY-a üzv olması xüsusən əlamətdar bir hadisədir. Bu, sevindirici bir haldır. Tatarıstan da, Başqırdıstan da böyük respublikalardır, Biz çox sevinirik ki, bu respublikalar Rusiya Federasiyasının tərkibində özlərinə çox böyük səlahiyyətlər əldə ediblər. Bu səlahiyyətlər çox yüksək səviyyədədir. Onlar artıq öz mədəniyyətini, milli irsini, milli tarixini istədikləri kimi həm geniş təhlil, həm də təbliğ etmək imkanı əldə ediblər.

Mən Tatarıstanın nümayəndələri ilə mərasimlərdə də, toplantılarda da və təkbətək də dəfələrlə görüşmüşəm. Ancaq biz ikimiz də anladığımız dildə heç vaxt danışmamışıq. Bu gün mən Tatarıstan və Başqırdıstanın Mədəniyyət nazirlərinin burada öz ana dillərində danışmasına çox sevinmişəm və bu ölkələri vaxtilə yaxşı bildiyimə baxmayaraq indiyədək heç təsəvvür edə bilmirdim ki, bu dillər bizim Azərbaycan dilinə bu qədər yaxındır və bu qədər də anlaşıqlıdır.

Bunlar hamısı dünyada gedən böyük ictimai-siyasi dəyişikliklərin nəticəsidir. Bunlar hamısı xalqlarımızın dövlət müstəqilliyini əldə etməsinin, milli azadlığa nail olmasının bəhrəsidir. Bunlar hamısı bizim üçün yeni bir eranın, epoxanın, yeni bir parlaq gələcəyin başlanğıcıdır. Biz xoşbəxt adamlarıq ki, bunlar bizə nəsib olubdur. Biz belə bir gələcəyin təməlini qoyanlardanıq. Ümidvaram ki, biz bu gələcəyi də görəcəyik, gələcək nəsillər görülən işləri layiqincə qiymətləndirəcəklər.

Çox sevindirici haldır ki, bu gün TÜRKSOY-un növbəti toplantısında Rusiya Federasiyasının və Gürcüstan Respublikasının nümayəndə heyətləri də iştirak edirlər. Mən qonşu Gürcüstanın Mədəniyyət naziri cənab Asatianini çox məmnuniyyətlə dinlədim. Rusiya Federasiyasının Mədəniyyət nazirinin müavini, bizim üçün çox yaxın və hörmətli olan cənab Şerbakovun çıxışını çox böyük məmnuniyyətlə dinlədim. Hər iki çıxışda TÜRKSOY-a çox doğma, müsbət münasibət, bu təşkilatla əməkdaşlıq etmək arzusu və gələcək əməkdaşlığa ümidverən sözlər həddindən artıq sevindiricidir.

Cənab Şerbakovun çıxışındakı bir nöqtə çox maraqlıdır. O bildirdi ki, Rusiya Federasiyasında slavyandilli xalqlardan sonra ikinci yerdə türkdilli xalqlar durur və onların da sayı 12 milyondur. O bildirdi ki, slavyandilli xalqlarla türkdilli xalqların əməkdaşlığına Rusiya Federasiyasında çox böyük diqqət və qayğı göstərilir. Bu, sevindirici haldır. Keçmişdə bu məsələlərə biz heç vaxt toxunmurduq, toxuna bilmirdik. Yəni toxunmaq istəsəydik də, bu, keçmiş dövrün tələblərinə uyğun ola bilməzdi. Ancaq görürsünüz dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqı məkanında baş vermiş hadisələr, meydana gəlmiş dəyişikliklər və dövlətlərin, respublikaların öz müstəqilliklərinə nail olmaları və Rusiya Federasiyasının keçmişdə Sovetlər İttifaqına mənsub olmuş respublikaların dövlət müstəqilliyinə böyük hörmət və ehtiram hissi ilə münasibət göstərməsi belə bir yeni amillərin meydana çıxmasına, onlardan istifadə edilməsinə şərait yaradır.

Bir daha qeyd edirəm ki, bu son illərdə meydana çıxmış dəyişikliklərin nəticəsidir. Bunlar bizim hamımızın - həm türkdilli dövlətlərin, həm də türkdilli ölkələrlə qonşu olan dövlətlərin bir-biri ilə sıx əməkdaşlıq etməsi üçün çox gözəl imkanlar yaradıb və böyük yollar açıbdır.

Türkdilli ölkələrin dövlət başçılarının toplantılarında TÜRKSOY təşkilatına xüsusi əhəmiyyət verilir. Oktyabrın 21-də Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının 4-cü görüşündə biz mədəniyyət sahəsi ilə əlaqədar bir çox məsələləri müzakirə etdik və artıq bəyan edilmiş Daşkənd Bəyannaməsində bu təşkilatın qarşısında bir çox vəzifələr irəli sürdük. Bunlar sizə məlumdur. Hesab edirəm ki, türkdilli ölkələrin dövlət başçılarının Daşkənddə qəbul etdikləri bəyannamə TÜRKSOY beynəlxalq təşkilatı üçün yeni böyük vəzifələr meydana gətiribdir. Onların həyata keçilməsi bu təşkilatın işini daha da canlandırmasına gətirib çıxaracaqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, burada - Bakıda keçirilən VIII toplantıda Daşkənd Bəyannaməsində irəli sürülmüş vəzifələr sizin tərəfinizdən diqqətlə müzakirə olunacaqdır və onların həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəksiniz.

Ümumiyyətlə, türkdilli ölkələrin dövlət başçılarının görüşlərinin əsas məqsədi iqtisadi əməkdaşlığı inkişaf etdirilməkdən, ölkələrimiz arasında olan bütün başqa əlaqələri genişləndirməkdən ibarətdir. Biz bəyan edirik ki, bizim bu görüşlərimiz siyasi xarakter daşımır. Eləcə də TÜRKSOY təşkilatı siyasi xarakter daşımır. Eyni zamanda, biz ölkələrimizin həyatı ilə əlaqədar olan ictimai-siyasi məsələlərə də biganə qala bilmirik və qala bilmərik. Ancaq bu daha deyirəm, bizim fəaliyyətimizin əsas istiqaməti iqtisadiyyat, elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığı ge-

nişləndirməkdən ibarətdir.

Bu baxımdan bizim üçün, yəni dövlət başçıları üçün TÜRKSOY təşkilatının fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Daşkənd Bəyannaməsində öz əksini tapmış qərarların əksəriyyəti elmə, mədəniyyətə, təhsilə aiddir. Onların çoxu da TÜRKSOY vasitəsilə həyata keçirilməlidir. Ona görə də mən güman edirəm ki, gələcəkdə bütün bu əlaqələrin genişlənməsi üçün siz lazımi tədbirlər həyata keçirəcəksiniz.

Bizim ölkələrimizdə gedən ictimai-siyasi proseslər, sosial-iqtisadi çətinliklər, şübhəsiz ki, mədəniyyətə istənilən qədər qayğı göstərməyə və maddi yardım etməyə imkan vermir. Bilirsiniz ki, Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində işğal olunubdur. İşğal olunmuş torpaqlarımızdan 1 milyonda artıq vətəndaşımız, azərbaycanlılar yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşüb qaçqın vəziyyətində yaşayırlar. Belə bir şəraitdə, şübhəsiz ki, bütün fəaliyyətimizin əsas hissəsi Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz evlərinə, ellərinə-obalarına qaytarmaq və bununla yanaşı, iqtisadi islahatları həyata keçirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir. Bunlar bizim dövlətimizin, hökumətimizin işinin demək olar ki, bütün məzmununu təşkil edir, yəni biz fəaliyyətimizi əsasən buna yönəldirik. Bu vaxtımızın çox hissəsini alır və işimizin hamısını buna həsr etməyə məcburuq. Ancaq buna baxmayaraq, mədəniyyət, elm, təhsil bizim üçün ən əsas vəzifələrdəndir.

Mədəniyyətimizi, elmimizi, təhsilimizi, insanların mənəviyyatını daha da yüksəklərə qaldırmaq üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir. TÜRKSOY bu işi görür və indiyə qədər, qısa müddətdə - üç il ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə bilər və ölkələrimiz, xalqlarımız üçün daha çox iş görə bilər. Bu da ondan ibarətdir ki, xalqlarımızın əlaqələrini bir-biri ilə daha da sıx bağlasın. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir.

Burada çıxış edən natiqlər də dedilər ki, müxtəlif tədbirlər keçirilməsi artıq öz nəticəsini veribdir. Ancaq qarşıda böyük vəzifələr durur. Məsələn, Daşkənd Bəyannaməsində biz TÜRKSOY-a tövsiyə etdik ki, bu təşkilat ona daxil olan türkdilli ölkələrin xalqlarının ümumi bir təqvimini tərtib etsin və bu təqvim, ola bilər, gələcəkdə hər bir xalqın tarixinə, mədəniyyətinə, tarixi keçmişinə aid hadisələrin birlikdə qeyd olunmasını, lazım gələrsə yubiley mərasimlərinin, təntənələrinin bir yerdə keçi-

rilməsini təmin etsin.

Məhəmməd Füzulinin yubileyinin keçirilməsi xalqlarımızın son illərdə bu baxımdan əlaqələrinin inkişaf etməsinin nəticəsidir. Artıq Azərbaycana bir çox ölkələrdən - türkdilli, qonşu və başqa ölkələrdən bu yubiley mərasimlərində iştirak etmək üçün yüksək səviyyəli nümayəndə heyətlərinin gəlməsi respublikamızın, xalqlarımızın, ölkələrimizin həyatında yeni bir mərhələdən yarandığını göstərir. Bunlar hamısı sevindirici haldır. Bunlar TÜRKSOY təşkilatı üçün gələcəkdə də yaxşı əsas yaradır.

Mən sizinlə bugünkü görüşümdən çox məmnunam. Sizin hamınıza bu işinizdə müvəffəqiyyətlər arzu edirəm. Bu fürsətdən istifadə edib TÜRKSOY təşkilatına daxil olan ölkələrin xalqlarına və bu mərasimdə iştirak edən nümayəndə heyətlərinin təmsil etdikləri ölkələrin xalqlarına hörmət və ehtiramımı bildirirəm və dostluq salamımı göndərirəm. Sağ olun, işləriniz uğurlu olsun, gələcək görüşlərə qədər.

Türkiyənin TQRT telekanalının "Üz-üzə" proqramına Prezident Heydər Əliyevin müsahibəsi

Prezident Sarayı
13 noyabr 1996-cı il

Müxbir: Cənab Prezident, axşamınız xeyir. Görüşümüz gec oldu, bir neçə saatdan sonra günəş doğacaq, azan oxunacaq.

Cavab: Axşamınız xeyir.

Sual: Cənab Prezident, necəsiniz?

Cavab: Yaxşıyam, sağ olun, siz necəsiniz?

Sual: Sağ olun. Sizə cansağlığı arzulayıram. TQRT-yə xoş gəlmisiniz! İcazə verin, hörmətli tamaşaçılarımıza qısa bir məlumat verim. Azərbaycanın paytaxtı, Bakıdayıq. Azərbaycandan hamınıza xeyirli axşamlar diləyirik. İndi Azərbaycanda gecə saat 1-dir. Bəli, üç saatdan sonra səhər azanı oxunacaq, dörd saatdan sonra günəş doğacaq. Gecənin bu saatında cənab Prezident Heydər Əliyev ilə "Üz-üzə"də bir yerdəyik. Cənab Heydər Əliyev önəmli bir şəxsiyyətdir. O, Naxçıvandan Sovet Sosialist Respublikalar İttifaqı Baş nazirinin birinci müavini vəzifəsindən yüksələn bir yol, mənalı bir həyat yolu keçmişdir. Heydər Əliyev oradan təkrar Naxçıvana qayıtmış və hazırda Azərbaycan Respublikasının Prezidentidir.

Bəli, Sovet Sosialist Respublikaları İttifaqının ən parlaq dövründə görkəmli bir türk adlandırılan bu şəxsiyyət həmin imperiyanın dağılmasının şahididir. Biz həmin imperiyanın yüksəlişinin və süqutunun canlı şahidini bu gecə dinləyəcəyik.

Necəsiniz, cənab Prezident? Cənab Prezident, öz həyatınız haqqında qısa məlumat verərsinizmi ki, harada doğulmusunuz, atanız nə işlə

məşğul idi?

Cavab: Həyatım haqqında danışmaq üçün çox vaxt lazımdır. Buna bir saat bəs eləməz. Amma qısa olaraq deyə bilərəm. Mən 1923-cü ildə Naxçıvanda anadan olmuşam.

Sual: Yəni bizdə Türkiyə Cümhuriyyətinin yaradıldığı ildə?

Cavab: Bəli, Türkiyə Cümhuriyyətinin yaradıldığı ildə mən anadan olmuşam.

Sual: Cənab Prezident, Siz hansı ayda doğulmusunuz?

Cavab: Mən may ayında doğulmuşam. Sizin Cümhuriyyətiniz isə noyabr ayında yaranıbdır.

Sual: Demək, bizim cümhuriyyətlə eyni yaşdasınız?

Cavab: Bəli, elədir, eyni yaşdayam. Naxçıvanda böyümüşəm, orada orta təhsilimi almışam. Sovet sistemində orta təhsil on il oxumaqdır. O vaxtlar da, indi də belədir. On il oxuyandan sonra ali məktəbə daxil olmaq imkanı yaranırdı. Mən 1939-cu ildə Naxçıvanda onillik orta təhsil alandan sonra Bakıda Texniki Universitetin memarlıq fakültəsinə daxil olmuşam. İkinci dünya müharibəsi başlandı. Sovet İttifaqı bu müharibəyə qoşuldu.

Sual: Cənab Prezident, Sovetlər İttifaqının bu müharibəyə qoşulması haqqında danışmazdan əvvəl istərdim ki, deyəsiniz, atanız nə işlə məşğul olurdu?

Cavab: Mənim atam dəmir yolunda fəhlə işləyibdir. Keçmiş dövrlərdə Bakıda neft mədənlərində fəhlə olub, sonra Naxçıvanda dəmir yolunda işləyibdir.

Müxbir: Bəli, indi 1941-ci ilə qayıdaq.

Cavab: O illərdə mən universitetdə oxuyurdum. Ancaq müharibə başlandı, təhsilim yarımçıq qaldı, həyatımız bu dünya müharibəsi ilə bağlandı. O vaxt Daxili İşlər Nazirliyində KQB deyilən bir təşkilat var idi, siz bunu bilirsiniz.

Sual: Siz KQB-yə o vaxt qəbul olundunuz?

Cavab: Bəli, gənc vaxtlarımda mən ali məktəbdə təhsil alırdım, oradan da bu təşkilata işə keçdim.

Sual: Bu təşkilatda işləməyə necə keçdiniz, bu barədə qısa məlumat verə bilərsinizmi?

Cavab: Universitetdə oxuyarkən məni oraya dəvət etdilər. Sonra orada zabit oldum.

Sual: Yəni KQB-nin zabiti oldunuz?

Cavab: Bəli, orada zabit oldum.

Sual: O vaxt KQB-də türk zabit təkcə siz idiniz, yoxsa başqaları da var idi?

Cavab: Türk var idi, ancaq az idi. Ruslar və başqa millətlərdən olanlar daha çox idi. Bu işdə türk millətindən çox az adam var idi.

Sual: Lütfən, daha bir söz soruşum. Siz KQB-yə daxil oldunuz, nə işlə məşğul idiniz? Çünki bu, xəbəralma, yəni casusluqla məşğul olan bir təşkilatdır.

Cavab: Bu belə bir casusluq deyil. Dünyada kəşfiyyat aparmaq casusluq deyil. Bilirsiniz, bunu kim hansı ölkəyə qarşı aparırsa, həmin ölkə ona casus deyir. Amma kimsə başqa bir ölkədə bunu edirsə bu, casus deyil. O öz ölkəsinə xidmət edir, casus deyil. Bu, şərəfli bir vəzifədir. Türkiyədə də belə olubdur. O vaxtlar mən məktəbdə oxuyurdum. Türkiyədə MAH təşkilatı var idi. Siz cavansınız, bəlkə xatirinizdə deyil. O vaxt belə bir təşkilat var idi, ona MAH deyirdilər, indi onun adı MİT olubdur.

Sual: O vaxt siz orada rütbə aldınız. Əsasən hansı işlə məşğul olurdunuz?

Cavab: Elə bir şey deyil ki, bu barədə geniş danışım. Geniş danışsam, gərək sizinlə beş saat söhbət edək. Ona görə də vaxtınızı belə şeylərə itirməyin.

Sual: KQB-də olduğunuz illər, aylar barədə qısaca məlumat verə bilərsinizmi?

Cavab: KQB-də günlərim, aylarım çox olub. 25 yaşından başlayaraq orada 27-28 il işləmişəm. Ən kiçik zabit rütbəsindən - leytenantdan generaladək yüksəldim.

Sual: Siz general idiniz?

Cavab: Bəli, general idim. O vaxt Sovet generalı olmaq çox şərəfli vəzifə idi. Bu rütbəyə hər adam çata bilməzdi.

Sual: Türk dünyasından Sizdən başqa general çıxdımı?

Cavab: Məndən sonra çıxdı, mənə qədər yox idi. Orduda vardı, amma KQB-də mənə qədər türk generalı olmamışdı.

Sual: Siz KQB-də çalışdınız. Təbii ki, bu təşkilata İkinci dünya müharibəsindən sonra daxil olmuşdunuz. Türkiyə İkinci dünya müharibəsinə qoşulmadı. Türkiyənin bu siyasəti o vaxt necə qarşılanırdı, necə qiymətləndirilirdi?

Cavab: O vaxt biz Türkiyənin dünya müharibəsinə qoşulmasından çox qorxurduq. Yəni belə bir təhlükə var idi ki, Türkiyə dünya müharibəsinə qoşulsun. Amma Türkiyədə ağıllı adamlar olubdur. Türkiyənin İkinci dünya müharibəsinə qoşulmasına imkan vermədilər. Çünki Türkiyə bu müharibəyə qoşulsaydı, gərək Qafqaz da qoşulaydı. Necə olacaqdı, - bunu demək mümkün deyil. Burada ordu çox idi. Mən o vaxt bu barədə düşünürdüm. Amma müharibədən sonrakı illərdə, yaşa dolandan sonra tarixə, bu işlərə baxanda gördüm ki, - mən Türkiyənin dövlət adamları ilə görüşlərimdə də bu barədə dəfələrlə demişəm, - çox vacib bir hal oldu ki, Türkiyə dünya müharibəsinə qoşulmadı.

Sual: Əgər Türkiyə İkinci dünya müharibəsinə girmiş olsaydı, müharibənin nəticəsi dəyişə bilərdimi?

Cavab: Yox, dəyişə bilməzdi.

Sual: Yəni demək istəyirsiniz ki, Türkiyə məğlub olacaqdı?

Cavab: Türkiyə də Almaniya kimi məğlub olacaqdı. Amma bilirsiniz ki, Almaniyanın məğlubiyyətindən bir az əvvəl Türkiyə Almaniyaya

müharibə elan etdi.

Sual: O vaxt Sovetlər İttifaqındakı bir türk kimi Siz yəqin ki, Türkiyənin müharibəyə girməsini istəmirdiniz?

Cavab: Bəli, Türkiyənin müharibəyə girməsini istəmirdim. Əgər Türkiyə müharibəyə girsəydi, müharibə Qafqazda gedəcəkdi. Çünki almanlar gəlib Qafqaz dağlarında durmuşdular. Bakıya girə bilmirdilər, **Bilirsiniz ki, o vaxt bütün Sovetlər İttifaqı ordusunun nefti Bakıdan gedirdi. Əgər Bakının nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi bəlkə də mümkün deyildi.** Müharibədə qələbənin əldə edilməsində Azərbaycan neftinin müstəsna, fövqəladə xidməti, rolu var. Amma Türkiyə bu savaşa girsəydi, burada, Qafqazda müharibə başlayacaqdı. Burada kim müharibə edəcəkdi? Burada türk türkə qarşı müharibə edəcəkdi. Burada sovet ordusu rus ordusu da var idi. Amma burada türklər, azərbaycanlılar da yerləşirdi. Ona görə də Türkiyənin bu müharibəyə girməməsi tarixdə çox önəmli bir haldır.

Sual: O vaxt eyni zamanda Siz kəşfiyyatçı idiniz. Stalinin o vaxt Türkiyəyə qarşı siyasəti necə idi? Çünki Siz illərlə bu işin içində olmusunuz?

Cavab: O vaxt Türkiyəyə düşmən münasibət bəslənilirdi. Çünki Türkiyə Almaniya ilə bir blokda idi. Ona görə də Türkiyəni düşmən hesab edirdilər. Amma eyni zamanda Türkiyənin savaşa girməməsi Sovetlər Birliyi tərəfindən çox yaxşı qəbul olunurdu.

Sual: Yəni Sovetlər Birliyi Türkiyənin savaşa girməsini istəmirdi?

Cavab: Əlbəttə ki, istəmirdi.

Sual: Kommunist Partiyasına Siz o vaxt daxil oldunuz?

Cavab: Bəli, Kommunist Partiyasına müharibə vaxtı, 1943-cü ildə daxil olmuşam.

Sual: Partiyaya Siz özünüz daxil oldunuz, yoxsa Sizi qəbul etdilər?

Cavab: Bilirsiniz ki, o vaxt vəziyyət belə idi. Kommunist Partiyası elə bir hörmətli partiya idi ki, burada başqa bir partiya yox idi, hər bir gənc, yəni gənclərin əksəriyyəti, - o vaxt komsomol, gənclər təşkilatı var idi, - bu təşkilatdan sonra Kommunist Partiyasına daxil olmaq imkanı alırdısa, bu, onun üçün şərəf idi. Mən də o vaxt istedadlı bir gənc idim, yəni tanınan bir gənc idim. Ona görə də mənim Kommunist Partiyasına daxil olmağım çətin olmadı.

Sual: Naxçıvanda tanınırdınız, yoxsa bu bölgədə?

Cavab: O vaxt partiyaya girəndə məni ancaq Naxçıvanda tanıyırdılar. Amma KQB-də, Azərbaycanda da tanıyırdılar. Kommunist Partiyasına daxil olanda gənc idim. 20 yaşım var idi.

Sual: Sizi kim qəbul etdi? Partiyaya özünüz daxil oldunuzmu?

Cavab: O vaxt Partiya Komitəsi var idi. Onlar imtahan edirdilər, sual verirdilər. Partiyaya qəbul olunmaq asan iş deyildi.

Sual: Parlaq zəkalı insanları partiyaya qəbul edirdilər?

Cavab: Bəli, zəkalı, ağıllı, etibarlı insanlar o vaxt Kommunist Partiyasına qəbul oluna bilərdilər.

Sual: Partiyaya qəbul olunandan sonra Sizin ilk vəzifəniz nə oldu?

Cavab: Partiyada elə bir vəzifəm olmadı. Mən KQB-də işlədiyim. Partiyanın üzvü o demək deyildi ki, gərək onun partiyada bir vəzifəsi olsun. KQB-də çalışırsan, amma Kommunist Partiyasının üzvüsən.

Sual: Siz 20 yaşında Kommunist Partiyasının üzvü oldunuz. Xatirinizdədirmi ki, Siz bu işləri doğru və yaxud yanlış etmisiniz?

Cavab: O vaxt mən hesab edirdim ki, mən bunları çox doğru etmişəm. İndi də hesab edirəm ki, doğru etmişəm.

Sual: Nə üçün fikirləşirsiniz ki, doğru etmisiniz?

Cavab: Çünki o vaxt həyat belə idi. Mən bu ölkədə doğulmuş, təhsil almış, böyümüş bir insanam, bu quruluşu, cəmiyyəti sevmiş bir adamam. Mən orada yanlış heç bir şey etməmişəm.

Sual: O vaxt kommunist sistemi Sizə tərs görünmürdü ki?

Cavab: Xeyr, kommunist sistemi mənə tərs görünmürdü. Bunu dəfələrlə demişəm, - həyatımın bütün mərhələləri mənim üçün əzizdir. Heç bir şeyi yanlış etməmişəm. Nə etmişəmsə hamısını doğru etmişəm. Heç bir şeyə də heyfslənmirəm.

Sual: Sizdən daha başqa şeylər soruşmaq istəyirəm. O vaxtlar Sovetlər Birliyi və orada yaşayan insanlar, Kommunist Partiyası bizə çox soyuq görünürdü.

Cavab: Kommunistlərin istisi də, soyuğu da var. Hər bir insan insandır. Kommunist olan insanı kommunist soyutmur ki, yəni onun istisini çıxarmır ki! O da insandır. Hər ölkədə insanın yaxşısı da var, pisi də var. Sizin dildə desək, iyisi də, kötüsü də var.

Sual: İkinci dünya müharibəsi başa çatdı. Siz o vaxt KQB-də işləyirdiniz. O vaxtdan sonra Sizin həyatınızda hansı yeniliklər oldu?

Cavab: Ondan sonra mən KQB sistemindəki ən yüksək məktəblərdə - Moskvada, Peterburqda oxudum.

Sual: Bu məktəblərdə hansı ixtisaslara yiyələndiniz?

Cavab: KQB, sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxudum. Müharibədən əvvəl mən memar olmaq istəyirdim. Müharibəyə görə bu pozuldu. Sonra mən siyasətə qoşulduğuma görə tarix fakültəsini bitirdim, tarix elmini öyrəndim. KQB-nin ən yüksək məktəblərini bitirdim, hamısını da çox gözəl. Yəni mən harada oxumuşamsa, - biz əla deyirik, sizdə isə ən yüksək deyirlər, qiymətlərlə oxumuşam.

Sual: KQB-nin məktəblərində Siz hansı ölkənin, yaxud xalqın tarixini, türk tarixinimi, Osmanlı tarixinimi öyrənirdiniz?

Cavab: Orada bütün tarixləri - Osmanlı, rus, Avropa, qədim yunan, Çin tarixini də - hamısını öyrənirdik.

Sual: Bunların içərisində İslam tarixi də var idimi?

Cavab: Bəli, İslam tarixi də var idi.

Sual: Daha sonra Siz Azərbaycanda, Naxçıvanda partiyanın Baş katibi vəzifələrinə yüksəldiniz, eladirmi?

Cavab: Yox, Naxçıvandan 1948-ci ildə oxumağa getdim. Ondan sonra Bakıda çalışmağa başladım. Bakıda mən çox böyük pillələrdən keçdim.

Sual: Hansı pillələrdən?

Cavab: Bilirsiniz, KQB sistemində çox mərtəbələr var. Onlar onun daxilindədir. Mən çox gənc vaxtlarımdan ən yüksək mərtəbəyə qalxdım.

Sual: Azərbaycanda, Bakıda olarkən Sizin vəzifəniz nə idi?

Cavab: Burada mən böyük bir idarənin başçısı idim. Yəni KQB-də həm xarici kəşfiyyat, həm də daxili kəşfiyyat sahəsinə rəhbərlik edirdim. Sonra Azərbaycanda KQB-in sədr müavini, daha sonra isə sədri oldum.

Sual: O vaxt kəşfiyyat sahəsində Sizi ən çox hansı ölkələr maraqlandırırdı,- İran, Türkiyə...

Cavab: Nə barədə?

Sual: Yəni məlumat toplamaq baxımından ən çox maraq göstərdiyiniz sahə...

Cavab: Hamısından - İrandan da, Türkiyədən də, Amerikadan da toplayırdıq.

Sual: Ən çox hansı sahədə - siyasi, hərbi, iqtisadi sahələrdə məlumatlar toplayırdınız?

Cavab: Ən çox hərbi məlumatlar. Bir də biz Sovetlər Birliyinə qarşı casusluq edib, məlumatlar toplayıb öz ölkələrinə vermək istəyənləri çox arayırdıq.

Sual: Ələ keçirdiyiniz adamlar oldumu?

Cavab: Bəli, çoxlarını yaxaladıq. Eyni zamanda digər ölkələrdə də bu işləri gördük.

Sual: Heç Türkiyədən də yaxaladığınız adamlar oldumu? Məsələn, neçə nəfər yaxalandığı yadınızdadırmı?

Cavab: Xatirimdə deyil.

Sual: O vaxt yaxaladığınız adamlar içində indi Türkiyədə yüksək vəzifə tutanlar varmı?

Cavab: Yox, xatırlamıram. Bunlar çoxdan olub.

Sual: Siz burada Azərbaycan KQB-sinin sədri idiniz...

Cavab: Bəli, mən Azərbaycan KQB-sinin sədri idim. Bu, azərbaycanlı, türk üçün çox əhəmiyyətli bir vəzifə idi. Çünki mənə qədər Azərbaycanda 1920-ci ildən bəri KQB-nin heç bir sədri azərbaycanlı olmamışdır. Bu vəzifədə həmişə ruslar, ermənilər, yəhudilər və digər millətlərdən olan adamlar işləmişdilər. Mən ilk türk, azərbaycanlı - Heydər Əliyev idim ki, KQB sədri olmuşdum.

Sual: Bu vəzifədə Sizdən sonra kim oldu? Siz buradan Moskvaya

getdiniz, deyilmi?

Cavab: Yox, mən buradan Moskvaya getmədim. Mən KQB-nin sədrliyindən Azərbaycan Respublikasının rəhbəri oldum, yəni Azərbaycan KP MK-nin birinci katibi oldum. Birinci katib indiki mənada Respublika Prezidenti demək idi.

Sual: Bürodan Moskvaya, Siyasi Büroya getdiniz, deyilmi?

Cavab: Bəli, buradan Moskvaya getdim.

Sual: Orada uzun müddət yaşadınız. İndi gəlin, Moskvadan dünyaya baxaq.

Cavab: Mən Moskvaya 1982-ci ilin dekabrında getdim. Bu belə oldu. Büro üzvülüyünə, amma burada çalışarkən Moskvada Siyasi Büro üzvülüyünə namizəd idim. Bu da Azərbaycanın tarixində ilk dəfə baş vermişdi. Yəni Sovet hakimiyyəti qurulandan bəri Azərbaycan rəhbəri heç vaxt burada işləyə-işləyə Moskvada Siyasi Büronun tərkibində olmamışdır - nə üzv, nə də üzvlüyə namizəd. Mən ilk dəfə 1975-ci ildə, burada rəhbər ikən Siyasi Büro üzvülüyünə namizəd seçildim.

Sual: 1970-ci ildə rəhbər oldunuz, 1982-ci ildə isə...

Cavab: Xeyr, mən 1969-cu ildə Azərbaycanın rəhbəri oldum. Rəhbər olmaq avtomatik surətdə Siyasi Büronun üzvü olmaq deyil. Məndən əvvəl də, sonra da burada nə qədər rəhbərlər olmuşdu. Onların heç biri Siyasi Büro tərkibinə seçilmədi.

Sual: Amma Siz seçildiniz...

Cavab: Mən altı il Azərbaycana rəhbərlik etdikdən sonra eyni zamanda, Siyasi Büro üzvlüyünə namizəd oldum. Bu o deməkdir ki, mən həm Azərbaycanın rəhbəri idim, həm də Siyasi Büro üzvülüyünə namizəd olduğum üçün SSRİ rəhbərliyinə daxil idim. 1982-ci ildə Brejnev vəfat etdikdən sonra Andropov Baş katib seçildi. O, məni Moskvaya gətirdi ki, orada həm Siyasi Büronun üzvü, həm də Baş nazirin birinci müavini işləyim. Baş nazirin 12 müavini var idi. Onlardan ancaq bir nəfəri birinci müavin idi. Siyasi Büronun isə cəmi 10 üzvü var idi. Amma mən həm Siyasi Büro üzvü, həm də Baş nazirin birinci müavini olduğuma görə o vaxt Sovetlər Birliyinin rəhbərliyində üçüncü-dördüncü şəxs idim.

Müxbir: 1982-ci ildən Sovetlər İttifaqı süquta uğramağa başladı.

Cavab: Yox, süqut 1982-ci ildən başlamadı. Süqut 1985-1986-cı illərdən başladı.

Sual: O zaman Siz bu sistemin çökdüyünü görürdünüzmü?

Cavab: Bəli, artıq görürdüm. Mən 1987-ci ilin sonunda istefaya getdim.

Müxbir: Brejnev vəfat etdi, Andropov gəldi. Siz Moskvaya getdiniz. Qorbaçov gəlməzdən öncə orada idiniz.

Cavab: Mən Qorboçovla da bərabər işlədim.

Sual: 1940-cı ildən etibarən Siz həm KQB-də, həm də partiyada işlədiniz. 1969-cu ildən Azərbayca-

nın rəhbəri, 1982-ci ildən isə Sovetlər Birliyinin rəhbərlərindən biri oldunuz. Bu müddət ərzində Sovet rəhbərlərindən Sizə ən çox kim təsir göstərib, onların ən ağıllısı, ən çalışqanı kim idi?

Cavab: Bilirsiniz, bu məsələ belədir. Brejnev 18 il ölkəyə rəhbərlik etdi. 1982-ci ildə vəfat etdi. Brejnevin vaxtında mən Azərbaycana rəhbər seçildim. 1969-cu il idi, Brejnev məni Moskvaya çağırdı və təklif etdi ki, Azərbaycanın rəhbəri oldum. Mən imtina etdim, istəmirdim. Çünki KQB əməkdaşı, general, bu işin mütəxəssisi kimi mən Azərbaycan Respublikasına rəhbərlik etməyi özüm üçün bəlkə də çətin hesab edirdim. Amma onlar xahiş etdilər. Mən də buna razılıq verdim. Mən Brejnevlə çox işlədim. 1969-cu ildən 1982-ci ilədək, yəni təxminən 14 ilə yaxın Brejnevin rəhbərliyi altında işlədim.

Sual: Brejnevi ondan əvvəl tanıyırdınızmı?

Cavab: Yox. Tanıyırdım, ancaq şəxsi tanışlığımız yox idi. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra Brejnevlə təmaslarımız çox oldu. Ondan sonra daim əlaqədə olurduq.

Sual: Brejnev Türk dünyasına necə baxırdı?

Cavab: Brejnev də, Andropov da Türk dünyasına, əslində Sovetlər İttifaqının rus olmayan xalqlarına çox normal münasibət bəsləyirdilər.

Sual: Yaxşı, ən pis münasibət kimin dövründə oldu?

Cavab: Qorboçovun dövründə.

Sual: Bəs Qorboçovdan əvvəl?

Cavab: Qorboçovdan əvvəl Andropov bir il rəhbər oldu, öldü. Ondan sonra bir il Çernenko oldu, o da vəfat etdi. 1985-ci ildə biz Qorboçovu seçdik. Qorboçovu seçənlərdən, ona səs verənlərdən biri də mənəm.

Sual: Bəli, Qorboçov dövrü başlandı və Siz Moskvadasınız.

Cavab: Moskvada Qorboçovla birlikdə işləyirdik.

Sual: Sovet sistemi yavaş-yavaş çökürdü, deyilmi? Siz bunu nə vaxt hiss etdiniz?

Cavab: 1986-cı ildə. Hiss etdim ki, sistem tədricən süquta uğrayır.

Sual: Sizcə, bu sistem niyə çökdü?

Cavab: O vaxt mən belə düşünmürdüm, amma sonrakı təhlillər göstərdi ki, bu məhz belə olmalı idi, sistemin çökməsi labüd idi.

Sual: Niyə labüd idi?

Cavab: Bilirsiniz, bu quruluş dünyadakı bütün quruluşlardan fərqli idi. Ya gərək bütün dünya Sovet sisteminə keçəydi, ya da gərək Sovet sistemi dağılaydı. Artıq Sovet sistemi özünün bütün proqramlarını yerinə yetirə bilmirdi, Qərb isə getdikcə güclənirdi. Qərbdə iqtisadiyyat çox gücləndi, yüksəldi, Stalin dövründə Sovetlər Birliyi qapalı cəmiyyət idi, yəni dünya ilə heç bir əlaqəsi yox idi. İnsanlar xaricdə - Almaniyada, Fransada nələr baş verdiyini bilmirdilər. Elə bilirdilər ki, həyat elə budur,

bundan artıq həyat yoxdur. Stalin öləndən sonra qapılar müəyyən qədər açıldı, insanlar xaricə getdilər-gəldilər, iqtisadi əlaqələr genişləndi. Get-gedə insanlar gördülər ki, Qərbdəki həyat bizdəkindən firavandır. Qərbdə hüriyyət var, burada o qədər yoxdur, iqtisadiyyat Qərbdə daha yaxşıdır. Bu fərq get-gedə çoxaldı. 20, 30, 40-cı illərdə insaları mübarizəyə qaldıran, səfərbər edən Sovet quruluşu, sistemi artıq buxova çevrildi, işləmədi. Ona görə də sistem yavaş-yavaş çökməyə başladı.

Sual: 1985-ci ildən Qorbaçovla bərabər işlədiniz?

Cavab: Biz Qorbaçovla Brejnevin vaxtından bir yerdə çalışırdıq, o da Siyasi Büroda idi, mən də, yanyana otururduq. Ancaq 1985-ci ildə biz onu Baş katib seçdik. Yenə də bərabər işləyirdik. Yəni Siyasi Büronun üzvü, Baş nazirin birinci müavini Baş katiblə hər gün təmasda idi. O vaxt sistem belə idi.

Sual: O vaxt Qorboçovla Sizin aranızda narazılıq başladı. Bu, nədən oldu?

Cavab: 1986-cı ildə ilk dəfə Qorboçov Sovetlər Birliyinin tərkibindəki türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz. Onunla bir neçə dəfə belə söhbətim oldu. Nəhayət, 1986-cı ilin dekabrında Qazaxıstanın rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Kunayev qazax, türk idi. O, 22 il orada bu vəzifədə çalışmışdı. Onun vaxtı gəldi, yəni o, vəzifədən istefa verməli idi. Mən ona qarşı olan ədalətsizliyə etiraz etdim. Digər tərəfdən, o istefa verəndən sonra onun yerinə Moskvadan Qorboçova yaxın, rus millətindən olan bir adamı təyin etdilər. Mən Qorboçova söylədim ki, bunu etmək olmaz. Qazaxıstan böyük bir respublikadır. Kunayev qazaxdır, o, 22 ildir ki, oraya rəhbərlik edib. Bundan əvvəl də bu respublikaya rəhbərlik edənlər qazaxlar olublar. Amma indi Qazaxıstana başqa millətdən olan bir adamı rəhbər göndərmək doğru deyil. O, mənə dedi ki, qazaxlar özləri bunu rica ediblər. Ancaq yanlış deyirdi, əslində belə şey yox idi. Mən bildirdim ki, bunu qazaxların hamısı istəmir. Ola bilər, bəziləri istəsinlər, amma hamısı istəmir. Bu, doğru siyasət deyil.

Qazaxlar yeni təyin olunan adamı qəbul etmədilər. Orada gənclər ayağa qalxıb üsyan etdilər. Onların bir çoxlarını həbs etdilər, bəziləri həlak oldular. Sonra araşdırmalar aparıb "Qazaxıstan millətçiliyi" barədə qərar qəbul etdilər. Yəni qazax xalqına qarşı bir qərar çıxardılar. Mən buna qarşı da etiraz etdim.

Tək bu deyildi. Şimali Qafqazda bir çox kiçik müsəlman respublikaları var. Məsələn, Kabardin-Balkar Muxtar Respublikasının rəhbəri Malbaxov da müsəlman idi. Qorboçov onu çıxarıb, yerinə Sibirdən bir rusu gətirib qoymaq istəyirdi. Mən buna da, digər belə məsələlərə

də etiraz etdim. Siyasi Büroda mənim - bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi.

Sual: Təbii ki, Siz bütün bunlara qarşı çıxdınız. Əlinizdə KQB kimi böyük bir kəşfiyyat təşkilatı var idi. Yəni Qorboçov Qazaxıstandakı bu vəziyyəti kəşfiyyatdan aldığı məlumatlara görə idarə edirdi, yoxsa ona yanlış məlumatlar verilirdi? Siz bu işin içində idiniz, bu barədə Sizə etibarlı məlumatlar gəlmirdimi?

Cavab: Qorboçov doğru kəşfiyyat məlumatlarını yox, özü istədiyi məlumatları alırdı.

Sual: Yəni o, oradakı vəziyyəti və KQB-nin üzvlərini özü istədiyi şəkildə istiqamətləndirirdi?

Cavab: Bəli. O vaxt KQB məlumatları mənə vermirdi.

Sual: Siz artıq kənarda qalmışdınız?

Cavab: KQB kəşfiyyat məlumatlarını ancaq Qorboçova verirdi.

Sual: O da yəqin ki, bu məlumatlar əsasında hərəkət edirdi. Siz buna qarşı çıxdınız, sonra mübahisə etdiniz?

Cavab: Yox, elə bir böyük mübahisə olmadı. Doğrudur, bir neçə mübahisəmiz oldu, sonra mən gördüm ki, işləmək mümkün deyil, istefa verdim.

Sual: Siz istefa verdikdən sonra Naxçıvana döndünüz?

Cavab: Yox, istefa verib, qalıb orada yaşadım. 1987-ci ilin sonundan Moskvada yaşamaqda davam etdim. 1988-ci ildə mənə qarşı kampaniya qaldırdılar ki, Heydər Əliyev Azərbaycanda bunu düzgün etməyib, onu düzgün etməyibdir, bu yanlış olub, o yanlış olub. Azərbaycanda da bəzi rus adamlar Qorboçova qoşuldular, məni ləkələmək, hörmətdən salmaq istədilər. Mənim haqqımda qəzetlərdə yazdılar. Etiraz etmək istədim, amma buna imkan vermədilər.

Bax, o quruluşa mən sonralar nə üçün etiraz etdim? Çünki imkan vermədilər ki, mən öz hüquqlarımı qoruyum, müdafiə edim. Qəzetlərdə mənim əleyhimə yazılar yazırdılar. Mən qəzetin redaktoruna zəng edirəm, - onların hamısı məni tanıyır, mən də onları tanıyıram, - deyirəm ki, mənə imkan ver, balaca bir cavab verim. Deyir ki, olmaz. Televiziyada mənim haqqımda deyirlər, televiziyada mənim yaxın adamım olan Baş nazirin birinci müavini işləyərkən mənə tabe olan, yəni əlimin altında çalışan bir adama zəng edirəm ki, icazə ver, mən də beş dəqiqəlik cavab verim. Deyir ki, olmaz.

Yəni bir tərəfdən məni təhqir etmək, ləkələmək olar, ancaq mənim cavab vermək imkanım yoxdur.

Müxbir: Siz Sovetlər Birliyi Baş nazirinin birinci müavini işləyərkən Azərbaycanın inkişafında mühüm rol oynamısınız. Neft sənayesinin, ölkənin sənayesinin inkişafı üçün çoxlu fabrik və zavodların, müəssisələrin tikilməsi üçün çox böyük işlər görmüsünüz.

Cavab: Bilirsiniz, mən 1969-cu ildə Mərkəzi Komitənin birinci kati-

bi olduqda 14 il Azərbaycanda çox böyük xidmətlər göstərmişəm. Zavodlar, fabriklər, yollar, elektrik stansiyaları, binalar, xəstəxanalar, mədəniyyət sarayları, ali məktəblər, universitetlər tikilib. Bakıda hansı binaya baxsan, deyəcəklər ki, bunu Heydər Əliyevin vaxtında tikiblər. Bunun çoxunu mən burada işləyərkən etmişəm, Azərbaycanın rəhbəri olarkən Sovetlər Birliyinin vəsaitindən, imkanlarından çox faydalanıb respublikamızda, Bakıda, digər şəhərlərdə bu işləri gördüm. Gördüyünüz bu binanı da mən tikdirmişəm. Təkcə bu bina deyil.

14 il burada çalışdım. Beş ildən artıq Moskvada işləyərkən orada yenə də Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işlərini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm. Ancaq 1987-ci ilin sonunda istefaya getdim. Vaxtı itirməmək üçün demək istəyirəm ki, 1990-cı ilədək Moskvada yaşadım. Mən Moskvada heç bir siyasi fəaliyyətlə məşğul olmadım.

O vaxt Sovetlər İttifaqında, Qorboçov hakimiyyətində mənə qarşı çox mənfi münasibət yarandı. Onlar məni bir millətçi kimi ittiham etmək istədilər. Hətta məni təqib etməyə başladılar. Məni həbs etmək istədilər.

1990-cı ilin yanvarında Azərbaycana qarşı bir təcavüz edildi. Onda mən Moskvada idim. Mən o vaxt Moskvada bununla əlaqədar keçirilən mitinqə getdim. Orada Qorboçovun Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə sözlər dedim. Onları məhkum etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz cinayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar. Qəzetlərdə mənim əleyhimə yazılar yazdılar.

Mən Moskvada daha beş ay yaşadım. Məni həbs etməyə çalışdılar, oradan çıxıb buraya gəldim. Gələndə məni buraya buraxmırdılar. Azərbaycana rəhbərlik edənlər, yetirdiklərim, tələbələrim olan adamlar məni Azərbaycana buraxmırdılar. Azərbaycana gəlmək istəyəndə Moskvadan da, buradan da mənim qarşımı almaq istədilər. Mən gələndə Bakıda bir kişini, ziyalı bir insanı gecə öldürdülər. O gəlib hava limanında məni qarşılayacaqdı. Onu vurub öldürdülər ki, məni qorxutsunlar. Dedilər ki, Heydər Əliyev gəlsə, onu da öldürəcəyik. Amma mən 10 gün keçəndən sonra Bakıya gəldim.

Burada - binaları, evləri qurduğum, yaratdığım şəhərdə mənə yaşamağa yer vermədilər. Üç gün qardaşımın evində qaldım. Ondan sonra mənə xəbərdarlıq etdilər ki, sən buradan çıxmalısan. Dedim ki, mən haraya çıxacağam? Bildirdilər ki, ya Moskvaya, ya da haraya istəyirsən qayıt. Mən Moskvaya qayıda bilməzdim. Buradan təyyarə ilə Naxçıvana getdim.

Sual: Siz buradan Naxçıvana

gizli, yaxud açıq getdiniz?

Cavab: Yox, buradan Naxçıvana gizli getdim. 1990-cı ilin iyun ayında Naxçıvana gəldim. Naxçıvanda məni insanlar bağrına basdı, qucaqladı. Bakıda da insanlar məni çox yaxşı qarşılayırdılar. Ancaq məni camaat arasına çıxmağa qoymurdular. Naxçıvanda bir il sərbəst yaşadım, heç bir şeylə məşğul olmadım. Amma insanlarla görüşürdüm. Onlara söyləyirdim ki, Sovetlər Birliyi, Kommunist Partiyası dağılacaqdır. Mən Kommunist Partiyasından Moskvada çıxmışdım. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı mən Kommunist Partiyasını tərk etdim və Sovetlər Birliyinə qarşı çıxdım. Naxçıvanda Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə və Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədar təbliğat aparmağa başladım.

Sual: Siz Naxçıvanda olarkən Bakı ilə əlaqələriniz var idimi?

Cavab: Heç bir əlaqəm yox idi. Yəni mən buraya gəlmirdim. Ancaq mənim yanıma buradan çox adamlar gəlirdi. Mənim gəlib-getməyim yasaq idi. Mən Naxçıvanda yaşayırdım, onlar da məni qoruyurdular. Yenə də deyirəm, amma Bakıdan yanıma çox adamlar mənimlə görüşmək, bəzi şeyləri öyrənmək, məsləhət almaq üçün gəlirdilər. Mən də onlarla görüşürdüm. Alimlər, ziyalılar, elm adamları yanıma gəlirdilər.

1991-ci ilin sentyabrında Naxçıvan əhalisi ayağa qalxdı, meydanlarda dörd gün tələb etdi ki, Heydər Əliyev Naxçıvana rəhbər olmalıdır. Mən istəmirdim. Çünki Sovetlər Birliyi kimi bir fövqəldövlətin rəhbərliyində olmuş bir adam kimi gəlib Naxçıvana, kiçik bir Muxtar Respublikaya rəhbərlik etmək mənim üçün o qədər də yararlı bir şey deyildi. Mən bunu özümə sığışdırmırdım. Amma xalq gəlib məndən rica etdi, meydanlarda dörd gün bunu tələb etdi, mən də bunu qəbul etdim. Qəbul etməyim də çox gözəl, yaxşı oldu. Nə üçün? Çünki Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan Azərbaycandan ayrılmış bir vəziyyətdə idi, Azərbaycanın yolu kəsilmişdi, elektrik işığı, istilik, qaz yox idi. Naxçıvan çox ağır bir şəraitdə idi.

Naxçıvanın rəhbəri olduğuma, hörmətimə, gördüyüm işlərə görə Muxtar Respublika ayağa qalxmağa başladı. Türkiyə ilə Naxçıvan arasında körpü tikdik. Körpü tikilib qurtarmamışdan əvvəl Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Süleyman Dəmirəllə mən 1968-ci ildən dost idik. Mən burada çalışarkən Türkiyənin Baş naziri kimi o, ilk dəfə Azərbaycana gəlmişdi. Burada ilk görüşümüz olmuşdu, sonra isə əlaqələrimiz davam etmişdi. Mən Moskvada çalışanda da onunla əlaqələrimiz var idi. Ona görə də Naxçıvana gələn kimi o, mənə diqqət yetirdi, yəni qayğı göstərdi. Məni Ankaraya dəvət etdi. Süleyman Dəmirəl mənim üçün Naxçıvana təyyarə göndərdi. Ankaraya getdim, görüşdük. O, Naxçıvana yardım etdi. Biz körpünü istifadə

yə verdik. Türkiyəyə yol açıldı. Sonra Türkiyədən elektrik xətti çəkdik. Digər elektrik xəttini isə İrandan çəkdik. Bundan sonra məni İrana dəvət etdilər. Rəfsəncanı də mənə təyyarə göndərdi. Tehrana getdim, onunla da əlaqə qurdum. Biz Naxçıvanı qaldırdıq, yaşatdıq.

Sual: Naxçıvandan sonra Azərbaycanın paytaxtına gəldiniz?

Cavab: 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandı. Gəncədən silahlı adamlar gəlib burada Elçibəy hakimiyyətini devirdilər. Bu zaman insanlar gəlib dedilər ki, Azərbaycan dağılır, qardaş qanı tökülür, vətəndaş müharibəsi başlayıbdır, mən Bakıya gəlməliyəm. Gəlmək istəmədim. Çünki doğrusunu deyim, mən Bakıdan küsmüşdüm. Burada bu qədər xidmət göstərməyimə baxmayaraq, mənə qarşı belə münasibət bəslənildiyinə görə küsdüm. Dedim ki, ömrümün sonunadək Naxçıvanda yaşayacağam. Əbülfəz Elçibəy dörd gün ərzində hər gün təyyarə göndərirdi, ancaq mən gəlmirdim. Nəhayət, gəldim görüm ki, burada işlər, vəziyyət necədir? Gəlib gördüm ki, Azərbaycan dağılır, parçalanır, qardaş qardaşı öldürür. Mən gələndən sonra bir həftə ərzində danışıqlar getdi, sonra parlament sədri seçilməyimə razılıq verdim. Amma iki gün sonra Əbülfəz Elçibəy buradan gizli olaraq qaçdı. Respublika Prezidentsiz qaldı. Mən Prezidentin səlahiyyətlərini üç-dörd ay icra etdim. Ondan sonra məni Prezident seçdilər.

Müxbir: Beləcə, Azərbaycan xilas oldu, qardaş qanı tökülməsinin qarşısı alındı. Ermənistan - Azərbaycan müharibəsində atəşkəs əldə edildi.

Cavab: Azərbaycan bu vətəndaş müharibəsindən xilas oldu. Sonra Ermənistanla müharibəni dayandırmaq lazım idi. 1994-cü ilin mayında buna da nail oldum. Atəşkəs haqqında saziş imzalandı. İndi iki il yarımdır ki, atəş yoxdur. Amma burada yenə də çevriliş etmək istədilər

Sual: Sizə qarşı neçə çevriliş cəhdi edilib?

Cavab: Çox.

Sual: Bu çevrilişləri kimlər etmək istəyirdi?

Cavab: Mən Surət Hüseynovu Baş nazir təyin etmişdim. O, Gəncədən gəlib Əbülfəz Elçibəy hakimiyyətini devirən adam idi. Amma o vaxt vəziyyət elə idi ki, onun əlində ordu, çoxlu silah var idi. Mən birlik yaratmaq, Azərbaycanı vətədaş müharibəsindən xilas etmək üçün onu Baş nazir təyin etdim. Gənc adam idi. Dedim ki, sən mənə qulaq as, öyrən, gələcəkdə bəlkə doğrudan da Baş nazir oldun. Çünki indi Baş nazir deyilsən. O, bu vəzifədə bir il oldu, ancaq bir şey edə bilmədi. Onun başında Prezident olmaq iddiası var idi. Bir gün çevriliş etmək istədi ki, məni devirsin. O vaxt mən televiziyadan istifadə etdim, xalqa müraciət etdim ki, Azərbaycan təhlükədədir, çevriliş edirlər, kim Azərbaycan dövlətini

qorumaq istəyirsə bu meydana gəlin. Bir-iki saatdan sonra bu meydana 500 min adam toplaşdı. Sürət Hüseynov öz ordusu, silahları ilə heç bir şey edə bilmədi. Gəlib 500 min adamı öldürə bilməyəcəkdi ki! Qaçmağa çalışdı, qoymadım. İkinci gün bütün şəhərlərdən bir milyondan çox adam gəlib məni dəstəkləmək üçün bu meydana toplaşdı. Bundan sonra mən Sürət Hüseynovu işdən çıxardım. Sürət Hüseynov qaçıb Moskvaya getdi.

Altı aydan sonra dövlət çevrilişinə yeni bir cəhd oldu. Burada bir Xüsusi Təyinatlı Polis Dəstəsi var idi, adı OMON idi. Ona Rövşən Cavadov kimi yaramaz bir insan rəhbərlik edirdi. O, Daxili İşlər nazirinin müavini idi. O, bir çevriliş etməyə çalışdı. Buna özü tək cəhd göstərmədi, Moskvaya qaçmış keçmiş Prezident Mütəllibov, Kələkidə oturan Əbülfəz Elçibəy və Xalq Cəbhəsindən olan bir neçə adam ona qoşuldular. Onun min nəfərlik bir silahlı dəstəsi var idi. Tələb etdi ki, mən istefa verim. İstefa verməsəm, öldürəcəyi ilə hədələdi. Bildirdim ki, istefa vermirəm, kim məni öldürmək istəyirsə gəlsin. Gecə saat 2-də buraya hücum etdilər. Mən bunun qarşısını aldım.

Sonra səfərdən qayıdarkən mənim təyyarəmi raketlə vurmağa çalışdılar. Ondan da xilas oldum. Hava limanına gedən yolda 600 metrlik bir körpü var, onun altına çox güclü partlayıcı maddələr qoydular ki, körpünü partlatsılar. Ukraynanın Prezidenti Leonid Kuçma ilə məni oradan keçərkən öldürmək istədilər. Onu da elə bilmədilər. Sonra yenə də bir-iki terror aktına cəhd göstərildi. Amma Allah məni qorudu.

Sual: Allah Sizi qorudu. İndi sakitlikdir, eləmi?

Cavab: Bəli, indi sakitlikdir.

Sual: İcazənizlə, Türkiyə - Azərbaycan əlaqələri məsələsinə toxunaq. Çünki proqramımız sona çatmaq üzrədir. İndi Türkiyə ilə yaxın əlaqələriniz vardır. Bakı - Ceyhan neft kəmərinin çəkilib-çəkilməməsi məsələsi tez-tez gündəliyə çıxır. Vəziyyət nə yerdədir?

Cavab: Bilirsiniz, Türkiyə Azərbaycanda imzalanmış ilk neft müqaviləsinin iştirakçısıdır. Müqavilə imzalananda orada Türkiyənin payı 1,75 faiz idi. Müqavilə imzalanandan sonra mən Azərbaycanın payı hesabına bunu 5 faiz artırdım, 6,75 faiz oldu. İyun ayında biz "Şahdəniz" yatağının birgə işlənməsi barədə yeni bir müqavilə imzaladıq. Türkiyə bu müqavilənin də iştirakçısıdır. Orada Türkiyənin payı 9 faizdir. İlkin neftin ixrac edilməsi üçün iki neft kəməri marşrutunu müəyyənləşdirdik. Bu xəttin birincisi Rusiya ərazisindən keçərək Qara dənizin Novorossiysk limanına gedir, digəri isə buradan Gürcüstanın Qara dənizdəki Supsa limanına, Türkiyənin yaxınlığına çıxacaq. Böyük boru xəttinin çəkilməsi barədə danışıqlar gedir. Yəni biz bu boru xəttini iki-üç ilə müəyyənləşdirməliyik. Şübhəsiz, mənim ürəyimdən keçən bu xətti Ceyhana çəkməkdir.

Sual: Necə fikirləşirsiniz, bu boru xətti Ceyhana çəkiləcəkmi?

Cavab: Onun çəkilməsi tək məndən asılı deyil. Bu konsorsiumda 11 neft şirkəti var. Burada Amerikanın da, Norveçin də, Rusiyanın da, İngiltərənin də şirkətləri var.

Sual: Sizcə, buna kim mane olur?

Cavab: Mane olan yoxdur. Bu məsələ hələ həll edilməyibdir. Mən kimin mane olduğunu deyə bilmərəm. Mən bilirəm ki, kimsə bunu istəmir.

Sual: Bunu bilirsiniz?

Cavab: Bəli, bilirəm. Amma bu məsələnin həll edilməsinin vaxtı hələ çatmayıb. Onun həlli üçün hələ vaxt var. İndi bu barədə danışmağın əhəmiyyəti yoxdur. Hər şeyi vaxtı gələndə həll edəcəyik.

Sual: Türkiyənin iş adamları Azərbaycana sərmayə qoyurlar. Onlara deyəcəyiniz bir söz varmı?

Cavab: Mən türkiyəli iş adamlarını buraya çox dəvət edirəm. Bu günlərdə Bakıda Azərbaycan-Türkiyə əməkdaşlıq şurasının iclası oldu. Türkiyənin dövlət naziri Namık Kamal Zeybək də bu iclasda iştirak edirdi. Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov bizim tərəfimizdən bu işlərə rəhbərlik edir. Burada keçən iclasda araşdırmalar aparıldı. Mən türk iş adamlarının böyük heyətini qəbul etdim. Bu gün də televiziyada istifadə edib deyirəm: Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm. Təkcə ticarət üçün yox, sərmayə qoymaq üçün. İndi dünyanın ən böyük şirkətləri Azərbaycana sərmayə qoyurlar, respublikamıza gəlirlər. Məsələn, Norveç kimi kiçik bir ölkənin 50 şirkətinin hazırda burada ofisi var. Amerikanın 60 şirkətinin, İngiltərənin 60 şirkətinin Azərbaycanda ofisi fəaliyyət göstərir. Yaponiyalılar da Bakıya gəlirlər, onlar da burada ofis açıblar. Ona görə də Türkiyənin iş adamları buraya daha çox gəlməlidirlər. Azərbaycanın iqtisadiyyatının gələcəyi çox genişdir. Türkiyəli iş adamlarına bir daha deyirəm ki, gecikməyin, erkən gəlin, daha yaxşı yer tutun. Azərbaycana gələn iş adamlarına hər cür yardım edilir. Gələnlər çoxdur, amma bundan da çox iş adamlarının gəlməsi lazımdır.

Müxbir: Cənab Prezident, proqramımız sona yaxınlaşır. TQRT-nin rəhbərləri adından Zati-alinizə plaket təqdim etmək istəyirik. Çox sağ olun, təşəkkür edirəm.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Mən TQRT-yə uğurlar arzulayıram. Güman edirəm ki, sizinlə gələcəkdə yeni-yeni görüşlərim olacaqdır.

Müxbir: Cənab Prezident, proqramımız sona yetdi. Lütf edib bizi qəbul etdiniz. Artıq 53 dəqiqədir ki, Sizinlə söhbət edirik. Təbii ki, Sizinlə 53 saat da belə söhbət etmək kifayət deyildir. Çünki Siz bir tariximiz, tarixdə silinməz iz qoyan lidersiniz. Buna görə Sizə çox təşəkkür

edirik. Azərbaycan televiziyasının əməkdaşlarına da minnətdarıq. Hamınıza təşəkkür edirik, çox sağ olun.

Heydər Əliyev: Çox sağ olun, mən də sizə təşəkkür edirəm. Sizin bu imkanlarınızdan istifadə edib öz hörmətimi, ehtiramımı, salamlarımı Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına çatdırıram. Türkiyə Cümhuriyyətinə, dövlətinə, xalqına öz sevgimi, məhəbbətimi bildirirəm. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri sarsılmazdır. Bunu artıq heç kəs sarsıda bilməz. Azərbaycanın dövlət müstəqilliyi yenilməzdir, dönməzdir, əbədidir. Azərbaycan əbədi müstəqil bir dövlətdir. Müstəqil dövlət kimi Azərbaycan Türkiyəni özünə ən yaxın bir qardaş, dost ölkə kimi qəbul edibdir. Mən Türkiyədə olarkən demişəm ki, biz bir xalq iki məmləkət, iki dövlət, bir xalqıq. Bu sözləri Türkiyədə indi çox adamlar təkrar edirlər. Bu sözləri bir daha deyirəm. Bu, o deməkdir ki, xalqlarımız bir kökdən olan xalqlardır. Biz bir dildə danışan xalqlarıq. Ənənələrimizin, adətlərimizin hamısı eynidir. Adlarımız da, bütün həyatımız da eynidir. Xalqlarımız bu köklər əsasında əsrlərdən-əsrlərə dost kimi yaşayıblar. Məhəmməd Füzuli kimi böyük türk - Azərbaycan şairinin 500 illik yubileyini biz bu günlərdə qeyd etdik. Buraya bütün Türk dünyasının nümayəndələri toplaşdılar. Türk dünyasının ən böyük təmsilçisi ilk dəfə olaraq Azərbaycan torpağında Məhəmməd Füzulinin 500 illik yubileyinə toplaşdılar. Bunlar hamısı dostluğumuzu, qardaşlığımızı həm göstərir, həm də dünyaya nümayiş etdirir. Bu dostluğumuz da əbədidir.

Müxbir: Bu dostluğun əbədi qalması arzusu ilə Sizə çox təşəkkür edirəm. Hörmətli tamaşaçılar , TQRT telekanalı öz tarixində bu axşam daha bir yeni addım atdı. Azərbaycanın paytaxtı Bakıda, Prezident sarayında hörmətli Prezident Heydər Əliyevin iştirak etdiyi ilk canlı yayımı, "Üz-üzə" proqramını sizə təqdim etdik. Bu proqram Azərbaycan televiziyasının birinci və ikinci kanalları ilə də birbaşa yayıldı.

Hamınıza xeyirli gecələr arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Lissabona gedərkən İstanbul Atatürk hava limanında jurnalistlərə verdiyi bəyanat

30 noyabr 1996-cı il

Gün aydın, mən sizi salamlayıram və suallarınıza cavab verməyə hazıram. Öncə yəqin ki, bilmək istəyirsiniz ki, mən buraya, İstanbula nə üçün gəlmişəm. Mən Portuqaliyaya, Lissabona gedirəm. Bilirsiiz ki, dekabrın 2-də orada ATƏT-in Zirvə görüşü başlanacaqdır. Bu gün axşama qədər mən oraya gedib çatmalıyam. Zirvə görüşü başlanana qədər orada

bizim bir çox işlərimiz var.

Ancaq Türkiyəni həmişə özüm üçün doğma ölkə hesab edirəm hər bir fürsətdən, imkandan istifadə edib Türkiyə torpağına ayağımı qoymağa çalışıram. Ona görə də mən bu yolu gedərkən bir saatlıq dayandım ki, İstanbula baxım, sizinlə, insanlarla görüşüm. Ola bilərdi ki, Lissabona birbaşa gedim, ancaq bura üçün çoxdan darıxmışdım, ona görə də istədim bir saat da burada qalım. Əgər sualınız, sözünüz varsa, buyurun.

Sual: Qarabağdakı son "seçkiləri" necə izah edirsiniz?

Cavab: Bilirsiniz, Qarabağdakı son "seçkiləri" biz seçki hesab etmirik. Çünki Qarabağın heç bir hüququ yoxdur. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində müvəqqəti olaraq bir qrup silahlı dəstələrin əlindədir. Onlar Azərbaycanın izni, icazəsi olmadan orada heç bir seçki keçirə bilməzlər. Dağlıq Qarabağ dövlət qurumu kimi təşkil olunmayıbdır, ona görə də orada "seçki" keçirilməsi sadəcə olaraq erməni separatçılarının, Ermənistanın işğalçılıq, qəsbkarlıq siyasətinin yeni bir təzahürüdür. Odur ki, "seçki" qeyri-qanunidir, beynəlxalq hüquq normalarına tamamilə ziddir, biz bunu tanımırıq və heç bir beynəlxalq təşkilat, heç bir ölkə də bunu tanıya bilməz.

Sual: ATƏT-in Lissabon toplantısında bu məsələni qaldıracaqsınızmı?

Cavab: Bəli, çıxışımda bu məsələni çox ətraflı deyəcəyəm. Azərbaycanın həyatında nə yeniliklər var, siz bunu hər gün bilirsiniz. Bir sözünüz yoxdurmu? Sağ olun.

Prezident Heydər Əliyevin Türkiyə jurnalistinə müsahibəsi

Lissabon. 3 dekabr 1996-cı il

Sual: Cənab Prezident, Lissabon Zirvə görüşünün yekunu barədə nə deyə bilərsiiz?

Cavab: Lissabon Zirvə görüşünün yekununu Azərbaycan üçün müsbət hesab edirəm. Bu görüşdə qəbul olunan bəyannamədə Ermənistan-Azərbaycan münaqişəsi haqqında bir yazı olmasa da ATƏT-in hazırkı sədri Flavio Kotti ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları adından bir bəyanat verdi. Bu bəyanatda o, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin yalnız üç prinsip əsasında həll edilməsini bəyan etdi. Bəyan etdi ki, ATƏT-in üzvü olan bütün dövlətlər, - Ermənistan istisna olmaqla, - bu prinsipləri dəstəkləyir. Bu üç prinsipdə Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsi, Dağlıq Qarabağda yaşayan bütün əhalinin təhlükəsizliyinin təmin olunması öz əksini tapmışdır. Ona görə də mən hesab edirəm ki, bu Zirvə görüşünün yekunu Azərbaycan üçün

müsbətdir.

Sual: Cənab Prezident, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində Türkiyənin Azərbaycana dəstəyini necə qiymətləndirirsiniz?

Cavab: Yaxşı qiymətləndirirəm. Mən Lissabona gələn kimi burada hörmətli Prezident Süleyman Dəmirəl ilə görüşdük, bu işləri müzakirə etdik. ATƏT-in hazırkı sədri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli barədə bu gün bəyanat verərkən Türkiyənin təmsilçisi də buna dəstək verdi.

ATƏT-in Lissabon Zirvə toplantısından sonra Azərbaycanın və xarici ölkələrin KİV nümayəndələri üçün bəyanatından:

Prezident sarayı
6 dekabr 1996-cı il

...Sual: Hörmətli Prezident, Lissabonda çətin mübarizəniz zamanı Sizə ən çox hansı ölkə dəstək verdi? Türkiyənin mövqeyini necə qiymətləndirirsiniz? Lissabon Zirvə toplantısının prinsiplərinə uyğun olaraq qarşıdakı illərdə Azərbaycan xalqı Türkiyədən nə kimi yardım gözləyir? Bir də, Siz nə üçün rusca danışırsınız?

Cavab: Mən rusca verilən suallara rusca cavab verirəm, buna görə də siz gərək məni üzürlü hesab edəsiniz.

Mən sizə bildirmək istəyirəm ki, orada bizim mövqeyimizi, demək olar, bütün dövlətlər dəstəkləyirdilər... Onların arasında ABŞ da, Rusiya da, Türkiyə də, Almaniya da, Fransa da, Finlandiya da və başqa dövlətlər də var.. Ümumiyyətlə biz çox görüşlər keçirdik. Türkiyənin cümhur başqanı, əziz dostum Süleyman Dəmirəl bizim bu məsələlərlə daim məşğul olur. Mən Lissabona gələn günü, yəni dekabrın 1-də Süleyman Dəmirəl ilə xüsusi görüş keçirdik. O məni Türkiyənin Lissabondakı səfirliyinə dəvət etdi. Orada biz bu məsələni də müzakirə etdik. Türkiyə bizim mövqeyimizi daim dəstəkləmişdir - keçmişdə də, Lissabonda da.

Biz Türkiyədən nə gözləyirik? Onu gözləyirik ki, Türkiyə bundan sonra da bizimlə birlikdə olsun. Bizim yanımızda olsun. Türkiyənin Cümhurbaşqanı Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də deyirlər ki, Azərbaycanın dərdi, Türkiyənin dərdidir, Azərbaycanda güləndə Türkiyədə də gülürlər, Azərbaycanda kədərlənəndə Türkiyədə də kədərlənirlər. Bax, bu, doğrudan da, bizim dostluğumuzun, qardaşlığımızın prinsipidir. Biz dostluğumuzu məhz bu prinsip əsasında davam etdirəcəyik.

Sual: Siz Qafqazda əmin-amanlıq və sabitlik olmasının vacibliyini ATƏT-in Zirvə toplantısından əvvəl də, bu görüş zamanı da daim vurğulamısınız. Sizin bu istəyiniz Türkiyə xalqı tərəfindən də dəstəklənir. Siz Lissabona gedərkən Türkiyədə bir nəqliyyat qəzası baş verdi. Mətbuatın yazdığına görə, qəza zamanı sabiq Baş naziri, indiki Xarici İşlər naziri Tansu Çillərin əhatəsindən olan Abdulla Çatlı adlı birisi həlak olmuşdur. Bu adam Qafqazda, ən əvvəl Azərbaycanda bir sıra təxribatlar törətmişdir. Siz Abdulla Çatlının Azərbaycanda fəaliyyəti barədə hər hansı məlumata maliksinizmi?

Cavab: Abdulla Çatlı da, onunla bağlı olan əhvalatlar da mənə məlum deyildir. Əgər Türkiyədə belə bir məlumat varsa və Abdulla Çatlı dediyiniz adam Azərbaycanda bir iş görübsə, yəni onun burada bir suçu varsa, mən sizdən də, bütün Türkiyədən də rica edərdim ki, araşdırıb bizə bir məlumat verəsiniz. Bir şey məlumdur ki, sizin televiziyada və "Hüriyyət" qəzetində Fərman Dəmirqol adlı birisi bəyanatlar veribdir. O, Azərbaycanda həqiqətən bir neçə il yaşamışdır. Azərbaycanda Xalq Cəbhəsi iqtidarda olan zaman onu parlamentdə işə götürmüşdülər. Sonra isə burada 1995-ci ilin mart ayında Xüsusi Təyinatlı Polis Dəstəsi tərəfindən dövlət çevrilişinə cəhd göstərilmişdir. O dəstənin başçısı Rövşən Cavadov idi. Həmin dövlət çevrilişi cəhdində Fərman Dəmirqol da iştirak etmişdir. Dəmirqol bu işdə suçludur. Ona görə də yaxşı olardı ki, o öz günahından danışsın.

Sual: Türkiyədə həm hökumət, həm də ictimaiyyət Azərbaycanda baş verən hadisələri çox yaxından izləyir. Siz söylədiniz ki, Lissabon toplantısında Türkiyə Qarabağ məsələsində Azərbaycanı dəstəklədi. Lakin Türkiyədə belə fikirlər də var ki, Türkiyənin bəzi siyasi dairələri Azərbaycanda daxili siyasi çəkişmələrə qarışırlar. Bu xəbərlər Azərbaycanda necə qarşılanır?

Cavab: Türkiyə ilə Azərbaycan arasında, dövlətlərimiz və xalqlarımız arasında çox gözəl dostluq və qardaşlıq əlaqələri var. Mən bu əlaqələrin bundan sonra daha da genişlənməsini və daha da güclənməsini istəyirəm. Bilirəm ki, Türkiyənin dövlət və hökumət başçıları da, xüsusən Cümhurbaşqanı, əziz dostum Süleyman Dəmirəl də mənimlə eyni fikirdədirlər. Dediyiniz kimi, Türkiyənin ayrı-ayrı siyasi dairələrinin Azərbaycanın daxili işlərinə qarışması, şübhəsiz, yararsız bir şeydir. Belə olmamalıdır. Həmin Fərman Dəmirqolun və onunla əlaqədar olan bəzi məmurların gördükləri iş orada məlumdur. O siyasi dairələr bilməlidirlər ki, Azərbaycanın daxili işlərinə qarışmaq olmaz.

Sual: Türkiyə bütün bu dövlət çevrilişi cəhdləri ilə bağlı hadisələri çox diqqətlə izləmişdir. Belə bir məlumat var ki, Siz bu dövlət çevrilişi cəhdi barədə Danimarkada olarkən Süleyman Dəmirəldən xəbər tutmuşdunuz. Əvvəla bu, beladirmi? İkincisi, Siz dediniz ki, Fərman Dəmirqol dövlət çevrilişi cəhdlərində iştirak etməkdə təqsirləndirilir. Amma o, Türkiyəyə xüsusi təyyarə ilə göndə-

rilmişdir. Nə üçün o, məsuliyyətə cəlb edilməmişdir?

Cavab: Doğrudur, Türkiyənin Cümhurbaşqanı, hörmətli Süleyman Dəmirəl Azərbaycanda belə bir qəsdin hazırlanması barədə mənə məlumat vermişdi. Lakin o vaxt mən bilmirdim ki, bu qəsddə Fərman Dəmirqol və digər Türkiyə vətəndaşları da iştirak edirlər. Qəsdin qarşısı alındıqdan sonra Fərman Dəmirqolu biz həbs etdik. Amma o Türkiyə vətəndaşı olduğuna görə biz onu Türkiyəyə təhvil verdik.

Sual: Bu, Azərbaycan-Türkiyə müasibətlərinə necə təsir götərir?

Cavab: Bunların heç birisi əlaqələrimizə, Azərbaycan-Türkiyə əlaqələrinə heç bir təsir göstərə bilməz. Əlaqələrimiz sarsılmazdır. Ona görə də belə kiçik işlər bizim böyük işlərimizə mane ola bilməz.

Sual: Hörmətli Prezident, bir az öncə Siz Fərman Dəmirqolun suçlu olduğunu söylədiniz. Onun günahkar olduğu barədə dəlil-sübut varmı?

Cavab: Bəli, onun suçlu olması haqqında Türkiyənin müvafiq orqanlarına lazımi məlumatlar verilibdir.

Sual: Hörmətli Prezident, biz Amerika-Azərbaycan əlaqələrini diqqətlə izləyirik. Sizinlə ABŞ Prezidenti Bill Klinton arasında telefon söhbətləri, məktub mübadiləsi olur. Aranızda sıx bir təmas var. Bill Klintonun yenidən Prezident seçilməsindən sonra onun siyasətində, daha doğrusu, ABŞ-ın siyasətində yeni bir mərhələ olacaqmı, Amerikanın Azərbaycanı dəstəkləməsi davam edəcəkmi?

Cavab: Mən Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarının əlaqələrinin çox yüksək səviyyədə olduğunu bildirmək istəyirəm. Biz bu əlaqələrimizi bundan sonra da davam etdirəcəyik. Mən cənab Bill Klintonun yenidən Prezident seçilməsindən çox məmnunam. Çünki onunla bizim aramızda şəxsi əlaqələr yaranıbdır. Mən hesab edirəm ki, o, yenidən öz Prezidentlik fəaliyyətinə başladıqdan sonra əlaqələrimizdə böyük tərəqqi olacaqdır.

Sağ olun, təşəkkür edirəm. Mən öz minnətdarlığımı bildirmək istəyirəm ki, siz bizə qonaq gəldiniz. Əgər hər hansı narahatlıq olubsa, nəzərə alın ki, mən dünən axşam Lissabondan çox gec qayıtmışam, bu gün səhərdən isə bütün bu məsələlərlə məşğul olmuşam. Odur ki, siz sabah burada qalıb qonağımız ola bilərsiniz.

Mən çox məmnunam ki, Türkiyə mətbuatından Azərbaycana müxbirlər gəliblər. Sizin hər birinizə təşəkkür edirəm, siz bizim qonağımızsınız. Əgər sizlərdən kimsə mənimlə şəxsən görüşmək istəyirsə sabah görüşə bilərik.

Hamınıza təşəkkür edirəm.

Bakıda yeni Sellülyar Rabitə Sisteminin təntənəli açılışı mərasimində Prezident Heydər Əliyevin nitqi

15 dekabr 1996-cı il

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar, bacılar və qardaşlar!

Mən sizin hamınızı, buraya toplaşan Bakı şəhərinin sakinlərini, Azərbaycan vətəndaşlarını ürəkdən salamlayıram və sizin hamınıza öz xoş arzularımı çatdırıram, sizə səadət, xoşbəxtlik diləyirəm.

Bu gün, 1996-cı ilin sona çatdığı bir vaxtda, dekabr ayında paytaxtımızda, Bakı şəhərində günəş, gözəl hava hamınızı sevindirir. Bu gözəl gündə siz hamınız istirahət etməlisiniz, öz işlərinizlə məşğul olmalısınız. Ancaq görürəm ki, Azərbaycanın ümumi işlərinə, ümumi məsələlərinə olan münasibətiniz sizi buraya toplayıbdır. Mən bundan çox məmnunam və sizinlə, öz bacı-qardaşlarımla görüşdüyümə görə çox sevindiyimi bildirirəm. Sizin hamınıza hörmət və ehtiramımı bildirirəm.

Bugünkü hadisə münasibətilə Azərbaycana Türkiyə Cümhuriyyətindən böyük nümayəndə heyəti, hörmətli qonaqlarımız gəliblər. Mən qardaş Türkiyədən Azərbaycana gəlmiş və bu mərasimdə iştirak edən bütün dostlarımızı ürəkdən salamlayıram, onların hamısına "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Bu gün burada yeni rabitə sisteminin - "Azərsell" rabitə sisteminin açılması, şübhəsiz ki, həyatımızda yeni bir hadisədir, çox mühüm bir hadisədir. Çünki indiki zamanda rabitə hər bir insan üçün ən çox lazım olan bir vasitədir. İnsanların işləməsi üçün, fəaliyyət göstərməsi üçün, dövlətin, dövlət orqanlarının, ayrı-ayrı özəl qurumların, hər bir təşkilatın səmərəli işləməsi üçün rabitə indi çox mühüm bir vasitədir. Rabitə sahəsində son illər nailiyyətlərimiz təqdirəlayiqdir. Mən onları bu gün məmnuniyyət hissi ilə qeyd edirəm. Ancaq eyni zamanda, dünyada rabitə sahəsində əldə olunan nailiyyətlərə bizim çatmağımız üçün hələ bundan sonra da çox iş görməliyik. Bu yolda, bu mərhələdə "Azərsell" rabitə sisteminin açılması hesab edirəm ki, Azərbaycan Respublikası vətədaşlarının, dövlət orqanlarının, iş adamlarının, ölkəmizdə işlə məşğul olan qurumların hamısının işlərini asanlaşdıracaq və bu işləri vaxtlı-vaxtında, operativ surətdə həyata keçirməkdə onlara yardım edəcəkdir.

Mən bunu çox mühüm hadisə hesab edirəm və buna görə də burada sizinlə bir yerdəyəm. Çox əhəmiyyətli hal bundan ibarətdir ki, bu rabitə sistemi Azərbaycan rabitəçiləri ilə Türkiyə rabitəçiləri arasında əməkdaşlıq nəticəsində hasil olmuş, meydana gəlmiş və təşkil edilmişdir. **Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri bütün sahələrdə əməkdaş-**

lıq etməyimizə əsas yaradıbdır. Biz bu əməkdaşlığı son illərdə gündən-günə gücləndirir, gündən-günə genişləndiririk.

Mən dəfələrlə demişəm ki, xarici ölkələrlə əməkdaşlığımızda Türkiyə Cümhuriyyəti birinci yerdə durur və birinci yerdə də durmalıdır. Türkiyənin iş adamlarının, şirkətlərinin, iş görən bütün qurumlarının Azərbaycana daha sürətlə, daha inamla gəlməsi üçün çox gözəl şərait yaranıbdır. Məmnunam ki, son vaxtlar Türkiyə şirkətləri, iş adamları, özəl sektoru bu imkanlardan səmərəli istifadə etməyə çalışır və səmərəli istifadə edirlər. Bunların nəticəsi olaraq belə bir birgə müəssisə yaranıbdır və bu, həm Azərbaycan-Türkiyə əməkdaşlığının gözəl bir nümunəsidir, həm də Azərbaycan ilə Türkiyə arasında iş birliyinin, əməkdaşlığın inkişaf etməsi üçün gözəl bir vasitədir. Mən bu hadisə münasibətilə həm Türkiyə Cümhuriyyətindən gələn qonaqlarımızı, həm də Azərbaycan rabitəçilərini ürəkdən təbrik edirəm, sizə bu işinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir. Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yaratmaq, bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx bağlamaq məqsədi daşıyır.

Bildiyimiz kimi, bu sahədə çox işlər görülübdür. Bunlardan biri də Azərbaycanın zəngin neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə müştərək işlənməsindən və böyük fayda götürülməsindən ibarətdir. Dünən biz Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının Amerika Birləşmiş Ştatları, Yaponiya və Səudiyyə Ərəbistanın şirkətləri ilə birlikdə, müştərək işlənməsi və neft hasilatı ilə əlaqədar yeni bir müqavilə imzaladıq. Bu, iqtisadiyyatımızın inkişaf etdirilməsi üçün böyük bir addımdır, eyni zamanda, Azərbaycana xarici sərmayənin gəlməsi üçün, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlanması üçün böyük bir addımdır və böyük bir tədbirdir.

Biz bu yolla gedirik və gedəcəyik. Bu sırada atılan hər bir addım, görülən hər bir iş Azərbaycan iqtisadiyyatının inkişaf etməsinə kömək edir. Bu baxımdan rabitə sahəsində görülən işlər də, şübhəsiz ki, yüksək qiymətə layiqdir və bugünkü hadisəni də mən belə qiymətli hadisələrdən biri hesab edirəm. Bunların hamısı Azərbaycan xalqının, vətədaşlarının sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa, xalqımızın, vətəndaşlarımızın rifah halını yüksəltməyə yönəldilibdir.

Bu gün respublikamızın çətin dövrüdür. Ermənistan silahlı qüvvələrinin səkkiz il öncə Azərbaycana qarşı başladığı təcavüz Azərbaycana böyük zərbələr vurubdur. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. Bir milyondan çox Azərbaycan vətəndaşı işğal edilmiş torpaqlardan zorla çıxarılıb, yerindən-yurdundan didərgin olunubdur. Güman edirəm, bu gün buraya, bu meydana toplaşan Azərbaycan vətəndaşları arasında da həmin rayonlardan, həmin bölgələrdən didərgin düşmüş insanlar var, qaçqın vəziyyətində yaşayanlar var. Biz onların vəziyyəti haqqında, həyatı haqqında daim düşünürük. Azərbaycan dövləti, Azərbaycan Prezidenti qaçqınlara, yerindən-yurdundan didərgin düşmüş insanlara qayğı göstərməyi özünün əsas vəzifələrindən biri hesab edir. Əmin ola bilərsiniz ki, biz bu vəzifələrimiz üzərində hər gün düşünürük və onları axıradək yerinə yetirəcəyik. Ancaq bizim məqsədimiz ölkəmizin işğal olunmuş torpaqlarını azad etməkdən, Azərbaycanın suverenliyini təmin etməkdən, vəzifəmiz Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etməkdən, müstəqil Azərbaycan Respublikasının bütün ərazisinə öz nəzarətimizi təmin etməkdən, bütün ərazimiz üzərində öz hakimiyyətimizi təmin etməkdən ibarətdir.

Bilirsiniz ki, biz bu yolda çox işlər görmüşük. Bunların sırasında dekabr ayının əvvəllərində Portuqaliyanın Lissabon şəhərində ATƏT-in Zirvə görüşündə aparılan işlər və əldə edilən nəticələr sizə məlumdur. ATƏT-in Zirvə görüşündə bu təşkilata aid qlobal əhəmiyyət, dünya əhəmiyyəti kəsb edən bir çox işlər sırasında Ermənistan-Azərbaycan münaqişəsi də müzakirə olunmuşdur. Orada Azərbaycan öz haqlı tələblərini irəli sürmüş, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzü bir daha pisləmiş və onların bu təcavüzkar siyasətini dünyaya bir daha bildirmiş, bu məsələnin sülh yolu ilə həll olunması haqqında bir daha bəyanat vermişdir. Aparılan işlər nəticəsində biz müsbət nəticə əldə etmişik. Bu da ondan ibarətdir ki, Lissabon Zirvə görüşünə toplaşmış bütün dövlət başçıları, hökumət başçıları hamısı birlikdə Azərbaycanın ədalətli işini müdafiə etmişdir, məsələnin sülh yolu ilə həll olunması üçün irəli sürülmüş əsas prinsipləri - Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması və təmin olunması, yalnız və yalnız Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa status verilməsi prinsiplərini dəstəkləmiş və bu barədə siz məlum olan sənəd qəbul etmişdir. Hesab edirəm ki, bu, məsələnin sülh yolu ilə həll olunması üçün, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi üçün atılan çox dəyərli bir addımdır. Əminəm ki, bu görülən iş, əldə olu-

nan nəticə gələcəkdə bizi daha uğurlu nəticələrə gətirib çıxaracaqdır.

Bunların hamısı onu göstərir ki, biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq. Bunların sırasında da rabitə sisteminin inkişaf etdirilməsi mühüm sahələrdən biridir. Məhz buna görə də bugünkü hadisəyə belə münasibət göstərmişəm. Ona görə də siz buraya toplaşmısınız və mən buraya gəlmişəm.

Bu hadisə münasibətilə mən rabitəçilərimizi təbrik edirəm, Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş və Azərbaycanla birgə iş aparmış, yaxşı nəticə əldə etmiş Türkiyə şirkətlərini və Türkiyə Cümhuriyyətinin nümayəndələrini ürəkdən təbrik edirəm. Sizin hamınızı təbrik edir, gələcək işlərinizdə sizə uğurlar arzulayıram!

Əziz bacı və qardaşlar, hamınızı bir daha hörmət və ehtiramımı bildirir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

Azərbaycan - Türkiyə müştərək müəssisəsinin - Çaypaketlənmə fabrikinin açılışı mərasimində Prezident Heydər Əliyevin çıxışı

Bakı, Bakıxanov qəsəbəsi
28 dekabr 1996-cı il

Hörmətli bacılar, qardaşlar!

Hörmətli dostlar, xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün bu toplantı xüsusi bir əhəmiyyət kəsb edir. Bunun mənası, məzmunu Azərbaycanda son illərdə iqtisadiyyatın təkmilləşdirilməsi, bazar iqtisadiyyatının yaranması və inkişaf etməsi yolunda atılan bir addım kimi qiymətləndirilməlidir.

Respublikamızın istehsal imkanları, təbii sərvətləri və o cümlədən Azərbaycanın təbiətindən alınan məhsullar çox zəngindir, genişdir. Bunlardan səmərəli istifadə etmək lazımdır. Bunun üçün sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata geniş yol verilməsi, bazar iqtisadiyyatının yaranması bizim strateji yolumuzdur. Biz bu yolla əzmlə, addım-addım irəliləyirik.

Bildiyimiz kimi, Azərbaycanda geniş imkanlar yaranıbdır, lazımi qanunlar qəbul olunubdur. Respublikamızda iqtisadi islahatlar həyata keçirilir və insanların təşəbbüskarlıq, sahibkarlıq addımları dövlət və hökumət tərəfindən bəyənilir, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradılır. Aparılan bu iqtisadi siyasətin nəticəsində Azərbaycanda son illər özəl müəssisələr yaranır, xarici sərmayədarlar, iş adamları Azərbaycanın müxtəlif təşkilatları, istehsal müəssisələri, ayrı-ayrı iş adamları ilə işgüzar əlaqələr qurmağa daha da çox həvəs göstərirlər və bunlar da öz müsbət nəticəsini verir. Bunların parlaq təzahürlərindən biri də bu gün burada Azərbaycanın və Türkiyənin "İntersun" şirkəti ilə müştərək yaratdığı birgə müəssisənin - yeni çay fabrikinin işə başlaması və bu münasibətlə keçirilən bu mərasimdir.

Azərbaycanda çay bitkisi geniş yayılmış bir bitkidir. Azərbaycan torpaqları çay yetişdirmək, istehsal etmək üçün yararlı imkanlara malikdir. Azərbaycan qədimdən çay istehsal edən bir ölkədir. Keçmiş illərdə Azərbaycanda çay istehsal etmək üçün imkanlar da çox idi. Cənub bölgəsində - Lənkəran, Astara, Masallı rayonlarında geniş çay plantasiyaları var idi. Vaxtilə Azərbaycanda ildə 25-26 min ton yaşıl çay yarpağı toplamaq mümkün olmuşdur.

Qeyd etmək istəyirəm ki, o vaxtlar respublikamızın Cənub bölgəsində çayçılıqla məşğul olan təsərrüfatlarımız çay bitkisinin becərilməsindən alınan məhsuldan çox xeyir götürdükləri halda, Azərbaycanda bu məhsulun, istifadə edilən çayın keyfiyyətini qaldırmaq o qədər də mümkün olmamışdır. Amma buna baxmayaraq, bizdə böyük çay plantasiyaları olmuş, çayçılarımız bundan mənfəətlər götürmüş, çay bitkisini becərmək məhsul əldə etməklə öz həyatlarını qurmuşlar.

Təəssüflər olsun ki, sonrakı dövrdə bu çay plantasiyaları baxımsızlıq, ayrı-ayrı qrupların dağıdıcı, pozucu işləri nəticəsində dağılmışdır. Kənd təsərrüfatı naziri bu gün mənə məlumat verdi ki, respublikada bu il cəmisi min ton yaşıl çay yarpağı əldə edilibdir. Amma mənim xatirimdədir, 1980-cı ildə respublikada 26 min ton çay yarpağı yığılmışdı. Demək, bu rəqəm 26 dəfə azalıbdır. Mən soruşuram ki, nə üçün bu belə olubdur? Deyir ki, siz gördüyünüz çay plantasiyalarından indi çox az bir hissə qalıbdır. Bilirsiniz, dağıtmaq asandır, amma yaratmaq, qurmaq çətindir.

Xalqımız həmişə yaradıcı, qurucu xalq olubdur. Xalqımızın bu istedadından, fədakarlığından istifadə edərək biz 1970-1980-cı illərdə Azərbaycanın kənd təsərrüfatında böyük imkanlar yaratmışdıq, o cümlədən Lənkəran, Astara, Masallı rayonlarında gözəl çay plantasiyaları, bağları salmışıq. İnsanlar ona baxanda heyran olurdular. Hətta bəzə televiziyada, filmlərimizdə həmin çay plantasiyalarını, o plantasiyalarda Azərbaycanın cavan qızlarının - çayçıların işlərini görəndə adam həddindən artıq sevinirdi. Təəssüflər olsun ki, həmin o dağıdıcı, pozucu qüvvələr xalqın illər, on illər boyu yaranmış sərvətini dağıdıblar, viran ediblər. İndi bunları yenidən qurmaq, yaratmaq lazımdır. Biz bununla məşğu-

luq. Bu gün mən sizə tam qətiyyətlə deyirəm ki, Azərbaycanın çay plantasiyaları, bağları qısa bir müddətdə bərpa olunacaq, yenidən yaradılacaq, qurulacaqdır. Bunlar hamısı xalqımıza, zəhmət adamlarımıza, azərbaycanlılara yenidən böyük gəlirlər, faydalar gətirəcək və xalqımızın rifah halının yaxşılaşmasına kömək edəcəkdir.

Respublikamızda yeni addımlar atılır və bunun üçün də indi xarici sərmayədən geniş istifadə olunur. Azərbaycanın müvafiq təşkilatları xarici sərmayədarlarla müştərək işlər görürlər. Mən belə işlərin görülməsini dəstəkləyirəm, bəyənirəm. Onların iş görməsi üçün respublikamızda lazımi şərait yaranıb, müvafiq qərarlar qəbul olunub və bundan sonra da qəbul olunacaqdır. Buna görə də mən həm çayçılarımıza, çayçılıqla məşğul olan rayonların zəhmətkeşlərinə, həm də xarici sərmayəçilərə deyirəm ki, bu sahədə səmərəli müştərək iş görmək, gəlir, yaxşı mənfəət götürmək olar. Gəlin, birləşin, işləyin, xalqın rifah halı yaxşılaşsın, həm də Azərbaycanın iqtisadiyyatı yüksəlsin. Mən bunun üçün sizin hamınıza lazımi zəmanət verirəm.

Bu gün burada açılışına toplaşdığımız modern, müasir avadanlıqla təchiz olunmuş, böyük istehsal imkanlarına, müasir texnologiyaya malik yeni çay fabriki məni çox sevindirir. Hesab edirəm ki, bu, respublikamızın iqtisadi həyatında əlamətdar bir hadisədir. Mən əminəm ki, bu başlanğıc davam edəcəkdir, çay fabriki nəzərdə tutulan istehsal həcminə çatacaqdır, yüksək kefiyyətli məhsul istehsal edəcəkdir və Azərbaycan Respublikası əhalisinin çaya olan ehtiyacını ödəyəcəkdir.

Bu gün mən fabrikin bütün sexlərinə, texnoloji proseslərə, avadanlığa və istehsal olunan çay məhsuluna baxdım. Bunu siz də görmüsünüz. "İntersun" şirkəti son vaxtlar çox maraqlı iş görür, bu çayları Azərbaycan televiziyasında mütəmadi olaraq təbliğ, reklam edir, xalqımıza tanıdır. Ona görə də mən bura gəlməmişdən əvvəl bu çaylara televiziya vasitəsilə tanış olmuşam. Amma indi bu çayları əyani olaraq gördüm, yəni bu çayın özünü də, onun qabını, qutularını da gördüm. Bunlar hamısı həqiqətən dünya standartlarına uyğun olan bir səviyyədədir. Mən inanıram, "İntersun" şirkətinin rəhbərləri də mənə dedilər ki, onların bu çayları nəinki Azərbaycanda, başqa ölkələrdə də satılacaqdır, yayılacaqdır.

Burada məlumat verildi ki, bu çaylar İraqa, Türkiyəyə artıq ixrac olunubdur. Sözsüz ki, bundan sonra da geniş yayılacaqdır. Beləliklə, Azərbaycanda istehsal edilən çaydan başqa ölkələrdə də istifadə olunacaqdır. Bu isə mənfəət gətirəcəkdir və çay istehsal edən bir ölkə kimi Azərbaycana da yeni şöhrət qazandıracaqdır. Mən bunu çox qiymətləndirirəm və əmin olduğumu bildirmək istəyirəm ki, fabrik layiqli səviyyədə işləyəcək, öz istehsal gücünü təmin edəcək və respublikanın iqtisadiyyatına da lazımi mənfəət verəcəkdir, çalışan işçilər də öz maddi tələblərini ödəyə biləcəklər və beləliklə də ümumi, səmərəli iş görüləcəkdir.

Bu çay müəssisəsinin təşkil olunmasının və bu gün istifadəyə verilməsinin bir xüsusiyyəti də ondan ibarətdir ki, çay çox gözəl bir məhsuldur. İnsana lazım olan məhsullar arasında azərbaycanlılar, xalqımız üçün çaydan gözəl və çox geniş istifadə olunan məhsul yoxdur. Bunu bəlkə bir çörəklə müqayisə etmək olar. Hər bir azərbaycanlı çörək yeyəndən sonra mütləq çay içir. Bu, bizim əsrlərdən-əsrlərə keçmiş ənənəmizdir. Elə bir azərbaycanlı tapa bilməzsən ki, o, çaysız yaşasın. Ona görə də belə bir müəssisənin yaranması Azərbaycanın milli ənənələrinə, xalqımızın milli tələbatına uyğun olan bir haldır. "İntersun" şirkətinin də respublikamızda məhz bu məhsulun hazırlanmasına başlaması onu göstərir ki, onlar bizim Azərbaycanın həyatını yaxşı öyrəniblər, xalqımızın birinci növbədə ən əsas tələb olunan məhsulunu müəyyən ediblər və bu məhsulun istehsalına başlayıblar. Mən buna xüsusi qiymət verirəm.

Aydındır ki, çay çox mənfəətli bir içkidir, məhsuldur. İnsanların istifadə etdiyi bütün içkilərdən - təkcə sudan savayı, çay da su ilə bərabər içilir. Ona görə də mən alkoqollu içkilər istehsal edən müəssisələrə, yaxud o içkilərə meyl edən insanlara deyirəm: bizim ulu babalarımız daim çay içiblər. Onlar çayı ən mötəbər içkimiz hesab ediblər və bu da ulu babalarımızdan bizə gəlib çatan ənənədir, öyrəndiyimiz bir vərdişdir. Ona görə də çaydan səmərəli istifadə etmək lazımdır. Yəni bunu təbliğ etməyə ehtiyac yoxdur. Desəm də, deməsəm də hər bir ailədə, evdə hər hansı insan mütləq çay içməlidir. Şübhəsiz, hamı istəyir ki, bu çay keyfiyyətli olsun. Hətta bizdə çay haqqında mahnılar var, çayı tərənnüm edən nə qədər sözlər var.

Azərbaycanda gözəl bir ənənə mövcuddur ki, hər yerdə çayxana vardır. Bu, Azərbaycanın milli xüsusiyyətini əks etdirən bir ənənədir. Xarici ölkələrdə spirtli içkilər içilən yerlər, başqa müəssisələr də var. Mən buna etiraz etmirəm, bəlkə bunlar da olmalıdır. Ancaq Azərbaycanda çayxanalar insanlar üçün lazım olan geniş yayılan müəssisələrdir. İnsanlar gedib çayxanada istirahət edirlər, söhbət edirlər. Çay samovarları, çay nümunələri həmişə xalqımız tərəfindən sevilib. Yenə də deyirəm, çay içmək xalqımızın vərdişidir, xüsusiyyətidir. Hesab edirəm ki, bunlar hamısı millətimizə xas olan çox müsbət xüsusiyyətlərdir. Mən çox istərdim ki, xalqımız ancaq çay içsin, insanlar spirtli içkilərə, onların həyatına ziyan vuran cürbəcür içkilərə meyl etməsinlər. Bu baxımdan da yüksək keyfiyyətli çay istehsal olunması bu ənənələrimizin daha da möhkəmlənməsinə və genişlənləməsinə,

inkişaf etməsinə kömək edir.

Beləliklə, mən bu çay istehsalını, yaradılan çay fabrikini həm iqtisadi, insanların tələbatının ödənilməsi nöqteyi-nəzərindən, həm də milli ənənələrimizin inkişaf etdirilməsi üçün hər bir evdə, hər bir çayxanada yüksək keyfiyyətli çay hazırlanması baxımından müsbət qiymətləndirirəm. Bunların hamısına görə mən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və Türkiyənin "İntersun" şirkətinə bu təşəbbüsləri üçün təşəkkürümü bildirirəm.

Mən sizi bu yeni müəssisənin açılması münasibətilə təbrik edirəm. Çox məmunam ki, bazar iqtisadiyyatı yolunda addımlar atılır, əməli işlər görülür və bunlar öz nəticəsini verir. Bu gün bir daha bəyan edirəm ki, bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün Azərbaycan dövləti, hökumətin tərəfindən bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Sağlam, təmiz, pak bazar iqtisadiyyatı yolu ilə gedən iş adamlarına Azərbaycanda geniş yer veriləcəkdir, xarici şirkətlərə, sərmayəçilərə geniş meydan açılacaqdır. Mən sizin hamınızı belə işlərə əməli surətdə məşğul olmağa dəvət edirəm. Respublikamıza gəlmək və müştərək iş görmək üçün xarici şirkətləri bir daha Azərbaycana dəvət edirəm.

Bu gün açılan müəssisə eyni zamanda Azərbaycan-Türkiyə əməkdaşlığının nümunəsidir. Mən dəfələrlə demişəm ki, xarici ölkələrlə əməkdaşlığımız sahəsində Türkiyə Cümhuriyyətinin, şirkətlərinin, iş adamlarının xüsusi yeri vardır və biz buna xüsusi əhəmiyyət veririk. Bu müəssisə bu baxımdan Azərbaycan-Türkiyə əməkdaşlığının əməli nəticəsi, nümunəsidir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əməkdaşlıq bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Mən sizi bir daha təbrik edirəm. Hamınızı "Məryəm", "Final", "Mərcan", "Azərçay" çayı içməyə dəvət edirəm. Bu çaylardan çox-çox için, bu çaylardan nə qədər çox içsəniz, o qədər sağlam olacaqsınız, yaxşı işləyəcəksiniz.

Sizin hamınızı qarşıdan gələn əlamətdar günlər münasibətilə təbrik edirəm. Dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik, birlik günüdür. Bu, bizim üçün əziz gündür. Çünki dünyanın bütün ölkələrində azərbaycanlılar yaşayırlar. Azərbaycanlılar günü-gündən bir-birinə qovuşmalıdırlar, yaxınlaşmalıdırlar, əlaqələrini artırmalıdırlar. Məhz həmin gün - 31 dekabr günü, azərbaycalıların həmrəylik günü bax, bu məqsədləri daşıyır. Həmin gün, həmin bayram bu məqsədlər üçün yaranıbdır. Mən bu gün bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Bütün dünya azərbaycanlılarına səadət arzulayıram, onları bir-biri ilə daha sıx olmağa dəvət edirəm. Bütün dünya azərbaycanlılarının həmrəyliyini arzulayıram.

Biz Yeni il ərəfəsindəyik. Bir neçə gündən sonra1997-ci il başlayacaqdır. Qarşımızda böyük vəzifələr durur. Ümidvaram ki, 1997-ci ildə bizim gördüyümüz işlər daha da sürətlə irəliləyəcəkdir. Azərbaycanı yeni nailiyyətlər gözləyir. Mən buna əminəm.

Qarşıdan gələn Yeni il münasibətilə sizi və Azərbaycanın bütün vətəndaşlarını ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət arzulayıram, bütün işlərinizdə uğurlar diləyirəm. Sağ olun.

1997

Fransada akkreditə olunmuş xarici jurnalistlərin suallarına Prezident Heydər Əliyevin cavabından:

Paris, "Bukets" kafesi
15 yanvar 1997-ci il

...Sual: Cənab Prezident, mənim ilk qısa sualım var. Azərbaycan Qərb şirkətləri qrupu ilə neft müqavilələri imzalanmışdır. Sizcə, bu şirkətlərin mənsub olduqları ölkələr Dağlıq Qarabağa dair sazişin əldə edilməsi üçün Ermənistana təzyiq göstərə bilərlərmi? İkinci sual: Türkiyə öz ölkəsinə neft və qaz nəql olunması haqqında Türkmənistan və İran ilə yenicə saziş imzalamışdır. Siz orta müddətli perspektivdə neftinizin İran vasitəsilə Türkiyəyə nəqlini nəzərdə tutursunuzmu?

Cavab: Birincisi, bütün bu fövqəlmilli şirkətlərlə müqavilələr imzalayarkən biz qarşımıza öncə kommersiya məqsədləri qoymuşuq. Həmin fövqəlmilli şirkətlərin mənsub olduqları ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllinə kömək etsələr bu, həm Azərbaycanın, həm də Ermənistanın xeyrinə olar. Biz beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.

O ki qaldı qazın nəqlinə dair Türkiyə, İran və Türkmənistan arasındakı müqaviləyə, mən onlara uğurlar diləyirəm. İran ərazisi vasitəsilə Türkiyəyə neft nəql etmək barədə planlarımız yoxdur.

M. Qədirli adına Mərkəzi Hövzə Xəstəxanasında müalicə olunan Xalq şairi Bəxtiyar Vahabzadə ilə Prezident Heydər Əliyevin görüşündən:

19 yanvar 1997-ci il

Heydər Əliyev: Biz səni Türkiyəyə müalicəyə göndərdik ki, sağalıb gələsən. Gələndən sonra dedin ki, hər şey yaxşıdır. İndi necə oldu ki, yenə də xəstələndin?

Bəxtiyar Vahabzadə: Cənab Prezident, Türkiyədə həkim prostat vəzini kəsib, lakin azca hissəsi qalıb,

o da əngəl yaradıb. Əvvəl bundan yaxşı idim. Mən Türkiyədən Bakıya qayıdandan sonra Sizə də zəng etdim. Bir müddətdən sonra Türkiyədə məni müalicə edən həkimlə telefonla əlaqə saxladım. O dedi ki, düzələcək. Sonra gördüm ki, yox, düzəlmir. Sonra Azərbaycan Milli Məclisinin üzvü, Yeni Azərbaycan Partiyasının üzvü professor Sudeif İmamverdiyevə müraciət etdim. Baxan kimi dedi ki, əməliyyat keçirmək lazımdır. O, əməliyyat keçirdi, prostat vəzinin artıq hissəsini kəsib götürdü. İndi 3-4 gündür özümü yaxşı hiss edirəm. Demək, səhv düzəlib.

İndi müxalifət qəzetləri də ağızlarına gələni yazırlar. Lalə Şövkət Partiyasının qəzeti bu barədə material verib.

Heydər Əliyev: Belə məsələlərdən də yazırlar. Görünür, belə şeylərə sensasiya yaratmaq istəyirlər. Yaxşı, qoy həkim gəlib məlumat versin, görək vəziyyət necədir?

Sudeif İmamverdiyev: Cənab Prezident, ikinci gün əməliyyat keçirmişik. Bu əməliyyat hər cəhətdən çox yaxşı keçdi. Türkiyədə bu prostat vəzini aparatla götürmək çətin olub. Yeni texnika belə nahiyədə yerləşən vəzi tam təmizləyə bilmir. Vəzin orada qalmış hissəsi qapama yaradırdı, bu isə narahatlığa səbəb olurdu. Bəxtiyar müəllimin vəziyyəti də ona görə gündən-günə pisləşirdi.

Biz əməliyyatı elə-belə keçirmədik. Əvvəlcə yaxşıca yoxladıq, aparatla baxdıq. Gördük ki, maneə var və əməliyyat keçirib həmin artıq hissəni götürdük.

İndi Bəxtiyar müəllimin vəziyyəti gündən-günə yaxşılaşır. Biz düşünürük ki, bu vəziyyət get-gedə daha da yaxşılaşacaqdır. Müalicə yüksək keyfiyyətlə, düşünülmüş qaydada aparılır. Bəxtiyar müəllim özü də razıdır ki, vəziyyət gündən-günə yaxşılaşır. İnşallah, hər şey yaxşı olacaq.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, Allah Sizdən razı olsun. Mən Sizə çox minnətdaram.

Cənab Prezident, Yaşar Əliyev mənimlə bir palatada müalicə olunur. Onun da üzərində əməliyyat keçirilib. Siz Azərbaycana əvvəlki dövrdə rəhbərlik etdiyiniz zaman Gəncədə xalq hakimi işləyib. İndi də hüquq-mühafizə orqanlarında çalışır. İcazə verin, Yaşar müəllim "Respublika" qəzetində dərc olunmuş müsahibəni Sizə oxusun.

Yaşar Əliyev: Cənab Prezident, biz Bəxtiyar Vahabzadə ilə dostuq. Xəstəliyimiz bir vaxta düşüb. Mənim də üzərimdə əməliyyat keçirilib. "Respublika" qəzetində dərc olunmuş bu müsahibənin sərlövhəsi belədir: "Xalq şiri Bəxtiyar Vahabzadə: sessiyanı çağırmaq şəxsi təşəbbüsüm idi".

Müxbir 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar belə bir sual verir: Bəxtiyar müəllim, sizcə, o vaxt Azərbaycana qüvvətli bir adam

rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

Bəxtiyar müəllim bu suala belə cavab verib:

- Mən belə hesab edirəm ki, yox. Bilirsən, oğul, milli qanı olan, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, bu qırğın olmazdı, heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə Prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisələrin çoxundan xəbərim yox idi. Süleyman Dəmirəldən bu barədə soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, çevikliklə, cəsarətlə diplomatik gedişlər edərək 52 dövlətin dəstəyini almağa necə nail olmasından danışaraq dedi ki, **"Heydər Əliyevin qədrini bilin".**

Bəxtiyar Vahabzadə: Cənab Prezident, Süleyman Dəmirəl ilə görüşümdə o mənə dedi ki, mən siz ziyalılardan narazıyam. Ona görə ki, Prezident Heydər Əliyevə lazımi səviyyədə dəstək vermirsiniz.

"Şahdəniz" neft yatağı üzrə müqavilə layihəsinin İdarəetmə Komitəsi üzvləri ilə görüşdə Prezident Heydər Əliyevin nitqindən:

Prezident Sarayı
5 mart 1997-ci il

...Bu müqaviləni həyata keçirən şirkətlər böyük və zəngin təcrübəyə malikdirlər. "Britiş petroleum", "Statoyl", "Elf Akiten", "LUKoyl", İranın OİEK, Türkiyənin "Türk petrolları" şirkətləri çox təcrübəli, yenə də deyirəm, böyük, zəngin təcrübəyə malik olan şirkətlərdir. Onların bir yerdə, müştərək iş görməsi və işin bu qısa müddətdə lazımi səviyyədə təşkil olunması şübhəsiz ki, yaxşı qiymətə layiqdir.

Təbiidir ki, bu konsorsium, yəni bu layihəyə daxil olan şirkətlər - buraya Azərbaycan Dövlət Neft Şirkəti də daxildir - bütün işləri bilavasitə Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə görürlər. Mən məmnunam ki, görülən işlərin əksəriyyəti Azərbaycan Dövlət Neft Şirkəti, respublikamızın sənaye müəssisələri, şirkətləri ilə müştərək şəkildə həyata keçirilməklə planlaşdırılır.

Bakının Gənclər meydanındakı Qoşaqala Qapıları önündə Novruz şənliyində Prezident Heydər Əliyevin çıxışından:

21 mart 1997-ci il

...Biz dünyadakı bütün ölkələrlə, xalqlarla qarşılıqlı surətdə faydalı, mehriban dostluq əlaqələri yaradırıq və yaratmaq istəyirik. Biz bölgəmizdə, Qafqazda sülhün bərqərar olmasını istəyirik. Biz bütün qonşularımızla - Rusiya, İran, Türkiyə, Gürcüstan və başqa qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Bundan sonra da sülh və əmin-amanlıq şəraiti yaratmağa çalışacağıq.

Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşuq və bu əlaqələr də Azərbaycana öz faydalarını verir, beynəlxalq miqyasda, aləmdə respublikamızın hüquqlarını müdafiə edir və Azərbaycanın Dünya Birliyində özünə layiq yer tutmasına kömək göstərir. Bütün bunlar bizim siyasətimizin strateji istiqamətidir. Biz bundan sonra da bu istiqamətdə hərəkət edəcəyik.

Fransa Prezidenti Jak Şirak ilə görüşdə Prezident Heydər Əliyevin bəyanatı

Paris, Yelisey sarayı
27 mart 1997-ci il

Cənab Prezident, hörmətli Jak Şirak!

Fransa torpağında, əzəmətli və qədim Yelisey sarayında yenidən görüşdüyümüz bu anda görkəmli musiqiçi, böyük ictimai xadim, bizim dostumuz Mstislav Rostropoviçin 70 illik yubileyi mərasimlərinə şəxsən dəvət olunduğum üçün təşəkkürümü bildirirəm.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə münasibətdə sizin ölkənizin mövqeyinin dəyişməz qaldığına, yəni münaqişəyə Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, Dünya Birliyi tərəfindən qəbul olunmuş normalar əsasında son qoyulmasına dair bəyanatınızı bu gün bir daha eşitmək bizim üçün çox xoşdur.

Fransa böyük dövlətdir. Fransanın dünyada böyük nüfuzu var və ona görə də bu problemin həlli üçün imkanları böyükdür. Xüsusən də indi, ATƏT-in Minsk qrupunun həmsədri olandan sonra. Biz çox ümid edirik ki, Siz Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcək, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması barəsində öz mövqeyinizi dəyişməyəcəksiniz. Bizim üçün bunun böyük əhəmiyyəti var.

Fransanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinə Prezident Heydər Əliyevin verdiyi bəyanatdan:

Paris, "Krion" mehmanxanası

27 mart 1997-ci il

...Bizim neft müqavilələrində Yaponiya da iştirak edir, Rusiya iştirak edir, İtaliyanın "Acip" şirkəti, Səudiyyə Ərəbistanının "Delta", Türkiyənin "Türk petrolları" şirkətləri iştirak edir. Görürsünüz, əməkdaşlığımız nə qədər böyük çərçivədədir. Bizim müqavilədə İran da iştirak edir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri Süleyman Dəmirəl cənablarına!

Möhtərəm cənab Prezident, Türkiyə xalqına üz vermiş ağır itki-Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Zati-aliləri, Sizə, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, səbr diləyirəm.

Mənim başsağlığımı Alparslan Türkeşin ailə üzvlərinə və yaxın adamlarına çatdırmağınızı xahiş edirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 1997-ci il

Türkiyə Milliyətçi Hərəkat Partiyası sədrinin müavini Toğrul Türkeş cənablarına!

Türkiyə xalqının görkəmli oğlu, atanız Alparslan Türkeş cənablarının vəfatı məni ürəkdən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, Milliyyətçi Hərəkat Partiyasının üzvlərinə, bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 aprel 1997-ci il

Türk Dövlət və Topluluqlarının V Dostluq, Qardaşlıq və İşbirliyi qurultayının iştirakçılarına!

Möhtərəm qurultay iştirakçıları!

Türk Dövlət və Topluluqlarının İstanbulda növbəti beynəlxalq toplantısını ürəkdən salamlayır, ən səmimi arzularımı yetirirəm.

Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik Türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin şərqdən qərbə, qərbdən şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış, bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişlər.

Tarixən Türk dövlətləri xalqla-

rımızın mentalitetinə uyğun olaraq haqq, ədalət və indiki anlarda demokratiya kimi yüksək bəşəri təməllər üzərində bərqərar olmuşdur. Hazırda-XXI yüzilliyin astanasında dünyanın siyasi xəritəsində özünə layiqli yer tutan, zəngin və mütərəqqi dövlətçilik ənənələrinə əsaslanan qardaş Cümhuriyyətlərimiz tarixi-milli haqqına qovuşaraq müstəqillik yolu ilə inamlı addımlar atmaqdadırlar. Bu böyük nailiyyəti qoruyub saxlamaq, dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, yeni dünya nizamına uyğun beynəlxalq əlaqələr qurmaq, çağdaş siyasi gerçəkliyi və gələcək qarşısında tarixi məsuliyyəti aydın dərk etmək günümüzün ən başlıca məsələlərindəndir. Gələcək uğurlarımız üçün ortaq milli, mədəni və mənəvi dəyərlərimizin bizə bəxş etdiyi imkanları dövlətlərimizin ümumi mənafe işinə səfərbər etməli qarşılıqlı və bərabərhüquqlu münasibətlərin etibarlı təməllər üzərində inkişafına nail olmalıyıq. Müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmlə, o cümlədən qardaş türk cümhuriyyətləri ilə əlaqələrində bu mövqedən çıxış edir və daim həmin prinsiplərə sadiq qalacaqdır. Əminəm ki, Türk dünyasının bugünkü nəsilləri, fikir adamları, dövlət və siyasət xadimləri öz şərəfli tarixi keçmişinə layiq olduğunu sübut edərək işdə, əməldə, fikirdə birlik kimi möhtəşəm ümumtale işimizin gerçəkləşməsi naminə var qüvvə ilə çalışacaqlar.

Əziz dostlar!

Qəlblərinizin tarixi məsuliyyət və iftixar duyğuları ilə döyündüyü bu xoşməramlı anlarda özümü sizlərlə bir arada hiss edir, qardaş xalqlarımızın aydın sabahı naminə xeyirxah fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 9 aprel 1997-ci il

Türkiyənin tanınmış müğənnisi Ebru Gündəşin konsertindən sonra Prezident Heydər Əliyevin onunla söhbəti

Respublika Sarayı
13 aprel 1997-ci il

Çox gözəl konsert verdiniz, mən sevindim və konsertinizi bəyəndim. Gördünüz ki, salondakılar da çox bəyəndilər.

Ebru Gündəş: Sevil xanım öz mahnısının ifasını bəyəndimi?

Sevil Əliyeva: Bəli, çox sağ olun, bəyəndim.

Heydər Əliyev: Sevil xanım da, mən də bəyəndim. Siz bu mahnını çox gözəl ifa etdiniz. Konsert bütünlükle çox gözəl idi. Sizin orkestriniz də çox gözəldir. Azərbaycana ilk dəfədir gəlirsiniz?

Ebru Gündəş: Bəli, Azərbaycana ilk dəfədir gəlirəm.

Heydər Əliyev: Sizi Azərbaycanda görməkdən çox məmnunam. Təşəkkür edirəm ki, gəldiniz, bizim insanlarla görüşdünüz, onları öz sənətinizlə, gözəl şərqilərinizlə sevindirdiniz.

Ebru Gündəş: Cənab Prezident, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Azərbaycana gəlmək, Sizinlə görüşmək mənim üçün şərəfdir və çox gözəldir. İnşaallah, təkrar qonaq gələrəm.

Heydər Əliyev: Ürəyiniz istədiyi vaxt gəlin.

Ebru Gündəş: Sağ olun, təşəkkür edirəm.

Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayevin şərəfinə verilmiş rəsmi ziyafətdə Prezident Heydər Əliyevin nitqindən:

"Gülüstan" Sarayı
23 aprel 1997-ci il

...Biz keçmişdə olanların hamısını, indi müstəqil dövlətlər olduqdan sonra əldə etdiyimiz hər şeyi yüksək qiymətləndiririk. Dövlət müstəqilliyinin əldə edilməsi Azərbaycanda tarixi nailiyyət kimi qiymətləndirilir və biz bu nailiyyəti qorumağı, dövlət müstəqilliyimizi, milli azadlığımızı möhkəmlətməyi və inkişaf etdirməyi özümüzə müqəddəs borc bilirik. Bunlar bütün ölkələrlə, o cümlədən də bizə dost olan Qırğızıstanla münasibətlərimiz üçün tamamilə yeni imkanlar və yeni şəraitdir.

Bu mövzunu biz Türk dövlətləri başçılarının görüşləri zamanı vaxtaşırı müzakirə edirik. Bu görüşlər Türkiyədə də, Qırğızıstanda da, Özbəkistanda da keçirilmişdir. Belə görüş bu il Qazaxıstanda olacaqdır. Biz bu görüşlərə böyük əhəmiyyət veririk və ildən-ilə daha çox yəqin edirik ki, türk dövlətləri başçılarının görüşü böyük gələcəyə malikdir. Bizi tarixi keçmişimiz, dilimiz, ənənələrimiz birləşdirir və bu zəmin dövlət müstəqilliyimizi, suverenliyimizi daha da möhkəmlətmək üçün, habelə ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq üçün yaxşı vasitədir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ IV İŞGÜZAR SƏFƏRİ

QDİƏT-in üzvü olan ölkələrin İstanbulda keçiriləcək biznes konfransında iştirak etmək üçün Türkiyəyə yola düşməzdən əvvəl Binə hava limanında Prezident Heydər Əliyevin jurnalistlərə verdiyi müsahibə

28 aprel 1997-ci il

Bildiyiniz kimi, İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının biznes konfransı keçirilir. Bu, çox əhəmiyyətli bir toplantıdır, çünki bu dəfə Qara Dəniz hövzəsi ölkələri ilə iqtisadi əməkdaşlıq çərçivəsində ən çox xüsusi şirkətlərə, biznes nümayəndələrinə yer verilir. Bu ölkələrin bir çox dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri toplantıda iştirak edəcəklər. Hətta Qərb ölkələrindən, o cümlədən ABŞ-dan da iş adamları gəlmişlər. Ona görə də toplantıda Azərbaycan da təmsil olunur, orada respublikamızın da nümayəndə heyəti var. Ancaq Türkiyə Prezidenti cənab Süleyman Dəmirəl mənə müraciət edərək dedi ki, mənim də oraya gəlməyim münasib olar, lazımdır, çünki bir neçə başqa ölkənin də Prezidentləri oraya gəlirlər.

Bu, birgünlük səfərdir, axşam vətənə dönəcəyəm. Mən bu səfəri əhəmiyyətli hesab edirəm. Biz bütün imkanlardan istifadə edib iqtisadiyyatımızın inkişafı və xarici sərmayənin cəlb olunması, bazar iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yeni-yeni işlər görmək istəyirik.

Sual: Konfransda Azərbaycandan keçəcək nəqliyyat yolları layihələrinin, yəni TRASEKA layihəsinin maliyyələşdirilməsi məsələsi müzakirə ediləcəkmi?

Cavab: Ola bilsin ki, bu barədə məlumatlar veriləcək, lakin məsələ müzakirə edilib hər hansı qərar qəbul olunmayacaqdır. Bununla yanaşı, bu layihələr, xüsusən

kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri də orada müzakirə olunacaq, yəni bu barədə fikir mübadiləsi ediləcəkdir. Ola bilər ki, müəyyən layihələr də müzakirəyə çıxarılsın. Orada yeni bir qərar qəbul etmək nəzərdə tutulmayıb, ancaq bu məsələlərin irəlilədilməsi üçün, inkişaf etdirilməsi üçün fikir mübadiləsi, müzakirələr lazımdır, çox əhəmiyyətlidir.

İstanbulda "Qara dəniz regionunda yeni imkanlar" mövzusunda keçirilmiş biznes konfransında Prezident Heydər Əliyevin nitqi

28 aprel 1997-ci il

Hörmətli cənab sədr!
Xanımlar və cənablar!

Hörmətli dövlət və hökumət başçılarını, Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilati İşgüzar Şurasının Türkiyə Respublikası Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransının bütün iştirakçılarını ürəkdən salamlayıram.

Qonaqpərvərlik üçün və bizə əla iş şəraiti yaradıldığı üçün hörmətli Prezident Süleyman Dəmirələ, konfransın təşkilatçılarına təşəkkürümü bildirirəm.

Olduqca əlamətdardır ki, məclisimiz gözəl İstanbul şəhərində keçirilir. Beş il bundan əvvəl, 1992-ci ilin iyununda məhz burada Qara dəniz hövzəsinin on bir ölkəsi regionumuzu sülh, sabitlik və tərəqqi regionuna çevrilməli olan, xalqlarımızın rifahını yüksəltməli olan yeni beynəlxalq təşkilat yaradıldığını elan etmişdir.

Məmnuniyyət hissi ilə qeyd etmək olar ki, ötən beş il bu qərarın düzgünlüyünü, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zəruriliyini və yaşamağa qadir təşkilat olduğunu inandırıcı şəkildə sübut etmişdir. Həmin dövr ərzində bir çox sahələrdə əməkdaşlığımızın genişlənməsi və dərinləşməsi üçün xeyli iş görülmüş, regional ticarətdə və iqtisadi kooperasiyada müsbət nəticələr əldə edilmişdir.

Bütün bunlar bizim əməkdaşlığımızın yeni, daha yüksək səviyyələrinə və formalarına çıxmaq üçün əlverişli ab-hava və şərait yaranmasına kömək etmişdir. Qara dəniz İqtisadi Əməkdaşlığı ölkələrinin biznes konfransı da belə yeni formalardan biridir. Biznes konfransının işində Qara dəniz İqtisadi Əməkdaşlığının iştirakçısı olan ölkələrin biznesmenləri, işgüzar dairələrinin nümayəndələri iştirak edirlər. Şübhə yoxdur ki, bu, əməkdaşlığımızın müvəffəqiyyətinə, planlarımızın konkretləşməsinə, yeni birgə müəssisələr yaradılmasına, mövcud problemlərin həllinə kömək

edəcəkdir.

Qara dəniz İqtisadi Əməkdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının, BMT nümayəndələrinin, Dünya Yenidənqurma və İnkişaf Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının və bir çox digər nüfuzlu beynəlxalq təsisatların rəhbərlərinin bu məclisdə iştirak etməsi Qara dəniz İqtisadi Əməkdaşlığına çox böyük əhəmiyyət verildiyini sübut edir.

Əminəm ki, konfransımız regionumuzun nəhəng iqtisadi potensialından daha yaxşı istifadə etməyə şərait yaradacaq, investisiyaların artmasına və bizim regional iqtisadi layihələrimizin əməli surətdə həyata keçirilməsinə kömək edəcəkdir.

Məsələn, nəqliyyat, energetika, rabitə sahələrində birgə fəaliyyət üçün, investisiya qoyuluşu üçün böyük imkanlar vardır. Qara dəniz İqtisadi Əməkdaşlıq regionunun nəqliyyat infrastrukturunun layihələri böyük əhəmiyyət daşıyır. Bu infrastruktur Avropanın nəqliyyat sisteminə inteqrasiya olunacaqdır. Qara dəniz İqtisadi Əməkdaşlığının nəqliyyat layihələrinin "TRASEKA" layihələri ilə əlaqələndirilməsi Avropa və Asiya ölkələri arasında yük daşımaları üçün çox geniş imkanlar açacaqdır.

Qara dəniz İqtisadi Əməkdaşlığının üzvü olan ölkələrin elektroenergetika sistemlərinin birləşdirilməsi layihəsi perspektivli layihədir. Ona birləşmiş Avroasiya elektroenergetika sisteminin yaradılması istiqamətində atılan addım kimi də baxmaq olar. Qara dəniz regionu Xəzər dənizi regionundan enerji daşıyıcılarının nəql edilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq həmin enerji daşıyıcılarının nəql edilməsinin ekoloji cəhətdən təhlükəsiz və etibarlı sistemini yaratmaq zərurəti meydana çıxır.

Azərbaycanın bu layihələrdə marağı vardır və o, bunların hazırlanıb həyata keçirilməsində fəal iştirak etmək niyyətindədir.

Hörmətli xanımlar və cənablar!

Qara dəniz İqtisadi Əməkdaşlığının əsas məqsədi regionumuzun çiçəklənməsini, xalqlarımız üçün sülhü və firavanlığı təmin etməkdir. Ona görə də bizim regionda mövcud silahlı münaqişələrin davam etməsi yolverilməzdir.

Məlumdur ki, Azərbaycan Respublikası Ermənistan Respublikasının təcavüzü nəticəsində çox böyük ziyan çəkmişdir - ərazimizin iyirmi faizi işğal edilmişdir, Azərbaycanın bir milyondan çox sakini qaçqına çevrilmişdir və olduqca ağır bir şəraitdə yaşayır.

1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon sammiti bu təşkilatın üzvü olan 53 dövlət adından Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılmasının aşağıdakı əsas prinsiplərini qəbul etmişdir:

- **Ermənistanın və Azərbaycanın ərazi bütövlüyü;**

- **Azərbaycanın tərkibində Dağlıq Qarabağın geniş muxtariyyəti;**

- **Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik.**

Bu prinsipləri Avropa Şurasının Parlament Assambleyası da 1997-ci ilin aprelin 22-də öz qətnaməsində təsdiq etmişdir.

Biz Lissabon sammitinin qərarlarının əməli surətdə həyata keçməsinə nail olmaq üçün öz tərəfimizdən bütün lazımi tədbirləri görürük və ümidvarıq ki, 1997-ci il sülh sazişinin əldə edilməsi üçün həlledici il olacaqdır. Biz uzun sürən bu münaqişənin aradan qaldırılmasında ATƏT-in Minsk qrupunun fəaliyyətinin güclənəcəyinə, Minsk konfransının həmsədrləri olan Rusiyanın, ABŞ-ın və Fransanın birgə səylərinə, habelə Qara dəniz hövzəsi ölkələrinin köməyinə bel bağlayırıq.

Biz Ermənistanı ATƏT-in Lissabon sammitinin təsdiq etdiyi prinsiplər əsasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çağırırıq.

Bu tribunadan istifadə edərək mən Azərbaycan Respublikasının qəti fikrini bir daha təsdiq edirəm ki, respublikamız üç ildən bəri davam edən atəşkəs rejiminə sülh sazişi imzalanana qədər riayət etmək niyyətindədir.

Ümidvaram ki, əlbir səylərlə biz regionumuzda bütün münaqişələrin aradan qaldırılmasına nail olacaq, möhkəm sülhün, sabitliyin, xalqlarımızın tərəqqisinin və əməkdaşlığının təməlini qoya biləcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

Mstislav Rostropoviç, onun xanımı Qalina Vişnevskaya və ailəsinin digər üzvləri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışından:

Prezident Sarayı
29 aprel 1997-ci il

...Mən Azərbaycana rəhbərliyə 1993-cü ilin ortalarında qayıtdım və bir neçə aydan sonra atəşkəsə nail ola bildim. Bu rejim üç ildir saxlanılır. Yeri gəlmişkən, İstanbulda böyük biznes konfransı keçirilməsi - konfrans indi də davam edir - ilə əlaqədar dünən mən orada oldum. İstanbulda Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna, Moldova, Ermənistan və Azərbaycan Prezidentlərinin görüşləri keçirildi. Mən oraya dünən səhər getdim, axşam da geri qayıtdım. Orada mən bütün Prezidentlərlə görüşdüm və biz yenə də yekdil fikirdə olduq ki, Qafqazda, bütün regionda, bütün dünyada sülh, əmin-amanlıq və firavanlıq yaratmaq lazımdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ II RƏSMİ SƏFƏRİ

Türkiyə Cümhuriyyətinə rəsmi səfərə yola düşməzdən əvvəl Prezident Heydər Əliyevin Binə hava limanında jurnalistlərə verdiyi bəyanat

5 may 1997-ci il

Rəsmi səfər Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilədir. Mən Türkiyədə son dəfə 1994-cü ildə rəsmi səfərdə olmuşam. Doğrudur, bu müddətdə həm Türkiyədə, həm Azərbaycanda, həm də beynəlxalq təşkilatların toplantılarında Türkiyə rəhbərləri ilə çox görüşlərimiz olubdur və indiyə qədər dövlətlərarası, hökumətlərarası bir çox sənədlər də imzalamışıq. Ancaq indi belə bir rəsmi səfərin həyata keçirilməsi zərurəti həm Türkiyə, həm də Azərbaycan tərəfindən qərara alınıbdır. Ona görə də mən rəsmi səfərə gedirəm. Bütün sahələrdə - həm iqtisadi əməkdaşlıq sahəsində, həm də elmi, mədəni və başqa sahələrdə ikitərəfli Türkiyə - Azərbaycan əlaqələrinin daha da genişlənməsi, inkişaf etməsi ilə bağlı geniş danışıqlar aparacaq və bir çox sənədlər imzalayacağıq. Hansı sənədlər olacağını imzalayanda görəcəksiniz. Mən bu dəvəti çox böyük məmnuniyyətlə qəbul etmişəm və çox böyük hörmət, ehtiram hissi ilə Türkiyəyə səfər edirəm.

Türkiyə Cümhuriyyətinə rəsmi səfərə gələrkən qarşılanma mərasimində Prezident Heydər Əliyevin mətbuat üçün bəyanatı

İstanbul, Çankaya köşkü
5 may 1997-ci il

Hörmətli cənab Prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Hörmətli dostlar, qardaşlar!

Sizə Azərbaycan xalqından, Azərbaycan Respublikasından ən səmimi salamları və xoş arzuları çatdırıram. Əziz dostum cənab Süleyman Dəmirəlin dəvəti ilə Türkiyə Cümhuriyyətinə rəsmi səfər etmək imkanı əldə etdiyimə görə çox məmnunam və Türkiyə torpağına gəldiyimə çox sevinirəm.

Türkiyə bizim dost, qardaş ölkəmizdir. Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin ən dərin kökləri var. Bizim keçmiş əlaqələrimiz və son illərdə sürətlə inkişaf edən əlaqələrimiz indi Türkiyə-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldırıbdır. Azərbaycan bundan çox məmnunluq duyur. Azərbaycan xalqı, respublikamızın bütün vətəndaşları Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz qardaş ölkəsi kimi daim sevgi, məhəbbət hisslərini bildirirlər.

Biz son illər tez-tez görüşürük. Ancaq hesab edirəm ki, bu rəsmi səfər, görüşlər zamanı əldə etdiyimiz nailiyyətlər əsasında Türkiyə-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə çatdırmaq imkanına malik olacağıq. Hesab edirəm ki, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün imkanlarımız var. Bir müstəqil dövlət olaraq Azərbaycan Respublikası buna çox böyük ehtiyac duyur.

Bu günlərdəki görüşlərimiz zamanı mən bu sahələrdə danışıqlar aparmaq istəyirəm. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında sənədin imzalanması da indiyədək əlaqələrimizin inkişafı yolunda atdığımız addımların ən dəyərlisi olacaqdır.

Azərbaycanın ən böyük dərdi - Ermənistan tərəfindən Azərbaycana edilmiş təcavüz və bunun nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, işğal edilmiş ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşının didərgin düşməsidir. Biz bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Ermənistanın Azərbaycana təcavüzü başlanandan indiyə qədər Türkiyə bu məsələdə həmişə Azərbaycanla bir olubdur, biz Türkiyənin dəstəyini, yardımını hiss etmişik. Güman edirəm ki, bu səfər günlərində də Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin keçən ilin dekabrında ATƏT-in Zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında sülh yolu ilə həll edilməsi sahəsində də danışıqlar aparıb məsələnin həlli üçün səylər göstərəcəyik.

Bir daha qeyd edirəm ki, Türkiyə bizim üçün dost, qardaş ölkədir. Biz - mən və mənimlə bərabər buraya gələnlər özümüzü öz məmləkətimizdə hiss edirik. Buraya ayaq basdığımız andan indiyədək bizə göstərilən hörmət və ehtirama, çox dostcasına, hərarətli münasibətə görə də həm sevinir, həm də təşəkkür edirik.

Əziz dostum, hörmətli Prezident Süleyman Dəmirəl, dəvətinizə görə Sizə bir daha təşəkkür edir və ümidvar olduğumuzu bildirmək istəyirəm ki, bizim görüşlərimiz ölkələrimiz, xalqlarımız arasında olan əlaqələri daha da yüksəklərə qaldıracaqdır. Təşəkkür edirəm.

Türk dünyasının görkəmli xadimi Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etdikdən sonra fəxri qonaqlar üçün Xatirə kitabına Prezident Heydər Əliyevin yazdığı ürək sözləri:

"Bu müqəddəs yeri, Türkiyə Cümhuriyyətinin banisi böyük Mustafa Kamal Atatürkün məzarını yenidən ziyarət edərkən onun ruhu qarşısında baş əyirəm. Onun ölməz xatirəsinə, bəşər tarixindəki xidmətlərinə dərin hörmət və ehtiramımı bildirirəm. Azərbaycan xalqı böyük Atatürkün xatirəsini qəlbində yaşadır, daim yaşadacaqdır. Allah rəhmət eləsin".

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sənədlərin imzalanması mərasimində Prezident Heydər Əliyevin mətbuat üçün verdiyi bəyanat

İstanbul, Çankaya köşkü
5 may 1997-ci il

Hörmətli mətbuat nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

Bu gün mən Prezident cənab Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə rəsmi səfər etməyimdən və buraya gəldiyim ilk dəqiqədən indiyədək Azərbaycan nümayəndə heyətinə, şəxsən mənə göstərilən qonaqpərvərlikdən və dostluq münasibətindən məmnun olduğumu bildirmək istəyirəm.

Bu gün biz çox səmərəli danışıqlar apardıq, çox əhəmiyyətli məsələləri müzakirə etdik, geniş fikir mübadiləsi apardıq.

Bunlar hamısı Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq və qardaşlıq əlaqələrinin parlaq təzahürüdür. Bizim ölkələrimizi, xalqlarımızı tarixi köklərimiz, tarixi keçmişimiz, ənənələrimiz, mədəniyyətimiz, dilimiz, dinimiz birləşdiribdir.

Azərbaycan müstəqil dövlət olandan indiyədək respublikamızın bütün dövlətlərlə qurduğu əlaqələr içərisində Türkiyə ilə əlaqələri xüsusi yer tutur və xüsusi əhəmiyyət daşıyır. Çünki Türkiyə həmişə Azərbaycanı dəstəkləmiş, Azərbaycanın müstəqil dövlət olması yolunda ölkəmizə daim öz rəğbətini bildirmiş və Azərbaycan öz müstəqilliyini elan edən kimi ilk dəfə respublikamızı tanıyan dövlət olmuşdur.

O vaxtdan indiyədək əlaqələrimizin artıq zəngin tarixi vardır. Bizim əlaqələrimiz demək olar ki, sürətlə inkişaf edir. Bunların hamısının da səbəbi Türkiyənin Azərbaycana göstərdiyi xüsusi qayğı və dostluq münasibətidir. Bu qayğını, münasibəti bütün Türk xalqı, Türkiyənin

dövlət adamları göstərirlər. Türkiyənin Prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl Azərbaycana xüsusi qayğı və münasibət göstərir.

Bu gün qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman respublikamızın dövlət müstəqilliyinin tanınmasında hörmətli Pezident Süleyman Dəmirəlin xüsusi rolu olmuşdur. O dövrdən indiyədək, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrdə Prezident Süleyman Dəmirəl xüsusi rol oynayıb və xidmətlər göstəribdir.

Mən bu gün bu fürsətdən istifadə edib bunlara görə hörmətli Prezident Süleyman Dəmirələ hörmət və ehtiramımı və bütün Azərbaycan xalqı adından təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Azərbaycan nümayəndə heyətinə və şəxsən mənə bu gün göstərilən bu münasibətə görə də təşəkkür edirəm. Əziz dostum Süleyman bəy, mənim haqqımda və Azərbaycanın indiki ağır dövründə bir Prezident kimi mənim gördüyüm işlər barədə dediyiniz xoş sözlərə görə də sizə təşəkkür edirəm.

Əziz dostlar, əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dövlət müstəqilliyini və milli azadlığını göz bəbəyi kimi qoruyur və bundan sonra da qoruyacaqdır. Dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir və bu tarixi nailiyyəti qoruyub saxlamağı biz özümüzün ali vəzifəmiz, ən yüksək borcumuz hesab edirik. Türkiyə ilə əlaqələrimiz bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. İkitərəfli əlaqələrimiz, ümumiyyətlə, məsələlərin müzakirəsində çoxtərəfli əməkdaşlığımız fövqəladə dərəcədə qiymətlidir.

Azərbaycan ilə Türkiyə arasında indiyədək bir çox müqavilələr imzalanmışdır. Amma bu gün imzalanan sazişlər də bizim əlaqələrimizin normativ - hüquqi bazasını daha da genişləndirir, gücləndirir. Xüsusən Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları "Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında" bəyannamə çox böyük əhəmiyyət kəsb edir. Bu, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin yeni bir mərhələyə, səviyyəyə çatdığını göstərir. Ümumiyyətlə, bu görüşlər, danışıqlar, imzalanan sənədlər Türkiyə-Azərbaycan əlaqələri tarixində yeni bir mərhələ, səhifə açır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu imkanlardan bundan sonra da səmərəli istifadə edəcəyik.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, respublikamızın böyük dərdi olan Ermənistanın Azərbaycana etdiyi təcavüz və bu təcavüz nəticəsində ölkəmizin torpaqlarının 20 faizinin işğal olunması, bir milyondan çox vətəndaşımızın doğma yurdundan didərgin düşməsi və ağır vəziyyətdə yaşaması məsələsi Türkiyəni daim narahat edir və həmişə Türkiyə xalqının, ictimaiyyətinin diqqət mərkəzindədir. Türkiyənin

dövlət, hökumət başçılarının diqqət mərkəzindədir. Bu məsələyə bu gün də göstərilən münasibət və Ermənistan-Azərbaycan münaqişəsinin keçən ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Lissabonda keçirilən Zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında həll edilməsi barəsində apardığımız danışıqlar, məsləhətləşmələr və Türkiyənin bu barədə qəti mövqeyi bizim üçün böyük dəstəkdir, dayaqdır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu məsələnin sülh yolu ilə həll edilməsinə bizim dostumuz, qardaşımız Türkiyə ilə bərabər nail olacağıq.

Mən ümidvaram ki, bugünkü görüşlər davam edəcək və Türkiyə-Azərbaycan dostluğu, əməkdaşlığı günü-gündən inkişaf edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Prezidentinə Türkiyə Cümhuriyyətinin "Dövlət Nişanı"nın təqdim olunması mərasimində Prezident Heydər Əliyevin çıxışı

İstanbul, Çankaya köşkü
5 may 1997-ci il

Hörmətli Prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Türkiyə Cümhuriyyətinin hökumət üzvləri, dövlət adamları, mətbuat nümayəndələri!

Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün biz Türkiyəyə gəlməyimizə, bu torpaqda olmağımıza çox sevinirik və məmnunuq. Türkiyə bizim üçün müqəddəs bir yerdir. Hər bir azərbaycanlı üçün Türkiyə sevimli bir ölkədir. Buna görə Türkiyəni ziyarət etmək özü hər bir insanın həyatında böyük bir hadisədir, xoşbəxtlikdir. Bizə bu xoşbəxtlik nəsib olmuşdur. Bu gün mən həddindən artıq həyəcanlıyam. Ona görə ki, Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı"nı mənə əziz dostum Süleyman Dəmirəl təqdim etdi. Mən Türkiyənin bu yüksək dövlət mükafatına layiq görülmüşəm.

Mən çox həyəcanlıyam. Doğrusu, belə bir yüksək mükafatı heç də gözləmirdim. Çünki Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdirmək, genişləndirmək, günügündən irəliyə aparmaq bir azərbaycanlı, bir vətəndaş kimi mənim müqəddəs borcumdur.

Artıq dörd ilə yaxındır ki, mən Azərbaycana rəhbərlik edirəm. Bu müddətdə daim çalışmışam ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr inkişaf etsin, genişlənsin, yüksəlsin. Çünki mən həm Azərbaycan üçün, həm də Türkiyə üçün bunun nə qədər faydalı olduğunu bilirəm. Bunun Azərbaycan üçün nə qədər gərəkli, faydalı olduğunu həmişə dərk etmişəm. Çünki uzun illər biz Türkiyədən ayrı düşmüşük, xalqlarımız 70 il bir-birindən ayrı düşmüşdür. Bu illər ərzində tək biz yox, bizdən əvvəl yaşamış nəsillər də Türkiyənin həsrətində olublar, Türkiyə ilə qovuşmaq, görüşmək, əl-ələ vermək, Türkiyənin əlini sıxmaq həsrəti ilə yaşayıblar.

Nəhayət, biz 1990-cı ilin əvvəllərində buna nail olduq. Bunun özü hər bir Azərbaycan vətəndaşının həyatında, o cümlədən mənim həyatımda böyük bir xoşbəxtlikdir. Buna nail olandan sonra bu əlaqələri inkişaf etdirmək, xalqlarımızı bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı fayda əldə etmək, şübhəsiz ki, bizim vəzifəmiz olubdur və mən bu vəzifəni yerinə yetirməyə çalışmışam. Əgər mənim gördüyüm bu işlər Türkiyə Cümhuriyyəti, dövləti tərəfindən bu qədər yüksək qiymətləndirilirsə, mən çox xoşbəxtəm, məmnunam.

Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır. Bu, böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı cümhuriyyətin mükafatıdır.

Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. Ona görə də Türkiyə, demokratik, Atatürk Türkiyə Cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik.

Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik. Bir xalq olan bir dövlətin başçısının o biri dövlətin yüksək mükafatını alması böyük şərəfdir.

Mən sizi əmin edirəm ki, bu böyük etimadı, şərəfi həyatımın sonuna qədər doğrultmağa çalışacağam. Mən onsuz da bunu edirəm və edəcəkdim. Ancaq bu mükafat mənim üzərimə çox böyük məsuliyyət qoyub, vəzifəmi daha da artırıbdır.

Əmin olun ki, mən bu vəzifəmi layiqincə yerinə yetirməyə çalışacağam. Əmin olun ki, Azərbaycan daim müstəqil olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı sarsılmazdır, dönməzdir. Əmin olun ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə gedəcəkdir. Azərbaycanın tutduğu yol - demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolu bizim yolumuzdur. Biz bu yoldan heç vaxt dönməyəcəyik. Bu yolla sona qədər gedib Azərbaycanı Dünya Birliyində layiqli bir səviyyəyə gətirib çıxaracağıq.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.

Əziz dostum, qardaşım, sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

Sual: Cənab Heydər Əliyev, Bakı Ceyhan xətti barədə nə deyə bilərsiniz?

Cavab: Bu gün imzaladığımız strateji əməkdaşlıq haqqında bəyannamədə bütün bu məsələlər öz əksini tapıbdır.

Sual: Azərbaycan nefti 2000-ci

ildə Türkiyəyə gəlib çıxacaqmı?

Cavab: Azərbaycan nefti Türkiyəyə nə vaxt gəlib çatacaq, - bunu zaman göstərəcəkdir. Amma yaxın vaxtlarda olacaqdır.

Sual: Mətbuatdan məlumdur ki, Rusiya Ermənistana xeyli silah veribdir. Türkiyə-Azərbaycan danışıqlarında bu məsələ müzakirə olundumu?

Cavab: Bilirsiniz ki, Ermənistan gizli olaraq Rusiyadan çoxlu miqdarda silahlar, sursatlar alıbdır. Rusiyanın paytaxtı Moskvada rəsmi elan edilib ki, Rusiya Ermənistana gizli olaraq bir milyard dollarlıq silah veribdir. Bu, çox böyük təhlükə doğurur. Ona görə də bu gün biz bu barədə ətraflı danışıqlar, müzakirələr apardıq. Şübhəsiz ki, bu hadisə bizim hamımızı düşünməyə dəvət edir. Düşünmək lazımdır. Əgər bu sahədə iş birliyi lazım olsa, bunu da etmək olar.

Sual: Cənab Prezident, siz bəyan etmisiniz ki, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət verilməsinə tərəfdarsınız. Ermənistan Azərbaycandan nə istəyir?

Cavab: Ermənistan Dağlıq Qarabağa müstəqillik istəyir. Biz bunu heç vaxt verə bilmərik. Azərbaycan öz torpağının bir qarışını, bir metrini də heç kəsə verməz. Ermənistan torpaqlarının bir qisminin keçmiş zamanlarda Azərbaycana məxsus olmasına baxmayaraq, biz başqalarının torpağını istəmirik. Biz 1991-ci ildə Azərbaycan müstəqillik qazandığı zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş sərhədlərimiz çərçivəsində torpaqlarımızı qoruyacağıq və heç kəsə verməyəcəyik.

Xarici ölkələrin iqamətgahları Ankarada yerləşən, eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş səfirləri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

5 may 1997-ci il

Hörmətli səfirlər, hörmətli cənablar!

Mən sizi salamlayıram və sizinlə bu qısa görüşümdən çox məmnun olduğumu bildirmək istəyirəm. Siz bilirsiniz ki, mən bu gün səhər buraya rəsmi səfərə gəlmişəm, bütün günü danışıqlar gedib. Proqramdan bir qədər kənara çıxmışıq. Ona görə də mən sizinlə görüşə bir az gecikmişəm. Bununla yanaşı 25 dəqiqədən sonra yeni bir proqram başlanacaqdır.

Sizin burada, Türkiyədə səfir olmaqla bərabər eyni zamanda Azərbaycanda öz ölkənizi təmsil etməyiniz bizim üçün çox əlverişlidir. Çünki Türkiyə ilə Azərbaycan arasında çox sıx dostluq, qardaşlıq əlaqələri var. Türkiyə bizim üçün çox yaxın ölkədir və Türkiyə ilə Azərbaycan arasında məsafə də çox qısadır. Ona görə də burada oturaraq Azərbaycanda səfirlik fəaliyyətini həyata keçirmək şübhəsiz ki, başqa ölkələrə nisbətən daha yaxşıdır. Ancaq biz eyni zamanda arzu edərdik ki, siz Azərbaycana tez-tez gələsiniz, Azərbaycanın vəziyyəti ilə daim maraqlanasınız, Azərbaycanda gedən proseslər haqqında həm özünüz məlumat alasınız, həm də öz ölkənizə həmişə məlumat verəsiniz. Çünki biz sizin ölkələrinizlə çox sıx əlaqə saxlamaq istəyirik və bu əlaqələrin də saxlanmasında səfirin rolu çox böyükdür. Sizin ölkələrinizdə bizim səfirliyimiz yoxdur. Buna görə də siz həm öz ölkənizin Azərbaycanda səfiri, həm də Azərbaycanın sizin ölkənizdə səfiri olmalısınız. Hər halda mən bunu arzu edir və ümidvaram ki, siz mənim arzumu yerinə yetirəcəksiniz.

Yəqin ki, Azərbaycandakı indiki vəziyyət sizə məlumdur. Əvvəla, daxili ictimai-siyasi sabitlik təmin olunubdur. Bilirsiniz ki, keçmiş illərdə Azərbaycan daxili sabitlik baxımından çox çətin proseslər içərisində idi. İndi Azərbaycanda dövlət orqanları normal fəaliyyət göstərir, demokratik hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycan parlamenti daim işləyir və yerli hakimiyyət orqanları da öz vəzifələrini yerinə yetirirlər.

Cari ilin üç ayı ərzində Azərbaycan iqtisadiyyatında bəzi müsbət nəticələr əldə olunubdur. Bilirsiniz ki, inflyasiyanın qarşısı tamamilə alınıb və indi Azərbaycanda inflyasiya yoxdur. Milli valyutamızın - manatın dəyəri möhkəmlənib və ötən illə müqayisədə dollarla nisbətdə 10 faiz artıbdır. Bu üç ayda dövlət büdcəsi yerinə yetirilibdir. Güman edirik ki, büdcə ilin axırınadək də yerinə yetiriləcəkdir.

İstehsalatda, iqtisadiyyatda müəyyən artımlar var. Keçən illərdə bizdə istehsalın səviyyəsi daim aşağı düşürdüsə, indi bu dayandırılıb və müəyyən artım da əldə edilibdir. Güman edirik ki, 1997-ci ildə bu müsbət meyl daha da artacaqdır. İqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur. Özəlləşdirmə proqramı əməli surətdə həyata keçirilir. Aqrar sektorda islahatlar həyata keçirilir və bəzi hallarda biz onların müsbət nəticələrini hiss edirik. Bilirsiniz ki, biz "Torpaq islahatı haqqında" çox ciddi bir qanun qəbul etmişik. Torpaqlar xüsusi mülkiyyətə verilir. Bu qanun da artıq icra olunur.

Xarici ticarətdə liberallaşdırma prosesi davam edir. Ümumiyyətlə, Azərbaycanda artıq iqtisadiyyatda liberallaşdırma, sahibkarlığa geniş imkanlar yaradılması prosesi mövcuddur. Biz hesab edirik ki, iqtisadiyyatda baş vermiş bəzi müsbət nəticələr və meyllər məhz bu iqtisadi islahatların, özəlləşdirmənin həyata keçirilməsi ilə bağlıdır.

Siz bilirsiniz ki, ölkəmizdə çoxpartiyalı sistem, mətbuat azadlığı, söz azadlığı bərqərar olubdur. Ancaq bunlarla yanaşı, ölkəmizi na-

rahat edən ən böyük problem Ermənistan-Azərbaycan münaqişəsidir və biz bu münaqişədə istədiyimiz nəticəni hələ əldə edə bilməmişik. Atəşkəs haqqında əldə etdiyimiz sazişin bir həftədən sonra üç ili tamam olacaqdır. Üç ildir ki, atəş yoxdur, məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Bu baxımdan keçən ilin dekabr ayında Lissabonda ATƏT-in Zirvə görüşündə əldə olunan sənəd çox böyük əhəmiyyət kəsb edir. Sizə məlumdur ki, Lissabon Zirvə görüşündə Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması prinsipləri haqqında sənəd qəbul edilibdir. Bu məsələlərin həll olunması üçün yaradılmış Minsk qrupunun indi üç həmsədri var: Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Biz çox ümid bəsləyirik ki, üç böyük dövlətin bu məsələyə qoşulması və Lissabon Zirvə görüşündə sülh danışıqları prinsiplərinin müəyyən edilməsi 1997-ci ildə sülh prosesini irəlilədə bilər.

Ancaq buna çox mane olan amillər də var. Bilirsiniz ki, son iki ayda Rusiyanın Ermənistana üç il ərzində gizli olaraq çoxlu silah verməsi aşkara çıxarılmışdır. İndi artıq tam məlum olub və Rusiyanın müvafiq orqanları da bəyan ediblər ki, son üç ildə gizli olaraq, qanunsuz surətdə Rusiyadan Ermənistana bir milyard ABŞ dolları dəyərində ağır silahlar verilibdir. Bu silahlar içərisində çoxsaylı müasir tanklar da, toplar da, uzaq mənzilli raketlər də var. Rusiyanın Ermənistana bu qədər silah verməsi çox təəccüblüdür və eyni zamanda böyük təhlükə doğurur.

Bu, tək Azərbaycan üçün yox, tək Qafqaz bölgəsi üçün yox, Türkiyə də daxil olmaqla bütün bölgə üçün çox təhlükəlidir. Biz Rusiyanın dövlət başçılarından, şəxsən Prezident Boris Yeltsindən xahiş etmişik, mən ona məktublarla müraciət etmişəm və mart ayının 29-da şəxsi görüşümdə ona bildirmişəm ki, Rusiya bu məsələ ilə əlaqədar ciddi ölçü götürməlidir. Bizim tələbimiz ondan ibarətdir ki, Ermənistana verilmiş silahlar geri qaytarılmalıdır və gələcəkdə belə hallara yol verilməməlidir. Doğrudur, Rusiya parlamenti bu barədə qərar qəbul edibdir. Ancaq hələ konkret bir nəticə yoxdur. Moskvada istintaq gedir, araşdırmalar aparılır, lakin bir şey şübhəsizdir ki, silahlar verilibdir və bu silahların verilməsi haqqında sənədlər mövcuddur. Mən bir daha qeyd edirəm ki, bunlar bizi narahat edir və şübhəsiz ki, sülh danışıqlarının aparılmasına mane olur.

Lakin bunlara baxmayaraq, Azərbaycan yenə də məsələnin sülh yolu ilə həll olunması mövqeyində durur. Bu gün mən sizə bir daha bəyan edirəm ki, biz məsələ sülh yolu ilə həll olunana qədər, yəni böyük sülh müqaviləsinin bağlanmasına qədər atəşkəs rejimini qoruyub saxlayacaq və ona riayət edəcəyik.

Bu gün Türkiyənin Brezidenti, Baş naziri, Baş nazirin müavini və

başqa şəxslərlə Türkiyə-Azərbaycan əlaqələri haqqında geniş danışıqlar aparmışıq. Biz bu danışıqlardan çox məmnunuq. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr gündən-günə inkişaf edir. Bu əlaqələri daha da inkişaf etdirmək üçün bu gün biz çox dəyərli səkkiz müqavilə imzalamışıq. Bu müqavilələrdən biri Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqındadır və onu Türkiyənin və Azərbaycanın Prezidentləri imzalamışlar. Qarşıdakı günlərdə də Türkiyədə görüşlərimiz, danışıqlarımız olacaqdır. Mən Türkiyəyə bu rəsmi səfərimə xüsusi əhəmiyyət verirəm.

Mən sizi bir daha salamlayıram və Azərbaycan ilə öz ölkələriniz arasındakı əlaqələrin inkişaf etməsi üçün sizdən daha böyük səylər göstərməyinizi xahiş edirəm. Təşəkkür edirəm. Sağ olun.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Azərbaycan Prezidentinin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə Prezident Heydər Əliyevin nitqi

Ankara
5 may 1997-ci il

Hörmətli Prezident cənab Süleyman Dəmirəl, hörmətli Nəzmiyyə xanım!

Hörmətli Baş nazir cənab Nəcməddin Ərbakan!

Hörmətli dostlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycan xalqı adından ürəkdən salamlayır, sizə Azərbaycan xalqının hörmət-ehtiramını və sevgi-məhəbbətini çatdırıram.

Türkiyə Cümhuriyyətinə rəsmi səfərə dəvət olunduğuma görə əziz dostum, qardaşım, Prezident Süleyman Dəmirələ təşəkkür edirəm. Sizi əmin edirəm ki, bu görüşlər, danışıqlar Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, daha yüksəklərə qaldıracaqdır.

Biz hamımız - mən və mənimlə Türkiyəyə gəlmiş böyük nümayəndə heyəti sizin ölkənizə, torpağınıza gəlməkdən çox məmnunuq və çox xoşbəxtik. Türkiyə hər bir azərbaycanlı üçün, bizim üçün dəyərli ölkədir, əziz diyardır. Türk xalqı bizim qardaşımız, dostumuzdur. Ona görə də **Türkiyəyə hər bir ziyarət böyük iftixar hissi doğurur, Türkiyə ilə hər bir görüş böyük məhəbbət hissi doğurur.** Bu hissiyyatlarla da biz bu gün buraya gəlmişik.

Bu gün səhər tezdən indiyə qədər aparılan danışıqlar və imzalanmış sənədlər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin nə qədər möhkəm olduğunu və nə qədər böyük gələcəyə malik olduğunu bir daha nümayiş etdirir. İftixar hissi ilə demək istəyirəm ki, bu əlaqələr tarixi keçmişimizlə, tarixi köklərimizlə bağlıdır. Həqiqətən xalqlarımız əsrlər boyu

böyük sınaqlardan keçərək həmişə bir-birinə dayaq olmuş, yardım etmiş, bir-birini sevmiş və bir-birinin yanında olmuşdur. Hətta son 70 illik ayrılıq da xalqlarımızın, millətlərimizin arasında olan dostluq, qardaşlıq, məhəbbət hisslərini söndürə, qıra bilməmişdir. Əksinə, biz hər il, hər gün o keçmiş zamanlar haqqında düşünərkən yeganə fikrə gəlirik ki, ayrılıq insanlarda bir-birinə qovuşmaq hissini daha da artırır. Bu qovuşmaq hissi nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında indi mövcud olan əlaqələrin yaranmasına gətirib çıxarıbdır.

Azərbaycan dövlət müstəqilliyini elan edən kimi, Türkiyə dünyada ilk dövlət olaraq Azərbaycanın dövlət müstəqilliyini tanıdı, dəstəklədi və beləliklə, bizim müstəqilliyimizin tanınmasına geniş yol açdı. Ötən altı il ərzində ölkələrimiz arasında əlaqələr o qədər genişlənib, inkişaf edibdir ki, sanki yetmiş illik ayrılıq olmamışdır. Bu da təbiidir. Çünki bizim bir-birimizə bağlılığımız əsrlər boyu olmuşdur. Bu əsrlərin yanında yetmiş il bir şey deyildir. Ulu babalarımızın əsrlər boyu bir-biri ilə bağlılığını, bir-birinə olan münasibətini yetmiş illik ayrılıq heç də poza bilməzdi.

Ona görə də təbiidir ki, biz müstəqillik əldə edən kimi, sərhədlər açılan kimi, bir-birimizlə əlaqələr asanlaşan kimi dostluğumuz, qardaşlığımız böyük bir fəvvarə kimi püskürdü və bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə ilə Azərbaycan keçmişdə də bir olub, bu gün də birdir, gələcəkdə də bir olacaqdır.

Türkiyənin bugünkü günü bizdə böyük iftixar hissi doğurur. Böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti yetmiş ildən artıq bir zamanda sürətlə irəliləyib dünyanın inkişaf etmiş dövlətləri sırasında durubdur və layiqli yer tutubdur.

Biz çox sevinir və fəxr edirik ki, Türkiyə Şərq ilə Qərbin sintezini dünyada təmsil edən bir ölkə olubdur. Türkiyə Cümhuriyyəti öz milli, mənəvi dəyərlərini, ənənələrini, adətlərini qoruyub saxlayaraq, eyni zamanda dünyanın ən qabaqcıl, mütərəqqi, ümumbəşəri dəyərlərindən bəhrələnib, istifadə edib öz ölkəsində yüksək mədəniyyətə, elmə, texnologiyaya, yüksək insani dəyərlərə malik olan bir cəmiyyət, cümhuriyyət yaradıbdır.

Türkiyənin cümhuriyyət dövründə keçdiyi yol tarixi yoldur. Bu tarixi yol ilə sizin kimi biz də fəxr edirik. Fəxr edirik ki, Türk xalqı böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla inamla irəliləyir. Əminik ki, Türk xalqının, Türkiyənin böyük gələcəyi də bu yolla bağlıdır və bu yol Türkiyənin böyük gələcəyini təmin edəcəkdir.

Türkiyədə yaranmış demokratik, hüquqi dövlət, demokratik cəmiyyət, insan azadlığı, vicdan, din, söz azadlığı - bunlar hamısı dünya-

nın ən müasir, ən inkişaf etmiş cəmiyyətlərinin səviyyəsindədir və bizim üçün örnəkdir. Sizin keçdiyiniz bu möhtəşəm, şərəfli yol gənc, müstəqil Azərbaycan dövləti üçün böyük örnəkdir. Sizin təcrübəniz bizim üçün böyük örnəkdir. Müstəqillik dövründə ölkəmizdə hüquqi demokratik dövlət quruculuğu prosesində, iqtisadiyyatda apardığımız dəyişikliklərdə Türkiyənin təcrübəsindən birinci növbədə istifadə edirik.

Şübhəsiz ki, biz dünya demokratiyasının bütün təcrübələrindən bəhrələnir, istifadə edirik. Ancaq dünya demokratiyasının, mədəniyyətinin, dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatının təcrübəsinin Azərbaycanda tətbiq olunması məhz Türkiyənin əldə etdiyi nailiyyətlərdən istifadə etmək yolu ilə daha əlverişli və asandır. Çünki biz bir mədəniyyətə, dəyərlərə, milli ənənələrə malikik. Eyni ənənələrimiz, adətlərimiz, eyni milli, dini dəyərlərimiz bizi sizinlə tarixən birləşdirdiyi kimi, yeni mərhələdə də sizin təcrübəniz bizi daha da bəhrələndirir və biz bu yolla daha rahat gedə biləcəyik.

Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ölkəmizin dövlət müstəqilliyini inkişaf etdirmək, dövlət quruculuğunu müvəffəqiyyətlə aparmaq, iqtisadiyyatda böyük islahatlar keçirmək, böyük dəyişikliklər etmək üçün çox əhəmiyyətlidir. Bu baxımdan hər dəfə Türkiyəni ziyarət edərkən burada gördüklərimizi, anladıqlarımızı, eşitdiklərimizi Azərbaycana aparıb tətbiq etməyə çalışırıq və çalışacağıq. Bu baxımdan Türkiyəyə bu səfərimizin də çox böyük əhəmiyyəti var.

Bildiyiniz kimi, Azərbaycan dövlət müstəqilliyinin altıncı ilini yaşayır. Bu dövr Azərbaycan üçün çox ağır, çətin, eyni zamanda şərəfli dövrdür. Çünki biz keçmişdə dövlət müstəqilliyimizi itirmişdik. 1918-ci ildə Azərbaycanda ilk Demokratik Cümhuriyyət yaranmışdı. Ancaq o, çox yaşaya bilmədi. Ondan sonrakı dövrdə də Azərbaycanın elminin, mədəniyyətinin, iqtisadiyyatının inkişafında böyük nailiyyətlər əldə olunubdur. Ancaq biz o zaman müstəqil, azad olmadıq, öz taleyimizin sahibi olmadıq. Ona görə də indi dövlət müstəqilliyi bizim üçün tarixi nailiyyətdir və onu qoruyub saxlamaq şərəfli vəzifəmizdir.

Altıncı ildir biz bu yolla gedirik. Ancaq bu yolla getməkdə çox maneələrlə də rastlaşmışıq. Azərbaycanın daxilində çox çətinliklər, maneçiliklər vardı. Azərbaycan xalqının birliyi, yekdilliyi, həmrəyliyi nəticəsində və apardığımız düzgün siyasət nəticəsində bu çətinlikləri aradan götürə bildik. İndi Azərbaycanın daxilində ictimai-siyasi sabitlik təmin olunub və iqtisadiyyatda aparılan islahatlar ölkənin iqtisadi böhrandan çıxması üçün müəyyən əsaslar yaradıbdır.

Ancaq bu illərdə Azərbaycanı incidən, onun həyatını zəhərləyən

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz və bu təcavüz nəticəsində Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunması, işğal edilmiş ərazilərdən bir milyondan artıq vətəndaşımızın qaçqın düşməsidir. Biz bu problemin həll olunmasına çalışırıq. Hesab edirəm ki, son illərdə böyük nailiyyətlərimizdən biri odur ki, biz atəşi dayandırdıq. Üç ildir ki, qan tökülmür. Biz sülh təşəbbüsü irəli sürdük. Bir həftədən sonra üç il tamam olacaqdır ki, atəşkəs haqqında saziş əldə edilib və Azərbaycan bu atəşkəsi qoruyub saxlayır.

Bunun özü böyük nailiyyətdir. Amma eyni zamanda bu, tam sülhə nail olmaq üçün sadəcə olaraq imkandır, şəraitdir. Bu imkandan, şəraitdən səmərəli istifadə etməyə çalışırıq, tam sülh əldə etmək istəyirik. Biz Azərbaycanda, ölkəmizdə, dünyada sülh istəyirik. Mərhum Mustafa Kamal Atatürkün Türkiyəyə aid olan bu sözləri Azərbaycanın bugünkü gününə də aiddir. Biz sülh uğrunda mübarizə apararaq torpaqlarımızı sülh yolu ilə azad etmək, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etmək istəyirik.

Bu yolda çox işlər görülübdür. Bu işlərdə Türkiyə daim Azərbaycanla bərabər olub, Azərbaycana daim yardım, kömək edibdir. Əziz dostum Süleyman Dəmirəl bu gün böyük Atatürkün sözlərini bir daha xatırlatdı ki, Azərbaycanın qəmi Türkiyənin qəmidir, Azərbaycanın sevinci Türkiyənin sevincidir. Bizim sözlərlə belə ifadə olunur. Bəli, belədir, biz də belə hesab edirik. Biz istəmirik ki, Türkiyədə qəm olsun. Ancaq Türkiyədə hansı bir qəm olsa o, bizim qəmimizdir. İstəyirik ki, Türkiyədə həmişə sevinc, şadlıq olsun, çünki bu o deməkdir ki, Azərbaycan da sevinəcək, şad olacaqdır.

Beləliklə, biz bir yerdəyik və Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayandan, hələ Azərbaycan öz müstəqilliyini əldə etməzdən əvvəl də Türkiyə Azərbaycanla bərabər olub, Azərbaycanın təcavüz altında qalması ilə əlaqədar öz səsini qaldırıb, dünyaya haray çəkibdir və bizim haqq işimizi həmişə müdafiə edibdir.

1990-cı ilin yanvarında Azərbaycanda müstəqillik yolunda çalışan adamları qırmaq üçün Sovetlər İttifaqının hökuməti ölkəmizə qarşı hərbi təcavüz etmiş, Azərbaycanda yanvar qırğınları, 20 Ocaq adlı faciə baş vermişdi. Türkiyə o vaxt da səsini qaldırmışdı. Mən o vaxt Moskvada yaşayırdım, Türkiyənin qəzetlərini alırdım, radiosunu dinləyirdim, Türkiyənin televiziyası ilə verilən verilişlərdən bilgilər alırdım. O vaxt bu faciə ilə əlaqədar mən dərd içində olanda eyni zamanda fəxr edirdim ki, bizim dostumuz, qardaşımız var. Əgər Sovet İttifaqının hərbi qüvvələri gəlib Azərbaycanın günahsız insanlarını qırıbsa, Türkiyə oradan səsini qaldırıb, mitinqlər, nümayişlər keçirib, "Azərbaycandan əlini çək!" deyibdir.

Biz belə yollar keçmişik və bütün bu yollarda Türkiyə həmişə bizimlə olub, Azərbaycanı dəstəkləyib və bu gün də dəstəkləyir.

İqtisadiyyat sahəsində gördüyümüz işlərdə də Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin böyük rolu, əhəmiyyəti var. Həqiqətən, son üç ildə Türkiyənin iş adamları Azərbaycanda daha geniş fəaliyyət göstərir və Türkiyə ilə Azərbaycan arasında mal mübadiləsi, ticarət, demək olar, 3 dəfə artıbdır. Şübhəsiz ki, mütləq rəqəmləri götürsək, bu, o qədər də çox deyil, amma hər şey müqayisə ilə ölçülür, müqayisəyə görə bu artım da bizi sevindirir. Yəni, bu sahədə də - həm islahatların aparılması, həm iqtisadiyyatın inkişaf etdirilməsi, həm Azərbaycanda bazar iqtisadiyyatının tətbiq olunması, insanların bazar iqtisadiyyatını öyrənməsi sahəsində də Türkiyənin təcrübəsi bizim üçün həmişə çox gərəkli, əhəmiyyətlidir.

İnanırıq ki, sülhsevər ölkə olaraq biz Ermənistanın hərbi təcavüzündən xilas olacağıq. Bu məsələnin sülh yolu ilə həll olunması üçün keçən ilin sonunda Lissabonda ATƏT-in Zirvə görüşündə çox əhəmiyyətli sənəd qəbul edilibdir, məsələnin sülh yolu ilə həllinin prinsipləri qəbul olunubdur. Bu prinsiplərin qəbul olunmasında da biz Türkiyə ilə sıx əməkdaşlıq etmişik. Mənim əziz dostum, Prezident Süleyman Dəmirəl Lissabonda daim bizimlə əlaqədə idi, məsləhətləşirdik. Görülən ümumi işlərin, o cümlədən burada iş birliyimizin, əməkdaşlığımızın nəticəsində belə bir mühüm sənədin əldə edilməsinə nail ola bildik.

İndi bu prinsipləri həyata keçirmək lazımdır. Yenə də, başqa dövlətlərlə bərabər, Minsk qrupuna daxil olan dövlətlərlə bərabər, Minsk qrupunun üzvü kimi Türkiyənin də böyük imkanları, rolu var. Biz bu gün danışıqlarda bu məsələləri də müzakirə etdik. Güman edirəm ki, Türkiyə yenə də bizimlə bərabər, Lissabon Zirvə görüşündə əldə olunan prinsiplərin həyata keçirilməsinə çalışacaqdır.

Ermənistanın indiki vəziyyəti və son vaxtlar ona Rusiya tərəfindən çoxsaylı silahlar verilməsi və xüsusən 1 milyard dollar dəyərində müasir silahların verilməsi, şübhəsiz ki, böyük təhlükə doğurur. Bu, bizi sayıqlığa dəvət edir. Amma eyni zamanda mən inanıram ki, Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, Minsk qrupunun üzvləri, o cümlədən xüsusən Türkiyə və başqa dövlətlər bizimlə birlikdə sülh prosesini davam etdirəcəklər və biz Azərbaycanı bu bəladan xilas etməyə nail olacağıq.

Mən əminəm ki, əgər bu işlər istənilən səviyyədə görülsə, 1997-ci ildə sülhə nail olmaq olar və nəhayət, Azərbaycanın işğal edilmiş torpaqları azad ola bilər. Bu gün bu məsələlərin hamısı danışıqlarda müzakirə olunub və iki Prezident tərəfindən imzalanmış Türkiyə-Azərbaycan st-

rateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə gələcək işlərimiz üçün gözəl proqramdır. İmzalanmış başqa sənədlər də Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Biz bu imkanlardan istifadə etməyə çalışacağıq.

Əziz dostlar, əziz qardaşlar! Bizə göstərdiyiniz bu qonaqpərvərliyə, dost, qardaş münasibətinə görə sizə təşəkkür edirəm. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl bu gün böyük bir təşəbbüs göstərmiş, məni Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" ilə təltif etmişdir. Mən bu gün böyük məmnuniyyətlə "Dövlət nişanı"nı qəbul etdim. Mənim üçün bunun nə qədər böyük şəxsi əhəmiyyəti olduğunu dərk edirəm. Amma eyni zamanda bugünkü bu hadisənin, yəni bu mükafatın Türkiyə-Azərbaycan əlaqələrinin, dostluğunun, qardaşlığının möhkəmlənməsi üçün çox böyük əhəmiyyəti var.

Hesab edirəm ki, Türkiyənin, böyük Mustafa Kamal Atatürk Türkiyəsinin bu ali mükafatı tək mənə yox, bütün Azərbaycan xalqına verilibdir. Bu, Azərbaycan xalqının dövlət müstəqilliyi yolunda nə qədər əzmlə çalışdığına verilən qiymətdir, Azərbaycan xalqının dövlət müstəqilliyini indiyə qədər qoruyub saxlamasına verilən qiymətdir, Türkiyə-Azərbaycan dostluğunun bugünkü nailiyyətlərinə verilən qiymətdir. Mən həm öz adımdan, həm də Azərbaycan xalqı, bütün Azərbaycan vətəndaşları adından bu mükafata görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar.

Sizi əmin edirəm ki, biz Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyub saxlayacaq və onu heç vaxt əldən verməyəcəyik. Mən sizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır və dönməzdir. Türkiyə-Azərbaycan dostluğu dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün bizə həmişə dayaqdır, köməkdir.

Əziz dostum Süleyman bəy, əziz dostlar, qardaşlar! Bu gözəl münasibətə görə sizə bir daha təşəkkür edir, Türkiyə Cümhuriyyətinə, xalqına səadət və xoşbəxtlik arzulayır, Türkiyə Cümhuriyyətinin qarşısında duran bütün vəzifələrin yerinə yetirilməsində sizə uğurlar diləyirəm.

Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə xalqının şərəfinə, Türkiyə-Azərbaycan dostluğunun şərəfinə, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin şərəfinə badə qaldırmağı rica edirəm. Yaşasın

Türkiyə! Yaşasın böyük Atatürk yaradan Türkiyə Cümhuriyyəti! Əbədi Türkiyə-Azərbaycan dostluğuna eşq olsun!

Ankaranın mərkəzi küçələrindən birinə - III caddəyə Azərbaycan prospekti adı verilməsinə həsr olunmuş təntənəli mərasimdə Prezident Heydər Əliyevin çıxışı

6 may 1997-ci il

Hörmətli Prezident, hörmətli cümhur başkanı!

Hörmətli Bələdiyyə başkanı, hörmətli nazirlər, Ankara vətəndaşları, əziz dostlar, xanımlar və cənablar!

Bu gün burada, Türkiyə Cümhuriyyətinin paytaxtında, başkəndində əlamətdar hadisə baş verir. Türkiyə - Azərbaycan dostluğunun yeni bir simvolu olan Ankara caddələrindən, küçələrindən birinə Azərbaycan caddəsi, Azərbaycan küçəsi adı verilir. Bu hadisə həm sizin üçün, həm bizim üçün - hamımız üçün birlikdə çox sevindirici haldır və buraya toplaşanları, Türkiyənin, Azərbaycanın bütün vətəndaşlarını bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu qərarı qəbul etmiş böyük Ankara bələdiyyə başkanına və bələdiyyənin bütün böyüklərinin hamısına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Keçmiş zamanlarda, əsrlərdən-əsrlərə xalqlarımız birbiri ilə sıx bağlı olduğuna görə heç bələdiyyə başkanı olmadan da, hökumətin qərarı olmadan da öz dəyərli yerlərinə, küçələrə, meydanlara öz sevdikləri, bir-birini birləşdirən, bağlayan, bir-birinə daha da yaxınlaşdıran adları veriblər. Bunlar bizim keçmişimizdə xalqlarımızın nə qədər bir olduğunu sübut edir.

Ancaq indi böyük Türkiyə Cümhuriyyəti dünyada özünə layiq yer tutduğuna görə və Azərbaycan xalqı da milli azadlığına, dövlət müstəqilliyinə nail olduğuna görə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr daha da genişlənib və yeni vüsət alıbdır, yeni bir mərhələyə çatıbdır. Buna görə də Azərbaycanda da, Türkiyədə də insanlar, dövlət, hakimiyyət orqanları bu əlaqələrin təsdiqini nümayiş etdirmək üçün belə qərarlar qəbul edirlər.

Mən sizə bildirmək istəyirəm ki, hələ dövlət müstəqilliyi əldə edilmədən, yəni ondan öncə Azərbaycanda xalqımızın Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan məhəbbəti özünü o qədər büruzə verirdi ki, dövlətin, hökumətin qərarı olmadan insanlar ayrı-ayrı küçələrə Türkiyə ilə əlaqədar adlar verirdilər. Azərbaycanda küçələrin, caddələrin, meydanların bir çoxu böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyır. Bakıda da, Gəncədə də, Naxçıvanda da,

Sumqayıtda da, Azərbaycanın başqa şəhərlərində də Türkiyənin rəmzi olan, Türkiyəni nümayiş etdirən adlar geniş yayılıbdır. Bu şəhərlərin əksəriyyətində ən gözəl küçələr indi Mustafa Kamal Atatürkün adını daşıyır.

Bilirsiniz, mən Moskvada yaşayırdım, 1990-cı ildə oradan doğma şəhərim Naxçıvana gələndə keçmişdə Sovetlər Birliyinin böyük şəxsiyyətlərindən birinin adını daşıyan ən böyük küçələrdən birinin Atatürk adını daşıdığını gördüm. Mənim ilk addımlarım o küçəyə oldu, oraya gedib Türkiyəyə və onun böyük şəxsiyyəti Atatürkə hörmət və ehtiramımı bildirdim. Belə küçələr Bakıda da, başqa yerlərdə də var. Bunlar təbiidir, çünki insanların qəlbindəki hisslər çox vaxt dövlətlərin, hökumətlərin qəbul etdikləri qərarlardan güclü olur. Çox vaxt dövlətlər, hökumətlər, hakimiyyət orqanları bu qərarları insanların istəyinə, arzusuna görə edirlər. Bəziləri müəyyən bürokratik səbəblərə görə bunu etmək istəməsə də, xalqın təzyiqinə davam gətirə bilmir və bunu edirlər.

Mən çox sevinc hissi keçirirəm ki, bu gün Türkiyənin başkəndində, paytaxtında, bizim üçün çox əziz olan Ankara şəhərində Azərbaycan caddəsi də yarandı, yəni bu caddə var, Azərbaycan adı aldı. Doğrudur, Azərbaycan caddəsi adı Aşqabat, Bişkek, Düşənbə, Daşkənd, Almatı adlarından sonra verilir, ancaq, yəqin ki, bunun da mənası var. Həmişə ən çox hörmətli, istəkli yer son nömrələrə verilir.

Güman edirəm ki, bu qərar, bu hadisə, gözəl mərasim Bakıda, Azərbaycanda böyük sevinc hissi doğuracaqdır. Əminəm ki, bugünkü gün də, indiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə-Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır.

Ankara Bələdiyyə başkanının Bakı və Ankara şəhərlərinin qardaşlaşması haqqındakı təklifini məmnuniyyətlə qəbul edirəm. Güman edirəm ki, Bakı şəhərinin başçıları da bu qərarı qəbul edəcəklər. Arzu edərdim ki, tezliklə bu qərarın həyata keçirilməsi də təmin edilsin, Ankara və Bakı şəhərləri əbədi qardaş şəhərlər olsunlar.

Bu gün hava da, günəş də, Azərbaycan caddəsindəki xoş əhval-ruhiyyə də - hamısı Türkiyə-Azərbaycan dostluğuna olan münasibətdir. Məhz belə bir bahar günündə, günəşin gözəl şüaları altında, gözəl əhval-ruhiyyə ilə, insanların sevinci ilə bu caddəyə Azərbaycan caddəsi adının verilməsini məmnuniyyətlə qəbul edirəm və buraya toplaşanlara, Ankaranın bələdiyyə başkanına və mənim əziz dostum, qardaşım, cümhur başkanı Süleyman Dəmirələ hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Bundan sonra Ankaraya gələn hər bir azərbaycanlı bu caddəni ziyarət edəcək, burada görüşlər keçirəcək, Azərbaycanın vətəndaşları bu caddədə yaşayan insanlarla daha sıx əlaqələr quracaqlar və bunlar da Türkiyə-Azərbaycan dostluğunun bir zərrəsi kimi bizi daha da irəli aparacaqdır.

Eşq olsun Türk xalqına! Eşq olsun Ankaraya! Eşq olsun Türkiyə-Azərbaycan dostluğuna!

Sağ olun.

Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin yeni binasının təməlinin qoyulması mərasimində Prezident Heydər Əliyevin çıxışı

Ankara. 6 may 1997-ci il

Hörmətli Prezident, əziz dostum və qardaşım

Süleyman Dəmirəl!

Hörmətli dostlar, qardaşlar, xanımlar və cənablar!

Biz ikinci gündür ki, Türkiyə xalqının, Türkiyə Cümhuriyyətinin dostpərvərlik və qonaqpərvərlik mühiti içərisindəyik və həddindən artıq sevinirik, məmnunuq. Çünki dostlarımızla, qardaşlarımızla bir yerdə olmaq bizim üçün ən qiymətli hədiyyədir. Bizə göstərilən bu hörmətə görə, bu qonaqpərvərliyə görə, bu hərarətli münasibətə görə təşəkkür edirəm.

Burada, Ankaranın bu gözəl guşəsində Azərbaycan Respublikası səfirliyinin yeni binasının təməli qoyulur. Bu hadisəni Türkiyə Cümhuriyyətinin rəhbərləri o qədər yüksək qiymətləndirirlər ki, bununla əlaqədar belə geniş və təntənəli bir mərasim keçirilir. Mən Azərbaycanın səfirliyinə Ankaranın gözəl bir guşəsində bina yaratmaq üçün qərar qəbul etdiyinizə və yer ayırdığınıza görə sizə təşəkkür edirəm. Mən sizə təşəkkür edirəm ki, bu hadisə bu gün belə təntənəli şəraitdə qeyd olunur.

Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin tarixində gözəl səhifələr var. Bilirsiniz ki, 1918-ci ildə Azərbaycanda ilk Demokratik Cümhuriyyət yaranan zaman Türkiyə Azərbaycanın bu hökumətini tanıdı və Türkiyə ilə Azərbaycan arasında dərhal diplomatik əlaqələr quruldu. Elə həmin 1918-ci ildə Türkiyə ilə ilk Azərbaycan Demokratik Respublikası arasında Batumi şəhərində ilk anlaşma imzalandı. 1918-ci ilin may ayında Azərbaycan öz Demokratik Cümhuriyyətinin qurulmasını elan etdi, həmin ilin iyun ayında isə ilk anlaşma imzalandı. Bundan sonra Türkiyədə Azərbaycan səfirliyi açıldı və bu səfirlik Azərbaycanda Demokratik Cümhuriyyət süquta uğradıqdan sonra da burada fəaliyyət göstərirdi. Azərbaycanın Türkiyədə ilk səfiri Əbilov Böyük Mustafa Kamal Atatürk ilə şəxsi münasibətdə, onun yaxın dostu olmuşdur. Mən bu anları xatırladaraq Türkiyə-Azərbaycan əlaqələrinin çoxəsrlik tarixi ərzində Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin tarixinin də zəngin olduğunu qeyd edirəm.

Türkiyə Cümhuriyyəti də ölkəmiz Sovetlər Birliyinin tərkibində olduğu zaman Azərbaycana daim diqqət göstərib, münasibət göstərib, cürbəcür vasitələrdən istifadə edərək Azərbaycanla əlaqələr yaratmağa çalışıbdır. Xatirimdədir, 70-ci illərdə Sovet İttifaqı ilə Türkiyə arasındakı diplomatik əlaqələr bir balaca genişlənən zaman Türkiyə Cümhuriyyəti Sovetlər Birliyinin paytaxtı Moskvadakı səfirliyindən başqa, Sovetlər Birliyi kimi böyük əraziyə malik olan bir dövlətin şəhərlərindən birində baş konsulluq açmaq təklifi irəli sürmüşdü. Bilirsiniz ki, həmişə diplomatik əlaqələrdə bərabərlik olur. Sovetlər Birliyinin Ankaradakı səfirliyi ilə yanaşı, İstanbulda konsulluğu vardır. Onun müqabilində paritetə görə Türkiyə Cümhuriyyəti də Sovetlər Birliyinin şəhərlərindən birində konsulluq açmaq hüququ əldə etmişdi. Belə bir konsulluq Azərbaycanda açıldı.

Təbiidir ki, Sovet İttifaqının ərazisində türk mənşəli, Türk köklü, türkdilli respublika tək Azərbaycan deyildi. Sovet İttifaqında Orta Asiyada Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan kimi Azərbaycana bərabər, yəni eyni hüquqlu müttəfiq respublikalar vardı, onların da paytaxtları vardı. Ancaq Türkiyə Cümhuriyyəti Sovetlər Birliyinin ərazisində paytaxtdan - Moskvadan sonra öz baş konsulluğunu Bakıda açdı. Hesab edirəm ki, bu da tarixin diqqətəlayiq bir səhifəsidir. Fürsətdən istifadə edib, bunu sizin yadınıza salmaq istəyirəm. Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi, Türkiyə Cümhuriyyətinə diplomatik münasibətlər qurmaq barədə müraciət etdi. Deyə bilərəm ki, Türkiyənin Baş konsulluğu vaxtilə Bakıda fəaliyyət göstərərkən çox dəyərli işlər görmüşdür. Məhz bu konsulluğun əsasında da dərhal Türkiyənin Azərbaycanda Səfirliyi, Böyük elçiliyi yarandı.

Türkiyə Azərbaycanı müstəqil dövlət kimi birinci tanıyan dünya dövlətidir. Azərbaycan da dövlət müstəqilliyini əldə edən kimi öz Səfirliyini, öz Böyük elçiliyini birinci növbədə Türkiyədə, Ankarada açdı. Bu tarix Türkiyə ilə Azərbaycanın çox yaxın dost olmasını bir daha nümayiş etdirir, bir daha sübut edir. Bu gün bunları xatırlayaraq bildirmək istəyirəm ki, xalqlarımızın dostluğunun çoxəsrlik tarixi var, eyni zamanda Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin də XX əsrdə, demək olar, çoxillik tarixi var. Biz bu tarixlə, bu hadisələrlə fəxr edirik. Ona görə fəxr edirik ki, Türkiyə bizim üçün ən yaxın, ən dost, ən qardaş ölkədir. İndi Türkiyədə Azərbaycan Səfirliyinin, Böyük elçiliyinin səmərəli fəaliyyət göstərməsi üçün, onun şəraitinin yaxşılaşdırılması üçün belə bir bina tikilməsinin zəruriliyi meydana çıxıbdır və bu gün biz belə bir binanın təməlini qoyuruq.

Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan əlaqələrinin gözəl gələcəyi var və Türkiyədə Azərbaycan Səfirliyi əsrlər boyu yaşayacaqdır. Mən əminəm ki, Azərbaycanın Türkiyədəki Səfirliyi bu imkanlardan səmərəli istifadə edəcək və bizim aramızdakı əlaqələrin inkişaf etdirilməsi üçün səylərini daha da artıracaqdır.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi, böyük elçiliyi Bakının mərkəzində olan, tarixi-memarlıq abidəsi sayılan bir binada yerləşir. Mən bu gün sizə xatırlatmaq istəyirəm ki, o binanın açılışı mənim əziz dostum, qardaşım, Türkiyənin cümhur başkanı Süleyman Dəmirəlin Azərbaycana ilk səfəri zamanı olubdur və bu, Azərbaycanın həyatında böyük bir əlamətdar hadisə kimi qəbul edilib və tarixə düşübdür.

Türkiyənin Azərbaycandakı səfirliyi genişlənir və biz çox çalışırıq ki, o, daha da geniş olsun, daha da güclü olsun. Mən bildirmək istəyirəm ki, Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyəti üçün, istədiyi qədər səmərəli fəaliyyəti üçün Azərbaycanın hər yerində, o cümlədən mərkəzdə, paytaxtımız Bakı şəhərində bütün imkanlar yaradacağıq və o gözəl memarlıq abidəsi olan bina, Bakının ən mərkəzində yerləşən bina ilə bərabər, eyni zamanda Bakının gözəl bir guşəsində Türkiyə Cümhuriyyəti Səfirliyinin yeni binası ucalacaqdır. O gün olacaqdır ki, biz sizinlə birlikdə o binanın təməlini də qoyacağıq və o bina hazır olandan sonra onun açılışında da bir yerdə olacağıq.

Mən sizi ürəkdən salamlayıram, bu hadisə münasibətilə təbrik edirəm və Azərbaycan Respublikasına göstərdiyiniz bu qayğıya, bu diqqətə, bu hörmətə görə bir daha təşəkkürümü bildirirəm.

Türkiyə Quru Qoşunları Məktəbi ilə tanışlıq, tələbələrlə və Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

Ankara. 6 may 1997-ci il

Əziz dostlar, qardaşlar!

Hörmətli nazirlər, komandirlər!

Əziz tələbələr!

Mən sizin hamınızı xalqımız, müstəqil Azərbaycan Respublikası adından ürəkdən salamlayıram.Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

Bu gün mən Türkiyə Cümhuriyyətinin qüdrətli ordusunun quru qoşunları məktəbini ziyarət etməkdən çox məmnunam. Türkiyə Cümhuriyyətinin qüdrətli ordusu bu cümhuriyyəti qoruyub saxlayan, onun müstəqilliyini təmin edən böyük bir qüvvədir. Türkiyə Cümhuriyyəti və onun şöhrətli ordusu böyük öndər Mustafa Kamal Atatürk

tərəfindən yaradılıbdır. Nə qədər sevindirici haldır ki, türk xalqı, Türkiyə və onun ordusu 77 ildir öz qurucusu, banisi Mustafa Kamal Atatürkün yolu ilə gedir və qələbələrdən-qələbələrə gəlir.

Mən quru qoşunları məktəbinə, onun komandirlərinə, tələbələrinə yeni uğurlar arzulayıram. Ümidvaram ki, bu məktəb Türkiyə ordusunun gələcəkdə də güclü, yenilməz olmasında öz xidmətlərini göstərəcəkdir. Bu gün mən burada, Türkiyənin quru qoşunları məktəbində Azərbaycan övladlarının da təhsil alması ilə tanış oluram. Çox məmnunam ki, Azərbaycanın bir çox övladı burada təhsil alır. Eyni zamanda, mən Polis Akademiyasının işi ilə tanış oluram. Çox məmnunam ki, Polis Akademiyasında da Azərbaycan övladları təhsil alırlar.

Bunlar hamısı müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın bu günü, gələcəyi üçün Türkiyə Cümhuriyyəti tərəfindən respublikamıza göstərilən böyük yardımdır. Bu yardıma, bu dostluq münasibətinə görə mən sizə - Türkiyə ordusunun quru qoşunları məktəbinin rəisinə və Türkiyə Cümhuriyyətinin Prezidentinə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Burada Türkiyədə yaşayan Azərbaycan diasporunun nümayəndələri çıxış etdilər, söz dedilər və Azərbaycanla bağlı öz hissiyyatlarını, respublikamızın bu günü, gələcəyi barədə öz arzularını bildirdilər.

Əziz dostlar, qardaşlar, mən sizə təşəkkür edirəm. Siz azərbaycanlı olaraq, Azərbaycan mənşəyinə mənsub olaraq eyni zamanda türksünüz, Türkiyə vətəndaşısınız. Siz Türkiyədə doğulmusunuz, böyümüsünüz, Türkiyənin ab-havası ilə yaşamısınız. Türkiyədə özünüzə məkan, vətən tapmısınız. Bizim xalqımız, millətimiz birdir. Sadəcə, ərazilərimiz bir-birindən ayrıdır. **Bizim iki dövlətimiz, bir xalqımız var.** Buna görə də Türkiyədə yaşayan azərbaycanlı da türkdür, azərbaycanlıdır, Azərbaycanda yaşayan türk də türkdür və azərbaycanlıdır.

Bizim bu əlaqələrimiz sarsılmaz tellərlə bir-birinə bağlıdır, əsrlərdən-əsrlərə böyük imtahanlardan, sınaqlardan keçibdir. Əminəm ki, bizim bu dostluq, qardaşlıq əlaqələrimiz heç vaxt sarsılmayacaqdır, əbədi, daimi olacaqdır.

Azərbaycan gənc müstəqil dövlətdir. Gənc müstəqil dövlətin hər bir dövlət atributu olmalıdır, milli ordusu, polisi olmalıdır. Bunlar yaranıb və yaranır.Təəssüflər olsun ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman çox ağır bir şərait içərisində olubdur. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində respublikamız daim müharibə, döyüş içərisində olubdur. Azərbaycan torpaqlarının 20 faizi cürbəcür səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş ərazimizdən 1 milyondan çox Azərbaycan vətəndaşı doğma

torpaqlardan zorla çıxarılıb, onlar qaçqın, köçkün vəziyyətində, ağır şəraitdə yaşayırlar. Bu, Azərbaycanın ağır dərdidir, problemidir.

Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Üç il bundan əvvəl Ermənistan - Azərbaycan müharibəsində atəşkəs haqqında saziş əldə edilmişdir. Biz bu atəşkəsi qoruyub saxlayırıq. Biz bu münaqişəni sülh yolu ilə aradan götürüb Azərbaycanın ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək istəyirik. Buna görə də Azərbaycanın güclü ordusu, polisi, dövlət orqanları olmalıdır. Biz bunları ağır, çətin şəraitdə yaradırıq. Xaricdən olan cürbəcür təxribatlar və təcavüz şəraitində yaradırıq. Azərbaycanın daxilində olan cürbəcür qarışıqlıqlar, çarpışmalar, hakimiyyət mübarizəsi şəraitində yaradırıq. Biz bunları belə bir ağır şəraitdə yaratmışıq və yaradırıq.

Əziz dostlar, qardaşlar, əziz azərbaycanlı tələbələr, mən sizə bildirirəm ki, indi müstəqil Azərbaycan Respublikası artıq qüdrətli bir dövlətdir, Dünya Birliyində özünə layiq yerini tutubdur, öz müstəqilliyini qoruyub saxlayır və bundan sonra da qoruyub saxlamağa qadirdir. Azərbaycan Respublikasının daxilində tam sabit ictimai-siyasi vəziyyət, əmin-amanlıq yaranıbdır.

Biz sülh istəyirik. Atatürkün böyük sözləri var: "Cahanda sülh, yurdda sülh, bölgədə sülh". Biz bu sözləri bu gün də deyərək, eyni zamanda bu fikirlərlə yaşayırıq, bu siyasəti aparırıq. Amma təkcə Azərbaycanda yox, Türkiyə Cümhuriyyəti də daxil olmaq şərti ilə, bütün bölgədə, Qafqazda sülh əldə etmək və Azərbaycanın müstəqilliyini qorumaq, respublikamızın işğal olunmuş torpaqlarını Ermənistan silahlı qüvvələrindən azad etmək üçün bizə güclü ordu lazımdır. Belə bir güclü ordu yaranır, yaranıb və yaranacaqdır. Belə bir güclü ordunun yaranmasında da bizə yüksək səviyyəli zabit kadrları, əsgərlər lazımdır.

Burada bir çox azərbaycanlı tələbələr təhsil alırlar. Mən bundan çox məmnunam. Ümidvar olduğumu bildirmək istəyirəm ki, onlar həqiqətən yüksək təhsil alıb Azərbaycana dönəcəklər. Ancaq bizim ordumuzun tələbatı bundan qat-qat artıqdır, bundan daha da çoxdur. Biz bundan sonra da Türkiyənin yüksək hərbi məktəblərindən istifadə edəcəyik. Azərbaycanda Milli ordunun, polisin yaradılması, yüksək səviyyəli kadrların hazırlanması üçün sizin yardımınızdan istifadə edəcəyik. Əminəm ki, siz bizə bu yardımı etməkdən imtina etməyəcəksiniz.

Mən üzümü burada təhsil alan Azərbaycan övladlarına tutaraq deyirəm: Əziz balalarımız, siz burada təhsil alıb Azərbaycana dönəcəksiniz, Azərbaycanın ordusunda, polisində xidmət edəcəksiniz. Əminəm ki, burada aldığınız təhsil gələcəkdə xidmət edəcəyiniz yerlərdə sizə uğurlar gətirəcəkdir. Siz uğurla çalışacaqsınız, xalqınıza, millətinizə və vətəni-

niz Azərbaycana xidmət göstərəcəksiniz.

Şübhəsiz ki, burada hər bir şeyi öyrənmək lazımdır. Amma Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, **Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdirlər. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.**

İstəyirəm ki, övladlarımız burada bu qabiliyyəti əldə etsinlər, bu səviyyəyə çatsınlar, Azərbaycanı - vətəni, torpağı canı, qanı qədər sevməyə qadir olsunlar. Burada bu hissiyyatları daha da yüksəyə qaldırmaq üçün çox gözəl şərait vardır.

Mən türk əsgərinin bu yüksək keyfiyyətlərinə heyranam. Türkiyə Cümhuriyyətinin qüdrətini, torpaqlarını, dövlətini, müstəqilliyini qoruyan, şəhid olan türk əsgərinin ruhu qarşısında baş əyirəm. Türkiyə ordusuna, əsgərinə bundan sonra da yeni uğurlar arzulayıram.

Azərbaycan övladlarının burada Türkiyə övladları ilə bir yerdə təhsil alması, yaşaması, olması, eyni zamanda Türkiyə-Azərbaycan dostluğuna göstərilən xidmətdir, addımdır. Biz Türkiyə-Azərbaycan dostluğunu çox yüksək qiymətləndiririk. Azərbaycanda Türkiyəyə olan sevgi-məhəbbət hədsiz-hüdudsuzdur. Bu gün Azərbaycan xalqının bu sevgi-məhəbbətini Türkiyəyə bir daha çatdıraraq deyirəm ki, Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır.

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın qüdrətli türk ordusu!

Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu!

Türkiyənin Bilkənd Universitetində Prezident Heydər Əliyevin çıxışı

Ankara. 6 may 1997-ci il

Əziz dostum, qardaşım, hörmətli İhsan Doğramacı!

Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün yenidən Bilkənddə hörmətli Doğramaçının qonağı olmağımdan çox məmnunam və mənə göstərilən bu diqqət və qayğıya görə təşəkkür edirəm.

İhsan Doğramaçı çox böyük, nadir şəxsiyyətdir, Türk dünyasının görkəmli oğludur. Eyni zamanda bizi sevindirən, bizdə iftixar hissi doğuran odur ki, Doğramacı dünya miqyasında böyük şəxsiyyətdir və türkün, türk xalqının nə qədər yüksəklərə qalxa bilməsini, nə qədər böyük zəkaya, fəaliyyətə malik ola bilməsini dünyaya nümayiş etdirən bir insandır. Ona görə də hər dəfə bu böyük şəxsiyyətlə görüşmək mənim üçün bayramdır, mənə böyük sevinc hissi gətirir.

Eyni zamanda Doğramaçı Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərir. Bu, onun vəzifəsi deyil, qəlbindən, içindən, ürəyindən gələn hissiyyatlardır, onun mənəviyyatıdır. Bu onu göstərir ki, Allah-təala belə bir insanı yaradarkən ona belə yüksək keyfiyyətlər bəxş edibdir ki, o, bunları xalqın, millətin, insanın inkişafına həsr edir. Yenə də deyirəm, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında əziz dostum Doğramacının fəaliyyəti hədsiz-hüdudsuzdur. Ancaq o, bunu həm Türkiyəni və Azərbaycanı çox istədiyinə görə, həm də Türk dünyasını həddindən çox sevdiyinə və Türk dünyasının yüksəlməsinə, inkişafına xidmətini öz həyatının mənası kimi hiss etdiyinə görə edir.

Əziz dostum, bu böyük fəaliyyətinizə görə, dünya miqyasında Türk xalqının, millətinin, türkdilli xalqların elmdə, mədəniyyətdə, biliкdə görkəmli yer tutması üçün göstərdiyiniz böyük xidmətlərə görə sizə təşəkkür edirəm. Azərbaycan xalqı sizə bir də ona görə minnətdardır ki, burada, Bilkənddə Azərbaycanın görkəmli alimlərini, sənət ustalarını - bəstəkarları, musiqiçiləri, sənətçiləri başınıza toplayıb onlara atalıq qayğısı göstərərək yaradıcılıq fəaliyyətinin inkişaf etməsi üçün yardımlar etmisiniz. Eyni zamanda onların burada sizinlə birlikdə əməkdaşlığı Bilkəndin simasının da yüksəlməsinə kömək edibdir. Ona görə də mən keçən dəfələr də buraya gələrkən Azərbaycan alimlərini, sənətçilərini burada görüb sevinmişəm ki, onlar sizin ətrafınızdadır. Ona görə sizin ətrafınızdadır ki, siz onları sevirsiniz, onlar da sizi sevirlər. Bu əlaqələr yalnız və yalnız sevgi və məhəbbət əsasında qurulur. Burada heç bir başqa əsas, başqa təmənna yoxdur.

Hörmətli dostum, sizin yaratdığınız Türkiyə-Azərbaycan vəqfi ölkələrimizin əlaqələrində görkəmli hadisədir. Hesab edirəm ki, siz tarixi addım atmısınız, çox dəyərli iş görmüsünüz. Ümidvaram ki, bu vəqf fəaliyyətini gündən-günə genişləndirəcək və Türkiyə-Azərbaycan əlaqələrinin daha sürətlə inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Siz mənə böyük etimad, böyük şərəf göstərmisiniz - əziz dostum, qardaşım, Türkiyənin cümhur başkanı Süleyman Dəmirəl ilə bərabər məni bu vəqfin başkanı seçmisiniz. Mən həyatımda bir çox yüksək qurumlara, vəzifələrə seçilmiş bir adamam. Həyatımda belə hadisələri çox görmüşəm.Ancaq əziz dostum Süleyman Dəmirəl ilə bərabər bu vəqfə başkan seçilməyimi xüsusi qiymətləndirirəm.

Sizin pediatriya sahəsində, co-

cuqların, uşaqların sağlamlığının qorunması sahəsində fəaliyyətiniz çox qiymətli, dəyərlidir, dünyada məşhurdur. Hamımız bilirik ki, siz dünyanın nə qədər böyük səhiyyə, pediatriya təşkilatlarının üzvü, fəxri üzvüsünüz və daim onların işində iştirak edirsiniz. İndi, türk dövlətlərinin, respublikalarının, cümhuriyyətlərinin pediatriya sahəsində çalışan alimlərinin, həkimlərinin bir araya toplanması sahəsində gördüyünüz iş də çox yüksək qiymətə layiqdir. Bu ilin sentyabrında, yəni eylül ayında Azərbaycanda bu tədbiri keçirməyinizi mən bəyənir, alqışlayıram. Sizi əmin edirəm ki, Azərbaycanda keçirəcəyiniz bu toplantı indiyə qədər keçirdiyiniz bütün toplantılardan daha yüksək səviyyədə olacaqdır.

Sizin öz həmvətənlərinizə, türkmənlərə göstərdiyiniz qayğı təbiidir. Çünki onlar sizin həmvətənlərinizdir, bizim həmvətənlərimizdir. Ancaq eyni zamanda bu, sizin nə qədər böyük insan olduğunuzu göstərir. Mən iki gəncin burada şərqi söyləməsinə, mahnılarla çıxış etməsinə çox sevindim. Birincinin türkmən dilində çıxışı, ikincinin müasir, klassik Avropa musiqisini ifa etməsi çox sevindirici haldır.

Mən sizinlə bərabər sevinirəm ki, orada türkmən diyarında məktəblər açmısınız, cocuqları öz dillərində təhsilə cəlb edirsiniz. Mən bilirəm, bu nədir. Çünki Azərbaycan xalqının da XX əsrin əvvəlində öz dilində məktəbi yox idi. Ancaq məktəblər açıldı, indi Azərbaycan xalqı tam, başdan-başa təhsil almış millətdir. Ancaq ürək ağrısı ilə deyirəm ki, dünyanın başqa bölgələrində çoxsaylı, on milyonlarla azərbaycanlılar yaşayır ki, hələ öz dilində təhsil almaq imkanına malik deyillər. Gün o gün olar ki, onlar da öz dillərində məktəblər açacaq, öz dillərində kitablar oxuyacaq, təhsil alacaqlar.

Türkmən dili ilə Azərbaycan dili arasında heç bir fərq yoxdur. Mən 70-ci illərin əvvəllərində türkmənlərlə Bakıda çox görüşmüşəm. Orada məşhur yazıçı-şair var - Bəndəroğlu, tanıyırsanmı? Bakıya gəlirdi, bir neçə dəfə görüşmüşdüm. İraqdan gəlmişdi, elə bizim kimi, Azərbaycan dilində danışırdı. Deyirdim ki, sən buradan getmisən, orda yaşayırsan? Deyirdi, yox, mən türkmənəm. Bu dildə heç bir fərq yoxdur. Ona görə də sən də, mən də çox böyük sevinc və şövq ilə oxuyuruq ki, "Samovara od salmışam, küçələrə su səpmişəm, yar gələndə toz olmasın, elə gəlsin, elə getsin, aramızda söz olmasın".

Çox sağ olun, sevimli xanımınızla, oğlunuzla, bütün ailənizlə birlikdə sizə cansağlığı, uzun ömür, xoşbəxtlik arzu edirəm. Çox sağ olun, təşəkkür edirəm.

Türkiyə Böyük Millət Məclisinin üzvləri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

Ankara. 6 may 1997-ci il

Hörmətli millət vəkilləri, hörmətli dostlar, qardaşlar, mətbuat nümayəndələri!

Mən sizi, Türkiyə Böyük Millət Məclisinin millət vəkillərini ürəkdən salamlayır və Azərbaycan xalqının sizə, Türkiyə Böyük Millət Məclisinə, Türkiyə Cümhuriyyətinə hörmət və ehtiramını, sevgi və məhəbbətini çatdırıram.

Türkiyənin Böyük Millət Məclisində xitab etmək üçün mənə verilən bu imkana görə, göstərdiyiniz şərəfə görə təşəkkür edirəm.

Bildiyiniz kimi, Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə mən dünən Türkiyəyə rəsmi səfərə gəlmişəm. Dünən, bu gün çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız olmuşdur. Hesab edirəm ki, bu görüşlər, danışıqlar nəticəsində və imzalanmış sənədlərlə əlaqədar olaraq **Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələri yeni bir mərhələyə çatıb, bizim dostluq, qardaşlıq tariximizdə yeni səhifələr açılıbdır.**

Dünən biz danışıqlarımız, görüşlərimiz nəticəsində 8 müqavilə imzaladıq. Onların hər birinin özünəməxsus əhəmiyyəti var. Ancaq eyni zamanda onların içərisində Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında iki Prezident tərəfindən imzalanan bəyannamə, anlaşma çox tarixi sənəddir və indiyə qədər olan əlaqələrimizi yeni yüksək səviyyəyə çatdırır, bu əlaqələrə daha geniş, siyasi məna verir.

Mən bütün bu sənədlərin imzalanmasından çox məmnunam, xüsusən Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilənin imzalanmasından çox razıyam. Sizi əmin etmək istəyirəm ki, biz, Azərbaycan tərəfi bu müqavilələrin və indiyə qədər imzalanmış bütün müqavilələrin həyata keçirilməsinə çalışacağıq. **İndiyə qədər Türkiyə ilə Azərbaycan arasında imzalanmış bütün müqavilələrin, sazişlərin, sənədlərin hamısına Azərbaycan dövlətinin sadiqliyini bir daha bəyan edir və əmin edirəm ki, biz bundan sonra da onların yerinə yetirilməsi üçün səy göstərəcəyik.**

Türkiyənin Böyük Millət Məclisi böyük tarixə malik olan parlamentdir. Biz keçmiş zamanlarda da, bu gün də qardaş Türk xalqının hələ 77 il bundan öncə belə bir parlament, Böyük Millət Məclisi yaratmasını həmişə yüksək qiymətləndirmişik və mən bu gün də Türkiyə Böyük Millət Məclisinin keçdiyi tarixi yola, Türkiyə xalqının tarixində və həyatında göstərdiyi xidmətlərə, əldə etdiyi nəticələrə öz hörmət və ehtiramımı bildirirəm. Türk xalqı Şərq bölgəsində, müsəlman ölkəsində Avropa ilə Asi-

yanın, Qərblə şərqin bir-birinə qovuşduğu yerdə hələ XX əsrin əvvəlində demokratik prinsiplərə, qanunqaydalara, hüquqa, bərabərliyə, azadlığa qovuşan bir xalqdır. Ona görə də o dövrdə Türkiyədə Böyük Millət Məclisinin yaranması təkcə Türkiyə üçün yox, Türk dünyası, o cümlədən müsəlman ölkələri, Şərq ölkələri üçün mühüm hadisədir.

Türkiyənin Böyük Millət Məclisi böyük öndər Mustafa Kamal Atatürkün, onun silahdaşlarının, həmkarlarının səyləri nəticəsində o dövrdə Türkiyədə xalqı daha da irəli aparmaq, mədəniyyətə, demokratiyaya qovuşdurmaq istəyən mütəfəkkir adamların səyləri nəticəsində yaranmışdır. Ancaq ən böyük xoşbəxtlik ondan ibarətdir ki, Böyük Millət Məclisi 77 ildir ki, fəaliyyət göstərir, böyük sınaqlardan keçib, tutduğu yolla inamla gedir və Türkiyənin dünya miqyasında layiqli yer tutması üçün çox böyük işlər görmüş, böyük xidmətlər göstərmişdir.

Biz keçmiş zamanlarda, Sovet hakimiyyəti çərçivəsində, Sovetlər Birliyi dövlətində yaşadığımız zaman da mətbuatdan, kitablardan, qəzetlərdən Türkiyənin həyatı ilə daim maraqlanırdıq. Bizim marağımız Türkiyə ilə Azərbaycanın bir-birinə bağlılığı, qardaşlığı idi. Amma hər dəfə maraqlanarkən Türkiyə Böyük Millət Məclisinin fəaliyyəti haqqında dünya mətbuatında verilən məlumatlar bizi heyran edirdi. Ona görə heyran edirdi ki, Türkiyə qüdrətli dövlət kimi özünə layiq olan parlamentə də malik idi.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, 1995-ci ilin sonunda demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında ilk parlament seçilib, indi fəaliyyətdədir. Burada, bu salonda Azərbaycan parlamentinin 17 millət vəkili iştirak edir. Azərbaycanın parlamenti Türkiyə Böyük Millət Məclisinin təcrübəsindən indiyə qədər də bəhrələnib və bundan sonra da bəhrələnəcəkdir.

Hesab edirəm ki, Böyük Millət Məclisinin təcrübəsi təkcə Azərbaycan üçün yox, demokratiya, müstəqillik yolu ilə gedən digər yeni dövlətlər üçün, o cümlədən türkdilli, türk köklü dövlətlər üçün də çox böyük məktəbdir, mənbədir. Hesab edirəm ki, siz də bu təcrübənizi paylaşmaqda heç vaxt çəkinməyəcək, həm Azərbaycanın, həm də digər ölkələrin parlamentlərinə əlinizdən gələn yardımı edəcəksiniz.

Türkiyə Cümhuriyyətinin və Böyük Millət Məclisinin tarixi eynidir. İndi, XX əsr sona çatarkən və biz XXI əsrə doğru gedərkən Türkiyə Cümhuriyyətinin yaranmasının və onun keçdiyi tarixi yolun dünya üçün, xüsusən Türk dünyası, türkdilli dövlətlər üçün nə qədər əhəmiyyətli olduğunu daha dərindən dərk edirik. Bu gün sizin kimi, biz də Türkiyə Cümhuriyyətinin banisi, böyük Mustafa Kamal Atatürkün Türkiyə Cümhuriyyətinin yaranmasında

və bu Cümhuriyyətin ayağa durmasında, inkişaf etməsində, Türkiyəni qüdrətli dövlət etməsində, Türkiyə Böyük Millət Məclisinin bu qədər yüksək səviyyədə olmasında xidmətlərini xüsusi qeyd edirik. Dünən səhər mən Mustafa Kamal Atatürkün qəbrinin ziyarəti zamanı dediyim kimi, bu gün də deyirəm ki, onun ruhu, xatirəsi qarşısında baş əyirəm.

Türkiyə Azərbaycanın yaxın dostudur, qardaşıdır, bizim üçün ən yaxın ölkədir. Türkiyə ilə Azərbaycan arasında, Türk xalqı ilə Azərbaycan xalqı arasında əlaqələrin qədim və çox zəngin tarixi var. Biz əsrlərdən-əsrlərə keçərək bir yerdə yaşamış, ölkəmizi, millətimizi, dinimizi, dilimizi, milli ənənələrimizi qorumuşuq, saxlamışıq və bu gün də bir yerdəyik. **Azərbaycan xalqı Türkiyə ilə dostluğunu böyük səadət hesab edir. Türkiyə ilə indiyə qədər olan əlaqələrin daha yüksəklərə qalxmasına çalışırıq.**

Tarixi köklərimiz sizin üçün də, bizim üçün də əzizdir. Bizim üçün Yunis İmrə də, Dədə Qorqud da, Manas da, Füzuli də, Nizami də əzizdir, XX əsrdə yazıb-yaratmış şəxsiyyətlər də, o cümlədən Tofiq Fikrət də, Rəşad Nuri də və Azərbaycan xalqının XX əsrdə yetirdiyi böyük yazıçılar, şairlər, bəstəkarlar, alimlər də əzizdir. Məhz bunlar - xalqlarımızın qabaqcıl, mütəfəkkir adamları bizi həmişə bir-birimizlə bağlayıb, bir-birimizlə birləşdiriblər.

XX əsrdə həm Türkiyənin, həm də Azərbaycanın həyatında çox ciddi proseslər, dəyişikliklər gedibdir. Türkiyədə imperatorluq dağılmış, Türkiyə ağır vəziyyətə düşmüşdü. Ancaq, yenə də qeyd edirəm, dağılmış Türkiyə imperatorluğunun yerində məhz Mustafa Kamal Atatürkün müdrikliyi ilə Türkiyə Cümhuriyyəti yarandı.

XIX əsrin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi əldən getdi. XX əsrin əvvəlində - 1918-ci ildə Azərbaycanda ilk Demokratik Respublika yarandı, ancaq o az yaşadı, sonra Sovet hakimiyyəti qurulması ilə əlaqədar bu cümhuriyyət süquta yetdi. Bu illərdə - Birinci dünya müharibəsi zamanı və ondan sonrakı dövrdə Türkiyənin həyatında həm çox böyük, ağır, çətin proseslər, həm də döyüşlər gedibdir. Qafqazda da, Azərbaycanda da döyüşlər gedibdir.

Azərbaycan 1918-1920-ci illərdə böyük təhlükələr altında olubdur. Cürbəcür istiqamətlərdən olan təzyiqlər, Bakı neftini ələ keçirmək cəhdləri Azərbaycan xalqına böyük zərbələr vurubdur. O illərdə - 1918-1920-ci illərdə Azərbaycana ən ağır zərbələr, yaralar Bakıda, Gəncədə, Qarabağda, Naxçıvanda, ölkənin başqa yerlərində ermənilərin törətdikləri qırğınlarla əlaqədar olubdur. O illərdə Türkiyə bizimlə, Azərbaycanla olubdur. Türkiyənin rəşadətli oğulları, Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəlib və bir çox yerlərdə xalqımızı ermənilərin törətdiyi qırğından xilas edibdir. Biz bunları heç

vaxt unutmamışıq və unutmayacağıq.

Sonra isə biz 70 il bir-birimizdən aralı düşmüşük. Ancaq bu dövrdə Türkiyə bir cümhuriyyət, müstəqil dövlət kimi inkişaf edib, Azərbaycan isə müstəqilliyini itirib, Sovetlər Birliyinin tərkibində olubdur. Bizi çox şeylərdən məhrum etməyə çalışıblar. Ancaq heç bir şey mümkün olmayıbdır. Yəni bizim kökümüzdən gələn milli mənəviyyatımız, dəyərlərimiz yaşayıbdır. Bu gün bunu böyük iftixar hissi ilə deyirəm, çünki mən burada müstəqil Azərbaycanı təmsil edirəm - XIX əsrdə də, XX əsrdə də nə qədər ağır çətinliklər olubsa da, biz ana dilimizi, doğma dilimizi də, İslam dinimizi də, milli ənənələrimizi, dəyərlərimizi də yaşatmışıq. Eyni zamanda bu illərdə xalqımız yüksək təhsil alıb, elmə, mədəniyyətə qovuşubdur. İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri, ümumdünya dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi, sivilizasiyalı ölkədir.

Biz bu illəri yaşamışıq, keçmişik. İtkilər vermişik, zərbələrə məruz qalmışıq, lakin hamısına dözmüşük. Amma ən böyük xoşbəxtlik ondan ibarətdir ki, nəhayət, Azərbaycan milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur və dövlət müstəqilliyini də möhkəmləndirib, gücləndiribdir. İndi Azərbaycan Dünya Birliyinə daxildir, beynəlxalq təşkilatların hamısının üzvüdür, Dünya Birliyinin bərabərhüquqlu dövlətidir. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir, biz bununla fəxr edirik və dövlət müstəqilliyini göz bəbəyi kimi qoruyub saxlayacağıq. Nə qədər çətin olsa da, nə qədər təzyiqlər olsa da biz dövlət müstəqilliyimizi heç vaxt əlimizdən verməyəcəyik. Sizin qarşınızda məsuliyyətlə bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edərkən çox çətin proseslərlə rastlaşıbdır. Bildiyiniz kimi, 1988-ci ildə, Azərbaycan hələ Sovetlər Birliyinin tərkibində olarkən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdır. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdi ancaq təkcə Azərbaycana qarşı olan təcavüz deyildir. Ermənilərin xülyası "Böyük Ermənistan" xülyasıdır. Bu xülya sizə məlumdur, bunu yaxşı bilirsiniz.

Siz bilirsiniz ki, İkinci dünya müharibəsindən sonra Sovetlər Birliyi güclәndi və Türkiyənin torpaqlarına iddialar başlandı. Bir tərəfdən Sovetlər Birliyi Türkiyənin şərqində olan vilayətlərin Ermənistana mənsub olduğunu bəyan etdi, belə yazılar getdi, belə iddialar başlandı. İkinci tərəfdən Türkiyənin digər hissəsinin Gürcüstana mənsub olması haqqında

bəyanatlar, yazılar verildi. Belə proseslər, bu cür iddialar başlandı.

İndi bu fürsətdən istifadə edərək onu da demək istəyirəm ki, İkinci dünya müharibəsindən sonra Türkiyənin başında duran adamlar böyük Atatürkün vəsiyyətlərinə sadiq olaraq çox düzgün xarici siyasət apardılar və o çətin dövrdə, Türkiyənin torpaqlarına qızğın iddialar qalxdığı bir dövrdə Türkiyənin başçıları xalqı, dövləti, ölkənin bütövlüyünü qoruyub saxlaya bildilər.

Yəni demək istəyirəm ki, 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ vilayətini ələ keçirmək üçün Ermənistanın başladığı təcavüz təsadüfi bir şey deyildi. Yenə də deyirəm, bu, "Böyük Ermənistan" xülyasıdır. Onlar bu iddialarla yaşayıblar və bu gün də yaşayırlar. Əgər indi Azərbaycana təcavüz ediblərsə, sabah başqa bir yerə təcavüz edə bilərlər. Çünki onlar bu hisslərdən çəkinməyiblər. Ancaq mən Azərbaycanda gedən proseslər haqqında demək istəyirəm. Müstəqilliyimizi əldə edəndə biz belə bir təcavüz altında idik və Dağlıq Qarabağ, demək olar, Azərbaycanın hakimiyyətindən çıxmışdı. Bundan sonra Azərbaycanda gedən bəzi proseslər, bəzi obyektiv və subyektiv səbəblər nəticəsində Ermənistan silahlı qüvvələri torpaqlarımızın digər bir hissəsini də işğal etməyə nail oldular. İndi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, sizin qardaş-bacılarınız didərgin düşüb, qaçqın vəziyyətindədir, əksəriyyəti çadırlarda yaşayırlar. Sizin nümayəndələriniz Azərbaycanı ziyarət edərkən hətta Bakı şəhərində cürbəcür yerlərdə o qaçqınları görəndə, bəziləri isə çadır düşərgələrinə, şəhərciklərinə gedib onların çətin vəziyyətini görəndə qəlbləri ilə hiss ediblər ki, xalqımız nə qədər ağır vəziyyətdə yaşayır.

Beləliklə, biz dövlət müstəqilliyini əldə edəndə çox şad olduq. Ancaq eyni zamanda nə qədər böyük bəla ilə rastlaşdıq. Bildiyiniz kimi, üç il bundan öncə, 1994-cü ilin mayın 12-də - bir həftədən sonra üç ili tamam olacaq - Azərbaycan ilə Ermənistan arasında atəşin dayandırılması haqqında saziş əldə edilibdir. Üç ildir ki, atəş yoxdur. Bu, böyük nailiyyətdir - qan tökülmür, şəhidlər vermirik, insanlarımız müəyyən qədər rahatlaşıbdır. Ancaq verdiyimiz şəhidlərin qəm-qüssəsi, insanların həm vücudunda, bədənində, həm də qəlbində olan yaralar bizi daim incidir.

Atəşkəsin üç ildir davam etməsi müsbət bir hal olmaqla bərabər, eyni zamanda böyük sülh əldə olunması, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması və Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi, didərgin düşmüş Azərbaycan vətəndaşlarının öz yerinə-yurduna qayıtması qarşımızda duran əsas vəzifədir. Bilirsiniz ki, biz bu məsələ ilə məşğul oluruq. Böyük

məmnuniyyət hissi ilə sizə demək istəyirəm ki, **Azərbaycana qarşı Ermənistanın təcavüzü başlayandan indiyə qədər Türkiyə, onun xalqı, Türkiyə dövləti, Türkiyə Cümhuriyyəti Azərbaycanın yanındadırlar, Azərbaycanla bir yerdədirlər. Siz bizim dərdimizə həmişə şəriksiniz və bu məsələnin həllində Türkiyənin dəstəyini, əməli qayğısını daim hiss etmişik və hiss edirik.**

Son üç ildə aparılan danışıqlarda, - bildiyiniz kimi, bu danışıqlar ATƏT-in Minsk qrupunun vasitəsilə gedir, - Türkiyə Minsk qrupunun üzvü kimi çox fəal iştirak edir, çox təşəbbüslər irəli sürür. Bu məsələ dünən də çox ətraflı müzakirə olunub və Türkiyə Prezidenti, ölkənin digər rəhbərləri bildirdilər ki, onlar Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması üçün və Azərbaycanı bu bəladan xilas etmək üçün bundan sonra da yeni addımlar atacaq, yeni təşəbbüslər irəli sürəcəklər.

İndi Minsk qrupunun üç həmsədri var: Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Keçən ilin dekabr ayında Lissabonda ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ilk dəfə ayrıca bir sənəd - Lissabon bəyanatı qəbul edildi. Həmin bəyanatda bu münaqişənin sülh yolu ilə həll olunmasının prinsipləri öz əksini tapdı. Bu, üç əsas bənddən ibarətdir. Birincisi, Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü yenə də tanımaq istəmirdi; ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu, muxtariyyət hüququ verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə, yəni erməni və azərbaycanlı əhalisinin hamısına təhlükəsizlik üçün təminat verilməsi.

Bu sənəd ATƏT-in 54 üzvündən 53-nün dövlət başçıları tərəfindən dəstəkləndi və qəbul olundu. Yalnız Ermənistan buna etiraz etdi. Beləliklə, biz tarixi bir sənəd əldə etmişik. İndi vəzifəmiz bu prinsiplər əsasında, Lissabon prinsipləri əsasında sülh danışıqlarını gücləndirmək, sürətləndirmək və 1997-ci ildə bu münaqişəyə son qoymaqdır.

Lissabon görüşündən sonra Minsk qrupunun həmsədrləri dəyişildi. Əvvəl həmsədrlər Rusiya ilə Finlandiya idisə, Lissabon Zirvə görüşündən sonra üç həmsədr oldu: Rusiya, Fransa və Amerika. Hesab edirəm ki, üç böyük dövlət bu məsələnin həlli üçün Minsk qrupunda həmsədrlik vəzifəsini öz üzərlərinə götürübsə, öz üzərlərinə böyük məsuliyyət götürübsə, gərək bu məsuliyyəti də yerinə yetirsin. Biz hər halda belə danışıqlar aparmışıq, öz fikrimizi onlara bildirmişik və onlardan, bu üç dövlətdən çox böyük hərəkət gözləyirik.

Şübhəsiz ki, bu məsələnin həll olunmasında Türkiyənin böyük rolu yenə də var və bu gün də, sabah da olacaqdır. Biz bu məsələnin həll edilməsində Türkiyənin indiyə qədər olduğu kimi, bundan sonra da fəal iştirak etməsini istəyirik.

Beləliklə, Azərbaycan altı ildir dövlət müstəqilliyi şəraitində yaşayır və belə bir böyük xarici təcavüz nəticəsində ölkəmiz çətin vəziyyətə düşmüşdür. Bilirsiniz ki, o illərdə Azərbaycanın daxili vəziyyəti də sabit olmayıbdır. Təəssüflər olsun ki, Ermənistan-Azərbaycan savaşı, döyüşü zamanı Azərbaycanda cürbəcür qanunsuz silahlı dəstələr meydana çıxmışdı. Hətta bəzi dövlət adamları, dövlət başçıları olan adamlar dövlət qurumlarında olan silahlı adamlarla yanaşı, özlərinə məxsus silahlı dəstələr düzəltmişdilər. Şübhəsiz ki, bu silahlı dəstələr bir tərəfdən qanunu pozur, cinayət edir, digər tərəfdən də hər bir silahlı dəstənin başçısı həmin silahlı dəstəyə güvənərək hakimiyyət uğrunda mübarizə aparırdı.

Siz bilirsiniz ki, 1992-ci ildə belə bir vəziyyətdə Azərbaycanda hakimiyyət dəyişdi, yeni bir qüvvə - Xalq Cəbhəsinin nümayəndələri hakimiyyətə gəldilər. Onlar bir il hakimiyyətdə oldular və 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət böhranı əmələ gəldi. Başqa silahlı dəstələr bu hakimiyyəti devirməyə çalışdılar. Onlar böyük güc topladılar, ermənilərlə müharibə getdiyi zaman cəbhədən silahları, tankları, topları çıxarıb bir hissəsini Gəncə şəhərinə topladılar ki, Bakıya hücum etsinlər. Başqa bir hissəsini isə oradan çıxarıb Bakıya gətirdilər ki, özlərini müdafiə etsinlər. Beləliklə, ermənilər bu vəziyyətdən istifadə edib Azərbaycanın bir neçə bölgəsini də işğal etməyə nail oldular. Görün, 1993-cü ildə Azərbaycana nə qədər zərbələr vuruldu. Bir tərəfdən, Azərbaycanın bir neçə başqa bölgəsi də işğal olundu, digər tərəfdən, daxildə ixtilaflar daha da artdı və Azərbaycanda vətəndaş müharibəsi başlandı. Azərbaycan artıq parçalanırdı.

Bildiyiniz kimi, 1993-cü ilin iyun ayında belə bir ağır vəziyyətdə xalqın tələbi ilə mən Naxçıvandan Bakıya gəlməli oldum və 1993-cü il iyunun 15-də Azərbaycan Parlamentinin Sədri vəzifəsini öz üzərimə götürdüm. Mən sizə müəyyən mənada hesabat verirəm. Çünki Siz Türkiyənin Böyük Millət Məclisisiniz, bizimlə dost ölkənin Millət Məclisisiniz. Mən öz Parlamentimiz qarşısında hesabat verirəm. 1993-cü il iyunun 15-də mən Parlamentin sədri vəzifəsini öz üzərimə götürdüm. Ancaq bundan üç gün sonra Azərbaycanın o vaxtkı Prezidenti Əbülfəz Elçibəy öz vəzifəsini gizli olaraq tərk etdi və Bakıdan qaçdı. O, indiyədək Bakıya dönməyibdir.

İndi təsəvvür edin, mən Azərbaycanda tək qaldım - respublika Prezidenti yox idi, Baş nazir yox idi. Buna görə də mən həm parlamentin sədri, həm də, sizin sözlə desək, Prezidentin vəkili kimi, onun səlahiyyətlərini həyata keçirən şəxs kimi fəaliyyət göstərməli oldum. Lakin vəziyyət normal deyildi. Cənub tərəfdə,

İranla sərhəd yaxınlığında böyük bir silahlı dəstə bir "Talış Cümhuriyyəti" düzəltdi.

Mənim sözlərimi anlayırsınızmı? Mən sizin ləhcədə də danışa bilərəm. Ancaq qəsdən danışmıram ki, siz də bizim ləhcəni öyrənəsiniz.

Orada bir "Talış Cümhuriyyəti" düzəltdilər, Azərbaycanın böyük bir bölgəsini ələ keçirdilər. Vaxtilə Əbülfəz Elçibəy tərəfindən Dağlıq Qarabağda Prezidentin səlahiyyətli nümayəndəsi təyin edilmiş Surət Hüseynova ən yüksək hərbi vəzifə verilmişdi, guya o, müharibə aparacaq və ermənilərin qarşısını alacaqdı. Halbuki onun bu sahədə heç bir hərbi hazırlığı yox idi. Keçmişdə yun fabrikinin direktoru işləmiş, cəmi 35 yaşında olan, eyni zamanda çox mafioz, cinayətkar işlərlə məşğul olan bir adamı gətirib belə yüksək vəzifəyə qoymuşdular. Bax, belə bir adam həm Prezidentin səlahiyyətli nümayəndəsi, həm də Baş nazirin müavini idi. O da fikirləşirdi ki, cavan bir adamam, əlimdə də vəzifəm var, bir addım qalır ki, gedib Prezident olum. Ona görə də o, silahları toplayıb Bakıya hücum etməyə başladı.

Mən Bakıya gələrkən onlar Gəncədə öz qüvvələrini toplamışdılar və "Talış Muğan Respublikası" yaratmış adamlar da onlarla bir ittifaqda idilər. Siz bilirsiniz ki, o vaxt yaramaz bir adamı - Rəhim Qazıyev adlı bir şəxsi, keçmişdə Xalq Cəbhəsinin guya liderlərindən biri olan adamı da gətirib Müdafiə naziri qoymuşdular. O da ki bir tərəfdən başqa bir ölkənin kəşfiyyatına, xarici kəşfiyyata xidmət edən bir adam idi, eyni zamanda çox bacarıqsız və işi bilməyən adam idi, yəni nə hərbdə olmuşdu, nə də savadı vardı, haradasa müəllim işləyib, özü də kiçik müəllim olmuşdu.

Əziz dostlar, o vaxtlar belə bir vəziyyət yaranmışdı. Mən tək qalmışdım. O vaxt Gəncədən hücumlar yenə də davam edirdi. Belə bir şəraitdə Azərbaycanı böhrandan çıxarmaq lazım idi. Vaxtınızı almaq istəmirəm, bu barədə çox danışmaq olar. Biz Azərbaycanı böhrandan çıxardıq. Amma o vaxt mən məcbur olub, həmin Surət Hüseynovu gətirib Azərbaycana Baş nazir təyin etdim. Çünki başqa yol yox idi.

Onun əlində çox böyük hərbi hissələr vardı. Mən o vaxt onu Baş nazir ona görə təyin etdim ki, bəlkə tərbiyə edim. Ayını meşədən tutub gətirərək ona çox şey öyrətmək olur, - o, hətta bəzən rəqs də edir. Ancaq belə adamları tərbiyə etmək mümkün deyildir. Onun qafası o qədər dar idi ki, biz istədiyimiz işləri görə bilməzdi. Nəhayət, 1994-cü ilin oktyabr ayında o, məni də devirmək üçün yeni bir hərbə başladı. Siz onu bilirsiniz. Bəli, onun əlində silahlar vardı. Amma yenə də deyirəm, mənim əlimdə silah yox idi. Çünki o, Baş nazir olduğuna görə silahlar onun əlində idi.

Ancaq xalq mənimlə idi. Odur ki, mən televiziya ilə xalqa müraciət

etdim və iki saatın içərisində, gecə saat 11-i keçən vaxt Bakı sakinlərindən yarım milyon adam Prezident sarayının önündəki meydana toplaşdı, bütün sarayı mühasirəyə aldılar və məni müdafiə etdilər. Dövlət çevrilişi etmək istəyənlər bunu görüb qaçdılar. İkinci gün Azərbaycanın Azadlıq meydanına, - bu meydan sizə məlumdur, - bir milyondan artıq adam toplaşdı. Xalq məni dəstəklədi və müdafiə etdi. Dövlət çevrilişi etmək istəyən həmin adamlar qaçıb Rusiyada gizləndilər. O gündən iki ildən çox vaxt keçir və biz onları Rusiyada bir-bir tapıb gətirdik. Nəhayət, bir ay bundan əvvəl həmin Surət Hüseynovu Rusiya vilayətlərindən birində yaxalayıb gətirdik. İndi o, Bakıda həbsxanadadır. 1993-cü ildə bu tədbiri yapan və Azərbaycanda böhran yaradan Rəhim Qazıyev də qaçıb Moskvada gizlənmişdi. Biz onu da orada yaxalayıb gətirdik. Məhkəmə ona cəza verib və o, indi həbsxanadadır.

"Talış Respublikası" yaradan Əlikram Hümbətov adlı bir adam var idi. Xarici kəşfiyyat orqanları onu həbsxanadan qaçırıb apararaq başqa yerdə gizlətmişdilər. Biz onu da tapıb gətirdik.

Beləliklə, biz bunların qarşısını aldıq. Ancaq, əziz qardaşlar, siz bilin ki, Azərbaycanda bu xəstəlik, - buna ruslar "zaraza" deyirlər, - bu xəstəlik o qədər dərin kök atmışdı ki, silahı olan adamlar hesab edirdilər ki, bu silahın gücü ilə gəlib hakimiyyəti ələ keçirəcəklər. 1994-cü ilin oktyabr ayından sonra 1995-ci ilin mart ayında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis dəstəsi var idi, - o, hakimiyyətin tabeliyindən çıxmışdı və o da hakimiyyət iddiası edirdi. O dəstənin başçısı Daxili İşlər nazirinin müavini olmasına baxmayaraq, hakimiyyətə tabe olmurdu. Ətrafında silahlı və çox təcrübəli xeyli döyüşçü vardı. Yenə bir problem yarandı. Mənə ultimatum göndərdilər ki, Heydər Əliyev istefa verməlidir, yoxsa biz onu öldürəcəyik. Dedim ki, mən belə şeyləri çox görmüşəm və qorxmuram. Mən onlarla çox danışıqlar apardım, onları yola gətirmək istədim. Amma yola gəlmədilər.

Təəssüf ki, o vaxt bizim Azərbaycanda olan bir çox siyasi partiyalar da gizli olaraq onlarla əlaqəyə girdilər. Bizim dərdimiz budur. Bizim dərdimiz tək Ermənistanın təcavüzü deyildir, dərdimiz içimizdə olan dərddir. Onlar ümidli idilər ki, həmin bu polkovnik gəlib Heydər Əliyevi məhv edəcək, yıxacaqdır, sonra da onlar gəlib hərəsi öz payını götürəcəkdir. Kimə nə çatacaq, onu Allah bilir. Mən çox çalışdım ki, onları bir yola gətirim, amma mümkün olmadı.

1995-ci ilin mart ayında mən Kopenhagendə beynəlxalq təşkilatın bir tədbirində iştirak edirdim. Onlar plan qurmuşdular ki, mən Bakıya dönərkən məni hava limanında öldürəcəklər və hakimiyyəti ələ alacaqlar. Mən bu gün bu həqiqəti deməliyəm

ki, mənim əziz dostum Süleyman Dəmirəl Kopenhagendə son görüşdə mənə bildirdi ki, belə bir təhlükə gözlənilir. Çox sağ olsun. Mən Bakıya nəzərdə tutulmuş vaxtdan öncə gəldim. Buna görə də onlar bu planı həyata keçirə bilmədilər. Amma onlar o vaxt Azərbaycanın bir neçə bölgəsində, Gürcüstanla və Ermənistanla həmsərhəd olan bölgələrimizdə artıq hakimiyyəti ələ keçirmişdilər. Beşaltı gün mən onlarla danışdım, onları yola gətirmək istədim, anlatdım ki, siz qan tökməyin, heç bir şey edə bilməyəcəksiniz və mən Azərbaycanın Prezidenti kimi Azərbaycanın müstəqilliyini qorumağa qadirəm.

Əgər hansı bir namərd güllәsi məni məhv etsə də, mən Azərbaycanın müstəqilliyi yolunda qurban getməyə, şəhid olmağa hazıram.

Təəssüflər olsun ki, onlar martın 17-də gecə Prezident sarayına, televiziya mərkəzinə, Müdafiə Nazirliyinə və Daxili İşlər Nazirliyinə hücum etdilər. Gecə döyüşlər getdi. Nəhayət, biz bunların qarşısını ala bildik və onlar məhv edildilər. Mən sizinlə açıq danışıram, siz mənim qardaşlarımsınız və mən öz doğma ölkəmə gəlmişəm. Əfsuslar olsun ki, bu ikinci çevriliş cəhdinin hazırlanmasında bir neçə siyasi partiyanın üzvləri iştirak edirdilər. Çox qəribə olanı budur ki, bir-birinə zidd olanlar, məsələn, vaxtilə Azərbaycanda qısa bir müddət Prezident olub və 1992-ci ildə Moskvaya qaçan, indiyə qədər Moskvanın himayəsi altında gizlənən Mütəllibov o tərəfdən, sizə məlum olan və qaçıb Naxçıvanın Kələki kəndində gizlənən Əbülfəz Elçibəy başqa bir tərəfdən, Azərbaycan Müsavat Partiyasının nümayəndəsi, bizim keçmiş Xarici İşlər naziri Tofiq Qasımov və bir çox başqaları gördülər ki, bunlar böyük gücə malikdirlər və belə hesab etdilər ki, onlar doğrudan da gəlib bizi yıxa biləcəklər, onlara razılıq verdilər ki, əgər siz hakimiyyəti əldə etsəniz, onda Dövlət Şurası yaranacaqdır. Təsəvvür edin ki, bu Dövlət Şurasının başında həmin o cinayətkar adam duracaq və onun əlinin altında da Moskvada olan Mütəllibov, Kələkidə dağda oturan Əbülfəz Elçibəy və başqa partiyaların nümayəndələri olacaqdılar. Allah eləməsin ki, sizin ölkəniz də gəlib o günə düşsün.

Bilirsinizmi, təəssüf hissi ilə demək istəyirəm ki, həmin bu çevriliş cəhdinin hazırlanmasında bir neçə Türkiyə vətəndaşları da iştirak etmişlər. Mən bunu əvvəllər heç kəsə deməmişdim və vaxtilə gizlədirdim, çünki hesab edirdim ki, biz bu hadisələrin öhdəsindən gəldik, Türkiyə - Azərbaycan əlaqələrinə heç bir şey lələkə gətirməməlidir. Ancaq həmin o çevriliş cəhdini hazırlayanlardan birini - Fərman Dəmirqol adında bir şəxsi sonra biz buraxdıq və o, gizli olaraq buraya, Türkiyəyə gəldi. Bizə dedilər ki, o, burada dinc yaşayacaq. Mən də dedim ki, onda biz də bunu daha açmayacağıq. Amma sizin televiziyada, qəzetlərdə xəbərlər verdilər

ki, bəs bu adam haradan çıxıb. Kimdir bu adam? Vaxtilə, yəni Xalq Cəbhəsinin hakimiyyəti dövründə gəlib, burada sizdə bir TİKA təşkilatı var, - o təşkilatın orada nümayəndəsi kimi maaş alıb. Eyni zamanda onu gətirib Azərbaycan Parlamentində müşavir qoyublar, eyni zamanda ona Azərbaycan Dövlət Universitetində müəllim vəzifəsi veriblər. Amma nə müşavirlik edib, nə TİKA-nın işi ilə məşğul olub, nə də müəllimlik edib, - gedib o cinayətkarlara qoşulub və onlarla birlikdə bu çevriliş cəhdini hazırlayıbdır. Buna da söz veriblər ki, sən də Dövlət Şurasının üzvü olacaqsan və burada da bir vəzifə alacaqsan.

Başqa bir Türkiyə vətəndaşı - Kənan Gürel də bu işdə iştirak etmişdir. Təəssüf ki, onlar Türkiyənin bəzi şəxsləri ilə əlaqədə olmuş və çevriliş cəhdində axıra qədər iştirak etmişdilər. Biz bunları hiss etmişdik, amma məsələ açılandan sonra bildik.

Ancaq bunlar hamısı geridə qalmalıdır. Biz bunlardan da ötüb keçdik. O çevriliş cəhdlərini törədən adamların bəziləri qaçdılar, yenə də Moskvada, Qərbdə, başqa ölkələrdə gizləndilər. Onların bir hissəsi Türkiyədə gizlənir və mən hüquq orqanlarından rica etmişdim ki, onları tapıb Azərbaycana təslim etsinlər. Təəssüf ki, bunu indiyə qədər etməyiblər. Onlar qaçdılar, yenə də Rusiyada gizləndilər. Ancaq ondan sonra da bir neçə qəsdlər oldu, biz bunların da qarşısını aldıq.

Sizin vaxtınızı alıram, üzr istəyirəm. Mən bunları sizə deyirəm, çünki siz bizim həyatımızda olan hər bir şeyi olduğu kimi bilməlisiniz. Bunları ona görə deyirəm ki, siz biləsiniz, bizim müstəqilliyimizin yolu nə qədər ağır, çətin, nə qədər keşməkeşli olubdur.

İndi mən sizə hesabat verirəm ki, bütün bunlara baxmayaraq, Azərbaycanın daxilində əmin-amanlıq tamamilə təmin edilibdir. Daxili ictimai-siyasi vəziyyət tam sabitdir. Şübhəsiz ki, gizlənmiş, Rusiyada və başqa ölkələrdə yerləşən ayrı-ayrı terrorçu qruplar yenə də var, onlardan hələ də tamamilə can qurtarmamışıq. Təsadüfən yenə bir hadisə ola bilər. Ancaq biz əmin-amanlıq, qanun-qayda yaratmışıq. Hərə öz işini bilir, qanunun vacibliyini, aliliyini təmin etmişik.

İndi insanlar rahat yaşayırlar. Belə bir şəraitdə biz Azərbaycanın daxili işləri ilə məşğul olmağa imkan tapırıq. Bilirsiniz ki, 1995-ci ilin sonunda biz ilk dəfə demokratik prinsiplər və çoxpartiyalı sistem əsasında müstəqil Azərbaycanın demokratik parlamentini seçdik. 1995-ci ilin qasım ayında biz Azərbaycanın ilk demokratik Konstitusiyasını, Ana Yasasını qəbul etdik. Bizim bu konstitusiyamız Azərbaycanda hüquqi demokratik, dünyəvi dövlət qurmaq prinsiplərini özündə əks etdirən bir konstitusiyadır. Bu Konstitusiya ilə Azərbaycanda bütün insan azadlıqları təmin olunubdur. Söz, mətbuat, fi-

kir azadlığı, fikir müxtəlifliyi , vicdan azadlığı, din azadlığı, bütün insanların hüquq bərabərliyi - hamısı təmin olunubdur.

Çoxpartiyalı sistem təmin olunub və hər bir normal partiyanın Azərbaycanda fəaliyyət göstərməsinə şərait yaranıbdır.

Azərbaycanda 30-dan artıq partiya qeydiyyatdan keçibdir, fəaliyyət göstərir. 600-dək qəzet var, bunlardan cəmi bir neçəsi Azərbaycanın dövlət qəzetidir. Qalanları ayrı-ayrı təşkilatların qəzetləridir və əksəriyyəti də müxalifət mövqeyində olan qəzetlərdir.

Beləliklə, biz Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu prosesini hüquqi nöqteyi-nəzərdən, Ana Yasa, qanunlarımız vasitəsilə təmin etmişik və bunu inkişaf etdiririk.

Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir. Bunlar 1995-ci ilin ikinci yarısında, 1996-cı ildə və indi, 1997-ci ilin əvvəlində öz müsbət nəticələrini veribdir. İslahatlar nədən ibarətdir? Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedir. Sahibkarlıq geniş inkişaf tapıbdır. Özəlləşdirmə proqramı qəbul olunub, həyata keçirilir, bütün mülkiyyət özəlləşdirilir. Bilirsiniz ki, Azərbaycanın torpaqları dövlətin əlində, kolxozlarda, sovxozlarda idi. Biz torpaq islahatı haqqında çox ciddi və cəsarətli qanun qəbul etdik. Bu qanun əsasında Azərbaycanın torpaqları əsasən şəxsi mülkiyyətə verilir.

Sizə onu da bildirmək istəyirəm ki, keçmişdə Sovet İttifaqına mənsub olub indi müstəqil dövlət olan ölkələrin heç birində belə mütərəqqi və cəsarətli qanun qəbul edilməyibdir. Biz bu qanunu üç il müddətində yerinə yetirəcəyik, bütün torpaqlar şəxsi mülkiyyətə keçəcəkdir. Ancaq bu qanunun artıq həyata keçirilməsinin bir neçə qismləri öz nəticəsini veribdir. Məsələn, biz heyvandarlığı tamamilə özəlləşdirmişik. Bunu özəlləşdirəndən sonra Azərbaycanda ət, süd, yağ problemimiz yoxdur.

Mən sizə bir şeyi demək istəyirəm, - bəlkə bu, sizin üçün maraqlıdır. Sovetlər İttifaqı zamanı Azərbaycan Respublikası özünü ət və südlə təmin edə bilmirdi. Biz pambıq istehsal edib Rusiyaya verirdik, Rusiya isə bizə ət göndərirdi. Amma əti vaxtında göndərmirdi, ona görə də əhalimizi ət ilə istənilən qədər təmin edə bilmirdik. Çörəklə də təmin edə bilmirdik, çünki biz pambıq istehsal edirdik, buğdanı isə Rusiyadan alırdıq. İndi islahatları keçirdikdən, ticarəti sərbəstləşdirdikdən, heyvandarlığı özəlləşdirdikdən sonra problem yoxdur. Bütün mal-qara şəxsi mülkiyyətdədir. Çörək istehsalı şəxsi mülkiyyətdədir, dövlət çörəklə məşğul olmur. Bu problemlərin hamısını aradan qaldırmışıq.

Beləliklə, Azərbaycanda iqtisadi islahatlar sürətlə gedir və bir-iki il içərisində Azərbaycanın iqtisadiyyatında ciddi dəyişikliklər baş verəcəkdir. Ancaq sizə demək istəyirəm ki, 1996-cı il son altı-yeddi il içərisində müəyyən qədər dönüş ili olubdur. Yəni, müsbət meyllər ili olubdur. Əvvəlki illərdə bizdə istehsal, xüsusən sənayedə və kənd təsərrüfatında hər il 10-15 faiz aşağı düşürdü. 1996-cı ildə sənaye istehsalında 6 faiz aşağı düşdük, amma 1995-ci ildə 24 faiz aşağı düşmüşdük. 1997-ci ilin birinci rübündə biz bu geriləməni dayandırdıq, əksinə, istehsal bir qədər inkişafa başladı. Keçən il kənd təsərrüfatı məhsulları istehsalı 3 faiz artıbdır.

Türkiyə ilə Azərbaycan arasında ticarət əlaqələri, mal mübadiləsi son iki ildə 3 dəfə artıbdır. Düzdür, mütləq rəqəmlər o qədər də böyük deyil, - gərək bizim əlaqələrimiz daha da geniş olsun, nəticələri daha da çox olsun, - və bu ticarət əlaqələrində Türkiyədən Azərbaycana mal gətirilməsi daha çoxdur, nəinki Azərbaycandan Türkiyəyə göndərilməsi. Bu da təbiidir, biz buna etiraz etmirik. Ancaq bunun həcmi artmalıdır və biz bunu artırmağa çalışırıq, bundan sonra da çalışacağıq.

Bilirsiniz ki, biz Azərbaycana xarici sərmayə gətirməyə çox səy göstəririk. 1994-cü ilin oktyabrında biz ilk böyük neft müqaviləsi imzaladıq, dünyada ona "Əsrin müqaviləsi" adı verildi. Bu müqavilə əsasında dünyanın 11 böyük neft şirkəti 30 il müddətində Azərbaycanda müştərək neft çıxarmaqla məşğul olacaqdır. Müqavilə əsasında çıxarılacaq neftin dünya bazarına nəqli məsələsi, o cümlədən neft kəməri məsələsi meydana çıxıbdır. İndi deyə bilərəm ki, müqavilə işləyir, bir neçə quyu qazılıb və bu ilin avqust və ya sentyabrında neft alacağıq.

Ondan sonra biz bir neçə müqavilə də imzalamışıq. Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, bu müqavilələrdə Türkiyə də iştirak edir. Birinci müqavilədə Türkiyə Cümhuriyyəti, "Türk petrolları" şirkəti çox az faizlə iştirak edirdi. Onun payı 1,25 faiz idi. Ancaq müqavilə imzalandıqdan sonra Türkiyənin dövlət, hökumət başçıları mənə müraciət etdikdə, Azərbaycan öz hissəsindən 5 faiz Türkiyəyə verdi və Türkiyənin payı 6,25 faiz oldu. Sonra biz yeni müqavilə - Xəzər dənizində "Şahdəniz" neft yatağı haqqında müqavilə imzaladıq. O da bir neçə dünya şirkətləri ilə imzalanıbdır. Bu müqavilədə "Türk petrolları" şirkətinin payı 9 faizdir.

Biz bundan sonra da yeni müqavilələr imzalayacağıq və Türkiyə bunların hamısında iştirak edəcəkdir. İndiyə qədər beş müqavilə imzalanıbdır.

Mən bilirəm ki, bu neftin dünya bazarına çıxarılması yolu Türkiyədə daim müzakirə olunur və böyük maraq doğurur. Bildirmək istəyirəm ki, biz əvvəllər də hesab edirdik ki, Azərbaycan neftinin xaricə çıxarılmasının birinci yolu Türkiyədir. Ancaq bir çox çətinliklərlə, təzyiqlərlə də rastlaşdıq. Birinci müqavilədən

sonra cürbəcür ölkələr tərəfindən bizə həddindən artıq təzyiqlər etdilər, ancaq bunun da qarşısında durduq. Biz daxilimizdə olan təzyiqlərin də, xaricdən olan təzyiqlərin də qarşısında durduq.

Bilirsiniz, biz sonra qərar qəbul etdik ki, ilkin neftin ixracı üçün iki neft kəməri çəkilsin: biri Şimala - Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, biri isə Qərbə - Gürcüstan ərazisindən Qara dənizdəki Supsa limanına, - bu, Türkiyəyə yaxın olan limandır. Bu qərarı Rusiya da bəyənmiş, ondan razı qalmışdır, Qərb də bəyənmişdir. Biz bunu həyata keçiririk.

Rusiyaya gedən neft kəməri Azərbaycan ərazisində hazırdır. Ancaq təəssüflər olsun ki, Rusiya ərazisində neft kəməri hələ hazır deyildir. Azərbaycan neftini ixrac edəcəyimiz bu kəməri bir balaca sınamaq istəyirdik, ancaq bundan məhrumuq. Rusiyada bizə söz verirlər ki, oktyabr ayına qədər borunu hazırlayacaqlar, onda müəyyən miqdarda nefti o yolla ixrac edə biləcəyik.

Gürcüstan ərazisindən Qərbə - Türkiyəyə doğru gələn xətt 1998-ci ilin sonunda hazır olacaqdır. Ancaq bizim ən əsas məqsədimiz böyük neft borusunun tikilməsidir. Bu barədə dünyada çox böyük axtarışlar gedir, bir çox layihələr də var. Hər bir ölkənin bunda öz marağı var və Azərbaycana, Türkiyəyə pis münasibət göstərən, düşmən olan ölkələr buna mane olmaq istəyirlər. Sadəcə olaraq, dünyada iqtisadi rəqabət gedir. Bu boru haradan keçəcəksə, onun çox iqtisadi mənfəəti olacaqdır. Ona görə də bu məsələni çox müzakirə etmişik. Dünən Türkiyə Prezidentinin və Azərbaycan Prezidentinin imzaladıqları anlaşmada biz yazmışıq ki, həmin böyük neft kəmərinin Bakı-Ceyhan yolu ilə getməyini istəyirik.

Bir neçə gündən sonra Aşqabatda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşü olacaqdır. Ola bilər, orada da bir layihə - Türkmənistandan təbii qazın Xəzər dənizinin altından keçməklə Azərbaycan ərazisi vasitəsilə Türkiyəyə gətirilməsi barədə layihə qəbul edilsin. Belə bir layihə var, bu gün, dünən də bu barədə danışdım. Əgər hamımız birlikdə bu layihəni həyata keçirə bilsək, - çünki bizim dostlarımız bəzən söz verir, son-ra yerinə yetirmirlər, - çox gözəl iş olacaqdır.

Ümumiyyətlə, demək istəyirəm ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft yataqları var. Qazaxıstan sektorunda da zəngin yataqlar var. Bilirsiniz ki, Qazaxıstan Tengizdə neft çıxarır. "Şevron" şirkəti oradan neft çıxarır, Rusiya ərazisindən ixrac edir. Amma indi alternativ olaraq ikinci bir yol da Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilinə nəzərdə tutulur. Biz buna imkan vermişik. Beləliklə, bu yolu da Türkiyəyə çıxara bilərik. Azərbaycanın zəngin neft yataqlarının böyük gələcəyindən Türkiyə də bəhrələnəcək, bi-

zim üçün dost, qardaş ölkə kimi biz Türkiyə ilə həmişə əməkdaşlıq edəcəyik.

Bir sözlə, bizim həyatımız çox ağırdır, çətindir. Ancaq gələcəyimizi də parlaq görürük. Əgər biz Ermənistanın təcavüzündən xilas olsaq, işğal olunmuş torpaqlarımız azad edilsə, şübhəsiz ki, sizinlə əməkdaşlıq edərək çox böyük nailiyyətlər əldə edə və ölkələrimizi bir-birinə daha da sıx bağlaya bilərik.

Ancaq bu baxımdan indi bir təhlükəli proses var. Bilirsiniz ki, sizinlə həmsərhəd olan Ermənistanda Rusiyanın böyük silahlı dəstələri, əsgəri hissələri var. Onlar orada hərbi baza statusu alıblar. Türkiyə də görür, Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi anlaşması imzalanıbdır. Bu anlaşma da Rusiyanın və Ermənistanın parlamentlərində təsdiq olunubdur. Sizin sərhədlərdə, Ermənistan-Türkiyə sərhədlərini qoruyan əsgərlər də Rusiyanın əsgərləridir. Rusiyanın həm Ermənistanda, həm Gürcüstanda hərbi bazalarının olmasını mən anlaya bilmirəm. Yəni bunları qanunauyğun qəbul edə bilmirəm. Mən bunu Rusiyanın başçılarına, dövlət başçılarına açıqca demişəm. Demişəm ki, nə üçün siz Ermənistanda hərbi baza saxlayırsınız, nəyə görə? Bir halda ki, Ermənistanın Rusiya ilə heç sərhədi yoxdur, siz kimdən hücum gözləyirsiniz? Ermənistan ərazi nöqteyi-nəzərindən Rusiyaya bağlı deyildir. Ermənistan kiçik bir əraziyə malikdir, amma o əra-

zi silahlarla, əsgərlərlə doludur. Mən demişəm, - nə üçün bunu edirsiniz? Əgər siz Türkiyədən özünüzə qarşı hücum gözləyirsinizsə, Türkiyə heç vaxt bunu etməz. İrandan hücum gözləyirsinizsə, İran da bunu etməz. Gürcüstan, - yəni Ermənistanın ətrafında olan ölkələri deyirəm, - öz başının hayındadır. Azərbaycanın da ərazisinin 20 faizini Ermənistan işğal edibdir. Belə bir halda Ermənistanda bu qədər hərbi bazaların saxlanmasının nə əhəmiyyəti var? Gürcüstanda hərbi bazaların saxlanmasının nə əhəmiyyəti var? Mən bu barədə öz fikrimi, etirazımı demişəm.

Ancaq onlar öz işlərini görürlər. Son iki ayda məlum olubdur ki, Rusiyadan Ermənistana axırıncı üç il ərzində 1 milyard dollar dəyərində ağır silahlar veriblər. T-72 tankları, - bunlar ən müasir tanklardır, - zirehli maşınlar, toplar, raketlər, çox uzaqvuran raketlər, - o raketlər ki, Kiprə vermişdilər, ona görə siz Türkiyədə hay-küy qaldırdınız, - və başqa çox güclü atəş açan silahlar veriblər. Bu yaxınlarda məlumat alınıb ki, hətta kimyəvi silahlar da verilib. Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verməsi Rusiyanın dövlət orqanları, Müdafiə Nazirliyi tərəfindən, Rusiyanın parlamentində Müdafiə Komitəsi var, onun apardığı araşdırmadan təsdiqlənir. Bu məsələ Rusiyanın parlamentində də müzakirə olunub və prokurorluğa verilib ki, yoxlanılsın, yəni bunu kim edib, kimi cəzalandırmaq lazımdır.

Məhz bu məsələ ilə əlaqədar Azərbaycan çox narahat olubdur, bilin. Çünki əgər Ermənistana o qədər silah gətiriblərsə, bu, təkcə Azərbaycanı yox, bütün bölgəni dağıda bilər. Mən Rusiyanın Prezidenti Boris Yeltsinə üç dəfə məktub yazmışam və martın 28-29-da Moskvada Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin dövlət başçılarının toplantısında, həm də təkbətək görüşdə demişəm ki, siz nə iş görürsünüz və rica etmişəm ki, tezliklə o silahları oradan çıxarsınlar və Rusiya ərazisinə gətirsinlər.

Beləliklə, Ermənistan burada böyük təhlükə yaradır. Təkcə Azərbaycan üçün yox, bütün Qafqaz üçün, bölgə üçün təhlükə yaradır. Güman edirəm ki, siz də buna heç vaxt biganə qalmamalısınız. Mən bu məlumatı, bilgiləri sizə verməyi özümə borc bilirəm. Çünki, yenə də deyirəm, Azərbaycanın problemi həmişə sizin probleminiz olub, ona görə sizə bir daha təşəkkürümü bildirirəm. Amma eyni zamanda baş verən hadisələr və Qafqaz bölgəsində olan ayrı-ayrı dövlətlərin bir-birinə hərbi cəhətdən yaxınlaşması bu bölgədə yeni bir şərait yarada bilər. Ona görə də düşünmək lazımdır. Hesab edirəm ki, bu məlumatlardan lazımi nəticələr də çıxarmaq gərəkdir.

Biz öz tərəfimizdən çalışırıq və bundan sonra da çalışacağıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Mən İstanbulda çıxış edəndə bəyan etdim və bu gün də Türkiyə Böyük Millət Məclisinin qarşısında bəyan edirəm ki, Ermənistanla böyük sülh müqaviləsi bağlanana qədər Azərbaycan üç il bundan öncə imzalanmış atəşkəs rejimini qoruyub saxlayacaq və ona sadiq olacaqdır. Bu, bizim sülhsevər olmağımızı göstərir. Bu göstərir ki, biz başqa ölkənin torpağına iddia etmirik. Baxmayaraq ki, Ermənistanın torpaqlarının çoxu Azərbaycana mənsub olub, amma biz bunu iddia etmirik. Biz 1991-ci ildə Azərbaycan və Ermənistan dövlət müstəqilliyini alarkən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş sərhədlər daxilində Azərbaycanın ərazi bütövlüyünü qorumağa və təmin etməyə çalışırıq. Biz Ermənistanın torpağına iddia etmirik, ancaq öz torpağımızın bir qarışını, bir metrini də heç kəsə verməyəcəyik.

Güman edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün siz bundan sonra da Türkiyənin bütün imkanlarından istifadə edəcəksiniz və biz birlikdə buna nail olacağıq. Çünki Qafqazda sülh, bölgədə sülh ümumiyyətlə hamıya lazımdır. Mən bu gün yenə də böyük Mustafa Kamal Atatürkün sözlərini xatırlayıram: Cahanda sülh, yurdda sülh, bölgədə sülh.

Mən bəlkə də sizi yordum. Yorsam da, yormasam da danışmışam. Nəhayət, **mən yenə də Türkiyə-Azərbaycan dostluğu haqqında bir neçə söz demək istəyirəm. Bu dostluq əbədidir, sarsılmazdır. Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Çünki Türkiyə də demokratik cümhuriyyətdir, burada demokratik prinsiplər geniş tətbiq olunubdur. Türkiyənin böyük demokratiya təcrübəsi var. Türkiyənin cümhuriyyət, demokratik dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir. Cümhuriyyət tarixinizdə keçdiyiniz yol da, dövlət quruluşunuz da, demokratiyanız da, qanun-qaydalarınız da bizim üçün örnəkdir. Ona görə də biz Türkiyənin bu yolla getməsini arzulayırıq.**

Biz Azərbaycanda ümidvarıq ki, Türkiyə daim bu yolla gedəcək, Mustafa Kamal Atatürkün vəsiyyətlərinə daim əməl edəcək, gündən-günə dünyanın ən qüdrətli, ən inkişaf etmiş, ən dünyəvi dövlətlərindən biri olacaqdır.

Diqqətinizə görə təşəkkür edir, sizinlə bu görüşdən çox məmnun olduğumu bildirirəm. Sizə və Türkiyə xalqına bir daha, bir daha Azərbaycan xalqının sevgi və məhəbbətini çatdırıram. Sağ olun.

Türkiyənin tanınmış jurnalistlərinə Prezident Heydər Əliyevin verdiyi musahibə

Ankara. 6 may 1997-ci il

Mən sizi salamlayıram. Əslində bu gün mən keçirilən tədbirlərdə çox danışmışam və bu tədbirlərdə siz də iştirak etmisiniz. Onlara əlavə etməyə bir şey yoxdur. Bu gün siz Türkiyə Böyük Millət Məclisində olmusunuzsa, orada mən çox məsələlər haqqında danışdım, istədiklərimi dedim. Ona görə də mən Türkiyəyə nədən ötrü gəldiyim, Azərbaycan-Türkiyə əlaqələri barədə danışmayacağam, çünki siz bunları artıq bilirsiniz. Nə sözünüz varsa, buyurun, mən sizi dinləyirəm.

Sual: Cənab Prezident, dünən Azərbaycanla Türkiyə arasında bir çox sənədlər imzalandı, o cümlədən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə" imzalandı. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Bu, çox əhəmiyyətli bir bəyannamədir. Çünki bu, Azərbaycan-Türkiyə əlaqələrinin strateji xarakter daşıdığını göstərir. Yəni, biz artıq strateji partnyoruq. Bunun həm Türkiyə, həm də Azərbaycan üçün məsuliyyəti böyükdür. Eyni zamanda biz dünyaya da bildiririk ki, Azərbaycan ilə Türkiyənin əlaqələri xüsusi xarakter daşıyır. Yəni bu əlaqələr bu gün, sabah üçün deyil, daimidir. Şübhəsiz ki, bu, eyni zamanda bir çox məsələlərdə həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq aləmdə baş verən məsələlərdə eyni mövqedə olmasını, məsləhətlər aparmağımızı və bir-birimizə dəstək verməyimizi də nəzərdə tutur. Ona görə də bu bəyannamə indiyə qədər

imzalanmış sənədlərə rəğmən Azərbaycan-Türkiyə əlaqələrini daha da yüksəklərə qaldırır.

Sual: Cənab Prezident, bu bəyannamə iki ölkədən birinin savaşa girməsi zamanı onların bir-birinə dəstək verməsini nəzərdə tuturmu?

Cavab: Bəyannamədə bu məsələ nəzərdə tutulmur. Bunun üçün əsgəri iş birliyi anlaşması lazımdır. Bu gün mən Böyük Millət Məclisində söylədim, ancaq sizə bir daha bildirmək istəyirəm ki, məsələn, Rusiya ilə Ermənistan arasında əsgəri iş birliyi anlaşması vardır. Bu əsgəri iş birliyi anlaşmasında onlar öz üzərlərinə vəzifə götürüblər. Əgər bir ölkəyə hücum və ya başqa bir hadisə olsa, o biri ölkə ona yardım edəcəkdir. Mən bilmirəm ki, Ermənistan Rusiyaya nə yardım edəcəkdir? Amma Rusiyanın Ermənistana nə yardım edəcəyi aydındır, məlumdur.

Bizim imzaladığımız bəyannamədə isə belə bir maddə yoxdur.

Sual: Hörmətli Prezident, bu anlaşmadan sonra əsgəri bir anlaşma imzalana bilərmi və bunu necə qiymətləndirirsiniz?

Cavab: Ola bilər.

Sual: Siz buradakı danışıqlarınızda əsgəri bir anlaşmanın bağlanması barədə müzakirələr apardınızmı?

Cavab: Bilirsiniz, biz çox məsələlər haqqında danışmışıq. Amma bir halda mən dedim ki, ola bilər, bu hər şeyə cavab verir.

Sual: Bu bəyannamə ilə əlaqədar gələcəkdə daha bir sənədin imzalanması nəzərdə tutulurmu?

Cavab: Bu bəyannamənin özü çox uzunmüddətlidir. Yəni onun vaxtı yoxdur, daimidir. Ola bilər, iş birliyimiz, strateji tərəfdaşlığımız daha da dərinləşsin və müəyyən bir zamandan sonra bu anlaşmanı daha da dərinləşdirən bir sənəd imzalayaq. Bu, ola bilər. Ancaq indiki zaman üçün bu, bizi təmin edir.

Sual: Cənab Prezident, indi Türkiyə qəzetlərində Türkiyənin Ermənistana dair siyasətində bir yumşalma müşahidə edilməsi, Yerevan-Trabzon xəttində təyyarələrin uçması barədə yazılar dərc olunur. Həmin yazılarda Türkiyə iş adamlarının Ermənistanla ticarət əlaqələrindən də söhbət açılır. Siz bu barədə, ikincisi isə Bakı-Ceyhan neft kəməri və Rusiya ilə münasibətləriniz barədə nə deyə bilərsiniz?

Cavab: Birinci sualınız çox maraqlı sualdır. Bu gün sadəcə, vaxtım olmadı. Yəni, mənim Türkiyə Böyük Millət Məclisindəki çıxışım bir saatdan çox oldu, ona görə də istəmədim ki, millət vəkillərinin vaxtını çox alım. Amma bu məsələ fikrimdə idi ki, onu söyləyim. Sadəcə, vaxt çatmadı. Amma indi bu fürsətdən istifadə edib demək istəyirəm ki, Türkiyədə bəzi dairələr ticarəti hər şeydən üstün tuturlar. Amma heç bilmirlər ki, ticarət nə nəticə verəcəkdir. Yəni, Türkiyə ilə Ermənistan arasındakı ticarət bir qazanc gətirəcək deyə, Ermənistanla Türkiyə arasındakı sərhədlərin açılması, sərhəd rejiminin yumşaldılması və başqa bu kimi hərəkətlər meydana çıxır. Mən hörmətli xanım Tansu Çillərə söylədim ki, bir il və ya ondan da əvvəl siz məsələni belə qoydunuz ki, "H-50" hava yolunu açandan sonra Ermənistana təsir etmək üçün bizim əlimizdə bir əsas olacaqdır və Ermənistan da yumşalacaqdır, bu da ümumi işə yardım edəcəkdir. Biz buna razı deyildik. Amma Türkiyə bunu istədi və biz də inandıq ki, bəli, doğrudan da belədir. Amma bu hava yolunu açdınız, nə oldu? Birincisi, bəs bu əsas haradadır, ondan nə üçün istifadə etmirsiniz? İkincisi, Ermənistanın yumşalması baş verdimi? Olmadı, yoxdur. Ona görə də indi Ermənistanla Türkiyə arasında ticarət əlaqələri lazımdırmı?

Yerevandan Trabzona təyyarələr uçur. Bunu biz sizin qəzetlərdən bilirik. Sizin qəzetləriniz bunu yazdı, biz də Bakıda bunu bildik. Biz bu barədə Türkiyə hökumətinə öz etirazımızı bildirdik. Mən dünən də bu barədə danışdım. Söyləyirlər ki, bu, özəl uçaqdır, təyyarədir. Amma indi uçaqların hamısı özəldir. İndi hansı uçaq dövlətindir? Bir də ki, fərqi nədir - özəldir, ya qeyri-özəldir?

Ona görə də bu cür hərəkətlər bizi çox rahatsız edir. Bir il bundan əvvəl də belə şeylər, Ermənistanla Türkiyə arasında sərhədin açılması məsələsi olmuşdu. Məsələn, Gürcüstanın Xarici İşlər naziri bir-iki ay bundan əvvəl Azərbaycana gəlmişdi. O söyləyirdi ki, guya Türkiyə deyir ki, Gürcüstanla Türkiyə arasındakı sərhəddə iki qapı var, üçüncüsünü də açmaq lazımdır. Bunu Türkiyə istəyir. Nə üçün? Çünki həmin üçüncü qapı Gürcüstanın ermənilər yaşayan sərhədindədir. Demək, bu, ermənilərə lazımdır. Mən gürcülərdən soruşdum ki, iki qapı sizə yetərlidirmi? Dedilər ki, bizə yetərlidir, üçüncü bizə lazım deyil. Amma bunu bizdən Türkiyə istəyir, biz də sizinlə məsləhətləşirik, soruşuruq - sizin fikriniz necədir? Biz buna etiraz etdik. Bilmirəm, bizim etirazımız qəbul olundu, yoxsa yox.

Bilirsiniz, Türkiyədə heç bir şeyi unutmayın. Mən Türkiyədəki bütün qardaşlarıma, bacılarıma deyirəm ki, bunu unutmayın. Bu gün mən Türkiyə Böyük Millət Məclisində də dedim. Kimsə, hansısa tacir nəsə qazanacaq, qazanmayacaq, - Allah bilir. Ancaq milli mənafeyi, bizim böyük milli işlərimizi ona qurban vermək olmaz. Yaxud, bəzi tacirlər deyirlər ki, "Onsuz da Türkiyənin mallarını İran alır, aparıb Ermənistanda satır, qazanır. Biz özümüz satarıq, özümüz da qazanarıq". Birincisi, biz bunu araşdırdıq. Bu, doğru deyil. Türkiyənin bəzi şirkətləri gizli olaraq Gürcüstanın üstündən Ermənistanla ticarət edirlər. Ancaq öz işlərini gizlətmək üçün bu yalanı ortaya atıblar ki, guya onu İran alıb, aparıb Ermənistanda satır. İrana, İran tacirlərinə Türkiyə mallarını alıb aparıb Ermənistanda satmaq la-

zım deyil. Çünki İranın özünün çox malı var və o malı da Ermənistanda gen-bol satır. İran ilə Ermənistan arasında əlaqələr indi o qədər açılıb, genişlənib, o qədər güclənibdir ki, bu iki ölkə arasındakı 40 kilometrlik kiçik sərhəddə qısa müddətdə böyük bir körpü tikiblər, həmin körpüdən İranın gündə 100 yük maşını keçir. İranlılar Ermənistanın bütün bazarlarını malla doldurublar. Ona görə də iranlıya lazım deyil ki, Türkiyə malını aparıb Ermənistanda satsın. O öz malını aparıb satır.

Bax, bu cür hərəkətlər bizi çox incidir. Mən hörmətli Prezident Süleyman Dəmirələ də, hörmətli Baş nazir Nəcməddin Ərbakana da, hörmətli xanım Tansu Çillərə də bu barədə fikirlərimizi bildirmişəm, bu gün sizə də bildirirəm. Türkiyənin ictimaiyyətinə bildirmək istəyirəm ki, onlar gərək Ermənistana belə güzəştlər edilməsinə heç vaxt imkan verməsinlər.

Əgər Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsa və Azərbaycanın 1 milyondan artıq vətəndaşı - sizin bacılarınız, qardaşlarınız, türklər öz yerlərinə-yurdlarına qayıtsa, əgər Ermənistan öz torpaq iddialarından, o cümlədən Türkiyəyə olan torpaq iddialarından geri çəkilsə, onda şübhəsiz ki, Ermənistanla da bir normal ticarət əlaqələri yaratmaq olar. Mən bunu inkar etmirəm. Hesab etmirəm ki, hər şeyi ömürlük qapamaq lazımdır. Ancaq bir halda ki, Ermənistan bu cür hərəkət edir, onun müqabilində Türkiyə tərəfindən ona münasibəti yumşaltmaq, onu açmaq, orada bir kozır əldə etmək siyasəti nəticəsiz siyasətdir.

Sən ikinci sual da vermişdin, - Bakı - Ceyhan boru xətti barədə. Bilirsiniz, Rusiyanın təsiri barədə fikirləri siz unudun. Bizim üzərimizdə Rusiyanın təsiri yoxdur. Rusiyanın bizim üzərimizə basqısı, hər şeyi var. Biz müstəqil dövlətik, amma bizim üzərimizə basqı yapırlar. Şübhəsiz ki, 1994-cü ildə biz ilk müqaviləni imzalayanda başımıza nə işlər gətirdilər - bizim insanlara terror etdilər, öldürdülər. Rusiyanın kəşfiyyat orqanları bizim həbsxanalardan dörd cinayətkarı çıxardılar, apardılar. Çox işlər gördülər.

Bakı-Ceyhan xətti barədə mən hər yerdə demişəm, bu gün Böyük Millət Məclisində bir daha demişəm. Bizim istəyimiz odur, onu da edəcəyik. Biz çox şeyləri demişik, istəmişik, hə- yata da keçirmişik. Bunu da həyata keçirəcəyik.

Sual: Hörmətli Prezident, Dağlıq Qarabağda müstəqillik elan ediblər. Buna necə baxırsınız?

Cavab: Dağlıq Qarabağın müstəqilliyi ola bilməz.

Sual: Amma ermənilər bunu istəyir?

Cavab: Ermənilər ancaq bunu istəyirlər.

Sual: Cənab Prezident, əgər Dağlıq Qarabağın müstəqilliyi defakto elan edilsə, Azərbaycanın taleyi nə ola bilərə?

Cavab: De-fakto bu müstəqilliyi indi də yaradırlar. An-caq bunu heç kəs tanımır. Onlar da məsələnin bu cür bitdiyini hesab etmirlər.

Sual: Əgər onlar bu işə cəhd göstərərlərsə?

Cavab: Bunu gələcək göstərəcək.

Sual: Hörmətli Prezident, Siz bütün çıxışlarınızda Mustafa Kamal Atatürkün Türkiyə xalqı qarşısındakı xidmətlərini bir daha yüksək qiymətləndirdiniz. Atatürkün adını tez-tez çəkməyiniz nə ilə əlaqədardır?

Cavab: Bilirsiniz, mən XX əsr tarixinin çoxunu şəxsən yaşamışam. XX əsr sona çatır. Bu dövrdə mən Türkiyənin həyatını izləmişəm, Azərbaycanın həyatı mənim həyatım olubdur, mən bu tarixi yaxından hiss etmişəm, görmüşəm, oxumuşam. Mən öz fikirlərimi söyləyirəm. Mən Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, onun keçdiyi yol barədə sadəcə olaraq öz fikirlərimi deyirəm. Mən bu ölkəyə gəlmişəm, gərək bu ölkənin tarixi, keçmişi, bu günü, gələcəyi haqqında öz fikirlərimi söyləyəm. Mən dostam, qardaşam. Mustafa Kamal Atatürk haqqında dediklərim sözlər yetərlidir. Əgər istəyirsiniz, yenə də deyim.

Sual: Türkdilli respublikalar, o cümlədən Azərbaycan öz müstəqilliyini qazananda demişdilər ki, Türkiyə Cümhuriyyətini model kimi götürəcəklər.

Cavab: Bəli, bunu mən bu gün də söyləmişəm. Amma bu o demək deyildir ki, bu modeli olduğu kimi götür, istifadə et. Yəni buradakı təcrübədən hansı Azərbaycana uyğundursa, münasibdirsə, biz onu götürürük, qəbul edirik. Türkiyə ilə Azərbaycan nə qədər yaxın olsa da, bizim fərqlərimiz də var. Bilirsiniz, Türkiyəni götürün: Osmanlı imperatorluğu olub, o dağılıb, dağılmış imperatorluğun yerində Türkiyə Cümhuriyyəti qurulub. Türkiyə Cümhuriyyəti də 70 ildən çoxdur yaşayır. Amma XX əsrdə Azərbaycanın başına nə işlər gəlibdir? XIX əsrin əvvəlində Azərbaycan Rusiyanın istilası altına düşüb. Sonra - XX əsrin əvvəllərində Rusiyada Oktyabr inqilabı oldu. Bu inqilabdan sonra Rusiya dağıldı, yeni bir dəyişiklik əmələ gəldi.

Azərbaycan bu fürsətdən istifadə edib 1918-ci ildə demok-ratik bir cümhuriyyət yaratdı. Ancaq bu cümhuriyyət çox yaşamadı. Çünki Rusiyada yaranmış Sovet hakimiyyəti keçmiş çar imperatorluğunun bütün ərazisinə yayıldı. Ona görə də Azərbaycan Sovetlər Birliyinin içində qaldı. 70 il biz belə olduq. 70 ildən sonra müstəqilliyimizi əldə etdik. Müstəqil-liyimizi hansı şərtlər içində əldə etdiyimizi mən bu gün Böyük Millət Məclisindəki nitqimdə dedim. Bunu təkrar etməyə ehtiyac yoxdur.

Yəni, XX əsrdə Türkiyənin, Azərbaycanın tarixinin nədən ibarət olması arasında fərq çoxdur. Bunlar bir-birindən çox fərqlənir, elədirmi? Ona görə də Türkiyə cümhuriyyət,

demoк-ratiya, insan hüquqları və digər ümumbəşəri dəyərlərin hansından кi, istifadə edibdir və çox yaxşı nəticələr əldə edibdir. Bunları bizim Türкiyədən götürməyimiz daha faydalıdır, nəinкi, Almaniyadan, Fransadan götürməyimiz. Çünкi **Türкiyə ilə Azərbaycan eyni millətdir, eyni dinə, ənənələrə malik olan bir xalqdır.** Türкiyə bu demoкratiya yolunu кeçibdir, biz də onu götürürük. Amma hansı yerə qədər, necə demoкratiyanı? - bu, sizdə bu cür, bizdə başqa cür ola bilər. Heç siz də iddia etməyin кi, sizdəкi demoкratiya gəlib Azərbaycanda da eyni olmalıdır.

Sual: Cənab Prezident, bəs dünyəvilik baxımından necə?

Cavab: Əlbəttə, şübhəsiz кi, bu mütləq olmalıdır. Biz bunu bəyan etmişik. Biz müstəqilliyimizi əldə edən кimi bəyan etmişik кi, Azərbaycanda demoкratiк, hüquqi, dünyəvi, yəni layiqli dövlət quruculuğu gedir. Bu, bizim əsas prinsipimizdir. Bu prinsip bizim üçün dəyişməzdir. Siz bunu dəyişdirirsiniz, yoxsa necə?

Sual: Cənab Prezident, Türкiyə qəzetləri vaxtilə Azərbaycanda dövlət çevrilişinə olmuş cəhdlər barədə çoxlu yazılar dərc edirlər. Siz də Böyüк Millət Məclisindəкi nitqinizdə bu barədə geniş danışdınız və Azərbaycandaкı bu çevriliş cəhdlərində Türкiyə vətəndaşlarının da iştiraк etdiyini söylədiniz. Siz nitqinizdə həmçinin dediniz кi, həmin adamlar söyləmişdilər кi, Türкiyəyə gedəndən sonra səssizcə oturacaqlar. Ancaq onlar tez-tez televiziyaya çıxıb həmin çevriliş cəhdləri barədə müsahibələr verirlər. Siz buna necə baxırsınız?

Cavab: Böyüк Millət Məclisindəкi çıxışımda mən bu barədə bütün fiкirlərimi səmimi olaraq dedim. Güman edirəm кi, hөкumət adamları hamısı orada idi.

Sual: Cənab Prezident, Siz Türкiyə iş adamlarının Azərbaycana sərmayə qoymasının vəziyyətindən razısınızmı? Türкiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inкişaf etdirilməsi üçün bir çox layihələr mövcuddur. Amma əslində Azərbaycanda Türкiyənin böyüк şirкətləri yoxdur. Olanların hamısı кiçiк və orta özəl şirкətlərdir. Ona görə də bir çoxları ölкələrimiz arasındaкı iqtisadi əlaqələrin lazımi səviyyədə olmadığını söyləyirlər. Siz bunu doğru hesab edirsinizmi?

Cavab: Xeyr, doğru deyil. Azərbaycanda Türкiyənin böyüк şirкətləri yoxdur. Respublиkamıza Türкiyənin əsasən кiçiк və orta şirкətləri gəlirlər. Ancaq böyüк şirкətlərin nə üçün gəlmədiyini bilmirəm. Doğrudur, biz neft müqavilələrimizdə "Türкiyə petrolları" şirкətinə yer verdiк. Bu başqadır. Amma böyüк şirкətlər gəlib respublиkamızda iş görmürlər. Nə üçün görmürlər, deyə bilmərəm.

Sual: Cənab Prezident, Siz bunun səbəbini bu günlərdəкi danışıqlarınızda soruşmadınız?

Cavab: Mən bunu dəfələrlə söyləmişəm. Amma bu şirкətlər hөкumət dairələrinə tabe deyillər, onların hər biri sərbəstdir.

Sual: Məgər dövlət onlara təsir göstərə bilməz?

Cavab: Bəli, təsir edilə bilərsə, edilsin. Güman edirəm, bu şirкətlər çox səhvə yol verirlər. Mən bilirəm кi, onlar başqa ölкələrə daha çox gedirlər. Məsələn, Türкmənistana, Orta Asiyanın başqa ölкələrinə daha çox sərmayə qoyurlar. Amma onlar Azərbaycana sərmayə qoymurlar. Nə üçün, bilmirəm.

Sual: Türкiyənin böyüк şirкətləri iddia edirlər кi, guya Azərbaycanda onların fəaliyyət göstərməsi üçün hüquqi baza yoxdur. Onların iddiaları var. Siz bunu doğru hesab edirsinizmi?

Cavab: Doğru deyil, Azərbaycanda hər şey var. Azərbaycanda hüquqi baza, qanunlar, bütün şərait var. Amma кim gəlmirsə, uduzur. Eybi yoxdur, bu gün gəlməsə də, sonra gələcəк.

Sual: Cənab Prezident, Türкiyə Azərbaycan barədə öz üzərinə götürdüyü öhdəliкləri yerinə yetirirmi? Hiss edilir кi, Türкiyədən incimisiniz...

Cavab: Mən nə vaxt dedim кi, incimişəm? Siz onu necə hiss etdiniz?

Sual: Bundan qabaqкı görüşlərinizdən biz bunu hiss etdiк. Yəni deməк istəyirəm кi, Siz Türкiyənin Ermənistana qarşı münasibətinin yumşalmasından incimisinizmi?

Cavab: Bəli, Ermənistana münasibət məsələsində həqiqətən incimişəm. Mən bunu açıq deyirəm. Çünкi bəzi vəzifəli adamlar belə şeylər söyləyirlər. İndi də mən xəbərdarlıq edirəm кi, belə şeylərə yol verilməsin.

Sual: Siz Türкiyədən iqtisadi yardım istəmisiniz. Türкiyə bu yardımı ayıracaqmı?

Cavab: Bilirsiniz, yardım etmirlər. Mən söylədim кi, son üç ildə Rusiya Ermənistana bir milyard dollar dəyərində silah veribdir. Amma təкcə silah deyil. Ermənistanda böyüк bir atom eleкtriк stansiyası vardı. 1990-cı ildə onu bağladılar. Çünкi Uкraynanın Çernobıl şəhərindəкi atom eleкtriк stansiyasında böyüк bir fəlaкət oldu. Çernobıl faciəsindən 11 il кeçib, amma insanlar indiyə qədər şiкəstdirlər, əlildirlər. Buna görə bu, təhlüкəli bir şeydir. Ermənilər 1990-cı ildə atom eleкtriк stansiyasını tamam bağladılar. Amma sonra, iкi il bundan əvvəl Rusiyadan həm böyüк maliyyə, həm də texniкi yardım verdilər, onların mütəxəssisləri, alimləri gəlib həmin atom eleкtriк stansiyasını bərpa etdilər, işə saldılar.

Bu atom eleкtriк stansiyası, ümumiyyətlə Ermənistan üçün də, Türкiyə üçün də təhlüкəlidir. Bunu bilin, əgər orada bir qəza baş versə, Türкiyənin yarısı gedəcəкdir. Ona görə də mən hesab edirəm кi, Türкiyə buna etiraz etməlidir. Ancaq Rusiya bu stansiyanın işə salınmasına көməк edir. Rusiya başqa şeylər də edir.

1992-ci ildə Amerika Azərbaycana qarşı embarqo qoyubdur, Konqres qərar çıxarıbdır. Orada qanuna bir 907-ci düzəliş var ki, guya Azərbaycan Ermənistanı blokadaya aldığına görə ABŞ-dan Azərbaycana yardım qadağandır. Heç bir yardım yoxdur. Amma Amerikanın qanununa görə keçmiş Sovetlər Birliyinə mənsub olmuş, indi müstəqil ölkələr olan dövlətlərə Amerika yardım edir. Amerika Ermənistana daha çox yardım edir, amma Azərbaycana yardım etmir. Yenə də deyirəm, oradan Amerika Azərbaycana embarqo qoyubdur, yardım etmir. Amma Ermənistana yardım edir; oradan Rusiya Ermənistana həm bir milyard dollar dəyərində silah verir, həm də başqa yardımlar edir. Amma Azərbaycana heç kəs, Türkiyə də yardım etmir. Mən bunu söylədim.

Sual: Siz yardım almaq barədə müraciət etdiniz, nə cavab aldınız?

Cavab: Söylədilər ki, bu məsələyə baxacaqlar.

Sual: Cənab Prezident, deyirlər ki, "Eksimbank" Azərbaycana krediti artıracaq. Bu doğrudurmu?

Cavab: Bilirsinizmi, "Eksimbank"ın krediti bizim başımıza bir bəla olubdur. Biz 71 milyon kredit almışıq. Onun da çox hissəsini buğdaya vermişik. Azərbaycanın çörəyə ehtiya-cını ödəmək üçün buğda gətirilməli idi. İndi biz o krediti geri qaytara bilmirik. Son iki ildə 7 milyon dollar faiz vermişik. Əgər krediti geri qaytara bilməsək, biz 2000-ci ilədək 20 milyon dollar faiz verəcəyik. Krediti də qaytara bilmirik. Mən o vaxt Azərbaycana gec gəldim. Bu, mənim Azərbaycana rəhbərlik etdiyim vaxtdan əvvəl alınan kreditdir. Mən bilsəydim belə olacaq, heç bu krediti də almazdıq, necə olsa yaşayacaq-dıq.

Sual: Məgər bu kreditin vaxtı uzadılmayıb?

Cavab: Onun vaxtının uzadılmasını neyləyirəm? Biz bu krediti almışıq, amma onu geri qaytara bilmirik. Belə kredit mənə nədən ötrü lazımdır? Belə kredit lazım deyil.

Sual: Cənab Prezident, neftə görə indi Qərb ölkələrinin, xüsusən Amerika Birləşmiş Ştatlarının Azərbaycana böyük marağı vardır. "AMOKO", "Britiş petroleum" və digər nüfuzlu şirkətlər Azərbaycanda fəaliyyət göstərir. Ermənistan-Azərbaycan münaqişəsi aradan qaldırılmadığına görə bəzi adamlar fikirləşir ki, bu cür böyük neft şirkətləri nə üçün öz ölkələrinin başçılarına və müxtəlif dairələrə bu münaqişənin həlli ilə əlaqədar təsir göstərmirlər? Əgər gələcəkdə Azərbaycan işğal olunmuş torpaqları müharibə yolu ilə azad etmək istəsə, bu neftin taleyi necə olacaqdır?

Cavab: Bilirsiniz, sizin bu sualınız "O belə olsa, bu belə olacaq, bu belə olsa, o belə olacaq"dan ibarətdir. Bu suala sən özün cavab tap.

Sual: Cənab Prezident, Siz İstanbulda Ter-Petrosyanla 45 dəqiqəlik görüş keçirdiniz. Bu görüşün nəticəsi nə oldu?

Cavab: Görüşümüzün məqsədi odur ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli imkanını tapaq. Biz deyirik ki, bunun yolu Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərdir. Onlar bu prinsipləri qəbul etməyiblər. Amma nə istədiklərini bilmirəm. Ola bilər, Ter-Petrosyanla yenə görüşüm. Güman etməyin ki, hər görüşdən böyük bir nəticə ola bilər. Bu o qədər mürəkkəb, o qədər çətin məsələdir ki, bir-iki görüşlə heç bir nəticə almaq olmaz. Amma görüşmək lazımdır.

Sağ olun!

Türkiyənin "Samanyolu" televiziyasına Prezident Heydər Əliyevin verdiyi müsahibə

Ankara. 6 may 1997-ci il

Sual: Cənab Prezident, bir neçə gündən sonra 74 yaşınız tamam olacaqdır. Bu münasibətlə Sizi təbrik edir, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Cənab Prezident, Siz Böyük Millət Məclisində çox tarixi bir nitq söylədiniz. Azərbaycan ilə Türkiyə arasındakı mövcud iqtisadi iş birliyindən razısınızmı?

Cavab: Bilirsiniz, iş birliyindən mən məmnunam. Çünki - mən bunu Məclisdə də dedim - son üç ildə Türkiyə ilə Azərbaycan arasında ticarət üç dəfə artıb. Ancaq mütləq rəqəmi götürəndə bu, o qədər də böyük deyil. Mən bu artımdan məmnunam, amma hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır. Biz də öz tərəfimizdən çalışmalıyıq. Mən Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm, gəlsinlər, respublikamızın imkanlarından istifadə etsinlər. Onlar bir çox ölkələri gəzirlər, amma qonşuluqda yerləşən və Türkiyə üçün ən yaxın dost olan Azərbaycanı unudurlar. Mən onları Azərbaycana dəvət edirəm.

Sual: Dünyanın hər yerində yaxşı bilirlər ki, Azərbaycanda iqtisadi əlaqələr üçün çox geniş imkanlar, zəngin neft yataqları vardır.

Cavab: Bəli, Qərb ölkələrindən bizə çox böyük şirkətlər gəlib.

Sual: Bəs Türkiyədən?

Cavab: Türkiyədən böyük şirkətlər Azərbaycana gəlmir.

Sual: Cənab Prezident, indi Türkiyədə xeyli azərbaycanlı tələbə təhsil alır. Son illər Azərbaycanda xeyli türk təhsil ocaqları fəaliyyətə başlamışdır. Azərbaycan dövləti bunu necə qiymətləndirir?

Cavab: Mən həmişə buna dəstək vermişəm və bu gün də dəstək verirəm. Mən güman edirəm ki, bunlar Azərbaycan - Türkiyə dostluğunun və əməkdaşlığının inkişaf etməsinə kömək edəcəkdir.

Sual: Cənab Prezident, neft kəmərləri haqqında Sizə çoxlu sual

verilib. İcazə versəniz mən də "Samanyolu" televiziyası adından Sizə bir sual verərdim. Sizcə, bu neft kəməri borusunun Türkiyədən keçməsi şansı böyük-dürmü?

Cavab: Mənim könlüm həmişə Türkiyə ilə birgədir. Ona görə də çalışacağam ki, bu kəmər Türkiyədən keçsin.

Sual: Cənab Prezident, Siz Gürcüstan və Ukrayna ilə strateji əməkdaşlıq barədə bəyannamə imzalamısınız. Bu bəyannamələrin Azərbaycan üçün faydası əsasən nədən ibarətdir?

Cavab: Bilirsiniz, biz Türkiyə ilə strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamə imzaladıq. Biz Gürcüstan və Ukrayna ilə də belə bir sənəd imzalamışıq. Bu, Azərbaycanın Gürcüstanla, Ukrayna ilə əlaqələrinin daha da genişləndirilməsi və gələcək üçün çox faydalıdır, əhəmiyyətlidir.

Sual: Hörmətli Prezident, bu gün cənab Süleyman Dəmirəl Sizə "Dövlət nişanı"nı təqdim etdi.

Cavab: Bu nişan Türkiyə Cümhuriyyətinin ən böyük mükafatıdır. Mən bu "Dövlət nişanı"nı çox böyük məmnuniyyətlə qəbul etdim. Türkiyə Cümhuriyyətinin, dövlətinin belə bir hörmətli nişanına layiq olmaq, şübhəsiz ki, böyük şərəfdir. Mən bunu fərəh hissi ilə qəbul edirəm. Hesab edirəm ki, bu, mənim xidmətlərimə verilən ən böyük qiymətdir, eyni zamanda Azərbaycan - Türkiyə dostluq əlaqələrinin yüksəlməsinə xidmət edir.

Sual: Son zamanlar Ermənistan sürətlə silahlanır. Ermənistanın belə sürətlə silahlanması təkcə Azərbaycan üçün təhlükəlidir?

Cavab: Təkcə Azərbaycan üçün təhlükəli deyil. Mən Böyük Millət Məclisində bu məsələ barədə ətraflı danışdım. Rusiyanın Ermənistana verdiyi 1 milyard dollar məbləğində silah təkcə Azərbaycanın əleyhinə işlətmək üçün deyil. Ümumiyyətlə Ermənistanda Rusiyanın böyük sayda əsgərlərinin və hərbi bazasının, silahlı dəstələrinin olması təkcə Azərbaycan üçün yox, o cümlədən Türkiyə üçün təhlükəlidir.

Sual: Ölkə xaricində, başda Azərbaycan olmaqla Türk dünyasında bizim xeyli tamaşaçımız vardır. "Samanyolu" televiziyası barədə nə deyə bilərsiniz?

Cavab: Sizə birinci növbədə uğurlar diləyirəm, bu televiziyanı yaradanlar bir neçə ildir ki, mənimlə yaxşı ünsiyyət qurublar. Mən bu televiziyanın yaradılmasına dəstək vermişəm, yardım etmişəm və bundan sonra da edəcəyəm. Sizə uğurlar diləyirəm.

Müxbir: Hörmətli Prezident, biz Sizi anadan olmağınız günü münasibətilə bir daha ürəkdən təbrik edir və sizə daha böyük uğurlar, möhkəm cansağlığı arzulayırıq.

Türkiyənin NTV televiziyasına Prezident Heydər Əliyevin müsahibəsi

Ankara. 6 may 1997-ci il

Sual: Cənab Prezident, bilirsiniz ki, Rusiya Ermənistana hər cür yardım göstərir, ona görə də Ermənistan-Azərbaycan münaqişəsi hələlik öz həllini tapmır. Rusiya Ermənistana gizli yolla silah verir. Bununla əlaqədar Azərbaycan ilə Türkiyə arasında bu sahədə bir iş birliyinin yaradılması faydalı deyildirmi?

Cavab: Bildiyiniz kimi, bu gün mən Böyük Millət Məclisində də söylədim, Ermənistanda Rusiyanın hərbi bazası, əsgəri dəstələri vardır. Bundan başqa Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi barədə anlaşma imzalanıbdır. Bu anlaşma artıq həm Ermənistanın, həm də Rusiyanın parlamentlərində təsdiq olunubdur. Rusiyanın rəsmi orqanlarında - Müdafiə Nazirliyində, parlamentin bir neçə komissiyası tərəfindən aparılan araşdırmalar nəticəsində hər şey aydın oldu, sənədlər tapıldı ki, Rusiya Ermənistana son üç il müddətində bir milyard dollar dəyərində ağır silahlar vermişdir.

Bu, təkcə Azərbaycan üçün yox, bütün bölgə, o cümlədən Türkiyə üçün çox təhlükəlidir. Mən bu gün Böyük Millət Məclisindəki nitqimdə də bunu anlatdım.

Sual: Cənab Prezident, bu səfəriniz zamanı belə bir anlaşma bağlanması barədə müzakirələr apardınızmı?

Cavab: Biz bu məsələni müzakirə etdik və gələcəkdə də müzakirə edəcəyik.

Sual: İkinci sualım iqtisadiyyatla əlaqədardır. Bir neçə il bundan əvvəl Türkiyənin "Eksimbank"ı Azərbaycana 250 milyon dollarlıq kredit açmışdı. Lakin bu kreditin çox az bir hissəsi ayrıldı. Bu kreditdən istifadə olunması üçün hansı layihələr vardır?

Cavab: Bilirsiniz, bu kredit açılmışdır. Lakin ondan istifadə edilməsi Azərbaycana heç bir xeyir verməmişdir. Bu vəsaitin 71 milyon dolları xərclənibdir. Onun böyük bir qismi o illər, yəni 1993-1994-cü illərdə - Azərbaycanda ağır vəziyyət olan vaxt buğda alınmasına sərf edilibdir. Demək, insanlara çörək vermək üçün buğda alınıb. Böyük bir qismi də o vaxt digər məsələlər üçün istifadə edilib. Amma respublikamız bu kreditdən elə bir fayda götürməmişdir. Bu krediti geri qaytarmaq imkanımız yoxdur. Amma biz 10 milyon dollar da onun faizini verməyə məcburuq. Demək, 71 milyon dollar götürmüşük. Əgər ondan bir şey qazansaydıq, başqa məsələ. Amma bir şey qazanmamışıq. Bu vəsait adamların çörəyə olan tələbatının ödənilməsinə xərclənib. Demək biz 10 milyon faiz ödəmişik, indi 71 milyon dollar da qalıb. Mən hörmətli Prezident Süleyman Dəmirəldən, Baş nazirin müavini, Xarici İşlər naziri xanım Tansu

Çillərdən, Baş nazir Nəcməddin Ərbakandan xahiş etdim ki, bu məsələyə baxsınlar. Bunu yardım kimi silsinlər. Böyük ölkələr başqa dövlətlərə nə qədər yardımlar edir.

Sual: Bu kreditin qalan hissəsi hansı şərtlərlə verilməlidir?

Cavab: Əgər qalan hissəsi də bu şərtlərlə veriləcəksə, bunu almaq heç lazım deyil. Çünki belə şərtlərlə biz nə edə bilərik?

Sual: Hörmətli Prezident, Yuxarı Qarabağ münaqişəsinin həlli ilə əlaqədar bəzi söhbətlər yayılır. Guya siz demisiniz ki, Yuxarı Qarabağ Ermənistan Silahlı Qüvvələrinin işğalından azad olunsa, Azərbaycanın ərazi bütövlüyü təmin edilsə, neft kəmərlərindən biri Ermənistanın ərazisindən keçə bilər. Siz necə baxırsınız, ermənilər bu şərtlə razılaşa bilərmi?

Cavab: Dağlıq Qarabağ Azərbaycan torpağıdır. İndi Ermənistan silahlı dəstələri oranı sadəcə olaraq işğal ediblər. Amma bu, Azərbaycan torpağıdır və Azərbaycanın torpağı olaraq qalmalıdır. Ancaq söhbət Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllindən gedir. Ötən ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşü keçirilmişdir. Orada bu məsələnin sülh yolu ilə həll edilməsinin əsas prinsipləri ATƏT-in üzvü olan 53 dövlət tərəfindən qəbul olunmuşdur. Bu prinsipləri təkcə Ermənistan qəbul etməmişdir.

Biz belə hesab edirik ki, münaqişə bu prinsiplər əsasında həll olunmalıdır. İndi ATƏT-in Minsk qrupunun üç həmsədri müəyyən edilibdir. Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa Azərbaycan və Ermənistanla birlikdə çalışmalıdırlar ki, bu prinsiplər həyata keçirilsin, tətbiq edilsin, beləliklə, bu məsələ sülh yolu ilə aradan qaldırılsın.

O ki qaldı neft boru kəmərinin Ermənistandan keçməsi məsələsi, buna baxmaq olar. Biz şübhəsiz ki, bunu Ermənistana hədiyyə kimi verə bilmərik. Böyük neft borusu elə bir məsələdir ki, bu kəmər hansı ölkənin ərazisindən keçsə, o ölkə daim qazanacaqdır. Ona görə də Ermənistana qazanc vermək üçün gərək Ermənistan da bunun müqabilində bir iş görsün. Bu məsələ müzakirə edilməlidir.

Sual: Ermənistan-Azərbaycan münaqişəsinin həllində Türkiyənin səylərini necə qiymətləndirirsiniz?

Cavab: Türkiyə çalışır. Hörmətli Prezident cənab Süleyman Dəmirəllə biz Lissabonda çox sıx danışıqlar apardıq, məsləhətləşdik. Mən dünənki və bugünkü söhbətlərimdə də rica etdim ki Türkiyə bu məsələlərə daha çox diqqət yetirsin.

Sual: Cənab Prezident, Bakı-Ceyhan xətti çəkiləcəkmi? Azərbaycan nefti Türkiyəyə nə vaxt gəlib çatacaqdır?

Cavab: Bakı nefti mütləq Türkiyəyə gəlib çatacaq. Ola bilər, ilk neft bu istiqamətə, yəni Qara dənizdə Gürcüstanın Supsa limanına gələn ilin noyabr ayında gəlib çatsın.

Sual: Neft kəmərinin öz ərazisindən keçməsində yəqin ki, çox ölkələr maraqlıdırlar. Buna görə də Bakı-Ceyhan xətti gerçəkləşəcəkmi?

Cavab: Gerçəkləşəcəkdir.

Sual: Bilirsiniz, neft kəmərinin Türkiyədən keçməsi bizim arzumuzdur. Amma bu məsələdə müəyyən sıxıntılar da var. Rusiyanın bu məsələdə öz marağı var. Azərbaycan bu təsirin qarşısında dayana biləcəkmi?

Cavab: Əlbəttə, bunlar çətin işlərdir. Ümid edirəm ki, biz bu məsələnin həllini tapacağıq.

Sual: Cənab Prezident, Ankaraya rəsmi səfərinizdə nəzərdə tutduğunuz məsələlər öz həllini tapdımı? Parlamentdəki çıxışınızda mən Sizin Türkiyədən incidiyinizi anladım. Doğrudanmı siz Türkiyədən incimisiniz?

Cavab: Parlamentdəki nitqimdə mən hər şeyi açıq dedim ki, 1995-ci ilin martında Azərbaycanda ikinci böyük çevriliş cəhdi oldu. Yəni bu dövlət çevrilişi cəhdlərindən birincisi 1994-cü ilin oktyabr ayında olmuşdur, ikincisi ondan altı ay sonra, martda baş verdi. Parlamentdəki nitqimdə mən bu barədə çox geniş danışdım. Təəssüf ki, bu çevriliş cəhdinin hazırlanmasında və icra olunmasında Türkiyə vətəndaşları da iştirak etmişdilər. Yəni Türkiyə vətəndaşları bu çevrilişi edənlərdən olmuşdular. Çox təəssüf ki, Türkiyənin bir sıra vəzifəli şəxsləri də bu işdə iştirak etmişdilər.

1995-ci il martın 17-də dövlət çevrilişinə cəhd göstərənlər gecə hücum etdilər ki, Prezident sarayını zəbt etsinlər, prezidentə qarşı terror etsinlər. Biz bunun qarşısını aldıq. Şübhəsiz ki, bizim əsgəri hissələrlə onların arasında atışma oldu. Bəzi insanlar qırıldı. Nəhayət, sabahı gün oradan bəzi məktublar, kağızlar aşkar edildi. Məlum oldu ki, Azərbaycanda Fərman Dəmirqol kimi bir insan yaşayırmış. O, Türkiyədən gəlib, Türkiyə vətəndaşıdır. Xalq Cəbhəsinin hakimiyyəti dövründə onu gətirib parlamentdə müşavir vəzifəsinə qoymuşdular. Amma o, müşavirlik etməyibdir. Bəzi adamlar da ona çox dəstək veriblər, sonra da Azərbaycan Universitetinin müəllimi ediblər, amma müəllimlik də etməyibdir, sizdə bir TİKA təşkilatı var, eyni zamanda onun təmsilçisi olubdur. Türkiyənin böyük elçisi Altan Karamanoğlu hər ay Fərman Dəmirqola TİKA-nın maaşını verirmiş ki, guya o, TİKA-ya xidmət edir və maaş alır.

Çevriliş cəhdi ərəfəsindəki dörd-beş ay içərisində o, həmin polis polkovniki və digərləri ilə birlikdə bu çevrilişi hazırlamışdı. Onu hazırlayanlardan biri olmuş və hətta Türkiyəyə gəlib buradan bəzi təlimatlar almışdı. Sonra Naxçıvanın Kələki kəndinə getmişdi. Bilirsiniz ki, keçmiş respublika Prezidenti Əbülfəz Elçibəy 1993-cü ilin iyun ayında qaçandan orada, dağda yerləşən doğulduğu Kələki kəndində yaşayır. Gedib onunla görüşmüş, danışmışdı ki, çevriliş ediləcək, Heydər Əliyev terror

yolu ilə öldürüləndən sonra Azərbaycanda Dövlət Şurası yaradılacaqdır. Dövlət Şurasına bir neçə nəfər daxil olacaq, onun başında isə həmin polis polkovniki duracaqdır. Orada Əbülfəz Elçibəy də, Fərman Dəmirqol da yer alacaqlar, keçmişdə Azərbaycanda az bir müddət respublika Prezidenti olub - Ayaz Mütəllibov, o, beş il bundan öncə qaçıb və beş ildir Moskvada yaşayır - o da olacaqdır. Müsavat Partiyasının bir üzvü var, Tofiq Qasımov, o, Xalq Cəbhəsinin hakimiyyəti zamanı Azərbaycanda Xarici İşlər naziri olubdur. O da bu çevrilişin hazırlanmasında iştirak edibdir.

Onlar hazırlaşmışdılar ki, silahla, qan tökməklə, Azərbaycan Prezidentini terrorla qətlə yetirməklə hakimiyyəti ələ alsınlar. Fərman Dəmirqol da bunun ən fəal iştirakçılarından biri idi.

Amma biz bunu bilmirdik. Polis polkovnikinin şəhərdə bir bazası vardı, silahlı polis dəstəsini orada toplamışdı, çoxlu silahları da var idi. Mən bunu bilirdim. Ora şəhərin mərkəzində, yaşayış binalarının ortasında olan bir yer idi. Yəni orada atəş açılsa, həmin ərazidə yaşayan insanlara da çox zərər gətirə bilərdilər. O bazadakılar da bundan sui-istifadə edərək orada özlərini qoruyurdular.

Mən bilirdim ki, o polkovnik bu işlərlə məşğul olur və bir neçə dəfə danışmaq üçün dəvət etmişdim, bəzi adamlar gedib onunla danışmaq istəmişdilər. Onun atası da mənim yanıma gəlmişdi, atasına anlatdım ki, qoy bu cinayətdən əl çəksin. Atası da gedib onunla danışmışdı. O vaxt onun yanında çox adamlar vardı, amma mən bilirdim ki, Fərman Dəmirqol kimi bir adam da var.

Onlar yaxalanandan sonra bir çox sənədlər ortaya çıxdı, bunların arasında bir kağız da var idi, ondan göründü ki, Fərman Dəmirqol bu işdə iştirak edibdir. Ancaq bu zaman o, yaxasını qurtarıb oradan çıxa bilmişdi. Biz bir çoxunu həbs etdik, bəziləri həlak oldu, amma o qaça, gizlənə bilmişdi. Türkiyənin Azərbaycanda olan bəzi məmurları onu gizlətmişdilər. Sonra mənə müraciət oldu ki, Türkiyənin adının ləkələnməməsi üçün bu məsələ açılmasın və onu gizli olaraq Türkiyəyə verdik. Onda mən hesab etmirdim ki, bu məsələ açılmalı, yayılmalıdır. Çünki Türkiyə ilə Azərbaycan arasındakı dostluq əlaqələri bizim üçün hər şeydən üstündür. Əgər belə bir hadisə olmuşsa, biz onun qarşısını aldıqsa, zərərsizləşdirdiksə, bunu açıb Türkiyə-Azərbaycan əlaqələrini ləkələmək lazım deyildir. Mən belə fikirdəyəm.

Bu hadisə iki il öncə, 1995-ci ilin martında oldu. Bu adam buraya gəlib bir müddət yaşadı, amma sonra televiziyanın "32-ci gün" proqramında, qəzetlərdə rəsmi verdilər, elan etdilər. Ona görə mən bu gün deməyə məcburam. Mən demək, bildirmək istəmirdim. Ancaq bir halda Türkiyənin özündə hesab edirlər ki, bunu söyləmək olar, mətbuatda vermək

olar, - mən ona görə dedim. Amma o, tək deyil, orada Türkiyənin digər bir vətəndaşı da var - Kənan Gürel, - o, həbs edildi, məhkəmə oldu, cəza aldı, həbsxanadadır. Türkiyənin bəzi məmurları da bu işdə iştirak etmişlər.

Sual: Buna görə üzüntünüz varmı?

Cavab: Yox, keçdi-getdi, bitdi.

Türk xalqına sevgi-məhəbbətimi bildirmək istəyirəm. İki gündür ki, mən burada, Ankaradayam. Mənə və mənimlə bərabər buraya gələn Azərbaycanın təmsilçilərinə çox gözəl qonaqpərvərlik, çox hərarətli münasibət göstərilir. Bu günlər Türkiyə-Azərbaycan dostluq və qardaşlıq tarixinin yeni parlaq, gözəl səhifələri kimi tarixə daxil olacaqdır. Mən bundan çox məmnunam. Hər iki ölkənin xalqına səadət arzulayır, uğurlar diləyirəm.

Azərbaycan Prezidentinə "9 eylül" Universitetinin "Fəxri Doktor"u adı verilməsi mərasimində Prezident Heydər Əliyevin nitqi

İzmir. 7 may 1997-ci il

Hörmətli cənab rektor!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar, əziz tələbələr!

Mən sizin hamınıza dostunuz, qardaşınız olan Azərbaycandan hərarətli salam gətirmişəm. Sizin simanızda Türkiyə Cümhuriyyətinin bütün universitetlərinə, bütün professorlarına, bütün alimlərinə, bütün müəllimlərinə, bütün tələbələrinə hörmət və ehtiramımı bildirirəm, sizə səadət, xoşbəxtlik və bütün işlərinizdə uğurlar arzulayıram.

Türkiyənin böyük və çox gözəl şəhəri olan İzmir şəhərinin sakinlərini, vətəndaşlarını ürəkdən salamlayıram. İzmir ilə Azərbaycanın paytaxtı Bakı qardaşlaşmış şəhərlərdir. Həm Bakı sakinləri adından, həm də Azərbaycan vətəndaşları adından İzmir şəhərinin bütün sakinlərini və vətəndaşlarını salamlayıram.

Üçüncü gündür ki, Türkiyə Cümhuriyyətinin Cümhurbaşkanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvətilə mən Türkiyə Cümhuriyyətində rəsmi səfərdəyəm. Mən və mənimlə bərabər sizin ölkəyə gəlmiş Azərbaycan nümayəndə heyəti bu üç günün içərisində türk qardaşlarımızın, türk xalqının, Türkiyə dövlətinin və hökumətinin qonaqpərvərliyi və sevgi-məhəbbəti içində yaşayırıq. Bu, bizim üçün böyük səadətdir. Bu, bizim üçün unudulmaz günlərdir. Bu Türkiyə-Azərbaycan əlaqələrinin həm Türk xalqı üçün, həm də Azərbaycan xalqı üçün nə qədər əziz, nə qədər gərəkli və nə qədər dəyərli olduğunu bir daha nümayiş etdirir.

Türkiyədə, Ankarada olduğumuz zaman biz bir çox görüşlər keçirmişik və Türkiyə-Azərbaycan əlaqələrinin genişlənməsi və inkişaf etdirilməsi üçün dəyərli işlər görmü-

şük, çox əhəmiyyətli dövlətlərarası, hökumətlərarası müqavilələr imzalamışıq. Onların içərisində Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında müqavilə xüsusi əhəmiyyət kəsb edir. Bu müqaviləni Türkiyə Prezidenti və Azərbaycan Prezidenti imzalamışlar. Bu müqavilə ilə Türkiyə-Azərbaycan əlaqələri keyfiyyətcə yeni səviyyəyə qalxır və bu əlaqələrin gələcəkdə daha sürətlə, eyni zamanda çox geniş və hərtərəfli inkişaf etməsi üçün yeni bir mərhələ açılır.

Mən bu günlərdə Türkiyədə apardığımız danışıqlardan və keçirdiyimiz görüşlərdən, imzalanmış sənədlərdən həddindən artıq razıyam və hesab edirəm ki, bunların hamısı Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirir.

Azərbaycan nümayəndə heyətinə və şəxsən mənə göstərilən bu hörmətə görə, bu məhəbbətə görə, bu qayğıya görə, bu qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinə, onun hörmətli Prezidentinə, bütün Türkiyə xalqına təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Türkiyəyə səfər zamanı İzmiri ziyarət etmək mənim üçün çox əzizdir. Mən İzmir şəhərində ilk dəfə 1992-ci ildə olmuşdum və o vaxt Türkiyənin Prezidenti mərhum Turqut Özalın və Baş nazir hörmətli Süleyman Dəmirəlin dəvəti ilə ölkəniz gələrək, İzmirdə keçirilən III Beynəlxalq İqtisadi Konqresdə iştirak etmişdim. Həmin konqresdə mənə söz deməyə, konqresə müraciət etməyə imkan verilmişdi. Bu, mənim həyatımda, tərcümeyi-halımda çox əlamətdar və əziz bir hadisə olmuşdur. Mən o günləri daim xatırlayıram. İzmir şəhərinin nə qədər gözəl, nə qədər yaraşıqlı və nə qədər də mehriban şəhər olduğunu hiss etdim. Bu, mənim daim xatirimdədir.

Yenidən İzmirə gəlməyimdən çox məmnunam və xüsusən sizinlə görüşmək mənim üçün çox əzizdir, çox qiymətlidir.

Əziz dostlar, siz mənə çox böyük hörmət və ehtiram göstərmisiniz. Siz mənə həm də çox böyük etimad göstərmisiniz - mənə sizin universitetin fəxri doktoru adını vermisiniz. Mən bu barədə qəbul etdiyiniz qərarlarla və fəxri doktor adını vermək üçün sizin qərarlarınızda əks etdirilən əsaslarla çox diqqətlə və məmnuniyyət hissi ilə tanış oldum. Mənə göstərdiyiniz bu qayğıya görə, mənim fəaliyyətimə və xüsusən Azərbaycan Respublikasının dövlət başçısı kimi göstərdiyim fəaliyyətə bu qədər yüksək qiymət verdiyinizə görə, bu qədər hörmət etdiyinizə görə sizə səmimi qəlbdən təşəkkür edirəm. Çox sağ olun. "9 Eylül" Universiteti yaşca gəncdir, onun 15 yaşı var, ancaq bu 15 ildə o, sürətlə inkişaf edib, genişlənib və Türkiyənin, burada deyildiyi kimi, sıra hesabı ilə 4-cü universiteti yerinə gəlib çatıbdır. Bu, çox maraqlı göstəricidir. Yəni cəmi 15 yaşın olsun və həmin illər

içərisində bir çox qocaman, yaşlı universitetləri ötüb keçəsən və dördüncü yerə çatasan - bu, böyük qəhrəmanlıqdır.

Mən yaxşı bilirəm ki, Türkiyədə təhsilin yaxşı təşkil olunmasına, ali təhsilin əldə etdiyi nailiyyətlərə qiymət verilməsinə çox ciddi yanaşılır, çox böyük tələblər qoyulur və belə nailiyyətləri əldə etmək, belə qiymət almaq da asan deyildir. Görünür, bu, universitetdə qısa müddətdə, 15 ilin içərisində toplaşmış yüksək səviyyəli müəllimlərin, professorların, doktorların, alimlərin ümumi səyi və birgə əməyi, zəhməti nəticəsində olubdur. Əziz dostlar, ona görə də mən sizi əldə etdiyiniz nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm, sizin universitetinizə bütün gələcək işlərinizdə uğurlar arzulayıram və arzu edirəm ki, universitetiniz bu sırada dördüncü yerdən daha da irəliləsin, o birisi universitetləri də ötə bilsin.

Rəqabət həmişə insanların, eləcə də təhsil ocaqlarının, universitetlərin sürətlə inkişaf etməsinə şərait yaradır. Güman edirəm ki, sizin əldə etdiyiniz bu nailiyyətlər sizdən yaşlı, qocaman Türkiyə universitetlərini də müəyyən qədər narahat edəcək, onlar da çalışacaqlar ki, öz işlərini daha yaxşı qursunlar. Beləliklə, siz onlara kömək edəcəksiniz və siz də irəli gedəcəksiniz. Mən istəyirəm ki, qardaş, dost Türkiyənin ali təhsili daha da yüksəlsin, Türkiyə universitetləri daha da inkişaf etsin və dünyanın ən görkəmli universitetləri sırasında olsunlar.

Güman edirəm ki, sizin universitetin nailiyyətlərinin səbəblərindən biri də odur ki, universitetiniz "9 Eylül" adını daşıyır. 9 Eylül Türkiyə Cümhuriyyətinin tarixində çox önəmli bir nöqtədir, önəmli bir mərhələdir. Biz hamımız çox yaxşı bilirik ki, Türkiyədə Osmanlı imperatorluğu dağıldıqdan sonra çox gərgin vəziyyət yaranmışdı və Türkiyənin xarici düşmənləri Türkiyəni dağıtmaq, parçalamaq, yenidən ələ keçirmək məqsədi güdürdülər. Türkiyəyə hərbi təcavüzlər olmuşdur və Türk xalqının qəhrəmanlığı, rəşadəti o illərdə Türkiyəni bu böyük təhlükələrdən, böyük bəlalardan xilas etdi. Türkiyənin bu qurtuluş savaşında İzmir 9 Eylül hadisəsi, 9 Eylül qələbəsi ölkənin tarixində çox görkəmli yer tutur. Məlumdur ki, **Türkiyədə qurtuluş savaşının, qələbənin yaradıcısı, qurucusu və sərkərdəsi, qurtuluş savaşını qələbə ilə sona çatdıran Türk xalqının görkəmli oğlu böyük Mustafa Kamal Atatürk olmuşdur.**

Mustafa Kamal Atatürkün rəhbərliyi altında burada - İzmirdə yadelli düşmənləri ölkədən çıxarmaq üçün planlar qurulmuş, hərbi əməliyyatlar keçirilmişdir. Onun rəhbərliyi altında Türkiyənin düşmənləri 9 Eylülda dənizə atılmış, İzmir azad olunmuş və Mustafa Kamal Atatürk bu hərbi əməliyyata, bu qələbəyə bilavasitə rəhbərlik etmişdir.

Bütün bunlar Türkiyə Cümhu-

riyyətinin tarixinin gözəl səhifələridir. Siz universitetinizi yaradarkən ona 9 Eylül adı verməyiniz də 9 Eylül gününü nə qədər əziz və qiymətli tutduğunuzu göstərir, eyni zamanda Türkiyə Cümhuriyyətinin yarandığı gündən onun banisi olan böyük Mustafa Kamal Atatürkün ideyalarına, qoyduğu yola sizin nə qədər sadiq olduğunuzu göstərir. Universitetiniz gələcəkdə də bu yolla gedərək yeni nailiyyətlər əldə edəcəkdir. Sizin universitetiniz artıq mənim də doğma universitetimdir. Çünki mən artıq sizin universitetin Fəxri doktoru kimi, universitetinizin həyatına qatılıram və sizin universitetin həyatı mənim üçün doğma iş olur. Demək, sizin, bizim universitetimiz bundan sonra da yeni nailiyyətlər əldə edəcəkdir. Mən buna əminəm.

Hörmətli dostlar, bu günlərdə biz Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün çox ciddi addımlar atmışıq. Bu gün mən bir daha bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-günə möhkəmlənir, inkişaf edir, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Bizim dostluğumuz tarixi köklərimizlə, milli birliyimizlə, bir dilə, bir dinə mənsub olmağımızla, eyni adət - ənənələrə, eyni mənəvi dəyərlərə mənsub olmağımızla əlaqədar gündən-günə möhkəmlənəcək, gündən-günə inkişaf edəcəkdir. Biz Azərbaycanda bu dostluğa xüsusi əhəmiyyət, xüsusi yer veririk və əmin ola bilərsiniz, biz bundan sonra da çalışacağıq ki, bu əlaqələr daha da inkişaf etsin.

Azərbaycan müstəqil dövlət kimi gənc bir dövlətdir. O, dövlət müstəqilliyinin 6-cı ilini yaşayır. Bu gün universitetin qəbul etdiyi qərardan da hiss etdim ki, Azərbaycanda gedən proseslər, işlər sizə məlumdur və siz bilirsiniz ki, bu illər içində daim ardıcıl olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Azərbaycanın suverenliyini təmin etmək, Azərbaycanı Ermənistan işğalından azad etmək üçün çalışırıq. Bu illər ərzində işlərimiz çox ağır, gərgin şəraitdə keçir. Bilirsiniz ki, 1988-ci ildən Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz edilibdir və bu təcavüz ardıcıl olaraq bəzi başqa ölkələrin Ermənistana yardımı ilə əlaqədar və bəzi başqa səbəblərlə əlaqədar genişlənibdir və nəhayət, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən iş-ğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin, qaçqın düşübdür, onlar ağır vəziyyətdə yaşayırlar, əksəriyyəti 4-5 ildir ki, çadırlarda qalır.

Üç il bundan öncə biz Ermənistanla Azərbaycan arasında gedən döyüşləri dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq, ancaq eyni zamanda tam sülh də yoxdur. Azərbaycanın ərazi bütövlüyü pozulub, Azərbaycanın dövlət sərhədləri pozulub və bir də qeyd edi-

rəm, Azərbaycan torpaqlarının 20 faizi Ermə-nistan silahlı qüvvələrinin işğalı altındadır. Biz üç ildir davam edən bu atəşkəs rejimi zamanı məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq və çalışırıq, bundan sonra da çalışacağıq. Keçən ilin sonunda ATƏT-in Zirvə görüşündə qəbul olunmuş sənəd bu məsələnin həll edilməsi üçün daha yaxşı imkanlar yaradır.

ATƏT-in Zirvə görüşündə ATƏT-in 53 üzvünün dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasının prinsiplərini qəbul etdilər. Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, yəni torpaq bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin - həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsiplərini biz qəbul etmişik, ancaq Ermənistan qəbul etmir. İndi məqsəd və xüsusən ATƏT-in Minsk qrupu üzvlərinin və ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa nümayəndələrinin vəzifəsi bu prinsiplər əsasında danışıqları sürətləndirmək və sülh əldə etməkdir.

Türkiyə ATƏT-in üzvü kimi və ATƏT-in yaratdığı Minsk qrupunun üzvü kimi Azərbaycana hərbi təcavüz başlandığı vaxtdan indiyə qədər Azərbaycanla sıx əlaqədədir, Azərbaycanın yanındadır, bizimlə sıx əməkdaşlıq edir və Lissabonda həmin tarixi sənədin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun Prezidenti cənab Süleyman Dəmirəlin də çox böyük rolu olmuşdur. Ümidvarıq ki, bundan sonra da Türkiyə Azərbaycanın bu probleminin həll olunması üçün, həm Azərbaycana, həm də Türkiyəyə böyük dərd olan bu erməni işğalına, bu erməni təcavüzünə son qoymaq üçün öz səylərini əsirgəməyəcəkdir. Ümid edirəm ki, biz hamımız birlikdə, ümumi səylərimizlə bu məsələni, nəhayət, sülh yolu ilə həll edəcəyik.

Ancaq eyni zamanda bilməlisiniz ki, Ermənistan tək Azərbaycan üçün yox, ümumiyyətlə, Qafqaz üçün, habelə Türkiyə üçün də böyük təhlükə törədir. Sizə məlumdur ki, son zamanlar Rusiyanın Ermənistana bir milyard dollar dəyərində ağır silahlar verməsi aşkar olunubdur. Bir tərəfdən, biz üç ildir atəşkəs rejimində yaşayırıq, digər tərəfdən isə bu üç ildə Rusiya Ermənistana bir milyard dollar dəyərində silahlar veribdir. Şübhəsiz ki, kiçik bir dövlətə, Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş bir dövlətə, Türkiyənin qulağı dibində olan bir dövlətə bu qədər güclü silahların verilməsi hamını narahat etməlidir, o cümlədən Türkiyəni, onun ictimai fikrini, rəyini də narahat etməlidir. Bu gün mən sizin hamınızın diqqətini bu məsələyə xüsusi cəlb edirəm və bilin ki, bu, tək Azərbaycana qarşı yönəldilməyibdir, həm də bu bölgədəki bütün başqa ölkələrə

qarşı yönəldilmiş bir hərəkətdir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini ildən-ilə möhkəmləndirməyə çalışır. Lakin bununla əlaqədar öz daxilimizdə də çox çətinliklər olmuşdur. Sizə məlumdur ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra onun daxili vəziyyəti sabit olmamış, əmin-amanlıq olmamışdır. Bizim ən böyük nailiyyətimiz bir də ondan ibarətdir ki, son iki-üç il içərisində Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirdik, əmin-amanlıq yaratdıq. İndi Azərbaycanda əmin-amanlıq mövcuddur.

Biz Azərbaycanda hüquqi demokratik dövlət qururuq, dünyəvi dövlət qururuq. Bu, bizim strateji yolumuzdur. Biz bu strateji yolla gedirik. Bilirsiniz ki, Azərbaycan uzun illər öz müstəqilliyindən məhrum idi.

İndi biz müstəqil olmuşuq, öz taleyimizin sahibiyik və müstəqil demokratik dövlət qururuq. Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüququn aliliyinin təmin olunması bizim əsas vəzifəmizdir və bunu da yerinə yetirməyə çalışırıq.

Biz bu xətti, siyasəti aparmaqda böyük müqavimətlərə, çətinliklərə də rast gəldik. Ancaq biz onların qarşısını aldıq, öhdəsindən gəldik. Əziz dostlar, qardaşlar sizə deyə bilərəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir, Azərbaycan xalqı öz həyatını özü qurur. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik. Əmin olun ki, Azərbaycan Dünya Birliyində özünəməxsus, özünə layiq yerini tutacaqdır.

Sizə dediyim problemlərlə əlaqədar Azərbaycan son illər böyük iqtisadi böhran içərisindədir. Şübhəsiz ki, bu böhran insanların rifah halını çox pisləşdirib, sosial vəziyyət çox ağırlaşıbdır. Ancaq eyni zamanda biz iqtisadiyyatda çox ciddi dəyişikliklər edir, iqtisadi islahatlar həyata keçirir, iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparır, sahibkarlığı inkişaf etdiririk. "Torpaq islahatı haqqında" qanun qəbul etmişik və bunun əsasında bütün torpaqları şəxsi mülkiyyətə veririk. Beləliklə, Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş dövlətlərin, ölkələrin, o cümlədən Türkiyə Cümhuriyyətinin iqtisadiyyatının tutduğu, getdiyi yolla gedir. Bu sahədə bəzi nailiyyətlər də əldə etmişik. Ümidvaram ki, bu yolla gedərək Azərbaycanın iqtisadiyyatını da yüksəldəcəyik və Azərbaycanın böyük təbii sərvətləri, xüsusən neft-qaz yataqları, başqa təbii sərvətləri, iqtisadi potensialı, elmi-intellektual potensialı xalqımızın rifahı naminə daha səmərəli istifadə olunacaqdır.

Bütün bu məsələlərin həllində biz Türkiyə Cümhuriyyəti ilə iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk və bundan sonra da Türkiyə-Azərbaycan iqtisadi əlaqələri bizim bütün xarici iqtisadi əlaqələrimizin mərkəzində duracaqdır.

Azərbaycanda bu dəyişiklikləri həyata keçirmək, yeni həyat qurmaq, yeni bir dövlət qurmaq üçün bizə yeni fikirli, yüksək səviyyəli mütəxəssislər lazımdır. Ona görə də Azərbaycanın elmi, ali təhsili nə qədər inkişaf etmiş olsa da, gələcəyimiz üçün biz Türkiyədə də kadrların hazırlanmasını lazım bilmişik.

Sizə bildirmək istəyirəm ki, XX əsrdə Azərbaycanda elm, maarif, mədəniyyət, təhsil çox sürətlə inkişaf edibdir. Bizim müstəqilliyimiz, bağımsızlığımız olmayıbsa da, ancaq eyni zamanda xalqımız üçün bu vacib sahələrdə böyük nailiyyətlərimiz olubdur. Bizim nailiyyətimiz o olubdur ki, başqa bir rejimdə, başqa bir ölkənin tərkibində yaşayaraq dilimizi, islam dinini, mənəvi dəyərlərimizi, adət-ənənələrimizi saxlamışıq, mədəniyyətimizi inkişaf etdirmişik. Azərbaycanda bütün əhali savadlıdır, savadsız adam yoxdur. Azərbaycanda orta, yəni 10 illik təhsil həmişə məcburi olub və bu gün də məcburidir. Azərbaycanın bir çox universitetləri var. Bakı universitetinin 77 illik tarixi var. Digər universitetlərin 60-70 illik tarixi var. Azərbaycanın böyük Elmlər Akademiyası var, onun prezidenti burada bizim nümayəndə heyətinin tərkibindədir. Bizim şairlərimizin, mədəniyyət xadimlərimizin bəziləri mənimlə bir yerdə buradadırlar. Yəni, XX əsrdə Azərbaycanın mədəniyyətinin, elminin, təhsilinin inkişafında çox böyük nailiyyətlər əldə olunubdur.

Ancaq biz bu gün hesab edirik ki, bundan daha yüksəklərə qalxmalıyıq. Ona görə biz təhsildə də, ali məktəbdə də islahatlar aparırıq. Bu baxımdan Türkiyənin universitetləri ilə əməkdaşlığa xüsusi fikir veririk. Güman edirəm, mən sizin fəxri doktorunuz olandan sonra sizin universitetlə də əlaqələri daha yaxşı qurmalıyıq. Türkiyənin universitetlərində bizim gənclərin təhsil, ixtisas almasına xüsusi fikir veririk.

Bu baxımdan mən Türkiyənin universitetlərində Azərbaycan gənclərinə, azərbaycanlı tələbələrə təhsil verən müəllimlərə, professorlara və universitetlərin rəhbərlərinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

İzmirdə, sizin universitetdə də Azərbaycan gəncləri təhsil alırlar, bu salonda da onlardan var. Üzümü onlara tutaraq demək istəyirəm ki, əziz övladlarımız, balalarımız, siz müstəqil Azərbaycanın gələcəyi üçün çox lazımsınız, gərəklisiniz. Müstəqil, bağımsız Azərbaycanı yaşatmaq, inkişaf etdirmək, daha qüdrətli etmək üçün siz gərək yüksək təhsilə malik olasınız, müasir tələblərə uyğun ixtisaslar əldə edəsiniz. Bunların hamısını Türkiyədə, Türkiyənin universitetlərin-

də, o cümlədən "9 Eylül" Universitetində almağa imkan var. Sizə tövsiyəm, sizdən xahişim ondan ibarətdir ki, burada olduğunuz günləri, ayları, illəri səmərəli keçirəsiniz, yaxşı təhsil alasınız, Türkiyədən ən gözəl ənənələri mənimsəyəsiniz, Azərbaycana gətirəsiniz, Türkiyə-Azərbaycan dostluğunu möhkəmləndirəsiniz və özünüzü müstəqil Azərbaycanın gələcəyi üçün hazırlayasınız.

Hörmətli dostlar, mən sizə bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, mən "9 Eylül" Universitetinin fəxri doktoru adını daim böyük iftixarla daşıyacağam və bütün gələcək işlərimdə sizin etimadınızı doğrultmağa çalışacağam. Sizin universitetə, bütün İzmir şəhərinə, İzmirin sakinlərinə, vətəndaşlarına səadət, xoşbəxtlik arzu edirəm. Şübhə etmirəm ki, **Türkiyə Cümhuriyyəti, o cümlədən Türkiyənin universitetləri, elm adamları böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yolla gedərək Türkiyəni gündən-günə gücləndirəcək, onu daha qüdrətli dövlət edəcək, daha firavan, xoşbəxt ölkə edəcəklər və Türkiyə vətəndaşlarının rifah halını yaxşılaşdıracaqlar.** Bu yolda, Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsi yolunda hamınıza uğurlar arzulayıram.

Yaşasın " 9 Eylül" Universiteti!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın əbədi sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun.

Azərbaycan Prezidentinin şərəfinə İzmir valisi Kutlu Aktaşın verdiyi ziyafətdə Prezident Heydər Əliyevin nitqi

7 may 1997-ci il

Əziz, hörmətli bələdiyyə başkanı, hörmətli dostlar!

Türkiyəyə rəsmi səfərim çərçivəsində İzmir şəhərini ziyarət etmək mənim üçün böyük səadətdir. İzmir Türkiyənin həm böyük şəhəri, həm də ən gözəl guşələrindən biridir. İzmir şəhərinin böyük tarixi var və Türkiyə Cümhuriyyətinin yaranmasında, Türk xalqının xarici işğalçılardan, qəsbkarlardan azad olunmasında da İzmirin və izmirlilərin xüsusi rolu var. 1922-ci il 9 eylüldə məhz burada qurtuluş savaşının böyük qələbəsi əldə edilmiş və bu, Türkiyənin tarixinə daxil olmuşdur, bizim də tariximiz üçün, ümumi, müştərək, birgə tariximiz üçün çox dəyərli səhifədir.

İzmir şəhəri ilə Azərbaycanın paytaxtı Bakı şəhərinin qardaşlıq əlaqəsi də məhz bu hissiyyatlardan doğmuşdur və biz bu qardaşlıq əlaqəsinə çox yüksək qiymət veririk. Hesab edirəm ki, bu əlaqələr bundan sonra daha da genişlənməli, inkişaf etməlidir. Məhz bu əlaqələrin rəmzi olaraq Bakının gözəl guşələrindən birində olan parka "İzmir parkı" adı verilib. Görünür, biz bu gün burada da belə bir parkla rastlaşacağıq.

Bunlar hamısı qısa bir müddətdə, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, əlaqələrimizin sürətlə inkişaf etdiyi bir zamanda əldə olunan nailiyyətlərdir. Ancaq düşünün, qarşıda neçə illər, nə qədər böyük imkanlar var və biz bu sürətlə, bundan da artıq sürətlə inkişaf etsək, görün Türkiyə və Azərbaycan bir-birinə nə qədər yaxın olacaq, dostluğumuz, qardaşlığımız nə qədər sıx olacaqdır.

Bu gün "9 Eylül" Universitetində mən Türkiyə vətəndaşları ilə bərabər azərbaycanlıları, azərbaycan vətəndaşlarını da gördüm. Hətta mən oradan çıxıb universiteti tərk edərkən iki gənc - bir qadın, bir kişi mənə yaxınlaşdı. Gözəl qız özünü tanıtmaq üçün dedi ki, mən Şakirzadənin qızıyam, - Şakirzadə Azərbaycanın böyük alimlərindən, filosoflarından biridir, - deyir ki, beş ildir burada çalışıram. Gənc oğlan isə skripkaçıdır. Soruşdum ki, burada vəziyyətiniz necədir, necəsiniz? Dedilər ki, çox gözəldir, yaxşıyıq. Bu, mənim sadəcə bir dəqiqə içində rastlaşdığım haldır. Son dörd-beş ildə belə hallar nə qədər çoxdur. Şübhəsiz ki, bunlar bizi sevindirir. Məhz belə zərrələrlə, bizim ümumi Türkiyə-Azərbaycan abidəsini quran, yaradan insanların qoyduğu hər kərpiclə də gələcək nəsillər üçün gözəl bir abidə ucaldacağıq. O abidənin də adı əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğudur.

Bu gün burada, İzmir şəhərində bizə göstərilən qonaqpərvərliyə, çox hərarətli münasibətə, dost münasibətinə görə təşəkkür edirəm. İzmir valisinə, bələdiyyə başkanına öz minnətdarlığımı bildirirəm. Bir daha qeyd edirəm ki, mənim bu səfərim zamanı Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişafı üçün görülən işlər özünün gələcək nəticələrini verəcəkdir. **Biz bu işlərə, bu dostluğa sadiqik və daim sadiq olacağıq. Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələri gündən-günə yüksələcəkdir.**

Rica edirəm, Türkiyə-Azərbaycan dostluğunun şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə Cümhuriyyətinin prezidenti, mənim əziz dostum Süleyman Dəmirəlin şərəfinə, İzmir şəhərinin şərəfinə, İzmir vətəndaşlarının, sakinlərinin şərəfinə, İzmir valisinin, bələdiyyə başkanının şərəfinə və bütün İzmir əhalisinin şərəfinə badə qaldıraq. Sağ olun, sizə xoşbəxtlik arzu edirəm.

İzmirdə "Bakı parkı"nın açılışı mərasimində Prezident Heydər Əliyevin nitqi

7 may 1997-ci il

Hörmətli vali, hörmətli bələdiyyə başkanı!

Hörmətli nazir!

Hörmətli dostlar, qardaşlar!

Mən bu gün Türkiyəyə rəsmi səfərim çərçivəsində Türkiyənin gözəl bir guşəsi olan İzmir şəhərinə gəl-

məyimdən çox səadət duyuram və hamınızı, sizin simanızda İzmir şəhərinin bütün vətəndaşlarını, sakinlərini ürəkdən salamlayır, sizə Azərbaycan xalqının, Bakının salamını, hörmət-ehtiramını çatdırıram.

Bu günlər biz Türkiyədə çox görüşlər keçirmiş, çox danışıqlar aparmışıq, çox əhəmiyyətli anlaşmalar, müqavilələr imzalamışıq. Bunların hamısı bir məqsəd - Türkiyə-Azərbaycan dostluğunun daha da inkişafını təmin etmək, türk xalqını və Azərbaycan xalqını bir-birinə daha sıx bağlamaq məqsədi daşıyır.

Bu, bizim ali vəzifəmizdir və bunu yerinə yetirmək üçün də Türkiyəyə gəlmişik. Türkiyənin cümhur başkanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə rəsmi ziyarətə gəlmişəm.

Biz bu günlərdə bir daha gördük , bir daha hiss etdik ki, Türk - Azərbaycan xalqlarının dostluq və qardaşlığı nə qədər dərindir, güclüdür, nə qədər möhkəmdir. Bu dostluğun, qardaşlığın tarixi çox böyükdür. Əgər tarixi götürsək, bizim tariximiz də, keçmişimiz də, dilimiz də, dinimiz də, məsləkimiz də, adət-ənənələrimiz də, musiqimiz də, mədəniyyətimiz də birdir. Bir-birindən fərqi sadəcə ondan ibarətdir ki, - necə ki, İstanbul ilə İzmirdə bir fərq var, yaxud da Ərzurumla Qayseridə bir fərq var, yaxud Adana ilə Diyarbəkirdə bir fərq var, - ola bilər Türkiyə ilə Azərbaycanda da belə bir fərq olsun. Amma bu fərq sadəcə, bizim eyni zamanda ümumi mənəvi dəyərlərimizin, mədəni, şüuri dəyərlərimizin hamısının çoxcəhətli, çoxşaxəli, çoxbudaqlı olmasını göstərir. Yəni biz böyük bir çinar ağacının budaqlarıyıq və bu da o qədər möhkəm çinardır ki, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi bir-birimizdən ayırmaq istədilərsə də bacarmadılar. Bizim qəlbimiz, bizi bir-birimizə bağlayan tellər, mənəviyyat dostluğumuzu, qardaşlığımızı, birliyimizi qorudu, saxladı.

Bu günlərdə biz bu dostluğumuzun, qardaşlığımızın yeni nümayişini görürük. Şübhəsiz ki, bunlar bizi həddən ziyadə sevindirir. Bu günlərdə biz Türkiyədə Azərbaycan barəsində çox yüksək dostluq-qardaşlıq münasibətlərini, böyük qonaqpərvərlik, hərarətli qəbul hiss edirik. Bunların hamısına görə türk xalqına, Türkiyə Cümhuriyyətinə təşəkkür edirəm. Bu gün İzmirə gələndən indiyə qədər, bir neçə saat içində bir-birimizə nə qədər bağlı olduğumuzu hiss edirik. Bizə göstərdiyiniz bu hörmət və ehtirama, qayğıya, diqqətə görə sizə təşəkkür edir və sizi əmin edirəm ki, Azərbaycan xalqı bunların hamısını yüksək qiymətləndirir. Xalqımızda, hər bir azərbaycanlıda bu hissiyyatlar burada gördüyümüzdən qat-qat çoxdur.

İzmir şəhəri ilə Azərbaycanın paytaxtı, başkəndi Bakı şəhəri arasında on iki il bundan öncə qardaşlıq haqqında müqavilə imzalanması böyük hadisə olmuşdur. Bilirsiniz ki, mən o illərdə həm Azərbaycanın, həm də Sovetlər Birliyinin başında duran şəxs olmuşam. O illərdə bizə Türkiyə ilə əlaqə saxlamağa imkan vermirdilər. Xatirimdədir, Bakı dünyanın bir çox şəhərləri ilə qardaşlaşmışdı, məsələn, Amerikanın, Fransanın, İngiltərənin, Şərqi Avropada olan Rumıniyanın, Macarıstanın, başqa ölkələrin şəhərləri ilə qardaşlaşmışdı.

Amma Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Çünki əgər o şəhərlərlə doğrudan da yeni bir qardaşlıq qurурduqsa, bizim bu qardaşlığımıza kəc baxan, yəni buna zidd olan qüvvələr, - onlar bizim ətrafımızda daim çox olubdur, - heç də istəməzdilər ki, bizim bu qardaşlığımız yenidən baş versin. Yəni on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr qardaşlaşma əlaqəsi deyil, - biz doğulandan qardaşıq, ata -babalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq. Sadəcə, İzmir ilə Bakı arasında xüsusi əlaqələr yaranması haqqında müqavilə bağlanıbdır. Ona görə mən hesab edirəm ki, bizim qardaşlığımız qədimdir, dünyada xalqlarımız yaranandan mövcud olan qardaşlıqdır. Bu əlaqələr isə həmin qardaşlığı müəyyən mənada sənədləşdirmək, kağız üzərində əks etdirmək kimi bir tədbirdir.

Türkiyə-Azərbaycan, İzmir-Bakı daim qardaş olublar, bu gün də qardaşdırlar, gələcəkdə də qardaş olacaqlar. Bunun da təzahürü olaraq Bakıda ən gözəl guşələrdən, parklardan birinə "İzmir" adı verilibdir. Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın gözəl bir hissəsinə "Bakı" adı verilibdir. Bu təşəbbüs, hadisə münasibətilə İzmirin başçılarına, başkanlarına təşəkkürümü bildirir, sizin hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü bu törən, mərasim, bayram başqa şəhərlərdə də davam edəcək, biz Türkiyə-Azərbaycan qardaşlığını addım-addım, gündən-günə genişləndirəcək, inkişaf etdirəcəyik.

Türkiyə böyük dövlətdir, dünya miqyasında özünəməxsus görkəmli yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Amma bizim əlaqələrimiz qədimdir. Azərbaycanın dövlət müstəqilliyi əldə edilməndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr son illərdə çox bəhrələr verib, çox nəticələrə gətirib çıxarıbdır. Məhz bu əlaqələrin nəticəsidir ki, indi Türkiyənin universitetlərində, o cümlədən burada, İzmir universitetlərində Azərbaycanın gəncləri də təhsil alır, müstəqil Azərbaycanın cürbəcür sahələrində işləməyə hazırlaşırlar.

Görürsünüz, biz bir-birimizə nə qədər yaxın oluruq. İzmirdə universitetdə təhsil alan gənc tələbə nitq söylədi. O, azərbaycanlıdır, naxçıvanlıdır, orada Nehrəm adlı məşhur yer var, o kənddəndir. Ancaq o, təmiz türk ləhcəsində danışdı. Bizim

dilimiz birdir, amma sadəcə ləhcələrimizdə fərq var. Mən Azərbaycan ləhcəsində danışıram. O da bir-iki il öncə mən danışdığım ləhcədə danışırdı, amma iki il burada təhsil alandan sonra buranın ləhcəsində danışır. Demək, bu onun buraya, burada aldığı təhsilə, buradakı mühitə nə qədər alışdığını, eyni zamanda Türkiyəyə, İzmirə, bu mühitə nə qədər məhəbbəti, sevgisi olduğunu göstərir. **Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma, zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə-Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik. Biz bunu edəcəyik.**

Müstəqil Azərbaycanın həyatında bir çox problemlər var. Bu problemlərdən ən ağırı, ən bəlalısı Ermənistanın Azərbaycana təcavüzüdür. Bildiyiniz kimi, 1988-ci ildə Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ hissəsini ələ keçirmək üçün ölkəmizə hərbi təcavüz ediblər. Bəzi dövlətlərin yardımı vasitəsilə və bəzi başqa səbəblərə görə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşübdür, qaçqın-köçkün vəziyyətində çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Üç ildir ki, biz atəşi dayandırmışıq, qan tökülmür, üç ildir ki, şəhidlər yoxdur. Ancaq eyni zamanda hələ sülh də yoxdur. Biz məsələni sülh yolu ilə həll etmək istəyir, sülh danışıqları aparırıq. Keçən ilin sonunda Lissabonda ATƏT-in Zirvə görüşündə məsələnin sülh yolu ilə həlli üçün uyğun prinsiplər əldə olunub, qərar qəbul edilibdir. Biz Lissabon prinsipləri əsasında sülh danışıqları aparıb Azərbaycanın işğal olunmuş torpaqlarını sülh yolu ilə azad etmək istəyirik. Buna nail olmağa çalışırıq və mütləq nail olacağıq.

Bütün bu tədbirlərin həyata keçirilməsində Türkiyə daim Azərbaycana dayaq olub, daim Azərbaycanla bir yerdə olubdur. Ümidvaram ki, bundan sonra da bir yerdə olacaqdır. Ancaq bu gün burada onu da demək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayacaqdır. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Biz dövlət müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik.

Azərbaycan işğal olunmuş torpaqlarını azad edəcək və özünün ərazi bütövlüyünü bərpa edəcək, dövlət sərhədlərinin, hüdudlarının toxunulmazlığını təmin edəcəkdir. Əgər sülh danışıqları nəticə verməsə, Azərbaycan işğal edilmiş torpaqlarını nəyin bahasına olursa-olsun azad etməlidir. Biz torpaqlarımızın bir qarışını, bir metrini də heç kəsə verməyəcəyik və Azərbaycanın müstəqilliyini, baxımsızlığını, ərazi bütövlüyünü daim qoruyacağıq. Əminəm ki, Türk xalqı, Türkiyə Cümhuriyyəti indiyə qədər

olduğu kimi, bundan sonra da bizimlə bərabər olacaqdır.

Bizim gələcək zəfərlərimizin, nailiyyətlərimizin, qələbələrimizin əsası, zəmini Türk-Azərbaycan, Türkiyə-Azərbaycan dostluğudur. Bu dostluğa eşq olsun!

Yaşasın Türk xalqı!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın sarsılmaz Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı!

Sağ olun!

İstanbulda mətbuat nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin bəyanatı

7 may 1997-ci il

Hörmətli mətbuat nümayəndələri!

Siz bilirsiniz ki, Türkiyənin Prezidenti hörmətli cənab Süleyman Dəmirəlin dəvətilə mən üçüncü gündür Türkiyədə rəsmi səfərdəyəm. Burada keçirdiyim görüşlərin hamısını izləyir, bilirsiniz. Ona görə də mən bu barədə ətraflı danışmaq fikrində deyiləm.

Ancaq onu bildirmək istəyirəm ki, Ankarada və bu gün İzmirdə, - indi İstanbula gəlmişik, - görüşlərimizin hamısı çox yüksək səviyyədə, dostluq və mehribanlıq şəraitində keçibdir. Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı, ölkənin dövlət, hökumət rəhbərləri tərəfindən Azərbaycan prezidentinə, Azərbaycan nümayəndə heyətinə çox böyük diqqət və maraq, qonaqpərvərlik göstərilir. Belə bir dostluq və qardaşlıq şəraitində biz hesab edirəm ki, çox səmərəli işləyə bilmişik və çox yaxşı nəticələr əldə etmişik. Nəticələr ondan ibarətdir ki, **həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi müəyyən etmişik ki, dostluğumuz, qardaşlığımız indiyə qədər hər iki ölkə üçün faydalı olmuşdur və bu dostluq, qardaşlıq əlaqələrini bundan sonra da irəliyə aparmalıyıq.** Bu məqsədlə biz Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə, anlaşma imzalamışıq. Hesab edirəm ki, bu anlaşma çox tarixi əhəmiyyət daşıyır, əlaqələrimizi daha yüksək səviyyəyə çatdırır, onun məzmununu, keyfiyyətini daha da irəli aparır.

Bununla yanaşı, bir neçə başqa müqavilə də imzalamışıq. Bunlar hamısı iqtisadi əlaqələrimizin daha səmərəli aparılması məqsədi daşıyır. İndiyə qədər Azərbaycan ilə Türkiyə arasında çox müqavilələr, anlaşmalar, sazişlər imzalanıbdır. Bu günlərdə imzalanmış sazişlər də Türkiyə ilə Azərbaycan arasında əlaqələr üçün çox geniş normativ-hüquqi baza yaradıbdır. Güman edirəm ki, əməkdaşlığımız üçün normativ-hüquqi sənədlər var, sadəcə olaraq biz əməli işlə bu əməkdaşlığı daha da irəliyə aparmalıyıq.

Bir daha deyirəm, bu danışıq-

ların, görüşlərin məqsədi Türkiyə-Azərbaycan əlaqələrini daha yüksəklərə qaldırmaq-dır. Hesab edirəm ki, biz buna nail olmuşuq. Çünki bu, həm Türkiyə tərəfinin, həm də Azərbaycan tərəfinin istəyi, arzusudur. Bunlar da Türkiyə Prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları müqavilədə öz əksini tapıbdır.

Biz bu günlərdə Türkiyədə olmağımızdan, keçirdiyimiz görüşlərdən çox razıyıq. Bir də qeyd edirəm, bizə çox gözəl qonaqpərvərlik, çox hərarətli münasibət, dostluq, qardaşlıq münasibəti göstərilir. Bunlara görə də Türkiyənin cümhur başkanına, Türkiyə hökumətinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu günlərdə Türkiyənin mətbuat nümayəndələri daim yanımızdadır, görüşlərimizi izləyirlər. Oxuya bilməmişəm, amma eşitdiyimə görə qəzetlərdə məqalələr yazıblar, televiziyada verilişlər verilib. Bunlara görə təşəkkür edirəm. İndi isə suallarınıza cavab verməyə hazıram.

Sual: Birinci sualım belədir: Din azadlığı haqqında qanun son ildə üç dəfə dəyişmişdir. Müsəlman icmaları bundan şikayətlənirlər, bu qanun praktikada onların dini azadlıqlarına toxunur. Deyə bilərsinizmi, bu qanun hansı dəyişikliklərə uğrayıb və nə üçün?

Cavab: Hörmətli dostum, siz səhv edirsiniz. Azərbaycanda din azadlığı haqqında qanun heç vaxt dəyişməyibdir. Sadəcə olaraq din haqqında qanun qəbul edilib və bu qanuna əsasən Azərbaycanda bütün dinlər azaddır. Vicdan azadlığı bizim Konstitusiyamızda əks olunub, qanunlarımızda da öz əksini tapıbdır. Bilirsiniz ki, Azərbaycanda əhalinin əksəriyyəti islam dininə itaət edir. Eyni zamanda Azərbaycanda xristianlar, xristian konfessiyası və iudaizmə itaət edənlər, sinaqoq da var. Beləliklə, Azərbaycanda nəinki din azadlığı var, həm də müxtəlif dinlərin birlikdə fəaliyyəti mövcuddur. İslam dini, xristian dini və yəhudi dini birlikdə, yəni hərəsi öz sahəsində fəaliyyət göstərirlər. Din tamamilə azaddır və Azərbaycanda dinə qarşı heç bir qeyri-qanuni hərəkət yoxdur.

Sual: Cənab Əliyev missionerlərin hərəkətlərindən narahatdırmı?

Cavab: Missionerlərin nə hərəkəti ola bilər? Mən hiss eləmirəm ki, Azərbaycanda missionerlərin elə bir hərəkəti var.

Sual: Sayın Əliyev, Ankaradakı çıxışlarınızda bütünlükdə türk ordusunu çox təriflədiyinizi gördük. Bunun nə ilə əlaqədar olduğunu bir qədər açıqlaya bilərdinizmi?

Cavab: Bilirsiniz, bu heç bir şeylə əlaqədar deyildir. Türkiyə Cümhuriyyəti bizim üçün dost, qardaş ölkədir. Siz mənim danışıqlarımı izləmisinizsə, hər yerdə, o cümlədən Böyük Millət Məclisindəki çıxışımda, nitqimdə Türkiyənin cümhuriyyət dövründə keçdiyi şanlı, çox şərəfli yol haqqında danışmışam. Türkiyə Cümhuriyyətinin 70 ildən artıq bir dövr-də yaşamasında Türkiyə xalqı-

AZƏRBAYCAN

AZƏRBAYCAN

DEİK
A TALE OF THREE SEAS
Istanbul, Turkey

TEMA

WORLD ECONOMIC FORUM

Çırağan
Hotel Ker
ISTANE

nın yüksək səviyyələrə çatmasında, şübhəsiz ki, türk ordusunun mühüm rolu var. Buna görə də mən Türkiyə Cümhuriyyətinə çox böyük hörmət, ehtiram bəsləyərək, eyni zamanda onun həyatının, cəmiyyətinin, dövlətinin bütün sahələrinə hörmət və ehtiramımı bildirirəm. Mən Quru Qoşunları Məktəbinə getmişdim, bilirsiniz ki, oraya həm Azərbaycan diasporu toplaşmışdı, həm də Polis Akademiyasında, Quru Qoşunları Məktəbində təhsil alan azərbaycanlılar var idi. Onların hamısını salamladım, hörmət və ehtiramımı bildirdim. Bunun heç bir başqa səbəbi yoxdur.

Sual: Bu sahədə Azərbaycanda qayğılarımız varmı?

Cavab: Azərbaycanda qayğılarımız çoxdur. Ona görə də sualınızı birbaşa belə versəydiniz, özünüzün də, mənim də vaxtımı almazdınız.

Qayğılarımız çoxdur, ən böyük qayğımız odur ki, - mən bunu bu günlərdə hər yerdə deyirəm və bu gün də sizə çatdırmaq istəyirəm, - Azərbaycan qonşu Ermənistan tərəfindən 1988-ci ildən başlayaraq hərbi təcavüzə məruz qalmışdır. Bu hərbi təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri bəzi ölkələr tərəfindən onlara göstərilən yardımdan istifadə edərək, eyni zamanda Azərbaycan daxilində olan bəzi səbəblərə görə Azərbaycan torpaqlarının, ərazisinin 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla yerindən-yurdundan qovulub, didərgin düşübdür. İndi onların əksəriyyəti Azərbaycanın müxtəlif bölgələrində çadırlarda yaşayır. İnsan ola bilər bir ay, iki ay çadırda yaşasın, ancaq illərlə - dörd, beş il çadırda yaşamaq nə qədər dəhşətlidir, bunu təsəvvür edə bilərsiniz.

Şübhəsiz ki, Ermənistanın təcavüzünə qarşı Azərbaycan öz torpaqlarını qorumaq məcburiyyətində olmuşdur. Döyüşlər getmiş, qan tökülmüşdür, şəhidlər vermişik. Ancaq Azərbaycan sülhsevər dövlət olduğuna, sülh tərəfdarı olduğuna görə, üç il bundan öncə atəşin dayandırılması haqqında təşəbbüs irəli sürmüşdük. Ermənistan tərəfindən də bu təşəbbüs olmuşdu və 1994-cü il mayın 12-də atəşkəs haqqında saziş imzalanıbdır. O vaxtdan indiyə qədər, - bir neçə gündən sonra üç il tamam olacaqdır, - atəş yoxdur, yəni savaş yoxdur, müharibə getmir. Amma eyni zamanda sülh, barış da yoxdur, torpaqlarımız işğal altında qalır.

Biz bu üç il müddətində məsələnin sülh yolu ilə həllinə çalışmışıq, bu sahədə çox səylər göstərmişik. Bu məsələdə cürbəcür beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışmışıq. Amma bu məsələ ilə ən çox ATƏT-in Minsk qrupu məşğul olur, onun vasitələrindən istifadə etməyə çalışmışıq.

Nəhayət, keçən ilin dekabrında Lissabonda ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün bəyanat qəbul edilib, yəni bunu sülh yolu ilə

həll etməyin prinsipləri orada əks olunubdur. ATƏT-in bütün üzvləri - 53 ölkənin dövlət başçıları bəyanatın qəbul olunmasına səs verib, ona tərəfdar çıxıblar. Amma Ermənistan əleyhinə çıxıb, bunu qəbul etməyibdir. Buna baxmayaraq, 54 dövlətdən 53-ü bunu qəbul edib, belə bir sənəd qəbul olunubdur. İndi Minsk qrupu yeni bir mərhələdə işə başlayıbdır. Hazırda Minsk qrupunun üç həmsədri var - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Biz onlarla danışıqlar aparmışıq. Onlar da bu münaqişənin yalnız və yalnız ATƏT-in Lissabon Zirvə görüşündə əldə olunmuş prinsiplər əsasında həll edilməsini nəzərdə tuturlar.

Şübhəsiz ki, əgər Ermənistan tərəfi konstruktiv mövqe tutsaydı, normal münasibət göstərsəydi bu məsələ həll oluna bilərdi. Çünki Lissabon Zirvə görüşündə qəbul olunan prinsiplər Ermənistanın xeyrinə olan prinsiplərdir. Biz burada bir çox güzəştlərə getmişik. Prinsiplər bundan ibarətdir ki, Ermənistanın və Azərbaycanın ərazi bütövlüyü tanınmalıdır. Bilirsiniz ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü indiyə qədər tanımır. Bütün beynəlxalq təşkilatlarda, sənədlərdə separatçılıq pisləsə, qınanırsa, qeyri-qanuni hesab olunursa, Ermənistan o sənədə qol çəkməyibdir. Beləliklə, Ermənistan beynəlxalq hüquq normalarına zidd olaraq separatçılığa tərəfdar çıxır. Çünki Dağlıq Qarabağda olan ermənilər Ermənistanın köməyi ilə separatçılıq yolu ilə gedib Azərbaycanda məhz belə bir şərait yaradıblar. Ona görə də bu prinsiplərin birinci bəndi Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasından ibarətdir. Biz Ermənistanın ərazi bütövlüyünü tanıyırıq və onun ərazisinin heç bir hissəsinə iddia etmirik. Baxmayaraq ki, Ermənistanın indiki ərazisindəki torpaqların çoxu keçmişdə Azərbaycana mənsub olubdur. Ancaq biz beynəlxalq hüquq normalarına tabe oluruq və 1991-ci ildə Azərbaycan və Ermənistan öz müstəqilliyini əldə edərkən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş, təsdiq olunmuş sərhədlər çərçivəsində həm Ermənistanın ərazi bütövlüyünü tanıyırıq, həm də istəyirik ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın.

İkinci prinsip, ikinci bənd Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək səviyyəli muxtariyyət, özünüidarəetmə hüququ verilməsi barədədir. Bu, doğrudan da Azərbaycan üçün o qədər də münasib prinsip deyil, çünki biz öz torpağımızın, ölkəmizin, respublikamızın bir hissəsinə xüsusi status verməliyik. Ancaq biz münaqişəyə son qoymaq üçün sülh yolu ilə gedərək buna razı olmuşuq.

Üçüncü prinsip, Dağlıq Qarabağın bütün əhalisinin - həm erməni, həm azərbaycanlı əhalisinin gələcəkdə təhlükəsizliyini təmin etməkdir. Biz hesab edirik ki, bu üç prinsip əsasında 1997-ci ildə münaqişə həll

oluna bilər. Ancaq bunun üçün çox iş görmək lazımdır. Fürsətdən istifadə edib demək istəyirəm ki, Ermənistanın Azərbaycana təcavüzü başlayandan indiyə qədər Türkiyə Azərbaycanın haqq, ədalət işini dəstəkləyib, müdafiə edibdir. Türkiyə Minsk qrupunun, ATƏT-in üzvü olaraq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli işini daim dəstəkləyib, müdafiə edibdir. Lissabon Zirvə görüşündə də biz bu prinsiplərin qəbul olunmasına çalışarkən Türkiyə Cümhuriyyəti, xüsusən hörmətli Prezident cənab Süleyman Dəmirəl ilə sıx əməkdaşlıq edirdik. Bu günlərdəki görüşlərimizdə də Türkiyə yenə öz mövqeyini çox qətiyyətlə saxlayır və hesab edirik ki, Türkiyə Minsk qrupunun üzvü kimi, eyni zamanda beynəlxalq aləmdə böyük nüfuzu, hörməti olan ölkə kimi bundan sonra da bu məsələlərin həllində daim bizimlə bərabər çalışacaq, iştirak edəcəkdir.

Ancaq təəssüflər olsun ki, bu məsələnin sülh yolu ilə həll edilməsinə maneçilik göstərən amillər də var. Bunlar təkcə Ermənistanın Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərin əleyhinə çıxması deyildir. Bu amillərdən biri son iki-üç ayda aşkar olubdur. Bu da Ermənistanın qeyri-qanuni silahlanmasıdır. Üç ildir ki, biz atəşi dayandırmışıq. Demək yenidən silahlanmaya heç bir ehtiyac yoxdur. Ancaq iki-üç ay öncə Rusiyada, Moskvada aşkar oldu ki, bu müddətdə, son üç il içərisində Rusiyanın bəzi dairələri tərəfindən Ermənistana gizli olaraq, qeyri-qanuni yolla çoxsaylı silahlar, özü də ağır, çox dəhşətli silahlar verilibdir. Rusiya Ermənistana 1 milyard dollar dəyərində silahlar veribdir. Bunların içərisində 84 ədəd T-72 tankı, - onlar ən müasir tanklardır, - habelə zirehli maşınlar, uzaqvuran raketlər, - o raketlər ki, bunları Rusiya Kiprə satmışdı və bu, Türkiyədə böyük narahatlıq doğurmuşdu, - toplar var, hətta son vaxtlar aşkar olub ki, on kimyəvi silah kompleksi də verilibdir.

Bu, çox böyük təhlükə doğurur. Azərbaycanda da təhlükə doğurur, ümumiyyətlə, Qafqazda sülhün, əmin-amanlığın saxlanması üçün çox təhlükəlidir. Hesab edirəm ki, təkcə Qafqaz ölkələri üçün yox, Türkiyə üçün də təhlükəlidir. Bilirsiniz ki, Ermənistanda Rusiyanın hərbi bazaları, ordu hissələri var. Bu ordu hissələri ola-ola, orada Rusiyanın özünəməxsus silahları mövcud olduğu halda Ermənistanın ordusuna da, Dağlıq Qarabağın silahlı qüvvələrinə də çox güclü silahlar veriblər. Bu, bizi narahat edir, güman edirəm, Türkiyəni də narahat etməlidir və ümumiyyətlə, bizim bölgədə vəziyyəti çox gərginləşdirir.

Şübhəsiz ki, bunlar hamısı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə mane olan amillərdir. Bunlara diqqət yetirmək lazımdır. Hesab edirəm ki, sizin sualınıza tam cavab verdim.

Sual: Rusiya Ermənistanı si-

lahlandırır. Sizcə, bu işdə Rusiyanın uzunmüddətli məqsədi nə ola bilər? İkinci sualım isə belədir: Siz Türkiyə ilə strateji əməkdaşlıq müqaviləsi imzaladınız. Belə müqavilə bölgədəki başqa ölkələrlə də imzalana bilərmi və bunun bir məqsədi də Ermənistanın, dolayısı ilə həm də Rusiyanın yolunu kəsməkdirmi?

Cavab: Bilirsiniz, Rusiyanın hədəfi nədir, - mənim üçün bunu sizə xırdalamaq lazım deyildir. Əgər Rusiya Ermənistanda hərbi baza, böyük ordu hissələri saxlayırsa, nə üçün saxlayır? Konsert vermək, yaxud da toy etmək, ticarət etmək üçün saxlamır ki! Əgər bir ölkə başqa bir ölkədə ordu saxlayırsa, bunun məqsədi aydındır, bunu sizə deməyimə ehtiyac yoxdur. Rusiya təkcə Ermənistanda yox, Gürcüstanda da böyük ordu hissələri saxlayır. Rusiyanın Ermənistanda olan ordu hissələrinə son zamanlar hərbi baza statusu verilibdir. Bu anlaşma da həm Rusiyanın Parlamentində, həm də Ermənistanın Parlamentində təsdiq edilibdir. Demək, Rusiya burada öz silahları ilə uzun müddət qalmaq fikrindədir. Bundan siz özünüz nəticə çıxarın.

O ki qaldı bizim Türkiyə ilə imzaladığımız strateji əməkdaşlıq haqqında anlaşmaya, belə anlaşmanı Gürcüstanla, Ukrayna ilə də imzalamışıq. Əgər bizim üçün başqa münasib tərəfdaş olsa onunla da imzalamağa hazırıq.

Sual: Böyük neftin nəqli üçün Bakı-Ceyhan boru kəməri barədə sual verəcəyəm. Bilirəm ki, Sizin bu səfərinizə qədər heç bir hökumət qəti təklif verməmişdir. İndiki səfəriniz zamanı Türkiyə hökuməti Bakı-Ceyhan neft kəmərinin çəkilməsi haqqında dəqiq təklif veribmi?

Cavab: Sizin sualınız bir az aydın deyil, amma mən çalışaram buna cavab verim.

Sual: Məncə, Azərbaycan hökuməti özü qərara almalıdır ki, bu neft kəməri İrandan keçsin, yoxsa Türkiyədən. Bu barədə heç bir hökumət Sizə qəti təklif verməmişdir. Bu görüşlər zamanı Türkiyə hökuməti Sizə dəqiq təklif veribmi və əgər veribsə, bunu necə qiymətləndirirsiniz?

Cavab: Siz səhv edirsiniz, bizə təklif verənlər çoxdur. Böyük neft kəmərinin cürbəcür marşrutları barədə arzularını bildirənlər və müraciət edənlər də çoxdur. Ona görə də bu neft kəmərinin bir çox variantı var, ancaq biz isə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında imzaladığımız anlaşmada bunu əks etdirmişik, - çalışırıq və çalışacağıq ki, böyük neft kəməri Türkiyənin ərazisindən Ceyhan limanına keçsin.

Sual: Bakı-Ceyhan boru kəmərinin çəkilməsi üçün Türkiyədə yatırım qoyulmasını gözləyirsinizmi?

Cavab: Əgər Bakı-Ceyhan boru kəməri çəkiləcəksə, onun üçün böyük yatırım da qoyulacaqdır. Bu böyük layihəni yatırımsız həyata keçirmək olmaz.

Sual: Türkiyə ilə Ermənistanın

əlaqələrinin genişləndirilməsini necə qiymətləndirirsiniz?

Cavab: Son vaxtlar Türkiyə ilə Ermənistanın əlaqələri genişlənibdir. Biz sülhsevər dövlətik və heç bir ölkə ilə düşmənçilik etmək istəmirik. Ermənistana qarşı heç vaxt nə hərbi təcavüz etmişik, nə də bir düşmənçilik hərəkəti etmişik. Ermənistan təcavüzkardır, Azərbaycana təcavüz edibdir. Azərbaycan övladlarının qanını töküb, işğal olunmuş torpaqlarda Azərbaycanın bütün varidatını dağıdıbdır. Əsrlərlə insanların yaratdıqları mülklər, Azərbaycanın mülkiyyəti dağıdılıbdır, o yerlərdə bizim tarixi abidələrimiz, müqəddəs dini abidələrimiz dağıdılıbdır. Yəni Azərbaycana böyük həm maddi, həm də mənəvi zərər vurulubdur. Buna baxmayaraq, görürsünüz ki, biz üç ildir atəşkəs əldə etmişik və məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bunun şərti var. Şərti də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Belə olan halda, ümumiyyətlə, bu bölgədə iqlim tamamilə dəyişər və Ermənistan da bölgədəki bütün dövlətlərlə əməkdaşlıq edə, əlaqələrini genişləndirə bilər.

Türkiyə Azərbaycanın yaxın dostu, qardaşı olduğuna görə həmişə Ermənistanın bu təcavüzünün əleyhinə çıxıb və ona dəfələrlə deyibdir ki, siz Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasanız, təcavüzə son qoymasanız Türkiyə heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəkdir. Biz bunu məmnuniyyətlə qəbul edirik. Məmnuniyyətlə qəbul edirik ki, Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələr yoxdur, heç bir başqa dövlətlərarası əlaqələr yoxdur. Bu, belə də olmalıdır. Çünki Azərbaycanda qırılan insanlar sizin, türklərin bacıları, qardaşlarıdır. Azərbaycan torpağı, Türkiyə torpağı, xalqlarımız bir-biri ilə bağlıdır. Ermənistan gəlib Azərbaycan torpağında qan tökübdür, insanlarımızı qırıb və Türkiyə Ermənistanla əlaqə saxlasa bu, anlaşılmaz olar, Türk xalqı özü buna yol verməz, Türkiyənin ictimai rəyi buna yol verməz, - bunu mən bilirəm.

Ancaq təəssüflər olsun ki, son vaxtlar Türkiyədə bəzi adamlar qazanc əldə etmək, yaxud başqa məqsədlər üçün cürbəcür yollarla Ermənistanla əlaqələr yaratmaq istəyirlər. Bir müddət öncə çox təkid etdilər ki, Ermənistanın "H-50" hava yolu var, ona imkan vermək lazımdır. Biz buna etiraz etdik. Amma Türkiyə hökuməti tərəfindən bizə müraciət etdilər ki, bunu açsaq bəlkə Ermənistan yumşalar, bəlkə belə olar, elə olar. Yaxşı, biz buna razılıq verdik, "H-50" yolu açıldı. Amma Ermənistanın mövqeyində heç bir müsbət dəyişiklik olmadı.

İndi son zamanlar bizə məlumatlar gəlir, sizin qəzetlərdə yazırlar ki, Ermənistanın təyyarələri

Trabzona gəlib-gedir. Biz buna etiraz edirik. Hesab edirik ki, bu, Türkiyə-Azərbaycan əlaqələrinə çox zərər gətirər və mən bu barədə fikrimi Türkiyənin dövlət, hökumət başçılarına demişəm. Yaxud da ki, Türkiyənin bəzi adamları Ermənistanla ticarət qurmaq istəyirlər. Məsələn, İqdır vilayətinin valisi Ermənistanı ziyarət edib, hətta orada dini mərkəz var, ibadət edib, yaxud nə edib, - özü bilər, mən bilmirəm, sizin qəzetlərdə var idi. Ermənistan televiziyası da bunu veribdir, - biz Ermənistan televiziyasını izləyirik, seyr edirik. Bəzi tacirlər gedib-gəliblər, guya Ermənistanla ticarət edəndə kimsə nə isə qazanacaqdır. Ola bilər, kimsə nə isə qazanacaq, ancaq Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr qazanc, para üzərində qurulmamalıdır. Bizim ölkələrimizin böyük mənəvi kökləri var, bunları bir-birinə bağlayan milli köklər var. Bu milli, mənəvi mənafeyi ayrı-ayrı şəxslərin qazancına qurban vermək olmaz. Ona görə də mən bu barədə öz fikrimizi və etirazımızı Türkiyənin bütün dövlət və hökumət başçılarına bildirmişəm. Biz bildirmişik ki, buna yol vermək olmaz.

Məsələn, buradan bəzi tacirlər Ermənistana gediblər, sonra gəlib burada təbliğ ediblər ki, Ermənistanla ticarət aparmaq lazımdır. Yaxud da mən dünən, srağagün danışarkən bəzi şəxslər deyirlər ki, bilirsiniz, Türkiyə tacirləri deyir ki, guya iranlılar bizim mallarımızı alır, sərhəddən keçirib Ermənistanda sataraq para qazanırlar. Yaxşı olar, elə özümüz aparıb sataq və paranı da qazanaq.

Birincisi, bu, yanlış fikirdir. İranlılar özləri Ermənistanla çox geniş əlaqə yaradıblar, çox geniş ticarət aparırlar, ona çox yardım edirlər, oraya elektrik, qaz xətti çəkirlər, əməkdaşlıqları çox genişdir. Biz bu barədə İran hökumətinə öz etirazımızı bildirmişik. Ancaq təəssüflər olsun ki, İran hökuməti bizim bu sözlərimizə diqqət vermir və öz ticarətini, iqtisadi əlaqələrini aparır. Əgər Ermənistana getsəniz, - sizin bəzi müxbirlər bəzən Ermənistana gedirlər, türk, yaxud ermənidirlər, bilmirəm, bunu özünüz bilərsiniz, gedirlər, hətta Qarabağa da gedirlər, - əgər ədalətlidirlərsə, onlarda ədalət prinsipi və doğrudan türk qanı varsa görərlər ki, Yerevanın, Ermənistanın, Dağlıq Qarabağın bütün yollarında İran yük maşınları, avtomobilləri doludur. Yəni İran tacirlərinin Türkiyədən mal alıb, aparıb Ermənistanda satmağa ehtiyacı yoxdur. Onlar öz mallarını satırlar, çalışırlar ki, öz malları üçün xarici bazar tapsınlar. Niyə gəlib Türkiyənin malını alıb Ermənistanda satacaqlar? Sadəcə olaraq Türkiyənin ayrı-ayrı tacirləri gizli surətdə, - bunu bilirik, - Ermənistanla ticarət edir və sizin dövlət adamlarına deyirlər ki, guya bu malları iranlılar gəlib buradan alaraq aparırlar.

Sizə bir şeyi də demək istəyirəm. Biz İranın dövlət adamları ilə danışarkən onlar deyirdilər ki, niyə

bizi qınayırsınız ki, mal aparıb Ermənistanda satırıq, gedin Ermənistanın, Yerevanın bazarlarına, görün, nə qədər türk malları var. Bunu bizə iranlılar deyirlər. İndi gəlin araşdırın, türk malları oraya necə gedib çıxır, - iranlılar aparırlar, yoxsa Türkiyə tacirləri özləri gizli olaraq satırlar. Bu fikirlər - guya İran tacirləri aparıb sataraq pul qazanırlar, amma Türkiyə tacirləri qazana bilmirlər, - yanlış, aldadıcı fikirlərdir. Bunları qətiyyən qəbul edə bilmərik. Bir də deyirəm ki, Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələrinin mənəvi, milli kökləri var, bunları heç bir paraya, heç bir dollara, heç bir lirəyə dəyişmək olmaz. Mən xahiş edirəm, bunu biləsiniz.

Mən Türkiyədə olan insanların belə hərəkətlərini qınayıram, bunlara çox etiraz edirəm və güman edirəm ki, Türkiyədəki qardaşlarımız, türk xalqı özü, Türkiyənin ictimai rəyi gərək belə hallara yol verməsin.

Bəzən belə danışıqlar gedir ki, Ermənistana qapı açaq. Nə üçün qapı açasınız? Qoy, Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsın, ondan sonra birlikdə oturub fikirləşək ki, qapını haradan açmaq lazımdır. Yaxud, bu yaxınlarda Gürcüstan tərəfindən bizə belə bir məlumat gəldi ki, Türkiyə ilə Gürcüstan arasında iki qapı var, Türkiyədən Gürcüstana təklif olunub ki, üçüncü qapı da açmaq lazımdır. Bizimlə məsləhət edirlər ki, bu işə siz necə baxırsınız? Biz soruşuruq ki, bu qapı haradadır? Bu qapı Gürcüstanda ermənilərin birgə yaşadığı Cavaxeti deyilən yerdədir, demək, onu - üçüncü qapını ermənilər üçün açırlar. Gürcülərdən soruşduq ki, sizə iki qapı yetərlidirmi? Üçüncüyə ehtiyacınız varmı? Dedilər ki, yetərlidir, ehtiyacımız yoxdur. Bəs, kimə lazımdır? Dedilər ki, Türkiyə tərəfindən bizə belə təklif gəlib. Biz buna da etiraz etdik. Çünki bu, Gürcüstan üçün deyildi, Gürcüstanda Cavaxetidə bir yerdə yaşayan ermənilər üçün idi.

Bilirsiniz, mən bunu açıq deyirəm, - bəzən siz jurnalistlər mənə sual verirsiniz ki, burada incimisinizmi, - əlbəttə, belə şeylərdən inciyərəm və dost dostdan, qardaş qardaşdan inciməlidir. Mənə yaxın olmayan başqa bir ölkədən, yaxud xalqdan inciməyə haqqım yoxdur. Çünki onun mənim qarşımda heç bir öhdəliyi yoxdur, mənim də onun qarşısında heç bir öhdəliyim yoxdur. Amma Türkiyədən, türk xalqından, Türkiyə hökumətindən və Türkiyədə bu işlərə gedən bəzi insanlardan inciməyə haqqım var. Bu, mənim inciməyim deyil, Azərbaycan xalqının inciməyidir, Azərbaycan xalqı bundan çox narahatdır. Ona görə də istərdim ki, bunlardan nəticə çıxarasınız.

Yaxud qəzetlərdən bir müxbiriniz Dağlıq Qarabağa gedib və dünən elə biz burada olanda iki səhifəlik reportaj veribdir. Erməni təcavüzkarlarına yaxşı xidmət edirsiniz, eləyin.

Sual: Ermənistan-Azərbaycan

sərhədində yenidən atəş başlayırmı? Bu, ilkin neft kəmərinin çəkilməsi ilə hansısa şəkildə əlaqədardımı?

Cavab: Belə hallar olur, bəzən atəşkəs pozulur. Son vaxtlar Ermənistan tərəfdən Azərbaycanın məhz Qazax, Tovuz bölgələrində atəşkəsi pozmağa cəhd edirlər. Sizə deyə bilərəm ki, sərhəddə atışmalar bəzən üçdörd saat davam edir və o tərəfdən də, bu tərəfdən də insanlar həlak olubdur. Bu, o yerdir ki, indi biz Bakıdan Gürcüstandakı Supsa limanına oradan ikinci neft kəməri çəkirik. Bilirsiniz ki, birinci neft kəmərini Bakıdan Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına çəkirdik. Bu, ilkin neftin ixracı üçündür. Supsa limanı Türkiyəyə çox yaxın limandır. Belə fikirlər söyləyirlər, mətbuatda belə yazılar gedib ki, məhz boru xəttinin çəkilməsinə mane olmaq üçün orada atəşkəsi pozurlar. Belə fikirlər var.

Sual: Cənab Prezident, Türkiyə qəzetlərinin yazdığına görə, Levon Ter-Petrosyanın Türkiyəyə səfəri gözlənilir və o, işgüzar dairələrlə əlaqələri sıxlaşdırmaq istəyir. Ola bilərmi ki, işgüzar dairələr vasitəsilə Ermənistan rəsmi Ankaraya təsir göstərmiş olsun? Rəsmi Ankaradan nə kimi zəmanət aldınız? Gürcüstan ilə Türkiyə arasında üçüncü qapı açılması məsələsi dövlətlərarası məsələdir. Rəsmi Ankaranın buna münasibəti necədir?

Cavab: Mən sizə dedim, gürcülər bizə müraciət etmişdilər. Biz etirazımızı bildirdik, sonra nə olacaq, - bu, Türkiyə ilə Gürcüstanın işidir. Amma biz buna etiraz edirik.

Ter-Petrosyanın səfəri barədə mənim məlumatım yoxdur və Türkiyənin dövlət və hökumət rəhbərləri mənim dediyim bu fikirlərlə razıdırlar. Söz verirlər ki, onlar heç bir hərəkətə yol verməyəcəklər, heç bir qapı açılmayacaq və belə halların qarşısını alacaqlar. Söz veriblər və ümid edirəm ki, verdikləri sözü yerinə yetirməlidirlər.

Sual: Mən yenə Türkiyə qəzetlərinə istinad edirəm. Yazırlar ki, İstanbulda keçirilən biznes forumunda Azərbaycan və Türkiyə tərəfindən Ermənistan prezidentinə neft kəmərinin Ermənistandan keçməsi təklif edilib ki, Ermənistan da öz qoşunlarını Azərbaycan ərazisindən çıxarsın. Bu fikirlərə sizin münasibətinizi bilmək istərdim.

Cavab: Türkiyə tərəfindən mənə belə təklif olmayıbdır. Qəzetlər haradan götürürlər, bunu bilmirəm.

Sual: Belə bir məsələ - neft kəməri və ərazi məsələsi reallaşa bilərmi?

Cavab: Bilirsiniz, neft kəməri və ərazi, - mən sözün belə qoyuluşu ilə razı deyiləm. Ancaq bizim bu neft kəməri haradansa keçəcəkdir, elədirmi? Əgər doğrudan da neft kəməri bölgədə sülhün yaranmasına kömək edə bilərsə, bunu müzakirə etmək olar. Bölgədə sülh təkcə bizim üçün deyil, hamı üçün lazımdır. Türkiyə üçün də lazımdır. Mən bunu Türkiyənin bütün ictimai rəyinə çatdırıram, - qoy Türkiyədə fikirləşməsinlər ki, bütün bu hadisələr Türkiyəyə toxuna bilməz. Əgər Ermənistanda o qədər silah toplanırsa, Türkiyə də düşünməlidir, fikirləşməlidir.

Ona görə də bu bölgədə, Qara dəniz, Xəzər dənizi bölgəsində sülhü təmin etmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır.

Sual: Hörmətli Prezident, atəşkəs haqqında sazişdən sonra Ermənistan silahlanmışdır. Buna qarşı Azərbaycan dövləti nə kimi tədbirlər görməkdədir?

Cavab: Azərbaycan dövləti Rusiyanın Prezidentinə məktublar göndərib. Ermənistana gizli, qeyri-qanuni silah verildiyinə görə mən Rusiyanın Prezidenti cənab Boris Yeltsinə üç dəfə məktub göndərmişəm, müraciət etmişəm. Xahişim də ondan ibarət olubdur ki, Rusiya dövləti tərəfindən təcili tədbirlər görülsün. Ermənistana qeyri-qanuni, gizli surətdə verilmiş silahlar Rusiyaya qaytarılsın. Mən Moskvada olarkən, martın 28-29-da Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin Prezidentlərinin görüşü zamanı bu məsələ müzakirə edildi. Mən bu məsələni qaldırmışam və bütün dövlət başçılarına, o cümlədən Rusiyanın Prezidentinə öz fikirlərimi bildirmişəm.

Rusiya Prezidenti ilə müzakirə etdiyimiz məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında Rusiyanın fəaliyyətinin artırılmasıdır, - çünki, sizə dediyim kimi, Rusiya Minsk qrupunun həmsədridir, - eyni zamanda Rusiyanın bəzi dairələri tərəfindən Ermənistana gizli, qeyri-qanuni olaraq silahların verilməsidir. Boris Yeltsin mənə bildiribdir ki, o, bu məsələni araşdırmaq barədə göstəriş veribdir. Moskvada mətbuat konfransında da biz - Boris Yeltsin, başqa respublikaların Prezidentləri, o cümlədən mən bir yerdəydik. Orada sual veriləndə mən bildirdim ki, Boris Yeltsin söz verib ki, bu məsələnin araşdırılmasını nəzarət altında saxlayacaq və məsələ araşdırılan kimi lazımi tədbirlər görəcəkdir.

Bilməlisiniz ki, Rusiya parlamenti bu məsələ barəsində qərar çıxarıb, onu Rusiyanın baş prokuroruna göndəribdir. İndi baş prokuror tərəfindən istintaq, araşdırma aparılır. Parlamentin qərarı Rusiya Prezidentinə də göndərilibdir. Biz gözləyirik. Amma gözləməyimizin məqsədi bir o deyil ki, orada kimi isə cəzalandırsınlar, - bu Rusiyanın daxili işidir. Məqsədimiz odur ki, Ermənistana qeyri-qanuni verilmiş silahlar geri qaytarılsın və bundan sonra Rusiya Ermənistana heç bir silah verməsin.

Sual: Hörmətli Prezident, indiyə qədər Bill Klinton ilə üç dəfə görüşmüsünüz. Onu da bilirəm ki, Almaniyanın, İngiltərənin Xarici İşlər nazirləri Bakıya gəldilər, Azərbaycan ilə Ermənistan arasındakı münaqişə barədə sizin mövqeyinizə yaxın olan mövqelərini bildirdilər. Azərbaycan hökuməti Xəzər neft ya-

taqlarının işlənməsinin böyük hissəsini Qərb şirkətlərinə vermişdir. Qərb ölkələri isə öz şirkətlərinin mənafeyini qorumağa çox həssasdırlar. Qərb ölkələri ermənilərə təsir göstərə bilirlər. Bu baxımdan Azərbaycan torpaqlarının işğaldan qurtarmasında ABŞ, Fransa və digər Qərb ölkələri nə üçün daha çox fəallıq göstərmir, bu işğala son qoymurlar?

Cavab: Birincisi, sən bunu onlardan soruş, onların əvəzinə cavab verə bilmərəm. Ancaq onu demək istəyirəm ki, bəli, mən Amerika Prezidenti cənab Bill Klintonla da görüşərkən, onunla telefonla da danışarkən, Fransa Prezidenti ilə görüşəndə də, - son üç ayda onunla iki dəfə görüşmüşəm, - artıq dedim ki, Rusiya Prezidenti ilə bir ay öncə görüşmüşəm. Almaniyanın həm Prezidenti, həm kansleri, həm də Xarici İşlər naziri ilə görüşmüşəm, - hamı söz veribdir. Xüsusən indi, Rusiya, Amerika, Fransa Minsk qrupunun həmsədrləri olduğu zaman üçü də söz verib ki, bu işə fəal qoşulacaqlar və bu məsələnin həlli ilə məşğul olacaqlar. Onlar bəyan ediblər ki, Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplər bu danışıqların əsasını təşkil edəcəkdir.

Sual: Rusiya iqtisadi çətinliklər içərisindədir və böyük həcmdə silah satır, əl altından da satır. Siz Rusiyanın dövlət başçısının verdiyi sözə inanırsınızmı?

Cavab: Sizin qəzet niyə Ermənistanla belə əməkdaşlıq edir?

Sual: Azərbaycanla da əməkdaşlıq edər, başqa yerlə də. Bizim əleyhimizə olan xəbərləri də veririk.

Cavab: Əgər sən Azərbaycanla Ermənistanı bir gözlə görürsənsə, bir münasibət göstərirsənsə, çox sağ ol. Sən türksən? Amma mən istəməzdim ki, türklər belə olsunlar, açıq danışıram. Rusiya, Rusiyanın Prezidenti söz veribdir və güman edirəm ki, o, sözünü yerinə yetirməlidir. Əgər Türkiyənin qəzeti özünü bu cür aparırsa, onda mən Rusiyanın Prezidentindən nə gözləyə bilərəm?

Sağ olun, təşəkkür edirəm.

Azərbaycan Prezidenti Heydər Əliyevin ona "Fatih" Universitetinin "Fəxri Doktor"u adı verilməsi mərasimində nitqi

İstanbul. 8 may 1997-ci il

Hörmətli dövlət naziri!

Hörmətli vali!

Hörmətli rektor!

Hörmətli professorlar, müəllimlər!

Əziz tələbələr, bacılar və qardaşlar!

Sizə Azərbaycan xalqından hərarətli salam yetirirəm. Sizə, "Fatih" Universitetinə və böyük türk xalqına səadət və xoşbəxtlik arzulayıram.

Biz bu salona daxil olarkən burada Azərbaycanın çox sevimli mahnılarından biri olan "Sizə salam gətirmişəm" mahnısı səslənirdi. Bu gün burada hər bir insan bir-birini salamlayır və mahnı ilə də sizə Azərbaycan salamı gəlibdir. Mən bu sözlərimlə də sizə salamımı, hörmət-ehtiramımı və sevgi-məhəbbətimi bildirirəm.

Əziz dostlar, mən Türkiyənin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə dörd gündür ki, rəsmi səfərdəyəm. Mənimlə bərabər buraya gəlmiş Azərbaycan nümayəndə heyətinin tərkibində ölkəmizin görkəmli şəxsləri, nazirlər, dövlət adamları, millət vəkilləri, elm, mədəniyyət xadimləri, yazıçılar, şairlər, musiqiçilər vardır. Dörd gündür bizim hamımız Türkiyənin qucağındayıq. Biz Türkiyə xalqı, Cümhuriyyəti, qardaş-bacılırımız tərəfindən həddindən ziyadə dostluq münasibəti və qardaşlıq hissiyyatları görürük və hiss edirik. Türkiyə Cümhuriyyətinə, onun Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə xalqına və sizə bütün bunlara görə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Biz bütün bu günlər Türkiyədə Azərbaycan xalqına, respublikasına, müstəqil Azərbaycana və şəxsən bizə çox böyük hörmət və ehtiram görürük. Bunlar cürbəcür formada ifadə olunur. Ancaq hamısı birlikdə Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının indi nə qədər yüksək zirvələrdə olduğunu bütün dünyaya nümayiş etdirir. Bu, bizim üçün böyük iftixar hissidir.

Azərbaycana göstərilən bu hörmət və ehtiramın, qardaşlıq təzahürü olaraq Türkiyə dövləti məni - Azərbaycanın Prezidentini Türkiyənin yüksək mükafatı olan "Dövlət nişanı" ilə mükafatlandırdı. Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl bu mükafatı təntənəli şəkildə mənə təqdim etdi. Mən bu hadisəni çox yüksək qiymətləndirirəm. Bu, mənim fəaliyyətimə, indiyədək keçdiyim yola və mənim Azərbaycan xalqı qarşısında göstərdiyim xidmətlərə, o cümlədən Türkiyə - Azərbaycan dostluğunun inkişaf etdirilməsində göstərdiyim xidmətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir.

Mən bu mükafata görə təşəkkür edirəm. Bir daha sizi, Türkiyə Cümhuriyyətini əmin edirəm ki, Azərbaycan xalqına, mənə göstərilən bu yüksək etimadı Türkiyə - Azərbaycan dostluğunu möhkəmləndirmək, respublikamızın dövlət müstəqilliyini daha da yüksəklərə qaldırmaq yolunda doğruldacağam.

Dünən biz İzmir şəhərində olduq. İzmirdə "9 Eylül" Universitetində görüşlər keçdi. "9 Eylül" Universiteti mənə bu universitetin "Fəxri Doktor"u adını verdi. Bu, mənim

üçün böyük hadisədir. Mən çox minnətdaram.

Bu gün biz "Fatih" Universitetindəyik. Siz mənə, Azərbaycanın dövlət başçısına universitetin "Fəxri Doktor"u adı verilməsi münasibətilə toplaşmısınız. Mən universitetə, universitetin rektorluğuna, idarə heyətinə və universitetin bütün kollektivinə mənə göstərilən bu hörmət və ehtirama, şərəfə görə, mənə verilən yüksək ada görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, "Fatih" Universitetinin həm fəxri doktoru kimi, həm də onun yaxın dostu kimi mən bu universitetin gələcək işlərinin uğurlu olmasına daim öz köməyimi göstərəcəyəm.

"Fatih" Universiteti yaşca gənc universitetdir. Ancaq sevindirici hal odur ki, təşkil olunduğu qısa müddətdən sonra universitet sürətlə inkişaf edibdir. İndi universitetin böyük tərkibdə professor-müəllim kollektivi, gözəl tələbələri, belə dəyərli insanları vardır.

Universitet Türkiyənin böyük şəxsiyyəti Fatihin adını daşıyır. Universitetin qurulması məramı çox xoş məramdır. Universitet və onunla bağlı olan vəqf Türk dünyasında Türk xalqının, türkün tarixini, milli ənənələrini, keçdiyi yolu təbliğ etməkdə və türk dilini, təhsilini, tədrisini qurmaqda, yaratmaqda, Türk Cümhuriyyətlərində yeni-yeni tədris ocaqları - universitetlər, kolleclər, litseylər açmaqda çox böyük xidmətlər göstərir. Bu, tək bir universitet deyil, onun çox böyük qol-qanadı vardır. Yəni bu vəqfin çox böyük qol-qanadı var. Onun böyük qanadlarından biri bu universitetdir. Mən fürsətdən istifadə edib bu vəqfin Türkiyənin və Türk Cümhuriyyətlərinin həyatında son illər gördüyü işlərə yüksək qiymət verirəm. Görülən bu işlər münasibətilə sizi təbrik edirəm. Bu vəqfin yaranmasında, yaşamasında çox böyük xidmətlər göstərmiş Xoca Fətullah Günelin xidmətlərini qeyd edirəm.

Biz Azərbaycanda çox sevinirik, iftixar hissi keçiririk ki, Türkiyənin təhsil ocaqları gündən-günə genişlənir, güclənir və sayca artır. Türkiyənin yüksək təhsil ocaqları, universitetləri Türkiyə Cümhuriyyəti, Türk dünyasının gələcəyi üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Bizi sevindirən bir də odur ki, Türkiyənin siyasəti, mədəniyyəti də, mənəviyyatı, təhsili də, elmi də Türkiyə Cümhuriyyətinin banisi, qurucusu böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla, onun vəsiyyətlərini yerinə yetirmək yolu ilə gedir.

Mustafa Kamal Atatürk bütün Türk dünyasının tarixi şəxsiyyətidir. Türkiyə Cümhuriyyətinin yüksək zirvəyə çatmasında, Türk xalqının 70 ildən artıq bir zamanda əldə etdiyi nailiyyətlərin qazanılmasında onun göstərdiyi xidmətlər əvəzsizdir. Türkiyə Cümhuriyyətinin yaranması ilə Türk dünyasında gedən proseslərə göstərilən təsirdə,

Türk Cümhuriyyətlərinin, türkdilli xalqların bir-birinə daha sıx qovuşmasının təmin olunmasında, türk köklü millətlərin milli azadlıq və müstəqillik uğrunda mübarizəsi sahəsində aparılan işlərdə də onun xidmətləri və onun ideyalarının təsiri böyükdür.

Ona görə də Mustafa Kamal Atatürk bütün Türk dünyasının əvəzsiz, ölməz lideridir.

Əziz dostlar!

Bu günlər bizim buradakı bütün görüşlərimiz, danışıqlarımız və imzaladığımız müqavilələr, digər sənədlərin hamısı Türkiyə - Azərbaycan əlaqələrini genişləndirmək, ölkələrimizin dostluğunu, qardaşlığını möhkəmləndirmək və daha da yüksəklərə qaldırmaq məqsədi daşıyır.

Biz bir neçə saatdan sonra Türkiyəni tərk edəcəyik. Mənim səfərim başa çatır. Bu anlarda mən böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bizim bu səfərimiz uğurlu olubdur. Qarşımıza qoyduğumuz məqsəd yolunda biz ciddi addımlar atmışıq. Bizim bu günlərdəki danışıqlarımız, əldə etdiyimiz razılıqlar və müqavilələr Türkiyə - Azərbaycan əlaqələrinin gələcək inkişafında yeni bir mərhələ açıbdır. Bu baxımdan xüsusən, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Türkiyə və Azərbaycan Prezidentlərinin imzaladığı sənədin xüsusi əhəmiyyət daşıdığını mən bir daha vurğulamaq istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu müqavilənin əsasında bizim strateji əməkdaşlığımız, iş birliyimiz bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Türkiyə və Azərbaycan bundan sonra daim bir yerdə olacaq, bizim qardaşlıq əlaqələrimiz sarsılmaz olacaqdır.

Bu gün biz bir çox məsələləri müzakirə etdik. Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bütün məsələlərin hamısında biz Türkiyənin dövlət və hökumət başçıları ilə yekdil olduğumuzu müşahidə etdik. Biz eyni fikirdəyik, mövqedəyik. Həm dünya siyasətinə, həm də bölgədə olan vəziyyətə və bütün başqa məsələlərə eyni düşüncələrlə, eyni fikirlərlə baxırıq. Bu, çox əhəmiyyətlidir. Bu, bizim üçün xüsusi əhəmiyyətlidir, eyni zamanda Türkiyə üçün də əhəmiyyətlidir. Çünki Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Hesab edirəm ki, Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

Bizim danışıqlarımız həm iqtisadi sahədə, həm də dünya siyasəti sahəsində əməkdaşlığı artırmaqdan, genişləndirməkdən ibarət olubdur, eyni zamanda bölgəmizdə, Qafqazda yaranmış gərgin vəziyyəti, Ermənistanın Azərbaycana etdiyi təcavüzü aradan qaldırmaq problemləri ilə əlaqədar olubdur. Biz bu məsələləri ətraflı müzakirə etmişik, ümumi fikrə gəlmişik və mən əldə etdiyimiz razılıqlardan və danışıqlardan çox razı olduğumu bildirmək istəyirəm.

Bizim iqtisadi əlaqələrimiz inkişaf edir, ancaq hesab edirəm ki, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. İqtisadi əlaqələrimizin ən mühüm cəhəti ölkəmizin Xəzər dənizində və Azərbaycan ərazisində olan neft və qaz yataqlarından müştərək istifadə olunmasında Türkiyənin iştirakı ilə bağlıdır. Siz bilirsiniz ki, 1994-cü ilin oktyabr ayında ölkəmiz dünyanın böyük neft şirkətləri ilə Azərbaycan neft yataqlarının müştərək istifadə edilməsi üçün "Əsrin müqaviləsi" adlanan böyük bir müqavilə imzalayıbdır. Bu müqavilə imzalanarkən burada Türkiyənin kiçik bir hissə payı vardı. Sonra Azərbaycan öz hissəsindən Türkiyənin payını artırdı. Ondan sonra imzalanan müqavilədə Türkiyənin payı daha da çoxdur. Beləliklə, Türkiyə Azərbaycanın ən böyük sərvəti olan neft yataqlarından istifadə olunmasında bizimlə bərabər, müştərək istifadə edir.

Gələcəkdə Azərbaycanda böyük həcmdə neft hasil olunacağı gözlənilir. İndi bu neftin dünya bazarına çıxarılması üçün yollar araşdırılır. Bu neftin haradan, hansı yolla keçəcəyi, necə olacağı məsələsi indi dünyanın bütün ölkələrində - həm Qərbdə, həm Şərqdə, həm Avropada, həm Amerikada, həm Rusiyada , həm də başqa ölkələrdə müzakirə olunur. Çünki bu neft borusu hansı ölkənin ərazisindən keçsə, həmin ölkə böyük qazanc əldə edəcəkdir.

Bilirsiniz ki, ilkin neftin ixracı üçün biz iki neft borusunun tikilməsi haqqında qərar qəbul etmişik. Bunlardan biri şimal istiqamətində - Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikincisi qərb istiqamətində Gürcüstan ərazisindən Qara dənizin Türkiyəyə çox yaxın olan Supsa limanına gedəcəkdir. Ən böyük neft kəməri haqqında çox söhbətlər gedir, bu günlərdə mənə burada da çox suallar verilib. Mən demişəm və sizə də bildirmək istəyirəm ki, bu neft borusunun Türkiyə içərisindən Ceyhana keçirilməsi bizim istəyimiz, arzumuzdur. Biz bu yolda çalışırıq və çalışacağıq.

Burada müzakirə olunan məsələlərdən biri, bizim üçün ən əsası və əhəmiyyətlisi, ən vacibi Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmasıdır. Bilirsiniz ki, 1988-ci ildə Ermənistan Azərbaycanın ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağı ələ keçirmək üçün ölkəmizə qarşı hərbi təcavüzə başlayıbdır. Bu, həm Ermənistanın, həm də Azərbaycanın hələ Sovetlər Birliyinin tərkibində olduğu bir zamanda başlayıbdır. Ancaq təəssüf ki, o zamanlar Sovetlər Birliyinin başçıları Azərbaycana qarşı ədalətsiz münasibət göstəriblər və bu münaqişənin baş verməsinin qarşısını almayıblar.

Mən sizə bildirmək istəyirəm ki, bu Dağlıq Qarabağ məsələsi yeni bir məsələ deyil. Ümumiyyətlə, ermənilər "Böyük Ermənistan" xülyası

ilə yaşayırlar. Onlar hesab edirlər ki, Türkiyənin çox hissəsi də, Azərbaycanın bir hissəsi də, Gürcüstanın çox hissəsi də, İranın da bir hissəsi Ermənistanın torpağıdır. Onlar bu fikirlərlə yaşayırlar və təəssüflər olsun ki, bəziləri bu fikirlərlə indi də yaşayırlar. Ancaq o vaxt, 1988-ci ildə onlar bu istəklərini, yəni bu planlarını həyata keçirmək üçün ən zəif nöqtə Azərbaycanı gördülər və o vaxt Sovetlər İttifaqı başçılarının gizli dəstəyi nəticəsində belə bir təcavüz başladı.

Bu gün mən sizinlə çox səmimi söhbət edirəm. Bəlkə də bu, bir az çox vaxt alır. Ancaq bu tarixi hamı bilməlidir. Burada mənim tərcümeyihalım haqqında deyildi. 1987-ci ilin oktyabr ayında mən Moskvada tutduğum ən yüksək vəzifələrdən istefa verdim. Mən istefa verəndən düz 20 gün sonra erməni millətçiləri Fransa mətbuatında yazdılar ki, Dağlıq Qarabağ Ermə-nistana verilməlidir. Həmin bu məsələni yayan, erməni millətindən olan professor Aqanbekyan - o, həmişə Moskvada yaşayıb, orada da çalışır və Sovetlər Birliyinin başçılarına çox yaxın olan bir adam olubdur, - Fransada bəyanat verdi ki, bu məsələ Sovetlər Birliyinin başçısı Qorboçovla da razılaşdırılıbdır. Bundan sonra erməni millətçiləri Azərbaycana təzyiq göstərməyə, təcavüz etməyə başladılar.

Yəni mənim Moskvada, Sovetlər Birliyinin başında duran bir orqanın ən yüksək nöqtələrindən birində olmağım ermənilərin qarşısını alırdı. Mən ondan əvvəlki illərdə də - Azərbaycana 14 il başçılıq etdiyim zaman və Moskvada olduğum 5 il ərzində ermənilərin Dağlıq Qarabağa olan bu iddialarının qarşısını almışdım. Demək, bu məsələyə başlamaq üçün Heydər Əliyevi aradan çıxarmaq, onu uzaqlaşdırmaq lazım idi. Bu da oldu. Mən istefa verdim, bundan 20 gün sonra bu proses başlandı. Sonra bu, hərbi təcavüzə çevrildi. Hərbi təcavüz 1988-1989-cu illərdə davam etdi. O vaxt - Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olan zaman bu münaqişənin qarşısını almaq mümkün idi. Çünki biz keçmiş zamanlarda bunların qarşısını almışdıq. Almaq mümkün idi, ancaq bunu etmədilər. Çünki Ermənistanı dəstəklədilər və Azərbaycanın bir hissəsini Ermənistana verməyə razılıq verdilər.

Bu səbəbdən və Azərbaycanın daxilində olan səbəblərdən, günahlardan da Ermənistan son illərdə təcavüzünü artırdı.

Nəticədə o dövrdə Azərbaycanın ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş bu torpaqlardan bir milyondan artıq vətəndaş yerindən-yurdundan zorla çıxarılıb, qaçqın vəziyyətində yaşayır. 7 milyon əhalidən bir milyonu qaçqın vəziyyətindədir. Onların tam əksəriyyəti çadırlarda yaşayır. Siz də, biz də bilirik ki, çadırda yaşamaq nə qədər olar - bir ay, iki ay, üç ay olar, bu-

nun yayı da, qışı da, yazı da var, istisi, soyuğu da vardır. Dörd ildir bizim bu qədər insanlarımız ailəsi, uşaqları ilə birlikdə çadırlarda yaşayırlar. Təsəvvür edin, insanlar çadırlarda ailə qurur, çadırda uşaq doğulur, çadırda insanlar xəstəlikdən vəfat edirlər. Bu, Azərbaycan üçün nə qədər böyük faciədir. Bu, heç vaxt unudulmamalıdır.

Əgər biz üç ildir atəşi dayandırmışıqsa, kəskin müharibə getmirsə də, ancaq Azərbaycanın həyatında bu ağır, çətin problem, faciə var, durubdur. Bunu heç kəs unutmamalıdır. Biz də unutmuruq. Şübhəsiz ki, biz bu məsələ ilə məşğul oluruq. Bu məsələni Türkiyədə də heç kəs unutmamalıdır.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Biz döyüşlər apardıq, vuruşlar getdi, insanlar həlak oldu, şəhidlər verdik. Ancaq üç il bundan əvvəl biz ümumi bir fikrə gəldik ki, atəşi dayandırmaq lazımdır. 1994-cü il mayın 12-də - üç il bundan əvvəl biz atəşin dayandırılması üçün atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, ancaq eyni zamanda sülh də yoxdur. Atəş yoxdur, amma ermənilər üstünlük əldə ediblər. Azərbaycan torpaqları işğal olunubdur. Dağlıq Qarabağ ermənilərin əlinə keçib. Dağlıq Qarabağdan olan azərbaycanlılar çoxdan qovulublar. İşğal olunmuş torpaqlardan azərbaycanlıların hamısı zorla çıxarılıbdır. İşğal olunmuş torpaqlar viran edilibdir, dağıdılıbdır. Bizim oradakı məscidlərimiz, müqəddəs dini, tarixi, mədəni abidələrimiz, Azərbaycanın əmlakı dağıdılıbdır. Belə vəhşilik, barbarlıq tarixdə görünməmiş bir şeydir. Amma təəssüf ki, biz belə bir vəziyyətə dözürük.

Hesab edirik ki, keçmiş illərə nisbətən indi üç il atəşkəs dövrü daha münasibdir. Ona görə də biz bu atəşkəs dövrünü qoruyub saxlayırıq. Ona görə qoruyub saxlayırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Çünki Ermənistanı dəstəkləyən ölkələr çoxdur. Ermənistanın ərazisində başqa ölkələrin ordusu, hərbi hissələri vardır. Məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz bu sahədə çox çalışırıq.

Görülən bütün bu işlərin müsbət nəticəsi ondan ibarətdir ki, keçən ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları Ermənistan - Azərbaycan münaqişəsini müzakirə etdilər. Qərar qəbul edildi ki, məsələnin sülh yolu ilə həlli üçün prinsiplər qəbul olunsun. Həmin prinsiplər qəbul olundu və üç bənddən ibarətdir. Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli muxtariyyət hüququnun verilməsi və Dağlıq Qarabağın bütün əhalisinə - həm erməni, həm də azərbaycanlı əhalisinə gələcəkdə təhlükəsizlik üçün təminat verilməsi.

Bu, bizim tərəfimizdən kompromis bir qərardır. Ancaq biz bu qərarı qəbul etdik ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan tərəfi bunu qəbul etmədi. ATƏT-in üzvü olan 54 dövlətdən 53 dövlətin başçısı, - bir Ermənistandan savayı, - bunu qəbul etdi, təsdiq etdi.

İndi biz bu prinsiplər əsasında sülh danışıqları aparırıq. ATƏT-in Minsk qrupu bu işlə məşğul olur. Bu ilin əvvəlindən ATƏT-in Minsk qrupunda üç dövlət həmsədr təyin olunubdur - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Onların köməyi və vasitəçiliyi ilə biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bu gün fürsətdən istifadə edib bir daha bildirmək istəyirəm ki, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanandan indiyədək, bütün mərhələlərdə, bütün dövrdə Türkiyə həmişə Azərbaycanla bərabər olub, Azərbaycanı dəstəkləyibdir, beynəlxalq təşkilatlarda məsələlərin müzakirəsi zamanı Azərbaycana çox yardımlar edibdir. Nəhayət, keçən il Lissabon Zirvə görüşündə dediyim həmin prinsiplərin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun Prezidenti hörmətli Süleyman Dəmirəlin xüsusi xidmətləri olmuşdur. Biz Lissabonda onunla görüşüb danışmışdıq, bu məsələləri müzakirə etmişdik. Bunların nəticəsində Lissabon bəyanatı əldə olunmuşdur və birgə hərəkət etmişdik. Ona görə də Türkiyənin bu məsələlərlə əlaqədar Azərbaycana verdiyi dəstəyi və mənəvi yardımı, beynəlxalq təşkilatlarda, başqa təşkilatlarda göstərdiyi yardımı biz yüksək qiymətləndiririk. Buna görə mən bir daha təşəkkürümü bildirirəm.

Ancaq məsələnin həlli indi yeni səylər tələb edir. Biz Ankarada bu məsələləri müzakirə etdik. Türkiyə bu məsələlərdə bundan sonra daha fəal olacağını bildirdi. Biz əminik ki, bu, belə də olacaqdır, ancaq eyni zamanda, Ermənistanı yerində oturtmaq, təcavüzkar hərəkətlərindən əl çəkməyi Ermənistana anlatmaq lazımdır. Ermənistan bilməlidir ki, o, ədalətsizdir, təcavüzkardır, beynəlxalq hüquq normalarını pozubdur.

Mən bu baxımdan Ermənistan-Türkiyə münasibətləri barədə bir neçə kəlmə demək istəyirəm. Son vaxtlar Türkiyənin mətbuat orqanlarında bəzi yazılar gedir ki, Ermənistanla Türkiyə arasında sərhəd xətlərini bəzi yerlərdə açmaq, ticarət etmək, iqtisadi əlaqələr qurmaq lazımdır. Təəssüflər olsun ki, son vaxtlar Ermənistandan daha çox adamlar Türkiyəyə, o cümlədən İstanbula gəlirlər. Guya burada iş adamları ilə görüşürlər, danışıqlar aparırlar.

Mətbuatda artıq bəzi fikirlər dolaşır ki, Ermənistanla bu qədər sərt münasibətdə, yəni ticarət nöqteyi-nəzərindən, nəsə itiririk. Bunlar bizi narahat edir. Mən bu barədə bizim mövqeyimizi, fikrimizi Türkiyənin dövlət və hökumət başçılarına bildirdim. Bildirdim ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır, bir milyondan çox azrbaycanlını, türkü öz yerindən-yurdun-

dan çıxarıbdır, bu qaçqınlar ağır vəziyyətdə yaşayırlar. Ermənistan Azərbaycana təcavüz edibdir. Ermənistana heç bir güzəşt ola bilməz, onunla heç bir ticarət aparmaq olmaz, heç bir qapı açıla bilməz.

Hesab edirəm ki, əgər Türkiyədə kimsə qazanc, para, iqtisadi əlaqələr naminə belə yolla getsə, Türk xalqı, Türkiyənin ictimaiyyəti buna qətiyyən yol verməz. Hörmətli professorlar və hörmətli dövlət naziri bu gün burada Türk dünyası haqqında çox gözəl sözlər dedilər. Bəli, Türk dünyası yeni mərhələ yaşayır. Biz çox məmnunuq ki, bütün cümhuriyyətlər öz müstəqilliyini əldə ediblər. Türkiyə Cümhuriyyətinin keçdiyi yol, yaratdığı hüquqi, dünyəviliyə layiq dövlət yeni müstəqillik əldə etmiş türkdilli, türk köklü dövlətlər üçün örnəkdir, nümunədir.

Belə olan halda biz həmişə baxmalıyıq - bizim böyük dünyamızda, böyük bədənimizdə hansı nöqtə ağrıyır, yaralıdır, xəstədir, oraya daha da diqqət yetirmək lazımdır. Bax, yaranmış bu böyük dünyanın içində Türk dünyasının ən yaralı yeri Azərbaycandır. Çünki Azərbaycanın torpaqları işğal olunubdur.

Çünki bizim Türk dünyasının bir milyon azərbaycanlısı yerindən-yurdundan didərgin düşübdür, çadırlarda qaçqın vəziyyətində yaşayır. Ona görə də Türkiyədə yaşayan hər bir dostumuz, qardaşımız, bacımız düşünməlidir ki, o çadırda olan adam necə yaşayır, nə cür yaşayır.

Mən hesab edirəm ki, bu məsələlərdə Türkiyənin dövlət siyasəti çox ciddi olmalıdır. Türkiyənin bütün ictimai rəyi, fikri də sağlam olmalıdır. Əgər kimsə bu məsələlərdə o tərəfə, bu tərəfə əyirsə, güman edirəm ki, qəhrəman, çox qüdrətli, namuslu, qeyrətli Türk xalqı onları öz yerində oturdar.

Bu məsələlər haqqında mən çox açıq və kəskin danışıram, bir də ona görə ki, biz üç ildir Ermənistanla atəşkəs rejimi şəraitində yaşayırıq. Biz istəyirik ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq bir-iki ay bundan əvvəl aşkar edilib ki, həmin bu üç il müddətində Rusiya Ermənistana gizli olaraq, qeyri-qanuni yolla çoxsaylı silahlar, özü də çox ağır, həddindən artıq təhlükəli silahlar veribdir.

Rusiya Ermənistana gizli yolla 1 milyard dollar dəyərində silah veribdir. Onların içərisində müasir silahlar, onlarca, yüzlərcə müasir tanklar, raketlər, toplar vardır. Bu həmin raketlərdəndir ki, vaxtilə Rusiya onlardan Kiprə vermişdi və burada tamamilə doğru, düzgün olaraq böyük bir narahatlıq yaranmışdı. Rusiya həmin raketlərdən Ermənistana da veribdir. Yəni 1 milyard dollar dəyərində olan silahlar nəinki Azərbaycanı, bütün bölgəni dağıda bilər. Görürsünüz, vəziyyət necədir?

Siz bilirsiniz ki, eyni zamanda Rusiyanın Ermənistanda hərbi bazaları, hərbi, əsgəri hissələri vardır. Bu hərbi bazaların orada qalması artıq hüquqlaşdırılıbdır və bununla əlaqədar bağlanmış müqavilə Rusiyanın və Ermənistanın parlamentlərində təsdiq olunubdur. Rusiyanın Gürcüstanda da hərbi bazası vardır, onların sərhədlərində də Rusiyanın əsgərləri durubdur. Amma Azərbaycan tam müstəqildir. Azərbaycanda heç bir xarici ölkənin əsgəri yoxdur. Çünki biz həm müstəqilliyimizi qoruyuruq, həm də sülh siyasəti aparırıq. Sülh siyasəti aparırıqsa, demək, başqa bir ölkənin əsgərinin bizim ölkəmizdə olmasına ehtiyac yoxdur.

Əgər müstəqilliyimizi qoruyuruqsa, müstəqilliyimiz tam olmalıdır. Əgər başqa bir ölkənin ordusu və yaxud ordu hissəsi gəlib bizim torpağımızda olsa, şübhəsiz ki, bu, bizim müstəqilliyimizin tam olmağını göstərməyəcəkdir. Ona görə də biz müstəqilliyimizi qorumağı özümüz üçün ən böyük vəzifə hesab edirik. Bu baxımdan indi bu bölgədə, Qafqazda, o cümlədən Türkiyənin mənsub olduğu bölgədə yaranmış hərbi vəziyyət çox narahatedicidir, qorxuncdur və bunu bilmək, bunu nəzərə almaq lazımdır. Bizim sülh siyasətimiz, Türkiyənin sülh yolunda mübarizəsi və Azərbaycana bundan sonra göstərəcəyi dəstək daha güclü, daha yetərli olmalıdır. Bu baxımdan mən hesab edirəm ki, Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır və eyni zamanda böyük qüdrətli dövlət kimi hər cür yardımını Azərbaycandan əsirgəməməlidir.

Azərbaycanın iqtisadiyyatında çox ciddi dəyişikliklər gedir.

Siz bilirsiniz ki, biz demokratiya yolu ilə gedirik, hüquqi demokratik, dünyəvi dövlət qururuq, bazar iqtisadiyyatını inkişaf etdiririk. "Torpaq islahatı haqqında" qanun qəbul etmişik, torpağı şəxsi mülkiyyətə veririk. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatını dəyişdirir. Azərbaycan bir neçə ildən sonra iqtisadi dirçəliş dövrünü keçirəcəkdir.

Azərbaycanda dünyanın böyük neft şirkətləri ilə beş neft müqaviləsi imzalanıbdır. Bu neft müqavilələrinin böyük gələcəyi vardır. Yəni bizim gələcəkdə haradansa iqtisadi yardım almağa ehtiyacımız olmayacaqdır. Amma bu gün bizim bu ehtiyacımız vardır. Bizim bu ehtiyacımızı da heç kim ödəmir, o cümlədən Türkiyə də ödəmir. Ermənistana Rusiya da, Amerika da, başqa dövlətlər də kömək edir. Ermənilərin bu ölkələrdə olan diasporu da onlara kömək edir. 1992-ci ildə Amerika Konqresi Azərbaycana köməyə embarqo, yəni qadağan qoyubdur. Nəyə görə? Guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Amma həqiqətdə Ermənistan Azərbaycanın ərazilərini işğal edibdir, respublikamızı blokadaya alıbdır.

ABŞ Konqresi tərəfindən belə bir ədalətsiz qərar qəbul olunubdur. Bu da Amerikada yaşayan erməni diasporunun vasitəsilə qəbul edilibdir. Amerika Ermənistana hər il 100 milyon dollarla kömək etdiyi halda Azərbaycana heç bir kömək etmir,

başqa ölkələrə kömək etdiyi halda Azərbaycana kömək etmir. Rusiya Ermənistana kömək edir, Ermənistanda olan AES-in bərpa olunmasına, işləməsinə kömək etdi, çoxlu maliyyə yardımı və başqa yardımlar, köməklər gös-tərdi. Amma Azərbaycana heç kim kömək etmir.

Azərbaycan müstəqil dövlət kimi yaşayacaqdır. Azərbaycanın gələcəyi çox gözəl olacaqdır. Ancaq hesab edirəm ki, Azərbaycan - Türkiyə əlaqələri o qədər yüksək səviyyədədir ki, indi respublikamızın iqtisadiyyatının daha da irəliyə getməsi üçün bizim Türkiyədən yardım istəməyə haqqımız vardır. Hesab edirəm ki, Türkiyənin dövlət və hökumət başçıları da bu məsələ barədə düşünməlidirlər.

Əziz dostlar, qardaşlar!

Bu günlər bizim üçün xoşbəxt günlərdir. Çünki biz bir-birimizə canla, qanla yaxın olan qardaş və bacılarımızla bir yerdəyik. Bizim tarixi keçmişimiz həqiqətən zəngindir. Bizim ulu babalarımız öz həyatını bir yerdə qurublar. Bizim dilimizi də onlar yaşadıb inkişaf etdiriblər, milli ənənələrimizi, adətlərimizi də, mədəniyyətimizi də onlar yaşadıb inkişaf etdiriblər və bizə böyük sərvətlər veriblər. İndi biz bunların sahibiyik. Biz bir dildən, bir dindən, bir kökdən olan xalqlarıq. Canımız da, qanımız da birdir. Hamısı birdir. Ona görə də bu günlər biz həddindən artıq sevinc içindəyik. Bizim tarixi şəxsiyyətlərimiz Yunus İmrə, Dədə Qorqud, Manas, Füzuli, Nizami və başqa böyük şəxsiyyətlər türk dilini, mədəniyyətini, mənəviyyatını yaşadıblar, nəsillərdən - nəsillərə veriblər. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, bizim müştərək bir kökümüz var. Biz fəxr edirik ki, indi Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra biz bu əlaqələri inkişaf etdirməyə daha da böyük imkan tapmışıq.

Azərbaycan öz dövlət müstəqilliyinin altıncı ilini yaşayır.

Bu illər Azərbaycan üçün çox ağır, çətin illərdir. Dağlıq Qarabağ haqqında və Ermənistanın Azərbaycana təcavüzü haqqında dedim. Amma bilirsiniz ki, Azərbaycanın daxilində də nə qədər çətin, ağır proseslər olmuş, vətəndaş müharibəsi baş vermiş, insanlar bir-birinə qarşı çıxmış, silahlı dəstələr hakimiyyəti silahla ələ keçirmək istəmişdir. Biz bunların hamısını aradan götürə bildik. Mən sizə bildirmək istəyirəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sərbəstdir, sabitdir, əmin-amanlıq təmin olunubdur. Azərbaycanın dövləti bütün Azərbaycana hakimdir, respublikaya tam nəzarət edir.

Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir. Bu gün mən sizə, əziz bacı-qardaşlarımıza bildirmək istəyirəm ki, biz dövlət müstəqilliyini günügündən möhkəmləndirəcəyik, inkişaf

etdirəcəyik, qoruyub saxlayacağıq. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əyilməzdir, əbədidir.

Bütün bu işlərdə biz daim Türkiyə Cümhuriyyətinin tarixi təcrübəsindən bəhrələnirik. Mən dedim, bir də qeyd edirəm ki, Türkiyə Cümhuriyyətinin keçdiyi şanlı yol, əldə etdiyi nailiyyətlər və xüsusən demokratik, hüquqi dövlət quruculuğu, sərbəst iqtisadiyyat quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər bizim üçün örnəkdir. Bu gün bir daha böyük iftixar hissi ilə demək olar ki, **Türk xalqı cümhuriyyət qurulandan indiyədək bu cümhuriyyətin qurucusu, yaradıcısı, banisi böyük Mustafa Kamal Atatürkün tutduğu yol ilə gedir və biz hesab edirik ki, bu yol, yalnız bu yol Türk xalqını bundan sonra daha da yüksəklərə qaldıracaq, qələbədən-qələbəyə aparacaqdır.**

Mən bir daha sizə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bir daha bildirmək istəyirəm ki, **Azərbaycanda Türkiyənin xüsusi yeri var.** Sizin vəqfin və universitetin Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu işlərə həmişə dəstək vermişəm, bundan sonra da dəstək verəcəyəm.

Əziz dostlar, bacılar, qardaşlar!

Sizə cansağlığı arzu edirəm. Sizə səadət arzu edirəm. Universitetinizə işlərində yeni-yeni uğurlar arzulayıram. Türk xalqına, Türkiyə Cümhuriyyətinə səadət, əmin-amanlıq və daim yüksəliş arzu edirəm.

Eşq olsun Türkiyə Cümhuriyyətinə!

Eşq olsun Türk xalqına!

Yaşasın böyük Türkiyə!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın əbədi, sarsılmaz Türkiyə - Azərbaycan dostluğu!

Sağ olun!

Türkiyənin "TRT", "TQRT", "Samanyolu", "NTV" televiziya kanalları rəhbərləri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

İstanbul, "Çırağan" oteli
8 may 1997-ci il

Hörmətli cənablar!

Mən sizi salamlayıram. Türkiyədə televiziya çox inkişaf edibdir, çoxlu televiziya kanalları var. Onların bəziləri Azərbaycanda da birbaşa yayılır. Azərbaycanda Türkiyəninki qədər başqa bir ölkənin televiziya kanalları yayılmır. Bunlara Azərbaycanda çox böyük maraq hissi ilə baxılır. Çünki, birincisi, Türkiyənin həyatı Azərbaycanı daim maraqlandırır. İkincisi, Türkiyə televiziyası vasitəsilə bir çox dünya məlumatları Azərbaycan vətəndaşlarına çatır. Üçüncüsü də Türkiyə televiziyasının məlumatı həm dünya məlumatıdır, həm də insanların həyatıdır. Türkiyə

ilə Azərbaycanın həyatı bir-birinə çox yaxın olduğuna görə, mədəniyyətimiz, adət-ənənələrimiz bir-birinə çox yaxın olduğuna görə insanlar bu verilişlərə çox böyük maraqla, hörmət və məhəbbətlə baxırlar. Ona görə mən bu televiziya kanallarına təşəkkür edirəm ki, onlar öz verilişlərini Azərbaycanda da yayırlar.

İndi Azərbaycan televiziyası ilə Türkiyənin televiziya kanalları arasında əməkdaşlıq da var, ancaq bu, istənilən səviyyədə deyildir. Məsələn, insanların bir çoxu belə fikirdədir ki, Azərbaycan televiziyasının verilişləri Türkiyənin televiziya kanallarının vasitəsilə burada da yayılsın. Azərbaycanın bir televiziyası, dövlət televiziyası var. Özəl televiziyalar da var, onlar kiçikdir. Azərbaycan televiziyasının proqramları Türkiyədə yayılsa, yaxşı olardı. Türkiyədə insanlar televiziyaya alışıblar, onu sevirlər. Ona görə belə imkan olsa, Türkiyə üçün də, Azərbaycan üçün də çox xeyirli olar.

Bilirəm ki, bunun texniki problemləri var, müəyyən maliyyə problemləri də var, ancaq hesab edirəm ki, əgər Türkiyə tərəfi müəyyən çarə, yol tapıb bunu edə bilsə, çox yaxşı olar. Siz də bilirsiniz, biz də bilirik ki, Azərbaycanın musiqisini, şərqilərini, mədəniyyətini Türkiyədə çox sevirlər. Əgər bizim televiziyanın burada yayımları olsa, Türkiyə tamaşaçıları bütün bunlarla daha yaxından tanış ola bilərlər.

Əlbəttə, bunları siz həll edə bilməzsiniz, ancaq bizim hörmətli dostumuz, Dövlət naziri Namiq Kamal Zeybək, ola bilər, bu işlərə diqqət yetirsin və Azərbaycana çox böyük hörmət və ehtiram hissi bəslədiyinə görə, - ölkəmiz dövlət müstəqilliyini əldə edən zamandan indiyə qədər Azərbaycanla çox əlaqəli olub, - güman edirəm, bunu edə bilər.

Bizim teleşirkətdən mənə dedilər ki, bəzən bir saatlıq proqram Türkiyənin "TQRT" kanalı vasitəsilə verilir. Bəzən Azərbaycan televiziyasında elan olunur ki, bizim vaxtla səhər saat 8.30-da "TQRT" ilə veriliş yayımlanacaqdır. Bizim vaxtla səhər saat 8.30-da Türkiyədə səhər saat 6.30 olur, bilmirəm, insanlar bu vaxt yuxudan ayılırlarmı? Təşəkkür edirəm ki, belə bir addım atılıb, ancaq bunun vaxtını dəyişsəniz daha yaxşı olar. Hər bir televiziyaçı həmişə hesablayır ki, onun nə qədər tamaşaçısı var. Hər şey onunla ölçülür. Bəzi proqramlar hazırlanıb buraya göndərilir və Türkiyədə də "TQRT" vasitəsilə verilir, amma bunun vaxtı dəyişsə, daha yaxşı olar.

Mən bunu müzakirə etmək istəmirəm, sadəcə, belə bir problemin olduğunu deyirəm, baxın, görün. Bizim teleşirkətin rəhbəri Nizami Xudiyevi göndərə bilərəm, gəlib sizinlə görüşsün, danışsın. Hesab edirəm, əlverişli yollar tapa bilərsiniz. Mən sadəcə bu problemin olduğunu deyirəm.

Hacı Tosun ("Samanyolu" televiziyasının baş direktoru): Bir zaman Qarabağ məsələsi başlayanda televiziyamız yox idi. Onda Qarabağ hadisələrinə aid bir sərgi açdıq, xaricilər bu sərgiyə baxdılar. İndi ictimai rəy bu problemi sanki unutmuşdur. Biz arzu edirik ki, bu problem sülh yolu ilə həll edilsin. Zati-alilərinizdə bunu dəfələrlə dilə gətirdiniz. Bu məsələ türk ictimai rəyində sanki unudulmuşdur.

Heydər Əliyev: Onu çox doğru buyursunuz, çox doğru fikirdir. Qarabağ problemi Türkiyədə unudulur, dünyada unudulur, çünki üç ildir barışdır, savaş getmir. Adətən, belə problemlər kəskin savaş getdiyi zaman daha da çox qoyulur. İndi savaş getmir. Ancaq eyni zamanda bu problem həll olunmayıbdır. Bu problemi unutmaq olmaz, heç bir şeyi unutmaq olmaz. Ümumiyyətlə, bu bölgədə, - bu günlərdə bunu bir neçə dəfə demişəm, - Ermənistan amilini unutmaq olmaz. Son üç ildə Rusiya Ermənistana 1 milyard dollarlıq silah veribdir. Nə üçün veribdir, - bunu da unutmaq olmaz. Yaxud da ki, Ermənistanda, Gürcüstanda, yəni sizin sərhədlərinizdə, bizim sərhədlərimizdə Rusiyanın əsgəri bazaları, hərbi hissələri yerləşibdir, - bunu da unutmaq olmaz. Belə şeyləri unutmaq olmaz. Doğrudur, dünən mən burada mətbuat konfransında dedim, - sizdə bəzi adamlar, qəzetçilər Yerevana, hətta Dağlıq Qarabağa da gedirlər, sonra gəlib burada təbliğat aparırlar ki, Ermənistanla da ticarət edək. Bir neçə ildən sonra deyəcəklər ki, Dağlıq Qarabağla da ticarət aparaq. Çünki sizin qəzet yazıb ki, "Dağlıq Qarabağ indi de-fakto baxımsızdır". Bu gün belə yazan on gündən sonra deyəcək ki, "Baxımsız dövlət kimi gəlin onunla əlaqələr yaradaq".

Ona görə də sizin fikrinizi çox bəyənirəm, çox gözəl fikirdir və rica edərdim ki, bu mövzu heç vaxt unudulmasın. Biz unutmuruq. Bilirsiniz, biz Türk dünyası haqqında danışırıq, eləbirmi? Burada da, Ankarada da, İzmirdə də hamımız böyük iftixar hissi ilə deyirik ki, Türk dünyası qalxır, heç vaxt olmadığı kimi birbirinə yaxınlaşır. Amma bu Türk dünyası böyük bir yurd-dursa, orqanizmdirsə bunun yaralı yeri haradır? Yaralı yeri Azərbaycandır. Hesab edin ki, insanın bədənində harasısa yaralıdır - qolu, qıçı, ya qafası yaralıdır. Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü təkcə Azərbaycana qarşı olan təcavüz deyildir. Bunu dəfələrlə çox böyük ehtiram hissi ilə qeyd etmişəm, - böyük Mustafa Kamal Atatürk deyib ki, Azərbaycanın dərdi bizim dərdimiz; Azərbaycanın sevinci bizim sevincimizdir. Bu sözləri unutmaq lazım deyildir. Bu gün Azərbaycanın dərdi var, demək, bu, Türkiyənin də dərdidir. Türkiyənin təbliğat orqanlarında - televiziyasında, qəzetlərində bu dərdin ağrısı unudulmamalıdır.

Mən demirəm ki, bu dərd var, oturub gözümüzün yaşını tökək, - yox. Amma dərdi aradan götürmək

üçün nə işlər görmək, nə etmək lazımdır və bu işlərin görülməsinə kim, nə üçün mane olur, - bunlar unudulanda hissiyyatlar korşalır. Hissiyyatlar korşalanda isə insan bəzən çox şeylərdə yanlışlıqlar buraxır.

Məsələn, Azərbaycanda yerindən-yurdundan didərgin düşmüş bir milyondan artıq insanlar, qaçqınlar var. Bu sözləri o qədər demişik ki, insanların qafası buna öyrənib, beş il, iki-üç il əvvəl olduğu kimi hissiyyatlı qəbul etmirlər. Ancaq kənardan, yabançı ölkələrdən Azərbaycana gələn insanlar gedib çadırlarda qaçqınları bu vəziyyətdə görəndə, qışda da, yazda da, yayda da görəndə - dəhşətə gəlirlər. Xatirimdədir, bir il, ilyarım bundan öncə məşhur Amerika siyasətçisi Bjezinski Azərbaycana gəlmişdi, vertolyotla çadırlar olan yerə getdi. Gələndən sonra axşam mən onunla görüşdüm. Bilirsiniz, həyəcanından özünə gələ bilmirdi. Deyirdi ki, mən dünyanın hər yerində qaçqın düşərgələrində olmuşam, fələstinlilərin, əfqan mücahidlərinin düşərgələrində, Afrikada da olmuşam, amma belə dəhşətli hal görməmişəm.

Şübhəsiz bu barədə Azərbaycanın özü də çox günahkardır ki, bunu geniş yaya, təbliğ edə bilmir. Bizim imkanımız azdır, kiçik ölkəyik, ancaq böyük təbliğat maşını, orqanları olan Türkiyə bunu etməlidir. Yəni biz öz günahımızı bilirik və ümumiyyətlə, sizə deyim ki, Türkiyə, Azərbaycan, yaxud türklər hamımız birlikdə bu işlərdə zəifik.

Ermənilər 1915-ci ildən indiyə qədər dünyanın hər yerində təbliğat aparırlar ki, "Türklər bizi qırdı, öldürdü, soyqırımı etdilər". Bunu hər yerdə yayırlar. Amma bunun müqabilində türklər ermənilərin Türkiyə ərazisində nə qədər cinayət etdiklərini, xəyanət etdiklərini demirlər. Siz, sadəcə, müdafiə mövqeyindəsiniz, yəni fikirləşirsiniz, - deyirlər, desinlər, bizə heç bir şey edə bilməzlər, böyük dövlətik, ölkəyik. Amma onlar öz işlərini görürlər. Hər il Amerika konqresində istəyirlər ki, Türkiyənin ermənilərə qarşı soyqırımı haqqında qərar çıxarılmasına nail olsunlar, amma edə bilmirlər. Ancaq hər il aprel ayında ölkələrin ictimai rəyinə səs salırlar ki, türkləri vəhşi kimi, soyqırımı edən kimi göstərsinlər.

Amma onlar doqquz ildir azərbaycanlıları, türkləri qırırlar. Xocalıda nə qədər vəhşətlər, soyqırımı etdilər, - bunu bir dəfə, iki dəfə dedik, orada-burada göstərdik. Biz bunu heç də unutmamışıq. Bu, qəlbimizdə, bədənimizdə daim qanı tökülən, qan sızan yaradır. Amma ümumiyyətlə bu, bizim passivliyimizdir, ermənilərin fəallığı bizim passivliyimizdən çoxdur. Azərbaycanın da, türklərin də passivliyi çoxdur, ona görə də ermənilər bundan istifadə edirlər. Sizin dediyiniz sözlərin üstünə gəlib çıxıram ki, əgər bu bir milyon qaçqın haqqında daim bizdə də, sizdə də, Avropada da verilişlər getsə, unudulmaz.

Məsələn, 20 Yanvar hadisələrini bizim Azərbaycanın özündə bəziləri unudurlar. Bilirsiniz, mən 1993-cü ildə Bakıya gəldim. 20 Yanvar hadisəsində Azərbaycanın o vaxtkı başçıları da günahkar idilər, ona görə də bunun üstünü örtüb basdırdılar. Neçə il idi ki, bu məsələ müzakirə olunmurdu. Düzdür, o vaxt Azərbaycanda müxalifətdə olan qüvvələr, məsələn, Xalq Cəbhəsi, filan bunu qaldırırdılar. Bilirəm, burada Azərbaycan Xalq Cəbhəsinin pərəstişkarları var. Amma siz də bilməlisiniz ki, Xalq Cəbhəsi 1992-ci ildə hakimiyyətə gəldi, ondan sonra 20 Yanvar hadisələrini unutdu. Əgər sən müxalifətdə olanda hakimiyyətdəki adamın boğazından tutmuşdunsa ki, 20 Yanvar hadisəsində günahkarsan, filan- beşməkansan, indi hakimiyyət sənin əlindədir, aç bu məsələni, açmadılar!

1992-ci il də, 1993-cü il də keçdi.

1993-cü ildə mən Bakıya gəldim. 1994-cü il yanvarın 20-də, bu hadisənin dördüncü ilində mən bu məsələni qaldırdım.

Parlamentdə bir ay müzakirə getdi. Bir çox insanlar deyirdilər ki, nəyə lazımdır bunu yenidən qaldıraq, nə üçün qaldıraq? Bunu o işdə günahkar olan, vaxtilə kommunist rejiminin başında duran adamlar da edirdilər. Amma təəssüf ki, vaxtilə müxalifətdə olan və 20 Yanvar hadisəsində doğru, düzgün mövqedə duran adamlar da dedilər ki, bunu nə üçün müzakirə edək?

Mən özüm də gedib parlamentdə otururdum ki, dinləyim. Hətta Xalq Cəbhəsindən olan bir millət vəkili, - gənc adamdır, özü də bizim naxçıvanlıdır, konserv zavodunda kiçik bir iqtisadçı işləmiş adamdır, sonra gəlib oturmuşdu orada, bunlar belə idilər, Xalq Cəbhəsindən olanlar hər biri özünü dahi hesab edirdi, - mənə deyir ki, siz bunu düz etmirsiniz, çünki belə hadisələri bir 50 ildən sonra araşdırmaq olar, indi araşdırmaq olmaz. Bizim başkanımız Əbülfəz Elçibəy də deyib ki, 50 ildən sonra araşdırmaq olar. Dedim ki, 50 ildən sonra nə sən olacaqsan, nə o, nə də mən olacağam. Şahidlər də olmayacaq-dır. Bu, birincisi. İkincisi, əgər biz bu gün araşdıra bilərikso, nə üçün araşdırmayaq? Nə üçün belə deyirdilər? Çünki hamının bu işdə barmağı vardı - biri o tərəfdən, biri bu tərəfdən.

Amma xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam. Ona görə mən 20 Yanvar hadisəsini qoymuram unudulsun. 1994-cü ildən indiyə qədər hər il, - bu il də bir ay Azərbaycan televiziyasında bütün bu məsələlər yenidən qaldırılır. Buna Mos-kvada çox pis baxırlar. Çünki Moskvada o vaxt vəzifədə olan bəzi adamlar bu işin günahkarlarındandırlar. Əgər mən də özümü o tərəfdən də, bu tərəfdən də qorumaq istəsəm, deyərəm ki, niyə bunu edim,

oradan da, buradan da mənə pis baxacaqlar, niyə başımı ağrıya salım? Azərbaycanda belə bir söz var: ağrımayan başımı niyə ağrıdım. Sizdə belə söz varmı? Hesab edirəm ki, əgər mənim başım ağrımırsa, millətin faciəsi ilə bağlı qoy on dəfə də ağrısın. Amma bunu unutmaq olmaz. Biz televiziyada, qəzetlərdə bir ay bunu veririk.

Mən belə fikirdəyəm ki, nə qədər millətimiz yaşayır, 20 Yanvar hadisələrini unutmaq olmaz, çünki bu, xalqımızın başına gətirilən hadisədir. Təsəvvür edin, Sovetlər Birliyinin tarixində, - onun daxilində on beş respublika var idi, o cümlədən Azərbaycan, bu tarixi mən yaxşı bilirəm, - heç bir xalqın, heç bir ölkənin başına o qədər faciə gətirilməmişdi. Amma bizim millətin də passivliyi olub. 1989-cu ildə Gürcüstanın paytaxtı Tbilisidə də xalq ayağa qalxmışdı, meydanda mitinq etmək istəyirdi. Gürcüstanda olan sovet əsgərləri onları bir az sıxışdırdı, on beş-on altı adam öldü. Gürcülər dünyaya hay qaldırdılar. Moskvadan gürcü xalqından üzr istəməyi tələb etdilər. Moskva hakimiyyəti, yəni Sovet hakimiyyəti gürcü xalqından üzr istədi.

Ondan bir il sonra, 1990-cı il yanvarın 20-də Azərbaycanın başına belə bəla gəldi. Bizim azərbaycanlılar bu işi nəinki qaldırmadılar, hətta susdular, buna görə də nə bizdən üzr istəyən oldu, hətta çoxlarının fikrincə, bu, belə də olmalı idi.

Bax, buna görə də yenə sizin sözünüzə qayıdıram, - çox doğrudur ki, Qarabağ məsələsini unutmaq olmaz. Əgər indi savaş getmirsə, bunun cürbəcür problemləri var, bunları daim vermək lazımdır. Çadırlarda yaşayan insanların vəziyyəti barədə həftədə bir dəfə Türkiyənin televiziyasında məlumat verilsə, - deyirsiniz ki, TQRT dünyanın yarısını əhatə edir, amma elə vaxtda verin ki, hamı baxa bilsin, - insanlar görəcəklər ki, bu qədər vəhşilik var. Amma bunlar unudulduğuna görə Avropada da, Amerikada da, Rusiyada da hesab edirlər ki, nə olub, ermənilər Azərbaycanda bir şey etməyiblər ki...

Yunus Şən (NTV): Ermənistan Prezidenti ilə son görüş-lərinizdə bir nöqtəyə gələ bildinizmi?

Heydər Əliyev: Bilirsiniz, bu, mürəkkəb prosesdir. Ona görə hər bir görüşdən nəticə gözləmək də real deyildir. Keçən dəfə Qara dəniz iş birliyinə gələndə İstanbulda məndən də çox soruşurdular. Danışırıq, fikir mübadiləsi gedir, amma istənilən nəticə olmadığına görə deyilən şeyləri də açmağa ehtiyac yoxdur.

Danışıqları bundan sonra da davam etdirəcəyik, mən hər dəfə imkan olan yerdə - ya Moskvada, ya burada, ya Avropada, yaxud Amerikada görüşürəm və hesab edirəm ki, bu, lazımdır. Çünki bir halda ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik, bu sülh iki tərəfin razılığı ilə ola bilər. Bizim prinsiplərimizi, yəni Lissabon Zirvə görüşündə qəbul

olunmuş prinsipləri Ermənistan qəbul etmir. Eyni zamanda onlar deyirlər ki, bu məsələni sülh yolu ilə həll etmək lazımdır.

Bəli, sülh yolu ilə həll etmək lazımdır. Ancaq əgər sülh, barış yolu ilə həll edirikssə, bunun yolu budur, gəlin bu yolla gedək. Bilirsiniz, bu proses 1988-ci ildən başlanmış bir şeydir və özü də bu proses zamanı o qədər səhvlər, yanlışlıqlar buraxılıbdır ki, ola bilər, o tərəfdən də, bu tərəfdən də olubdur, amma hər tərəf hesab edir ki, doğru hərəkət edib, o birisi səhv buraxıbdır, bunları aradan götürmək üçün, görünür, hələ çox görüşlər olmalıdır. Bunların istənilən nəticəsi olmadığına görə mən də bunu çox açmıram və güman edirəm ki, bunu belə də anlamaq lazımdır.

Yunus Şən: Sayın Əliyev, bir neçə gündür Türkiyədəsiniz, görüşlər keçirdiniz. İstər iqtisadi, istər siyasi və digər sahələrdə düşündüklə-riniz nə dərəcədə gerçəkləşdi?

Heydər Əliyev: Bilirsiniz, istədiyim olsa da, olmasa da Türkiyədən daxilən həmişə rahatam. Çünki Türkiyəyə mənim və Azərbaycan xalqının o qədər məhəbbəti var ki, ola bilər, bir şeylə razı olasan, ya olmayasan, razı olmamağın da bu məhəbbəti pozmur. Deyirik ki, Türkiyə və Azərbaycan qardaşdırlar. Bu, adi söz deyil, həqiqətən dərin məna kəsb edir. Ola bilər, bu qardaş o qardaşdan pul istəsin, o bunu verməsin. O, bununla razı olmur, amma onun qardaşlıq hissiyyatı o qədər güclüdür, əzizdir ki, razı olmasa da, ola bilər, inciyir, ancaq sonra üstündən keçir. Bu, belədir. Başqa, yad adamdan, yaxud da bağlı olmadığın, yəni qan bağlılığı olmayan adamdan sən bunu istədin, - o vermədi və sən bu sözü dedin, o səninlə razı olmadı. Sən ondan həm küsürsən, həm də onunla düşmən olursan, tamam inciyirsən. Bu, tamamilə fərqli şeydir.

İndi siz də deyirsiniz, dünən də dedilər ki, mən incidim. Bilirsiniz, dost dostdan inciyər. Azərbaycanda bir söz var, insan uman yerdən küsər. Bu söz sizdə varmı - uman yerdən küsərlər? Ummayan yerdən mən niyə küsürəm? Küsdüm - küsmədim, onun üçün də, mənim üçün də bunun əhəmiyyəti yoxdur, uman yerdən küsərlər. Azərbaycan Türkiyədən çox şey umur. Bütün xalqımızda, o cümlədən məndə də belə fikir var ki, Türkiyə böyük dövlətdir, böyük imkanlara malik olan dövlətdir. Türkiyə bizim qardaşımızdır, qan qardaşımız, can qardaşımızdır. Qan qardaşı olan da, Azərbaycanda yenə bir söz var, öz boğazından kəsib qardaşına verir. Lazımdır ki, xalqımızın milli adət-ənənələri dövlətlərimizin arasında da olsun.

Yaxşı, 1992-1993-cü illərdə "Eksimbank" 250 milyon dollar kredit ayırıb, onun da cəmi 70 milyon dolları verilib. Bu 70 milyon dollara da o vaxt buğda alıb veriblər, çünki insanlar ac idi, buğda yox idi. Başqa şeyə verməyiblər. Əgər yatırıma ve-

riblərsə, para götürüblərsə, gəl, parasını apar! Dərmana veriblər, - çünki bizim döyüşçülər qan içində idilər, buğdaya veriblər, başqa bir şeyə verməyiblər. İndi Türkiyə boğazımızdan tutub ki, bunu qaytar. Qaytara bilmirəm, 20 milyon dollar da faiz vermişəm. Mən bundan inciməyim?

Bilirsiniz, vaxtilə mən Sovetlər İttifaqının başında olan adam olmuşam. O vaxtlar Sovetlər İttifaqı özünə dost ölkələr yaratmaq üçün, - Asiyanın keçmiş müstəmləkə ölkələri, yaxud Afrika, Ərəb ölkələri, - bunlara nə qədər kredit verir, sonra çoxunu da bağışlayırdı. Düzdür, onlarla nə din bir idi, nə məslək bir idi, amma özünə dəstəkli ölkələr yaratmaq istəyirdi.

Sosialist ölkələrindən savayı başqa ölkələr də var idi, "Üçüncü dünya" ölkələri hesab olunurdu, - bilirsiniz də, bloklara qoşulmayan ölkələr, - onlara nə qədər kreditlər verirdi. Elə İraqın Sovetlər İttifaqına, indi Rusiyaya nə qədər borcu var, həddindən artıq borcu var. O vaxtlar verib, çünki İraqla əlaqəsi vardı, indi qaytarmır. İraqa indi silah satır ki, bəlkə bir şey əldə etdi. Axı, mən bu şeyləri görmüşəm, yəni böyük dövlətin kiçik dövlətə yardımını, köməyini görmüşəm. Bunu gördüyümə görə anlaya bilmirəm ki, niyə belədir.

Amerika Birləşmiş Ştatları Ermənistana gecə-gündüz yardım edir. Biz Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı iqtisadi maraqlarını çox genişləndirmişik. Amma 1992-ci ildə, bizim Xalq Cəbhəsi hakimiyyətdə olduğu zaman Amerika Birləşmiş Ştatlarının konqresi qərar çıxarıb ki, - 907-ci maddə var, siz bunu Amerikaya da deməmisiniz ki, nə üçün bu maddəni Azərbaycana tətbiq ediblər, - guya Azərbaycan Ermənistanı blokadaya götürübdür. Ona görə də Azərbaycana Amerikadan yardım göstərilməsi qadağan olunubdur. Mən indiyə qədər vuruşuram, bu qadağanı, 907-ci maddəni götürə bilmirəm. Bir belə şirkətlər gəldi, müqavilələr imzaladıq, Klintonla bir neçə dəfə görüşmüşəm, danışmışam, digərləri ilə də görüşmüşəm. Klinton da deyir ki, bəli, bu, ədalətsizlikdir, amma konqresə təzyiq göstərə bilmirəm.

Baxın, biz Amerikanın şirkətlərinə o qədər böyük imkanlar yaratmışıq, Amerika isə bizə yardım etmir. Amma Amerika keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan ölkələrin hamısına yardım edir. Ən çox da Ermənistana yardım edir - oraya ildə 100 milyon dollardan artıq yardım gedir, amma Amerika bizə yardım etmir.

O vaxtlar ki, buğda yox idi, insanlar ac idi, biz "Eksimbank"ın krediti ilə gedib orada-burada buğda axtarırdıq, Amerika birbaşa Ermənistana buğda göndərirdi. İndi də göndərir. Amerika Ermənistana bu köməyi edir. Amerikada, Fransada, başqa yerlərdə olan erməni diasporu, zəngin adamlar kömək edir, hamı kömək edir. Amma Türkiyə Azərbaycana heç bir kömək etmir, - mən maddi köməyi deyirəm. Bir dəfə kredit verib, indi də tutub boğazımızdan. Üç-dörd ildən sonra krediti də verə bilməyəcəyik, faizi də o kreditə bərabər olacaqdır. Belə də şey olarmı?

Keçmişdə mən bu barədə bir neçə dəfə müraciət etmişdim, eləcə qaldı. İndi bu dəfə də rəhbərlərə müraciət etmişəm. Axı mən bilirəm ki, hansı ölkə hansına nə yardım edir. Azərbaycana heç kəs yardım etmir. Rusiya Ermənistana nə qədər yardım edir. Ermənistanın atom elektrik stansiyası var. Bilirsiniz ki, 1992-ci ildə onu bağladılar. Ukraynadakı Çernobıl atom elektrik stansiyasında böyük qəza, faciə oldu, ona görə Ermənistan stansiyanı bağladı. Amma gördü ki, elektrik enerjisi olmadığından boğulur, Rusiyadan mütəxəssislər gətirdi. Rusiya oraya çox para qoydu, elektrik stansiyasını bərpa etdi, yenidən işə saldı. Rusiya olmasaydı, Ermənistan bunu edə bilməzdi. Rusiyanın parası, mütəxəssisləri, mühəndisləri, alimləri gəlib bunu işə saldılar.

Azərbaycana nə Rusiya yardım edir, nə Türkiyə, nə İran, nə Amerika yardım edir. Torpağımızın 20 faizi işğal altındadır, bir milyon da qaçqın var. Mən bunları deməməliyəm? Başqa şeylər də deyə bilərəm, ancaq bunlar bəsdir.

Sağ olun.

Türkiyənin iş adamları ilə görüşdə Heydər Əliyevin nitqi

İstanbul, "Suis" oteli
8 may 1997-ci il

Hörmətli qardaşlar, bacılar!

Mən Türkiyəyə rəsmi ziyarətimi sona çatdırıram. Bir saatdan sonra Türkiyəni tərk edirəm. Dörd gündür ki, Türkiyədəyəm. Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə üç il fasilədən sonra Türkiyəyə rəsmi səfərə gəlmişəm.

Şübhəsiz ki, bu müddətdə Türkiyənin dövlət başçıları, iş adamları, nazirləri ilə Azərbaycanda da, Türkiyədə də, başqa ölkələrdə də, beynəlxalq təşkilatların toplantılarında da çoxsaylı görüşlərim olubdur. Ancaq mən ilk dəfə 1994-cü ilin fevralında Azərbaycanın Prezidenti olaraq Türkiyəyə rəsmi səfərə gəlmişdim. Bu, ikinci rəsmi səfərdir.

Demək istəyirəm ki, bu rəsmi ziyarət bizim üçün çox uğurlu olubdur. Bu səfəri başa çatdırarkən mən və bu günlərdə mənimlə bərabər Türkiyədə olan Azərbaycan nümayəndə heyətinin üzvləri çox məmnun olduğumuzu bildirmək istəyirik. Səfəri sona çatdırarkən Türkiyənin Prezidenti hörmətli cənab Süleyman Dəmirələ bu rəsmi səfərə dəvətə görə və burada bizə göstərilən qonaqpərvərliyə, dost, qardaş münasibətinə görə, bizimlə aparılan çox səmərəli işlərə, əldə olunan nəticələrə və imzalanmış sənədlərə görə təşəkkürümü, minnət-

darlığımı bildirirəm.

Səfərimizin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, bütün sahələrdə Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında həm danışıqlar apardıq, həm də bizi təmin edən normativ-hüquqi sənəd olaraq böyük bir müqavilə, anlaşma imzaladıq. Bu anlaşma, müqavilə Türkiyə-Azərbaycan strateji əməkdaşlığının, iş birliyinin dərinləşdirilməsi haqqındadır. İndiyə qədər Türkiyə ilə Azərbaycan arasında çox müqavilələr, anlaşmalar, sazişlər, sənədlər imzalanıbdır. Onların hamısı əhəmiyyətlidir, bütün sahələrdə əməkdaşlığımızın normativ-hüquqi əsaslarını təşkil edir. Biz bütün bu müqavilələrin, anlaşmaların hamısına sadiq olduğumuzu bildiririk və bir prezident kimi mən bəyan edirəm ki, onların hamısı ardıcıl surətdə həyata keçiriləcəkdir. Ancaq onlarla bərabər yeni anlaşma, Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə əlaqələrimizi keyfiyyətcə çox yüksəklərə qaldırır və həm Türkiyənin, həm də Azərbaycanın üzərinə yeni vəzifələr, eyni zamanda çox böyük məsuliyyət qoyur.

Əminəm ki, Türkiyə-Azərbaycan dostluğu son illərdə böyük sınaqlardan keçərək indi əyilməz bir qayadır və bu dostluq bundan sonra da inkişaf edəcək və imzaladığımız sənədi, yəni müqaviləni də uğurla həyata keçirəcəyik. Bu anlaşma ilə əlaqədar bir neçə başqa anlaşma da imzalanıbdır. Onlar Türkiyə-Azərbaycan əlaqələrinin - həm iqtisadi, həm mədəni, həm də başqa əlaqələrin inkişafına yönəldilibdir və bir də deyirəm, hamısı çox böyük əhəmiyyət kəsb edir.

Burada olan danışıqlarımız, görüşlərimiz dövlətlərarası əlaqələri daha yüksəklərə qaldırıb, eyni zamanda xalqlarımızın, millətlərimizin, ölkələrimizin bütün sahələrdə daha da yaxınlaşması üçün bunların yeni xidmətləri olubdur. Rəsmi danışıqlarımızda, eyni zamanda Türkiyə Böyük Millət Məclisində görüşümüzdə və mənim nitqimdə, İzmirdə keçirdiyimiz görüşlərdə, bu gün İstanbulda "Fatih" Universitetindəki görüşdə, başqa görüşlər zamanı, o cümlədən indi burada biz dərk edirik ki, Türkiyə-Azərbaycan dostluğu hər iki xalq üçün nə qədər önəmlidir, lazımlıdır, eyni zamanda nə qədər möhkəmdir, güclüdür və bu dostluğun, qardaşlığın xalqlarımız üçün nə qədər böyük faydası, gələcəyi var.

Biz burada siyasi məsələlər barəsində çox danışıqlar apardıq. Ürəyimizdəki, qəlbimizdəki sözlərin hamısını səmimi, dost, qardaş olaraq dedik. Əgər siyasi məsələlər haqqında bir-iki kəlmə yenə də demək istəsəm, bu, ondan ibarətdir ki, Türkiyə Azərbaycan üçün ən yaxın, ən dost ölkədir. Türkiyə-Azərbaycan əlaqələri Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir və hesab edirik ki, Türkiyə üçün də belə olmalıdır. Dünya Birliyinə daxil olan hər bir müstəqil dövlət dünyanın bütün dövlətləri ilə

normal, yaxın, dost, qarşılıqlı surətdə faydalı əlaqələr qurur və quracaqdır. Bu, hər bir dövlət üçün lazımdır.

Türkiyə böyük tarixə malik olan dövlətdir və əgər keçmiş əsrlərdə dünya miqyasındakı əlaqələrinə, cümhuriyyət tarixi zamanındakı əlaqələrinə nəzər salsaq, görərik ki, Türkiyənin dünyanın bütün dövlətləri ilə diplomatik əlaqələri var, çoxlu müqavilələri, iqtisadi və başqa sahələrdə əlaqələri var.

Müstəqil dövlət kimi Azərbaycan gəncdir. Şübhəsiz ki, dünya dövlətlərinin əksəriyyəti ilə diplomatik əlaqələrimiz var. Ancaq biz hələ gəncik, bir sıra ölkələrdə - təxminən 20 ölkədə səfirliyimiz var. Türkiyənin isə 120 ölkədə səfirliyi var. Bizdə, Azərbaycanda da təxminən, 20 ölkənin səfirliyi var, yəni daimi səfirliyi var. Məsələn, 25 ölkənin Ankaradakı, Türkiyədəki səfiri eyni zamanda öz ölkəsinin Azərbaycanda səfiridir. Belə bir praktika var. Amma bizim ölkədə fəaliyyət göstərən 20 səfirlik var və bizim də başqa ölkələrdə təxminən bu qədər səfirliyimiz var.

Biz hələ gəncik, əlaqələri quruq və quracağıq. Sülhsevər dövlət olaraq, ölkəmizi inkişaf etdirməyə çalışaraq şübhəsiz ki, daha çox ölkələrlə sıx əlaqələr yaratmaq istəyirik. Ancaq bu əlaqələrimiz nə qədər genişlənsə də, ayrı-ayrı ölkələrlə əlaqələrimiz nə qədər dərinləşsə də Türkiyə ilə Azərbaycan arasında əlaqələr heç bir başqa ölkə ilə olan əlaqələrə bənzəmir. Yəni bunlar xüsusi xarakter daşıyır, xüsusi əhəmiyyət kəsb edir. Ona görə də burada dörd gün müddətində olan danışıqlarımız bu çərçivədə gedibdir. Danışıqları bu çərçivədə apararaq Azərbaycanı narahat edən bir neçə məsələ haqqında dostcasına, qardaşcasına danışdıq. Xüsusən Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz və bu təcavüzlə əlaqədar Azərbaycanın platforması barədə çox geniş danışdıq. Şübhəsiz ki, bu məsələlərdə biz həmişə eyni fikirdəyik. Həmfikirik. Sadəcə, bu məsələlərin həlli üçün biz Türkiyə tərəfindən daha ciddi addımlar atılmasını gözləyirik.

Türkiyə 1988-ci ildən, Ermənistan Azərbaycana qarşı təcavüz edən zamandan daim Azərbaycanın yanındadır, Azərbaycanın qayğıları, dərdləri ilə yaşayır. Ermənistanın təcavüzünü özünə, öz ölkəsinə edilən təcavüz kimi qəbul edir və bu məsələlərin həlli yolunda Azərbaycana yardımlar göstərir, bizimlə əməkdaşlıq edir. Bu, bizim üçün çox böyük əhəmiyyət kəsb edir, bizə böyük dayaqdır.

Amma, eyni zamanda biz hələ ki, Ermənistanın təcavüzündən xilas ola bilməmişik. Doğrudur, üç ildir savaş, döyüş yoxdur, qan tökülmür, ancaq böyük sülh, barış da yoxdur. Üç il bundan öncə atəşkəs haqqında saziş imzalamışıq və üç ildir ki, buna riayət edirik. Böyük sazişin, böyük sülhün əldə olunması naminə riayət edirik ki, işğal olunmuş torpaq-

larımızı sülh yolu ilə azad edək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, işğal olunmuş torpaqlardan didərgin düşmüş, zorla çıxarılmış Azərbaycan vətəndaşlarını öz yerlərinə qaytaraq.

Bilirsiniz ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub və indi işğal altındadır. Bu torpaqlarda Ermənistanın silahlı qüvvələri yerləşir. Dağlıq Qarabağ demək olar, çoxdandır ki, Azərbaycanın tabeliyindən çıxıb və orada olan azərbaycanlılar çoxdan qovulublar. Ancaq Dağlıq Qarabağdan başqa onun ətrafındakı yeddi rayon, bölgə, yaxud sizin sözlə desək, ilcə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bütün bu işğal olunmuş yerlərdən 1 milyondan artıq Azərbaycan vətəndaşı didərgin düşübdür. Onların əksəriyyəti çadırlarda yaşayır. Çadırlarda yaşamayanlar da üç-dörd ailə kiçik bir otaqda yaşayır, elə otaqda ki, yaşamaq üçün normal şəraiti yoxdur. Belə bir şəraitdə, insan, ola bilər, bir ay, iki ay yaşasın, bilsin ki, bir neçə aydan sonra bu şəraitdə qalmayacaqdır. Daim belə yaşamaq olmaz. Amma bu insanların ömrünün böyük bir hissəsi çadırlarda keçibdir. İnsanlar çadırda yaşayır, amma həyat davam edir. Çadırda insan doğulur, cocuq dünyaya gəlir, insan ölüb gedir. İnsanlar çadırda həyatın bütün tərəflərinə üz tutmağa çalışırlar. Amma çadırda bunları nə cür, nə şəraitdə etmək olar? Maddi çətinliklər var, adamların əksəriyyəti işsizdir. Ona görə də biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Bilirsiniz ki, münaqişənin sülh yolu ilə həll edilməsi üçün keçən ilin dekabrında ATƏT-in Zirvə görüşündə əhəmiyyətli bir nailiyyət əldə olunubdur. ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin prinsipləri təsdiq edilibdir. Bu prinsiplər Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək səviyyəli muxtariyyət hüququ verilməsi və Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisinin təhlükəsizliyinin təmin olunmasıdır.

Biz bu prinsipləri qəbul etmişik. Zirvə görüşündə ATƏT-in üzvü olan 54 ölkənin dövlət başçıları iştirak edirdi. Onlardan 53-ü bu prinsipləri qəbul edib, Ermənistan qəbul etməyibdir. Ermənilər bəzi başqa ölkələrin dəstəyindən, maddi yardımından, xarici ölkələrdəki diasporun maddi yardımlarından və dəstəyindən istifadə edərək özlərini çox qudurğan, azğın aparırlar və heç bir beynəlxalq hüquq normalarına, insan hüququ normalarına riayət etmək istəmirlər. Ona görə də 54 dövlət başçısı toplaşan yerdə təkcə Ermənistan bu prinsiplərin əleyhinə çıxdı. Amma buna baxmayaraq, bu qərar qəbul olundu.

İndi biz bu qərarın həyata keçirilməsi üçün çalışırıq. ATƏT- in

Minsk qrupunun üç həmsədri təyin olunubdur, bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Biz onların fəaliyyətinə ümid bəsləyirik və Türkiyə Cümhuriyyətinin bundan sonra daha da çox fəaliyyət göstərməsinə ümid bəsləyirik. Qeyd etdiyim kimi, Türkiyə bu barədə daim bizimlə əməkdaşlıq edir və öz xidmətlərini göstərir. Ancaq bundan sonra da, bu məsələ həll olunana qədər, şübhəsiz ki, biz Türkiyənin yardımına, köməyinə möhtacıq. Şübhəsiz, Türkiyə də bunu edib və edəcək, ümidvaram ki, biz bundan sonra da Türkiyə ilə bu əməkdaşlığı davam etdirəcəyik.

Belə olan halda, şübhəsiz ki, Ermənistan-Türkiyə münasibətləri sizin üçün də, bizim üçün də çox mühüm xarakter daşıyır. Vəziyyəti gərginləşdirən və ağırlaşdıran cəhət bir də ondan ibarətdir ki, son iki ay müddətində Rusiyada aşkar edilib ki, üç il ətəşkəs dövründə Rusiya Ermənistana gizli olaraq, qeyri - qanuni surətdə çoxsaylı silah veribdir. Rusiyanın öz dövlət orqanlarının verdiyi məlumata görə, Rusiya Ermənistana 1 milyard dollar dəyərində silahlar veribdir. Onların içərisində ağır silahlar - müasir tanklar, toplar, raketlər və başqa dağıdıcı silahlar var. Məsələn, Rusiya Kiprə satdığı raketlərdən Ermənistana da veribdir. Başqa çox dağıdıcı silahlar, hətta son vaxtlar məlumat aldıq ki, 10 kompleks kimyəvi silahlar, kimyəvi silahlardan müdafiə üçün 5 min dəst paltar da verilibdir.

Bunlar çox böyük narahatlıq doğurur. Çünki əgər Ermənistana bu qədər silah verilirsə, demək, silah elə bir şey deyil ki, bunu yeyəcək, geyəcəkdir, ya da istehsal üçün lazım deyildir. Silah, ümumiyyətlə, dava, müharibə, savaş üçün lazımdır. Demək, kimsə yenə də savaş etmək istəyir.

Amma bu qədər silah təkcə Azərbaycanı dağıtmaq üçün deyildir. Azərbaycanı dağıtmaq üçün onun onda biri də bəsdir. Düşünmək lazımdır ki, bu, nə üçündür. Türkiyənin ictimai rəyi, xalqı düşünməlidir ki, Türkiyənin qulağının dibində, Ermənistanda Rusiyanın böyük hərbi bazası yerləşibdir, hərbi, əsgəri hissələri yerləşibdir. Dövlətlərarası anlaşma əsasında və iki parlamentin - Rusiya və Ermənistan parlamentlərinin ratifikasiya etdiyi anlaşma əsasında onlara hüquq verilibdir ki, daim orada yerləşsinlər. Bu, nə üçündür, nədən ötrüdür? Mən buna etirazımı bildirmişəm. Hətta Rusiyanın Prezidentinə - dövlət başçısına da rəsmi olaraq bildirmişəm ki, biz Ermənistanda Rusiyanın hərbi bazasının yerləşməsinə etiraz edirik, Gürcüstanda da yerləşməsinə etiraz edirik. Çünki onlar bizimlə qonşu ölkələrdir. Biz Ermənistanda Rusiyanın hərbi bazasının yerləşməsinin heç bir mənası olmadığını deyirik. Yəni əgər Rusiya burada doğrudan da sülhsevər siyasət aparırsa, Ermənistan işğalçılıq siyasətindən əl çəkirsə, o hərbi baza-

ları orada yerləşdirmək nəyə lazımdır?

Bunlar, xüsusən çoxsaylı silahların verilməsi yeni amillərdir və şübhəsiz ki, bizdə çox böyük narahatlıq, narazılıq hissi doğurur. Bu məsələlər barəsində də Türkiyənin həm dövlət və hökumət başçılarına öz fikirlərimizi çatdırmışıq, həm də istəyirik ki, Türkiyədə hər bir adam, hər bir türk qardaşımız Azərbaycanın, Qafqazın vəziyyətini və Türkiyənin ətrafında olan vəziyyəti bilsin. Siz burada çox yaxşı yaşayırsınız, biz də buna sevinirik. İqtisadiyyatınız da yaxşı inkişaf edir, bu da çox gözəldir. Siz iş adamlarısınız, işiniz də var, işinizi daha da genişləndirmək istəyirsiniz, bu da çox gözəldir. Varınız da var, çoxlarınız da çox zənginsiniz, Allah xeyirli eləsin. Bu da çox gözəldir, Allah bundan da artıq eləsin. Amma sülh, əmin-amanlıq, rahatlıq olmasa, bunlar heç kəsə lazım deyildir. Ona görə də biz istəyirik ki, bunları Türkiyədə bilsinlər, siz də biləsiniz, başqaları da bilsinlər.

Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsi, sülhün yaranması - Qafqazda, bu bölgədə, Türkiyənin ətrafında sülhün yaranması - həm Azərbaycan üçün, həm də Türkiyə üçün lazımdır. Mən güman edirəm ki, iş adamları kimi, siz də öz iqtisadi məsələlərinizlə məşğul olarkən siyasi məsələləri və xüsusən bölgəmizin təhlükəsizlik məsələlərini gərək heç də unutmayasınız.

Bəzən iqtisadçılar, iş adamları deyirlər ki, biz siyasətlə məşğul olmuruq, bizə siyasət lazım deyil, iş adamıyıq, bizimki ticarət, istehsaldır, filandır. Mən bununla razı deyiləm. Çünki siyasət düzgün olmasa, iqtisadiyyat da olmayacaqdır. Təhlükəsizlik olmasa, sülh, əmin-amanlıq, barış olmasa, iqtisadiyyat da olmayacaqdır. Ona görə iqtisadi işlərdə, biznesdə Türkiyəni və Azərbaycanı əhatə edən ölkələrin arasında sülhün və əmin-amanlığın da əhəmiyyətini unutmaq lazım deyildir.

Şübhəsiz ki, bu baxımdan Qara dəniz iş birliyi, başqa iş birlikləri də lazımdır. Ancaq son zamanlar Türkiyənin bəzi iş adamlarının Ermənistanla iş qurmaq cəhdləri bizi rahatsız edir. Bu, Azərbaycanda çox mənfi qarşılanır, anlaşılmır. Mən bunu Türkiyənin dövlət, hökumət başçılarına demişəm, öz etirazımızı da bildirmişəm. Məsələn, Yerevandan Trabzona təyyarələr uçur. Deyirlər ki, bunlar özəl təyyarələrdir. İndi elə hər şey özəldir. Demək, adını özəl qoyanda özünü kənara çəkəcəksən ki, mənim bundan xəbərim yoxdur? İndi hər şey özəldir, bundan sonra da özəl olacaqdır.

Ona görə mən bunu anlamıram, Azərbaycanda da anlamırlar. Sizin qəzetlər yazır, biz sizin qəzetlərdən götürmüşük, təyyarələr Yerevandan Trabzona gedib-gəlir, yaxud da Ermənistandan avtobuslar, yük maşınları Gürcüstan vasitəsilə Trabzona gəlirlər. Bunlar bir tərəfə. İndi sizin iş adamlarının bəziləri məsələ qoyublar ki, biz gərək Ermənistanla ticarət edək. Ermənistanla nə ticarət edə bilərsiniz, orada nə var, nə itirmisiniz orada? Daşları gedib almaq istəyirsiniz?

Mən bu barədə sizin hökumət, dövlət başçıları ilə danışdım. Deyirlər, bizim tacirlər bildirirlər ki, onsuz da İran bizim malları alır və aparıb Ermənistanda satır, onlar qazanırlar, biz qazanmırıq. Bu, o qədər yanlış fikirdir ki, sizlərdən kimsə bunu hökumət başçılarının qafasına qoymusunuz, yanlış şeydir, onlar da bunu deyirlər. Mən sizə bildirmək istəyirəm ki, İranla Ermənistan arasında çox geniş ticarət aparılır. İran özü də çox böyük bazarlar axtarır, onların biri də Ermənistandır. İran Ermənistana elektrik, təbii qaz xətti çəkir. Ermənistan ilə İran arasında 40 kilometrlik sərhəd var, orada böyük bir körpü tikiblər. O körpüdən gündə 100-150 yük maşını İrandan Ermənistana keçir. İran öz mallarını Ermənistanda onsuz da satır. İrana nə lazımdır ki, gəlib Türkiyədən mal aparsın, Ermənistanda satıb pul qazansın? Bu, yanlış fikirdir. Bunu deyən adamlar gizlin, xəlvət, cürbəcür yollarla öz mallarını Ermənistanda özləri satırlar və hökumət başçılarına da deyirlər ki, bunu İran bizdən alıb, aparıb satır. Tamamilə yanlış fikirdir. Hətta sizin bəzi iş adamları oraya gedirlər və oradan bəzi iş adamlarını ticarət əlaqələri qurmaq üçün İstanbula, İzmirə gətirirlər.

Yaxud da bəzi adamlar Şərq tərəfdə - Qarsda, İqdırda deyirlər ki, gəlin buradan qapı açaq, ticarət edək, bu bizə xeyir verə bilər. Yaxud da son zamanlar Gürcüstandan bizə xəbər verdilər ki, Türkiyədən Gürcüstana müraciət olunub ki, Gürcüstanla Türkiyə arasında iki qapı var, birini də açaq. Gürcüstan bizdən soruşur ki, siz buna necə baxırsınız? Dedik ki, bu qapı haradadır, hansı yerdədir? Dedilər ki, o qapı Gürcüstanın ermənilər yaşayan sərhədindədir. Biz soruşduq ki, iki qapı sizə yetərlidirmi? Dedilər ki, tamamilə yetərlidir. Demək, Türkiyə üçüncü qapını kimlər üçün açmaq istəyir, oradan birbaşa Ermənistana keçmək üçünmü? Biz buna etiraz etdik. Amma Gürcüstan hökuməti də bildirdi ki, bu bizim təşəbbüsümüz deyil, Türkiyənin təklifidir.

Bilmirəm, Ermənistanla həqiqətən ticarət etmək istəyən iş adamları bundan nə qədər para, xeyir, fayda götürəcəklər. Amma nə qədər götürsələr, heç vaxt bizim milli mənafeyimizi, məqsədlərimizi paraya qurban vermək olmaz. İş adamı iş görməlidir, para qazanmalı, öz işini inkişaf etdirməlidir. Amma heç vaxt öz milliliyini itirməməli, milli mənafeyini qurban verməməli, qoymamalıdır ki, öz milli mənafeyinə zərər gəlsin. Yoxsa elə sən get qurdla, canavarla da, o birisi ilə də, təcavüzkarla da alver et ki, mənə qazanc lazımdır?

Ona görə sizə müraciət edirəm, nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır! Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistanla Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o - böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni millətçilərinin, daşnakларının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq.

Osmanlı imperatorluğu dağılmışdı, Türkiyənin özü dağılmış vəziyyətdə idi, Türkiyəyə təcavüz olunmuşdu. Türkiyə özünü xilas etməli, saxlamalı idi, qurtuluş savaşı gedirdi. O vaxt Türkiyənin mütəfəkkir adamları Azərbaycanı öz doğma vətəni hesab edirdilər. Qafqaz Ordusu Azərbaycana göndərildi. Nuru Paşa, Naxçıvana Kazım Qarabəkir və başqaları gəldilər, azərbaycanlıları xilas etdilər. Ona görə bunları heç vaxt unutmaq olmaz, tarixi də unutmaq olmaz, keçmişi də unutmaq lazım deyildir.

Ermənilər bütün dünyaya hay salıblar ki, türklər 1915-ci ildə erməniləri qırıblar. Sizi günahlandırırlar, sizin haqqınızda bütün ölkələrdə yanlış məlumatlar yayırlar. Bu, bizə də aiddir. Onlar azərbaycanlını, türkü, türkiyəlini bir-birindən ayırmırlar. Bizə də türk deyirlər, sizə necə münasibət bəsləyirlərsə, bizə də elə münasibət bəsləyirlər. İndi siz onlarla bir balaca alver edirsiniz, bir-birinizə "Salaməleyküm, sağ ol, xoş gəldin" deyirsiniz.

Bu məsələni mən bir neçə dəfə demişəm, sizə, iş adamlarına da deyirəm ki, bizim problemimizi biləsiniz. Əlbəttə, biz heç kəsə heç nəyi məcbur edə bilmərik. Türkiyənin də heç bir işinə qarışmırıq və qarışa da bilmərik. Ancaq bu sözləri deməyə bizim qardaşlıq haqqımız var. Qardaş-qardaşa hər bir şeyi açıq deməlidir, nə qədər şirin olsa da, acı olsa da açıq deməlidir. Ona görə də siz çalışın ki,

bu əməkdaşlığı, alış-verişi - hamısını gəlin Azərbaycanla edin. Azərbaycanda geniş imkanlar var. Burada çıxış etdilər, Nihat bəy də, Əli bəy də çox təsirli sözlər dedilər. Başqa iş adamları da çıxış etdilər, Azərbaycan-Türkiyə iqtisadi əlaqələri haqqında, Azərbaycanda görülən işlər haqqında danışdılar. Bunlara görə mən təşəkkür edirəm. Həqiqətən Azərbaycan hələ dövlət müstəqilliyini əldə edəndən öncə Türkiyənin iş adamları Azərbaycana maraq göstərirdilər. Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olan zaman Türkiyənin iş adamları bir balaca imkan düşən kimi Azərbaycana gəlirdilər. Xüsusən Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyənin iş adamları respublikamıza gəldilər. Onları yüksək qiymətləndirdilər. Müəyyən əməkdaşlıq başlandı, müəyyən işlər görüldü. Ancaq təsəvvür edin, bu 7-8 ildə əldə etdiyimiz nailiyyətlər mövcud imkanlarımızdan çox-çox azdır. Bu müddətdə Türkiyənin iş adamları başqa ölkələrdə, yəni bizimlə eyni vaxtda müstəqillik qazanmış ölkələrdə daha çox iş görürlər, nəinki Azərbaycanda, - bu da həqiqətdir. Bilirsiniz, mən sizin başqa ölkələrdə, xüsusən Orta Asiya ölkələrində, - bunlar bizim qardaş ölkələrimizdir, - iş görməyinizə qısqanmıram. Allah xeyirli eləsin, iş görün. Amma əgər sıraya qoysanız - bir, iki, üç, dörd, beş - siz bilirsiniz, Azərbaycan harada qalacaq? Vəziyyəti təhlil etsək, görülən işlər çox azdır.

Mən bilirəm, Azərbaycanda daxili sabitlik olmayıbdır. Siz də bilirsiniz, biz də bilirik ki, burada iş adamları qorxurdular ki, Azərbaycanın varidatı nə olacaq, nə təhər olacaq, Azərbaycanın torpaqları işğal edilmişdir, ola bilər, yenə işğal edilsin, mən niyə gedib oraya paramı qoyum. Yaxud da Azərbaycanın daxilində əmin-amanlıq yox idi, - 1992-ci ildəki hakimiyyət dövründə, - siz bunu yaxşı bilirsiniz. Bir il keçmədi, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlandı. Yenidən silah gücünə hakimiyyət devrildi, çox gərgin vəziyyət yarandı.

Bilirsiniz ki, 1993-cü ilin iyununda məni dəvət etdilər, Naxçıvandan Bakıya gəldim. Çox ağır, çətin dövr idi, biz bunu adlayıb keçdik. Prezident olduğum zaman, 1994-cü ilin oktyabrında daxildə, bizim ətrafımızda olan adamlar yenə çevriliş etməyə çalışdılar. Biz onların qarşısını aldıq. Sonra, 1995-ci ilin martında yenə böyük bir silahlı dəstə - o vaxt silahlı polis dəstəsi vardı - çevriliş etmək istədi; qan da tökdülər. Azərbaycan Prezidentini öldürmək, terror etməklə hakimiyyəti ələ almaq istədilər. Bunun da qarşısını aldıq. Təəssüflər olsun ki, 1995-ci ilin martındakı həmin çevriliş cəhdində bəzi Türkiyə vətəndaşları da iştirak edirdilər. Bunlar keçib getdi, onları da bağışladıq.

Amma indi, 1995-1996-cı illərdə Azərbaycanda tam sakitlik yaranıb, ictimai-siyasi vəziyyət sabitdir.

Bu müddətdə biz ilk Konstitutsiyamızı - ana yasamızı qəbul etdik, ilk demokratik parlamentimizi seçdik. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Demokratik prinsipləri bərqərar etmişik, iqtisadiyyatı liberallaşdırmışıq, çox qanunlar qəbul etmişik. Özəlləşdirmə proqramını qəbul etmişik, onu həyata keçiririk. Torpaq islahatı haqqında çox ciddi bir qanun qəbul etmişik. Bütün torpağı şəxsi mülkiyyətə veririk. Kənd təsərrüfatında, aqrar sektorda qoyunçuluq və mal-qara tamamilə özəlləşdirilibdir. Torpaqlar da xalqa, insanlara paylanır.

Biz iki-üç ildir ki, özəlləşdirmə proqramını həyata keçiririk. Torpaq islahatı həyata keçirilməndən sonra Azərbaycanda iqtisadiyyat tamamilə özəl, bazar iqtisadiyyatı yolu ilə, dünya standartlarına uyğun olan yolla gedəcəkdir. Biz bu yolun artıq çox mühüm bir hissəsindəyik. Çoxlu qanunlar qəbul etmişik. Bir tərəfdən daxili imkanlar, digər tərəfdən elmi-texniki potensial, Azərbaycanın təbii sərvətləri, respublikamızın böyük sənaye, kənd təsərrüfatı potensialı göz qabağındadır. Bunlardan müştərək istifadə olunması üçün, hesab edirəm ki, Türkiyənin iş adamları Azərbaycana daha çox gəlməlidirlər.

İndi burada Nihat bəy də dedi ki, ölkələrimiz arasında 250 milyon dollar dəyərində ticarət əlaqəsi olubdur. Doğrudur, bu iki il müddətini götürsək, burada üç dəfə artım var. Amma bu rəqəmin özü də azdır, heç bir şeydir.

İndi Azərbaycana neft sahəsində xeyli sərmayə qoyulur. Görürsünüz, respublikamızda bir balaca imkan olan kimi biz Türkiyəni də oraya gətiririk. Qərb istiqamətində boru kəmərinin tikilməsi üçün keçirilən tenderdə qalib gələn, ad qazanan şirkətlərdən biri də Türkiyənin şirkətidir. Bu şirkətə mənim dostum Nihat bəy rəhbərlik edir. Sizə deyim ki, bu işin müştərisi çox idi. Amma Türkiyə şirkəti bu işdə qazandı, biz də istədik ki, qazansın. Onların qazanmasında bizim də xidmətimiz var.

Burada neft sənayesi haqqında da bir neçə söz dedilər. Mən dörd gündür ki, buradayam. Kiçik də, böyük də, necə deyərlər, məmə yeyəndən pəpə deyənə qədər hamı soruşur ki, Bakı - Ceyhan xətti necə olacaqdır? Bu, mənim üçün aydın məsələdir. Demək, burada təkcə dövlət, hökumət yox, hər bir vətəndaş, gənc insan da istəyir ki, Azərbaycanın bu böyük neft borusu Türkiyədən keçsin. Bunu nə üçün istəyir? Çünki Bakı-Ceyhan xəttinin çox böyük iqtisadi əhəmiyyəti vardır. Yəni əgər biz neft çıxaracağıqsa, oradan böyük fayda əldə ediləcəksə, yəni bu boru ki, Türkiyədən keçirəcəyik, - biz onu mütləq Türkiyədən keçirəcəyik - demək, buradan da çox böyük fayda gələcəkdir. Bu onu göstərir ki, biz imkanımız olan kimi Türkiyənin iş adamlarını, şirkətlərini ölkəmizə gətirəcəyik. Amma bizim hələ o qədər də böyük təcrübəmiz yoxdur. Çünki

biz 70 il başqa bir iqtisadi sistemdə olmuşuq. Mən sizə açıq deyim, bizim insanlar çox şeyi hələ bacarmırlar. Bizə kömək etmək, ölkəmizə gəlmək lazımdır. Gəlib oturub bir şeydə kömək etmək lazımdır. Ola bilər, para getsin, amma bil ki, gedən yerdən bir qədərdən sonra on dəfə çox gəlir götürə bilərsiz. Çünki Azərbaycana gələn para heç vaxt batmır. Azərbaycana gətirilən sərmayə mütləq öz nəticəsini verəcəkdir.

İndiyə qədər olan işlərə görə mən məmnun olduğumu bildirmək istəyirəm. Ancaq bu işlərin çoxu ticarətdir. Azərbaycan ilə Türkiyə arasında iş birliyi isə respublikamıza Türkiyənin böyük şirkətlərinin sərmayəsinin gəlməsidir, müştərək istehsalın yaranmasıdır. Məsələn, neft istehsalı sahəsində bizim bir neçə belə müştərək müəssisəmiz vardır və işlər yaxşı gedir, yaxşı da nəticələr olacaqdır. Amma başqa sahələrdə də işlər belə qurulmalıdır. İstehsalı artırmaq, sərmayə qoymaq, şübhəsiz ki, fayda verəcəkdir.

Ona görə də mən bu məsələlərin detallarını izah etmək istəmirəm. Bilirsiniz ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrini tənzimləmək üçün biz dövlətlərarası komissiya yaratmışıq. Bu komissiyanın Azərbaycan tərəfindən rəhbəri Baş nazirin müavini Abid Şərifovdur. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Əli bəy Yücəlin böyük xidmətləri vardır. O, həqiqətən vətənpərvər bir insandır. O, para, qazanc əldə etmək üçün yox, öz qəlbi ilə yeddi il bundan əvvəl Azərbaycana gəlibdir. O, respublikamıza çətin şərtlər əsasında gəlib-gedir, iş görür, amma mən belə hesab edirəm ki, bir şey qazanmır, əksinə itirir. Ancaq onun qəlbi torpaqla, xalqla elə bağlıdır ki, onda türkçülük, vətənpərvərlik, milli hiss o qədər yüksəkdir ki, o bu işləri görür. Buna görə də mən də ona çox böyük hörmət və ehtiramla yanaşıram. Hesab edirəm ki, Nihat bəy də, Əli bəy də, Abid Şərifov da, hamısı birlikdə bu görüşdən sonra sizin təkliflərinizə baxacaqlar. Mən Abid Şərifova tapşırmışam ki, bu məsələlərlə məşğul olsun. Onlar dəqiqləşdirəndə ki, bu məsələlər barədə qərar qəbul etməyə hazırıq, onda lazımi qərarlar olacaqdır.

Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq.

Burada dedilər ki, bəzi iş adamları Bakıda nəsə açmaq, mərasim keçirmək istəyirlər. Məni də oraya dəvət etdilər. Burada mən heç kəsə bir söz deyə bilmərəm. Çünki mən dörd gündür ki, Azərbaycandan çıxmışam. Qarşıdakı günlərdə yəqin işlərim daha çox olacaqdır. Şübhəsiz ki, bir neçə gündən sonra bu təkliflərə baxa bilərəm. Amma indi buradakı dəvətlərinizlə əlaqədar bir söz deyə bilmərəm. Xahiş edirəm, bunu nəzərə alasınız.

Mən sizin hamınıza cansağlığı,

işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu! Sağ olun!

İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzində Prezident Heydər Əliyevin çıxışı

8 may 1997-ci il

Hörmətli professor Əhmət İhsanoğlu!

Hörmətli cənablar!

Bu gün İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzində olarkən mən islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparıldığını nəzərə çarpdırmaq istərdim. Mənim fikrimcə, bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılmasının vacib olduğunu göstərməklə bildirirəm ki, yaradılacaq belə münasibətlər xalqlarımızın və islamın tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatının və xalqımızın qədim tarixə malik mədəniyyətinin ümumtürk və islam tarixində özünəməxsus yer tutduğunu xatırladaraq ümidvar olduğumu bildirirəm ki, türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapacaqdır.

Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş nailiyyətlər isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin "Leyli və Məcnun" poemaları əsasında 1908-ci ildə "Leyli və Məcnun" operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə "Leyli və Məcnun" simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir modern səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə, bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir.

Bununla əlaqədar İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmağın vacib olduğu daim nəzərə çarpdırılmalıdır.

Mərkəzlə ətraflı tanışlıqdan sonra "Fəxri qonaqlar" kitabına yazdığı ürək sözləri:

"İslam Konfransı Təşkilatının İstanbulda yerləşən mədəniyyət mərkəzinin gördüyü çox əhəmiyyətli işlər böyük məmnuniyyət hissi doğurur. Zəngin kitabxana, çox qiymətli eksponatlar islam mədəniyyətinin tarixini və xüsusiyyətlərini tədqiq etmək üçün böyük imkanlar yaradır. Bu mərkəzə yeni uğurlar arzulayıram.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
8 may 1997-ci il"

Türkiyədən rəsmi səfərdən vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında Prezident Heydər Əliyevin mətbuat konfransında bəyanatı

8 may 1997-ci il

Hörmətli mətbuat nümayəndələri!

Türkiyə Cümhuriyyətinə dörd günlük rəsmi səfərim başa çatdı.

Mən artıq hava limanındayam, bir neçə dəqiqədən sonra Bakıya yola düşürəm. Səfərimə yekun vuraraq məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu səfər Azərbaycan üçün çox uğurlu oldu. Mən bu səfərdən, aparılan danışıqlardan, imzalanan sənədlərdən, Türkiyənin dövlət, hökumət başçıları ilə görüşlərimdən və bütün başqa görüşlərdən çox məmnunam. Mən Türkiyə Cümhuriyyətinin həyatının bir sıra mühüm səviyyələrində apardığım görüşlərin, danışıqların hamısından çox razıyam.

Birinci növbədə hesab edirəm ki, ölkələrimiz, dövlətlərimiz, xalqlarımız arasında əlaqələrin daha da yüksəlməsi və genişləndirilməsi üçün biz müştərək gərəkli iş gördük. İkincisi, Türkiyə ictimaiyyəti, eləcə də Azərbaycan ictimaiyyəti - xalqımız televiziya vasitəsilə mənim bu rəsmi səfərim barədə geniş məlumatlar alır - bir- biri ilə dost, qardaş olduğunu bizim bu görüşlərimiz nəticəsində daha da yaxından hiss etdi. Bu dostluq, qardaşlıq hissiyyatları, nəinki dövlətlərimizin, hökumətlərimizin arasında, xalqlarımız,millətlərimiz arasında olan dostluq, qardaşlıq əlaqələri daha da möhkəmləndi. Bunlar hamısı birlikdə Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gələcəkdə daha da irəliyə aparılması üçün gözəl təməl olubdur, yaxşı zəmin yaradıbdır.

Mən Türkiyə Cümhuriyyətinə, onun Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, xalqına bizə göstərilən hərarətli dost-

luq, qardaşlıq münasibətinə, çox gözəl qonaqpərvərliyə, diqqətə, qayğıya görə təşəkkür edirəm. Türk xalqına bir daha öz hörmət və ehtiramımı, sevgi və məhəbbətimi bildirirəm.

Bu günlər hər yerdə Türkiyənin mətbuat nümayəndələri bizi müşayiət ediblər, əziyyət, zəhmət çəkiblər, çox iş görüblər. Ona görə də sizə və sizin simanızda bu günlər bizimlə bərabər olan, çalışan, zəhmət çəkən Türkiyə mətbuatının nümayəndələrinə hörmət və ehtiramımı bildirirəm, təşəkkür edirəm.

Hamınıza cansağlığı arzulayıram. Türk xalqına səadət, xoşbəxtlik, Türkiyə Cümhuriyyətinin dövlətinə, hökumətinə qarşıda duran bütün vəzifələrin həyata keçirilməsində uğurlar diləyirəm.

Sağ olun.

Sual: Cənab Prezident, Azərbaycanla Ukrayna və Gürcüstan arasında strateji əməkdaşlıq barədə bəyannamə imzalanıb. Siz burada rəsmi səfərdə olduğunuz zaman Türkiyə ilə Azərbaycan arasında da strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamə imzaladınız. Bu birgə bəyannamələrin gələcəyi barədə nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz, biz hansısa bir dövlətlər mövqeyi yaratmaq istəmirik. Şübhəsiz ki, Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə imzalanıbdır. Biz bundan əvvəl Ukrayna və Gürcüstanla da belə bəyannamələr imzalamışıq.

Bizim ölkələrimiz coğrafi cəhətdən bir-birinə çox yaxın ölkələrdir. Bunlar hamısı onu göstərir ki, biz çox yaxşı məqsədlər daşıyırıq. Hesab edirəm ki, bunlar ölkələrimizin ümumiyyətlə əlaqələrini daha da genişləndirmək üçün bir vasitədir.

Sual: Cənab Prezident, Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Bu qardaşlığın daha da möhkəmləndirilməsi üçün hər iki ölkə tərəfindən vizaların verilməsinin asanlaşdırılması məsələsini qaldırmaq lazım deyilmi?

Cavab: Hələ görüləsi işlərimiz çoxdur. Həll ediləsi məsələlər çoxdur, edəcəyik.

Sual: Cənab Prezident, Azərbaycanın ali təhsil haqqında diplomları Türkiyənin bir çox dairələrində nəzərə alınmır. Ona görə də Azərbaycandan Türkiyəyə işləməyə gələn mütəxəssislər ciddi çətinliklə üzləşirlər. Siz buradakı danışıqlarınızda bu məsələyə toxundunuzmu?

Cavab: Mən bunu bilmirəm, bu barədə birinci dəfədir eşidirəm. Əgər Türkiyədə Azərbaycanın ali təhsil barədə diplomları qəbul edilmirsə, bu necə qardaşlıqdır? Belə qardaşlıq olmaz ki! Azərbaycanın ali məktəblərinin diplomları çox yüksək diplomlardır. Onlar qəbul edilməlidir, əgər qəbul edilmirsə, dövlət naziri Namiq Kamal Zeybək bu məsələyə baxmalıdır.

Bizim universitetlərimiz çox yüksək təhsil verir. Təsəvvür edin, Bakı Dövlət Universitetinin 77 yaşı

vardır. Bizim Dövlət Tibb Universitetində Türkiyədən çoxlu gənclər təhsil alırlar, bu universitetin də 65 yaşı vardır. Yaxud başqa universitetlər də beladir. Bizim çox güclü professorlarımız, elm adamlarımız vardır.

Sual: Hörmətli Prezident, bu səfəriniz zamanı ölkələrimiz arasında imzalanan və gələcəkdə imzalanması nəzərdə tutulan sənədlər barədə nə deyə bilərsiniz?

Cavab: Mən sizə dedim ki, bu rəsmi səfərim zamanı imzaladığımız birinci sənəd strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamədir. Bu, 50 sənədin imzalanmasına bərabərdir. İkincisi, bundan da əlavə 8 sənəd imzalanıbdır. İndiyədək Azərbaycan ilə Türkiyə arasında 50-yə yaxın sənəd imzalanıbdır. Bunlar hamısı iki ölkə, dövlət arasında olan əlaqələrin hüquqi-normativ əsaslarını yaradıbdır. Bu, çox böyük məsələdir.

Daha sualınız yoxdur? Sağ olun. Azərbaycana gəlin.

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə təntənəli yığıncaqda Prezident Heydər Əliyevin nitqindən:

Respublika sarayı
27 may 1997-ci il

...Türkiyəyə mənim son səfərim günlərində, Ankarada görüşlər zamanı Prezident və hökumət başçıları kəskin və açıq bəyanatlar veriblər ki, Minsk qrupunun həmsədrləri bu məsələnin həll olunmasına çalışmalıdırlar.

Məlumdur ki, Türkiyə Prezidenti Süleyman Dəmirəl bu məsələ ilə əlaqədar Amerika, Rusiya və Fransa prezidentlərinə xüsusi məktublar göndəribdir.

Türkiyə Cümhuriyyətinin Baş naziri Zati-aliləri Məsud Yılmaz cənablarına!

Zati-aliləri!

Sizi Türkiyə Respublikasının Baş naziri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dərin tarixi, milli, dini kökləri olan dostluq və qardaşlıq münasibətləri hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir. Ümidvaram ki, həyatın bütün sahələrini əhatə edən əlaqələrimiz və qarşılıqlı surətdə faydalı əməkdaşlığımız bundan sonra daha da genişlənəcək və xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə bir daha öz dərin hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 1 iyul 1997-ci il

Amerikanın "Uoll Strit Cornal" qəzetinin müxbirlərinə Prezident Heydər Əliyevin müsahibəsindən:

Nyu-York. 28 iyul 1997-ci il

...Sual: Azərbaycanın ərazisindən Gürcüstana, sonra Türkiyədən keçəcək və Aralıq dənizi limanlarına çıxacaq boru kəməri çəkilməsi ideyasını cənab Bill Klinton da təsdiq etmişdir və bunu dəstəkləmişdir. Məlumdur ki, Gürcüstanda Abxaziya ilə münaqişəyə görə bəzi çətinliklər vardır. Burada kəmərin çəkilməsində tərəqqi necə əldə oluna bilər?

Cavab: Bilirsiniz, mən istəyirəm hər şey aydın olsun. Azərbaycanda hasil olunan ilkin neftin iki boru kəməri ilə xarici bazara çıxarılması haqqında qərar qəbul edilibdir. Belə neft kəmərləri artıq yaradılır. Bunların biri Rusiyanın ərazisindən Qara dənizdə olan Novorossiysk limanına, ikincisi Gürcüstanın ərazisindən Qara dənizdə olan Supsa limanına gedən neft kəməri marşrutlarıdır. Amma siz dediyiniz boru kəməri böyük neft boru kəməridir. Həmin boru kəmərin tikilməsi haqqında biz artıq əməli işlər aparırıq. Amma onun marşrutu hələ tam müəyyən edilməyibdir. Türkiyə istəyir ki, həmin kəmər onun ərazisindən keçib Aralıq dənizində olan Ceyhan limanına getsin. Gürcüstan da istəyir ki, bu boru kəməri Gürcüstanın ərazisindən keçsin. Siz dediniz ki, cənab Bill Klinton da belə bir marşruta tərəfdardır. Biz də belə bir marşrutun tərəfdarıyıq. Ancaq bilməlisiniz ki, bu məsələ hələ tam həll edilməyibdir. Çünki bir neçə alternativ marşrutlar vardır.

Konsorsiumun əməliyyat şirkəti tərəfindən bu məsələlər indi müzakirə olunur. Ona görə də mən bu məsələnin tam həll edilmiş olduğunu demək istəmirəm. Mən istəyirəm ki, sizdə bu barədə düzgün anlayış olsun. Ancaq bu marşrut əgər qəbul olunarsa, ola bilər, Gürcüstanda bu barədə müəyyən problemlər ortaya çıxsın. Doğrudur, nəzərdə tutulan bu marşrut Abxaziyanın ərazisindən keçməyəcək, Gürcüstan ərazisinin başqa hissəsindən keçəcəkdir. Amma bu məsələ gərək yenə də müzakirə olunsun.

Sual: Bilirsiniz ki, digər layihələr vardır ki, onların Şərqə getməsi - Azərbaycandan Xəzər dənizi vasitəsilə Qazaxıstana, sonra isə Türkmənistana getməsi nəzərdə tutulur. Cənub layihəsi haqqında da nəzəriyyə vardır. Bu nəzəriyyəyə görə neft boru kəməri Hind okeanına çıxmalıdır. Bundan Azərbaycan üçün bir xeyir gələ bilərmi?

Cavab: Bilirsiniz, bu nəzəriyyələr hələ fərziyyədir, onlar real deyildir. Ən realı başqadır. Mən bu ilin iyun ayında Qazaxıstanda rəsmi səfərdə olarkən biz Qazaxıstan ilə Azərbaycan arasında Qazaxıstanın Tengiz bölgəsində çıxarılan neftin Xəzər dənizi vasitəsilə Azərbaycana,

bundan sonra isə Gürcüstandan Türkiyəyə keçirilməsi üçün boru kəməri tikilməsi haqqında saziş imzalamışıq. Bu sazişi Prezident Nazarbayev və mən imzalamışıq. Bu, ən realdır.

Mən demək istəyirəm ki, bu marşrutun yaranması üçün biz əməli iş görmüşük. Bildiyiniz kimi, bu da ondan ibarətdir ki, indi Amerikanın "Şevron" Şirkəti Qazaxıstanın Tengiz bölgəsində neft hasilatı ilə məşğuldur. Biz "Şevron" Şirkətinin müraciətini təmin etmişik. Artıq Qazaxıstanda, Tengizdə çıxan neftin Xəzər dənizində tankerlər vasitəsi ilə Bakıya daşınması təmin olunubdur. Həmin neft Bakıdan dəmir yolu vasitəsilə Gürcüstanın Batumi limanına çatdırılır. Son bir neçə ayda biz "Şevron" üçün bu yolla 300 min ton nefti artıq nəql etmişik. İndi bir neçə texniki işlər görülür, o cümlədən Azərbaycanda 45 kilometrlik bir boru kəməri xətti tikilir, başqa texniki problemlər həll olunur. Biz bunların vasitəsilə ildə 3-4 milyon ton "Şevron" neftini bu yolla xarici bazara çatdıra biləcəyik.

Beləliklə, biz Xəzər dənizinin Şərq sahilində olan Qazaxıstan ərazisindən nefti gələcəkdə də bu marşrutla Türkiyədən Aralıq dənizinə çıxarmaq üçün yaxşı bir əsas yaradırıq. Ona görə də bu istiqamət, bu marşrut daha realdır.

Xəzər dənizindən neftin Türkmənistan üzərindən Hind okeanına çıxarılmasını mən real hesab etmirəm. İndi belə fərziyyələr söyləyənlər çoxdur. Ancaq nəyin real, nəyin real olmadığı gərək müəyyən edilsin.

BMT-də akkreditə olunmuş xarici jurnalistlər üçün mətbuat konfransında Prezident Heydər Əliyevin bəyanatından:

Nyu-York. 28 iyul 1997-ci il

...Sual: Cənab Prezident, mən həmin sualımı davam etdirmək istəyirəm. Əslində mənim məqsədim bu məsələdə Sizin İranla bağlı mövqeyinizi bilmək idi. Yəni İrandan neft kəmərlərinin çəkilməsinə bir çox qüvvələr etiraz edirlər. Mən bu məsələdə Sizin mövqeyinizi bilmək istəyirəm.

Cavab: Bilirsiniz, kim etiraz edirsə, onlardan soruşun. Biz İrandan neft kəmərinin çəkilməsinə etiraz etməmişik. Ancaq neft kəmərini biz çəkmirik. Neft kəmərini böyük müqavilələrdə iştirak edən konsorsiumun üzvləri, şirkətlər, konsorsium çəkir. Konsorsium bu neft kəmərlərinin haradan çəkilməsini qərara alırsa, biz də ona öz münasibətimizi bildiririk.

Sual: Hörmətli Prezident Heydər Əliyev, mən Türkiyənin "Milliyət" qəzetindənəm. Sizə belə bir sualla müraciət etmək istəyirəm. Yaxın zamanlarda Bakıda bir saziş - Xəzər dənizi neftinin Çeçenistan ərazisindən Novorossiysk limanına getməsi haqqında saziş imzalandı.

Möhtərəm Prezident, Siz Bakı - Ceyhan neft kəmərinin çəkiləcəyinə inanırsınızmı? Sizin fikrinizcə, Türkiyədən keçəcək bu boru kəməri nə vaxt çəkiləcəkdir?

Cavab: Bu ayın əvvəlində həqiqətən Bakıda Rusiya, Çeçenistan və Azərbaycan arasında ilkin nefti Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına nəql edəcək boru xətti barədə müqavilə imzalanıbdır.

Bu boru xətti artıq yaranıbdır. Sadəcə, onun Çeçenistan ərazisindən keç-məsi üçün bu anlaşma lazımdır.

Böyük boru kəmərinin Türkiyə ərazisindən keçməsi və Ceyhan limanına çatdırılması haqqında bu ilin mayında Türkiyədə səfərdə olarkən mənə həddindən artıq çox suallar vermişdilər. Mən onlara cavab vermişdim və sizə də cavab verirəm ki, bu boru kəmərinin Türkiyə ərazisindən Ceyhana keçməsini istəyirəm və buna nail olmaq üçün çalışacağam.

...Sual: Xahiş edirəm ABŞ-a bu rəsmi səfəriniz zamanı imzalanacaq neft müqavilələri barədə də bir neçə kəlmə deyəsiniz.

Cavab: Bilirsiniz, mən sizə indiyədək imzalanmış neft müqavilələri haqqında danışa bilərəm. Azərbaycan transmilli neft şirkətləri ilə indiyədək altı böyük neft müqaviləsi imzalamışdır. Bu müqavilələrin iştirakçıları Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın, Almaniyanın, İtaliyanın, Norveçin, Türkiyənin, İranın, Səudiyyə-Ərəbistanının, Yaponiyanın şirkətləridir. Bu müqavilələr həyata keçirilir. Bir neçə müqavilə də hazırlanıbdır. Biz bunları bəlkə də Vaşinqtonda imzaladıq. İki gün gözləyin, bu müqavilələr imzalanandan sonra biləcəksiniz.

Mən sizə təşəkkür edirəm. Sağ olun.

Prezident Heydər Əliyevin Türkiyənin Daxili İşlər naziri Murad Başəsgioğlu ilə görüşü

Nyu-York. 28 iyul 1997 ci il

Hörmətli cənab Başəsgioğlu!

Dost və qardaş ölkənin Daxili İşlər naziri olan Sizi Amerika torpağında salamladığıma çox şadam. Mənim ABŞ-a ilk rəsmi səfərimə Türkiyədə də böyük əhəmiyyət verildiyi barədə məlumatınızdan məmnunluq duydum. Təbiidir ki, mən də dünyanın ən qüdrətli dövləti olan ABŞ-a ilk rəsmi səfərimə çox böyük əhəmiyyət verirəm və bu səfərin Amerika-Azərbaycan ölkələrinin daha da sıxlaşdırılmasında mühüm rol oynayacağına əminəm.

Xahiş edirəm ki, səmimi salamlarına görə mənim minnətdarlığımı, xoş arzularımı, hörmət və ehtiramımı cənab Dəmirələ və cənab Yılmaza çatdırasınız. Nəzərinizə çatdırıram ki, Türkiyəyə rəsmi səfərimi məmnunluqla xatırlayıram.

Sizi Azərbaycana səfərə dəvət edirəm.

Nyu-Yorkdan Vaşinqtona gedərkən təyyarədə Amerikanın "Filadelfiya İnkuayrer" və "Cornel of Kommers" qəzetinin əməkdaşları ilə Prezident Heydər Əliyevin müsahibəsindən:

29 iyul 1997-ci il

...Sual: Cənab Prezident, Siz türkmən qazının Xəzər dənizi vasitəsilə Azərbaycana, oradan isə Türkiyəyə çatdırılması üçün Türkmənistanla əməkdaşlıq edəcəksinizmi?

Cavab: Biz Türkmənistanla bu sahədə əməkdaşlıq etməyə hazırıq. Türkmənistan isə həmin qazı İran - Əfqanıstan-Pakistan ərazisindən Hind okeanına çıxarmaq istəyir. Amma mən Almatıda rəsmi səfərdə olarkən biz Qazaxıstanla çox əhəmiyyətli saziş imzalamışıq. Bu saziş Qazaxıstanın "Tengiz" yatağından hasil edilən neftin Xəzər dənizindən çəkiləcək boru kəməri vasitəsilə Azərbaycana gətirilməsi, buradan isə Türkiyəyə, Aralıq dənizinə keçirilməsi barədədir. Bilməlisiniz ki, biz artıq belə bir nəqliyyat xətti yaratmışıq. Biz "Şevron" Şirkətinin "Tengiz" yatağından çıxardığı nefti tankerlərlə Qazaxıstandan Bakıya gətiririk, Bakıdan isə dəmir yolu ilə Qara dənizin Batumi limanına çatdırırıq. Artıq biz "Şevron"un 300 min ton neftini bu yolla xarici bazara çıxarmışıq. Ola bilər ki, gələn il biz Qazaxıstanın 3-4 milyon ton neftini bu yolla dünya bazarına çıxaracağıq.

Sual: Cənab Prezident, ABŞ-in planlaşdırdığı və həyata keçirmək istədiyi boru kəmərləri layihələri realdırmı?

Cavab: Bəli.

Sual: Çeçenistan Azərbaycan neftinin şimal boru kəməri vasitəsilə dünya bazarına çıxmasına imkan verəcəkdirmi? Əgər digər boru kəməri Türkiyədən keçərsə, ermənilər onu dağıtmaq fikrində olmayacaqlar ki?

Cavab: Bilirsiniz, biz Çeçenistan ilə saziş imzalamışıq. Rusiya Baş nazirinin birinci müavini, həmin ölkənin başqa nümayəndələri, Çeçenistanın nümayəndə heyəti bu il iyulun əvvəlində Bakıya gəldilər. Biz Bakıda Rusiya - Çeçenistan - Azərbaycan arasında həmin boru kəmərinin normal işləməsi barədə üçtərəfli sənəd imzaladıq. Mən belə hesab edirəm ki, belə bir saziş imzalanandan sonra bu boru kəməri işləyəcəkdir.

İkinci boru xətti Gürcüstan ərazisindən çəkilir. Hesab edirəm ki, orada bir problem olmayacaqdır. Böyük boru kəmərini isə biz Azərbaycandan Türkiyəyə keçirəcəyik. Ancaq bu, Ermənistan ərazisindən olmayacaqdır. Ona görə də Ermənistan bu boru kəmərinə heç bir zərər gətirə bilməz.

Sual: Ən asan yol o olardı ki, boru kəməri İran ərazisindən Naxçıvana, oradan isə Türkiyəyə keçsin. Doğrudurmu?

Cavab: Bu, çox yaxşı olardı. Amma bu, indi mümkün deyildir.

Sual: Cənab Prezident, Sizcə, Türkmənistan qazını İran ərazisindən dünya bazarına çıxaracaq kəmərin çəkilməsinə Amerika mane olmayacaqmı?

Cavab: Boru kəmərinin İrandan keçməsinə Amerikanın mane olub-olmayacağı məlum deyildir.

Sual: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsində sülh əldə edilərsə, onda təhlükəsizliyə kim təminat verməlidir? Çəkiləcək boru kəmərlərinin təhlükəsizliyinə kim təminat verməlidir və bu boru kəmərlərini hansı qoşunlar qorumalıdır?

Cavab: Bunlar bir-birindən fərqli məsələlərdir. Dağlıq Qarabağda sülh əldə edilərkən ATƏT-in çoxmillətli sülhü mühafizə qüvvələri yaranacaqdır və onlar bu missiyanı həyata keçirəcəklər. Neft boru kəmərlərini mühafizə etmək isə hər bir ölkənin öz vəzifəsidir. Məsələn, bunu Azərbaycan öz ərazisində, Rusiya, Çeçenistan isə öz ərazisində təmin edəcəkdir. Eləcə də Gürcüstanda, Türkiyədə də belə olacaqdır. Ona görə də başqa bir ölkənin ordusunu, yaxud silahlı qüvvələrini bu məsələyə cəlb etməyə ehtiyac yoxdur.

(Müsahibəni xanım Trudi Rubin və Maykl Lelivel aparmışlar.)

ABŞ-ın tanınmış siyasi xadimləri, politoloqları və mətbuat nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışından:

Vaşinqton, "Bleyer Haus" iqamətgahı
30 iyul 1997-ci il

...Sual: Cənab Prezident, mən həmin söhbəti davam etdirərək bildirmək istəyirəm ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə Azərbaycan hökuməti arasında çox yaxşı münasibətlər qurulubdur və müqavilə imzalanıbdır. Həmin müqavilə ilə əlaqədar olaraq, Türkmənistanla mübahisəli ərazi məsələsinə də burada toxunuldu. Siz həm bu mübahisəli əraziyə, həm də başqa yataqlara Rusiyanın "LUKoyl" və səhv etmirəmsə, "Transneft" şirkətlərini də cəlb edirsiniz. Bilmək istərdim ki, Rusiya şirkətlərini bu yataqların istismarına cəlb etməkdə sizin strategiyanız nədən ibarətdir?

Cavab: Siz bunu bilməlisiniz ki, bizim müqavilələrdə artıq Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransanın, Almaniyanın, Yaponiyanın, Belçikanın, Türkiyənin, İranın, İtaliyanın, Səudiyyə Ərəbistanının şirkətləri iştirak edirlər. On dövlət saydım. Bu ölkələrin hamısı Xəzər dənizindən uzaqdadır. Amma Rusiya Xəzər dənizinin içindədir. Ona görə belə bir halda Rusiyanın "LUKoyl" Şirkətinin bu müqavilədə

iştirak etməsi, "LUKoyl"a kiçik bir hissənin verilməsi tamamilə təbiidir. Birincisi, bunun kommersiya əhəmiyyəti var; ikincisi, bilməlisiniz ki, Xəzər dənizində iş görmək üçün Volqa - Don kanalından, Volqa -Don su kəmərindən istifadə etmək lazımdır, Rusiyanı oradan tamamilə təcrid etmək mümkün deyildir.

Sual: Cənab Prezident, şübhəsiz ki, bizlərin hamısı, - kim ki, güclü, müstəqil Azərbaycan quruculuğuna inanır, - onlar Azərbaycanın neft yataqlarından istifadə olunmasının nə qədər böyük əhəmiyyət kəsb etdiyini gözəl anlayırlar.

Azərbaycana qoyulmuş sərmayələrin uğuru bir də onunla səciyyələnəcəkdir ki, investisiyalar nəticəsində əldə edilən neft məhsulları dünya bazarlarına təhlükəsiz ixrac olunsun. Azərbaycandan çəkiləcək neft boru kəmərlərinin indiki vəziyyəti barədə və bundan irəli gələn bir sıra münaqişələr barədə, - biz bilirik ki, onların həll olunması sahəsində hansı tədbirlər görülüb, - ümumiyyətlə, Azərbaycan neftinin ixracı ilə, kəmərlərin marşrutları ilə əlaqədar nə deyə bilərsiniz? Əsas neft kəməri hansı istiqamətdə olacaqdır?

Cavab: Bilirsiniz, 1994-cü ilin sentyabr ayında müqaviləni imzalayan kimi bizə Rusiya tərəfindən təzyiqlər başlandı. Təəssüf ki, Rusiya ilə Ermənistan da, İran da birləşdi. Belə hesab etdilər ki, biz müqaviləni imzalamışıq, amma onlar neftin çıxarılmasına imkan verməyəcəklər. Rusiya çox hesab edir ki, Xəzər dənizindən çıxan bütün neft gərək ancaq Rusiya vasitəsilə nəql olunsun. Hətta bu günlərdə sizin Energetika naziri Moskvada olarkən və Baş nazirin birinci müavini Nemtsovla görüşərkən Rusiya televiziyası ilə belə qısa veriliş verildi: Rusiyanın Baş nazirinin birinci müavini Nemtsov sizin Energetika nazirinə söylədi ki, siz Xəzər dənizində nə qədər neft çıxarırsınız - çıxarın, amma bunun hamısını Rusiya vasitəsilə nəql etməlisiniz. Yəni Rusiya əgər bizim müqavilə bağlamağımızın qarşısını ala bilmədisə, bizim neft ixracı yollarının qarşısını almaq istəyir. Bunu Amerikanın idarəetmə aparatı və xüsusən cənab Bill Klinton da yaxşı bilir.

Ona görə biz ilkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsi haqqında qərar qəbul etdik. Bunu mənə cənab Klinton da təkidlə dedi. Bir neft kəməri Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, ikinci neft kəməri isə Gürcüstan ərazisindən yenə də Qara dənizdəki Supsa limanına gedəcəkdir. Bunlar ilkin neft üçündür. Amma biz böyük neft gözləyirik. Nəinki Azərbaycanın neft yataqlarından, hətta Qazaxıstanın neft yataqlarından hansı istiqamətdə böyük neft ixrac etmək olar? Biz şəxsən belə neft borusunun Gürcüstan - Türkiyə - Aralıq dənizi - Ceyhan limanı marşrutu ilə çəkilməsini nəzərdə tuturuq. Rusiya istəyir ki, neftin hamısı onun ərazisindən keçsin, İran istəyir ki, onun ərazisin-

dən keçsin. Hətta çoxları hesab edirlər ki, əgər bu boru xətti İran ərazisindən keçərsə, bu, kommersiya nöqteyi-nəzərindən daha səmərəlidir.

İlkin neft kəmərinin Rusiyadan keçməsində də Rusiya böyük çətinliklərlə rastlaşdı. Çeçenlər onların ərazisindən yüz kilometrlik boru xəttinin keçməsinə etiraz etdilər. Rusiya rəhbərləri mənə müraciət etdilər. Çeçenistanın Prezidenti Aslan Məshədov Bakıya, mənim yanıma gəldi. Sonra Rusiyanın Baş nazirinin birinci müavini Nemtsov Bakıya gəldi. Biz Bakıda üç tərəf - Rusiya, Azərbaycan, Çeçenistan arasında saziş imzaladıq.

Qazaxıstanla bizim aramızda saziş var. "Şevron" şirkətinin "Tengiz"də hasil etdiyi nefti biz artıq Xəzər dənizindən Bakıya, Bakıdan isə Gürcüstan ərazisi ilə Qara dənizə çıxarırıq. Bunu biz tankerlər və dəmir yolu vasitəsilə edirik. Amma Nazarbayev ilə mən iyun ayında saziş imzaladıq ki, Qazaxıstandan Bakıya qədər Xəzər dənizinin dibi ilə neft kəməri çəkilsin. Ona görə də bütün Xəzər dənizi hövzəsində çıxan neft xarici bazara - Qərbə yalnız Azərbaycan ərazisindən gedəcəkdir. Bu, Qərb üçün də, Amerika üçün də ən əlverişli marşrutdur.

Sual: 1995-ci ilin sonunda Prezident Klinton və Entoni Leyk məndən xahiş etdilər ki, ilkin neftin ixracı üçün boru kəmərlərinin - iki boru kəmərinin çəkilməsi barədə Amerikanın mövqelərini bildirmək üçün Sizin regiona səfər edim və Sizinlə görüşüb onların fikirlərini Sizə çatdırım. Bu baxımdan bilmək istərdim ki, cənab Entoni Leykin idarəetmə aparatının bu məsələdə mövqeyi barədə deməyə sözü varmı?

Entoni Leyk: Çox qısaca məlumat verəcəyəm. Tamamilə aydındır ki, bizim strateji baxışlarımız sizin indi söylədiyiniz mövqelərə tam yaxındır. Mənə belə gəlir ki, ruslar da artıq bu məsələdə bizim mövqeyimizi aydın surətdə başa düşüblər. Mən özüm şəxsən 1993-95-ci illərdə aparılan danışıqlarda iştirak edən şəxs kimi bildirirəm ki, bu mövqelər aydın şəkildə ruslara bildirilib. Mən əminəm ki, bu stol arxasında əyləşən hər bir şəxs bu məsələnin strateji və iqtisadi baxımdan nə qədər əlverişli olmasını gözəl dərk etsə də, Vaşinqtonda bu məsələ hələ də dərindən dərk olunmayıb. Ona görə hesab edirəm ki, Sizin Vaşinqton səfəriniz bu məsələnin geniş şəkildə açıqlanması işinə də öz töhfəsini verəcəkdir.

Sual: Əgər icazə versəniz, mən cənab Heyqin qaldırdığı suala qayıdaram. Bu, bilavasitə boru kəmərləri ilə əlaqəsi olan Dağlıq Qarabağ məsələsidir. Bilmək istərdim ki, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün potensial güzəştlər etməyə bir yer varmı? Ümumiyyətlə, bu məsələ barəsində Sizin mövqeyinizi açıqlamağı xahiş edirəm.

Cavab: Çox təşəkkür edirəm. Bu, mənim üçün vacib sualdır. Çünki sizə bildirdim ki, buraya gələrkən

mənim ən birinci məqsədim Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında Amerika Birləşmiş Ştatlarının yardımının artırılmasıdır. Sizə paylanan xəritədə görürsünüz ki, Dağlıq Qarabağ özü də daxil olmaqla Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Üç il bundan öncə biz atəşin dayandırılması haqqında saziş imzalamışıq, üç ildir atəş yoxdur.

Nəhayət, keçən ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə məsələnin sülh yolu ilə həlli üçün üç prinsip müəyyən edilibdir: Birincisi, Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyünün tanınması; ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması. Bu prinsiplər bizi tam qane etməsə də, Lissabonda bunların qəbul olunmasına səs verdik. ATƏT-in 54 üzvündən 53-ü, o cümlədən Amerika Birləşmiş Ştatları bu prinsiplərə səs verdi. Ermənistan isə buna etiraz etdi.

Bilirsiniz ki, indi ATƏT-in Minsk qrupunun həmsədrləri Amerika, Rusiya və Fransadır. Üç Prezident - Bill Klinton, Jak Şirak, Boris Yeltsin iyunun 20-də Denverdə birgə bəyanat veriblər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Amerika tərəfindən həmsədrliyi cənab Stroub Talbott həyata keçirir. Son dəfə üç həmsədrin bizə təklifləri olubdur və bunlar iki hissədən ibarətdir. Birinci mərhələdə Dağlıq Qarabağın ətrafında olan altı rayonun Ermənistan silahlı qüvvələrindən azad edilməsi, bu torpaqlar azad olunandan sonra isə oradan çıxarılmış vətəndaşların yerlərinə qayıtması. Mən bu xəritəyə bir balaca izahat vermək istəyirəm. Qırmızı rənglə Dağlıq Qarabağın ərazisi rənglənibdir. Yaşıl rənglə rənglənən ərazi Azərbaycanın Dağlıq Qarabağın ətrafında olan altı inzibati rayonudur. Sarı rənglə rənglənən ərazi Azərbaycanın Laçın rayonu - tamamilə azərbaycanlılar yaşayan və Azərbaycana mənsub olan rayondur, - bu da işğal edilibdir. Burada Şuşa rayonu var, Dağlıq Qarabağ vilayətinin daxilində olubdur, ancaq əhalisinin tam əksəriyyəti azərbaycanlılar idi və bura Azərbaycanın tarixi mədəniyyət mərkəzidir. Bütün bu rənglənmiş yerlər Azərbaycan ərazisinin 20 faizidir və hamısı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu ərazidən bir milyon Azərbaycan vətəndaşı zorla çıxarılıb, indi Azərbaycanın başqa yerlərində çadırlarda yaşayırlar. Cənab Bjezinski gedib o çadırları görübdür.

Minsk qrupunun son təklifinə görə biz birinci növbədə yaşıl rənglə rənglənmiş rayonların azad olunmasını və buranın əhalisinin, vətəndaşlarının öz yerlərinə qayıtmasını tələb edirik. Ondan sonra, ikinci mərhələdə, Dağlıq Qarabağın statusu müəyyən olunarkən sarı rənglə rənglənmiş Azərbaycan rayonlarının da işğaldan

azad olunmasını tələb edirik. Bilirsiniz ki, bir milyon qaçqın beş ildir çadırlarda yaşayır. Respublikanın yeddi milyon əhalisindən bir milyonu qaçqındır. Onu da bildirmək istəyirəm ki, Rusiya öz qoşunlarını burada yerləşdirib bu məsələni həll etmək haqqında bir neçə dəfə bizə vəd vermişdi. Amma biz Rusiya qoşunlarının Azərbaycana gəlməsinə razılıq verməmişik. Azərbaycanda Rusiyanın qoşunları da, hərbi bazası da yoxdur.

Ermənistanda Rusiyanın böyük hərbi hissələri, hərbi bazası var və Rusiya ilə Ermənistan arasında hərbi ittifaq var. Ermənistanın Türkiyə və İranla sərhədlərini də Rusiyanın qoşunları mühafizə edir. Gürcüstan da belə vəziyyətdədir. Amma biz Qafqazda yeganə dövlətik ki, ölkəmizdə bir dənə də rus əsgəri yoxdur.

Belə çətin vəziyyətdə olduğumuz halda, Rusiya dəfələrlə bizə təklif edib ki, onun qoşunlarının Azərbaycanda yerləşdirilməsinə razılıq verək və onlar işğal olunmuş torpaqları azad etsinlər. Ancaq biz buna razılıq verməmişik. Buna görə də Ermənistan hərbi hissələrinin buradan çıxarılması üçün ATƏT-in çoxmilli sülhməramlı qüvvələrinin təşkil olunması və bölgəyə göndərilməsi lazımdır.

Sual: Cənab Prezident, sizə şəxsi həyatınızla bağlı ideoloji bir sualla müraciət etmək istəyirəm. Sizin çox heyranedici siyasi karyeranız olub, Siyasi Büro üzvlüyünə qədər ucalmısınız, indi isə öz dövlətinizin rəhbərisiniz. Şəxsən sizin özünüzdə bu ideoloji dəyişiklik necə baş verib-dir?

Cavab: Sizə bəlkə təəccüblüdür, amma eyni zamanda təbiidir. Mənim o dövrdəki həyatım və fəaliyyətim həyatımın bir mərhələsidir. 1980-ci ilin axırlarından, xüsusən 1987-ci ildə Siyasi Bürodan istefa verəndən sonrakı dövr mənim həyatımın ikinci hissəsidir. Mən sizə kiçik bir kitabça bağışlayacağam, orada görəcəksiniz ki, kommunist Heydər Əliyev nə cür antikommunist olubdur. Amma qısaca deyim. Bir neçə fikir toqquşmasına görə mən 1987-ci ildə Siyasi Bürodan istefa verdim. 1988-ci ildə Ermənistan Azərbaycana təcavüz etdi, münaqişə başlandı. Mən buna etiraz etdim. Amma Kommunist Partiyasının rəhbərləri - Qorbaçov və başqaları münaqişənin qarşısını almaq üçün heç bir iş görmədilər.

1990-cı ildə Kommunist Partiyasının qərarı ilə Sovet ordusunun böyük qoşun hissələri Bakıya yeridildi və onlar Azərbaycan xalqını qırdılar, milli azadlıq hərəkatını boğmağa çalışdılar. O vaxt mən Moskvada yaşayırdım. Moskvada mitinqlərdə, toplantılarda Sovet İttifaqının qərarına qarşı etirazlarımı bildirdim, Kommunist Partiyasını tərk etdim. Buna görə məni təqib etməyə başladılar. Mən isə Sovetlər İttifaqının dağılması üçün mübarizə apardım. Moskvada məni həbs etmək istədilər,

Azərbaycana gəldim. O vaxt orada hələ kommunist rejimi vardı. Mənə orada yaşamağa imkan vermədilər, doğulduğum yerə - blokada şəraitində olan Naxçıvana getdim. Üç il orada yaşadım. Sürgündə, ağır vəziyyətdə yaşadım. Orada Azərbaycanın demokratiya yolu ilə getməsi üçün ilk addımları mən atdım. Azərbaycanda hörmətli adam olduğuma görə Kommunist Partiyasının və Sovet İttifaqının dağılması haqqında mənim çıxışlarım insanları inandırırdı. Mən o vaxtdan Azərbaycanı demokratik, müstəqil dövlət görmək istəyirəm.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başladığı zaman xalq məni tələb etdi, Bakıya gəldim. O vaxtdan da Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurmaq prosesi ilə məşğulam. Bu müddətdə mənim gördüyüm işlər bunu sübut etmişdir.

Qafqazda Azərbaycanın tam dövlət müstəqilliyini qoruyub saxlamaq çox çətindir. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyon vətəndaşımız qaçqındır, çadırlarda yaşayır. Qonşularımızdan Gürcüstanla, Türkiyə ilə çox dostuq. Ancaq çox güclü rəqiblərimiz, düşmənlərimiz var. Belə bir şəraitdə mən müstəqilliyi də saxlayıram, demokratiyanı da yaradıram. Ölkəmizdə siyasi pluralizm mövcuddur, kim öz fikrini necə istəyirsə, o cür də ifadə edir.

Bizdə fikir azadlığı var, 30-dan artıq partiya fəaliyyət göstərir. Səkkiz partiya parlamentdə təmsil olunubdur.

ABŞ-ın Corctaun Universitetinin professor-müəllim heyəti, tələbələr, Amerika ictimaiyyətinin nümayəndələri, görkəmli siyasi və dövlət xadimləri, diplomatlarla görüşdə Prezident Heydər Əliyevin çıxışından:

Vaşinqton. 30 iyul 1997-ci il

...**Sual:** Cənab Prezident, Azərbaycanın dünya ilə genişlənməkdə olan inteqrasiyasında Türkiyənin rolu nədən ibarətdir və türk şirkətləri Xəzər dənizinin neft və qaz ehtiyatlarının hasilatında iştirak edəcəklərmi?

Cavab: Mən birinci onu demək istəyirəm ki, Türkiyə Azərbaycanın yaxın dostudur və biz bu dostluq əlaqələrini daha da genişləndiririk və inkişaf etdiririk.

Mən cənab Bjezinskinin söylədiyi fikirlərin hamısından çox razıyam, o cümlədən Amerikanın Türkiyə barəsindəki siyasətinə dair onun fikirlərini yüz faiz dəstəkləyirəm. Türkiyə bizim regionda həqiqətən çox mühüm rol oynayır və gələcəkdə də mühüm rol oynayacaqdır. Biz Türkiyə ilə bütün sahələrdə - iqtisadiyyat və başqa sahələrdə əməkdaşlıq edirik. Türkiyənin rəhbərləri ilə mənim şəxsi əlaqələrim çox yaxındır, mehribandır, Azərbaycan dilinin

türk dilinə çox yaxın olması, ənənələrimizin bir-birinə bənzərliyi bizim bu əlaqələri gücləndirib inkişaf etdirir. Xəzər dənizinin neft yataqlarından hasil edilən neftin ixrac olunmasında Türkiyənin çox önəmli yeri var. Böyük neft borusunun məhz Türkiyədən keçməsi hər bir cəhətdən çox əhəmiyyətlidir. Bilirsiniz ki, Türkiyə bizim imzaladığımız neft müqavilələrində də iştirak edir, türk enerji şirkətlərinin bu müqavilələrdə müəyyən hissələri var və hesab edirəm ki, Türkiyə ilə Azərbaycanın əməkdaşlığı bundan sonra da güclənəcəkdir.

ABŞ-ın Ticarət nazirliyində Amerika işgüzar dairələrinin nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyevin çıxışı

Vaşinqton. 31 iyul 1997-ci il

Hörmətli cənab Yan Kalitski!
Hörmətli səfir!
Hörmətli xanımlar və cənablar!

Mən sizi ürəkdən salamlayıram və bu gün belə bir işgüzar görüşün keçirilməsini çox qiymətləndirirəm.

Bizim əlaqələrimizdə iqtisadi əməkdaşlıq xüsusi yer tutur. Bu sahədə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında son illərdə ciddi addımlar atılmışdır...

Birinci növbədə, Amerika Birləşmiş Ştatları şirkətlərinin Azərbaycanın neft və qaz yataqlarının, enerji ehtiyatlarının, o cümlədən Xəzər dənizinin enerji ehtiyatlarının istismar olunmasında və istifadə edilməsində iştirakı mühüm yer tutur. Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, 1994-cü ilin sentyabr ayında imzalanmış ilk böyük neft müqaviləsində - "Əsrin müqaviləsi" adlandırılmış müqavilədə ABŞ-ın çox böyük bir hissəsi var. Amerikanın "Amoko", "Pennzoyl", "Yunokal", "Makdermott", şirkətləri bu konsorsiumun əsasını təşkil edirlər. Sonra bu konsorsiuma "Eksson" Şirkəti də qoşulmuşdur.Beləliklə, konsorsiumda olan şirkətlərin əksəriyyətini Amerika şirkətləri təşkil edirlər.

Ancaq ondan sonra da Amerikanın şirkətləri ilə yeni müqavilələr imzalanmışdır. "Pennzoyl" Şirkəti ilə ikinci müqavilə imzalanmışdır, "Amoko" Şirkəti ilə "Dan ulduzu" və "Əşrəfi" neft yatağında dördüncü (bizim hesabımızla dördüncü, amma Amerikanın hesabı ilə, Amerika şirkətləri ilə üçüncü) müqavilə imzalanmışdır.

Nəhayət, bir neçə müqavilə də işlənib hazırlanıbdır və güman edirəm ki, onlar sabah imzalanacaqdır. Bu, Amerikanın "Şevron" Şirkəti ilə, "Eksson" Şirkəti ilə və "Mobil" Şirkəti ilə hazırlanmış müqavilələrdir və bununla bərabər Amerikanın "Amoko" Şirkəti ilə müştərək iş görmək üçün hazırlanmış yeni müqavilədir.

Ümidvaram ki, bunlar da imzalanacaqdır. İmzalanması nəzərdə

tutulan bu müqavilələrin əsasında Azərbaycana Amerika şirkətləri tərəfindən 8 milyard dollar məbləğində investisiya qoyulması nəzərdə tutulur. Azərbaycanın bütün müqavilələri üzrə, hamısı birlikdə təxminən 30 milyard dollar miqdarında investisiya qoyulması nəzərdə tutulur.

Mən məmnuniyyətlə demək istəyirəm ki, bu müqavilələr artıq əməli surətdə həyata keçirilir və birinci müqavilənin nəticələrini bu ilin sentyabr ayında görəcəyik - o vaxt ilkin neftin alınması gözlənilir. Bu neftin ixrac olunması üçün iki neft kəmərinin tikilməsinə başlanıbdır. Bir neft kəməri - Bakıdan Rusiya ərazisi vasitəsilə Qara dənizin Novorossiysk limanına qədər - artıq hazırlanıbdır. Rusiyanın Çeçenistan ərazisində bəzi problemləri var idi. Mən iyulun əvvəllərində Moskvada olarkən orada apardığım danışıqlar, Çeçenistan və Rusiya nümayəndələrinin Bakıda bizimlə apardığı danışıqlar nəticəsində bu problemləri biz həll etdik. Güman edirəm, bir ayın içində bu neft kəməri hazır olacaq və biz ilkin nefti ixrac edəcəyik.

İkinci neft kəmərini Qərb istiqamətində - Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çəkirik. O, gələn ilin sentyabr-oktyabr aylarına qədər hazır olacaqdır.

Ancaq bunlar yetərli deyildir. Çünki böyük neftin dünya bazarlarına - Qərbə ixrac edilməsi üçün böyük neft kəmərinin yaradılması lazımdır. Bu, bizim konsorsiumun müqavilələrində öz əksini tapmışdır, artıq bu barədə təkliflər hazırdır. Güman edirəm ki, yaxın vaxtlarda bir neçə müzakirələrdən sonra, ola bilsin, tender keçiriləcək, bu boru xəttinin də çəkilməsinə başlanacaqdır. Bu böyük boru kəməri Azərbaycandan Türkiyəyə, Türkiyədən isə Aralıq dənizinin Ceyhan limanına getməlidir.

Biz eyni zamanda Mərkəzi Asiyanın da neftinin Azərbaycandan Türkiyəyə və Qərbə çatdırılması üçün tədbirlər görürük. İyun ayında Qazaxıstanda rəsmi səfərdə olarkən prezident Nazarbayev və mən Qazaxıstanın "Tengiz" neft yatağında "Şevron" Şirkəti ilə bərabər hasil etdiyi neftin Azərbaycan ərazisindən Türkiyəyə, boruların isə Aralıq dənizinə qədər çəkilməsi haqqında saziş imzaladıq. Bu sazişə əsasən Qazaxıstan ərazisindən Xəzər dənizinin dibi ilə Bakıya neft boru kəməri çəkiləcəkdir və bu vasitə ilə "Tengiz" - "Şevron" nefti Bakıya gələcək, bizim o böyük neft kəməri ilə Türkiyəyə, oradan isə Aralaq dənizinə çıxarılacaqdır.

Ancaq bu kəmər çəkilənə qədər, "Şevron" Şirkətinin xahişini nəzərə alaraq, biz Qazaxıstanın "Tengiz" yatağından hasil olunan neftin bir hissəsini tankerlər vasitəsilə Bakı limanına gətiririk, sonra onu dəmir yolu vasitəsilə Gürcüstanın Qara dənizdəki Batumi limanına çatdırırıq, oradan isə neft Qərbə aparılır. Son üç ay müddətində 300 min ton neft bu marşrutla, bu vəziyyətdə ix-

rac olunubdur. Bizim müştərək planlarımız belədir ki, gələn il bu yol ilə Qazaxıstandan, "Tengiz"dən "Şevron" Şirkətinin təxminən 3 milyon, yaxud 4 milyon ton nefti Qərbə ixrac olunacaqdır. Bunun üçün bizim ərazimizdə bir qısa, yəni 45-50 kilometrlik boru xətti çəkilməsi məsləhət görülür. Bu işləri biz görmüşük və görürük. Bunlar hamısı Xəzər dənizinin nə qədər böyük imkanlara malik olduğunu, Xəzər dənizindən hasil olunan neftin dünya bazarlarına - Qərbə çıxarılması sahəsində bizim işlərimizi göstərir...

ABŞ Prezidenti Bill Klintonun adından Azərbaycan Prezidentinin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdən sonra Prezident Heydər Əliyevin KİV-nin nümayəndələrinə bəyanatından:

Ağ ev. 1 avqust 1997-ci il

..Sual: İmzalanmış neft müqavilələri Moskvanın mənafelərinə necə təsir göstərəcək?

Cavab: Moskvanın Azərbaycandakı maraqları onsuz da təmin olunubdur. Azərbaycanın neft yataqlarının işlənməsində Amerika şirkətləri ilə bərabər Avropanın bir çox ölkələrinin - Fransanın, İtaliyanın şirkətləri, hətta Yaponiya, Türkiyə ilə yanaşı, Rusiyanın şirkətləri də iştirak edirlər. Rusiya bu gün də bizimlə müştərək iş görür, gələcəkdə də belə iş görməyə imkanı var.

Sağ olun, təşəkkür edirəm.

Amerikanın "Oyl and Qaz" ("Neft və Qaz") xəbərlər redaksiyasına Prezident Heydər Əliyevin müsahibəsindən:

Hyüston. 2 avqust 1997-ci il

...Sual: Cənab Prezident, mənə vaxt ayırdığınıza görə təşəkkür edirəm və Sizinlə görüşümdən şərəf duyuram. Amerikaya ilk rəsmi səfəriniz münasibətilə Sizi təbrik edirəm və Sizə böyük uğurlar arzulayıram.

Cavab: Səmimi sözlərə görə çox sağ olun. Bəli, mənim Amerikaya rəsmi səfərim uğurlu keçir.

Sual: Cənab Prezident, xahiş edirəm üstündə jurnalımızın adı həkk olunmuş bu hədiyyəni məndən qəbul edəsiniz.

Mən jurnalımızın redaktoru cənab Kennedinin salamını Sizə çatdırıram.

Cavab: Çox sağ olun.

Sual: Cənab Prezident, şəklinizi çəkməyə icazə verirsinizmi?

Cavab: Buyurun, mən heç bir şeyə məhdudiyyət qoymuram. Mənim mətbuatla əlaqəm çox yaxşıdır.

Sual: Cənab Prezident, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunmasından əldə etdiyiniz tərəqqi barədə fikirlərinizi mənimlə bölüşərsinizmi?

Cavab: Bəli, bizim nailiyyətlərimiz vardır. 1994-cü ilin sentyabrında biz dünyanın nüfuzlu neft şirkətlərinin böyük bir qrupu ilə tarixi əhəmiyyətli bir müqavilə imzalamışıq. Bu müqaviləyə "Əsrin müqaviləsi" adı verilibdir. Doğrudan da bu, çox böyük bir müqavilədir.

Bu gün deyə bilərəm ki, həmin müqavilə artıq həyata keçirilir. Müqavilə üzrə birgə işlənən yataqlardan bu ilin sentyabr ayında neft hasil ediləcəkdir. Biz bu neftin dünya bazarına ixrac olunması üçün boru kəmərlərinin tikilməsi işinə başlamışıq. İlk neft kəməri tikilibdir. Digər boru kəməri də tikilir. Birinci boru kəməri Rusiyanın ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft kəməri isə Qərb istiqamətində - Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına gedəcəkdir. Böyük neft kəmərinin tikilməsi üçün də hazırlıq işləri görülübdür. Hesab edirik bu neft kəməri Türkiyənin ərazisindən keçib Aralıq dənizindəki Ceyhan limanına getməlidir.

(Müsahibəni redaksiyanın Baş redaktoru Riçard Uitli aparmışdır.)

"Çikaqo Tribun" qəzetinin redaksiya heyəti ilə görüşdə Prezident Heydər Əliyevin çıxışından:

Çikaqo. 4 avqust 1997-ci il

...Mən qeyd etdim ki, Azərbaycanda neft yataqları çox zəngindir və böyük neft hasilatı gözlənilir. Həmin iki boru kəməri bu neftin ixracını təmin edə bilməyəcəkdir. Ona görə də konsorsium bir neçə təklif hazırlayıbdır. Biz böyük neft kəmərinin tikilməsinə başlamalıyıq. Bu kəmərin marşrutları haqqında bir neçə təklif vardır. Bunların hamısı müzakirə ediləcəkdir. Ancaq şəxsən mən bu kəmərin marşrutunun Azərbaycandan, Gürcüstandan, Türkiyədən keçərək Aralıq dənizinin Ceyhan limanına çıxmasına üstünlük verirəm.

Hələlik bu da tam yetərli deyildir.

Qazaxıstanın "Tengiz" yatağında artıq xeyli neft istehsal olunur. Mən iyun ayında Almatıda rəsmi səfərdə olarkən Prezident Nazarbayevlə bir saziş imzaladıq. Biz Xəzərin dibi ilə boru kəməri çəkib "Tengiz" neftini Bakıya gətirmək, oradan isə dediyim bu neft kəmərləri ilə Qərbə ixrac etmək istəyirik.

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi haqqında bəyannamə imzalandıqdan sonra birgə mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatından

Varşava, Prezident sarayı
26 avqust 1997-ci il

...Sual: Sual hər iki Prezidentədir. Siz Azərbaycan neftinin Polşa vasitəsilə Avropaya nəql olunması məsələsini müzakirə etdinizmi? Nə qərara gəldiniz?

Cavab: Biz bu məsələ barəsində fikir mübadiləsi etdik. Bir halda ki, sual verilib, mən ona bir qədər geniş cavab verəcəyəm.

Bəli, Xəzər bölgəsi olduqca böyük neft və qaz ehtiyatlarına malikdir. Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqları 50 ildən artıqdır işlənilir və bu illər ərzində olduqca çox - bir neçə yüz milyon ton neft çıxarılmışdır. İndi Azərbaycan özünün bütün ərazisindəki, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorundakı öz təbii ehtiyatlarından istifadə edilməsinin yeni mərhələsini keçirir.

1994-cü ildə biz Xəzər dənizinin Azərbaycan sektorundakı üç yataqdan birgə istifadə edilməsi haqqında dünyanın ən iri transmilli şirkətlərinin konsorsiumu ilə müqavilə imzaladıq. Müqavilədə təxminən 600 milyon ton neft, böyük miqdarda təbii qaz çıxarılması nəzərdə tutulur. Bu müqavilə 25 il müddətinə bağlanmışdır, ondan sonra daha bir sıra müqavilələr imzalanmışdır. Bu günədək biz Xəzər dənizinin Azərbaycan sektorundakı iri yataqlar üçün doqquz müqavilə imzalamışıq. Bu yaxınlarda mənim Amerika Birləşmiş Ştatlarına rəsmi səfərim zamanı Vaşinqtonda, Ağ evdə üç müqavilə və bir saziş imzalanmışdır. Bundan başqa, Xəzər dənizinin Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, Qazaxıstan və Türkmənistan ərazilərində də ehtiyatlar var. Bunların hamısı bütün bu yataqların birgə işlənməsi üçün ilkin zəmin yaradır. Bir çox transmilli şirkətlər onlara maraq göstərirlər və söhbət bu neftin dünya bazarlarına nəql edilməsindən gedir.

Hazırda biz Azərbaycandan ilkin neftin Qara dənizə ixracı üçün iki boru kəməri çəkirik. Neft kəmərlərindən biri Rusiya ərazisindən keçib onun Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisi ilə Supsa limanına gedəcəkdir. Lakin Gürcüstan, Türkiyə əraziləri ilə Aralıq dənizinə, Ceyhan limanına gedəcək böyük neft kəməri çəkmək də planlaşdırılır.

Lakin bu da kifayət deyildir. Söhbət mərkəzi Asiyadan, - mən Qazaxıstan və Türkmənistanı nəzərdə tuturam, - başlayıb Xəzər dənizindən keçərək Azərbaycana, oradan da Qara dənizə doğru, ya da Türkiyə ərazisi ilə Aralıq dənizinə doğru boru kəmərləri yaradılmasından gedir.

Bununla eyni zamanda Avroasiya nəqliyyat dəhlizi yaradılmışdır və indi o, fəal işləyir və Mərkəzi Asiyadan Xəzər dənizi vasitəsilə Azərbaycana, Gürcüstana, Qara dəniz vasitəsilə Avropa və oradan geriyə yük daşımalarını həyata keçirir. Bu iki yol - yüklərin nəql edilməsi və neft kəmərləri ilə neft və qazın nəql edilməsi Avropa üçün, o cümlədən Polşa üçün böyük əhəmiyyətə malikdir. Biz prezident Kvasnevski cənabları ilə bu mövzuda danışdıq və hesab edirəm ki, Polşanın öz yanacaq ehtiyatlarını təmin etmək, özünün bir çox nəqliyyat məsələlərinin, o cümlədən Avropa ilə Mərkəzi Asiya və Qafqaz arasında nəqliyyat məsələlərinin həlli üçün yaranmaqda olan bu şəraitdən istifadə etməyə imkanı var.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə-Yaponiya İşbirliyinin sədri Şariq Tara ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev sentyabrın 1-də Prezident Sarayında Türkiyə - Yaponiya İşbirliyinin sədri Şariq Taranı qəbul etmişdir.

Prezident qonağı salamlayaraq xatırlatdı ki, İstambulda görüşəndə sizə dedim Azərbaycana gəlmək lazımdır. O zaman dediniz ki, 1991-ci və ya 1992-ci ildə gəlmişdiniz. Mən dörd ildir buradayam, amma siz gəlməmisiniz. İndi yaxşı ki, gəlmisiniz. Çünki bilirəm, - siz Azərbaycanın dostusunuz. Dünyanın hər yerində iş görürsünüz, Azərbaycanda da iş görmək lazımdır. Cənab Şariq Tara bildirdi ki, Moskvada keçiriləcək yubiley şənliklərində o da iştirak edəcəkdir, çünki orada çox işlər görürlər. O, Prezident Heydər Əliyevə müraciətlə dedi ki, Sizin yardımınızla Bakını da gözəlləşdirmək olar.

Dövlətimizin başçısı onların Moskvada gördükləri işlərdən xəbərdar olduğunu, bu işlərin hələ 1986-cı ildən başlandığını, "Petrovski passaj"ın, "Metropol" mehmanxanasının təmirini xatırlatdı. Şariq Tara dedi ki, bir çox başqa işlər də görmüşlər, o cümlədən Dövlət Dumasının, Rusiya hökumətinin binalarını tikmişlər. Prezident Heydər Əliyev bunlardan məmnun qaldığını söyləyərək dedi ki, mən türk, azərbaycanlı, müsəlman olaraq Kremldə oturmuş yeganə şəxsəm. Tarixdə ikincisi olmayıbdır. Moskvanın, Sovet İttifaqının rəhbərliyində oturan bir insan olmuşam. Təəssüf ki, Rusiya həmişə Türkiyəni geridə qalmış bir dövlət, türkləri mədəniyyəti, biliyi olmayan, geridə qalmış millət hesab edirdi. Ancaq Türkiyə şirkəti Rusiyanın paytaxtında ən böyük binaları tikərək, təmir edərək kimin nəyə qadir olduğunu sübut etdi. Qonaq Bakıda, Azərbaycanda böyük dəyişikliklər baş verdiyini vurğulayaraq dedi ki, Sizə hamı inanır, hər kəs burada iş görmək istəyir. Azərbaycanda de-

mokratik dəyişikliklər də çox yaxşıdır. Prezident Heydər Əliyev onların Moskvada, Rusiyada gördükləri işlərdən məmnun olduğunu bir daha bildirərək dedi ki, düşünürəm, siz Türkiyə şirkəti olaraq bu işlərdən qazandığınız vəsaitin bir qismini Azərbaycana gətirib burada iş görməlisiniz. Siz Rusiyanın inşaat bazarını ələ keçirmisiniz, - bu, çox yaxşıdır. İndi Azərbaycanda iş görmək vaxtı gəlib çatmışdır.

"Azərbaycan" qəzeti, 2 sentyabr 1997-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem və Dövlət katibi Əhəd Əndican ilə görüşü

8 sentyabr 1997-ci il

Prezident Sarayında Respublikanın Prezidenti Heydər Əliyev ölkəmizdə səfərdə olan Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemi və Dövlət katibi Əhəd Əndicanı qəbul etmişdir.

Hörmətli qonaqları səmimi salamlayan dövlət başçısı onların bu səfərindən məmnun qaldığını qeyd etdi və vurğuladı ki, Azərbaycan - Türkiyə qardaşlıq əlaqələri iki ölkə arasında müntəzəm, davamlı əlaqələri şərtləndirir. Belə ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ikitərəfli əlaqələrdə böyük uğurlar qazanılmışdır. Lakin bu uğurları daha da möhkəmlətmək üçün hələ də istifadə edilməmiş imkanlar var. Bu baxımdan Azərbaycanın dövlət başçısının Türkiyəyə son rəsmi səfəri və səfər zamanı imzalanmış sazişlər böyük əhəmiyyət kəsb edir. Səfər zamanı Azərbaycan prezidentinin Türkiyənin ali mükafatı - "Dövlət nişanı" ilə təltif edilməsi qarşılıqlı əlaqələrimizdə ümhüm hadisədir. Bununla belə, bütün sahələrdə əməkdaşlığı dərinləşdirmək zəruridir. Bu mənada Türkiyə və Azərbaycan Xarici İşlər Nazirlikləri mərkəz rolu oynamalıdır. Təəssüf ki, son vaxtlar ölkələrimizin xarici siyasət idarələrinin fəaliyyətində fəallıq müşahidə olunmur. Əlbəttə, bu süstlüyün obyektiv səbəbləri də var. Belə ki, son bir neçə ayda Türkiyə hökuməti böhranı ilə üzləşmişdi. Azərbaycanda hamı arzu edirdi ki, qardaş Türkiyə yaranmış böhranı tezliklə aradan qaldırıb yeni hökumət formalaşdırsın. Xoşbəxtlikdən yeni kabinet təşkil edildi. Prezident Heydər Əliyev sözünə davam edərək dedi ki, hökumətlərarası əlaqələrdən fərqli olaraq, Azərbaycan və Türkiyənin dövlət başçıları arasında təmaslar heç vaxt kəsilməyib. Amma istərdik ki, belə təmaslar bütün sahələri əhatə etsin.

Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem qonaqpərvərlik üçün təşəkkürünü bildirərək iki dövlətin Prezidentləri arasında əlaqələrdə nümunə, çərçivə kimi qiymətləndirdi. O, belə bir cəhəti vurğuladı ki, Azərbaycanın təhlükəsizliyi Türkiyənin təhlükəsizliyi, Türkiyənin təhlükəsizliyi isə Azərbaycanın təhlükəsizliyi deməkdir. Cənab İ.Cem məmnuniyyətlə qeyd etdi ki, artıq Türkiyədə geniş dəstəyə, xüsusilə də parlamentin dəstəyinə malik hökumət qurulubdur və yeni kabinet ölkə qarşısında duran problemləri həll etməyə başlayıbdır. O, Türkiyənin yeni hökumətinin Azərbaycanla əlaqələrdə, xüsusilə iqtisadi əməkdaşlıq sahəsində böyük işlər görəcəyinə əmin olduğunu bildirdi.

Türkiyənin Dövlət katibi Əhəd Əndican da öz növbəsində Prezidentlər Heydər Əliyev və Süleyman Dəmirəl arasında yaranmış münasibətləri yüksək qiymətləndirdi. O, Azərbaycan rəhbərinin belə bir fikrini təkrar etdi ki, "Azərbaycan və Türkiyə iki dövlət, bir xalqdır". Türkiyə hökumətində türkdilli ölkələrlə əməkdaşlıq məsələlərinə cavabdeh olan cənab Ə.Əndican Azərbaycanın Mərkəzi Asiyadakı türk respublikaları üçün əhəmiyyətli körpü olduğunu qeyd etdi vətürkdilli xalqlar arasında əlaqələri inkişaf etdirmək üçün öz üzərinə düşən vəzifələri yerinə yetirəcəyini bildirdi. Prezident Heydər Əliyev bir daha Azərbaycan - Türkiyə əlaqələrini sürətləndirmək zərurətinə toxundu və əlavə etdi ki, qarşılıqlı əlaqələri genişləndirmək üçün Azərbaycanda hər cür şərait var. Belə ki, Azərbaycan açıq ölkə kimi demokratik dəyərlərə əsaslanan hüquqi dövlət qurur və bu, onun startei yoludur. Artıq ölkədə iqtisadi islahatlar başlanmışdır və bu dəyişikliklər bazar münasibətləri yönümündədir. İslahatların keçirildiyi qısa müddət ərzində böyük nailiyyətlər əldə edilib. Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə etsə də, əslində müstəqil dövlət quruculuğu prosesi cəmi iki il əvvəl başlayıb. Belə ki, 1994-cü ilin may ayına kimi cəbhədə döyüşlər davam edib. Üstəlik, 1994-95-ci illərdə daxildəki irticaçı qüvvələr dövlət çevrilişi cəhdinə əl ataraq ölkəni müstəqil inkişaf yolundan döndərməyə çalışırdılar. Həmin cəhdlərin qarşısı alındıqdan sonra intisadi inkişaf üçün şərait yarandı. Belə ki, illik inflyasiya 1994-cü ildə 1600 faiz təşkil edirdisə, indi bu rəqəm sıfıra bərabərdir. Həmçinin milli valyutanın - manatın dəyəri ABŞ dollarına münasibətdə 15 faiz artıb. Eyni zamanda istehsalın tənəzzülünün qarşısı alınıb və yüksəliş dövrü başlayıb. Başqa sözlə, görülən tədbirlər, habelə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə əməkdaşlıq nəticəsində milli iqtisadiyyatı normal vəziyyətə gətirmək mümkün olub. Əlbəttə, müharibə, dövlət çevrilişi cəhdləri olmasaydı, Azərbaycan iqtisadiyyatı indikindən qat-qat yüksək səviyyədə olardı. Belə ki, hələ Sovet dövründə Azərbaycan İttifaq büdcəsindən dotasiya almayıb müstəqil yaşayan iki respublikadan biri idi. Prezident Heydər Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycan iqtisadiyyatı yaxın bir-iki ildə əsaslı yüksəlik mərhələsinə qədəm qoyacaq. Görüş zamanı Prezident Heydər Əliyev təhlükəsizlik məsələləri ilə bağlı iki ölkənin - Azər-

baycan və Türkiyənin mənafeyinə toxunan problemlərdən də söhbət açdı. Bunlardan birincisi hər iki dövlətin aid olduğu Qafqazda münaqişələrin, xüsusilə də Ermənistan - Azərbaycan münaqişəsinin davam etməsidir. Ermənistanın ölkəmizə qarşı təcavüzü başlayandan bəri Azərbaycan həmişə Türkiyənin dəstəyini hiss etmişdir. Təəssüf ki, Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, hazırda ATƏT-in Minsk qrupunun üzvü kimi Türkiyənin fəallığı müşahidə edilmir. Halbuki münaqişənin tənzimlənməsində vasitəçilik funksiyasını ABŞ, Rusiya və Fransa kimi böyük dövlətlər öz üzərlərinə götürmüşlər. Eyni zamanda Ermənistanın etirazına və bəzi dövlətlərin təcavüzkarı dəstəkləməsinə baxmayaraq, dünya birliyi münaqişənin ATƏT-in Lissabon sammitində qəbul edilmiş prinsiplər əsasında nizama salınmasına tərəfdardır. Belə bir şəraitdə Türkiyənni Minsk prosesində fəallaşmasına böyük ehtiyac var. Digər tərəfdən, Rusiyanın son üç ildə Ermənistana dəyəri bir milyarddan artıq olan müasir silahdır, o cümlədən nüvə başlıqları daşımağa qadir raketlər verməsi Azərbaycanda böyük narahlıq doğurmuşdur. Bu məsələ eyni dərəcədə Türkiyəni də narahat etməlidir. Çünki həmin silahla bölgə ölkələrində təkcə Azərbaycanın yox, həm də Türkiyənin təhlükəsizliyini hədələyir. Bütün bunlar azmış kimi, Rusiya Ermənistanla ötən ayın 29-da qarşılıqlı hərbi yardımı da nəzərdə tutan ikitərəfli müqavilə imzalayıb. Artıq Azərbaycanın Xarici İşlər Nazirliyi həmin müqavilə ilə əlaqədar Rusiya tərəfinə nota verib. Prezident Heydər Əliyev vurğuladı ki, bu, bölgənin təhlükəsizliyinə qorxu törətdiyi üçün Azərbaycanla bərabər Türkiyəni də narahat etməlidir. Bir daha Azərbaycan - Türkiyə əlaqələrinin genişləndirilməsinin zəruriliyi məsələsinə qayıdan Prezident Heydər Əliyev xüsusi neft sahəsində perspektivli əməkdaşlıqdan söz açdı və böyük neft kəmərinin Bakı-Ceyhan marşrutu ilə çəkilməsi ideyasını dəstəklədiyini vurğuladı. O, eyni zamanda Türkiyədəki müəyyən dairələrin sırf ticarət, gəlir əldə etmək məqsədi ilə Ermənistanla sərhədi açmaq cəhdlərindən narahatlıqla söhbət açdı və vurğuladı ki, "Azərbaycan - Türkiyə qardaşlıq əlaqələrində pul ikinci yerdə olmalıdır."

Sonra danışıqlar bağlı qapılar arxasında davam etdirildi.

Azərbaycan" qəzeti, 9 sentyabr 1997-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyev millət vəkili Cavid Çağlar başda olmaqla Türkiyəli qonaqları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 15-də Prezident sarayında Türkiyənin Millət vəkili, keçmiş dövlət naziri Cavid Çağlar başda olmaqla dost

ölkədən gəlmiş qonaqları qəbul etmişdir. Heyətin tərkibində Millət vəkili İbrahim Yazıçı, "Nərgiz Holdinq" Şirkətinin rəhbəri Şükrü Şankay, Türkiyənin "NTV" televiziyasının rəhbərləri və iş adamları vardır. Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev yaxın dostu Cavid Çağların respublikamıza səfər etməsindən məmnun qaldığını bildirdi. Ölkələrimizin və xalqlarımızın tarixi dostluq əlaqələrini yüksək qiymətləndirən Prezident Heydər Əliyev dedi: Mən vaxtilə Naxçıvanda yaşayırdım. O zaman ölkəmiz üçün ağır dövr idi. Xalqımız hörmətli Süleyman Dəmirəlin diqqət və qayğısını daim hiss edirdi. Biz Muxtar Respublika ilə Türkiyə sərhədində "Ümid körpüsü"nü tikib istifadəyə verdik. O vaxt dövlət naziri olan, yaxın dostum Cavab Çağlar bu işlərdə fəal iştirak edirdi, Azərbaycana və Naxçıvana əlindən gələn köməyi əsirgəmirdi. Biz bunları heç vaxt unutmuruq. Görkəmli dövlət xadimi Heydər Əliyev müdrik ağsaqqal kimi ürəkdən sevdiyini nəzərə çarpdıran Cavid Çağlar onu Azərbaycana dəvət etdiyinə görə dövlətimizin başçısına dərindən minnətdarlığını bildirdi, Prezident Süleyman Dəmirəlin salamlarını və xoş arzularını respublikamızın rəhbərinə çatdırmaqdan şərəf duyduğunu söylədi. Prezident Heydər Əliyevin "biz bir millət, iki dövlətin" sözlərinin Türkiyədə həmişə böyük məhəbbətlə xatırlandığı vurğulayan Cavid Çağlar vaxt tapıb onları qəbul etdiyinə görə respublikamızın rəhbərinə bir daha təşəkkürünü bildirdi və onunla birlikdə gəlmiş qonaqları dölətimizin başçısına təqdim etdi.

Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin çox böyük gələcəyi olduğunu bildirən Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına və Polşaya rəsmi səfərləri zamanı keçirdiyi bütün görüşlərdə, apardığı danışıqlarda Azərbaycan - Türkiyə münasibətlərinin xüsusi əhəmiyyət daşıdığından geniş söhbət açdığını nəzərə çarpdırdı.

Dövlətimizin başçısı Türkiyənin Xarici İşlər naziri cənab Cemin və dövlət naziri cənab Əndicanın bir neçə gün bundan əvvəl respublikamızı ziyarət etmələrindən məmnunluqla söhbət açdı.

Türkiyəyə bu ilin mayında etdiyi rəsmi səfəri indi də böyük məmnuniyyətlə xatırladığını bildirən respublikamızın rəhbəri ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi barədə həmin səfər zamanı imzalanan sənədləri bir daha yüksək qiymətləndirərək dedi: Azərbaycanın Prezidentinə ilk dəfə olaraq Türkiyə Cümhuriyyəti kmii böyük bir ölkənin ən yüksək mükafatı - "Dövlət nişanı" təqdim edildi və bunun çox bük əhəmiyyəti vardır. Azərbaycan - Türkiyə əməkdaşlığının durmadan inkişaf etdirilməsində Prezident Süleyman Dəmirəlin xüsusi xidmətləri olduğunu nəzərə çarp-

dıran Prezident Heydər Əliyev dedi: Süleyman Dəmirəl ümumiyyətlə bütün türkdilli cümhuriyyətlə çox böyük qayğı, diqqət göstərir. Mən bunu yüksək qiymətləndirirəm. Mərhum Turqut Özalın və əziz dostum Süleyman Dəmirəlin təşəbbüsü ilə türkdilli ölkələrin dövlət başçılarının bir qurumu yaranıbdır və onların vaxtaşırı olaraq zirvə toplantıları keçirilir. Türkdilli ölkələrin Prezidentləri müntəzəm görüşürlər, bir çox məsələləri müzakirə edirlər. Biz bunu dəstəkləyirik və çox lazımlı hesab edirik. Süleyman Dəmirəlt türkdilli ölkələrin dövlət başçılarının ağsaqqalı hesab etdiyini söyləyən Prezident Heydər Əliyev onun dünya siyasətində də xüsusi xidmətləri olduğundan da ətraflı söhbət açdı.

Müstəqil Azərbaycan Respublikasının bu gün dünya birliyində özünə layiq yer tutduğunu vurğulayan dövlətimizin başçısı Heydər Əliyev Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan və Minsk qrupu həmsədrlərinin bu sahədəki fəallığından razılıqla bəhs etdi. Prezident Heydər Əliyev NATO-nun və Avropa Atlantika Əməkdaşlığı Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid zirvə toplantısında Süleyman DƏmirəllə, Bill Klintonla, Jak Şirakla keçirdiyi görüşlərdə, Rusiyaya və Amerika Birləşmiş Şitatlarına rəsmi səərləri zamanı Boris Yeltsinlə və Bill Klintonla apardığı danışıqlarda bu münaqişənin sülh yolu ilə aradan qaldırılması məsələsini ətraflı müzakirə etdiyini bildirdi. Respublikamızın rəhbəri bu münaqişənin həlli sahəsində qardaş ölkənin daimi dəstəyini bir daha yüksək qiymətləndirdi. O, Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması, ticarət aparılması barədə Türkiyə mətbuatında dərc olunan yazılardan narahatlıqla bəhs etdi. Prezident Heydər Əliyev bu barədə fikirlərini Xarici İşlər naziri Cemə və telefon danışığı zamanı Baş nazir Məsud Yılmaza bildirdiyini xatırlatdı.

Dövlətimizin başçısı Türkiyənin "NTV" televiziyası ilə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti arasında sıx əlaqələr olmasının vacibliyini nəzərə çarpdırdı.

Prezident Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycanın dünya birliyində özünəməxsus yer tutmasından şərəf duyduqlarını bildirən cənab Çağlar Türkiyə ilə Ermənistan arasında sərhədlərin guya açılması barədə mətbuatda dərc edilmiş yazıların həqiqətə uyğun olmadığını nəzərə çarpdıraraq dedi ki, Ermənistan - Azərbaycan münaqişəsi aradan qaldırılmayınca xalqımız və dövlətimiz buna heç vaxt yol verməz.

"Azərbaycan" qəzeti, 16 sentyabr 1997-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Anadolu Ajansının Roma müxbiri ilə müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 25-də Romada öz iqamətgahında Türkiyənin Anadolu Ajansının Roma müxbiri Yasəmən Taşkına müsahibə vermişdir. Müsahibənin mətni aşağıda dərc olunur.

Sual: Cənab Prezident, mənə vaxt ayırdığınıza görə minnətdarlığımı bildirirəm və Sizinlə görüşümdən şərəf duyuram.

Cənab Prezident, Sizin italiyaya ilk rəsmi səfəriniz böyük əks-səda doğurmuşdur. Romada keçirdiyiniz görüşlərdə, danışıqlarda siyasi və iqtisadi məsələlər, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması haqqında müzakirələr aparmısınız. Bu barədə fikirlərinizi mənimlə bölüşə bilərsinizmi?

Cavab: Mən hesab edirəm ki, İtaliyaya rəsmi səfərim Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki bu ziyarət müstəqil Azərbaycan Respublikası Prezidentinin İtaliyaya ilk rəsmi səfəridir. Bu, özü - özlüyündə çox əhəmiyyətlidir. Eyni zamanda, biz burada çox səmərəli işlər görürü. Yəni Prezident Oskar Luici Skalfaro il, Baş nazir Roman Prodi ilə, yüksək vəzifəli digər rəsmi şəxslərlə görüşlər apardıq. Biz burada çox yaxşı müqavilələr imzaladıq. Onlardan biri siyasi, digəri isə iqtisadi məsələlər barədədir. Bütün bunlar İtaliya - Azərbaycan əməkdaşlığının və dostluq əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün çox yaxşı təməl, yəni hüquqi-normativ əsas yaratdı.

İqtisadi cəhətdən əməkdaşlıq etmək üçün biz bir-birimizin imkanlarını aradıq. Hər iki tərəf eyni fikirdədir ki, bu sahədə imkanlarımız çoxdur. Xəzərin Azərbaycan sektorundakı "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hastlatın pay bölgüsü barədə sazişin əsas kommersiya prinsipləri və müddəaları haqqında İtaliyanın "Acip" Şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilə imzalandı. Bu, kontraktqabağı bir müqavilədir. "Kürdaşı" neft yatağına digər neft şirkətləri də maraq göstərirlər. Amma İtaliyanın "Acip" Şərkəti bu yatağa çox maraq göstərdiyinə görə mən buna razılıq verdim, həmin sənəd imzalandı. Siz bilirsiniz ki, İtaliya Minsk qrupunun üzvüdür və 1992-1993-cü illərdə Minsk qrupuna sədrlik edibdir. Ermənistan - Azərbaycan münaqişəsinin həllində Minsk qrupunun üzvü kimi İtaliya indi də çox iş görə bilər. İtaliya bizim bu barədə mövqeyimizi tamamilə dəstəkləyir. Yəni Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, respublikamızın ərazi bütövlüyü təmin olunmalıdır, yerindən-yurdundan zorla qovulmuş, çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan çox vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Biz Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünü-

idarəetmə, muxtariyyət verməyə razıyıq. Bilirsizin ki, bu prinsiplər ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə qəbul edilmişdir. Türkiyə Respublikası da bu prinsipləri çox dəstəkləmişdir. Bu prinsipləri İtaliya da dəstəkləmişdir. İtaliyanın bu barədə mövqeyi dəyişilməzdir.

Sual: Demək, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının geri qaytarılmasına İtaliya da tərəfdardır?

Cavab: Bəli.

Sual: Əlbəttə, bu məsələdə İtaliyanın Azərbaycanın mövqeyini dəstəkləsi çox faydaoı bir addımdır. Cənab Prezident, Roma papası II İoann Pavel ilə bugünkü görüşünüz barədə nə deyə bilərsiniz?

Cavab: Bəli, mən bu gün onunla görüşdüm. İtaliyaya rəsmi səfərə gələrkən Vatikan dövləti də məni rəsmi dəvət etdi ki, mən yeni zamanda Vatikan dövlətini də ziyarət edim. Mən də bu dəvəti qəbul etdim.

Sual: Cənab Prezident, Roma papası ilə görüşünüz necə keçdi?

Cavab: Çox gözəl. Roma papasını çiz yaxşı tanıyırsınız. Mən onunla ilk dəfədir ki, görüşürəm. Amma görüşümüz, danışığımız, söhbətimiz çox maraqlı, məzmunlu, faydalı oldu.

Sual: Cənab Prezident, bu barədə bir qədər geniş danışa bilərsinizmi?

Cavab: Biz bu görüşümüzdə bir çox məsələləri müzakirə etdik. Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi barədə də fikir mübadiləsi apardıq. Yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş torpaqlardan işğalçı ordunun çıxarılması və bir milyondan çox azərbaycanlı qaçqının yerinə-yurduna qayıtması məsələsini müzakirə etdik. Roma papası Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir.

Sual: Cənab Prezident, Roma papası II İoann pavelin bu münaqişənin həllində şəxsi bir yarlımı mümkündürmü?

Cavab: Xeyr. Bu barədə söhbət olmadı.

Sual: Cənab Prezident, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin sülh yolu ilə həll edilməsi Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil olunan nefti dünya bazarına çıxaracaq boru kəmərlərinin marşrutlarının müəyyənləşdirilməsində və çəkilişinin sürətləndirilməsində nə kimi rol oynaya bilər?

Cavab: Neft boru kəmərlərinin marşrutlarının müəyyənləşdirilməsi məsələsi bunsuz da həll olunur və həll olunacaqdır. Əlbəttə, şübhəsiz ki, Ermənistan - Azərbaycan münaqişəsi sülh yolu ilə aradan qaldırılsa bu, boru kəmərlərinin çəkilişi məsələsini də asanlaşdıracaqdır. Amma bundan asılı olmayaraq biz boru kəmərlərinin çəkilişi məsələsi ilə məşğul oluruq.

Sual: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarına və İtaliyaya rəsmi səfərləriniz bölgədə Azərbaycanın güclü bir dövlət olduğunu göstərir, həmin dövlətlərin və bütün Avropa ölkələrinin Azərbaycana diqqət və marağını daha da artırır. Bütün bunların perspektivlərini necə görürsünüz? Azərbaycan və Türkiyə arasındakı əməkdaşlığın inkişaf etdirilməsi barədə nə deyə bilərsiniz?

Cavab: Türkiyə ilə Azərbaycanın əlaqələri dəyişməzdir. Biz dost və qardaş ölkələrik. Bizim dostluğumuz, qardaşlığımızı heç kəs poza bilməz.

Bilirsiniz ki, mən bu ilin may ayında Türkiyədə rəsmi səfərdə idim. Bu, çox gözəl bir səfər idi. Biz orada çox yaxşı sənədlər imzaladıq. Türkiyənin xarici işlər və dövlət nazirləri bu yaxındarda Azərbaycana gəlmişdilər. Biz çox faydalı danışıqlar apardıq. Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrdə bir problem yoxdur. Yenə də deyirəm, biz dost və qardaşıq, beləcə olaraq qalacağıq.

Mən bu il Amerika Birləşmiş Ştatlarında, Rusiyada, Türkiyədə, Qazaxıstanda, Özbəkistanda rəsmi səfərlərdə olmuşam. Buraya gəlməmişdən əvvəl Polşaya rəsmi səfərə getmişdim. İndi İtaliyaya rəsmi səfərə gəlmişəm. Bunlar hamısı Azərbaycanın mövqelərini bütün dünyaya daha da aydın göstərmək məqsədi daşıyır. Bu səfərlərimdə hər dəfə görürəm ki, Azərbaycana maraq gündəngünə daha da artır.

Sual: Cənab Prezident, Siz Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsinə ciddi diqqət yetirirsiniz. Bu sahədə görülən işlər barədə nə deyə bilərsiniz?

Cavab: Bəli, biz buna çalışırıq. Biz istəyirik ki, Avropa dövləti kimi Azərbaycan həm Avropa Şurasına, həm də Avropa Birliyinin bütün strukturlarına daxil olsun.

Sual: Azərbaycan bu sahədə qarşıya qoyduğu məqsədə çatmaq üçün hansı nailiyyətlər əldə edib?

Cavab: Bizim bu sahədə ilk nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanı Stasburqda Avropa Şurasına xüsusi qonaq kimi qəbul ediblər. Biz istəyirik ki, Avropa Şurasının tam üzvü olaq. Doğrudur, Avropa Birliyinə üzv qəbul olunmaq bir qədər çətindir. Çünki Türkiyə də hələ Avropa Birliyinin üzvü deyildir. İndi biz istəyirik yardım edək ki, Türkiyə də Avropa Birliyinin üzvü olsun. Biz indi həmin qapıları döyürük, hesab edirəm ki, o qapılar bizim üçün açılacaqdır.

Sual: Cənab Prezident, İtaliyanın Baş naziri cənab Prodi Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsinə necə baxır?

Cavab: Azərbaycanın Avropa Birliyinə, Avropa Şurasına üzv qəbul olunmasını cənab Prodi də dəstəkləyir.

Sual: Mənimlə bu müsahibənizdən sonra İtaliyanın bir neçə şirkətinin rəhbərləri ilə görüşəcəksiniz. Həmin danışıqların gündəliyində yeni bir müqavilənin imzalanması məsələsi dururmu?

Cavab: Xeyr. Biz "Eni - Acip"lə bir müqavilə imzalamışıq. Digər şirkətlərlə görüşlər keçirim, baxım görüm nə olacaq.

Sual: Cənab Prezident, Sizin bu rəsmi səfəriniz Azərbaycan - İtaliya münasibətlərinin daha da yaxınlaşması üçün çox faydalı oldu. Bu yaxınlaşmanın yolunun Türkiyədən keçəcəyini düşünmək olarmı?

Cavab: Şübhəsiz ki, belədir. Mənim burada keçirdiyim görüşlərdə, apardığım danışıqlarda biz Türkiyə haqqında da söhbət açdıq. Çünki mən bilirəm ki, Türkiyə ilə İtaliya arasında da çox sıx əlaqələr vardır. Biz istəyirik ki, bu əlaqələr daha da inkişaf etsin.

Sual: Siz istəyirsiniz ki, bu üç ölkə arasında daha çox yaxınlaşma olsun.

Cənab Prezident, gərgin iş cədvəlinizdən mənə vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkür edirəm.

Cavab: Çox sağ olun.

"Azərbaycan" qəzeti, 4 oktyabr 1997-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Baş naziri Məsud Yılmaz ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 11-də Strasburqda Avropa sarayında Türkiyə Respublikasının Baş naziri Məsud Yılmaz ilə görüşmüşdür.

Türkiyə hökumətinin başçısı Azərbaycan rəhbərini dostcasına salamlayaraq bu görüşdən məmnun qaldığını bildirdi və prezident Süleyman dəmirəlin səmimi salamını ona yetirdi.

Prezident Heydər Əliyev təşəkkür edərək onun da salamını və xoş arzularını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrini daha da genişləndirməyin və möhkəmləndirməyin vacibliyi yenidən vurğulandı. Prezident Heydər Əliyev bildirdi ki, biz bu əlaqələri çox yüksək qiymətləndirir, qardaş Türkiyə ilə əməkdaşlığı xarici siyasətimizin əsas istiqamətlərindən biri sayırıq və bu baxımdan öz tərəfimizdən hər şeyi edirik. Azərbaycanla Türkiyə arasındakı sıx münasibətlərə heç nə mane ola bilməz və olmamalıdır.

Söhbət zamanı Ermənistan - Azərbaycan münaqişəsinin həlli məsələsi də müzakirə olundu.

ATƏT-in Minsk qrupu həmsədrlərinin bu sahədə fəallığının artmasını qeyd edən Prezident Heydər Əliyev münaqişənin mərhələlərlə aradan qaldırılması barədə həmsədrlərin son təkliflərinin mahiyyətini açıqladı. Dövlətimizin başçısı bildirdi ki, problemin Lissabon prinsipləri əsasında həlli üçün danışıqların intensivləşdirilməsi baxımından biz bu təklifləri qəbul etmişik. Azərbaycan

Prezidenti dedi ki, bizə dost və qardaş ölkə olan Türkiyə də Minsk qrupunun üzvlərindən biri kmi, bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün səylərini artırmalıdır.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq məsələlərindən də söhbət getdi, ixrac boru kəmərlərinin mümkün marşrutları barədə fikir mübadiləsi aparıldı. Prezident Heydər Əliyev xatırlatdı ki, Xəzərin Azərbaycan sektorundakı yataqlarından çıxarılacaq neftin ixracı üçün əsas boru kəmərinin marşrutunun müəyyənləşdirilməsi ilə bağlı iş davam edir.

"Azərbaycan" qəzeti, 17 oktyabr 1997-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 8-də Tehranda Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan cənab Süleyman Dəmirəl Prezident Heydər Əliyevlə hər bir görüşün onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran görüşünün islam dövlətləri arasına əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacağına, zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən çox lazımlı sənədər qəbul ediləcəyinə əmin olduğunu bildirən Süleyman Dəmirəl daha sonra Türkiyədə hazırkı ictimai-siyasi vəziyyət barədə geniş söhbət açdı.

Prezident Süleyman Dəmirəl ilə görüşündən məmnun olduğunu, Azərbaycan - Türkiyə əməkdaşlığının hazırkı vəziyyətindən razı qaldığını vurğulayan Prezident Heydər Əliyev bu əlaqələrin gündən-günə inkişaf etdirilməyinin zəruriliyini nəzərə çarpdırdı.

Bütün sahələrdə islahatları müvəffəqiyyətlə həyata keçirən müstəqil respublikamızın qardaş Türkiyə ilə əlaqələrin daha da sıxlaşdırılmasına daim diqqət yetirdiyini qeyd edən dövlətimizin başçısı Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsində dost ölkənin yaxından iştirakını yüksək qiymətləndirdi. "Çıraq" yatağından ilkin neftin hasil edilməsi münasibəti bu il noyabrın 12-də Bakıda təntənəli mərasim keçirildiyini xatırladan respublikamızın rəhbəri dedi ki, biz neft dünya bazarına çıxaracaq Bakı - Novorossiysk və Bakı - Ceyhan marşrutlarına üstünlük vermişik.

Qazaxıstanın "Tengiz" yatağından hasil edilən neftin Azərbaycan ərazisi vasitəsilə nəql olunduğundan bəhs edən Prezident Heydər Əliyev Xəzər neftinin Türkiyədən

dünya bazarına çıxarılmasının da böyük əhəmiyyət daşıdığını vurğuladı.

Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü son təkliflərdən söhbət açan dövlətimizin başçısı dedi ki, biz bu təklifləri əsas kimi qəbul etmişik. Münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsinldə qardaş Türkiyənin dəstəyini Azərbaycanın daim hiss etdiyini vurğulayan Prezident Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Tehran zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyəcək sənədlərin qəbulunda da Türkiyənin öz nüfuzundan səmərəli istifadə edəcəyinə əmin olduğunu bildirdi.

Cənab Süleyman Dəmirəl dedi: Prezident kimi mən bir daha bəyan edirəm ki, Türkiyənin Ermənistana münasibəti yalnız Ermənistan - Azərbaycan münaqişəsi sülh yolu ilə başa çatdıqdan sonra müəyyənləşdirilə bilər.

Söhbət zamanı Azərbaycan - Türkiyə əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

"Azərbaycan" qəzeti, 13 dekabr 1997-ci il.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəli qonaqları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "Samanyolu" televiziyasının rəhbəri Naci Tosun, texniki müdiri Nihat Özdemir, "Çağ" Öyrətim İşlətmələri A.Ş.-nin Azərbaycan üzrə prezidenti Adem Öcal, "Zaman" qəzetinin Azərbaycan təmsilçisi Ersin Demirçi və "Samanyolu" televiziyasının Azərbaycan təmsilçisi Tahir Karanfili qəbul etmişdir. Adı çəkilən qurumların, o cümlədən təhsil sahəsində böyük uğurlar qazanmış "Çağ" Öyrətim İşlətmələri A.Ş.-nin rəhbərliyi möhtərəm Prezidentə şirkətin Azərbaycandakı fəaliyyətləri və bundan sonrakı gələcək işləri haqda geniş məlumat vermişdir.

"Çağ" Öyrətim İşlətmələri A.Ş.-nin Azərbaycan üzrə prezident Adem Öcal 1993-cü ildə Bakıda açılan Qafqaz Universitetinin müasir təhsil kompleksini tikmək üçün Xırdalan qəsəbəsində üzərində 20 hektar torpaq sahəsi ayrıldığını bildirərək, özülqoyulma mərasimində Zati-alilərini də gözlədiklərini ifadə etmişdir. Universitet və məktəblərin fəaliyyətindən çox məmnun olduğunu və onlara hər zaman dəstəklədiyini bildirən Azərbaycan Prezidenti dünya standartlarına uyğun təhsil ocaqları açmağın xeyirxah iş olduğunu vurğulayaraq belə işlərə hər zaman arxa və yardımçı olacağını təkrar etmişdir.

27 dekabr 1997-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ V İŞGÜZAR SƏFƏRİ

1998

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin və Türkiyənin Baş naziri Məsud Yılmazın dəvəti ilə fevralın 13-14-də Türkiyədə işgüzar səfərdə olmuşdur.

İstanbuldakı Atatürk hava limanında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Əziz dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirəl!

Məni Türkiyəyə dəvət etdiyinizə və burada təntənə ilə qarşıladığınıza görə sizə təşəkkür edirəm.

Hörmətli mətbuat nümayəndələri, həqiqətən də belədir,- mən buraya Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəlin, Türkiyənin Baş naziri hörmətli Məsud Yılmazın dəvəti ilə gəlmişəm. Bu dəvət bir neçə zaman bundan öncə olmuşdur. Doğrudan da bu, həm Türkiyə, həm də Azərbaycan üçün vaxt-vaxt belə görüşlər lazımdır.

Artıq mən dedim ki, Türkiyədəyəm. Mən buraya gəlməyimdən çox məmnunam. Çox sevinc içindəyəm ki, doğma, dost, qardaş, qonşu olan Türkiyəyə, böyük Mustafa Kamal Atatürkün vətəninə gəlmişəm, əziz dostum Süleyman Dəmirəlin vətəninə gəlmişəm.

Mən də belə hesab edirəm ki, bu qısa zamanda - bu gün, sabah burada olduğum müddətdə biz danışıqlar aparacaq, söhbət edəcəyik. Birinci növbədə Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrini daha da irəliyə aparmaq, daha da yüksəklərə qaldırmaq üçün, həm də ki, bölgədə mövcud olan vəziyyəti təhlil etmək üçün, dünyada, beynəlxalq aləmdə gedən proseslərə nəzər salmaq, fikirlərimizi müəyyən qədər aydınlaşdırmaq üçün mənim buraya gəlməyim çox zəruridir.

Hər dəfə olduğu kimi, ayağımı Türkiyə torpağına basan kimi çox

böyük qonaqpərvərlik hissi ilə qəbul olunuram və bunun üçün çox təşəkkür edirəm, çox məmnunam. Güman edirəm ki, bizim danışıqlarımız çox əhəmiyyətli, səmərəli olacaqdır. Türkiyə Azərbaycana həmişə böyük diqqət göstəribdir. Mən qardaşım Süleyman Dəmirəlin sözlərini tam təsdiq edirəm və həqiqətən böyük Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır. Türkiyənin dərdi-qəmi Azərbaycanın dərdi-qəmidir, Azərbaycanın dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daimi olacaq, sarsılmaz olacaqdır. Mən də, əziz dostum Süleyman Dəmirəl də bu dostluğu daha da möhkəmləndirmək üçün indiyə qədər çalışmışıq və bundan sonra da çalışacağıq. Mən çox nikbinəm, hesab edirəm ki, bizim qarşımızda nə qədər ağır, çətin problemlər, nə qədər çətin işlər dursa da, biz birgə səylərimiz nəticəsində, dostluq, qardaşlıq, əməkdaşlığımız nəticəsində onların hamısının qarşısını alacağıq.

Türkiyə dünyada özünəməxsus, çox görkəmli yer tutur, dünyanın qüdrətli dövlətidir. Azərbaycan altı ildir ki, müstəqil, bağımsız yaşayır və bilin ki, daim müstəqil yaşayacaqdır. Bunun üçün də biz əlimizdən gələni edirik və edəcəyik. Mən Azərbaycan xalqının iradəsini ifadə edərək bu sözləri deyirəm. Sizə bir daha təşəkkür edirəm. Əziz dostum, qardaşım, sizin və yanınızda olan hökumət, dövlət adamlarının simasında bütün Türkiyə xalqına, Türkiyə dövlətinin vətəndaşlarına hörmət-ehtiramımı, sevgi-məhəbbətimi bildirirəm. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz TV" televiziyasının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı təqdim edilmişdir.

Türkiyənin ən nüfuzlu televiziya kanallarından olan "Nərgiz TV" 1997-ci il üçün bir çox sahələrdə ən görkəmli adamları müəyyən etmək məqsədi ilə sorğu keçirmişdir. Sorğunun nəticələrinə əsasən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 59.413 səs toplayaraq "Dünyada ilin adamı", Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl isə "Türkiyədə ilin adamı" fəxri adlarına layiq görülmüşlər. Digər sahələrdə də ötən ilin mükafatçıları müəyyən edilmişdir. Fevralın 13-də axşam İstanbuldakı Lütfi Kırdar adına beynəlxalq konfrans və sərgi salonunda "Nərgiz-TV" /NTV/ kanalının yaranmasının birinci ildönümünə və mükafatların təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir. Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi və Türkiyə Prezidenti Süleyman

Dəmirəli gurultulu, sürəkli alqışlarla qarşıladılar. Mərasimdə Türkiyə Böyük Millət Məclisinin Sədri Hikmət Çətin, Baş nazir Məsud Yılmaz və digər rəsmi şəxslər də iştirak edirdilər.

Sonra "Nərgiz-tv" kanalının rəhbəri Nuru Çolaqoğlu mərasimi giriş sözü ilə açaraq Prezidentlərə bu mərasimdə iştirak etdiklərinə görə minnətdarlığını bildirdi...

Türkiyə Prezidenti Süleyman Dəmirəl NTV-nin "Dünyada ilin adamı" mükafatını gurultulu alqışların müşayiəti ilə Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım, hörmətli cənab Süleyman Dəmirəl!

Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Sədri, hörmətli cənab Hikmət Çətin!

Türkiyə Cümhuriyyətinin Baş naziri, hörmətli cənab Məsud Yılmaz! Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı, böyük Türk xalqını, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarını Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram. Sizə səadət, sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Mən bu gün mənim üçün, hər bir Azərbaycanlı üçün doğma olan Türkiyəyə gəlmişəm və Türkiyənin gözəl şəhəri, bütün dünyanın ən gözəl şəhərlərindən biri olan İstanbuldayam. Mən bundan çox xoşbəxtəm. İstanbul şəhərinin vətəndaşlarını xüsusi salamlayıram. Bu gözəl şəhərə çiçəklənən gələcək arzulayıram. "Nərgiz-tv" kanalında çalışan Türkiyənin bütün vətəndaşlarını, bizim bacı-qardaşlarımızı NTV televiziya kanalının birinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm və bu televiziya kanalına gələcəkdə böyük uğurlar arzulayıram. Bir il müddətində belə böyük nailiyyət əldə etmək yalnız və yalnız sərbəst olan ölkədə, hürriyyət olan ölkədə, azadlıq olan ölkədə, demokratiya olan ölkədə mümkündür. **Biz Azərbaycanda çox sevinirik ki, Türkiyə Cümhuriyyəti - bizim üçün dost və qardaş olan ölkə məhz belə ölkədir. Biz sevinirik ki, Türkiyə xalqı, Türkiyənin hökuməti, Türkiyənin dövləti böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə uğurla irəliləyir.**

Türkiyədə televiziya çox qısa bir tarixi zamanda böyük nailiyyətlər əldə edibdir. Ola bilər, bilmirsiniz, mən bunu bildirmək istəyirəm ki, Azərbaycanda, Bakıda televiziya Türkiyədən öncə verilişlər verməyə başlayıbdır. Azərbaycanda televiziya çalışmağa, yayına 1956-cı ildə başlayıbdır. Türkiyədə isə səhv etmirəmsə, bu, 1960-cı illərin əvvəllərində olubdur. Ancaq Türkiyədə bu müddətdə televiziya nə qədər inkişaf edib, nə qədər yayınlar meydana çıxarıb və nə qədər özəl televiziya kanalları vardır. Azərbaycanda isə dövlət televiziyası

və cəmisi üç özəl televiziya var. Onlar da hələ ilk addımlarını atırlar. Əcəba, nə üçün belədir? Çünki Türkiyə azad, müstəqil, demokratik ölkə olubdur. Türkiyə dünyanın böyük dövlətlərindən biri kimi, dünyəvi bir dövlət kimi, layiq bir dövlət kimi özünün içində olan bu imkanlardan qısa bir zamanda səmərəli istifadə edib və belə yüksək zirvələrə qalxa bilibdir. Azərbaycanda da televiziya yaratmaq, yayınlar yapmaq üçün çox istedadlı insanlar, adamlar var. Ancaq biz bu qədər nailiyyət əldə etməmişik. Ona görə ki, bizim müstəqilliyimiz, azadlığımız, istiqlaliyyətimiz olmayıbdır. Biz cəmi altı ildir ki, istiqlaliyyət içində yaşayırıq, müstəqil dövlətik və əmin ola bilərsiniz ki, biz də sizin kimi, qısa bir zamanda, keçmişdə itirdiklərimizi əldə edəcəyik, irəliləyəcəyik və gəlib sizin sıralarınıza çatacağıq. Bizim üçün bunu etmək indi daha da asandır. Çünki bizim sizin kimi, sizin ölkəniz, dövlət quruluşunuz, həyatınız kimi və Türkiyənin televiziyası kimi gözəl örnəyimiz vardır. Biz müstəqil dövlətimizi, həyatımızı quraraq, iqtisadiyyatımızı inkişaf etdirərək daim dünya təcrübəsindən istifadə edirik. Dünya təcrübəsi içində bizim üçün ən yaxın, doğma olan Türkiyə Cümhuriyyətinin təcrübəsindən bütün sahələrdə, o cümlədən televiziya sahəsində də istifadə edirik.

Bilməlisiniz ki, Azərbaycanda Türkiyə kanallarının yayımı Azərbaycan kanallarının yayımından daha da çoxdur və Azərbaycanın vətəndaşları Azərbaycan televiziyası ilə bərabər, Türkiyə televiziyasının bir çox kanallarını da seyr edirlər və bu da bizə çox xeyir gətirir.

Mən NTV kanalının yaranmasında və inkişaf etməsində böyük xidmətlər göstərmiş əziz dostum, qardaşım Cavid Çağları təbrik edirəm və ona gələcək işlərində uğurlar arzulayıram.

Bu gün bu fürsətdən istifadə edərək bir daha bəyan edirəm ki, Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günügündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. Bizim bu dostluğumuza, qardaşlığımıza mane olmaq istəyən qüvvələr vardır. Onlar bizim ölkələrin xaricində də, daxilində də var. Mən bu gün bəyan edirəm ki, bizim dostluğumuza mane olan bütün bu qüvvələr bilsinlər ki, heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır!

Azərbaycanın istiqlaliyyətinin qorunub saxlanmasında, iqtisadiyyatının inkişaf etdirilməsində, Azərbaycanın dünya miqyasında, beynəlxalq aləmdə öz hüquqlarını qorumasında, Ermənistanın Azərbaycan ərazilərinin bir hissəsini işğal etməsi ilə əlaqədar baş vermiş hadisələrin sülh yolu ilə həll olunmasında və **Azərbaycanın mövqelərinin beynəlxalq təşkilatlarda qorunmasında biz daim Türkiyə Cümhuriyyətinə arxalanırıq, güvənirik.** Türkiyə Cümhuriyyətinin, onun hökumətinin və xüsusən Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu və qardaşı Süleyman Dəmirəlin xidmətlərini yüksək qiymətləndiririk.

Mən bu gün və sabah burada bir çox görüşlər keçirmək və danışıqlar aparmaq məqsədi daşıyıram. Bildirmək istəyirəm ki, burada olan görüşlərin, danışıqların hamısı dostluq və mehribanlıq şəraitində keçir. Mən keçən zamanlarda olduğu kimi bu dəfə də Türkiyə torpağına ayağımı basandan özümü qonaqpərvərlik və dostluq, mehribanlıq şəraitində hiss edirəm. Buna görə sizin hamınıza təşəkkür edirəm. Xüsusi təşəkkürümü, hörmət və ehtiramımı mənim əziz dostum və qardaşım Prezident Süleyman Dəmirələ bildirirəm.

NTV televiziya kanalının bu sorğu zamanı məni 1997-ci ildə "Dünyada ilin adamı" elan etməsi mənim üçün böyük şərəfdir və bildirmək istəyirəm ki, gözlənilməz bir hadisədir. Mən heç bilmirdim ki, NTV televiziya kanalı belə bir sorğu keçirir və bu sorğunun içərisində mənim də adım var. Bu xəbər verilən zaman o, mənim üçün gözlənilməz, eyni zamanda xoşbəxt, səadətli bir hadisəyə çevrildi. Mən Türkiyə vətəndaşlarının, NTV kanalı seyrçilərinin mənə göstərdikləri bu hörmətə, sayqıya, diqqətə, qayğıya, bu etimada görə təşəkkür edirəm. Televiziyanı seyr edən, tamamilə sərbəst, azad, hürriyyət içində olan 59400 insan öz iradəsini ifadə edərək məni "Dünyada ilin adamı" etmişlər. Bu, mənim həyatımda gözlənilməz bir hadisədir. Mən çoxillik həyatımda çox mükafatlar almışam, çox ödüllər görmüşəm, amma belәsini görməmişdim.

Mənə "Dünyada ilin adamı" kimi səs vermiş Türkiyə Cümhuriyyətinin hər bir vətəndaşına öz hörmətimi, sevgimi, məhəbbətimi və təşəkkürümü bildirirəm. Hər bir vətəndaşa onun həyatında səadət, xoşbəxtlik, uğurlar arzulayıram. İnana bilərsiniz ki, mən bu hadisəni çox yüksək qiymətləndirirəm və bildirirəm ki, bu, mənim siyasi fəaliyyətim üçün böyük qayğı, dayaqdır.

Sizi əmin etmək istəyirəm ki, mən bu etimadı doğruldacağam, bütün həyatım, fəaliyyətimlə, gələcəkdə gördüyüm işlərlə doğruldacağam. Bu etimadı Azərbaycanda görəcəyim işlərlə doğruldacağam, Türkiyə-Azərbaycan dostluğunun möhkəmləndirilməsi sahəsində görəcəyim işlərlə doğruldacağam. Ümidvar, əmin ola bilərsiniz ki, mən Türkiyə-Azərbaycan dostluğuna, qardaşlığına daim sadiqəm və sadiq olacağam.

Hörmətli dostlar, bаlar, qardaşlar, sizə - bu salona toplaşanlara öz hörmət-ehtiramımı, sevgi-məhəbbətimi bildirirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Əmin ola bilərsiniz ki, bu mükafatı mən qəlbimdə saxlayacağam, həmişə yüksək tutacağam. Sağ olun.

Azərbaycan Prezidenti
Heydər Əliyevin
Türkiyə Böyük Millət məclisinin
Sədri Hikmət Çətin ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulda ilk görüşü öz iqamətgahında Türkiyə Böyük Millət Məclisinin /TBMM/ Sədri Hikmət Çətin ilə keçirdi.

Türkiyə parlamentinin başçısı Azərbaycan Prezidentini səmimi salamlayaraq onunla yenidən görüşməyinə çox sevindiyini söylədi və ölkəmizin rəhbərinin ad günündə Bakıya gələcəyini vurğuladı.

Prezident Heydər Əliyev təşəkkür edərək onunla İstanbulda görüşündən çox məmnun qaldığını bildirdi.

Cənab Hikmət Çətin dedi ki, Prezident Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün bölgənin sülh və sabitliyinin güvəncidir. Onun tez-tez dediyi kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Azərbaycan öz Prezidentinin müdrik siyasəti sayəsində keçid dövrünün çətinliklərini sürətlə aradan qaldırır. Bizim ən əsas arzumuz bölgədə sülh yaranması, Ermənistanın işğal etdiyi torpaqlardan çəkilməsi, qaçqınların öz yerlərinə qayıtmasıdır. Bu baxımdan bölgədəki bütün dövlətlərin üzərinə məsuliyyət düşür, amma Azərbaycanın başında sizin olmağınız təkcə ölkəniz üçün deyil, bütün bölgənin əmin-amanlığı üçün mühümdür.

Prezident Heydər Əliyev ilə uzun illər dost, qardaş olduğunu vurğulayan Parlamentin sədri bildirdi ki, TBMM-in Azərbaycana, onun xalqına dəstəyi daim davam edəjək və Türkiyə Parlamenti Azərbaycanla bağlı üzərinə düşən vəzifəni hər zaman yerinə yetirməyə hazırdır.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Parlamentinin başçısına təşəkkür edərək dedi ki, mən buraya son aylardakı arzumu yerinə yetirərək, əziz dostum və qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə gəlmişəm. Mən Türkiyəyə hər dəfə böyük ümidlərlə gəlirəm, çünki sizlərlə görüşmək, danışmaq, fikirlərimizi uyğunlaşdırmaq və yaxud araşdırmaq Azərbaycanda bizim üçün çox əhəmiyyətlidir.

Dövlətimizin başçısı xatırlatdı ki, keçən ilin mayında dost ölkədə rəsmi səfərdə olarkən Prezident Süleyman Dəmirəl ilə Türkiyə və Azərbaycan arasında strateci əməkdaşlığın dərinləşdirilməsi haqqında anlaşma imzalamışıq, yəni bizim dostluğumuz, əməkdaşlığımız dövlətlərarası hüquqi sənədlərdə ən yüksək səviyyədə öz əksini tapıbdır. Azərbaycan rəhbəri dedi ki, ona görə hər dəfə Türkiyəyə gəlmək mənim üçün mötəbərdir və bu gün də bu hissiyyatlarla gəlmişəm.

Prezident Heydər Əliyev cənab Hikmət Çətinə müraciətlə vurğuladı ki, buraya gələn kimi onunla, çoxdankı dostu ilə görüşündən məmnun-

dur. Dövlətimizin başçısı dedi: Türkiyə Cümhuriyyətinin həyatında sizin oynadığınız rol hamıya məlumdur. Mənə xüsusən məlumdur, çünki Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini elan edəndən indiyə qədər siz ölkəmizin problemləri ilə həmişə yaxından tanış olmusunuz və qayğı göstərmiş, yardım etmisiniz. Sizinlə beş ildir ki, şəxsi tanışlığım var və yenidən görüşməyimdən çox sevinc duyuram.

Ölkəmizin rəhbəri dedi ki, 1997-ci ilin mayında Ankarada Türkiyə Böyük Millət Məclisinin üzvləri qarşısında çıxış etdim, siz də millət vəkili idiniz və orada sizinlə də görüşüm oldu. Ondan xeyli vaxt keçib, ancaq fikirlərim, duyğularım, hisslərim eynidir, yəni Azərbaycan xalqının, vətəndaşlarının fikirləridir - Türkiyə ilə bizim əlaqələrimiz dostluq, qardaşlıq əlaqələridir, bunları daim inkişaf etdiririk və etdirəcəyik.

Cənab Hikmət Çətinin bölgəmizdəki problemlər barədə söylədiyi fikirlərə toxunan Prezident Heydər Əliyev bildirdi ki, problemlər həqiqətən çoxdur. Özü də təkcə Qafqazda deyil, Türkiyənin ətrafında, Yaxın Şərqdə də problemlər çoxdur. Ancaq Qafqazın problemləri, Qafqazla sərhədləri olan Türkiyə ilə Qafqazın əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Prezident Heydər Əliyev vurğuladı ki, ölkəmizin əsas problemi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, işğal olunmuş Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrindən azad edilməsi, qaçqınların öz yurdlarına qayıtmasıdır biz bu işlərlə məşğul oluruq. Dövlətimizin başçısı onu da xatırlatdı ki, cənab Hikmət Çətin Türkiyənin Xariji İşlər naziri işləyərkən bu problemlə çox yaxından məşğul olub və ATƏT-in Minsk qrupunun fəaliyyəti ilə yaxşı tanışdır.

Prezident Heydər Əliyev bu mövzu ilə əlaqədar qeyd etdi ki, son vaxtlar Ermənistanda müəyyən hadisələr baş verib və bunların cürbəcür səbəbləri var. Ancaq zahiri səbəbi ondan ibarətdir ki, orada Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin həllində fikir ayrılığı oldu. Respublikamızın rəhbəri Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında Minsk qrupu həmsədrlərinin məsələni iki mərhələdə həll etmək barədə təklif verdiklərini bildirdi və bunları açıqladı. Azərbaycan Prezidenti dedi ki, indi dünyaya belə məlumat verilib ki, Ermənistanda bəziləri bu təkliflərə tərəfdar olub, bəziləri isə bunların əksinə olub, ona görə də hakimiyyətdə dəyişiklik əmələ gəlibdir. Güman edirəm ki, Ermənistanda daxili vəziyyət normallaşajaq və biz danışıqları davam etdirəcəyik.

Dövlətimizin rəhbəri razılıq hissi ilə bildirdi ki, Türkiyə bütün bu məsələlərdə Azərbaycanla daim əməkdaşlıq edib, yardım göstərib və bu gün də göstərir, ümidvaram ki, gələcəkdə də yardım edəcəkdir. Mən buna görə təşəkkür edir və gələcəyə

böyük ümidlərlə baxıram.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir çox məsələlər barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Baş naziri Məsud Yılmaz ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fevralın 13-də İstanbulda öz iqamətgahında ölkənin Baş naziri Məsud Yılmaz ilə görüşmüşdür.

Türkiyə hökumətinin başçısı Azərbaycan Prezidenti Heydər Əliyevi səmimi salamlayaraq onunla yenidən görüşməsindən çox məmnun qaldığını vurğuladı və ölkəmizin rəhbərini "Dünyada ilin adamı" adına layiq görülməsi münasibətilə təbrik etdi.

Prezident Heydər Əliyev cənab Yılmazla yeni görüşündən razı qaldığını söylədi və təbrik üçün təşəkkürünü bildirdi.

Təkbətək keçən görüşdə dost və qardaş ölkələrimiz arasında iqtisadi əlaqələrlə bağlı məsələlər ətraflı müzakirə olundu. Məsud Yılmaz Türkiyənin Azərbaycanla hərtərəfli əməkdaşlığa çox böyük əhəmiyyət verdiyini, ölkələrimiz arasında iqtisadi əlaqələri daha da genişləndirməyin və dərinləşdirməyin, o cümlədən Türkiyənin iş adamlarının respublikamızın iqtisadiyyatına sərmayə qoyuluşunu artırmasının vacibliyini vurğuladı.

Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənməsində Türkiyə şirkətinə yaradılan imkandan razılıq edən Baş nazir bildirdi ki, "Türk petrolları" bu sahədə fəaliyyətini genişləndirmək niyyətindədir. O, iki qardaş ölkənin əməkdaşlığının möhkəmləndirilməsi, Azərbaycanda və Mərkəzi Asiya respublikalarında hasil olunan enerci daşıyıcılarının ölkəmizin və Gürcüstanın ərazisi ilə Türkiyəyə və daha sonra dünya bazarına çıxarılması məsələlərində verdiyi dəstəyə, xüsusən Bakı-Ceyhan neft kəməri marşrutunu müdafiə etdiyinə görə Prezident Heydər Əliyevə minnətdarlıq etdi.

Məsud Yılmaz Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin genişləndirilməsində Avrasiya nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd edərək, bunun öz ölkəsi üçün də böyük fayda verəcəyinə ümidvar olduğunu söylədi.

Azərbaycan Prezidenti Heydər Əliyev xalqlarımız və ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin getdikcə sıxlaşmasından məmnun qaldığını bildirərək, Azərbaycan-Türkiyə əməkdaşlığının indiki vəziyyətindən söhbət açdı, respublikamızda fəaliyyət göstərən türk şirkətlərinin sayının daim artdığını bildirdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, biz bu əlaqələrin daha da genişlənməsini, Türkiyənin iş adamlarının respublikamıza daha çox sərmayə qoymasını istəyirik.

Ölkəmizin rəhbəri neft-qaz sənayesi sahəsindəki əməkdaşlığa da toxunaraq Azərbaycanın dəniz yataqlarının birgə işlənilməsinin hər iki tərəf üçün faydalı olduğunu söylədi və bildirdi ki, biz bu işdə qardaş Türkiyənin neft şirkətinə gələcəkdə də imkan yaradacağıq.

Prezident Heydər Əliyev bir daha xatırlatdı ki, biz Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq neftin dünya bazarlarına çatdırılması üçün çəkiləcək əsas boru kəmərinin Türkiyənin Ceyhan limanına çıxmasını istəyirik.

Respublikamızın Prezidenti Türkiyə və Azərbaycanın Avropa və Asiya ölkələri ilə əlaqələrinin genişləndirilməsində adı çəkilən nəqliyyat dəhlizinin çox böyük perspektivi olduğunu vurğulayaraq qeyd etdi ki, indi bir çox dövlətlər ona böyük maraq göstərirlər, Türkiyənin də həmin nəqliyyat dəhlizindən istifadə etməsi qardaş ölkəyə böyük fayda gətirər.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər haqqında da fikir mübadiləsi oldu.

Görüşdən sonra Baş nazir Məsud Yılmazın adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə nahar verildi.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Haqqı Qaradayı ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fevralın 14-də İstanbulda onun üçün ayrılmış iqamətgahda Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Haqqı Qaradayı ilə görüşmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu vurğulayan cənab Qaradayı respublikamızın rəhbərini "Dünyada ilin adamı" fəxri adına və digər yüksək mükafatlara layiq görülməsi münasibətilə səmimi qəlbdən təbrik etdi. O, dünya ictimaiyyəti, o cümlədən türkdilli xalqlar arasında Prezident Heydər Əliyevin böyük və layiqli nüfuz qazanmasından çox məmnun qaldığını bildirdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi məsələləri müzakirə edildi, ölkələrimizin hazırkı ictimai-siyasi vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparıldı.

Görüşdə hərbi kadrlar hazırlanması sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığının inkişaf etdirilməsi məsələsindən də bəhs olundu.

Söhbət zamanı Qafqazda sülhün, əmin-amanlığın bərpa olunma-

sının vajibliyi qeyd edildi, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların həmsədrlərin irəli sürdüyü təkliflər əsasında davam etdirilməsinin zəruriliyi vurğulandı.

Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkiyə Prezidenti Süleyman Dəmirəlin görüşü

Fevralın 14-də İstanbulda dövlətimizin başçısının iqamətgahında Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Təkbətək keçən görüş zamanı ikitərəfli münasibətlər, regionda vəziyyət və bir sıra digər məsələlər haqqında geniş fikir mübadiləsi olmuşdur.

Prezident Heydər Əliyevin qardaş ölkəyə növbəti səfərinin əhəmiyyətini bir daha vurğulayan Türkiyə dövlətinin başçısı iki dövlətin əlaqələrinin xüsusi xarakter daşıdığını xatırladaraq bildirdi ki, Türkiyə Azərbaycanın problemlərinə həmişə böyük diqqət göstərir, bunları öz problemləri sayır. Türkiyə qardaş, dost Azərbaycan Cümhuriyyəti ilə bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etməsi və dərinləşməsi üçün səylərini əsirgəməyəcəkdir.

Cənab Dəmirəl ölkəmizin ən çətin problemi olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qeyd etdi ki, bu məsələdə Türkiyənin mövqeyi dəyişməzdir, yəni Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çəkilməli, qaçqın düşmüş qardaş və bacılarımız öz yurdlarına qayıtmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. Türkiyə Prezidenti dedi: bizimlə qonşu olan Qafqazda, o cümlədən Azərbaycanda möhkəm sülhün bərqərar olması bölgənin bütün xalqlarının rifahı üçün ən önəmli şərtdir. Türkiyə Azərbaycanın qarşılaşdığı münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində, Lissabon prinsipləri əsasında, danışıqlar yolu ilə həllini dəstəkləyir və minsk qrupunun üzvü kimi bu məsələdə bütün imkanlarından istifadə edəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev dost ölkəyə hər bir ziyarətini yüksək qiymətləndirdiyini söylədi və ölkələrimizin qarşılıqlı əlaqələrinin daha da inkişafı üçün fikir mübadiləsi aparmaq baxımından belə görüşlərin xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi. Dövlətimizin başçısı ayrıca vurğuladı ki, Azərbaycanın Türkiyə ilə dostluq, qardaşlıq münasibətləri bizim üçün müqəddəsdir. Bu münasibətlər əbədidir və heç bir qüvvə bunu sarsıda bilməz.

Azərbaycan rəhbəri qeyd etdi ki, biz bütün məsələlərdə, o cümlədən ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan münaqişəsinə sülh yolu ilə son qoyulması sahəsində görülən işlərdə qardaş Türkiyənin dəstəyini daim hiss etmişik və indi də hiss edirik. Bu dəstəyə, yardıma görə biz Türkiyə dövlətinə və xalqına minnətdarlığımızı bildiririk.

Prezident Heydər Əliyev son vaxtlar bölgədə yaranmış vəziyyətdən də söhbət açaraq ümidvar olduğunu bildirdi ki, Ermənistan öz daxili problemlərini həll edəcək və münaqişənin aradan qaldırılması ilə bağlı danışıqlara yenidən başlamaq mümkün olacaqdır. Ölkəmizin başçısı bir daha vurğuladı ki, Azərbaycan məsələnin yalnız dinc vasitələrlə həllinə tərəfdardır və möhkəm sülh əldə edilənədək öz tərəfindən atəşkəs recimini qoruyub saxlayacaqdır.

Görüşdə iqtisadi əlaqələr, o cümlədən Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənməsi, əsas ixrac boru kəmərinin marşrutu barədə də ətraflı söhbət getdi. Dövlətimizin başçısı bir daha təsdiqlədi ki, Azərbaycan böyük neft borusunun Bakı-Ceyhan marşrutu ilə çəkilməsini dəstəkləyir.

Prezidentlər Türkiyənin iş adamlarının Azərbaycanda fəaliyyətə daha çox maraq göstərməsinin vacibliyini vurğuladılar. Qeyd olundu ki, hazırda Azərbaycandakı xarici firmalar arasında Türkiyənin nümayəndələri sayja üstün yer tutur. Bununla belə, onların Azərbaycana daha çox investisiya qoymaları hər iki ölkənin iqtisadiyyatı üçün fayda gətirərdi. Prezident Heydər Əliyev bildirdi ki, ölkəmizdə xarici iş adamlarının fəaliyyəti, investisiyaların qorunması üçün hər cür imkan yaradılmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran başqa məsələlərə də toxunuldu.

Sonra Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə nahar verildi. Qardaş ölkələrin dövlət başçıları nahar zamanı fikir mübadiləsini davam etdirdilər.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin iş adamları ilə görüşü

Fevralın 14-də İstanbulun "Ceylan İnterkontinental" otelinin konfrans salonunda Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumunun /DEİK/ üzvləri və digər iş adamları ilə Azərbaycan Prezidenti Heydər Əliyevin görüşü oldu.

GörüşdəTürkiyə-Azərbaycan iş birliyinin rəhbəri Əli Yücəl, Türkiyə Prezidenti Süleyman Dəmirəlin çıxış etdilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

Hörmətli Prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Hörmətli dostlar, qardaşlar, bacılar!

Mən sizi ürəkdən salamlayıram. Sabahınız xeyir olsun!

Mən bu gün ikinci gündür ki,

Türkiyədəyəm, İstanbuldayam. Burada mənim birinji görüşüm əziz qardaşım Süleyman Dəmirəl ilə birlikdə sizinlədir. Mən sizin hamınıza həyatınızda səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Türkiyə böyük iqtisadi potensiala malik bir ölkədir. Türkiyənin iqtisadiyyatı həm Türkiyənin içində, həm də dünyanın bir çox ölkələrində Türkiyə Cümhuriyyətinin inkişaf etməsinə xidmət edir və burada Türkiyənin iş adamlarının, sənayeçilərinin xidməti çox böyükdür. Mən sizə bu işlərinizdə daha da çox uğurlar diləyirəm.

Azərbaycan ilə Türkiyə arasında yaranmış dostluq, qardaşlıq əlaqələri günü-gündən inkişaf edir və əminəm ki, bizim gələcək dostluq, qardaşlıq yolumuz da işıqlıdır, aydındır, parlaqdır. Biz birlikdə çox xoşbəxtik.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra həyatının bütün sahələrində ciddi dəyişikliklər edir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycan keçmiş iqtisadiyyatı pozaraq öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri üzərində qurur. Azərbaycanda sahibkarlığa, sərbəstliyə böyük yer verilibdir. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir. Azərbaycanın xarici ticarəti tamamilə liberallaşdırılıbdır və ölkəmizə xaricdən investisiya, sərmayə gəlməsi üçün böyük imkanlar yaranıbdır. Bunun üçün çox dəyərli qanunlar qəbul olunubdur və bundan sonra da qəbul ediləcəkdir. Bu işləri görmək üçün bir, iki, üç il yetərli deyildir. Türkiyənin tarixinə nəzər salsaq, o bugünkü gününə qədər 70 ildən artıq bir yol keçibdir. Əgər bu yolun birinji hissəsində o qədər də inkişaf olmayıbsa, son hissəsində inkişaf edibdir.

Biz dünən İstanbul hava meydanından helikopterlə buraya gələrkən əziz dostum Süleyman Dəmirəl mənə İstanbulun bəzi görkəmli binalarını göstərirdi. O, mənə bir otel göstərdi. Dedi ki, bu, 1955-ci ildə Baş bakan Adnan Menderesin təşəbbüsü ilə tikilmişdir. O vaxta qədər İstanbulda belə bir otel yox idi. İndi isə İstanbulda 30-dan artıq beşulduzlu otel var. Amma ehtiyac daha da çoxdur.

Təsəvvür edin, Türkiyədə Osmanlı imperatorluğunun 600-700 illik tarixi var. Türk xalqının min illərlə tarixi var. Türkiyə Cümhuriyyətinin yetmiş ildən artıq tarixi var. Amma əgər İstanbulda - Türkiyənin ən böyük şəhərində ilk böyük otel 1955-ci ildə tikilibsə və ondan sonra tikilən otellərin yanında o otel kiçik bir şey, yəni liliput kimi görsənirsə, indi görün ki, nə qədər zaman lazımdır. 1955-ci ildən 1998-ci ilə qədər nə qədər vaxt keçibdir. Amma Azərbaycan cəmi altı ildir ki, müstəqillik içində yaşayır.

Əlbəttə, Azərbaycanın xoşbəxtliyi ondan ibarətdir ki, Azərbaycan Sovetlər Birliyinin içində, sovet imperiyasının içində olduğu zaman da

Azərbaycanın iqtisadiyyatı çox inkişaf etmişdi. Azərbaycanın böyük sənayesi var. Azərbaycanın böyük iqtisadi potensialı var. Azərbaycanın təbii sərvətləri var. Azərbaycanın çox dəyərli, istedadlı alimləri, mühəndisləri, mütəxəssisləri var. Anjaq bunlar hamısı keçmiş sovet iqtisadiyyatı sistemində yaşayıb və belə bir sistemi qurublar. Biz indi bu sistemi dağıdırıq, yeni bir sistem qururuq. Bu dövrün özü çox ağır, çətin bir dövrdür. İnsanların beynində, psixologiyasında dəyişikliklər etmək lazımdır. Əgər insan, - hesab edin ki, bir ayaqqabıtikən, yaxud çarıqtikən 70 il bir istiqamətdə tikibsə, indi elə etmək lazımdır ki, əks istiqamətdə tiksin. Amma 70 il bu adamın əli belə öyrənibdir, bunu əks tərəfə öyrətmək asan deyildir. Amma biz bunu çox sürətlə edirik. Nə üçün sürətlə edə bilirik? Çünki, birincisi, bizim buna istəyimiz var. Biz inanmışıq ki, bazar iqtisadiyyatını, yeni iqtisadi sistemi, yəni inkişaf etmiş dövlətlərin iqtisadiyyatında olan təcrübəni tətbiq etmək lazımdır, türkiyənin təcrübəsini tətbiq etmək lazımdır. İkincisi, biz bu müddətdə insanları inandıra bilmişik ki, keçmişdə nə qədər nailiyyətlər əldə etmiş olsaq da, bizim böyük imkanlarımız xalqın rifahına yönəldilməyibdir. İndi isə biz bazar iqtisadiyyatını, sərbəst iqtisadiyyatı tətbiq edəndən sonra onun nəticələrini görürük.

Məsələn, təsəvvür edin, Azərbaycanda sovet hakimiyyəti quruland-da respublikamızın bütün torpaqları dövlətin əlinə keçibdir, kolxozlar, sovxozlar yaradılıbdır. İnsan torpaqdan ayrılıbdır, torpaq mülkiyyəti onun əlindən alınıbdır. Biz torpaq islahatı, torpaqların şəxsi mülkiyyətə verilməsi barədə qanun qəbul etdik. Torpağın şəxsi mülkiyyətə verilməsi, ona satıb - almaq hüququ verilməsi, başqa bir insana vermək hüququ haqqında qanunlarımız var. Təsəvvür edin, Sovetlər Birliyində olmuş digər ölkələrdə, o cümlədən Rusiyada hələ indiyə qədər belə bir qanun qəbul edilməyibdir. Bəzi islahatçılar bunu qəbul etmək istəyiblər, amma mühafizəkarlar, yəni kommunistlər bunun əleyhinə çıxırlar. Bunu edə bilmirlər. Amma biz bunu etdik. Bizim jəmiyyətimiz bunu qəbul etdi. Artıq biz torpaqları insanların, kənddə yaşayanların şəxsi mülkiyyətinə verdik. Qısa bir zamanda bunun nəticəsini gördük. Mal-qara insanların şəxsi mülkiyyətində deyildi, kolxozda, sovxozda idi. Mal-qaranı, heyvanları onlara verdik və iki ilin içərisində heyvanların sayı da, məhsulu da, çəkisi də artdı. İndi bizdə ət, süd problemi və başqa problemlər yoxdur. Yəni bu islahatları cəsarətlə həyata keçirərək onun nəticəsini əldə edirik. Gərək hər bir insan bunun nəticəsini görsün ki, buna inansın. Biz onları inandıraraq bu yol ilə gedirik.

Başqa sahələrdə də özəlləşdirmə prosesi gedir. Biz kiçik və orta müəssisələri, tijarət, məişət xidməti və başqa xidmətlərin hamısını özəl-

ləşdirmişik. İndi böyük müəssisələri özəlləşdiririk. Özəlləşdirmə prosesi gedir və gedəcəkdir. İki - üç il də lazımdır ki, biz özəlləşdirməni aparaq.

Təsəvvür edin, Türkiyə Cümhuriyyətində özəlləşdirmə hələ indiyə qədər də davam etdirilir. Bəziləri belə hesab edirlər ki, bu islahatlar nə üçün tez həyata keçmir. Bu elə bir şey deyil ki, gedib bazardan ət-süd alasan, gətirəsən, yaxud da gətirdin, qoydun, bişirdin, yedin - qurtardı. Bunların hamısı üçün vaxt lazımdır. Biz bu vaxtdan səmərəli istifadə edirik və edəjəyik. Ona görə də Türkiyənin modeli bizim üçün örnəkdir. Türkiyə bizim üçün çox əzizdir, hörmətlidir. Biz bundan istifadə edirik və Türkiyənin iş adamlarının Azərbaycana gəlməsi, Azərbaycanda cəsarətlə iş görməsi bizim bu işlərimizi daha da sürətləndirəcək və gücləndirəcəkdir.

Artıq Azərbaycana xarici sərmayə gəlir. Xarici sərmayə birinci növbədə bizim neft-qaz sənayemizə gəlir. Məsələn, keçən il, 1997-ci ildə Azərbaycana bir milyard üç yüz milyon dollar xarici sərmayə gəlibdir. Bunun bir milyard dolları neft sənayesinə qoyulubdur. Bilirsiniz ki, biz müqavilələr imzalamışıq. Xəzər dənizinin Azərbaycan sektorunda və Azərbaycan ərazisinin başqa yerlərində böyük neft yataqları xarici dövlətlərin, xarici şirkətlərin müştərək işi nətijəsində gələjəkdə böyük imkanlar açacaqdır. Biz bu sahədə Türkiyə ilə əməkdaşlıq edirik. "Türk petrolları" şirkəti Azərbaycanda üç müqavilədə iştirak edir. Onun birinci müqavilədə 6,75 faiz payı vardırsa, indi 16 faizdən artıqdır. Əziz dostum Süleyman Dəmirəl də mənə müraciət etmişdi. Mən çalışıram yeni müqavilələrdə "Türk petrolları" şirkətinə yenə də geniş bir yer verək.

Amma Türkiyə ilə bizim neft-qaz sahəsində işimiz təkcə Türkiyə şirkətinin gəlib Azərbaycanda pay alması deyildir. Ən əsas məsələ bütün Xəzər dənizində - Xəzərin təkcə Azərbaycan sektorunda yox, Qazaxıstan, Türkmənistan sektorlarında, Orta Asiyada da çıxarılan, hasil edilən neftin dünya bazarlarına ixrac olunması, Türkiyəyə çatdırılmasıdır. Siz bilirsiniz ki, bunun üçün bir çox yollar vardır. Neçə ildir ki, biz boru kəmərinin haradan getməsini araşdırırıq. Bu, təkcə bizim işimiz deyildir, bütün dünya bu işə qarışıbdır. Avropa Birliyi, Dünya Bankı, Avropa Bankı, ABŞ bu işə qarışıbdır. Burada böyük maraqlar vardır. Qonşu ölkələrin də maraqları vardır. Amma bu maraqların hamısı ilə bərabər, əsas istiqamətimiz, əsas yolumuz - mən bunu demişəm və bu gün də deyirəm, - Xəzər dənizindən çıxan neft, Azərbaycan nefti və bütün neftlər, o cümlədən qaz Azərbaycan üzərindən Türkiyəyə gəlməlidir. Bakı-Ceyhan boru xəttini çəkib axıra çatdırmalıyıq. İlk müqavilə imzalananda Bakı-Ceyhan boru xəttinin təxminən 40 milyon ton neft tutumu nəzərdə tutulmuşdusa, indi isə artıq

Qazaxıstanda, Xəzər dənizinin başqa sektorlarında gözlənilən nefti nəzərə alaraq, - mən buraya gələndə dedilər 50 milyon ton, amma dünən buradakı danışıqlardan bir daha duydum ki, belə bir layihə də var ki, 70 milyon ton - neftin bu boru vasitəsilə ixrac edilməsi təmin olunsun.

Əsas məsələ budur. Amma bu, tamam deyildir. Məsələn, Türkiyəyə qaz lazımdır. Türkmənistanın qazı çoxdur və Xəzər dənizindən də çox qaz çıxacaqdır. Amma bu qazı Türkmənistan bir yerə göndərə bilmir. Türkiyə istəyirdi qazı irandan alsın. Bu, mümkün olmadı. Əziz dostum Süleyman Dəmirələ də öz fikirlərimi demişəm, Baş nazir Məsud Yılmazla da bu barədə danışmışıq, dünən də danışdıq. Mən hesab edirəm ki, qaz kəmərini də Xəzər dənizindən Türkiyəyə gətirmək lazımdır. Bu həm Türkiyə üçün, həm də Türkiyədən sonra Avropa üçün, digər ölkələr üçün lazımdır.

Bunlar real fikirlərdir. Bunlar bir neçə ildən sonra artıq reallığa çevriləcəkdir. Bunlar bizim birgə işlərimizdir. Bu sahədə çox işlər görülür.

Hörmətli Prezident Süleyman Dəmirəl Transqafqaz magistralı haqqında dedi. Bilirsiniz, 1997-ci ilin may ayında biz Sərəxsdə bu Transqafqaz magistralı barədə müqavilə imzaladıq. Üstündən bir ilə yaxın vaxt keçibdir. Bu müddət içərisində oradan yüklərin daşınması - Mərkəzi Asiyadan Avropaya Azərbaycan üzərindən, Gürcüstan üzərindən, Türkiyə, Qara dəniz üzərindən dörd dəfə artıbdır. Əgər ilk dəfə bu müqaviləni dörd dövlət imzaladısa, indi buna bütün Mərkəzi Asiya ölkələri, Avropa ölkələri - Ukrayna, Rumıniya, Bolqarıstan, Almaniya, Moldova - hamısı qatılıblar. Bunların da yolunun hamısı Türkiyədən gəlib keçir, Qara dənizdən gəlib keçir. Bu, çox böyük gələjəyi olan bir layihədir. Burada da biz yenə iş birliyindəyik. Bunlar böyük, yəni qlobal, dünya miqyasında olan layihələrdir. Amma Türkiyənin iş adamlarının Azərbaycanda sənaye sahəsində, telekommunikasiya, inşaat, ticarət, kənd təsərrüfatı və s. sahələrdə görə biləcəyi çox işlər vardır.

Məsələn, indi özəlləşdirmə gedir. Bu özəlləşdirmə prosesində Türkiyənin iş adamları iştirak edə bilərlər. Onların bəziləri iştirak edirlər, bəziləri gəlib yer alıblar. Mən yenə də dəvət edirəm ki, siz gələsiniz. Türkiyənin iş adamları bəzən bizim qanunlar çərçivəsində imkan yaranmadığından şikayət edirlər. Bu şikayətlər ola bilər. Ancaq bilirsiniz, hesab edin ki, biz böyük bir cığır içərisindəyik. Biz bu cığırı, yolu açа-açа gedirik. Əlbəttə, bu cığırı açanda qarşısına daş da, kəsək də, qaya da çıxacaq, - bunlar olacaqdır. Bunlardan qorxmaq lazım deyil. Əsas odur ki, biz irəliyə gedirik və gedəcəyik. Bizim əsas tərəfdaşımız Türkiyədir, Türkiyənin iş adamlarıdır. Mən Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm.

Məsələn, "Qoç" qrupu gəlib Bakıda "Ramstor" kimi böyük mağaza tikibdir. İndi bu, Azərbaycanın ən görkəmli mağazasıdır. Bakıda iki milyondan artıq insan yaşayır. Hamı ora gedir. Onun yanında hansısa bir türk şirkəti yeni bir fransız mağazası tikdi. Mənə dedilər ki, belə bir mağaza Türkiyədə təkcə İstanbulda var, ikincisi də Bakıda açıldı. Çox gözəl. Mən bunun açılışında da iştirak etdim. İndi insanlar bundan istifadə edirlər. Başqa şeylər də tikirlər. Bayraqdar gəlib şəhərin ən gözəl yerində dörd bina tikibdir. O yeri mən 30 il idi qoruyub saxlayırdım. Həmin yeri ona verdim. Süleyman bəylə biz onun təməl daşını qoymuşduq. İndi binalar hazırdır. Bəzən görürəm işıqlar yanır, insanlar da yaşayır. Amma bayraqdara dedim ki, sən bunu mənsiz etmisən. Evi tikmək istəyəndə gəlib məndən icazə aldın, amma istifadəyə verəndə məndən icazə almamısan. Bunların hamısı olur və olacaqdır.

Əziz dostlar, əziz qardaşlar. Azərbaycanda insanlar yeni, bazar iqtisadiyyatına qatılırlar. Burada cürbəcür qanun pozuntuları ola bilər. Bəzi insanlar bunu anlamadan vəzifəsindən sui-istifadə edə bilərlər. Korrupsiya, rüşvət və s. Olur və var. Bunlardan Türkiyə də xilas olmayıbdır, Azərbaycan da xilas olmayıbdır. Bunların qarşısını birlikdə almaq lazımdır. Ona görə də Azərbaycana gələn iş adamları gərək sağlam əlaqələr qursunlar, heç kəs çirkli iş görməsin, Azərbaycandakılar da görməsinlər.

Bizim yeni həyatımızda insanlar dollar görmədiyi halda, indi bizdə dollar var, başqa bir şey görmədiyi halda, başqa bir şey var. Bilirsiniz, belə şeylər insanları yolundan çıxarır. Bunların birincidən qarşısını almaq lazımdır. Mən həmişə demişəm,- insan halal qazanc əldə etməlidir. Haram qazanc heç vaxt xeyir verə bilməz. Hər şeydə halallıq olmalıdır.

Əziz qardaşlar, bilin, mən Azərbaycanda ömrüm boyu təmizlik, düzlük, dürüstlük, halallıq tərəfdarı olmuşam. Bu gün də Azərbaycanı bu yol ilə aparmaq istəyirəm. Bu, çətin bir yoldur. İnsanlarda pis işlərə meyl daha çox olur, nəinki təmiz, yaxşı işlərə. Bu da təbiidir. İnsanın təbiəti belədir. Mən insan təbiətini bilirəm. Əziz dostum Süleyman bəy də, mən də həyatımızda çox şeylər görmüşük. İnsan təbiətini də bilirik. Ancaq bizim borcumuz budur ki, bu pis şeylərə, haram şeylərə yol verməyək, hər işi halallıqla edək.

Məsələn, indi burada, Türkiyədə belə susurluq yaranıbdır. Bakıya "İmperial" şirkəti gəlibdir. "Avropa" oteli tikilib. Onu orada başqaları tikiblər. Onlara kirayəyə, icarəyə veriblər. Amma qanun pozuntuları olubdur. Bunlar bunu doğru araşdırmaq əvəzinə yanlış bilgilər veriblər. Mən demişəm ki, belə şey olmaz. Qardaşlıqda, dostluqda, bizim ölkələrimiz arasında olan əlaqələrdə belə şey olmaz. Azərbaycanda bunu araşdırdıq. Mən bir komissiya yaratdım. Komissiyanın gördüyü işlər iki gün

bundan öncə hər yerdə, Türkiyədə də yayıldı. Görün bizim Xarici İşlər naziri Həsən Həsənov nə edib,- çox təcrübəli bir insan çox pis işlərə qatılmışdır. Onun özünün günahından. Mən də onu cəzalandırdım. Qoy işdən getsin. İşləməyəcək. Yəni Xarici İşlər naziri kimi bir insan, mənim 25 ildir tanıdığım bir insan əgər pis işə gedibsə, haram işə gedibsə, o, çalışa bilməz, işləyə bilməz. Bu şeyləri aydınlaşdırmaq lazım idi. Aydınlaşdırdıq və bunu etdik. Bundan sonra da edəjəyik. Yəni mənim üçün deyil,- iş adamlarına deyirəm,- Azərbaycanda sağlam iş görən adam mənim gözümün üstündədir. Amma gəlib Azərbaycanda haram iş görən adam bu gün də olmasa, yaxud sabah da olmasa, bir neçə vaxtdan sonra aşkara çıxacaqdır. Mən hesab edirəm ki, bizim içimizdə problemlər çoxdur, bu problemləri özümüz həll edirik. Amma bizə kənardan problem gətirmək lazım deyil. Mən sizdən bunu rica edirəm.

Azərbaycanda iş görmək üçün əsas şərtlərdən biri Azərbaycanın içində olan sabitlikdir. Əziz dostum Süleyman Dəmirəl bunu çox gözəl söylədi. Azərbaycan altı il içərisində nə qədər sınaqlardan, ağır yollardan keçdi. Biz iki dəfə dövlət çevrilişinin qarşısını aldıq, silahlı dəstələrin qarşısını aldıq. İndi dövlətimiz yaşayır, ana yasamız - konstitusiyamız, parlamentimiz, qanunlarımız var. Azərbaycanda ictimai-siyasi vəziyyət sərbəstdir, sakitdir, sabitlik yaranıbdır. Bütün qanunlar var, bu gün olmayan qanunlar da sabah olajaqdır və birlikdə iş aparacağıq.

Ona görə də mən sizi bir daha Azərbaycana dəvət edirəm. Çəkinməyin, Azərbaycandan uzaqlaşmayın, Azərbaycana yaxınlaşın. Mən o qədər istəyirəm ki, Azərbaycana türk şirkətləri qoy çox gəlsin, bir-biri ilə sağlam rəqabət aparsınlar. Kim daha da yaxşı iş görə bilər - o, iş görmək hüququ alsın. Mən bunların hamısını dəstəkləyəcəyəm.

Biz türkiyədə görülən işlərə daim heyranlıqla, sevgi ilə, məhəbbətlə baxırıq. **Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyənin hər bir vətəndaşı bizim üçün əziz insandır. Biz bundan sonra Türkiyəyə daha da yüksəliş arzu edirik, Türkiyə xalqına daha da rifah arzu edirik. Türkiyənin parlaq gələcəyinə inanırıq. Mən Azərbaycanın Türkiyə ilə dostluğunun, qardaşlığının parlaq gələcəyinə əminəm.** Sizin hamınıza cansağlığı arzu edirəm, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevə Qars şəhər bələdiyyəsinin və Türk Sənayeçiləri və İş adamları vəqfinin mükafatlarının təqdim olunması mərasimi

Fevralın 14-də İstanbuldakı "Ceylan İnterkontinental" otelinin konfrans salonunda Azərbaycan

respublikasının Prezidenti Heydər Əliyevə Türkiyənin Qars şəhər bələdiyyəsinin və Türk Sənayeçiləri və İş adamları vəqfının /TÜSİAV/ 1997-ci ilin insan haqları və "İlin dövlət adamı" mükafatlarının təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir.

Mərasimdə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl iştirak edirdi.

Mərasimdə Qars şəhər bələdiyyəsinin başkanı Tuncay Mutluər, TÜSİAV-ın İdarə Heyətinin sədri Vəli Sarıtopraq çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli Prezident, əziz dostum, qardaşım, cənab Süleyman dəmirəl!

Hörmətli dostlar, bacılar, qardaşlar, hörmətli qonaqlar, hörmətli mətbuat nümayəndələri!

Mən ikinci gündür ki, Türkiyədə-İstanbulda həddən ziyadə qonaqpərvərlik, dostluq, qardaşlıq şəraitindəyəm, sizinlə birlikdəyəm, bir yerdəyəm. Bu iki günü həyatımın ən xoşbəxt günlərindən hesab edirəm. Birinjisi, ona görə ki, mən dost, qardaş Türkiyə torpağındayam, dost, qardaş türk bacı-qardaşlarımın arasındayam, sizinlə birlikdəyəm, bir yerdəyəm. İkincisi də ona görə ki, mənə göstərilən qayğı, hörmət və qonaqpərvərlikla yanaşı, burada dünən axşam da, bu gün də mənə Türkiyənin çox hörmətli mükafatları təqdim olunmuşdur. Bütün bunlara görə təşəkkür edirəm və sizə, sizin simanızda bütün Türk xalqına, Türkiyə Cümhuriyyətinin vətəndaşlarına sevgi-məhəbbətimi, hörmət və ehtiramımı bildirirəm.

Qars bələdiyyə başkanı burada mənim ürəyimə çox gözəl təəssüratlar bağışlayan nitq söylədi, keçən illəri xatırlatdı. Mən də o illəri xatırlayıram. 1990-cı ildə, - mən o vaxta qədər Moskvada yaşayırdım, - yanvarın 20-də Sovetlər Birliyi hökumətinin, Qorboçov hökumətinin Azərbaycan xalqına etdiyi hərbi təcavüzdən, Azərbaycana böyük ordu hissələri göndərməsindən, Azərbaycanda müstəqillik, azadlıq arzuları ilə meydanlara, küçələrə toplaşmış günahsız insanları qırmasından sonra məndə o hökumətə, uzun illər üzvü olduğum kommunist partiyasına böyük nifrət hissi oyandı. Mən getdim, etiraz etdim, sovet hökumətini, sovet hökumətinin başçılarını məhkum etdim, suçlandırdım və Kommunist partiyasının sıralarını tərk etdim. Bundan sonra Azərbaycana gəldim. Doğma Bakıda yaşamaq mənim üçün mümkün olmadı, Naxçıvana getdim.

O vaxt Naxçıvan ağır vəziyyətdə idi. Ermənistanla Azərbaycan arasında olan münaqişə, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində Azərbaycanın böyük hissəsi ilə, Bakı ilə Naxçıvanın əlaqələri tamamilə qırılmışdı. Naxçıvana kömək lazım idi.

Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, Türk xalqı uzatdı, Türkiyənin böyük şəxsiyyəti, Türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün - araz çayı üzərində körpünün tikilməsinə başladıq. Bu körpünü müştərək tikdik, amma bunun bütün zəhməti, əziyyəti, xərji, məsrəfləri Türkiyənin üzərinə düşdü. Qısa bir müddətdə bu körpünü tikdik və 1992-ci il may ayının 28-də bu həsrət, ümid körpüsü təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları - Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə bir-birinə qovuşdular.

O illərdə, düz altı il bundan öncə - 1992-ci ilin fevral ayında əziz dostum, qardaşım Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Yolum qarsdan düşdü. Mən qarsa gəldim və Cümhurbaşkanı Süleyman Dəmirəlin təyyarəsi Qarsa gəldi, məni oradan götürdü. İlk dəfə Qarsı gördüm. Qars bizim xəyalımızda əfsanəvi bir şəhər, əfsanəvi diyar, qədim türk diyarıdır, bizim üçün doğma bir diyar, doğma yerdir. Biz Qars haqqında on illərlə kitablardan oxumuşduq, tarix kitablarından oxumuşduq. Qars qurtuluş savaşını yaxşı bilirdik. Qarsda türk xalqının göstərdiyi qəhrəmanlıqları yaxşı bilirdik. Nəhayət, Qars müqaviləsi var - 1921-ci ildə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Cümhuriyyəti və Rusiya, Ermənistan Cümhuriyyətləri arasında Qars anlaşması imzalanıbdır. Bu anlaşmaya görə də Naxçıvan Muxtar Cümhuriyyətinin statusu müəyyən olunub və Türkiyə Naxçıvanın təhlükəsizliyinin təminatçısı kimi o anlaşmaya imza atıbdır. Ona görə Qarsın bütün başqa tarixi səbəblərlə yanaşı, bizim üçün belə bir böyük əhəmiyyəti də var. Mən ilk dəfə qarsa gələndə bunların hamısına görə Qarsı böyük məhəbbət, sevgi hissi ilə ziyarət etdim. Oradan ankaraya gəldim.

Xatirimdədir, sonra - 1992-ci ilin sonunda İqdır vilayət elan olunanda, orada il elan olunanda əziz dostum, qardaşım İqdıra gəlmişdi. Mən də oraya dəvət olunmuşdum. Bu hadisəni bir yerdə bayram etdik, sonra bərabər Qarsa gəldik. Mən gördüm ki, Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirələ nə qədər böyük hörmət-ehtiram və sevgi, məhəbbət var. İnsanlarla birlikdə görüşdük.

Qars haqqında xatirələrimi bu gün danışmaq mənim üçün çox əhəmiyyətlidir. Amma Qars bələdiyyəsi başkanının da Azərbaycanın son dövr tarixi haqqında bu qədər dəyərli sözləri deməsi, yəni tarixi bu qədər yaxından və düzgün bilməsi, düzgün qiymətləndirməsi məni heyran etdi. Biz Qars haqqında düşündüyümüz, fikirləşdiyimiz kimi, qarsda da Azərbaycan haqqında düşünürlər, Azərbaycan haqqında fikirləşirlər. Bu,

çox gözəl, çox önəmlidir, çox böyük sevinc hissi doğurur.

Həqiqətdir, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı, qan tökülürdü, Azərbaycan parçalanırdı. Biz Azərbaycanı bu xətadan xilas etdik. Sonra Azərbaycanda iki dəfə dövlət çevrilişi etmək istədilər. Bunun da qarşısını aldıq. Bu gün sən, - mənim əziz dostum, Qarsın bələdiyyə başkanı, - adını çəkdiyin Surət Hüseynov 1994-cü ildə yenidən Azərbaycanın Cümhurbaşkanına qarşı zərbə vurmağa çalışanda biz bunun qarşısını aldıq. Amma o qaçdı, getdi Moskvada gizləndi. Çünki o, 1993-cü ildə də, 1994-cü ildə də Moskvadan təlimatlar almışdı. Moskvada gizləndi, onlarla əməkdaşlıq edirdi. 1994-cü ildə qaçdı, anjaq bildirmək istəyirəm ki, 1996-cı ilin sonunda onu Moskvada yaxaladıq, Azərbaycana gətirdik, həbsxanaya saldıq və etdiyi cinayətlərə görə ədalət məhkəməsi qarşısında javab verəcəkdir.

Eləcə də o vaxt - 1993-cü ildə Azərbaycanı parçalamağa çalışan Surət Hüseynovla birlikdə o vaxt Azərbaycanın Müdafiə naziri olmuş Rəhim Qazıyev də Moskvaya qaçmışdı. O da onların himayəsi altında idi. Onu da orada yaxalayıb gətirdik. Rəhim Qazıyev artıq məhkum olunubdur, həbsxanadadır. O vaxt Azərbaycanı parçalamaq istəyən, respublikamızın cənubunda, güneyində bir "Talış Cümhuriyyəti" yaratmaq istəyən Hümbətov adında bir nəfər var idi. O, keçmişdə Xalq Cəbhəsinin üzvü olmuşdur. Hümbətov da həbs edildi, sonra həbsxanadan qaçdı. Onu da Moskvada dəstəklədilər, gizlətdilər. Biz Hümbətovu da arayıb tapdıq, o öz cəzasını aldı, indi həbsxanada yatır.

Yəni biz müstəqilliyimizi, müstəqil dövlətimizi çətin şəraitdə qoruyuruq. Amma qoruyuruq, saxlayırıq və qoruyub saxlayacağıq.

Çox məmnunam ki, siz Rusiyadan gəlmiş böyük bir generala mənim dediyim sözləri burada xatırlatdınız. Bu, həqiqətdir. Dəfələrlə təklif olunubdur ki, Rusiyanın ordusu gəlib Azərbaycanda yerləşsin. Mən buna imkan verməmişəm. Təklif olunubdur ki, Azərbaycanın Türkiyə ilə, İranla sərhədlərində gəlib Rusiyanın əsgərləri dursun. Mən buna imkan verməmişəm.

Ancaq bilirsiniz ki, Ermənistanın Türkiyə ilə, İranla sərhədlərində Rusiyanın əsgərləri durur. Ermənistanda Rusiyanın böyük ordu hissələri vardır. Gürcüstanın Türkiyə ilə sərhədlərində Rusiyanın əsgərləri durur və Gürcüstanda da Rusiyanın ordu hissələri vardır. Qafqazda yalnız Azərbaycanda heç bir xarici ölkənin ordusu yoxdur. Deməli, biz tam müstəqilik, bağımsızıq. Müstəqillik bir bəyanatla olmur. Müstəqillik əməli işlə olur. Əməli iş də ondan ibarətdir ki, biz özümüz öz ölkəmizin, öz torpağımızın, millətimizin, taleyimizin sahibiyik. Bax, belə olubdur, belə yaratmışıq, bundan sonra

da belə olacaqdır. Əmin ola bilərsiniz ki, Qafqazda Azərbaycan bütün çətinliklərə baxmayaraq, öz müstəqilliyini qoruyub saxlayıb və qoruyub saxlayajaqdır. Bizim müstəqilliyimiz əbədidir, sarsılmazdır. Biz bu müstəqilliyi qoruyub saxlamaq üçün canımızı da, qanımızı da verməyə hazırıq. Mənə Türk Sənayeçiləri və İş adamları Birliyi də, başqa mükafatlar da verdilər. Bu mükafatların mənim üçün ən böyük əhəmiyyəti ondan ibarətdir ki, onların adları mənə doğmadır. Yəni bu mükafatları mənə sülh, barış uğrunda mübarizə, müstəqillik yolunda xidmətlər, insan haqlarının qorunması yolunda xidmətlər üçün vermisiniz. Mən sizə təşəkkür edirəm, çox sağ olun.

Sizi əmin edirəm ki, mən sizin bu etimadınızı doğruldajağam və Türkiyə-Azərbaycan dostluğunu günü-gündən möhkəmləndirmək, inkişaf etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə-Azərbaycan dostluğu bizim üçün müqəddəsdir, əbədidir, sarsılmazdır. Biz bu yoldan dönməyəcəyik. Biz bu yolla irəliyə getmişik və irəliyə gedəcəyik.

Mən sizin hamınıza cansağlığı, səadət arzu edirəm. Bütün Türk xalqına, Türkiyə Cümhuriyyətinə sülh, əmin-amanlıq və rifah arzu edirəm. Çox sağ olun.

Azərbaycan və Türkiyə Prezidentlərinin birgə mətbuat konfransı

Fevralın 14-də Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl dövlətimizin başçısının qardaş ölkəyə işgüzar səfərinin yekunları barədə İstanbulda birgə mətbuat konfransı keçirdilər.

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli mətbuat nümayəndələri!

Hörmətli dostlar!

Mən dostum və əziz qardaşım, Prezident Süleyman Dəmirəlin indi sizə bəyan etdiyi sözlərin hamısını təsdiq edirəm. Onun dediyi sözlər bizim eyni fikirlərimizdir. Bildirmək istəyirəm ki, bu fikirlər dünən də, bu gün də bizim ikimizin aramızda olmuş baş-başa danışıqlarımız nəticəsində meydana çıxıbdır. Bu danışıqların ən əsas mənası ondan ibarətdir ki, bizim fikir ayrılığımız yoxdur.

Türkiyə-Azərbaycan dostluğuna aid fikirlər eynidir. Mən bu barədə öz fikrimi artıq bildirdim. Əziz dostum Süleyman Dəmirəlin fikri də bəyan edildi.

Azərbaycanın problemləri, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı biz daim əlaqədə-

yık, yəni bir-birimizlə daim məsləhətləşirik, ayrı-ayrı ölkələrdə, müxtəlif beynəlxalq təşkilatların toplantılarında görüşlərimiz olur. Biz bütün bu proseslərdə eyni fikirdəyik. Fikir də ondan ibarətdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi yalnız və yalnız sülh yolu ilə ola bilər. Biz başqa bir mümkün yol görmürük.

Ermənistan-Azərbaycan münaqişəsində 1994-cü ilin mayında atəşin kəsilməsi haqqında saziş imzalanıbdır. O vaxtdan 3 ildən artıqdır - iki-üç aydan sonra 4 il tamam olacaqdır - atəşkəs recimindəyik. Bizim ən böyük nailiyyətimiz həmin atəşkəs recimini qoruyub saxlamaqdır. Mən bu barədə həm Azərbaycan tərəfinin, həm də Ermənistan tərəfinin səylərini qeyd edirəm. Çünki həm Ermənistanın, həm də Azərbaycanın səyləri, bu mövqedə durması nəticəsində biz atəşkəs recimini qoruyub saxlamışıq.

Mən bu gün bir daha bəyan edirəm ki, böyük sülh müqaviləsi imzalanana qədər, yəni münaqişənin tamamilə sülh yolu ilə həll olunması barəsində anlaşma, müqavilə əldə olunana qədər Azərbaycan tərəfi atəşkəs recimini qoruyub saxlayacaqdır və atəşkəs reciminin pozulmasına öz tərəfindən qətiyyən yol verməyəcəkdir. Biz buna indiyə qədər sadiq olmuşuq, bundan sonra da sadiq olacağıq.

Ümidvaram ki, Ermənistanın daxilində gedən proseslər, yəni hakimiyyət dəyişikliyi qanun çərçivəsində nəticələnəcəkdir və Ermənistan, xalq öz Prezidentini seçəcəkdir. Güman edirəm ki, bu məsələlər həll olunandan sonra bizim danışıqlarımız daha da sürətlə davam edəcəkdir. Ancaq danışıqların əsasını təşkil edən 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərdir. Yəni Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəjəli özünüidarəetmə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin - həm erməni, həm də Azərbaycan millətinə mənsub olan əhalisinin təhlükəsizliyinin təmin edilməsidir.

Minsk qrupunun həmsədrləri bu prinsiplər əsasında keçən ilin sentyabr ayında təklif vermişlər. Bu təklifdə münaqişənin iki mərhələdə həll olunması nəzərdə tutulubdur. Birinci mərhələdə, Dağlıq Qarabağın ətrafında Azərbaycanın işğal olunmuş 6 inzibati rayonu Ermənistan işğalçı dəstələrindən azad edilməli, oradan zor gücünə çıxarılmış, köçkün vəziyyətində yaşayan vətəndaşlarımız öz yerlərinə-yurdlarına qayıtmalı və Ermənistanla Azərbaycan arasında olan kommunikasiya xətləri bərpa olunmalıdır. İkinci mərhələdə, Azərbaycanlılar yaşayan daha iki inzibati rayonun - Laçın və Şuşa rayonlarının işğalçı ordulardan azad olunması və bununla bərabər Dağlıq Qarabağa Azərbaycan Respublikasının

tərkibində özünüidarəetmə statusu verilməsi nəzərdə tutulur.

Biz bu təklifi qəbul etmişik. Baxmayaraq ki, bu təklif bizi tam qane etmir. Yəni bizim də bu təklifə qarşı etirazlarımız vardır. Ancaq biz kompromis mövqe tutaraq bu təklifi qəbul etmişik. Ermənistan tərəfindən keçmiş Prezident Levon Ter-Petrosyan bu təklifi qəbul etmişdir. Ancaq sonra Dağlıq Qarabağda olanlar və Ermənistan hökumətində bəzi şəxslər bu təkliflə razılaşmadılar. İndi biz bu münaqişənin gələcəkdə də bu təklif əsasında həll olunmasını istəyirik. Hesab edirik ki, bu təklifdən geri çəkilmək olmaz.

Beləliklə, indi biz Ermənistanla Azərbaycan arasında olan bu atəşkəs recimini qoruyub saxlamaq və danışıqları davam etdirmək məqsədi daşıyırıq. Bildiyimə görə, iki-üç gündən sonra Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin - Rusiyanın, ABŞ-ın və Fransanın təmsilçiləri görüşəcək və indiki durumu təhlil edəcəklər. Onların bu görüşündən sonra bizim bu barədə məlumatlarımız olacaqdır.

Qafqazda sabitliyi, istiqrarı, sülhü, barışı qorumaq üçün çox iş görmək lazımdır. Qonşu Gürcüstan bizim üçün dost ölkədir. Gürcüstanın həyatında baş verən hər bir hadisəyə biz çox diqqətlə, qayğı ilə yanaşırıq. Gürcüstanın Prezidenti hörmətli cənab Şevardnadzeyə son günlər sui-qəsd, terror cəhdi olduğu bir zaman biz çox üzüldük, sarsıldıq. Mən dərhal - həmin hadisə baş verəndən 40 dəqiqə sonra Eduard Şevardnadzeyə telefonla zəng etdim, ona öz həmrəyliyimi, dəstəyimi bildirdim. Sabahı gün isə Azərbaycanda təhlükəsizlik şurasının toplantısını keçirdim, məsələni müzakirə etdim. Biz terrorçuların axtarılıb tapılması, yaxalanması üçün gürjüstana hər cür yardım göstərilməsini təklif etdik və bəyan etdik. Ümid edirəm ki, Gürcüstanda hakimiyyət, Prezident bu ölkənin dövlətçiliyini qoruyub saxlaya biləcəkdir, Gürcüstanın həm Türkiyə ilə, həm də Azərbaycanla olan dostluq əlaqələri bundan sonra da davam edəcəkdir.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr çox genişdir. Bu gün səhər iş adamları ilə görüşdə biz bu əlaqələrdən danışdıq. Ancaq bir məsələ Türkiyə ictimai rəyini, Türkiyənin cəmiyyətini həmişə maraqlandırır. Bu da Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neftin ixrac olunması yollarıdır. Mən bu barədə bir neçə dəfə bəyanatlar vermişəm. Keçən ilin may ayında burada rəsmi səfərdə olarkən öz fikrimi dəfələrlə bildirmişəm. Bundan sonra da öz fikirlərimi bildirmişəm. Bu gün bir daha bildirmək istəyirəm ki, burada variantlar çoxdur. Dünyanın bir çox ölkələri, Avropa Birliyi, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və dünyanın başqa maliyyə, iqtisadi mərkəzləri Xəzər dənizindən gələcəkdə çıxarılacaq neftin və qazın dünya bazarlarına nəql edil-

məsi yollarını arayırlar.

Şübhəsiz ki, bu araşdırmalar getməlidir. Çünki cürbəcür yollar, variantlar ola bilər. Hesab edirəm ki, Xəzər dənizində və Mərkəzi Asiyada, Azərbaycanda olan neft və qaz yataqları o qədər zəngindir ki, bu yanacağı ixrac etmək üçün bəlkə də bir boru xətti yox, bir neçə boru xətti olmalıdır. Ancaq biz planımızda, 1994-cü ilin sentyabrında ilk imzaladığımız "Əsrin müqaviləsi"ndə yazmışıq ki, böyük boru xətti Bakıdan, Türkiyə ərazisindən keçərək Ceyhana getməlidir. Biz bu fikri ondan sonra da dəfələrlə təsdiq etmişik, bu gün də təsdiq edirəm.

Mən buraya gəlməmişdən bir neçə gün əvvəl bu konsorsiumun - bu konsorsiumda 11 şirkət birləşibdir - rəhbərlərini dəvət etdim, onlardan raport tələb etdim. Mənə bildirdilər ki, onlar raportu bir neçə ay içərisində tamamlayıb verəcəklər. Çünki biz belə hesab edirik ki, bu ilin sonunadək, yəni payıza, yayın sonuna qədər gərək bu layihə hazırlansın, təsdiq olunsun və inşaat işlərinə başlansın.

Bu gün bir daha bəyan edirəm ki, Azərbaycandakı, Xəzər dənizindəki yataqlardan çıxarılan neftin ixrac olunması üçün çəkiləcək böyük boru xətti Bakı-Ceyhan xəttidir. Bu xəttin həyata keçirilməsi üçün Azərbaycan hökuməti indiyədək çox işlər görübdür və bundan sonra da görəcəkdir. Buna tam arxayın ola bilərsiniz.

Transqafqaz magistralı çox böyük gələcəyi olan magistraldır. Bu işə biz bir il bundan əvvəl başlamışıq. Ancaq bir il içərisində nə qədər dəyişikliklər olubdur. Avropanın, Asiyanın nə qədər ölkələri bu Transqafqaz magistralına bağlanıblar. Burada yüklər həm Asiyadan Avropaya, Avropadan Asiyaya daşınır, həm də bu magistral üzərində, dediyim kimi, neftin və qazın ixracı üçün bir neçə boru xətti tikiləcəkdir.

Türkiyə bütün bu layihələrdə, işlərdə ən mərkəz yerdədir və daim mərkəz yerdə də olacaqdır. Biz bütün bu məsələlərdə Türkiyə ilə əməkdaşlıq edirik və bundan sonra da əməkdaşlıq edəcəyik. Hesab edirəm ki, bu işlər gələcəkdə "İpək yolu"nun bərpa olunmasını təmin edəcəkdir.

Bilməlisiniz ki, artıq "İpək yolu"na həm Avropada, həm də Şərqdə böyük maraq vardır. Məsələn, Yaponiyanın Baş naziri hələ 5-6 ay bundan önjə böyük bir məruzə edibdir və "İpək yolu"nun bərpa olunması üçün öz tərəflərindən lazımi tədbirlər görülməsinin nəzərdə tutulduğunu bildiribdir. Eləcə də Çin və Asiyanın başqa ölkələri "İpək yolu"nun bərpasına böyük maraq göstəriblər. Biz "İpək yolu"nu bərpa edirik. Türkiyə və Azərbaycan bu işlərin mərkəzində ən görkəmli yer tuturlar. Bu da Türkiyə-Azərbaycan və Asiya-Avropa iqtisadi əməkdaşlığının və ümumiyyətlə əməkdaşlığın çox parlaq gələcəyi olduğunu göstərir.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq əlaqələri haqqında mən

dünən də, bu gün də danışmışam. Amma bu elə bir mövzudur ki, bu barədə saatlarla danışsaq da fikir tükənməyəcəkdir. Ancaq bu gün bunu bir daha qeyd etmək istəyirəm ki, bizim bu dostluğumuza maneçilik etmək, dostluğumuzu pozmaq, ona ləkə salmaq istəyənlər də vardır. Beləliləri həm Azərbaycanın, həm Türkiyənin daxilində, həm də xaricində vardır. Bizim bu dostluğumuza qısqanclıq edən ölkələr, qruplar, dəstələr, siyasi qüvvələr az deyildir. Onlar qısqanclıq da, bəzən isə düşmənçilik də edirlər. Ona görə də biz çox sayıq olmalıyıq, qısqanclıq, düşmənçilik edənlərə heç bir imkan verməməliyik ki, hansısa bir xırda şeydən istifadə etsinlər.

Biz öz tərəfimizdən bunu edirik və edəjəyik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Türkiyə də bunu edir və edəcəkdir. Əziz dostum, qardaşım Prezident Süleyman Dəmirəllə, Baş nazir hörmətli Məsud Yılmazla dünən və bu gün apardığım danışıqların nəticəsində mən tam əminəm ki, biz bu dostluğu qorumaq üçün gələcəkdə də əlimizdən gələni edəcəyik. Bu dostluğa, qardaşlığa ləkə salanların heç birinə imkan verməyəcəyik.

Bilirsiniz ki, Türkiyədə "Susurluq qalmaqalı" ilə əlaqədar son vaxtlar cürbəcür danışıqlar meydana çıxıbdır. Təəssüflər olsun ki, bu qalmaqalla əlaqədar Azərbaycana aid heç bir əsası olmayan yazılar verilibdir. Baş nazir Məsud Yılmazla biz dünən bu barədə çox ətraflı söhbət etdik. Bunlara aydınlıq gətirmək lazımdır və təkliflər verilməlidir. Biz öz tərəfimizdən bunu araşdırdıq. Artıq siz bilirsiniz, yəqin mətbuatdan məlumdur ki, biz Azərbaycanda "Avropa" otelinin tikilməsi ilə əlaqədar baş vermiş hadisələri və orada mövcud olmuş qanun pozğunluqlarını və qanuna zidd olan cürbəcür hərəkətləri aşkara çıxardıq. Burada xüsusi günahı olan Azərbaycanın Xarici İşlər naziri Həsən Həsənov günahlandırıldı və işdən kənar olundu. Yəni kimsə, haradasa günah edibsə, kiminsə suçu, səhvi varsa, biz onun üstünü heç vaxt örtmürük və örtməyəcəyik. Biz həqiqət, təmizlik istəyirik. Mənəvi təmizlik bizim üçün hər şeydən üstündür. Heç bir sərvət, para mənəviyyatı əvəz edə bilməz.

Azərbaycanda bazar iqtisadiyyatı mövcuddur. Son vaxtlar yeni iqtisadi islahatlar həyata keçirilir. Respublikada restoranlar, gecə klubları, kazinolar açılmışdı. Son illər bunlara diqqət yetirilməyibdir. Ancaq araşdıranda ki, onlar Azərbaycan xalqının milli mənəviyyatına zərər verir və milli mənəviyyatımıza zidd olan şeylərdir, ona görə biz kazinoların, gecə klublarının bağlanması haqqında qərar verdik. Bu qərarımızın da üstündə duracağıq. Biz mənəviyyatımızı qorumuşuq, qoruyuruq. Bazar iqtisadiyyatını inkişaf etdirərək imkan verməməliyik ki, kimsə korrupsiyaya, rüşvətxorluğa yol versin, öz vəzifəsindən sui-istifadə etsin,

kimsə bu məsələlərdən istifadə edib Azərbaycana ləkə gətirsin.

Şübhəsiz ki, belə nöqsanlar, səhvlər, günahlar və belə cinayətlər Azərbaycanın cəmiyyətində mövcuddur. Ancaq əsas o deyildir. Əsas odur ki, Azərbaycanın hökuməti, dövləti, Prezidenti bütün belə mənfi halların hamısının əleyhinədir. Biz bunlara qarşı mübarizə etmişik, bundan sonra da mübarizə edə bilərik. Bəzən belə kiçik hallar böyük bir hala gəlib çıxır və bizim ölkələrimiz arasında olan dostluğa, qardaşlığa ləkə gətirir. Biz buna imkan verməyəcəyik.

Bilin ki, - əziz dostum Süleyman Dəmirəlin sözlərini təkrar edirəm, - Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə dostluğu müqəddəsdir, əbədidir, sarsılmazdır. Bizim vəzifəmiz bu müqəddəs əlaqələri qoruyub saxlamaq və gələcək nəsillərə tövsiyə etməkdir. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin İstanbulda "Qoç Holdinq" qrupunun rəhbərləri və "Arçelik" Şirkəti zavodunun işçiləri ilə görüşü

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl vertolyotla İstanbulun Çayırova rayonuna - Türkiyənin iqtisadi həyatında mühüm yeri olan "Qoç Holdinq" qrupu idarə heyətinin binasına gəldilər.

Prezidentlər "Qoç Holdinq"in rəhbərləri ilə görüşdülər. Rəhmi Qoç öz fəaliyyətləri barədə məlumat verdi, Azərbaycanla iqtisadi əlaqələrdən danışdı və bunları daha da genişləndirmək üçün təkliflərini söylədi. O bildirdi ki, Türkiyənin iş adamlarının Azərbaycanla bütün sahələrdə əməkdaşlıq etməyə böyük marağı var. Onlar qardaş ölkənin iqtisa-diyyatına sərmayə qoymağa hazırdırlar.

Azərbaycan Prezidenti Heydər Əliyev "Qoç Holdinq"in rəhbərinin verdiyi məlumatdan razı qaldığını, qrupun ölkəmizdəki işini dəyərləndirdiyini bildirdi.

Daha sonra dövlət başçıları "Arçelik" şirkətinin paltaryuyan maşınlar istehsal edən zavoduna gəldilər. Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl müəssisə və şirkətin Araşdırma mərkəzi ilə tanış oldular. Zavodun Baş direktoru, "İlin idarəçisi" adı almış Mehmet Əli Berkman ali qonaqlara müəssisə və buradakı istehsal prosesi haqqında ətraflı məlumat verdi.

Sonra dövlət başçıları müəssisənin hazır məhsullarına, habelə Əskişəhirdəki zavodun istehsal etdiyi soyuduculara baxdılar.

Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl zavodun işçiləri və "Qoç Holdinq"in rəhbərləri ilə səmimi görüşüb ayrıldılar.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Ege Universitetinin "Fəxri Doktor"u adına layiq görülmüşdür

Türkiyənin ən nüfuzlu və böyük universitetlərindən olan, İzmir şəhərində yerləşən Ege universitetinin senatı Azərbaycan Respublikasının Preziednti Heydər Əliyevə dünyada sülh, Azərbaycanın tam müstəqilliyi, torpaq bütünlüyü və Türkiyə - Azərbaycan strateji əməkdaşlığı uğrunda tarixi fəaliyyətinə görə 1998-ci il martın 24-də "Fəxri Doktor" - "Nonoriys Kausus" adı verilməsini yekdillikle qərara almışdır.

Ege Universitetinin rektoru professor Refet Sayqılı "Fəxri Doktor" - "Nonoriys Kausus" diplomunu təntənəli şəkildə Azərbaycan Prezidentinə təqdim etməkdən qürur duyacaqlarını bildirmişdir.

"Azərbaycan" qəzeti, 28 mart 1998-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ VI İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 26-da Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti İlə dost ölkəyə işgüzar səfərə yola düşmüşdür.

Prezident Heydər Əliyevin Binə hava limanında jurnalistlərə müsahibəsi

Sual: Cənab Prezident, Türkiyənin dövlət başçısı Süleyman Dəmirəlin xüsusi dəvəti ilə bu ölkəyə işgüzar səfərə gedirsiniz. Bu səfər barədə nə deyə bilərsiniz?

Cavab: Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Gürcüstanın Prezidenti Eduard Şevardnadzeni və məni bu gün Türkiyənin Şimali-Şərqində, Trabzon yaxınlığındakı Artvin məntəqəsində, Gürcüstan ilə Türkiyə sərhədində təməli qoyulacaq Su Bəndinin açılış mərasiminə dəvət edibdir. Mən bu dəvəti qəbul etmişəm və indi yola düşürəm. Orada görüşəcəyik. Bu, Türkiyə Cümhuriyyətində əlamətdar bir hadisədir. Türkiyə ilə Azərbaycan, Türkiyə ilə Gürcüstan, Azərbaycanla Gürcüstan arasında olan dostluq əlaqələrinə görə belə mərasimlərdə iştirak etmək, bizim ölkələrin bir-birinə olan münasibətlərini nümayiş etdirmək və eyni zamanda fürsətdən istifadə edib bəzi məsələlər haqqında danışmaq, söhbət etmək,- bunlar hamısı bizim üçün çox lazımdır. Ona görə gə mən ora gedirəm və bu gün də qayıdacağam.

Görüşlərimiz, danışıqlarımız olacaqdır. Mən o yerləri görməmişəm, Ora ilə də tanış olaram. Hər halda yaxşı bir səfərdir.

Sual: Aprelin 29-da Moskvada MDB Sammitində iştirak edəjəksinizmi?

Cavab: Qayıdıb gələndən sonra baxacağam.

Sual: Cənab Prezident, Qərbə gedəcək əsas neft boru kəməri məsələsi danışıqlarınızın əsas mövzusu olacaqdır. Gözləmək olarmı ki, Bakı-Ceyhan marşrutunun baha başa gəlməsi bu layihənin reallaşdırılmasını çətinləşdirsin?

Cavab: Sən sualı həmişə rus dilində verirsən, amma bizim televiziya Azərbaycan Televiziyasıdır. Ona görə də mən Azərbaycan dilində cavab verəcəyəm. Sənə də məsləhət görürəm ki, Azərbaycan dilini öyrənəsən.

Şübhəsiz ki, bu məsələ orada ola bilər, söhbətin mövzusu olsun. Çünki Bakı-Ceyhan neft kəməri, neft borusu Bakıdan, Gürcüstan ərazisindən, Türkiyə ərazisindən Ceyhan limanına gedəcəkdir. Bizim indi qərb marşrutu üzrə inşa etdiyimiz neft borusu - Bakı-Supsa neft borusu da Azərbaycanla Gürcüstan arasındadır.

Dərinər Su Bəndinin və Stansiyanın təməlinin qoyulması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli Prezident Süleyman Dəmirəl!

Hörmətli Prezident Eduard Şevardnadze!

Hörmətli Baş nazir Məsud Yılmaz!

Hörmətli nazirlər, dostlar, qardaşlar, bacılar!

Mən buraya, Türkiyənin şimal-şərq bölgəsində olan bu gözəl mənzərəli Türkiyə diyarına Azərbaycan xalqından hərarətli salamlar və sevgi, məhəbbət gətirmişəm.

Mənim bu mərasimə dəvət olunmağıma görə əziz dostum və qardaşım, hörmətli Prezident Süleyman Dəmirələ, hörmətli Baş nazir Məsud Yılmaza təşəkkür edirəm. Çox şadam ki, mən bu gün Türkiyə Cümhuriyyəti üçün, təkcə Türkiyə Cümhuriyyəti üçün yox, bütün Qafqaz üçün, bizim bütün ölkələrimiz üçün çox önəmli, əlamətdar olan bir hadisənin iştirakçısıyam və bunun canlı şahidiyəm.

Şübhəsiz ki, bugünkü mərasim Türkiyə xalqı üçün, Türkiyə Cümhuriyyəti üçün böyük əhəmiyyət kəsb edir. Mən bura gəlməmişdən öncə bu layihə ilə tanış olarkən və burada natiqlərin verdiyi məlumatları dinləyərkən bir daha düşündüm ki, Türkiyə Cümhuriyyəti ilbəil irəliyə gedir, inkişaf edir və böyük, ulu öndər Mustafa Kamal Atatürkün 75 il əvvəl qurduğu, yaratdığı Cümhuriyyət bu gün dünyada ən görkəmli yer tutur. Mən bir dost, qardaş kimi sevinirəm və özümü xoşbəxt hiss edirəm ki, bizim qardaş ölkədə - Türkiyədə onun dövləti, hökuməti öz ölkəsinin inkişafı üçün belə böyük və önəmli addımlar atır. Bu da Türkiyə xalqının, vətəndaşlarının bu günü və gələcəyi üçün, onların rifah halı üçün çox əhəmiyyətlidir. Mən bu Dərinər Su Bəndinin təməlinin qoyulması münasibətilə Sizi ürəkdən təbrik edirəm və tam əmin olduğumu bildirmək istəyirəm ki, bu layihə vaxtında yerinə yetiriləcək və burada Türkiyənin enerji ehtiyajlarını təmin etmək üçün böyük bir su hövzəsi, böyük bir elektrik mərkəzi yaranacaqdır.

Bugünkü görüş, eyni zamanda üç ölkənin rəhbərlərinin bir araya gəlməsi də çox əhəmiyyətlidir. Türkiyə ilə Gürcüstan, Azərbaycan arasında, Gürcüstan ilə Türkiyə, Azərbaycan arasında, Azərbaycan ilə Türkiyə, Gürcüstan arasında son illər tarixdə görünməmiş dostluq və qardaşlıq əlaqələri yaranıbdır. Bunlar XX əsrin sonunda bizim üç ölkənin - Türkiyənin, Gürcüstanın, Azərbaycanın bu günü və qədim tarixi vardır. Gürcü xalqı və Azərbaycan xalqı həmişə bir-biri ilə dost olublar, birbirinə kömək ediblər. Bu gün Gürcüstanla Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr daha da genişlənibdir, güclənibdir, daha da inkişaf edibdir. Bu gün bu bölgədə Gürcüstan ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri hər iki ölkə üçün çox əhəmiyyətlidir. Bu gün burada, müqəddəs Türk torpağında mən bəyan edirəm ki, Gürcüstan ilə Azərbaycan arasındakı bu dostluq, qardaşlıq əlaqələri də böyük gələcəyə malikdir, günü-gündən inkişaf edəcək, əbədi olacaq və sarsılmaz olacaqdır.

Türkiyə, Gürcüstan və Azərbaycanın - Qafqazın üç böyük və çox strateji əhəmiyyətə malik olan ölkələrinin bu cür sıx dostluq, qardaşlıq əlaqələrində olması bütün Qafqazda, onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi üçün çox önəmli bir amildir. Biz bu dostluğumuzla, əlaqələrimizlə, gözəl əməkdaşlığımızla bir daha sübut edirik ki, Qafqazda, onun ətrafında daim sülh, əmin-amanlıq yaratmaq olar. Buna bizim çox ehtiyacımız vardır.

Məlumdur ki, Qafqazda hələ hərbi münaqişələr vardır. Ermənistanla Azərbaycan arasındakı münaqişə 10 ildir ki, davam edir və bu münaqişənin nəticəsində Ermənistanın silahlı dəstələri Azərbaycan ərazisinin 20 faizini işğal ediblər və işğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla qovulub, köçkün vəziyyətində çadırlarda yaşayırlar. Dörd il bundan önjə biz atəşi dayandırmışıq, sülh danışıqları aparırıq, məsələni sülh yolu ilə həll etmək istəyirik. Mən bu gün burada bir daha bəyan edirəm ki,

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk Qrupunun fəaliyyətinin bundan sonra da davam etməsini arzu edirəm və ümidvaram ki, ATƏT-in Minsk Qrupunun səyləri və bölgədə olan bütün ölkələrin müştərək fəaliyyəti nəticəsində bu münaqişəyə son qoyulacaqdır, Azərbaycanın işğal olunmuş torpaqları azad olunajaqdır, bir milyondan artıq Azərbaycanlı öz yerlərinə-yurdlarına qayıdacaqdır. Biz sülh tərəfdarıyıq, sülh arzulayırıq.

Biz yaxşı bilirik və bunun da dərdini çəkirik ki, dost, qonşu Gürcüstanda Abxaziya münaqişəsi vardır. Biz Gürcüstan dövlətinə, hökumətinə də bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasını arzu

edirik. Ümidvarıq ki, Gürcüstan buna nail olacaqdır. Biz ölkədə və bütün dünyada, bölgəmizdə hər bir ölkənin ərazi bütövlüyünün təmin olunmasının tərəfdarıyıq. Bu, beynəlxalq hüquq normalarının tələbidir. Biz tələb edirik ki, bütün dövlətlər, ölkələr bu beynəlxalq hüquq normalarına riayət etsinlər. Buna görə də həm Gürcüstanın ərazi bütövlüyünün bərpa olunması, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması bu gün gündəlikdə duran əsas məsələdir.

Biz yaxşı bilirik ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin hökuməti, dövləti Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün çox səylər qoyur, çalışır və o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün, Gürcüstanda Abxaziya münaqişəsinin həll olunması üçün öz səylərini qoyur.

Ona görə də mən bu fürsətdən istifadə edib Türkiyə Cümhuriyyətinə, dövlətinə, hökumətinə təşəkkürümü yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün bundan sonra da öz səylərini əsirgəməyəcəkdir.

Bugünkü təntənəli mərasim bir də onu göstərir ki, insanlar sülh istəyir, əmin-amanlıq istəyir, insanlar rahat yaşamaq istəyirlər. Biz bunu təmin etməliyik. Bu, Türkiyədə də təmin olunmalıdır, Gürcüstanda da, Azərbaycanda da, bütün Qafqazda da təmin olunmalıdır. Qafqaz dünyanın çox əhəmiyyətli bir bölgəsidir. Qafqazda dünya ölkələrinin çox böyük maraqları vardır. Bunların hamısını həm Qafqaza maraq göstərən ölkələrin xeyrinə, həm də Qafqazda yerləşən xalqların, ölkələrin, dövlətlərin xeyrinə həll etmək üçün sülh lazımdır. Ona görə böyük öndər Mustafa Kamal Atatürkün sözlərini bu gün burada bir daha təkrar edirəm: yurdda sülh, bölgədə sülh, cahanda sülh!

Əziz dostlar, əziz qardaşlar!

Mən Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu gün burada təməlini atdığımız böyük su bəndi, elektrik mərkəzi vaxtında tikiləcək və Türkiyəyə yeni faydalar gətirəcəkdir.

Türk xalqına, Türkiyə Cümhuriyyətinə öz sevgi və məhəbbətimi bildirərək, Sizin hamınıza cansağlığı arzu edirəm. Sağ olun.

Türkiyə, Azərbaycan və Gürcüstan Prezidentlərinin üçtərəfli görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl aprelin 26-da Trabzon şəhərində görüşərək bu üç dövlət arasında dostluğun, mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı məsələlə-

ri müzakirə etmişlər.

Üç dövlət arasında tarixi dostluq mehriban qonşuluq əlaqələrini yüksək qiymətləndirən Prezidentlər ölkələrimizin gündən-günə inkişaf edən qarşılıqlı surətdə faydalı əməkdaşlığından razı qaldıqlarını bildirmişlər.

Bölgədə təhlükəsizliyin və sabitliyin təmin edilməsi sahəsində birgə səylərin regional və beynəlxalq səviyyədə gücləndirilməsinin, dövlətlərin suverenliyi, ərazi bütovlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət olunmasının zəruriliyini vurğulayan tərəflər bölgədə münaqişələrin sülh yolu ilə tezliklə aradan qaldırılmasının vacibliyini qeyd etmişlər.

Türkiyə, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin zəruri olduğunu nəzərə çarpdıran dövlət başçıları bildirmişlər ki, ölkələrimizin əməkdaşlığının daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi böyük əhəmiyyətə malikdir. Onlar Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarına çıxaracaq əsas boru xətti - Bakı-Ceyhan kəməri barədə geniş müzakirələr aparmış və qeyd etmişlər ki, bu istiqamətdə konkret tədbirlər həyata keçirilməsini sürətləndirmək üçün əməli addımlar atmağa hazırdırlar.

Prezidentlər qeyd etmişlər ki, dövlətlərimizin münasibətləri daha da dərinləşdirilməli, bölgənin xalqları arasında qarşılıqlı etimadın və hörmətin möhkəmləndirilməsi üçün birgə səylər bundan sonra da gücləndirilməlidir.

Səmimilik və dostluq şəraitində keçən görüşün sonunda Türkiyə, Azərbaycan və Gürcüstan Prezidentləri birgə bəyanat qəbul etmişlər.

Birgə Bəyanat

Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev, Gürcüstan Prezidenti cənab Eduard Şevardnadze və Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl 1998-ci il aprelin 26-da Trabzon şəhərində görüşmüş və üç dövlət arasında dostluğu, mehriban qonşuluğu və əməkdaşlığı daha da inkişaf etdirmək məsələlərini müzakirə etmişlər.

Prezidentlər Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında yaranmış xüsusi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərini bundan sonra da genişləndirməyə və dərinləşdirməyə hazır olduqlarını bəyan etmişlər. Bu münasibətlər maraqların ümumiliyi əsasında sülhə və sabitliyə, bölgə xalqlarının iqtisadi inkişafına və yaxınlaşmasına getdikcə daha çox kömək edən sanballı amilə çevrilir.

Prezidentlər Bölgədə Təhlükəsizliyin və sabitliyin təmin olunması sahəsində birgə səyləri həm regional səviyyədə, həm də daha geniş beynəlxalq səviyyədə daha da gücləndirməyin vacibliyini qeyd etmişlər. Onlar dövlət suverenliyinə, ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında, təcavüzkar separatçılığa və terrorizmin hər hansı təzahürünə qarşı birgə mübarizəni fəallaşdırmaq əsasında bölgədə münaqişələri tez bir zamanda sülh yolu ilə aradan qaldırmağın zəruri olduğunu vurğulamışlar.

Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze cənablarının Tbilisi Bəyannaməsində - "Dinc Qafqaz" Bəyannaməsində ifadə etdikləri prinsiplərin həyata keçirilməsinə yönəldilmiş səyləri tamamilə dəstəklədiyini təsdiq etmişdir.

Prezidentlər İqtisadi Kooperasiyanı dərinləşdirməyin zəruriliyini, irimiqyaslı regional layihələrin işlənib hazırlanmasında və həyata keçirilməsində birgə səylərin vajibliyini nəzərə çarpdırmışlar.

Prezidentlər Xəzər hövzəsinin enerji daşıyıcılarının nəql olunmasının əsas istiqamətlərindən biri kimi, Transxəzər və Transqafqaz boru kəmərləri şəbəkələrinin daxil olduğu Şərq-Qərb energetika dəhlizinin inkişafına böyük əhəmiyyət verərək bəyan etmişlər ki, onlar Azərbaycan Neftinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə daşınmasına, habelə Xəzər hövzəsindən təbii qazı Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə çatdırmaq üçün boru kəməri çəkilməsinə dair layihələrin həyata keçirilməsinin sürətləndirilməsi sahəsində əməli addımlar atmağa hazırdırlar.

Prezidentlər tarixi "İpək Yolu"nun bərpa olunmasının, T R A S E K A Avrasiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin üstün əhəmiyyətini vurğulamış və bu məqsədlə, həmin dəhlizin mühüm tərkib hissəsi kimi, Tbilisi-Qars dəmir yolu magistralının inşasını sürətləndirməyin zəruri olduğunu bəyan etmişlər.

Prezidentlər Transsərhəd çaylarının, Türkiyə boğazlarının və Qara dənizin sahil dəniz xəttinin təbii mühitinin mühafizəsi sahəsində birgə səylərin əhəmiyyətini vurğulamışlar.

Prezidentlər məmnunluqla qeyd etmişlər ki, Qara dəniz iqtisadi əməkdaşlığı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu ittifaqın regional beynəlxalq təşkilata çevrilməsi Qara dəniz hövzəsinin dövlətləri arasında iqtisadi əməkdaşlığın güclənməsində onun rolunun yüksəlməsinə şübhəsiz ki, kömək edəcəkdir.

Prezidentlər Qara dəniz və Xəzər dənizi hövzələri dövlətlərinin daha da yaxınlaşması, qarşılıqlı anlaşmanın dərinləşməsi və bunun əsasında həmin bölgələrin xalqları arasında etimadın və qarşılıqlı hörmətin möhkəmlənməsi sahəsində bundan sonra da birgə səylər göstərmək barədə razılığa gəlmişlər.

Azərbaycan Prezidenti
Heydər Əliyev
türkiyəli qonaqları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 13-də Prezident sarayında Türkiyənin "Fatih" Universitetinin təsisçilərindən biri Əli Bayramı, "Çağ öyrətim işlətmələri" anonim şirkətinin Azərbaycan təmsilçisi Adəm Öcalı, Azərbaycan - Türkiyə Litseyləri Baş İdarəsinin rəisi Turan Öztorpağı, "Zaman" qəzetinin Baş redaktoru Ersin Dəmiri qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları səmimiyyətlə salamladı.

Qardaş ölkənin nümayəndələri Azərbaycan Prezidenti Heydər Əliyevi 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik etdilər və ona gül dəstəsi təqdim etdilər.

Prezident Heydər Əliyevlə ikinci dəfə görüşünə imkan yaranmasından şərəf duyduğunu bildirən cənab Əli Bayram dedi: Cənab Prezident, biz Sizi səmimi qəlbdən təbrik edirik, Sizə cansağlığı, uzun ömür arzulayırıq. Sizin 75 illiyinizi təbrik etmək mənim üçün tarixi bir hadisədir.

Qonaq daha sonra bildidi: Cənab Prezident, 1991-ci ildə Naxçıvan ilə Türkiyə sərhədindəki "Həsrət körpüsü"nün açılışında mən də iştirak edirdim. Qardaş xalqlarımız o vaxt bu körpünü keçərək bir-birini bağrına basdılar. Orada dediyiniz tarixi sözlər göz yaşlarımla Türkiyənin böyük bir hissəsinə çatdırmışam. Heydər Əliyev Türkiyənin çox böyük və dəyərli dostudur, Türk dünyasının lideridir. Biz körpüdən keçərkən bir zabit bizə mane olmağa çalışdı. O zaman Siz dediniz ki, övladım, mən buraya qardaş xalqlarımızın birbirinə qovuşması üçün gəlmişəm.

Biz Heydər Əliyevin Türk dünyasının lideri olduğunu elə o gündən hiss etmişdik.

Möhtərəm Prezident, Türkiyə Jurnalistlər və Yazıçılar Vəqfinin fəxri sədri Xoca Fətulla Gülən zatialinizin 75 illik yubileyi münasibətilə Sizə ürəkdolusu salamlar və təbrik məktubu göndərmişdir. Məktubda deyilir ki, qardaş Azərbaycanın çox dəyərli möhtərəm Prezidenti Heydər Əliyev, Siz vətəninizi ürəkdən sevən, ömrünüzü insanlara xidmətə həsr edən müdrik bir rəhbərsiniz. Siz ömrünüzün ötən 75 ilini tamamilə xalqınıza həsr etmisiniz. Hörmətli Prezident, mən Sizin 75 illik yubileyinizi təbrik edir, Sizə Allahdan uzun ömür, cansağlığı arzulayıram. xalqınıza, millətinizə, ölkənizə və bəşəriyyətə xidmətdə Sizə daha böyük uğurlar diləyirəm.

Sonra qonaq məktubu və xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev türkiyəli qonaqlara minnətdarlığını bildirərək dedi: Siz zəhmət çəkib Türkiyədən buraya gəlmisiniz, çox hörmət etdiyim, böyük dostum Xoca Fətullanın təbrikini də mənə

gətirmisiniz. Keçmiş günləri, xüsusən bizim bir-birimizə qovuşduğumuz günləri sizin kimi, mən də çox məhəbbətlə xatırlayıram. 1991-ci ildə Azərbaycan və Türkiyəni birbirinə bağlayan böyük bir körpünün tikilməsinə qısa bir zamanda nail olduq. Hələ o körpü tikilməmişdən əvvəl insanlar Arazın sahilində günlərlə dayanıb Türkiyəyə, Anadoluya həsrətlə baxırdılar. Ona görə də biz o körpüyə "Həsrət", "Ümid" adı verdik. Mən o dəqiqələri həmişə xatırlayıram. Çox məmnunam ki, siz də o günləri unutmamısınız. Çox şadam ki, o vaxt körpü istifadəyə verilərkən oradakı əsgərə dediyim sözləri Siz hamıya yaymısınız. Mən buna görə də Sizə təşəkkür edirəm.

Türkiyənin "Fatih" Universitetindəki görüşümü və mənə fəxri doktor adı verilməsini də məmnuniyyətlə xatırlayıram, yüksək qiymətləndirirəm. Bizim o görüşümüz çox mehriban, dostluq xarakterli bir görüş idi. Orada tələbələr, müəllimlər, professorlar mənimlə görüşə çox böyük əhval-ruhiyyə ilə gəlmişdilər. Mən bu görüşü heç vaxt unutmuram.

Bizim xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri vardır. Sizin də buraya gəlməyiniz, məni təbrik etməyiniz, bu hədiyyələri verməyiniz, aramızdakı dostluq, qardaşlıq əlaqələrinin yaxşı nümunəsidir. Mən Sizə təşəkkür edirəm, çox sağ olun.

Bizim dostluğumuz daim davam edəcəkdir. Mənim dostum Xoca Fətulla cənablarına salamımı, hörmət və ehtiramımı, ən xoş arzularımı çatdırmağı sizdən xahiş edirəm.

Səmimi sözlərə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Əli Bayram "Fatih" Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və tələbələrinin təbrikini Prezident Heydər Əliyevə çatdırdı. O dedi: Cənab Prezident, Türk xalqı Sizi ürəkdən sevir və dəstəkləyir. Allah Sizi başımızın üstündən əskik etməsin.

"Çağ öyrətim" işlətmələri anonim şirkətinin Azərbaycan üzrə təmsilçisi Adəm Öcal da dövlətimizin başçısını səmimi qəlbdən təbrik edərək dedi: Cənab Prezident, Siz vaxtilə söyləmişdiniz ki, "ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm". Biz Sizin bu müdipk fikirlərinizi öz tələbələrimizə dönə-dönə çatdırırıq. Onlar hamısı Sizi qəlbən sevir və söylədiyiniz həmin fikrin bu gün reallıq olmasından ftixar hissi duyurlar.

Möhtərəm Prezident, biz o günlərdə daha bir ürəkaçan hadisənin şahidi olduq. Bir çox xarici ölkələrin nümayəndə heyətləri Azərbaycana gələrək Sizi 75 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik etdilər. Bu isə müstəqil Azərbaycan Respublikasının, onun müdrik rəhbəri Heydər Əliyevin bütün dünyada böyük nüfuza və hörmətə malik olduğunu bir daha sübut edir. Biz 5-6 il bundan əvvəlkindən fərqli olaraq indi Azərbaycanın dünya birliyində layiqli yer tutduğunun şahidi olu-

ruq. Hər kəs aydın başa düşür ki, bu gün Azərbaycanı Sizsiz, Sizi Azərbaycansız təsəvvür etmək mümkün deyildir. Biz bununla fəxr edirik və Sizə cansağlığı arzulayırıq.

Sonra o, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin ali məktəb tələbələrinin bu yaxınlrada Qırğızıstanda keçirilmiş kimya olimpiadasının uğurlu nəticələri barədə dövlətimizin başçısına məlumat verərək dedi: Cənab Prezident, həmin olimpiadada azəraycanlı iki tələbə medallar aldı və Lomonosov adına Moskva Dövlət Universitetində pulsuz oxumaq hüququ qazandı. Bütün bunlar isə onu göstərir ki, Azərbaycan bu gün təkcə öz nefti ilə deyil, həm də bilikli gəncləri ilə dünyada tanınır.

Adəm Öcal həmin tələbələrin kimya olimpiadasının qalibi şəhadətnamələrini respublikamızın rəhbərinə təqdim etdi. O, "Çağ öyrətim işlətmələri" anonim şirkətinin bu il mayın 29-da keçirəcəyi tədbirdə Prezident Heydər Əliyevin iştiark etməsini çox arzuladıqlarını bildirdi.

Dövlətimizin başçısı Heydər Əliyev görüşün sonunda türkiyəli qonaqlara bir daha minnətdarlığını bildirdi.

"Azərbaycan" qəzeti, 14 may 1998-ci il.

Azərbaycan Respublikası Prezidenti hörmətli Heydər Əliyevə!

Ömrünüzü millətinizin istiqlalına həsr etdiyinizi, istər 1969-1980-ci illərdə Sovetlər Birliyi dövründə ölkənin rəhbərliyində apardığınız mübarizənin, istərsə də 1993-cü ildən sonra xalqınızın müstəqilliyi, rifahı və dincliyi üçün nümayiş etdirdiyiniz qeyrətin zati-alinizi Türk dünyasının sayılıb seçilən liderlərindən birinə çevirdiyini bilərək, zəngin dövləti təcrübəniz, dərin biliyiniz və inamlı mübarizəniz sayəsində Azərbaycan xalqının maddi və mənəvi yüksəlişinin, işğal altında olan Azərbaycan torpaqlarının azad edilməsinin zəfərlə başa çatacağına ürəkdən inanaraq, qəlbən bağlı olduğumuz Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq, qardaşlıq və işbirliyinin genişlənib inkişaf etməsi istiqamətində gördüyünüz işlərdən və əldə edilən nəticələrdən razı qalaraq, qardaş Azərbaycan xalqına və Zati-alinizə doğum gününüzün 75-ci ildönümü münasibətilə cansağlığı, uğurlar, səadət arzulayır və ehtiramımı bildirirəm.

Qutlu Aktaş
İstanbul
"Azərbaycan" qəzeti, 14 may 1998-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Yaltada görüşü

Azərbaycan Respublikasının Rrezidenti Heydər Əliyev iyunun 5-də Yaltada Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Türkiyə Prezidentini səmimiyyətlə salamlayan, ölkələrimizin və xalqlarımızın tarixi dostluq, qardaşlıq əlaqələrini yüksək qiymətləndirən dövəltimizin başçısı Heydər Əliyev cənab Dəmirəllə yeni görüşündən məmnun olduğunu söylədi.

Əziz dostu və qardaşı Heydər Əliyev ilə hər bir görüşünün onun üçün çox böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıran cənab Süleyman Dəmirəl müstəqil Azərbaycan Respublikası ilə əməkdaşlığın gündən-günə inkişaf etməsinə Türkiyənin böyük maraq göstərdiyini vurğuladı.

Səmimilik və mehribanlıq şəraitində keçən görüş zamanı Prezidentlər ikitərəfli münasibətlərin dərinləşdirilməsi, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələləri ətraflı müzakirə etdilər.

Görüşdə Xəzər dənizi hövzəsindəki yataqlardan neft və qaz hasilatı, enerji daşıyıcılarının nəqli marşrutu, regionda sabitliyin möhkəmləndirilməsi və bir sıra digər problemlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl Avropa Birliyinin himayəsi altında TRASEKA proqramı çərçivəsində Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə 1998-ci il sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransa hazırlıqla bağlı məsələləri də müzakirə etdilər.

"Azərbaycan" qəzeti, 7 iyun 1998-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Astanada görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 9-da Qazaxıstanın paytaxtı Astana şəhərində Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimizin və xalqlarımızın tarixi dostluq, qardaşlıq əlaqələrinin gündən-günə inkişaf etməsindən məmnun qaldıqlarını bildirdilər.

Türkdilli dövlətlərin başçılarınnı Astana zirvə görüşünün və orada qəbul olunmuş sənədlərin dövlətlərimiz arasındakı əməkdaşlığın dərinləşdirilməsində mühüm rol oynayacağına əmin olduqlarını bildirən Prezidentlər bütün türkdilli ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da genişləndirilməsinin

böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdılar.

Qardaş, dost ölkənin Prezidenti Heydər Əliyev ilə yeni görüşdən çox məmnun qaldığını bildirən cənab Süleyman Dəmirəl demokratik inkişaf və bazar münasibətləri yolunu seçmiş müstəqil Azərbaycan Respublikasında son illər əldə edilmiş uğurlardan böyük iftixar hissi duyduğunu vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın ardıcıl surətdə inkişaf etməsindən razı qaldığını söyləyən cənab Dəmirəl ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi üçün bütün imkanlardan səmərəli istifadə edilməsinin vacib olduğunu bildirdi.

Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişindən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev dedi ki, biz bu münaqişənin ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər və həmsədrlərin irəli sürdükləri təkliflər əsasında tezliklə aradan qaldırılmasına çalışırıq.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupu çərçivəçində aparılan danışıqların Türkiyədə diqqətlə izlənildiyini söyləyən Prezident Süleyman Dəmirəl bildirdi ki, Türkiyə qardaş Azərbaycanın ədalətli işini həmişə müdafiə etmiş və bu problemin Lissabon zirvə görüşündə müəyyənləşdirilmiş prinsiplər əsasında həll olunması sahəsində öz səylərini bundan sonra da davam etdirəcəkdir.

Görüş zamanı Xəzər dənizi hövzəsindən neft və qaz hasilatı, enerji daşıyıcılarının nəqlinin marşrutları, regionda sabitliyin möhkəmləndirilməsi və bir sıra digər problemlər müzakirə olundu, enerji ehtiyatlarının Bakı - Ceyhan marşrutu üzrə dünya bazarına çıxarılması ilə əlaqədar məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl Avropa Birliyinin himayəsi altında TRASEKA proqramı çərçivəsində Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə 1998-ci il sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransa hazırlıqla bağlı məsələləri də müzakirə etdilər.

"Azərbaycan" qəzeti, 12 iyun 1998-ci il.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il iyunun 9-da Qazaxıstanın Paytaxtı Astana şəhərində Türkdilli dövlətlərin başçılarının Zirvə görüşündəki birgə mətbuat konfransında verilən suallara cavabından:

...Sual: Sual Prezident Heydər Əliyevədir. Cənab Prezident, Siz belə bir iddianı şər edə bilərsinizmi

ki, Bakı Ceyhan layihəsinin həyata keçirilməsinə mane olmaq məqsədilə Rusiya ederasiyası sizə təsir göstərir? Daha bir sual. İmzalanması sentyabr ayı üçün nəzərdə tutulan əsas boru kəmərinə dair sənəd nə dərəcədə hazırdır?

Cavab: Bilmirəm hansı dildə cavab verim. Rus dilində cavab verəc-əyəm ki, hamıya aydın olsun. Bakı Ceyhan neft kəməri Xəzər dənizinin Azərbaycan sektorundan neftin ixracı üzrə boru kəmərinin marşrutlarından biridir. 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı üç neft yatağının işlənməsi haqqında 11 dünya neft şirkətindən ibarət konsorsiumla iri bir müqavilə imzaladı. Bu müqavilədə neftin ixracı üçün əsas neft kəməri çəkilməsi nəzərdə tutular. Neftin Xəzər hövzəsindən dünya bazarlarına ixracı marşrutlarının bu müddətdə çox variantları tədqiq edilmişdir. Bilirsiniz ki, artıq bir neft kəməri Bakı Novorossiysk kəməri mövcuddur və 1994-cü ilin sentyabrında imzalanmış müqaviləyə uyğun olaraq konsorsium tərəfindən çıxarılan neft bu boru kəməri ilə ixrac edilir. Bakı supsa marşrutu ilə ikinci neft kəməri çəkilir. Supsa Gürcüstanda Qara dəniz limanıdır. Bu iki boru kəməri ilkin neftin ixracı üçün nəzərdə tutulmuşdur. Lakin böyük neft üçün təkrar edirəm, 1994-cü ilin layihəsində əsas neft kəməri çəkilməsi nəzərdə tutulmuşdur. Bütün bu vaxt ərzində axtarışlar aparılmış, əsas neft kəmərinin müxtəlif marşrutları öyrənilmişdir.

Həqiqətən çox marşrutlar var. Müxtəlif ölkələr gah bir, gah da digər marşruta üstünlük verirlər. Lakin Azərbaycan bəyan etmişdir və bu gün mən bir daha bəyan edirəm ki, biz Bakı Ceyhan xəttini neft borusu üçün əsas məqbul marşrut sayırıq. İndi çox böyük hazırlıq işləri aparılır. Zənnimcə, sentyabrda konsorsium qəti qərar qəbul edəcəkdir və biz bu neft kəmərinin inşasına başlamalıyıq. Lakin məsələ bundadır ki, son illərin iş təcrübəsinin göstərdiyi kimi, Xəzər hövzəsi neft və qaz ehtiyatları ilə çox zəngindir. 1994-cü ildə imzalanmış birinci müqavilədən başqa Xəzərin Azərbaycan sektorundakı yataqlara dair daha on müqavilə imzalamışıq. Bilirsiniz ki, Xəzər dənizində hər bir xəzəryanı dövlətin öz sektoru var. Xəzər dənizinin başqa sektorlarında da çox zəngin yataqlar var. Buna görə də söhbət nəinki Azərbaycan sektorunda, həm də digər sektorlarda artıq çıxarılmaqda olan və çıxarılacaq neftin ixracından gedir. Buna görə də indi söhbətlər gedir və bu gün mən öz çıxışımda da dedim ki, görünür Xəzəraşırı neft və qaz magistrallarının inşası ilə ciddi məşğul olmaq lazımdır. Bu magistrallar da Qafqazla Türkiyə, Qara dəniz vasitəsilə Avropa ölkələrinə gedə bilər.

Biz Bakı Ceyhan boru kəməri haqqında qəti fikirdəyik və onu həyata keçirəcəyik.

PREZİDENT HEYDƏR ƏLİYEVİN YENİDƏN PREZİDENT SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ SƏMİMİ TƏBRİKLƏR

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezident,

Əziz qardaşım, 1998-ci ildə oktyabrın 11-də Azərbaycanda keçirilmiş seçkilərdə ikinci dəfə Prezident vəzifəsinə seçildiyinizi öyrənib çox məmnun oldum. Şəxsən öz adımdan və Türk milləti adından zati-alinizə ən dərin səmimiyyətlə müvəffəqiyyətlər dilədiyimi bildirirəm. Ölkənizi demokratiya və sərbəst bazar iqtisadiyyatı zəminində müasir dünyaya qovuşdurmaq məqsədi ilə indiyə qədər göstərdiyiniz böyük səylərin bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə tam inanıram.

Bu yeni mərhələdə qardaş Azərbaycanın demokratikləşmə və sərbəst bazar iqtisadiyyatının müasir qurumlarını və qaydalarını bərqərar etmək səylərinin zati-alinizin səriştəli başçılığı ilə daha da güclənəcəyinə inanıram. Türkiyə əbədi dostluq və qardaşlıq telləri ilə bağlı olduğu qardaş Azərbaycanla əlaqələrini müştərək tale anlayışı ilə daha da genişləndirmək, onun iqtisadi yüksəliş və demokratikləşmə səylərinə hər cür dəstək vermək əzmindədir.

Fürsətdən istifadə edib, zati-aliləri, əziz qardaşımı öz adımdan və Türk milləti adından ən səmimi duyğularla təbrik edir, Sizə cansağlığı və uğurlar diləyir, Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına əbədi sülh, rifah və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

Süleyman Dəmirəl
Türkiyə Cümhuriyyəti
Prezidenti

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Əziz Prezident!

1998-ci il oktyabrın 11-də keçirilən Prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyətinin səsi ilə qalib gəldiyinizi eşidib məmnun oldum.

Azərbaycan xalqının zati-alinizə böyük dəstək verməsi Sizin səriştəli başçılığınızla ölkənizdə sərbəst bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün aparılan islahatlara inamın bir göstəricisidir.

Əminəm ki, Türk və Azərbaycan xalqları arasında mövcud olan qardaşlıq, ölkələrimizin sıx əməkdaşlığı və dostluğu qarşıdakı dövrdə də genişlənib davam edəcəkdir.

Fürsətdən istifadə edib Sizi və qardaş Azərbaycan xalqını təbrik edir, ehtiramımı bildirirəm.

Hörmətlə,

İsmət Sezgin,
Türkiyə Cümhuriyyətinin
Baş nazirinin müavini və Milli
Müdafiə naziri

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə!

Zati-aliləri,

Keçirilən seçkilər nəticəsində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmənizlə əlaqədar olaraq Sizi təbrik edirəm.

Türkiyə ilə qardaş Azərbaycanın dostluğunun və təşəkkül tapmış iqtisadi əlaqələrinin bu yeni mərhələdə də Sizin dövlət başçılığınızla inkişaf edəcəyinə inanır, Sizə uğurlar və cansağlığı diləyirəm.

Hörmətlə,

Hüsaməddin Cindoruq
Demokratik Türkiyə
Partiyasının Baş katibi

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezident!

1998-ci il oktyabrın 11-də keçirilən Prezident seçkilərində qardaş Azərbaycan xalqının böyük dəstəyi ilə qələbə çalmağınızın hökumətimiz üçün və şəxsən mənim üçün xüsusi bir əhəmiyyəti və dəyəri olduğunu bildirərək, Sizə ən səmimi təbriklərimi yetirirəm.

Qardaş Azərbaycan xalqının Zati-alinizi bu cür dəstəkləməsi Sizin liderliyinizə və səriştəli idarəçilik bacarığınıza Azərbaycan xalqının bəslədiyi etimad və inamın sevindirici bir əlamətidir. Bu seçkilər Azərbaycan demokratiyası baxımından yeni bir dövr təşkil etmişdir. Azərbaycanın demokratiyaya və hüququn aliliyinə əsaslanan bir dövlət qurmaq yönündəki səylərini böyük təqdirlə izləyir və dəstəkləyirik.

Ölkələrimiz arasındakı mükəmməl əlaqələrin ən yüksək səviyyədə davam etməsi xalqlarımız arasında mövcud olan qırılmaz tellərlə yanaşı, həm də zati-alinizin bu sahədə göstərdiyi qiymətli səylərin nəticəsidir. Əminəm ki, mükəmməl nizama düşmüş olan qarşılıqlı əlaqələrimiz hakimiyyətinizin yeni dövründə də hər vasitə ilə inkişaf etdiriləcəkdir.

Fürsətdən istifadə edib zati-alinizə ehtiramımı bildirir, Sizə öz adımdan və Türk milləti adından cansağlığı və səadət diləyirəm.

Hörmətlə,

Məsud Yılmaz
Türkiyə Cümhuriyyətinin
Baş naziri

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezident!

Əziz qardaşım.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə öz adımdan və Türkiyə Böyük Millət Məclisi adından ən səmimi təbriklərimi yetirirəm.

Seçkilərin yekunları səriştəli liderliyinizin qardaş Azərbaycan xalqı tərəfindən təqdir edildiyinə və dəstəkləndiyinə sübutdur. Vəzifədə olacağınız yeni müddətdə Azərbaycanın beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi çox qısa zaman içərisində qazanmış olduğu mövqeyin daha da güclənəcəyinə tamamilə inanırıq. Fürsətlən istifadə edərək onu da bildirmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdiriləcəyinə əminəm.

Bir daha Sizə təbriklərimi yetirir və ehtiramımı bildirir, Sizin şəxsinizdə azərbaycanlı qardaşlarıma səmimiyyətlə uğurlar və səadət diləyirəm.

Ən dərin sevgi ilə.

Hörmətlə,

Hikmət Çətin
Türkiyə Böyük Millət Məclisinin sədri

"Azərbaycan" qəzeti, 18 oktyabr 1998-ci il.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezident!

1998-ci il oktyabrın 11-də keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən Prezident seçildiyinizə görə Sizi ürəkdən təbrik edirəm.

Ölkənizdə üçüncü dəfə azad və demokratik şəraitdə keçirilən Prezident seçkiləri bölgədə və dünya miqyasında etibarını və nüfuzunu gündən-günə artıran Azərbaycanın demokratiya yolunda qət etdiyi önəmli bir mərhələdir.

İnanıram ki, qardaş ölkələr Azərbaycan ilə Türkiyə Cümhuriyyətləri arasında mövcud olan dostluq əlaqələri və sıx əməkdaşlıq sizin Prezidentliyinizin yeni müddətində də genişlənib güclənəcəkdir.

Fürsətdən istifadə edib, Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına cansağlığı və rifah diləyir, ehtiramımı ifadə edirəm.

Hörmətlə,

İsmayıl Cem
Türkiyə Cümhuriyyətnin Xarici İşlər naziri
"Azərbaycan" qəzeti, 19 oktyabr 1998-ci il.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezident!

Prezident seçkilərində qardaş Azərbaycan xalqının böyük dəstəyi ilə yenidən seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Seçkilərin nəticəsi Azərbaycanda Sizin səriştəli liderliyinizlə görülən işlərin qardaş Azərbaycan xalqı tərəfindən də təqdir edildiyini və ürəkdən bəyənildiyini göstərir.

Qardaş Azərbaycan xalqının qarşıdakı dövrdə də demokratikləşmə və dirçəliş yolunda əzmlə irəliləməsini, ölkələrimiz arasında mövcud sıx dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin hər vasitə ilə inkişaf etdirilməsini ürəkdən istəyirəm.

Fürsətdən istifadə edib, Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını təbrik edir, səmimi ehtiramımı bildirirəm.

Hörmətlə,

Büləпd Ecevit
Türkiyə Cümhuriyyətinin Baş nazirinin müavini
"Azərbaycan" qəzeti, 20 oktyabr 1998-ci il.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Azərbaycan xalqının demokratik bir şəraitdə keçirmiş olduğu seçkilər nəticəsində zati-alinizin yenidən Prezident seçilməsi məni çox sevindirdi.

Tarix və mədəniyyət dəyərləri ilə bizə hər zaman yaxın olmuş Azərbaycanla diplomatik əlaqələrimizin qurulduğu gündən arası kəsilməyən faydalı təmaslarımızın bundan sonra da davam etməsini arzulayıram.

Demokratiya, insan hüquqları və sülh uğrunda apardığınız mübarizədə Türkiyənin həmişə Sizinlə olduğunu bilməyinizi istəyir, hörmətimi ifadə edirəm.

Hörmətlə,

M. İstemihan Talay
Türkiyə Cümhuriyyətinin Mədəniyyət naziri
"Azərbaycan" qəzeti, 21 oktyabr 1998-ci il.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Zati-aliləri,

Keçirilmiş seçkilər nəticəsində böyük səs çoxluğu ilə yenidən Prezident seçilməyinizdən məmnun olduğumu bildirir, təbriklərimi yetirir və işinizdə uğurlar arzulayıram.

Hörmətlə,

M.Cümhur Ərsümər
Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli Prezidentim!

Yenidən seçilməyinizi eşidib çox sevindim. Sizi təbrik edir, Sizə cansağlığı və iş başında uzun ömür arzulayıram.

Hörmətlə,

Namiq Kamal Zeybek
Türkiyə Böyük Millət
Məclisinin İstanbul millət vəkili

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Sevimli böyüyümüz!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edir, Azərbaycan xalqının bu seçiminin Azərbaycan - Türkiyə qardaşlığına xeyirli olmasını arzulayıram.

Hörmətlə,

Cavid Çağlar
Türkiyə Böyük Millət
Məclisinin Bursa millət vəkili

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Möhtərəm Heydər Əliyev!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçildiyinizi eşidib çox məmnun olduq.

Xoş bir təsadüf kimi Sizinlə yaşıd olan Türkiyə Respublikasının 75-ci ildönümündə Azərbaycan dövlətinin başçısı seçilməyinizin həm Azərbaycan üçün, həm də bölgəmizin bütün ölkələri üçün qazanc olduğuna inanırıq.

Möhtərəm Prezident!

Türk milləti Sizi sevir və zati-alinizlə hörmətlə Süleyman Dəmirəlin əldə möhkəm saxladıqları Azərbaycan - Türkiyə qardaşlığının növbəti əsrdə ibrətamiz nümunələr göstərəcəyinə inanır.

Sizi həm Azərbaycanın milli bayramı münasibətilə, həm də dövlət başçısı seçildiyiniz münasibətilə təbrik edir, Türk dünyasına hələ uzun illər xidmətlər göstərməyinizi arzulayırıq.

Hörmətlə,

Ağgan Suvar
Türkiyə Sosial və Strateji
Araşdırmalar vəqfi Mərmərə
qrupunun Baş katibi

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Hörmətli Prezident!

Dost və qardaş ölkə olan Azərbaycan xalqının Sizin kimi böyük bir dövlət adamını ikinci dəfə Prezident seçməsindən məmnun qaldığımızı bildirir, azərbaycanlı qardaşlarımıza həmişə arxa duracağımızı Sizin simanızda onlara bir daha çatdırmağı özümüzə borc sayır, ən dərin sevgi və sayğılarımızı izhar edirik.

Dərin hörmətlə,

Vəli Sarıtorpaq
Türk Sənayeçi və İş
Adamları vəqfi İdarə heyətinin
sədri
M.Rəhmi Akyüz
İdarə heyəti sədrinin müavini.

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Keçirilən son seçkilərdə respublikanın Prezidenti vəzifəsinə təkrar seçilməyiniz münasibətilə Sizi təbrik edir, Sizə işlərinizdə uğurlar diləyir, ən dərin ehtiramımı bildirirəm.

Hörmətlə,

Q.Gül Qılıncaslan,
Türkiyədə çıxan "Siyasət"
jurnalının idarə heyətinin Başçısı

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Qardaş Azərbaycan xalqının müstəqilliyini, suverenliyini və demokratiyaya qovuşmasını həyatı bahasına fədakarlıqla gerçəkləşdirən böyük lider, əziz böyüyüm, möhtərəm Prezident Heydər Əliyevi seçkidə qalib gəlməsi münasibətilə ürəkdən təbrik edir, Azərbaycana hələ uzun müddət xidmətlər göstərməsi üçün ona cansağlığı və səadət diləyir, hörmətimi bildirirəm.

Hörmətlə,

Sıtqı Aslan
Türkiyə Dövlət Şurasının üzvü.
"Azərbaycan" qəzeti. 3
noyabr, 1998-ci il.

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Hörmətli Prezident!

1998-ci il oktyabrın 11-də ölkənizdə keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyətinin səsi ilə qalib gəlməyinizi eşidib məmnun oldum.

Seçkilərin belə nəticələnməsi zati-alinizin Azərbaycanda həyata keçirdiyi böük islahatlara qardaş Azərbaycan xalqının bəslədiyi inamın bir göstəricisidir.

Ölkələrimiz arasında sıx əməkdaşlığın və dostluğun, Türkiyə xalqı ilə Azərbaycan xalqı aralarında mövcud qardaşlığın qarşıdakı dövrdə daha da güclənəcəyinə əminəm.

Fürsətdən istifadə edib, Sizi və Sizin şəxsinizdə qardaş Azərbacyan xalqını təbrik edir, ehtiramımı bildirirəm.

Hörmətlə,

Kutlu Aktaş
Türkiyə Cümhuriyyətinin
Daxili İşlər naziri

Azərbaycan Respublikasının
Prezidenti Zati-aliləri cənab
Heydər Əliyevə!

Hörmətli Prezident!

Azərbaycanda keçirilən seçkilər nəticəsində xalqımızın çox böyük bir hissəsinin dəstəyi ilə yenidən Prezident seçilməyiniz münasibətilə

Sizi ürəkdən təbrik edir, hakimiyyətinizin yeni müddətinin Zati-aliniz və Azərbaycan xalqı üçün xeyirli olmasını arzulayıram.

Hörmətlə,

Prof. D-r. Süleyman Sağlam,
Türkiyənin Höcəttəpə Universitetinin rektoru

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevə!

Zati-aliləri, hörmətli Prezident!

Yenidən Prezident seçilməyinizlə əlaqədar olaraq Zati-alinizi ən səmimi duyğularla təbrik edirəm.

Fürsətdən istifadə edib bildirmək istəyirəm ki, bu günə qədər olduğu kimi, bundan sonra da bizim iki qardaş ölkə arasında hərtərəfli münasibətlərin davam edib genişlənəcəyinə inanıram.

Yenidən seçilməyinizin qardaş Azərbaycan xalqı və bütün Türk dünyası üçün xeyirli olmasını diləyir, Sizə müvəffəqiyyətlər arzulayır, ən dərin salamlarımı və ehtiramımı bildirirəm.

Hörmətlə,

Prof. D-r Əhməd Əndican
Türkiyə Cümhuriyyətinin
Dövlət naziri və rəsmi təmsilçisi.

Azərbaycan Prezidenti Heydər Əliyev türkiyəli qonaqları qəbul etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 26-da Prezident sarayında türkiyəli qonaqları - İstambuldakı "Fatih" Universiteti Rəyasət heyətinin üzvləri Əli Bayram və Ömər Bağcını, Azərbaycan - Türk Litseyləri Baş İdarəsinin rəisi Mehmed Məsud Atanı, habelə Bakıdakı "Qafqaz" Universitetinin rektoru Əhməd Çətincanı və "Çağ öyrətim işlətmələri" anonim şirkətinin Azərbaycandakı nümuyəndəliyinin rəhbəri Adəm Öcalı qəbul etmişdir.

Cənab Əli Bayram bu görüş üçün dövlətimizin laşçısına minnətdarlığını bildirərək dedi ki, Zati-alinizin Azərbaycan xalqının iradəsi ilə yenidən Prezident vəzifəsinə seçilməyiniz Türk xalqını və onun ziyalılarını son dərəcə sevindirmişdir. Türkiyənin və Türk dünyasının böyük alimi, insanlığın dostu, seçki kampaniyasının başlandığı vaxtdan Sizə duaları dilindən əskik omayan Xoca Fətullah Gülənin Zati-alinizə məktubunu və arzularını çatdırmağı özümüzə böyük şərəf sayırıq.

Sonra o, **Fətullah Gülənin "Qardaş Azərbaycanın çox dəyərli Cümhurbaşqanı, müqtədir və təcrübəli dövlət adamı cənab Heydər Əliyevə"** sözləri ilə başlayan məktubunu oxudu. Məktubun müəllifi, Heydər Əliyevin ikinci müddətdə Azərbaycanın prezidenti seçilməsi xəbərini şadlıqla qarşıladığını bildirərək

vurğulayır ki, bu, Türkiyə və digər qardaş ölkələr üçün də sevindirici bir hadisədir.

Prezident Heydər Əliyev qonaqların Bakıya gələrək onu yenidən Azərbaycan dövlətinin başçısı seçilməsi münasibətilə təbrik etdiklərinə görə təşəkkürünü bildirərək dedi ki, Xoca Fətullah Gülənin təbriki mənim üçün həddən ziyadə əzizdir. O şəxs öz gözəl işləri, xoş əməlləri, insanpərvərliyi, insanar arasında sülh, əmin-amanlıq yaratmaq, insanları təhsilə, inkişafa çağırmaq səyləri ilə təkcə Türkiyədə deyil, bütün Türk dünyasınlda məşhurdur və böyük hörmət qazanmışdır. Cənab Xoca Fətullah Gülənə mənim çox böyük hörmət və ehtiramım var. Onun təbrik məktubu eyni zamanda Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin rəmzidir.

Dövlətimizin başçısı vurğuladı ki, ötən beş ildə Azərbaycanın Prezidenti vəzifəsini həyata keçirdiyim zaman gördüyü işlər içərisində ən önəmlilərindən biri də Türkiyə - Azərbaycan dostluq və qardaşlıq əlaqələrini güclənirmək, mökəmləndirmək, inkişaf etdirmək olubdur. Ancaq bu, birtərəfli iş deyil, buna nail olmaq üçün hər iki tərəf eyni istiqamətdə çalışmalıdır. Bizim xoşbəxtliyimiz ondadır ki, Türkiyədə də, Azərbaycanda da həm insanlar, həm də hökumətlər bu dostluğun daha da güclü, möhkəm olmasını istəyirlər.

Cənab Əhməd Çətincan seçkilərdə qələbəsi münasibətilə Prezident Heydər Əliyevi Qafqaz Universitetinin müəllim və tələbələri adından təbrik etdi, onun qayğısı sayəsində universitetdə işlərin qaydasında olduğunu söyləyərək dedi ki, Sizin göstərişinizlə ayrılmış sahədə bina tikmək üçün hazırlıq işləri gedir.

Prezident Heydər Əliyev dedi ki, tikinti başlanmazdan əvvəl xəbər verin, onun təməl daşını birgə qoyaq.

Sonra cənab Adəm Öcal təmsil etdiyi şirkət adından dövlətimizin başçısına təbrik məktubu oxudu.

Görüşün sonunda Əli Bayram Prezident Heydər Əliyevə Xoca Fətullah Gülənin adından hədiyyə - metaldan hazırlanmış incə naxışlı şərbət dəsti, Adəm Öcal isə rəsm əsəri təqdim etdilər. Prezident Heydər Əliyevin və məktəb şagirdlərinin təsvir olunduqları tablonun yuxarı hissəsində ölkəmizin rəhbərinin bu müdrik sözləri yazılmışdır: "Müstəqilliyimiz əbədidir!". Adəm Öcal dövlətimizin başçısına müraciətlə dedi ki, Siz bizim, Azərbaycanın Baş müəllimisiniz.

Prezident Heydər Əliyev hədiyyələr üçün təşəkkür edərək xüsusi vurğuladı ki, tablo çox gözəldir. Mənə indiyə qədər çox rəsmlər veriblər, ancaq bu məzmunda olanı birinci dəfədir.

Dövlətimizin başçısı qonaqların xahişi ilə özünün "Müstəqilliyimiz əbədidir!" çoxcildliyinə Xoca Fətullah Gülən üçün xatirə sözləri yazdı.

"Azərbaycan" qəzeti, 27 oktyabr 1998-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ VII İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşü

Oktyabrın 28-də Çankaya köşkündə Türkiyə Cümhuriyyətinin yubileyinə xarici ölkələrdən gəlmiş qonaqların - dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşü oldu.

Onun dəvətini qəbul edib, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünə həsr olunan şənliklərdə iştirak etdiyinə görə dövlətimizin başçısı Heydər Əliyevə təşəkkürünü və minnətdarlığını bildirən Prezident Süleyman Dəmirəl dedi:

Sayın Heydər Əliyev, Sizi xalqın iradəsi ilə yenidən Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə təkrar-təkrar təbrik edirəm. Sizə uğurlar diləyirəm. Mən Azərbaycan Cümhuriyyətinin də 75-ci ildönümünü qeyd olunmasını arzulayıram.

Türkiyə Cümhuriyyətinin yubileyi münasibətilə dost və qardaş ölkənin rəhbəri Süleyman Dəmirəli təbrik edən Prezident Heydər Əliyev dedi:

- Əziz dostum, qardaşım Süleyman Dəmirəl, mən buraya sizin dəvətinizlə gəlmişəm. Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramına, onu təbrik etmək üçün gəlmişəm. Mən bütün Azərbaycan xalqının qəlbində olan ən gözəl, yaxşı duyğuları, ən səmimi hissiyatları Türkiyə xalqına çatdırmaq üçün gəlmişəm və bunu da sizin vasitənizlə, Azərbaycan xalqının böyük dostu, qardaşı, mənim şəxsi dostum, qardaşım, cümhur başqanı, Türkiyənin Prezidenti əziz Süleyman Dəmirəlin vasitəsilə bütün Türkiyə xalqına çatdırıram. Bizim təbriklərimizi qəbul edin.

Azərbaycanın rəhbəri Heydər Əliyev təbrik məktubunu və Mustafa Kamal Atatürkün muncuqdan düzəldilmiş portretini Türkiyə Prezidenti Süleyman Dəmirələ təqdim etdi və dedi:

- Mən ürək sözlərimi, xoş arzularımı, təbriklərimi bu namədə yazmışam. Bütün sözlər bunun içərisindədir. Bu, Azərbaycan xalqının qəlbindən gələn sözlərdir. Bunları mən sizə təqdim edirəm. Bu isə Azərbaycan xalqının hədiyyəsidir. Bu, böyük öndər Mustafa Kamal Atatürkün Azərbaycan rəssamının muncuqlardan toxuduğu, yaratdığı bir portretidir, əl işidir. Arxasında hamısı yazılıbdır. Bunun pasportu da vardır. Bu, çox nadir bir sənət əsəridir. Pasporta bunun bütün təfsilatı yazılıbdır.

Böyük öndər Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətini qurub-yaradıb və 75 ildir ki, bu cümhuriyyət yaşayır. Bu cümhuriyyəti Atatürkdən sonra yaşadan insanlar onun silahdaşları, onun işinin davamçılarıdır. Onlardan da ən birincisi, ən yüksəyi mənim dostum, qardaşım Süleyman Dəmirəldir. Ona görə də rica edirəm ki, bu hədiyyəni qəbul edəsiniz. Bu, bütün Azərbaycan xalqının hədiyyəsidir, müstəqil Azərbaycan Cümhuriyyətinin hədiyyəsidir.

Respublikamızın rəhbərinə təşəkkür edən Prezident Süleyman Dəmirəl dedi:

- Sayın Cümhurbaşqanı, çox sağ olun. Bu, çox gözəl bir hədiyyədir. Üzərində Atatürkün portreti olan belə bir dəyərli sənət əsərini çox qiymətli hədiyyə kimi qəbul edirəm. Biz bundan çox böyük şərəf duyduq. Siz bununla azərbaycanlı qardaşlarımızın hissiyatını bizə göstərdiniz. Bu, bizi çox məmnun və şərəfli etdi. Ötən illərdə əldə etdiyiniz nailiyyətlər kimi, Sizə yeni Prezidentlik dövrünüzdə də uğurlar arzulayıram. "Azərbaycanın sevinci bizim sevincimizdir, dərdi bizim dərdimizdir" demişik. Türk millətinin, türk qardaşlarımızın hissiyatı bundan daha gözəl ifadə edilə bilməz.

Böyük Atatürkün qurduğu Türkiyə Cümhuriyyətinin əbədi olaraq yaşayacağını nəzərə çarpdıran Prezident Süleyman Dəmirəl Cümhuriyyətin 75 illik yubileyi münasibətilə Prezident Heydər Əliyevə xatirə medalı təqdim etdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, Xəzər neftinin dünya bazarına ixrac olunması, Bakı-Ceyhan marşrutunun həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidentinin xüsusi nümayəndəsi səfir Riçard Morninqstarı qəbul etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 28-də Ankarada öz iqamətgahında ABŞ Prezidenti Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstarı qəbul etmişdir.

Prezident Heydər Əliyevi səmi-

miyyətlə salamlayan və onunla görüşməyindən şərəf duyduğunu bildirən cənab Riçard Morninqstar Türkiyəyə səfəri zamanı bu ölkənin yüksək vəzifəli şəxsləri - Prezident Süleyman Dəmirəl, Xarici İşlər naziri və digər nazirlərlə keçirdiyi çox mənalı və dolğun görüşlər barədə məlumat verdi və dedi:

- Cənab Prezident, biz Bakı-Ceyhan layihəsinin, Bakı-Ceyhan boru xəttinin arxasında çox möhkəm dayanmışıq. Mən Prezident Bill Klintonun və vitse-prezident Albert Qorun ən səmimi salamlarını Sizə yetirmək istəyirəm, onlardan Sizə salamlar gətirmişəm. İstəyirəm ki, onların Sizə olan rəğbətini bildirim. Siz bu layihəni dəstəklədiyinizə görə onlar Sizə böyük rəğbət və hörmət bəsləyirlər.

Bakı-Ceyhan boru xəttinin çəkilməsi ilə bağlı layihənin həyata keçirilməsi, bu işin irəliyə aparılması barədə ABŞ-ın göstərdiyi cəhdlər və səylər haqqında ölkəmizin başçısına məlumat verən cənab Riçard Morninqstar dedi:

- Biz Ağ evdə bir neçə Amerika şirkətlərinin rəhbərləri - prezidentləri və aparıcı mütəxəssisləri ilə görüşmüşük. Şirkətlərin rəhbərlərinə izah etmişik ki, Bakı-Ceyhan layihəsi region üçün siyasi cəhətdən çox vacibdir. Onlara demişik ki, Türkiyə Bakı-Ceyhan xəttindən əl çəkməyəcəkdir. Cənab Prezident, Sizin özünüz də Bakı-Ceyhan xəttini çox möhkəm dəstəkləyərsiniz.

Biz onları həvəsləndirmişik ki, bu mövqelərində çox dəqiq olsunlar və adı səkilən neft boru xəttinin arxasında dayansınlar. Biz anlayırıq ki, burada kommersiya məsələləri ön plana çəkilir. Eyni zamanda başa düşürük ki, Türkiyə hökuməti bu məsələ haqqında dərindən düşünərək şirkətlərlə bunu həll edə bilər.

Bir neçə həftə ərzində danışıqlar vasitəsilə bu məsələnin həlli yolunun tapılmasının mümkün olduğunu vurğulayan ABŞ Prezidentinin nümayəndəsi onu da əlavə etdi ki, Türkiyənin Xarici İşlər naziri ilə keçirilən görüşdə cənab nazir İsmayıl Cem öz ölkəsinin Bakı-Ceyhan xəttinə münasibətinin dəyişməzliyi barədə bəyanat vermişdir. Türkiyə tam anlayır ki, bu məsələnin həllində aparıcı rol oynayan Azərbaycandır. Cənab Prezident, məhz Sizin sözünüz vajib olacaqdır. Sizin rolunuz həm bu layihənin tamamlanması, başa çatması üçün, həm də bu layihənin regional əməkdaşlığı təmin etməsi üçün çox vacibdir.

ABŞ Prezidenti cənab Bill Klintondan və vitse-prezident cənab Albert Qordan ona çatdırdığı salamlara, xoş arzularla görə cənab Morninqstara təşəkkürünü bildirən dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Rica edirəm ki, mənim salamlarımı, hörmət və ehtiramımı Prezident cənab Bill Klintona və vitse-prezident cənab Albert Qora çatdırın. Əsas məsələ haqqında onu deyə bilərəm ki, Azərbaycanın əvvəldən

Bakı-Ceyhan əarşrutunu dəstəklədiyini Siz bilirsiniz və mən bu barədə dəfələrlə bəyanat vermişəm. Bu yaxın zamanlarda cənab Yan Kalitski mənə vitse-prezident cənab Albert Qorun məktubunu gətirdi və mən o məktubla da tanış olmuşam. Ona görə də burada Azərbaycanın mövqeyi Sizə məlumdur.

Ancaq Siz bilirsiniz ki, məsələ mürəkkəbləşibdir. Beynəlxalq əməliyyat şirkəti, konsorsium, hansı ki, bu işləri maliyələşdirir, - onlar indi Bakı-Ceyhan xəttini dəstəkləmirlər. Mən dünən, yəni oktyabrın 27-də Bakıda onlarla bir saat yarım danışıq aparmışam. Bizim Dövlət Neft Şirkətinin rəhbərləri Natiq

Əliyev, İlham Əliyev əvvəllər də onlarla bu barədə danışıqlar aparmışlar. Ancaq mən işlərimin çox olmasına baxmayaraq dünən onları qəbul etdim. Mənimlə görüşməyi onlar çoxdan xahiş etmişdilər. Biz çox ətraflı danışdıq. Onlar bir çox rəqəmlər gətirirlər və sübut edirlər ki, Bakı-Ceyhan boru xətti iqtisadi nöqteyi-nəzərdən səmərəsizdir, səmərəli deyildir. Təklif edirlər ki, əsas boru xətti Bakıdan Supsaya qədər tikilsin.

Mən Sizə deyim ki, o nümayəndə heyətinin tərkibində "Amoko"nun da nümayəndəsi var idi. Yəni mənimlə danışıq aparanlar əsas "Bi-Pi"nin nümayəndələri idilər. Ancaq "Amoko"nun da nümayəndəsi orada idi. O bildirdi ki, mən ABŞ hökumətinin mövqeyini bilirəm və onunla razıyam. Ancaq biz kommersiya prinsiplərinə daha çox üstünlük veririk.

Mən bunlarla razı olmadım və onlara öz fikrimi bildirdim.

Bizim Dövlət Neft Şirkətinin rəhbərləri Natiq Əliyevə, İlham Əliyevə göstəriş verdim ki, bir neçə gün ərzində bütün bu rəqəmləri araşdırsınlar, - yəni Bakı-Ceyhan xəttinin ümumi qiyməti nə qədərdir. Konsorsiumun nümayəndələri sübut edirlər ki, Bakı-Supsa Bakı-Ceyhandan təxminən bir milyard dollar ucuz olacaqdır. Onlar nefti Supsadan tankerlərlə Türkiyənin Bosfor boğazındakı Karıkgöl limanına çatdırmaq, oradan isə 50 kilometr uzunluğunda neft borusu vasitəsilə mərmərə dənizinə çıxarmaq istəyirlər. Mən bu təklifləri qəbul etmədim. Ancaq belə problemlər vardır. Ona görə də biz gərək bu məsələnin nə cür həll olunması barədə fikir mübadiləsi aparaq.

Prezident Heydər Əliyevin Rusiyanın "Vesti" informasiya proqramının Bakı müxbirinə müsahibəsi

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 29-da Ankarada "Rusiya" telekanalının "Vesti" informasiya proqramının Bakı müxbirinə müsahibə vermişdir. Müsahibə Türkiyə Böyük Millət Məclisinin Sədri Hikmət Çətinin adından "Assambleya-Holl"da verilmiş ziyafət zamanı olmuşdur.

Sual: Ankara bəyannaməsi qəbul edildikdən sonra növbəti addım-

lar necə olacaqdır?

Cavab: Biz bəyannaməni imzalayarkən Siz orada idiniz?

Müxbir: Əlbəttə, orada idim.

Heydər Əliyev: Bu, tarixi hadisədir. Mən artıq demişəm, - əgər Siz mənim nitqimi dinləmisinizsə, təkrar etməyəcəyəm, - biz dörd il bu işlə məşğul olmuşuq, bu bəyannaməyə doğru irəliləmişik. Bu gün isə, bir baxın, onu nə qədər dövlət imzaladı. Əvvəllər bu barədə yalnız bizimlə Türkiyə danışırdı. İndi isə Gürcüstan, Qazaxıstan, Özbəkistan da bizə qoşulmuşlar. Hesab edirəm ki, bu gün Türkmənistan da, əlbəttə, Amerika Birləşmiş Ştatları da qoşulacaqlar.

Sual: Bəs bu məsələdə Rusiya hansı siyasəti yeridir?

Cavab: Bildiyiniz kimi, biz Rusiya ilə Bakı-Novorossiysk neft kəmərinə malikik. Mən onun barəsində bu gün danışdım. Biz bu neft kəməri ilə nefti Rusiya limanına göndəririk. Odur ki, Rusiya vəziyyəti, zənnimcə, düzgün qiymətləndirir. Bizim çoxlu neftimiz var və onun hamısını Rusiya vasitəsilə buraxmaq mümkün deyildir. Bu gün dediyim kimi, bizdən başqa, Qazaxıstan da böyük imkanlara malikdir. Ona görə də bu neft kəməri zəruridir.

Sual: Cənab Prezident, konkret tikinti nə vaxt başlanacaqdır?

Cavab: Yəqin ki, tezliklə. Biz maliyyə məsələlərini həll edəcəyik. Ona görə ki, mən orada dedim, konsorsium etiraz edir, maliyyə-iqtisadi məsələləri ön sıraya çəkir. Lakin, zənnimcə, orada hesablamalarda fikir ayrılıqları var.

Müxbir: Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin "TRT-1" televiziya kanalına müsahibəsi

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün öz iqamətgahında - "Hilton" mehmanxanasında Türkiyənin "TRT-1" televiziya kanalının müxbiri Kaya Yurdaqula müsahibə verdi.

Sual: Azərbaycanın sayın Cümhurbaşqanı Heydər Əliyev Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi bayramında Türkiyə xalqına və dövlətinə nə arzu edərdiniz?

Cavab: Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi tarixi bir hadisədir və bu, Türk xalqının, Türkiyə Cümhuriyyəti vətəndaşlarının böyük bayramıdır. Eyni zamanda Azərbaycanın da bayramıdır, Azərbaycan xalqının da bayramıdır. Çünki bizim xalqlarımızın dostluğu və qardaşlığı böyük tarixə malikdir və bu dostluq və qardaşlıq daha da genişlənməli, daha da inkişaf etməlidir.

Bu bayram günündə mən arzu edirəm ki, Türkiyə, Türk xalqı daha da xoşbəxt olsun. Türkiyəyə daha da firavan gələcək arzulayıram və ən əsas da onu arzulayıram ki, indiyə qədər olduğu kimi, bundan sonra da

Türkiyə, Türk xalqı böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə getsin. Çünki 75 il öncə bu Cümhuriyyəti yaradan Mustafa Kamal Atatürk olmuşdur. Türk xalqı 75 il bu cümhuriyyətin içində böyük xoşbəxtlik əldə etmişdir, böyük nailiyyətlər əldə etmişdir.

Mən əminəm ki, Türkiyənin çox parlaq gələcəyi vardır və bu gələcək də uğurlu olmalıdır. Yəni Mustafa Kamal Atatürkün yolu ilə getməsi türk xalqını daha da yüksəklərə qaldıracaqdır.

Türkiyə Böyük Millət Məclisində Ankara bəyannaməsinin imzalanması mərasimi

Oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisinin binasında Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi oldu.

Bu mərasimdə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinə gəldi.

Dövlətimizin Başçısını Türkiyə Parlamentinin sədri Hikmət Çətin və dost ölkənin millət vəkilləri mehribanlıqla və səmimiyyətlə qarşıladılar. Onlar respublikamızın rəhbəri ilə görüşməkdən və Cümhuriyyətin 75 illik yubileyində Prezident Heydər Əliyevin iştirak etməsindən şərəf duyduqlarını bildirdilər.

Sonra mühüm tarixi sənədin imzalanma mərasimi oldu.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış Ankara bəyannaməsini Türkiyə dövləti adından Prezident Süleyman Dəmirəl və Baş nazir Məsud Yılmaz, Azərbaycan dövləti adından Prezident Heydər Əliyev, Gürcüstan dövləti adından Prezident Eduard Şevardnadze, Qazaxıstan dövləti adından Prezident Nursultan Nazarbayev, Özbəkistan dövləti adından Prezident İslam Kərimov, habelə ABŞ Dövləti adından Energetika naziri Bill Riçardson imzaladılar.

Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli cənab Süleyman Dəmirəl!

Türkiyə Böyük Millət Məclisinin Sədri hörmətli cənab Hikmət Çətin!

Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli cənab Məsud Yılmaz!

Gürcüstan Prezidenti cənab Eduard Şevardnadze!

Qazaxıstan Prezidenti cənab

Nursultan Nazarbayev!

Özbəkistan Prezidenti cənab İslam Kərimov!

Amerika Birləşmiş Ştatlarının Energetika naziri cənab Bill Riçardson!

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzaladığımız bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan Respublikası Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması üçün bir neçə il bundan əvvəl əməli işlərə başlamışdır. 1994-cü İl sentyabrın 20-də dünyanın nüfuzlu 11 neft şirkəti ilə, konsorsium yaratmış şirkətlərlə böyük bir müqavilə - Xəzər dənizindəki "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasil edilməsi haqqında müqavilə imzalanıbdır. Bu müqavilə "Əsrin müqaviləsi" adı alıbdır.

Biz keçən il noyabrın 12-də "Çıraq" neft yatağından ilkin neftin alınmasını qeyd etdik. Hazırda həmin yataqdan gündə 10 min ton neft hasil olunur və dünya bazarlarına çıxarılır. Aparılan işlər nəticəsində yaxın vaxtlarda hasilat 3 dəfə artacaqdır.

Biz 1994-cü ildə bu müqaviləni imzalayarkən Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün bir neçə boru kəməri yaradılmasını nəzərdə tutmuşduq. Onlardan birincisi Bakı-Novorossiysk marşrutu, ikincisi - ilkin neftin ixracı üçün Bakı-Supsa, Gürcüstan marşrutu və ən əsas, böyük neft kəməri isə -dörd il bundan əvvəl də fikrimiz belə idi - Bakı-Ceyhan marşrutu olmalıdır.

Xəzərin Azərbaycan sektorunda ötən dörd il müddətində bir çox yataqlar barədə 10-dan artıq beynəlxalq konsorsiumla müqavilələr imzalanmış və həmin neft, qaz yataqlarından gələcəkdə böyük neft alınması gözlənilir.

Məlumdur ki, Xəzərin digər ölkələrə - Qazaxıstana, Türkmənistana, Rusiyaya, İrana məxsus sektorlarında da neft yataqları vardır. Məmnuniyyətlə qeyd edirəm ki, bu sektorlarda da, xüsusən Qazaxıstana məxsus sektorda artıq əməli işlər aparılır.

Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin - Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır.

Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı-Ceyhan böyük, əsas neft kəmərinin çəkilməsini bu gün daha da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın

"Tengiz" yatağında zəngin neft və qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan Respublikalarının ərazilərindən, Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır.

"Tengiz"dəki zəngin neft yataqlarının gələcəkdə işlənilməsi Qazaxıstanın Aktau limanı ilə bizim Bakı limanı arasında bir neft borusu tikilməsi zərurətini də meydana çıxarmışdır. Bütün bunlar hamısı Bakı-Ceyhan əsas neft boru kəmərinin bu gün çox real olduğunu əyani surətdə sübut edir. Ona görə də bu gün burada, Türkiyədə, Ankarada hamımızın birlikdə imzaladığımız bu bəyannamə bizim dörd il müddətində apardığımız işin böyük bir nəticəsidir.

Doğrudur, Bakı-Ceyhan marşrutuna, Bakı-Tbilisi-Ceyhan marşrutuna etiraz edənlər və onun həyata keçirilməsinə mane olmaq istəyənlər də vardır. Bəzi şirkətlər kommersiya nöqteyi-nəzərindən bu marşrutun səmərəli olmadığını iddia edirlər. Şübhəsiz ki, bu şirkətlərin kommersiya maraqları da nəzərə alınmalıdır. Biz həmin şirkətlərlə bundan sonra də iş aparacağıq. Ancaq hesab edirəm ki, mərasimdə iştirak edən ölkələrin Dövlət Başçılarının bu gün ifadə etdikləri siyasi iradə bu proqramın, layihənin həyata keçirilməsinin təməlini qoyur.

Bilirsiniz ki, bu işlərin təməlini, əsasını müstəqil Azərbaycan Respublikası Xəzər dənizindəki enerji ehtiyatlarının birgə işlənilməsi barədə qəbul etdiyi qərarlarla qoymuşdur. Mən çox məmnunam ki, dörd il bundan əvvəl təməlini qoyduğumuz iş bu gün böyük vüsət almışdır və bu gün burada iştirak edən Dövlət Başçılarının hamısının birgə iradəsi ilə böyük bir bəyannamənin qəbul olunmasına gətirib çıxarmışdır.

Mən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq.

Mən bu gün bəyannamənin imzalanması münasibətilə dost ölkələrin Dövlət Başçılarını - Türkiyəni, Qazaxıstanı, Gürcüstanı, Özbəkistanı, Amerika Birləşmiş Ştatlarını və Xəzəryanı ölkələrin hamısını təbrik edirəm. Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XX1 əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun!

Ankara bəyannaməsi

Ankara 29 oktyabr 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarlarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, habelə bu məsələlər barədə təxirə salmadan qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq bu bəyannaməni imzaladılar.

1/ Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər.

Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2/ Prezidentlər karbohidrogen istehsal edən ölkələrinin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3/ Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi /Bakı-Tbilisi-Jeyhan/ boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4/ Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5/ Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəjəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6/ Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

Azərbaycan Respublikası adından **Heydər Əliyev**

Gürcüstan adından **Eduard Şevardnadze**

Qazaxıstan Respublikası adından **Nursultan Nazarbayev**

Türkiyə Cümhuriyyəti adından **Süleyman Dəmirəl, Məsud Yılmaz**

Özbəkistan Respublikası adından **İslam Kərimov**

Şahid sifətində **Bill Riçardson**, ABŞ-ın Energetika üzrə Katibi.

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın Energetika naziri ilə görüşü

Oktyabrın 29-da Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında - "Hilton" mehmanxanasında ABŞ-ın Energetika naziri Bill Riçardsonla görüşdü.

Dövlətimizin Başçısı ilə görüşündən böyük şərəf duyduğunu söyləyən cənab Bill Riçardson dedi: cənab Prezident, bu gün çox cazibədar bir gün oldu. Siz Ankara bəyannaməsinin imzalanması mərasimində Bakı-Ceyhan xətti haqqında qısa çıxışınızla öz böyük liderliyinizi bir daha göstərə bildiniz. Bugünkü görüşdən, bəyannamənin imzalanmasından sonra birləşmiş ştatlar belə hesab edir ki, biz Bakı- Ceyhan xəttinin çəkilməsi məsələsində böyük tərəqqi əldə etmişik. Bunların da çoxu məhz Sizin liderliyiniz sayəsində baş verib-dir.

Hər iki dostunuzdan - Prezident Bill Klintondan və vitse-prezident Albert Qordan Sizə salamlar gətirmişəm. Mən elə bilirəm ki,

bu gün göstərdiyiniz təşəbbüs Bakı-Ceyhan xəttinin gəkilişinin uğurla başa çatması ilə nətijələnəcəkdir. İndi elə bir vaxt gəlib çatmışdır ki, Ankara bəyannaməsini həyata keçirmək lazımdır.

ABŞ-ın Energetika nazirinə razılığını bildirən Prezident Heydər Əliyev dedi:

- Mən dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm. Ən öncə, Prezident cənab Bill Klintondan və vitse-prezident cənab Albert Qordan mənə çatdırdığınız salamlara görə də minnətdarlığımı bildirirəm.

Bir daha güman edirəm siz bu gün də gördünüz ki, mən verdiyim sözlərə və gördüyüm işlərə sadiqəm. Mən bu gün söylədiyim qısa nitqimdə Bakı-Ceyhan xəttinin tarixini, güman edirəm, izah edə bildim ona görə də təkrar etmək istəmirəm. Ancaq bir daha bildirmək istəyirəm ki, həqiqətən, bu gün biz dörd il apardığımız işi son bir nəticəyə gətirib çıxardıq.

Bakı-Ceyhan boru xəttinin əsasını da biz qoymuşuq, yəni Azərbaycan qoyubdur və bugünkü bəyannamənin yaranmasının təşəbbüskarı da Azərbaycandır, bizik. Mən həmişə hiss etmişəm ki, Amerika Birləşmiş Ştatları, Prezident cənab Bill Klinton və vitse-prezident cənab Qor Bakı-Ceyhan xəttinə böyük maraq göstəriblər. Vitse-Prezident cənab Albert Qorun mənə son dəfə göndərdiyi məktubda da bu məsələ qaldırılmışdır. Biz bu gün bunların hamısını həyata keçirdik. Görürsünüz ki, Ankara bəyannaməsini təkjə Türkiyə, Azərbaycan, Gürcüstan yox, Qazaxıstan, Özbəkistan da imzaladılar. İndi biz işin ikinci mərhələsinə keçməliyik. Güman edirəm, bunu da edəcəyik.

Bizim bu işi aparmağımıza olan maneələri də siz bilirsiniz. Konsorsiumun bunun əleyhinə olmasını da bilirsiniz. Amma biz bu gün özümüzün siyasi iradəmizi bildirdik. Mən bundan çox məmnunam.

Azərbaycan Prezidenti Heydər Əliyev "Mərmərə" qrupunun Strateji və Sosial Araşdırmalar vəqfının keçirdiyi mərasimdə iştirak etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 30-da İstanbulun "Hilton" mehmanxanasının ali qonaqlar salonunda Türkiyənin "Mərmərə" qrupunun Strateji və Sosial Araşdırmalar vəqfının "Bakı-Ceyhan boru xətti" mövzusunda keçirdiyi mərasimdə və vəqfın aylıq hesabat toplantısında iştirak etdi.

1985-ci ildə yaradılmış, hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin Prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. **Bu dəfə "Mərmərə" qrupunun hörmətli qonağı dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oldu.**

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

"Mərmərə" qrupunun başçıları və bu salona toplaşmış dostlarımız, qardaşlarımız!

Mən Sizi səmimi qəlbdən salamlayıram. Sizə və Sizin şəxsinizdə bütün türk xalqına, Türkiyə Cümhuriyyətinin vətəndaşlarına ən dərin sevgimi və məhəbbətimi bildirmək istəyirəm.

Bilirsiniz ki, Sizin ölkənizə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramı münasibətilə gəlmişəm. Bu bayramlarda əvvəldən axıradək Sizinlə bərabər iştirak edirəm və biz bu gün də bu bayram içərisindəyik. Mən Sizi, türk xalqını, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarını Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Türkiyəyə sülh, əmin-amanlıq və Türkiyənin vətəndaşlarına şəadət, bütün işlərində uğurlar arzulayıram.

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramı eyni zamanda Azərbaycan xalqının bayramıdır. Çünki Türkiyə ilə Azərbaycan arasında, xalqlarımız arasında olan dostluq, qardaşlıq əlaqələri bunun əsasını yaradıbdır. Sizin bayramınız bizim də bayramımızdır.

Bu günlər Sizin kimi, Azərbaycanda biz də, hər bir vətənpərvər azərbaycanlı iftixar hissi keçirir. Çünki 75 il bundan öncə Osmanlı imperatorluğunun dağıntıları içərisində çox çətin şərtlər cərçivəsində belə böyük bir cümhuriyyət yaranıbdır və O, 75 ildir ki, yaşayır. Bu cümhuriyyəti yaradan, onun banisi, qurucusu, böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir.

Biz bu bayramı qeyd edərkən hər şeydən öncə, bu cümhuriyyətin banisinin xatirəsinə, onun yaratdığı demokratik, dünyəvi cümhuriyyətin 75 illik tarixinə öz hörmətimizi və hədsiz sədaqətimizi bildiririk.

Həmin illərdə, Türkiyənin ağır dövründə cümhuriyyət yaratmaq böyük cəsurluq, mərdlik, qəhrəmanlıq, vətənpərvərlik və uzaqgörənlik tələb edirdi. Türk xalqının ən böyük nailiyyəti və xoşbəxtliyi ondan ibarətdir ki, XX əsrin əvvəlində ağır və çətin bir dövrdə xalqın lideri, böyük şəxsiyyəti meydana çıxdı və onun iradəsi ilə 1920-ci ildə ilk dəfə Böyük Millət Məclisi yarandı. Onun zəkası, iradəsi, uzaqgörənliyi ilə 1923-cü ildə Türkiyə Cümhuriyyəti yarandı. Biz bu tarixə, bu xidmətlərə Sizin kimi həmişə minnətdarıq və sona qədər, ömür boyu minnətdar olacağıq.

Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şüb-

həsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu, böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir. Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənjlərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.

Türkiyənin bugünkü nəsillərinin nailiyyəti yüksək qiymətə layiqdir. Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıjıl olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir. Baxmayaraq ki, bu Cümhuriyyətin müxtəlif tarixi dövrlərində çətinliklər də, müxtəlif fikirlər də olubdur. Onlar bəlkə bu gün də mövcuddur. Ancaq **Türkiyə hökuməti, xalqı, vətəndaşlarının tam əksəriyyəti Türkiyə Cümhuriyyətinin Mustafa Kamal Atatürkün yolu ilə, dünyəvi yolla irəli getməsini istəyir. Biz də bunu istəyirik. Biz bütün bu məsələlərdə Sizinlə bir yerdəyik, bərabərik.**

Türkiyə Cümhuriyyətini 75 ildə yaşadan və bu günlərə çatdıran Türkiyənin dəyərli insanları xalqınız tərəfindən heç vaxt unudulmayacaqdır. Qardaş, dost olaraq biz də bu xidmətləri heç vaxt unutmamışıq və unutmayacağıq.

Bu gün bizi sevindirən odur ki, Türkiyə dövlətinin bu ölkəni Mustafa Kamal Atatürkün yolu ilə apara bilən liderləri vardır. bu liderlər içərisində Türkiyənin siyasi səhnəsində 40 ildən çox fəaliyyət göstərən və böyük uğurlar qazanan Türkiyə Prezidenti, Cümhurbaşqanı, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəldir.

Mən bu hissiyyatlarla, duyğularla bu günlərdə Türkiyədəyəm, bu böyük bayramı Sizinlə birlikdə keçirirəm. Mən məhz bu hissiyyatlarla Sizin dəvətinizi qəbul edib Ankaradan İstanbula gəldim, indi burada Sizin qrupla görüşürəm. Sizinlə bu görüşə gecikməyimizin səbəbkarı mən deyiləm, təyyarədir. Mən Ankara hava limanında buraya gəlməkdən ötrü bir saat gözləməli olmuşam.

Mən əvvəl də bilirdim, amma bu gün hiss etdim ki, "Mərmərə" qrupu həqiqətən çox böyük hörmətə layiqdir. Buraya dəvət olunanların adları artıq çəkildi. Mən hiss etdim ki, buraya görkəmli iş adamları, elm xadimləri, alimlər, ziyalılar, yazarlar, mühəndislər, dövlət adamları toplaşıblar. Şübhəsiz ki, belə tərkibdə bir qrup öz işlərində çox uğurlu ola bilər. Mən belə başa düşdüm ki, Siz 14 ildir fəaliyyət göstərirsiniz. Sizin fəaliyyətiniz indiyə qədər uğurlu olubdur. Mən ümid edirəm ki, bundan sonra da uğurlu olacaqdır. Hər halda "Mərmərə" qrupu mənim şəxsimdə öz dostunu qəbul edə bilər.

Azərbaycan barədə, bizim həyatımız haqqında, mənim haqqımda

sizin yetərli qədər məlumatlarınız vardır. Burada verilən məlumatlardan gördüm ki, Siz hər şeyi bilirsiniz. Ona görə də mən burada əlavə məlumat verməyimə ehtiyac duymuram. Bu da çox sevindiricidir ki, Siz bunları bilirsiniz. İnsan o şeyi bilir ki, onunla maraqlanır. Əgər sən bir şey ilə maraqlanmasan, onu bilməyəcəksən. Əgər sən bir şey bilirsənsə, demək, sən onunla maraqlanırsan.

Mən çox məmnunam ki, **Türkiyədə Azərbaycana böyük maraq var. Türkiyə Azərbaycanı həmişə öyrənir, bilir, Azərbaycanın keçmişini də, həyatını da, bu gününü də bilir. Bu da bizim dostluğumuzun, qardaşlığımızın və gələcək iş birliyimizin çox uğurlu olduğunu göstərir.**

Azərbaycan yeddi ildir ki, öz dövlət müstəqilliyini elan edibdir. Mən Azərbaycan dilində danışıram. Bilirsiniz, mən Sizinlə Türkiyə türkcəsində Sizin kimi danışa bilərəm. Yəni Türkiyə türkcəsində danışmaq imkanım var. Ancaq mən bunu etmirəm. Çünki mən istəyirəm ki, Siz də mənim dilimi öyrənəsiniz, mən Sizin dilinizi bildiyim kimi, Siz də mənim dilimi biləsiniz. Ancaq bu dillərin də fərqi yoxdur. Bunlar eyni dildir. Bizim ən böyük uğurumuz, ən böyük xoşbəxtliyimiz odur ki, əcdadlarımız, ulu babalarımız bizi eyni dildə yaşadıblar və bu dil də tarix boyu yaşayıbdır.

Dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır, bir dilimiz vardır. Ancaq Azərbaycan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur.

Mən slavyan dilləri qrupunu da yaxşı bilirəm. Slavyan dilləri qrupuna bir çox dillər daxildir. Ancaq Ukrayna ilə Rusiyanı götürsək, onlarda Azərbaycan-Türkiyə qədər yaxınlıq yoxdur. Bu, bizim - Türkiyə ilə Azərbaycanın bir-biri ilə nə qədər əlaqəli olmasını göstərir. Ona görə də bizə tərcüməçi lazım deyildir. Mən dediyimi Siz anlayırsınız, Siz dediyinizi isə mən anlayıram. Mən Sizi Azərbaycan dilində danışmağa öyrətmək istəyirəm. Ona görə də mənim dilimi dinləyin və hansı sözü anlamasanız məndən soruşun. Mən onu Sizə izah edərəm.

Əziz dostlar, beləliklə, bugünkü görüş Türkiyə-Azərbaycan dostluğunun yeni bir təzahürüdür. Bilirsiniz, dostluq hissələrdən ibarətdir. İnsanların, ailələrin, qrupların bir-bir ilə dostluğu, əlaqələri xalqların, ölkələrin, dövlətlərin dostluğunu yaradır. Biz bax, beləliklə, belə görüşlərlə dostluğumuzu daha da inkişaf etdiririk, daha da möhkəmləndiririk.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti Türkiyə ilə dostluğuna, qardaşlığına, əməkdaşlığına xüsusi əhəmiyyət verir. Bu, Azərbaycanın Prezidenti kimi mənim xarici siyasə-

timin əsas istiqamətlərindən biridir və bundan sonra da belə olajaqdır. Bu, xalqın ürəyindən gələn hissiyyatlardır. Amma xalqın ürəyindən gələn hissiyyatları dövlət siyasətinə keçirməyin özü də çox əhəmiyyətlidir. Çünki Azərbaycana bir müstəqil dövlət kimi müxtəlif yerlərdən, cürbəcür istiqamətlərdən maraq çoxdur. Soruşurlar ki, Azərbaycan hansı ölkə ilə daha yaxındır, Azərbaycan ən çox hansı ölkəyə önəm, diqqət verir, Azərbaycan hansı ölkə ilə daha yaxın əlaqə qurur. Bunları sual verənlər çoxdur. Amma **dünya da bilir, qoy hamı da bilsin - Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm ki, bu dostluğumuz əbədidir, sarsılmazdır.**

Biz yeddi ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Amma bu illər bizim üçün çox ağır bir dövr olubdur. Bilirsiniz ki, Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən 10 il bundan önjə, 1988-ci ildə Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz, Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdi olmuşdur. Bunun əsasında müharibə, savaş başlanmışdır. Ancaq bu, istənilən nəticəni verməmişdir. Cürbəcür səbəblər olmuşdur. Siz bunları bilirsiniz. Bunların nəticəsində Azərbaycan öz torpaqlarının bir qismindən geri çəkilibdir, yəni Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının yüzdə iyirmi faizini işğal edibdir. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı, Azərbayan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıbdır. İndi onların əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayırlar və şübhəsiz ki, öz torpaqlarına qayıtmaq istəyirlər. Ancaq məlumdur ki, o işğal olunmuş torpaqlarda hər şey viran edilib, dağıdılıbdır. Orada Azərbaycanın əsrlər boyu topladığı iqtisadi potensial dağıdılıbdır. İnsanların əsrlər boyu qurduğu, yaratdığı evlər, əmlak, hər şey dağıdılıbdır. Bizim dini ocaqlarımız - məscidlərimiz, camelərimiz dağıdılıbdır. Xalqımızın qəbiristanları, müqəddəs yerləri dağıdılıbdır. Bu, Azərbaycanın həyatının bütün sahələrini pozmuş bir haldır.

Bilirsiniz ki, 1994-cü ilin may ayında biz atəşi dayandırdıq və atəşkəs haqqında saziş imzaladıq. İndi dörd ildən artıqdır ki, atəş yoxdur. Atəşkəs şəraitində, recimində yaşayırıq. Ancaq hələ tam sülh də əldə etməmişik. Biz sülh istəyirik. Ancaq sülhün də şərti vardır. Bu şərt ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, Azərbaycanın ərazi, torpaq bütövlüyü təmin olunmalıdır, Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən tanınmış dövlət sərhədlərinin hamısı təmin olunmalıdır və bunun nəticəsində Ermənistanla Azərbaycan arasında sülh yarana bilər. Dağlıq Qarabağ Azərbaycanın tərkibində kiçik bir vilayətdir. Orada 50 min azərbaycanlı yaşayırdı, onlar oradan çıxarılıbdır. Orada cəmi 100 min erməni yaşayır. Nəhayət, onlar üçün Dağlıq Qarabağa özünüidarəetmə statusu verməyə razı olmuşuq.

Mənim əziz dostum burada çıxışında bildirdi ki, 1996-cı ilin dekabr, yəni aralık ayında ATƏT-in Lissabon Zirvə görüşündə biz bu şərtləri qəbul etdirə bildik. 54 dövlətdən Ermənistan istisna olmaq şərti ilə,- Ermənistan bunu dəstəkləmədi,- 53 dövlət başçısı bunu qəbul etdi və Lissabon Zirvə görüşündə belə bir qərar qəbul edildi. Fürsətdən istifadə edib demək istəyirəm ki, həmin o tarixi qərarın qəbul olunmasında da Türkiyənin böyük xidmətləri olmuşdur. **Biz Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün, Dağlıq Qarabağ məsələsini həll etmək üçün həmişə Türkiyə ilə birəbirik, Türkiyə həmişə bizə dəstək verir, kömək edir və Türkiyə bizimlə birlikdə bu məsələnin həll olunmasına çalışır.** Biz Lissabonda da bir yerdə idik. Mənim dostum Süleyman Dəmirəl də, mən də Lissabonda idik. Biz bir yerdə çalışdıq və Türkiyənin, Süleyman Dəmirəlin dəstəyi, bir çox başqa dövlətlərin dəstəyi, demək olar ki, 54 dövlətdən 53-nün bizə dəstək verməsi nətijəsində Lissabon Zirvə görüşünün qərarı qəbul olunubdur. Biz indi bunun əsasında tamamilə sülh əldə etmək istəyirik. Mustafa Kamal Atatürkün dediyi sözlər təkjə Türkiyə üçün yox, hamı üçün bu gün də aktual sözlərdir: "Yurdda sülh, bölgədə sülh, cahanda sülh". Biz bunu istəyirik.

Bu barədə, bu mövzuda danışarkən mən xüsusi qeyd etmək istəyirəm ki,- burada bu, bir daha səsləndi- bizim mücadiləmizdə Türkiyə Azərbaycanla bərabər hərəkət edir və edəcəkdir. Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir ki, Türkiyə Ermənistanla ümumi sərhədi olmasına baxmayaraq, indiyə qədər Ermənistanla diplomatik əlaqələr qurmayıbdır, Ermənistanla heç bir iş birliyi yapmır və Türkiyə Ermənistana bəyan edibdir ki, Azərbaycanın işğal olunmuş torpaqlarından Ermənistan silahlı qüvvələri çıxmayana qədər, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə, heç bir ilişki ola bilməz. Biz bunu yüksək qiymətləndiririk. Bizim xalqımız da buna çox həssasdır.

Mən 1996-cı ildə Türkiyəyə gələndə burada bir neçə söz dedim. Bəzi iş adamları ticarət naminə sərhədlərin açılması, Qarsdan qapının açılması, İqdırdan qapının açılması və s. məsələləri qoymuşdular. Mən gəldim, böyük Millət Məclisində nitq söylədim, gəldim, İstanbulda da nitq söylədim. Mən dedim ki, bilirsiniz, bizim Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı hər bir ticarətdən alınan gəlirdən qat-qat üstündür. Bizim bu dostluğumuzu, qardaşlığımızı tijarətə qurban vermək olmaz. Bizim xalqımız etiraz etmişdi, qəzetlər yazmışdı ki, bəzi iş adamları Ermənista-

na getmişdilər, orada iş birliyi yaratmaq istəmişdilər. Sonra mənim dostum Süleyman Dəmirəl bir çox ağıllı, gözəl sözlər dedi. Dedi ki, bu, bizdən asılı deyildir. Bu, Türkiyə xalqından, kamoyundan asılıdır. Kimsə bunu istəsə Türkiyə xalqı, Türkiyə kamoyu buna yol verməz. Biz buna görə minnətdarıq. İnanıram ki, biz bu və bütün başqa məsələlərdə sona qədər bir olacağıq. İnanıram ki, biz birlikdə mücadilə edib, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik. Bütün Qafqazda, bütün bölgədə tam sülhün yaranması bizim üçün də, Türkiyə üçün də, Ermənistan üçün də lazımdır. Ermənistan özü anlamır ki, indi artıq Ermənistan tamam təcrid olunmuş vəziyyətdə qalıbdır.

Məsələn, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində bütün Qafqaz burada, dünyanın bütün ölkələri burada, mərkəzi, Orta Asiya hamısı burada, amma Qafqazdan bir Ermənistan yoxdur. Ermənistan təcrid olunmuş vəziyyətdə qalıbdır. Ona görə də Ermənistan bunu anlamalıdır. Siz də, biz də bilirik ki, Ermənilər tarixən Türkiyəyə qarşı, Azərbaycana qarşı nə qədər cinayətlər ediblər. Onlar bizə qarşı cinayətlər ediblər, amma eyni zamanda bütün dünyaya yayıblar ki, guya Türkiyə Ermənistana qarşı soyqırım edibdir. Bu, yanlış bir fikirdir. Türkiyə heç vaxt soyqırım etməyibdir. Ermənilər Türkiyəyə qarşı soyqırım ediblər. Ermənilər Azərbaycana qarşı soyqırım ediblər. 1918-ci ildə Bakıda ermənilər böyük bir qırğın törətdilər və Türkiyə ordusu gəlib Azərbaycanlıları ermənilərin əlindən xilas etdi. Bütün bu tarix bizi birləşdiribdir və biz bundan sonra da bir olacağıq. Bizim bugünkü, gələjək işlərimizin əsası məhz buradadır.

Siz bu gün Bakı-Ceyhan boru xətti haqqında danışdınız və mənim xidmətlərimi qiymətləndirdiniz. Çox təşəkkür edirəm. Mən məmnunam ki, bunu Türkiyədə hamı anlayır, bilir və buna lazımi qiymət verir. Həqiqətən, bu, tarixi bir hadisədir, olaydır. Çünki Xəzər dənizinin enerji ehtiyatlarının dünyaya açılmasının əsasını, təməlini Azərbaycan qoyubdur. Azərbaycan 50 ildir ki, Xəzər dənizində neft hasil edir. Ancaq biz onu Sovetlər Birliyi çərçivəsində edirdik. Azərbaycan müstəqillik, istiqlaliyyət əldə edəndən sonra, Azərbaycan suveren dövlət olandan sonra bütün işlərini, öz taleyini özü həll edir. Mən bunu dünən imzalanma mərasimində də dedim. Dedim ki, indi ən böyük hadisə bir də ondan ibarətdir ki, biz müstəqilik, müstəqil olaraq özümüz öz taleyimizi həll edirik və istədiyimiz addımı atırıq. Dünən Bakı-Ceyhan haqqında bəyannamənin imzalanması da tarixi bir hadisə olmuşdur.

Biz buna uzun bir yol ilə gəlmişik. Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan dünyanın ən böyük şirkətləri ilə, 7 ölkənin 11 şirkətinin yaratdığı bir konsorsi-

umla müqavilə imzaladı. Bu, dünyada bir partlayış oldu. Elə bil ki, bomba partladı. Çünki bu böyük müqavilədir və buna dünya "Əsrin müqaviləsi" adı verdi. Buna sevinənlər də oldu, ancaq bundan rahatsız olanlar da oldu. Azərbaycana qarşı təzyiqlər, basqılar başladı:- Nə üçün Azərbaycan bunu etdi? Nə üçün Azərbaycan Amerika, İngiltərə, Türkiyə, Norveç və başqa ölkələrin şirkətlərini Xəzər dənizinə gətirdi?- Bizi qınadılar, məhkum etdilər, bizim əleyhimizə təbliğat apardılar. Guya bu müqavilə həyata keçməyəcəkdir, çünki Xəzər dənizinin statusu məlum deyildir. Hətta o müqaviləni imzalayan şirkətlər qorxdular, bizim yanımıza gəldilər ki, bu nədir, deyirlər bu müqavilə işləməyəcəkdir.

Rusiya bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Amma Rusiyanın bir şirkəti bu müqavilənin içindədir. Rusiyanın Xarici İşlər Nazirliyi bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Başqa bir xarici qərb ölkəsinin Xarici İşlər naziri mənim yanıma gəldi, dedi ki, bəs nə olacaqdır, bunu tanımırlar. Dedim, bunun tanınmamasına görə sən niyə rahatsız olursan? Bizə onların tanıması lazımdırmı? Bizim buna ehtiyacımız yoxdur.

Sonra Xəzər dənizinin statusu məsələsi meydana çıxdı: "Xəzər dənizinin statusu müəyyən olunmayıbdır, Belə halda bu müqaviləni imzalamaq olmaz". Biz də dedik ki, Xəzər dənizinin statusu hələ 1970-ci ildə Sovetlər Birliyi tərəfindən müəyyən olunubdur. Çünki o vaxt Xəzər dənizi Sovetlər Birliyinə məxsus idi. Xəzər dənizinin cənubunun kiçik bir hissəsi İrana məxsus idi. Qalan hamısı Sovetlər Birliyinə məxsus idi. İndi Sovetlər Birliyi dağılıbdır. Xəzər dənizi ətrafında ölkələr vardır - Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran. Cəmi beş ölkə. Keçmişdə yaranmış ənənəyə görə Xəzər dənizi sektorlara bölünübdür. Burada yerləşən hər cümhuriyyətin Xəzər dənizində öz sektoru vardır. Biz öz sektorumuzun içindəyik, öz sektorumuzdun kənara çıxmamışıq. Söylədilər ki, bu sektor prinsipi qəbul edilmir. Xəzər dənizi ümumi dəniz olmalıdır - kim harada istəyir, qoy orada iş görsün. Biz isə dedik ki, belə olmaz. Bu sektor prinsipini bizdən başqa heç kəs qəbul etmədi. Ancaq mən sizə deyə bilərəm ki, indi hamı, bütün Xəzər dənizi ölkələri - Rusiya da, Qazaxıstan da, Türkmənistan da, hətta İran da sektor prinsipini qəbul edir. Yəni 1994-cü ildə bizim müqavilənin Əleyhinə çıxanlar deyirdilər ki, sektor prinsipi qəbul olunmur, status müəyyən deyil və bu işi görmək olmaz.

Amma görün onlar nə işlər gördülər. 1994-cü il sentyabr ayının 20-də biz müqavilə imzaladıq. Sentyabr ayının 21-22-də Azərbaycanda böyük bir cinayət törədildi. Azərbaycanda dörd cinayətkar bir ölkənin xüsusi xidmət orqanları tərəfindən həbsxanadan çıxarılıb qaçırıldı.

Azərbaycanın daxilində bir qarışıqlıq yarandı.

Mən Nyu-Yorka, Birləşmiş Millətlər Təşkilatının toplantısına getmişdim. Mən Nyu-Yorkda olanda Azərbaycanın Milli Məclisinin başqan yardımçısını və bir albayı terror edib öldürdülər.

Mən Nyu-Yorkdan geriyə dönərkən buraya, İstanbula gəldim. Süleyman Dəmirəl məni burada qarşıladı. Azərbaycanda elə bir vəziyyət yaranmışdı ki, Azərbaycanda artıq çevriliş baş verirdi. Güman edirdilər ki, Heydər Əliyev Azərbaycana qayıda bilməyəcəkdir. Ancaq mən buraya, İstanbula gəldim. Burada dostum Süleyman Dəmirəllə görüşdüm və Bakıya getdim. Ondan bir həftə sonra, oktyabr ayının 3-4-də Azərbaycanda çevriliş, dərbə olayı başladı. Mən nə etməli idim? O vaxt mənim əlimdə o qədər də güc, silah yox idi. O vaxta qədər Azərbaycanın durumu ayrı-ayrı qanunsuz silahlı dəstələrin əlində idi. Mən televiziya vasitəsilə xalqa müraciət etdim. Siz onu eşitdiniz. İki saatın içərisində gejə vaxtı Prezident, Cümhurbaşqanı sarayının önünə yarım milyon insan toplaşdı. Onlar Azərbaycanın dövlətini, Azərbaycanın Prezidentini, Cümhurbaşqanını qorudular.

Çevriliş cəhdini nə üçün edirdilər? Bu, həmin o müqaviləyə zərbə vurmaq üçün edilirdi. Bunu bizi pozmaq, müstəqil Azərbaycan dövlətini dağıtmaq üçün etdilər. Amma biz dözdük, bunun qarşısını aldıq.

1995-ci ilin mart ayında da bir dərbə olayı oldu. Siz bunu bilirsiniz, bu məlumdur. Təəssüflər olsun ki, Türkiyədən də bəzi məmurlar, Türkiyənin Bakıdakı böyük elçiliyində işləyənlərin bəziləri də bu işə qatılmışdılar. Siz bunu bilirsiniz. Onlar da Azərbaycanın Prezidentini öldürmək, hakimiyyəti ələ almaq istəyirdilər. Bu da cürbəcür ölkələrin xüsusi xidmət orqanlarının işləri idi. Bu da Azərbaycanın nefti üçün edilirdi, Azərbaycanın o müqaviləsini dağıtmaq üçünedilirdi. Biz bunun da qarşısını aldıq.

Sonra biz işləməyə başladıq. Dedilər ki, bu olmayacaq, o olmayacaq və s. ancaq işlədik və keçən il noyabr ayının 12-də ilkin nefti aldıq. Hörmətli Baş nazir Məsud Yılmaz da gəlib orada bizim bayramımızda iştirak etdi. Oraya bütün dünya gəldi. İlkin nefti aldıq və onu Bakı-Novorossiysk xətti ilə Rusiyanın Qara dənizdə olan Novorossiysk limanına ixrac etdik. İndi ora neft gedir.

Həmin o "Çıraq" neft yatağında səkkiz quyu qazılıbdır. Biz hər quyudan bir gündə 500 ton neft gözləyirdiksə, indi iki min ton, yəni dörd dəfə artıq alırıq. İndi həmin o bir yataqdan gündə 10 min ton neft çıxır. Amma orada 8 quyu yox, 24 quyu olmalıdır və bu yaxınlarda da olacaqdır. Demək, gündə üç dəfə artacaqdır. Hesablayın, bir yataqdan gündə 30-35 min ton neft çıxacaqdır. Biz müqaviləni imzalayanda üç yataqdan - "Azəri", "Çıraq", "Günəşli"

yataqlarından proqnoz olaraq 510 milyon ton neft gözlənilirdi. Amma işlədiyimiz müddətdə bu rəqəm artıb - 630 milyon ton neft gözlənilir.

Biz sonralar yeni müqavilələr imzaladıq. Dörd il içərisində biz 15 müqavilə imzalamışıq. Hər bir müqavilənin özünün böyük bir işi vardır və bütün bu 15 müqavilədən gözlədiyimiz proqnoza görə, bir milyard beş yüz milyon ton neft çıxacaqdır, ola bilsin ki, 60-70 milyard kubmetr qaz çıxacaqdır. 15 müqavilə üzrə şirkətlərin Azərbaycana yatırımı 50 milyard dollar məbləğində olacaqdır.

Bilirsiniz ki, bu nefti ixrac etmək lazımdır. Yenə də bizə maneçilik törədirdilər. Mən Bakı-Ceyhanı 1994-cü ildə bəyan etdim. Yəni bildirdim ki, Azərbaycandan dünya bazarına çıxan neft Bakı-Ceyhan xətti ilə getməlidir. dörd ildir ki, biz bu Bakı-Ceyhan marşrutunu reallaşdırmaq üçün çalışmışıq.

Türkiyədə də çox rahatsızdırlar. Hər dəfə Türkiyənin qəzeçiləri məndən soruşanda - ya buraya gələndə, yaxud da başqa yerdə - birinci sual belə olubdur ki, Bakı-Ceyhan necə olacaqdır? Hər dəfə demişəm ki, Bakı-Ceyhan olacaqdır. Nə vaxt olacaqdır? Demişəm ki, tələsməyin, gözləyin, olacaqdır. Mən bunu bir-iki il bundan önjə İstanbulda demişəm, Bakıda Türkiyənin bütün mətbuat nümayəndələrinin hamısına demişəm. İndi bu gün Sizə də deyirəm. Bakı-Ceyhan artıq var.

Dünən bizim imzaladığımız bəyannaməni bir neçə vaxtdır hazırlayırdıq. Şübhəsiz ki, bu bəyannamə birinci növbədə Azərbaycan ilə Türkiyə arasında idi. Amma Gürcüstan olmasa biz Türkiyəyə keçə bilmərik. Demək, Gürcüstan da olmalıdır. Ancaq biz son vaxtlar işlərimizi genişləndiririk və bu işə Qazaxıstan da, Özbəkistan da cəlb olundu. Hətta biz Türkmənistanı da cəlb etməyə çalışdıq, amma o, dünən imza atmadı. Güman edirəm, gələcəkdə atacaqdır.

Beləliklə, əgər dörd il bundan öncə Bakı-Ceyhan haqqında ancaq Azərbaycan və Türkiyə düşünürdüsə, indi, dörd il keçəndən sonra Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və ABŞ-ın Energetika Naziri bu bəyannaməni imzaladı, bunu, Bakı-Ceyhanı dəstəklədi. Bu, artıq real bir şeydir.

Doğrudur, buna bu gün də mane olanlar vardır. Siz bilməlisiniz ki, digər konsorsiumlar hələ iş aparırlar. Amma Xəzər dənizindən neft çıxaran əsas konsorsium Azərbaycan beynəlxalq əməliyyat şirkəti 11 şirkətdən ibarətdir. Bunlar Bakı-Ceyhanı istəmirlər və bir neçə dəfə bizim dövlət neft şirkətində olublar, rəqəmlər, yazılar, kağızlar veriblər. Onlar deyirlər ki, "Bakı-Ceyhan bahadır, biz ucuz istəyirik. Siyasət bizə lazım deyildir. Bizə para, kommersiya lazımdır. Biz para qoymuşuq və para, qazanc götürmək istəyirik". Son zamanlar onlar Bakı-Ceyhanın qiymətini də artırıblar. Məlumat verdilər ki, bu, 3 milyard 900 milyon

dollara başa gələcəkdir. Bir il bundan öncə demişdilər ki, 2 milyard 700 milyon dollar olacaqdır. İndi deyirlər 3 milyard 900 milyon dollar. Şübhəsiz ki, bu paranı, vəsaiti onlar qoymalıdırlar. Buraya özəl şirkətlər para qoya bilməz, bunu onlar qoymalıdırlar. Çünki bu layihəni onlar həyata keçirirlər.

Məsələn, indiyə qədər həmin konsorsium Azərbaycana 1 milyard 600 milyon dollar yatırım, sərmayə gətiribdir. Yəni indiyədək görülən işlərə 1 milyard 600 milyon dollar yatırım qoyulubdur. Bundan sonra da qoyulacaqdır.

Mən Sizə dedim, Bakı-Novorossiysk boru xətti tikildi. İndi oradan neft gedir. İndi Gürcüstanın Qara dənizdə Supsa limanı vardır, oraya Bakı-Supsa boru xətti çəkilir. O da gələn il aprel ayının sonuna qədər hazır olajaqdır. Biz oradan da neft ixrac edəcəyik. Ona görə də konsorsiumun rəhbərləri deyirlər ki, bizim iki boru xəttimiz vardır - biri Novorossiyskə, biri də Supsaya gedir.

Hələ ki, biz çıxardığımız nefti ixrac edirik. Bakı-Ceyhanı tikməyə nə üçün tələsməliyik, ora nə üçün para qoymalıyıq? Biz paranı qoyan kimi, gərək qazancı da götürək. Bunları da anlamaq, başa düşmək olar. Ona görə də onlar buna etiraz edirlər.

Mən buraya gəlməmişdən öncə onları qəbul etdim, onlarla danışdıq. Bizim Dövlət Neft Şirkətinin Prezidenti və onlar mənə 15 gün ərzində bu layihənin həqiqi qiyməti barədə birgə hesabat verməlidirlər. Bunlara baxmayaraq mən qərar qəbul etdim ki, Bakı-Ceyhan yaradılmalıdır və bu bəyannamə imzalanmalıdır. Bilin ki, bu bəyannamənin layihəsini də biz hazırlamışıq. Burada Türkiyəyə və başqalarına payladıq və dünən də buna imza atdıq.

Bu, tarixi bir hadisədir.

Hesab edirəm ki, Bakı-Ceyhan bir bu gün, ya da sabah üçün deyildir. Bizim bu işimiz yüz ildən çox yaşayacaqdır. Mən Sizə dedim, çünki bizim Azərbaycan sektorunda 15 müqavilə imzalanıbdır. İndi Qazaxıstan bizdən rica edir. Qazaxıstanın həm Xəzər dənizi sektorunda, həm də Qurudakı "Tengiz" yatağında çoxlu nefti vardır. Onlar da bunu ixrac etmək istəyirlər.

Gələcəkdə Türkmənistan da bu yol ilə getməyə məcbur olacaqdır. Bu da olacaqdır.

İndi mən deyirəm ki, bizim müqavilələr üzrə bir milyard 500 milyon ton proqnozlaşdırılır, amma bu proqnoz bir neçə dəfə artacaqdır. Onlar da gələcəkdir. Ona görə bu, ən azı XXI əsrin sonuna qədər yaşayacaqdır. Biz xalqlarımızı, dövlətlərimizi, ölkələrimizi birləşdirən və gələjək nəsillərə XXI əsrdə böyük bir töhfə olan Bakı-Ceyhan boru xətti haqqında bəyannaməni dünən imzaladıq. Mən bunu böyük tarixi hadisə hesab edirəm və bu münasibətlə Sizi də təbrik edirəm. Sizin bu işə yüksək diqqət verməyinizi, maraq göstərməyinizi mən qiymətləndirirəm və əmin ola bilərsiniz ki, Azərbaycanın siyasəti, Azərbaycan Prezidenti Heydər Əliyevin siyasəti sabitdir və axıra qədər də sabit olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında olan əməkdaşlıq, iş birliyi genişdir. Mənim dostum artıq bu barədə dedi ki, Azərbaycanda Türkiyənin 10 mindən çox insanı çalışır. Şirkətlər çoxdur. Amma hələ imkanlar da bundan çoxdur.

Mən Prezident seçiləndən sonra oktyabr ayının 18-də andiçmə mərasimində demişəm və bunu burada bir daha bəhyan edirəm: biz

Azərbaycana xarici sərmayənin, yatırımın gəlməsi üçün daha da əlverişli şərtlər yaradajağıq. Mən bilirəm ki, Azərbaycanda bəzi iş adamlarının iş görməsi üçün ayrı-ayrı məmurlar maneçilik edirlər. Ayrı-ayrı yerlərdə bəlkə qanunlar da o qədər ona imkan vermir. Bilin ki, bunlar bizə çatır. Amma siz də anlayın ki, mən müstəqilliyin yeddi ilinin beş ilində bütün bu mərhələləri keçib gəlməyə məcbur oldum. Bunların hamısını birdən etmək mümkün deyildir. Ancaq biz bunları edirik və edəcəyik. Yəni xarici sərmayənin, o cümlədən Türkiyədən yatırımların, iş adamlarının gəlib Azərbaycanda iş görməsi üçün biz bundan sonra daha da uyğun, əlverişli şərait yaradacağıq.

Mən hesab edirəm ki, bugünkü görüşümüz Türkiyə-Azərbaycan dostluğunun, əməkdaşlığının inkişaf etməsi üçün yeni bir addımdır. Ona görə bu görüşə, mənə göstərdiyiniz bu qayğıya, diqqətə, hörmət və ehtirama görə Sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, mən bundan sonra da bu dostluğa, bu qardaşlığa sadiq olacağam. Sağ olun.

Sonra "Mərmərə" Strateji və Sosial Araşdırmalar qrupunun sədri Akkan Suver dedi:

Hörmətli Cümhurbaşqanım!

Siz bizi çox şad etdiniz, bizi sevindirdiniz. Azərbayan-Türkiyə dostluğu haqqında çox gözəl fikirlər söylədiniz. İcazə verin, Sizə veriləcək suallara cavab verməmişdən əvvəl, buraya təşrif buyurduğunuza, yaşınızla yaşıd olan Cümhuriyyətimizin 75-ci ildönümündə Azərbaycanın iqtisadi, sosial və demokratik inkişafı, Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlığının gücləndirilməsi sahəsində yüksək fəaliyyətinizə görə heyətimizin səs çoxluğu ilə qəbul etdiyi qərarla, hörmət və ehtiramımızın nişanəsi olaraq Sizə xatirə hədiyyəsi təqdim edək.

Türkiyə İslam Kültür Araşdırmalar Mərkəzinin və İslam Konfransı Təşkilatının mədəniyyət işləri üzrə Baş direktoru professor Əkməleddin İhsanoğlu təmsil etdiyi təşkilatın xətti ilə dekabr ayında Bakıda keçiriləcək beynəlxalq konfransın plakatını və xatirə hədiyyəsini, professor Məmməd Saray özünün yazdığı, Atatürkün Azərbaycan haqqında düşüncələrindən və gördüyü işlərdən bəhs edən "İlk tarix Azərbaycandır" kita-

bını və dövlət bayrağını, Türkiyənin tanınmış "Kantekst" Şirkətinin prezidenti Səlahəddin Şahin isə üzərində şir şəkli olan rəmzi xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etdilər. Sonra Azərbaycan Prezidenti Heydər Əliyev görüş iştirakçılarının ümumiləşdirilmiş sualına cavab verdi.

Sual: Çox hörmətli Prezident, Sizcə, petrol boğazlardan keçməlidir, Yoxsa keçməməlidir?

Cavab: Bakı-Ceyhan boru xəttinin əsas mənası ondan ibarətdir ki, petrol, neft boğazlardan keçməsin, petrol Bakı-Ceyhan xətti ilə Ağ dənizə çıxsın. Ancaq konsorsium, - hansı ki, bu Bakı-Ceyhan xəttinə etiraz edir, - o, hesab edir ki, bu nefti Gürcüstanın Qara dənizdəki Supsa limanına qədər boru xətti ilə daşımaq, oradan isə tankerlərlə Qara dənizin Qarasu limanından İzmitə qədər 50 kilometrlik bir boru xətti keçirmək olar və oradan da Mərmərə dənizinə çıxarmaq olar.

Türkiyə tamamilə bunun əleyhinədir. Dünən Türkiyənin Cümhurbaşqanı və bütün Türkiyə hökuməti bildirdilər ki, Türkiyə çıxarılan petrolun, neftin bundan sonra boğazlardan keçirilməsinə heç vaxt razı olmayacaqdır. Ona görə də Bakı-Ceyhan xətti lazımdır.

Görüşün sonunda Akkan Suver dedi: Əziz Cümhurbaşqanım, Siz bizi çox şərəfləndirdiniz, belə gözəl gündə bizimlə bir yerdə oldunuz. Buna görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Respublikamızın rəhbəri Heydər Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

"Savarona" gəmisində gəzinti

Ali qonaqlar Mustafa Kamal Atatürk adına "Savarona" gəmisinə minərək gəzintiyə çıxdılar. Gəmidə Türkiyə Cümhuriyyətinin yaranmasından və böyük Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən bəhs edən "Cümhuriyyət" filmi nümayiş etdirildi.

Azərbaycan Prezidenti Heydər Əliyev gəmidə rəmzi olaraq düzəldilmiş Atatürk muzeyini ziyarət etdi, burada saxlanılan xatirə əşyaları və sənədlərlə tanış oldu.

Prezident Heydər Əliyev rəmzi muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

"Türkiyə Cümhuriyyətinin banisi, qurucusu ulu öndər Mustafa Kamal Atatürkün gəmisini Cümhuriyyətin 75-ci ildönümü günü ziyarət etmək mənə nəsib olduğundan böyük qürur duyuram. O böyük şəxsiyyətin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
30 oktyabr 1998-ci il"

Bolqarıstan xalq məclisinin sədri Yordan Sokolov və digər xarici ölkələrin burada olan yüksək vəzifəli şəxsləri və Türkiyənin iş adamları gəmidə dövlətimizin başçısına yaxınlaşaraq, onu yenidən Prezident seçilməsi münasibətilə təbrik etdilər, ən xoş arzularını bildirdilər və səmimi söhbət etdilər.

Sonra "Savarona" gəmisində Türkiyənin Baş naziri Məsud Yılmazın adından dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verildi.

Türkiyə incəsənət ustalarının iştirakı ilə bayram konserti oldu.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin "TRT-1" televiziya kanalına müsahibəsi

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün öz iqamətgahında - "Hilton" mehmanxanasında Türkiyənin "TRT-1" televiziya kanalının müxbiri Kaya Yurdaqula müsahibə verdi.

Sual: Azərbaycanın sayın Cümhurbaşqanı Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi bayramında Türkiyə xalqına və dövlətinə nə arzu edərdiniz?

Cavab: Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi tarixi bir hadisədir və bu, türk xalqının, Türkiyə Cümhuriyyəti vətəndaşlarının böyük bayramıdır. Eyni zamanda Azərbaycanın da bayramıdır, Azərbaycan xalqının da bayramıdır. Çünki bizim xalqlarımızın dostluğu və qardaşlığı böyük tarixə malikdir və bu dostluq və qardaşlıq daha da genişlənməli, daha da inkişaf etməlidir.

Bu bayram günündə mən arzu edirəm ki, Türkiyə, Türk xalqı daha da xoşbəxt olsun. Türkiyəyə daha da firavan gələcək arzulayıram və ən əsas da onu arzulayıram ki, indiyə qədər olduğu kimi, bundan sonra da Türkiyə, Türk xalqı böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə getsin. Çünki 75 il öncə bu Cümhuriyyəti yaradan Mustafa Kamal Atatürk olmuşdur. Türk xalqı 75 il bu cümhuriyyətin içində böyük xoşbəxtlik əldə etmişdir, böyük nailiyyətlər əldə etmişdir.

Mən əminəm ki, Türkiyənin çox parlaq gələcəyi vardır və bu gələcək də uğurlu olmalıdır. Yəni Mustafa Kamal Atatürkün yolu ilə getməsi Türk xalqını daha da yüksəklərə qaldıracaqdır.

Türkiyənin Baş naziri Məsud Yılmazla görüş.

Dövlətimizin başçısı Heydər Əliyev dost ölkənin Baş nazirinə təbrik məktubunu təqdim edərək dedi:

- Hörmətli Baş Nazir, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə Sizə təbrik məktubu gətirmişəm. Bu günlərdə Sizə təqdim etmək imkanı olmadı, ancaq indi bunu

Sizə rəsmən təqdim edirəm. Burada Türkiyənin Baş Bakanı olaraq Sizə Cümhuriyyətinizin 75-ci ildönümü münasibətilə mənim təbrikim yazılıbdır. Mən bunu Sizə təqdim edirəm. Sizi bir daha təbrik edirəm. Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına və şəxsən Sizə uğurlar, başarılar diləyirəm. Mən bu günlər Türkiyəyə gəlməyimdən və Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramında Sizinlə, Türk xalqı ilə bərabər olmağımdan çox məmnunam. Mən buraya Azərbaycan xalqının sevgisini, məhəbbətini Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyənin vətəndaşlarına çatdırmaq üçün gəlmişəm. Artıq bu gün Azərbaycana dönürəm. İndi hörmətli dostum, Türkiyənin Baş naziri cənab Məsud Yılmazla da bəzi məsələləri müzakirə edəcəyik və bu da demək olar ki, mənim görüşümün son mərhələsidir. Bundan sonra Azərbaycana, Bakıya gedirəm.

Bu günlər burada olduğum zaman mən Türkiyə Cümhuriyyətinin 75 il ərzində keçdiyi böyük şanlı yolun, əldə edilən böyük nailiyyətlərin bir daha şahidi oldum. Biz daim Türkiyənin həyatını izləyirik, onunla maraqlanırıq. Türkiyənin həyatında baş verən hər bir hadisə bizim üçün maraqlıdır.

Şübhəsiz, biz istəyirik ki, həmişə uğurlar olsun, həmişə nailiyyətlər olsun. Xoşbəxtlik də ondan ibarətdir ki, bunlar vardır və Türkiyə Cümhuriyyəti 75-ci ildönümü münasibətilə bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə böyük, əzəmətli bir dövlətdir, dünya miqyasında özünəməxsus yerini tutubdur.

Türkiyə Cümhuriyyəti Türk xalqını, Türkiyəni böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə uğurla aparır. Bu günlər bayramlarda olduğum zaman bir daha düşündüm ki, Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratmaqla, qurmaqla nə qədər böyük uzaqgörənlik, nə qədər böyük alilik göstəribdir. Məmnunedici cəhət bir də ondan ibarətdir ki, Türkiyənin bugünkü rəhbərləri, yönətijiləri- Türkiyənin hökuməti, Türkiyənin dövləti Mustafa Kamal Atatürkün yoluna sadiqdirlər, bu yol ilə gedirlər və Türkiyə bu gün də, gələcəkdə də dünya birliyində bir Cümhuriyyət, iqtisadi cəhətdən, demokratiya cəhətdən inkişaf etmiş dünyəvi bir dövlət, ölkə kimi yaşayır və yaşayacaqdır.

Mən Türk xalqını, Türkiyə Cümhuriyyətini bu nailiyyətlərlə, bu bayram münasibətilə bir daha təbrik edirəm və bu günlərdə burada olduğum zaman son görüşümü - mənim dostum, Türkiyənin Baş naziri, Azərbaycanda çox hörmətli olan cənab Məsud Yılmazla görüşümü də çox əhəmiyyətli hesab edirəm. Hesab edirəm ki, biz bu görüş zamanı bəzi məsələləri də müzakirə edəcəyik. Bu məsələlər də yalnız və yalnız Azərbaycan-Türkiyə əlaqələrini inkişaf etdirməkdən ibarətdir.

Bilirəm ki, hamınızı Bakı-

Ceyhan layihəsi maraqlandırır. Ancaq Siz də bilirsiniz ki, Bakı-Ceyhan dörd il müddətində böyük bir doğum yolu keçdi və nəhayət, nöqtəni də qoyduq. İndi biz bunun ikinji mərhələsindəyik, yəni bunu yaratmaq lazımdır. Güman edirəm, indiyə qədər bizim bu işləri gördüyümüzü nəzərə alaraq, bütün maneələri, çətinlikləri aradan qaldırdığımızı nəzərə alaraq inana bilərsiniz ki, biz bundan sonra da bu layihəni həyata keçirəcəyik.

Prezident Heydər Əliyevə təşəkkürünü bildirən Türkiyənin Baş naziri Məsud Yılmaz dedi:

- Azərbaycanın Cümhurbaşqanı Hörmətli Heydər Əliyev bizim 75-ci ildönümümüzdən bir neçə gün öncə Azərbaycan xalqının iradəsi və səsi ilə yenidən Prezident vəzifəsinə seçilmişdir. Bu münasibətlə ali qonağımızı Türkiyə hökuməti adından bir daha ürəkdən təbrik edirik.Cənab Heydər Əliyev Cümhuriyyətimizin 75-ci ildönümü tədbirlərində iştirak etməklə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığa nə qədər əhəmiyyət verdiyini bir daha sübut etmişdir.

Bildiyiniz kimi, oktyabrın 29-da, Cümhuriyyətimizin 75-ci ildönümündə bizim üçün çox əhəmiyyətli olan iki mühüm sənəd imzalanmışdır. Bunlardan birincisi Türkmən qazının Türkiyəyə gətirilməsidir, ikincisi isə Bakı-Tbilisi-Ceyhan boru xəttinin gerçəkləşdirilməsi sahəsində bütün iştirakçı ölkələrin ortaq iradəsini ifadə edən Ankara bəyannaməsidir. Bu bəyannamə ilə bütün iştirakçı dövlətlər boru xətti sahəsindəki iradələrini ortaya qoymuşlar. Ancaq bu xəttin gerçəkləşməsinə və bunu həyata keçirəcək konsorsiuma dair şirkətlərin hələ bəzi tərəddüdləri vardır. Bunları həll etmək üçün qarşımızdakı günlərdə bu şirkətlərlə, konsorsiumla yaxından danışıqlar aparılacaqdır. Amma məsələnin ən önəmli səhifəsi artıq tamamlanmışdır. Dövlətlərin və hökumətlərin siyasi iradəsi bu bəyannamə ilə təsdiqlənmişdir. Bunun geriyə dönüşü də ola bilməz. Sonrakı görüşlərimiz daha çox texniki və iqtisadi xarakter daşıyacaqdır.

Hörmətli Cümhurbaşqanı Heydər Əliyevin babası olduğu, yaradıcısı olduğu və əsrin ən önəmli layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan, inanıram ki, qarşımızdakı aylarda görüşlər zamanı tamamlanaraq həyata keçiriləcəkdir.

Bu gün sayın Cümhurbaşqanı ilə bu məsələni, habelə ATƏT-in Minsk qrupunun fəaliyyətini yenidən müzakirə edəcəyik. Azərbaycanla Türkiyənin iş birliyinin necə irəliyə aparılması, hökumətlər olaraq bu sahədə hansı addımların atılmasının vacibliyi barədə fikir mübadiləsi edəcəyik.

Həm bu böyük bayramımızda iştirak etdiyi üçün, həm də Bakı-Tbilisi-Ceyhan layihəsinə verdiyi böyük dəstək üçün çox hörmətli Cümhurbaşqanı Heydər Əliyevə bütün millətimiz, hökumətimiz adından bir daha təşəkkürlərimi bildirirəm.

Dövlətimizin başçısının şərəfinə

Oktyabrın 31-də İstanbulda dövlət və hökumət başçıları üçün yaradılmış məşhur "Beyti Gülər" restoranının şərəf salonunda Türkiyənin Baş naziri Məsud Yılmazın adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi nahar verildi.

Respublikamızın rəhbəri Heydər Əliyev burada dünya xalqlarının milli mədəniyyətini nümayiş etdirən nadir eksponatlardan ibarət muzeyi ziyarət etdi. Muzeydə saxlanılan eksponatlar arasında üzərində Azərbaycanın dünya şöhrətli Memarı Əcəmi Naxçıvaninin portereti olan vaza diqqəti daha çox cəlb etdi.

Dövlətimizin Başçısı Heydər Əliyev Muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Beyti lokantasını ziyarət etməkdən çox məmnun oldum. Onun çoxillik tarixi və dəyərli xidmətləri məni valeh etdi. Türkiyədə, bütün dünyada böyük hörmət qazanmış bu lokanta milli ənənələrə sədaqətin, çağdaşlığın parlaq nümunəsidir. Hörmətli cənab Beyti Gülərin görkəmli xidmətləri heyran edir. Ən xoş arzularla gələcək uğurlar diləyirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

31 oktyabr 1998-ci il

Azərbaycan Prezidenti Heydər Əliyevin SNN televiziya kanalına müsahibəsi

31 oktyabr 1998-ci il

Ahu Özyurd: Çox hörmətli Cümhurbaşqanı Heydər Əliyev. Demək olar ki, məhz Sizin şəxsi iradənizlə Bakı-Ceyhan layihəsinin son nöqtəsi artıq qoyuldu. Sizcə, bu layihə tam həyata keçiriləcəkmi?

Cavab: Dörd il ərzində Bakı-Ceyhan bu nöqtəyə asanlıqla gəlib çıxmayıbdır. Bakı-Ceyhanı bu nöqtəyə gətirmək üçün biz dörd ildir ki, çox işlər görmüşük və bir çox maneələrin qarşısını almışıq, Buna müxalif olan qüvvələrin qarşısını almışıq. Nəhayət, Bakı-Ceyhan boru xəttinin yaranması, tikilməsi haqqında bəyannaməni imzalamışıq. Əgər biz indiyə qədər bu çətinliklərin öhdəsindən gələ bilmişiksə, onları aradan götürə bilmişiksə, güman edirəm, bundan sonra da bunları edə biləcəyik.

Mən bu bəyannaməni hazırlayarkən, onu buraya gətirərkən və Ankarada imzalayarkən yaxşı dərk edirdim ki, konsorsium Bakı-Ceyhanı qəbul etmir. Onun da səbəbi yalnız kommersiya prinsiplərinə görədir. Yəni onlar bunu çox baha hesab edirlər. Hesab edirlər ki, əgər biz onların layihəsini qəbul etsək bu, bir milyard dollar ucuz ola bilər. Ancaq mən hesab edirəm ki, onların bu barədə verdikləri rəqəmlər o qədər də doğru deyildir. Ona görə də mən Azərbaycan Dövlət Neft Şirkətinə göstəriş vermişəm ki, onlar konsorsiumla birlikdə bunu hesablasınlar. Bir də ki, başqa yol yoxdur. Konsorsiumun təklif etdiyi yol Türkiyə tərəfindən də qəbul olunmur. Yəni Qara dənizdən, Supsadan tankerlərlə bu nefti, petrolu Qarasu limanına daşımaq, oradan isə bir boru xətti ilə İzmitə, Mərmərə dənizinə çıxarmaq yolunu Türkiyə qəbul etmir. Ona görə də onlar başqa bir yol tapa bilməyəjəklər. Beləliklə, biz Bakı-Ceyhanı real həyata keçirəjəyik.

Sual: Sayın Cümhurbaşqanı, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bir irəliləyiş, görüş olacaqmı?

Cavab: Olmalıdır. Çünki biz ölkəmizi belə vəziyyətdə saxlaya bilmərik. Yəni Ermənistan Silahlı Qüvvələri Azərbaycanın torpaqlarının yüzdə iyirmi faizini işğal ediblər. Bizim bir milyondan artıq vətəndaşımız köçkün vəziyyətində çadırlarda yaşayır. Ona görə biz bu məsələnin həllində irəliləyişə nail olmalıyıq.

Son altı ay içərisində bəzi obyektiv səbəblərə görə bu sülh danışıqları zəifləyibdir. Ancaq güman edirəm, yaxın vaxtlarda biz bu işə bir daha sürət verəcəyik, danışıqlar aparılacaqdır və bu məsələnin həllinə nail olacağıq.

Azərbaycan Prezidenti Heydər Əliyevin İstanbul hava limanında jurnalistlər qarşısında bəyanatı

Hörmətli Baş Nazir!

Hörmətli mətbuat nümayəndələri!

Mənim Türkiyəyə bu səfərim, ziyarətim başa çatır. Mən artıq hava limanındayam, Azərbaycana, Bakıya dönürəm. Bəyan edirəm ki, mənim bu səfərim çox əhəmiyyətli və çox gözəl olubdur. Birinci, ona görə ki, Türkiyə xalqı ilə, Türkiyənin vətəndaşları ilə, Türkiyənin dövləti, hökuməti ilə bərabər və Türkiyəyə gəlmiş başqa ölkələrin nümayəndə heyətləri ilə bərabər Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etdik. Mən bütün bayram mərasimlərinin hamısında iştirak etdim. Hamısından böyük məmnunluq duyuram və fəxr edirəm ki, Azərbaycanın Prezidenti, dövlət başçısı kimi, mən bu bayramda Türkiyədə Azərbaycan xalqını təmsil etmək imkanına malik oldum və Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyə xalqına, vətəndaşlarına xoş arzularımı bildirdim.

Burada çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Türkiyəyə gələn gün axşam Türkiyənin Prezidenti, əziz dostum Süleyman Dəmirəllə görüşdüm və bayram təbrikləri ilə yanaşı, bir neçə məsələləri müzakirə etdik. Sonra da bir çox başqa ölkələrin Cümhurbaşqanları, Prezi-

dentləri, hökumət və parlament başçıları İlə görüşdüm. Bunlar hamısı müstəqil Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki biz Azərbaycanın əlaqələrini genişləndirmək əzmindəyik və bunları çox yararlı hesab edirəm.

Düşünürəm ki, burada olduğum günlərdə hamımızın birlikdə gördüyümüz işlərdən ən önəmlisi Cümhuriyyətin qurulmasının 75-ci ildönümü günündə Ankarada Bakı-Ceyhan boru xətti haqqında Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Cümhurbaşqanlarının, Prezidentlərinin və Amerika Birləşmiş Ştatlarını təmsil edən Energetika nazirinin imzaladıqları bəyannamə oldu. Bu, bizim, Azərbaycanın Xəzər dənizində olan sektorunda hasil olacaq neftin dünya bazarlarına çıxarılması üçün əvvəldən əsasını qoyduğumuz, ancaq bunun reallaşdırılması üçün dörd il müddətində çalışdığımız Bakı-Ceyhan boru xəttinin artıq siyasi nöqteyi-nəzərdən dövlətlərin, dövlət başçılarının iradəsini ifadə edərək bəyannamənin qəbul edilməsidir. Bu, böyük bir tarixi hadisədir. Güman edirəm ki, biz bununla bu layihəni tam reallaşdırdıq.

Doğrudur, indi mətbuatda çox danışıqlar gedir. Bu məlumdur, mən bəyannaməni imzalayan zaman da demişdim ki, neft hasilatı ilə məşğul olan şirkətlərin yaratdığı konsorsium indi Bakı-Ceyhan xəttinin çəkilişinə başlanmasına o qədər də razı deyildir. Çünki bunu iqtisadi nöqteyi-nəzərdən səmərəsiz hesab edir, yəni lazımi səviyyədə səmərəli hesab etmir. Ancaq bunlara baxmayaraq mən hesab edirəm ki, biz tarixi bir iş görmüşük. Bunun iqtisadi cəhətini də konsorsium ilə araşdırırıq və bundan sonra da araşdıracağıq.

Türkiyənin və Azərbaycanın neft sahəsində olan təşkilatları - Azərbaycan Dövlət Neft Şirkəti və Türkiyənin Enerji Şirkəti indi danışıqlar aparırlar. Bu danışıqlar nəticəsində bəzi məsələlər də müzakirə ediləcəkdir, həll olunacaqdır. Beləliklə, biz böyük bir tarixi işin əsasını qoymuşuq.

Bütün bunların sonu olaraq mən dünən də və bu gün də İstanbuldayam. Burada, İstanbulda olmağımdan da çox məmnunam. Dünən biz gözəl bir tədbirdə olduq. Vaxtilə böyük Atatürkün yaratdığı və ona məxsus olan gəmidə səyahət etdik. Çox gözəl bir bayram konserti verildi. O, Türkiyə Cümhuriyyətinin bugünkü həyatını, reallığını, bugünkü varlığını dünyaya bir daha nümayiş etdirdi. Mən də bu mərasimdə iştirak edirdim və bundan çox məmnunam.

Dünən də, bu gün də apardığımız danışıqların son mərhələsi olaraq Türkiyənin Baş naziri, hörmətli dostum cənab Məsud Yılmazla çox əhəmiyyətli danışıqlar aparmışıq. Həm Türkiyə-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm Bakı-Ceyhan boru xəttinin praktiki olaraq həyata keçirilməsinin yolları haqqında, həm də Azərbaycanın ən

ağır problemi olan Ermənistanın təjavüzünün qarşısını almaq, Dağlıq Qarabağ məsələsini həll etmək, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi və bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerinə-yurduna qayıtması, Azərbaycanın ərazi bütövlüyünün, torpaq bütövlüyünün bərpa olunması - bütün bu məsələləri biz birinji gün həm Cümhurbaşqanı Süleyman Dəmirəllə, həm də bu gün və dünən Baş nazir Məsud Yılmazla ətraflı müzakirə etdik. Mən bunları Azərbaycan üçün çox əhəmiyyətli, çox səmərəli hesab edirəm. Ona görə də hesab edirəm ki, mənim bu ziyarətim həm bayram şənlikləri ilə bağlı olubdur, həm də çox gərgin iş olubdur. Yəni iş də görmüşük, bayram da etmişik və şənliklərdə də iştirak etmişik. Bunlar hamısı şəxsən məni sevindirir. Mən bu gün çox böyük sevinc, məmnuniyyət hissi ilə Türkiyəni tərk edirəm və Bakıya, Azərbaycana gedirəm.

Türkiyə Cümhuriyyətinə bundan sonrakı illərdə daha da böyük uğurlar arzulayıram. Türkiyənin vətəndaşlarına, türk xalqına gələcəkdə də Mustafa Kamal Atatürkün yoluna Sadiq olmağı arzulayıram. İnanıram ki, Türkiyə bu qədər böyük inkişafın gələcəyini də təmin edəcəkdir və biz gələcəkdə Türkiyənin yeni-yeni böyük qələbələrinin, nailiyyətlərinin şahidi olacağıq. Biz Türkiyə - Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ona görə də Türkiyədə olan hər bir yeni nailiyyəti biz böyük iftixar hissi ilə qəbul edirik və Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsi üsün əlimizdən gələni edirik.

Mən Sizin hamınıza cansağlığı arzu edirəm. Türkiyəyə sülh, əmin-amanlıq və səadət arzulayıram.

Binə hava limanında Azərbaycan Prezidenti Heydər Əliyevin jurnalistlərə müsahibəsi

Heydər Əliyev: Hər şeyi televiziya vasitəsilə görmüsünüz, bilirsiniz. Mənim orada olduğum günlərdə Türkiyə televiziyası bu barədə geniş məlumatlar veribdir, bunlar respublikamızda yayımlanıbdır. Ona görə də əlavə məlumat verməyə ehtiyac yoxdur.

Sual: Cənab Prezident, Ankarada cənab Riçardsonla görüşünüzdə o bildirmişdir ki, "Amoko" şirkəti Bakı-Ceyhan marşrutunun əleyhinə çıxaraq belə hesab edir ki, Bakı-Supsa marşrutu daha əlverişlidir. Sizcə, dövlət başçılarının Ankarada imzaladıqları bəyannamə konsorsium iştirakçılarına təsir göstərəcəkdirmi?

Cavab: Mən bu gün İstanbuldan Bakıya yola düşərkən hava limanında Türkiyə televiziyalarının, qəzetlərinin, digər kütləvi informasiya vasitələrinin çoxsaylı nümayəndələri var idi. Məni Türkiyənin Baş naziri

Məsud Yılmaz yola salırdı. Mən hava limanına toplaşmış mətbuat işçiləri qarşısında Türkiyəyə bu səfərimlə, səyahətimlə əlaqədar bəyanat verdim.

Sizə də bildirmək istəyirəm ki, mənim bu ziyarətim çox əhəmiyyətli bir səfər idi. Çünki Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etmək Türkiyə üçün əziz olduğu kimi, Azərbaycan Respublikası, xalqı üçün də əzizdir. Buna görə də mən, birincisi, həmin yubiley mərasimlərində iştirak etməkdən çox məmnunam. Türkiyədə Azərbaycana əvvəllər olduğu kimi, indi də daim çox böyük diqqət, qayğı, hörmət göstərilir. Mən bunların hamısını həm hökumət, dövlət, həm də xalq tərəfindən bir daha hiss etdim. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycana böyük diqqəti, marağı və böyük məhəbbəti vardır. Mən bunu əvvəllər də hiss etmişdim. Bu səfər zamanı çox böyük kütləvi mərasimlər keçirildi, orada çoxlu insan iştirak edirdi. Mən bunları gördüm, hiss etdim.

Ümumiyyətlə, bu bayramlar çox gözəl keçdi, Türkiyə Cümhuriyyətinin 75 illik həyat yolunu yaxşı göstərdi. Dünyanın 75-dən çox ölkəsindən oraya nümayəndələr, bir çox ölkələrdən dövlət, hökumət başçıları gəlmişdilər. Bunlar hamısı Türkiyənin 75 ildə böyük inkişafını dünyaya bir daha nümayiş etdirdi.

Biz Türkiyə ilə dost, qardaş ölkə olaraq bu bayramların belə keçməsinə çox sevinirik. Şəxsən mən çox məmnunam ki, bu tədbirlərin hamısında iştirak etdim.

Bilirsiniz ki, bütün bunlarla yanaşı, orada Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Prezidentləri Bakı-Ceyhan boru xətti haqqında birgə bəyannamə imzaladılar. Bu bəyannaməni Amerika Birləşmiş Ştatlarının Enerci naziri cənab Riçardson da imzaladı. Bu da çox tarixi bir hadisədir. Çünki biz 1994-cü ilin sentyabr ayında birinci müqaviləni imzalayandan sonra, həmin müqaviləni imzalayarkən də, hasil ediləcək neftin ən əsas ixrac borusu olaraq Bakı-Ceyhan marşrutunu nəzərdə tutmuşduq. Ancaq bu müddətdə onun əleyhinə çıxanlar, mane olanlar və səmərəsiz olduğunu daim bildirənlər var idi. Çox vaxt belə bir fikir yaradılırdı ki, Bakı-Ceyhan xətti real bir şey deyil. Ona görə də birgə bəyannamənin imzalanması bütün bunların hamısına son qoydu və bəyan etdi ki, Bakı-Ceyhan boru xətti yaranacaqdır.

Mən Türkiyəyə getməmişdən bir gün əvvəl konsorsiumun nümayəndələrini qəbul etmişdim, onlarla danışmışdım. Onlar bunu mənə bildirmişdilər. Bu, mənə əvvəl də məlum idi. Mən onlara bildirdim ki, bu məlumat o qədər də inandırıcı deyildir. Mən Azərbaycan Dövlət Neft Şirkətinə göstəriş verdim ki, konsorsiumla, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə bu rəqəmləri 15 gün müddətində birgə araşdırsınlar və mənə birgə raport versinlər. Mən

onu gözləyirəm.

Onların verdikləri bu təkliflərə görə də sizin verdiyiniz bu sual meydana çıxır. Onlar bunu özləri üçün iqtisadi cəhətdən səmərəli hesab etmirlər. Ancaq birincisi, bu rəqəmlər hələ araşdırılacaqdır. Çünki onların özləri bir-iki il bundan əvvəl başqa rəqəmlər vermişdilər. İkincisi, Türkiyə ilə Azərbaycan arasında Bakı-Ceyhan boru xəttinin çəkilməsi barədə danışıqlar aparılır. Çünki əgər bu boru xəttinin məsafə cəhətdən yarısı Azərbaycan, Gürcüstan ərazisindən, - mən yuvarlaq olaraq deyirəm, tutaq ki, Azərbaycan ərazisindən 500 kilometr, təxminən o qədər də Gürcüstan ərazisindən - keçirsə, 1000 kilometri Türkiyə ərazisindən keçir. Ona görə də bu boru xəttinin keçmə şərtləri, onun vergiləri və iqtisadi cəhətdən başqa şərtləri müzakirə olunur. Bu məsələ Azərbaycan ilə Gürcüstan və Azərbaycan ilə Türkiyə arasında müzakirə edilir. Çünki Azərbaycan çıxarılan neftin sahibidir.

Biz nefti şübhəsiz ki, konsorsiumla birgə ixrac edəcəyik və indi ixrac edirik. Ona görə də buradan nə qədər qazanc götürəcəyimiz bizim üçün heç də xırda şey deyildir. Əgər konsorsium qazancı itirmək istəmirsə, biz qazancımızı itirməyi ondan da çox istəmirik. Çünki bu boru xətti onların dediyi kimi əgər baha olsa, onun iqtisadi çətinliyi həm onların, həm də bizim üzərimizə düşəcəkdir. Onlar deyirlər ki, guya bizim gəlirimiz azalacaqdır. Yəni "azalacaq" deyəndə, nəzərdə tutulduğundan az olacaqdır. Amma bu nə qədər həqiqətdir? Bunlar araşdırılmalıdır.

Bunların hamısını nəinki araşdırmaq, həm bu boru xəttinin yaranması, həm də onun iqtisadi cəhətdən səmərəli olması və ölkəmiz üçün ən əsası - Azərbaycanın nəzərdə tutulan gəlirlərinin əldə edilməsi bizim üçün əsas şərtdir. Bu şərtləri həyata keçirmək üçün danışıqlar aparılır. Azərbaycan Dövlət Neft Şirkəti, Türkiyənin Enerji nazirliyi və başqa şirkətlər bu danışıqları noyabrın 5-də İstanbulda davam etdirəcəklər. Bunların nəticəsində də bizdə son rəylər, təkliflər olacaqdır. Güman edirəm ki, bunlar hamısı normal olacaqdır.

Sual: Cənab Prezident, Ankara bəyannaməsinə Türkmənistanın imza atmamasını necə qiymətləndirirsiniz?

Cavab: Bunu Türkmənistandan soruşun.

Sual: Deyirlər ki, Rusiya Türkiyə və Azərbaycan arasındakı münasibətlərdən qorxuya düşəcəkdir.

Cavab: Rusiya heç bir şeydən qorxmur. Mən inanmıram ki, onlar qorxsunlar.

Sual: Cənab Prezident, sizin fikrinizjə, neft kəməri ilə bağlı bütün işlər hansı müddətə tamamlanar və nəhayət, qərar qəbul edilər?

Cavab: Mən bunun müddətini indi deyə bilmərəm. Artıq elə bir mərhələyə gəlib çatmışıq ki, biz siyasi iradəmizi bildirmişik və bəyannaməni imzalamışıq. İndi biz bunun iq-

tisadi cəhətini də hazırlayıb, son qərar qəbul etməliyik. Bu, uzun çəkməyəcəkdir.

Sual: Cənab Prezident, Türkmənistan Prezidenti Saparmurad Niyazov sizinlə görüşdə bildirmişdir ki, Xəzərin statusu ilə bağlı noyabrın 15-də görüş keçiriləcəkdir. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Saparmurad Niyazovla mənim çox səmimi görüşümüz oldu. Onu bizim televiziya çəkibdir, verəcək, özünüz görəcəksiniz. Görüşümüz çox yaxşı, mehriban oldu. Görüş zamanı belə nəticəyə gəldik, qərar qəbul etdik ki, Azərbaycan və Türkmənistan ekspertləri, Azərbaycan Dövlət Neft Şirkəti, Türkmənistan tərəfindən bu işlə məşğul olan şəxslər, Azərbaycanın və Türkmənistanın Xarici İşlər nazirləri qısa müddətdə, təxminən 15-20 gün ərzində danışıqlara yenidən başlamalıdırlar. Biz mübahisəli məsələləri aradan götürməliyik. Hər halda Saparmurad Niyazov bu görüşdən dərhal sonra mətbuat qarşısında geniş bir bəyanat verdi ki, Türkmənistan ilə Azərbaycan tarixən dost olub, biz dostuq, qardaşıq, bizim dostluğumuza heç kim mane ola bilməz. Kimlərsə bizi bir-birimizlə savaşdırmaq, yaxud küsdürmək istəyirlər. Biz nə küsərik, nə də savaşarıq. Biz dost olacağıq. O, belə sözlər deyibdir, bizim televiziya bunları çəkibdir. Siz bunların hamısını özünüz izləyə bilərsiniz.

Biz bunların nəticəsində qərara aldıq ki, yaxın vaxtlarda danışıqlar başlanacaq və o məsələləri həll edəcəyik. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin görkəmli elm və ictimai xadimi Ərdal İnönünü qəbul etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 2-də Prezident sarayında Türkiyənin görkəmli elm və ictimai xadimi Ərdal İnönünü qəbul etmişdir.

Dövlətimizin başçısı hörmətli qonağı səmimi salamlayaraq onunla yenidən görüşməsindən məmnun qaldığını söylədi.

Səmimi qəbul üçün təşəkkür edən Ərdal İnönü bildirdi ki, Bakıya Azərbaycan Elmlər Akademiyasının Prezidenti Fəraməz Maqsudovun dəvəti ilə gəlmişdir. Hörmətli qonaq dedi ki, siyasətdən ayrıldıqdan sonra atası İsmət İnönünü və özünün siyasi fəaliyyəti və həyatı barədə xatirələrini yazır, artıq iki cildi nəşr olunmuşdur. Həmin kitablar Türkiyədə və başqa ölkələrdə də maraqla qarşılanmışdır. Xatirə kitablarına Azərbaycanda maraq göstərilir və bununla bağlı o, Bakıya dəvət olunmuşdur. Ərdal İnönü əlavə etdi ki, Akademiyada alimlər qarşısında mühazirə də oxumuşdur. O, ayrıca vurğuladı ki, siyasətdən uzaqlaşmasına baxmayaraq, qardaş Azərbaycana yenə də xüsusi münasibət bəsləyir.

Hörmətli qonaq Azərbaycan Prezidenti Heydər Əliyevə müraciətlə dedi ki, mən Sizin fəaliyyətinizi diqqətlə izləyirəm və yenidən ölkənin başçısı seçilməyiniz münasibətilə Sizi təbrik edir, işinizdə daha böyük uğurlar arzulayıram.

Prezident Heydər Əliyev qonağa xatırlatdı ki, siz vaxtilə Türkiyə Baş nazirinin müavini olarkən Azərbaycan - Türkiyə əlaqələrinin, dostluğunun inkişafı üçün böyük işlər görmüsünüz. Sonralar hörmətli Süleyman Dəmirəldən sizi xəbər aldım, o isə bildirdi ki, siyasətdən uzaqlaşıb elmlə məşğul olursunuz. Siz fizika sahəsində alimsiniz və əsərləriniz var, amma hesab edirəm, həyatınız, siyasət barədə yazdığınız kitablar cəmiyyət üçün daha lazımlıdır. Çünki həm özünüz böyük siyasi fəaliyyət yolu keçmisiniz, ikincisi də, atanız görkəmli dövlət xadimi olubdur.

Dövlətimizin başçısı daha sonra dedi: Biz Türkiyə Cümhuriyyətinin 75 illiyini bayram etdik. Cümhuriyyətin banisi Mustafa Kamal Atatürkün ən yaxın davamçılarından biri İsmət Paşa olubdur. O, tarixi şəxsiyyətdir, ona görə onu dünyaya nə qədər çox tanıtsanız, bir o qədər çox iş görmüş olarsınız. Türkiyədə demokratiyanın inkişafında sizin özünüzün də böyük xidmətləriniz var.

Cənab Ərdal İnönü bildirdi ki, çapdan çıxmış əsərinin iki cildini Azərbaycan kirill əlifbası ilə nəşr etdirmək niyyətindədir.

Bununla əlaqədar Prezident Heydər Əliyev vurğuladı ki, həmin cildləri latın əlifbası ilə çap etmək lazımdır, çünki biz onu qəbul etmişik.

Dövlətimizin başçısı Türkiyə Cümhuriyyətinin 75 illiyinin bayram edilməsindən bir daha söhbət açaraq mərasimlərin çox gözəl keçdiyini vurğuladı. Eyni zamanda bildirdi ki, ən böyük nailiyyət Bakı-Ceyhan boru xətti haqqında Ankara bəyanaməsinin imzalanması oldu. Prezident Heydər Əliyev bunu çox böyük, tarixi hadisə kimi qiymətləndirdiyini bildirdi.

"Azərbaycan" qəzeti. 3 noyabr, 1998-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə səfirini qəbul etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 20-də Prezident sarayında Türkiyənin ölkəmizdəki səfirini Qədri Ecvet Tezcanı qəbul etmişdir.

Gərgin iş şəraitinə baxmayaraq vaxt ayırıb onu qəbul etdiyinə görə dövlətimizin başçısıa təşəkkür edən səfir ötən həftə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü Bakıda çox təntənəli surətdə qeyd etdiklərinə görə prezident Heydər Əliyevin şəxsində Yeni Azərbaycan Partiyasının (YAP) üzvlərinə dərin minnətdarlığını bildirdi. O, YAP-ın 6 illik yubileyində iştirakından məmnun olacağını söylədi və bu tədbirdə dost ölkədən millət vəkillərinin də iştirak edəcəyi

barədə məlumat verdi.

Türkiyə diplomatı həm Azərbaycan xalqının, həm də kütləvi informasiya vasitələrinin PKK terror təşkilatının başçısı Abdullah Öcalanın həbsi ilə həmrəyliyinin öz ölkəsində müsbət qarşılandığını nəzərə çarpdırdı.

Noyabrın 6-da Prezident Heydər Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin geniş iclasında ölkəmizin rəhbərinin proqram xarakterli nitqinin xalqımıza yeni bir güc verdiyini vurğulayan cənab Tezcan dedi: Cənab Prezident, Sizin söylədiyiniz fikirlər xarici ölkə nümayəndəsi kimi, bizə də böyük cəsarət vermişdir. Bu nitq Azərbaycanın gələcəyinə məzmunlu nitqiniz, verdiyiniz tapşırıqlar icra orqanlarına, partiyalara böyük bir dərs olmuşdur.

Səfir yaxın vaxtlarda Türkiyənin "Qızıl Ay" Cəmiyyətindən Azərbaycana bir neçə yüz min dollarlıq yardım gətirilib Ağcabədidə və Bərdədə müvəqqəti məskunlaşmış qaçqınlara çatdırılacağını bildirdi, öz ölkəsindən Bakıya həkimlər qrupunun gəldiyi barədə məlumat verdi, gələcəkdə yardımların davam etdiriləcəyini söylədi.

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə keçirilən böyük bayram şənliklərində iştirak etdiyini, ötən illər ərzində Türkiyənin keçdiyi yolu, əldə etdiyi nailiyyətləri, onun qüdrətli və əzəmətli dövlət olmasını dünyaya nümayiş etdirən həmin yubiley tədbirlərində iştirakından böyük şərəf və qürur hissi duyduğunu bildirən Prezident Heydər Əliyev Bakı-Ceyhan boru xətti haqqında da Ankara bəyannaməsinin imzalandığını xatırlatdı və dedi: Bu, bütün dünyaya səs salıbdır. Bilirsiniz ki, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev Vaşinqtondadır. O, neçə gündür orada, Konqresdə, Dövlət Departamentində, Ağ evdə, institutlarda, elmi tədqiqat mərkəzlərində görüşlər keçirir və məhz bu mövzu müzakirə olunur.

Yeni Azərbaycan Partiyasının Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etməsinin təbii hal olduğunu söyləyən respublikamızın rəhbəri YAP-ın yaradılmasının əsasını Türkiyə - Azərbaycan dostluğunun qoyduğunu vurğuladı və bu partiyanın fəaliyyətini yüksək qiymətləndirdiyinə görə səfirə təşəkkür etdi.

Türkiyənin ədalətli, hüquqi, demokratik dövlət olduğunu xüsusi qeyd edən ölkəmizin rəhbəri dedi: Türkiyə hökumətinin, dövlətinin PKK ilə mübarizəsi bizim hamımızın gözünün qabağındadır. Terrora qarşı heç kəs bir kəsi bağışlaya bilməz. İnsanlara, cəmiyyətə, dövlətə qarşı terror zəmanəmizin ən böyük cinayətidir. Mən bir Prezident kimi həmişə terroru pisləmişəm, öz etirazımı bildirmişəm və terrorun bağışlanmaz olduğunu bəyan etmişəm. Ona görə də terrorun qarşısı alınmalıdır. Biz yaxşı bilirik ki, Türkiyə PKK-nın terrorçu cinayətlərinin qarşısını al-

maq üçün nə qədər böyük işlər görüb və nə qədər şəhidlər veribdir. Ancaq təəssüf ki, bu terrorçular cinayətlərindən, vəhşiliklərindən əl çəkmirlər. Ona görə də biz, Azərbaycan xalqı Türkiyə ilə həmrəyik. Biz PKK-çılara, terrorçulara qarşı amansız mübarizəni davam etdirilməsinin tərəfdarıyıq. Onların başçısı Abdullah Öcalanın həbs olunmasını da böyük bir hadisə hesab edirik. Güman edirik ki, o, Türkiyəyə verilməlidir və Türkiyə hökuməti onun haqqında öz ölçüsünü götürməlidir.

Yeni Azərbaycan Partiyasının, ümumiyyətlə cəmiyyətimizin, mətbuatımızın bu məsələlərə münasibətinin hörmətli səfirə də aydın olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev dedi: Doğrudur, burada müxalifətdə olan bəzi adamlar bu işdən yalanlarla, böhtanlarla istifadə etmək istəyirlər. Bu, ən çirkin yoldur. Bilirsiniz, sağlam müxalifət gərək sağlam mübarizə aparsın. Cinayət olduğu halda Azərbaycanın hansısa bir dairəsini o cinayətə yapışdırmaqdan çirkin yol yoxdur. Ancaq nə etməli, bu, həyatımızın reallığıdır və güman edirəm, biz indiyə qədər bütün bunların öhdəsindən gəlmişik və bundan sonra da gələcəyik.

Prezident Heydər Əliyev noyabrın 6-da Nazirlər Kabinetinin geniş iclasında ölkəmizdə görülən işlərin, əldə edilən nailiyyətlərin, həmçinin nöqsan və çatışmazlıqların xalqa olduğu kimi çatdırıldığını və ciddi tədbirlər görüldüyünü bir daha xatırlatdı. Həmin iclasın nəticələri ilə əlaqədar bu günlərdə xüsusi qərar qəbul etdiyini və Türkiyənin iş adamları ilə yaxın vaxtlarda görüşəcəyini bildirdi.

Xarici ölkə sərmayəçilərinin ölkəmizdə iş görməsi üçün daha da əlverişli şərait yaradılmasının qərarda xüsusi qeyd olunduğunu xatırladan ölkəmizin başçısı görülən işləri izlədiyini, təhlil etdiyinə və qiymətləndirdiyinə görə cənab Qədri Ecvet Tezcana bir daha təşəkkür etdi və dedi: Bizim gördüyümüz işlər respublikamızın həyatının tələbatı ilə əlaqədardır. Biz bu işləri görürük və görəcəyik.

Qaçqınlar və məcburi köçkünlər probleminin çox ağır olduğunu vurğulayan dövlətimizin başçısı onların yaşayış səviyyəsini yaxşılaşdırmağın vacibliyini açıqladı, bu sahədə ciddi tədbirlər görüldüyü barədə məlumat verdi, Azərbaycana göstərilən humanitar yardımların bundan sonra da səmərəli istifadə olunacağından danışdı.

Türkiyə - Azərbaycan əlaqələrinin günü-gündən inkişaf etməsinə paxıllıq, qısqanclıq edənlərin, maneçilik törətmək istəyənlərin mövcudluğunu inkar etməyən Prezident Heydər Əliyev dedi ki, bunların heç biri bizim işimizə mane ola bilməz.

Respublikamızın rəhbəri hörmətli səfirin Xarici İşlər Nazirliyində Minsk qrupu həmsədrlərinin Ermənistan - Azərbaycan münaqişəsinin həll edilməsi ilə əlaqədar verdiyi

son təkliflərlə tanışlığı barədə məlumatı olduğunu da bildirdi.

"Azərbaycan" qəzeti. 21 noyabr, 1998-ci il.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Hava Qüvvələrinin komandanını qəbul etmişdir

Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 24-də Prezident Sarayında Türkiyə Cümhuriyyəti Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı İlhan Kılıncı qəbul etmişdir.

Hörmətli qonağı səmimiyyətlə salamlayan, onun və həmkarlarının bu ziyarətindən çox məmnun olduğunu söyləyən dövlətimizin başçısı Heydər Əliyev Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin belə mötəbər görüşlər və danışıqlarla günü-gündən möhkəmləndiyini, qonaqların Azərbaycanla tanışlığının, burada gördükləri və görəcəkləri işlərin ölkələrimiz arasındakı əlaqələrin inkişafına xidmət etdiyini bildirdi.

Onları qonaqpərvərliklə qəbul etdiyinə görə Prezident Heydər Əliyevə təşəkkür edən ordu generalı İlhan Kılınc Türkiyənin Hərbi Hava Qüvvələri heyəti adından qardaş Azərbaycanın Silahlı Qüvvələrinə salamlarını çatdırdı. O, respublikamıza ilk dəfə gəldiyini və bundan çox məmnun olduğunu, özünü öz evindəki kimi hiss etdiyini bildirdi, Bakıda keçirdiyi görüşlər barədə məlumat verdi, Azərbaycan Silahlı Qüvvələri ilə təhsil və digər işlər barədə danışdı, gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyini vurğuladı.

Ölkələrimiz arasında bütün əlaqələrin inkişaf etdiyini nəzərə çarpdıran respublikamızın rəhbəri Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə keçirilən bayram şənliklərində iştirakını, həmin vaxt hipodromda Türkiyə Hava Qüvvələrinin öz gücünü nümayiş etdirməsini müşahidə etdiyini, oktyabrın 29-da Ankarada beş ölkənin Prezidentləri tərəfindən Bakı-Ceyhan neft boru xətti haqqında bəyannamənin imzalandığını xatırlatdı və bunun gələcək əlaqələrimiz üçün əhəmiyyətli olduğunu bildirdi.

Böyük, qüdrətli dövlət kimi güclü orduya, Hərbi Hava Qüvvələrinə malik olan Türkiyədə özümüzü öz evimizdəki kimi hiss etdiyimizi bildirən dövlətimizin başçısı Heydər Əliyev dedi: çünki bizim dilimiz, adət-ənənəmiz eynidir. Ona görə də bunu siz də burada hiss edirsiniz, biz də Türkiyəyə gələndə hiss edirik. Bu da təbiidir. Bizim köklərimiz eynidir. Vaxtilə bir-birimizdən ayrı olmuşuq, amma indi birləşmişik, bir-birimizə yaxınıq.

Türkiyə Prezidenti Süleyman Dəmirəlin Prezident Heydər Əliyevə xüsusi hörmət bəslədiyini vurğulayan dost ölkənin Hərbi Hava qüvvələrinin komandanı dedi: Çox hörmətli Prezident, Türkiyədə Sizin həqiqətən xüsusi şəxsi yeriniz vardır. Azərbaycan çox gözəl inkişaf edir. Biz Azərbaycanın yüksələcəyinə əminik. 75 il əvvəl Atatürk bu işlərə başladığı zaman hər kəs zəlalət içərisində idi, heç bir şey yox idi. Amma indi bu günə gəlmişik və irəliləmək istəyirik. Azərbaycan da yoxluqdan varlığa gedəcəkdir. Ölkənizin vətəndaşları, torpağı, hər şeyi çox gözəldir. Allaha dua edirik ki, Azərbaycan daha da yüksəlsin.

Hörmətli qonağın söylədiyi fikirlərdən razı qaldığını bildirən Prezident Heydər Əliyev dedi: Siz bu yolu 75 ildə keçmisiniz. Biz də bu yolu keçməyə başlamışıq və bu yolu keçəcəyik. Mən dəfələrlə demişəm ki, Türkiyə Cümhuriyyətinin 75 illik tarixi bizim üçün örnəkdir. Biz həmişə bundan istifadə edirik.

Ölkəmizin rəhbəri Prezident Süleyman Dəmirəllə dostluğunun 30 illik tarixi olduğunu nəzərə çarpdırdı, bir-birinə böyük hörmətlə yanaşdıqlarını söylədi və dedi: Cənab Süleyman Dəmirəl Türkiyə üçün çox böyük xidmətlər göstərmiş adamdır. Onun Türkiyənin siyasi həyatında böyük rolu və təcrübəsi vardır. Bütün Azərbaycan xalqı Prezident Süleyman Dəmirələ xüsusi hörmət bəsləyir. O, sizin ölkəniz üçün indiki zamanda böyük bir nemətdir, töhfədir, sərvətdir. Bir sözlə, dostluq əlaqələrimiz inkişaf edir və biz də sizinlə birlikdə bunları daha da inkişaf etdirməliyik.

"Azərbaycan" qəzeti. 25 noyabr 1998-ci il.

MÜNDƏRİCAT

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə, Türk xalqı və onun liderləri haqqında 7

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə ilə əlaqələrimizi möhkəmləndirir və genişləndirir 17

Çıxışlır, müsahibələr və görüşlər (1993-1998-ci illər) 17

3 oktyabr 1993-cü il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Prezident seçilməsi münasibəti ilə səmimi təbriklər 24

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə I rəsmi səfəri 31

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə I işgüzar səfəri 86

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə II işgüzar səfəri 110

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə III işgüzar səfəri 134

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərin Azərbaycana işgüzar səfəri 171

Türkiyə Cümhuriyyətinin Baş naziri xanım Tansu Çillərin Azərbaycana rəsmi səfəri 179

Türkiyə Cümhuriyyəti Prezidenti Süleyman Dəmirəlin Azərbaycana I rəsmi səfəri 218

Türkiyə Cümhuriyyətinin Baş naziri Məsud Yılmazın Azərbaycana rəsmi səfəri 256

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə IV işgüzar səfəri 360

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə II rəsmi səfəri 364

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə V işgüzar səfəri 503

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə VI işgüzar səfəri 530

Prezident Heydər Əliyevin yenidən Prezident seçilməsi münasibətilə səmimi təbriklər.....542

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə VII işgüzar səfəri 550

Kitabda "AzərTAC"-ın, "Qayıdış. 1990-1993", "Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev" I cild və N.Cəfərovun "Heydər Əliyev" kitablarındakı materiallardan istifadə olunmuşdur.

"Şərq Araşdırmalar Mərkəzi"nin nəşri
№ 7

"HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ"
Türkiyə
(şəkilli)

Naşiri	Hikmət HÜSEYNOV
Nəşriyyatın direktoru	Eldar ƏLİYEV
Mətbəənin direktoru	Səhraf MUSTAFAYEV
Fotoqraf	Rafiq BAĞIROV
Rəssamı	Firuzə SULTANZADƏ
Texniki redaktor	Fərid KƏRİMOV
Redaktor	Barat TALIBOV

Yığılmağa verilib 13.10.2004. Çapa imzalanıb 03.01.2005.
Formatı 70x100 1/16. Ş.ç. v. 37. Sifariş № 202.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç., 2a